Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2004

I hissə

5626

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2009

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:
XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2004. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 816 səh.

ISBN 978-9952-8129-6-1

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin dördüncü buraxılışı 2004-cü ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir.

Məcmuənin birinci hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin dördüncü buraxılışı 2004-cü ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir. Məcmuənin birinci hissəsi xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının rəsmi məlumatlarını özündə əks etdirir.

2004-cü ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2004-cü il iyulun 27-də keçirilən Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin birinci müşavirəsində ölkəmizin başçısı xarici siyasət sahəsində qarşıda duran prioritet vəzifələri diqqətə çatdırmış, bir sıra yeni vəzifələr müəyyənləşdirmişdir.

İl ərzində Azərbaycan diplomatiyasının fəaliyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə yönəlmişdir. Bütün beynəlxalq toplantılarda ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünü önə çəkən Prezident İlham Əliyev 2004-cü il sentyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edərək bu məsələni BMT-nin ali tribunasından bir daha dünyanın diqqətinə çatdırmışdır. 2004-cü il Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində görüşlərin fəallaşması ilə əlamətdar olmuşdur. 29 oktyabr 2004-cü il tarixində BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara aldı. 11 noyabr 2004-cü il tarixində Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə BMT Baş Məclisinə təqdim olundu. Gündəlikdəki bu bəndin BMT Baş Məclisində müzakirə olunması Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşma məsələsinə diqqətin cəlb edilməsi, eləcə də bu təhlükəli təcrübəyə son qoyulması üçün təcili tədbirlərin görülməsinə başlanmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, münaqişə və onun həlli ilə bağlı məsələlər 2004-cü ildə bir sıra beynəlxalq təşkilatların diqqət yetirdikləri mövzu olmuşdur. Bu baxımdan həmin məsələlərə Avropa Şurasının Parlament Assambleyasında baxılmasını qeyd etmək lazımdır. Noyabr ayının 17-də ATƏT PA Siyasi Komitəsinin iclasında britaniyalı deputat Devid Atkinsonun Dağlıq Qarabağa dair məruzəsinin müzakirəsi keçirilmişdir.

XİN və Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri azərbaycanlı qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətinin yüngülləşdirilməsi istiqamətində müvafiq beynəlxalq formatlar çərçivəsində lazımi səylər göstərilməsini davam etdirmişlər. Bununla əlaqədar BMT-nin qaçqınlar üzrə Ali komissarı Ruud Lübbersin Azərbaycana səfərini qeyd etmək lazımdır.

BMT-nin seçkili strukturlarında Azərbaycanın daha yaxşı təmsil olunmasını təmin etmək üçün uğurlu iş aparılmış, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi onun iki əsas orqanının - Baş Məclisin, İqtisadi və Sosial Şurasının vitse-prezidenti vəzifəsinə seçilmişdir

Azərbaycan Avropa və Avratlantik inteqrasiyası istiqamətində irəliləyərək, NATO və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmişdir. Prezident İlham Əliyev Bratislavada, Strasburq və Brüsseldəki proqram çıxışlarında Azərbaycanın Avropa dəyərlərinə sadiq-

liyini və Avropada təhlükəsizliyin, azad bazar və demokratiyanın vahid məkanına daxil olmağa yönəldilmiş siyasi xəttin dəyişməzliyini təsdiq etmişdir.

2004-cü ilin mayında NATO qərargahında Azərbaycan Prezidenti NATO-nun təcrübəsindən və Alyansla inteqrasiya səviyyəsində qarşılıqlı fəaliyyət imkanlarından istifadə etməklə, təhlükəsizlik strukturunun inkişafına yönəldilmiş Fərdi tərəfdaşlıq planını təqdim etmişdir. Azərbaycan dövləti başçısının 2004-cü ilin iyununda NATO-nun İstanbul zirvə toplantısında iştirakını və çıxışını, habelə NATO-nun baş katibi Yaap de Hoop Sxefferin noyabrda Azərbaycana səfəri zamanı əməkdaşlığın bir sıra mühüm məsələlərinin onunla müzakirəsini də qeyd etmək lazımdır.

17-18 iyun 2004-cü ildə Avropa Komissiyasının tövsiyəsi ilə Azərbaycan və digər iki Cənubi Qafqaz respublikası Avropa Birliyinin Avropa Qonşuluq Siyasətinə daxil edilib. Bu yeni layihə əsasında Avropa Birliyi və Azərbaycan arasında iqtisadi inteqrasiya, siyasi əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulmuşdur.

İslam dünyasının bir hissəsi olan Azərbaycan Avropa istiqaməti ilə yanaşı, İslam Konfransı Təşkilatı (İKT) ilə də sıx əməkdaşlığı genişləndirib, onun fəaliyyətində yaxından iştirak etmişdir. 2004-cü il iyun ayının 14-16-da İstanbulda keçirilmiş İKT xarici işlər nazirlərinin 31-ci iclasında bu təşkilat erməni təcavüzünü yenə də pisləmiş, öz prinsipial mövqeyini və Azərbaycanla həmrəyliyini bir daha təsdiqləmişdir. Azərbaycan İKT ölkələrinin vətəndaş cəmiyyətləri arasında dialoqun inkişafına töhfə verərək, İslam Konfransı Gənclər Forumunun yaradılması təşəbbüsünü irəli sürmüş, dekabrda Bakıda onun təsis yığıncağı keçirilmişdir.

Azərbaycan qloballaşma şəraitində beynəlxalq ticarət-iqtisadi və kommunikasiya əlaqələri sistemində öz layiqli yerini tutmağa və möhkəmləndirməyə çalışaraq, Dünya Ticarət Təşkilatına daxil olmaq məsələsinə dair danışıqlar prosesini il ərzində davam etdirmiş, Dünya Poçt İttifaqının sentyabrda Buxarestdə keçirilən 23-cü konqresində prinsipial qərarlar çıxarılmasına nail olmuş, habelə noyabr ayında Bakıda Qlobal İnformasiya Kommunikasiya Texnologiyaları Konfransı keçirmişdir.

Azərbaycan regional təşkilatlar çərçivəsində aktiv fəaliyyət göstərmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin sədrliyi dövründə Azərbaycan QİƏT ölkələri arasında əməkdaşlığın daha da genişlənməsinə yönəldilmiş bir sıra təşəbbüslər irəli sürmüş, habelə nazirlərin dörd görüşünə ev sahibliyi etmişdir. Azərbaycan nümayəndəsi bu beynəlxalq təşkilatın Baş katibinin müavini seçilmişdir.

2004-cü ildə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi cəhətdən dövlət və hökumət başçıları, parlament rəhbərləri və xarici işlər nazirləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər olmuş, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları keçirilmiş, bunların gedişində qarşılıqlı maraq doğuran genişəhatəli məsələlər barədə fikir mübadiləsi aparılmış və əməkdaşlığın müqavilə-hüquqi bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. 2004-cü ildə Prezident İlham Əliyev Fransaya, Rusiyaya, Qazaxıstana, Özbəkistana, Türkiyəyə, Ukraynaya, Gürcüstana, Almaniyaya, Rumıniyaya və Qətərə səfər etmişdir. Bütün xarici səfərləri zamanı apardığı ikitərəfli və çoxtərəfli danışıqlar zamanı dövlət başçımız Azərbaycanın milli maraqlarına uyğun müqavilələr imzalamış, ölkənin beynəlxalq nüfuzunun artmasına xidmət edən bəyanatlar səsləndirmişdir. İl ərzində Azərbaycan Macarıstan, Yunanıstan, Hindistan, Kanada, Küveyt, Polşa və İsveçrədə səfirliklərini, habelə İranda (Təbriz), Rusiyada (Sankt-Peterburq) və Türkiyədə (Qars) baş konsulluqlarını açmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

2003-cü ildə Azərbaycan uğurla inkişaf etmişdir. Ölkəmiz bütün sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın beynəlxalq aləmdə mövqeləri möhkəmlənmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız güclənmişdir. İkitərəfli münasibətlərdə, regional əməkdaşlıq sahəsində böyük uğurlar əldə olunmuşdur. Bu bizə imkan verir ki, Azərbaycan dünya birliyində daha möhkəm və güclü yer tuta bilsin. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

İqtisadi sahədə ölkəmiz böyük uğurlar əldə etmişdir. İqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsul 11 faiz artmışdır. İstehsal sahələrində ümumi artım 13 faiz təşkil etmişdir, sərmayə qoyuluşu prosesi davam edir. Heç kəs üçün sirr deyil ki, sərmayə qoyuluşu baxımından Azərbaycan nəinki regionda, bütün MDB-də, Şərqi və Mərkəzi Avropada liderliyi saxlayır. Adambaşına düşən xarici sərmayənin həcminə görə ölkəmiz bu mövqeyini saxlamış və daha da möhkəmləndirmişdir. 2003-cü ildə bütün mənbələrdən ölkəmizin iqtisadiyyatına 3 milyard 200 milyon dollar sərmayə qoyulmuşdur. Bu proses davam edir və bizə imkan verir ki, Azərbaycanda yeni iş yerləri açılsın, yeni istehsal sahələri, infrastruktur yaradılsın. Bu meyllər gələcəkdə də davam edəcək və böyük həcmdə sərmayə qoyuluşu təmin olunacaqdır.

1994-cü ildən başlayaraq Azərbaycanda neft strategiyası uğurla həyata keçirilir. Heydər Əliyevin təşəbbüsü ilə başlanılmış bu strategiya öz gözəl nəticələrini verməkdədir. Artıq neft strategiyasının əsas mərhələsi başlanmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisi uğurla davam etdirilir və yaxın gələcəkdə başa çatdırılacaqdır. Azərbaycan nefti böyük həcmdə dünya bazarlarına göndəriləcəkdir. Bu bizə imkan verəcəkdir ki, ölkəmizin büdcəsinə və Neft Fonduna böyük həcmdə vəsait daxil olsun. Bu da öz növbəsində Azərbaycanın hərtərəfli inkişafına gözəl şərait yaradacaqdır.

Sosial sahədə böyük uğurlar vardır. Bu sahə daim rəhbərliyin diqqət mərkəzindədir. 2003-cü ildə bu istiqamətdə böyük addımlar atılmışdır. Heydər Əliyevin Fərmanları ilə büdcədən maliyyələşən təşkilatlarda çalışan 1 milyon 200 min insan öz həyat səviyyəsini yaxşılaşdırmışdır. Onların əmək haqları 50 faiz artırılmış, təqaüdçülərin pensiyaları 40 faiz qaldırılmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcək, sosial proqramlar həyata keçiriləcəkdir. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

Eyni zamanda, sosial cəhətdən ən az müdafiə olunan qaçqınların, məcburi köçkünlərin yaşayış səviyyəsi yaxşılaşmışdır. Prezident Heydər Əliyevin Fərmanları ilə böyük sayda qaçqın və məcburi köçkün yeni qəsəbələrə köçürülmüşdür, onlar üçün yeni şəhərciklər və qəsəbələr salınmışdır. Biz bir neçə ay bundan əvvəl Biləsuvar rayonunun ərazisində salınmış qəsəbənin açılışında iştirak etmişdik. Bu siyasət davam edəcəkdir. Mən öz çıxışlarımda dəfələrlə bildirdiyim kimi, fəaliyyətimin əsas istiqamətlərindən biri ondan ibarət olacaqdır ki, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın və məcburi köçkünlər normal şəraitlə təmin olunsun, ölkəmizdə bir dənə də çadır şəhərciyi qalmasın.

Artıq bununla əlaqədar proqram hazırlanır, yaxın zamanlarda bu proqram təqdim ediləcək və onun icrası təşkil olunacaqdır.

2003-cü ildə Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Bu, hər bir ölkə üçün çox mühüm bir hadisədir. Ölkənin gələcəyini müəyyən edən mühüm bir hadisə olan bu seçkilərdə Azərbaycan xalqı bir daha göstərdi ki, o, on il bundan əvvəl seçdiyi yolla getmək əzmində və arzusundadır. On il bundan əvvəl xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdı. Əgər o, qayıtmasaydı, ölkəmiz çox böyük fəlakətlərlə üzləşə bilərdi. Bu illər ərzində aparılan siyasətin nəticəsində Azərbaycan hərtərəfli inkişaf etdi, qüdrətli dövlətə çevrildi. Azərbaycanın müstəqilliyi əbədi və dönməz oldu. 2003-cü ildə keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı yenidən bu siyasətə səs vermişdir. Mən bu etimadı yüksək qiymətləndirirəm. Bir daha bu fürsətdən istifadə edərək, mənə inandığına görə, mənə etibar etdiyinə görə bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Bir daha söz verirəm ki, mən bu etimadı doğruldacağam, xalqa ləyaqətlə xidmət edəcəyəm.

2003-cü il, eyni zamanda, ölkəmiz və xalqımız üçün çox ağır il olmuşdur. Bu ildə xalqımız öz liderini itirmişdir. Ümummilli liderimiz Heydər Əliyev dünyasını dəyişmişdir. Bu, hamımız üçün böyük faciədir, böyük dərddir.

Ancaq bu faciə bizi ruhdan salmamalıdır. Biz daha da sıx birləşməliyik, Heydər Əliyevin qoyduğu yolla getməliyik, onun başladığı işləri davam etdirməli və başa çatdırmalıyıq. Mən əminəm ki, belə də olacaqdır. Dekabrın 15-də onun xatirəsinə göstərilən böyük hörmət və ehtiram bir daha göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, qüdrətli xalqdır. Biz hamımız birlikdə bu faciəni də yaşamaq məcburiyyətindəyik. Biz bunu edəcəyik, daha da sıx birləşərək ölkəmizi daha da gücləndirəcəyik. Heydər Əliyevin istədiyi səviyyədə, onun qoyduğu yolla gedəcəyik və əminəm ki, bu yol bizə böyük xoşbəxtlik gətirəcəkdir.

2004-cü il ölkəmiz üçün çox mühüm bir il olacaqdır. Azərbaycanda həyata keçirilən tədbirlər davam etdiriləcəkdir. İqtisadi baxımdan 2004-cü il bizim üçün çox önəmli olacaqdır. Bu ildə Azərbaycanın gələcək iqtisadi potensialını xeyli dərəcədə müəyyən edəcək Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilib istifadəyə veriləcəkdir. 2004-cü ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin həyata keçirilməsi istiqamətində böyük addımlar atılacaqdır. Yoxsulluqla mübarizə davam etdiriləcəkdir. Yeni iş yerlərinin açılması istiqamətində əməli tədbirlər görüləcəkdir.

Bütün bu görüləcək işlər bizə imkan verəcəkdir ki, Azərbaycan daha da güclənsin və ölkəmiz daha yüksək pilləyə qalxa bilsin. Mən əminəm ki, biz hamımız birlikdə qarşıda duran bütün məqsədlərə nail olacağıq.

Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan ordusu güclü bir ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin.

2004-cü ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində də yeni mərhələ başlana bilər. Biz ümid edirik ki, ATƏT-in Minsk qrupu

bu məsələ ilə daha ciddi məşğul olacaq, beynəlxalq ictimaiyyət işğalçıya daha güclü təzyiq göstərəcək və haqq-ədalət öz yerini tapacaqdır. Bu istiqamətdə Azərbaycanın siyasəti dəyişməz olaraq qalır. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm və bir daha bildirirəm ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında öz həllini tapa bilər. İşğal olunmuş torpaqlar azad olunmalıdır, bir milyon qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu münaqişə ancaq bu prinsiplər əsasında öz həllini tapa bilər. Biz ümidvarıq ki, beynəlxalq ictimaiyyət, dünyanın aparıcı dövlətləri, habelə Minsk qrupunun həmsədrləri bu istiqamətdə daha da fəal və ədalətli fəaliyyət göstərəcəklər.

Əziz dostlar!

Bu gün, eyni zamanda, Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bu münasibətlə mən sizi təbrik edirəm, dünyada yaşayan bütün azərbaycanlıları həmrəyliyə, birliyə dəvət edirəm.

Əziz həmvətənlər!

Əziz xanımlar və cənablar, bacılar və qardaşlar!

2003-cü il arxada qalır. Qarşıda bizi böyük işlər gözləyir. Mən sizin hamınıza bu işlərdə uğurlar arzulayıram. Hamınıza xoşbəxtlik, cansağlığı, ailə səadəti arzulayıram.

Yeni iliniz mübarək olsun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Prezident sarayında Türkiyə Respublikasının xarici işlər naziri və Baş nazirin müavini Abdullah Gülü və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan Azərbaycan dövlətinin başçısı İlham Əliyev dedi:

- Hörmətli cənab nazir!

Hörmətli qonaqlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri uğurla davam edir. Ölkələrimiz bütün sahələrdə sıx əməkdaşlıq edirlər. Bütün sahələrdə - siyasi, iqtisadi, hərbi, mədəni əməkdaşlıq günü-gündən güclənir və bu bizi çox sevindirir.

Azərbaycan tarixinin ən çətin dövrlərində Türkiyə daim bizim yanımızda olmuşdur. Biz bu dəstəyi hər zaman hiss etmişik və bu gün də hiss edirik. Əmin ola bilərsiniz ki, Azərbaycan da daim Türkiyənin yanında olacaqdır.

Azərbaycan üçün və bütün region üçün ən böyük və ən ciddi problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında da biz daim Türkiyənin dəstəyini hiss etmişik və edirik. Türkiyənin mövqeyi ədalətlidir və biz bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun da öz fəaliyyətində ciddi dönüş yaratmasını və münaqişənin ədalətli, beynəlxalq hüquq normaları əsasında həlli istiqa-

mətində böyük səylər göstərməsini istəyirik. Azərbaycanın zəbt edilmiş torpaqları işğalçılardan azad olunmalı, bir milyona yaxın qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır.

Mən bilirəm ki, siz burada olduğunuz müddətdə çoxlu görüşlər keçirmisiniz. Bu görüşlər faydalı olmuşdur. Eyni zamanda, mən Ankaraya etdiyim səfəri məmnunluq hissi ilə xatırlayıram. Orada keçirdiyim görüşlər ölkələrimiz üçün çox əhəmiyyətlidir. Əminəm ki, bu görüşlər bundan sonra da davam edəcəkdir, biz daim məsləhətləşmələr aparacağıq və bu görüşlərdə bütün məsələləri müzakirə edəcəyik.

Bir daha sizi salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, sizin bu səfəriniz də çox uğurlu keçəcək, ölkələrimiz bundan sonra bir-birinə daha yaxın olacaqdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən Türkiyənin xarici işlər naziri və Baş nazirin müavini Abdullah Gül dedi:

- Hörmətli Prezident, hökumətimiz adından bir daha Sizi bu yüksək vəzifəyə seçilməyiniz münasibətilə təbrik edirik və uğurlar diləyirik. Azərbaycanın önündə açılan bu yeni səhifənin ölkəniz, şəxsən Sizin üçün və bütün türk dünyası üçün xeyirli və uğurlu olmasını arzulayırıq.

İtirdiyimiz və sadəcə, Azərbaycanın deyil, bütün türk dünyasının ən görkəmli dövlət adamlarından, çox dəyərli insanlarından biri olan Heydər Əliyevə bir daha Allahdan rəmət diləyirik və sizlərə başsağlığı veririk. Şübhəsiz ki, onun göstərdiyi xidmətlər daim anılacaq, Azərbaycanın yeni dövründə də ölkənizi irəli aparacaq və liderliyiniz dövründə Sizə yardımçı olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələrini anlatmağa heç də ehtiyac yoxdur. Bu, təbii olan bir şeydir və bunu ən gözəl şəkildə rəhmətlik Prezident, hörmətli Heydər Əliyev ifadə etmişdir. Biz bir millətik, amma ayrı-ayrı dövlətlərimiz vardır. İndi bu ayrı-ayrı dövlətlərimizi daha güclü və bu dövlətlərdə yaşayan millətimizi daha xoşbəxt, daha inkişaf etmiş və daha yüksəlmiş bir vəziyyətə gətirmək üçün əməkdaşlığımızı gücləndirmək əzmindəyik. Keçmişdə gördüyümüz işlər məhz bu istiqamətdə olmuşdur. Çox səmərəli, faydalı və əhəmiyyətli görüşlər keçirilmişdir.

Bildiyiniz kimi, Qarabağ problemi təkcə Azərbaycanın deyil, həm də bizim problemimizdir. Bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və sülh yolu ilə həll edilməsi üçün səylər göstərilməkdədir. Ümid edirik ki, bizim göstərdiyimiz bu xoş niyyəti qarşı tərəf də göstərəcəkdir və bütün dünya bu münaqişəni sülh yolu ilə nizama salmaq üçün ədalətli və tərəfsiz şəkildə kömək edəcək və Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Bu istiqamətdə Türkiyə əlindən gələn hər cür köməyi göstərəcəkdir. Buna heç bir şübhə olmamalıdır.

Mən hörmətli Prezidentimiz Əhməd Necdət Sezərin də Yeni il arzularını və salamlarını çatdırıram. Sizləri Türkiyədə görməkdən çox böyük xoşbəxtlik duyacağıq. Təkcə Prezidentimiz və hökumətimiz deyil, bütün türk xalqı bundan məmnun olacaqdır. Bu səfərin ən qısa zamanda və Sizə münasib olan bir vaxtda həyata keçiriləcəyinə inanırıq.

Bir daha bu yüksək vəzifənizdə Sizə uğurlar diləyirik. Burada bir daha Azərbaycan xalqının xoşbəxt gələcəyinə inam ifadə etmək istəyirik.

İLHAM ƏLİYEV: Çox sağ olun. Təşəkkür edirəm. Eyni zamanda Sizdən də rica edirəm ki, mənim də səmimi salamlarımı hörmətli Prezident Əhməd Necdət Sezərə və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Mən bu dəvətə görə də Sizə minnətdaram və böyük məmnuniyyətlə yaxın zamanlarda qardaş ölkəyə səfər edəcəyəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Prezident sarayında İran İslam Respublikası xarici işlər nazirinin birinci müavini Möhsün Əminzadəni və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi:

- Hörmətli qonaqlar, mən sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İlk növbədə, Kirman vilayətində, Bəm şəhərində baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar bütün İran xalqına, həlak olanların qohumlarına, yaxınlarına başsağlığı verirəm. Allah onlara rəhmət eləsin. Bu dəhşətli təbii fəlakət bizim hamımızı kədərləndirdi və sarsıtdı. Amma eyni zamanda, bir daha göstərdi ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır. Azərbaycan dərhal öz köməyini təklif etdi, bizim mütəxəssislərimiz oraya getdilər. Biz hamımız bir daha gördük ki, çətin günlərdə bir-birimizə kömək edirik, bir-birimizə arxa oluruq.

Ümumiyyətlə, ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. Xüsusilə Azərbaycanın ümummilli lideri Prezident Heydər Əliyevin 2002-ci ilin may ayında İrana rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxıbdır. Biz də çalışmalıyıq ki, bu münasibətləri daha da inkişaf etdirək, İranla Azərbaycan arasında olan dostluq əlaqələrini genişləndirək. Siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığımız çox uğurludur.

Azərbaycan üçün, bütün region üçün ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində də biz İranın dəstəyini daim görürük. Azərbaycanın ədalətli mövqeyi beynəlxalq təşkilatlarda İran tərəfindən dəstəklənir və mən buna görə sizə, İran rəhbərliyinə, bütün İran xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Ədalət bərpa olunmalıdır, Azərbaycanın işğal olunmuş torpaqları azad olunmalıdır, bir milyon qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Mən ümid edirəm ki, bilavasitə bu məsələ ilə məşğul olan qurumlar, ölkələr və o cümlədən regiondakı ölkələr bu istiqamətdə öz səylərini bundan sonra da göstərəcəklər və bu münaqişə tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır.

İqtisadi sahədə də münasibətlərimiz inkişaf edir. Azərbaycan Şimal-Cənub dəhlizi layihəsində də fəal iştirak etmək niyyətindədir və mən bilirəm ki, bu məsələdə də İranın mövqeyi müsbətdir. Ölkələrimiz arasında enerji mübadiləsi aparılır və hər iki ölkə bundan faydalanır. Mən bilirəm ki, indi görülən işlər, gələcəkdə görüləcək işlər nəticəsində bu mübadilənin həcmi artacaqdır. Beləliklə, həm İranın, həm də Azərbaycanın tələbatları daha da böyük həcmdə ödəniləcəkdir.

Bakı-Astara avtomobil yolunun bərpası, daha doğrusu, yenidən qurulması istiqamətində

də işlər görülür. Əminəm ki, yaxın gələcəkdə bu istiqamətdə də əməli addımlar atılacaqdır. Bir sözlə, siyasi iradə olan yerdə qarşımızda duran bütün məsələlər öz müsbət həllini tapa bilər və mən əminəm ki, belə də olacaqdır. Bizim münasibətlərimiz bundan sonra da uğurla inkişaf edəcəkdir.

Vaxt ayırıb onu qəbul etdiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən İranın xarici işlər nazirinin birinci müavini Möhsün Əminzadə dedi:

- Möhtərəm cənab Prezident, mən söylədiyiniz fikirlərə görə dərin təşəkkürümü bildirirəm. Mən bilirəm ki, başınız çox qarışıqdır, müxtəlif problemlərin həlli ilə məşğulsunuz. Bu səbəbdən vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

İcazə verin, ilk öncə, İran Prezidenti cənab Seyid Məhəmməd Xatəminin salamlarını Sizə yetirim. Mənə tapşırıblar ki, Sizi İran İslam Respublikasına səfərə dəvət edim. İran prezidentinin niyyəti var idi ki, cənab Prezident Heydər Əliyevin sağlığında Azərbaycana səfər etsin. Amma bu, qismət olmadı. Lakin əmindir ki, münasib bir vaxtda Azərbaycana səfər edəcəkdir. Biz ümid edirik ki, bu yeni ildə həm Sizin İrana səfərinizin, həm də İran Prezidentinin Azərbaycana səfərinin şahidi olacağıq. İki ölkənin əlaqələri bizi vadar edir ki, bu səfərləri həyata keçirək.

Mən özümə borc bilirəm ki, Azərbaycanın milli lideri cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə və Azərbaycan xalqına başsağlığı verim.

Bu, mənim Azərbaycana üçüncü səfərimdir. İlk səfərimi təqribən bir il bundan öncə etmişdim. Mən çox iftixarla, qürurla deyə bilərəm ki, həmin bu binada bir il əvvəl mən möhtərəm Heydər Əliyev ilə görüşmüşdüm. O, mənimlə bir saata yaxın çox səmimilik-lə söhbət etdi və dedi ki, çalışıram, iki ölkə arasındakı əlaqələri, əməkdaşlığı daha da genişləndirək. Çox çalışırdı ki, bu əlaqələr genişlənsin. Yadımdadır, dedi ki, bizim çox vaxtımız yoxdur, qısa vaxtda bütün məsələləri həll etməliyik.

Biz bunu hiss edirik və özümüzü borclu sayırıq ki, onun buyurduğu həmin yolu keçək və qarşımızda olan vəzifələri yerinə yetirək. Prezident Heydər Əliyevin ömrünün son illəri İran-Azərbaycan əlaqələrinin daha rövnəq tapmış illəri idi və bu əlaqələrin inkişaf etməsi, genişlənməsi üçün onun vəsiyyətlərini yerinə yetirməliyik. Onun vəsiyyəti yerinə yetirilmək baxımından çox ağırdır və şəxsən mən özümə fəxr bilirəm ki, bu işi öhdəmə, çiyinlərimə götürmüşəm.

Mən cənab alinizin Prezident seçilməsi münasibətilə öz təbriklərimi yetirirəm və ümid edirəm ki, Siz atanızın qoyduğu vəzifələri ləyaqətlə yerinə yetirəcəksiniz. İnanıram ki, Sizin rəhbərliyiniz altında iki ölkə arasındakı əlaqələr daha da inkişaf edəcək, daha da genişlənəcəkdir. Atanızla görüşəndə ona söz vermişdim ki, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə çalışacağam. İndi həmin sözü Sizə də verir və bildirirəm ki, əlimdən gələni əsirgəməyəcəyəm. Bu, təkcə mənim qərarım deyil, bizim səfirimizin də qərarı və fikri budur.

İranda baş vermiş faciəli zəlzələ ilə əlaqədar göstərdiyiniz diqqətə, köməyə görə Sizə minnətdarlığımı bildirirəm, Azərbaycan xalqına, Azərbaycan dövlətinə minnətdarlığımı bildirirəm. Sizin İranın Bakıdakı səfirliyinə gəlməyiniz və orada göstərdiyiniz diqqətə görə də dərin təşəkkürümü bildirirəm. Sizin buyurduğunuz kimi, bütün bunlar iki

ölkə arasındakı əlaqələrin dərinliyindən, bağlılığından xəbər verir. Bütün bunlara görə Sizə minnətdaram.

İqtisadi layihələr baxımından da biz çox ümidlə çalışırıq ki, bunları genişləndirək. Bakı-Astara yolunun yenidən qurulması ilə əlaqədar İran dövləti 40 milyon dollar həcmində kredit ayırmışdır. Biz bununla əlaqədar dünən iqtisadi inkişaf naziri cənab Fərhad Əliyev ilə söhbət etdik və işin sürətləndirilməsi yollarını aradıq. Biz Naxçıvanın qazla təmin olunması məsələsində razılaşdıq ki, əvəzetmə yolu ilə müəyyən bir yerdən qaz veririk və müəyyən tərəfdən qaz alırıq. Qeyd etdiyim və qeyd etmədiyim digər sahələr üzrə də əlaqələrimizi genişləndirməyə çalışırıq və Sizin diqqətiniz, nəzarətiniz altında bunu yerinə yetirməyə çalışacağam.

Səmimi sözlərə görə qonağa minnətdarlıq edən Azərbaycan Prezidenti İLHAM ƏLİYEV dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Doğrudan da, çox mühüm layihələrdir, mühüm işlərdir. Biz gələcəkdə bunların hamısını birlikdə görəcəyik. O cümlədən Naxçıvana qazın verilməsi barəsində də danışıqlar gedibdir, demək olar, son mərhələyə çatıbdır. Biz bu sahədə mübadilə yolu ilə Naxçıvanı qazla təmin edə bilərik. Eyni zamanda, digər tərəfdən İrana qaz verə bilərik. Yəni belə layihələr çox ola bilər. Biz çox istəyirik ki, bütün sahələrdə əməkdaşlığımız inkişaf etsin.

Mən keçən ay beynəlxalq tədbirdə hörmətli cənab Prezident Xatəmi ilə görüşmüşdüm. Qısa olsa da, çox səmimi söhbət etdik və qərarlaşdıq ki, yaxın zamanlarda mən İrana, cənab Xatəmi isə Azərbaycana səfər edəcəyik. Ona görə sizdən bir daha xahiş edirəm ki, bu dəvətə görə mənim minnətdarlığımı cənab Prezidentə çatdırasınız. Əminəm ki, yaxın zamanlarda bu səfərlər baş tutacaq və bunların nəticəsində ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvityeni qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Azərbaycan dövlətinin başçısı Avropa strukturlarına inteqrasiyanın Azərbaycan üçün əhəmiyyətini vurğuladı. Son illər ərzində bu sahədə qazanılmış uğurlardan bəhs edən Azərbaycan Prezidenti ölkəmizə Avropa strukturları tərəfindən böyük maraq göstərildiyini söylədi.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edərək, Azərbaycan dövlətinin başçısı kimi ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün bundan sonra da səy göstərəcəyini bildirdi. O, bu təşkilatın Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyətinin gücləndirilməsinin zəruriliyini də vurğuladı.

Səmimi qəbula görə təşəkkür edən Heyki Talvityc Azərbaycanın Avropa təşkilatları, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlığının səviyyəsindən razı qaldığını bildirərək de-

di ki, Avropa İttifaqı Cənubi Qafqazda xüsusi çəkisi olan Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir. Heyki Talvitye regionda sülhün və təhlükəsizliyin təmin edilməsinin Avropa üçün çox mühüm olduğunu qeyd etdi, təmsil etdiyi təşkilatın bu sahədə səylərini artıracağını söylədi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Fransa paytaxtına ilk rəsmi səfərə gəlmişdir.

FRANSA SENATINDA GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində ilk rəsmi görüşü yanvarın 22-də Fransa Senatında olmuşdur.

Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş Senatın binası - "Petit Lüksemburq" sarayı qarşısında Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Prezident İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Fransa Senatının sədri Kristian Ponsöle böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladı.

Azərbaycan Prezidenti və Fransa Senatının sədri hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Rəsmi qarşılanma mərasimindən sonra "Petit Lüksemburq" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Senatının rəhbərləri ilə görüşü keçirildi. Yüksək qonaqpərvərlik şəraitində keçən görüşdə, Fransa Senatının sədri Kristian Ponsöle Azərbaycan Prezidentinin ilk rəsmi səfərini Fransaya etməsindən sevinc və qürur hissi duyduqlarını söylədi. O bildirdi ki, rəsmi Paris və Fransa Senatı bunu yüksək qiymətləndirirlər. Bu, Azərbaycanın Fransaya nə qədər böyük diqqətlə yanaşdığını və Prezident İlham Əliyevin ölkələrimiz arasında mövcud olan münasibətlərin daha da möhkəmləndirilməsinə verdiyi əhəmiyyəti göstərir. Cənab Ponsöle dedi ki, İlham Əliyevin şəxsiyyətinə Fransada böyük hörmət bəslənilir. O, əmin olduğunu vurğuladı ki, bu səfər iki ölkə arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında müstəsna rol oynayacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev cavab nitqində iki ölkə arasında əlaqələrin bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əmin olduğunu bildirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Senatın fəxri qonaqlar kitabını imzaladı.

Azərbaycanın dövlət başçısına və onun xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim olundu. Fransa Senatının sədri Kristian Ponsöle vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyev Senatın əziz qonağıdır və hər səfəri zamanı onlar dövlətimizin başçısını burada qarşılamaqdan məmnunluq duyacaqlar.

FRANSA SENATINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

Fransa Senatında görüşdən sonra Senatın sədri Kristian Ponsölenin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət təşkil olundu. Azərbaycan-Fransa əlaqələrinin inkişafına dair fikir mübadiləsi rəsmi ziyafət zamanı daha səmimi şəraitdə davam etdirildi.

Fransa Senatının sədri Kristian Ponsöle rəsmi ziyafətdə çıxış edərək dedi:

- Bu günlərdə həm Fransada, həm də Azərbaycanda hər bir insan iftixar hissi ilə deyə bilər ki, iki ölkə arasında olan münasibətlər çox gözəldir. Biz Sizin səfərinizi çox yüksək qiymətləndiririk və böyük sevinc hissi ilə qeyd etmək istəyirik ki, Siz Azərbaycan Prezidenti kimi ilk səfəriniz zamanı Fransada ən əvvəl Senatı ziyarət etdiniz. Məhz buna görə də mən və senator həmkarlarım Sizə xatirə olaraq kiçik bir hədiyyə təqdim etmək istəyirik.

Cənab Prezident, biz Fransaya səfərinizdə Sizə böyük uğurlar arzulayırıq və şəxsən öz adımdan, Senatın adından, bütün Fransa adından bizim ən xoş arzularımızı Azərbaycan xalqına da çatdırmağı xahiş edirik.

Səmimi sözlərə və xatirə hədiyyəsinə görə Fransa Senatının sədrinə təşəkkürünü bildirən Prezident İlham Əliyev dedi:

- Cənab sədr, çox sağ olun.

Hörmətli dostlar, mən bizə göstərdiyiniz qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm. Senatda olmağımdan çox məmnunam. Bu gün keçirdiyimiz görüş daim mənim xatirimdə qalacaqdır. Biz çox səmərəli fikir mübadiləsi apardıq. Bir çox məsələ haqqında öz fikirlərimizi ifadə etdik və bir daha əmin olduq ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir. Siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığımız çox uğurludur və mən də öz fəaliyyətimdə çalışacağam ki, bu əməkdaşlığı daha da gücləndirək, Fransa ilə olan dostluq, mehribanlıq münasibətlərimizi inkişaf etdirək.

Bu gün qeyd olundu ki, Prezident vəzifəsinə seçiləndən sonra mən ilk rəsmi səfərimi məhz Fransaya edirəm. Eyni zamanda, o da qeyd olundu ki, bu, artıq ənənəyə çevrilmişdir. 1993-cü ildə Prezident Heydər Əliyev öz rəsmi səfərini Fransaya etmişdi. Hesab edirəm ki, bu rəmzi xarakter daşıyır və bir daha ölkələrimiz arasında olan dostluq münasibətlərinin nə dərəcədə dərin olmasından xəbər verir.

Cənab sədr, mənə göstərilən diqqətə və qonaqpərvərliyə görə Sizə və bütün dostlarınıza bir daha öz təşəkkürümü bildirirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA SAHİBKARLAR TƏŞKİLATININ ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Fransaya rəsmi səfəri çərçivəsində bu ölkənin sahibkarlar təşkilatının - MEDEF-in üzvləri ilə görüşmüşdür.

Prezident İlham Əliyevi Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş MEDEF-in binası qarşısında bu təşkilatın prezidenti Fransua Periqo, Fransanın xarici ticarət məsələləri üzrə dövlət naziri Fransua Loos və MEDEF-in Mərkəzi Asiya və Qafqaz üzrə komitəsinin prezidenti Kristian Mons qarşıladılar.

Görüşü MEDEF-in prezidenti Fransua Periqo açdı.

FRANSA SAHİBKARLAR TƏŞKİLATININ PREZİDENTİ FRANSUA PERİQONUN ÇIXIŞI

- Zati-aliləri, cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, böyük məmnuniyyətlə Sizi burada, Fransa Sahibkarlar Təşkilatının yeni qərargahında salamlamaq, həqiqətən, böyük şərəfdir. Çox təqdirəlayiq bir haldır ki, bu yeni binada keçirəcəyimiz bugünkü ilk mərasim Sizin gəlişinizə təsadüf edir. Cənab Prezident, mən Sizə və Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm ki, bu gün burada bizimləsiniz və Fransa biznesinin təmsilçiləri ilə görüşürsünüz. Əlbəttə ki, Sizin icazənizlə, bizim ticarət nazirinə də minnətdaram ki, bu gün bizimlədir. Biznes icmasının üzvləri üçün ticarət və kommersiya naziri ilə görüşmək həmişə xoşdur.

Fransa ilə Sizin ölkə arasında əlaqələr əla səviyyədədir. Bunu həm mənim səlahiyyətlərimə aid olmayan sahələr, həm də bizim cavabdeh olduğumuz iqtisadiyyat sahəsi haqqında demək olar. Yeni müstəqillik qazanmış ölkələrin siyahısına baxsaq görərik ki, Azərbaycan Fransanın iqtisadi əlaqələri siyahısında 4-cü yerdədir. Rusiya, Ukrayna, Qazaxıstan kimi böyük ölkələrdən sonra bu, əla göstəricidir. Sizin ölkə ilə ticarət əlaqələrimiz 2002-ci ildə xüsusi vüsət aldı, Almaniya və Rusiyadan sonra Fransa Azərbaycanın 3-cü böyük ticarət tərəfdaşına çevrildi. Fransa Azərbaycanın neft məhsullarının əsas istehlakçısı oldu. Fransa Azərbaycana birbaşa sərmayə qoyan ölkələr arasında 7-ci yeri tutur və sözsüz ki, biz istərdik mövqeyimizi daha da yaxşılaşdıraq.

Fransa şirkətləri istərdilər ki, Azərbaycanın iqtisadi inkişafına daha çox töhfə versinlər və bunu əlaqələri daha da gücləndirmək, sərmayələri artırmaq, Sizin ölkənin həm rəsmi dairələri, həm də biznes nümayəndələri ilə əməkdaşlığı yaxşılaşdırmaq vasitəsilə həyata keçirmək əzmindəyik. 1991-ci ildən indiyədək MEDEF vasitəsilə ölkəmizin şirkətlərinin Sizin nümayəndələrlə bir sıra görüşləri təşkil olunmuş, beləliklə həmin şirkətlərin Azərbaycanın müxtəlif sektorlarında işləməsi təmin edilmişdir. Neft və qaz sənayesində, infrastruktur quruculuğunda, kommersiya, sığorta və səhiyyə, yeyinti sənayesi, bank işi sahəsində işləmişlər. Bütün bunlar Fransa şirkətlərinin Sizin ölkənin inkişafında iştirakının göstəriciləridir.

Həmin görüşlərin təşkilatçıları və iştirakçıları indi Sizin qarşınızdadırlar və bugünkü görüş vasitəsilə onlar bu sahədəki işlərini davam etdirmək əzmində olduqlarını bildirirlər. Mən onların adlarını çəkməyəcəyəm. Sizə təqdim olunan siyahıda həmin şirkətlərin adları var. Mən "Teknip" şirkətindən cənab Veluya minnətdarlığımı bildirmək istəyirəm. O, bizim təşkilatımızda xüsusi rol oynayır. 2002-ci ilin aprelində cənab Kristian Mons, - o, Sizin yanınızda oturubdur, MEDEF təşkilatında Mərkəzi Asiya və Qafqazda

əlaqələrə cavabdehdir, - olduqca mühüm biznes nümayəndə heyəti ilə Bakıya getmişdi. Səfər zamanı nümayəndə heyəti hökumətin bir sıra üzvləri ilə görüşdü. O vaxt imkan qazandıq ki, Sizin ölkəniz haqqında, onun strategiyası, prioritetləri haqqında çox şeyi öyrənək. Biz Sizin ölkənin sosial-iqtisadi vəziyyətini, siyasi mövqeyini dərindən öyrəndikdən sonra əməkdaşlıq və sərmayə qoymaq yollarını müəyyən etdik.

Əlbəttə, bugünkü şəraitdə dünyadakı hər bir ölkə, elə bizim ölkənin özü də, rəqabət aparmalı, addım-addım xarici investorları inandırmalıdır ki, ölkəyə sərmayə qoymaq sərfəli olacaqdır. Xarici sərmayəçiləri buna biznes mühitini günbəgün yaxşılaşdırmaqla inandırmaq olar. Burada sağlam rəqabət elementi bazar iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanın inkişaf prosesi davam edir və biz müşahidə edirik ki, son iki ildə ölkənizdəki makroiqtisadi göstəricilər yüksələn xətlə artır. İcazənizlə, mən Azərbaycan hökumətini bu nailiyyət, xüsusilə də biznes mühitinin yaxşılaşdırılması münasibətilə, yeni biznes imkanları açması münasibətilə təbrik etmək istəyirəm.

Cənab Prezident, bu, Sizin 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Fransaya ilk rəsmi səfərinizdir. Mən elə düşünürəm ki, - bəlkə də səhv edirəm, - bu, Sizin Qərbi Avropaya ilk səfərinizdir. Bu, bizim hamımız üçün, yalnız fransızlar üçün deyil, bütün Qərbi avropalılar üçün çox müsbət mesajdır. Biz, Sizin buraya, MEDEF-ə gəlişinizə böyük hörmətlə yanaşırıq. Sizdən ölkənizin mövqeyi, gələcəyə baxışınız, prioritetləriniz, layihələriniz, dünya iqtisadiyyatına inteqrasiya planınız haqqında eşitmək istəyirik. Buna görə sağ olun. Bir də çox sağ olun ki, bugünkü təqdimatın ingiliscə keçirilməsinə razılıq verdiniz, bu şübhəsiz ki, biznes icmasının üzvləri ilə ünsiyyəti sürətləndirəcək və asanlaşdıracaqdır.

Sonda, razı olsaydınız, biznes icmasının üzvləri Sizə suallarla müraciət edəcəklər.

Cənab Prezident!

Xanımlar və cənablar, diqqətinizə görə çox sağ olun. İndi isə, etiraz etmirsinizsə, bizim xarici ticarət naziri cənab Fransua Loosa söz verək. O, Fransa hökumətinin xarici ticarəti haqqında bizə məlumat versin. Buyurun, cənab nazir.

FRANSA XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ FRANSUA LOOSUN ÇIXIŞI

- Cənab Prezident!

Mən bir qədər çətinlik çəkirəm. Çünki fransızca əla çıxış yazmışdım və indi heç bilmirəm bunu eyni səviyyədə ingilis dilində çatdıra biləcəyəm, ya yox. Tərcümə təmin olunur? Eybi yox, mən ingilis dilində danışaram. Bir az da qorxuram. Cənab prezident, buraya gəlişinizə görə Sizə minnətdaram. Həm də çox sağ olun ki, ilk xarici səfər kimi Fransanı seçmisiniz. Biz özümüzü xoşbəxt hiss edirik ki, bu səfər əməkdaşlığımız üçün yeni imkanlar açır. Mən xarici işlər nazirini də salamlayıram. İqtisadi inkişaf naziri cənab Fərhad Əliyevi də salamlayıram. Onunla bir neçə ay əvvəl Bakıda görüşmüşdüm. Eləcə də, Sizinlə bu gün buraya bizim üçün çox vacib görüşə gələn nümayəndə heyətini salamlayıram. Fransa ilə Azərbaycan arasındakı ticarətin həcmi son iki ildə 3 dəfə artmışdır. Beləliklə, əlaqələrimiz artan xətlə inkişaf edir və əminik ki, bu, hələ başlanğıcdır. Fransa şirkətləri üçün Azərbaycan yeni ölkədir. Bizim Sizinlə bugünkü görüşü-

müz həm də ona görə əhəmiyyətlidir ki, biz Azərbaycan iqtisadiyyatında ötən il 11 faiz artım müşahidə edildiyini və bunun çox yaxşı göstərici olduğunu da bilirik. Neft hasilatçısı kimi ölkənizin bu sahədə əldə olunan gəlirləri xüsusi Fonda toplaması və bu gəlirlərdən gələcəkdə iqtisadiyyatın mühüm sahələrinin inkişafı üçün istifadə olunacağı da çox əlamətdardır. Biz bilirik ki, bu vəsaiti düzgün istiqamətdə xərcləməyi planlaşdırırsınız. Hökumətinizin Beynəlxalq Valyuta Fondunun auditorluğuna da icazə verməsi çox mühüm addımdır. Bu, vəsaitlərin xərclənməsi üzrə və onların etibarlı qorunması sahəsində beynəlxalq səviyyədə təminatın yaradılması deməkdir. Biz həm də xoşbəxtik ki, siz Beynəlxalq Valyuta Fondu və Avropa İttifaqı ilə birlikdə yoxsulluğun aradan qaldırılması sahəsində xüsusi strategiya işləyib hazırlamısınız və bu ölkənizin sosial siyasətinin öncül istiqamətini təşkil edir.

Büdcənin şəffaflığına dair qəbul etdiyiniz qərar da bizi çox sevindirir. Bu, həm Fransa şirkətləri, həm də bütün dünyada olan şirkətlər üçün çox mühüm amildir və onları ölkənizə daha çox sərmayə qoymağa ruhlandırır. İndi bu şirkətlər vəsaitin haraya xərcləndiyini müşahidə edə bilirlər. Korrupsiya əleyhinə, bank sahəsinin inkişafına dair imzaladığınız fərman və qanunlar da sərmayəçilərə onların qoyduğu vəsaitin Azərbaycanda etibarlı qorunması istiqamətində əlavə təminatlar verir. Bu, çox səmərəli bir siyasətdir və biz Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmaq səylərini dəstəkləməyə hazırıq. Sizin bu təşkilata üzvlüyünüz ölkənizə gələn xarici sərmayəçilər və şirkətlər üçün əlavə stimul olacaqdır.

Biz sizinlə dövlətlərarası tariflər üzrə razılıq imzalamağa hazırıq və elə bilirəm ki, həmin sənədi burada da imzalaya bilərik. Fransa şirkətlərinin nümayəndələrinin bu mərasimdə iştirakı çox əlamətdardır və ümidvaram ki, onlar tariflər və gömrük üzrə imzalayacağımız sazişdən ruhlanacaq və Azərbaycana həvəslə gələcəklər.

Fransa şirkətləri Azərbaycan iqtisadiyyatının bir çox mühüm sahələrində fəaliyyət göstərirlər. Cənab Periqo da artıq qeyd etdi ki, biz neft hasilatı sahəsində fəal iştirak edirik. Ancaq şirkətlərimiz neftin nəqlində də fəal iştirak etmək istəyirlər. Biz Bakı-Tbilisi-Ceyhan layihəsinin növbəti fazalarında iştirak etmək əzmindəyik. Bundan əlavə, biz yeyinti sənayesi sahəsində də sizinlə sıx əməkdaşlıq edəcəyik. Artıq Azərbaycanda pivə istehsal edən fransız şirkəti işləyir və digər şirkətimiz şərab istehsalı üzrə əməkdaşlığa hazırdır. İşlənmiş suyun təmizlənməsi üzrə çalışan fransız şirkəti də bu sahədə müvafiq danışıqlar aparıb və ilkin razılaşma əldə olunmuşdur. Ümidvaram ki, tezliklə bu sahədə də müvafiq saziş imzalanacaqdır. Bundan başqa, Fransada bizim "Fazep etüd" adlandırdığımız xüsusi şərtlərlə supsidiyalar ayırmaq planımız da vardır. Həmin plana əsasən, fransız şirkətləri Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərə bilərlər.

Azərbaycanda fəaliyyət göstərən digər fransız şirkəti "Kofas"dır. Bu şirkət kredit və sığorta sahəsində fəaliyyət göstərir və 2003-cü ildə çox böyük nailiyyətlər əldə etmişdir. Bir neçə həftədən sonra həmin şirkətin yeni bir saziş imzalaması gözlənilir və bu, Fransa şirkətlərinin Azərbaycanda təmsilçiliyini daha da gücləndirəcəkdir. Eyni zamanda, ölkənizlə kredit və sığorta sahəsində əməkdaşlıq da artacaqdır.

Cənab Prezident, bütün sadalananlar Fransanın Azərbaycanın inkişafına yardım etmək arzusundan qaynaqlanır. Çox şadıq ki, bu gün fransız biznesmenləri ilə görüşmək təklifini qəbul etdiniz. Ümidvaram ki, bugünkü görüş hamımız üçün əhəmiyyətli olacaqdır.

* * *

Prezident İlham Əliyev görüşdə geniş nitq söylədi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz xanımlar və cənablar!

Mən qəbul olunmuş qaydaya əsasən, ingiliscə danışacağam. Hər şeydən əvvəl, bu görüşə gəldiyiniz üçün hamınıza minnətdarlığımı bildirirəm.

Burada deyildi və doğrudan da belədir ki, bu, Prezident seçildikdən sonra mənim ilk rəsmi səfərimdir. Mənə müxtəlif ölkələrdən bir çox dəvətlər gəlmişdi. Amma seçimim Fransaya rəsmi səfər etmək oldu. Bu qərarın verilməsinin bir neçə səbəbi vardır. Son 10 il ərzində Fransa ilə Azərbaycan arasındakı münasibətlər uğurla inkişaf edir. Əməkdaşlığımız geniş miqyas almışdır. Siyasi, iqtisadi və mədəni münasibətlər durmadan inkişaf edir. Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində iştirak edir. Digər tərəfdən, Fransa Avropanın aparıcı ölkələrindən biridir və Avropanın simvolu kimi tanınmışdır. Azərbaycan da Avropanın bir hissəsidir. Bizim ən başlıca prioritetlərimizdən biri Avropa təsisatlarına sıx inteqrasiyadır.

1993-cü ildə seçkilərdən sonra bizim mərhum Prezidentimiz Heydər Əliyev ilk rəsmi səfərini Fransaya etdi. Ona görə də, bugünkü səfər bu ənənənin davamıdır. Düşünürəm ki, bu ənənə uzun zaman yaşayacaqdır.

Bu gün biz söhbətimizi iqtisadi aspektdə cəmləşdirəcəyik. Artıq hörmətli nazirin də qeyd etdiyi kimi, iqtisadi münasibətlərimiz sürətlə inkişaf edir. İqtisadiyyat və ticarət sahəsində bir sıra birgə layihələr mövcuddur. Hər şeydən vacibi isə odur ki, biz birgə işləmək əzmindəyik.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Müstəqillik qazandığı vaxt və sonrakı ilk illərdə bizim iqtisadiyyatımız tamamilə dağıdılmışdı. Min faizlə ölçülə biləcək iqtisadi tənəzzül hökm sürürdü. Tamamilə dağıdılmış infrastruktur, fabrik və zavodların işini dayandırması ölkəni iqtisadi və siyasi böhranla üz-üzə qoymuşdu. Lakin 1993-cü ildən sonra, Heydər Əliyevin Prezident seçilməsi ilə vəziyyət dəyişdi. Onun yaratdığı ictimai və siyasi sabitlik sonrakı iqtisadi yüksəlişin təməlini qoydu. 1996-cı ildən etibarən iqtisadiyyatdakı tənəzzülün qarşısı alındı və inkişaf dövrü başladı.

Son bir neçə il ərzində ölkəmizdə ümumi daxili məhsulun istehsalında 70 faiz artım müşahidə olunmuşdur ki, bu da ildə 10 faizdən çox deməkdir. Azərbaycanda əlverişli sərmayə mühiti yaradılmışdır. Ölkəmiz keçmiş SSRİ respublikaları arasında adambaşına düşən birbaşa sərmayənin həcminə görə liderdir. Azərbaycanda işləyən və mühüm layihələri həyata keçirən şirkətlərin heç bir problemi yoxdur. Biz artıq bir dəfə razılaşdırılmış sazişlərə heç vaxt yenidən qayıtmırıq, onların şərtlərini dəyişmirik. Biz danışıqlar əsasında imzalanmış müqavilələr əsasında işləyirik. Bilirik ki, ölkəmizdə çalışan şirkətlər hər hansı bir sərt addım nəticəsində öz vəsaitlərini itirə bilərlər. Ona görə də onların iqtisadiyyatımıza qoyduqları sərmayələrin qorunması üçün bütün zəruri tədbirlər görülür. Bu proses davam etdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində böyük potensial mövcuddur. Əlbəttə, ölkəmizə sərmayə qoyuluşu haqqında danışarkən, ilk növbədə, neft və qaz sektoru nəzərdə tutulur. Bu da təbiidir. Çünki bu sektor maraqlı tərəfləri daha çox cəlb edir. Deməliyəm ki, iqtisadiyyatın bu sahəsində əldə edilən nailiyyətlər ölçüyəgəlməzdir. Azərbaycanın apardığı siyasət, Heydər Əliyevin neft strategiyası əvvəllər əfsanə kimi görünən düşüncələri reallığa çevirdi. 10 il bundan əvvəl, hətta 5 il əvvəl də əsas boru kəmərinin inşa edilməsi çoxlarına xülya kimi görünürdü. Milyardlarla vəsaitin qoyulması və bu kəmərin tikilməsi nəticəsində neft sənayesinin inkişafının yenidən canlandırılması yuxu kimi görünürdü. Bu gün isə neftin nəqli üzrə ən böyük layihə məhz Azərbaycanda həyata keçirilir. Neftin və qazın nəqli üzrə və neft sahəsinin inkişaf etdirilməsi sahəsində ən irimiqyaslı layihələr Azərbaycanda həyata keçirilir. Bununla ölkəmiz etibarlı tərəfdaş olduğunu və münasibətləri qiymətləndirməyi bacardığını sübuta yetirdi. Bu barədə danışarkən mən Fransa şirkətlərinə, fransız iş adamlarına Azərbaycanda işlədiklərinə görə və qarşılıqlı münasibətləri uca tutduqlarına görə minnətdarlığımı bildirirəm. Onlar bizim cəmiyyətimizə fəal inteqrasiya edir, Azərbaycanın ayrılmaz hissəsi olurlar. Bu da cəmiyyətimizdə onlara qarşı hörmət hissi yaradır.

İndi bizim ölkə üçün ən mühüm şərtlərdən biri bu uğurlu siyasətin davam etdirilməsidir. Bu nəhəng layihələr yalnız ictimai-siyasi sabitlik şəraitində həyata keçirilə bilər. Yalnız xalqla hökumət arasında qarşılıqlı etimad şəraitində xarici sərmayəçi özünü rahat və təhlükəsiz hiss edə bilər. Düşünürəm ki, bu barədə söylədiklərim ən vacib amillərdir.

Digər tərəfdən, iqtisadi islahatlar iqtisadiyyatımızın bütün sahələrini əhatə edəcək və uğurla davam etdiriləcəkdir. İndi Azərbaycan sosial və iqtisadi inkişaf proqramını həyata keçirməyə başlayır. Regionların inkişaf etdirilməsi proqramı hazırlanır və tezliklə həyata keçiriləcəkdir. Biz gələcəkdə də işimizi elə quracağıq ki, ölkəyə gələn sərmayəçilər öz vəsaitlərinin ən etibarlı şəkildə qorunacağına tam əmin olsunlar. Bununla bağlı bir neçə vacib addımlar da atılacaqdır.

Mən burada iştirak edən Fransanın biznes icmasının üzvlərini, fransız şirkətlərini Azərbaycana gəlməyə ruhlandırıram ki, biz onlarla birlikdə işləməyə hazırıq. Əmin ola bilərsiniz ki, siz ölkəmizə gəlişinizə təəssüflənməyəcəksiniz. Bizim gözəl ölkəmiz, qonaqpərvər insanlarımız vardır. Azərbaycana gəlmiş bir çox əcnəbilər elə burada qalır və fəaliyyətlərini davam etdirməyi üstün tuturlar. Ölkəmizin paytaxtı Bakı da çox gözəl şəhərdir. Bu gün regional layihələri həyata keçirdiyimiz bir vaxtda Azərbaycanın inkişafı regionları da əhatə edəcəkdir ki, bu da ölkəmizin ümumilikdə dinamik və tarazlı inkişafını təmin edəcəkdir.

Hörmətli nazirin də dediyi kimi, ölkəmizdə Neft Fondunun yaradılması maliyyə vəsaitlərinin şəffaflığını təmin etmək istiqamətində atılmış çox mühüm addımdır. Biz bu Fondu neftdən alınan ilk gəlirlər büdcəyə daxil olduğu zaman yaratmışıq. Bunun səbəbi ondan ibarətdir ki, daxil olmuş vəsaitləri Fond vasitəsilə qoruyaq, sərəncamımızda olan gəlirlərin şəffaflığını təmin edək və ölkə vətəndaşlarına onlar haqqında məlumat verilsin. Neft hasil edən ölkələr üçün belə fondun yaradılması çox vacibdir. Şəffaflıq zəngin ölkəyə çevrilmək potensialı olan ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Neft Fondu bir sıra beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Beynəlxalq Valyuta Fondu və digər maliyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində işləyir.

Ölkəmizdə Fondun şəffaflığı sahəsində yaxşı təcrübə mövcuddur və biz bunu qonşularımızla bölüşməyə hazırıq. Azərbaycan dünyada hasilat sahələrindəki şəffaflıq təşəbbüsünü, bu sahədəki meylləri tam dəstəkləyir. Biz hesab edirik ki, bu şəffaflıq yalnız hasilat sahələrini deyil, iqtisadiyyatın digər sahələrini də əhatə etməlidir.

Əlbəttə, neft hasilatı Azərbaycanın yaşaması üçün müstəsna əhəmiyyətə malikdir. Ona görə də bu sahəyə böyük diqqət yetirilir. Ancaq digər sahələrdə də geniş imkanlar mövcuddur. Kənd təsərrüfatında, turizmdə, tikinti sahəsində böyük potensialımız vardır. Müasir dövlət quruculuğu ilə məşğul olan Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevrilmək əzmindədir. Bunun üçün bizə beynəlxalq təcrübə, məsləhətlər və daha çox sərmayə qoyuluşu lazımdır. Bu günədək ölkəmizin iqtisadiyyatına 15 milyard dollar vəsait qoyulmuşdur. Adambaşına götürüldükdə, bu, böyük rəqəmdir və onu göstərir ki, ölkəmiz sərmayə qoyuluşu baxımından əlverişli və təhlükəsizdir. Bu, bir də onu sübut edir ki, artıq 10 ildən çox müddətdə Azərbaycan hökuməti ilə sərmayəçilər arasında böyük problemlər olmamışdır. Mən əminəm ki, bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

Əlbəttə ki, biz hər bir layihəyə böyük əhəmiyyət veririk. Ola bilər ki, çıxışım zamanı sizin gözlədiyiniz bütün sahələri əhatə edə bilmədim. Ancaq deməliyəm ki, Azərbaycanda, ümumiyyətlə, bütün sahələrə xüsusi diqqət yetiriləcək. Düşünürəm ki, sərmayəçiləri bundan artıq ruhlandırmaq və yaxud ölkəyə dəvət etmək mümkün deyildir. Mənə məlumdur ki, bizim İqtisadi İnkişaf Nazirliyi bu sahədə böyük iş görmüş, Bakıda və xarici ölkələrdə seminarlar, konfranslar keçirmişdir. Ən başlıcası, ölkəmizi olduğu kimi təqdim etməyə nail olmaqdır. Bu, bizim üçün çox vacibdir.

Təəssüflə qeyd etməliyəm ki, illərdən bəri davam edən erməni istilasına, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunmasına görə iki ölkə arasındakı münasibətlər heç də normal deyildir. Bu gün dünyadakı erməni icması Azərbaycanı daim fərqli səpkidən təqdim etməyə çalışır. Bütün bunlar reallıqdan çox uzaqdır. Biz Azərbaycan gerçəkliklərini dünyaya yaymaq üçün böyük əmək sərf etmişik. Ancaq ölkəmizi olduğu kimi görməyin ən yaxşı yolu Azərbaycana gəlməkdir. Ölkəmizə yeni gəlmiş şirkətlərin nümayəndələri, ayrı-ayrı adamlar və siyasətçilərlə görüşlərim zamanı onlar mənə deyirlər ki, gördüklərimiz eşitdiklərimizdən tamamilə fərqlənir. Ona görə də siz Azərbaycan haqqında mühakiməni yalnız hər şeyi öz gözlərinizlə gördükdən sonra yürüdə biləcəksiniz. Mən sizi Azərbaycana dəvət edirəm.

Gələcək üçün çoxlu planlarımız var, çoxlu layihələr nəzərdə tutulur. Hökumətin əsas məqsədi insanların həyatında yaxşılığa doğru dəyişikliklər etməkdir. Bu, bəlkə də, kənardan çox sadə görünür, amma qəti məqsədimiz bundan ibarətdir. Bu sahədə çoxlu sosial proqramlar həyata keçirilir. Azərbaycana çoxlu sosial layihələr lazım olacaqdır. Bizdə elektrik sektorunu tam yeniləşdirmək layihəsi var. Yeni yolların çəkilməsi, yeni infrastrukturun yaradılması nəzərdə tutulur. Yüzlərlə, minlərlə yeni iş yerləri açmaq proqramı var. Bunun da öhdəsindən gələcəyik. Yerli səviyyədə sərmayələr, hökumətin dəstəyi, bank infrastrukturu, qanunların işləməsi, tənzimləmələr və xarici sərmayələr bizə imkan verəcəkdir ki, nəzərdə tutulan planlar həyata keçsin. Azərbaycan böyük ölkə deyildir. Əlbəttə, balaca ölkə olmağın üstünlükləri də var, mənfi cəhətləri də. Biz, əlbəttə ki, üstünlüklərdən istifadə etməyə çalışacaq, mənfi cəhətlərin qarşısını alacağıq.

Azərbaycan demokratik dəyərlərə möhkəm inanan ölkədir. Demokratiyanın inkişafına tam sadiqdir. Biz başa düşürük ki, cəmiyyətin demokratikləşməsi həyata keçmədən nəzərdə tutduğumuz iri iqtisadi layihələr uğurlu ola bilməz. Azərbaycan dinamik inkişaf edən ölkədir. İndi hamımız, mənim özüm, rəhbərlik etdiyimiz qurumlar, Azərbaycan xalqı, Azərbaycanın dostları, biznes icması üzərlərinə düşən vəzifələri yerinə yetirməlidir. Hamımız birləşməliyik ki, özümüzü vəziyyəti dəyişməyə, insanlarımızın həyatını yaxşılaşdırmağa həsr edək. Mən əminəm ki, Bakıdan Ceyhana gedən əsas ixrac kəməri işə düşəndən sonra indiyədək görünməmiş sürətli artım müşahidə olunacaqdır. Bu artım həyat standartında, həyat səviyyəsində özünü göstərəcəkdir. İndi isə bilirik ki, bizim potensialımız böyükdür, indi əsas fəaliyyətimizin təşkilati və hazırlıq işini tamamlamışıq. Elə bir məqama çatmışıq ki, Azərbaycan nefti iri həcmlərlə dünya bazarlarına daşınacaq və böyük mənfəət gətirəcəkdir. Azərbaycan qazı Avropaya çatdırılacaq və Avropada alternativ təchizat mənbəyi olacaqdır. Bunlar vasitəsilə Azərbaycan iqtisadiyyatı şaxələnəcəkdir. Bizim iqtisadiyyat gərək yalnız neft faktorundan asılı olmasın. Neft amili bizim üçün möhkəm çoxşaxəli iqtisadiyyat qurmağın vasitəsidir. Ümid edirəm ki, nəzərdə tutduğumuz bütün planlar həyata keçəcəkdir. Hökumətin nəzərdə tutduğu planlar yeni müsbət nəticələrlə müşayiət olunacaq və əminəm ki, Fransa şirkətləri, Fransa biznesinin nümayəndələri Azərbaycanda fəaliyyətlərini artıracaqlar. Buyurun, bizim ölkəyə gəlin. Sərmayəçi kimi, podratçı şirkət kimi, dost kimi gəlin. Mənim çağırışımı qəbul edib, Azərbaycana gəlsəniz görəcəksiniz ki, doğru addım atmısınız.

Çox vaxtınızı almayacağam. Çox sağ olun ki, bu gün mənimlə görüşə gəldiniz, Azərbaycanın gələcəkdəki planları, inkişafı ilə bağlı, xarici sərmayənin bu inkişafda oynaya biləcəyi rolla bağlı fikirlərinizi bölüşdünüz. Əmin olduğumu bildirmək istəyirəm ki, bu görüşdən sonra digər görüşlərimiz də olacaqdır. Fransada da, Bakıda da bu görüşlər bizi bir-birimizə daha çox yaxınlaşdırır. Diqqətinizə görə çox sağ olun, sizə ən xoş arzularımı bildirirəm.

* * *

Sonra MEDEF-in prezidenti Fransua Periqo dərin məzmunlu nitqinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident. Görüşün davamı aşağıdakı kimi olacaqdır. İki ölkə arasında razılıq imzalanacaq və biz isə iftixar hissi keçiririk ki, razılıq bu binada imzalanır. Və istərdim ki, Mərkəzi Asiya və Qafqaz işləri üzrə komitənin sədrindən xahiş edim ki, Azərbaycana Fransa biznes nümayəndələrindən ibarət nümayəndə heyəti hazırlansın, onlar Azərbaycana getsinlər.

Bugünkü görüşdə sual vermək istəyənlər də var. Xahiş edirəm, yalnız vacib suallarla müraciət edəsiniz, Prezidentin vaxtı azdır. Cənab Prezident, Sizdən isə xahiş edirəm ki, vaxt ayırıb iştirakçıları maraqlandıran suallara cavab verəsiniz. Burada olmağınız hamımız üçün olduqca xoşdur.

SUAL: Cənab Prezident, biz Azərbaycanda 1997-ci ildən bəri işləyən "Castel" qrupunu təmsil edirik. Azərbaycanda pivə istehsal edirik. Sizə və hökumətinizə minnətdarlığımızı bildirmək istəyirik. İlkin mərhələdə çətinliklərlə üzləşirdik. Lakin hökumətə müraciət etdikdən sonra problemlərimiz həll olundu. İşlərimiz qaydaya düşdü. "Castel" qrupu olaraq, Azərbaycana 40 milyon dollar vəsait qoymuşuq. Bunu ona görə etmişik ki,

Azərbaycana inanırıq, ölkənizdə də etibar qazanmışıq. Minnətdarlığımı bildirirəm ki, Sizin ölkənizə gəlmək şəraiti yaratmısınız. Deməliyəm ki, indi biznes sahəsində işləmək çox rahatdır. Narazılıqlar olan zaman məhkəməyə müraciət edirik, haqlı olduğumuz zaman prosesi uduruq, haqlı olmadığımız zaman uduzuruq. Ədalətli məhkəmə sistemi mövcuddur. Vergi ilə bağlı işimizin başlanğıc mərhələsində müəyyən problemlər olsa da, sonradan hökumətə müraciət etdik, bu problem də həll olundu. Hansı problem olursa olsun, Sizin hökumətin dəstəyini həmişə hiss edirik. Azərbaycanda olmağımızla şərəf hissi keçiririk və fəal sərmayəçiyik. Sizin cağırışı dəstəkləyirik. Cənab Prezident, çox sağ olun.

CAVAB: Dediyiniz sözlərə görə çox sağ olun. Elə bilirəm, sizin bu sözləriniz o deməkdir ki, sərmayə imkanları yalnız neft və qaz sektorunu əhatə etmir. Kənd təsərrüfatı sahəsində geniş imkanlar var. Xüsusilə də kənd təsərrüfatı məhsullarının emalında Azərbaycan Sovet İttifaqı dövründə ən böyük üzüm istehsalçısı idi. O zaman üzüm istehsalı ildə 2 milyon tona bərabər idi. Lakin keçmiş SSRİ rəhbərliyinin həyata keçirdiyi antialkoqol kampaniyasından sonra ölkəmizdəki üzümlüklərin əksəriyyəti məhv edildi. Şərabçılıq sənayesini bərpa etmək üçün bugünkü gündə sərmayə lazımdır. Mən bilirəm ki, siz pivə istehsalında nailiyyətlər əldə edirsiniz, məhsulunuz yaxşı satılır. Buna görə də sizi dəvət edirəm ki, bu işinizi, bu sərmayələrinizi davam etdirəsiniz. Hökumət tərəfindən nə lazımdırsa, olunacaqdır. Biz bu prosesi stimullaşdıracağıq. Xoş sözlərinizə görə bir daha sağ olun. Azərbaycandakı hər bir sərmayə qorunacaq, istənilən səviyyədə yarana biləcək hər hansı bir çətinlik həll ediləcəkdir. Sağ olun.

SUAL: Mən Fransa-Azərbaycan Ticarət və Kommersiya Palatasının sədriyəm. Adım Serj Buadvedir. Mən Sizin ölkəni 1974-cü ildən tanıyıram. Mərhum Heydər Əliyevlə bir neçə dəfə görüşmüşəm və artıq 10 ilə qədərdir ki, bizim qurum vasitəsilə Fransa şirkətlərinin Azərbaycanda işini təmin etmək vəzifəsi ilə məşğul oluruq. Biz, həm Azərbaycandan xaricdə işləyirik, həm də Azərbaycanda çalışırıq ki, şirkətlərlə Azərbaycanın əlaqədar təsisatlar arasında müvafiq ünsiyyət yaradaq. Biz artıq Ticarət və Kommersiya Palatasının Bakıda ofisini də açmışıq və çox istərdik ki, imkan düşən zaman görüşək və Sizinlə gələcək iş perspektivlərini müzakirə edək. Qəti fikrimiz belədir ki, yalnız neft və qaz sənayesində deyil, digər sahələrdə də, məsələn, kənd təsərrüfatı sahəsində də əməkdaşlıq üçün böyük imkanlar var. Sağ olun.

CAVAB: Siz də sağ olun!

SUAL: Bizim şirkət, təxminən, 8 ildir ki, Azərbaycanda biznes ilə məşğul olur. Cənab Prezident, Sizin dediyiniz kimi, Azərbaycan son müddət ərzində çox sürətlə inkişafda olan ölkədir. Hər bir kəs razılaşır ki, ARDNŞ çox yaxşı, səmərəli danışıq aparan işçi qrupuna malikdir və ümumilikdə, Azərbaycanın xarici şirkətlərlə apardığı danışıqlar çox yaxşı məcrada keçir. Amma, eyni zamanda, həm də müşahidə olunur ki, digər sektorlar neft və qaz sənayesi kimi inkişaf etmir. Necə fikirləşirsiniz, digər sahələri Neft Fondu vasitəsilə maliyyələşdirmək olarmı? Dövlət vəsaiti ilə özəl vəsait hesabına qarışıq maliyyələşdirməyə necə baxırsınız?

CAVAB: Neft və qaz sektorunun digər sənaye sahələrindən daha sürətlə inkişaf etməsi faktı doğrudur və bu, tamamilə təbiidir. Çünki Azərbaycan müstəqilliyini qazanarkən ölkənin heç bir maliyyə ehtiyatı yox idi. Praktiki olaraq, heç bir vəsaitimiz yox idi və bi-

zim iqtisadiyyatın sonrakı inkişafı tamamilə xarici sərmayədən asılı idi. Əlbəttə, o vaxt, müharibə şəraitində iqtisadiyyatın hər hansı sahəsinə xarici sərmayələr cəlb etmək mümkün deyildi. Hərc-mərclik və iqtisadi tənəzzül şəraitində hətta neft sektoruna da sərmayə cəlb etmək çox çətin idi. Biz 1994-cü ildə sərmayəçiləri dəvət etməkdən ötrü böyük səylər qoyduq. Artıq 1995-ci ildə vəziyyət tamamilə dəyişdi və sərmayəçilər Azərbaycanda iş almaqdan ötrü rəqabət aparırdılar. Ona görə də bu sahəyə daha çox sərmayə cəlb olunması təbiidir. Amma bu, o demək deyil ki, biz digər sahələrə az diqqət yetiririk. Biz neftdən gələn gəlirlərdən, Neft Fondunun vəsaitindən digər sahələrin, infrastrukturun inkişaf etdirilməsində istifadə etmək fikrindəyik. Hazırda bu vəsaitdən qaçqın-köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq üçün istifadə olunur. Ermənistanın işğalı nəticəsində qaçqın-köçkün vəziyyətinə düşmüş bir milyon insana lazımi kömək göstərilir. Biz onlar üçün yeni evlər, qəsəbələr, şəhərciklər salırıq. Bu proses davam etdiriləcəkdir. Eyni zamanda, Fondun vəsaiti yeni qurğular, müəssisələr və iş yerləri yaradılması üçün də istifadə olunacaqdır. Yeni yollar çəkiləcək, su elektrik stansiyaları tikiləcəkdir. Bu baxımdan dövlət özəl sərmayəçilərlə birgə iqtisadiyyat üçün sərmayələr ayıra bilər.

SUAL: Cənab Prezident, biz xüsusilə elektrik stansiyalarının tikintisinə böyük maraq göstəririk. Bu sahədə Azərbaycanda hansı perspektivlər mövcuddur? Energetika təsərrüfatının özəlləşdirilməsi gözlənilirmi?

CAVAB: Biz energetika sektoruna xüsusi fikir veririk. Bu gün Azərbaycanda olan elektrik stansiyalarının sayı və gücü bizə imkan vermir ki, tələbləri tam ödəyək. Ölkəmiz inkişaf edir və yeni müəssisələr yaranır. Ona görə də əlavə elektrik stansiyalarına ehtiyac vardır. Bu sahədə layihələr həyata keçirilir. Böyük elektrik stansiyalarından biri Bakı ətrafında Yaponiya hökumətinin yardımı ilə tikilmişdir. Digər, gücü 400 meqavat olan elektrik stansiyasının tikilməsi ilə bağlı da danışıqlar aparılır. Bu sahənin inkişaf etdirilməsi üçün bütün imkanlardan istifadə olunur. Köhnə elektrik stansiyaları müasir tələblərə, bu günün reallıqlarına cavab vermir. Onlar həddindən artıq çox yanacaq – mazut və qaz sərf edirlər. Baxmayaraq ki, biz neft hasil edən ölkəyik, ancaq hələlik enerji daşıyıcılarına ehtiyacımız da böyükdür. Ona görə də Rusiyadan təbii qaz alınır.

Həmin sektorun özəlləşdirilməsinə gəldikdə isə biz gərək bu məsələdə çox ehtiyatlı olaq. Bu gün elektrik enerjisinin paylanma sistemi xarici şirkətin idarəçiliyinə verilmişdir. Bu proses davam etdirilə bilər. Amma resursların özü – neft, qaz dövlətə məxsusdur. Mən elə bilirəm ki, biz energetikanın potensialını artıra bilərik və bunu yeni qurğular, infrastruktur yaratmaqla əldə edə bilərik. Neft hasilatı artan zaman isə Azərbaycan hətta elektrik enerjisini qonşu ölkələrə də ixrac edə biləcək səviyyəyə çata bilər.

SUAL: Azərbaycanlıların müxtəlif ölkələrə gedərək orada bizneslə məşğul olmalarına münasibətiniz necədir?

CAVAB: Mənim bu prosesə münasibətim çox müsbətdir. Düşünürəm ki, azərbaycanlılar yaşayış yerlərini seçməkdə azaddırlar. Biz kommunist ideologiyası sistemində, hər şeyin qadağan olunduğu şəraitdə o qədər yaşamışıq ki, sərbəst surətdə yaşayış yeri seçmək hüququmuz olmayıbdır. Ona görə də azadlığın nə olduğunu yaxşı bilirik və mən dediyiniz meyli tamamilə dəstəkləyirəm. Azərbaycanlılar Avropada və digər yerlərdə nə qədər çox yaşasalar, orada Azərbaycan haqqında daha çox məlumat olacaqdır. Bi-

zimkilər də oralardan zəngin təcrübə qazanacaqlar, yeni biliklər alacaqlar, əlaqələr quracaqlar, yeni biznes sahələri öyrənəcəklər və uzunmüddətli perspektiv baxımından bunun hamısı bizim ölkənin xeyrinə işləyəcəkdir. Onlar həm də bizim ölkəni tanıdacaqlar. Azərbaycanlılar öz ölkəsinə, vətəninə bağlıdırlar. Onlar xaricdə ölkəmizin haqq sözünü deyəcəklər. Yaxşı haldır ki, bizim vətəndaşlar indi azaddırlar və digər ölkələrdə məskunlaşırlar. Onlar yaşadıqları ölkənin iqtisadi inkişafında da iştirak edir, eyni zamanda, bizim ölkənin inkişafına öz töhfələrini verirlər. Yəqin ki, bu sualı verəndə özünüzü nəzərdə tuturdunuz. Mən sizə də işinizdə uğurlar arzulayıram.

SUAL: Mənim adım Jan Pol Delandır. 1997-ci ildən Azərbaycanda fəaliyyət göstərən şirkətdə çalışıram. Biz iki proqram üzrə fəaliyyət göstəririk - Avropa İttifaqının maliyyələşdirdiyi Füzuli və Ağdam rayonları kəndlərinin yenidən qurulması və Azərbaycanda müxtəlif sərmayə layihələrinin həyata keçirilməsi proqramları. Mənim iki sualım vardır. Birincisi, Ermənistanla danışıqlar hansı səviyyədədir və razılıq əldə olunması Azərbaycan iqtisadiyyatına necə təsir edəcəkdir? İkincisi, Sizin Bakı şəhərində infrastruktur dəyişiklikləri ilə əlaqədar geniş planlarımız və layihələriniz vardır. Bununla əlaqədar məlumat verə bilərsinizmi?

CAVAB: Sağ olun. Təəssüflər olsun ki, uzun müddətdir Azərbaycan və Ermənistan arasında danışıqlar prosesində tərəqqi yoxdur. Bu, əsasən Ermənistanın qeyri-konstruktiv siyasəti ilə bağlıdır. Bilirsiniz ki, XXI əsrdə bir ölkənin digər ölkənin ərazisini işğal etməsi dözülməz haldır. Bəli, Azərbaycanın Dağlıq Qarabağ ərazisində müharibə olub, separatizm olubdur. Lakin on ildir ki, biz atəşkəs rejimində yaşayırıq və bütün bu müddət ərzində danışıqlar aparılır. Təəssüf ki, danışıqlar uğurlu olmayıbdır. Zənnimcə, əsas məqsəd müharibəyə son qoymaqdır. Lakin bu, yalnız erməni işğalçı qüvvələrinin zəbt edilmiş ərazilərdən geri çəkiləcəyi təqdirdə olacaqdır. Düşünürəm ki, Ermənistanda qərar qəbul edən şəxslər başa düşəcəklər ki, özlərini mühüm regional layihələrdən təcrid etmək çıxış yolu deyildir. Bəli, Azərbaycan müharibədən əziyyət çəkib, biz ərazilərimizi itirmişik, insanlarımız həlak olmuş, yaralanmışdır. Amma biz müstəqilliyimizi qorumuşuq. Bu isə ən vacib məsələdir.

Mən, tam əminəm ki, bu gün ərazisinin 20 faizi işğal edilmiş Azərbaycan əraziləri işğal olunmayan Ermənistandan daha müstəqildir. Bu müharibə iqtisadi baxımdan çox zərərli və dağıdıcı olub. Ancaq gəlin, müharibənin sonluğuna baxaq. Ermənistan özünü münaqişədə üstünlük qazanan ölkə kimi görürsə, mən buna şübhə edirəm. Gəlin, nəticəyə baxaq, Azərbaycanın və Ermənistanın iqtisadi inkişafını müqayisə edək. Gəlin, iki ölkənin perspektivlərinə nəzər salaq və görək ki, iki ildən sonra nələr olacaqdır. Bu gün Azərbaycanın büdcəsi Ermənistandakından üç dəfə artıqdır və üç ildən sonra 5-10 dəfə artıq olacaqdır. Bu uçurum daha da dərinləşəcək və fərq artacaqdır. Bu gün iki ölkədəki iqtisadi vəziyyət müqayisəolunmazdır. Ona görə də hər hansı üstünlük barədə danışmaq böyük sual altındadır.

Mən istərdim ki, müharibə dayansın və ərazilərimiz sülh yolu ilə geri qaytarılsın. Amma bu, yalnız bizdən asılı deyildir. Bu, habelə beynəlxalq ictimaiyyətdən də asılıdır. Beynəlxalq aləm gərək beynəlxalq hüquq normalarını pozan tərəfə təzyiq göstərsin. Bu normaları Azərbaycan pozmur. Biz heç kimin ərazisini işğal etmirik, torpaqlarını ələ keçirmirik. Bu müharibədə biz itki vermiş tərəfik və müharibənin qurbanıyıq. Ona görə də problemin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həyata keçirilə bilər.

İnfrastruktur layihələrinə gəldikdə, hazırda ölkədə yeni yollar çəkilir. Azərbaycanı Gürcüstanla birləşdirən qədim İpək yolu bərpa olunur. Bu yolun bizim ərazimizdən keçən hissəsi 400 kilometrə yaxındır. Eyni yollar ölkəmizin paytaxtından İrana və Rusiyaya da çəkiləcəkdir. Ona görə də bizim gələcəkdə hər üç istiqamətə rahat yolumuz olacaqdır. Bakının özündə də şəhərdaxili yolların salınması nəzərdə tutulur, müsabiqələr elan olunur. İştirak etmək istəyən şirkətlər öz təkliflərini verə bilərlər. Ümumiyyətlə, gələcək üçün çoxlu layihələr nəzərdə tutulur. Yolların tamamilə yenidən qurulması həyata keçiriləcəkdir ki, onlar müasir tələblərə cavab versin. Burada həm beynəlxalq maliyyə qurumları, həm də bizim hökumətimiz vəsait qoyublar. Əlavə sərmayəçilər olarsa, biz onlarla da işləməyə hazırıq.

SUAL: Cənab Prezident, mən turizmin inkişafı ilə maraqlanıram. Biz Azərbaycanda Şəki xanlarının sarayını, Naxçıvandakı məqbərələri və Şirvanşahlar sarayını görmüşük, Bakı ətrafında atəşpərəstlərin məbədi ilə də tanış olmuşuq. Birinci missiya BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilirdi. Bizi çox maraqlandıran digər bir sahə isə Bakının və Abşeron yarımadasının dənizə qovuşan sahəsidir. Bu layihə haqqında sizin fikriniz necədir? Ümidvarıq ki, Fransa hökuməti bu layihələrlə bağlı bizə kömək edəcəkdir.

CAVAB: İlk əvvəl onu deyim ki, mən Prezident vəzifəsinə yeni seçilmişəm və layihələrin hamısı ilə yaxından tanışlıq üçün bir qədər vaxt lazım olacaqdır. Həm də Azərbaycanda o qədər layihələr həyata keçirilir ki, onların hamısı haqqında dəqiq məlumatlar vermək bir qədər çətindir. Amma sizin dediklərinizə görə minnətdaram. Bizim mədəniyyət incilərimiz qorunub-saxlanılmalıdır. Azərbaycanın qədim tarixi, memarlıq abidələri vardır ki, onlar ölkənin bütün bölgələrində mövcuddur. Ölkəmizin görməli yerləri çoxdur və bizdə 9 müxtəlif iqlim qurşağı vardır ki, bu da rəngarəng təbiət deməkdir. Ona görə turizm bizim üçün mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Təəssüflər olsun ki, Ermənistanın təcavüzü sovet dövründə qazandığımız bir çox turistlərdən bizi məhrum etmişdir. Onlar ölkəyə gəlməkdən qorxurlar. Bizim gözəl dənizimiz, dağlarımız vardır və onları turist yerləri kimi istifadə etmək imkanları böyükdür. Azərbaycanda turizm sənayesinə böyük diqqət yetiriləcəkdir, ölkənin hər bir bölgəsində turistləri maraqlandıra biləcək yerlər vardır. Mən ölkəyə qayıdan kimi sizin söylədiyiniz layihə ilə maraqlanacağam. Sizə isə bu məsələ ilə bağlı müraciət etdiyinizə görə minnətdaram.

SUAL: Cənab Prezident, mən MEDEF-in Mərkəzi Asiya və Qafqaz üzrə komitəsinin prezidenti Kristian Monsam. İcazə verin, Sizə öz minnətdarlığımı bildirim. Çox təqdirəlayiq haldır ki, Siz demokratikləşmə prosesinin iqtisadi layihələrin həyata keçirilməsində həlledici rolunu xüsusi vurğuladınız. Mən Sizinlə tam razıyam.

Siz yoxsulluğun azaldılması proqramından da bəhs etdiniz. Beləliklə, qarşımızda çətin vəzifələr durur. Bir tərəfdən, bazar iqtisadiyyatı şəraitində sərmayəçiləri cəlb etməyi düşünürsünüz, digər tərəfdən, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına çalışırsınız. Bir sıra ölkələr bu çətin vəzifələrin öhdəsindən gələ bilməyiblər. Bəziləri yarı yolda düşünüblər ki, bazar iqtisadiyyatı sosial bərabərliklə yanaşı addımlaya bilməz. Zənnimcə, bu, düzgün deyildir. Digərləri sosial ədalət mövzusunda həddindən artıq uzağa gediblər. Nəticədə, rəqabət qurban verilmişdir. Elə bilirəm ki, bu məsələ ilə bağlı Sizin fikirlərinizi öyrənmək maraqlı olacaqdır.

CAVAB: Mən sizinlə tamamilə razıyam. Elə bilirəm ki, indiyədək Azərbaycanda bazar iqtisadiyyatının və sosial ədalətin tarazlığı təmin olunubdur. Bazar iqtisadiyyatına gəldikdə, deməliyəm ki, genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilmiş, ticarət sərbəstləşdirilmiş, torpaq islahatı aparılmış və nəticədə hazırda ümumi daxili məhsulumuzun 71 faizi özəl sektorda istehsal edilir.

Bildiyiniz kimi, hökumətin inhisarında olan neftdən gələn böyük həcmdə gəliri də nəzərə almaqla, 71 faiz böyük göstəricidir. Bu, hələ son rəqəm deyildir. Bu proses davam edir. Bütün bu göstəricilər büdcəmizdə də əks olunmuşdur. İndi ticarət və kənd təsərrüfatının, xidmət sahələrinin büdcədə payı artmışdır. 1,5 milyarda çatdırılmış bu büdcə sosial yönümlüdür və onun çox hissəsi məhz sosial istiqamətlərə xərclənir – məvaciblər verilir, pulsuz təhsil və səhiyyəyə sərf olunur. Əlbəttə, bizim fikrimizcə, yalnız bazar iqtisadiyyatı dəyərləri tətbiq olunsaydı, büdcəmiz də tam fərqli olardı. Lakin bugünkü vəziyyət tam optimaldır və bizim tutduğumuz yol digərləri üçün örnək ola bilər.

Ölkənin ehtiyacları çoxdur, görüləsi işlər də yetərlidir. Bizə yeni elektrik stansiyaları, yeni qurğular, zavodlar, yeni iş yerləri açmaq lazımdır. Lakin eyni zamanda, neftdən əldə olunmuş gəlirləri qaçqın-köçkünlərin ehtiyaclarına da xərcləyirik. Bu məqsədlə artıq 70 milyon dollar vəsait ayrılmışdır. Onlar üçün yeni evlər tikilib, qəsəbələr salınmışdır. Mən bununla bağlı yeni bir fərman imzalayacağam. Ölkədə bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Biz bu siyasəti aparırıq və əminik ki, bu, bizə uğur gətirəcəkdir.

İqtisadiyyatın öz qanunları var, biz bu qanunları bilirik və onlara riayət etmədən ölkə uğura nail olmayacaqdır. Amma eyni zamanda, ölkənin normal sosial inkişaf proqramı da var. Sosial inkişaf qanunlarına da riayət etmək mühümdür. Azərbaycanın zəngin olmaq üçün böyük potensialı var. Zəngin olan ölkədə yoxsullar olmamalıdır. Ölkədə zəngin adamların sayı artır. Bu da ki, ölkədə gedən normal inkişafın nəticəsidir. Lakin eyni zamanda, yoxsulluq səviyyəsində yaşayanları həmin nöqtədən yuxarı qaldırmaq lazımdır. Ona görə də hökumətimiz üçün yoxsulluğun aradan qaldırılması ilə bağlı proqramlar çox böyük əhəmiyyət kəsb edəcəkdir. Xalqımız bunu görür və qiymətləndirir. Elə bilirəm ki, bu tarazlığı saxlamaq çox vacibdir, bazar iqtisadiyyatı və sosial yardım siyasəti gələcəkdə də davam etdiriləcək.

Görüşün sonunda MEDEF-in prezidenti Fransua Periqo Azərbaycan Prezidenti İlham Əliyevə müraciətlə dedi:

- Cənab Prezident, Sizin bizə ayırdığınız vaxt sona çatdı və deməliyəm ki, çox vaxt belə azad sual-cavab aparmaq imkanı olmur. Çoxumuz ölkənizdə mövcud olan imkanlar barəsində ətraflı məlumat əldə etdik. Sonda hamımızın adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən cənab nazirə də öz minnətdarlığımı bildirirəm. O, əvvəlcə ingiliscə zəif bildiyini desə də, sonra çox gözəl çıxış etdi. Xoşbəxtik ki, burada saziş imzalandı və həmin saziş ölkələrimiz arasında münasibətlərin inkişafını sürətləndirəcəkdir.

Siz bizi ölkənizə səfərə dəvət etdiniz. Biz bu səfəri həyata keçirəcəyik. Çox sağ olun, cənab Prezident.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "TOTAL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də, Fransaya rəsmi səfəri çərçivəsində Parisdə onun üçün ayrılmış iqamətgahda "TOTAL" neft şirkətinin prezidenti Tyeri Demarc ilə görüşmüşdür.

Prezident İlham Əliyev şirkətin ölkəmizin iqtisadiyyatında, xüsusilə neft sektorunda fəaliyyətindən məmnunluğunu ifadə etmiş və bildirmişdir ki, fransız iş adamlarının təkcə neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də sərmayələr yönəltməsi üçün geniş imkanlar mövcuddur.

"TOTAL" şirkətinin rəhbəri Azərbaycanın neft və qaz yataqlarının işlənilməsi sahəsində fəaliyyətlərinin istiqamətləri və gələcək planları barədə Prezident İlham Əliyevə geniş məlumat vermiş, səfər çərçivəsində vaxt ayırıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "CASTEL" QRUPUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də, Fransaya rəsmi səfərinin ilk günü Parisdə onun üçün ayrılmış iqamətgahda "Castel" qrupunun prezidenti Pyer Kastel ilə görüşmüşdür.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycanın dövlət başçısı ölkəmizdə aparılan iqtisadi islahatlardan, xarici sərmayələrin etibarlı qorunmasından ətraflı bəhs etmiş, "Castel" qrupunu ölkəmizin iqtisadiyyatında daha fəal iştiraka dəvət etmişdir.

Cənab Pyer Kastel səfər çərçivəsində vaxt ayırıb onunla görüşdüyü üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirmiş, başçılıq etdiyi şirkətlər qrupu tərəfindən Azərbaycanda şərab istehsalı sahəsinə sərmayə qoyuluşu imkanlarının öyrənildiyi barədə məlumat vermişdir.

FRANSANIN MÜDAFİƏ NAZİRİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfərinin ilk günü, yanvarın 22-də Fransanın müdafiə naziri xanım Mişel Alyo-Mari öz iqamətgahında Azərbaycanın dövlət başçısının şərəfinə rəsmi qəbul təşkil etmişdir.

Fransanın müdafiə naziri xanım Mişel Alyo-Mari və Azərbaycan Prezidenti İlham Əliyev qəbulda nitq söylədilər.

FRANSANIN MÜDAFİƏ NAZİRİ XANIM MİŞEL ALYO-MARİNİN NİTQİ

- Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Cənab nazirlər!

Hörmətli parlament üzvləri!

Əziz dostlar!

Azərbaycan Respublikasının Prezidentini öz iqamətgahımızda qəbul etməkdən böyük şərəf hissi duyuram. Eyni zamanda, Sizi Parisdə yenidən görməyimdən məmnunam. Bu, Sizin Fransaya göstərdiyiniz xüsusi diqqətin daha bir sübutudur.

Cənab Prezident, Siz bu səfərinizlə mərhum Prezident Heydər Əliyevin işinin davam etdirilməsinə olan qayğınızı nümayiş etdirirsiniz. Biz hamımız yaxşı bilirik ki, o, özünü Fransaya və Prezident Jak Şiraka yaxın hiss edirdi. Prezident Şirak qurduğu münasibətlərin daha da möhkəmləndirilməsinə verdiyi əhəmiyyəti bir daha təsdiqlədi. Bu münasibətlər qədim sivilizasiya olan iki ölkə arasındakı bağlılığa arxalanır. Sizin sivilizasiyanız Aleksandr Düma tərəfindən onun Qafqaza səfəri zamanı təsvir edilmişdir.

Münasibətlər, eyni zamanda, sıx iqtisadi əlaqələrə əsaslanır və arzu edirik ki, bunlar energetika, infrastruktur və bir çox digər sahələrdə inkişaf etsin.

Siyasi münasibətlərə gəldikdə isə, bilirsiniz ki, həmin münasibətlər də sıxdır. Siz bilirsiniz ki, Prezident Şirak Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə şəxsən nə dərəcədə məşğul olur və onun həlli üçün səylərini davam etdirir.

Cənab Prezident və xanım Əliyeva, nəhayət, münasibətlərimizdə iki ölkə arasında ən yüksək səviyyədə qurulan şəxsi əlaqələrimizə də arxalanırıq. Cənab Prezident, icazə verin, nazir olduğuma görə və xüsusən də qadın olduğuma görə, Sizi müşayiət edən xanımınızı salamlayım. Bilirəm ki, o, bizim ölkəmizi nə dərəcədə sevir və onunla maraqlanır.

Xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi badələrinizi Prezident Əliyevin və xanım Əliyevanın, Fransa və Azərbaycan arasındakı dostluğun şərəfinə qaldırmağa dəvət edirəm. Cənab Prezident, arzu edirəm ki, Sizin Fransaya səfəriniz uğurla keçsin.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım nazir!

Hörmətli xanımlar və cənablar!

Mən bu dəvətə görə sizin hamınıza öz təşəkkürümü bildirirəm. Bu gün mənim Fransaya rəsmi səfərim başlayıbdır. Çox şadam ki, bu səfər uğurla davam edir. Artıq çox mühüm görüşlər keçirilibdir.

Ölkələrimiz arasında uğurlu əməkdaşlıq aparılır. Bu əməkdaşlıq bütün sahələrdə öz gözəl nəticələrini verməkdədir. Siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz uğurla əməkdaşlıq edir və bu, bizim ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Fransa, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədridir. Biz ümid edirik ki, digər həmsədrlərlə birlikdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında daha fəal rol oynayacaqdır.

Fransa, həm də Avropanın aparıcı ölkələrindən biridir. Nəzərə alsaq ki, Azərbaycan da öz gələcəyini Avropa strukturlarına inteqrasiyada görür, bu baxımdan da bizim ikitərəfli münasibətlərimiz böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, Fransa ilə bizi dostluq əlaqələri bağlayır və bu əlaqələr çox güclüdür. Əminəm ki, gələcəkdə də onlar daha da güclənəcəkdir.

Bütün bu amilləri nəzərə alaraq, demək olar ki, nə üçün Azərbaycan Prezidenti öz ilk rəsmi səfərini Fransaya edibdir. 1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev ilk səfərini Fransaya edibdir. 2004-cü ildə Azərbaycanın Prezidenti öz ilk səfərini Fransaya edibdir. Bu ənənə artıq yaranıbdır və ümidvaram ki, bundan sonra da yaşayacaqdır.

Arzu edirəm ki, bizim ikitərəfli münasibətlərimiz bundan sonra da inkişaf etsin, güclənsin, bizi bir-birimizə daha da yaxın etsin.

Xanım nazir, bu badələri sizin sağlığınıza, hörmətli dostlar, sizin sağlığınıza və Fransanın şərəfinə qaldırıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Fransaya rəsmi səfəri çərçivəsində Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüş keçirmişdir.

İnstitutun binası qarşısında Azərbaycan dövlətinin başçısını institutun direktor müavini cənab Ksavye de Vilpen, Fransanın dövlət və hökumət nümayəndələri qarşıladılar.

Prezident İlham Əliyev institutun fəxri qonaqlar kitabını imzaladı.

Sonra Fransanın siyasi xadimlərinin, diplomatların və jurnalistlərin iştirakı ilə görüş başlandı.

Ksavye de Vilpen Azərbaycan Prezidenti İlham Əliyevi görüş iştirakçılarına təqdim edərək, onun beynəlxalq aləmdə kifayət qədər tanınmış və diplomatiya sahəsində böyük təcrübəyə malik siyasətçi olduğunu söylədi. O, əmin olduğunu vurğuladı ki, Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyevin ilk səfərini Fransaya etməsi Fransa-Azərbaycan əlaqələrinin inkişafında yeni mərhələnin başlanğıcı olacaqdır.

Sonra Prezident İlham Əliyevə söz verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox sağ olun, bu nəzakətli təqdimata görə minnətdaram.

Əziz xanımlar və cənablar!

Beynəlxalq Əlaqələr İnstitutuna dəvət olunmaq mənim üçün böyük şərəfdir. Bu institut dünyada gedən hadisələrin təhlili və dəyərləndirilməsi ilə bağlı mühüm tədqiqatlar aparır. Siz bilirsiniz ki, bizim mərhum Prezidentimiz Heydər Əliyev bu institutla çox bağlı idi. Bir neçə dəfə buraya gəlib görüşlər keçirmişdi və bu görüşlərdən xoş təəssüratları var idi. Ona görə də, mənim burada olmağım təsadüfi deyildir. Prezident kimi mənim ilk rəsmi səfərimin Fransaya olması bizim Fransa ilə ikitərəfli münasibətlərə, böyük Avropa ailəsinə inteqrasiyaya nə dərəcədə böyük əhəmiyyət verməyimizə dəlalət edir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə qazandı. O zaman ölkədəki vəziyyət çox çətin idi. İqtisadi, siyasi və sosial sahələrdə tam böhran hökm sürürdü, Ermənistan Azərbaycana hərbi təcavüz etmişdi, Azərbaycan torpaqlarını itirirdi. Azərbaycan xalqı Heydər Əliyevi Bakıya dəvət edib, onu Prezident seçənədək bütün bunlar davam edirdi. Ondan sonra vəziyyət dəyişməyə başladı. Ermənistanla müharibə dayandırıldı, atəşkəs əldə olundu, iqtisadi tənəzzülə son qoyuldu.

1996-cı ildən isə iqtisadi dirçəliş dövrü başlandı. O vaxtdan etibarən bizim ölkəmiz dinamik inkişaf edir. İqtisadi inkişafda böyük nailiyyətlər əldə olunmuşdur. İndi hamıya məlumdur ki, Azərbaycan iqtisadi cəhətdən regionun lideridir, biz iri həcmdə xarici sərmayələri ölkəyə cəlb edə bildik və adambaşına sərmayələrin qoyuluşu baxımından keçmiş sovet ölkələri içərisində lider mövqeyindəyik.

Azərbaycan öz təbii ehtiyatlarını xarici biznes üçün açıq elan etdi və bu gün dünyanın ən böyük şirkətləri bizimlə birlikdə işləyirlər. Azərbaycan Xəzər dənizində öz neft ehtiyatlarının işlənilməsi sahəsində öncül mövqelərə sahib olmuşdur. Bu işi əsas neft şirkətləri ilə birlikdə yerinə yetiririk, bu əməkdaşlığın nəticəsində ölkəmizə milyardlarla vəsait gətirilir.

Azərbaycan yalnız birbaşa xarici sərmayədən deyil, eyni zamanda, xarici texnologiyalardan, təcrübədən də yararlandı. Hazırda bizdə, ölkədə yaşayan xaricilərin sayı çoxdur, onlar özlərini evdəki kimi hiss edirlər. Bizim xalqımız həmişə qonaqpərvərliyi ilə fərqlənib. Ölkədə dini və etnik səbəblərdən heç vaxt anlaşılmazlıq, narazılıq olmayıbdır. Ona görə də, bizdə yaşayan minlərlə xarici özlərini rahat hiss edir. İqtisadi islahatların nəticəsi kimi, son bir neçə il ərzində illik 10 faiz artım müşahidə olunur. Həyat səviyyəsi yüksəlir, amma bununla belə, sosial problemlər də çoxdur. Bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var, onlar bizim zəbt olunmuş torpaqlarımızı tərk etmiş vətəndaşlarımızdır. Bu, Azərbaycan iqtisadiyyatı üçün çox ağır bir yükdür. Əhalinin ümumi sayına nisbətdə götürdükdə, Azərbaycan dünyada ən çox qaçqın-köçkün olan ölkədir. 8 milyonluq əhalinin 1 milyonu qaçqın-köçkünlərdir.

Bununla belə, biz elə bir şərait yarada bilmişik ki, xarici sərmayəçilər özlərini rahat hiss edirlər. Mən elə bilirəm ki, bu, ən böyük nailiyyətlərdən biridir. Çünki etibar qazanmaqdan ötrü illər lazımdır, bircə səhv addım hər şeyi yox edə bilər. Biz işimizi elə qurduq ki, səhv addımlara yer qalmadı. Azərbaycanın coğrafi-siyasi mövqeyi, bir tərəfdən,

onu çox mühüm yolayrıcı mərkəzə çevirir, digər tərəfdən, biz müxtəlif münaqişələrin baş verdiyi ərazidə yerləşmişik.

Biz coğrafi-siyasi mövqeyin üstünlüklərindən istifadə edirik. Azərbaycan şərq-qərb və şimal-cənub dəhlizlərinin vacib ölkəsidir. Biz bundan bəhrələnməyə çalışırıq. Eyni zamanda, regionun özü - Qafqaz və daha geniş ərazi münaqişələrlə doludur. Bu da ki, sabit şərait yaradılmasına mane olur.

Bizim daha bir böyük nailiyyətimiz Azərbaycanda mövcud olan sabitlikdir. İctimai-siyasi sabitlik ölkənin iqtisadi uğurlar əldə etməsinin əsas səbəblərindən biridir. Biz istəyirik ki,qonşularımızla sülh şəraitində yaşayaq, regionumuz düşmənçilik deyil, əməkdaşlıq regionu olsun. Azərbaycan qonşuları ilə yaxşı münasibətlər yaradıbdır.

Türkiyə, Rusiya, Gürcüstan, İranla bizim yaxşı ikitərəfli münasibətlərimiz var. Regional səviyyədə əməkdaşlıq edirik. Ancaq, bir qonşumuzla heç bir münasibətimiz yoxdur ki, bu da Ermənistandır. Səbəbi də aydındır. 1980-ci illərin sonunda ölkəmizin Dağlıq Qarabağ bölgəsində başlayan separatçı hərəkat Azərbaycana qarşı müharibə ilə nəticələndi. Ermənistan Dağlıq Qarabağı Azərbaycandan ayırmaq məqsədi ilə ölkəmizə qarşı təcavüz etdi və Dağlıq Qarabağın inzibati ərazisindən kənarda yerləşən daha 7 rayon işğal olundu. Azərbaycana qarşı bu təcavüz 10 ildən artıqdır ki, davam edir.

Bütün ölkəmiz bu müharibədən əziyyət çəkibdir və əvvəldə dediyim kimi, 1 milyon əhalimiz qaçqın və köçkündür. Beynəlxalq aləm uzun müddətdir ki, bu məsələ ilə məşğuldur, lakin, təəssüf ki, elə bir uğur əldə olunmayıbdır. ATƏT-in Minsk qrupu və onun həmsədrləri - Fransa, Rusiya və Birləşmiş Ştatlar çox cəhdlər edirlər ki, münaqişənin həlli yollarını tapsınlar və tərəfləri razılığa gətirsinlər.

Təəssüf ki, bu sahədə heç bir irəliləyiş yoxdur. Bu münaqişəni həll etmək üçün beynəlxalq hüquq normaları nəzərə alınmalıdır. BMT 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə Ermənistandan tələb olunur ki, işğalçı ordusunu qeyd-şərtsiz geri çəksin. Təəssüf ki, Ermənistan beynəlxalq hüquq normalarına heç bir əhəmiyyət vermir. Ermənistanın mövqeyi belədir ki, Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratlarını təyin etməyə haqları vardır.

Beynəlxalq hüquq normaları isə bu fikrə haqq qazandırmır. Çünki ermənilər bir millət kimi öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil ölkəsi vardır. Bu ölkə Ermənistandır. Onların məntiqinə əsaslansaq, ermənilər öz müqəddəratlarını hər bir yerdə təyin edə bilərlər, ona görə ki, onlar hər yerdə - Rusiyada, Fransada, Afrikada, Amerikada yaşayırlar. Bu, beynəlxalq aləmdə qəbul olunan bir şey deyildir. Ona görə də, onların təbliğat vasitəsi kimi istifadə etdikləri bu metod ciddi qəbul oluna bilməz. Beynəlxalq hüquq normalarında əsas əhəmiyyət kəsb edən prinsip ərazi bütövlüyüdür, hər bir ölkənin suverenliyidir. Azərbaycan dünyada hər bir ölkənin ərazi bütövlüyünü tanıyır və biz istəyirik ki, dünya da bizim ərazi bütövlüyümüzü tanısın və o, bərpa olunsun.

Biz ərazi bütövlüyümüzün bərpası üçün hər şey edəcəyik. Bəzən belə düşünürlər ki, hansısa bir səbəbdən, xarici ölkələrin köməyi nəticəsində münaqişədən əldə etdiyi üstünlüklərə görə Ermənistanın danışıqlar zamanı mövqeləri daha əlverişlidir. Mən bununla razı deyiləm. İstərdim ki, bu məsələ ilə bağlı öz fikrimi çatdırım. Bəli, həqiqətən, yuxarıda qeyd etdiyim səbəblər sayəsində onlar heç vaxt Ermənistana məxsus olmamış

və məxsus ola bilməyəcək əraziləri ələ keçiriblər. Yeri gəlmişkən, mövzunun tarixi aspektindən danışsaq, ermənilər Dağlıq Qarabağ ərazisinə yalnız XIX əsrin əvvəllərində köçürülmüşlər. Bu, tarixi faktdır. 1970-ci illərdə Dağlıq Qarabağın mərkəzində ilk erməni məskənlərinin salınmasına həsr olunmuş abidə də ucaldılmışdı. Bu abidə ermənilərin Qarabağ torpağına ayaq basmasının 150 illiyinə həsr olunmuşdu. Ona görə də onların bu torpağa iddialarının heç bir tarixi əsası yoxdur.

Bu gün isə mən bu problemin başqa aspektindən danışmaq istəyirəm. Elə görünə bilər ki, Ermənistanın mövqeləri daha əlverişlidir. Amma əslində, belə deyildir. Bu gün Ermənistanla Azərbaycanı müqayisə etsək, hər bir kəs fərqi görə bilər. Azərbaycan tam müstəqil ölkədir. Ərazisində heç bir xarici dövlətin hərbi bazası yoxdur. Xarici yardımdan asılı deyildir. Azərbaycan iqtisadiyyatını inkişaf etdirir. Büdcəmiz Ermənistanın büdcəsindən 3 dəfə çoxdur. Coğrafi-strateji mövqeyini və ölkədə neft sektorunun inkişafını nəzərə alsaq, Azərbaycan qısa zaman kəsiyində çox güclü ölkəyə çevriləcəkdir. Ermənistana nəzər salsaq, görərik ki, bu deyilənlərə yaxın heç bir şey yoxdur. Ona görə də bu müharibədə kimin üstünlük əldə etməsi hələ böyük sual altındadır.

Mən bu münaqişə ətrafında ona görə geniş danışıram ki, onun yalnız Azərbaycan, region üçün deyil, bütün dünyaya təsiri böyükdür. Xatırladım ki, Sovet İttifaqının dağılmasının özü Qarabağdakı separatist hərəkatdan başladı. Ondan sonra Abxaziya, daha sonra Dnestryanı, sonra Cənubi Osetiya münaqişələri başlandı. Bu etnik separatçı hərəkatlar digərləri ilə müşayiət olundu. Nəticədə Sovet İttifaqı dağıldı. SSRİ-nin dağılmasından heyfsilənmirik, əksinə, Sovet İttifaqının dağılması bizə müstəqil olmaq imkanı verdi. Bizim xalqın əsrlərlə gözlədiyi müstəqilliyə nail olduq. Məsələ ondadır ki, bu separatçı hərəkatlar dağıdıcılıqla müşayiət olundu. Bu gün münaqişə zonası regionda sabitliyin pozulması üçün potensial ərazidir. Ona görə də, biz çox narahatıq ki, bu məsələ həll olunmazsa, regionda müharibənin yenidən başlanması üçün daimi təhlükə qalır. Ümid etmək istəyirəm ki, beynəlxalq icma və xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrləri Fransa, Rusiya və ABŞ bu münaqişənin həll olunmasında daha fəal rol oynayacaqlar. Ermənistanı inandıra biləcəklər ki, XXI əsrdə bir ölkənin digər ölkənin ərazisini işğal etməsi yolverilməzdir.

Məsələnin indiyə qədər həll olunmamasının digər bir səbəbi də beynəlxalq aləmin yeritdiyi ikili standartlardır. Əgər, dünyanın hansısa hissəsində hansısa bir ölkənin ərazisi digər ölkə tərəfindən zəbt olunursa, bu zaman beynəlxalq aləm öz resurslarından, siyasi, diplomatik vasitələrdən, yeri gələrsə, hərbi vasitələrdən istifadə edir və ədaləti bərpa edir. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı isə bu cür tədbirlər görülmədi. Ona görə də Azərbaycan xalqı beynəlxalq aləmin bu cür münasibətini ikili standart kimi qəbul edir. Mən yenə də ümidimi bildirmək istəyirəm ki, bu münaqişə həll olunacaq və həm Azərbaycan xalqı, həm də erməni xalqı gələcəkdə sülh şəraitində yaşayacaqlar.

Fransa Minsk qrupunun həmsədri kimi bu münaqişənin həll olunmasında böyük məsuliyyət daşıyır və buna çox qüvvə sərf edibdir. Prezident Jak Şirak şəxsən bu işlə məşğuldur və mən ümid edirəm ki, bütün bu səylərin bəhrəsi olacaqdır.

Bizim Fransa ilə ikitərəfli münasibətlərimiz çox müsbət istiqamətdə davam edir. Siyasi səviyyədə yaxşı qarşılıqlı anlaşma var, iqtisadi əlaqələr yüksək səviyyədədir. Fransız şirkətləri Azərbaycanda sərmayəçi kimi, kontraktor kimi işləyirlər. Hər iki tərəf bu

əməkdaşlıqdan razıdır. Biz ümid edirik ki, gələcəkdə Fransa kapitalı, fransız şirkətləri, Azərbaycanda daha çox təmsil olunacaq və ölkələrimiz bundan xeyir görəcəklər. Yeri gəlmişkən, ölkələrimiz arasında ticarət əlaqələri son müddətdə üç dəfə artmışdır.

Münasibətlərimizin inkişafı sahəsində böyük potensial var. Fransa ilə münasibətlərə Azərbaycanda həmişə böyük önəm verilmişdir. Fransa Azərbaycanı həmişə maraqlandıran ölkə olmuşdur. Fransanı Azərbaycanda həmişə daha yaxından tanımaq istəmişlər. Düşünürəm ki, bu da bizim əlaqələrin artmasına imkan verən bir məqamdır. Müxtəlif səpkilərdə, müxtəlif səviyyələrdə görüşlərin, səfərlərin, seminarların sayı artmalıdır. İnsanlar gərək bir-birini yaxşı tanısınlar. Fransa həm də Azərbaycan üçün ona görə vacibdir ki, Azərbaycan özünü Avropanın bir hissəsi hesab edir. Ölkəmiz Avropa Şurasının üzvüdür.

Artıq üç ildən çoxdur ki, biz gələcək inkişafımızı Avropaya inteqrasiya ilə bağlayırıq. Fransanın Avropada aparıcı rol oynaması da bizim ölkə üçün vacib bir amildir. Elə bilirəm ki, yaxınlaşmaq ölkələrimizin qarşılıqlı arzusudur və sizin ölkə ilə yaxınlaşmaqla Azərbaycan qarşısında duran çətinliklərin öhdəsindən daha asan gələcəkdir.

Son müddət ərzində biz böyük uğurlar əldə etmişik, nailiyyətlərimiz çox olub, tamamilə dağıdılmış ölkə indi sabit, dinamik inkişaf edən ölkədir. Əlbəttə ki, Azərbaycanda problemlər çoxdur: iqtisadi problemlər, sosial problemlər, yoxsulluq, işsizlik. Bütün bu məsələlərlə növbəti 5 il müddətində yaxından məşğul olacağıq və uğur qazanacağımıza əminəm. Mən əminəm ki, Azərbaycan Avropa strukturlarına geniş inteqrasiya etdikdən sonra daha uğurla inkişaf edəcəkdir. Heydər Əliyevin Azərbaycanı inkişaf etdirmək siyasəti davam etdiriləcək, çünki həyatın və zamanın sınağından çıxmış bu siyasət özünün doğru olduğunu sübuta yetirmişdir.

Çox vaxtınızı almaq istəmirəm. Azərbaycan haqqında deyəcəyim söz çoxdur. Bu gün dediklərim demək istədiklərimin çox az bir hissəsidir.

İstərdim ki, ünsiyyətimiz davam etsin, gələn dəfə Fransada olarkən məmnuniyyətlə bir daha sizinlə görüş keçirim. İstərdim ki, sizi də Azərbaycana dəvət edim, gəlib hər şeyi özünüz görəsiniz ki, ölkəmiz necə yaşayır, necə inkişaf edir. Təəssüflər olsun ki, bəzən mətbuatın yazdığı qərəzli yazılarla ölkədəki reallıq arasında heç bir oxşarlıq olmur. Bir daha dəvətə görə sizə minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, belə görüşlərimiz bir-birimizi daha yaxşı anlamağa kömək edəcəkdir. Çox vaxtınızı almayacağam, bir neçə kəlmə də fransız dilində müraciət edim.

Bugünkü görüşə görə sizə minnətdaram. Mən ingilis dilində danışdım, çünki ingilis dilində tez-tez danışmaq lazım gəlir, ünsiyyətlərimiz davam edərsə, fransız dilində daha tez-tez danışaram və gələn dəfə sizinlə görüşü fransızca keçirərəm.

Yaşasın Fransa, yaşasın Azərbaycan!

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı böyük diqqətlə dinlənildi və sürəkli alqışlarla qarşılandı.

Sonra dövlətimizin başçısı İlham Əliyev görüş iştirakçılarının suallarına cavab verdi.

SUAL: Fransa Senatı və Fransa hökuməti nəzərdə tutulan mədəni proqram çərçivəsində işləməkdən çox fəxr edir. İcazə verin, Senatdakı həmkarlarımı, xüsusilə də cənab Dümonu salamlayım. O, Fransa Senatında dostluq qrupunun rəhbəridir, cənab Monteskyönü də salamlayıram. Mənim sualım cənab Prezidentədir. Regional vəziyyətlə bağlı bugünkü gündə Gürcüstanı necə qiymətləndirirsiniz? Sizcə, Gürcüstan Rusiya ilə ABŞ arasında tarazlıq tapa biləcəkmi?

İLHAM ƏLİYEV: Dost kimi, qonşu kimi, birgə layihələrin iştirakçısı kimi, yaxşı siyasi və iqtisadi əlaqələrimiz olduğu ölkə kimi, əlbəttə, Gürcüstandakı vəziyyət bizim üçün də vacibdir. Biz istəyirik ki, Gürcüstandakı vəziyyət sabit olsun. Biz istərdik ki, Gürcüstandakı dostlarımız sülh şəraitində yaşasınlar. Gürcüstanın Azərbaycanla oxşar problemləri var. Onların da qondarma, separatçı "respublikaları" var və bunlar Gürcüstanın ərazi bütövlüyünü pozurlar. Ümumi problemlər bizi bir-birimizə daha sıx yaxınlaşdırır. Mən elə bilirəm ki, bizim coğrafi məkanda, bizim kimi ölkələr üçün əsas məsələ qarşıdurmanı əməkdaşlığa çevirməyə çalışmaqdır. Azərbaycanın da Rusiya ilə münasibətlərində çətin dövrlər var idi. 1990-cı illərin əvvəllərində çoxlu narazılıqlar var idi, bizə çox təzyiq olunurdu. Heç kim üçün sirr deyil ki, Rusiya silahla Ermənistana yardım edirdi, bəzən birbaşa hərbi yardım göstərirdi. Azərbaycana qarşı iqtisadi blokada var idi. Biz elə vaxtları yaşamışıq ki, heç bir məsələdə razılığa gəlmirdik. Xəzər dənizinin sərhədlərə bölünməsi məsələsində də. Bugünkü Rusiya-Azərbaycan münasibətlərinə baxsaq, - bu, həm də Rusiya Prezidenti Putinin fikridir, - münasibətlərimiz əsl qonşuluq münasibətləri nümunəsidir. Biz bütün problemləri həll edə bildik. Xəzər dənizi məsələsində də razılığa gəldik. Siyasi, iqtisadi məsələlərdə razılığa gəldik və hər iki tərəf bu razılıqlardan məmnundur. Elə bilirəm ki, bu qarşıdurma rəqabətin əməkdaşlığa çevrilməsinin gözəl nümunəsidir.

Güclü dövlətlərin maraqları çox vaxt toqquşur, onların mövqeləri çox zaman tam əks olur.

Bizim ölkələr üçün, region üçün ən yaxşısı odur ki, onların mənafeləri, haradasa, bizdən uzaq yerdə toqquşsun. Ona görə də elə bilirəm ki, Gürcüstan da bizim təcrübədən istifadə edəcək və bu qarşıdurmadan çəkinərək əməkdaşlığa başlayacaqdır. Bunun üçün imkanlar mövcuddur. Əgər bizim yardımımız lazım olarsa, bunu etməyə hazırıq. Dediyim kimi, Gürcüstanla münasibətlər bizim üçün çox vacibdir. Eyni zamanda, Rusiya ilə münasibətlər də bizim üçün mühüm əhəmiyyət kəsb edir. Hər ikisi bizim üçün qonşu və dost dövlətdir. Azərbaycan dostları ilə münasibətləri normal məcraya yönəltməyə və yardım göstərməyə həmişə hazırdır. Əminəm ki, yuxarıda qeyd olunan vəziyyət sülh məcrasına düşəcək, sabitləşəcək və narazılıqlar tezliklə aradan qaldırılacaqdır.

SUAL: Son dəfə Ermənistan Prezidenti Koçaryanla Cenevrədə görüşmüşdünüz. Bu görüşdən sonra hər hansı bir irəliləyiş varmı?

CAVAB: Həmin görüş Azərbaycanda keçirilmiş prezident seçkilərindən sonra ilk görüş idi. Bu, habelə mənim Ermənistan Prezidenti ilə də birinci görüşüm idi. Ona qədər biz bir-birimizi tanımırdıq. Demək olar ki, bu, bir növ tanışlıq məqsədi daşıyan görüş idi. Əsas məqsəd münaqişənin sülh yolu ilə həlli üzrə bir-birimizə fikirlərimizi bildirmək, keçmişə nəzər salmaq və gələcək imkanları nəzərdən keçirmək idi. Görüşdən sonra prezidentlər tərəfindən mətbuata bəyanat verildi və hər iki dövlət başçısı münaqişənin

sülh yolu ilə həll olunmasının vacibliyini bildirdi. Bu bəyanat müsbət hal kimi qiymətləndirilməlidir.

O ki qaldı praktiki addımlara, bu haqda ətraflı söhbət olmadı. Bizim mövqeyimiz bəllidir və o, ədalətlidir. Azərbaycan özünə məxsus olmayan heç nəyi tələb etmir. Biz yalnız özümüzə məxsus olan əraziləri istəyirik. Ona görə də mövqeyimiz tam ədalətlidir. Hadisələrin necə cərəyan edəcəyini zaman göstərəcəkdir. Bu münaqişənin həlli üçün güclü beynəlxalq vasitəçilik lazımdır. Əgər iki prezident razılaşa bilərdisə, onda heç Minsk qrupuna da ehtiyac olmazdı. Bəzən ATƏT-in Minsk qrupunun üzvləri bizə deyirlər ki, siz gedib razılaşmalısınız və biz də bu razılaşma əsasında işləyərik. Biz razılaşacağıqsa, onda vasitəçiləri neyləyirik? Vasitəçilər münaqişəyə cəlb olunmuş tərəflərə onun həlli yolunu tapmaqda kömək etməlidirlər. Ümidvaram ki, onlar öz fəaliyyətlərini davam etdirəcəklər. Amma eyni zamanda, sizə deyə bilərəm ki, biz hadisələri tələsdirmirik. Azərbaycanın mövqeyi ədalətlidir, vaxt bizə işləyir və beynəlxalq hüquq da bizim tərəfimizdədir. Digər tərəf bunu nə qədər tez başa düşərsə, bu, onlar üçün yaxşı olar.

SUAL: Mənim adım Corc Eskoroldur, universitetdə iqtisadiyyat üzrə professoram. Cənab Prezident, istərdim ki, çox maraqlı və məzmunlu nitqinizə görə Sizə minnətdarlığımı bildirim. Bu təqdimatdan sonra mən anladım ki, Dağlıq Qarabağ məhfumu sizin ölkə üçün nə dərəcədə böyük əhəmiyyət kəsb edir. Mən Sizə ölkənizin ərazi bütövlüyünü bərpa etmək səylərində uğurlar diləyirəm. İcazə versəydiniz, mən Sizə iki sualla müraciət edərdim. Birinci sual siyasi, ikinci isə iqtisadi xarakterlidir. Bilirəm ki, Azərbaycandan kənarda – İranda milyonlarla azərbaycanlı yaşayır. O da məlumdur ki, hazırda İranla ABŞ arasında münasibətlər olduqca pisdir. Lakin Azərbaycan həm ABŞ, həm də Rusiya ilə yaxşı münasibətlərə nail olubdur. Necə düşünürsünüz, 1940-cı illlərdə baş vermiş hadisələr təkrar oluna bilərmi? Bu adamlar Azərbaycana – ana vətənlərinə qovuşmaq arzusunu ifadə edə bilərlərmi? Digər sualım neft ehtiyatları ilə bağlıdır. Hələ 1945-ci ildə, müharibənin sonunda elan edilmişdi ki, Azərbaycanın neft ehtiyatları tükənir və daha neft hasil olunmayacaqdır. Bundan sonra, Sizə məlum olduğu kimi, neftçilər ikinci və üçüncü Bakı axtarmağa başladılar. Bəlkə bu belə düşünülmüşdü ki, neft yataqları Azərbaycanın müstəqillik dövrü üçün saxlanılsın?

CAVAB: Şərhinizə və sualınıza görə çox sağ olun. Xaricdə yaşayan azərbaycanlılara gəldikdə, deməliyəm ki, onları bir neçə kateqoriyalara ayırmaq olar. Elə azərbaycanlılar var ki, digər ölkəyə köçüb, orada diaspor kimi yaşayırlar. Digərləri isə başqa ölkə hesab olunsa da, öz dədə-baba torpaqlarında yaşayırlar. İranda yaşayan azərbaycanlılar öz ölkəsində yaşayırlar. Onların yaşadıqları yer dədə-baba torpaqlarıdır. 40-cı illərdə İranda olan hərəkat oradakı azərbaycanlıların Sovet İttifaqında yaşayan azərbaycanlılarla qovuşmaq hərəkatı deyildi. Bu, Cənubi Azərbaycanda olan müstəqillik hərəkatı idi. Bizim İranla yaxşı əlaqələrimiz var və biz bir-birimizin işlərinə qarışmırıq. Ölkələrimizdə dövlət qurumları, bir sıra məsələlərə baxışımız müxtəlifdir. Lakin aramızda qarşılıqlı anlaşma var. Biz qonşuyuq və dostuq. Əlaqələrimizi elə qurmalıyıq ki, hər iki ölkə bundan xeyir görsün.

İranda yaşayan azərbaycanlılar İran vətəndaşıdır və tarix boyu orada yaşamışlar. Bildiyiniz kimi, Böyük Azərbaycan Rusiya və İran arasında bölünmüşdü. Rusiya imperiyasının tərkibində olan Azərbaycan indi müstəqillik qazandı, İran ərazisində olan Azərbay-

can isə indi İranın bir hissəsidir. Mən ölkələrimiz arasındakı münasibətlərin inkişafının tərəfdarıyam və biz bir-birimizin işlərinə qarışmamalıyıq.

Mən, ümumiyyətlə, bir ölkənin digər ölkənin işlərinə qarışmasının əleyhinəyəm. Əgər ölkələr yalnız öz problemlərini həll etməklə məşğul olsalar, mən əminəm ki, nə müharibələr olar, nə münaqişələr olar, nə də qan tökülər.

Azərbaycanın təsdiq olunmuş ehtiyatları ilə bağlı onu deyə bilərəm ki, bunun müxtəlif mənbələri vardır. Sovet dövründə neft hasilatı Sibirdə tapılmış ehtiyatlarla müqayisədə, Azərbaycanda artıq səmərəsini itirmişdi. Bu ona görə idi ki, dənizdə neft çıxarmaq qurudakından daha baha başa gəlir. Ona görə də Azərbaycan neftinə diqqət azaldı. Bunun da bizim üçün müsbət sonluğu oldu. Çünki bu, bizə həmin ehtiyatların müstəqillik dövrünə saxlanılmasına imkan verdi. Bu gün Azərbaycanda nə qədər neft ehtiyatları olması haqqında müxtəlif fikirlər vardır. Bəzən elə düşünürlər ki, biz neft ehtiyatlarının həcmini şişirdirik ki, xarici şirkətləri ölkəyə cəlb edək. Amma xarici şirkətlər bizim rəqəmlərlə yanaşı, öz dəyərləndirmələrini də aparırlar. Azərbaycanın çox böyük neft ehtiyatları və böyük qaz potensialı vardır. Mən əminəm ki, ölkəmiz Avropanın alternativ qaz təchizatçısı olacaqdır. Bu sahədə iş gedir və əminəm ki, neftdən gələn gəlirlər ölkəmizin mənafeyinə xidmət edəcəkdir.

SUAL: Cənab Prezident, Siz burada xatırlatdınız ki, ölkəniz gələcəkdə Avropa İttifaqına qoşulmaq və ya ən azı, bu təşkilata daha da yaxınlaşmaq niyyətindədir. Eyni zamanda, bildiyiniz kimi, bu ilin dekabr ayında Avropa İttifaqının 25 üzvü Türkiyənin bu təşkilata üzv qəbul olunması məqsədi ilə danışıqların başlanması tarixini müəyyənləşdirəcəkdir. Sizin fikrinizcə, əgər Türkiyə Avropa İttifaqına daxil olarsa, bu, ölkənizin həmin quruma yolunu asanlaşdıra biləcəkmi?

CAVAB: Biz Türkiyəyə bu yolda uğur arzu edirik və əminəm ki, bu məsələ müsbət həll olunacaqdır. Əgər bu baş tutarsa, bunun Azərbaycana da xeyri olar. Amma elə bilirəm ki, hər bir ölkə öz üzərinə düşən işi yerinə yetirməlidir ki, Avropa İttifaqının üzvü ola bilsin. Əlbəttə, təqdimatlar, dəvətnamələr, yardımlar vacibdir. Lakin ölkənin özü standartlara uyğun gəlmirsə, bunlar heç bir nəticə verməyəcəkdir.

Azərbaycan inkişafda olan ölkədir. Azərbaycan münaqişədən, müharibədən, hakimiyyətsizlikdən, vətəndaş müharibəsindən, çevriliş cəhdlərindən, iqtisadi tənəzzüldən çıxıb müstəqilliyini qoruyan ölkədir. Bütün bunlar 1991-ci ildən 1996-cı ilə qədər Azərbaycanın tarixində yer almış hadisələrdir. Yalnız bundan sonra ölkəmizdə demokratik təsisatların, bazar iqtisadiyyatının, iqtisadi islahatların həyata keçirilməsinə başlanıldı. Gördüyünüz kimi, daha beş il müddətində biz iqtisadi və siyasi islahatları eyni sürətlə davam etdirə bilsək, o zaman standartlarımız Avropa tələblərinə cavab verəcəkdir.

SUAL: Zati-alileri, mən Sorbonna Universitetində beynəlxalq əlaqələr üzrə təhsil alıram. Hər şeydən əvvəl, belə mötəbər auditoriya qarşısında əla çıxışınıza görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mənə elə gəlir ki, hazırda Ermənistanla Azərbaycan arasında olan münasibətlər İkinci Dünya müharibəsi dövründə Fransa ilə Almaniya arasındakı münasibətlərdən heç də pis deyildir. Necə düşünürsünüz, bəlkə ölkələr arasındakı sosial-iqtisadi əlaqələr, birgə layihələr bu münaqişənin həll olunmasına yardım edə bilər? Eyni zamanda, Cənubi Qafqaz ölkələrinin Avropa İttifaqına üzvlüyü məsələsini asanlaşdıra bilər?

Cənab Prezident, Bakı-Ceyhan kəməri Türkiyəyədək uzanacaqdır. Bilmək istərdim ki, bu kəmərin tikintisi Azərbaycana və ümumilikdə regiona nə kimi dəyişikliklər gətirəcəkdir.

Siz demokratik qaydada atanızı əvəz etdiniz. Qərb bu məsələdə ölkənizdə daha çox sabitliyə diqqət yetirdi. Eyni zamanda, demokratiya nöqteyi-nəzərindən Siz hesab edirsinizmi ki, hazırda bu, Qərb ölkələrindəki vəziyyətə uyğundur?

CAVAB: Ermənistanla Azərbaycan arasındakı iqtisadi münasibətlərə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu ölkə Azərbaycanın zəbt olunmuş ərazilərindən öz işğalçı ordusunu çıxarmayınca, heç bir iqtisadi əlaqələrimiz olmayacaqdır. Düşünürəm ki, bizim bu mövqeyimiz beynəlxalq aləm tərəfindən başa düşülməlidir. Bəzən bu məsələni belə təqdim etməyə çalışırlar ki, guya onlar əməkdaşlıq etmək istəyirlər, biz isə istəmirik. Əlbəttə, Ermənistan bizimlə əməkdaşlığa can atır və onunla iqtisadi əlaqələrin olmaması danışıqlarda müzakirə olunan məsələlərdən biridir. Bu gün bu məsələni həll etməkdən ötrü bütün vasitələrdən istifadə etmək lazımdır. Ona görə də iqtisadi münasibətləri yalnız münaqişənin sülh yolu ilə həllindən sonra bərpa etmək mümkündür.

Bakı-Tbilisi-Ceyhan boru xətti uğurla inşa olunur. Tikintinin 50 faizi artıq tamamlanır və gələn ilin sonunda boru xətti istifadəyə veriləcəkdir. Bu kəmər Azərbaycana gündəlik 1 milyon barrel neft ixrac etməyə imkan verəcəkdir. Neftdən gələn gəlirləri iqtisadiyyatımızın müxtəlif sahələrinə yönəltmək fikrindəyik. Biz Neft Fondu yaratmışıq və burada neftdən gələn bütün gəlirlər toplanır. Fond şəffaf bir qurumdur və beynəlxalq təşkilatlar tərəfindən burada auditor fəaliyyəti həyata keçirilir. Fondun idarəçiliyi isə Beynəlxalq Valyuta Fondunun yardımı ilə aparılır. Gələcəkdə burada yığılan vəsait artaraq, nəzərəçarpacaq rəqəmə çatacaq və ölkəmizin inkişafına yardım edəcəkdir.

Azərbaycanda son on il müddətində həyata keçirilən siyasət sübuta yetirdi ki, Heydər Əliyevin müəyyən etdiyi xətt ölkəmizi böhran vəziyyətindən inkişafa doğru aparan yeganə xətdir. 1980-ci illərin sonundan hər il ölkədə liderlər dəyişirdi, hərbi çevrilişlər olurdu, vətəndaş müharibəsi baş verirdi.

Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün bunlara son qoydu. Ermənistanla müharibədə atəşkəs əldə edildi, vətəndaş müharibəsi dayandırıldı, qeyri-qanuni silahlı qruplaşmalar tərksilah olundu. Ölkəyə sülh və sabitlik gəldi. Ona görə də bizim indiki nəslin əsas məqsədi və vəzifəsi həmin siyasəti davam etdirməkdir. Azərbaycanı bu istiqamətdə inkişaf etdirmək çox zəruridir. Deməliyəm ki, əvvəllər ölkəmizin seçim etmək üçün yolları çox idi. Ölkə yeni idi və istənilən inkişaf yolu seçmək olardı. O zaman demokratik təsisatlar yox idi və biz bilərəkdən ən çətin yolu seçdik. Beynəlxalq ictimaiyyətə, beynəlxalq aləmə inteqrasiya yeganə mümkün və düzgün yol idi. Biz bu siyasəti davam etdirəcək və ölkəmizin demokratikləşdirilməsi prosesini ardıcıl surətdə aparacağıq.

Soruşursunuz ki, Azərbaycan indi Qərbdə qəbul edilmiş normalara və standartlara tam cavab verirmi? Əlbəttə ki, yox və bu da təbiidir. Qərb bu normaları əsrlər boyu yaratmış və inkişaf etdirmişdir. Cəmi 50 il bundan əvvəlki Avropaya baxsaq, görərik ki, burada demokratiyaya bənzər bir şey yox idi. Müharibələr, irtica, digər xoşagəlməz hallar Avropanı bürümüşdü. Azərbaycan isə bunlardan yenicə qurtarıb, bu dəhşətli miras yenicə

arxada qalmışdır. Bizə təsisatların buradakı səviyyəyə çatdırılması üçün vaxt lazımdır. Bu proses gedir və hər il biz məqsədə daha çox yaxınlaşırıq.

SUAL: Siz burada bildirdiniz ki, regiondakı qonşularımızla sülh şəraitində yaşamaq istəyirsiniz. Buraya Xəzər dənizinin statusu məsələsini aid etmək olarmı? Sizin fikrinizcə, Xəzərin statusu ilə bağlı hansı variant daha münasibdir? İkinci sualım: Neft gəlirləri ilə bağlı Siz ən münasib variant kimi Norveç modelini seçdiniz. Gələcək illərdə ölkənizin neftdən əldə olunmuş vəsaitlərin istifadəsi sahəsində ən real və tarazlaşdırılmış məqsədi nədən ibarət olacaqdır?

CAVAB: Neft bizim son məqsədimiz deyil, neft bizim üçün ölkəmizin inkişafı yolunda bir vasitədir. Neft yataqlarına malik olmaq hələ varlı olmaq demək deyildir. Həm hasilat, həm də nəqletmə vasitələri olduqda müəyyən bir zəmin yaradılır. Son on il müddətində Azərbaycan fəal surətdə paralel olaraq bu iki amilin həyata keçirilməsi ilə məşğul olur. Milyardlarla dollarları cəlb eləmək çox çətindir, amma bundan da çətini Qərbin riskli hesab elədiyi bir ərazidə neft kəməri inşa etməkdir. Bu gün bizim iki boru kəmərimiz vardır. Onlardan biri nefti Rusiyaya, digəri Gürcüstana nəql edir. Lakin həqiqi irimiqyaslı işləri başlamaqdan ötrü bizə böyük boru xətti lazım idi ki, nefti Aralıq dənizinə çıxarsın. Həmin boru kəməri indi tikilir.

Amma eyni zamanda, biz düşündük ki, Azərbaycan neft gəlirləri əldə etməyə başladıqdan sonra nə olacaq? Bilirsinizmi, yoxsul olmaq həqiqətən çətindir, amma yoxsulluqdan sonra vəsait əldə edən zaman ondan düzgün istifadə etmək də çətinlik törədir. Ona görə də çalışırıq ki, səhv etməyək. Biz Beynəlxalq Valyuta Fondu ilə bu haqda danışıqlar apardıq və dünyada neft hasil edən bütün ölkələrin neft fondlarının təcrübəsini öyrəndik. Bizim nümayəndə heyətləri, onlar bu gün burada sizinlədir, həmin ölkələrə getdilər, neft fondlarının təcrübəsini öyrəndilər və qeyd olunduğu kimi, biz Norveçin neft fondunu əsas kimi götürdük. Biz hesab etdik ki, bu, ən şəffaf, ən səmərəli variantdır. Bu variant Norveçdə böyük uğurla nəticələnmişdir. Bu isə, bildiyiniz kimi, heç də bütün neft istehsal edən ölkələrdə baş vermir ki, ölkə hərtərəfli və dinamik inkişaf etsin. Neftdən gələn gəlir insanlara xidmət etməlidir. İnsanlar bunun xeyrini görmürlərsə, demək, bu sahədə düzgün siyasət aparılmayıbdır. Ona görə də lap əvvəldən bizim fondumuz öz işini şəffaf aparır, gəlirlər barədə məlumat mətbuatda dərc olunur, Azərbaycan vətəndaşları vəsaitin miqdarını izləyə bilirlər. Xüsusilə nəzərə almaq lazımdır ki, bütün xərclər cəmləşmiş ölkə büdcəsindən həyata keçirilir, yəni, vəsaitin heç kimin bilməyəcəyi yerə, harayasa kənara xərclənməsinə heç imkan da yoxdur. Əgər xərclər büdcədən ayrılırsa, bu, o deməkdir ki, məsələ parlamentdə açıq müzakirələrə çıxarılır. Dediyim kimi, bütün bunlar bizim ölkəyə dinamik, çoxşaxəli inkişaf imkanı verəcəkdir. Azərbaycanda neft tükəndikdən sonra, - bu gec-tez baş verəcəkdir, - bizim iqtisadiyyatımız neftdən asılı olmayaraq tənzimlənəcək və inkişaf edəcəkdir. Biz daha səhər durub, indi etdiyimiz kimi, dünya bazarlarında neftin qiymətlərinə baxmayacağıq. (Alqışlar).

SUAL: Cənab Prezident, məlumdur ki, Qafqazda həm Rusiyanın, həm də ABŞ-ın maraqları vardır. Siz bu iki dövlət arasında tarazlığı saxlamağa necə nail olursunuz?

CAVAB: Elə bilirəm ki, hər şeydən əvvəl, uğur qazanmaq istəyirsənsə, xalqın dəstəyinə arxalanmalısan. Çünki lider xalqın dəstəyi olmadan lider ola bilməz. Ona görə də, hər şeydən əvvəl, gəlin, öz maraqlarımız haqqında düşünək – Azərbaycanın maraqları

haqqında, Azərbaycan xalqının maraqları haqqında. Biz xarici siyasətimizi yalnız bu istiqamətdə aparırıq. Azərbaycanın güclü olacağı, müstəqilliyinin dönməz olacağı, insanlarımızın həyatının günbəgün yaxşılaşacağı siyasətimizi necə aparmağımızdan asılı olacaqdır. Başlanğıc nöqtə kimi bu, əsas götürülməlidir. Bizim gələcək xarici siyasətimiz də buna əsaslanacaqdır. Bu gün bizim ölkədə maraqları olan dövlətlər Azərbaycana yalnız ona görə gəlirlər ki, onların maraqları bizim maraqlarımızla üst-üstə düşür. Maraqlarımız üst-üstə düşəndə, onlar bizim ölkəyə gəlirlər və hər iki tərəf özünü məmnun hiss edir. Maraqlarımız üst-üstə düşməyəndə, bizim ölkədə onlara yer tapılmır. Ölkənin maraqlarını nəzərə almadan, kor-koranə bu və ya digər yolu seçsən, elə bilərəm ki, səhv yolla getmiş olarsan.

Xoşbəxtlikdən Azərbaycanda son on ildə aparılan siyasət məhz buna əsaslanmışdır. Ən başlıca məqsəd kimi, Azərbaycanın maraqlarının nədən ibarət olduğu, sonra isə bu maraqların digərlərinin maraqları ilə nə dərəcədə uyğun gəlməsi nəzərə alınmışdır. Azərbaycanda siz adını çəkdiyiniz ölkələrdən savayı, həm də digər ölkələrin maraqları ola bilər. Bu, həm iqtisadi, həm də siyasi maraqlar ola, yaxud mədəniyyətlə də bağlı ola bilər. Bu maraqlar bizim nöqteyi-nəzərimizə zidd gəlməzsə, heç bir problem ola bilməz. Hər şey əməkdaşlıq əsasında olmalıdır. Bu, qarşılıqlı faydalı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqdır.

SUAL: Siz yalnız Qərb ölkələri ilə münasibətlərdən bəhs etdiniz. Ölkənizin Şərqlə münasibətləri necə qurulmuşdur? Məsələn Qazaxıstan, Özbəkistan və digər ölkələr ilə.

CAVAB: Adını çəkdiyiniz ölkələrlə bizim yaxşı münasibətlərimiz var. Qonşularımızla – Qazaxıstanla, Özbəkistanla ikitərəfli əlaqələr, daimi ünsiyyət həyata keçirilir və bu ünsiyyət gələcəkdə artacaqdır. Habelə prezidentlərin qarşılıqlı səfərləri də həyata keçirilir.

Bu ölkələr bizə tarixən yaxındır. Azərbaycan hasilatçı ölkə olmaqla yanaşı, həm də təbii sərvətlərin nəqli üçün tranzit ölkə rolunu oynayır. Biz ölkədəki infrastrukturu ixrac üçün fərqli vasitə kimi təqdim etməyə hazırıq. Bu ölkələrlə bizim iqtisadi münasibətlərimiz uğurla inkişaf edir.

Daha çox Şərqə doğru yerləşən ölkələrlə də bizim yaxşı əlaqələrimiz vardır. Amma deyə bilmərəm ki, onlar çox intensivdir. Ticarət və iqtisadi əlaqələr az olsa da, siyasi əlaqələr kifayət qədər yaxşıdır. Bizim digər ölkələrlə heç bir problemimiz yoxdur və onlarla qarşıdurma səviyyəsində deyilik. Biz bütün mümkün əməkdaşlığa açığıq. Azərbaycan açıq qapı siyasəti həyata keçirir, dialoq siyasətinin tərəfdarıdır. Biz sivilizasiyalar arasında, dinlər arasında, etnik qruplar arasında dialoqun tərəfdarıyıq. Keçmiş Sovet İttifaqı məkanında Azərbaycan yeganə yer idi ki, biz etnik qruplar, millətlər, dinlər arasında qarşıdurmanın nə olduğunu bilmirdik. Müstəqillik əldə etdikdən sonra baş vermiş bütün dəhşətli hallara baxmayaraq, biz bu xüsusiyyətimizi saxlaya bildik. Bizim yalnız bir problemimiz var, o da bizə zorla qəbul etdirilmişdir. Bu, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı problemdir. Bir daha demək istərdim ki, biz hər bir ölkə ilə istənilən istiqamətdə əlaqələri inkişaf etdirməyə hazırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 23-də Yelisey sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Fransa Prezidenti Jak Şirak arasında təkbətək görüş keçirilmişdir.

Fransa Prezidenti Jak Şirak Azərbaycan Prezidenti İlham Əliyevi səmimiyyətlə salamlayaraq, prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə onu bir daha təbrik etdi, dəvətini qəbul edib Parisə rəsmi səfərə gəldiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Cənab Jak Şirak Azərbaycanı demokratiya və hüquqi dövlət quruculuğu yolu ilə daha uğurla irəli aparmaqda Prezident İlham Əliyevə müvəffəqiyyətlər arzuladı. Azərbaycanın yeni liderinin ilk rəsmi səfərini Fransaya etməsini yüksək qiymətləndirən Prezident Jak Şirak Fransa ictimaiyyətinin bu səfərə xüsusi əhəmiyyət verdiyini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev Parisə etdiyi ilk rəsmi səfərin onun üçün də böyük əhəmiyyətə malik olduğunu vurğulayaraq, bu səfərin Prezident Jak Şirakla Prezident Heydər Əliyevin sıx dostluq münasibətləri zəminində formalaşmış və inkişaf etmiş Azərbaycan-Fransa əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirdi.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsi ətrafında geniş fikir mübadiləsi apardılar. Fransa Prezidenti Jak Şirak Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu münaqişənin həlli istiqamətində fəaliyyətini böyük minnətdarlıqla xatırladı və onun səylərinin Prezident İlham Əliyev tərəfindən də davam etdiriləcəyinə inamını ifadə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev problemin həlli istiqamətində ATƏT-in Minsk qrupunun, o cümlədən bu qurumun fəal üzvü olan Fransanın səylərinin artırılması zərurətini qeyd etdi və həmsədrlərin regiona son səfərlərinin nizamasalma prosesində canlanma yaradacağı barədə fikir söyləməyə əsas verdiyini bildirdi. Dövlətimizin başçısı hələ də problemin həllinə yanaşmada ikili standartların mövcudluğunun münaqişənin beynəlxalq hüquq normaları əsasında aradan qaldırılmasına mane olduğunu da təəssüflə qeyd etdi.

Görüş zamanı hər iki ölkənin prezidentləri Azərbaycanla Fransa arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı, onların gələcək perspektivləri ətrafında geniş fikir mübadiləsi apardılar. Dövlət başçıları ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılması istiqamətində böyük imkanlar olduğunu bildirdilər.

Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesinin dinamikasından məmnunluğunu bildirən Fransa Prezidenti Jak Şirak vaxtilə Prezident Heydər Əliyevin bu sahədə atdığı qətiyyətli və düşünülmüş addımları xüsusilə vurğuladı. Ölkəmizin Avropa Şurasına üzv olması və Avropa İttifaqı ilə sıx əməkdaşlığı məhz ümummilli liderimizin səyləri nəticəsində mümkün olmuşdur.

Prezident İlham Əliyev Avropa strukturlarına interqasiyanın ölkəmiz üçün öncül məsələlərdən olduğunu bildirərək, Prezident Heydər Əliyevin xarici siyasət xəttinin bundan sonra da davam etdiriləcəyini söylədi.

Səmimiyyət və mehribanlıq şəraitində keçən görüşdə beynəlxalq və regional problem-

lər, habelə hər iki tərəfi maraqlandıran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

"FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

Elə həmin gün Yelisey sarayının "Salon des Aydes de Kamp" salonunda Fransa Respublikasının Prezidenti Jak Şirakın ümummilli liderimiz Prezident Heydər Əliyevi vaxtilə təltif etdiyi "Fəxri legionun böyük xaç komandoru" ordeninin Prezident İlham Əliyevə təqdim olunması mərasimi keçirildi.

Fransa Prezidenti Jak Şirak mərasimdə çıxış edərək dedi:

- Cənab Prezident!

Hörmətli xanım!

Mən bir az həyəcan keçirirəm. Atanızı burada tez-tez gördüyümdən, təbii olaraq, gözləyirəm ki, onu yanımda yenə də görəcəyəm. Amma həyat belədir. Atanız mənim dostum idi və Fransanın ən layiqli mükafatını – Fəxri legion ordenini ona təqdim etmək sevincinin ləzzətini qabaqcadan duyurdum. Lakin ömür vəfa qılmadı. Ona görə də mən xüsusi bir variant seçdim. Bu variant hələ heç vaxt olmayıb və mən onu ilk dəfə tətbiq edirəm. Yəni mən bu mükafatı Sizə təqdim edirəm.

Məni Prezident Heydər Əliyev ilə dostluq və hörmət telləri bağladığını Siz bilirsiniz. O, çox böyük cazibə qüvvəsinə malik müstəsna bir şəxsiyyət idi. Yəni, öz zəmanəsini, həqiqətən, səciyyələndirən şəxsiyyət idi. İğtişaşlar və çətinliklər dövründən sonra onun fəaliyyəti sayəsində Azərbaycan sabitlik əldə etdi və öz müstəqilliyini möhkəm təməl üzərində qura bildi. Heydər Əliyev çox cəsarətlə demokratik islahatlara da yol açdı. Bu islahatlar ölkənizə Avropa Şurasına daxil olmağa imkan verdi. Bir sözlə, Siz bu mirasla, haqlı olaraq, fəxr edə bilərsiniz.

Şübhəm yoxdur ki, Siz onun bu yolda fəaliyyətini davam etdirməyə mütləq çalışacaq və Azərbaycanı demokratiya və hüquqi dövlət quruculuğu yolu ilə irəli aparacaqsınız.

Biz Sizin atanızla bir çox məsələlərdə dostcasına, özü də uzun müddətə dialoq yaratmışdıq. Çoxsaylı müxtəlif görüşlərimiz zamanı, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Parisdə keçirdiyimiz söhbətlərin gedişində mən onun münaqişənin sülh yolu ilə həlli yollarının axtarışında cəsarətinə və zəkasına, qətiyyətinə heyran qalırdım.

Fəxri legion ordeni 200 il əvvəl Napoleon tərəfindən təsis olunmuşdur. Mən Fransa Respublikasının bu ali mükafatını – "Fəxri legionun böyük xaç komandoru" ordenini atanızın 80 illik yubileyi münasibətilə ona vermək və bununla da, ikitərəfli münasibətlərin inkişafında müstəsna rol oynadığını və Fransanın böyük dostu olduğunu vurğulamaq istəyirdim.

Bu gün mən dostum Heydər Əliyevin xatirəsini yad etmək istəyirəm. Mən bu mükafatı ona şəxsən təqdim etməyi arzulayırdım. Mən onun oğluna - əziz cənab İlham Əliyevə də etimad və hörmət bəslədiyimi ifadə etmək istəyirəm. Mən onun xanımına da ehtiramımı böyük hörmətlə izhar edirəm. Bilin ki, Fransada Sizi dost kimi qəbul edirlər.

* * *

Sonra mərasim iştirakçılarının alqışları altında Fransa Prezidenti Jak Şirak "Fəxri legionun böyük xaç komandoru" ordenini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi:

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Siz Prezident Heydər Əliyevi yüksək mükafatla - ordenlə təltif edəndə biz hamımız böyük sevinc içində idik. O, elə bir şəxsiyyət idi ki, dünyanın ən yüksək mükafatına layiq idi. Mən Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyevin oğlu kimi onun xidmətlərini yüksək qiymətləndirdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm.

Biz də bu mərasimi başqa cür təsəvvür edirdik. Düşünürdük ki, Prezident Heydər Əliyev növbəti dəfə Fransaya gedəcək, Sizinlə görüşəcək və bu ordeni ona şəxsən Siz təqdim edəcəksiniz.

Heydər Əliyevin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət idi. 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəldikdən sonra o, faktiki olaraq, müasir Azərbaycanı yaratdı, ölkəni böhrandan, anarxiyadan, müharibədən inkişafa, tərəqqiyə, əməkdaşlığa apardı. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin əsəridir və biz, onun davamçıları bu əsəri qorumalıyıq, inkişaf etdirməliyik. Əminəm ki, biz buna nail olacağıq.

Heydər Əliyev Azərbaycanla Fransa arasında münasibətlərə çox böyük önəm verirdi. O, həmişə xüsusilə vurğulayırdı ki, Fransa ilə olan münasibətlər Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Bunun səbəblərindən biri də odur ki, cənab Prezident, Sizinlə Heydər Əliyev arasında çox mehriban dostluq münasibətləri yaranmışdı. Heydər Əliyev Fransanı, fransız xalqını çox sevirdi və əminəm ki, gələcəkdə də ölkələrimiz arasında mövcud olan münasibətlər inkişaf edəcək və bizim xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir.

Bu yüksək orden mənim üçün və əminəm ki, hər bir Azərbaycan vətəndaşı üçün əzizdir. Bir daha mən məmnunluq hissimi ifadə etmək istəyirəm ki, bu gün bu orden Azərbaycana təqdim olunur.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

"Fəxri legionun böyük xaç komandoru" ordeninin təqdim edilməsi mərasimindən sonra Fransa Prezidenti Jak Şirakın adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.

Qəbulda Fransanın və Azərbaycanın yüksək rütbəli dövlət və hökumət nümayəndələri iştirak edirdilər.

Dövlət başçıları qəbulda nitq söylədilər.

TULUZA ŞƏHƏRİNDƏKİ "AIRBUS" TƏYYARƏ ZAVODU İLƏ TANIŞLIQ

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tuluza şəhərinə yola düşmək üçün Parisin "Orli" beynəlxalq hava limanına gəldi.

Hava limanı Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmişdi. Burada dövlətimizin başçısını Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri dostcasına yola saldılar.

Tuluzanın hava limanında Prezident İlham Əliyevi şəhərin rəhbər şəxsləri, "Airbus" şirkətinin prezidenti cənab Forqeard və şirkətin baş direktoru cənab Humbert hərarətlə qarşıladılar.

Respublikamızın rəhbəri İlham Əliyev hava limanından birbaşa dünyada məşhur olan "Airbus" təyyarə zavoduna gəldi.

Zavodla yaxından tanış olan dövlətimizin başçısı təyyarələrin yığıldığı sexləri gəzdi, beynəlxalq standartlara cavab verən müasir texnologiya, təyyarələrin salonları ilə tanış oldu və yeni istehsal olunmuş "Airbus"un sükanı arxasında əyləşdi.

Cənab Forqeard Azərbaycan Prezidentinə şirkətin tarixi, istehsal etdikləri təyyarələr haqqında ətraflı məlumat verərək dedi ki, onların buraxdığı A-330 və A-360 markalı nəhəng aerobuslar indi dünyanın bir çox ölkələri tərəfindən alınır. Bu təyyarələrdə 360-380 sərnişin yeri vardır.

Zavodla tanışlıqdan sonra dövlətimizin başçısı İlham Əliyev şirkətin prezidentinin ofisində "Xatirə kitabı"na ürək sözlərini yazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də axşam Fransaya rəsmi səfərini başa çatdıraraq, Tuluza şəhərindən vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Ukrayna Baş nazirinin müavini Andrey Klyuyevi qəbul etmişdir.

Prezident İlham Əliyev qonağı mehribancasına qarşılarayaq dedi:

- Hörmətli cənab Baş nazirin müavini!

Sizi salamlamağa şadam, Azərbaycana xoş gəlmisiniz.

Ölkələrimiz arasında ənənəvi olaraq dostluq və qardaşlıq münasibətləri mövcuddur. Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövründə bu əlaqələr daha da möhkəmlənmişdir. Bu, bizi çox sevindirir. Əməkdaşlıq bütün istiqamətlərdə - ikitərəfli əsasda da, beynəlxalq təşkilatların fəaliyyəti çərçivəsində də, regional təşkilatlarda da, əlbəttə, siyasi müstəvidə də çox uğurla gedir. Prezidentlərimiz - Leonid Daniloviç Kuçma və Heydər Əlirza oğlu Əliyev qarşılıqlı münasibətlərin yaxşı təməlini qoymuşlar. Ona görə də biz bütün bunları davam və inkişaf etdirəcəyik.

Mənim ötən ilin sentyabrında Ukrayna Prezidenti ilə görüşüm oldu. Biz ikitərəfli əməkdaşlıqla bağlı, beynəlxalq səpkili bir çox məsələləri müzakirə etdik. Bütün məsələlərdə mövqelərimiz tam uyğun gəlir. Biz beynəlxalq təşkilatlarda da, regional baxımdan da bir-birimizi dəstəkləyirik, lakin ikitərəfli əlaqələr çərçivəsində daha böyük uğurlar əldə edilmişdir. Odur ki, Ukrayna hökuməti nümayəndələrinin Azərbaycana və Azərbaycan hökuməti nümayəndələrinin Ukraynaya səfərləri ənənəvi xarakter daşıyır və əlaqələrimizin daha da möhkəmləndirilməsi işində çox vacibdir. Düşünürəm ki, Sizin səfəriniz, burada keçirdiyiniz görüşlər də buna təkan verəcəkdir.

Fürsətdən istifadə edərək, mənim salamımı, ən xoş arzularımı və tezliklə görüşmək ümidində olduğumu Leonid Daniloviçə yetirməyi sizdən xahiş etmək istəyirəm.

Andrey Klyuyev səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi:

- Cənab Prezident, Sizinlə görüşmək imkanına görə sağ olun.

İlk növbədə, atanızın vəfatı ilə əlaqədar başsağlığımı qəbul edin. Bu gün biz onun məzarını ziyarət etdik. Onun vəfatı bütün Azərbaycan xalqı üçün böyük itkidir. Ümidvaram, Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafı üçün atanızın yaratdığı zəmin, bundan sonra da uğurla möhkəmləndiriləcəkdir.

Ötən il Ukrayna ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 30 faizdən çox artmış və 150 milyon dolları keçmişdir. Bunun çox, yaxud az olduğunu söyləmək çətindir. Lakin hesab edirik ki, əmtəə dövriyyəmizin həcmini minimum daha 15 faiz artırmağa potensial imkanlarımız var.

Metallurgiya, kimya sənayesi sahəsində, kənd təsərrüfatında, yanacaq-energetika kompleksində səmərəli əməkdaşlıq layihələri bizim üçün çox maraqlıdır. Ona görə də bu gün biz baş nazirlə ilkin danışıqlar apardıq. Mən buraya özümlə böyük nümayəndə heyəti gətirmişəm. Onun tərkibinə Ukrayna-Azərbaycan birgə komissiyasının işçi qruplarında çalışan mütəxəssislər daxildir. Biz razılığa gəldik ki, komissiyanın növbəti iclasını martda Ukraynada keçirək.

Biz komissiyanın Ukraynada keçiriləcək iclasında Ukrayna-Azərbaycan birgə komissiyasının protokolunu imzalamaq üçün məsələləri ətraflı müzakirə edir, materialları işləyib təkmilləşdiririk.

Azərbaycan bizim üçün strateji tərəfdaşdır. Bu fikirdəyik ki, biz səmərəli əməkdaşlıq etməyə, sadəcə olaraq, borcluyuq. İqtisadiyyatda nə qədər səmərəli əməkdaşlıq etsək, xalqlarımız bir o qədər yaxın olarlar.

İLHAM ƏLİYEV: Sağ olun. Mən strateji tərəfdaşlığımız barədə sizin sözlərinizə tam şərikəm. Ölkələrimizin yaxınlaşmasını sürətləndirməyə hər cür şərait var. Əlbəttə, əmtəə dövriyyəsinin artması çox mühüm göstəricidir. Bu, bir tərəfdən, ölkələrimizin hansı dinamizmlə inkişaf etdiyini, digər tərəfdən isə, qarşılıqlı iqtisadi mənafelər olduğunu göstərir. Ona görə də əminəm ki, münasibətlərimiz birgə səylərlə inkişaf edəcək və möhkəmlənəcəkdir. Dost ölkələr arasında münasibətlər bundan sonra da nümunəvi olmalıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də Prezident sarayında zəmanəmizin görkəmli musiqiçisi Mstislav Rostropoviçi qəbul etmişdir.

Prezident İlham Əliyev qonağı salamlayaraq dedi:

- Xoş gəlmisiniz! Sizi Vətəndə, Azərbaycanda yenidən görməyə çox şadam! Biz bu yaxınlarda, təxminən bir neçə gün əvvəl Parisdə görüşmüşdük. Həmyerliləri görmək çox xoş idi. Vaxt tapıb gəldiyinizə görə Sizə çox minnətdaram. Biz bu günü səbirsizliklə gözləyirdik, hərçənd, təmirdən sonra filarmoniyamızın açılış gününü başqa cür təsəvvür edirdik. Təəssüf ki, istədiyimiz kimi olmadı. Buna baxmayaraq, bu, hər halda, fərəhli gündür, bayramdır. Hesab edirəm ki, bu gün filarmoniya yenidən Azərbaycan tamaşaçısına, dinləyicisinə, ölkənin vətəndaşlarına qayıdır.

Sizin hər bir gəlişiniz bizim üçün bayramdır. Sizi hamı sevir, hamı çox qiymətləndirir, Sizinlə fəxr edir. Sizi Heydər Əliyevlə böyük dostluq, səmimi, mehriban münasibətlər bağlayırdı. Bu münasibətlər necə dostluq etmək, bir-birinə necə qayğı ilə yanaşmaq baxımından bizim nəsil üçün örnəkdir. Əlbəttə ki, biz – Sizin arxanızca gedən insanlar – bu münasibətləri elə həmin istiqamətdə bundan sonra da inkişaf etdirəcəyik. Mən Sizi görməyimə çox şadam. İş cədvəlinizin sıx olduğu, geniş proqramlarınız olduğu halda, buraya gəlməyə vaxt tapmaq üçün böyük ürək, qəlb sahibi olmaq gərəkdir. Mən çox şad, xoşbəxtəm və axşamı, bu böyük hadisədə Sizinlə birlikdə iştirak edəcəyimiz vaxtı səbirsizliklə gözləyirəm.

Mstislav Rostropoviç səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

- İcazə verin, mətbuatın burada olmasından istifadə edərək, bir neçə söz deyim. Mən Sizi Fransanın müdafiə nazirinin şərəfinizə təşkil etdiyi qəbulda gördükdə şəxsən Sizə deyə bilmədim ki, necə xoşbəxtəm ki, atanızın xəttini davam etdirirsiniz. Zənnimcə, bunda, haradasa, Tanrı hökmü var. Əlbəttə, Heydər Əliyeviç kimi insan olmaq mümkün deyildir. Lakin Siz onun oğlusunuz, Azərbaycan üçün çox işlər görmüş və şəxsən mənim üçün çox işlər görmüş insanın həyatını sanki davam etdirirsiniz. O, məni Azərbaycana qaytardı, Azərbaycanı isə Vətənim kimi mənim qəlbimə qaytardı. Odur ki, mən bütün ömrüm boyu onun barəsində məhəbbətlə, minnətdarlıqla düşünəcəyəm.

İndi mən öz proqramımı necə qurmaq barədə düşünürəm. Bilirsinizmi, konsert salonunun onun iştirakı ilə nəzərdə tutulduğu kimi açılışı mənim üçün, əlbəttə, bir tərəfdən, bayramdır, digər tərəfdən isə, bütün fikirlərim, xatirələrim büsbütün dostumla bağlıdır. Ona görə də bu gün belə etməyi qərara almışam. Əvvəlcə, giriş sözləri deyildikdən sonra mən, - buraya violonçel gətirmişəm, - Baxın sarabandasını, solo violonçel üçün süitasının hissələrindən birini ifa edəcəyəm. Bu sarabanda bir dua kimi səslənir. Orkestr ifa etməyə başlamazdan əvvəl mən musiqi vasitəsilə, tərcüməsiz dua etmək istəyirəm. Musiqinin dili ilə dua etmək istəyirəm... Mən bununla başlayacağam, sonra da Azərbaycanın gözəl qadın bəstəkarının əsərini səsləndirəcəyəm. Siz onu yaxşı tanıyırsınız. İlk dəfə səslənəcək əsəri o, xüsusi olaraq bu salonun açılışı üçün bəstələmişdir.

Xoşbəxtəm ki, buraya gəlmişəm, Bakıya öz evimə gəldiyim kimi gəlmişəm. Heyf ki, burada ancaq bu gün qala biləcəyəm. Mən dünən gəlmişəm, sabah səhər tezdən getməliyəm. İndi mənimlə görüşməyə vaxt tapdığınıza görə Sizə çox minnətdaram. Dahi atanızın müəyyənləşdirdiyi və davam etdirəcəyiniz yolda Sizə bol-bol səadət arzulayıram.

İLHAM ƏLİYEV: Xoş, səmimi sözlərə görə çox sağ olun. Doğrudan da, hamımızı qarışıq hisslər bürümüşdür. Ölkəmizin həyatında hər bir bayram günü, hər bir yeni məqam, hər bir fərəhli hadisə həm də kədərlə müşayiət olunur. Kədər onunla bağlıdır ki, bütün bunları yaradan, Azərbaycan dövlətini, əslində, yenidən quran insan indi bizimlə deyildir. Filarmoniya da bu qəbildəndir. Hər dəfə onun yanından keçəndə ziddiyyətli hisslər - həm fərəhli, həm də kədərli hisslər keçirirsən, qüssələnirsən. Bu, Sizin üçün də çox ağırdır, ilk dəfədir dostunuzun həyatda olmadığı bir vaxtda Azərbaycana gəlirsiniz. Yəqin ki, bu hisslər bizi həm yaxınlaşdırır, həm də bu itkinin acısını birlikdə yaşamağa köməklik edir. Lakin həyat davam edir, ölkə inkişafdadır. Odur ki, bizim - burada yaşayanların hamısının, habelə ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycanın dostlarının hamısının, habelə ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycanın dostlarının vəzifəsi Heydər Əliyevin işini davam etdirməkdən ibarətdir. Xalqımızın yeganə nicatı və rifahı məhz bundadır. Ona görə də buraya gəldiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək və ümidvar olduğumu söyləmək istəyirəm ki, səfərləriniz, əvvəllər olduğu kimi, müntəzəm davam edəcəkdir. Biz Sizinlə hər il, bəlkə də daha tez-tez görüşəcək, sadəcə, ünsiyyətdə olacaq, ötüb-keçənləri xatırlayacaq və gələcək barədə düşünəcəyik.

MSTİSLAV ROSTROPOVİÇ: Demək istəyirəm ki, Sizi Parisdə necə də gözəl qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN SƏRHƏD QOŞUNLARININ KOMANDANINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Prezident sarayında İran İslam Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Qoşunlarının komandanı, general-mayor Behnam Şəriətifərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları səmimiyyətlə qarşılayaraq dedi:

- Hörmətli cənab komandan!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. İranla Azərbaycan arasında ikitərəfli münasibətlər inkişaf edir və günü-gündən güclənir. Xüsusilə Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfərindən sonra bu münasibətlər geniş pilləyə qalxıbdır. Bu səfər ikitərəfli münasibətlərimizdə böyük və önəmli rol oynamışdır. Ondan sonra bütün sahələrdə əlaqələrimiz daha da inkişaf etməyə başlamışdır.

Mən İranın Prezidenti hörmətli cənab Xatəmi ilə Cenevrədə keçirilmiş beynəlxalq toplantıda görüşmüşdüm. Xarici işlər naziri cənab Xərrazi ilə Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında görüşmüşdüm. Digər görüşlərimiz də olubdur. Bütün bu danışıqlar, keçirdiyimiz görüşlər bizi bir daha əmin edir ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir.

İki ölkənin dövlət sərhəd xidmətlərinin də əməkdaşlığı çox uğurludur. Bildiyiniz kimi, bizim çox uzun sərhədimiz var. 700 kilometr uzunluğunda sərhədimiz var. Əlbəttə, bu sərhədi qorumaq üçün, əməkdaşlığı daha da artırmaq üçün iki sərhəd xidməti sıx əlaqədə olmalıdır və bilirəm ki, bu, belədir. Sizin də Azərbaycana səfəriniz bunu bir daha sübut edir. Biz istəyirik ki, ikitərəfli münasibətlərimiz daha da inkişaf etsin, insanlarımızın gediş-gəlişi artsın və beləliklə, ölkələrimiz bir-birinə daha yaxın olsunlar.

Sizi bir daha salamlayıram. Əminəm ki, burada keçirdiyiniz görüşlər bu istiqamətdə işimizi daha da təkmilləşdirəcəkdir.

İran Sərhəd Qoşunlarının komandanı, general-mayor Behnam Şəriətifər Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Cənab Prezident, bu görüşün keçirilməsinə görə Allah-Təalaya minnətdaram. Sizinlə görüşmək fürsəti yaratdığınıza görə təşəkkür edirəm. Möhtərəm Prezident Heydər Əliyevin dünyasının dəyişməsi ilə bağlı Sizə başsağlığı verirəm.

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu, bizim ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsi və inkişafı üçün atılan addımdır.

Bizim əməkdaşlığımız sərhədlərin qorunması sahəsində də davam edəcəkdir. İran İslam Respublikasının 15 ölkə ilə sərhədi vardır. Bütün bu ölkələrlə sərhəd məsələlərində əməkdaşlıq sahəsində böyük nailiyyətlər əldə etmək niyyətindəyik. Baxmayaraq ki, bizim Şərqdə və Qərbdə böyük problemlərimiz var, amma Azərbaycana böyük əhəmiyyət veririk və bu sahədə əməkdaşlığımızı genişləndirmək fikrindəyik.

İnanırıq ki, milli mənafeyin qorunması qarşılıqlı hörmət və əməkdaşlıq çərçivəsində olmalıdır. Biz azərbaycanlı həmkarlarımızla birgə gələcəkdə işlərin sürətləndirilməsi üçün addımlar atacağıq. İki ölkə arasında mövcud olan müştərək dini, mədəni münasibətləri nəzərə alsaq, sərhəd məsələsində də heç bir problemin olmayacağı yəqinləşər.

Biz Əfqanıstanla sərhəddə onlar üçün bir baza yaradırıq. Əfqanıstan sərhədçiləri üçün İranda tədris kursları təşkil etmişik ki, onların öz ölkələrinin sərhədlərini qorumaq üçün imkanları olsun.

Çox sevinirik ki, Azərbaycanda sərhədçilər öz sahələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Azərbaycanın və İranın sərhəd xidmətləri arasında olan əlaqələr ölkələrimiz arasındakı münasibətlərin inkişafının təzahürüdür.

İLHAM ƏLİYEV: Çox sağ olun. Sərhədimiz dənizdə də, quruda da uzundur. Ona görə sərhəd xidmətlərinin birgə fəaliyyətinin əlaqələndirilməsi ikitərəfli münasibətlər üçün də çox böyük əhəmiyyət kəsb edir. Bunun bizim gələcək iqtisadi əlaqələrimizə də böyük təsiri olacaqdır. Burada müxtəlif məqsədlər qarşımızda durur. Bir tərəfdən, sərhəd etibarlı şəkildə qorunmalıdır ki, xoşagəlməz hadisələr baş verməsin. Digər tərəfdən, gərək insanlarımız da sərhəddən rahat keçsinlər. Bu məqsədlərə nail olmaq üçün, əlbəttə, ilk növbədə, gərək sərhəd xidmətləri arasında qarşılıqlı anlaşma olsun. Mən çox şadam ki, bu qarşılıqlı anlaşma, əməkdaşlıq var. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə daha da güclənəcəkdir. Sizin səfəriniz bunu bir daha sübut edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Prezident sarayında Rusiyanın "Qazprom" Səhmdar Cəmiyyətinin vitse-prezidenti Aleksandr Ryazanovu və "Qazeksport" şirkətinin baş direktoru Aleksandr Medvedyevi qəbul etmişdir.

Səmimi qəbula görə minnətdarlıq bildirən qonaqlar dövlətimizin başçısını Prezident seçkilərindəki parlaq qələbəsi münasibətilə təbrik etdilər. Onlar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verərək, ölkələrimiz arasındakı əməkdaşlığın möhkəm təməl üzərində qurulmasında prezidentlər Heydər Əliyevin və Vladimir Putinin xüsusi xidmətləri olduğunu vurğuladılar.

Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin indiki səviyyəsindən razılıqla söhbət açan qonaqlar yanacaq-energetika sahəsində əməkdaşlığın genişlənməsi üçün yaxşı imkanlar olduğunu, təmsil etdikləri qurumların bu sahəyə böyük maraq göstərdiyini söylədilər.

Səmimi sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev ölkəmizin Rusiya ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini vurğulayaraq dedi ki, cənab Heydər Əliyevin və cənab Vladimir Putinin səyləri sayəsində strateji tərəfdaşlığa çevrilmiş bu münasibətlərin bundan sonra da inkişaf etməsi üçün biz öz tərəfimizdən mümkün olan bütün tədbirləri görəcəyik.

Ölkəmizdə sosial problemlərin həllinə xüsusi əhəmiyyət verildiyini, əhalinin qazla tam təmin olunması üçün lazımi tədbirlər görüldüyünü vurğulayan Prezident İlham Əliyev dedi ki, indi Azərbaycan qonşu Rusiyadan təbii qaz alır və biz idxal olunan mavi yanacağın həcmini artırmaq, bununla da Azərbaycanın bütün bölgələrinin mavi yanacaqla təmin edilməsinə nail olmaq istəyirik. Hesab edirik ki, Rusiya ilə bu sahədə əməkdaşlığın genişləndirilməsi, hər iki tərəf üçün faydalı olan əlaqələrin daha da möhkəmləndirilməsi çox vacibdir.

Azərbaycan Prezidentinin Moskvaya qarşıdakı rəsmi səfərinin Rusiyada böyük maraq doğurduğunu nəzərə çarpdıran qonaqlar bu səfərin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni bir mərhələ olacağını bildirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfərinə çox böyük əhəmiyyət verdiyini və qarşıdakı görüşlərin, danışıqların dövlətlərarası münasibətlərin daha da inkişafı üçün yeni imkanlar açacağına əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Türkiyə Respublikasının energetika və təbii ehtiyatlar naziri Hilmi Güler və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab nazir!

Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Sabah çox mühüm bir gündür. Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində maliyyələşdirmə ilə bağlı son işlər görülür. Bu, böyük hadisədir və mühüm bir qələbədir. Bu, bizim müştərək qələbəmizdir.

Bakı-Tbilisi-Ceyhan layihəsi ölkələrimizi bir-birinə daha da yaxın edir. Türkiyə ilə Azərbaycan dost və qardaş ölkələrdir. Əlbəttə, bizim siyasətimiz ondan ibarətdir ki, aramızda olan münasibətlər bütün sahələrdə daha da inkişaf etsin və genişlənsin. Buraya iqtisadi sahə də daxildir. Bakı-Tbilisi-Ceyhan bu baxımdan həm iqtisadi, həm də siyasi cəhətdən çox vacib layihədir. Onun həyata keçirilməsi nəticəsində bölgədə təhlükəsizlik daha da möhkəmlənəcəkdir, yaxın zamanlarda Türkiyə və Azərbaycan xalqları bu layihədən faydalanacaqlar.

Bütün işlər uğurla gedir. Bu yaxınlarda Türkiyədə müştərək işçi qrupunun toplantısı keçirilmişdir. Əminik ki, bütün bu işlər istədiyimiz səviyyədə başa çatacaq, layihə vaxtında tamamlanacaq və neft kəməri istifadəyə veriləcəkdir.

Bir daha sizi salamlayıram. Xahiş edirəm, mənim salamlarımı və ən xoş arzularımı hörmətli Prezident Əhməd Necdət Sezərə və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Mən onları Bakıda gözləyirəm və eyni zamanda, özüm də Türkiyəyə səfər etməyə hazırlaşıram. Əminəm ki, bizim əlaqələrimiz günü-gündən güclənəcəkdir.

Səmimi qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Hilmi Gülər dedi:

- Hörmətli Prezident!

Mən burada olmaqdan böyük şərəf duyuram. Hörmətli Baş nazirimizin salamlarını Sizə yetirirəm.

Bakı-Tbilisi-Ceyhan layihəsi bizim də son dərəcədə böyük əhəmiyyət verdiyimiz və çox ciddi surətdə izlədiyimiz bir layihədir. Bu layihənin yerinə yetirilməsi vaxtında başa çatdırılacaqdır. Biz bununla əlaqədar bütün işləri görmüşük. Son olaraq ötən həftə təkrar bir yerə yığışdıq və Azərbaycan Baş naziri müavininin iştirakı ilə bütün məsələləri geniş müzakirə etdik. Layihənin vaxtında tamamlanacağına heç bir şübhə yoxdur və bu işdə məsuliyyət daşıyan bir insan kimi bunu Sizə söyləməkdən məmnunluq duyuram.

Eyni zamanda, bu layihənin ən önəmli nöqtəsi olan Ceyhan terminalına mərhum Prezident Heydər Əliyevin adını vermək istəyirik. Beləliklə, bu adı daşımaqla Ceyhan terminalı daha böyük əhəmiyyət və məna kəsb edəcəkdir. Biz bundan çox böyük xoşbəxtlik duyacağıq.

Türkiyə-Azərbaycan dostluğu Sizin də dəyərli töhfələrinizlə ən gözəl çağlarını yaşayır. Bundan sonra həyata keçirəcəyimiz layihələrlə, xüsusilə "Şahdəniz" layihəsi ilə biz daha böyük nəticələr əldə edəcəyik. Mən də ötən ay Yunanıstanla təbii qazın satılması barədə müqavilə imzaladım. Deməliyəm ki, başda Yunanıstan və İtaliya olmaqla, Avropa Azərbaycanın təbii qazını səbirsizliklə gözləyir. Ona görə həmin layihəni də sürətlə həyata keçirəcəyik. Bu layihə Bakı-Tbilisi-Ceyhana paralel layihə olacaqdır. Bununla bağlı işlər aparılır. Beləliklə, dostluğumuz və qardaşlığımız daha da möhkəmlənəcək və digər ölkələrə də örnək olacaqdır.

Məni qəbul etdiyiniz üçün və buraya səfərimdən şərəf duyduğumu bir daha söyləmək

istəyirəm. İnşallah, apardığımız bütün işlər sabah imzalanacaq sənədlər sayəsində daha da inkişaf edəcəkdir.

İLHAM ƏLİYEV: Hörmətli cənab nazir, çox sağ olun.

Prezident Heydər Əliyevin Türkiyə və Azərbaycan arasında olan münasibətlərin yüksək səviyyəyə qalxmasında böyük rolu olmuşdur. Əlbəttə, Azərbaycanda neft yataqlarının işlənilməsi və neftin dünya bazarlarına çatdırılması istiqamətində də onun müstəsna xidmətləri olmuşdur. Mən çox məmnunam ki, belə bir qərar qəbul olunmuşdur və Ceyhan terminalına Heydər Əliyevin adı veriləcəkdir. Bu, çox düzgün qərardır və onun qəbul edilməsinə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu layihələr - həm Bakı-Tbilisi-Ceyhan, həm də "Şahdəniz" layihələri iqtisadi və siyasi cəhətdən böyük əhəmiyyətə malikdir. Çox sevindirici haldır ki, onlar artıq həyata keçirilir.

Vaxtilə bu layihələr çoxlu mancələr, çətin məqamlarla qarşılaşmışdır. Bütün bunlara baxmayaraq, bizim iradəmiz və müştərək səylərimiz bunları gerçəyə çevirmişdir. Bir vaxt əfsanə kimi görünən bu layihələr artıq reallıqdır, gerçəkdir. Bu, bir də onu göstərir ki, bölgədə bizim müştərək şəkildə həll edə bilməyəcəyimiz məsələ yoxdur. Bu gün ən çətin, ən çox vəsait, siyasi dəstək tələb edən layihələr həyata keçirilir və biz yaxın zamanlarda onların açılışında iştirak edəcəyik. Eyni zamanda, bu, çox gözəl bir örnək, qonşu və qardaş ölkələrin əməkdaşlığı və bir-birinə yardım etmələri nümunəsidir. Əminəm ki, bu nümunə digərləri üçün də faydalı olacaq və ən önəmlisi ondadır ki, xalqlarımız bir-birinə daha yaxın olacaqlar.

Gələcəkdə bizi böyük işlər gözləyir. Ölkələrimiz inkişaf edir, iqtisadi cəhətdən güclənir, dünyada daha da möhkəm mövqe qazanırlar. Bunu ancaq alqışlamaq lazımdır. Mən çox sevinirəm ki, on il bundan əvvəl başlanılmış siyasət bu gün son nöqtəsinə gəlib çatır. Bu, böyük bayramdır və sabah biz bunu bir yerdə qeyd edəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev onların Bakıda keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, ATƏT-in Parlament Assambleyasının regiondakı vəziyyətə, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə böyük diqqət yetirməsini yüksək qiymətləndirdi. Bu münaqişənin uzun illərdir davam etdiyini xatırladan dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması nəticəsində ölkəmizə böyük ziyan dəydiyini, bir milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü və onların çox çətin şəraitdə yaşadıqlarını diqqətə çatdırdı. ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələlik səmərə vermədiyini təəssüflə vurğulayan Azərbaycan Prezidenti gələcəkdə bu qurumun fəaliyyətinin beynəlxalq normalar əsasında hansısa bir nəticə verəcəyinə ümidvar olduğunu bildirdi.

Danışıqlar prosesinin davam etdiyini söyləyən Prezident İlham Əliyev, eyni zamanda, bildirdi ki, münaqişənin həllində beynəlxalq ictimaiyyətin daha çox fəallıq göstərməsi zəruridir. Bu prosesdə əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq təsisatlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası, Avropa İttifaqı da səylərini artırmalıdır. Prezident İlham Əliyevin fikrincə, onların bu sahədə fəaliyyətinin gücləndirilməsi münaqişənin sülh yolu ilə həlli yollarının tapılmasında böyük əhəmiyyətə malikdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Qoran Lenmarker ilk dəfə Azərbaycana səfər etdiklərini və vəziyyətlə yaxından tanış olduqlarını söylədi. O, qaçqınlar və məcburi köçkünlərlə görüşləri zamanı bu insanların münaqişənin tezliklə həlli üçün beynəlxalq təşkilatların səylərinin artırılması barədə ciddi tələblərini eşitdiklərini, bu məsələdə beynəlxalq normalara əməl edilməsi və ikili standartlara son qoyulması barədə dediklərı fikirlərlə razı olduğunu bildirdi.

Avropa strukturlarının münaqişənin həllində, regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində səylərinin artırılmasının zəruriliyi haqqında Azərbaycan dövləti başçısının fikirləri ilə razılaşdığını söyləyən Qoran Lenmarker dedi ki, Avropa İttifaqı Şərqi Avropada təhlükəsizlik məsələlərinə böyük əhəmiyyət verir.

Qonaq Türkiyənin Avorpa İttifaqına üzv olması ilə əlaqədar fəal iş aparıldığını və Avropa strukturlarının gələcəkdə Cənubi-Şərqi Avropadakı mövcud problemlərin həllinə də diqqətinin artırılacağını bildirdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ BİRİNCİ VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti xanım Norin Doylun başçılığı ilə beynəlxalq maliyyə qurumlarının nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonağı səmimiyyətlə salamlayaraq, xanım Doylun da iştirak edəcəyi Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi üzrə sənədlərin imzalanması mərasimini yüksək qiymətləndirmiş, bunu layihənin həyata keçirilməsində ümumi səylərin yekunu adlandırmışdır.

Bakı-Tbilisi-Ceyhan layihəsinin əvvəllər çoxlarına əfsanə kimi göründüyünü, indi isə regional əməkdaşlığın genişləndirilməsi və xarici şirkətlərin, beynəlxalq maliyyə qurumlarının fəaliyyəti nəticəsində reallığa çevrildiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanda neft strategiyasının həyata keçirilməsi prosesinin on il əvvəl başlandığını və həmin dövrdən xarici sərmayələr üçün açıq qapı siyasəti yeridildiyini xatırlatmışdır. Prezident İlham Əliyev vurğulamışdır ki, bu on ildə layihənin qarşısında müxtəlif çətinliklər və maneələr olmasına baxmayaraq, Azərbaycan bunların hamısının öhdəsindən gələ bilmişdir. Bakıda keçiriləcək imzalanma mərasimini ölkəmizin həyatında çox mühüm hadisə kimi dəyərləndirən İlham Əliyev layihənin uğurla başa çatmasını Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi yüksəlişində əhəmiyyətli addım adlandırmışdır. Bu ölkələrin gələcəkdə iqtisadi cəhətdən daha da güclənəcəyinə, inkişaf edəcəyinə əminliyini və enerji layihələrinin regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsində böyük əhəmiyyətə malik olduğunu vurğulayan Prezident İlham Əliyev demişdir ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi bölgədə əməkdaşlığın inkişafına böyük bir töhfədir.

Prezident İlham Əliyev layihəyə göstərdikləri dəstəyə görə beynəlxalq maliyyə qurumlarına təşəkkürünü bildirərək, onların nümayəndələrini neft kəmərinin işə salınması mərasimində görəcəyindən məmnun olacağını söyləmişdir.

Vaxt tapıb onu qəbul etdiyi üçün Prezident İlham Əliyevə təşəkkür edən, Bakıda imzalanma mərasimində iştirakından məmnun qalacağını söyləyən xanım Norin Doyl layihənin maliyyələşdirilməsinin uğurla başa çatdırılmasında istər Azərbaycan rəhbərliyinin, istərsə də beynəlxalq maliyyə qurumlarının böyük səylər göstərdiyini bildirmişdir. Onun sözlərinə görə, Bakı-Tbilisi-Ceyhan layihəsinin çox böyük perspektivləri var və onun maliyyələşdirilməsinə dair qəbul olunmuş qərarlar gələcəkdə özünü doğruldacaqdır. Bu layihə bütün Cənubi Qafqaz regionunun dünyada tanınmasında mühüm rol oynamış və qonşu ölkələrin yüksək səviyyədə əməkdaşlığının gözəl nümunəsi olmuşdur.

Xanım Doyl da vurğulamışdır ki, əsas ixrac boru kəmərinin işə düşməsi nəticəsində Xəzər neftinin dünya bazarlarına çatdırılması Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi inkişafında böyük rol oynayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Prezident sarayında ABŞ-ın Xəzər hövzəsinin enerji diplomatiyası üzrə səfiri Stiven Mənni qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi üzrə son sənədlərin Bakıda keçiriləcək imzalanma mərasimini əlamətdar hadisə kimi qiymətləndirmişdir. Onun sözlərinə görə, Birləşmiş Ştatların daim dəstəklədiyi bu layihə ölkələrimiz arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasında mühüm rol oynamışdır.

Prezident İlham Əliyev demişdir ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi prosesində Birləşmiş Ştatlar və Azərbaycan maliyyə məsələləri ilə yanaşı, bir sıra digər mühüm problemləri, o cümlədən ətraf mühitin qorunması problemini də uğurla həll etmişlər.

Dövlətimizin başçısı bu mühüm layihəni dəstəklədiyi üçün ABŞ hökumətinə təşəkkür edərək bildirmişdir ki, əsas ixrac boru kəmərinin işə salınması region ölkələrinin iqtisadi tərəqqisi ilə yanaşı, təhlükəsizliyin möhkəmlənməsinə də kömək edəcəkdir. O, istər Bakı-Tbilisi-Ceyhanın, istərsə də digər enerji layihələrinin həyata keçirilməsində Birləşmiş Ştatlarla əməkdaşlığın davam edəcəyinə əminliyini vurğulamışdır.

Səfir Stiven Mənn Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona ötənilki səfərini

yada salaraq, o zaman enerji layihələrinin həyata keçirilməsi sahəsində müxtəlif məsələlərin konstruktiv şəkildə müzakirə olunduğunu xatırlatmışdır. Azərbaycan rəhbərliyinin bu sahədə fəaliyyətini yüksək qiymətləndirən səfir də Bakı-Tbilisi-Ceyhan kəmərinin ölkəmizin iqtisadi inkişafına təkan verəcəyini və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına şərait yaradacağını söyləmişdir. Cənab Stiven Mənn bildirmişdir ki, ABŞ hökuməti gələcəkdə də Xəzərin enerji ehtiyatlarının işlənilməsi layihələrini dəstəkləyəcəkdir.

Şərq-Qərb enerji dəhlizinin Birləşmiş Ştatlar üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan amerikalı diplomat, "Şahdəniz" layihəsinin də uğurla həyata keçiriləcəyinə əmin olduğunu söyləmişdir.

Qonağın fikri ilə razılaşdığını bildirən Prezident İlham Əliyev vaxtilə Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bağlı çox ciddi problemlər və maneələr olduğunu xatırladaraq, Prezident Heydər Əliyevin səyləri nəticəsində bunların aradan qaldırıldığını və çoxlarına əfsanə kimi görünən layihənin indi uğurla həyata keçirildiyini vurğulamışdır. 1994-cü ilin sentyabrını yada salan dövlətimizin başçısı demişdir ki, məhz həmin dövrdə xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurlu neft strategiyasının əsası qoyulmuşdur.

Beynəlxalq maliyyə qurumlarının Azərbaycanda həyata keçirilən irimiqyaslı enerji layihələrini dəstəkləməsini də yüksək qiymətləndirən Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, onlarla əməkdaşlıq sahəsində əldə olunmuş təcrübə "Şahdəniz" layihəsinin və digər layihələrin də uğurla həyata keçirilməsinə kömək edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN BEYNƏLXALQ NEFT KORPORASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Prezident sarayında Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturiyanı qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev qonağı səmimiyyətlə salamlayaraq demişdir ki, bu gün bizim üçün çox mühüm, tarixi gündür. Birgə boru kəməri layihəsinin həyata keçirilməsinə yönəldilmiş bütün səylərimiz yekun mərhələsinə yaxınlaşır. Artıq heç kimdə şübhə yoxdur ki, layihənin gerçəkləşdirilməsi uğurla başa çatdırılacaq və bu, ölkələrimiz arasında daha böyük inteqrasiyaya gətirib çıxaracaqdır. Bizim tarixi, ənənəvi dostluq münasibətlərimiz var. Dövlətlərimizin müstəqilliyi dövründə bu münasibətlər daha da möhkəmlənmişdir. Ümidvarıq ki, bu xətt gələcəkdə də davam etdiriləcəkdir. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan boru kəməri böyük əhəmiyyətə malikdir. O, ölkələrimizi bir-birinə daha sıx bağlayacaq, xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Hesab edirəm ki, ölkələrimiz bu layihənin əməli faydasını yaxın vaxtlarda görəcəklər.

Prezident İlham Əliyev vurğulamışdır ki, birgə iqtisadi layihələrimiz bununla bitmir. Növbədə "Şahdəniz"dir, əminəm ki, o da uğurla həyata keçiriləcəkdir. Çox şadam ki, bu gün Siz bu olduqca mühüm mərasimə gəlmisiniz. Boru kəmərinin işə salınması münasibətilə daha bir mərasim keçirmək üçün ilin sonunu səbirsizliklə gözləyəcəyik.

Səmimi qəbula görə minnətdarlıq edən Giorgi Çanturiya bu mühüm mərasimlə əlaqədar Azərbaycan dövlətinin başçısına Gürcüstan rəhbərliyinin, Prezident Mixail Saakaşvilinin ən xoş arzu və təbriklərini yetirmişdir. O demişdir ki, bu gün xalqlarımız üçün, həqiqətən, çox əlamətdar gündür. Bütün dünya bir daha yəqin edir ki, Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyası uğurla həyata keçirilir. Bu, xalqlarımız üçün yeganə düzgün yol idi. Qərb ölkələrinə inteqrasiya, geniş regional əməkdaşlıq dövlətlərimizin mənafelərinə xidmət edir. Bu gün biz qürurla deyə bilərik ki, proses çox uğurla gedir.

Giorgi Canturiya boru kəmərinin Gürcüstan ərazisində tikintisinin gedişi barədə Azərbaycan Prezidentinə məlumat verərək bildirmişdir ki, işlərin 47 faizi başa çatdırılmış, 100 kilometrdən artıq boru qaynaq edilərək xəndəyə düzülmüşdür. Ən başlıcası odur ki, Gürcüstan xalqı artıq indinin özündə bu layihənin iqtisadi faydasını hiss edir. Böyük siyasi əhəmiyyəti ilə yanaşı, layihənin həyata keçirilməsi xalqlarımıza həm də böyük iqtisadi fayda verəcəkdir. Kəmərin tikintisində Gürcüstanın 3500 vətəndaşı çalışır. Bu layihə sayəsində dövlətlərimiz qarşılıqlı münasibətlərin, dünyanın aparıcı ölkələri ilə inteqrasiyanın tamamilə yeni səviyyəsinə çıxmışlar. İri şirkətlər cəsarətlə bəyan edə bilərlər ki, onlar, ilk növbədə, Azərbaycana, sonra isə Gürcüstana tam etibar edirlər. Gürcüstanda da gözəl başa düşürlər ki, Azərbaycanın sayəsində biz dövlətimizin enerji təhlükəsizliyinin təmin olunmasının tamamilə yeni səviyyəsinə çıxa bilərik.

Qonaq daha sonra vurğulamışdır ki, Gürcüstanın yeni rəhbərliyi nəinki layihə ilə bağlı bütün işlərin vaxtında başa çatdırılması üçün var qüvvə ilə səy göstərəcəyini birmənalı şəkildə bildirmişdir. Bugünkü sazişin imzalanması dövlətlərimizin, ilk növbədə, dünya iqtisadiyyatına artıq öz töhfəsini verən dövlət, dünya iqtisadiyyatının asılı olacağı ölkə kimi Azərbaycanın dünya prosesinin bərabərhüquqlu iştirakçıları kimi tanınması deməkdir. Bu, Heydər Əliyevin hələ çox-çox illər əvvəl öncədən gördüyü, həm Azərbaycan üçün, həm də region üçün müəyyənləşdirdiyi böyük siyasətin yüksək qiymətləndirilməsi deməkdir.

Giorgi Çanturiya bu layihələrdə bilavasitə iştirakına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək demişdir ki, Sizin bilavasitə iştirakınız bir çox müsbət prosesləri irəlicədən müəyyənləşdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev bu layihənin gerçəkləşdirilməsində Gürcüstan Beynəlxalq Neft Korporasiyasının və şəxsən Giorgi Çanturiyanın rolunu qeyd edərək demişdir ki, biz bu işlərin həyata keçirilməsində birgə iştirak etmişik. Mən birgə səylərimizi məmnunluqla xatırlayıram və hələ Bakı-Supsa boru kəmərindən başlayaraq indiki mərhələyədək – Bakı-Tbilisi-Ceyhan mərhələsinədək bu prosesə Sizin şəxsi töhfənizi vurğulamaq istəyirəm. Bir sıra mərhələlərdə çox qiymətli və həlledici olmuş Sizin şəxsi töhfəniz kimi, Gürcüstan Beynəlxalq Neft Korporasiyasının töhfəsi də dəyərli olmuşdur. Ona görə də mən bunu xatırlamaya bilmərəm və istəyirəm ki, bunu hamı bilsin. Əminəm ki, biz bu istiqamətdə gələcəkdə də birgə işləyəcəyik.

Azərbaycan dövlətinin başçısı vurğulamışdır ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri hələ istifadəyə verilməsə də, ölkələrimizə və xalqlarımıza olduqca böyük fayda gətirmişdir. O, tam gücü ilə işə düşdükdən sonra isə bu fayda qat-qat böyük olacaqdır. Ona görə də biz hamımız onun istifadəyə veriləcəyi vaxtı səbrsizliklə gözləyir və ümid edirik ki, onun gələcək fəaliyyəti Gürcüstana da, Azərbaycana da, bütün regiona da həm iqtisadi,

həm də siyasi cəhətdən, habelə inteqrasiya proseslərinin gücləndirilməsi, ölkələrimizin müstəqilliyi və təhlükəsizliyinin möhkəmləndirilməsi baxımdan fayda gətirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ NAZİRLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 3-də Prezident sarayında İtaliyanın Avropa Şurasındakı daimi nümayəndəsi, Avropa Şurası Nazirlər Komitəsinin "Aqo" monitorinq qrupunun rəhbəri Pyetro Erkole Aqonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları salamlayan Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsindən artıq 3 il keçmişdir. Bu müddət ərzində Azərbaycan Respublikasının nümayəndələri Strasburqa çoxsaylı səfərləri zamanı bu mötəbər Avropa qurumunda maraqlı görüşlər keçirmiş, məzmunlu müzakirələr aparmış, eləcə də Avropa Şurasının nümayəndələri dəfələrlə Azərbaycanda olmuş, müxtəlif məsələlərlə bağlı monitorinq keçirmişlər. Məhz bu təmaslar sayəsində Azərbaycanda qanunvericilik bazasının təkmilləşdirilməsi, demokratik təsisatların inkişaf edərək Avropa standartlarına uyğunlaşdırılması, insan hüquqlarının təmin olunması, demokratik prinsiplərin həyata keçirilməsi sahəsində irəliləyiş daim davam etmiş və ölkəmiz Avropa Şurasına üzv dövlətlər sırasında özünə layiq yer tutmuşdur.

Dövlətimizin başçısı daha sonra demişdir ki, Azərbaycan Respublikası eyni zamanda regionda nəhəng layihələr həyata keçirir və regional əməkdaşlıq sayəsində böyük nailiyyətlər əldə etmişdir. Məhz indi respublikada siyasi, iqtisadi, qanunvericilik sahələrində həyata keçirilən islahatlar sayəsində dinamik iqtisadi inkişaf müşahidə olunur. Son dövrlərdə ümumi daxili məhsulun illik artımı orta hesabla 10 faizə bərabərdir və bu artım davam edir.

Beləliklə, Azərbaycan Respublikasının Avropa Şurası ilə səmərəli əməkdaşlığı ölkəmizin inkişafı üçün öz bəhrəsini verir. Azərbaycan Prezidenti vurğulamışdır ki, Azərbaycan gələcəyə böyük ümidlər bəsləyir və əmindir ki, Avropa Şurası ilə əməkdaşlıq bundan sonra faydalı olacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan dövlətimizin başçısı Azərbaycanın qəti mövqeyini bir daha bəyan etmişdir.

"Aqo" qrupunun rəhbəri Pyetro Erkole Aqo demişdir ki, o da Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığından məmnundur və bu əməkdaşlığın uğurları göz qabağındadır. Bəzi nöqsanların olmasına baxmayaraq, Azərbaycanda prezident seçkiləri yaxşı təşkil olunmuş və mütəşəkkil keçirilmişdir. Avropa Şurası nümayəndələrinin Azərbaycana səfərləri zamanı monitorinqlərin, görüşlərin və danışıqların məqsədi demokratik hüquqi dövlət qurmaqda Azərbaycana yardım göstərmək və bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə kömək etməkdir.

Sonda "Aqo" monitorinq qrupunun rəhbəri P.E.Aqo Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə qəbula görə səmimi minnətdarlığını bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev onların Bakıda keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, ATƏT-in Parlament Assambleyasının regiondakı vəziyyətə, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə böyük diqqət yetirməsini yüksək qiymətləndirdi. Bu münaqişənin uzun illərdir davam etdiyini xatırladan dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması nəticəsində ölkəmizə böyük ziyan dəydiyini, bir milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü və onların çox çətin şəraitdə yaşadıqlarını diqqətə çatdırdı. ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələlik səmərə vermədiyini təəssüflə vurğulayan Azərbaycan Prezidenti gələcəkdə bu qurumun fəaliyyətinin beynəlxalq normalar əsasında hansısa bir nəticə verəcəyinə ümidvar olduğunu bildirdi.

Danışıqlar prosesinin davam etdiyini söyləyən Prezident İlham Əliyev, eyni zamanda, bildirdi ki, münaqişənin həllində beynəlxalq ictimaiyyətin daha çox fəallıq göstərməsi zəruridir. Bu prosesdə əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq təsisatlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası, Avropa İttifaqı da səylərini artırmalıdır. Prezident İlham Əliyevin fikrincə, onların bu sahədə fəaliyyətinin gücləndirilməsi münaqişənin sülh yolu ilə həlli yollarının tapılmasında böyük əhəmiyyətə malikdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Qoran Lenmarker ilk dəfə Azərbaycana səfər etdiklərini və vəziyyətlə yaxından tanış olduqlarını söylədi. O, qaçqınlar və məcburi köçkünlərlə görüşləri zamanı bu insanların münaqişənin tezliklə həlli üçün beynəlxalq təşkilatların səylərinin artırılması barədə ciddi tələblərini eşitdiklərini, bu məsələdə beynəlxalq normalara əməl edilməsi və ikili standartlara son qoyulması barədə dedikləri fikirlərlə razı olduğunu bildirdi.

Avropa strukturlarının münaqişənin həllində, regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində səylərinin artırılmasının zəruriliyi haqqında Azərbaycan dövləti başçısının fikirləri ilə razılaşdığını söyləyən Qoran Lenmarker dedi ki, Avropa İttifaqı Şərqi Avropada təhlükəsizlik məsələlərinə böyük əhəmiyyət verir.

Qonaq Türkiyənin Avorpa İttifaqına üzv olması ilə əlaqədar fəal iş aparıldığını və Avropa strukturlarının gələcəkdə Cənubi-Şərqi Avropadakı mövcud problemlərin həllinə də diqqətinin artırılacağını bildirdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Rusiya paytaxtına ilk rəsmi səfərə gəlmişdir.

RUSİYA PREZİDENTİNİN İQAMƏTGAHINDA QEYRİ-RƏSMİ GÖRÜŞ

Fevralın 5-də axşam Rusiya dövləti başçısının Moskva yaxınlığındakı iqamətgahında – Novo-Oqaryovoda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyri-rəsmi görüşü olmuşdur.

Rusiya Prezidenti Azərbaycan dövlətinin başçısını və onun xanımını iqamətgahın önündə mehribanlıqla qarşıladı.

Prezident Vladimir Putin və xanımı Lyudmila Putina Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahda böyük səmimiyyətlə salamladılar. Cənab Vladimir Putin Mehriban xanıma gül dəstəsi təqdim etdi.

Vladimir Putin Azərbaycan Prezidentinin işlərinin gedişi ilə maraqlandı. Prezident İlham Əliyev hər şeyin yaxşı olduğunu bildirdi.

Sonra Rusiya dövlətinin başçısı qonaqları özünün iş otağına dəvət etdi. O, respublikamızın rəhbərini və onun xanımını bir daha salamladı və ümidvar olduğunu bildirdi ki, Azərbaycan Prezidentinin Rusiyaya ilk rəsmi səfəri çox uğurlu və səmərəli olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Fevralın 6-da Kremlin Yaşıl salonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü oldu.

Prezident Vladimir Putin Azərbaycan Prezidentini salamlayaraq dedi ki, Azərbaycanla Rusiya arasında iqtisadi münasibətlər intensiv inkişaf edir. Xüsusən son iki ildə əmtəə dövriyyəsində böyük artım müşahidə olunmuşdur, ötən ilin 11 ayı ərzində əmtəə dövriyyəsi 40 faiz çoxalmışdır. Müxtəlif iqtisadi layihələr həyata keçirilir, Rusiya-Azərbaycan hökumətlərarası komissiyası intensiv işləyir.

Rusiya rəhbəri vurğuladı ki, müxtəlif sahələrdə, o cümlədən Qafqazda təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndiyi bir şəraitdə terrorizmlə mübarizə xüsusilə fəallaşmışdır. Rusiya Prezidenti dedi: "Əməkdaşlığın bütün bu istiqamətləri Rusiya və Azərbaycan xalqlarının xeyrinədir. Şübhə etmirəm ki, Sizin rəsmi səfəriniz ikitərəfli münasibətlərin daha da inkişafına kömək göstərəcəkdir".

Moskvaya, Rusiya Federasiyasına rəsmi səfərə dəvətə görə Rusiya dövlətinin başçısına təşəkkür edən Prezident İlham Əliyev Moskva metrosunda çoxlu insan tələfatı ilə nəticələnmiş faciə ilə əlaqədar Prezident Vladimir Putinə və Rusiya xalqına başsağlığı verdi. Prezident İlham Əliyev dedi: "Bu, böyük faciə və böyük dərddir. Bu gün rusiyalılar üçün necə ağır olduğunu başa düşürəm. Mənim başsağlığımı və xəsarət alanların tezliklə sağalması arzularımı qəbul edin".

Dövlətimizin başçısı Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyindən danışaraq vurğuladı ki, bizim yaxşı siyasi əlaqələrimiz, ikitərəfli məsələlərdə, regional əməkdaşlıq məsələlərində tam qarşılıqlı anlaşmamız var, bir çox beynəlxalq problemlərdə mövqelərimiz uyğun gəlir. Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır və biz bu strateji tərəfdaşlığa sadiqik. Mən bu xətti davam etdirəcəyəm".

Azərbaycan Prezidenti bildirdi ki, son üç ildə ikitərəfli əlaqələrimizdə gedən proseslər Rusiya-Azərbaycan münasibətlərinin bugünkü dinamizminin gələcəkdə də inkişaf etdiriləcəyini söyləməyə tam əsas verir. Biz bunda maraqlıyıq, əminik ki, Rusiya və Azərbaycan xalqları sıx qarşılıqlı fəaliyyətdə maraqlıdırlar.

Prezident İlham Əliyevin fikrincə, ikitərəfli münasibətlərdə toplanmış təcrübəyə əsasən inamla demək olar ki, Rusiya-Azərbaycan münasibətlərinin yaxşı gələcəyi var. O, Moskvaya rəsmi səfərə gəlmək barədə dəvətinə və onunla görüşmək imkanına görə Vladimir Putinə bir daha təşəkkür etdi.

Başsağlığına görə Azərbaycan Prezidentinə təşəkkür edən Rusiya rəhbəri Qafqazda və beynəlxalq aləmdə terrorizmlə mübarizədə səyləri birləşdirməyin vacibliyini xüsusi vurğuladı. Rusiya Prezidenti terroru dəhşətli taun adlandıraraq, vətəndaşların təhlükəsizliyinin təmin olunması üçün hüquq mühafizə orqanlarının fəaliyyətini gücləndirməyin zəruriliyini qeyd etdi. Rusiya dövlətinin başçısı Azərbaycanda terrorizmlə mübarizənin yüksək səviyyədə olduğunu xüsusi nəzərə çarpdırdı. O dedi: "Mən bilirəm ki, son illər Azərbaycanda terrorizmlə mübarizədə olduqca səmərəli və ardıcıl tədbirlər görülür".

Prezident Vladimir Putin ümidvar olduğunu söylədi ki, bu qlobal bəla ilə mübarizədə Azərbaycanla Rusiya arasında əməkdaşlıq davam etdiriləcəkdir.

GENİŞ HEYƏTDƏ RUSİYA-AZƏRBAYCAN DANIŞIQLARI

Fevralın 6-da, dövlət başçılarının təkbətək görüşündən sonra Böyük Kreml sarayının Yekaterina salonunda Prezidentlər İlham Əliyevin və Vladimir Putinin iştirakı ilə geniş heyətdə Azərbaycan-Rusiya danışıqları keçirilmişdir.

Danışıqlar başlanmazdan əvvəl Prezident Vladimir Putin Rusiya Federasiyasının rəsmi dövlət şəxslərini Prezident İlham Əliyevə təqdim etdi. Prezident İlham Əliyev isə Azərbaycanın rəsmi nümayəndə heyətinin üzvlərini Prezident Vladimir Putinə təqdim etdi.

Sonra danışıqlar başlandı. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlətimizin başçısına müraciətlə dedi:

- Gün aydın, hörmətli cənab Prezident. İcazə verin, Sizi, nümayəndə heyətinin bütün üzvlərini burada bir daha salamlayım. Biz növbəti görüşümüzə çox şadıq. Bir daha vurğulayıram ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyətin səviyyəsi son illər özünün inkişafının ən yüksək nöqtəsinə çatmışdır. Biz bunu alqışlayırıq.

Ümid edirik ki, postsovet məkanında, regionda qarşılaşdığımız bütün çətinliklərə baxmayaraq, onları birgə səylərimizlə aradan qaldıra biləcəyik və onlar ikitərəfli münasibətlərin inkişafına əngəl törədən amil olmayacaqdır. Üstəlik, Rusiya və Azərbaycan

xalqları arasında dostluq, qarşılıqlı fəaliyyət ənənələri çox möhkəmdir. Atanız, Azərbaycan Prezidenti, ölkəmizdə çox böyük hörmətə malik olan Heydər Əlirza oğlu Əliyev tərəfindən bu sahədə son illər çox iş görülmüşdür. Biz hamımız onu hələ sovet dövründən tanıyırıq. O, Sovet İttifaqı, beynəlxalq miqyaslı siyasətçi idi.

Siz bilirsiniz ki, bir müddət əvvəl biz qərar çıxararaq, onu Rusiya Federasiyasının ali mükafatına təqdim etdik. Biz Heydər Əliyevi "Müqəddəs apostol Andrey Pervozvanni" ordeni ilə təltif etdik. İşimizi başa çatdırdıqdan sonra mən Rusiya rəhbərliyinin tapşırığını yerinə yetirəcək və bu ordeni yadigar olaraq Sizin ailənizə verəcəyəm.

Əminəm ki, səfərin gedişində Moskvada görəcəyiniz iş faydalı olacaq və belə hallarda deyildiyi kimi, ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsinə, şübhəsiz, təkan verəcəkdir.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək dedi:

- Çox sağ olun, hörmətli cənab Prezident.

Məni Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə görə bir daha Sizə öz minnətdarlığımı bildirmək istərdim. İkitərəfli münasibətlərimizin necə inkişaf etməsindən, möhkəmlənməsindən və hər iki ölkənin həyat fəaliyyətinin, əslində, bütün sahələrini əhatə etməsindən çox şadam.

Sizin səyləriniz və Prezident Heydər Əliyevin səyləri sayəsində əlaqələrimizin inkişafının çox möhkəm təməli qoyulmuşdur. İndi ən yüksək səviyyədə siyasi dialoq və məsləhətləşmələr aparılır. Biz regional xarakterli və dünya siyasətinə dair məsələlər barəsində məsləhətləşirik və təbiidir ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər danışıqlarımızda öncül yer tutur. Biz siyasi dialoq, iqtisadi əməkdaşlıq çərçivəsində əldə edilmiş uğurlara yalnız sevinə bilərik. Əmtəə dövriyyəsinin hər il artması bizim uğurlu iqtisadi əlaqələrimizin ən əyani göstəricisidir.

Biz humanitar sahədə də uğurla əməkdaşlıq edirik. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə necə qayğı ilə yanaşıldığını bilirsiniz. Ölkəmizdə təhsil rus dilində aparılan 400-dən artıq məktəb vardır və Sovet İttifaqının dağılmasından sonrakı dövrdə onların heç biri bağlanmamışdır. Bütün bunlar çox vacib məqamlardır və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Biz istəyirik ki, Rusiya və Azərbaycan bundan sonra da dinamik inkişaf etsin, öz fəaliyyətlərini əlaqələndirsinlər. Bu isə öz növbəsində ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaqdır.

Cənab Prezident, Prezident Heydər Əliyevin təltif edildiyi mükafata görə Sizə çox minnətdaram. Bu, Rusiyanın ali mükafatıdır. Bizim hamımız ümid edirdik ki, bu mükafatı o, Sizin əlinizdən şəxsən ala biləcəkdir, lakin taleyin hökmü başqa cür oldu. Biz bu mükafatı qayğı ilə qoruyub saxlayacağıq və o, hər bir azərbaycanlının qəlbində özünə yer tapacaqdır. Zənn edirəm ki, bu, bizi, ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və gələcəkdə uğurla inkişaf etməyimiz üçün daha əlverişli zəmin yaradacaqdır.

Dostluq və qarşılıqlı anlaşma ruhunda keçən danışıqlarda ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsi, yanacaq-enerqetika kompleksi sahəsində işbirliyi və digər məsələlər diqqət mərkəzində oldu. Moskvada imzalanacaq sənədlərin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına yeni təkan verəcəyi vurğulandı.

"MÜQƏDDƏS APOSTOL ANDREY PERVOZVANNI" ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

Fevralın 6-da Kremlin Yekaterina salonunda Rusiya dövlətinin Prezident Heydər Əliyevi təltif etdiyi "Müqəddəs apostol Andrey Pervozvanni" ordeninin dövlətimizin başçısı İlham Əliyevə təqdim olunması mərasimi keçirildi.

Rusiya Prezidenti Vladimir Putin mərasimdə çıxış edərək bildirdi ki, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsində beynəlxalq miqyaslı görkəmli siyasətçi Heydər Əliyevin böyük xidmətləri var. Məhz onun yaratdığı əlverişli zəmin nəticəsində indi Rusiya-Azərbaycan münasibətlərində heç bir problem yoxdur.

Rusiya dövlətinin başçısı Vladimir Putin daha sonra dedi:

- Bu gün mən məmnunluqla qeyd edirəm ki, biz hamımız Azərbaycanın yeni Prezidentinin öz atasından aldığı siyasi irsə necə yanaşdığını, yeni mərhələdə Azərbaycan-Rusiya münasibətlərinin qurulmasına necə qayğı ilə yanaşdığını görürük. Mən qəti əqidədə olduğumu bildirirəm ki, biz hələ çox iş görməyə müvəffəq olacağıq, ikitərəfli münasibətlərin qurulması, ümumən, Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsi sahəsində bizim qarşıda çox işlərimiz, böyük vəzifələrimiz var. Əsla şübhə etmirəm ki, Azərbaycan və Rusiya müasir demokratik münasibətlər qurulmasına birlikdə mühüm töhfə verəcəklər.

İcazə verin, Rusiya rəhbərliyi, Rusiya xalqı adından bu ali mükafatı Sizə təqdim edim. Qoy, o, Heydər Əlirza oğlu Əliyevin xatirəsini yaşatsın və Azərbaycan xalqına bəslədiyimiz münasibətin əlaməti olsun.

Mərasim iştirakçılarının sürəkli alqışları altında Rusiya Prezidenti Vladimir Putin ali mükafatı Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev ali mükafata görə Rusiya Prezidenti Vladimir Putinə təşəkkür edərək dedi:

- Heydər Əlirza oğlunun Rusiyanın ali mükafatı ilə təltif olunması xəbəri bizim hamımızı – onun ailə üzvlərini, bütün Azərbaycan xalqını, əlbəttə, onun özünü sevindirmişdi. Hamınız bilirsiniz ki, o, bu ordenin təqdim olunacağı vaxtı səbirsizliklə gözləyirdi. O, dövlətlərimiz arasında münasibətlərə töhfəsinə və bir siyasətçi kimi töhfəsinə belə qiymət verildiyinə görə Sizə çox minnətdar idi. Amma, təəssüf ki, taleyin hökmü başqa cür oldu. Bu gün həmin mükafatı saxlanmaq üçün mən, onun oğlu qəbul edirəm. Bu mükafat bizim hamımız üçün – ailə üzvləri üçün, bütün Azərbaycan xalqı üçün çox qiymətlidir.

Vladimir Vladimiroviç, belə qiymətə, Prezident Heydər Əlirza oğluna, atama verdiyiniz bu qiymətə, onun xəstəliyi dövründə göstərdiyiniz hörmətə, diqqət və qayğıya görə Heydər Əliyevin oğlu kimi mən şəxsən Sizə bütün ailəmiz adından təşəkkür etmək istəyirəm. Bunu Azərbaycanda hamı bilir və qiymətləndirir, ölkəmizdə Sizi təkcə Rusiya

Prezidenti kimi deyil, həm də çox xeyirxah, səmimi insan və Heydər Əlirza oğlunun dostu kimi sevirlər. Əmin olun ki, mən bu dostluq ənənələrini davam etdirəcək, ölkələrimizin və xalqlarımızın daha yaxın olması üçün öz tərəfimdən hər şey edəcəyəm.

Bu mükafata görə və Rusiyaya rəsmi səfərə dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Fevralın 6-da Böyük Kreml sarayının "Malaxitovoye foye"sində Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə Rusiya-Azərbaycan sənədlərinin imzalanma mərasimi oldu.

Prezident Vladimir Putin və Prezident İlham Əliyev mərasim iştirakçılarının alqışları altında Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Moskva Bəyannaməsini imzaladılar.

İTAR-TASS və AzərTAc agentlikləri arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş imzalandı. Sazişi Rusiya tərəfindən İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko, Azərbaycan tərəfindən AzərTAc-ın baş direktoru Aslan Aslanov imzaladılar.

Sonra Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında məxfi informasiyanın qarşılıqlı surətdə qorunması haqqında saziş imzalandı. Bu sənədi Rusiya tərəfindən Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktoru Nikolay Patruşev, Azərbaycan tərəfindən xarici işlər naziri Vilayət Quliyev imzaladılar.

Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında sərbəst ticarət haqqında 1992-ci il 30 sentyabr tarixli Sazişə sərbəst ticarət rejimindən istisnalar haqqında protokolu Rusiya tərəfindən iqtisadi inkişaf və ticarət nazirinin müavini Dmitri Suxoparov, Azərbaycan tərəfindən isə Baş nazirin birinci müavini Abbas Abbasov imzaladılar.

2004-2006-cı illər üçün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında humanitar sahədə əməkdaşlıq proqramını Rusiya tərəfindən xarici işlər naziri İqor İvanov, Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Abbas Abbasov imzaladılar.

Sənədlər imzalandıqdan sonra Rusiya Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatlarla çıxış etdilər.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi Moskvada salamlamağıma ürəkdən şadam. Bu, onun yeni vəzifədə - Prezident vəzifəsində xaricə ilk səfərlərindən biridir. Biz bunu Rusiya-Azərbaycan münasibətlərinə diqqət əlaməti kimi qiymətləndiririk.

Biz iki ölkə arasında münasibətlərin inkişafı üçün son illər çox iş görmüşük. Münasibətlərin möhkəmlənməsində Heydər Əlirza oğlu xüsusi rol oynamışdır. Biz bu görkəmli

dövlət xadiminin, qeyri-adi insanın və Rusiyanın səmimi dostunun əziz xatirəsini unutmayacağıq. Bu gün mən "Müqəddəs apostol Andrey Pervozvanni" ordenini saxlanmaq üçün İlham Heydər oğluna verdim. Bu mükafat Azərbaycan Prezidenti Heydər Əlirza oğlu Əliyevin xalqlarımız arasında dostluğun və etimadın möhkəmlənməsinə verdiyi müstəsna töhfənin təsdiqi deməkdir.

Bu gün biz Azərbaycan Prezidenti ilə məzmunlu danışıqlar apardıq, gördüyünüz kimi, danışıqların yekunlarına əsasən, Moskva bəyannaməsini imzaladıq. Bəyannamə nəinki strateji tərəfdaşlığı inkişaf etdirmək niyyətində olduğumuzu təsdiqləyir, həm də gələcək perspektiv üçün əməkdaşlığın əsasını müəyyənləşdirir.

Görüşdə biz bir daha təsdiq etdik ki, ölkələrimiz müasir dövrün ən mühüm problemlərinin həllinə eyni və ya oxşar mövqelərdən yanaşır. Məsələn, biz terrorizmlə mübarizədə səyləri birləşdirməyin zəruriliyinə eyni cür baxırıq. Regional və beynəlxalq məsələlərdə, digər qlobal təhdidlərə müqavimət göstərilməsində qarşılıqlı fəaliyyəti gücləndirməyin başqa imkanlarını da real surətdə görürük. Biz Cənubi Qafqazdakı vəziyyəti müzakirə edərkən "Qafqaz dördlüyü" çərçivəsində əməkdaşlığın əhəmiyyətini bir daha vurğuladıq. Əminik ki, Rusiya, Azərbaycan, Gürcüstan prezidentlərinin birbaşa dialoqu regionda sabitliyi möhkəmləndirməyə və bir sıra köhnə problemləri aradan qaldırmağa imkan verəcəkdir.

Xəzər dənizinin hüquqi statusunu da müzakirə etdik. Dağlıq Qarabağ probleminə ciddi diqqət yetirildi. Ermənistan-Azərbaycan dialoquna yenidən başlanması Rusiyada məmnunluqla qarşılanmışdır. Bu gün mən yaranmış vəziyyətin hər iki tərəf üçün məqbul surətdə nizama salınmasına lazımi kömək göstərilməsinə hazır olduğumuzu bir daha təsdiqlədim.

Əlbəttə, biz ikitərəfli işgüzar əməkdaşlığın inkişaf etdirilməsini də ətraflı müzakirə etdik. Ümumi rəyimiz belədir ki, indi əməkdaşlıq genişlənir və bu meyli hər vasitə ilə dəstəkləmək və saxlamaq lazımdır. Belə ki, ötən ilin 11 ayı ərzində qarşılıqlı əmtəə dövriyyəsi, demək olar, 40 faiz artmışdır. Biz mövcud sanballı ehtiyatlardan bundan sonra da istifadə edə bilərik. Qarşılıqlı surətdə faydalı şərtlərlə Azərbaycana enerjidaşıyıcıları göndərilməsinin yeni cədvəli də qəbul edilə bilər. Mən qazı nəzərdə tuturam, biz onu göndərməyə iki il əvvəl başlamışıq. Azərbaycan Prezidenti bu sahədə bəzi məsələləri qaldırdı. Biz onları işgüzar səviyyədə nizama salacağıq.

Əlbəttə, iki ölkənin və ümumən, regionun mənafelərinə ziyan dəymədən, hərbi-texniki sahədə də birgə işin nəticələri olduqca ümidverici ola bilər.

Bu gün 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramı da imzalandı. Əminəm ki, zəngin mədəni potensialı və elmdə, incəsənətdə, təhsildə ənənəvi surətdə sıx əlaqələri olan dövlətlərimiz üçün bu istiqamətin son dərəcə böyük əhəmiyyəti var.

Xüsusi vurğulayacağam ki, İlham Heydər oğlunun Azərbaycanda rus dilinə münasibətini biz Rusiyada yüksək qiymətləndiririk. Ötən ilin sentyabrında Bakıda keçirilmiş V Ümumdünya rus mətbuatı konqresi Rusiyada böyük müsbət əks-səda doğurdu. Əminəm ki, alimlərin, jurnalistlərin birbaşa ünsiyyəti, təcrübə və ideya mübadiləsi təkcə Azərbaycanda deyil, digər MDB ölkələrində və ümumən, dünyada rus dilinə və mədəniyyətinə marağın artmasına kömək etmişdir.

Sonda bir daha nəzərə çarpdırmaq istəyirəm ki, aparılmış danışıqları çox konstruktiv və faydalı, Prezident İlham Heydər oğlu Əliyevin Rusiyaya ilk rəsmi səfərini isə ikitərəfli münasibətlərimizdə, strateji tərəfdaşlığın, Azərbaycan və Rusiya Federasiyası xalqları arasında dostluğun möhkəmlənməsində çox mühüm mərhələ hesab edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Mən, ilk növbədə, Rusiyaya rəsmi səfərə dəvətə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə bir daha təşəkkürümü bildirmək istərdim.

Ölkələrimiz arasındakı münasibətlər bugünkü mərhələdə qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizim çox ciddi siyasi dialoqumuz, regional məsələlərdə, beynəlxalq siyasət məsələlərində tam qarşılıqlı anlaşmamız var. Əlbəttə, biz ikitərəfli münasibətlərimizdə ildən-ilə böyük tərəqqi olduğunu və bütün istiqamətlərdə əlaqələrin yaxşılaşdığını görürük. Bu, iqtisadi əlaqələrimiz, humanitar sahədə münasibətlərimiz üçün çox ciddi zəmindir.

Bu bazanın əsası Vladimir Vladimiroviç Putinin və Heydər Əlirza oğlu Əliyevin birgə səyləri ilə qoyulmuşdur. Onların ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə yönəlmiş qarşılıqlı münasibətləri, fəaliyyəti, aralarındakı tam qarşılıqlı anlaşma və qarşılıqlı hörmət elə bir zəruri siyasi baza olmuşdur ki, bütün istiqamətlərdə münasibətlər bunun üzərində qurulmağa başlamışdır. Çox qısa bir müddətdə hamı gördü ki, biz bütün istiqamətlərdə hissediləcək irəliləyişə nail olmuşuq. Ölkələrimiz arasında əmtəə dövriyyəsi ilbəil, özü də çox ciddi sürətlə artır. Bu gün keçirilən danışıqlar və işgüzar söhbətlər bizi bir daha əmin etdi ki, gələcəkdə bunu daha da genişləndirməliyik.

Ölkələrimizin iqtisadiyyatları dinamik inkişaf edir. Hər iki ölkədə ümumi daxili məhsul istehsalı sabit şəkildə artır ki, bu da əmtəə dövriyyəsini çoxaltmaq üçün yaxşı zəmin yaradır.

Biz ümid edirik ki, energetika sektorunda əməkdaşlığımız davam etdiriləcəkdir. Bu əməkdaşlıq Rusiyanın və Azərbaycanın mənafelərinə cavab verir, bizə iqtisadi səmərə gətirir, habelə ölkələrimiz arasında çox mühüm körpüdür. Biz belə müsbət təcrübəni inkişaf etdirəcəyik və bu məsələlərdə tam qarşılıqlı anlaşma mövcuddur.

Əvvəllər müxtəlif məsələlərə münasibətdə mövqelərimizdə mövcud olan müəyyən fikir ayrılıqları, demək olar, tamamilə aradan qaldırılmışdır. Buna Xəzər dənizinin statusu haqqında məsələni də, - bu məsələ ilə əlaqədar ölkələrimiz arasında ikitərəfli saziş var, - bütün digər sahələrdə əməkdaşlığı da aid etmək olar.

Biz beynəlxalq terrorizmə qarşı mübarizədə çox uğurla əməkdaşlıq edirik. Təəssüf ki, bizim ölkələrimiz - Rusiya da, Azərbaycan da beynəlxalq terrorizmin qurbanları olmuşlar və bu, indi də davam edir. Bizdə belə bir tam qarşılıqlı anlaşma vardır ki, bu bəla ilə yalnız birlikdə, əlbir mübarizə aparmaq mümkündür. Bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycan cəmiyyətini neçə illərdir ki, narahat edən əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasıdır. Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizama salınması üçün böyük səy göstərir. Azərbaycan bu münaqişənin nizama salınması yollarını sülh danışıqlarında görür. Biz ümid edirik ki, Minsk qrupunun fəaliyyəti nəticəsində problemin beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyü prinsipləri əsasında ədalətli həlli mümkün olacaqdır. Bu mövzuda ikitərəfli dialoq davam etdirilir və biz ümidlə gözləyirik ki, Minsk qrupu yeni təkliflər verəcəkdir.

Hərbi-texniki əməkdaşlıq sahəsində münasibətləri bundan sonra da inkişaf etdirmək üçün yaxşı əsas vardır. Artıq bu əməkdaşlığın təməli qoyulmuşdur. Biz bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyinə çox ümid edirik. Hesab edirəm ki, bu, hər iki tərəf üçün çox faydalı ola bilər.

Hörmətli Vladimir Vladimiroviç humanitar sahədə əlaqələrimizdən danışdı. Biz buna çox böyük əhəmiyyət veririk. Sovet İttifaqı dağılandan sonra, xoşbəxtlikdən, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə münasibətdə heç bir dəyişiklik olmadı. Bir çox məsələlərdə isə hətta tərəqqi müşahidə olunur. İkitərəfli görüşümüz zamanı mən dedim ki, Azərbaycanda rus dilində təhsil verən 400-dən artıq məktəb vardır. Azərbaycanın, demək olar ki, bütün ali məktəblərində rus dilində də təhsil verilir. Bütün bu illər ərzində bir məktəb də bağlanmamışdır. Bu, Prezident Heydər Əliyevin siyasətidir və həmin siyasət bundan sonra da davam etdiriləcəkdir. Bu gün xalqlarımızın bir-biri ilə necə əməkdaşlıq etdiklərini görmək çox xoşdur. Azərbaycanda böyük rus icması, Rusiyada isə böyük Azərbaycan icması vardır. Mədəniyyətlərimizin bir-birinə qarşılıqlı nüfuz etməsinə, hətta mən deyərdim ki, bir-birini qarşılıqlı surətdə zənginləşdirməsinə yönəldilmiş bu siyasət çox vacibdir. Biz rus mədəniyyətinə, rus dilinə və bu baxımdan Rusiya ilə bağlı olan hər şeyə gələcəkdə də çox qayğı ilə yanaşacağıq. Zənnimcə, Azərbaycanda keçirilmiş və keçiriləcəyi nəzərdə tutulan Rusiya mədəniyyəti günləri, Rusiyada Azərbaycan mədəniyyəti günləri ölkələrimizin, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Biz bunda maraqlıyıq.

Dünən olduğu kimi, bu gün də Azərbaycanın siyasəti ondan ibarətdir ki, ölkələrimiz ikitərəfli əsasda, regional planda, beynəlxalq miqyasda daha sıx qarşılıqlı fəaliyyət göstərsinlər. Bu, bizə böyük fayda verəcəkdir.

Fürsətdən istifadə edib, bu dəvətə, səmimiyyətlə qarşılandığıma görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Ümid edirəm ki, görüşlərimiz gələcəkdə də davam edəcək və bu görüşlər ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına kömək göstərəcəkdir.

* * *

Sonra Rusiya və Azərbaycan prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım cənab Putinədir. Hörmətli Prezident, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında ən köhnə münaqişədir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Rusiyanın bu problemin dincliklə nizama salınmasına dair konkret təklifi varmı? Necə bilirsiniz, Azərbaycan Prezidentinin bu səfəri ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəkmi?

VLADİMİR PUTİN: Həqiqətən, Dağlıq Qarabağ problemi köhnə olsa da, yeganə deyildir. Bildiyiniz kimi, Qafqazda elə həmin vaxtlardan başlanmış münaqişələr də var,

Dnestryanı bölgədə də heç də hər şey nizama salınmayıb. Bizə sovet dövründən çox problemlər qalıb və onlar Sovet İttifaqının dağılmasını gərginləşdirdi və sürətləndirdi. Mən bu mövzuda öz fikrimi açıqlamışam və təkrarlaya bilərəm. Biz bu istiqamətdə yollar axtarmağa, hətta səylərimizi gücləndirməyə hazırıq. Lakin biz heç nəyi zorla qəbul etdirməyəcəyik və nə Azərbaycan xalqına, nə də Ermənistan xalqına nəyisə zorla qəbul etdirməyə haqqımız yoxdur. Məsələnin həlli yolunu iki ölkənin xalqları axtarmalıdırlar, biz isə bu qərarın axtarışında iştirak etməyə hazırıq. Biz əldə edilə biləcək razılaşmaların təminatçısı olmağa hazırıq.

Bu məsələni mən bu yaxınlarda Fransa Prezidenti cənab Jak Şirakla müzakirə etdim. O, həmin məsələ ilə əlaqədar mənə xüsusi olaraq zəng vurmuşdu, çünki bilirdi ki, Azərbaycan Prezidenti ilə görüşümüz olmalıdır. Beynəlxalq birliklə birgə biz problemin aradan qaldırılmasına ürəkdən çalışacağıq. Mən sizə yeganə bir şeyi tam dəqiq və aydın şəkildə deyə bilərəm: Rusiya bütün münaqişələrin, o cümlədən də Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır. Çünki bu, istər Azərbaycanla, istərsə də Ermənistanla dolğun əməkdaşlıq üçün bizə geniş imkan verəcəkdir və biz bunu çox istəyirik. İndiki qeyri-normal vəziyyətin davam etməsi istər bir, istərsə də digər istiqamətdə ikitərəfli əlaqələrin inkişafında təbii məhdudiyyət yaradır. Biz bu vəziyyətin dəyişməsində olduqca maraqlıyıq və bunun mümkün qədər tez baş verməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu istiqamətdə hər iki prezidentin səylərini dəstəkləyəcəyik.

O ki qaldı indiki səfərin kontekstində ikitərəfli əlaqələrin inkişafına, şübhə etmirəm ki, bu, yaxşı təkan olacaqdır. Qeyd edim ki, Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bütün mahiyyətinə dərindən bələddir. Bu işlərdə o, heç də təcrübəsiz deyildir. Buna dərindən bələd olaraq, biz təxminən bir saat, hətta bundan çox vaxt ərzində təkbətək söhbət etdik, özü də iqtisadi və siyasi səpkidə tamamilə konkret məsələləri təfərrüatı ilə müzakirə etdik. Bu, beynəlxalq mövzulara da, beynəlxalq məsələlərə də, iqtisadiyyatda qarşılıqlı fəaliyyətə də aiddir. Əminəm ki, Prezidentin arzularına uyğun olaraq, Rusiyanın müəyyən nazirliklərinin fəaliyyətində də təshihlər ediləcəkdir.

Bu, ikitərəfli münasibətlərin xeyrinə olacaqdır. Buna heç bir şübhə yoxdur.

SUAL: Bu gün ağır gündür və cənab Azərbaycan Prezidenti Moskvada baş vermiş terror aktı ilə bağlı fikrini bildirdi. Vladimir Vladimiroviçdən soruşmaq istərdim. Siz həmişə deyirsiniz ki, bu dəhşətli bəla ilə təkbaşına mübarizə aparmaq qeyri-mümkündür. Terrorizmlə mübarizədə ölkələr səylərini birlikdə necə gerçəkləşdirə bilərlər, məsələn, Siz bunu Azərbaycanla birlikdə necə etmək qərarına gəlmisiniz?

İLHAM ƏLİYEV: Əgər mümkünsə, bu suala əvvəlcə mən cavab verim. Biz, əlbəttə, bu mövzuda fikir mübadiləsi apardıq və fikirlərimiz tamamilə üst-üstə düşdü. Mən giriş sözümdə bu məsələyə toxundum. Bütün beynəlxalq birliyin bir istiqamətə yönəlmiş səyləri olmalıdır. Biz bunun necə bir bəla olduğunu yaxşı bilirik. Təəssüf ki, bizim ölkələrimiz beynəlxalq terrorizmdən zərərçəkənlər arasındadır. Bu bəla ilə mübarizə aparmaq həddindən artıq çətindir. Çünki əslində düşmən görünmür. Sən onun kim olduğunu bilirsən, yaxud güman edirsən, onun harada olduğunu zənn edə bilirsən, lakin dəqiq müəyyən etmək çox çətindir. Odur ki, bu məsələdə heç bir müxtəlif münasibət olmamalıdır. Beynəlxalq birlik beynəlxalq terrorizmlə vahid və dəqiq konsepsiya, hətta belə demək mümkündürsə, fəaliyyət planı əsasında mübarizə aparmalıdır. Bu məsələyə ad-

da-budda yanaşsaq, - təəssüf ki, bəzən belə də olur, - bütün səyləri yalnız bir istiqamətdə cəmləşdirsək, bu mübarizə səmərəli olmayacaqdır. Terrorizm indiki dövrün elə bəlasıdır ki, ona yalnız birgə səylərlə son qoymaq mümkündür. Zənn edirəm ki, Rusiyanın və Azərbaycanın səylərinin birgə əlaqələndirilməsi, - bu iş çox səmərəli gedir, - ölkələrin bu bəla ilə necə birgə mübarizə aparmasına yaxşı nümunə ola bilər.

Bizim aramızda bu məsələdə tam qarşılıqlı anlaşma mövcuddur, ölkələrimizin müvafiq orqanları öz səylərini əlaqələndirirlər və ağır nəticələrə gətirib çıxara biləcək bir çox hərəkətlərin qarşısı bu fəaliyyət çərçivəsində alınmışdır. Biz bu məsələni müzakirə etdik və dövlətlərimizin müvafiq idarələri gələcəkdə də bu istiqamətdə işləyəcəklər. Bir daha yalnız ona ümidvar olmaq istərdim ki, həmin bəlaya son qoymaq üçün bütün dünya birliyi bu istiqamətdə vahid mexanizm, vahid komanda kimi fəaliyyət göstərəcəkdir.

VLADİMİR PUTİN: Azərbaycan Prezidentinin indicə dedikləri çox vacibdir. Xüsusən bütün beynəlxalq birliyin səylərini sıx birləşdirmək barədəki son sözləri. Bu suala cavab verməzdən əvvəl, mən də bütün zərərçəkənlərə, həlak olanların ailələrinə başsağlığı vermək istəyirəm. Bu, böyük cinayətdir və müsibətə məruz qalan insanlar üçün və bütün ölkəmiz üçün ağır sınaqdır.

Mən Azərbaycan Prezidentinin bütün beynəlxalq birliyin səylərini sıx birləşdirmək barədə sözlərinə niyə diqqət yetirdim? Budur, indi biz Məshədovla hansısa danışıqların zəruriliyi barədə xaricdən çağırışlar eşidirik. Biz Rusiya ərazisində törədilən cinayətlərin və terrorçularla danışıqlara çağırışların eyni vaxta düşməsi ilə ilk dəfə qarşılaşmırıq. Belə cinayətlər törədildikdən sonra bizi Məshədovla danışıqlara çağırmaq faktının özü sübut edir ki, bu danışıqlara çağıranlar Məshədovla, quldur və terrorçularla əlaqədə olduqlarını dolayısı ilə təsdiqləyirlər. Əslinə qalsa, bizə heç bir əlavə dəlil-sübut lazım da deyildir. Biz yəqin bilirik ki, Məshədov və onun quldurları bu terrorla bağlıdırlar. Belə cinayətləri Rusiya Federasiyasının özündə bəzi ünsürlərlə də sinxronlaşdırmağa dair misallar var. İstisna deyil ki, bundan Rusiya Federasiyası Prezidentinin seçkiləri çərçivəsində daxili siyasi debatların gedişində istifadə ediləcək və dövlətin indiki başçısına təzyiq vasitəsi kimi istifadə olunacaqdır. Lakin terrorçularla hər hansı dialoqdan qeyd-şərtsiz imtina edilməsi terrorla mübarizənin hamılıqla qəbul edilmiş beynəlxalq prinsipidir. Çünki, quldur və terrorçularla hər hansı ünsiyyət onları yeni və daha qanlı cinayətlərlə şirnikləndirir. Rusiya buna getməyib və gələcəkdə də getməyəcəkdir. Rusiya terrorçularla danışıqlar aparmır, onları məhv edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVLA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Kremldə, onun üçün ayrılmış rəsmi iqamətgahda Rusiya Federasiyasının müdafiə naziri Sergey İvanovu qəbul etmişdir.

Görüşdə iki ölkə arasında hərbi-texniki əməkdaşlığa dair müqavilənin yerinə yetirilməsi barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyevlə görüşdən sonra Rusiyanın müdafiə naziri Sergey İvanov jurnalistlərə verdiyi müsahibəsində dedi ki, Azərbaycanın yeni seçilmiş Prezidenti ilə hərbi

və hərbi-texniki əməkdaşlığın indiki səviyyəsi və perspektivləri, bu sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi, sabit və ardıcıl xarakter alması məsələləri müzakirə edildi. Cənubi Qafqaz regionunda təhlükəli qaynar nöqtələrdə vəziyyətin sabitləşdirilməsi də söhbətin əsas mövzularından biri oldu. Sergey İvanov ötən il Bakıya səfər etdiyini xatırladaraq, bu il də Azərbaycana gələcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasına gəldi.

Dövlətimizin başçısını binanın önündə Federasiya Şurasının sədri Sergey Mironov böyük mehribanlıqla qarşıladı. Prezident İlham Əliyevə gül dəstəsi təqdim olundu.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Federasiya Şurasının sədri Sergey Mironov arasında görüş oldu.

Cənab Sergey Mironov görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar Prezident İlham Əliyevə bir daha başsağlığı verdi və bildirdi ki, Azərbaycanın ümummilli liderinin ölkələrimiz arasında əlaqələrin inkişafında çox böyük xidmətləri olmuşdur və bu, heç vaxt unudulmayacaqdır.

O, Rusiya və Azərbaycanın qanunvericilik orqanları arasında əməkdaşlığın səviyyəsindən çox razı olduğunu və bunun gələcəkdə inkişaf etdirilməsi üçün əlindən gələni edəcəyini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Moskva metrosunda törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə əlaqədar Federasiya Şurasının sədri Sergey Mironova başsağlığı verdi və bu hadisə zamanı yaralanan insanların tezliklə şəfa tapmasını arzuladı.

Söhbət zamanı "Qafqaz dördlüyü" çərçivəsində parlament sədrlərinin iştirakı ilə keçirilən görüşlərin əhəmiyyətindən danışıldı və bu görüşlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyi vurğulandı.

Sonra Prezident İlham Əliyev Federasiya Şurasının üzvləri ilə tanış oldu, onlarla səmimi söhbət etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL KASYANOV İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da, Moskvaya rəsmi səfəri çərçivəsində Rusiya Federasiyası hökumətinin sədri Mixail Kasyanov ilə görüşmüşdür.

Rusiya hökumətinin sədri dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya hökumətinin sədri Mixail Kasyanov arasında görüş oldu.

Söhbət zamanı xatırladıldı ki, son illər Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələr daim inkişaf edir və hazırda bir sıra layihələr həyata keçirilir. Ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı müqavilə-hüquqi baza yaradılmışdır. İndiyədək 100-dən artıq sənəd imzalanmışdır ki, bunların da 70-dən çoxu dövlətlərarası və hökumətlərarası sazişdir. Azərbaycan Rusiyanın bir sıra subyektləri ilə də iqtisadi əlaqələr saxlayır.

Məmnunluqla vurğulandı ki, ötən il Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi 489,3 milyon dollara çatmışdır və gələcəkdə bunu daha da artırmaq üçün real imkanlar var. Azərbaycanın ümumi əmtəə dövriyyəsində Rusiyanın payı 40 faizdir. İndi Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 350-dən çox müəssisə və təşkilat yaradılmışdır ki, onların da 151-i müştərək, 83-ü 100 faiz Rusiya kapitalı olan qurumlardır. Bundan əlavə, 116 nümayəndəlik və filial fəaliyyət göstərir.

Prezident İlham Əliyev hökumətlərarası iqtisadi komissiyanın fəaliyyətindən razı olduğunu bildirdi və gələcəkdə onun işini daha da gücləndirməyin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, bu ilin birinci rübündə Bakıda iri müəssisələrin rəhbərlərinin iştirakı ilə "Rusiya-Azərbaycan iqtisadi münasibətləri: yekunlar, vəziyyət və perspektivlər" mövzusunda iqtisadi forum təşkil ediləcəkdir. Ölkələrimiz arasında yanacaq-energetika kompleksində müxtəlif layihələr uğurla həyata keçirilir. Ötən il Bakı-Novorossiysk boru kəməri ilə 2,6 milyon ton Azərbaycan neft nəql edilmişdir, Rusiyadan alınan təbii qazın həcmini isə 6 milyard kubmetrə çatdırmaq nəzərdə tutulur.

Cənab Mixail Kasyanov Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə Rusiyanın böyük maraq göstərdiyini bildirərək qeyd etdi ki, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var. Bundan istifadə edilməsi hər iki tərəf üçün faydalı ola bilər. Hökumətin sədri Rusiya Federasiyasının ayrı-ayrı subyektləri ilə Azərbaycan arasında birbaşa əlaqələrin olmasını müsbət hal kimi qiymətləndirdi.

Rusiya hökumətinin sədri Azərbaycan dövləti başçısının Moskvaya ilk rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi və dərinləşməsi baxımından böyük əhəmiyyəti olacağını vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, xüsusilə iqtisadi əlaqələrin perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞÜ

Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Dövlət Dumasına gəldi. Dövlətimizin başçısını parlament binasının önündə Dövlət Dumasının sədri Boris Qrızlov və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Dövlət Dumasının sədri Boris Qrızlov arasında keçirilən görüşdə Azərbaycan-Rusiya əlaqələrinin genişləndirilməsi barədə, əməkdaşlığın möhkəmləndirilməsində hər iki ölkənin qanunverici orqanlarının rolu haqqında geniş fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdən sonra jurnalistlərin suallarına cavab verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR İVANOV İLƏ GÖRÜŞÜ

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kremldə, onun üçün ayrılmış iqamətgahda Rusiya Federasiyasının xarici işlər naziri İqor İvanov ilə görüşmüşdür.

Prezident İlham Əliyev xatırlatdı ki, Azərbaycanla Rusiya arasında əlaqələr çox sürətlə inkişaf edir və Moskvaya səfəri zamanı bu inkişafın perspektivləri geniş müzakirə olunmuşdur. Dövlətimizin başçısı vurğuladı ki, görüşlərdə beynəlxalq terrorizmə qarşı mübarizə əsas mövzulardan biri olmuşdur.

Rusiyanın xarici işlər naziri İqor İvanov bildirdi ki, fevralın 6-da Moskvada baş vermiş terror aktı bir daha sübut etdi ki, ölkələrimiz istər Qafqaz regionunda, Rusiyada, istərsə də beynəlxalq aləmdə terrorizmə qarşı mübarizədə səylərini birləşdirməlidir.

Görüşdən sonra İqor İvanov dedi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Rusiyanın səylərinin artırılmasını vacib sayır və bu, Rusiya-Azərbaycan münasibətlərinin daha da inkişafına öz təsirini göstərəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVA VİLAYƏTİNİN QUBERNATORU BORİS QROMOV İLƏ GÖRÜŞÜ

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kremldə, onun üçün ayrılmış iqamətgahda Moskva vilayətinin qubernatoru Boris Qromov ilə görüşmüşdür.

Azərbaycan dövlətinin başçısı Rusiyaya rəsmi səfərinin nəticələrindən razı qaldığını bildirdi və Moskva vilayəti ilə Azərbaycan hökuməti arasında bir sıra sahələrdə, xüsusilə iqtisadi sahədə əməkdaşlığın geniş perspektivləri olduğunu söylədi.

Boris Qromov Prezident İlham Əliyevin səfərindən məmnunluq duyduğunu, bu səfərin Rusiya və Azərbaycan xalqlarının daha da yaxınlaşmasında yeni bir mərhələ kimi qiymətləndirdi.

Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vaxtilə təhsil aldığı və müəllim kimi fəaliyyət göstərdiyi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) müəllim və professor heyəti ilə görüşmüşdür.

Rektor Anatoli Torkunov görüşü açaraq, Azərbaycan Prezidentinin bu mötəbər təhsil ocağında təhsil aldığını və institutun müdavimləri arasında onun ilk dövlət başçısı olduğunu söylədi. O, Prezident İlham Əliyevin siyasi fəaliyyəti haqqında da ətraflı məlumat verdi.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə geniş nitq söylədi. Rusiya-Azərbaycan

əlaqələrinin perspektivlərindən, ölkəmizdə aparılan siyasi, iqtisadi və hüquqi islahatlardan ətraflı bəhs edən dövlətimizin başçısı bu xəttin gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

Görüşün sonunda Azərbaycan Prezidenti İlham Əliyevə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru diplomu və mantiya təqdim edildi. Dövlətimizin başçısına institutun Alimlər Assosiasiyasının diplomu və təhsil illərindəki qiymət kitabçası da təqdim olundu.

Prezident İlham Əliyev MDBMİ-yə Azərbaycan rəssamının rəsm əsərini bağışladı, institutun müəllimləri ilə görüşüb söhbət etdi.

MDBMİ (U)-NUN REKTORU ANATOLİ TORKUNOVUN ÇIXIŞI

- Azərbaycan Respublikasının çox hörmətli Prezidenti İlham Heydər oğlu Əliyev!

Çox hörmətli Mehriban Arif qızı!

Hörmətli qonaqlar, əziz dostlar, həmkarlar!

Çox hörmətli cənab Prezident!

MDBMİ (U)-da və əmin olduğumuz kimi, peşəkarlıq və mənəvi cəhətdən, şəxsiyyət kimi formalaşmanızda rolu olmuş doğma universitetin divarları arasında Sizi səmimi qəlbdən salamlamağa şadıq. Bu gün, tələbə kimi auditoriyaya ayaq basdığınız ilk gündən 25 il keçəndən sonra Siz indi doğma universitetinizin qapısından tələbə ikən öyrəndiyiniz dünya siyasi elitasının parlaq nümayəndəsi kimi daxil olursunuz. Əminik ki, Sizin sürətlə artmaqda olan bilik və təcrübəniz Azərbaycanın tərəqqisinə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluğun və əməkdaşlığın, habelə sülhün və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcəkdir. Universitetimizdən pərvazlananlar arasında həyatda öz layiqli yerini tutmuş, insanların, korporasiyaların, hökumətlərin təlcyi etibar edilmiş, beynəlxalq problemlərin həllinin onlardan asılı olduğu xeyli məzun vardır. Bununla belə, hakimiyyətin və məsuliyyətin ən uca zirvəsinə belə sürətlə və belə layiqli yüksəlişin şahidi olmaq bizə az-az nəsib olur. Bunu dərk etmək xüsusilə xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti həyatının MDBMİ (U)-da keçən təkcə universitetimizin iki diplomuna layiq görülmüş hissəsi barədə səmimi, həsrətli xatirələrini indiyədək davam edən şəxsi, qeyri-formal, mehriban əlaqələri və münasibətləri ilə də qoruyub saxlayır. Biz bir də onunla fəxr edirik ki, indi də Moskvaya gələndə Sizin üçün doğma olan mədəniyyət və dil mühitinin, dostlarınızın, Sizi xatırlayan və sevənlərin hamısının əhatəsində olursunuz.

Bu həm Sizin, həm də bizim xidmətimizdir. Universitetimizin Elmi şurasının tapşırığını yerinə yetirərək, Sizə MDBMİ (U)-nun Fəxri doktoru adının verilməsi haqqında qərarını elan etməkdən xüsusi məmnunluq duyuram. Bu ada layiq görülmüş parlaq şəxsiyyətlər sırasına Sizin simanızda daha bir layiqli insan da əlavə olunur. Şübhə etmirik ki, MDBMİ (U)-nun sadiq olduğu yüksək humanist məqsədlər Sizin həyat fəlsəfənizlə, mənəvi ideallarınızla həmahəngdir.

Bu gün Sizə təqdim etdiyimiz diplom bizim belə bir inamımızın rəmzidir ki, bu ahəngdarlıq XXI əsrdə Azərbaycan-Rusiya münasibətlərində də öz əksini tapacaqdır.

Bu münasibətlərin səviyyəsi, məzmunu, rəngarəngliyi bizim üçün son dərəcə vacibdir. Coğrafi, tarixi baxımdan bizə yaxın olan və mədəni cəhətdən böyük sürətlə inkişaf edən Azərbaycan Rusiyanın ümumi beynəlxalq siyasətində əzəldən öncül mövqe tutur. Belə güman etməyə əsasımız vardır ki, Sizin prezident vəzifəsinə başlamağınızla həmin ənənənə daha da möhkəmlənəcəkdir. Sizə deyə bilərəm ki, Moskvada apardığınız danışıqlar, Vladimir Vladimiroviç Putinlə imzaladığınız sənədlər münasibətlərimizin gələcək inkişafı, dövlətlərimizin əməkdaşlığının möhkəmlənməsi və dünən Kremldə Sizin də, Vladimir Vladimiroviç Putinin də qeyd etdiyi kimi, Azərbaycan və Rusiya vətəndaşlarının bir-birinə daha da yaxınlaşması üçün çox böyük əhəmiyyətə malikdir.

MDBMİ (U)-nun arxivlərində 16 yaşlı İlham Əliyevin qəbul imtahanları zamanı rus ədəbiyyatından yazdığı inşa yazısı durur. Bu yazıda Aleksandr Sergeyeviç Puşkinin Onegini yetişdirmiş cəmiyyətdə "sabah da dünənki kimidir" sözləri sitat gətirilir. Nə bilmək olar, bəlkə bu ibarə sabahın dünənkindən də yaxşı olması üçün zəhmət çəkəcək, qüvvəsini, istedadını, ilhamını əsirgəmədən işləyəcək gələcək Azərbaycan Prezidentinin alın yazısı idi. Atanız və müəlliminiz, qeyri-adi dərəcədə müdrik və uzaqgörən görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev bütün parlaq, şərəfli həyatını məhz buna - insanlara, böyük ideyalara fədakarlıqla xidmətə həsr etmişdir. Onun çox zəngin tərcümeyi-halı, nəhəng şəxsiyyəti, danılmaz nüfuzu özü-özlüyündə hər bir varis üçün böyük vəsiyyət və çağırışdır. Sizin bəxtinizə təkcə keçmişin nailiyyətlərinin və dərslərinin deyil, həm də Heydər Əlirza oğlunun ölkəniz üçün nəzərdə tutduğu gələcəyin də varisi olmaq düşmüşdür. Biz fəxr edirik ki, Heydər Əlirza oğlu universitetimizin Fəxri doktoru idi və biz iki il bundan əvvəl universitetimizdə bu böyük şəxsiyyətlə görüşmək, onun parlaq nitqini dinləmək şərəfinə nail olmuşduq.

İcazə verin, Sizi əmin edim ki, MDBMİ (U)-nun Fəxri doktoru bu xeyirxah və nəcib işdə bu gün müvafiq şəhadətnaməni ona təqdim edən müttəfiqlərinin, dostlarının sədaqətinə həmişə ümid bəsləyə bilər. Bununla da, biz ağır hakimiyyət yükünü öz çiyinlərinə götürmüş və bu hakimiyyətdən sülh, xoşbəxtlik və xeyirxahlıq naminə istifadə etməyə hazır olan bir siyasətçiyə, insana və onun siyasətinə səmimi rəğbət hisslərimizi ifadə edirik.

Universitetimizin Nizamnaməsinə uyğun olaraq, MDBMİ (U)-nun Fəxri doktoru dərəcəsi verilməsinin dəqiq müəyyən edilmiş qaydası mövcuddur. Statusa uyğun olaraq, bu dərəcə beynəlxalq münasibətlərin inkişafına, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, müxtəlif xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, mədəniyyətin və iqtisadiyyatın inkişafına böyük töhfəsi olan görkəmli siyasi və ictimai xadimlərə, xarici ölkələrin alimlərinə verilir. Çox hörmətli cənab Prezident, Sizə və bu salonda oturanlara böyük məmnuniyyət hissi ilə bildirirəm ki, Elmi Şura universitetin Nizamnaməsini rəhbər tutaraq və öz səlahiyyətlərimə uyğun olaraq, dünyada qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, ölkələrimiz arasında münasibətlərin inkişafına, təhsilin, mədəniyyətin və iqtisadiyyatın inkişafına töhfənizə görə 2003-cü il dekabrın 9-da Sizə MDBMİ (U)-nun Fəxri doktoru adının verilməsi barədə yekdilliklə qərar qəbul etmişdir.

Mən Şuranın iradəsini yerinə yetirərək, bu adın rəmzlərini - MDBMİ (U)-nun Fəxri doktoru diplomunu, medalını və mantiyasını Sizə təqdim etmək istəyirəm.

Mövcud prosedura uyğun olaraq, mərasimin rəsmi hissəsi başa çatır və mən sözü Fəxri

doktora verirəm. Lakin bu gün bizim öz sürprizimiz var. Bu gün biz, ilk dəfə olaraq, Məzunlar Assosiasiyası adından MDBMİ (U)-un Məzunları Assosiasiyasının fəxri üzvü diplomunu İlham Heydər oğlu Əliyevə təqdim edirik. Özü də bu diplomda belə yazılmışdır: "seriya – dövlət başçısı, nömrə - nömrə 1". Əminik ki, dövlət başçısı nümunəvi tələbə olmuşdur. Biz bu gün böyük məmnuniyyətlə içərisində qiymət kitabçanız və attestatınız olan mücrünü də Sizə təqdim edirik. Qiymət kitabçanızda ancaq beş və dörddür, attestatınızda isə bütün qiymətləriniz beşdir, bir dənə də dördünüz yoxdur. Mənə Sizin tələbə biletinizin də təqdim olunmasını təklif edirdilər. Lakin bu bilet muzeydə saxlanacaqdır. Ancaq Sizə göstərə bilərəm.

* * *

Universitetin rektoru Anatoli Torkunov görüş iştirakçılarının gurultulu alqışları altında MDBMİ (U)-nun Fəxri doktoru diplomunu, mantiyanı, medalı və içərisində qiymət kitabçası və attestat olan mücrünü Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Anatoli Vasilyeviç!

Əziz dostlar!

İcazə verin, ilk növbədə, mənə belə yüksək ad verilməsinə görə sizə təşəkkürümü bildirim. Mən çox gözəl bilirəm ki, bu ada iqtisadiyyatın inkişafına böyük töhfə vermiş, siyasi proseslərdə fəal iştirak edən çox məşhur adamlar, böyük təcrübəyə və nailiyyətlərinin böyük tarixi olan insanlar layiq görülürlər.

Mən yeni seçilmiş Prezidentəm. Təbii ki, bütün bu rütbələri və fəxri adları gələcək fəaliyyətim üçün avans kimi qəbul edirəm. Əziz dostlar, sizi əmin edə bilərəm ki, Azərbaycan Prezidenti kimi bütün fəaliyyətimlə doğma institutumuzu layiqincə təmsil etməyə, MDBMİ-nin məzunu adına layiq olmağa çalışacağam və ümidvaram, hətta əminəm ki, bu institutda aldığım biliklər, qazandığım təcrübə, tapdığım dostlar, bir sözlə, burada əldə etdiklərimin hamısı mənim bu fəaliyyətimdə çox mühüm rol oynayacaqdır. Bu gün burada olmaq mənim üçün çox xoşdur. MDBMİ-nin binasına yaxınlaşdıqda məni həyəcanlı hisslər bürüdü. Axı, ömrümün xeyli hissəsi burada keçmişdir. MDBMİ-də təhsil də, aspiranturada təhsil də, sonra universitetdə işləmək də ömrümün o çağlarına daxildir. Bu müddət ərzində mən burada nəinki biliklərə yiyələndim, dünyagörüşümü genişləndirdim, həm də və ən başlıcası, çox etibarlı, sadiq dostlar tapdım. Mən təhsilimi bitirdikdən, MDBMİ-də işdən getdikdən sonra da onlarla uzun müddət ərzində əlaqə saxlayıram. Ümidvaram ki, əlaqələrimiz gələcəkdə də davam edəcəkdir. Mən buna əminəm. Bu gün mən bu salonda çox tanışlarımı və mənə əziz olan simaları görürəm. Çox ümid edirəm ki, mərasim başa çatdıqdan sonra biz görüşüb söhbət edəcəyik. Fürsətdən istifadə edib, bütün dostlarımı, - onlar kimləri nəzərdə tutduğumu bilirlər, - Azərbaycana gəlməyə, qonağımız olmağa dəvət etmək istərdim. Düşünürəm ki, bu, dostluğumuzun yaxşı davamı olardı.

Bu gün mən, Azərbaycan Prezidenti kimi, Rusiyaya rəsmi səfərimi başa çatdırdım. Bu, ilk rəsmi səfər idi və ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün böyük əhəmiyyəti var.

Sovet İttifaqı dağıldıqdan sonra, müstəqil dövlət olaraq, Azərbaycan çox çətinliklərə məruz qaldı, çox mürəkkəb problemlərlə - iqtisadi və siyasi böhranla, cəmiyyətdə xaos və anarxiya, müharibənin nəticələri, vətəndaş müharibəsi ilə qarşılaşdı. Bütün bunları aradan qaldırmaq üçün Azərbaycan rəhbərliyindən, ilk növbədə, Prezident Heydər Əliyevdən çox böyük, titanik səylər göstərmək tələb olunurdu. 1993-1996-cı illər dövründə ölkə daim gərgin vəziyyətdə idi – daxili problemlər, sosial məsələlərin həll edilməmiş qalması, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal olunması. Əlbəttə ki, bütün bunlar vətəndaşlarımızın vəziyyətini ağırlaşdırırdı. Lakin siyasi, iqtisadi və sosial sahələrdə qətiyyətlə islahatlar aparılması sayəsində 1996-1997-ci illərdən başlayaraq, ölkə iqtisadi inkişafın bir çox göstəricilərində nəzərəçarpacaq dərəcədə irəliləyib. 1996-cı ildən iqtisadiyyatımızın artım sürəti ildə, orta hesabla, 10 faiz təşkil edir, inflyasiyanın səviyyəsi isə 2 faizdən yuxarı deyildir. Azərbaycan regional layihələrin fəal iştirakçısıdır. Azərbaycan iqtisadiyyatına çox böyük məbləğdə xarici sərmayələr qoyulmuşdur və bu göstəricidə ölkəmiz MDB dövlətləri arasında liderdir. Gələcək üçün çox yaxşı perspektivlərimiz var. Biz həyata keçirilən regional layihələrə böyük əhəmiyyət veririk. İndi Azərbaycanda, ekspertlərin rəyincə, dünyada ən möhtəşəm energetika layihələri çox uğurla həyata keçirilir.

Bütün nailiyyətlərimiz, planlarımız ancaq bir şeyə - Azərbaycan vətəndaşlarına daha layiqli həyat yaratmağa, sosial problemləri, qaçqınların və məcburi köçkünlərin məsələlərini həll etməyə yönəldilmişdir. Bununla da ölkə möhkəmlənmiş olar.

Belə siyasət çərçivəsində Azərbaycanın öz qonşuları ilə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz – Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsini müşahidə etmək bu gün bizim üçün çox xoş və sevindiricidir. Bəli, ölkələrimizin münasibətləri tarixində mürəkkəb, bəzən də dramatik dövrlər olubdur. Xoşbəxtlikdən, bunların hamısı keçmişdə qalmışdır. Azərbaycan və Rusiya prezidentlərinin – Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi, müdrikliyi və uzaqgörənliyi sayəsində qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmət və etimadın belə yüksək səviyyəsinə nail olmuşuq və indi ikitərəfli əməkdaşlıqda uğurlarımı, əsasən, bu müəyyənləşdirir.

İndiki səfər bir daha aydın göstərdi ki, ölkələrimiz arasında heç bir həll edilməmiş problem yoxdur. Mürəkkəb və həllolunmaz görünən problemlər həll edilmişdir. Bu sıraya Xəzər regionuna, hərbi-texniki əməkdaşlığa dair məsələləri, iqtisadi xarakterli məsələləri də aid etmək olar. Ona görə də biz gələcəyə böyük nikbinliklə baxırıq.

Uğurlarımızı təsdiqləyən bir neçə konkret misal çəkə bilərəm. Bu uğurlar Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında siyasi qarşılıqlı anlaşma və qarşılıqlı əməkdaşlıq ruhu sayəsində mümkün olmuşdur. Bu məsələ barəsində 1990-cı illərdə, daha dəqiq desək, 1994-1996-cı illərdə ziddiyyətlər, fikir ayrılıqları vardı, beynəlxalq hüquq normaları müxtəlif cür yozulurdu. Lakin tərəflərin səyləri ilə, qarşılıqlı fayda və qarşılıqlı anlaşma zəminində bu məsələ həllini tapdı və indi Rusiya ilə Azərbaycan arasında milli sektorlarımızı müəyyənləşdirən müvafiq saziş imzalanmışdır. Bu sənəd Rusiyanın da, Azərbaycanın da mənafelərinə tam uyğundur.

Regional təhlükəsizliyin təmin edilməsində son dərəcə mühüm rol oynayan Qəbələ radiolokasiya stansiyasının statusu barədə məsələnin həll olunmaması, ümumiyyətlə,

əməkdaşlığımızın yolunda çəkindirici amil olan mühüm məsələ idi. Bu məsələ də həllini tapdı və Rusiya ilə Azərbaycan arasında müvafiq saziş imzalandı.

İndi Azərbaycan nefti Rusiyanın Novorossiysk limanına nəql edilir. Ölkəmizə Rusiya ərazisindən qaz və elektrik enerjisi göndərilir. Ölkələrimiz arasında əmtəə bölgəsi xeyli artmışdır. Əmtəə dövriyyəsi 2002-ci ildə 70 faiz, ötən il isə 40 faiz çoxalmışdır. Bu gün iki ölkə arasında əmtəə dövriyyəsi təxminən yarım milyard dollar təşkil edir. Bizim vəzifəmiz bunu iki dəfə artırmaqdır. Bunun üçün potensial mövcuddur, çünki ölkələrimiz iqtisadi cəhətdən uğurla inkişaf edir. Arzu və istək də var, siyasi münasibətlər elə yüksək səviyyədədir ki, bu məqsədlərin həyata keçirilməsi üçün yaxşı zəmin yaradır.

Humanitar sahədə əməkdaşlıq həmişə, hətta iqtisadi əməkdaşlığın yenicə başlandığı dövrlərdə də yüksək səviyyədə olmuşdur. Biz rus mədəniyyətinə, rus dilinə çox böyük əhəmiyyət verir və çox qayğı ilə yanaşırıq. Biz bu ənənəni qayğı ilə qoruyub saxlayırıq. Sizə deyim ki, indi Azərbaycanda 400-dən çox məktəbdə təhsil rus dilində aparılır. Müstəqillik illərində onlardan heç biri bağlanmamışdır. 21 dövlət ali məktəbindən 20-də təhsil həm də rus dilində aparılır. Bizdə bu baxımdan heç bir məhdudiyyət yoxdur və Azərbaycanda yerli rusdilli mətbuat da çox fəal inkişaf edir.

Sovet İttifaqının dağıldığı vaxtdan bəri Azərbaycanda rus dilində qəzetlərin sayı azalmamış, əksinə, artmışdır. Ümumdünya Rus Mətbuatı Konqresinin ötən ilin sentyabrında məhz Bakıda keçirilməsi faktı daha əyani şəkildə sübut edir ki, bu sahədə çox yaxşı ənənələrimiz var.

Biz ikitərəfli münasibətlərimizi ənənələrimiz, çoxdankı dostluq əlaqələrimiz və əlbəttə ki, qarşılıqlı fayda əsasında qururuq. İndi bütün sahələrdə əməkdaşlıq Rusiyaya da, Azərbaycana da sərfəlidir. Qeyd etdiyim kimi, ikitərəfli əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma var. Regional siyasət məsələlərində çox fəal qarşılıqlı anlaşma var, beynəlxalq siyasətin bir çox məsələlərində baxışlarımız uyğun gəlir.

Regional layihələr, regional əməkdaşlıq baxımından biz çox istərdik ki, Rusiya bu istiqamətdə aparıcı rolunu davam etdirsin. Biz böyük ümid bəsləyirik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiya Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Ermənistanla Azərbaycan arasındakı münaqişənin nizama salınmasında bundan sonra da fəal iştirak edəcəkdir. Bu münaqişə bütün regionda çox böyük təhlükə və gərginlik mənbəyidir. Ona görə də Azərbaycan bu münaqişənin dinclikllə nizama salınmasına tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Təbii ki, bu nizamasalma beynəlxalq hüququn prinsip və normalarına əsaslanmalıdır. Günün reallığı belədir ki, Azərbaycan ərazisi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun hüdudlarından kənarda olan digər yeddi rayonu 10 ildən çoxdur işğal altındadır. Ölkəmizin ərazisinin bir hissəsinin işğal edilməsi nəticəsində 1 milyon insan öz ev-eşiyini itirmişdir. Təəssüf ki, Azərbaycan əhalinin sayı ilə nisbətdə qaçqın-köçkünlərin sayına görə dünyada birinci yeri tutur – 8 milyon əhalinin bir milyonu qaçqın və məcburi köçkündür. Əlbəttə ki, beynəlxalq birlik bu məsələyə münasibətini dəfələrlə bildirmişdir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunmuşdur. Bu sənədlərdə erməni işğal qüvvələrinin ərazimizdən dərhal çıxarılması tələb edilir. Avropa Şurası çərçivəsində də müvafiq sənədlər qəbul olunmuşdur və bu faktlar burada da öz əksini tapır.

ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatları var və bu bəyanatlarda ərazilərimizin işğal edilməsi məsələləri öz əksini aydın şəkildə tapmışdır. Təəssüf ki, bu amillərin heç biri hələ də münaqişənin nizama salınmasına gətirib çıxarmamışdır. Ölkəmizə qarşı təcavüzkar siyasət davam edir. Biz münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Lakin biz, eyni zamanda, ərazilərimizin işğal altında qalması faktı ilə də razılaşa bilmərik. Ümid edirəm ki, beynəlxalq birliyin, Rusiya, Fransa və ABŞ-ın həmsədrlər olduğu ATƏT-in Minsk qrupunun səyləri ilə münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli yolları tapılacaqdır.

Bu məsələdə birtərəfli görünməmək üçün əks tərəfin dəlillərini nəzərinizə çatdıra bilərəm. Onlar isə bundan ibarətdir ki, guya Dağlıq Qarabağın erməni əhalisi öz müqqəddəratını təyinetmə hüququna malikdir. Lakin MDBMİ-nin divarları arasında, yəqin, məni başa düşmək sizə asan olar ki, millətlərin öz müqəddəratını təyinetmə hüququ danılmazdır. Amma millət öz müqəddəratını yalnız bir dəfə təyin edə bilər. Bu isə, Ermənistan dövləti çərçivəsində baş vermişdir və bu dövlətin vətəndaşları artıq öz müqəddəratını təyin etmişlər. Əks tərəfin, məntiqə əsaslansaq, öz müqəddəratını təyinetmə prinsipi sonsuzluğadək davam edə bilər. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları mövcuddur və bu normalara görə hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Biz bu ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə, özümüzə qarşı da eyni münasibət gözləyirik. Yenə də təkrar edirəm, biz ümidvarıq ki, sülh prosesi fəallaşacaq və problemin həlli tapılacaqdır.

Əngəl törədən bu çox ağrılı, faciəli amilə baxmayaraq, Azərbaycan bütün bu illər ərzində uğurla inkişaf etmişdir. İndi bizim böyük iqtisadi inkişaf perspektivlərimiz vardır, bu da, ilk növbədə, enerji potensialımızdan tam miqyasda istifadə edilməsi ilə əlaqədardır. Biz Rusiya ilə fəal əməkdaşlıq edirik və işlək Bakı-Novorossiysk boru kəməri bir daha sübut edir ki, bizim niyyətlərimiz bu istiqamətdə əməkdaşlığın fəallaşdırılması ilə bağlıdır.

Xəzər dənizi regionu təbii ehtiyatlarla zəngindir. Əlbəttə, bu ehtiyatları dünya bazarlarına çıxarmaq üçün kommunikasiyalar lazımdır. Belə kommunikasiyalar vardır və biz bu imkanların artırılmasını istəyirik.

Biz regionda gedən proseslərin də fəal iştirakçısıyıq. Bu gün inamla demək olar ki, Azərbaycanın regional miqyasda münasibətləri çox müsbət şəkildə təşəkkül tapır. Biz Böyük İpək Yolu, Şərq-Qərb layihələrinin fəal iştirakçısıyıq, eyni dərəcədə cəlbedici olan Şimal-Cənub layihəsinə də Rusiyanın yaxından dəstəyi ilə fəal surətdə qoşulmaq niyyətindəyik. Biz bu dəstəyi dünən keçirilən görüşlər zamanı aldıq. Başqa sözlə desək, irimiqyaslı regional layihələr ölkəmizin iştirakı ilə həyata keçirilir və bu, dünya miqyasında mövqeyimizi möhkəmləndirir.

Biz beynəlxalq təşkilatların fəaliyyətində də yaxından iştirak edirik. Məmnunluqla deyə bilərəm ki, biz bu təşkilatlarda Rusiya nümayəndələri ilə çox fəal, səmərəli və səmimi əməkdaşlıq edirik. Üç il ərzində mən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinə başçılıq etmişəm. Bu proseslərin iştirakçısı kimi deyə bilərəm ki, Rusiya və Azərbaycan nümayəndə heyətlərinin AŞPA çərçivəsində qarşılıqlı dəstəyi çox mühüm rol oynamışdır. Elə bir məsələ olmurdu ki, nümayəndə heyətlərimiz birgə mövqedən çıxış etməsinlər. Bizi əsassız olaraq tənqid etməyə cəhd

göstərildikdə həmişə bir-birimizi dəstəkləyirdik. Bu ənənə indi də davam edir. Çox sevindirici haldır ki, nümayəndə heyətlərimiz fəal əməkdaşlıq edirlər. Bu, bizim üçün də, digər təşkilatların üzvləri üçün də vacibdir. Çünki onlar bizim həmrəyliyimizi, fəal əməkdaşlıq etdiyimizi görürlər. Bu, digər tərəflər üçün də çox yaxşı işarədir. Belə əməkdaşlıq davam etdiriləcəkdir.

Prezident Heydər Əliyev azad Azərbaycanın siyasətini tam müstəqil surətdə aparırdı. Bu siyasət ölkələrimizin ehtiyaclarını tam dolğunluğu ilə əks etdirirdi və etdirir. Heydər Əliyevin siyasi təcrübəsini və dünyada nüfuzunu nəzərə alsaq, ona manevr etmək, hansısa başqa yollar axtarmaq lazım deyildir. Onun bütün işləri səmimi idi, bu işlərdə özünün haqlı olduğuna inam vardı. O cümlədən, ilk növbədə, ikitərəfli münasibətlərimizin çərçivəsində görülən işlərdə. Rusiya ilə strateji tərəfdaşlığa yönəldilmiş xətt aşkar bəyan edildikdə, Azərbaycan xalqı bunu bəyəndi. İndi biz bu strateji tərəfdaşlığın real, əməli bəhrələrini görürük. Bu münasibətlər indiki səfər çərçivəsində də təsdiqləndi. Əminəm ki, bu tərəfdaşlıq bütün istiqamətlərdə davam etdiriləcəkdir.

İki prezident arasındakı belə yaxşı qarşılıqlı anlaşmadan, mehriban və səmərəli şəxsi əlaqələrdən bütün istiqamətlərdə əməkdaşlığımızı genişləndirmək üçün istifadə etməmək insafsızlıq olardı. Öz tərəfimdən sizə deyə bilərəm ki, biz bu siyasəti həyata keçirəcəyik və Rusiyanın da buna eyni münasibət göstərdiyini və mövqelərimizin oxşarlığını görmək mənim üçün çox xoş idi.

Dünən və bu gün mən Rusiya Federasiyasının, demək olar ki, bütün rəhbərləri ilə görüşdüm. Çox mehriban, səmimi və qonaqpərvər qəbulla yanaşı, - buna görə mən çox minnətdaram,- bizim hamımız belə bir yekdil fikrə gəldik ki, münasibətlərimiz qonşular arasında münasibətlərə, eləcə də böyük və kiçik dövlətlər arasındakı münasibətlərə örnək ola bilər. Bu, çox mühümdür, ərazisinə və əhalisinin sayına görə kiçik olan dövlətlərin bəzən mürəkkəb vəziyyətə düşdüyü bugünkü dəyişən dünyada xüsusilə əhəmiyyətlidir. İndiki halda dövlətlərimiz arasında bərabərhüquqlu münasibətlərin qurulması çox vacibdir. Hesab edirəm ki, burada çox dərin məna və Rusiya rəhbərliyinin çox dəqiq siyasəti özünü büruzə verir. Yalnız hüquq bərabərliyi, qarşılıqlı hörmət əsasında ikitərəfli münasibətlərdə əsl dialoq qurmaq mümkündür. Hazırda bu, baş verir.

Münasibətlərimizin nümunəviliyi, - bu isə gəlişi gözəl sözlər deyil, - reallıqdır. Biz məmnuniyyətlə bildiririk ki, bu gün aramızda fikir ayrılığı doğuran məsələlər yoxdur. Aramızda problem mövcud deyildir. Mən bunu dəfələrlə demişəm, bizim yalnız bir problemimiz vardır – necə edək ki, münasibətlərimiz daha da inkişaf etsin, daha böyük məna kəsb etsin, daha da genişlənsin. Mən əminəm ki, bu, belə də olacaqdır. Bunun üçün yaxşı zəmin vardır.

Müstəqil Azərbaycanın Prezidenti kimi mən dövlətimin mənafelərinə əsaslanan siyasət yeridəcəyəm. Mən məmnunluqla deyə bilərəm ki, bu mənafelər Rusiya ilə ikitərəfli münasibətlərin inkişafı mənafeləri ilə üst-üstə düşür. Bu, bizim üçün çox vacibdir. Biz bunu çox qiymətləndiririk və düşünürəm ki, gələcəkdə hər iki ölkə bu əlaqələrin daha da dərinləşməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

Dediyim kimi, bu gün çox həyəcanlı gündür. Mən burada olmağımdan qarışıq hisslər keçirirəm. Həyatımın təxminən 15 ilini MDBMİ-də keçirmişəm. Özü də, bu illər həyatımın ən yaxşı çağları - tələbəlik illəri, gənclik illəri idi. Bu illərin ən yaxşı illər olduğu-

nu onlar arxada qaldıqdan sonra başa düşürsən. O vaxtlar adama elə gəlirdi ki, həmişə belə olacaqdır. Odur ki, mən o illəri xüsusi səmimiyyətlə xatırlayıram və mənə dərs deyənlərin, mənimlə oxuyanların hamısı, bütün professor-müəllim heyəti yadımdadır. Mən Bakıdan gələndə, - Anatoli Vasilyeviç dedi ki, 16 yaşım vardı, - lakin onda, institута qəbul olanda cəmi 15 yaşında idim, 16 yaşım iki aydan sonra tamam oldu. Təbii ki, atamın o vaxt da Azərbaycana başçılıq etdiyini nəzərə alaraq, Bakıdan, məktəbdən gəlib tamam başqa bir mühitə düşdükdə, çox tezliklə dərk etdim ki, düzgün seçim edilmişdir. Moskvada, MDBMİ-də təhsil almaq həyat məktəbi idi. Mən burada özümə dostlar, tanışlar tapdım. Artıq 25 ildən çox tarixi olan bu əlaqələr indiyədək mövcuddur. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, dünən də, bu gün də maşında gedərkən və hər bir tanış evi görərkən Moskvada keçirdiyim illəri xatırlayırdım. Bu illər heç zaman unudulmayacaq, hafizədən silinməyəcək, xüsusən ona görə ki, məni çox səmimi insanlar əhatə edirdilər. Mən instituta, dostlarıma, müəllimlərimə, həmkarlarıma çox minnətdaram ki, ailəmiz üçün hətta ən ağır vaxtlarda, 1980-ci illərin axırlarında da heç bir soyuq münasibət hiss etmirdim. Əksinə, atamın siyasi karyerası ilə bağlı vəziyyət nə qədər ağırlaşırdısa, bu salonda gördüyüm həmkarlarım və dostlarım tərəfindən bir o qədər böyük qayğı və diqqət duyurdum. Bu hissləri heç vaxt unutmaq olmaz, onlar həmişə insanın qəlbində qalır. Bu imkandan istifadə edərək, tələbə olduğum 1977-ci ildən 1982-ci ilədək və sonralar aspiranturada oxuduğum illərdə mənə təhsil verənlərə təşəkkür etmək istərdim. Yeri gəlmişkən, biz Anatoli Vasilyeviçlə bir kafedrada işləyirdik. Eşitdim və mənə bildirdilər ki, demə, mən MDBMİ-nin Prezident seçilən ilk məzunuyam. Əlbəttə, bu, mənim üçün çox xoşdur. MDBMİ-dəki ənənələri və təhsilin səviyyəsini nəzərə alaraq, əmin olduğumu bildirmək istəyirəm ki, bizim hələ çox həmkarlarımız öz ölkələrinə, xalqlarına xidmət edəcəklər və təbii ki, onlardan heç kim burada keçirdiyi illəri unutmayacaqdır.

Mən sizin hamınıza bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edərək, burada rastlaşdığım dostlarımı Azərbaycana gəlməyə, qonağım olmağa dəvət edirəm, qoy, bu əlaqələr heç vaxt qırılmasın. Söz verirəm, Moskvaya gələndə buraya mütləq gələcəyəm, amma, öz tərəfimdən, mən də sizi Azərbaycanda görmək istərdim.

Mənə göstərdiyiniz səmimiyyətə, qonaqpərvərliyə, xoş münasibətə görə bir daha təşəkkürümü bildirirəm. Sizi əmin edə bilərəm ki, bu mantiyanı və bu adı bütün ömrüm boyu şərəflə daşıyacağam.

RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfərinin sonunda bu ölkədə yaşayan həmvətənlərimizlə görüşmüşdür.

Ölkəmizin Moskvadakı səfiri Ramiz Rizayev bildirdi ki, bu görüşə Rusiyanın müxtəlif regionlarında yaşayan azərbaycanlılar gəlmişlər. Onlar Prezident İlham Əliyevin Rusiyaya ilk rəsmi səfərindən böyük sevinc hissi duyurlar.

Görüşdə çıxış edən Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmməd Əliyev, məşhur həmyerlilərimiz Fərman Salmanov və Nikolay Baybakov əsası ümummilli lide-

rimiz Heydər Əliyev tərəfindən qoyulmuş Rusiya-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi siyasətini layiqincə davam etdirdiyinə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildirdilər.

Sonra Prezident İlham Əliyev həmyerlilərimiz qarşısında çıxış edərək, Moskvaya ilk rəsmi səfərinin yekunları, Azərbaycanda aparılan siyasi, iqtisadi islahatlar barədə ətraflı məlumat verdi.

O, azərbaycanlıların Rusiyanın ictimai-siyasi həyatında, iqtisadiyyatın inkişafında fəal iştirakından məmnun olduğunu söylədi və onlara uğurlar dilədi. Dövlətimizin başçısı bildirdi ki, Rusiyada yaşayan həmvətənlərimiz hər zaman Azərbaycanın dəstəyini hiss edəcəklər və Prezident kimi o, öz fəaliyyətində həmyerlilərimizə daim diqqət və qayğı göstərəcəkdir.

İTAR-TASS AGENTLİYİNDƏ MƏTBUAT KONFRANSI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də İTAR-TASS agentliyində Rusiya Federasiyasına rəsmi səfərinin yekunlarına dair mətbuat konfransı keçirmişdir. Dövlətimizin başçısını agentliyin baş direktoru Vitali İqnatenko, baş direktorun birinci müavini Mixail Qusman və başqaları ehtiramla qarşıladılar.

Agentliyin baş direktorunun birinci müavini MİXAİL QUSMAN mətbuat konfransını açaraq, Prezident İlham Əliyevə müraciətlə dedi:

- Biz Rusiyaya rəsmi səfərini başa çatdıran İlham Heydər oğlu Əliyevi salamlamağa ürəkdən şadıq. Sözün düzü, deməliyəm ki, vaxt amansızcasına ötüb-keçir, bu, sanki dünən olmuşdur, halbuki biz qələm əhlinə - jurnalistlərə həmişə diqqətlə yanaşan Azərbaycan Prezidenti Heydər Əlirza oğlu Əliyevi bu salonda salamlamaqdan şərəf duyduğumuz vaxtdan artıq iki il keçmişdir. Nə gizlədim, biz jurnalistlər də ona məhəbbətlə yanaşırdıq. Biz ürəkdən şadıq ki, İlham Heydər oğlu da bizimlə görüşməyi mümkün bildi.

Yeri gəlmişkən deyim və bu da sirr deyil ki, o vaxt hələ Azərbaycan Milli Olimpiya komitəsinin prezidenti olan İlham Heydər oğlu Moskvada ilk mətbuat konfransını da bu binada keçirmişdi. Əgər etirazımız yoxdursa, İlham Heydər oğlundan Rusiyaya səfərinin yekunları barədə qısaca bir neçə kəlmə danışmağı xahiş edək, sonra isə, zənnimcə, suallarımıza lütfkarlıqla cavab verəcəkdir.

İLHAM ƏLİYEV: Çox sağ olun, mən, ilk növbədə, buraya gəlmək və jurnalistlərlə görüşmək dəvətinə görə İTAR-TASS-ın rəhbərliyinə təşəkkür etmək istərdim. Mixail Solomonoviçin dediyi kimi, bu, mənim burada jurnalistlərlə ikinci görüşümdür və təbii olaraq, belə bir fikirdəyəm ki, bu cür ənənə gələcəkdə də davam etdiriləcəkdir. Əlbəttə, mətbuat baş verən hadisələr barədə ilk mənbələrdən məlumat almalıdır.

Mən Rusiyaya ilk rəsmi səfərimin yekunlarını çox yüksək qiymətləndirirəm. Ölkələrimizin əməkdaşlığımızı inkişaf etdirmək, dərinləşdirmək, ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına çalışmaq niyyəti bu səfər çərçivəsində bir daha təsdiq olundu. Bizim aramızda çox yüksək səviyyədə siyasi dialoq, ikitərəfli münasibətlərlə, regional siyasətlə bağlı məsələlərdə qarşılıqlı anlaşma var, qlobal siyasətin bir çox məsələlərinə baxışların oxşarlığı müşahidə edilir.

İqtisadi əməkdaşlıq çox uğurla inkişaf edir, əmtəə dövriyyəsi ilbəil çox sürətlə artır və hər iki dövlət bunun iki dəfə artırılmasını istəyir. Bu, bizim məqsədimizdir və düşünürəm ki, buna nail olacağıq. Humanitar sahədə də əlaqələr çox yaxşı inkişaf edir. Azərbaycan ilə Rusiya arasında həmişə dostluq, qardaşlıq münasibətləri olmuşdur. Azərbaycanda çoxlu rus vardır. Azərbaycan vətəndaşları kimi onlar bütün hüquqlardan istifadə edirlər. Azərbaycanda rus mədəniyyətinin, rus dilinin qorunmasına böyük diqqət yetirilir və bu siyasət davam etdiriləcəkdir. Rusiyada da böyük Azərbaycan diasporu mövcuddur. Odur ki, əlbəttə, humanitar xarakterli məsələlər də kifayət qədər müfəssəl müzakirə olunmuşdur.

Mən məmnunluqla deməliyəm ki, Rusiya və Azərbaycan rəhbərliyinin yekdil fikrincə, ölkələrimiz arasındakı münasibətlər qonşuların münasibətlərinə nümunə ola bilər. Bizim aramızda həll olunmamış heç bir məsələ yoxdur. Əvvəllər Rusiya və Azərbaycanın müxtəlif cür yanaşdıqları məsələlər öz həllini tapmışdır. Beləliklə, əminəm ki, artıq baş tutmuş bu səfər ikitərəfli münasibətlərimizin daha da möhkəmlənməsinə kömək edəcəkdir. Mən vaxtınızı çox almaq istəmirəm. İstəyirəm ki, sizi maraqlandıran suallara da vaxt qalsın və mən onları dinləməyə hazıram.

SUAL: Cənab Prezident, bu, dövlət başçısı kimi Sizin Rusiyaya ilk rəsmi səfərinizdir. Moskvada apardığımız danışıqların ikitərəfli əlaqələrin inkişafı üçün nə kimi nəticələri olacaqdır? Moskva və Bakı terrorizmlə mübarizədə, o cümlədən Qafqazda terrorizmlə mübarizədə qarşılıqlı fəaliyyətin hansı formalarını nəzərdə tuturlar?

CAVAB: Düşünürəm ki, nəticələr çox müsbət olacaqdır. Bu gün mövcud olan qarşılıqlı anlaşma kifayət qədər yüksək səviyyədədir. Son 3 ildə Rusiya ilə Azərbaycan arasında, əsl mənada, mehriban qonşuluq, dostluq münasibətləri yaranmışdır. Bizim vəzifəmiz ondan ibarətdir ki, - bu, bizim həyati mənafelərimizə uyğundur, - həmin münasibətlər gələcəkdə də inkişaf etsin, o cümlədən beynəlxalq terrorizmlə mübarizə sahəsində də. Dövlətlərimizin müvafiq orqanları bu mübarizə çərçivəsində qarşılıqlı fəaliyyəti uğurla həyata keçirirlər, biz çox fəal əməkdaşlıq edir, bir-birimizə kömək göstəririk. Bu fəal əməkdaşlıq çox ciddi əməli nəticələr vermişdir.

Təəssüflər olsun ki, Rusıya da, Azərbaycan da terrorçu qruplaşmaların hücumlarına məruz qalan ölkələrdir. Bu, bizi bir daha əmin edir ki, həmin bəlaya qarşı birgə mübarizə aparmaq lazımdır. Beynəlxalq birlik bu istiqamətdə bütün səylərini birləşdirməli və heç bir istisna etməməlidir. Terrorçu heç də təkcə sənin ölkənə ziyan vuran deyildir, terrorçunun milliyyəti yoxdur. Odur ki, dünyanın istənilən nöqtəsində törədilən terror aktı eyni dərəcədə pislənməlidir.

SUAL: Rusiya-Azərbaycan hərbi və hərbi-texniki əməkdaşlığı hansı əsas istiqamətlərdə inkişaf edə bilər?

CAVAB: Bu məsələ burada keçirilən görüşlər çərçivəsində ətraflı müzakirə olunmuşdur. Hərbi-texniki sahədə əməkdaşlığımızda yaxşı təcrübə toplanmışdır. Bildiyiniz kimi, Azərbaycanın Qəbələ rayonundakı radiolokasiya stansiyasının statusunun uzun illər həll edilməməsi müəyyən problemlər yaradırdı. Lakin mən artıq giriş sözümdə dedim ki, keçmişdə mövcud olan problemlər, o cümlədən bu məsələ də bu gün öz həllini tapmışdır. Biz hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək istəyirik. Artıq bu mövzuda

ümumi istək ifadə olunmuşdur və yaxın zamanlarda əməli xarakter daşıyan müəyyən addımlar atılacaqdır.

SUAL: Son günlər belə bir informasiya yayılmışdır ki, Azərbaycan Kollektiv təhlükəsizlik haqqında müqavilədə iştirak etmək məsələsində öz mövqeyinə yenidən baxa bilər. Siz bu suala aydınlıq gətirə bilərsinizmi? Rəsmi Bakı bunun mümkünlüyünü nəzərdən keçirirmi?

CAVAB: Bu məsələ nə keçirilmiş görüşlər çərçivəsində, nə də bundan əvvəl müzakirə edilməmişdir. Buna görə də mən müzakirə olunmayan məsələləri şərh etmək istəmirəm.

SUAL: Son dövrlərdə Azərbaycanın, eləcə də Gürcüstanın prezidentləri dəyişilmişdir. Necə bilirsiniz, bu GUÖAM birliyinin fəaliyyətinə necə təsir göstərə bilər?

CAVAB: Belə fikirləşirəm ki, hər iki dövlətdə - həm Azərbaycanda, həm də Gürcüstanda ikitərəfli əsasda, habelə regional planda əməkdaşlığın zəruriliyi başa düşülür. Ona görə də hesab edirəm ki, rəhbərliyin dəyişməsinin GUÖAM təşkilatı üçün mənfi nəticələri olmayacaqdır.

SUAL: Azərbaycan Xəzəryanı dövlətlərin ikinci zirvə görüşünə dənizin statusunun müəyyənləşdirilməsinə dair hansı konkret təklifləri çıxarmaq niyyətindədir? Yüksək səviyyədə bu görüşün nə vaxt və harada keçirilməsi planlaşdırılır, Moskvanın və Bakının bu problemə dair mövqeləri üst-üstə düşürmü?

CAVAB: Bakının və Moskvanın mövqeləri tamamilə üst-üstə düşür. Bunun özü də siyasi iradə olduqda istənilən məsələni həll etməyin mümkünlüyünü əyani şəkildə göstərən nümunələrdən biridir. Bilirsiniz ki, bu məsələdə uzun müddət, 1990-cı illərin əvvəllərindən bəri Rusiya ilə Azərbaycan arasında fikir ayrılığı mövzusu idi. Lakin hər iki tərəf məmnundur ki, ölkələrimiz bu məsələni həll etdilər. Bu gün Rusiya ilə Azərbaycan arasında sektorlarımızı bölən müvafiq müqavilə mövcuddur. Hesab edirik ki, bu müqavilə, habelə Rusiya ilə Qazaxıstan, Qazaxıstanla Azərbaycan arasında bağlanmış müqavilələr Xəzərə dair hərtərəfli sazişin əsasını təşkil etməlidir, çünki onlar beynəlxalq hüquqa, ədalət prinsiplərinə və beynəlxalq təcrübəyə əsaslanır.

Əlbəttə, biz bütün Xəzəryanı ölkələri əhatə edən hərtərəfli sazişin bağlanması yolunda tərəqqinin mümkün qədər tez əldə olunmasına çalışırıq. Lakin özünüz bilirsiniz ki, bu, təkcə bizdən asılı deyildir. Amma Azərbaycan danışıqlar prosesinin uğurla davam etdirilməsi üçün bundan sonra da maksimum səy göstərəcəkdir.

SUAL: Rusiyada bir çoxları belə hesab etməyə meyllidir ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin gerçəkləşdirilməsi Moskvanın Cənubi Qafqazdakı coğrafi-strateji və iqtisadi maraqlarına ziyan vura bilər. Bu, əslində, belədirmi və Sizcə, Xəzər nefti ətrafında vəziyyət necə olacaqdır?

CAVAB: Zənnimcə, Bakı-Tbilisi-Ceyhan boru kəməri heç kəsə ziyan vura bilməz. Boru kəməri layihəsi sırf iqtisadi layihədir, heç bir siyasi məqsəd daşımır. Bu gün Azərbaycan neftini dünya bazarına nəql edən iki boru kəməri vardır, onlardan biri Rusiya ərazisindən keçir və çox uğurla fəaliyyət göstərir. Əminik ki, Bakı-Novorossiysk boru kəməri bundan sonra da və hətta daha səmərəli fəaliyyət göstərəcəkdir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinə gəldikdə isə o, Xəzərin Azərbaycan sektorundan böyük həcmdə neft alternativ marşrutla nəql etmək üçün vacibdir. Öz neftini dünya bazarına çıxarmaq üçün Azərbaycanın nə qədər çox alternativ yolları olsa, bizim üçün bir o qədər sərfəli olacaqdır, təbii ki, tarif siyasəti və digər məsələlər baxımından da. Biz hesab edirik ki, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsinin qonşularımız üçün heç bir mənfi nəticəsi olmayacaqdır. Əksinə, ola bilsin, gələcəkdə Rusiyada hasil olunan neft də bu boru kəməri sistemi ilə nəql ediləcəkdir.

SUAL: Rusiya Prezidenti Vladimir Putin Kremldəki çıxışında dedi ki, Rusiya Dağlıq Qarabağ probleminin həllində öz rolunu fəallaşdırmağa hazırdır. Rusiyanın bu prosesdə rolunun fəallaşmasını necə təsəvvür edirsiniz?

CAVAB: Bu məsələ müzakirə edilmişdir və bu, təbiidir, çünki Rusiya birbaşa vasitəçilik funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədridir. Minsk qrupu çərçivəsində prosesin fəallaşmasına da çox ümid bəsləyirik. Ermənistanda və Azərbaycanda seçkiqabağı dövrdə bu proses müəyyən səbəblər üzündən bir qədər ləngimişdi. İndi o, yenidən bərpa olunmuşdur və əlbəttə, biz Rusiyanın bu prosesdə iştirakının məsələnin həllini tapmaqda hər iki tərəfə kömək edəcəyinə ümid bəsləyirik. Biz ümidvarıq ki, qonşumuz kimi, böyük dövlət kimi və Minsk qrupunun həmsədri kimi Rusiya gələcəkdə də belə təsirli səylər göstərəcəkdir.

SUAL: Rusiya mətbuatının verdiyi xəbərə görə, Siz Xəzər dənizinin silahsızlaşdırılmasının fəal tərəfdarısınız. Sizin fikrinizcə, bütün digər Xəzəryanı dövlətlərin də bu məsələdə razılığa gəlməsinə necə nail olmaq mümkündür? Azərbaycan ilə İran arasındakı münasibətləri necə qiymətləndirirsiniz?

CAVAB: Düşünürəm ki, silahsızlaşdırma ideyası hər hansı sazişlərin əldə olunmasına zidd deyil, bəlkə də əksinə, buna kömək edəcəkdir. Biz Xəzəri sülh zonasına çevirmək istəyirik, eləcə də, bütövlükdə, Qafqaz regionunun da silahsızlaşdırılmasına tərəfdarıq. Axı, ölkələrin hərbi potensialı, - o cümlədən də Xəzərdə, - artırması silahlanmanın artması təhlükəsini də gücləndirəcəkdir. Odur ki, sürətlə silahlanma heç kimə sərfəli deyil, bu vəsaitləri ölkələrimizin inkişafına yönəltmək daha yaxşı olardı.

Azərbaycan ilə İran arasında münasibətlər uğurla inkişaf edir. Prezident Heydər Əliyevin 2002-ci ildə İrana səfəri və bir sıra sazişlərin imzalanması bu münasibətlərin inkişafına çox böyük təkan vermişdir. Bizim dostluq münasibətlərimiz var, ümumi sərhədimiz 700 kilometrdən çoxdur, qarşılıqlı anlaşmanın indiki səviyyəsi bizi qane edir. Zənn edirəm ki, bu əlaqələrin gələcəkdə möhkəmlənməsi xalqlarımızın mənafelərinə cavab verəcəkdir.

SUAL: Ölkədə neft hasilatının özəlləşdirilməsinin mümkünlüyünə münasibətiniz necədir?

CAVAB: Bizdə neft sərvətləri dövlətin mülkiyyətindədir, yerin təki, neft və qaz yataqları da bizim mülkiyyətimizdir. Yerin təkinin özəlləşdirilməsi məsələsi, əlbəttə, gündəlikdə durmur, çünki bu, Azərbaycanın milli sərvətidir. Bu, demək olar ki, indi də, yəqin ki, gələcəkdə də ölkəmizin potensialının möhkəmlənməsinin əsas mənbəyidir.

Neft infrastrukturuna, neft sənayesi obyektlərinə gəldikdə isə, burada artıq özəlləşdirmə gedir və neft şirkətinin bir çox qurumları artıq özəlləşdirilməkdədir və özəlləşdiril-

mişdir. Biz burada yerin təkini və infrastrukturu bir-birindən dürüst fərqləndiririk.

SUAL: Mən bakılı Yaxşıbəy Aruşanovam. İlham Heydəroviç, nə vaxt elə imkan olacaq ki, biz bakılılar, heç olmazsa, turist kimi öz Vətənimizə gəlib, bu müddət ərzində vəfat etmiş əcdadlarımızın, habelə son dövrdə vəfat etmiş dostlarımızın, yoldaşlarımızın qəbirlərini ziyarət edə bilək?

CAVAB: Bütün dünyada çoxlu bakılı yaşayır və onlar rahatca Bakıya gəlirlər. Yoxsa sizin nə isə xüsusi probleminiz var?

SUAL: Vətəninə baş çəkmək istəyən bir çox başqa bakılılar kimi, mən də rəsmən turist qismində Bakıya gələ bilərəmmi?

CAVAB: Biz demokratik dövlətik. Azərbaycan insan hüquqlarına riayət olunmasını tənzimləyən bir sıra Konvensiyaları imzalamışdır. Biz 3 ildir ki, Avropa Şurasının üzvüyük, buna görə də heç vaxt heç bir məhdudiyyət qoymuruq. Bizim hamımız uzun illər yerdəyişmə sarıdan müəyyən məhdudiyyətlər qoyulmuş Sovet ittifaqının tərkibində yaşamışıq və buna görə də sərbəst yerdəyişmənin nə demək olduğunu bilirik. Bizdə demokratik, hüquqi dövlət qurulur, odur ki, heç bir məhdudiyyət yoxdur. Kim istəyir, arxayın gələ bilər.

SUAL: Siz seçkilərdən sonra baş vermiş hadisələr haqqında "Human Rights Watch" təşkilatının hesabatını necə şərh edərdiniz?

CAVAB: Azərbaycanda keçirilmiş seçkilərə gəldikdə, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlar, digər müşahidəçilər seçkidən dəhrəl sonra çox müsbət ilkin hesabat verdilər. Təbii ki, seçkilər demokratiyaya doğru yolda böyük addım hesab edildi, xüsusən də seçkilərin nəticələri isə heç kimdə şübhə doğurmadı. Seçkilərdən dərhal sonra baş verən iğtişaşların, yəni nümayişçilərin maşınları sındırması, polisə basqın etməsi, onu daşa tutması və asayiş keşikçilərinə çoxsaylı xəsarət yetirməsi hallarının qarşısını, əlbəttə, hüquq mühafizə orqanlarımız aldılar. Müstəqillik illərində Azərbaycan özünü müdafiə edə bilən dövlətə çevrilmişdir və müxalifətin müəyyən hissəsi tərəfindən törədilən belə vəhşilik, xuliqanlıq hərəkətlərinə son qoymalıdır.

Seçkilərdən dərhal sonra baş verən hadisələr 1990-cı illərin əvvəllərində olmuş bu cür hadisələri dəqiqliyi ilə xatırladırdı. Onda eynilə bu cür ssenari, eynilə bu cür rejissorluqla Azərbaycanda hakimiyyət zorakılıqla dəyişdirildi. 90-cı illərin əvvəllərindəki və indiki fərq yalnız ondadır ki, dövlətimiz artıq formalaşıb və hakimiyyətin zorakılıqla dəyişdirilməsi üçün göstərilən hər cür qəsdlərdən özünü qorumağa qadirdir.

Haqqında soruşduğunuz hesabata gəldikdə, mən bu hesabatı tamamilə qeyri-obyektiv, real vəziyyəti əks etdirməyən, birtərəfli və ancaq yeganə bir məqsəd – Azərbaycanın gənc rəhbərliyinə təsir göstərmək məqsədi daşıyan hesabat sayıram. Təbii ehtiyatlarla zəngin olan Azərbaycan coğrafi-siyasi mövqeyi baxımından müəyyən dairələr üçün böyük maraq doğurur. Amma xəbərdarlıq etmək istəyirəm ki, bu cür siyasi güc təzyiqi üçün göstərilən bütün cəhdlər uğursuzluğa məhkumdur. Biz öz siyasətimizi müstəqil surətdə aparırıq, seçkilərdə demokratik yolla öz seçimini etmiş Azərbaycan xalqının iradəsinə arxalanırıq və bu yoldan dönməyəcəyik.

SUAL: Siz dediniz ki, Bakı-Novorossiysk neft kəmərindən daha səmərəli istifadə et-

mək olar və gələcəkdə Rusiya neftini Bakı-Ceyhan neft kəməri ilə nəql etmək mümkünqür. Siz bu layihələr barədə daha ətraflı məlumat verə bilərsinizmi?

CAVAB: Müxtəlif variantlar vardır. Mən Bakı-Novorossiysk neft kəmərindən daha səmərəli istifadə edilə biləcəyini deyəndə, təbii, onu nəzərdə tuturdum ki, gələcəkdə, Azərbaycan neftinin həcmi artanda onun bu kəmərlə nəqli də arta bilər. Eyni zamanda, heç kimə sirr deyildir ki, əvvəlcədən neft kəmərinin Rusiyadan Azərbaycana çəkilməsi nəzərdə tutulmuşdu. Çünki Sovet dövründə də, indi də Azərbaycanda hər birinin istehsal gücü 20 milyon tondan çox olan 2 neft emalı zavodu vardır. Azərbaycanda neft hasilatı isə 13-14 milyon tondan çox deyildi, ona görə də neft Rusiyadan bizim zavodlara göndərilir, emal edilir və satılırdı. Gələcəkdə ehtiyac olarsa, belə iqtisadi məqsədəuyğunluq meydana çıxarsa, bu boru kəmərinin istiqamətini dəyişmək olar. Lakin bu, əlbəttə, indinin məsələsi deyil, danışıqların mövzusu ola bilər. Lakin biz ondan hazırda mövcud həcmdə səmərəli istifadə etməyə və gələcəkdə, imkan daxilində, həcmi artırmaga hazırıq.

SUAL: Azərbaycan iqtisadiyyatının dirçəlməsində Rusiya iqtisadiyyatının və Rusiya müəssisələrinin imkanlarını necə qiymətləndirirsiniz, çünki məlum olduğu kimi, - bunu seçki qabağı mən özüm də müşahidə etmişəm, - Azərbaycan iqtisadiyyatı indi çətin vəziyyətdədir?

CAVAB: Bilirsiniz, müxtəlif ölkələrdə iqtisadi vəziyyəti cürbəcür qiymətləndirmək olar, lakin statistikaya müraciət etsək, mən sizə bir neçə rəqəm deyə bilərəm. Azərbaycanda ümumi daxili məhsulun artımı son 7 il ərzində orta hesabla 10 faizdən az deyildir, həmin müddətdə inflyasiyanın səviyyəsi ildə 2 faizdən çox olmamışdır. Adambaşına xarici sərmayələrin həcminə görə ölkəmiz MDB dövlətləri arasında liderdir.

Sənayenin, kənd təsərrüfatının illik artımı, ticarətin sərbəstləşdirilməsi və ÜDM-də özəl sektorun payının 74 faiz olması faktı sübut edir ki, bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tamamilə tətbiq olunur. Çox böyük sosial, iqtisadi problemlərin olması isə başqa məsələdir. Təəssüf ki, Azərbaycan əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin sayı kimi göstərici üzrə dünyanın bütün ölkələri arasında liderdir. Ermənistanın təcavüzü nəticəsində bizdə 8 milyon əhalinin bir milyonu qaçqın və köçkündür. Ona görə də bu, vətəndaşlarımızın iqtisadi vəziyyətinə, sosial vəziyyətinə çox ciddi təsir göstərir. Bu, iqtisadiyyat barəsində. Hesab edirəm ki, gələcəkdə, biz öz energetika layihələrimizi tamamilə həyata keçirdikdən sonra Azərbaycanda iqtisadi inkişaf daha uğurlu olacaqdır. O ki qaldı Rusiya şirkətlərinin iştirakına, mən Sizin kimi buna "dirçəliş" deməzdim, adətən, dirçəliş həyatın bir növ qurtardığı yerdə baş verir. Azərbaycanda isə vəziyyət başqa cürdür. Biz qarşılıqlı surətdə faydalı əməkdaşlıqda iştirakı alqışlayırıq. Bu gün Azərbaycanda Rusiya kapitalı var. Rusiyanın 300-dən çox şirkəti ölkəmizdə uğurla işləyir, Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına, o cümlədən də energetika sektoruna yüz milyonlarla dollar məbləğində sərmayə qoymuşlar. Rusiya bankları fəal işləyirlər. Yaxın vaxtlarda Azərbaycanda Rusiya biznes forumu keçiriləcəkdir. Biz bütün iri şirkətləri bazarımıza fəal cəlb etmək üçün onları bu foruma dəvət edirik. Ona görə də biz qarşılıqlı fayda və qarşılıqlı mənfəət prinsiplərinə əsaslanan əməkdaşlıq üçün açığıq.

SUAL: Gürcüstanın yeni rəhbərliyi dövründə Azərbaycanla Gürcüstan arasında münasibətlər necə təşəkkül tapır?

CAVAB: Bizim aramızda kökləri tarixin dərinliklərinə gedib çıxan ənənəvi dostluq və qardaşlıq münasibətləri var. Müstəqil inkişaf dövründə də münasibətlərimizin uğurla inkişaf etməsini xalqlarımızın böyük nailiyyətləri sırasına aid etmək olar. Bizim aramızda heç bir problem, anlaşılmazlıq yoxdur, əksinə, bütün müstəqillik illəri ərzində Gürcüstan və Azərbaycan həmişə əlbir, birgə hərəkət etmişlər. Gürcüstanda böyük Azərbaycan icması var, orada təxminən yarım milyon azərbaycanlı yaşayır. Əlbəttə ki, biz çox istəyirik ki, ikitərəfli əlaqələrimiz bundan sonra da inkişaf etsin. İndi vəziyyət eladir ki, Gürcüstan və Azərbaycan liderləri bizə keçmişdən mövcud olan bu müsbət prosesləri davam etdirmək əzmindədirlər. Müstəqillik illərində Prezident Əliyev və Prezident Şevardnadze ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsi üçün çox iş görmüşlər. Əminəm ki, Gürcüstanın yeni rəhbərliyi və Azərbaycanın yeni rəhbərliyi bu ənənələrə sadiq qalacaqlar.

MİXAİL QUSMAN: Hörmətli həmkarlar, çox sağ olun. İcazə verin, bizə diqqətinə görə, açıq söhbətə görə Azərbaycan Prezidentinə sizin adınızdan təşəkkür edim. Biz onu burada hələ dəfələrlə görəcəyimizə ümid bəsləyirik.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 7-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri başa çatdı.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.

Dövlətimizin başçısı Binə hava limanında jurnalistlərin suallarına cavab verdi.

SUAL: Cənab Prezident, belə məlumat yayılıb ki, ABŞ-ın dövlət katibi Kolin Pauell Moskvaya səfəri zamanı Rusiyanın xarici işlər naziri İvanovla görüşündə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair hansısa təkliflər barədə söhbət olmuşdur. Siz İvanovla görüşmüsünüz, hər hansı təklif varmı?

CAVAB: Əlbəttə, biz görüşdük, münaqişə barədə də söhbətlərimiz oldu. Təkliflər, yəqin ki, olmalıdır. Bilirsiniz ki, bu problemin həll edilməsi istiqamətində işlər bir növ lazımı səviyyədə qurulmayıbdır. Biz istəyirik ki, bu proses daha da intensivləşsin. Əlbəttə, təkliflər olmalıdır. Mən bu dəfə də öz mövqeyimi bildirdim və bəyan etdim ki, Minsk qrupu öz mövqeyini bildirməlidir, yeni təkliflərlə çıxış etməli, özünü müşahidəçi kimi aparmamalıdır. Ola bilər ki, yaxın zamanlarda hansısa təkliflər olsun. Amma bu məsələ ilə bağlı elə konkret söhbətimiz olmayıbdır.

SUAL: Cənab Prezident, 5 rayonun qaytarılması məsələsi Avropa Parlamentində də səslənir. Rusiya Prezidenti ilə Dağlıq Qarabağ problemi müzakirə olunarkən belə bir məsələyə toxunuldumu?

CAVAB: Bu, yeni məsələ deyildir. Avropa İttifaqı bu məsələni haradasa, 3-4 il bundan əvvəl irəli sürmüşdü. O vaxt Ermənistan buna razılıq verməmişdi. Ermənistanın təbliğat kampaniyası ona yönəlib ki, guya Azərbaycan onu mühasirəyə alıbdır. Ancaq bu, belə deyildir. Siz deyən yeni məsələ deyil, müzakirə oluna bilər. Biz özümüz müəyyən etməliyik ki, bu, nə dərəcədə məqbuldur. Hələlik bu barədə danışmaq bir qədər tezdir. Əgər rəsmi şəkildə təklif edilərsə, - biz Minsk qrupunu gözləyə bilərik, mandat Minsk qrupundadır, - o vaxt ona münasibət bildirmək olar. Amma hesab edirəm ki, bütün

mümkün olan variantlar nəzərdən keçirilməlidir. Biz baxmalıyıq ki, bunu necə həll edək. Amma mən öz mövqeyimi bir daha açıq-aydın bildirdim. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır. Bu problem, Ermənistan-Azərbaycan münaqişəsi konstruktiv prinsiplər əsasında öz həllini tapa bilər. Bu məsələ ilə bağlı bizim söhbətlərimiz olubdur. Mən Azərbaycanın mövqeyini bütün səviyyələrdə bildirmişəm.

SUAL: Cənab Prezident, Bakı-Novorossiysk kəməri ilə Azərbaycan neftinin bundan sonra nəql olunması barədə nə deyərdiniz?

CAVAB: Bəyannamə yəqin ki, Sizə də təqdim ediləcəkdir. Görəcəksiniz, orada belə bir niyyət ifadə olunubdur ki, bu məsələ uzunmüddətli əsaslarla öz həllini tapmalıdır. Azərbaycan nefti şimal marşrutu ilə dünya bazarlarına çıxarılmalıdır. Eyni zamanda, Azərbaycana təbii qazın ötürülməsi də təmin edilməlidir. Amma orada hər hansı bir öhdəlik yoxdur. Orada niyyət şəklində göstərilir. Bildiyiniz kimi, bu marşrut fəaliyyətdədir. Uzun müddətdir ki, Azərbaycan nefti bu marşrut ilə göndərilir. Biz maraqlıyıq ki, Bakı-Novorossiysk neft kəməri işləsin. Neft kəməri nə qədər işlək vəziyyətdə olarsa, o qədər sərfəlidir.

SUAL: Cənab Prezident, biz Sizin mövqeyinizi bilmək istəyirik. Azərbaycan Prezidenti hansı variantın tərəfdarıdır? Dağlıq Qarabağ probleminin ciddi kompromislər yolu ilə indiki məqamda həllinin, yoxsa gözləməyin tərəfdarıdır?

CAVAB: Mən bu məsələdə kompromislərin tərəfdarı deyiləm. Mən hesab edirəm və öz mövqeyimi açıq-aydın bildirmişəm ki, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Haqq-ədalət bizim tərəfimizdədir. Zaman dəyişir, əgər biz ölkələrə iqtisadi potensial baxımından qiymət versək, o da bizim tərəfimizdədir. Ona görə də mən hesab edirəm ki, biz gərək tələskənliyə yol verməyək. Mən tələsmirəm. Hesab edirəm ki, məsələni həll etmək üçün gərək gözləyək. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı güclənir və bundan doğan digər məsələlər öz həllini tapdıqca, ölkəmiz istədiyinə nail olacaqdır. Bizim heç kimin torpağında gözümüz yoxdur. Biz istəyirik ki, Azərbaycan torpaqları ölkəmizə qaytarılsın, münaqişə sülh yolu ilə öz həllini tapsın. Eyni zamanda, bu məsələ yalnız dediyim prinsiplər çərçivəsində öz həllini tapa bilər. Bu mövqeyimiz bu dəfə də çox aydın şəkildə Moskvada bildirildi.

SUAL: Cənab Prezident, Siz ATƏT-in üzvü olan iki dövlətə səfər etmisiniz. Necə düşünürsünüz, bu səfərlərdən sonra ATƏT vasitəçilərinin işində fəallıq müşahidə olunacaq, ya yox?

CAVAB: Mən ümid edirəm ki, olacaq. Həm Fransanın Prezidenti, həm də Rusiyanın Prezidenti mənə bildirdilər ki, onlar münaqişənin həll olunmasında maraqlıdırlar. Mən gözləyirəm ki, ATƏT-in yeni təklifləri olacaqdır. Bu barədə demək hələlik bir az tezdir, olmalıdır. ATƏT bu məsələ ilə məşğuldur və şübhəsiz ki, münaqişənin həllində fəal iştirak etməlidir. Yenə də deyirəm, özünü müşahidəçi kimi aparmamalıdır. Yeni təkliflər verməlidir. Bilirsiniz ki, bu təkliflərin irəli sürülməsi istiqamətində çox gözəl şərait yaranıbdır. Avropa İttifaqının məruzəsində artıq müsbət məqamlar səslənibdir. Avropa Şurasının sənədlərində artıq bizi qane edən, ədaləti əks etdirən məqamlar öz əksini tapıbdır. Yəni, bütün bunlar zəmindir. Biz Avropa Şurasında üç il bundan əvvəl bu fəaliyyətə başlayanda, bəziləri buna, necə deyərlər, ciddi yanaşmırdı. Hesab edirdilər ki, bu,

sadəcə olaraq, siyasi gedişlərdir. Halbuki həyat göstərir ki, bütün bu məsələlər danışıqların istiqaməti üçün gözəl zəmindir. Mən əminəm ki, bu zəmində münaqişə öz həllini tapar. Əgər siz Rusiyanın qəzetlərinə nəzər salsanız, görərsiniz ki, onların səhifələrində erməni işğalı haqqında artıq açıq-aydın bildirilir. Halbuki, bir neçə il əvvəl bu barədə heç deyilmirdi. Yəni bu, bizim diplomatik uğurumuzdur. Əminəm ki, bunun əsasında bizi qane edən bir variant ortaya çıxa bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, KENT ŞAHZADƏSİ MAYKLI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Prezident sarayında Böyük Britaniyanın "Genezis İnişiqeytiv" təşkilatının banisi və himayədarı, Britaniya Kral ailəsinin üzvü, Kral həzrətləri, Kent Şahzadəsi Mayklı qəbul etmişdir.

Hörmətli qonağı səmimiyyətlə salamlayan Azərbaycan dövlətinin başçısı onun səfəri və keçirdiyi görüşlər haqqında geniş məlumata malik olduğunu bildirərək, bu səfərin Britaniya-Azərbaycan əlaqələrinin inkişafına kömək edəcəyini vurğuladı.

Prezident İlham Əliyev Britaniya ilə Azərbaycan arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu söylədi və ikitərəfli əlaqələrin yeni sahələrdə inkişaf edəcəyinə əminliyini bildirdi. O dedi ki, yeni müstəqillik qazanmış dövlət kimi Azərbaycan demokratiyanın inkişafını və Avropa strukturlarına inteqrasiyanı öz siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Ölkəmiz hazırda irimiqyaslı enerji layihələrini uğurla həyata keçirir və bu işdə Britaniya şirkətləri xüsusi fəallıq nümayiş etdirirlər. Təsadüfi deyildir ki, onlar Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşunda digər ölkələrin şirkətlərindən irəlidə gedirlər.

Azərbaycan Prezidenti ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi islahatlar haqqında qonağa ətraflı məlumat verərək, qeyri-neft sektorunun inkişafına da xüsusi diqqət yetirildiyini söylədi. Dövlətimizin başçısı dedi ki, irimiqyaslı enerji layihələrinin həyata keçirildiyi bu illər ərzində istər bp, istərsə də digər şirkətlərlə Azərbaycan hökuməti arasında heç bir fikir ayrılığı olmamışdır. Ölkəmizdə sərmayəçilər üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, beynəlxalq maliyyə qurumları, iri kommersiya bankları enerji layihələrinin həyata keçirilməsinə böyük sərmayələr ayırmışlar.

Prezident İlham Əliyev Şahzadə Mayklın himayədarlıq etdiyi "Genezis İnişiqeytiv" təşkilatının məşğul olduğu kiçik və orta sahibkarlığın inkişafı məsələsinin Azərbaycan üçün də böyük əhəmiyyət kəsb etdiyini və bu sahədə Britaniya iş adamlarının təcrübəsinin ölkəmizdə öyrənilməsinin zəruriliyini vurğuladı.

Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkünün olduğunu qonağın diqqətinə çatdıran Prezident İlham Əliyev bu vəziyyəti "böyük humanitar fəlakət" kimi səciyyələndirdi. O, beynəlxalq humanitar təşkilatların bu insanlara göstərdiyi yardımı vurğulamaqla yanaşı, qaçqın-köçkünlərin öz doğma torpaqlarına qayıtması üçün beynəlxalq birliyin işğalçı dövlətə təzyiq göstərməsinin zəruriliyini söylədi.

Azərbaycanda keçirdiyi görüşlər haqqında dövlətimizin başçısına ətraflı məlumat verən Şahzadə Maykl Britaniya şirkətlərinin, xüsusilə bp-nin ölkəmizdə fəaliyyətindən məm-

nunluğunu bildirdi. O, səfər zamanı Bakının xəstəxanalarından birinə baş çəkdiyini və öz xeyriyyəçilik fəaliyyəti çərçivəsində oraya yardım göstərəcəyini qeyd etdi. Qonaq kiçik və orta sahibkarlığın inkişafının hər bir ölkənin iqtisadiyyatında mühüm rolunu vurğulayaraq dedi ki, himayədarlıq etdiyi təşkilat bu sahədə Azərbaycan sahibkarlarına texniki yardım göstərməyə hazırdır. Azərbaycanın çox gözəl təbiəti və qonaqpərvər xalqı olduğunu nəzərə çarpdıran Şahzadə Maykl ölkəmizdə turizm sahəsinin inkişafı üçün geniş imkanların mövcud olduğunu da söylədi.

Şahzadə Maykl səmimi görüşə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin başçısı İlham Əliyevə təşəkkür etdi.

Sonra Britaniya-Azərbaycan əlaqələrinin inkişafına dair bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, Azərbaycanın Londondakı səfiri Rafael İbrahimov, Britaniyanın ölkəmizdəki səfiri Lorens Bristou iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN "GENEZİS İNİŞİEYTİV" TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Prezident sarayında Böyük Britaniyanın "Genezis İnişieytiv" təşkilatının nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, son iki gün ərzində onların Bakıda keçirdikləri görüşlərin ikitərəfli iqtisadi əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu söylədi.

Nümayəndə heyətinin başçısı, "Genezis İnişieytiv" təşkilatının sədri lord Rendall dövlətimizin başçısına təşəkkür edərək, Britaniyanın Baş naziri Toni Bleyerin salamlarını və məktubunu ona çatdırdı.

Lord Rendall dedi ki, 22 ildir siyasətlə məşğul olan adam kimi o, Azərbaycanla Britaniya arasında əlaqələrin yüksək səviyyəsindən xeyli məmnundur və belə gözəl ölkəyə səfər etməyindən çox şad olmuşdur. O, səfər müddətində Azərbaycanda keçirdiyi görüşlərdən razı qaldığını və burada böyük qonaqpərvərlik gördüyünü söylədi.

Səmimi və xoş sözlərə görə lord Rendalla təşəkkürünü bildirən Prezident İlham Əliyev onun salamlarını Baş nazir Toni Bleyerə çatdırmağı xahiş etdi. Azərbaycan dövlətinin başçısı iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirərək, Birləşmiş Krallığın sərmayəçilərinin Azərbaycan iqtisadiyyatında fəal iştirakını xüsusilə vurğuladı. Dövlətimizin başçısı Böyük Britaniya şirkətlərinin ölkəmizdə ən böyük sərmayəçi olduğunu xatırlatdı, britaniyalı iş adamlarının neft sektorundan tutmuş xidmət sahələrinədək müxtəlif sahələrdə iştirak etdiklərini, onların cəmiyyətimizin üzvünə çevrildiklərini qeyd etdi. Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, ikitərəfli əlaqələr bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.

Lord Rendall Azərbaycanda aparılan iqtisadi islahatları yüksək qiymətləndirərək, ölkəmizin iqtisadi inkişafına və yeni iş yerlərinin açılmasına kömək etmək istədiklərini bildirdi. Qonaq dedi:

- Cənab Prezident, mən Sizin yeni iş yerlərinin açılması və iqtisadi islahatların davam etdirilməsi sahəsində qarşınıza qoyduğunuz məqsədləri yüksək qiymətləndirirəm. Prezidentliyiniz dövründə bu məqsədlərin Sizin xalqınızın daha xoşbəxt yaşamasına xidmət edəcəyinə əminəm.

Prezident İlham Əliyev ölkəmizdə iqtisadiyyatın inkişafına xidmət edəcək irimiqyaslı layihələrin həyata keçirildiyini, bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsinin də geniş şəkildə tətbiq olunduğunu bildirdi. O, Azərbaycanda siyasi vəziyyətin sabitliyini, böyük intellektual potensialın və təbii ehtiyatların mövcudluğunu ölkə iqtisadiyyatının çiçəklənməsi üçün mühüm amillər kimi səciyyələndirdi. Dövlətimizin başçısı xüsusilə neft və qaz sektorunda ölkəmizin dünya təcrübəsini geniş surətdə öyrəndiyini və tətbiq etdiyini söylədi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan Böyük Britaniyanın Baş naziri Toni Bleyerin hasilat sənayelərinin şəffaflığı təşəbbüsünə dərhal qoşularaq, ötən ilin iyununda bununla əlaqədar Londonda keçirilmiş konfransda təmsil olunmuşdur. Bütün bunlar, Yohannesburqda davamlı inkişafa dair keçirilmiş Dünya sammitinin qərarları əsasında aparılan işlər, habelə ölkəmizdə yaradılmış və şəffaf şəkildə fəaliyyət göstərən Neft Fondu iqtisadiyyatın daha da inkişafı məqsədlərinə xidmət edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu il fevralın 19-da Budapeştdə baş vermiş hadisə - erməni hərbi qulluqçusunun öldürülməsi ilə əlaqədar təəssüflənir və onun həmkarlarına və ailəsinə başsağlığa verir.

Nazirlik diqqəti ona cəlb edir ki, qətldə şübhəli bilinərək tutulmuş azərbaycanlı hərbi qulluqçu Ramil Səfərov Azərbaycanın erməni təcavüzkarlar tərəfindən zəbt edilmiş Cəbrayıl rayonundan olan qaçqınlar ailəsindədir. İşğalçılar ailənin bütün əmlakını qarət etmişlər, onun bir neçə qohumu öldürülmüşdür. Əldə olan məlumata görə, erməni hərbi qulluqçusu dəfələrlə Ramil Səfərovun ünvanına Azərbaycan Respublikası zabitinin və vətəndaşının şərəf və ləyaqətinə toxunan, erməni təcavüzü qurbanlarının xatirəsini təhqir edən həqarətli sözlər söyləmişdir. Bütün bunlar Ramil Səfərovun emosional vəziyyətinə təsir göstərməyə bilməzdi.

Azərbaycan tərəfi Ermənistan tərəfini Azərbaycan dövlətinin və xalqının ünvanına təhqiramiz bəyanatlardan və fikirlər söyləməkdən çəkinməyə çağırır. Budapeştdəki hadisənin Ermənistanla Azərbaycan arasında onsuz da gərgin olan münasibətləri daha da kəskinləşdirəcək katalizatora çevrilməsinə yol vermək olmaz. Baş vermiş bu hadisə münaqişənin nizama salınmaması ilə əlaqədar vəziyyətin gərgin olduğunu bir daha sübut edir və onun beynəlxalq hüquq prinsipləri əsasında həlli sahəsində dünya birliyinin səylərini gücləndirməsinin zəruriliyini təsdiq edir. Yalnız bu halda iki xalq arasındakı düşmənçiliyi aradan qaldırmaq, sülhə və mehriban qonşuluğa yol açmaq olar.

20 fevral 2004-cü il

AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA SƏFƏRİ

Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılığı ilə parlament nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri Saleh bin Abdulla Humeydin dəvəti ilə fevralın 15-dən 21-dək bu ölkədə rəsmi səfərdə olmuşdur.

Səfər müddətində Milli Məclisin nümayəndə heyəti İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Fəhd bin Əbdüləziz Al Səud, vəliəhd şahzadə Əlir Abdulla bin Əbdüləziz, Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri doktor Saleh bin Abdulla Humeyd, Baş nazirin ikinci müavini, müdafiə və aviasiya naziri şahzadə əmir Sultan bin Əbdüləziz, Ər-Riyad bölgəsinin əmiri şahzadə əmir Salman bin Əbdüləziz və bu ölkənin digər yüksək vəzifəli rəsmiləri ilə görüşlər keçirmişdir.

Görüşlər zamanı parlamentlərarası əlaqələrin, qardaşlıq və dostluq münasibətlərinin inkişafı, islam ölkələrinin birliyi, Dağlıq Qarabağ problemi, hər iki ölkənin iqtisadiyyatının inkişaf perspektivləri, Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müxtəlif sahələrdə əməkdaşlıq, terrorizmə qarşı mübarizə və digər mühüm məsələlər müzakirə olunmuşdur.

Keçirilmiş görüşlərdə Milli Məclisin sədri Murtuz Ələsgərov ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılması tarixindən, ümummilli liderimiz Heydər Əliyevin bu sahədə xidmətlərindən danışmış, Azərbaycanda parlamentarizm ənənələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermişdir. Sədr Dağlıq Qarabağ problemində Azərbaycanın haqq işini birmənalı şəkildə müdafiə etdiklərinə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərliyinə və xalqına təşəkkürünü bildirmişdir.

Tərəflər bundan sonra da ölkələrimiz arasında mövcud olan qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi, parlament əlaqələrinin möhkəmləndirilməsi və qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi istiqamətində yeni-yeni uğurların əldə ediləcəyinə əmin olduqlarını vurğulamışlar.

Səfər müddətində parlament nümayəndə heyətimiz müsəlman aləminin müqəddəs şəhərləri olan Məkkə və Mədinəni də ziyarət etmiş, Səudiyyə Ərəbistanının tarixi yerləri ilə tanış olmuşlar.

Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılığı ilə parlament nümayəndə heyəti fevralın 22-də Vətənə dönmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN AVROPA VƏ AMERİKA ÜZRƏ BAŞ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin Avropa və Amerika üzrə baş nümayəndəsi xanım Beatris Mejvan Roqqonu qəbul etmişdir.

Prezident seçilməsi münasibətilə dövlətimizin başçısına səmimi təbriklərini çatdıran

xanım Beatris Mejvan Roqqo dedi ki, dünyada artan terror aktları ilə əlaqədar Komitənin işi daha da çoxalmışdır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin öz missiyalarını münaqişə zonalarında yerinə yetirdiyini bildirən xanım Beatris Mejvan Roqqo Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş şəxslərlə bağlı əməkdaşlığın artırılması üçün Prezidentin şəxsi dəstəyinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev Beynəlxalq Qırmızı Xaç Komitəsinin münaqişə və böhran zonalarında xeyirxah missiyanı yerinə yetirməsini yüksək qiymətləndirdi, Komitənin fəaliyyətinə Azərbaycanda hörmətlə yanaşıldığını və bu sahədə əməkdaşlığın genişlənməsi üçün bundan sonra da bütün imkanlardan istifadə olunacağını bildirdi.

Görüşdə Azərbaycanın Silahlı Qüvvələrində beynəlxalq humanitar hüquq üzrə təlim kurslarının təşkili, Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətinin müxtəlif aspektləri, Cenevrə Konvensiyalarına əlavə protokollar və digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Sonda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Avropa və Amerika üzrə baş nümayəndəsi xanım Beatris Mejvan Roqqo Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə səmimi qəbula görə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ MƏRUZƏÇİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Prezident sarayında AŞPA-nın Siyasi işlər komitəsinin üzvü, bu qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Terri Devisi qəbul etmişdir.

Qonağı səmimiyyətlə qarşılayan Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab Devis, Azərbaycana xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram.

Avropa Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı artıq ilk addımlar atmışdır. Xüsusi məruzəçi təyin edilmişdir və biz çox şadıq ki, məruzəçi kimi Siz bu məsələ ilə çox fəal məşğul olursunuz. Doğrudur, bu məsələ müzakirə olunanda Ermənistan tərəfi buna razılıq vermək istəmirdi və məsələni arxa plana çəkmək istəyirdi. Buna baxmayaraq, Avropa Şurasının qəti qərarı bundan ibarət oldu ki, məsələ gündəliyə salınsın və Siyasi komitədə müzakirə olunsun, eyni zamanda, xüsusi məruzə hazırlansın.

Əlbəttə, biz ümidvarıq ki, bu məruzədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında real həqiqətlər öz əksini tapacaqdır. Bu həqiqətlər ondan ibarətdir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, torpaqlarımızın 20 faizini işğal etmiş və bu işğalın nəticəsində bir milyondan artıq insan öz doğma torpaqlarından didərgin düşmüşdür. Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon işğal altındadır və bu faktlar Avropa Şurasının rəsmi sənədlərində öz əksini tapmışdır.

Dünya ictimaiyyətinin bu məsələyə böyük diqqət göstərməsi bizi çox sevindirir. Avropa Şurası bilavasitə bu məsələ ilə məşğuldur, eyni zamanda, Avropa İttifaqı çərçivəsində müzakirələr aparılır. Hesab edirəm ki, bunlar müsbət istiqamətdə atılmış addımlar-

dır. Eyni zamanda, bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının da bu münaqişə ilə bağlı 4 qətnaməsi vardır və həmin qətnamələrdə göstərilir ki, Ermənistanın işğalçı qüvvələri qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmalıdır. Digər tərəfdən, ATƏT-in Minsk qrupu bu məsələ ilə bilavasitə məşğul olur və vasitəçilik missiyasını öz üzərinə götürmüşdür. Ən əlamətdar hal ondan ibarətdir ki, son görüşlərimizdə Minsk qrupunun həmsədrləri Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi barədə elə bu otaqda açıq-aşkar bəyanat vermişlər.

Əlbəttə, biz Avropa Şurasının bu məsələ ilə bağlı ATƏT-in Minsk qrupunu əvəz etməsini istəməzdik. Lakin hesab edirik ki, Avropa Şurası tərəfindən, o cümlədən məruzədə bu münaqişəyə siyasi qiymət verilməlidir. Əminəm ki, bu siyasi qiymət veriləcəkdir və həqiqət öz yerini tapacaqdır. Mən bu çətin işdə sizə uğurlar diləyirəm.

Səmimi qəbula görə təşəkkürünü bildirən Terri Devis dedi:

- Cənab Prezident, bu, mənim Sizinlə ötən ilin sentyabrından bəri ilk görüşümdür və fürsətdən istifadə edərək, atanızın vəfatı ilə əlaqədar şəxsən Sizə dərin hüznlə başsağlığı verirəm. Yəqin ki, bilirsiniz, bu gün mən onun məzarını ziyarət etmişəm.

Mən habelə Sizi Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə də təbrik etmək istəyirəm.

Bildiyiniz kimi, mənim vəzifəm ATƏT-in Minsk qrupunun həmsədrlərini əvəz etmək deyildir. Mənim işim Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair məruzə hazırlamaqdan ibarətdir. Siz özünüz də qeyd etdiyiniz kimi, bu, heç də asan iş deyildir. Bir il əvvəl mən Sizin atanızla görüşərkən o bildirmişdi ki, Dağlıq Qarabağ haqqında bir sıra beynəlxalq təşkilatların nümayəndələri hesabat hazırlayır. Lakin onların heç biri orada olmayıblar. O vaxt mən Heydər Əliyevə söz verdim ki, münaqişə zonasına səfər edəcəyəm və bu sözümü yerinə yetirdim.

Deyə bilərəm ki, bu problemin tezliklə həll olunması zəruridir, çünki münaqişə bir çox insanlara - qaçqın və köçkün vəziyyətinə düşmüş adamlara ciddi təsir edir. Həm Azərbaycanda, həm Ermənistanda, həm də Dağlıq Qarabağın özündə adamlarla söhbət edərkən bir daha şahidi oldum ki, onların vəziyyəti çox ağırdır. Çox yaxşı haldır ki, indi açıq qarşıdurma olmadığından insanlar həlak olmur və münaqişənin dinc yolla həlli üçün hələ imkanlar mövcuddur. Avropa Şurasının üzvləri kimi həm Azərbaycan, həm Ermənistan, eyni zamanda, Avropa Şurası özü də münaqişəni dinc yolla həll etmək yollarını axtarmalıdırlar.

Britaniyanın nümayəndəsi kimi mən bu məsuliyyəti üzərimə götürmüşəm və biz keçmişi yada salaraq çalışmalıyıq ki, gələcəkdə münaqişə qurbanları olmasın, ailələr başçılarını itirməsinlər. Bu məsuliyyəti üzərimə götürərkən bir çoxları mənə problemin ağır olması ilə əlaqədar məsləhətlər verirdilər. Eyni zamanda, mən həm Azərbaycanın, həm də Ermənistanın Avropa Şurasına üzv qəbul olunmasında fəal iştirak etmişəm və indi də çalışacağam ki, tez bir zamanda obyektiv məruzə hazırlayım. Siz bilirsiniz ki, münaqişə zonasına səfər zamanı hava şəraitinin pisləşməsi ucbatından bizim bir çox problemlərimiz oldu. Lakin məruzəni hazırlamaq üçün mən orada olmalı idim.

Bir daha bildirirəm ki, mən məruzənin tez bir zamanda hazır olmasına çalışacağam və onun obyektiv olması üçün əlimdən gələni edəcəyəm. Ən vacibi odur ki, biz söylərimizi

problemin tezliklə həllinə yönəldək və bununla da Cənubi Qafqaz regionunda yaşayan bütün xalqların daha yaxşı gələcəyini təmin edək.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA ALİ RADASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Ukrayna Ali Radasının sədri Vladimir Litvini və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları səmimi salamlayaraq dedi:

- Hörmətli Vladimir Mixayloviç!

- Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Ölkələrimiz arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətləri mövcuddur. Bu münasibətlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin bütün dövrlərində - biz bir dövlətdə yaşadığımız vaxtlarda da, ən əsası isə, müstəqillik qazandıqdan sonra da inkişaf etmiş və möhkəmlənmişdir. Ukrayna və Azərbaycan tərəfdaş və dost ölkələrdir. İkitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir, iqtisadiyyat sahəsində, humanitar sahədə yaxşı əməkdaşlıq edirik. Biz beynəlxalq təşkilatlar, o cümlədən GUÖAM kimi regional əməkdaşlıq təşkilatı çərçivəsində çox fəal əməkdaşlıq edirik.

Bütün bu nailiyyətlər ölkələrimiz arasında münasibətlərin bundan sonra da belə müsbət istiqamətdə inkişaf edəcəyinə inanmağa böyük əsas verir.

Bu əməkdaşlığımızın əsası xeyli dərəcədə prezidentlərimiz Leonid Kuçma və Heydər Əliyev arasında yaxın dostluq münasibətləri ilə qoyulmuşdur. Onların arasındakı şəxsi dostluq və qarşılıqlı hörmət bu gün Ukrayna ilə Azərbaycanın dost və tərəfdaş olmasında böyük rol oynamışdır.

Biz Azərbaycanda bu siyasəti davam etdiririk və etdirəcəyik. Hörmətli Prezident Leonid Kuçma ilə keçirdiyimiz görüşlər qətiyyətlə deməyə imkan verir ki, münasibətlərimiz bundan sonra da belə uğurla inkişaf edəcəkdir.

Bu baxımdan parlamentlərimizin üzvləri arasında əlaqələr də mühüm yer tutur. Fərəhli haldır ki, bu istiqamətdə də qarşılıqlı fəaliyyətimiz çox yaxşı səviyyədədir. Parlamentlərimizin üzvləri Avropa təşkilatlarında fəal əməkdaşlıq edirlər, mən özüm də Avropa təşkilatları çərçivəsində belə səmərəli əməkdaşlığın iştirakçısı və şahidi olmuşam.

Əlbəttə, parlament rəhbərləri arasında ikitərəfli əlaqələr çox vacibdir. Mən bilirəm ki, Sizinlə Azərbaycan parlamentinin sədri cənab Ələsgərov arasında çox yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Biz bunu alqışlayırıq. Ümidvaram ki, ölkəmizə səfəriniz yaddaşınızda qalacaq və ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsinə kömək edəcəkdir. Bunda həm Azərbaycan xalqı, həm də Ukrayna xalqı maraqlıdır.

Sizi bir daha salamlayıram və ümid edirəm ki, vətənə xoş təəssüratla qayıdacaqsınız.

Valdimir Litvin səmimi qəbula görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Çox sağ olun, cənab Prezident!

İlk növbədə, mən və həmkarlarım Ukrayna parlamentinin nümayəndə heyəti ilə görüşə vaxt ayırdığınıza görə Sizə minnətdarlığımızı bildirmək istəyirik. Bura gələn kimi biz dərhal Heydər Əliyevin məzarını ziyarət etdik, gül-çiçək qoyduq. Mən bu imkandan istifadə edərək, bu əvəzsiz itki ilə əlaqədar Sizə şəxsən başsağlığı vermək istərdim. Bu, heç də təkcə Sizin ölkənizin xalqı üçün itki deyildir. Heydər Əliyev Krıma gələrkən mənə bir neçə il onu müşayiət etmək, onunla çox maraqlı söhbətlər etmək xoşbəxtliyi nəsib olmuşdur. Bu, mənim üçün dərs idi və bunu həyatımın sonunadək unutmayacağam. Çünki onun həyatı tarixin bütöv bir qatıdır, sovet və postsovet tarixinin böyük bir bölməsidir. Mən bilirəm ki, Heydər Əliyevin ölkəmizin prezidenti ilə sırf insani münasibətləri var idi. Ən ağır məqamlarda, o cümlədən iqtisadi xarakterli məsələlərdə həmişə biz onun dəstəyini hiss etmişik. Yadımdadır, Prezident Kuçma telefonla Heydər Əlirza oğluna müraciət edərək, yanacaq məsələsində kömək göstərməyi xahiş edəndə bu, dərhal həll olundu. Belə bir hərəkəti yalnız dahi insan edə bilərdi. Çünki dahi insan kiçik işlərdə də, böyük işlərdə də dahidir.

Mən həm də Prezident seçilməyiniz münasibətilə Ukrayna parlamenti adından Sizi təbrik etmək istəyirəm, bu, varisliyi və atanızın həyata keçirdiyi xəttin dəstəklənməsini sübut edir. Siz seçkilərdə yüksək səs topladınız. Bizim nümayəndə heyəti də seçkiləri müşahidə edirdi və onun üzvləri bu prosesin demokratikliyini və xalqın Sizə inandığını gördülər. Biz buna şadıq. Çünki ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətlə davam və inkişaf etməsini istəyirik.

Burada, parlamentdə biz bu istiqamətdə işləməyə hazırıq. Cənab Ələsgərovla da gözəl insani münasibətlərimiz vardır. Bu gün biz həm ikitərəfli əlaqələrimizlə, həm də regional və beynəlxalq məsələlərlə bağlı bir sıra mürəkkəb məsələləri müzakirə etdik. Bütün bu məsələlərdə aramızda tam anlaşma var və əminik ki, bu, sabah müsbət nəticələr verəcəkdir.

Biz Azərbaycanda olmağımızdan çox şadıq və əminik ki, iqtisadi potensialımız gücləndikcə ölkələrimizin inkişaf dinamikası da artacaqdır.

Sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ BİZNES İCRAÇILARI" TƏŞKİLATININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında ABŞ-ın "Milli Təhlükəsizlik üzrə Biznes İcraçıları" təşkilatının prezidenti və baş icraçı əməkdaşı, ehtiyatda olan general Çarlz Boydun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan dövlətinin başçısı İlham Əliyev dedi ki, ölkəmizlə Birləşmiş Ştatlar arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlıq yüksək səviyyədədir. Məhz Birləşmiş Ştatların dəstəyi ilə Azərbaycanda təkcə region üçün deyil, habelə bütün dünya üçün mühüm olan irimiqyaslı enerji layihələri həyata keçirilir.

Azərbaycan Prezidenti beynəlxalq terrorizmə qarşı mübarizədə ölkəmizin Birləşmiş Ştatlarla bir koalisiyada olduğunu nəzərə çarpdıraraq, əsgərlərimizin İraqda və Əfqanıstanda əməliyyatlarda fəal iştirak etdiyini söylədi. Bu məsələnin ölkəmiz üçün mühüm olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanın terrorizmdən zərər çəkmiş ölkə olduğunu da qeyd etdi. Bildirdi ki, Azərbaycan vətəndaşları erməni terrorizminin qurbanları olmuş, minlərlə azərbaycanlı onların törətdiyi terror aktları nəticəsində həlak olmuşdur.

Azərbaycanın zəngin tarixi ənənələrə malik olan, lakin yeni müstəqil dövlət quran bir ölkə kimi milli təhlükəsizlik məsələlərinə böyük diqqət yetirdiyini vurğulayan dövlətimizin başçısı dedi ki, ərazi bütövlüyü hər bir dövlətin təhlükəsizliyinin təmin olunmasında həlledici əhəmiyyətə malikdir. O təəssüflə qeyd etdi ki, Ermənistanın işğalı nəticəsində ölkəmizin ərazi bütövlüyü pozulmuş, torpaqlarımızın 20 faizi zəbt olunmuş, 1 milyondan çox insan qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ABŞ-ın da həmsədri olduğu ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında tezliklə nizama salınmasına nail olacaqdır. Bu münaqişənin həlli təkcə Azərbaycanın deyil, ümumən regionun iqtisadi və sosial inkişafına daha geniş imkanlar yaradardı.

General Çarlz Boyd rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında ətraflı məlumat verərək bildirdi ki, onlar, əsasən, hər bir dövlətin milli təhlükəsizliyinin başlıca prinsiplərindən biri olan iqtisadi təhlükəsizlik məsələləri ilə məşğul olurlar. Müxtəlif ölkələrdə, o cümlədən Cənubi Qafqaz regionunun perspektivli dövlətləri olan Azərbaycan və Gürcüstanda iqtisadi layihələrin təhlükəsizliyinin təmin olunmasının zəruriliyini vurğulayan qonaq bu sahədə hər iki ölkə ilə əməkdaşlıq etməyə və öz təcrübələrini bölüşməyə hazır olduqlarını da bildirdi. Çarlz Boyd Amerika hökumətinin, əsasən, könüllülərdən və iri şirkətlərin nümayəndələrindən ibarət olan bu təşkilatın xidmətlərindən geniş istifadə etdiyini xatırladaraq dedi ki, biz Almaniyada yerləşən ABŞ hərbi komandanlığının qərargahı ilə sıx əməkdaşlıq edirik.

Sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Qazaxıstan paytaxtına rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev arasında təkbətək görüş keçirilmişdir.

Səmimi dostluq şəraitində keçən görüşdə Prezident Nursultan Nazarbayev Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini söylədi və bu baxımdan Prezident İlham Əliyevin Qazaxıstana ilk dövlət səfərinin qarşılıqlı

surətdə faydalı ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğuladı.

Prezidentlər ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluqlarını ifadə etdilər və gələcəkdə əməkdaşlığın daha yüksək səviyyəyə qalxması üçün səylərin artırılmasının vacibliyini bildirdilər.

Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev iqtisadi münasibətlərə, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi apardılar. Hər iki dövlət başçısı neft və qaz sektorunda həyata keçirilən irimiqyaslı layihələrin, xüsusilə Bakı-Tbilisi-Ceyhan layihəsində Qazaxıstanın iştirakının böyük əhəmiyyətə malik olduğunu söylədilər. Qeyd olundu ki, gələcəkdə Qazaxıstan təbii qazının da Azərbaycan ərazisindən Avropaya çatdırılması nəzərdə tutulur.

Görüşdə beynəlxalq və regional əməkdaşlıq məsələləri də geniş müzakirə olundu. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin gələcək inkişafı üçün regional münaqişələrin, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin tezliklə və beynəlxalq hüquq normaları əsasında həll olunmasının zəruriliyi vurğulandı.

Prezidentlər Xəzərin statusu məsələsində Qazaxıstanla Azərbaycan arasında tam razılıq əldə olunmasından məmnunluqlarını ifadə edərək bildirdilər ki, bu problemin tezliklə həll olunması üçün digər Xəzəryanı ölkələrlə birlikdə səylər daha da artırılmalıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüşdən sonra Qazaxıstan Prezidentinin sarayının Qızıl salonunda dövlət başçıları İlham Əliyevin və Nursultan Nazarbayevin geniş tərkibdə görüşü olmuşdur.

Prezident Nursultan Nazarbayev görüşü açaraq dedi ki, qardaş Qazaxıstan və Azərbaycan xalqlarını onların ümumi mədəni-tarixi, vahid coğrafi-siyasi məkana malik olmaları, həll edilən məsələlərin oxşarlığı doğmalaşdırır. O vurğuladı ki, müstəqil Azərbaycan dövlətinin təşəkkülündə və Qazaxıstan-Azərbaycan münasibətlərinin möhkəmlənməsində Qazaxıstanda böyük hörmət bəslənilən Prezident Heydər Əliyevin böyük töhfəsi olmuşdur.

İkitərəfli iqtisadi əlaqələrdən söhbət açan Prezident Nursultan Nazarbayev bildirdi ki, bu il Qazaxıstanla Azərbaycan arasında əmtəə dövriyyəsi artmalıdır.

İqtisadi münasibətləri inkişaf etdirmək üçün hələ istifadə edilməmiş potensial olduğunu vurğulayan tərəflər fevralın 27-28-də Astanada ikinci iclasını keçirmiş iqtisadi əməkdaşlıq üzrə Qazaxıstan-Azərbaycan hökumətlərarası komissiyasının işinin səmərəli olacağına ümidvar olduqlarını bildirdilər.

Cənab Nursultan Nazarbayev dedi ki, biz Azərbaycan şirkətlərinin Qazaxıstan bazarında fəaliyyətinin genişləndirilməsinə kömək etməyə hazırıq. Müştərək müəssisələrin, o

cümlədən kənd təsərrüfatı sahəsində müəssisələrin yaradılmasında əməkdaşlıq da səmərəli ola bilər.

Qazaxıstan rəhbəri siyasi sahədə əməkdaşlıqdan danışaraq vurğuladı ki, hər iki ölkə dünya siyasətinin əksər məsələlərinə münasibətdə oxşar mövqe tutur və BMT, İslam Konfransı Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyəti bunu sübut edir. Qazaxıstan xalqı qitədə təhlükəsizliyin təmin edilməsi üçün universal strukturun - Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQFETM) yaradılması təşəbbüsünün Azərbaycan tərəfindən dəstəklənməsini minnətdarlıqla qarşılayır. Qazaxıstan Prezidentinin fikrincə, Astanada Azərbaycan səfirliyinin açılması respublikalar arasında hərtərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfərinə dəvətə və yüksək qonaqpərvərliyə görə Prezident Nursultan Nazarbayevə minnətdarlığını bildirərək, ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafının Azərbaycan və Qazaxıstan xalqlarının ümumi mənafelərinə uyğun olduğunu, mövcud dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da genişlənəcəyi və möhkəmlənəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Xəzərin statusu barədə Qazaxıstanla Azərbaycan arasında tam razılığın əldə olunması böyük nailiyyətdir və Qazaxıstanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına, Avropaya çatdırılması üçün Azərbaycan çox əlverişli və təhlükəsiz ölkə olacaqdır. Dövlətimizin başçısı əmin olduğunu söylədi ki, yaxın gələcəkdə ölkələrimiz Avropa bazarlarının təbii qazla əsas təchizatçıları olacaqdır.

Azərbaycan Prezidenti humanitar sahədə də əlaqələrin dinamik inkişafından məmnunluğunu bildirərək, hər iki ölkənin mədəniyyət, elm, incəsənət xadimlərinin görüşləri haqqında razılıq əldə edildiyini vurğuladı.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Nümayəndə heyətlərinin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

İlk olaraq, prezidentlər İlham Əliyev və Nursultan Nazarbayev "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamə imzaladılar.

"Azərbaycan hökuməti ilə Qazaxıstan hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında" sazişi Azərbaycanın müdafiə naziri Səfər Əbiyev və Qazaxıstanın müdafiə naziri Muxtar Altınbayev, "Azərbaycan hökuməti ilə Qazaxıstan hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında" sazişi Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev və Qazaxıstanın xarici işlər naziri Qasımcomərd Tokayev, "Azərbaycan hökuməti ilə Qazaxıstan hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" sazişi Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev və Qazaxıstanın təhsil və elm naziri Caksıbek Kulekeyev, "Bakı Şəhər İcra Hakimiyyəti ilə Astana Şəhərinin Akimiyyəti arasında elmi-texniki, ticarət və iqtisadi əməkdaşlıq haqqında" sazişi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Astana Şəhər Akiminin birinci müavini

Sanzubay Yesimov, "Azərbaycan hökuməti ilə Qazaxıstan hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında" proqramı Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu və Qazaxıstanın mədəniyyət naziri Düsen Kaseinov, "Azərbaycanın və Qazaxıstanın hava yolları şirkətləri arasında əməkdaşlıq haqqında" müqaviləni isə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin sədri Cahangir Əsgərov və "Qazaxıstan Hava Yolları" Dövlət Konserninin direktor müavini Almatbek Manboyev imzaladılar.

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Martın 1-də, sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev birgə mətbuat konfransı keçirmişlər.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev mənim dəvətimlə ilk dəfədir ki, Qazaxıstana dövlət səfərinə gəlmişdir. Biz əziz qonaqlarımızı görməyə şadıq.

Qazaxıstanla Azərbaycan arasında həmişə mehriban və qardaşlıq münasibətləri olmuşdur. Xalqlarımızı mədəni-tarixi ümumilik doğmalaşdırır. Dövlətlərimizin müstəqilliyi illərində biz Azərbaycanın sabiq Prezidenti mərhum Heydər Əlirza oğlu Əliyevlə birlikdə çox böyük birgə iş görmüşük. Onun vəfatı ilə əlaqədar Qazaxıstan rəhbərliyi və xalqımız adından bir daha başsağlığı vermək istəyirəm.

İndi yeni dövr başlanır. Azərbaycanın və Qazaxıstanın eyni coğrafi-siyasi vəziyyəti, ümumi vəzifələri və problemləri vardır. Mən əminəm ki, bu səfər münasibətlərimizi yeni səviyyəyə qaldıracaqdır. Bunun üçün heç bir - nə siyasi nə də iqtisadi maneə yoxdur. Biz münasibətlərimizi bütün istiqamətlərdə, o cümlədən neft və qaz kompleksində möhkəmləndirmək barədə razılığa gəldik. Azərbaycan tərəfinin bu sahədə böyük təcrübəsi, yaxşı mütəxəssisləri var və biz birlikdə işləyib böyük nailiyyətlər əldə edə, qarşılıqlı surətdə təcrübə toplaya və yaxşı nəticələr əldə edə bilərik. Biz bu münasibətləri qaydaya salmağa çalışacağıq və Aktau–Bakı enerji dəhlizi işə salındıqdan sonra Qafqaz vasitəsilə beynəlxalq bazarlara alternativ marşrut açа biləcəyik. Görüşdə biz həm də yol-nəqliyyat məsələsinə və əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə bağlı məsələyə toxunduq. Belə razılaşdıq ki, Qafqaz marşrutu vasitəsilə biz neftimizin nəqlini artıra bilərik.

Biz humanitar əməkdaşlıq məsələlərini də müzakirə etdik. Bütün bu məsələlərdə, o cümlədən ATƏT, MDB, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi

qurumlar çərçivəsində beynəlxalq əməkdaşlıq məsələlərində çox oxşar mövqe tuturuq və bir-birimizi dəstəkləyirik.

İmzalanmış sənədlər əməkdaşlığın bütün sahələrində münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmağa və xalqlarımız arasında əlaqələri dərinləşdirməyə kömək etməlidir.

İlham Heydər oğlu, biz Sizi Qazaxıstanda böyük məmnuniyyətlə qəbul edirik. Sizə bu səfərinizdə uğurlar arzulayırıq, səfərinizin uğurlu keçməsi üçün ölkəmizdə hər cür imkan olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Sağ olun, hörmətli Nursultan Abişoviç!

İcazə verin, ilk növbədə, dost və qardaş Qazaxıstana dövlət səfərinə gəlmək barədə dəvətinizə görə Sizə təşəkkür edim. Əminəm ki, bu səfər və onun gedişində imzalanmış sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni dövr olacaqdır.

Ölkələrimiz arasındakı tarixi, dostluq və qardaşlıq münasibətləri dövlətlərimiz müstəqillik əldə etdikdən sonra öz təsdiqini tapmışdır. Nursultan Abişoviç, Qazaxıstanda, əsasən, Sizin liderliyiniz və Azərbaycanda Prezident Heydər Əliyevin liderliyi sayəsində ölkələrimiz demokratik və iqtisadi islahatların həyata keçirilməsi, dövlətlərimizin müstəqilliyinin və regionda təhlükəsizliyin möhkəmlənməsi yolunda böyük uğurlar qazanmışlar. Azərbaycan rəhbərliyinin bugünkü vəzifəsi bu siyasəti, ölkələrimizin və xalqlarımızın yaxınlaşdırılması xəttini davam etdirməkdən ibarətdir. Bundan ötrü xalqlarımızın yaxınlığı, mədəniyyətlərimizin ümumiliyi, iqtisadi zəmin kimi gözəl şərait var. Əminəm ki, bütün bunlar ölkələrimizin bundan sonra da inkişafına kömək edəcək və onlar bir-birinə daha da yaxın olacaqlar. İqtisadiyyatlarımız daha sıx bağlı olacaqdır.

İndi gündəlikdə duran məsələlər nəinki ölkələrimiz arasında münasibətlərə, həm də regionda, bəlkə də, daha böyük miqyasda vəziyyətə təsir göstərəcəkdir. Həyata keçirilən energetika, nəqliyyat, sərmayə layihələri regionda təhlükəsizliyi və əməkdaşlığı təmin etməyə xeyli dərəcədə imkan verəcəkdir. Əlbəttə, Qazaxıstanın energetika layihələrində iştirakı da Xəzər hövzəsindəki enerji ehtiyatlarının işlənilməsi üçün həlledici amildir.

İqtisadi münasibətlərimiz inkişaf edir. Hökumətlərarası komissiyanın keçirilmiş iclasları göstərdi ki, əmtəə dövriyyəsini xeyli artırmağa gözəl imkanlar var. Hökumətlərarası komissiya çərçivəsində humanitar əlaqələr sahəsində razılaşmalar əldə olunmuşdur. Biz xalqlarımızın bir-birini daha yaxşı tanıması üçün mədəniyyət və elm xadimlərimizin Qazaxıstanda, Qazaxıstan xadimlərinin isə Azərbaycanda bu proseslərdə daha fəal iştirakını təmin etmək niyyətindəyik. Biz yaxşı qonşular, qardaşlarıq. Bizim təkcə bir problemimiz var – necə edək ki, münasibətlərimiz daha yaxşı, xalqlarımızın həyatı daha gözəl olsun. Əminəm ki, biz birgə səylərlə, bir-birimizə yardım və kömək göstərməklə buna nail olacağıq.

Möhtərəm Nursultan Abişoviç, dəvətə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Bu, mənim üçün əhəmiyyətlidir, mən bunu çox yüksək qiymətləndirirəm. Sizi əmin et-

mək istəyirəm ki, Prezident Heydər Əliyevin xalqlarımızın yaxınlaşması üçün Azərbaycanda apardığı xətt davam etdiriləcəkdir.

* * *

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Siz Böyük İpək yolu çərçivəsində nəqliyyat dəhlizinin perspektivini necə qiymətləndirirsiniz? İkinci sual, türkdilli ölkələrin ittifaqının yaradılması perspektivini necə təsəvvür edirsiniz?

NURSULTAN NAZARBAYEV: Qazaxıstan Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsini dəstəkləyir. Biz Qafqazdan keçən nəqliyyat dəhlizinin müstəsna əhəmiyyəti olduğunu başa düşürük və bu, bizim üçün də çox vacibdir, çünki enerji daşıyıcılarımızın Azərbaycan ərazisi ilə nəqlinə böyük əhəmiyyət veririk. Hazırda komissiyalarımız bu məsələyə dair danışıqlar aparırlar. Əminəm ki, Qazaxıstanın nefti və qazı Azərbaycandan keçən boru kəmərləri vasitəsilə nəql olunacaqdır. Biz bu məsələləri İlham Heydəroviçlə müzakirə etdik və ilk vaxtlar neftin bir hissəsi Xəzər dənizi ilə tankerlərlə daşına bilər. Hasilatın həcmi 20 milyon tonu keçdikdə isə, boru kəməri barədə düşünmək lazım gələcəkdir.

O ki qaldı türkdilli dövlətlərin əlaqələri çərçivəsində qarşılıqlı münasibətlərimizə, Qazaxıstan bu təşəbbüsü həmişə dəstəkləyir. İndi inteqrasiya prosesləri gedir və dünyada baş verən qloballaşma baxımından bu təşəbbüs xalqlarımızın yaxınlaşmasına kömək edəcəkdir. Ona görə də biz türkdilli ölkələr arasında əməkdaşlıq ideyasını qətiyyətlə dəstəkləyirik.

SUAL: Mənim sualım Azərbaycan Prezidenti İlham Əliyevədir. Siz sahilyanı dövlətlər tərəfindən Xəzərin bölünməsi məsələsinin həlli perspektivlərini necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Hesab edirəm ki, bu məsələnin hərtərəfli həlli üçün çox yaxşı zəmin var. Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya və Rusiya ilə Azərbaycan arasındakı sazişlər beynəlxalq hüquq və beynəlxalq praktika normalarına əsaslanır. Bu ikitərəfli sazişlər çoxtərəfli sazişlərdə də əksini tapa biləcək bütün məsələləri tamamilə əhatə edir. İndi Xəzərin sektorlara bölünməsi prinsipi heç kimdə sual doğurmur. Bu prinsipə lap əvvəldən iki ölkə - Qazaxıstan və Azərbaycan tərəfdar olmuş, sonra digərləri də qoşulmuşlar. Əminəm ki, mövcud prinsiplər hərtərəfli saziş üçün əsas götürülərsə, biz birgə sazişə çox asanlıqla və ağrısız-acısız nail ola bilərik.

SUAL: Cənab Nazarbayev, mənim sualım Dağlıq Qarabağla bağlı problem barədədir. Səhv etmirəmsə, münaqişə təzəcə başlananda Siz Qarabağa getdiniz və bu münaqişənin həllinə kömək etməyə çalışdınız. İndi bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur və Prezidentimiz İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, bu qrupun fəaliyyətində hələlik heç bir irəliləyiş yoxdur. Qazaxıstanın bu münaqişənin tezliklə həll olunmasına kömək etmək fikri varmı?

NURSULTAN NAZARBAYEV: Əlbəttə, mən bu hadisələrə elə başlandığı vaxtdan bələdəm. 1990-cı ilin sentyabrında biz Rusiyanın gələcək prezidenti Yeltsinlə münaqişə zonasına getdik və tərəfləri razılığa gətirməyə cəhd göstərdik. O vaxtdan münaqişə

davam edir və tərəflərə heç də xoşbəxtlik gətirmir. Bundan ermənilər də, Ermənistan dövləti də əziyyət çəkir, Ermənistanın iqtisadi inkişafı, əhalisinin həyat səviyyəsinin yaxşılaşması ləngiyir. Digər tərəfdən, Azərbaycanda bir milyon qaçqın-köçkün doğma torpaqlarını itirməkdən əziyyət çəkir. Qazaxıstanın mövqeyi bundan ibarətdir ki, ərazi bütövlüyü toxunulmazdır və mövcud sərhədlər təsdiq olunmuşdur, özü də bu fikir MDB-nin ilk sənədində və bütün beynəlxalq sənədlərdə öz əksini tapmışdır. MDB-də hamı belə bir prinsiplə razılaşmışdır ki, respublikaların SSRİ dövründəki mövcud inzibati sərhədləri tam razılaşdırılmışdır. Odur ki, biz davakar separatizmin hər cür təzahürünün əleyhinəyik, ərazi bütövlüyü prinsipinə tərəfdarıq. Bu barədə Birləşmiş Millətlər Təşkilatının sənədləri var, ATƏT-in Minsk qrupu da bununla məşğuldur. Lakin xalqlar özləri çıxış yolunu tapmalıdırlar. Axı, qonşunu seçmirlər. Buna görə də hər iki tərəf gələcək nəsillər naminə bu məsələdə razılığa gəlməlidir. Biz isə, - buna ehtiyac olarsa, - öz tərəfimizdən münaqişənin sülh yolu ilə həllinə kömək etməyə həmişə hazırıq. Mən bu prosesə dəfələrlə qoşulmuşam, prosesə təsir göstərmək üçün müxtəlif tərəflərlə söhbət aparmışam. Zənn edirəm ki, indi hər iki dövlətin prezidentləri bu məsələnin məqbul həllini tapacaqlar.

Bu gün Qazaxıstan kimi, Azərbaycan da yaxşı sürətlə inkişaf edir. Bizdə ÜDM-in illik artımı 11 faizdən çoxdur. Azərbaycanın da imkanları çoxalır və bu imkanlar mövcud olan məsələlərin sülh yolu ilə həlli üçün istifadə edilə bilər. Millətlərarası münaqişələri tez həll etmək qeyri-mümkündür, məsələnin tərəflər üçün məqbul həllini tapmaq üçün tədricən irəliləmək lazımdır. Mən tərəflərə bu məsələnin tezliklə həll olunmasını arzulayıram.

SUAL: İlham Heydər oğlu, regional təhlükəsizliyin təmin olunmasında Qazaxıstanın rolunu necə qiymətləndirirsiniz? Bir də, əgər mümkünsə, hərbi sahədə əməkdaşlıq haqqında bu gün imzaladığınız saziş barədə bir neçə kəlmə deyin. Bu əməkdaşlıq konkret olaraq özünü nədə göstərəcəkdir?

İLHAM ƏLİYEV: Qazaxıstan regionda əsas ölkədir. Təbiidir ki, ölkənin inkişaf sürətindən çox şey asılıdır. Regionda sabitliklə bağlı məsələlər, təəssüf ki, mürəkkəbdir. Asiya və Qafqaz regionlarında xeyli həll olunmamış məsələlər, ərazi iddiaları, habelə yeni potensial münaqişə ocaqları mövcuddur. Əlbəttə, Qazaxıstan rəhbərliyinin regionda sülhə nail olunmasına yönəldilmiş ardıcıl və müdrik siyasəti təhlükəsizliyin qorunub saxlanmasına xeyli kömək edir. Mən əminəm ki, gələcəkdə Qazaxıstanın potensialı daha artdıqca, - bunun üçün isə hər cür imkan vardır,- bu ölkə yaxın vaxtlarda çox qüdrətli bir dövlətə çevriləcəkdir. Təbiidir ki, regional xarakterli məsələlərin, o cümlədən regional təhlükəsizlik problemlərinin həllində də Qazaxıstanın rolu artacaqdır. Biz buna yalnız sevinə bilərik. Qazaxıstan bizim üçün dost və qardaş ölkədir. Qardaşımız nə qədər güclü olsa, biz də bir o qədər güclü olacağıq. Əminəm ki, gələcəkdə regional məsələlərdə və dünya məsələlərində Qazaxıstanın rolu və əhəmiyyəti artacaq və bu da regionda yaşayan bütün xalqların xeyrinə olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Martın 1-də, Astanaya səfərin birinci gününün sonunda "Səltənət" sarayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edildi.

Salona toplaşanlar Azərbaycan dövlətinin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Prezidentlər qəbulda nitq söylədilər.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ

- Azərbaycan Respublikasının hörmətli cənab Prezidenti!

Hörmətli Mehriban xanım!

Xanımlar və cənablar!

İcazə verin, Azərbaycandan gəlmiş qardaşlarımızı Astana şəhərində bir daha salamlayım. Ölkələrimizin müstəqiliyyə qovuşduğu gündən bəri ötən vaxt bütöv və çox böyük bir dövrü əhatə edir. Bu dövrdə hər şey - kədər və şübhələr də, sevinc və məyusluq da olmuşdur. Bu gün deyə bilərəm ki, Qazaxıstan və Azərbaycan dünya birliyində öz layiqli yerlərini tapmışlar. Əminəm ki, Sizin ilk səfəriniz Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığı dərinləşdirmək üçün yaxşı əsas olacaqdır.

Ticarət-iqtisadi münasibətlərin inkişafı üçün ölkələrimizin böyük potensialı var. Biz mineral ehtiyatlarımız, xalqlarımızın mentaliteti baxımından da oxşarıq. Bizi çox şey - tranzit ərazilər də, xalqlarımızın ünsiyyət-ülfət saxlamaq arzusu da birləşdirir. Əminəm ki, bünövrəsini bu gün qoyduğumuz gələcəkdə Qazaxıstan və Azərbaycan, xalqlarımız bir-birinə daha yaxın olacaqlar. Xalqlarımızın bir ümumi xüsusiyyəti var. Biz hər bir kəsi böyük səmimiyyətlə qarşılayırıq, biz qonaqpərvərik. Bu isə xalqlarımızın ümumi ənənəsidir.

Biz hamı ilə son tikəmizi bölüşdürmüş, ehtiyacı olanlara sığınacaq vermiş, bir-birimizə kömək etmək üçün elliklə ayağa qalxmış, yeni həyat quruculuğunun əvvəlində tab gətirmişik. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi deyirdi: "Əsl dost həmişə vaxtında köməyə gəlir. Dostun sənin arxa-dayağındır". Mən əminəm ki, bizim yeni XXI əsrdə Qazaxıstan və Azərbaycan tərəfdaşlığı xeyli möhkəmləndirəcəklər. Ölkələrimiz arasında mövcud olan ənənəvi dostluq münasibətləri indi xüsusi məna kəsb etmişdir və biz bunu yüksək qiymətləndiririk. Ölkələrimiz bir dənizin - Xəzər dənizinin iki sahili kimidir.

Burada iştirak edənlərin hamısına xoşbəxtlik və uğurlar iki qardaş dövlətin və xalqların tərəqqisi naminə ən cəsarətli planlarının həyata keçməsini arzulayıram. Bugünkü görüşlər, danışıqlar, imzalanmış sənədlər və Azərbaycan Prezidentinin Qazaxıstana ilk dövlət səfəri belə bir ümid yaradır ki, əməkdaşlığımızın dərinləşməsi və inkişafı ilə bağlı bütün arzularımız və fikirlərimiz həyata keçəcəkdir.

İlham Heydər oğlu, Qazaxıstan Sizin Vətəninizdir, Sizin dostunuzdur. Biz tez-tez görüşəcək, fikir mübadiləsi aparacaq, bir-birimizi dəstəkləyəcəyik.

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin şərəfinə, onun gözəl xanımının şərəfinə, Qazaxıstan-Azərbaycan dostluğu şərəfinə, mehriban qonşuluğumuzun və qardaşlığımızın şərəfinə badə qaldırım.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Qazaxıstan Respublikasının Prezidenti Nursultan Abişoviç Nazarbayev!

Hörmətli Dariqa xanım!

Əziz dostlar!

Qazaxıstan torpağında mənə və bütün nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan Prezidenti kimi Qazaxıstana ilk dövlət səfərimin mənim üçün böyük əhəmiyyəti var. Ölkələrimiz bir-birinə böyük hörmət bəsləyirlər, xalqlarımız ta qədimdən bir-birinə böyük məhəbbətlə yanaşmışlar.

Təbiidir ki, qardaş Qazaxıstan torpağında olarkən mən sevinc hissi keçirirəm. Bu, təkcə bizim aramızda yüksək səviyyədə qarşılıqlı anlaşmanın, siyasi dialoqun, iqtisadi əməkdaşlığın, bütövlükdə, müxtəlif sahələrdə sıx əlaqələrin olması ilə bağlı deyildir. Burada mən özümü evimdəki kimi hiss edirəm. Çünki mənim burada ən səmimi hörmət hissləri bəslədiyim qardaş və dostlarım vardır.

İkitərəfli və regional münasibətlərdə bəzən çox şey rəhbərlərin, liderlərin münasibətlərindən asılı olur. Ölkələr arasında münasibətləri daha çox dövlətlərin liderləri arasında münasibətlər müəyyən edir. Tam əminliklə deyə bilərəm ki, Qazaxıstan və Azərbaycan arasında bugünkü münasibətlər vaxtilə Nursultan Abişoviç ilə Heydər Əlirza oğlu arasında olan münasibətlərə tam uyğundur. Azərbaycanın yeni seçilmiş prezidenti kimi mən bu münasibətlərin inkişaf etməsi, möhkəmlənməsi və keyfiyyətcə yeni səviyyəyə qalxması üçün əlimdən gələni edəcəyəm. Bu, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğundur. Bizim gücümüz birliyimizdədir. Bizim müstəqilliyin möhkəmləndirilməsi, bütün sahələrdə tərəqqiyə nail olunması kimi oxşar problemlərimiz var, olmuşdur və olacaqdır. Sevindirici haldır ki, Qazaxıstan kimi, Azərbaycan da bu vəzifələrin öhdəsindən uğurla gəlir. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz bundan sonra da yeni layihələrlə, ideyalarla zənginləşəcəkdir. Qarşımızda çox böyük perspektivlər var: ölkələrimiz mədəni və iqtisadi potensiallarını birləşdirərək, özlərini regional liderlər kimi təsdiq edə bilərlər.

Prezident seçilməyimdən sonra məni Qazaxıstana dövlət səfərinə dəvət etdiyinə görə hörmətli Nursultan Abişoviç Nazarbayevə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu səfər zamanı olduqca səmərəli danışıqlar aparılmış, görüşlər keçirilmişdir. Bu, dostların görüşü idi. Əlbəttə, mən Sizi tezliklə Azərbaycanda görmək istərdim. Sizi ölkəmizə səfərə dəvət edirəm və əminəm ki, gələcək əlaqələrimiz bizi daha da yaxınlaşdıracaqdır.

Bu badəni, qardaş Qazaxıstanın, onun Prezidenti, Azərbaycan xalqının dostu Nursultan

Abişoviç Nazarbayevin və hörmətli Dariqa xanımın sağlığına qaldırmaq istəyirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ ORALBAY ABDIKARİMOV İLƏ GÖRÜŞÜ

Martın 1-də Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri çərçivəsində ölkə parlamenti Senatının sədri Oralbay Abdıkarimov ilə görüşmüşdür.

Senatın sədri ali qonağı salamlayaraq Prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı verdi və dedi ki, Azərbaycan xalqının sədaqətli oğlunun xatirəsi qazaxıstanlıların qəlbində əbədi yaşayacaqdır.

Görüşdə Senatın sədri Qazaxıstan parlamentinin fəaliyyətindən, hazırda müzakirə olunan yeni qanun layihələrindən danışdı. Hər iki ölkənin demokratik təsisatlarının inkişafı barədə açıq fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev qanun yaradıcılığı sahəsində Qazaxıstanın təcrübəsini yüksək qiymətləndirdi və bildirdi ki, bu təcrübə Azərbaycan üçün çox faydalıdır. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bütün sahələrdə yaranmış qarşılıqlı münasibətlərin səviyyəsindən razı qaldığını söyləyərək dedi ki, əminəm, gələcəkdə Azərbaycan Qazaxıstanın enerji ehtiyatlarının beynəlxalq bazara daşınması üçün etibarlı nəqliyyat qovşağı olacaqdır.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu səfərdən sonra parlament üzvləri, mədəniyyət xadimləri, ziyalılar arasında əlaqələr genişlənəcəkdir. O, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələlərində Qazaxıstanın tutduğu prinsipial mövqeyə görə minnətdarlığını bildirdi.

İkitərəfli münasibətlərin hüquqi bazasının Azərbaycanla Qazaxıstan arasında imzalanmış 68 sazişə və digər qanunvericilik aktlarına əsaslandığını xatırladan Oralbay Abdıkarimov dedi ki, bunda ölkələrimizin qanunverici orqanları nümayəndələrinin də böyük xidməti var.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində geniş fikir mübadiləsi oldu.

BAŞ NAZİRLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də bu ölkənin Baş naziri Danial Əhmədov ilə görüşmüşdür.

Qazaxıstan hökumətinin binasında keçirilən görüşdə Baş nazir ali qonağı salamlayaraq bildirmişdir ki, müstəqillik illərində əsası Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulmuş Qazaxıstan-Azərbaycan münasibətləri xüsusilə iqtisadi sahədə çox uğurla inkişaf edir. Neft-qaz layihələri çərçivəsində əməkdaşlığın geniş perspektivləri mövcuddur.

D.Əhmədov Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan layihəsinə qoşulmaq və Bakı-Aktau nəq-

liyyat dəhlizinin tezliklə başa çatdırılması istiqamətlərində işlər aparıldığını, başçılıq etdiyi nümayəndə heyətinin mart ayında Azərbaycana səfəri çərçivəsində hökumətlərarası komissiyanın işlədiyi bir sıra məsələlərin daha da dəqiqləşdiriləcəyini vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfərindən çox razı qaldığını, Prezident Nursultan Nazarbayevlə keçirilən görüş zamanı nəqliyyat sahəsində, mal dövriyyəsinin artırılması və enerji daşıyıcılarının nəqli sahəsində tam razılıq əldə olunduğunu söylədi və dedi ki, gələcəkdə Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə düşdükdən sonra Qazaxıstan qazının bu kəmər vasitəsilə Avropaya nəql edilməsi də nəzərdə tutulur. Əminəm ki, yaxın gələcəkdə Qazaxıstan və Azərbaycan Avropaya qaz nəqli üzrə əsas ölkələr olacaqdır.

Azərbaycan-Qazaxıstan hökumətlərarası komissiyasının işindən razılığını və onun fəaliyyətinin davam etdirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev Qazaxıstan hökumət nümayəndə heyətinin Bakıya səfərinin böyük əhəmiyyəti olacağını bildirdi.

Görüşdə hər iki ölkənin iqtisadi potensialının gələcək əməkdaşlıq üçün geniş imkanlar yaratdığı vurğulandı, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

LEV QUMİLYOV ADINA QAZAXISTAN DÖVLƏT AVRASİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri çərçivəsində martın 1-də Astanadakı Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetində olmuşdur.

Dövlətimizin başçısını universitetin binası önündə bu ali məktəbin rəhbərləri səmimiyyətlə və mehribanlıqla qarşıladılar.

Prezident İlham Əliyev universitetdə türkdilli xalqların mədəniyyəti və əlyazmaları muzeyi ilə ətraflı tanış oldu. Azərbaycan Prezidentinə məlumat verildi ki, muzeydə mədəniyyət nümunələri, o cümlədən əlyazmaları, Qədim Türk Xaqanlığının abidələri toplanmışdır. Muzeyin eksponatları bu mədəniyyət ocağına gələn bir çox dövlətlərin rəhbərlərində böyük maraq doğurur. Belə bir məlumat da verildi ki, Xaqanlığın banilərinin abidəsinin üçüncü nüsxəsini Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə Yaponiya heykəltəraşları yaratmışlar. Bu muzeydə XI əsrin məşhur filoloq-türkoloqu Mahmud Qaşqarinin "Divani-lüğət-it-türk", orta əsrin filosof şairi Yunus Balasaqunlunun əsərləri, habelə müxtəlif dövr əlifbalarının ilkin variantları saxlanılır.

Azərbaycan dövlətinin başçısı bu maraqlı muzeylə tanışlıqdan məmnunluğunu bildirərək qeyd etdi ki, bu qədim ərazilər türk tayfalarının ilk yurdları olmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin bu ali məktəbin müəllim və tələbələri ilə görüşü oldu.

Görüşü universitetin rektoru SƏRSƏNGALİ ABDEMANAFOV açdı:

- Hörmətli İlham Heydər oğlu!

Axşamınız xeyir, əziz qonaqlar!

Avrasiya milli universitetinin kollektivi adından Azərbaycan Respublikasının Prezidentini bu tarixi salonda salamlayıram. Burada bir çox dövlət xadimləri və ictimai xadimlər çıxış etmişlər. Biz çox şadıq ki, bu gün qonağımız Sizsiniz - dost və qardaş Azərbaycanın Prezidenti İlham Heydər oğludur. Xoş gəlmisiniz!

Hörmətli İlham Heydər oğlu, Siz universitetlə qısa tanış oldunuz və artıq bilirsiniz ki, Avrasiya Universiteti Qazaxıstan elitasının yeni nəslini hazırlamaq üçün Prezident Nursultan Nazarbayevin fərmanı ilə yaradılmışdır. Universitetimiz bu gün aparıcı ali məktəbdir və burada ölkənin müxtəlif regionlarından istedadlı gənclər təhsil alırlar. Qazaxıstan məktəblərini qızıl medalla bitirənlərin dörddə bir hissəsi Avrasiya Universitetinin tələbəsi olmuşdur. Kollektivimiz bununla fəxr edir. Universitetin fəaliyyətinin əsasını elə əvvəldən Avrasiya ideyası, inteqrasiya ideyası təşkil etmişdir. Prezident universitetimizə Avrasiyanı öyrənən görkəmli alim, tarixçi-türkoloq Lev Nikolayeviç Qumilyovun adını vermişdir. Bu il universitetin 8 yaşı tamam olur. İndi olduğumuz korpus 2000-ci ildə ölkə Prezidentinin iştirakı ilə açılmışdır. Bir il bundan əvvəl yenə də Prezident Nazarbayevin iştirakı ilə daha bir müasir tədris və laboratoriya korpusu istifadəyə verilmişdir. Qazaxıstan hökuməti universitetin maddi-texniki bazasının beynəlxalq standartlara uyğun olmasına çalışır. Bizim üçün hər cür şərait yaradılır.

Hörmətli İlham Heydəroviç, Sizin zəngin tərcümeyi-halımızda ali məktəbdə - yüksək nüfuzlu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda iş dövrü də var. Ona görə də müasir təhsil problemləri Sizə tanışdır. Azərbaycan Respublikasının Prezidenti kimi Siz mədəniyyətin, elm və təhsilin inkişafına böyük diqqət yetirirsiniz. 2003-cü il oktyabrın 15-də prezident seçkilərində qazandığınız qələbə bütün qardaş Azərbaycan xalqının qələbəsidir.

Möhtərəm Prezident, icazə verin, xoş bir vəzifəni yerinə yetirim və univresitetin Elmi şurası adından Sizin L.Qumilyov adına Avrasiya Universitetinin fəxri professoru adına layiq görüldüyünüzü elan edim.

* * *

Universitetin rektoru Sarsenqali Abdemanapov görüş iştirakçılarının alqışları altında fəxri professor diplomunu və mantiyanı dövlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

İlk növbədə, belə yüksək qiymətə görə - fəxri professor adına layiq görüldüyümə görə Avrasiya universitetinin rəhbərliyinə təşəkkür etmək istərdim. Qeyd edildiyi kimi, tərcümeyi-halımda ali məktəbdə dərs dediyim dövr olmuşdur və təbii ki, bu dövr mənə əzizdir. Çünki gənc nəsillə ünsiyyət, öz bilik və təcrübəni ona öyrətmək xeyirxah, eyni zamanda, çox xoş işdir. Ona görə də bu gün belə yüksək şərəfə layiq görülməyim mənə ikiqat xoşdur. Sizi əmin edə bilərəm ki, bu fəxri adı doğruldacağam, artıq indən belə bütün işlərimdə Avrasiya universitetini də layiqincə təmsil edəcəyəm.

Bu gün mənim qardaş Qazaxıstana səfərim başlanmışdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyəyə çatmışdır. Yüksək səviyyədə siyasi məsləhətləşmələr aparılır, ikitərəfli məsələlər, regional siyasət problemləri barəsində qarşılıqlı anlaşma var. Bir çox beynəlxalq məsələlərin həllinə yanaşmalarımız eynidir. Qazaxıstanla Azərbaycan dost, qardaş, tərəfdaşdırlar. Bunun nəticəsi olaraq ölkələrimizin yaxınlığı, regionda səylərimizin əlaqələndirilməsi sabitlik, sülh və xalqlarımızın tərəqqisi üçün möhkəm təminatdır.

Başlıca vəzifə bundan ibarətdir. Biz vətəndaşlarımızın daha yaxşı yaşamasını təmin etməli, müstəqilliyimizi daha da möhkəmlətməli, onu dönməz etməliyik.

Qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində ölkələrimizi həyata keçirilən və keçiriləcək böyük layihələr bir-birinə bağlayır. Mən məmnunam ki, bu gün hörmətli Qazaxıstan Prezidenti Nursultan Abişoviç Nazarbayevlə keçirdiyimiz görüşlər və danışıqlar çərçivəsində enerji dəhlizi problemləri, neft və qaz layihələri, nəqliyyat və kommunikasiya proqramları sahəsində əməkdaşlıq barədə baxışlarımızda tam uyğunluq əldə edildi. Qazaxıstana dost və qardaş ölkə olan Azərbaycan Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəql ediləcəyi etibarlı və təminatlı məkana çevriləcəkdir. Bu layihələr həm ölkələrimiz üçün, həm də, bütövlükdə, region üçün, bəlkə də, bütün dünya üçün əhəmiyyətlidir. Çünki Qazaxıstanda və Azərbaycanda həyata keçirilən layihələr dünyada çox iri energetika layihələridir.

Ölkələrimizi birləşdirən bir də budur ki, iqtisadi islahatların səmərəliliyinin sürəti baxımından - bugünkü görüşlərimizdə bu da qeyd edildi, - Qazaxıstan və Azərbaycan bütün MDB məkanında yəqin ki, liderlərdir. İqtisadiyyatda, sosial sahədə, iqtisadi münasibətlərin sərbəstləşdirilməsi çərçivəsində bütün islahatlar artıq çox ciddi nəticələrə gətirib çıxarmışdır. Ölkələrimiz öz iqtisadi potensialını, demək olar, eyni sürətlə artırırlar. Əgər iqtisadiyyatın və ümumi daxili məhsulun artım dinamikası və statistikasını izləsək, görərik ki, Qazaxıstan və Azərbaycan hamıdan öndə, sanki çiyin-çiyinə irəliləyir.

Bu, xarici sərmayəçilərin ölkələrimizə yönəltdikləri birbaşa sərmayələrin adambaşına həcmlərinə də aiddir. Qazaxıstan və Azərbaycan burada da təkcə MDB çərçivəsində deyil, hətta Şərqi Avropanın bir çox ölkələri arasında iki öncül yeri tuturlar. Bu, ilk növbədə, onu göstərir ki, ölkələrimizin rəhbərliyinin iqtisadiyyatı sərbəstləşdirmək xətti artıq öz bəhrələrini vermişdir. Ən başlıcası budur ki, ölkələrimizdə iqtisadi uğurun əsas amillərindən biri, yəni ictimai-siyasi sabitlik mövcuddur. Sözsüz ki, bu sabitlik olmasaydı, sərmayəçilərdən heç biri öz kapitalı ilə risk etməzdi və ölkələrimizin iqtisadiyyatına milyardlarla dollar qoymazdı. Bunda Qazaxıstan Prezidenti Nursultan Abişoviç Nazarbayevin və Azərbaycan dövlətinin inkişafının ən mürəkkəb dövründə ölkəmizə 10 il başçılıq etmiş Prezident Heydər Əlirza oğlu Əliyevin böyük xidməti var.

Ölkələrimiz bu uğurlara məhz iki liderin səyləri ilə nail olmuşlar. Əlbəttə ki, yeni seçilmiş Prezident kimi mənim vəzifəm bu xətti davam etdirməkdir. Çünki bu, real və yeganə düzgün siyasətdir, öz düzgünlüyünü sözdə deyil, işdə sübut etmişdir.

Ölkələrimiz arasında humanitar sahədə çox sıx qarşılıqlı əlaqələr mövcuddur. Bizi ümumi tarix, mədəniyyət, mənşə, dəyərlər birləşdirir. Əlbəttə ki, bütün bu amillər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün çox ciddi və möhkəm təməldir. Artıq bu gün mədəniyyət, elm xadimlərinin, digər ziyalıların bir-birinin işlərində daha fəal iştirak etmələri haqqında razılaşmalar əldə olunmuşdur.

Qarşılıqlı səfərlər, mədəniyyət günləri nəzərdə tutulur. Düşünürəm ki, onlar xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Təbii ki, çətinliklər də, həllini gözləyən çoxsaylı məsələlər də var. Azərbaycana gəldikdə, bizim üçün əsas çətinlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalmasıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazi bütövlüyü pozulmuşdur. Azərbaycan ərazilərinin 20 faizi indiyədək Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu təcavüz nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Təbii ki, bu münaqişənin nizama salınması prosesinin uzanması bizi çox narahat edir. Təəssüflər olsun, vasitəçilik fəaliyyəti göstərmək mandatı olan ölkələrin səyləri real nəticələrə gətirib çıxarmamışdır. Ümidvarıq ki, bu münaqişə həll ediləcəkdir, lakin onun həlli ancaq hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normaları gözlənilməklə, yəni, Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa edilməsi, bütün işğalçı qüvvələrin ərazilərimizdən çıxarılması və qaçqın-köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtması təqdirində mümkündür. Fürsətdən istifadə edərək, bu məsələdə prinsipial mövqe tutduğuna görə, Qazaxıstan rəhbərliyinə bir daha təşəkkür və minnətdarlığımızı bildirmək istəyirəm. Təcavüzkar separatizm siyasəti pisləniliir və Prezident Nursultan Abişoviç Nazarbayevin bugünkü bəyanatı bir daha göstərir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində Qazaxıstanın prinsipial mövqeyi dəyişməz qalır. Biz buna görə çox minnətdarıq.

Ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bir cəhəti də vardır və zənnimcə, biz burada, heç də sadə olmayan məsələləri necə həll etməyin mümkünlüyü barədə başqalarına nümunə göstəririk. Qazaxıstanla Azərbaycan arasında Xəzər dənizinin sektorlara bölünməsinə dair saziş əldə olunması iki ölkənin belə məsələləri həll edə bilməsinə sübutdur. Təəssüf ki, Xəzər dənizinin bölünməsi məsələsinin tammiqyaslı həlli hələlik tapılmamışdır. Lakin əgər Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında artıq mövcud olan sazişlər əsas kimi götürülsə, zənnimcə, biz Xəzər dənizinin milli sektorlara bölünməsində tezliklə ümumi razılığa gələ bilərik. Biz bunu istəyirik və düşünürəm ki, Xəzər hövzəsinin bütün qalan ölkələri də istəyir. Bununla belə, əminliklə deyə bilərəm ki, hətta Xəzərin statusunun qlobal planda həll edilməməsi də xarici sərmayəçilərin dənizin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə milyardlarla dollar vəsait qoymasına mane olmamışdır. Lakin əlbəttə, regionda təhlükəsizliyi möhkəmləndirmək üçün Xəzərin statusunun bütün sahilyanı dövlətlər tərəfindən həlli çox müsbət amil ola bilərdi.

Bu gün iqtisadi əməkdaşlığın sürətləndirilməsi məsələləri də müzakirə olundu və bu da, öz növbəsində, ölkələrimiz arasında münasibətlərin daha sıx olmasına gətirib çıxaracaqdır. Artıq konkret təkliflər və layihələr vardır və onlar yaxın vaxtlarda ölkələrimiz arasında əmtəə dövriyyəsini xeyli artırmağa imkan yaradacaqdır. Müvafiq qurumlar bu istiqamətdə fəal işləyirlər və əminəm ki, yaxın vaxtlarda iqtisadi sahədə daha böyük fəallıq baş verəcəkdir. Bir-birimizə təklif etməli çox şey, məsələn, hər iki ölkənin ehtiyac duyduğu mallar vardır. Əminəm ki, lazımi infrastruktur yaradılarsa və müəyyən tədbirlər görülərsə, yaxın vaxtlarda biz bu sahədə də böyük tərəqqinin şahidi olacağıq.

Sizin vaxtınızdan sui-istifadə etmək istəməzdim. Qarşılıqlı münasibətlərimizin hər sa-

həsində hadisələrin yalnız müsbət inkişafını görürük. Bu gün elə bir məsələ yoxdur ki, ölkələrimizin münasibətləri bir-birindən fərqlənsin, elə bir problem yoxdur ki, bizi onun həlli üzərində fəal surətdə işləməyə vadar etsin. Yalnız bir problem vardır – necə edək ki, bu münasibətlər dolğunlaşsın, möhkəmlənsin və qarşılıqlı surətdə faydalı istiqamətə yönəlmiş yeni qərarların qəbul edilməsinə gətirib çıxarsın.

Əminəm ki, bütün ölkələr arasında münasibətlər Qazaxıstan ilə Azərbaycan arasındakı kimi səmimi dostluq, qardaşlıq münasibətləri olsaydı, dünyada əmin-amanlıq, təhlükəsizlik, firavanlıq hökm sürərdi. Biz istəyirik ki, regionumuz qəti surətdə sülh və təhlükəsizlik zonasına çevrilsin. Biz istəyirik ki, vətəndaşlarımız sülh şəraitində yaşasınlar, ölkələrimizin indiki və gələcək nəsillərini heç nə təhdid etməsin.

Mənə belə yüksək ad verdiyinizə görə bir daha Sizə təşəkkürümü bildirirəm. Burada, Qazaxıstanda yenidən görüşəcəyimizə ümid bəsləyir, universitetin professoru kimi həmkarlarımı Azərbaycana dəvət etmək istəyirəm. Sizinlə görüşməyə və əlaqələrimizi davam etdirməyə çox şad olarıq.

Bir daha çox sağ olun.

* * *

Sonda universitetin rektoru SARSENQALİ ABDEMANAPOV dedi:

- Cənab Prezident, maraqlı çıxış üçün çox sağ olun. Biz universitetimizdə yaranmış ənənəni davam etdirərək, digər dövlət başçılarına olduğu kimi, Sizə də Avrasiya universitetinin medalını təqdim etmək istərdik. "Qızıl döyüşçü" adlanan bu medal Avrasiyanın və daim irəliyə – Şərqdən Qərbə hərəkətin rəmzidir.

Görüş iştirakçılarının gurultulu alqışları altında "Qızıl döyüşçü" medalı dövlətimizin başçısına təqdim olundu.

Prezident İlham Əliyev universitetə Azərbaycan rəssamı Mahmud Tağıyevin "Dədə Qorqud" tablosunu hədiyyə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN "XƏBƏR" İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfərinin sonunda "Xəbər" informasiya agentliyinin müxbirinə müsahibə vermişdir.

SUAL: İlham Heydəroviç, Sizin Qazaxıstana dövlət səfəriniz təxminən bir saatdan sonra başa çatır. Bu səfərin əsas yekunlarından, xüsusən neft-qaz sahəsində əməkdaşlıqdan qısaca danışa bilərsinizmi? Bakı-Tbilisi-Ceyhan layihəsində Qazaxıstanın iştirakı barədə nə deyə bilərsiniz?

CAVAB: Səfər çox uğurlu keçdi. Qazaxıstan Prezidenti Nursultan Abişoviç Nazarbayevlə, digər rəsmi şəxslərlə aparılmış danışıqlardan çox məmnunam. Biz ikitərəfli əməkdaşlığın bütün məsələləri barədə, regional məsələlər haqqında fikir mübadiləsi apardıq. Baxışlarımız tam uyğun gəlir.

Qazaxıstanla Azərbaycan dost və qardaş ölkələrdir və çox fəal surətdə qarşılıqlı fəaliy-

yət göstərirlər. İndi başlıca vəzifəmiz iqtisadi münasibətləri inkişaf etdirmək, əmtəə dövriyyəsini artırmaqdır. Bundan ötrü real imkanlar var.

Təbii ki, danışıqların və görüşlərin əsas mövzularından biri energetika siyasətimiz idi. Qazaxıstan və Azərbaycan öz enerji ehtiyatlarını fəal inkişaf etdirir və adambaşına xarici sərmayələrin həcminə görə MDB ölkələri arasında liderlərdir. Hər iki dövlətin mövcud imkanlarından və potensialından daha dolğun istifadə edilməlidir. Əlbəttə, Bakı-Tbilisi-Ceyhan layihəsində Qazaxıstanın iştirakı həm Azərbaycanın, həm də Qazaxıstanın mənafelərinə uyğun olacaqdır və ümumən, regional təhlükəsizliyi möhkəmləndirəcəkdir. Bu gün Qazaxıstan tərəfinin öz enerji ehtiyatlarının - neftin və gələcəkdə, ola bilsin, qazın bizim şəbəkələrimiz vasitəsilə nəql olunması üçün infrastrukturumuzdan istifadə etmək istəyi var. Biz isə öz tərəfimizdən, Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql olunması üçün hər cür şərait yaratmağa hazırıq.

SUAL: Müstəqil Dövlətlər Birliyində Qazaxıstanın müxtəlif sahələrdə islahatlarının müsbət təcrübəsindən çox danışırlar. Hansısa islahat Sizi maraqlandırdımı və bundan Azərbaycanda istifadə edilə bilərmi?

CAVAB: Bu, doğrudan da, belədir. Mənə əvvəllər də məlum idi ki, Qazaxıstan iqtisadi islahatların sürətinə görə MDB məkanında liderdir. Lakin iqtisadi islahatlar, özəlləşdirmə və iqtisadiyyatın bazar məcrasına yönəldilməsi Azərbaycanda da çox fəal həyata keçirilir.

Bu gün bizim ÜDM-in 70 faizindən çoxunu özəl bölmə verir. Təbiidir ki, ölkələrimizin bu istiqamətdə ümumi cəhətləri çoxdur. Lakin elə sahə vardır ki, biz Sizin təcrübənizi öyrənmək istərdik, Prezident Nursultan Abişoviç Nazarbayevlə və Baş nazirlə görüşlərimizdə də bu barədə söhbət getmişdir. Bu, energetika sahəsində islahatlara aiddir. Azərbaycanda bu sektorda hələlik müəyyən problemlər - xüsusilə ödəməmələr, enerji ehtiyatlarının qiymətlərinin tarazlaşdırılmaması - mövcuddur. Biz bu sahədəki təcrübədən öyrənməyi çox istərdik.

Burada mənə həmçinin aydın oldu ki, Qazaxıstanda pensiya islahatları çox fəal keçirilmişdir. Özəl pensiya fondları yaradılmışdır və əslində, bu yük dövlətin üzərinə düşmür. Azərbaycanda hələlik belə deyildir və biz Qazaxıstanın təcrübəsi ilə çox maraqlandıq. Biz razılaşdıq ki, mütəxəssislərimiz buraya gəlib həmin təcrübəni öyrənsinlər və biz də onu tətbiq edə bilək. Bütövlükdə, digər istiqamətlərdə, zənn edirəm ki, müxtəlif səviyyələrdə əlaqələrimiz nə qədər çox olsa, daha yaxşı qarşılıqlı fəaliyyət göstərəcək və bir-birimizə kömək edəcəyik.

SUAL: Növbəti sual beynəlxalq siyasət haqqındadır. Vahid iqtisadi məkanın perspektivlərinə necə baxırsınız və buna hansı ölkələr qoşula bilər?

CAVAB: Bu barədə danışmaq mənim üçün çətindir. Qazaxıstanın təşəbbüsündən xəbərimiz var və əlbəttə, onu alqışlayırıq. Hər şey iqtisadi amillərdən asılı olacaqdır. İş belə gətirib ki, Sovet İttifaqı dağıldıqdan sonra MDB ölkələri ağır vəziyyətdən təkbaşına çıxmışlar. Hərə bacardığı kimi çıxmışdır, birinin uğuru çox, digərinin az olub, lakin bütövlükdə ölkələrin əksəriyyətində müstəqilliyin və iqtisadi potensialın təşəkkül tapması və möhkəmlənməsi prosesi artıq başa çatmışdır.

Təbiidir ki, bu gün qarşıda yeni vəzifələr - öz məqsədlərinə nail olmaq üçün səyləri nə-

cə birləşdirmək vəzifələri durur. Bu baxımdan vahid iqtisadi məkan barədə Qazaxıstanın və digər ölkələrin irəli sürdükləri təşəbbüslər mövcuddur. Azərbaycanda buna maraqla yanaşırlar, biz bu təşəbbüsləri öyrənirik. Əlbəttə, əgər iqtisadi mənafelərimizə uyğun olarsa, biz bu təşəbbüslərdə iştirak edəcəyik.

SUAL: Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olmasının mümkünlüyü müzakirə edilirmi?

CAVAB: Xeyr, bunun mümkünlüyü müzakirə olunmur və bu mövzuda danışıqlar aparılmır. Ümumiyyətlə, heç bir yenilik yoxdur və əlavə heç nə deyə bilmərəm. Siz bilirsiniz ki, Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır və ərazilərimizin bir hissəsi – 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir. Əlbəttə, Ermənistanın və Azərbaycanın bir müdafiə sazişində və təşkilatında olması yolverilməzdir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvüdür, Azərbaycan isə yox. Bu münaqişə həll olunmayınca və erməni işğalçı qoşunları bizim əraziləri tərk etməyincə, təbiidir ki, biz Ermənistanla müdafiə xarakterli bir təşkilatda, sadəcə, ola bilmərik. Odur ki, bu mövzuda danışmaq hələlik tezdir.

Fürstədən istifadə edərək, qardaş Qazaxıstan xalqına uğurlar, tərəqqi arzulamaq istəyirəm. Bu iki gün ərzində mən yeni paytaxtı gördüm, tikinti işlərinin sürəti, burada yaradılan gözəllik böyük təəssürat buraxdı. Nursultan Abişoviç Nazarbayevin bu işdə xidmətləri böyükdür. O, bütün qazax xalqının səylərini səfərbər edərək, əslində, yeni paytaxt, yeni şəhər yaratmışdır. Qazaxıstanın digər nailiyyətlərini Azərbaycan öz nailiyyətləri kimi qəbul edir. Bizim ölkələrimiz və xalqlarımız dost, bir-birinə yaxın, qardaşdır və sizin uğurlarınıza həmişə sevinirik. Qazaxıstan xalqına yeni uğurlar və firavanlıq arzulamaq istəyirəm.

SƏFƏR BAŞA ÇATDI

Martın 2-də Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana ilk rəsmi səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYA XARİCİ İŞLƏR NAZİRLİYİNİN AVROPA İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Prezident sarayında İspaniya Xarici İşlər Nazirliyinin Avropa İşləri üzrə dövlət katibi Ramon de Migeli qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi ki, Azərbaycan İspaniya ilə əlaqələrin inkişaf etməsini çox arzulayır və bunun üçün müxtəlif sahələrdə çox əlverişli potensial mövcuddur. Prezident İlham Əliyev xüsusilə iqtisadiyyat sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün geniş imkanlar olduğunu xatırladaraq, İspaniyanın iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət etdi. Dövlətimizin başçısı qonağın Bakıya səfərinin əməkdaşlığın inkişafına kömək edəcəyini bildirdi.

Səmimi qəbula görə təşəkkür edən Ramon de Migel İspaniya kralı Xuan Karlosun və bu

ölkənin Baş nazirinin salamlarını, ən xoş arzularını çatdırdı. Qonaq Azərbaycanda prezident seçkilərinin demokratik şəraitdə keçdiyini vurğulayaraq, İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi.

Cənab Ramon de Migel bildirdi ki, o, Qafqaz regionunu Avropanın bir hissəsi kimi qiymətləndirir və burada baş verən proseslər İspaniyada da böyük diqqətlə izlənilir. Azərbaycanla iqtisadi əlaqələrin inkişafının İspaniya üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan diplomat bu sahədə səylərin artırılmasının vacibliyini söylədi.

Ermənistana və Gürcüstana səfər etdiyini, Azərbaycanda isə ilk dəfə olduğunu xatırladan qonaq ölkəmizdə xarici sərmayədarlar üçün əlverişli şərait olduğunu da vurğulayaraq dedi ki, Bakıda və Madriddə səfirliklərin açılması ikitərəfli əlaqələrin daha da inkişafı üçün zəmin yaradardı.

Azərbaycanın da İspaniya ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu söyləyən Prezident İlham Əliyev son yeddi il ərzində ölkəmizin iqtisadiyyatında böyük nailiyyətlər əldə edildiyini, ÜDM-in illik artımının 10 faizdən çox olduğunu, inflyasiyanın iki faiz təşkil etdiyini bildirdi. Ölkəmizdə həyata keçirilən beynəlxalq səviyyəli layihələr haqqında qonağa ətraflı məlumat verən dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələrində islahatların aparıldığını, xüsusilə torpaq islahatının uğurla həyata keçirildiyini də xatırlatdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə martın 4-də Bakıya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Prezident Sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü oldu.

Dövlətimizin başçısı İlham Əliyev ali qonağı səmimiyyətlə salamlayaraq, onun ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacağını bildirdi. Prezident İlham Əliyev dedi ki, o, Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir.

Azərbaycana rəsmi səfərə dəvətə və yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə təşəkkür edən Gürcüstan Prezidenti Mixail Saakaşvili bildirdi ki, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Mehribanlıq və səmimilik şəraitində keçən görüş zamanı tərəflər siyasi-iqtisadi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GENİŞ HEYƏTDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin geniş heyətdə görüşü oldu.

Prezident İlham Əliyev Gürcüstan dövlətinin başçısı Mixail Saakaşvilini və onu müşayiət edən şəxsləri salamlayaraq dedi:

- Hörmətli cənab Prezident! Hörmətli dostlar!

Sizi Azərbaycanda bir daha salamlamaq, sizə "Xoş gəlmisiniz!" demək və əmin olduğumu bildirmək istəyirəm ki, səfəriniz bir-birilə tarixən həmişə çox sıx olmuş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Gürcüstanla Azərbaycan iki qonşu, qardaş ölkədir. Bizi qarşılıqlı münasibətlərin, mədəni əlaqələrin böyük bir tarixi, həyatımızın bütün istiqamətlərində çox fəal əməkdaşlıq birləşdirir. Xalqlarımız bütün dövrlərdə bir-birinə qardaşlıq hissləri bəsləmişlər. Çox mühümdür ki, bu hisslər qorunub saxlanmış, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra isə münasibətlərimiz daha da yaxşılaşmışdır. Bizi birləşdirən bütün müsbət cəhətləri qoruyub saxlaya, inkişaf etdirə bilmişik. Zənnimcə, bu gün ölkələrimiz arasındakı münasibətlər qonşular arasında münasibətlərin necə olmasına yaxşı örnəkdir. Bizi ümumi iqtisadi layihələr də birləşdirir. Hazırda Gürcüstanda və Azərbaycanda dünya səviyyəli layihələr həyata keçirilir. Beynəlxalq ictimaiyyətin diqqəti bu layihələrə dikilmişdir və onlar ölkələrimizdə iqtisadi yüksəliş üçün yaxşı zəmin yaradacaqdır. Siyasi əlaqələrimiz çox fəaldır. Biz regional və dünya xarakterli məsələlərə dair siyasi məsləhətləşmələr aparırıq və məmnunuq ki, baxışlarımız uyğun gəlir.

İnsanların rifahının yaxşılaşdırılması, iqtisadi inkişaf, sosial məsələlərin həlli, habelə ərazi bütövlüyünün bərpası baxımından ümumi problemlərimiz də mövcuddur. Təəssüf ki, Gürcüstan və Azərbaycan ölkələrimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxaran təcavüzkar separatizmə məruz qalmışlar. Lakin biz əminik ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü beynəlxalq normalara müvafiq surətdə bərpa ediləcəkdir. Bizim heç kimin torpağında gözümüz yoxdur, lakin öz ərazimizi də heç kimə verməyəcəyik. Ona görə bütün bu problemlər, ən əsası isə, müsbət amillər bizi bir-birimizə daha da yaxınlaşdırır. Cənab Prezident, mən çox şadam ki, Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz.

Əminəm ki, görüşlərimiz və apardığımız danışıqlar, geniş tərkibdə görüş, habelə nümayəndə heyətlərimizin üzvləri arasındakı əlaqələr bizi bir-birimizə daha da yaxınlaşdıracaq, ölkələrimizin ümdə problemlərini həll etməyə imkan verəcəkdir. Sizinlə söhbətimizdə belə bir yekdil fikrə gəldik ki, bizim xoşbəxtliyimiz və tərəqqimiz yalnız birlikdə olmağımızdan asılıdır.

Əminəm ki, bu, gələcəkdə də belə olacaqdır. Sizi bir daha salamlayıram. Ümidvaram ki, Sizin səfəriniz uğurlu, nəticələri isə faydalı olacaq və Siz buradan yaxşı təəssüratlarla qayıdacaqsınız.

Gürcüstan Prezidenti Mixail Saakaşvili dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Hörmətli İlham Heydər oğlu! Hörmətli hökumət üzvləri!

Mən burada rəsmi səfərdə olmaq kimi çoxdankı arzumu yerinə yetirdim. Əlbəttə, fərdi şəxs və parlamentin üzvü kimi mən burada dəfələrlə olmuşam. Azərbaycanı və Bakını çox sevirəm. Buradan həmişə ən səmimi və xoş xatirələrlə qayıdıram. Bu gün burada hava da gözəldir və zənnimcə, bu da təbiətin bir əlamətidir.

Demək istəyirəm ki, Azərbaycan bizim strateji tərəfdaşımız və dostumuzdur və o, heç vaxt, ən çətin anlarda da bizi darda qoymamışdır. Biz həmişə Sizin ölkənizə arxalanmışıq. Gürcüstan təkcə çətin günlər yaşayanda yox, ümumiyyətlə, həmişə bir yerdə olmuşuq. Məni daha çox sevindirir ki, Azərbaycanda böyük inkişaf var, onun iqtisadiyyatı tərəqqi edir, dövlətçiliyi, hökumət qurumları möhkəmlənir, ölkənin müdafiə qüdrəti artır, beynəlxalq əməkdaşlıq layihələri inkişaf edir, buraya sərmayələr qoyulur. Təbiidir ki, Gürcüstan da bunu istəyir. Biz bir yerdə buna nail olmalıyıq ki, bütün region ümumi Avropaya inteqrasiya olsun və Avropa birliyi, nəhayət, bizim hamımızı öz məkanının tam hüquqlu, mədəni, coğrafi hissəsi və Avropa İttifaqının siyasi hissəsi kimi tanısın. Biz istəyirik ki, əməkdaşlığımız bütün sahələrdə möhkəmlənsin. Biz Gürcüstan xalqının tərkib hissəsi, dövlətimizin tamhüquqlu vətəndaşları və bizim Gürcüstan cəmiyyətimizin üzvləri olan azərbaycanlı əhalimizi çox sevirik. Onları Gürcüstanın nəinki iqtisadi həyatına, həm də siyasi həyatına inteqrasiya etmək çox vacibdir.

İlham Heydəroviçlə biz Azərbaycan mədəniyyəti və dilinin saxlanılması ilə yanaşı, azərbaycanlıların gürcü dilini də öyrənməsi üçün bu inteqrasiyanı sürətləndirməyin vacibliyindən danışdıq. Bizim üçün çox vacibdir ki, cəmiyyətimizin üzvü olaraq onlar bütün sahələrdə uğurlar əldə etsinlər. Onlar bizim strateji sərvətimizdir və öz azərbaycanlı vətəndaşlarımızla çox fəxr edirik. Biz konkret məsələlər barədə də razılığa gəldik. Düşünürəm ki, ölkələrimizin hökumətləri iqtisadi sahədə əməkdaşlıq məsələləri barədə razılığa gələcəklər. Bütün sədlərin aradan qaldırılması bizim üçün strateji məqsəddir. Azərbaycanla Gürcüstan arasında sərhəd sədləri olmamalıdır. Lakin bunun üçün, təbii olaraq, vaxt lazımdır. Biz hökumət komissiyası yaradılması barədə razılığa gəldik və düşünürəm ki, il yarım-iki ildən sonra biz sərhədimizdə gömrük sədlərinin və pasport nəzarətinin aradan götürülməsinə nail ola biləcəyik. Bütün bu proseslər Avropa birliyi çərçivəsində həyata keçirilmişdir. İnsanların, əmtəənin, sərmayələrin hərəkəti üçün süni maneələr aradan qaldırılmalıdır. Gürcüstana kapital qoyan hər hansı sərmayəçi Azərbaycana və əksinə sərmayə qoymaq barədə də düşünməlidir. Bundan ötrü biz qanunvericilik məkanı yaratmalıyıq ki, sərmayələrin, müəssisələrin qeydiyyatında məhdudiyyətlər olmasın. Regionumuz vahid, bölünməzdir və sərmayələrin, müxtəlif iqtisadi layihələrin qarşılıqlı əlaqələri olmadan inkişaf edə bilməz. Zənnimcə, biz ümumi Qafqaz bazarı yaradılmasına çalışmalıyıq və bu prosesin ilk mərhələsində Gürcüstan-Azərbaycan bazarı yaratmaq olar. Gürcüstan bu istiqamətdə işləyir və ümidvaram ki, bir müddətdən sonra ümumqafqaz iqtisadi bazarı yaratmaq mümkün olacaqdır. Bu, mənim ölkəmdə də mövcud olan bütün problemlərin dinclikllə həlli yolu tapıldıqdan sonra baş verəcəkdir. Mən Azərbaycan Prezidentinin belə fikri ilə şərikəm ki, bu problemlər həll edilməlidir. Söhbət əməkdaşlıqdan getdikdə, müəssisələrimizin Azərbaycan bazarına çıxması bizim üçün çox vacibdir. Həm də ona görə ki, hazırda bu bazar genişlənməkdədir. Biz istəyirik ki, azərbaycanlılar da Gürcüstanda həyata keçirilən layihələrdə fəal iştirak etsinlər. Bu sahədə heç bir problem yaranmayacaq və biz buna çox

şad olacağıq. Biz, hər şeydən əvvəl, ölkələrimiz arasında münasibətlərdə əldə etdiyimiz nailiyyətləri unutmamalı, ilk növbədə, müstəqil Azərbaycan dövlətinin atası və banisi Heydər Əlirza oğluna öz ehtiramımızı bildirməliyik. Şübhəsiz, bu, mənim üçün də, hər bir gürcü üçün də tamamilə aydındır ki, o, nəinki Azərbaycan dövlətinin banisi olmuş, həm də Azərbaycanla Gürcüstan arasında tamamilə yeni münasibətlərin əsasını qoymuşdur. Zənn edirəm ki, bu baxımdan biz əvvəlki rəhbərliyin xəttini davam etdirəcək və eyni zamanda, münasibətlərimizi daha da genişləndirəcək və onu yeni məzmunla zənginləşdirəcəyik. İndi hər iki ölkədə yeni enerji və impuls meydana gəlmişdir. Mən ayrı-ayrı dövlət xadimlərindən İlham Əliyev barəsində yaxşı çox sözlər eşitmişəm. Buraya səfərə gələnə qədər mən kansler Şröderlə, prezidentlər Vladimir Putinlə, Corc Buşla görüşmüşdüm. Bu görüşlərdə də Azərbaycanla və digər qonşularımızla əlaqədar məsələlər müzakirə olunmuşdur. Bir neçə görüşdə biz Azərbaycan Prezidenti barəsində danışdıq və mən onun barəsində çox yaxşı rəylər eşitdim. Demək istəyirəm ki, dünya liderləri olan bu siyasətçilərlə görüşlərdən və bugünkü görüşdən sonra məndə xoş bir heyranlıq yarandı ki, qonşuluğumuzda beynəlxalq səviyyəli və beynəlxalq miqyaslı belə bir lider vardır. Bu, bizim üçün çox vacibdir. Çünki, bu, həm regionu, həm də bizim münasibətlərimizi tamamilə yeni səviyyəyə çıxarır, regionumuzun sülh yolu ilə inkişafı üçün tamamilə yeni perspektivlər açır. Biz buna çox şadıq və sevinirik. Biz bir çox konkret məsələləri müzakirə etdik. Əvvəllər bir çox işləri həyata keçirə bilmirdik. Biz iri layihələri həyata keçirirdik, iqtisadiyyatın digər sahələrinə gəldikdə isə, sadəcə, bir-birimizə iltifat göstərir və deyirdik ki, dostlaşmaq lazımdır, amma bəzən bunun arxasında konkret məzmun olmurdu. İndi yalnız konkret məsələ barədə danışmağı sevən rəhbərlər gəlmişdir. Biz bu gün bir sıra konkret məsələləri müzakirə etdik və zənn edirəm ki, bizim danışıqlarımızdan və görüşlərimizdən sonra həm Gürcüstanın, həm də Azərbaycanın iqtisadiyyatı güclü olacaqdır. Bu, bizim üçün çox vacibdir. Təbiidir ki, biz digər sahələrdə də əlaqələrimizi möhkəmləndirəcəyik. Bu qəbula görə çox sağ olun. Bu, liderlərin böyük və gözəl dostluğunun yaxşı başlanğıcı və xalqlarımız arasında qardaşlıq münasibətlərinin davamıdır. Biz, həqiqətən, qardaşıq və mən bunu çox az xalq barəsində deyə bilərəm. Zənn edirəm ki, təkcə xalqlarımız qardaş olmamalıdır, nazirlərimizin də qardaşlıq münasibətləri olmalıdır. Mən buraya təkcə öz dostumu yox, həm də qardaşımı tapmaq ümidi ilə gəlmişəm. Bunlar bir-birindən tamamilə fərqlənir. Mən buna çox şadam. İndi bizə həm Azərbaycanda, həm də Gürcüstanda insanlar baxır, onlar da sevinirlər. Çünki bizi, ilk növbədə, insani münasibətlər birləşdirir. Hətta bir-birimizdən xoşumuz gəlməsəydi belə, onda da ölkələrimiz arasında münasibətləri qırmaq mümkün olmazdı. Bizim aramızda ilkin söhbətlər və fikir mübadilələri oldu. Bu səfərdən sonra bizim münasibətlərimiz daha çox inkişaf edəcək və möhkəmlənəcəkdir.

İLHAM ƏLİYEV: Çox sağ olun, bəlkə də mən protokolu bir balaca pozacağam, çünki biz yalnız bəyanat verməliyik. Mətbuat nümayəndələrinin də burada iştirak etdiyini nəzərə alaraq demək istərdim ki, şəxsən mən belə ətraflı tanışlığa şadam. Dövlət rəhbərləri arasındakı münasibətlər bir çox cəhətdən ölkələr arasındakı münasibətləri də müəyyənləşdirir.

Hörmətli Mixail Nikolayeviç, mən həm də şadam ki, Sizinlə mənim aramda dərhal belə dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Mən bunu çox qiymətləndirirəm. Mən fürsətdən istifadə edib, Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar matəm mərasimində iştirak etdiyinizə, ona öz ehtiramınızı bildirdiyinizə görə Sizə bir daha minnət-

darlığımı bildirmək istəyirəm. Sizin Heydər Əliyevin fəaliyyətinə verdiyiniz qiymət tamamilə düzgündür və Prezidentimizi tanıyanların hamısı tərəfindən tam dəstəklənir. Deyə bilərəm ki, həm Azərbaycan xalqı, həm də, əminəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar onun xatirəsinə ehtiramınıza və onun fəaliyyətinə belə qiymət verdiyinizə görə Sizə minnətdardırlar. Mən əminəm ki, aramızda yaranmış şəxsi münasibətlər xalqlarımızın xeyrinə olacaq, ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və bununla da bizi daha da güclü edəcəkdir.

AZƏRBAYCAN-GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

Martın 4-də, geniş heyətdə Azərbaycan-Gürcüstan danışıqları başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin iştirakı ilə Azərbaycan-Gürcüstan sənədlərinin imzalanması mərasimi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili "Azərbaycan Respublikasının və Gürcüstanın birgə bəyannaməsi"ni imzaladılar.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycanın təhsil naziri Misir Mərdanov, Gürcüstanın təhsil və elm naziri Koxaber Lamaya imzaladılar.

"Azərbaycan Respublikasının hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev, Gürcüstanın xarici işlər naziri Tedo Caparidze imzaladılar.

İmzalanma mərasimində Azərbaycan Prezidenti İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Qumberidze, Azərbaycanın Gürcüstandakı səfiri Hacan Hacıyev, nazirliklərin, komitələrin rəhbərləri, Gürcüstan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Martın 4-də, Azərbaycan-Gürcüstan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Mixail Saakaşvilinin birgə mətbuat konfransı oldu.

Mətbuat konfransından əvvəl dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Qardaş Gürcüstanın Prezidenti, hörmətli Mixail Nikolayeviç Saakaşvilini Azərbaycanda bir daha səmimi qəlbdən salamlamaq istərdim.

Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfərinin böyük əhəmiyyəti var. Ölkələrimiz bütün sahələrdə - siyasi, iqtisadi, mədəni sahələrdə bir-birilə tarixən çox sıx bağlıdırlar. Ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyədədir. Regionda sülhün və

təhlükəsizliyin təmin edilməsi sahəsində birgə səylər, məsələlərin geniş spektrinə dair siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq, ümumi energetika layihələri, habelə ölkələrimizi və xalqlarımızı birləşdirən tarixi dostluq və qardaşlıq hissləri bu gün inamla belə deməyə əsas verir ki, Gürcüstanla Azərbaycan strateji tərəfdaşlar, mehriban qonşular və qardaş ölkələrdir.

Azərbaycanda biz Gürcüstanla münasibətlərə böyük əhəmiyyət veririk. Əminik ki, ölkələrimiz qarşıya qoyulmuş məqsədlərə, iqtisadi yüksəliş, vətəndaşlarımızın rifahının yaxşılaşmasına ancaq birgə səylərlə nail ola bilərlər. Elə etmək lazımdır ki, vətəndaşlarımız daha yaxşı, daha təhlükəsiz şəraitdə yaşasınlar.

Bizi bir-birimizə ümumi nailiyyətlər də, ümumi problemlər də bağlayır, bir-birimizi çox yaxşı başa düşürük. Gürcü və Azərbaycan xalqlarının qarşılıqlı münasibətlərinin bütün tarixi ərzində ölkələrimiz arasında həmişə qarşılıqlı hörmət, məhəbbət, qardaşlıq, həyanlıq hissləri olmuşdur. Tariximizin ən çətin anlarında biz həmişə bir-birimizə kömək etmişik və bundan sonra da belə olacaqdır.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI

Mən, öz tərəfimdən, İlham Heydəroviçə çox böyük təşəkkürümü bildirmək istəyirəm. Bir daha bildirirəm ki, bizim çox səmimi görüşümüz oldu. Əslində, bütün məsələlər barəsində sinxron və vahid mövqe var, bu isə bir daha təsdiq edir ki, Azərbaycanın simasında bizim, həqiqətən, sadəcə, dost və yaxşı qonşumuz deyil, həm də qardaş dövlətimiz var.

Bu dostluq son illər insanların şüuruna yeridilmişdir - biz qardaşıq və ayrılmazıq. Mən "Azərbaycan sizin evinizdir" sözlərinə görə İlham Heydəroviçə çox minnətdaram, çünki bu, həqiqətən, ümumi evimizdir. Düşünürəm ki, belə sözləri elə-belə demirlər, heç yerdə dilə gətirmirlər. Biz dövlət münasibətlərindən, səmimi münasibətlərdən danışırıq.

Əvvəla, biz bir-birimizlə inteqrasiya edəcəyik. Biz vahid tarix sistemi yaradacaq, vergi sistemimizi uyğunlaşdıracağıq, gömrük sədlərini, hüquqi sədləri ləğv edəcəyik ki, məsələn, Azərbaycanda qeydiyyata alınacaq müəssisələr avtomatik surətdə Gürcüstanda qeydiyyatdan keçmiş hesab olunsun və əksinə. Vətəndaşlarımız bir ölkədən digərinə gedərkən onlar əngəllərlə qarşılaşmasınlar. Bütün regional layihələr hər hansı maneələrlə rastlaşmasın. Ümidvaram ki, bu məkan bütün Cənubi Qafqazda genişlənəcəkdir. Bu, regionun Avropanın bir hissəsi olması üçün çox vacibdir.

Biz Azərbaycanın Avropa birliyinə inteqrasiyası üçün bütün işləri görəcək və bu sahədə bir-birimizə kömək edəcəyik. Biz Amerika Birləşmiş Ştatları ilə tamhüquqlu tərəfdaşlıq münasibətlərinin olmasını istəyirik. Ölkələrimizin Rusiya ilə münasibətlərinin əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycanın Rusiya ilə çox səmimi və yaxın münasibətləri var. Biz Rusiya Prezidenti Vladimir Putinlə bu barədə söhbət etdik. Prezident Putinlə bizim də yaxşı şəxsi münasibətlərimiz yaranır və mən bunu yüksək qiymətləndirirəm, dövlətlərarası münasibətlər də təşəkkül tapır. Təbii ki, bu illər ərzində yaranmış bütün problemləri bir gündə həll etmək olmaz. Rusiya hər iki dövlət üçün çox mühüm tərəfdaşdır. Bu məsələdə fikirləri-

miz oxşardır. Biz bu məsələni də müzakirə etdik. Prezident Putin haqqında və şəxsən onun baxışları barədə çox yaxşı fikirdəyik. Çox ümid edirik ki, onun bütün siyasəti həyata keçiriləcək və Rusiya bütün regionun mühüm, tamhüquqlu tərəfdaşı olacaqdır. Bu, çox vacibdir.Zənnimcə, biz fəaliyyətimizi bu istiqamətdə də əlaqələndirməliyik. Bizim konkret iqtisadi layihələrimiz var. Münasibətlərimiz indiyədək də səmimi idi və neft kəmərinə əsaslanmışdır. İndi biz, ilk növbədə, çalışmalıyıq ki, yolumuzda hər hansı maneə olsa da, - bunlar olacaqdır, bu barədə məlumat almışam, - layihə həyata keçirilməlidir. Bu layihə Gürcüstan üçün həyati məsələdir. Biz bu layihəni axıradək gerçəkləşdirəcəyik. Bu, çox mühüm, *prinsipial məsələdir*. Biz qaz kəməri layihəsini də axıra çatdıracağıq. Çünki qaz kəməri energetika təhlükəsizliyi üçün, bütün regionun müstəqilliyi üçün əlavə təminatlar verəcəkdir. Biz bu layihələrə təkcə dövlətlərimizin deyil, Qazaxıstanın və digər ölkələrin də qoşulacağına ümid edirik. Çünki bu regional əməkdaşlıqdan onlar da fayda götürməlidirlər. Bu layihələrin çoxtərəfli xarakter alması üçün Rusiyanın da onlara qoşulmasına tərəfdarıq. Mən bir daha vurğulamaq istəyirəm ki, bu layihələr ölkələrimizin energetika müstəqilliyi üçün çox böyük əhəmiyyətə malikdir. Kimin tərəfindən olursa-olsun, təzyiq göstərilməsinin mümkünlüyü ilə bağlı hər cür riski rədd edirik. Lakin münasibətlərimizi neft kəmərinin hüdudlarından kənara çıxarmaq çox vacibdir. Münasibətlərimiz yalnız bu sahədə əməkdaşlıqdan daha geniş olmalıdır. İnkişaf səviyyəsinə, iqtisadi mentalitetinə görə biz oxşar ölkələrik. Bütün bunların müxtəlif iqtisadi sahələrdə konkret layihələrə çevrilməsi çox vacibdir. Bu mənada Azərbaycan Gürcüstan üçün, gürcü mallarının getdikcə artan bazarı üçün çox böyük maraq doğuran bir ölkədir və əksinə. Konkret layihələr var və biz onlara *prezidentlər* səviyyəsində lobbilik edəcəyik. Bütün bunlar vətəndaşlarımızın həyat səviyyəsinə təsir göstərəcəkdir. Siz doğru dediniz ki, bir-birinə kömək göstərmədən vətəndaşlarımızın həyat səviyyəsini yüksəltmək çətin olacaqdır. Biz bildirdik ki, indi Gürcüstanda pensiya 11 dollara çatdırılacaqdır, Azərbaycanda isə 20 dollardır. Əlbəttə, bu, çox azdır. Əmək haqqı da artacaqdır. Lakin əmək haqqı azdır, odur ki, hər şey regionun potensialından asılı olacaqdır. Zənnimcə, potensial indikindən çox-çox genişdir. Biz çalışmalıyıq ki, Azərbaycanda hər hansı iqtisadi fəallıq Gürcüstanda iqtisadi fəallıq doğursun və əksinə. Bu, bizim yeni mövqeyimizdir. Rəhbərliyə liderlərin yeni nəsli, yeni enerji, yeni qüvvə gəlmişdir. Bir daha nəzərə çarpdırmaq istəyirəm ki, Azərbaycanın yeni Prezidentinin baxışlarının və təfəkküründün miqyası məni heyran etdi. Düşünürəm ki, Azərbaycanın bəxti çox gətirmişdir. Çünki siz nəinki, sadəcə olaraq, regional liderə, həm də beynəlxalq miqyaslı liderə maliksiniz. Mənim müqayisə etmək üçün kifayət qədər təcrübəm var. Siz hər şeyi təkcə öz ölkəsinin *mövqeyindən deyil*, həm də bütün region, Avropa birliyi miqyasında görən və əlbəttə ki, öz ölkəsinin mənafelərini qoruyan liderə maliksiniz. Bu, məni çox sevindirir. Ona görə ki, meydana çıxan xırda-para məsələlər dərhal həll edilir.

Eyni zamanda, biz Gürcüstanın azərbaycanlı əhalisinin ölkənin siyasi və iqtisadi həyatına inteqrasiyasının tərəfdarıyıq. Çox vacibdir ki, onlar öz ənənələrini və mədəniyyətini qoruyub saxlamaqla yanaşı, gürcü dilini öyrənsinlər, Gürcüstanın da, bizim qardaşlığımızın da daha güclü olması üçün cəmiyyətimizin tamhüquqlu üzvünə çevrilsinlər. Biz çoxmillətli, inteqrasiya olunmuş, güclü Gürcüstanın tərəfdarıyıq. Bu, bizim dövlətimizin sərvətidir. Biz istəyirik ki, güclü Gürcüstan qarşısında duran bütün vəzifələri həll etsin. Uğurumuzun alternativi yoxdur. Bizim uğurlu inkişafımızın alternativi yoxdur. Bi-

zim qardaşlığımızın və əməkdaşlığımızın da alternativi yoxdur. Bu mənada biz hamıya minnətdarıq. Biz istəyirik ki, bu, bütün Cənubi Qafqaz regionunu əhatə etsin. İstəyirik ki, bu regionda sülh olsun, biz məsələlərin zor gücünə həllinə tərəfdar deyilik. Lakin eyni zamanda, biz dövlətçiliyimizi gücləndirəcəyik və möhkəmləndirəcəyik. Biz Türkiyə ilə əməkdaşlığımızı da çox qiymətləndiririk. Bu ölkə bizə çox kömək edir. Türkiyə bizim çox mühüm dostumuz və müttəfiqimizdir. Bu ölkə ilə münasibətlərimiz praqmatik məna daşımır, biz əbədi dostuq. Gürcüstan bütün Cənubi Qafqazda, Ermənistanla münasibətlərdə sülhməramlı rol oynamağa hazırdır. Rusiya ilə münasibətlərdə də birgə əməkdaşlığa ümid bəsləyirik.

Mənə Bakıda olmaq çox xoşdur. Bu gün bizi hərarətlə qarşılayan təkcə hava deyildi. Mən küçələrdə dayanan və bizi salamlayan insanlara təşəkkür etmək istəyirəm. Bu, keçmiş vaxtlar deyil ki, insanları hansısa qonaqları salamlamaq üçün küçələrə çıxarsınlar. Bu, ürəkdən, qəlbdən gəlirdi. Mən buraya Azərbaycan üçün hüznlü günlərdə də gəlmişdim, onda ölkənin bütün vətəndaşları dünya miqyaslı, çox böyük dövlət xadimi Heydər Əliyevi son mənzilə yola salırdılar. O zaman mən Bakının küçələri ilə gedərkən azərbaycanlıların prezident nümayəndə heyətinin hər bir üzvünə mehriban və səmimi münasibətinə heyran qaldım. Bunu mən bu gün də hiss etdim. İnsanlar özləri küçələrə çıxmışdılar, təbii ki, iş vaxtı idi və onlar bizi salamlayırdılar. Bu, bir insan kimi mənə çox xoş idi. Gürcüstan televiziyası da burada idi və Gürcüstan Prezidentinin Bakıda necə səmimiyyətlə qarşılandığını yəqin ki, çəkmişdir. Düşünürəm ki, heç bir gürcü ailəsi buna laqeyd qalmayacaqdır. Zənnimcə, bu, iki ölkə prezidentləri arasındakı münasibətlərdən də artıqdır. Belə münasibət bir gündə yaranmır. Düzgün siyasət aparılarsa, bunları yüz ilə də məhv etmək olmaz. Mən buraya bütün Azərbaycan hökuməti ilə tanış olmaq üçün gəlmişəm və biz buna nail olduq. Mən buraya dost qazanmaq üçün gəlmişəm. Düşünürəm ki, mən dost deyil, qardaş qazandım, bu isə daha mühümdür. Çünki dostdan küsmək olar, qardaşla isə normal ailələrdə belə şeylər baş vermir. Düşünürəm ki, bu münasibətlər bizi salamlayan bütün insanlara sirayət edəcəkdir. Gürcüstanda da İlham Əliyevə bu cür münasibət bəsləyirlər. İnsanların Heydər Əliyevə haqlı olaraq necə münasibət bəslədikləri, ona necə hörmət etdikləri yadımdadır. Biz Bakıda son zamanlar aparılan tikinti işlərinin nəticələrini görürük. Mən burada baş verənlərə yaxşı mənada qibtə edirəm. Biz Gürcüstanda da belə tikinti işləri aparmaq, belə tərəqqiyə nail olmaq qibtə edirəm. Biz Gürcüstanda da belə tikinti işləri aparmaq, belə tərəqqiyə nail olmaq istəyirik. İstəyirik ki, insanlarımız belə nikbin olsunlar, gələcəyə böyük inamla baxsınlar, ümidsizlikdən, təsərrüfatsızlıqdan, intizamsızlıqdan danışmasınlar. Biz də demokratik dövlət çərçivəsində iqtisadi sabitliyə, nizam-intizama nail olmaq istəyirik. Təbii ki, biz çox şeyi Azərbaycandan öyrənmək istəyirik. Hər gəlişimizdə Bakının daha da gözəlləşdiyini görürük. Bilirəm ki, ölkənin bölgələri də inkişaf edir. Biz buna çox şadıq, çox sağ olun. Düşünürəm ki, bu gün çox yaxşı gündür. Sabah buradan yaxşı əhval-ruhiyyə ilə gedəcəyik.

* * *

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Əliyev, Prezident Mixail Saakaşvilinin Gürcüstanla Azərbaycan arasında sərhədlərin iki il ərzində açılması ilə bağlı bəyanatı barədə fikrinizi bilmək istərdim. Sonra, Abxaziyada və Qarabağda münaqişələrin nizama salınması yolunu nədə görürsünüz?

İLHAM ƏLİYEV: Biz hörmətli Mixail Nikolayeviçlə iqtisadi əməkdaşlığa dair bir çox məsələləri müzakirə etdik və belə bir yekdil fikrə gəldik ki, qarşılıqlı surətdə faydalı ticarət-iqtisadi əlaqələri inkişaf etdirmək üçün böyük potensial vardır. Təbiidir ki, bütün bu illər ərzində bizim iqtisadi münasibətlərimizdə Gürcüstan və Azərbaycan üçün həyati əhəmiyyətli məsələlər, xüsusilə Xəzər dənizinin enerji ehtiyatlarının nəql olunmasının əlaqələndirilməsi məsələləri üstünlük təşkil etmişdir. Çünki bu, təkcə iqtisadi cəhətdən deyil, həm də regionda təhlükəsizliyin möhkəmlənməsi baxımından ölkələrimiz üçün qlobal xarakterli öncül məsələdir. Bununla yanaşı, iş elə gətirmişdir ki, energetika sektoru çərçivəsindən kənarda iqtisadi əməkdaşlıq məsələləri bir qədər kölgədə qalmış və arxa plana keçmişdir. Bəlkə də, bunun bir əsası vardır, çünki bütün səylər məhz Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan boru kəmərləri məsələsinin irəliləməsinə yönəldilmişdi. Bu boru kəmərləri layihələri çox ağır şəraitdə, bəzən ağır nəticələr verə biləcək mütəmadi hədə-qorxu və təzyiqlərin müşayiəti ilə həyata keçirilmişdir. Boru kəmərləri ilə bağlı məsələlərin öz həllini tapdığı və həyata keçirildiyi indiki şəraitdə isə, əlbəttə, *yeni problemlər, yəni ticarət-iqtisadi münasibətlərimizin tarazlaşdırılması* məsələləri meydana çıxır. Bu baxımdan biz aydın başa düşürük ki, Gürcüstan və Azərbaycan iqtisadi cəhətdən çox fəal surətdə inteqrasiya etməlidir. Mən Gürcüstan Prezidentinin belə bir fikri ilə tam razıyam ki, Avropa ölkələri arasında iqtisadi sərhədlərin aradan götürüldüyü, vahid iqtisadi məkan yaradıldığı və artıq yarandığı bir vaxtda, əlbəttə, bütün tarixi, mədəni, iqtisadi, siyasi amillər nəzərə alınmaqla, şübhə etmirəm ki, yaxın gələcəkdə ölkələrimizin daha fəal iqtisadi əməkdaşlığına bəzən mane olan bütün əngəllər – gömrük sədləri və digər sədlər aradan qaldırıla bilər. Bu mənada, söylənən fikirlə şərikəm və düşünürəm ki, birgə səylərlə buna nail olacağıq. Biz, hər iki prezident məsul işçilərə, nazirlərə müvafiq göstərişlər vermişik və onlar bu məsələ üzərində işləyəcəklər. Mən dedim ki, Dağlıq Qarabağda, Abxaziyada və digər yerlərdə yaranmış separatçılıq, təcavüzkar separatçılıq Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünü pozmuşdur və bu, bizim ümumi problemimiz, ümumi ağrımızdır. Bu problemlər bizi daha çox yaxınlaşdırır, çünki biz heç kimin ərazisinə göz dikməmişik, digər qonşularımızdan fərqli olaraq, heç kimə qarşı ərazi iddiası irəli sürmürük. Bizim yeganə tələbimiz odur ki, ölkələrimizin ərazi bütövlüyü bərpa edilsin, işğal olunmuş ərazilər azad olunsun, işğalçı qoşunlar bu ərazilərdən çıxarılsınlar. Çünki XXI əsrdə cəngəlliklər qanunu ilə yaşamaq, digər ölkələrin ərazilərini işğal etmək olmaz, həm Gürcüstanda, həm də Azərbaycanda yüz minlərlə qaçqının bu gün dünyada gedən qlobal proseslər anlayışına tamamilə uyğun gəlməyən hansısa qüvvələrin təcavüzkar, ekspansionist, işğalçılıq, separatçılıq fəaliyyəti üzündən ağır şəraitdə yaşamasına yol vermək olmaz. Beynəlxalq hüquq Gürcüstanın və Azərbaycanın tərəfindədir, ədalət Gürcüstanın və Azərbaycanın tərəfindədir. Bütün regionda qeyri-sabitlik yaradan qüvvələr bunu nə qədər tez anlasalar, bir o qədər yaxşı olar. Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü gec-tez bərpa ediləcəkdir. *Biz bunun dinc yolla baş verməsini istəyirik. Mən əminəm ki*, əgər bütövlükdə regionda, eləcə də vasitəçilik mandatı olan ölkələr arasında belə anlaşma olarsa, məsələ yaxın vaxtlarda öz ədalətli həllini tapa bilər. Biz bu məsələdə bir-birimizə kömək edəcək, bir-birimizi dəstəkləyəcəyik. Azərbaycan bütün beynəlxalq forumlarda Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsinə birmənalı şəkildə tərəfdar çıxmışdır və çıxacaqdır. Gürcüstan rəhbərliyi tərəfindən də bu cür yanaşmanı görmək bizə çox xoşdur.

SUAL: Cənab Saakaşvili, Siz dediniz ki, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təhlükə-

sizliyini təmin etmək məsələsinin böyük siyasi və iqtisadi əhəmiyyəti var. Bununla əlaqədar, Cavaxetiyadakı son hadisələr, xüsusilə yerli əhalinin muxtariyyətlə bağlı tələbləri narahatlıq doğurur. Gürcüstan həmin ərazidə boru kəmərinin təhlükəsizliyinin təmin edilməsi üçün hansı tədbirləri görür və Siz müəyyən qüvvələrin boru amilindən həm Gürcüstana, həm də Azərbaycana siyasi təzyiq vasitəsi kimi istifadə etməmələri üçün nə kimi işlər görəcəksiniz?

MİXAİL SAAKAŞVİLİ: İlk növbədə, onu demək istəyirəm ki, neft kəməri bizim üçün çox prinsipial məsələdir. Təhlükəsizliyin texniki təminatı məsələsinə gəldikdə isə, biz buna intensiv hazırlaşırıq. Neft kəmərinin mühafizəsini şəxsən Prezidentə tabe olan, onu və digər vəzifəli şəxsləri mühafizə edən Gürcüstanın xüsusi mühafizə xidməti təmin edir. Lakin biz, eyni zamanda, Qərbin xüsusi xidmət idarələri ilə də bu sahədə əməkdaşlıq edirik və qüvvələrimizin təlimi, təchizatı və hazırlığı sahəsində Birləşmiş Ştatlardan da yardım almaq niyyətindəyik. Biz öz qüvvələrimizlə təhlükəsizliyi təmin edəcəyik, bu sahədə amerikalılarla yaxşı əməkdaşlıq təcrübəmiz var. Mən Vaşinqtona səfərim zamanı bu məsələni çox ətraflı müzakirə etmişəm. Siyasi məsələlərə gəldikdə isə, təbiidir, mən də gözləyirəm ki, təxminən bir-iki aydan sonra, - belə informasiya artıq var, - əsasən, bizim ölkələrdən olmayan bəzi siyasi qüvvələr ekoloji problem pərdəsi altında neft kəmərinin, əslində, baş tutmaması və ya inşasının bir-iki il dayandırılması məqsədi ilə onun tikintisinin qarşısını almağa cəhd göstərəcək, marşrutun kəskin surətdə dəyişdirilməsi barədə danışacaqlar. Mən hazırda bu məsələləri planlaşdıran adamlara bəri başdan demək istəyirəm ki, buna yol verməyəcəyəm və biz konsorsiumla intensiv danışıqlar aparacağıq. Orada həll olunası ekoloji mülahizələr var, bəzi düzəlişlər etmək lazımdır. Lakin bütün bunlar tikintiyə mane olmamalı, neft kəmərinin tammiqyaslı istismarının başlanması müddətinə təsir göstərməməlidir. Bu, çox vacibdir. Biz normal narahatlıq doğuran məsələlər barədə danışacağıq. *Lakin mən demək istəyirəm ki*, Qara dənizin dibi ilə Rusiyadan Türkiyəyə çəkilən qaz kəməri layihəsi daha təhlükəli idi. Bu layihə bizdə şübhə doğururdu, çünki, əslində, bu layihə texniki cəhətdən, həqiqətən, çox təhlükəli idi, lakin bu barədə heç kim bir kəlmə danışmadı. Söhbət bizim layihədən gedəndə, nə üçünsə, hamı, o cümlədən bəzi Gürcüstan təşkilatları səslərini qaldırır. Bizimkilərin bəziləri məsələni düzgün qoyur, bəziləri isə xaricin diktəsi ilə yanaşır. Erməni əhalimizlə münasibətlərimizə gəldikdə isə, Gürcüstanın Ermənistanla münasibətləri yaxşıdır. Düşünürəm ki, Ermənistan Gürcüstanda sabitliyin olmasının əhəmiyyətini çox yaxşı başa düşür və bunda maraqlıdır. Bu mənada heç bir problem yoxdur. Mən Yerevana getməyi və Prezident Koçaryanla görüşməyi planlaşdırıram. Biz bu münasibətləri inkişaf etdirəcəyik. Gürcüstanın erməni əhalisi ilə münasibətlərimiz çox yaxşıdır, onlar Gürcüstan cəmiyyətinin tam hüquqlu üzvləridir. Gürcüstanda yaşayan ermənilər və azərbaycanlılar arasında da normal, yaxşı münasibətlər vardır, bu baxımdan problem yoxdur və olmayacaqdır. Gürcüstan ərazisinin hansısa hissəsinin statusunun dəyişdirilməsi məsələsi Gürcüstan əhalisinin tələbi deyil, bu, həm Azərbaycana, həm Gürcüstana, deyərdim ki, həm də Ermənistana bədxah münasibət bəsləyən xarici mərkəzlərin cəhdləri və müxtəlif tələbləridir. Çünki, onlar vəziyyəti gərginləşdirmək, problem yaratmaq üçün Ermənistanın da mənafelərinə qarşı çıxacaqlar. Hazırda Gürcüstan rəhbərliyi ölkədə hakimiyyəti birləşdirir, qayda-qanun yaradır. Biz, eyni zamanda, hakimiyyətin mərkəzləşdirilməsini ləğv edəcəyik ki, bir sıra məsələlər yerlərdə həll olunsun. Lakin biz bunları hansısa pozucu ünsürlərin sifarişi ilə etməyəcəyik. Əgər onlar bu-

nunla məşğul olsalar, layiqli cavab alacaqlar. Biz bir, yaxud yarım il bundan əvvəlki Gürcüstan deyilik. Bu, daha möhkəm, əhalisi, o cümlədən erməni və azərbaycanlı əhalisi tərəfindən daha çox dəstəklənən tamamilə yeni hakimiyyət strukturudur. Düşünürəm ki, heç kim bizim üçün belə problem yarada bilməz. Bütün dünyada, o cümlədən Qərbdə, ABŞ-da Gürcüstanda sabitliyin yaranmasında marağı olan qüvvələr vardır. Prezident Putinlə görüşümdən sonra onun bu regionda sabitliyin Rusiyanın mənafeləri üçün də vacib olduğunu gözəl anladığına əmin oldum. Rusiyanın bir çox keçmiş rəhbərlərindən və hansısa daha aşağı səviyyəli vəzifəli şəxslərindən fərqli olaraq, Rusiya Prezidenti özü gözəl başa düşür ki, regionda sabitliyin pozulması onların mənafeyinə uyğun deyildir.Bu baxımdan o, mənə çox xoş təsir bağışladı. Zənnimcə, qalan xırda hədə-qorxuların və kiçik şantajçıların öhdəsindən gələcəyik və heç bir kəskin dəyişiklik baş verməyəcəkdir.

SUAL: Sizin, iki cavan prezidentin və artıq iki qardaşın siyasəti necə olacaq, münasibətlərinizdə öncül istiqamət nədən ibarət olacaq? Yerli mətbuat yazırdı ki, siz bir-birinizə çox oxşayırsınız. Aranızda hansı oxşarlığı tapmısınız?

İLHAM ƏLİYEV: Bu suala görə sizə təşəkkür edirəm. Əlbəttə, ayrı-ayrı istiqamətlərdə hansı siyasət yeridiləcəyindən danışsaq bu, çox vaxt alar. Düşünürəm ki, Azərbaycanda da, Gürcüstanda da yeni rəhbərlik dəqiq başa düşür ki, həm həyata keçirilən, həm də həyata keçiriləcək siyasətin əsasını xalqlarımızın yaxşı yaşamasına, ölkələrimizin daha güclü olmasına, Gürcüstanın və Azərbaycanın coğrafi-siyasi əhəmiyyətinin ildən-ilə artmasına xidmət təşkil etməlidir. Mən hesab edirəm ki, bunun üçün çox yaxşı potensial və çox yaxşı imkanlar vardır və bu, həm ikitərəfli, həm də regional xarakterli məsələlərdə, dünyada baş verən hadisələrə münasibətdə qarşılıqlı fəaliyyətin nə dərəcədə sıx olmasından asılı olacaqdır. Mən artıq dedim ki, bütün bu məsələlərdə mövqelərimiz tam üst-üstə düşür, dünya işlərində ölkələrimizin rolu və yeri də bundan asılı olacaqdır. Bu gün belə deməyə tam əsas vardır ki, Gürcüstan və Azərbaycan regional planda olduqca möhkəm mövqelərə malikdirlər. Heç bir regional, mühüm layihə ölkələrimizin iştirakı olmadan həyata keçirilə bilməz və mən hesab edirəm ki, bu, daxili siyasət məsələlərinin həllinə də kömək edəcək mühüm amildir. Bu gün həm Gürcüstanda, həm də Azərbaycanda tam ictimai-siyasi sabitlik bərqərar olmuşdur. Gürcüstanda da, Azərbaycanda da əhali dövlət rəhbərlərini tam dəstəkləyir. Gürcüstanda da, Azərbaycanda da yeni rəhbərliyi seçmiş insanlar yeni rəhbərlərə böyük ümidlər bəsləyirlər və mən hesab edirəm ki, bizim əsas birgə vəzifəmiz onların ümidini doğrultmaqdır. Gürcüstanda və Azərbaycanda hadisələrin inkişafı belə deməyə əsas verir ki, fəaliyyətimizi qiymətləndirmək vaxtı gələndə insanlar məyus olmayacaqlar.Oxşarlığımız ondadır ki, bizim hər ikimizdə ölkələrimizi daha güclü etmək arzusu var, bizdə Vətənə böyük məhəbbət və bağlılıq var. Bunsuz nəyəsə nail olmaq mümkün deyildir. Ona görə də mən bütün bu planların həyata keçirilməsində özümə də uğurlar arzulayıram və hörmətli Mixail Nikolayeviçə də bir o qədər uğurlar arzulayıram. Əminəm ki, bu uğurlar olacaqdır. Bundan əlavə, bizi yəqin ki, ümumi dünyagörüşü, böyüyüb başa çatdığımız, formalaşdığımız ümumi mühit də birləşdirir. Yəqin ki, bizim çox da böyük olmayan həyat yolumuzda ümumi mərhələlər də var. Bildiyimə görə, Mixail Nikolayeviç parlamentə mənim Milli Məclisə deputat seçildiyim ildə, 1995-ci ildə deputat seçilmişdir. Biz hər ikimiz Avropa Şurasında nümayəndə heyətlərimizə başçılıq etmişik, eyni peşə sahibi – beynəlxalq məsələlər üzrə mütəxəssisik.

MİXAİL SAAKAŞVİLİ: Amma Siz bilirsiniz ki, bir vaxtlar, Eduard Amvrosiyeviçin dövründə Sizi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundan getməyə məcbur etmişlər, məni isə oraya, ümumiyyətlə, qəbul etmədilər.

İLHAM ƏLİYEV: Yəqin ki, Avropa Şurasında nümayəndə heyətlərinin rəhbərləri arasında prezident olanlar o qədər də çox deyildir. Bizi cavanlıq, fəallıq birləşdirir. O ki qaldı zahiri oxşarlığa, görünür, bu da var. Bir sözlə, düşünürəm ki, bizi bu amillər birləşdirmişdir. Biz o qədər də tez-tez görüşmürdük, lakin bir-birimizin barəsində eşidirdik, qiyabi olaraq böyük hörmət hissi bəsləyirdik, ümumi tanışlarımız var. Bu gün belə sıx ünsiyyətdə olmağımız mənim üçün çox fərəhlidir. Mixail Nikolayeviç savadlı Prezidentdir, regional məsələlərə bələddir, dünya miqyaslı məsələlərdən baş çıxarır, dünyada böyük nüfuzu var. Ölkəyə Mixail Saakaşvilinin başçılıq etməsi çox mühüm amildir, o, Gürcüstan cəmiyyətinə, gürcü xalqına böyük fayda gətirəcəkdir. Mən Gürcüstan Prezidentinə və özümə uğurlar arzulamaq istəyirəm. Görünür, bizi hələ çox müqayisə edəcəklər, çünki biz, əslində, eyni bir vaxtda seçilmişik və ölkələrimiz qonşudur, problemlərimiz də, çətinliklərimiz də eynidir. Ona görə də biz həmişə, necə deyərlər, bir-birimizə tən gəlməliyik. Əgər kimsə geri qalsa, digəri kömək etməlidir. Bu, böyük səmərə ilə işləməkdən ötrü bizim üçün çox yaxşı stimul olacaqdır. Ən başlıcası isə, əl-ələ, çiyin-çiyinə işləmək lazımdır, xalqlarımız yalnız bu halda xoşbəxt olar və inkişaf edər.

MİXAİL SAAKAŞVİLİ: Mən onun səmimi nitqinə xüsusi diqqət yetirmək istəyirəm. Mən bunu yüksək qiymətləndirirəm, çoxdandır ki, mənim barəmdə hətta valideynlərim də belə mehribanlıqla danışmayıblar. Bu fikri xüsusi nəzərə çarpdırmaq istəyirəm ki, bizi Vətənə fanatik məhəbbət birləşdirir. Möhkəm münasibətlər yaradılması üçün bu, çox vacibdir. Başqa ölkəyə hörmət etmək və onu sevmək üçün, ilk növbədə, öz ölkəni sevməlisən, öz ölkənin vətənpərvəri olmalısan. Əminəm ki, Azərbaycanın hər hansı vətənpərvəri həm də Gürcüstanın dostudur. Əksinə, mənşəcə istər gürcü olsun, istərsə də azərbaycanlı olsun, fərqi yoxdur, Gürcüstanı sevən hər bir kəs həm də Azərbaycanın dostudur. Bizi birləşdirən ən başlıcası budur. Düşünürəm ki, Azərbaycanın Prezidenti öz Vətəninin görkəmli vətənpərvəridir. Buna görə də o, bizim münasibətlərimizin vətənpərvəridir.

SUAL: Siz öz bəyanatlarınızda Gürcüstanın əvvəlki rəhbərliyini haqlı olaraq tənqid etmisiniz. Etiraf etmisiniz ki, Gürcüstanın azərbaycanlı əhalisini yalnız səsvermə zamanı xatırlayırlar. Ümumiyyətlə, azərbaycanlılar ictimai-siyasi və mədəni həyata kifayət qədər fəal cəlb edilmirlər, xüsusən də söhbət hakimiyyət strukturlarında işə cəlb olunmaqdan gedəndə. Siz bu istiqamətdə işinizi necə planlaşdırırsınız?

MİXAİL SAAKAŞVİLİ : Demək istəyrəm ki, öz rəyimi, həqiqətən, dəyişməmişəm. Əlbəttə, Sizə söz verə bilmərəm ki, seçkilər zamanı azərbaycanlı əhalini unudacağıq. Bizdə indi də seçkiqabağı kampaniya gedir. Təbii ki, biz onları unutmuruq. Lakin, başlıcası, onları seçkilərdən sonra unutmamaqdır. Məsələnin mahiyyəti bundan ibarətdir. Bu məsələ ilk baxışdan çox sadə görünsə də, böyük diqqət tələb edir. Azərbaycanlılar Gürcüstan əhalisinin mühüm hissəsi, olduqca sədaqətli hissəsidr. Hesab edirik ki, dar ayaqda biz həmişə onlara güvənə bilərik, onlar bizə arxa-dayaqdırlar. Biz onlara həmişə bel bağlaya bilərik. Lakin məsələ Gürcüstanda süni surətdə Azərbaycan elitası yaratmaqda deyildir. Bu, onsuz da baş tutmayacaqdır. Bu, təbii surətdə baş verməlidir. Gürcüstanın azərbaycanlı əhalisi heç də təkcə Gürcüstanın iqtisadi həyatında iştirak etməməlidir.

Onlar gürcü dilini öyrənməli, Gürcüstanın ali məktəblərinə daxil olmalı, vəzifədə irəli çəkilməlidirlər, heç kim onlara əngəl törətməməlidir. Əksinə, bütün bunlara hər vasitə ilə kömək edilməlidir. Azərbaycanlılara parlamentdə yalnız azərbaycanlı olduqlarına görə oturan və azərbaycanlı əhalinin müdafiəsi üçün bir kəlmə də olsun danışmayan və ümumiyyətlə, hər hansı məsələ barəsində öz fikrini söyləməyən deputatlar lazım deyildir. Onlara parlamentdə elə adamlar lazımdır ki, öz həmvətənlərinin və bütün Gürcüstan vətəndaşlarının arzu və istəklərini, həqiqətən, ifadə etsinlər. Zənnimcə, belə liderlər artıq meydana gəlməkdədir. Elə adamlar var ki, onlar nomenklatura ilə süni surətdə irəli çəkilməyiblər, əksinə, cəmiyyətin tamhüquqlu, fəal üzvləridir. Gürcüstanda geniş təmsil olunmuş azərbaycanlı ziyalılarının öz mədəniyyətini inkişaf etdirməsinə imkan vermək çox vacibdir. Mən bunu onlara vəd etmişəm və sözümün üstündə duracağam. Biz bir neçə il əvvəl tam bir sıra səbəblər üzündən bağlanmış Tbilisi Azərbaycan teatrının tikintisinin başlanmasına kömək etməliyik. Biz İlham Əliyevlə Qaxdakı gürcü teatrına dövlət statusu verilməsi, onun Azərbaycan ərazisində gürcü mədəniyyətinin inkişafı ocağına çevrilməsi barədə danışmışıq. Biz dərsliklərin mübadiləsi barədə də söhbət etmişik. Həm Gürcüstan tarixinin, həm də Azərbaycan tarixinin əksini tapdığı dərsliklər yaradılması üçün birgə işçi qrupları yaratmaq lazımdır. Gürcüstan azərbaycanlıları dövlətimizə həmişə sədaqətlə və can-başla xidmət etmiş insanlardır. Gürcüstan tarixini oxusanız, o dövrlərdə Gürcüstanda yaşamış azərbaycanlıların sədaqətinə, qardaşlığına və dostluğuna dair çox misallar taparsınız. Məncə, bu, ümumi sərvətimizdir. İstərdim ki, bu proseslər təbii şəkildə getsin. İnteqrasiya prosesi getsin və azərbaycanlılar real, əməli qərarların qəbul olunmasında iştirak etsinlər. Bu, təkcə azərbaycanlılara deyil, Gürcüstanın digər vətəndaşlarına da aiddir. Biz öz çoxmillətliliyimizlə, öz dostluğumuzla fəxr edirik. Mən utanıram ki, Mirzə Fətəli Axundovun harada dəfn edildiyini yalnız bu yaxınlarda bilmişəm -- o, Botanika bağında, Tbilisinin mərkəzində, Azərbaycanın digər görkəmli xadimlərinin məzarları olan yerdə dəfn edilmişdir. İstərdim ki, orada müvafiq panteon olsun, oraya təkcə Gürcüstandan deyil, Azərbaycandan da insanlar ziyarətə gəlsinlər. Azərbaycanda gürcü xadimləri olduqca çoxdur. Siz bunu bilirsiniz və bütün bunlar qarşılıqlı surətdə bağlıdır. Elə indinin özündə də burada vətəndaşlarımız yaşayırlar və onlara çox səmimi münasibət göstərilir. Mən onların çoxu ilə görüşmüşəm. Odur ki, bu dostluq tellərini inkişaf etdirəcəyik. Zənnimcə, "bəli, biz cəmiyyətlərimizin, Azərbaycan və gürcü mənşəli vətəndaşlarımızın müvafiq surətdə Azərbaycan cəmiyyətinə və Gürcüstan cəmiyyətinə maksimum inteqrasiyasına nail olmuşuq" sözlərini demək üçün böyük yol keçmək lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Gürcüstan Prezidenti Mixail Saakaşvilinin Azərbaycana səfərinin birinci gününün sonunda Bakı Əyləncə Mərkəzində onun şərəfinə Azərbaycan Prezidenti İlham Əliyevin adından rəsmi qəbul təşkil edilmişdir.

Azərbaycan və Gürcüstan prezidentləri rəsmi qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Qardaş Gürcüstanın Prezidenti Mixail Nikolayeviç Saakaşvili ölkəmizə rəsmi səfərə gəlmişdir. Artıq inamla deyə bilərik ki, bu səfər çox uğurlu olmuşdur və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsi işində mühüm rol oynayacaqdır.

Bu gün ikitərəfli münasibətlərimizə aid bütün məsələlər barəsində Gürcüstan Prezidenti ilə çox geniş fikir mübadiləmiz oldu. Biz məmnunluqla qeyd etdik ki, dövlətlərimizin müstəqilliyi dövründə Gürcüstanla Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə qalxmışdır. Biz birlikdə regional iqtisadi, kommunikasiya layihələri həyata keçiririk. Bu gün Gürcüstanla Azərbaycanın regional siyasətin və dünya siyasətinin bir çox məsələlərində vahid mövqelərdən çıxış etməsi Qafqazda vəziyyətin sabitləşməsinin, regionumuzda sülhün və sabitliyin möhkələnməsinin mühüm amilidir.

Təəssüf ki, Qafqaz regionu çox ağır sınaqlara məruz qalmışdır. Dövlətlərimiz müstəqilliyə qovuşduqdan sonra Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünə qarşı təcavüzkar separatçılıq əməlləri törədilmişdir. Biz öz fəaliyyətimizlə regional təhlükəsizliyin möhkəmlənməsinə kömək etməyə, habelə dünya birliyinin fəal iştirakı ilə dövlətlərimizin ərazi bütövlüyünün bərpasına və sərhədlərinin toxunulmazlığına nail olmağa çalışacağıq.

Bizi bu gün həyata keçirilən və bütün dünyanın diqqətini özünə cəlb edən çox iri layihələr birləşdirir. Bu layihələr həm ölkələrimizin iqtisadi firavanlığı üçün vacibdir, həm də dünyada baş verən qlobal proseslər çərçivəsində mühüm rol oynayacaqdır. Ölkələrimizin əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artmışdır və öz potensialımızı möhkəmləndirdikcə daha da artacaqdır. Buna görə də son dərəcə vacibdir ki, bizim iki qardaş dövlətlərimiz milli mənafelərimizin qorunmasına, dünya birliyinə inteqrasiyaya yönəlmiş siyasəti bundan sonra əlaqələndirilmiş şəkildə və birgə səylərlə həyata keçirsinlər. Bu da xalqlarımızın rifah halının yüksəlməsinə, müstəqilliyimizin və təhlükəsizliyimizin möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Bizim aramızda şəxsi xarakterli çox mehriban, dostluq və qardaşlıq münasibətləri yaranmışdır ki, bu da dövlətlərimiz arasında münasibətlərin inkişafı üçün çox vacibdir. Mən əminəm ki, iki prezident arasında münasibətlər müvafiq nazirliklərimizin, baş idarələrimizin, strukturlarımızın rəhbərləri arasındakı münasibətlər üçün çox yaxşı nümunə olacaqdır. Yalnız bütün səviyyələrdə - rəsmi, işgüzar səviyyələrdə gündəlik əlaqələr Gürcüstanın və Azərbaycanın birgə irəliləməsi üçün daha əlverişli şərait yarada bilər.

Bizim yolumuz birdir, biz onu çoxdan müəyyənləşdirmişik, bu yola sadiqik və heç kim bizi bu yoldan sapındıra bilməz.

Fürsətdən istifadə edib, əsrlər boyu azərbaycanlıların dostluq və qardaşlıq telləri ilə bağlı olduğu bütün gürcü xalqına dərin hörmətimi bildirmək istəyirəm. Bizim gücümüz xalqlarımızın, sadə adamların bir-birinə nə dərəcədə yaxın olmalarından asılıdır.

Mən qardaş Gürcüstanın, qardaş gürcü xalqının və Gürcüstan Prezidenti Mixail Nikolayeviç Saakaşvilinin sağlığına badə qaldırıram.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Bu gün mən burada, sizin aranızda, qonaqpərvər Bakıda olduğum üçün çox xoşbəxtəm. Doğrudan da, mən özümü evimdəki kimi hiss edirəm. Hətta protokolu da elə dəyişirlər ki, bizə dincəlməyə, ünsiyyətdə olmağa, sadəcə olaraq, özümüzü normal hiss etməyə imkanımız olsun.

Düşünürəm ki, bu gün biz nəinki Azərbaycanla Gürcüstan arasında qardaşlıq və dostluğun davam etdirilməsini, həm də hər iki ölkənin prezidentləri arasında böyük dostluq və qardaşlığın başlandığını görürük. Bu, mənim üçün çox vacibdir. Şəxsi əlaqələr dövlət münasibətlərinə təsir göstərməməlidir, lakin tarixi əlaqələrimizi zənginləşdirə və onlara tamamilə yeni məna verə bilər. Bu sözləri aid edə biləcəyim ölkələr çox azdır. Gürcü və Azərbaycan xalqları arasında həmişə ən səmimi münasibətlər olmuşdur ki, bu da qarşılıqlı əlaqələrimizin əsas xüsusiyyətidir. Siz elə bir gürcü tapmazsınız ki, o, azərbaycanlılar və ya Azərbaycan haqqında pis söz desin. Bu, çox mühümdür. Adamlarımız həmişə tarixi dostluğumuzdan, sədaqətimizdən danışırlar və məncə, bu, böyük sərvətdir.

Biz İlham Heydəroviçin fəaliyyətini çox diqqətlə izləyirik. Hava limanında ilk olaraq onu dedim ki, - yəqin, siz bunu televiziya ilə gördünüz, - mən İlham Əliyevdən çox şeyi öyrənməyə hazıram. Bunu elə-belə demədim. Həqiqətən, əminəm ki, mən hələ çox şeyi görüb-götürməli və çox şeyi öyrənməliyəm. Ümumiyyətlə, biz Azərbaycana xeyirxah, yaxşı mənada qibtə edə bilərik. Düşünürəm ki, Gürcüstanda da hər şey yaxşı olacaqdır. Tanrının və sizin köməyinizlə. Çünki bu kömək olmadan işimiz çətin olacaq, əslində, onsuz işimiz aşmayacaqdır.

Dostluğumuzun möhkəmlənməsində fədakarlığa görə Sizə təşəkkür edirəm. Azərbaycanlılar həmişə dostluğa sadiqliyi ilə fərqlənirlər. Əminəm ki, xalqlarımızın dostluğu və qardaşlığı əbədi olacaqdır.

Mən İlham Əliyevin sağlığına və bütün dünyada Gürcüstanın ən böyük və sadiq dostu olan Azərbaycanın şərəfinə badə qaldırıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Prezident sarayında ABŞ dövlət katibi müavininin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Linn Pasko nu qəbul etmişdir.

Prezident İlham Əliyev qonağı salamlayaraq dedi ki, onun regiona səfərləri böyük əhəmiyyətə malikdir və Birləşmiş Ştatların regionda artan marağının təzahürüdür.

Azərbaycan dövlətinin başçısı ölkəmizlə ABŞ arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu və bu əməkdaşlığın bütün sahələri əhatə etdiyini söylədi. O, siyasi sahədə əlaqələri xüsusilə vurğulayaraq əmin olduğunu bildirdi ki, bu, gələcəkdə də davam edəcəkdir. Prezident İlham Əliyev dedi: "Azərbaycanda və regionda həyata keçirilən irimiqyaslı layihələr bilavasitə Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə aparılır. Hamı bilməlidir ki, əgər bu dəstək olmasaydı, həmin layihələrin həyata keçirilməsi mümkün olmazdı".

Dövlətimizin başçısı ölkəmizin Birləşmiş Ştatlarla hərbi sahədə də faydalı əməkdaşlıq etdiyini xatırladaraq vurğuladı ki, Azərbaycan bu sahədə ABŞ-la müttəfiqdir və eyni koalisiyadadır. Azərbaycan özü dəfələrlə terrorizmin qurbanı olmuşdur və terror aktlarının nəticəsində minlərlə insan həlak olmuşdur. Məhz bu səbəbdən ölkəmiz ilk günlərdən Birləşmiş Ştatların apardığı antiterror fəaliyyətinə qoşulmuşdur və bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

Prezident İlham Əliyev bir daha ABŞ-ın Azərbaycan üçün strateji tərəfdaş olduğunu söyləyərək, hər iki ölkəni gələcəkdə böyük işlər gözlədiyini və birgə səylərlə bütün bunların həllini tapacağına əminliyini ifadə etdi. Eyni zamanda, regionda uzunmüddətli və möhkəm sülhə nail olmaq üçün ən ağrılı problemlərin, ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmasının vacibliyini vurğulayan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Birləşmiş Ştatların səylərinin artırılması yaxın zamanlarda bu münaqişənin ədalətli həllinə dair sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəkdir. Münaqişənin ağır nəticələri barədə qonağa ətraflı söhbət açan Prezident İlham Əliyev Azərbaycan torpaqlarının işğalı nəticəsində 1 milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xüsusi vurğuladı.

Dövlətimizin başçısı ABŞ-la strateji əməkdaşlıq siyasətinin Azərbaycanın maraqlarına cavab verdiyini söylədi və bu siyasətin ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Linn Pasko ATƏT-in Minsk qrupunun nümayəndəsi kimi Azərbaycanda keçirdiyi görüşləri xatırlatdı və yaxın zamanlarda Dağlıq Qarabağ münaqişəsinin nizama salınacağına əmin olduğunu söylədi. O, Azərbaycanla Birləşmiş Ştatlar arasında əməkdaşlığın yüksək səviyyədə olması haqqında Prezident İlham Əliyevin fikirləri ilə razı olduğunu bildirərək, hər iki ölkənin xalqları və hökuməti arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduğunu vurğuladı.

Terrorizmlə mübarizədə Azərbaycanın Birləşmiş Ştatlar üçün yaxın tərəfdaş olduğunu diqqətə çatdıran qonaq dedi ki, bu sahədə əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir. O, Cənubi Qafqaz regionunda, xüsusilə Azərbaycanda gedən müsbət dəyişiklikləri çox sevindirici hal kimi qiymətləndirdi və bunun Vaşinqtonda, habelə Avropada böyük maraqla izlənildiyini bildirdi.

Linn Pasko sözünü yekunlaşdıraraq bildirdi ki, Birləşmiş Ştatlar hökuməti Azərbaycan rəhbərliyi ilə siyasi və iqtisadi məsələlərdə sıx əməkdaşlıq etmək niyyətindədir. O dedi: "Cənab Prezident, biz Sizə ABŞ hökumətinin ən xoş salamlarını yetiririk və Sizinlə əməkdaşlıqdan çox məmnun olduğumuzu bildiririk".

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda bir neçə ölkədən gəlmiş idmançıların iştirakı ilə şahmat turnirinin keçirilməsi Azərbaycanda haqlı narazılıq və hiddətlə qarşılanmışdır. Azərbaycan idman ictimaiyyətinin tələbi əsasında Beynəlxalq Şahmat Federasiyası - FİDE Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərinə nəzarət edən Ermənistan Respublikasına müraciət edərək, belə bir turnirin keçirilməsinin arzuedilməz olduğunu və onun nəticələrinin tanınmayacağını bildirmişdir. Lakin buna baxmayaraq, Ermənistan tərəfi və onun nəzarətində olan marionet qurum - "DQR" təbliğat məqsədi daşıyan növbəti şounun keçirilməsi imkanını əldən buraxmamışdır. FİDE-nin rəsmi xəbərdarlığına rəğmən, işğal edilmiş Azərbaycan ərazilərində belə bir turnirin təşkili Ermənistanın və onun himayədarlıq etdiyi separatçı qüvvələrin beynəlxalq idman ictimaiyyətinə açıq-aydın meydan oxumalarının, idmandan öz çirkin siyasi məqsədləri üçün istifadə etmələrinin bariz nümunəsidir. Təəssüf ki, ayrı-ayrı ölkələri təmsil edən idmançılar da öz siyasi məlumatsızlıqlarından, yaxud başqa səbəblər üzündən separatçıların fitnəsinə uymuşlar. Nə qədər təəccüblü olsa da, Azərbaycanla geniş əlaqələrə malik olan Gürcüstan, Polşa, Rusiya Federasiyası, İran, Latviya, İsveçrə kimi dövlətlərin şahmatçıları öz ölkələrinin bayraqlarının işğal olunmuş Azərbaycan ərazilərində qaldırılmasına razılıq vermiş, özləri də fərqinə varmadan, separatçılarla işbirliyi qurmuş və onların siyasi oyunlarının fiquruna çevrilmişlər. Nəticə etibarilə bu idman tədbiri sülhə, xalqları birləşdirməyə və yaxınlaşdırmağa yox, separatçılara, xalqlar arasında münaqişə və ədavət toxumu yayanlara, işğalçılara xidmət etmişdir. Dağlıq Qarabağa öz idmançılarını göndərən ölkələr bilməlidirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və Azərbaycanın rəsmi razılığı olmadan bu ərazidə keçirilən hər hansı tədbir qeyri-qanunidir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan, Azərbaycan ərazilərinin 20 faizini indiyə qədər işğal altında saxlayan və minlərlə insana fəlakət gətirən erməni separatçıları ilə işbirliyinin heç kimə, o cümlədən də idmançılara şərəf gətirmədiyini bir daha bəyan edir və FİDE-nin, eyni zamanda, Gürcüstan, Polşa, Rusiya Federasiyası, İran, Latviya və İsveçrənin müvafiq idman qurumlarının diqqətini müvəqqəti işğal edilmiş Azərbaycan ərazilərində Azərbaycanın razılığı olmadan hər hansı idman yarışlarının keçirilməsinin yolverilməzliyinə bir daha cəlb edir.

10 mart 2004-cü il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında ABŞ-ın Avropa Komandanlığının qərargah rəisinin müavini general Çarlz Uoldun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi ki, Azərbaycanla Birləşmiş Ştatlar arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir. Bu

əməkdaşlıq xüsusilə regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərində daha dinamik xarakter almışdır. Prezident İlham Əliyev təəssüflə xatırlatdı ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və digər regional münaqişələr nəticəsində Qafqazda qeyri-sabitlik mövcuddur. Bu münaqişələr çoxlu sayda qaçqın və köçkünün öz doğma torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, beynəlxalq ictimaiyyətin səyləri nəticəsində tezliklə münaqişələri nizama salmaq və regionda sabitliyə nail olmaq mümkün olacaqdır.

Azərbaycan regionda təhlükəsizliyin təmin olunmasında çox mühüm rol oynayır və ölkəmiz münaqişələrin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə nizama salınmasına tərəfdardır.

Prezident İlham Əliyev ölkəmizin ilk günlərdən Birləşmiş Ştatların beynəlxalq terrorizmə qarşı apardığı qlobal mübarizəyə qoşulduğunu vurğulayaraq dedi ki, Azərbaycan ABŞ-ın müttəfiqidir və bu, gələcəkdə də davam edəcəkdir. Dövlətimizin başçısı NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində ABŞ və digər üzv ölkələrlə sıx əməkdaşlığın da mövcud olduğunu xatırlatdı və Şimali Atlantika Alyansının həyata keçirdiyi təlim proqramlarının Azərbaycan ordusunun yüksək səviyyəyə çatdırılmasında böyük əhəmiyyətə malik olduğunu söylədi.

Prezident İlham Əliyev Xəzərin enerji ehtiyatlarının inkişafı proqramı çərçivəsində və boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması sahəsində Birləşmiş Ştatlarla əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən general Çarlz Uold dedi: "İstərdim, mətbuatın burada iştirakından istifadə edərək, Sizin haqqınızda yüksək fikrimi ifadə edim. Siz Prezident seçildikdən sonra regionda nümayiş etdirdiyiniz liderlik ölçüyəgəlməzdir. Bunu yalnız Birləşmiş Ştatlarda deyil, bütün dünyada anlayırlar. Bizə tam aydındır ki, Sizin liderliyiniz bu regionda müsbət dəyişikliklərə səbəb olacaqdır". Sonra qonaq terrorizmə qarşı qlobal mübarizə məsələlərinə toxunaraq vurğuladı ki, bu həftə İspaniyada törədilmiş terror aktı bu mübarizədə geniş əməkdaşlığın vacibliyini bir daha göstərdi.

O, Azərbaycanla Birləşmiş Ştatların hərbçiləri arasında əməkdaşlığın nümunəsi kimi Kosovo və Əfqanıstandakı birgə əməliyyatları xatırlatdı. General Çarlz Uold Xəzər dənizində sərhədin mühafizəsi proqramının uğurla davam etdiyini bildirərək, bu sahədə sahilyanı ölkələr arasında sıx əməkdaşlığın zəruriliyini də qeyd etdi. O, habelə vurğuladı ki, Prezident İlham Əliyevin liderliyi və bacarıqlı siyasəti Ermənistan-Azərbaycan münaqişəsinin həllində də müsbət dəyişikliklərə səbəb olacaqdır.

KANADA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR

Martın 15-də Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev ölkəmizdə səfərdə olan Kanadanın Xarici İşlər Nazirliyinin Mərkəzi Cənub-Şərqi Avropa bürosunun baş direktoru Devid Preston ilə görüşmüşdür.

Nazir Vilayət Quliyev bu səfərin Kanada ilə Azərbaycan arasındakı dostluq münasibətlərinin möhkəmlənməsi və işgüzar əlaqələrin genişlənməsi üçün faydalı olacağını, iki

ölkə arasındakı əməkdaşlığın perspektivinə müsbət təsir göstərəcəyinə dərin inam yaratdığını qeyd etmişdir. Nazir Kanada və Azərbaycan arasında əlaqələrin digər sahələrdə də genişlənməsinə və həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın davam etdirilməsinə tərəfdar olduğunu bildirmişdir.

Görüş zamanı Devid Preston səfərinin məqsədini iki dövlət arasında müxtəlif sahələrdə əlaqələrin genişlənməsi istiqamətində fikir mübadiləsi aparılmaqdan ibarət olduğunu diqqətə çatdırmışdır. Qonaq, həmçinin Kanada ilə Azərbaycan arasındakı əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsinə ölkəsinin böyük əhəmiyyət verdiyini, beynəlxalq təşkilatlarda daha sıx əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

Sonra nazir Vilayət Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində görülən işlər və qaçqınların ağır vəziyyəti barədə qonağa ətraflı məlumat vermiş, həmçinin bu münaqişənin beynəlxalq hüququn prinsip və normaları əsasında tezliklə həlli üçün dünya birliyin səylərinin artırılmasının vacibliyini qeyd etmişdir.

Son dövrlərdə Azərbaycanda baş verən proseslər haqqında qonağı məlumatlandıran nazir, bütün mövcud çətinliklərə baxmayaraq, Azərbaycanda sivil və demokratik cəmiyyət quruculuğu sahəsində nailiyyətlərin əldə olunduğunu bildirmişdir. Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin uğurla tikildiyini xatırladan nazir, iqtisadi inkişaf sahəsində Azərbaycanın bölgədə öncül mövqe tutduğunu xüsusilə qeyd etmişdir. Nazir, həmçinin erməni işğalı nəticəsində 1 milyondan çox qaçqının və məcburi köçkünün Azərbaycanı ciddi çətinliklərlə üz-üzə qoyduğunu qonağın diqqətinə çatdırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Devid Preston bu problemin tezliklə beynəlxalq birliyin birgə səyləri əsasında sülh yolu ilə həll ediləcəyinə ümidvar olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN HAZIRKI SƏDRİ SOLOMON PASSİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 16-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in hazırkı sədri, Bolqarıstan Respublikasının xarici işlər naziri Solomon Passi ilə təkbətək görüşü olmuşdur.

Hörmətli qonağı səmimiyyətlə salamlayan və onun Azərbaycana səfərindən məmnun qaldığını bildirən Prezident İlham Əliyev ölkəmizdə bütün sahələrdə həyata keçirilən islahatların müsbət nəticələri barədə məlumat vermiş, Azərbaycanda demokratik proseslərin getdiyini və əsas xəttin Avropaya inteqrasiyadan ibarət olduğunu və bu siyasətin gələcəkdə də davam etdiriləcəyini söyləmiş, həyata keçirilən mühüm irimiqyaslı beynəlxalq layihələrdə respublikamızın iştirakının əhəmiyyətindən danışmışdır.

Cənab Solomon Passi respublikamızda görülən işləri və Avropaya inteqrasiya prosesini yüksək qiymətləndirmiş, ATƏT-ə üzv ölkələrlə daha sıx inteqrasiya üçün Azərbaycana hər cür yardım göstəriləcəyini söyləmişdir.

Söhbət zamanı ölkəmizin ən ağrılı və ciddi problemi olan Ermənistan-Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsinə toxunulmuş, münaqişənin sülh yolu ilə həlli üçün ATƏT-in və Minsk qrupu həmsədrlərinin səylərinin gücləndirilməsinin vacib olduğu vurğulanmışdır. Belə bir əminlik ifadə edilmişdir ki, Cənubi Qafqaz bölgəsi üçün böyük təhlükə yaradan bu problem tezliklə beynəlxalq hüquq normaları əsasında ədalətli həllini tapacaqdır. Eyni zamanda xüsusi vurğulanmışdır ki, münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması şərtilə mümkündür.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Prezident sarayında ATƏT-in hazırkı sədri, Bolqarıstan Respublikasının xarici işlər naziri Solomon Passini və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev bundan əvvəl ATƏT-in sədri ilə təkbətək görüş zamanı geniş fikir mübadiləsi aparıldığını, bir çox məsələnin müzakirə edildiyini, Azərbaycanın strateji istiqamətinin beynəlxalq strukturlara, Avropa strukturlarına inteqrasiyadan ibarət olduğunu vurğuladı. Prezident İlham Əliyev dedi ki, Azərbaycanda bu vaxta qədər aparılmış və bundan sonra da davam etdiriləcək siyasət bizim düz yolla getdiyimizi göstərir.

Azərbaycanın sürətlə inkişaf edən ölkə olduğunu xatırladan Prezident İlham Əliyev bildirdi ki, iqtisadi, sosial, siyasi islahatlar öz müsbət nəticələrini verməkdədir. Bu islahatlar davam etdiriləcək və ölkəmiz hərtərəfli inkişafa nail olacaqdır. Azərbaycanın çox güclü iqtisadi potensialı var. Aparılan iqtisadi siyasət ölkəmizi iqtisadi cəhətdən gücləndirməyə imkan verir. Bütün iqtisadi göstəricilərimiz yüksəkdir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında liderdir. Ümumi daxili məhsulun ildən ilə artması da göstərir ki, aparılan iqtisadi islahatlar böyük uğurlar gətirir.

Azərbaycanda siyasi islahatların aparıldığını, demokratiyanın inkişaf etdiyini, çoxpartiyalı sistemin bərqərar olduğunu vurğulayan respublikamızın rəhbəri əminliklə dedi ki, gələcəkdə bizi bu yolda da böyük uğurlar gözləyir. Biz əminik, seçdiyimiz yol imkan verəcək ki, Azərbaycanda demokratik dəyərlər bundan sonra da inkişaf etsin və ölkəmizə böyük faydalar gətirsin.

Prezident İlham Əliyev bütün bunlarla yanaşı, sosial məsələlərin həllinə də böyük diqqət yetirildiyini, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının əsas məqsədinin Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsini daha da yüksəltməkdən, ən çətin vəziyyətdə yaşayan qaçqınlar və köçkünlərdən ötrü müasir, gözəl şəraitin təmin edilməsindən ibarət olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq dedi: Biz ümid edirik ki, ATƏT-in Minsk qrupu bu münaqişənin həlli istiqamətində öz səylərini artıracaqdır. Əfsuslar olsun ki, bu vaxta qədər bu istiqamətdə heç bir müsbət dəyişiklik yoxdur və münaqişə həll edilmə-

miş qalır. Artıq bütün dünya ictimaiyyəti bilir ki, bu münaqişə nəticəsində Azərbaycan torpağının 20 faizi işğal olunmuş, bir milyondan artıq qaçqın-köçkün yaranmışdır. Təəssüflər olsun ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur. Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmaq istəmir. Beləliklə, ümumiyyətlə, region üçün böyük təhlükə yaranır.

Problemin həlli üçün ilk növbədə, beynəlxalq hüquq normalarına əməl olunmasının zəruriliyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, münaqişə yalnız bu normalar əsasında öz həllini tapa bilər. Yəni Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar. Biz ümid edirik ki, ATƏT və onun Minsk qrupu öz səylərini göstərəcək və bu münaqişə tezliklə öz ədalətli, beynəlxalq hüquq normalarına əsaslanmış həllini tapacaqdır.

Cənab Solomon Passi vaxt ayırıb onu və nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısı İlham Əliyevə təşəkkürünü bildirdi. ATƏT-in hazırkı sədri Azərbaycan Prezidenti seçilməsi münasibətilə cənab İlham Əliyevi bir daha təbrik etdi, bu məsul vəzifədə ona uğurlar dilədi. O, Bakıda ilk dəfə olduğunu və şəhərin tarix-mədəniyyət abidələrinin onda böyük təəssürat yaratdığını söylədi. Qonaq Azərbaycanın Avropaya inteqrasiyası prosesini yüksək qiymətləndirdi. O, eyni zamanda, dedi ki, 15 il əvvəl heç kimin ağlına belə gəlməzdi ki, onun ölkəsinin də yerləşdiyi Balkan yarımadası Şimali Atlantika blokuna bu qədər yaxın olacaqdır. Lakin indi bu, reallıqdır və əminəm ki, inteqrasiya prosesi daha geniş vüsət alaraq bütün Qara dəniz məkanını əhatə edəcəkdir.

Cənab Solomon Passi ATƏT-ə üzv ölkələrlə daha sıx inteqrasiya üçün Azərbaycana hər cür yardım edəcəklərini bildirdi.ATƏT-in sədri Dağlıq Qarabağ münaqişəsindən danışaraq dedi ki, bunun nə dərəcədə ciddi və Azərbaycan xalqı üçün ağrılı problem olduğunu bilir. O, təəssüflə vurğuladı ki, ATƏT-in Minsk qrupunun vasitəçilik missiyası hələ də nəticə vermir. Qonağın fikrincə, onun rəhbərlik etdiyi təşkilat yalnız birbaşa danışıqların hər hansı bir nəticə verəcəyinə ümid edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ SƏRHƏD XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Rusiya Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin rəhbəri general-polkovnik Vladimir Proniçev başda olmaqla Sərhəd Xidmətinin nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları salamlayaraq dedi ki, Azərbaycan ilə Rusiya arasında bütün istiqamətlərdə, o cümlədən sərhədlərin mühafizəsi sahəsində yaxşı qarşılıqlı fəaliyyət yaranmışdır. Mən bu yaxınlarda Rusiyada rəsmi səfərdə oldum və səfər çox uğurla keçdi. Əldə olunmuş mühüm razılaşmalar münasibətlərimizin inkişafına daha da kömək edəcəkdir.

Bizim aramızda bütün istiqamətlərdə səmərəli əməkdaşlıq, qarşılıqlı anlaşma təşəkkül tapmaqdadır. Bundan ötrü Rusiya və Azərbaycan rəhbərliyinin siyasi iradəsi var. Əlbəttə, bunu fəal əməkdaşlıqla dolğunlaşdırmaq lazımdır.

Hesab edirəm ki, bütün strukturlarımız, idarə və xidmətlərimiz sıx əlaqədə olmalıdırlar. Bizim iqtisadi əməkdaşlığımız çox fəal həyata keçirilir, əmtəə dövriyyəsi ildən-ilə artır. Biz mal dövriyyəsini yaxın illərdə ikiqat artırmaq vəzifəsini qarşıya qoymuşuq. Bütün bunlar əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır.

Bilirəm ki, sərhədlərin mühafizəsi xidməti xətti ilə Rusiya və Azərbaycan arasında səmimi, mehriban qonşuluq münasibətləri yaranmışdır, qarşılıqlı fəaliyyət göstərilir. Sizin Azərbaycana səfəriniz qarşılıqlı fəaliyyətə, qarşılıqlı yardıma daha çox kömək edəcəkdir. Sərhədimiz həmişə xalqlarımız arasında sülh, qarşılıqlı fəaliyyət, əməkdaşlıq işinə xidmət edəcəkdir. Əminəm ki, sizin buraya gəlməyiniz münasibətlərimizin inkişafına və səviyyəsinin yüksəlməsinə daha da təkan verəcəkdir. Sizi bir daha salamlayır və ümidvar olduğumu bildirirəm ki, Bakıya səfəriniz buna kömək edəcəkdir.

Valdimir Proniçev səmimi qəbula görə Azərbaycan dövlətinin başçısına təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident, sağ olun. İdarələrimizin əməkdaşlığı üçün əlverişli şərait yaratdığınıza görə Sizə təşəkkür etmək istərdim. Hesab edirəm ki, idarələrimiz arasında çox səmimi və mehriban qarşılıqlı münasibətlər yaranmışdır. Şübhəsiz ki, əməkdaşlığımız ən başlıca məsələ ilə - vətəndaşlarımızın sərhədi rahat keçə bilməsi üçün onlara əlverişli şərait yaradılması ilə bağlıdır. Demək istəyirəm ki, MDB ölkələrinə səfərlər baxımından bu, mənim ilk səfərlərimdən biridir. Mən həmkarıma hörmətlə yanaşıram, onu bir peşəkar kimi, bir insan kimi qiymətləndirirəm. Yaraq-Qazmalar buraxılış məntəqəsinin açılış mərasimində iştirak etdiyinə görə ona təşəkkürümü bildirirəm. Onun bu mərasimdə olmasına imkan verdiyinizə görə Sizə də təşəkkür edirəm. Bu, məhz böyük dostluqdan xəbər verir.

İşimizlə bağlı bizim aramızda heç bir problem yoxdur. Sizin tapşırıqlarınız və Prezidentimizin tapşırıqları tam məsuliyyətlə yerinə yetirilir. Lakin biz daha tez-tez görüşmək istərdik. Bu, çox vacibdir. Qalan bütün məsələlərdə hər şey yaxşı səviyyədədir və əməkdaşlığımızı sivilizasiyalı qaydada inkişaf etdirəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Daha geniş Avropaya istiqamət: yeni gündəlik" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün martın 18-də Slovakiyaya gəlmişdir

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN YƏHUDİ KOMİTƏSİNİN VƏ BEYNƏLXALQ BENAYİT BRİTH TƏŞKİLATININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev martın 18-də Slovakiyanın paytaxtında, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın Yəhudi Komitəsinin beynəlxalq yəhudi işləri üzrə direktoru Endryu Beyker və Beynəlxalq Benayit Brith Təşkilatının vitse-prezidenti Daniyel Mariyaş ilə görüşmüşdür.

Səmimilik şəraitində keçən görüş zamanı Prezident İlham Əliyev ölkəmizin Avropa

strukturlarına sıx inteqrasiyasından danışdı və bildirdi ki, bu siyasət gələcəkdə də davam edəcəkdir.

Cənab Endryu Beyker 1996-cı ildə İlham Əliyev Amerikada olarkən onun Bostonda və digər şəhərlərdə keçirdiyi görüşləri xatırlatdı və vurğuladı ki, bu gün, Azərbaycan Prezidentinin xarici siyasəti çox təqdirəlayiqdir. O, Azərbaycanda bütün dinlərə mənsub insanlara, o cümlədən yəhudilərə münasibətdə olan tolerantlıqdan məmnunluğunu ifadə edərək dedi ki, bu, demokratik ölkə kimi Azərbaycanın imicini beynəlxalq aləmdə daha da artırır.

Amerika-Azərbaycan əlaqələrinin yüksək səviyyəsindən məmnun qaldıqlarını razılıqla vurğulayan Prezident İlham Əliyev və cənab Endryu Beyker bildirdilər ki, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası və ABŞ ilə əlaqələrin daha da yaxşılaşması üçün səy göstərəcəklər. Xüsusi vurğulandı ki, Azərbaycan Prezidentinin indiki konfransda iştirakı ölkənin Avropa strukturlarına inteqrasiyasının bariz nümunəsidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

Martın 18-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Mixail Saakaşvili arasında görüş olmuşdur.

Gürcüstanın dövlət başçısı Acarıstanda apardığı danışıqlar barədə ətraflı məlumat verərək bildirdi ki, bu danışıqlardan sonra Gürcüstanın gömrük məntəqələrində və limanlarında qayda-qanun yaradılması üçün xüsusi nümayəndə təyin olunması qərara alınmışdır. Prezident Mixail Saakaşvili vurğuladı ki, Azərbaycan Gürcüstan üçün çox mühüm bir ölkə və ticarət tərəfdaşıdır. Gürcüstanda qayda-qanun yaradılması region ölkələri, xüsusilə də Azərbaycanla normal ticarət əlaqələrinin davam etdirilməsi üçün çox vacibdir.

Prezident İlham Əliyevin Tbilisiyə səfərini səbirsizliklə gözlədiyini xüsusi vurğulayan, Bakıya səfərindən çox məmnun qaldığını və Azərbaycanın dövlət başçısı ilə görüşlərini yüksək qiymətləndirən Prezident Mixail Saakaşvili dedi: "Mən bu gün qardaşım və dostum İlham Əliyev ilə bu görüşə çox tələsirdim. Onu Gürcüstanda çox sevirlər".

Azərbaycan Prezidenti İlham Əliyev öz həmkarına təşəkkür edərək dedi ki, ölkəmizdə qonşu Gürcüstanda baş verən hadisələri böyük narahatlıqla izləyirlər. Lakin biz əmin idik ki, Gürcüstan Prezidentinin müdrikliyi bu məsələni həll etməyə imkan verəcəkdir. Gürcüstanda sabitlik Azərbaycan üçün çox mühümdür. Ona görə də mən məmnunam ki, bu problem öz həllini tapmışdır. O, Prezident Mixail Saakaşvilinin ölkəmizə səfərini xatırlayaraq yüksək qiymətləndirdi və prezidentlər arasında ilk anlardan dostluq və qardaşlıq münasibətlərinin yarandığını söylədi. Dövlətimizin başçısı dedi: "Azərbaycanda Gürcüstan Prezidentinə böyük ehtiram bəsləyirlər və onun Bakıya uğurlu səfərindən sonra bu hörmət və ehtiram daha da artmışdır".

Tbilisiyə rəsmi səfər edəcəyini xüsusi vurğulayan Prezident İlham Əliyev bildirdi ki, Gürcüstan və Azərbaycanın dövlət başçıları arasında sıx əlaqələr təkcə rəsmi səfərlər çərçivəsində deyil, habelə işgüzar səviyyədə də davam etdiriləcəkdir. Gərgin iş günündən sonra Gürcüstan rəhbərinin bu görüşə gəlməsi dövlət başçılarının istər ikitərəfli, istərsə də regional problemləri birgə həll etmək əzmini göstərir və onlar Azərbaycan və

Gürcüstan arasında əlaqələrin inkişafı üçün gələcəkdə daha böyük səylər göstərəcəklər.

Görüşdən sonra jurnalistlərin suallarına cavab verən Mixail Saakaşvili dedi ki, Prezident İlham Əliyev Azərbaycanda güclü dövlət yaratdığı kimi, mən də Gürcüstanda güclü dövlət yaratmaq əzmindəyəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Rumıniyanın baş naziri Adrian Nestaseni qəbul etmişdir.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da işə başlayacaq beynəlxalq konfransın çox böyük əhəmiyyəti olduğunu vurğuladı, Azərbaycanın Avropa strukturlarına daha sıx inteqrasiyası sahəsində atılan addımlardan ətraflı söhbət açdı.

Görüş zamanı bildirildi ki, Azərbaycan ilə Rumıniya arasında sıx dostluq və əməkdaşlıq mövcuddur. Hər iki ölkənin əməkdaşlıq sahəsində çoxlu proqram və layihələri vardır və bunlar uğurla həyata keçirilir. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq da yüksək səviyyədədir. Rumıniya Azərbaycanda həyata keçirilən irimiqyaslı neft və qaz layihələrinə, o cümlədən ölkəmizdə hasil edilən neftin və qazın gələcəkdə Avropaya çatdırılması məqsədi daşıyan layihələrə çox böyük maraq göstərir və bunlarda fəal iştirak etmək fikrindədir.

Mövcud dostluq və əməkdaşlıq əlaqələrini gələcəkdə daha da inkişaf etdirmək üçün ölkələrimizin hökumətlərinin səyləri artırmasının zəruriliyi bildirildi.

Daha sonda Prezident İlham Əliyev və Baş nazir Adrian Nestase ölkələrimiz arasında iqtisadi əlaqələrin gücləndirilməsi ilə bağlı yeni layihələr barədə ətraflı fikir mübadiləsi apardılar.

DÖVLƏTİMİZİN BAŞÇISI "DAHA GENİŞ AVROPAYA DOĞRU: YENİ GÜNDƏLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Martın 19-da Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda beynəlxalq konfrans öz işinə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.

On dörd ölkənin dövlət və hökumət başçılarının iştirak etdikləri bu mötəbər tədbirdən əvvəl, Slovakiya Prezidenti Rudolf Şuster öz iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə işgüzar səhər yeməyi vermişdir. Prezident İlham Əliyev sonra Slovakiya Prezidenti iqamətgahının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Milli Filarmoniyanın binasında keçirilən konfransın rəsmi açılışında Slovakiyanın Baş naziri Mikulaş Dzurinda iştirakçıları salamlayaraq, bu tədbirin öz ölkəsində keçirilməsindən qürur duyduğunu söylədi və bildirdi ki, burada Avropadan, Şimali Amerikadan tutmuş, Atlantik okeanı, Xəzər və Baltik dənizlərindən Aralıq dənizinə qədər böyük

ərazidə yerləşən ölkələrin nümayəndələri bütün Avropanın parlaq gələcəyini təmin edəcək məsələlərin müzakirəsinə toplaşmışlar.

Konfransın gündəliyindəki birinci məsələ - "Balkanlar və Avropaya inteqrasiya məsələləri" mövzusuna həsr olunmuşdu. Albaniya, Xorvatiya, Makedoniya, Bosniya və Herseqovinanın baş nazirləri mövzu ilə bağlı çıxışlarında öz ölkələrinin Avropaya inteqrasiyası sahəsində görülən işlərdən və mövcud problemlərdən ətraflı danışdılar.

"Avropanın Qara dəniz və Qafqaz qonşuluğu" mövzusuna aid ikinci məsələnin müzakirəsi zamanı çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev konfransın yüksək səviyyədə təşkilinə görə Slovakiyanın rəhbərliyinə təşəkkürünü bildirdi. O, Sovet İttifaqı dağıldıqdan sonra qazandığı müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı çətinliklərdən danışaraq, Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal olunmasının fəlakətli vəziyyət yaratdığını xatırlatdı, bütün bunlara baxmayaraq, 1996-cı ildən inkişaf dövrünün başlandığını bildirdi. O vaxtdan bəri ölkədə ümumi daxili məhsulun orta hesabla hər il 10 faiz artdığını, adambaşına xarici sərmayənin həcminə görə Azərbaycanın MDB məkanında lider olduğunu vurğulayaraq dedi ki, ölkəmiz yaxın illərdə iqtisadi cəhətdən daha da inkişaf edəcək və güclənəcəkdir.

Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr buna sübutdur. Xüsusilə Azərbaycan, Gürcüstan və Türkiyədən keçəcək neft və qaz kəmərlərinin inşası gələcəkdə regionun, o cümlədən ölkəmizin inkişafına daha da təkan verəcəkdir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın Avropa strukturlarına, Avroatlantika məkanına inteqrasiyası prosesi çox uğurla gedir, ölkəmiz NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə toxunaraq xatırlatdı ki, Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizdə 1milyon qaçqın-köçkün yaranmışdır və bu, çox ağır iqtisadi-sosial nəticələr doğurur. Çox təəssüf ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun fəaliyyəti hələ də heç bir nəticə vermir. Ona görə də Avropa Birliyi və Avropa Şurası münaqişənin sülh yolu ilə həlli istiqamətində səylərini gücləndirməlidir. Regionda sülhün və təhlükəsizliyin təmin olunması Avropanın da mənafelərinə uyğundur. Dövlətimizin başçısı daha sonra dedi ki, biz təcavüzkar separatizmi pisləyir, torpaqlarımızın işğaldan azad olunmasını tələb edirik və bu problemin beynəlxalq hüquq normaları əsasında həllinə tərəfdarıq. Azərbaycanda heç bir dövlətin hərbi bazası yoxdur və ümumiyyətlə, biz Qafqaz regionunda, xarici hərbi bazaların olmasına tərəfdar deyilik. Əgər Ermənistan-Azərbaycan münaqişəsi həll edilərsə, bölgədə sabitlik yaranar, təhlükəsizlik məsələləri daha da möhkəmlənər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz xanımlar və cənablar!

İlk öncə mən konfransın təşkilatçılarına və Slovakiya rəhbərliyinə minnətdarlığımı bildirmək istərdim. Onlar bizim səmərəli işləməyimiz üçün çox gözəl şərait yaratmışlar.

Azərbaycan yeni müstəqillik qazanmış bir ölkədir. Yalnız Sovet İttifaqı dağıldıqdan sonra biz digər respublikalarla birlikdə dövlət müstəqilliyi qazandıq. Lakin ölkəmiz

dövlət müstəqilliyini yenicə qazanmasına baxmayaraq, çox qədim tarixi ənənələrə malikdir. Bizim zəngin mədəni irsimiz və nəhəng intellektual potensialımız vardır.

Müstəqilliyin ilk illəri ölkəmiz üçün çox mürəkkəb olmuşdur. Iqtisadi vəziyyət çox çətin idi, bu sahədə, habelə siyasi və hərbi sahələrdə dərin böhran hökm sürürdü. Digər tərəfdən, vətəndaş müharibəsi təhlükəsi cəmiyyətimizdə sabitliyin təmin edilməsinə imkan vermirdi. Bütün bunlarla yanaşı, Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərimizin 20 faizinin işğalı ölkəmizi tam süquta gətirib çıxarmışdı. Sabitlik sonradan yarandı. Yalnız hökumətin böyük səyləri nəticəsində müstəqilliyimizdən bir qədər sonra, daha dəqiq desək, 1996-cı ildən başlayaraq, ölkədə iqtisadiyyat inkişaf etməyə başladı, tam ictimai-siyasi sabitlik bərqərar oldu.

Ölkənin iqtisadi potensialına və əldə etdiyimiz nəticələrə nəzər salsaq, görərik ki, 1996-cı ildən bu günədək hər il ümumi daxili məhsul orta hesabla 10 faiz artmış, inflyasiyanın illik səviyyəsi bu müddət ərzində 2 faizdən yuxarı qalxmamışdır. Dünyada tanınmış xarici şirkətlərin iqtisadiyyatımıza yatırdığı nəhəng sərmayələr keçmiş sovet respublikaları içərisində adambaşına xarici sərmayənin həcmi baxımından Azərbaycanı aparıcı ölkəyə çevirmişdir.

Ölkəmizdə həyata keçirilmiş genişmiqyaslı özəlləşdirmə proqramı güclü özəl sektor yaratmağa imkan vermişdir. Bu gün ümumi daxili məhsulun 74 faizi məhz bu sektorda formalaşır.

Siyasi və ictimai sabitlik iqtisadi artıma nail olmağın əsas səbəbidir. Mən əminəm ki, qarşıdakı illər ərzində bu iqtisadi artım ölkəmizə daha çox firavanlıq gətirəcəkdir. Bu gün dünyada enerji daşıyıcıları sahəsində ən böyük layihələr Azərbaycan, Gürcüstan və Türkiyədə həyata keçirilir. Milyardlarla dollar dəyəri olan enerji layihələri bizim müstəqil ölkələrin həm bir-birlərinə, həm də Avroatlantik məkanına inteqrasiyasına şərait yaradacaqdır. Bu, bizim həqiqi istəyimiz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avroatlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir.

Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir. Avropa Birliyinin Cənubi Qafqaz məsələləri üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bizdə minnətdarlıq və razılıq hissi doğurmuşdur. Bu çox vacib qarşılıqlı addımlar Azərbaycanın və ümumilikdə, Cənubi Qafqazın Avropa ailəsinə daha sıx inteqrasiyasına imkan verəcəkdir.

Əlbəttə, biz hələ çox şey öyrənməliyik. Amma, ölkəmizin də qədim tarixi ənənələri və zəngin mədəni irsi vardır. Biz də Avropaya böyük töhfələr verə və ümumi dəyərləri bölüşə bilərik. Əminəm ki, yeni xətt - "Daha geniş Avropaya doğru" siyasəti bizim ölkəyə daha çox firavanlıq gətirəcəkdir. Bu isə bizim əsas məqsədimizdir.

Azərbaycan hökumətinin gündəliyindəki ən öncül məsələlərdən biri də sosial problemlərin həllidir. Biz bazar münasibətlərinə əsaslanan iqtisadiyyatımızla sosialyönümlü büdcə arasında çox gözəl vəhdət yaratmağa nail olmuşuq. Əgər büdcəmizə baxsanız, görərsiniz ki, onun 70-80 faizi məhz sosial problemlərin həllinə yönəldilmişdir. Eyni zamanda, bazar iqtisadiyyatının bütün əsas komponentləri qüvvədə qalır.

Bu gün yalnız Azərbaycanda deyil, bütün regionda, habelə daha geniş ərazidə təhlükə mənbəyi olan məsələ Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmamasıdır. Uzun tarixçəsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən böyük təhlükə mənbəyidir və vəziyyətin qeyri-sabit olmasına gətirib çıxarmışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi 8 milyonluq ölkə əhalisinin 1 milyona yaxınının qaçqın və köçkün vəziyyətinə düşməsinə səbəb olmuşdur. Əlbəttə, bu bizim üçün həm də çox mühüm iqtisadi, sosial və siyasi məsələdir. Biz çox istərdik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin nizama salınmasında daha fəal iştirak etsin. Uzun illərdir ki, ATƏT-in Minsk qrupu Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyanın həmsədrliyi ilə bu münaqişənin həlli ilə məşğuldur. Təəssüf ki, hələ də nəzərəçarpacaq bir nəticə yoxdur. Ümidvarıq ki, digər beynəlxalq təşkilatlar – o cümlədən Avropa Birliyi və Avropa Şurası da bu məsələyə diqqəti artıracaqlar. Biz artıq bu təşkilatların münaqişənin həlli ilə bağlı, ona siyasi qiymət vermək və onu sülh yolu ilə nizama salmaqla əlaqədar səylərini hiss edirik. Münaqişəni sülh yolu ilə həll etməyə çalışsaq da, deməliyəm ki, Azərbaycan xalqının dözümünün də həddi vardır. Biz ərazi bütövlüyümüzün bərpa olunmasını istəyirik və bütün ölkələrin ərazi bütövlüyünə və dövlət sərhədlərinə hörmətlə yanaşırıq. Əlbəttə ki, özümüzə qarşı da eyni münasibəti gözləyirik.

Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.

Ermənistan tərəfi bu təcavüzə və işğala bəraət qazandırmaq üçün, adətən, beynəlxalq hüququn digər prinsiplərindən çıxış etməyə çalışır. Onlar nəzərdə tuturlar ki, Dağlıq Qarabağ ermənilərı öz müqəddəratını həll etmək hüququna malikdirlər. Lakin mən sizin nəzərinizi bir fakta cəlb etmək istəyirəm. Ermənilərin artıq öz ölkəsi və dövləti vardır. Onlar artıq öz müqəddəratını Ermənistan dövləti çərçivəsində təyin etmişlər. İndi təsəvvür edin ki, ermənilər yaşadıqları hər bir ölkədə öz müqəddəratını təyin etməyə çalışsalar, onda nə baş verər? Hamıya məlumdur ki, onlar müxtəlif ölkələrdə yaşayırlar, lakin bu o demək deyil ki, yaşadıqları hər bir yerdə muxtariyyət yaratmalı və separatçılıq etməlidirlər. Həm də bu separatçılıq təcavüzkar xarakter daşıyır. Əminəm ki, beynəlxalq ictimaiyyətin bu mövzuya daha çox diqqət yetirəcəyi təqdirdə, məsələ beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həll edilə bilər.

Düşünürəm ki, problemi həll etməkdən ötrü yardımçı amillərdən biri kimi, Cənubi Qafqazın demilitarizasiyası siyasətini yeritmək olar. Bizim ərazimizdə heç bir xarici hərbi baza yoxdur. Əgər Cənubi Qafqazın digər ölkələrində də buna nail olunarsa, əminəm ki, bu regionda tezliklə sülh və təhlükəsizlik bərqərar olar. Biz sülh şəraitində yaşamaq istəyirik, iqtisadiyyatımızı, ölkəmizi daha da inkişaf etdirmək arzusundayıq, inteqrasiyaya can atırıq. Əminəm ki, ölkələrimizin birgə səyləri, bir-birlərinin ərazi bütövlüyünə və insanların sülh şəraitində yaşamaq haqlarına hörmət bu sahədə bizə yardımçı olacaqdır.

Əziz xanımlar və cənablar!

Bu mühüm tədbirdə iştirak etmək imkanına görə sizə təşəkkürümü bildirirəm. Əminəm ki, bu konfrans ölkəmizin Avropa strukturlarına daha da yaxınlaşmasına, bu sahədə apardığımız siyasətin gələcəkdə də davam etdirilməsinə kömək edəcəkdir.

Diqqətinizə görə sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da Bratislavada, beynəlxalq konfrans çərçivəsində ATƏT-in hazırkı sədri, Bolqarıstanın xarici işlər naziri Solomon Passi ilə görüşmüşdür.

ATƏT-in sədri Bakıda Prezident İlham Əliyevlə görüşünü xatırlatdı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə yanaşı, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası barədə də danışdı. O, Bakıya səfərindən dərhal sonra Prezident İlham Əliyevin 129 məhbusu əfv etməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev bildirdi ki, ATƏT-in hazırkı sədrinin Bakıya səfəri zamanı keçirilən görüşdə çox konstruktiv dialoq aparılmışdır və Azərbaycan Avropa strukturlarına daha sıx inteqrasiya siyasətini gələcəkdə də davam etdirəcəkdir.

Səmimilik şəraitində keçən görüşdə Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyevin martın 19-da Bratislavada Avropa Birliyinin komissarı Günter Verhögen ilə görüşü olmuşdur.

Avropa Birliyinin komissarı Prezident İlham Əliyevi dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi, ona bu məsuliyyətli fəaliyyətində uğurlar arzuladı.

Prezident İlham Əliyev Azərbaycan müstəqillik qazandıqdan sonra, xüsusilə son illərdə aparılan islahatlar barədə ətraflı danışdı və bildirdi ki, demokratiyanın və bazar iqtisadiyyatının inkişafı yolunda qazandığı nailiyyətlər məhz ölkədə yaradılmış sabitlik nəticəsində mümkün olmuşdur.

Respublikamızın rəhbəri Avropa Birliyi ilə əlaqələrin yüksək səviyyədə olduğunu, bu təşkilatın ölkəmizə iqtisadi yardımını, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində səylər göstərdiyini vurğuladı, AB-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsini onun regionda fəaliyyətinin mövkəmlənməsi kimi qiymətləndirdi.

Cənab Günter Verhögen Azərbaycanla Avropa Birliyi arasında əlaqələrin durmadan inkişaf etdiyini vurğulayaraq dedi ki, Cənubi Qafqaz ölkələrinin "Daha geniş Avropa" təşəbbüsünə qoşulması barədə strateji sənədlə əlaqədar yaradılmış komissiyanın işi yaxın vaxtlarda yekunlaşacaqdır.

O, həmçinin Avropa Birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini artırdığını dedi və özünün yaxın vaxtlarda Bakıya səfər edəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Prezidenti İlham Əliyev Slovakiyaya səfəri çərçivəsində martın 19-da NATO-nun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.

Səmimilik şəraitində keçən görüş zamanı NATO ilə Azərbaycan arasında mövcud əlaqələr müzakirə olundu, ölkəmizin Avroatlantika strukturlarına inteqrasiyası məsələsinə toxunuldu, habelə NATO-nun bu ilin iyununda İstanbulda keçiriləcək sammitinə hazırlıq işlərinə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev NATO ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq dedi ki, ölkəmizin bu təşkilatla tərəfdaşlığı mütərəqqi xarakter daşıyır. O, Avroatlantik strukturlarına inteqrasiyanın mühüm olduğunu bir daha diqqətə çatdıraraq bildirdi ki, Azərbaycan bu istiqamətdə öz siyasətini bundan sonra da davam etdirəcəkdir.

Yaap de Hoop Sxeffer xüsusi vurğuladı ki, NATO Cənubi Qafqaza daha çox diqqət yetirərək, Azərbaycanı bu təşkilatın vacib tərəfdaşı kimi qiymətləndirir.

Görüşdə Azərbaycanla NATO arasında əməkdaşlığa dair bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı, xüsusilə NATO ilə hərbi əməkdaşlığa dair Azərbaycanda hazırlanan fəaliyyət planı diqqətə çatdırıldı və bildirildi ki, bu plan artıq müzakirə olunmuşdur.

Söhbət zamanı Cənubi Qafqazda vəziyyətə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivlərinə də toxunuldu. Yaap de Hoop Sxeffer vurğuladı ki, Şimali Atlantika Alyansı münaqişənin tezliklə sülh yolu ilə həll olunmasını arzu edir və bu, NATO üçün xüsusi əhəmiyyət daşıyır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "BLOOMBERG" TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da, Bratislavaya işgüzar səfərinin sonunda onun üçün ayrılmış iqamətgahda verilişləri bütün dünyada 7 dildə yayımlanan nüfuzlu "Bloomberg" telekanalının müxbirinə müsahibə vermişdir.

SUAL: Cənab Prezident, müsahibəyə razılıq verdiyinizə görə sağ olun. Son vaxtlar Rusiya ilə Azərbaycan arasında münasibətlərdə mülayimləşmə müşahidə edilir. Siz bundan nə gözləyirsiniz?

CAVAB: Bu proses artıq bir neçə il əvvəl, Rusiyaya Vladimir Putinin rəhbərlik etdiyi vaxtdan başlanmışdır. Həqiqətən, ölkələrimiz arasında çox əlamətdar, müsbət dəyişikliklər baş vermişdir - mövqelər yaxınlaşdırılmış, əvvəllər ziddiyyət doğuran məsələlər həllini tapmışdır. Bununla da, həm Rusiya, həm də Azərbaycan yəqin etmişlər ki, bir-birinə rəqib olmaqla deyil, əməkdaşlıq etməklə daha böyük uğurlar qazanmaq mümkündür. İndi münasibətlər çox yüksək səviyyədədir, biz yaxşı qonşularıq, ikitərəfli məsələlərdə, eləcə də digər məsələlərdə aramızda, əslində, fikir ayrılığı yoxdur.

Ümidlər əməkdaşlığımızı bundan sonra da möhkəmlətməkdən ibarətdir. Bu yaxınlarda mən Rusiyada rəsmi səfərdə oldum. Səfər çox uğurlu keçdi. Bir sıra mühüm sənədlər

imzalandı, bütün məsələlərə dair çox geniş söhbət getdi. Biz normal, səmimi və mehriban qonşuluq münasibətləri olmasında maraqlıyıq. Elə Rusiyanın özü də. Odur ki, siyasi iradə olduqda, bu münasibətlər, təbii ki, real məzmunla dolğunlaşır.

SUAL: Bütün bu yaxşı münasibətlər Xəzərin bölgüsü məsələsinin həllinə şərait yaradır. Daha bir problem var ki, o da Xəzər hövzəsinin sürətlə hərbiləşdirilməsidir. Siz buna necə baxırsınız?

CAVAB: Yeri gəlmişkən, Xəzər problemi keçmişdə Rusiya ilə Azərbaycan arasında həmişə müxtəlif mövqelər doğurmuş məsələlərdən biri idi. İndi, demək olar ki, bizim aramızda heç bir məsələ yoxdur. Biz sərhədimizin delimitasiyası haqqında Rusiya ilə ikitərəfli saziş imzalamışıq. Bizim Qazaxıstanla da sazişimiz, habelə Rusiya ilə Qazaxıstan arasında saziş var. Zənnimcə, bu ikitərəfli sazişlər çoxsahəli hərtərəfli sazişin əsasını təşkil etməlidir. Çünki bu sənədlər tərəflərin qarşılıqlı mənafelərini tam əks etdirir.

Regionda hərbi iştirakın artırılması məsələsinə gəldikdə isə, biz həmişə Xəzər dənizinin silahsızlaşdırılmasının tərəfdarı olmuşuq. Azərbaycanın kifayət qədər hərbi donanması vardır, lakin biz hesab edirik ki, Xəzər dənizi sülh zonası olmalı, burada rəqabət yox, əməkdaşlıq hökm sürməlidir. Xəzər dənizində bölünməli heç nə yoxdur, hər ölkənin öz sektoru vardır, dənizin sektorlara bölünməsi artıq heç kimdə heç bir sual doğurmur. Bu gün yalnız sektorlara bölünmənin bəzi aspektləri ilə bağlı məsələ mövcuddur. Biz həmişə beynəlxalq hüquq və beynəlxalq təcrübə normalarını əsas götürmüşük, Rusiya və Qazaxıstanla imzaladığımız sazişlər də bunu təsdiq edir. Zənnimcə, biz birgə səylərlə Xəzər dənizində gərginliyi artırmağa yox, azaltmağa çalışmalıyıq.

SUAL: Azərbaycanda və Gürcüstanda baş vermiş dəyişikliklər dünya ictimaiyyətinin diqqətini cəlb etdi. İndi siz Avropaya üz tutmusunuz, eyni zamanda, hesab edirsiniz ki, bu qarışıq dövrdə Qafqazın İranla da, İraqla da yaxşı münasibətləri olmalıdır.

CAVAB: Bizim siyasətimiz çoxcəhətlidir. Hər bir ölkə kimi, Azərbaycanın da xarici siyasəti öz mənafelərinin qorunmasına, ölkəmizin milli mənafelərinin tam şəkildə təmin olunmasına yönəlmişdir. Xarici siyasətdə bu, ilk növbədə, qonşu ölkələrlə - Rusiya, Türkiyə, Gürcüstan və İranla, habelə dünya siyasətinin mühüm amilləri - Avropa Birliyi, Avropa cəmiyyəti ilə yaxşı münasibətlər qurulmasına əsaslanır. Azərbaycanın təcrübəsi sübut edir ki, bunların biri digərinə mane olmur. Amerika Birləşmiş Ştatları ilə çox yaxşı münasibətlərimiz var, bir sıra geniş məsələlər üzrə Avropa Birliyi ilə, habelə İranla əməkdaşlıq edirik. Yəni, biri digərini istisna etməməlidir. Biz həmişə çalışmışıq ki, ölkəmiz rəqabət yox, əməkdaşlıq meydanı olsun. Qafqaz çox mürəkkəb və təəssüf ki, çox təhlükəli regiondur. Belə gətirib ki, burada keçmişdə də, indi də çoxlu münaqişələr baş verir, onlardan biri də Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən davam etməkdə olan işğalıdır. Əlbəttə, Qafqazda sülh və əmin-amanlığın təmin edilməsinin həm Avropa, həm də bütün dünya üçün daha böyük əhəmiyyəti olacaqdır. Biz sülhə, təhlükəsizliyə can atırıq və ümid edirik ki, qalan ölkələr də bu istiqamətdə fəal işləyəcəklər.

Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da, Bratislavaya işgüzar səfərinin sonunda onun üçün ayrılmış iqamətgahda verilişləri bütün dünyada 7 dildə yayımlanan nüfuzlu "Bloomberg" telekanalının müxbirinə müsahibə vermişdir.

SUAL: Cənab Prezident, müsahibəyə razılıq verdiyinizə görə sağ olun. Son vaxtlar Rusiya ilə Azərbaycan arasında münasibətlərdə mülayimləşmə müşahidə edilir. Siz bundan nə gözləyirsiniz?

CAVAB: Bu proses artıq bir neçə il əvvəl, Rusiyaya Vladimir Putinin rəhbərlik etdiyi vaxtdan başlanmışdır. Həqiqətən, ölkələrimiz arasında çox əlamətdar, müsbət dəyişikliklər baş vermişdir - mövqelər yaxınlaşdırılmış, əvvəllər ziddiyyət doğuran məsələlər həllini tapmışdır. Bununla da, həm Rusiya, həm də Azərbaycan yəqin etmişlər ki, bir-birinə rəqib olmaqla deyil, əməkdaşlıq etməklə daha böyük uğurlar qazanmaq mümkündür. İndi münasibətlər çox yüksək səviyyədədir, biz yaxşı qonşularıq, ikitərəfli məsələlərdə, eləcə də digər məsələlərdə aramızda, əslində, fikir ayrılığı yoxdur. Ümidlər əməkdaşlığımızı bundan sonra da möhkəmlətməkdən ibarətdir. Bu yaxınlarda mən Rusiyada rəsmi səfərdə oldum. Səfər çox uğurlu keçdi. Bir sıra mühüm sənədlər imzalandı, bütün məsələlərə dair çox geniş söhbət getdi. Biz normal, səmimi və mehriban qonşuluq münasibətləri olmasında maraqlıyıq. Elə Rusiyanın özü də. Odur ki, siyasi iradə olduqda, bu münasibətlər, təbii ki, real məzmunla dolğunlaşır.

SUAL: Bütün bu yaxşı münasibətlər Xəzərin bölgüsü məsələsinin həllinə şərait yaradır. Daha bir problem var ki, o da Xəzər hövzəsinin sürətlə hərbiləşdirilməsidir. Siz buna necə baxırsınız?

CAVAB: Yeri gəlmişkən, Xəzər problemi keçmişdə Rusiya ilə Azərbaycan arasında həmişə müxtəlif mövqelər doğurmuş məsələlərdən biri idi. İndi, demək olar ki, bizim aramızda heç bir məsələ yoxdur. Biz sərhədimizin delimitasiyası haqqında Rusiya ilə ikitərəfli saziş imzalamışıq. Bizim Qazaxıstanla da sazişimiz, habelə Rusiya ilə Qazaxıstan arasında saziş var. Zənnimcə, bu ikitərəfli sazişlər çoxsahəli hərtərəfli sazişin əsasını təşkil etməlidir. Çünki bu sənədlər tərəflərin qarşılıqlı mənafelərini tam əks etdirir. Regionda hərbi iştirakın artırılması məsələsinə gəldikdə isə, biz həmişə Xəzər dənizinin silahsızlaşdırılmasının tərəfdarı olmuşuq. Azərbaycanın kifayət qədər hərbi donanması vardır, lakin biz hesab edirik ki, Xəzər dənizi sülh zonası olmalı, burada rəqabət yox, əməkdaşlıq hökm sürməlidir. Xəzər dənizində bölünməli heç nə yoxdur, hər ölkənin öz sektoru vardır, dənizin sektorlara bölünməsi artıq heç kimdə heç bir sual doğurmur. Bu gün yalnız sektorlara bölünmənin bəzi aspektləri ilə bağlı məsələ mövcuddur. Biz həmişə beynəlxalq hüquq və beynəlxalq təcrübə normalarını əsas götürmüşük. Rusiya və Qazaxıstanla imzaladığımız sazişlər də bunu təsdiq edir. Zənnimcə, biz birgə səylərlə Xəzər dənizində gərginliyi artırmağa yox, azaltmağa çalışmalıyıq.

SUAL: Azərbaycanda və Gürcüstanda baş vermiş dəyişikliklər dünya ictimaiyyətinin diqqətini cəlb etdi. İndi siz Avropaya üz tutmusunuz, eyni zamanda, hesab edirsiniz ki, bu qarışıq dövrdə Qafqazın İranla da, İraqla da yaxşı münasibətləri olmalıdır.

CAVAB: Bizim siyasətimiz çoxcəhətlidir. Hər bir ölkə kimi, Azərbaycanın da xarici siyasəti öz mənafelərinin qorunmasına, ölkəmizin milli mənafelərinin tam şəkildə təmin olunmasına yönəlmişdir. Xarici siyasətdə bu, ilk növbədə, qonşu ölkələrlə - Rusiya, Türkiyə, Gürcüstan və İranla, habelə dünya siyasətinin mühüm amilləri - Avropa Birliyi, Avropa Cəmiyyəti ilə yaxşı münasibətlər qurulmasına əsaslanır. Azərbaycanın təcrübəsi sübut edir ki, bunların biri digərinə mane olmur. Amerika Birləşmiş Ştatları ilə çox yaxşı münasibətlərimiz var, bir sıra geniş məsələlər üzrə Avropa Birliyi ilə, habelə İranla əməkdaşlıq edirik. Yəni, biri digərini istisna etməməlidir. Biz həmişə çalışmışıq ki, ölkəmiz rəqabət yox, əməkdaşlıq meydanı olsun. Qafqaz çox mürəkkəb və təəssüf ki, çox təhlükəli regiondur. Belə gətirib ki, burada keçmişdə də, indi də çoxlu münaqişələr baş verir, onlardan biri də Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən davam etməkdə olan işğalıdır. Əlbəttə, Qafqazda sülh və əmin-amanlığın təmin edilməsinin həm Avropa, həm də bütün dünya üçün daha böyük əhəmiyyəti olacaqdır. Biz sülhə, təhlükəsizliyə can atırıq və ümid edirik ki, qalan ölkələr də bu istiqamətdə fəal işləyəcəklər.

SUAL: Cənab Prezident, Azərbaycan neft dünya bazarlarına çatdırıldıqdan sonra ölkənizdəki iqtisadi vəziyyət yaxşılığa doğru xeyli dəyişmişdir. Növbəti illər üçün Sizin iqtisadi proqnozunuz necədir?

CAVAB: Ölkəmizin gələcəyini parlaq görürəm. Bizim iqtisadi göstəricilərimizin artımı yalnız bu günlə bağlı deyildir. 1996-cı ildən başlayaraq, ümumi daxili məhsulun illik artımı 10 faiz təşkil edir, inflyasiya çox aşağı həddədir, qeyd etdiyim dövr ərzində cəmi 2 faiz olmuşdur. Adambaşına düşən xarici sərmayələr baxımından biz keçmiş sovet respublikaları içərisində öndə gedirik. Əlbəttə, böyük neft və qaz layihələri, boru kəmərlərinin çəkilişi, çoxmilyardlıq sərmayə qoyuluşu ölkəmizə yaxın gələcəkdə iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilmək imkanı verəcəkdir. Bu gün dünyadakı ən böyük enerji layihəsi Azərbaycanda həyata keçirilir. Əlbəttə, bu və digər layihələr sülh və firavanlıq gətirəcəkdir. Biz artıq növbəti 5 il üçün sosial və iqtisadi inkişaf planını qəbul etmişik. Biz yüz minlərlə iş yerlərinin açılmasını planlaşdırırıq. Regionları inkişaf etdirmək üçün proqram həyata keçiririk, özəlləşdirməni davam etdirəcəyik. Bütün bu tədbirlər insanların gələcək həyatını yaxşılaşdırmağa imkan verəcəkdir. Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik. Ölkəmizdə özəl sektorun payı getdikcə artır və ümumi daxili məhsulun 70 faizdən çoxu bu sektorun payına düşür. Bu, kifayət qədər yüksək göstəricidir. Biz ümid edirik ki, nəzərdə tutduğumuz planların hamısı yerinə yetiriləcəkdir. Bunun üçün biz, əlbəttə, çox işləməliyik və ölkədəki ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. Çünki yalnız bu halda biz xarici sərmayələri iqtisadiyyatımıza cəlb edə bilərik.

SUAL: Siz 2006-cı il üçün müqavilə yataqlarından neft hasilatını 15 milyon tona çatdırmağı planlaşdırırdınız. Bu məqsədiniz dəyişməz olaraq qalırmı?

CAVAB: Bəli, bu, bizim proqnozlarımız idi. Lakin, bu da son məqsəd deyildir. Yaxın gələcəkdə hətta 50 milyondan çox neft istehsal etməyi nəzərdə tuturuq. Zənnimcə, bunun özü də son rəqəm deyildir. Amma bu rəqəm indi bizim inşa etdiyimiz boru xətti üçün tam yetərlidir. Mən Bakı-Tbilisi-Ceyhan neft kəmərini nəzərdə tuturam. Bizim nəhəng neft yataqlarımız vardır. Bundan başqa, böyük qaz yataqları da aşkar edilmişdir. Əminəm ki, Azərbaycan qazı tezliklə Avropaya nəql olunacaqdır və artıq Türkiyə ilə bu barədə razılıq imzalanmışdır. Yəqin sizə məlumdur ki, Türkiyə də öz növbəsində Yunanıstanla razılıq əldə etmişdir. Yunanıstandan isə Avropanın digər ölkələrinə qazın nəqli nəzərdə tutulur. Beləliklə, Azərbaycan qazı Avropanı təmin edəcək daha bir etibarlı mənbə olacaqdır. Bu, həm bizim üçün, həm də istehlakçılar üçün sərfəlidir. Çünki alternativ qaz təchizatı olduqda, rəqabət nəticəsində qiymətlər də münasib olur. Nəzərdə tutduğumuz layihələr regiondakı bütün vəziyyətə əsaslı təsir edəcəkdir. Təbiət bizim məmləkətə zəngin sərvətlər bəxş etmişdir. Amma iqtisadiyyat, əsasən, neft üzərində qurularsa, onda bu, ölkənin zərərinə işləyər.

SUAL: Siz "Holland sindromu" təhlükəsindən ehtiyat edirsinizmi və bu təhlükəyə qarşı hansı tədbirləri görürsünüz?

CAVAB: İndiyədək heç bir problem olmayıbdır. Amma biz belə təhlükənin qarşısının alınmasını nəzərdən qaçırmırıq. Biz gələcək inkişafımızda yalnız neft sektoruna ümid bəsləməməli, hər səhər dünya bazarlarında neftin qiymətini izləməklə kifayətlənməməliyik. Neftin yaratdığı imkanlardan istifadə edib iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirməliyik. Bu məqsədlə biz bu yaxınlarda regionların inkişaf proqramını qəbul etmişik və bu proqramda bütün tədbirlərin icra müddəti dəqiqliklə göstərilmişdir. İşimizi bu əsasda qurmağa çalışırıq. Biz çox gözəl bilirik ki, neft nə vaxtsa tükənəcəkdir. Ona görə də iqtisadi əsasları elə qurmalıyıq ki, onlar neft amilindən asılı olmasınlar. Lakin biz həm də realist olmalıyıq. Azərbaycan böyük ölkə deyildir və nəhəng neft potensialını nəzərə alsaq, neft amili hələ uzun müddət iqtisadiyyatda aparıcı rol oynayacaqdır. Amma biz "Holland sindromu"nun və onun nəticələrinin qarşısını almaq üçün əlimizdən gələni etməliyik. Bizim nailiyyətlərimiz çoxdur, potensialımız böyükdür. Amma eyni zamanda, sovet dövründən qalmış ağır miras da mövcuddur. Biz iqtisadiyyatımızı, cəmiyyətimizi və siyasi strukturlarımızı müasirləşdirərək Avropa standartlarına çatdırmalıyıq.

SUAL: Məlum olduğu kimi, Gürcüstanla Acarıstan arasında siyasi gərginlik yaşanır. Sizin neft kəməriniz isə Gürcüstandan keçəcəkdir. Azərbaycan Gürcüstanla birgə bu problemi həll etməyi düşünürmü?

CAVAB: Dünən Gürcüstan Prezidenti ilə görüşüm oldu. O, Acarıstandan yenicə qayıtmışdır. Hazırda vəziyyət nəzarət altındadır və gərginliyin azalması bizi də çox sevindirir. Bizim neft kəmərimiz isə Acarıstandan keçmir. Bu kəmər Gürcüstanın digər hissələrindən keçəcəkdir. Amma Gürcüstandakı şərait layihənin həyata keçirilməsi üçün çox vacibdir. Eyni zamanda, hər üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə üzərinə öhdəliklər götürübdür. Bu öhdəliklərə əsasən, neftin etibarlı və təhlükəsiz daşınması nəzərdə tutulur. Biz heç kimin təhlükəsizliyi təmin etmək qabiliyyətinə şübhə etmirik. Ümidvarıq ki, Gürcüstan hökuməti əvvəlki kimi, indi də prosesləri nəzarət altında saxlaya biləcək və bizim neftin dünya bazarlarına çatdırılmasında problem olmayacaqdır.

SUAL: Qeyd etdiniz ki, Azərbaycan MDB məkanında adambaşına düşən xarici sərmayələrin həcminə görə liderdir. Dövlət Neft Şirkətini özəlləşdirməklə bu göstəricini daha yüksək səviyyəyə çatdırmaq olarmı? Bu şirkətin özəlləşdirilməsinə dair planlar mövcuddurmu?

CAVAB: İndiyədək belə planlar olmayıbdır. Amma gəlin, bir az məsələyə aydınlıq gətirək. Azərbaycan Dövlət Neft Şirkəti böyük bir qurumdur və onun tərkibinə bir sıra infrastrukturlar daxildir. Buraya neftayırma zavodlarını, tikinti müəssisələrini, qazma-istehsalat birlikləri və digərlərini aid etmək olar. Hökumətimiz bu sərvətləri Dövlət Neft Şirkəti vasitəsilə idarə edir. Ona görə də özəlləşdirmə dedikdə, söhbət yalnız bu şirkətə daxil olan ayrı-ayrı istehsalat birliklərinin, avadanlıqların və qurğuların özəlləşdirilməsindən gedə bilər. Dövlətə məxsus təbii sərvətlərin özəlləşdirilməsindən söhbət gedə bilməz. Əslində, Dövlət Neft Şirkətinin özəlləşdirilməsi prosesinə başlanılıbdır. Əvvəllər dövlətə məxsus olan bir sıra qurumlar artıq xüsusi mülkiyyətə verilmişdir. O ki qaldı quruda və dənizdə olan təbii sərvətlərə, onlar dövlətin inhisarında qalacaqdır.

SUAL: Azərbaycanın ənənəvi olaraq İranla yaxşı münasibətləri olmuşdur. Xəzər dənizinin sərhədlərə bölünməsi məsələsinə dair isə müəyyən problemlər vardır. Siz xüsusi danışıqlar aparmağı nəzərdə tutursunuzmu? Məlumdur ki, bp şirkəti "Alov" yatağında qazma işlərinə başlamaq istəyirdi.

CAVAB: Əlbəttə, biz istərdik ki, məsələ ilə bağlı geniş müzakirələr aparılsın. Eyni zamanda, biz 5 Xəzəryanı dövlətin yaratdığı ünsiyyəti qənaətbəxş hesab edirik. Bir neçə gün əvvəl Bakıda növbəti danışıqlar keçirildi və biz ümid edirik ki, bu məsələ ilə əlaqədar razılıq əldə olunacaqdır. Deyə bilərəm ki, Xəzər dənizinin statusuna dair ümumi razılığın olmamasına baxmayaraq, son 10 ildə xarici sərmayəçilər buraya milyardlarla dollar vəsait yatırmışlar. Biz daha 5-10 il ümumi razılıq olmadan layihələri həyata keçirə bilərik. Amma, əlbəttə, razılığın mümkün qədər tez əldə olunmasını istəyirik, bununla biz bu mövzuya nöqtə qoymuş olarıq. İstədiyimiz beynəlxalq hüquq normalarına və beynəlxalq təcrübəyə əsaslanmış son razılığın əldə olunmasıdır.

SUAL: Bu məsələ ilə əlaqədar dediyiniz müddət son dövr sayılmalıdır?

CAVAB: Xeyr. Biz son vaxt həddi müəyyən etməmişik. Mən dedim ki, biz 10 il bunsuz yaşamışıq və bəlkə də 10 il və yaxud da 100 il də yaşaya bilərik. Bu mövzunun bizim neft və qaz layihələrinə təsiri yoxdur. Lakin bizim dövlətlərarası münasibətlərə, regional əməkdaşlığa mənfi təsiri vardır. Biz istəyirik ki, Xəzər dənizi əməkdaşlıq regionu olsun. Əgər bu məsələ həll edilməsə, bu əməkdaşlıq mümkün olmayacaq.

SUAL: 2002-ci ildə GUÖAM ölkələri – Azərbaycan, Ukrayna, Gürcüstan azad ticarət haqqında saziş imzaladılar. Həmin ölkələrin iqtisadi səviyyəsinin eyni olmaması baxımından bu sazişi necə qiymətləndirirsiniz?

CAVAB: Zənnimcə, GUÖAM səmərəli bir təşkilat olmaq istəyirsə, bu cür məsələlərə xüsusi diqqət yetirilməlidir. Ölkələrdəki iqtisadi inkişaf səviyyəsi müxtəlif olsa da, mövcud problemlər, əsasən, eynidir. Biz hamımız Sovet İttifaqının tərkibində olmuşuq və hamımıza həmin dövlətdən eyni çətinliklər miras qalmışdır. Biz oxşar iqtisadi və sosial problemlərlə üzləşirik. Doğrudur, müstəqillikdən sonra bu ölkələr müxtəlif cür - bəziləri daha çox, bəziləri isə az inkişaf etmişdir. Ancaq bu, əməkdaşlığa mane törətməməlidir. GUÖAM ölkələri tərəfdaşlardır və bu təşkilatın timsalında biz regional əməkdaşlığın daha da inkişaf etdirilməsinin mümkünlüyünü görürük. İqtisadi baxımdan çox iş görülməlidir. Təşkilatın möhkəm iqtisadi əsasları olmalıdır. Bununla da Böyük İpək yolu layihəsini, TRACECA, Şərq-Qərb dəhlizi layihəsini canlandırmaq lazımdır. Azərbaycanın coğrafi-siyasi mövqeyi elədir ki, biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri kəsişindəyik. Bu, bizim üstünlüyümüzdür və bundan ölkəmizin xeyri və inkişafı üçün istifadə etmək istərdik. Bu baxımdan GUÖAM vacib rol oynaya bilər. Mən Ukraynanın Prezidenti ilə bir neçə dəfə görüşmüşəm, bu yaxınlarda Gürcüstan Prezidenti Azərbaycana səfər etmişdir. Bu gün və dünən biz Bratislavada da onunla fikir mübadiləsi aparmışıq. Yaxın günlərdə Özbəkistana getməyi planlaşdırıram. Mənim səfərlərimin coğrafiyası onu göstərir ki, biz bu inteqrasiya prosesinə sadiq qalırıq.

SUAL: Sizin həm də Azərbaycanı Avropaya daha yaxınlaşdırmaq istəyiniz vardır...

CAVAB: Bəli, birinci mövzu heç də Siz dediyinizə zidd deyildir. Biz özümüzü Avropanın bir hissəsi hesab edirik, üç ildən artıqdır ki, Avropa Şurasının üzvüyük, qanunverici-

liyimizdə bir sıra dəyişikliklər edərək onu demək olar ki, tamamilə Avropa ölkələrinin qanunvericiliyinə uyğunlaşdırmışıq. Biz ölkəmizdə bazar iqtisadiyyatının bərqərar olması üçün islahatlar həyata keçiririk, beynəlxalq maliyyə qurumlarının, Beynəlxalq Valyuta Fondunun tövsiyələrini nəzərə alırıq. Bir sözlə, biz, bu inteqrasiyaya hazırıq. Bu gün də Avropa Birliyinin komissarı ilə görüşüm olmuşdur. Biz cənab Verhögenlə razılaşdıq ki, bu prosesi sürətləndirmək lazımdır. Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etmişdir ki, bu da çox müsbət haldır. Beləliklə, proses başlanmışdır. Biz hadisələri qabaqlamaq istəmirik, lakin gecikmək də istəmirik. Biz lazımi vaxtda lazımi yerdə olmaq istəyirik.

MÜXBİR: Mən Sizə uğurlar arzu edirəm. Müsahibəyə görə çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "İNPEX" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Martın 22-də Azərbaycan Prezidenti İlham Əliyev Prezident sarayında Yaponiyanın "İnpex" şirkətinin prezidenti Kunixiko Matsuo başda olmaqla şirkətin nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları salamlayaraq dedi:

- Sizin şirkəti Azərbaycanda çoxdan tanıyırlar. Bizim neft şirkətimizlə fəal işləyir və əməkdaşlıq edirsiniz, böyük layihələr həyata keçirirsiniz. Biz bunu alqışlayırıq. Artıq neçə ildir ki, "İnpex" şirkəti Azərbaycanda sərmayə layihələrində fəal iştirak edir, milyonlarla dollar məbləğində sərmayə qoyur, boru kəmərləri layihələrində iştirak edir. Bütün bunlar şirkətin Azərbaycanla əməkdaşlığa sadiqliyini və qoyulmuş kapitalın etibarlı şəkildə qorunacağına, şirkətə də, Azərbaycana da fayda gətirəcəyinə inamı göstərir.

Prezident İlham Əliyev vurğuladı ki, "İnpex"in "Azəri-Çıraq-Günəşli" layihəsində iştirak payı alması, ola bilsin, xarici şirkətlərin Azərbaycanda həyata keçirdikləri ən böyük kommersiya sazişidir və bu fakt şirkətin fəaliyyətində ölkəmizə sadiqliyini bir daha təsdiqləyir. Bu, ilk növbədə, onu sübut edir ki, bizim kimi, siz də əminsiniz ki, həmin layihə uğurla həyata keçiriləcək və yaxın vaxtlarda bundan hamı – Azərbaycan da, bizim xarici tərəfdaşlarımız da fayda götürəcəklər. Əminəm ki, Azərbaycanın neft şirkəti ilə, Azərbaycan hökuməti ilə bundan sonra da əməkdaşlığınız müvəffəqiyyətlə inkişaf edəcək və gələcək birgə layihələrimiz üçün yeni perspektivlər açacaqdır.

"İnpex" şirkətinin prezidenti Kunixiko Matsuo səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

- Biz bilirik ki, iş cədvəliniz çox sıxdır və ona görə də bu gün bizi qəbul etdiyiniz üçün çox məmnunuq. Fürsətdən istifadə edərək, Prezident seçilməyinizlə əlaqədar sevinc hisslərimizi ifadə etmək istərdik.

Biz Prezident Heydər Əliyevin nurlu xatirəsini, ölkəmizdə səfərdə olduğu günləri unutmuruq. O, bizə çox böyük təsir bağışladı. Dünən mənə onun məzarını ziyarət etmək şərəfi nəsib oldu. Xahiş edirik, atanızın xatirəsinə çox dərin hörmət bəslədiyimizə əmin olasınız.

1998-ci ilin fevralında Prezident Heydər Əliyev ölkəmizə rəsmi səfərə gəldi, onun həm siyasi, həm də iqtisadi dairələrin liderləri ilə görüşləri oldu. O, vətəndaşlarımıza təkcə dövlət xadimi kimi deyil, həm də böyük şəxsiyyət kimi çox dərin təsir bağışladı. Bundan sonra ölkələrimizin iqtisadiyyat sahəsində qarşılıqlı münasibətlərində böyük inkişaf başladı. Xalqınızın bəxtindən və özümüzü Azərbaycanın dostları hesab edən bizim də bəxtimizdən, bu gün Siz Prezident Heydər Əliyevin xəttinin layiqli davamçısısınız. Biz görürük ki, Siz ölkənizin daha böyük iqtisadi inkişafı üçün fəal siyasət aparırsınız və Sizin səyləriniz sayəsində Azərbaycanda dünyanın bütün ölkələri ilə dostcasına qarşılıqlı münasibətlər üçün əlverişli mühit yaradılır.

Qonaq dövlətimizin başçısına minnətdarlıq edərək dedi ki, Azərbaycandakı kiçik fəaliyyətimizi yüksək qiymətləndirməyinizdən çox məmnunuq. Biz "Azəri-Çıraq-Günəşli" kimi mühüm layihənin iştirakçısı olmağı çoxdan arzu edirdik. Bəxtimizdən, bu layihənin, habelə Bakı-Tbilisi-Ceyhan layihəsinin iştirakçısı olmaq istəyimizdə Sizin tərəfinizdən, Dövlət Neft Şirkəti tərəfindən dəstək və diqqət hiss etdik. Bu, bizim üçün böyük şərəfdir. Şirkətimiz planetin müxtəlif guşələrində - Yaxın Şərqdə, Afrikada, Cənubi Amerikada, Okeaniyada öz fəaliyyətini genişləndirir. Lakin bu cür çoxsaylı layihələr arasında AÇG və BTC layihələrində iştirak etmək bizim üçün çox mühüm və vacibdir. İndi biz Azərbaycanın neft sənayesi üçün layiqli tərəfdaş olmaqdan ötrü bütün işləri görəcəyik. Hamıya, o cümlədən də sizin ölkənizə fayda gətirəcək bu layihələrin uğurlu olmasına yönəldilmiş işdə öz məsuliyyətimizi başa düşürük. Biz çalışacağıq, ona görə də xahiş edirik ki, bizi bundan sonra da dəstəkləyəsiniz, biz Sizə çox minnətdar olacağıq.

Şirkətin rəhbəri daha sonra xatırlatdı ki, hazırda Yaponiya hökuməti ölkənin neft sənayesində özəl sektorun rolunu genişləndirməyi qarşısına məqsəd qoymuşdur. Əgər əvvəllər bu sektorda Yaponiya Milli Neft Korporasiyası böyük rol oynayırdısa, indi onun funksiyalarının əsas hissəsi özəl şirkətlərin rolunu möhkəmlətmək üçün məhz bizim şirkətə veriləcəkdir. Şirkətimiz Yaponiyanın neft kəşfiyyatı ilə məşğul olan aparıcı şirkətlərindən biridir. Biz ölkə qarşısında və mühüm tərəfdaşımız olan Azərbaycan qarşısında öz məsuliyyətimizi yerinə yetirmək üçün əlimizdən gələni edəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 22-də Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitycnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev onlarla bir neçə dəfə keçirilən görüşlərdə mühüm məsələləri müzakirə etdiklərini xatırlatdı və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın dərinləşməsindən və inkişaf etməsindən məmnunluğunu bildirdi. O dedi ki, Avropa strukturlarına inteqrasiya siyasəti bizim strateji seçimimizdir və Azərbaycan bu siyasətə sadiqdir. Son illər ərzində Avropa Birliyi ilə Azərbaycanın həyata keçirdikləri və gələcəkdə reallaşdıracaqları birgə proqramlar deməyə əsas verir ki, biz bu istiqamətdə bir-birimizə daha da yaxınlaşacağıq.

Prezident İlham Əliyev bir neçə gün əvvəl Bratislavada keçirilmiş konfransda Azərbayca-

nın mövqeyinin bir daha təsdiqini tapdığını, tədbir zamanı keçirdiyi görüşləri, o cümlədən Avropa Birliyinin komissarı Günter Verhögen ilə görüşünü müsbət qiymətləndirdi.

Son zamanlar Avropa Birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə böyük diqqət göstərdiyini nəzərə çatdıran respublikamızın rəhbəri söylədi ki, bu, bizi çox sevindirir. Bir halda ki, Cənubi Qafqazda yerləşən ölkələr Avropa üçün yeni qonşulardır, əlbəttə, Avropa Birliyinin bu məsələ ilə ciddi məşğul olması təqdirəlayiq haldır. Bu istiqamətdə artıq atılan ilk addımlar ümidvericidir, biz bunları dəstəkləyirik və çox istərdik ki, Avropa Birliyi bu məsələ ilə daha da yaxından məşğul olsun.

Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxmaq istəmədiyini və beləliklə, münaqişənin həllinə mane olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, Azərbaycan bu münaqişənin həllini yalnız və yalnız beynəlxalq hüquq normalarına əməl olunmasında görür və ümid edir ki, dünya ictimaiyyəti məsələyə məhz bu nöqteyi-nəzərdən yanaşacaqdır. Düzdür, artıq hiss olunur ki, Ermənistanda da bunu etiraf etməyə başlayıblar və Bratislava konfransında Ermənistan tərəfindən səslənən bəzi fikirlər bunu təsdiqləyir. Özünə məxsus olmayan torpaqlar gərək qaytarılsın. Bu, zamanın tələbidir. Biz XXI əsrdə yaşayırıq və əlbəttə, bütün beynəlxalq hüquq normaları, dövlətlər, xalqlar arasında mövcud olan münasibətlər gərək məhz bu müstəvidə - beynəlxalq hüquq normalarına uyğun şəkildə öz həllini tapsın. Mən ümid edirəm ki, bundan sonra da birgə səylərimiz səmərəli olacaq və bizə kömək edəcək ki, münaqişə tezliklə öz həllini tapsın. Əlbəttə, bizim aramızda mövcud olan digər məsələlər də böyük əhəmiyyət kəsb edir, dəfələrlə bu barədə fikir mübadiləmiz olubdur. Hesab edirəm ki, energetika sahəsində dialoqun başlanması çox vacibdir və biz də buna hazırıq.

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, bir neçə ildən sonra Azərbaycan Avropa istehlakçıları üçün çox mühüm ölkəyə çevriləcəkdir. Azərbaycanda hasil ediləcək qaz Avropaya göndəriləcək və bu baxımdan da enerji dialoqunun başlanması çox mühümdür.

Müzakirələr üçün digər məsələlərin də olduğunu bildirən dövlətimizin başçısı bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə qayıdaraq dedi ki, bu münaqişə region üçün təhlükədir. Regional əməkdaşlığın, Cənubi Qafqaz ölkələrinin Avropaya daha sürətlə inteqrasiyasının qarşısını alır. Çünki bir ölkə digər ölkənin torpaqlarını işğal edib və özünün də etiraf etdiyi kimi, ona məxsus olmayan torpaqlardan çıxmaq istəmir. Gərək hər bir ölkə beynəlxalq hüquqları tanısın. Ümid edirəm ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə əlaqədar öz ədalətli mövqeyini bildirəcək və bu münaqişə öz həllini tapacaqdır.

Səmimi qəbula görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirən cənab Heyki Talvitye paytaxtımızda Şəhidər xiyabanında olduğunu, Fəxri xiyabana gedərək, ölkəmizin ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini bildirdi və dedi ki, mən onu uzun müddətdir tanıyırdım. Xüsusilə 1995-1996-cı illərdən onunla görüşlərim olmuşdur və bunlar məndə daim dərin hisslər oyadıbdır. Onun əziz xatirəsi qəlbimdə daim qalacaqdır. Keçən il Minsk qrupunun həmsədrləri burada olarkən biz mərhum Prezidentlə görüşmüşdük. Hesab edirəm ki, bu böyük şəxsiyyətin itkisini biz heç zaman unuda bilməyəcəyik.

O, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş sosial-iqtisadi inkişaf proqramının

Avropada böyük əks-səda doğurduğunu, Avropa strukturlarının bununla yaxından maraqlandığını və elə bu məqsədlə Azərbaycana indiki səfəri zamanı Şəkiyə səfər etdiyini, orada yerli hakimiyyət orqanlarının həmin proqramı necə həyata keçirməsi ilə yaxından tanış olduğunu nəzərə çarpdırdı.

Heyki Talvitye dedi ki, Novruz bayramı zamanı Şəkidəki Olimpiya İdman Kompleksinə də baş çəkdik. Biz bilirik ki, kompleks Sizin birbaşa iştirakınız və təşəbbüsünüzlə tikilmişdir. Xoşagələn haldır ki, indi gənclər idmanla məşğul olurlar və özlərini ölkənin gələcəyinə həsr edirlər.

Qonaq Azərbaycanla Avropa Birliyi arasındakı münasibətlərə toxunaraq, Prezident İlham Əliyevin Bratislavada Avropa Birliyinin komissarı ilə görüşünün çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O dedi ki, gələcəkdə bu görüşlərin sayı daha da artmalıdır və görüşlərin Brüsseldə, yaxud Bakıda keçirilməsindən asılı olmayaraq, Azərbaycanın Avropanın qonşuları sırasına daxil olması bir qədər də sürətlənəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsindən danışan cənab Heyki Talvitye dedi ki, mənim mandatıma bu işdə həm Azərbaycana və Ermənistana, həm də Minsk qrupuna yardımçı olmaq daxildir və bu prosesdə iştirak edəcəyəm. Sizə deyirəm ki, mən ehtiyatlı olacağam, amma passiv olmayacağam. Düşünürəm ki, Avropa Birliyi bu vasitə ilə məsələnin həllində rol oynaya bilər və bu, müsbət rol olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun dəvəti ilə martın 23-də səhər bu ölkəyə ilk dövlət səfərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 23-də rəsmi qarşılanma mərasimindən sonra "Durmen" iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyev ilə Özbəkistan Prezidenti İslam Kərimov arasında təkbətək görüş olmuşdur.

Özbəkistan rəhbəri Azərbaycan dövlətinin başçısını bir daha salamlayaraq, onun Daşkəndə səfərinin uğurla keçəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirdi, dost-qardaş ölkələrimiz və xalqlarımız arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu söylədi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri, Cənubi Qafqazda və Orta Asiyada təhlükəsizlik, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barədə, habelə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Tərəflər iqtisadi əməkdaşlığın inkişafına, o cümlədən qarşılıqlı mal dövriyyəsinin artırılmasına, habelə humanitar və mədəni əlaqələrin genişləndirilməsinə böyük diqqət yetirdilər.

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Martın 23-də, dövlət başçılarının təkbətək görüşü başa çatdıqdan sonra "Durmen" iqamətgahının konfrans salonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov arasında geniş tərkibdə görüş olmuşdur.

Prezident İlham Əliyevi Özbəkistan torpağında salamlamaqdan, səmimi hörmət və ehtiramını ifadə etməkdən böyük məmnunluq duyduğunu bildirən Özbəkistan Prezidenti İSLAM KƏRİMOV dedi:

- Biz Azərbaycanın yeni Prezidentinin Özbəkistana dövlət səfərini ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın inkişafında və dərinləşməsində mühüm mərhələ kimi qiymətləndiririk. Zənnimcə, xalqlarımız arasında qarşılıqlı münasibətlərin, yaxınlığın, əsrlərin dərinliklərinə gedib çıxan köklərindən, hətta milli adət və ənənələrimizin, dil və mədəniyyətimizin ümumiliyindən danışmağa lüzum yoxdur. Bu gün sübuta ehtiyac yoxdur ki, ölkələrimiz arasındakı belə yaxınlıq və hörmət münasibətlərimizi qarşılıqlı etimad və qarşılıqlı yardım əsasında qurmaq üçün əlverişli, nadir imkan yaradır.

Bu imkandan istifadə edərək, təkcə öz adımdan deyil, həm də bütün ictimaiyyətimiz və xalqımız adından atanız Heydər Əlirza oğlu Əliyevə çox dərin hörmət hissləri bəslədiyimizi bildirmək istərdim. Onu Özbəkistanda görkəmli şəxsiyyət kimi, bütün ömrünü, tükənməz enerjisini və təkrarolunmaz istedadını öz vətəninə, öz xalqına həsr etmiş insan kimi tanıyırlar. Heydər Əliyev Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin inkişafı və möhkəmlənməsi üçün çox işlər görmüşdür. Onu mübaliğəsiz olaraq müasir Azərbaycanın memarı adlandırmaq olar. O, öz ölkəsini, xalqını dirçəltdi, çox ağır sınaqlardan çıxartdı, Azərbaycanı dünya meydanına çıxarmaq üçün lazımi baza yaratdı.

İlham Heydəroviç, zənnimcə, Heydər Əliyeviçin apardığı siyasətin prinsiplərinə Sizin sadiqliyiniz Özbəkistanda bizə, ictimaiyyətimizə, xalqımıza belə bir böyük inam təlqin edir ki, Özbəkistan ilə Azərbaycan arasında münasibətlərin gözəl perspektivləri var və biz bu yolla cəsarətlə gedə bilərik.

Hörmətli dostlar, Özbəkistan Azərbaycanı regionda və müasir dünyada özünün mühüm tərəfdaşı hesab edir. Azərbaycanın coğrafi-siyasi və iqtisadi əhəmiyyəti getdikcə artır. Hesab edirik ki, Özbəkistan-Azərbaycan münasibətlərinin böyük potensialı var. Biz sizin ölkənizlə münasibətləri hərtərəfli şəkildə inkişaf etdirmək niyyətindəyik. İlham Heydəroviçlə yenicə başa çatan təkbətək danışıqlarda biz Özbəkistan-Azərbaycan münasibətlərinin vəziyyətini ətraflı müzakirə etdik, Mərkəzi Asiyada, Cənubi Qafqazda vəziyyət barədə fikir mübadiləsi apardıq, iri regional layihələrin həyata keçirilməsinin perspektivlərini, o cümlədən nəqliyyat və energetika məsələlərini nəzərdən keçirdik. Biz müzakirə edilən bütün əsas məsələlər barədə razılığa gələ və beynəlxalq meydanda prinsipial mövqelərimizi və qarşılıqlı fəaliyyətimizi razılaşdıra bildik. Biz belə bir ümu-

mi rəyə gəldik ki, postsovet məkanında və bütün dünyada baş verən mürəkkəb və birmənalı olmayan proseslər şəraitində ölkələrimizin xarici siyasət xətlərini əlaqələndirməyin xüsusi əhəmiyyəti var. Biz razılığa gəldik ki, yüksək səviyyədə müntəzəm siyasi məsləhətləşmələr praktikasını davam etdirəcəyik. Ölkələrimiz beynəlxalq terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi və dini ekstremizm ilə qətiyyətli mübarizə aparılması məsələsində prinsipial mövqe tuturlar. Daşkənd və Bakı bu transmilli təhdidlərə qarşı durmaq üçün istər ikitərəfli səviyyədə, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsindən ötrü xeyli siyasi ehtiyatlara malikdir.

Beynəlxalq terrorizmlə mübarizənin indiki şəraitində radikalizm və ekstremizm ideologiyası ilə mübarizə, mütərəqqi, tolerant İslamın dəyərlərinin dəstəklənməsi məsələləri xüsusilə aktualdır. Bütün dünyada hamılıqla tanınmış böyük mədəni potensiala malik olan Özbəkistan və Azərbaycan bu vəzifələrin həyata keçirilməsində güclü rol oynaya bilərlər. Qlobal antiterror tədbirlərinin fəal iştirakçıları olan Daşkənd və Bakı Əfqanıstanda vəziyyətin tezliklə sabitləşdirilməsinə və onun iqtisadiyyatının dirçəldilməsinə tərəfdardırlar. Məlum olduğu kimi, Özbəkistan bu ölkənin sosial-iqtisadi bərpasında yaxından iştirak edir, Kabilin beynəlxalq layihələrə cəlb olunmasına çalışır. Biz Azərbaycanla bu istiqamətdə əməkdaşlığa ümid bəsləyirik.

Transəfqanıstan beynəlxalq dəhlizinin gerçəkləşməsi bütün regionun, o cümlədən Cənubi Qafqaz ölkələrinin gələcəyi üçün həm mühüm iqtisadi, həm də strateji əhəmiyyətə malik olacaqdır.

Prezident İlham Əliyevlə hər iki tərəfi narahat edən məsələləri, ilk növbədə, iqtisadi əməkdaşlığın vəziyyətini, həcmini, - ölkələrimiz arasında əmtəə dövriyyəsinin səviyyəsinin qeyri-qənaətbəxş olmasını nəzərdə tuturam, - müzakirə edərkən biz belə bir yekdil fikrə gəldik ki, bu məsələdə kommunikasiyalarla bağlı ciddi problemlər vardır. Kommunikasiyalar məsələsi həll edilməmişsə, necə tiracət əlaqəsi saxlamaq, əmtəə dövriyyəsinin həcmini artırmaq olar. Bu, ilk növbədə, Türkmənistan ərazisi, tranzit məsələsi ilə, gömrük rüsumlarına dair həll olunmamış məsələlərlə, həm Özbəkistanda, həm də Azərbaycanda bəzi məmurların xudbin mülahizələri ilə bağlıdır. Həmin məmurlar bəzən ölkələrimizin milli mənafelərinə zidd mövqe tuturlar. Mən bunu deməyə başqa söz tapa bilmirəm.

Bu baxımdan kommunikasiya məsələlərinin, ilk növbədə, Türkmənistan ərazisindən keçən kommunikasiyalar məsələsinin həlli bizim üçün çox çətin olmuşdur. Lakin hamıya aydındır ki, bu problemləri həll etmək, Türkmənistanla razılığa gəlmək lazımdır ki, biz bir-birimizə daha da yaxın olaq, Azərbaycanla Özbəkistanın bir-birinə daha yaxın olması bizim üçün vacibdir.

Dağlıq Qarabağ məsələsinin Azərbaycan tərəfi üçün nə kimi əhəmiyyəti olduğunu biz başa düşürük. Xüsusi vurğulamaq istəyirəm ki, Özbəkistan Respublikası həmişə bu münaqişənin sülh yolu ilə, siyasi həllinin tərəfdarı kimi çıxış etmişdir və indi də çıxış edir. Birmənalı şəkildə demək istəyirəm ki, münaqişənin nizama salınmasının əsas şərti Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır.

Hörmətli dostlar, tiracət-iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə edərkən biz belə bir yekdil fikrə gəldik ki, əmtəə dövriyyəsinin səviyyəsi nə Azərbaycanı, nə də Özbəkistanı qane edir. Lakin müəyyən irəliləyişlər vardır və

bunlar da elə bu ilin əvvəlindən dəstəklənməlidir. Təkcə yanvar-fevral aylarında Azərbaycanla Özbəkistan arasında əmtəə dövriyyəsi 18 milyon dollar təşkil etmişdir. Bu, 2003-cü ildəkindən çoxdur. Bu göstərici bizi sevindirir və istəyirik ki, bu meyllər daha da sürətlənsin. Bizim hökumət qurumlarımız iqtisadi əməkdaşlığı əlaqələndirməli, istifadə edilməmiş ehtiyatları üzə çıxarmalı və birgə mexanizmləri işə salmalıdırlar.

Biz bilirik ki, Özbəkistan-Azərbaycan hökumətlərarası komissiyası kifayət qədər uğurla fəaliyyət göstərir, lakin bununla belə mən hesab edirəm ki, ən yaxın vaxtlarda gücümüzü toplamalı və İlham Heydəroviçin Özbəkistana səfərindən sonra ticarət münasibətlərinin inkişafı üzrə istiqamətləri dəqiq müəyyənləşdirməliyik. Ötən il ölkələrimiz arasında əmtəə mübadiləsinin 12-13 milyon olması heç bir əndazəyə sığmır. Hökumətlərarası komissiyanın bu yaxınlarda keçirilmiş görüşünün nəticələri bir daha təsdiq etdi ki, iqtisadi münasibətləri inkişaf etdirmək üçün imkanlarımız vardır. Biz ölkələrimizin müəssisələri ilə maliyyə qurumları arasında birbaşa əlaqələr qurmalı, Azərbaycanın bizə sata biləcəyi və bizdən ala biləcəyi məhsulların çeşidinə və nomenklaturasına yenidən baxmalıyıq.

Daşkənddəki Çkalov adına zavodun buraxdığı təyyarələrə Azərbaycanın aviasiya xidmətinin maraq göstərməsi bizi çox sevindirir. Azərbaycanın lizinq şərtləri ilə iki ədəd İL-76 təyyarəsi alması bu istiqamətdə ilk addımdır. Özbəkistanda istehsal edilən minik avtomobillərinin alınmasında da ilk addım atılmışdır. Müvafiq qurumlarımız bu məhsulların təqdimatına ciddi yanaşmalı və məhz Azərbaycan tərəfinin şərtlərini diqqətlə öyrənməlidirlər. Onlar həm bu avtomobilləri satan, həm də onlara xidmət göstərən müvafiq mərkəzlər yarada bilərlər. Azərbaycanın təyyarələrin bizim müəssisələrdə təmir olunmasına və aviatorlar arasında kadr mübadiləsinə maraq göstərməsini alqışlayırıq.

Özbəkistan Azərbaycanın neft–qaz məhsulları, avadanlıq, habelə qara metal və digər məhsullar satışı sahəsində böyük potensialını nəzərə alaraq, onunla əməkdaşlığa böyük maraq göstərir. Biz həm Azərbaycan, həm də Özbəkistan ərazisində müştərək müəssisələr yaratmağı çox istəyirik. Məsələn, Özbəkistanda buraxılan traktorların Azərbaycanda yığılması və sonradan müstəqil müəssisəyə çevrilməsi, eləcə də Bakı zavodunun iştirakı ilə Daşkənddə kondinsionerlər istehsal edən müəssisə yaradılması ideyasını dəstəkləyirik. Biz pambıqçılarımızın əməkdaşlığını da çox vacib hesab edirik. İlham Heydəroviç, mən Sizi belə adlandıranda, az qalır Heydər Əliyeviç deyim, çünki bu ad mənim üçün çox əzizdir, - vaxtilə Özbəkistan kimi, Azərbaycan da pambıqçılığın inkişafı ilə ad çıxarmışdı. Bu gün fəxr edə bilərik ki, ölkəmizdə bu sahə yeni əsasda inkişaf edir. Bizim Liverpul, Nyu-York pambıq birjaları ilə çox yaxın münasibətlərimiz vardır.

Mən daha bir məsələ - TRACECA nəqliyyat dəhlizinin inkişafında qarşılıqlı fəaliyyətin gücləndirilməsi məsələsi üzərində dayanmaq istərdim. Biz İlham Heydəroviçlə bu mövzuda danışdıq. Çox vacibdir ki, Avropa qurumları TRACECA-nın işləməsinin və inkişaf etməsinin əhəmiyyətini başa düşsünlər. Bu yaxınlarda Özbəkistanın təşəbbüsü ilə Əfqanıstan və İranı TRACECA-nın tərkibinə daxil etməyi qərara almışlar. Bu, bir çox əsrlər ərzində mövcud olmuş Böyük İpək yolunun tam miqyasda fəaliyyət göstərməsi baxımından çox vacibdir. İndi Türkmənistanla bağlı problemlər qalır, odur ki, Qafqaz regionunun Orta Asiya ilə təkcə bu ölkə vasitəsilə birləşməməsi üçün yeni yollar və marşrutlar axtarıb tapmaq barədə düşünmək lazımdır. Biz başa düşməliyik ki, bu vəzifələr ən ciddi səbəblərlə, ilk növbədə, ölkələrimizin mənafelərinin uyğun gəlməsinin zəruriliyi ilə bağlıdır. Təkcə bir misal çəkə bilərəm. Bu gün pambığı Xəzəraşırı yolla satmaq Şimal marşrutu ilə satmaqdan bizə 20 faiz baha başa gəlir. Bundan müvafiq nəticələr çıxarmaq lazımdır. Çünki bazar iqtisadiyyatı ideologiyadan asılı olmayaraq fəaliyyət göstərir. Ona görə də burada biz amirlik edə bilmərik, səmərəli mexanizmlər yaratmalıyıq.

Hörmətli İlham Heydəroviç, Azərbaycan ədəbiyyatını Özbəkistanda tanıyır və sevirlər. Sizin ölkənizdə də Özbəkistan mədəniyyəti və incəsənətinə bələcə hörmətlə yanaşırlar. Bir daha təkrar etmək istəyirəm ki, qədim dövrlərdən bəri xalqlarımız bir-birinə meyl etmişlər. Qarşıdakı əlamətdar hadisə - Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəviyə abidənin, Mədəniyyət Mərkəzinin və səfirliyin yeni binasının açılması buna parlaq sübutdur. Sonda əmin olduğumu bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin Özbəkistana ilk dövlət səfəri ikitərəfli münasibətlərdə mühüm və əlamətdar hadisə olacaq və Özbəkistan-Azərbaycan əməkdaşlığının potensialından xalqlarımızın rifahı naminə istifadə etməyə imkan verəcəkdir. Sağ olun.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV dost və qardaş Özbəkistana dövlət səfərinə dəvətə görə Prezident İslam Kərimova ürəkdən təşəkkür edərək dedi:

- Bu, Sizin ölkənizə Azərbaycan Prezidenti kimi mənim ilk səfərimdir. Biz bu səfərə, əlaqələrimizə, görüşlərimizə və apardığımız danışıqlarımıza çox böyük əhəmiyyət veririk.

Böyük məmnunluqla vurğulamaq istəyirəm ki, bir saatdan çox çəkən təkbətək görüşümüz böyük inam yaratdı ki, ölkələrimiz, dövlətlərimizin rəhbərləri arasındakı tarixi dostluq və qardaşlıq münasibətləri davam etdiriləcəkdir. Bu baxımdan əməkdaşlığımızın və əlaqələrin dərinləşdirilməsinin alternativi yoxdur. Xalqlarımız əzəldən bir-birinə böyük meyl, rəğbət və məhəbbət göstərmişdir və göstərirlər. Bu hisslər həyatın müxtəlif sahələrində - siyasi münasibətlərdə də, mədəni əlaqələrdə də, məişət səviyyəsində də təzahür etmişdir və edir. Çox mühüm və dəyərlidir ki, Özbəkistan və Azərbaycan müstəqilliyə qovuşduqdan sonra bu münasibətlər qırılmadı, əksinə, özünün daha parlaq inkişafını tapdı. Burada, ilk növbədə, dövlətlərimizin milli liderləri İslam Kərimovun və Heydər Əliyevin çox böyük xidməti var.

İslam Abduqəniyeviç, Azərbaycan xalqının milli lideri Heydər Əliyev haqqında deyilmiş səmimi sözlərə görə Sizə çox minnətdaram. Həqiqətən, onun fəaliyyəti Azərbaycanı dağılmaqdan, bir neçə hissəyə parçalanmaqdan, qarmaqarışıqlıqdan və vətəndaş müharibəsindən xilas etdi. Əlbəttə, Prezident kimi onun Azərbaycana başçılıq etdiyi 10 il xalqımıza çox şey verdi. Azərbaycan dirçəldi, öz dövlətçiliyini, müstəqilliyini, iqtisadiyyatını möhkəmləndirdi və indi bu yolla fəal irəliləməkdə davam edir. Biz Sizinlə bu mövzuda danışdıq və bir daha demək istəyirəm ki, Heydər Əliyevin siyasətinin alternativi yoxdur və bu siyasəti ardıcıl surətdə davam etdirəcəyik.

Azərbaycandan fərqli olaraq, Özbəkistanın bəxti onda gətirdi ki, müstəqillik əldə olunduqdan dərhal sonra bu ölkəyə İslam Kərimov kimi görkəmli dövlət xadimi başçılıq etdi. Sizin fəaliyyətiniz, - bunu təkcə Özbəkistanda deyil, Azərbaycanda da bilirlər, - sayəsində Özbəkistan müstəqilliyin ilk illərində ən mürəkkəb vəziyyətlərdən çıxmağa, bu müstəqilliyi möhkəmlətməyə, dönümsüz etməyə və dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, güclü iqtisadiyyat yaradılması sahəsində genişmiqyaslı dəyişik-

liklər həyata keçirməyə müvəffəq oldu. Özbək xalqının haqlı olaraq fəxr edə biləcəyi bütün bu nailiyyətlər məhz Sizin fəaliyyətiniz sayəsində qazanılmışdır.

Azərbaycanda vəziyyət bir qədər başqa cür idi. Müstəqillik əldə olunduqdan sonra hakimiyyətə gələn adamlar nəinki ölkəni qarmaqarışıqlığa düçar etdilər, həm də Azərbaycan cəmiyyətinin özünün daxilində yeni qarşıdurma ocaqları yaratdılar və bununla da bütün xalq təsərrüfatı kompleksini tamamilə dağıtdılar. Azərbaycanın xarici siyasətinə də, o cümlədən, xalqlarımız arasındakı tarixi dostluq və qardaşlıq münasibətlərinə də çox böyük ziyan vuruldu. Sonralar münasibətlərimizin bu qara səhifəsini çevirmək üçün illərlə vaxt lazım oldu. İslam Abduqəniyeviç, məhz Sizin müdrikliyiniz, uzaqgörənliyiniz və Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi ona nail olmağa imkan verdi ki, həmişəki kimi, bu gün yenə də biz bu qarşılıqlı yardım və dəstək xəttini xalqlarımız və insanlarımız arasındakı çoxəsrlik dostluq münasibətləri əsasında davam etdiririk. Əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir. Biz nəinki ikitərəfli xarakterli bir çox məsələlər, həm də regional məsələlər və dünya məsələləri barədə çox fəal siyasi dialoq, məsləhətləşmələr aparırıq.

Bugünkü fikir mübadilələri göstərdi ki, bu məsələlərdə də mövqelərimiz üst–üstə düşür. Bu, çox vacibdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Özbəkistanın prinsipial mövqeyi də bizim üçün çox vacibdir. Bu münaqişədən neçə illərdir ki, təkcə Azərbaycan yox, həm də bütün region əzab çəkir. Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması, nəticədə bir milyondan artıq azərbaycanlının qaçqın-köçkünə çevrilməsi regional təhlükə və qorxu amilidir. Biz bu məsələdə öz mövqeyini ardıcıl surətdə bildirdiyinə görə Özbəkistana minnətdarıq. Həm də ona görə minnətdarıq ki, Azərbaycan kimi, Özbəkistan da bu məsələnin həllini yalnız ölkəmizin ərazi bütövlüyünün bərpa olunması çərçivəsində görür. Biz bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə, hesab edirik ki, bu münaqişənin nizama salınması yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi çərçivəsində mümkündür.

Beynəlxalq terrorizmlə mübarizə ölkələrimizin üzləşdiyi yeni sınaqdır. Azərbaycan erməni terrorizminin qurbanı olmuşdur. Ölkəmizdə onlarca terror aktı törədilmiş, nəticədə iki mindən artıq günahsız adam həlak olmuşdur. Biz bunun necə bəla olduğunu və onunla mübarizənin necə çətin olduğunu bilirik, çünki düşmən göz qabağında deyildir. Beynəlxalq terrorizmlə mübarizədə ölkələrimizin mövqeləri kontekstində bizim birgə fəaliyyətimiz bu bəlanı aradan qaldırmaq üçün son dərəcə vacibdir. Beynəlxalq terrorizmlə səmərəli mübarizənin yeganə zəruri şərti bundan ibarətdir ki, onunla hamılıqla mübarizə aparılsın və məsələyə eyni münasibət olsun. Terror təşkilatları təkcə ölkələrin konkret olaraq hansısa bir qrupuna qarşı çıxış edən qurum deyildir. Biz bu məsələyə eyni mövqedən yanaşmalı və kimin əleyhinə yönəldilməsindən asılı olmayaraq, terrorizmin hər cür forma və təzahürlərini pisləməliyik. Zənn edirəm ki, antiterror tədbirlərinin uğuru xeyli dərəcədə Azərbaycanın və Özbəkistanın prinsipial mövqeyindən asılı olacaqdır.

Hörmətli İslam Abduqəniyeviç, Siz haqlı olaraq qeyd etdiniz ki, belə ciddi qarşılıqlı münasibətlər və qarşılıqlı anlaşmalar fonunda iqtisadi sahədəki əməkdaşlığımız bir qədər

geri qalır. Bunun obyektiv səbəbləri vardır və Siz onları dediniz: etibarlı kommunikasiyaların olmaması bu prosesi ləngidir. Təəssüf ki, bu gün, dünyada inteqrasiya prosesi getdiyi, kommunikasiyaların dəstəklənməsinin regional əməkdaşlıq üçün öncül istiqamət olduğu bir vaxtda, dəhlizin bəzi elementləri yoxdur. Biz potensialımızı tam işə salmaq üçün kommunikasiyalara yol tapmaq istiqamətində birgə fəaliyyət göstərəcəyik.

Siz haqlı olaraq bildirdiniz ki, əməkdaşlığımızın böyük potensialı və onun davam etdirilməsi üçün istək vardır. Biz yerüstü nəqliyyat dəhlizi tələb etməyən bütün tədbirləri həyata keçiririk. Siz dediniz ki, Özbəkistanda istehsal olunmuş iki təyyarə alınmışdır. Təəssüf ki, malların və xidmətlərin əksəriyyəti üçün yerüstü nəqliyyat dəhlizi lazımdır. Bu işdə heç də hər şey bizdən asılı deyildir. Lakin zənn edirəm ki, birgə səylərimiz uğurla nəticələnəcəkdir.

Şübhəsiz ki, hökumətlərarası komissiya fəaliyyətini gücləndirməlidir. Mən də məmnunluqla qeyd edirəm ki, bu komissiya fəal işləyir və iqtisadi əməkdaşlığın yeni yollarını axtarır.

Sovet hakimiyyəti illərində pambıqçılıq sahəsində olmuş ənənəvi əməkdaşlıq indi sahmanlanır və yenidən dirçəldilir. Zənnimcə, Özbəkistan mütəxəssislərinin ölkəmizə gəlməsi çox mühüm amil idi. Ümidvarıq ki, bu, yaxın vaxtlarda öz bəhrəsini verəcəkdir. Biz, bu istiqamətdə birgə layihələr üzərində də işləyirik.

Əlbəttə, neft-qaz sahəsi Azərbaycan üçün öncül sahədir, ölkəmizdə bu istiqamətdə böyük uğurlar qazanılmışdır. Azərbaycanı dünya bazarları ilə üç istiqamətdə birləşdirəcək yeni nəqliyyat dəhlizlərinin yaradılması, lazım gələrsə, əlbəttə ki, Özbəkistanın da tam ixtiyarında olacaqdır.

Daşımalar və tariflərin aşağı salınması sahəsində vəziyyətin nizamlanması ilə bağlı konkret məsələlər də həll edilməlidir. Sizin təcrübəniz göstərir - yüklərin Azərbaycandan Gürcüstana nəqli üçün tarifin baha olması bir daha təsdiqləyir ki, biz bazar iqtisadiyyatının qanunlarına əməl etməliyik. Müvafiq qurumlarımız da bazar iqtisadiyyatının qanunlarına ciddi yanaşmalıdırlar.

Düşünürəm ki, hökumətlərarası komissiya məsələni səmərəli surətdə həll edəcəkdir, özü də, bizim bu istiqamətdə müsbət təcrübəmiz var. Biz tariflərin qaydaya salınması çərçivəsində digər ölkələrlə işləyirik və bu məsələdə razılaşdırılmış siyasətimiz var.

Özbəkistan Prezidentinin humanitar sahədə əlaqələrimizin möhkəmləndirilməsinə göstərdiyi böyük diqqətə görə də dərin təşəkkürümü bildirmək istərdim. Nizaminin abidəsinin açılması bir daha sübut edir ki, xalqlarımız arasındakı dostluq və qardaşlıq telləri möhkəmlənir.

Hörmətli İslam Abduqəniyeviç, bu addıma görə şəxsən Sizə çox minnətdaram. Nizami Gəncəvinin abidəsinin açılması xalqlarımızın daha da yaxınlaşmasına təkan verəcəkdir. Qonaqpərvərliyə, dəvətə görə də dərin təşəkkürümü bildirmək istərdim. Özbəkistan Azərbaycan üçün nəinki siyasi, iqtisadi baxımdan mühüm ölkədir, həm də bizə mənən çox yaxın ölkədir. Bizi qədim qardaşlıq telləri bağlayır. Mən atamın, Prezident Heydər Əliyevin Özbəkistana, özbək xalqına münasibətini xatırlayıram. Onu Özbəkistanla çox səmimi münasibətlər bağlayırdı və əmin ola bilərsiniz ki, digər bütün sahələrdəki kimi, bu istiqamətdə də Azərbaycan siyasətinin varisliyi təmin olunacaqdır. Belə səmimi qə-

bula görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Görüşün sonunda Özbəkistan Prezidenti İSLAM KƏRİMOV dövlətimizin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydəroviç, səmimi sözlərə və Özbəkistana göstərdiyiniz belə hörmətə görə Sizə təşəkkür edirəm. Bir daha demək istəyirəm ki, bizi bağlayan nə varsa, hamısını, münasibətlərimizin hərtərəfli inkişafı və beynəlxalq aləmdə bir-birimizi dəstəkləmək üçün gözəl zəmin yaradan hər şeyi izləsək və götür-qoy etsək, ən başlıcası isə, bir-birimizin həyanlığını daim duymağımız və hiss etməyimiz üçün şərait yaratdığımızı nəzərə alsaq, görərik ki, Azərbaycan ilə Özbəkistan arasında təşəkkül tapan imkanlardan daha əlverişli, nadir imkanlar, sadəcə, yoxdur.

Mən bir daha təkrara varmayacağam, lakin bunu lazımınca qiymətləndirməmək və bu imkanlardan istifadə etməmək, zənnimcə, hökumətlərimizin rəhbərləri və üzvləri üçün uzaqgörənlik olmazdı. Hətta deyərdim ki, cinayət olardı. Ona görə də əməli fikir mübadiləsini, söhbəti başa çatdırdıqdan sonra mən öz fikirlərimi rəsmi nümayəndə heyətinin üzvləri ilə bölüşdüm, İlham Əliyevə dedim ki, söhbət zamanı məni bir məsələ maraqlandırırdı: Prezident İlham Əliyevin ikitərəfli münasibətlərimiz və dünya problemləri barədə, üçüncü ölkələrə münasibət barədə rəyi və mövqeyi necədir, ən başlıcası isə, Heydər Əliyevin simasında görməyə və hiss etməyə öyrəşdiyim keyfiyyətlər İlham Əliyevdə öz təcəssümünü nə dərəcədə tapmışdır. Bu məsələ məni maraqlandırırdı və bu gün böyük məmnuniyyətlə deyə və fikrimi sizinlə bölüşə bilərəm - qoy burada olanlar, o cümlədən də jurnalistlər bilsinlər ki, mən təkcə varisliyi deyil, həm də Heydər Əliyevin Azərbaycanın lideri və rəhbəri olduğu dövrdə gördüyünüz siyasətin davam etdirildiyini hiss etdim. Mən bundan çox məmnunam və inanıram ki, münasibətlərimizin perspektivləri yaxşı olacaqdır.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan ilə Özbəkistan arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

Əvvəlcə, Prezident İlham Əliyev və Prezident İslam Kərimov "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə" imzaladılar.

Sonra Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov və Özbəkistan Baş nazirinin müavini Rüstəm Əzimov "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında saziş"i və 1996-cı il 27 may tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında protokol"u imzaladılar.

Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev və Özbəkistanın xarici işlər naziri Sadıq Safayev "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında konsulluq konvensiyası"nı, habelə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol"u imzaladılar.

"Azərbaycan Respublikasının Bakı Şəhəri İcra Hakimiyyəti və Özbəkistan Respublikasının Daşkənd Şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında saziş"i Bakı Şəhəri İcra Hakimiyyəti başçısı Hacıbala Abutalıbov və Daşkəndin hakimi Rüstəm Şoəbdürəhmanov imzaladılar.

"Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov" adına Daşkənd Aviasiya İstehsalat Birliyi Dövlət Səhmdar Cəmiyyəti arasında niyyət memorandumu"nu isə və konsernin baş direktoru Cahangir Əsgərov və SC-nin baş direktoru Vadim Kuçerov imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BİRGƏ MƏTBUAT KONFRANSI

Martın 23-də "Durmen" iqamətgahında, sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun birgə mətbuat konfransı olmuşdur. Dövlət başçıları jurnalistlərin suallarına cavab verməzdən əvvəl, danışıqların yekunlarına dair bəyanatlarla çıxış etdilər.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BƏYANATI

Mən Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin üzvlərini bir daha salamlayıram.

Azərbaycan Respublikası Prezidentinin ölkəmizə ilk dövlət səfəri çərçivəsində İlham Əliyevlə danışıqlarımız yenicə başa çatmışdır. Danışıqlar Azərbaycan-Özbəkistan münasibətlərinə ənənəvi surətdə xas olan açıq və konstruktiv şəraitdə keçdi və şübhəsiz, səmərəli oldu. Biz ikitərəfli münasibətlərin daha da genişləndirilməsi ilə bağlı geniş səpkili məsələləri müzakirə etdik, aktual regional və beynəlxalq problemlər barəsində fikir mübadiləsi apardıq. Həm də, əslində, toxunduğumuz bütün məsələlərdə mövqelərimizin uyğun və oxşar olduğunu bildirmək istərdim.

Strateji tərəfdaşlığın daha da möhkəmlənməsi haqqında birgə bəyannamə, bir sıra digər mühüm sənədlər imzalandı. Onların hamısı ikitərəfli münasibətlərin inkişafı üçün yeni imkanlar açır. Biz dünyada sanballı getdikcə artan, mühüm coğrafi-siyasi rol oynayan dost Azərbaycanı regionda əsas tərəfdaş hesab edirik.

Danışıqlar zamanı biz Cənubi Qafqazın və Mərkəzi Asiyanın getdikcə artan coğrafi-siyasi və iqtisadi sahədə qarşılıqlı asılılığı barədə razılığa gəldik. Görüşlərimizin, danışıqlarımızın yekunlarından bəhs edərkən nəzərə çarpdırmaq istərdim ki, zənnimcə, İlham Əliyev ilə şəxsi münasibətlər qurulması faktının özü mənim üçün və Özbəkistan üçün son dərəcə əhəmiyyətlidir.

Mən İlham Əliyevin simasında Azərbaycanın müstəqilliyi və suverenliyinin daha da möhkəmlənməsini, onun iqtisadi tərəqqisini və beynəlxalq nüfuzunun yüksəlməsini qarşısına məqsəd qoyan siyasi və dövlət xadimi görürəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çox uğurla keçir. Özbəkistan Prezidenti İslam Abduqəniyeviç Kərimovla danışıqlar aparıldı və bu danışıqlarda qarşılıqlı maraq doğuran məsələlərin çox geniş dairəsi əhatə olundu. İslam Abduqəniyeviçin vurğuladığı kimi, müzakirə edilən bütün məsələlərdə baxışlarımız tam uyğun gəlir.

Biz bünövrəsi əvvəllər qoyulmuş ənənələri qətiyyətlə davam etdirmək, ikitərəfli münasibətləri fəal surətdə genişləndirmək, regional məsələlərdə, o cümlədən regional təhlükəsizliyin möhkəmləndirilməsində, beynəlxalq terrorizmlə mübarizədə birgə fəaliyyət sahəsində əməkdaşlıq etmək niyyətindəyik. Dünya siyasətinin bir çox məsələlərində də baxışlarımız uyğun gəlir.

Özbəkistan və Azərbaycan yeni müstəqil dövlətlərdir. Ölkələrimizin müstəqil dövlət kimi uğurla təşəkkül tapması xalqlarımızın ümummilli liderləri olan İslam Kərimovla və Heydər Əliyevlə bağlıdır. Onların müstəqilliyin, suverenliyin, iqtisadi potensialın möhkəmlənməsinə yönəldilmiş fəaliyyəti öz gözəl bəhrələrini vermişdir. İndi bu siyasət Azərbaycanda davam etdirilir. Mən möhtərəm Prezident İslam Kərimovu əmin etdim ki, ölkələrimiz arasında indiyədək görülən bütün işlər davam etdiriləcəkdir.

Özbəkistan Azərbaycan üçün qardaş ölkə və strateji tərəfdaşdır. Həm mədəni münasibətlər çərçivəsində, həm də xalqlarımız arasındakı münasibətlər baxımından bizi birləşdirən ümumi cəhətlər çoxdur. Odur ki, biz Azərbaycanda birgə layihələrimizə və planlarımıza çox böyük əhəmiyyət veririk. Perspektivlər çox ümidvericidir. Ən başlıcası isə, bütün istiqamətlərdə, ilk növbədə, geri qaldığımız sahələrdə - məhz əmtəə dövriyyəsinin artırılmasında və iqtisadi əlaqələrin möhkəmlənməsində qarşılıqlı münasibətləri gücləndirməyi səmimi qəlbdən arzulayırıq. Ən əsası, bu istiqamətdə irəliləmək arzumuz vardır. Gələcəkdə həm ikitərəfli münasibətlərin bütün sahələrində, həm də regional planda fəal əməkdaşlıq etmək üçün Özbəkistanın və Azərbaycanın çox yaxşı perspektivləri mövcuddur. Qardaş xalqlarımız bir-birinə böyük rəğbət və məhəbbət bəsləyirlər. Özbəkistanda dahi Azərbaycan şairi Nizaminin abidəsinin açılması, eləcə də böyük özbək şairi Əlişir Nəvaiyə Azərbaycanda abidə qoyulması barədə qərar qəbul edilməsi faktı bir daha sübut edir ki, bizim aramızda xeyirxah, saf münasibətlər, qarşılıqlı rəğbət var.

Mən Özbəkistana dövlət səfərinə dəvət edildiyimə görə bu ölkənin Prezidentinə böyük minnətdarlığımı bildirirəm. Bu yaxınlarda seçilmiş Prezident kimi, bu səfər mənim üçün çox mühümdür. Mən ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət verirəm, həm regionda, həm də dünyada böyük nüfuza malik olan dünya miqyaslı siyasətçi kimi İslam Abduqəniyeviçin Prezident vəzifəsindəki fəaliyyətini çox yüksək qiymətləndirirəm. Mən əlimdən gələni edəcəyəm ki, ölkələrimiz arasındakı münasibətlər qardaşlıq, mehriban qonşuluq, qarşılıqlı yardım və qarşılıqlı anlaşma məcrasında irəliləsin. Bir daha aparılan danışıqlardan, fikir mübadiləsindən məmnunluğumu bildirirəm.

Əminəm ki, bütün bunlar gələcəkdə münasibətlərimizin inkişafı üçün yaxşı zəmin olacaqdır.

Sağ olun.

* * *

Sonra prezidenlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım cənab Kərimovadır. Cənab Prezident, Azərbaycan ilə Özbəkistan arasında siyasi və humanitar sahədə əməkdaşlıq uğurla inkişaf edir. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivlərini necə görürsünüz?

İSLAM KƏRİMOV: Həqiqətən, münasibətlərimizin bütün istiqamətlərdə kifayət qədər müsbət inkişaf etdiyi barədə İlham Əliyevin indicə söylədikləri bir daha təsdiqləyir ki, biz ikitərəfli və çoxtərəfli xarakter daşıyan məsələləri şəxsi əsasda saat yarımdan çox müzakirə etdik.

Deməliyəm ki, beynəlxalq aləmdə mövcud olan çox kəskin məsələlərdən heç biri barədə bizim aramızda fikir ayrılığı olmadı. Bu gün dünya dövlətlərinin diqqətinin məhz regionlarımıza – Cənubi Qafqaza və Mərkəzi Asiyaya yönəldildiyini nəzərə alsaq, görərik ki, ciddi problemlər var. Onlar Əfqanıstandakı hadisələrlə, habelə Mərkəzi Asiyada və Cənubi Qafqazda baş verən hadisələrlə bağlıdır. Həqiqətən, bir çox ölkələrin diqqəti buraya yönəlmişdir.

Bundan əlavə, mənafelərin toqquşması və qarşıdurma elementləri var. Onlar özünü hələlik o qədər də aydın büruzə vermir, lakin burada gərginlik və böyük dövlətlərin mənafelərinin üst-üstə düşməməsi müşahidə edilir. Odur ki, ümumi əlaqələrin və ümumi mənafelərin, habelə Azərbaycanın da, Özbəkistanın da uzunmüddətli mənafelərinə eyni dərəcədə cavab verən ümumi təmasların, ümumi maraqların, habelə məqsədlərin axtarılıb tapılması, bir-birimizə həyanlıq göstərilməsi, bu ölkələrdən və bu xalqlardan hər birinin mənafelərinə uyğun gələn məsələlərdə dəstək olması, beynəlxalq sahədə çox mühüm məsələlərdə dəstək olması və hər bir ölkənin təşəbbüsünün dəstəklənməsi bizim üçün çox vacibdir.

Sizə bildirmək istəyirəm ki, bütün bu məsələlərdə biz ümumi rəyə gəldik. Bu, təkcə ikitərəfli münasibətlərimiz üçün deyil, həm də çoxtərəfli münasibətlərimiz üçün böyük əhəmiyyətə malikdir. Buna görə də siz beynəlxalq aləmdə qarşılıqlı münasibətlərimizin perspektivlərini necə gördüyümü soruşduqda, deməliyəm ki, dünyada baş verən hadisələrin qiymətləndirilməsində elə bir məsələ yoxdur ki, aramızda fikir ayrılığı olsun.

O ki qaldı BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımıza, habelə Avropa Birliyi, ABŞ və Rusiya ilə münasibətlərimizin perspektivlərinə, zənnimcə, jurnalistlər və siyasətçilər kimi başa düşürsünüz ki, ziddiyyətlər bəzən məhz bu məsələlərlə əlaqədar baş verir. Lakin biz öz münasibətlərimizdə belə fikir ayrılığı olduğunu hiss etmirik.

Jurnalistlərin məni düzgün başa düşməsi üçün təkrar edirəm ki, Azərbaycanın mənafeləri Özbəkistanın mənafeləri ilə tam uyğun gəlir. Bundan istifadə edib, demək istəyirəm ki, İlham Əliyev Azərbaycan Prezidenti seçiləndə çoxları göz qoymağa başladı ki, görəsən, yeni Prezident nə cür siyasət yeridəcək, ölkənin xarici siyasətini müəyyənləşdirən əsas məsələlərdə səmtlər dəyişəcəkmi? Mən məmnuniyyətlə cavab verirəm ki, İlham Əliyevin siyasəti Heydər Əliyev siyasətinin qanunauyğun və müdrik davamıdır. Mən geniş iclasda Heydər Əliyev şəxsiyyətinin təkcə Azərbaycan üçün deyil, həm də bizim ikitərəfli münasibətlərimiz üçün əhəmiyyətindən danışmışdım.

Jurnalistlərin yanında bir daha demək istəyirəm ki, ölkələrimizin münasibətlərinin mədəniyyətlərimizin, dillərimizin, dinlərimizin yaxınlığı və ümumiliyi kimi dərin kökləri vardır. İlham Əliyev artıq dedi ki, Azərbaycanda Nəvainin abidəsi ucaldılacaq, küçələrdən birinə isə bizim ulu əcdadımız Uluqbəyin adı veriləcəkdir. Artıq 60 ildir ki, Nizaminin adını daşıyan Pedaqoji Universitetin önündə bu dahi Azərbaycan şairinin bu gün açacağımız abidəsi bir daha sübut edir ki, münasibətlərimiz həmişə elə köklərə malik olmuşdur ki, bu nadir imkandan istifadə etməmək cinayətdir.

1990-cı illərin əvvəllərində Azərbaycanda həyəcanlı hadisələr baş verəndə və hakimiyyətə gələn Elçibəy kimi bəzi adamlar xalqları nəinki bir-birinə yaxınlaşdırmağa çalışmırdılar, hətta onları bir-birindən ayırmaq üçün hər şeyi edirdilər. Özbəkistanla Azərbaycan arasında gözəgörünməz sədd yaranmışdı. Bu, qeyri-təbii idi. Mən bunu tarixi yaddaşı olan bir insan kimi deyirəm. O illərdə mən Özbəkistanın rəhbəri idim və bütün bunları hiss edirdim, görürdüm. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra və şəxsən özü mənimlə bu mövzuda danışanda deyirdi ki, Elçibəy kimi bəsirətsiz adamların hakimiyyətə gəlməsinə görə Azərbaycandan incimək olmaz.

Mən Heydər Əliyevin xalqlarımızın bir-birindən ayrı düşməsindən necə narahatlıq keçirdiyini və bu səddi aradan götürmək üçün nə qədər çox iş gördüyünü bilirəm və bu gün biz müəyyən dərəcədə xalqlarımızın bir-birinə yaxınlaşması siyasətini davam etdiririk. Mən deməliyəm ki, bu, Heydər Əliyevin və daim onun komandasında olmuş insanların xidmətidir. Mən hesab edirəm ki, bu komanda Azərbaycanda o qədər böyükdür ki, ona qalib gəlmək mümkün deyildir.

Odur ki, sizin sualınızdan istifadə edib mən başqa məsələyə də toxundum. Biz mühüm beynəlxalq problemlərin həllində ümumi səmtdən və bir-birimizi dəstəkləməkdən və beynəlxalq miqyasda ölkələrimizin nüfuzundan danışanda zənn edirəm ki, keçmiş tariximizlə bağlı məsələlərə toxunmamaq mümkün deyildir. Xoşbəxtlikdən, bu yöndəmsiz hallar uzun çəkmədi. Bu gün biz, iki prezident yanaşı oturmuşuq və İlham Əliyev Heydər Əliyevin başladığı işin davamçısıdır. Bu yaxınlarda o, Yeni Azərbaycan Partiyası İdarə heyətinin iclasında çıxış edərkən çox mühüm bir fikir söylədi və mən bunu özüm üçün qeyd etmişəm: Mən Heydər Əliyevin siyasətinə sadiq qalacağam, təkcə ona görə yox ki, o, mənim atamdır, ona görə ki, bu siyasətin alternativi yoxdur. Zənn edirəm ki, bu, çox əhəmiyyətli ifadədir və Azərbaycanın sabah hansı yolla gedəcəyi ilə maraqlananlarda aydın təsəvvür yaradır. Bu da sizin sualınıza mənim cavabım.

SUAL: Sualım Azərbaycan Prezidentinədir. Cənab Əliyev, bu gün sərbəst ticarət haqqında sazişə əlavələr və dəyişikliklər edilməsi barədə protokol imzalandı. Bununla əlaqədar, iki ölkənin müəssisələri və biznes dairələr arasında birbaşa işgüzar əlaqələr yaratmaq üçün hansı yeni imkanlar açılır?

İLHAM ƏLİYEV: Biz ölkələrimiz arasında iqtisadi əlaqələrin möhkəmlənməsində çox maraqlıyıq. Bu gün biz bu barədə ətraflı danışdıq. Dövlətlərimizin iqtisadi potensialının inkişaf məntiqinin özü göstərir ki, iqtisadi əlaqələrimiz inkişaf etməlidir. Həm Özbəkistan, həm də Azərbaycan son illər öz iqtisadi qüdrətini artırmaq yolunda böyük sıçrayış etmişdir. İqtisadiyyatda baş verən müsbət proseslər sosial sahədə də özünü göstərməyə bilməz. Bizim vəzifəmiz ondan ibarətdir ki, ölkələrimizin vətəndaşları yaxşı yaşasınlar. Bunun üçün də iqtisadi potensialdan tam istifadə edilməlidir.

Təəssüf ki, bu gün ölkələrimiz arasındakı ticarət münasibətlərində hələlik arzuedilən səviyyəyə çata bilməmişik. Lakin əminəm ki, bu gün aparılan danışıqlar və müvafiq qurumlara onların fəaliyyətini, habelə nəqliyyat kommunikasiyasından tam istifadə olunması üçün tarif siyasətini bazarın tələblərinə uyğunlaşdırmaq üçün verilən tapşırıqlar müsbət nəticələrə gətirib çıxaracaqdır.

Təəssüf ki, Özbəkistanla Azərbaycan arasında birbaşa nəqliyyat əlaqəsinin olmaması əmtəə dövriyyəsinin artmasını xeyli dərəcədə ləngidir. Lakin biz bu süni sədlərin aradan qaldırılması, habelə potensialımızdan tam miqyasda istifadə etmək üçün başqa yollar axtarıb tapmaq istiqamətində birgə işləmək niyyətindəyik. Ticarət etməyə imkanlarımız, bir-birimizdən öyrənməli cəhətlər vardır. Mən əminəm ki, bu gün səfər çərçivəsində imzalanmış sənədlər bu baxımdan müsbət rol oynayacaqdır. Yaradılmış hökumətlərarası komissiya fəal işləyir, konkret məsələlər üzrə optimal inkişaf yollarının tapılması barədə ona tapşırıqlar verilmişdir. Mən əminəm ki, qarşılıqlı arzu olarsa, - belə arzu isə vardır və bu gün bir daha təsdiq edildi, - siyasi fon olarsa, - bu da var, - təsərrüfat subyektləri arasında birbaşa və uzunmüddətli münasibətlər yaranacaq, bunlar da qarşılıqlı marağa və faydaya doğru aparacaqdır.

SUAL: Cənab Kərimov, Azərbaycan və Özbəkistan Böyük İpək yolu layihəsində mühüm strateji rol oynayırlar. Siz bu layihənin gələcəyini necə qiymətləndirirsiniz?

İSLAM KƏRİMOV: Avropa Birliyinin xarici əlaqələr üzrə komissarı cənab Kristofer Patten bu yaxınlarda Özbəkistanda səfərdə oldu. Həmin məsələ də müzakirələrimizin diqqət mərkəzində idi. Avropa Birliyi bu marşrutun səmərəliliyinə böyük əhəmiyyət verir. Əgər kimsə bu marşrutun əhəmiyyətini hələ başa düşmürsə, deməliyəm ki, bilavasitə həmin yolun üstündə olan ölkələr nə vaxtsa bunu başa düşəcəklər. Bu məsələ qloballaşma əsrində böyük əhəmiyyət kəsb edir. Mən Bolqarıstanda olanda belə bir təşəbbüs irəli sürdük ki, 7 dövlət – Orta Asiya dövlətləri, Gürcüstan və Azərbaycan öz üzərlərinə öhdəliklər götürərək, tranzit üçün daha əlverişli rejim yaradacaq müqavilə imzalasınlar.

Təəssüf ki, indi bu mövzuda çıxış edənlər Böyük İpək yolundan danışmağı sevirlər, özü də bu, çox vaxt quruca sözlər kimi səslənir. Bilirsinizmi, bu yol 2 min il əvvəl mövcud olmuşdur. Doğrudanmı, bu gün biz o səviyyədəyik ki, 2 min il əvvəl insanlar bu marşrutun əhəmiyyətini başa düşürdülər, amma indi həmin layihənin həyata keçirilməsi yolunda əngələ çevrilən dövlətlər meydana gəlir? Sadəcə, dəvə karvanlarının olduğu o dövrdə insanlar bu yolun əhəmiyyətini başa düşürdülər. Karvan yollarında soyğunçuluq törədən quldurları Əmir Teymurun amansızcasına cəzalandırdığına dair onlarca misal var. O dövrlərdə regionumuzdan keçən karvanlar hiss edirdilər ki, onlar müdafiə olunurlar. Odur ki, bu 7 dövlət heç də təkcə yüklərin, malların və sadəcə, insanların hərəkəti yolunda əngəl olmamaq haqqında müqavilə imzalamayacaqlar. Onların imzalayacağı müqavilələrdə dəqiq yazılacaq ki, əlverişli rejim yaradılacaqdır. Biz tarif dərəcələrinin aşağı salınması haqqında Azərbaycanla və digər ölkələrlə saziş imzalamışıq. Türkmənistan öz öhdəliklərindən birtərəfli qaydada tamamilə imtina etmişdir ki, bu da beynəlxalq normalara ziddir. Ona görə də bu gün pambığımızın Azərbaycan və Xəzərdən keçərək Qara dəniz vasitəsilə aparılıb satılması Latviya və Litvadan keçən marşrutla müqayisədə 20 faiz bahadır. Bu bəsirətsizlik və məsələnin dəqiq başa düşülməməsi, görün, nəyə gətirib çıxarmışdır. Bazar münasibətləri tranzit marşrutlarının təkmilləşdi-

rilməsini tələb edir. Ona görə də bütün siyasətçilər və dövlət rəhbərləri başa düşməlidirlər ki, bu marşrutlar insanları bir-birindən ayrı salmamalı, əksinə, yaxınlaşdırmalıdır. Bu gün biz Prezident İlham Əliyevlə bu mövzuda söhbət etdik və belə bir ümumi fikrə gəldik ki, Avropa ölkələrini maraqlandıran yolun böyük əhəmiyyət kəsb etməsi üçün mümkün olan hər şeyi etmək lazımdır. Avropa Birliyi Əfqanıstanın və İranın TRACECA layihəsinə qoşulması haqqında Özbəkistanın təşəbbüsünü dəstəkləmişdir. İndi siz təsəvvür edə bilərsiniz, Böyük İpək yolu çərçivəsində hamı üçün daha əlverşli olan marşrut yarananda mümkün olan hər şeyi etmək lazımdır ki, TRACECA insanların və dövlətlərin rifahı üçün işləsin. Yollar insanları bir-birindən ayırmamalı, əksinə yaxınlaşdırmalı və birləşdirməlidir.

SUAL: Sualım cənab Əliyevədir. Cənab Prezident, məlum olduğu kimi, iki ölkə arasında 2010-cu ilədək iqtisadi əməkdaşlıq proqramı qəbul edilmişdir. Əmtəə dövriyyəsini artırmaq yolunda hansı maneələr vardır və Azərbaycan rəhbərliyi bu məsələnin həlli üçün nə etmək fikrindədir?

İLHAM ƏLİYEV: Bu məsələ bu gün çox ətraflı müzakirə edildi. Mənə məlumdur ki, həmin məsələ hökumətlərarası komissiya çərçivəsində də ətraflı müzakirə olunmuşdur. Bu istiqamətdə ən ciddi maneələrdən biri bir-birinin bazarına birbaşa çıxışla bağlı çətinliklərdir. İndiki halda, biz bunu asanlaşdırmaq üçün birgə işləyəcək, habelə alternativ yollar axtarıb tapacağıq. Mən bu gün dedim ki, yerüstü nəqliyyat kommunikasiyalarından istifadə etməyə ehtiyac olmayan istiqamətlərdə bizim problemimiz yoxdur. Azərbaycan tərəfinin Özbəkistanda istehsal olunmuş iki təyyarə alması buna əyani sübutdur. Yəni təyyarələr üçün bu problem yoxdur, burada havaya qalxıb, Bakıda yerə enəcəkdir. Yerüstü yollarla daşınan yüklər üçün isə təhlükəsiz və etibarlı kommunikasiyaların olmaması işi ləngidən əsas amildir. Lakin biz bu problemlə barışmaq istəmirik və onun həlli üçün hər şeyi edəcəyik. Zənn edirəm ki, lazım olarsa, beynəlxalq təşkilatların xidmətlərindən də istifadə etmək olar. İslam Abduqəniyeviç Böyük İpək yolunun potensialı tam işə düşəndə, bütün ölkələr üçün necə ciddi perspektivlər açılacağından danışdı. Bu ölkələrin coğrafiyası kifayət qədər genişdir. Ona görə də mən əminəm ki, bu layihənin təşəbbüskarı olan beynəlxalq təşkilatlar da prosesi gücləndirməlidirlər. Çünki, təəssüf ki, Qərb-Şərq dəhlizi layihəsinin həyata keçirilməsinin sürəti bir qədər zəifləmişdir. Bu, ölkələrimizin potensialına da mənfi təsir göstərə bilər. Bizim ölkələrimiz istehsalçı ölkələrdir, onlar bu gün üçün də, gələcək üçün də ciddi potensiala malikdirlər. Ölkələrimiz həm də tranzit yolu kimi çox əlverişlidir. Bu imkanlardan istifadə etməmək yolverilməz olardı. Təəssüf ki, indiki vəziyyətdə heç də hər şey bizdən asılı deyildir. Maraqlı ölkələrin bu istiqamətdə geniş konsensusu fəal surətdə irəliləməlidir. Müvafiq qurumun bəzi elementlərinin olmaması əlavə çətinliklər yaradır. Lakin mən buna nikbin baxıram və zənn edirəm ki, tarif siyasətini tənzimləmək tapşırığı almış müvafiq idarələrimiz bu vəziyyətdən çıxmaq üçün əlavə yollar axtarıb tapacaqlar.

İSLAM KƏRİMOV: Sizin daha nikbin olmağımız üçün demək istəyirəm ki, bu ilin iki ayı ərzində Azərbaycanla Özbəkistan arasında əmtəə dövriyyəsi 18 milyon dollar təşkil etmişdir. Yəni 2003-cü ilə nisbətən iki dəfə çoxdur. Sual verəndə bizim bu məsələdə nikbin olduğumuzu deməyi unutmayın, onda bu, obyektiv olar.

AZƏRBAYCAN PREZİDENTİ ÇKALOV ADINA TƏYYARƏQAYIRMA İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞ OLMUŞDUR

Martın 23-də Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti İslam Kərimov Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyinə gəldilər.

Dövlət başçıları birliyin yığma sexində oldular, burada istehsal edilən müxtəlif təyyarələrlə tanış oldular.

Birliyin baş direktoru Vadim Kuçerov buraxılan təyyarələr və istehsal prosesi barədə ətraflı məlumat verdi. Bildirildi ki, bu yaxınlarda Azərbaycan İL-76 TD markalı iki təyyarə almışdır. Son iki ildə bu zavodda buraxılan və yaxın məsafələrə uçuş üçün nəzərdə tutulan İL-114-100 markalı 52-64 yerlik təyyarələr dövlətimizin başçısında böyük maraq doğurdu. Ali qonağa digər markalı yük təyyarələri haqqında da məlumatlar verildi.

Prezidentlər təyyarələrə qalxaraq, salonlarla da tanış oldular.

Azərbaycan Prezidenti İlham Əliyevə müəssisədə istehsal olunan təyyarənin maketi təqdim edildi.

Müəssisə ilə tanışlıqdan sonra Özbəkistan Prezidenti İslam Kərimov Azərbaycan jurnalistlərinin suallarına cavab verdi:

SUAL: Dağlıq Qarabağ məsələsində Özbəkistanın mövqeyi bizə bəllidir. Bu günlərdə Ermənistanın xarici işlər naziri öz bəyanatında etiraf etmişdir ki, ölkəsi ona məxsus olmayan ərazilərə nəzarət edir. Siz bu məsələ barədə nə düşünürsünüz?

CAVAB: Bu gün mən bəyanat verərək bildirdim ki, Azərbaycana sovet hakimiyyətindən miras qalan Dağlıq Qarabağ probleminin meydana gəlməsinə səbəb o vaxt ölkəni Qorbaçovun idarə etməsi idi. Bütün bunlara görə o cavab verməlidir. Qorbaçov münaqişənin qarşısının alınması üçün heç nə etmədi. Nə isə, bu, tarixdir.

Prinsipial mövqeimiz belədir - ərazi bütövlüyü prinsipi ən başlıca prinsip olmalıdır. Qarabağ probleminin nizama salınmasında əsas götürülməli olan birinci və əsas məsələ Azərbaycanın ərazi bütövlüyüdür. Bu problemin həllinə dair danışıqlar prosesi də, müxtəlif variantların hazırlanması da bunun əsasında qurulmalıdır. Yalnız ərazi bütövlüyü ən başlıca məsələ olmalıdır. Bu məsələnin, necə deyərlər, paket şəklində həllindən danışırlar, lakin mən burada perspektiv görmürəm. Mənim fikrim belədir ki, məsələni mərhələ-mərhələ həll etmək lazımdır. Mən bunu ilk dəfə olaraq deyirəm və bu, ola bilsin, hansısa tərəfin xoşuna gəlməsin. Birinci olaraq, ərazi azad edilməli, artıq bundan sonra blokada götürülməli, dəmir yolunun və digər kommunikasiyaların fəaliyyəti təmin olunmalıdır. Məncə, erməni tərəfinin ələ keçirdiyi ərazini azad etməkdə marağı olmalıdır ki, bütün qaçqınlar öz əzəli torpaqlarına qayıtsın, öz ev-eşiklərini bərpa etsin və insan kimi, normal yaşasınlar. Azərbaycan tərəfi isə bundan sonra kommunikasiyaları açacaqdır. Sonra isə Dağlıq Qarabağın statusu məsələsini və qalan bütün məsələləri həll etmək olar. Əgər məsələnin paket şəklində həllindən danışsaq, onda bu, zənnimcə, hələ uzun müddət müzakirə mövzusu, hətta möhtəkirlik movzusu olacaqdır ki, burada da əsas rolu Azərbaycan və Ermənistan deyil, böyük dövlətlər oynayacaqlar. Aydındır ki, onların da bu məsələdə öz mənafeləri var. Bəlkə də, öz fikrimi həddindən ziyadə cəsarətlə açıqladım, amma mənim fikrim belədir.

DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Martın 23-də Daşkənd Pedaqoji Universitetinin qarşısında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimi olmuşdur.

Mərasimə toplaşanlar - Özbəkistanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Azərbaycan diasporunun nümayəndələri, universitetin müəllim və tələbələri, Özbəkistan ictimaiyyətinin nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevi və Özbəkistan Prezidenti İslam Kərimovu hərarətli alqışlarla qarşıladılar.

Sonra mərasimi giriş sözü ilə açan Daşkənd şəhərinin hakimi RÜSTƏM ŞOƏBDÜRƏHMANOV dedi:

- Hörmətli İlham Heydəroviç!

Hörmətli İslam Abduqəniyeviç!

Özbək və Azərbaycan xalqlarının əsrlər boyu davam edən dostluğu ictimai və siyasi həyatımıza da mühüm təsirini göstərir. Bu gün biz xalqlarımızın qardaşlıq əlaqələrinin daha bir nümunəsi olaraq, ulu Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılış mərasiminə toplaşmışıq.

Nizami Gəncəvinin abidəsinin açılış mərasiminə başlayırıq. Çıxış üçün söz Özbəkistan Respublikasının Prezidenti İslam Abduqəniyeviç Kərimova verilir.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN ÇIXIŞI

- Zati-aliləri möhtərəm Prezident!

Hörmətli Azərbaycan nümayəndə heyətinin üzvləri!

Əziz qonaqlar və dostlar!

Bu gün biz ölkəmizin paytaxtı Daşkəndin Xalq meydanında Şərq aləminin böyük nümayəndəsi, Azərbaycan xalqının dahi mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı münasibətilə təşkil olunmuş təntənəli mərasimə toplaşmışıq.

Bu mərasimdə iştirak edən əziz qonaqlarımızı, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevi, hörmətli ədəbiyyat və incəsənət nümayəndələrini, Nizami yaradıcılığının bütün pərəstişkarlarını səmimi qəlbdən salamlamağıma görə xoşbəxtəm.

Əziz dostlar!

Dünya ədəbiyyatının parlaq nümayəndəsi olan Nizami Gəncəvi özünün ölməz, bənzərsiz yaradıcılığını ülvi hisslərin, insan xarakterinin xeyirxahlıq və fədakarlıq, sadiqlik, ədalətlilik və cəsurluq kimi nəcib keyfiyyətlərinin tərənnümünə həsr etmişdir. Mübaliğəsiz demək olar ki, Nizami dünyanın ən böyük şairləri ilə bir sırada durur. Zənnimcə, Özbəkistanda elə bir adam tapılmaz ki, o, şairi tanımasın, onun özündən sonrakı nəsillərə yadigar qoyduğu zəngin və dahi irsinə bələd olmasın. Tarixdən yaxşı məlumdur ki, özbək ədəbiyyatının görkəmli nümayəndəsi Əlişir Nəvai Nizami dühasına böyük hörmətlə və dərin riqqətlə yanaşırdı, onun insanı ülviləşdirən fəlsəfi, ictimai-mənəvi ideya və amallarını öz əsərlərində təbliğ və tərənnüm edirdi. Tariximizin səhifələri həm də

özbək və Azərbaycan xalqlarının köklərinin eyniliyinə, dillərinin, adət və ənənələrinin yaxınlığına sübutdur. Ölkələrimizin indiki nəsli, ictimaiyyəti bu mədəni telləri ümumi sərvət kimi qiymətləndirir və onları qayğı ilə qorumağa və möhkəmlətməyə çalışırlar. Bunun təsdiqini həyatımızın çoxsaylı nümunələrində - siyasi, iqtisadi və mədəni sahələrdə görmək olar.

Əziz azərbaycanlı dostlar!

Dahi Nizami Gəncəvinin abidəsinin Daşkənd Dövlət Pedaqoji Universitetinin binası qarşısındakı meydanda ucaldılması heç də təsadüfi deyildir.Respublikanın mötəbər elmi mərkəzlərindən biri olan bu universitet altmış ildir Nizaminin adını daşıyaraq, onun xatirəsini əbədiləşdirir. Gözəlheykəltəraşlıq əsəri olan bu əzəmətli abidə xalqımızın Nizami dühasına dərin hörmətini təcəssüm etdirir. Həm də istərdim ki, bu abidə qardaş Azərbaycan xalqına, onun əsrlərin sınağından çıxmış qədim tarix və mədəniyyətinə, sönməz ruhuna, yenilməz iradəsinə və mətinliyinə, nurlu gələcəyinə hörmət və etimad rəmzi kimi qəbul edilsin. İllər və əsrlər ötəcək, amma bu əzəmətli abidə daim bütün yeni nəsillərin nümayəndələrini Nizaminin tərənnüm etdiyi əbədi amallara, eyni nəcib niyyət və məqsədləri olan xalqlarımız arasında dostluğu daha da möhkəmləndirməyə çağıracaqdır.

Əminəm ki, qardaşlığımızın bu parlaq rəmzi xalqlarımızın dühası ilə yaradılmış mədəniyyət incilərinə heyranlığımızın əbədi mənbəyi olacaqdır. Nizaminin vətənindən, poeziya və gözəlliklər məmləkətindən gəlmiş əziz dostlar, icazə verin, sizi bir daha salamlayım.

Özbəkistana xoş gəlmisiniz!

Qoy, özbək və Azərbaycan xalqlarının dostluğu və əməkdaşlığı daha da möhkəmlənsin və inkişaf etsin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Bu gün həyatımızda çox əlamətdar hadisədir. Özbəkistanın paytaxtı Daşkənd şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi ucaldılıb və biz bu abidənin açılış mərasimini keçiririk. Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm.

Dahi Nizaminin əsərləri ölməzdir, dəyərlidir və bütün nəsillər üçün əhəmiyyətlidir. Bu əsərlər bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır. Nizaminin əsərləri özbək və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırır və bir-birinə daha sıx bağlayır.

Xalqlarımız əsrlər boyu bir yerdə olmuş, yaşamış və yaratmışlar. Onlar daim bir-birinə arxa olmuşlar. Bütün dövrlərdə Özbəkistanla Azərbaycan arasında qardaşlıq münasibətləri mövcud olmuşdur və biz çox xoşbəxtik ki, bu gün bu münasibətlər davam edir. Öl-

kələrimiz müstəqillik əldə etdikdən sonra da münasibətlərimiz sürətlə inkişaf etmişdir. Bu istiqamətdə ən böyük xidmət iki xalqın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyevə məxsusdur. Məhz bu liderlər öz xalqlarının müstəqilliyini əbədi və dönməz etmişlər, dövlətlərinin möhkəmləndirilməsi istiqamətində böyük səylər göstərmişlər.

Bu gün hörmətli İslam Abduqəniyeviç mənim haqqımda danışarkən dedi ki, o, Heydər Əliyevin oğludur. Həqiqətən, bu, mənim üçün ən böyük vəzifədir. Heydər Əliyevin oğlu olmaq mənim üçün böyük vəzifə və çox böyük şərəfdir. Əmin etmək istəyirəm ki, mən bu ada layiq olacağam, atamın yolu ilə gedəcəyəm, onun siyasətini davam etdirəcəyəm. Çalışacağam əlimdən gələni edim ki, xalqlarımız və ölkələrimiz bir-birinə daha yaxın olsunlar.

Bu gün Azərbaycan Prezidenti kimi mənim Özbəkistana ilk dövlət səfərim başlanmışdır. Bu dəvətə və mənə göstərilən qonaqpərvərliyə, diqqətə görə Özbəkistan Respublikasının Prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimova və bütün özbək xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Bu gün apardığımız söhbətlər, danışıqlar nəticəsində bir daha əmin oldum ki, ölkələrimiz gələcəkdə də daim birlikdə olacaq, xalqlarımız həmişə bir-birinə sıx bağlı olacaqlar. Bizim xoşbəxtliyimiz birlikdədir. Biz daim bir yerdə olmalıyıq, çünki taleyimiz, gələcəyimiz və niyyətimiz birdir. Niyyət də ondan ibarətdir ki, Özbəkistan və Azərbaycan rahat, azad və firavan yaşasınlar, öz dövlət müstəqilliyini bundan sonra da möhkəmləndirsinlər və beləliklə, insanlarımız əmin olsunlar ki, onların gələcəyi etibarlı əllərdədir.

Bu gün mən öz çıxışlarımda da, ikitərəfli danışıqlar zamanı da bir neçə dəfə qeyd etmişəm ki, Özbəkistan xalqı ona ümummilli lideri İslam Abduqəniyeviç Kərimov kimi tanınmış dövlət xadimi rəhbərlik etdiyi üçün xoşbəxt və bəxtiyardır. Özbəkistan dövlət müstəqilliyini əldə etdikdən sonra məhz onun yorulmaz fəaliyyəti nəticəsində böyük uğurlara nail olmuşdur. Ölkənin iqtisadi potensialı güclənmiş, Özbəkistan dünya birliyində özünə layiq yerini tuta bilmişdir. Bu gün Özbəkistan bütün region üçün çox əhəmiyyətli bir ölkədir. Əlbəttə, gələcəkdə Özbəkistan-Azərbaycan münasibətləri də bizim hamımızın diqqət mərkəzində olmalıdır. Biz bu siyasəti davam etdirməliyik. Əminəm ki, xalqlarımız bundan böyük fayda görəcəklər.

Sizə onu da demək istəyirəm ki, yaxın zamanlarda Bakı şəhərində dahi özbək şairi Əlişir Nəvainin də abidəsi ucaldılacaqdır və əminəm ki, əziz dostumuz və qardaşımız İslam Abduqəniyeviç və sizlər, əziz bacılar və qardaşlar, bu mərasimdə iştirak edəcəksiniz.

Mənim Özbəkistana, özbək xalqına həmişə böyük hörmət və məhəbbətim olmuşdur. Düzdür, bu mənim Özbəkistana ilk səfərimdir. Ancaq Özbəkistan və özbək xalqı haqqında geniş məlumatım vardır. Mənim atam Prezident Heydər Əliyev dəfələrlə burada olmuş və öz fikirlərini və duyğularını mənimlə bölüşmüşdür. Əmin ola bilərsiniz ki, bu siyasət, yəni Azərbaycan-Özbəkistan münasibətlərinin daha da dərinləşdirilməsi, inkişafı istiqamətində aparılan siyasət bundan sonra da davam edəcəkdir və xalqlarımız gələcəkdə də birlikdə olacaqlar, bir nöqtəyə vuracaqlar, həmişə olduğu kimi, bir-birinə dayaq və arxa olacaqlar.

Bir daha mənə göstərilən bu böyük ehtirama, qonaqpərvərliyə, məhəbbətə görə hörmətli Prezident İslam Kərimova minnətdarlığımı bildirirəm. Qardaş özbək xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

AZƏRBAYCANIN ÖZBƏKİSTANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Martın 23-də Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyinin yeni binasının açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə iştirak edirdilər.

Mərasimi ölkəmizin Özbəkistandakı səfiri Aydın Əzimbəyov giriş sözü ilə açdı. O, ikitərəfli münasibətlərin inkişafında, Azərbaycan və özbək xalqları arasında dostuq və qardaşlığın möhkəmlənməsində göstərdikləri səylərə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Özbəkistan Prezidenti İslam Kərimova minnətdarlığını bildirdi. Səfir Daşkəndin mərkəzində ölkəmizin diplomatik nümayəndəliyinin yeni binasının açılmasını ikitərəfli əlaqələrin inkişafına inandırıcı sübut kimi dəyərləndirdi.

Sonra mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Baş nazir!

Cənab səfir, əziz dostlar!

Bu gün çox əlamətdar gündür. Azərbaycanın Özbəkistandakı səfirliyinin yeni binası açılır. Bunun Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri günlərində baş verməsinin dərin rəmzi mənası var. Mən möhtərəm İslam Abduqəniyeviç Kərimovun dəvətini böyük məmnuniyyətlə qəbul etdim və qardaş Özbəkistana gəldim.

Bu gün geniş tərkibdə aparılmış danışıqlar və ikitərəfli görüşlər belə deməyə əsas verir ki, xalqlarımız arasındakı ənənəvi tarixi dostluq və qardaşlıq telləri davam və inkişaf etdiriləcəkdir.

Özbəkistan Azərbaycan üçün qardaş və dost ölkədir. Münasibətlərimizin bütün tarixi ərzində biz bir-birimizə dərin rəğbət və hörmət, məhəbbət və dostluq hissləri bəsləmişik. Dövlətlərimizin liderləri İslam Kərimovun və Heydər Əliyevin fəaliyyəti sayəsində ölkələrimiz müstəqillik illərində bir-birinə daha yaxın olmuşlar. Gələcək üçün vəzifə bu dostuq və qardaşlıq ənənələrini davam etdirməkdən, bütün sahələrdə münasibətlərimizi genişləndirməkdən ibarətdir.

Bir müddət bundan əvvəl biz Özbəkistan Prezidenti ilə birgə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini açdıq. Orada İslam Abduqəniyeviç özbək dilində, sonra da mən Azərbaycan dilində çıxış etdik. Biz başa düşdük ki, tərcüməçiyə ehtiyacımız yoxdur. Dillərimiz nə dərəcədə bir-birinə yaxındırsa, biz də o qədər bir-birimizi başa düşürük. Bu da xalqlarımızı bir-birinə yaxınlaşdıran çox mühüm amildir. Mən dostluğumuzu, ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün öz tərəfimdən mümkün olan hər şeyi edəcəyəm ki, daha tez-tez görüşək, fikir mübadiləsi aparaq, Özbəkistanda həmişə bilsinlər ki, Azərbaycanda onların qardaşları yaşayır, Azərbaycanda da bilsinlər ki, burada onların qardaşları yaşayır. Biz dost və qardaş xalqlarıq, bizim ümumi tariximiz, ümumi problemlərimiz var. Bu illər ərzində liderlərimiz müstəqilliyi möhkəmləndirmiş və onu əbədi etmişlər. Biz bu xətti davam etdirəcəyik.

Mən bütün özbək xalqına firavanlıq, xoşbəxtlik, tərəqqi arzulayıram. Arzu edirəm ki, əlaqələrimiz davam etsin, inkişaf etsin, möhkəmlənsin. Özbəkistanda yaşayan azərbaycanlılara isə demək istəyirəm ki, həmişə yadda saxlasınlar: biz onları unutmuruq, xatırlayırıq, sevirik. Onlar Özbəkistanın çox ləyaqətli vətəndaşlarıdır.

Zənn edirəm ki, bu gözəl binanın bugünkü açılışı ümumi məqsədlərimiz – müstəqilliyi, suverenliyi möhkəmlətmək, yeni qələbələrə doğru birgə irəliləmək naminə xalqlarımızı, dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.

Bir daha sizin hamınızı təbrik edir və arzu edirəm ki, bizim səfirliyimiz yeni binada iki xalqın rifahı naminə daha fəal, səmərəli işləsin.

ÖZBƏKİSTANIN BAŞ NAZİRİ ŞAVKAT MİRZİYAYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Prezidenti, çox hörmətli İlham Heydər oğlu Əliyevi, əziz azərbaycanlı qonaqlarımızı, diplomatik korpusun, kütləvi informasiya vasitələrinin nümayəndələrini ürəkdən salamlayım.

Bu gün biz paytaxtımızın mərkəzində Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyinin yeni binasının açılışına həsr edilmiş mərasimə toplaşmışıq.

Bununla əlaqədar, ilk növbədə, ölkənizin Özbəkistandakı səfirliyi üçün yeni bina tikilməsi haqqında qərarına görə Azərbaycan hökumətinə çox böyük təşəkkürümüzü bildirmək istərdim. Biz Azərbaycan rəhbərliyinin bu qərarını Özbəkistana, xalqımıza səmimi hörmətin ifadəsi və Azərbaycan dövlətinin Özbəkistanla əbədi qardaşlıq münasibətləri qurmaq istəyi kimi qarşılayırıq.

Əziz dostlar!

Çox qısa müddətdə tikilən bu bina özündə Azərbaycan və Özbəkistan memarlığının ənənələrini birləşdirir və əsla şübhə yoxdur ki, o, xalqlarımız arasında dostluğun rəmzi olacaq və Daşkəndin daha bir gözəl yaraşığına çevriləcəkdir.

Tariximizi vərəqləsək, özbək və Azərbaycan xalqları arasında dostluğun və qarşılıqlı rəğbətin dərin, çoxəsrlik köklərini təsdiqləyən neçə-neçə şanlı səhifə tapmaq olar.

Hörmətli İlham Heydəroviç, bugünkü təntənəli tədbirin rəmziliyi həm də ondadır ki, ikitərəfli münasibətlər üçün mühüm bir hadisə - səfirliyin yeni binasının açılması Sizin ilk dövlət səfərinizin daha bir gözəl əlaməti olmuşdur. Zənnimizcə, bu binanın açılması görkəmli siyasi xadimlər İslam Kərimov və Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş Özbəkistan- Azərbaycan əlaqələrinin daha da dərinləşməsinə kömək edəcəkdir.

Məhz onlar, onların şəxsi qarşılıqlı hörmət və ehtirama əsaslanan münasibətləri eyni tarixi, mədəniyyəti, dini, dili olan xalqların dostluq əlaqələrini yeni şəraitdə dirçəltdi və gələcək əməkdaşlığın etibarlı bünövrəsini qoydu.

Bu baxımdan bu gün biz hamımız qarşılıqlı hörmət ruhunda aparılmış Özbəkistan-Azərbaycan danışıqlarının səmərəli və konstruktiv xarakter daşıdığının şahidiyik. Danışıqların yekunlarına əsasən, ikitərəfli münasibətlərimiz üçün mühüm sənədlər imzalanmışdır və bunlar ölkələrimizin xalqlarının rifahı naminə əməkdaşlığın yeni üfüqlərini açır.

Qəti əminəm ki, dövlətlərimiz arasındakı ikitərəfli münasibətlərin böyük perspektivləri var, çünki onların siyasi, iqtisadi və humanitar sahələrdə inkişaf etdirilməsi ölkələrimizin və xalqlarımızın ümdə mənafelərinə cavab verir.

Əziz azərbaycanlı dostlar!

Sonda əmin olduğumu bildirmək istəyirəm ki, səfirliyin bu gün açdığımız yeni binası Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

* * *

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Prezident İlham Əliyev və Baş nazir Şavkat Mirziyayev səfirliyin yeni binasının açılışını bildirən lenti kəsdilər.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimindən sonra binanın foyesində ümummilli liderimiz Heydər Əliyevin büstünə tamaşa etdi, otaqları gəzdi, səfirliyin əməkdaşları ilə söhbət etdi.

Prezident İlham Əliyev daha sonra səfirliyin qarşısında Azərbaycan diasporunun nümayəndələri ilə görüşdü.

DAŞKƏNDDƏ HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ

Martın 24-də Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə iştirak edirdilər.

Mərasimə Özbəkistanda akkreditə olunmuş səfirliklərin rəhbərləri, Azərbaycan diasporunun və Daşkənd ictimaiyyətinin nümayəndələri toplaşmışdı.

Əvvəlcə, Mədəniyyət mərkəzinin yerləşdiyi küçəyə ümummilli liderimiz Heydər Əliyevin adının verilməsini bildirən lövhənin açılışı oldu. Prezident İlham Əliyev mərasimə toplaşanların alqış səsləri altında lövhənin üzərindəki örtüyü götürdü.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin Mədəniyyət mərkəzinin qarşısında qoyulmuş abidəsinin açılışı oldu. Dövlətimizin başçısı abidənin üzərindən örtüyü götürdü.

Azərbaycan Mədəniyyət Mərkəzinin açılışına həsr olunmuş mərasim başlandı. Mərasimi giriş sözü ilə açan ölkəmizin Daşkənddəki səfiri Aydın Əzimbəyov bildirdi ki, Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri günlərində ümummilli liderimiz Heydər Əliyevin abidəsinin, Azərbaycan Mədəniyyət Mərkəzinin, dahi Nizami Gəncəvinin abidəsinin və ölkəmizin səfirliyinin yeni binasının açılışı çox əlamətdar hadisələrdir.

Səfir vurğuladı ki, qardaş və dost xalqlarımızın daha da yaxınlaşması naminə prezidentlər İlham Əliyev və İslam Kərimovun səyləri ikitərəfli əlaqələrin möhkəmlənməsi sahəsində Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin məntiqi davamıdır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistanın Baş naziri Şavkat Mirziyayev mərasimdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz dostlar!

Dünən dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı zamanı Özbəkistanın Prezidenti hörmətli İslam Abduqəniyeviç Kərimov çıxış edərkən mən onun dediklərinin demək olar ki, hamısını başa düşdüm. O, özbək dilində çıxış edirdi. Mən Azərbaycan dilində çıxış edərkən o da mənim dediklərimin hamısını başa düşürdü. Bu, bir daha göstərir ki, bizim xalqlarımız nə qədər yaxındır.

Bu imkandan istifadə edərək, Azərbaycan dilinin özbəklər üçün ana dili qədər yaxın olduğunu və özbək dilinin azərbaycanlılar üçün doğma olduğunu nəzərə alaraq, mən sizin qarşınızda Azərbaycan dilində çıxış etmək istərdim.

Hörmətli xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Mənim Özbəkistana dövlət səfərimin ikinci günüdür. Bu səfər çox uğurlu keçir. Səfər çərçivəsində aparılmış ikitərəfli danışıqların nəticəsi olaraq, iki ölkə bir-birinə daha da yaxın olmuşdur. Özbəkistanın Prezidenti hörmətli cənab Kərimovla apardığımız söhbətlər əsnasında bir daha əmin olduq ki, bütün məsələlərdə - ikitərəfli əlaqələr, regional əməkdaşlıq sahəsində mövqelərimiz üst-üstə düşür.

Özbəkistan və Azərbaycan uzun illərdir ki, bir-birinə kömək edir, arxa və dayaq durur. Bu səmimi münasibətlərin əsasını xalqlarımızın ümummilli liderləri İslam Kərimov və Heydər Əliyev qoymuşlar. Azərbaycanın hazırkı Prezidenti kimi mən bu siyasətə sadiqəm, onu davam etdirəcəyəm. Mənə göstərilən hörmət, ehtiram və diqqət bir daha əminlik hissi yaradır ki, xalqlarımız həmişə olduğu kimi, bundan sonra da uğurlara doğru çiyin-çiyinə addımlayacaqlar.

Bu gün Azərbaycanın və Özbəkistanın tarixində çox əlamətdar bir gündür. Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binasının açılışıdır.

Mədəniyyət mərkəzi çoxdan fəaliyyət göstərirdi, lakin binası yox idi. Özbəkistanda yaşayan azərbaycanlıların və özbək qardaşlarımızın, digər millətlərin nümayəndələrinin. Özbəkistan Prezidenti cənab Kərimovun bilavasitə köməyi və dəstəyi ilə Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binası tikilib istifadəyə verilir. Əminəm ki, Mərkəzdə keçiriləcək tədbirlər, o cümlədən ana dilində aparılacaq tədris proqramları burada yaşayan azərbaycanlılara böyük fayda verəcəkdir.

Eyni zamanda, bizim özbək qardaşlarımız da bu Mərkəzin əziz qonaqları olacaqlar.

Buradakı küçəyə Heydər Əliyevin adı verilmişdir. Bu qərara görə Azərbaycan Respub-

likasının Prezidenti və Heydər Əliyevin oğlu kimi mən Özbəkistan Prezidenti cənab Kərimova öz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, Mədəniyyət mərkəzinin qarşısında Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Heydər Əliyevin müasir Azərbaycanın tarixində müstəsna xidmətləri vardır. 1993-cü ildə məhz onun hakimiyyətə təkrar qayıdışından sonra Azərbaycanda böhrana və xaosa son qoyuldu. Ölkəmiz o ağır sınaqlardan ləyaqətlə çıxa bildi. O vaxt ölkəmizdə vəziyyət çox ağır idi. Əgər Heydər Əliyevin qətiyyəti, iradəsi və cəsarəti olmasaydı, ölkəmizi böyük bəlalar gözləyə bilərdi.

Son on il ərzində Azərbaycan öz müstəqilliyini möhkəmləndirmiş, iqtisadi potensialını gücləndirmişdir. Bu gün ölkəmiz dünyada öz layiqli yerini tuta bilmişdir və bütün sahələrdə sürətlə inkişaf edir. Əminəm ki, xalqımız bundan sonra sabitlik şəraitində, sülh və əmin-amanlıq şəraitində yaşayacaqdır. Azərbaycan xalqının ən böyük arzusu və istəyi ondan ibarətdir ki, ölkəmizdə sülh və sabitlik olsun, qayda-qanuna riayət edilsin, iqtisadi və sosial məsələlər öz həllini tapsın. Azərbaycan rəhbərliyi buna nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Bu iki gün ərzində mən çox böyük hörmət, qonaqpərvərlik, diqqət gördüm. Bütün bunlara görə, ilk növbədə, Özbəkistan Respublikasının Prezidenti, Azərbaycan xalqının əziz dostu İslam Abduqəniyeviç Kərimova bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri daha da güclənəcəkdir. Biz hamımız birlikdə yeni qələbələrə doğru addımlayacağıq.

Bir daha sizi təbrik edirəm. Cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

ÖZBƏKİSTANIN BAŞ NAZİRİ ŞAVKAT MİRZİYAYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Bu gün sizinlə birlikdə biz müasir Özbəkistan-Azərbaycan münasibətləri üçün çox böyük əhəmiyyəti olan tədbirdə - görkəmli siyasi xadim, Özbəkistanda dərin hörmət bəslənilən Heydər Əlirza oğlu Əliyevin adını daşıyan Azərbaycan Mədəniyyət Mərkəzinin Daşkəndin ən gözəl guşələrindən birində yeni binasının açılış mərasimində iştirak edirik.

Bu gözəl binanın yerləşdiyi küçəyə Heydər Əliyevin adının verilməsi haqqında Özbəkistan rəhbərliyinin qərarını sizə çatdırmaqdan böyük məmnunluq duyuram. Bu, xalqlarımız arasında qardaşlıq münasibətlərindən xəbər verir və Özbəkistan Respublikasının Prezidenti İslam Abduqəniyeviç Kərimovun Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevə dostluq hisslərinin ifadəsidir.

Bu əlamətdar hadisələrin Heydər Əlirza oğlu Əliyevin işinin davamçısı, Azərbaycanın

yeni rəhbəri İlham Heydər oğlu Əliyevin bilavasitə iştirakı ilə baş verməsinin dərin rəmzi mənası var.

Əziz dostlar!

Özbəkistan ilə Azərbaycan arasında mədəni və humanitar əməkdaşlığın möhkəm təməlini 1997-ci ildə Dostluq və əməkdaşlıq haqqında müqavilə, Mədəni və humanitar sahədə əməkdaşlıq haqqında saziş imzalayan çox hörmətli İslam Abduqəniyeviç Kərimov və Heydər Əlirza oğlu Əliyev qoymuşlar.

Bu gün Özbəkistanda ölkəmizin vətəndaşı olan 40 min nəfərdən çox azərbaycanlı yaşayır. Azərbaycan diasporu iri milli diasporlardan biridir. Ölkəmizdə yaşayan 100-dən çox millətin nümayəndələri kimi, azərbaycanlılar da respublikamızın tamhüquqlu vətəndaşlarıdır və Özbəkistanın ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Özbəkistanda yaşayan Azərbaycan diasporunun nümayəndələri arasında xalq artistləri, görkəmli elm, incəsənət xadimləri, dövlət təşkilatlarının və ictimai təşkilatların rəhbərləri var. Onlar Özbəkistanın inkişafına və tərəqqisinə öz layiqli töhfələrini vermişlər.

Bu gün biz Əlişir Nəvai adına Böyük Teatrın rejissoru, Özbəkistanın xalq artisti Firudin Səfərovun, Daşkənd Toxuculuq İnstitutunun professoru Fazil Vəliyevin, respublika Elmlər Akademiyası Mikrobiologiya İnstitutunun elmi işçisi Südabə Məmmədovanın, "Qışlaqquruluş" Səhmdar Cəmiyyətinin sədri Sabir Sadıqovun, yazıçı Aydın Nəcəfovun, Özbəkistan Rəssamlıq Akademiyasının üzvü, rəssam Yusif Hüseynovun adlarını iftixarla çəkirik.

Mədəniyyət mərkəzi nəzdində fəaliyyət göstərən qızlardan ibarət "Bülbüllər" ansamblı geniş şöhrət qazanmışdır.

Görkəmli özbək yazıçısı və alimi, "Böyük xidmətləri üçün" ordeni ilə təltif olunmuş Maqsud Şeyxzadə tarixi və mənəvi qohumluğumuzun parlaq rəmzidir. Azərbaycanda doğulan və amansız repressiya illərində Özbəkistana gələn Şeyxzadə burada özünə nəinki ev-eşik və dostlar tapdı, həm də yaşayıb-yaratdı. O, haqlı olaraq, XX əsr Özbəkistan ədəbiyyatının ən yaxşı nümayəndələrinin fəxri siyahısına daxildir.

Əziz dostlar!

Özbəkistanın və Azərbaycanın siyasi və mədəni həyatındakı bu böyük, əlamətdar hadisə münasibətilə sizin hamınızı təbrik etmək istəyirəm. Bu hadisə ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin daha da inkişafına və dərinləşməsinə kömək edəcəkdir.

Verilmiş imkandan istifadə edərək, bu gözəl mərkəzin ucaldılmasının bütün iştirakçılarına və şəxsən Azərbaycanın Özbəkistandakı səfiri hörmətli Aydın Əzimbəyova səmimi minnətdarlığımı və təşəkkürümü bildirmək istərdim.

Əminəm ki, Daşkənddəki Mədəniyyət mərkəzinin yeni binası xalqlarımızın sarsılmaz dostluğunun rəmzinə çevriləcək və "özbək azərbaycanlıları" adlandırdığımız azərbaycanlıların özünəməxsus milli mədəniyyətinin, dil və mənəviyyatının qorunub saxlanmasına, təbliğinə və daha da inkişaf tapmasına kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Martın 23-də Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Özbəkistan Prezidenti İslam Kərimovu və xanımı Tatyana Kərimovanı hərarətlə qarşıladılar.

Prezidentlər qəbulda nitq söylədilər.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN NİTQİ

- Hörmətli İlham Heydəroviç!

Hörmətli Mehriban xanım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi Özbəkistan torpağında salamlamaqdan və onun simasında bütün Azərbaycan xalqına səmimi hörmət bəslədiyimi ifadə etməkdən böyük məmnunluq duyuram.

Xalqlarımız milli adət və ənənələrin, dilin, mədəniyyət və dinin ümumiliyinə əsaslanan tarixi və çoxəsrlik münasibətlərlə bir-birinə bağlıdırlar. Azərbaycanlıları da, özbəkləri də böyük əcdadlarımızın obrazları həmişə ruhlandırmışdır. Onların yaratdıqları, irsi dünya sivilizasiyası xəzinəsində layiqli yerini tutmuşdur. Daşkəndin mərkəzində, böyük Nizaminin adını daşıyan universitetin qarşısında bu gün onun abidəsinin açılışı buna sübutdur. Elə bir özbək tapmazsan ki, Nizaminin kim olduğunu bilməsin və onu sevməsin. Həmçinin elə bir azərbaycanlı tapmazsan ki, Əlişir Nəvainin əsərlərini oxumamış olsun. Tariximizin və xalqlarımızın belə görkəmli şəxsiyyətləri çoxdur və onlar bütün dünyada məşhurdurlar.

Özbəkistanın xalq şairi, milliyyətcə azərbaycanlı, lakin taleyin hökmü ilə Özbəkistan torpağında yaşayıb-yaratmış Maqsud Şeyxzadənin taleyi bir kökdən olduğumuza və bizi doğmalıq telləri bağladığına parlaq sübutdur.

Bu gün, biz böyük Nizaminin abidəsini açarkən İlham Heydəroviç mənə dedi ki, Nizaminin şərəfinə özbək dilində söylədiyim sözlərin doxsan faizindən çoxunu başa düşdü. O da Azərbaycan dilində təbrik sözləri söyləyərkən mən onu doxsan doqquz faiz başa düşdüm. Odur ki, burada sağlam bəhsləşmə gedir və hesab edirəm, əgər biz bir neçə gün də ünsiyyətdə olsaq, onda yüz faizə çatacağıq və milli doğma dillərimizi artıq tərcüməçisiz başa düşəcəyik.

Ötən əsrin 30-cu illərində, kütləvi repressiya dövründə on minlərlə azərbaycanlının özbək torpağında sığınacaq tapdığını biz hamımız xatırlayırıq. Xalqımız sürgün olunmuş bu insanları açıq ürəklə, qardaşları kimi qəbul etdi, duz-çörəyini onlardan əsirgəmədi. Burada onlar özlərinə ikinci Vətən tapdılar və çoxları həmişəlik qalaraq yaşayıb-yaratdılar. Onlar müstəqil Özbəkistanın tamhüquqlu vətəndaşlarıdır. Xalqımız 1966-cı ildəki zəlzələdən sonra Daşkəndin bərpası işinə Azərbaycanın və onun övladlarının göstər-

dikləri köməyi heç vaxt unutmayacaqdır. Onlar paytaxtımızda onlarca gözəl bina ucaltmışlar.

Mübaliğəsiz deyə bilərəm ki, xalqlarımızın bir-birinə hörmət hissləri bəsləməsində və bir-birinə meyl göstərməsində Azərbaycan xalqının görkəmli oğlu, Azərbaycanın dirçəlməsi və möhkəmlənməsi naminə böyük işlər görmüş Heydər Əliyevin çox əvəzsiz xidmətləri olmuşdur. Onun fəaliyyəti sayəsində Azərbaycan bütün dünyada tanınmış, yüksək nüfuz qazanmışdır. Heydər Əliyevi Özbəkistanda yaxşı tanıyır və onun adına, xatirəsinə böyük hörmət və ehtiramla yanaşırlar. Biz onu ölkəmizdə dərin hörmət əlaməti olaraq Heydər əkə adlandırırdıq. Xalqlarımız və dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə onun çox böyük töhfəsini yüksək qiymətləndiririk.

Əziz dostlar, Özbəkistanla Azərbaycanın ümumi sərhədləri olmasa da, bizi çox şey birləşdirir. Bu, ilk növbədə, Cənubi Qafqazın və Mərkəzi Asiyanın getdikcə artan coğrafi-siyasi və iqtisadi əhəmiyyətidir. İlham Heydəroviçlə bugünkü danışıqlarımız göstərdi ki, bu geniş regionun mühüm dövlətləri kimi, Azərbaycan və Özbəkistan regional təhlükəsizliyin və sabitliyin, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq ruhunun möhkəmləndirilməsinin təmin edilməsini, qeyri-regional tərəfdaşlarımızla konstruktiv qarşılıqlı fəaliyyət yaradılmasını özlərinin xarici siyasətinin öncül istiqaməti sayırlar.

Son illər planetin bu mühüm rayonu dünya siyasətinin əhəmiyyətli qovşağına – regionun son dərəcə zəngin mineral xammal, karbohidrogen ehtiyatlarına böyük maraq göstərən ən müxtəlif xarici qüvvələrin mənafelərinin çulğaşdığı, bəzən də toqquşduğu qovşağa çevrilmişdir. Regionun inkişafının fundamental problemləri, beynəlxalq münasibətlərin formalaşmaqda olan yeni sistemində yeri barədə Azərbaycan və Özbəkistanın mövqelərinin indiki səfər zamanı ifadə edilmiş yaxınlığı və uyğunluğu belə bir şəraitdə xüsusi siyasi əhəmiyyətə malikdir. Coğrafi-siyasi və iqtisadi reallıqlar regionda sərmayə şəraitini yaxşılaşdırmaq, enerji ehtiyatlarının işlənilməsi, dünya bazarına çıxışı təmin edən etibarlı və təhlükəsiz kommunikasiyaların inkişaf etdirilməsi sahəsində Azərbaycan və Özbəkistanın səylərini daha sıx əlaqələndirmək zərurətini irəli sürür.

Apartılmış səmərəli danışıqlar müasir beynəlxalq və regional siyasətin, əslində, bütün ümdə və kəskin problemlərində mövqelərimizin uyğun gəldiyini göstərdi. Biz belə bir yekdil fikirdə olduq ki, qlobal terrorizm, dini ekstremizm, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində beynəlxalq birliyin konkret addımlar atmasına baxmayaraq, bunlar hələ də bəşəriyyət üçün ən qorxulu təhdidlər olaraq qalır. Son günlərdə İspaniyada vəhşicəsinə törədilmiş və yüzlərlə insanın həlak olması ilə nəticələnmiş terror aktları buna sübutdur. Faciəli hadisələr göstərir ki, biz sayıqlığımızı itirməməliyik, müasir hədə-qorxularla və təhlükəsizliyə təhdidlərlə mübarizədə səmərəli nəticələrə nail olmaq üçün dünya birliyinin daha da əlaqələndirilmiş səyləri tələb edilir. Bu baxımdan yaxın vaxtlaradək təkcə Mərkəzi Asiyada deyil, həm də ümumən Asiyada və bütün dünyada sabitliyin pozulmasının amili olmuş Əfqanıstanda vəziyyətin sabitləşdirilməsi və əmin-amanlığın bərpasının regionumuz üçün böyük əhəmiyyəti var. Bununla yanaşı, hesab edirik ki, bu ölkədə gedən dinclikə nizamasalma və sabitləşmə proseslərinin təkcə Əfqanıstanın daxilində dayaqları olmamalıdır, həm də bunlar beynəlxalq birliyin geniş siyasi və maliyyə dəstəyinə söykənməlidir.

Xanımlar və cənablar, Azərbaycanın yeni rəhbərliyinin ənənəvi milli dəyərlərə əsaslanaraq, Heydər Əliyevin işinin təmkinlə, inamla və ləyaqətlə davam etdirməsini, dünya birliyinə inteqrasiya proseslərini ardıcıllıqla həyata keçirməsini, təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də sanballı uğurlar qazanmasını Özbəkistanda səmimi maraqla və rəğbətlə qarşılayırlar.

Biz Azərbaycanın bu uğurlarına, İlham Heydəroviçin beynəlxalq aləmdə qazandığı nüfuza ürəkdən sevinirik. Biz Azərbaycan respublikasına dinamik inkişaf edən ölkə kimi baxırıq.Bu mövqelərdən yanaşdıqda, bizi də, Azərbaycandan olan həmkarlarımızı da ölkələrimiz arasındakı ticarət-iqtisadi münasibətlərin səviyyəsi, əmtəə dövriyyəsinin həcmi qane edə bilməz. Biz bu məsələni müzakirə edərkən belə bir yekdil fikirdə olduq ki, ölkələrimizin mövcud zəngin potensialından daha dolğun istifadə edilməsi üçün hər cür zəmin, başlıcası isə, siyasi iradə var. Bu, ilk növbədə, mövcud istehsal güclərinin perspektivlərinə, birbaşa əməkdaşlıq əlaqələrinin sahmanlanmasına, müştərək müəssisələr yaradılmasına, neft-qaz sektorunda, mövcud nəqliyyat kommunikasiyalarından qarşılıqlı surətdə istifadə sahəsində əməkdaşlığa aiddir. Hökumətlərarası komissiyanın bu yaxınlarda Daşkənddə keçirilən növbəti iclasının yekunları bizdə inam yaradır ki, bu sahədə nailiyyət əldə ediləcəkdir, çünki həmin iclasda iş adamlarımız arasında əməkdaşlığın, əlaqələri genişləndirmək və möhkəmləndirməyin kifayət qədər konkret istiqamətləri müəyyənləşdirilmişdir. Biz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi çərçivəsində çoxtərəfli əməkdaşlığın daha da genişləndirilməsi və canlandırılması ilə bağlı problemləri də ətraflı müzakirə etdik. Bizim fikrimizcə, yeni şəraitdə bu nəqliyyat dəhlizinə sivilizasiyaların qovuşduğu bir məkan kimi yanaşılmalıdır. İkitərəfli münasibətlərdə, qarşılıqlı fəaliyyətimizin bütün sahələrində yeni perspektivlər açan yeddi mühüm sənədin, o cümlədən "Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə"nin imzalanması birgə səmərəli işimizin məntiqi yekunu olmuşdur.

Əminəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin Özbəkistana ilk dövlət səfəri xalqlarımız və ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm dövr olacaqdır.

Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin sağlığına, Mehriban xanımın sağlığına, Azərbaycan xalqının şərəfinə, Azərbaycan və Özbəkistan arasında dostluğun və əməkdaşlığın şərəfinə, burada iştirak edənlərin hamısının sağlığına badə qaldırmağı təklif edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox hörmətli İslam Abduqəniyeviç!

Hörmətli Tatyana xanım!

Əziz dostlar!

Cənab Prezident, icazə verin, ilk növbədə, Özbəkistana dövlət səfərinə dəvətə görə, habelə Azərbaycan nümayəndə heyətinin qonaqpərvərliklə və səmimiyyətlə qarşılanmasına görə Sizə təşəkkürümü bildirim. Bu nurlu və gözəl, mübaliğəsiz deyə bilərəm ki, qardaş xalqlarımızı birləşdirən Novruz bayramı günlərində, dostlar arasında, qardaş Özbəkistan torpağında olmağımdan çox böyük məmnunluq hissi duyuram.

Özbəkistan dünya sivilizasiyasının ən qədim ocaqlarından biridir, dünya mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermiş böyük alimlərin, mütəfəkkir və xadimlərin vətənidir. Özbəkistan şanlı tarixi, zəngin mədəniyyəti, çoxəsrlik abidələri olan Səmərqənd, Buxara, Xivə və Şəhrisəbz kimi şəhərləri ilə bütün dünyada məşhurdur. Bu şəhərlər indiyədək dünya əhəmiyyətli tarixi-mədəniyyət abidələridir.

Bunu demək mənə xoşdur ki, xalqlarımızı uzun əsrlər ərzində təşəkkül tapmış və zəmanəmizdə də münasibətlərin uğurlu inkişafı üçün zəmin olan dərin tarixi-mədəni köklər və qardaşlıq telləri bağlayır. Bu baxımdan böyük iftixar hissi ilə qeyd etmək istərdim ki, görkəmli klassiklərimiz – Əlişir Nəvai, Mirzə Uluqbəy, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli və bir çox başqalarının yaratdıqları əsərlər təkcə Şərq xalqlarının deyil, həm də bütün dünya sivilizasiyasının inciləri, dəyərli sərvətidir.

Xalqlarımız müstəqilliyə qovuşduqdan sonra saysız-hesabsız problemlərlə üzləşdilər. Azərbaycan erməni təcavüzünə məruz qaldı və bunun nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal edildi, bir milyondan çox insan qaçqın-köçkün vəziyyətinə düşdü. Bütün bu illər ərzində Azərbaycan çox hörmətli Prezident İslam Abduqəniyeviç Kərimov başda olmaqla, Özbəkistanın qardaş köməyini və dəstəyini hiss etdi. Fürsət düşmüşkən, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini beynəlxalq aləmdə dəstəklədiyinə görə qardaş Özbəkistana təşəkkürümüzü bildirirəm.

Keçid dövrünün çətinliklərinə baxmayaraq, xalqlarımız nəinki öz aralarında dostluğu qoruyub saxladı, həm də gələcək qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəm bünövrəsini qoya bildilər. Bu baxımdan Prezident Heydər Əlirza oğlu Əliyevin və Prezident İslam Abduqəniyeviç Kərimovun misilsiz xidmətlərini vurğulamaq istərdim. Onların siyasi iradəsi və uzaqgörənliyi qardaş xalqlarımız arasındakı münasibətlərin inkişafını çox-çox illər irəlicədən müəyyənləşdirmişdir.

Özbəkistana mənim səfərim strateji tərəfdaşlığın təməli qoyulmuş əsaslarının məntiqi davamıdır və ölkələrimizin, xalqlarımızın istəyinə uyğun olaraq, bu tərəfdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsinə yönəldilmişdir.

Müstəqillik əldə olunduqdan sonra belə qısa müddətdə Özbəkistanın iqtisadi, mədəni və siyasi sahədə qazandığı nailiyyətləri xüsusi qeyd etmək istərdim. Şübhəsiz ki, bu, Özbəkistan Prezidentinin apardığı müdrik və uzaqgörən siyasətin nəticəsidir. Özbəkistanın müstəqilliyinin möhkəmlənməsində onun rolu danılmazdır. Prezident Kərimovun səyləri sayəsində Özbəkistan dünya birliyində layiqli yer tutmuşdur.

Prezident Kərimovla danışıqlarımız səmərəli və çox məzmunlu oldu. İkitərəfli əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi regional və beynəlxalq problemlərdə qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğunu göstərdi. Hər iki ölkənin istifadə edilməmiş potensiallarının işə salınması siyasət və iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyətin hərtərəfli surətdə möhkəmlənməsinə ciddi təkan verəcəkdir. Qloballaşma şəraitində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin strateji inkişafının ölkələrimiz üçün çox böyük əhəmiyyəti var. Çünki o, Böyük İpək yolunun dirçəldilməsinə xidmət edir, geniş regional əməkdaşlığa yeni imkanlar açır. Sevindirici haldır ki, ölkələrimiz arasında mövcud olan və fəal surətdə inkişaf edən dialoq iqtisadi, mədəni və humanitar sahələrdə çoxcəhətli ikitərəfli münasibətlərin daha da genişlənməsinə, habelə, regionda

sülh və sabitlik naminə əməkdaşlığın dərinləşməsinə kömək edir. Əminəm ki, səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəkdir.

Əziz dostlar, möhtərəm İslam Abduqəniyeviç bu gün, böyük Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışında çıxış edərkən mühüm bir məqama toxundu. Əvvəla, mən bu abidənin ucaldılması barədə qərara görə şəxsən Özbəkistan Prezidentinə bir daha minnətdarlığımı, eləcə də bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim.

Həmçinin demək istərdim ki, Bakıda böyük özbək şairi Əlişir Nəvaiyə abidə ucaldılması haqqında Azərbaycanda qərar qəbul edilmişdir. İslam Abduqəniyeviçin yadındadır, mən onun, əslində, bütün çıxışını başa düşdüm, hərçənd, bu, təəccüblü idi, çünki özbək dilində belə geniş həcmdə çıxışı ilk dəfə dinləyirdim. Bu, məni çox sevindirdi. Ən əsası budur ki, hesab edirəm, bugünkü görüşlər və açıq söhbətlər çərçivəsində bir-birimizi başa düşdük. Bizim dillərimiz də oxşardır, ən başlıcası isə, müstəqilliyin əldə edildiyi vaxtdan bəri, xüsusən son on ildə Özbəkistanda və Azərbaycanda görülmüş işlər xalqlarımızı daha da yaxınlaşdırmışdır. Həmin estafeti Prezident Heydər Əliyevdən qəbul edərkən, onun işlərini davam etdirərkən əminəm ki, qardaş ölkələrimiz arasında keçmişdə mövcud olmuş qarşılıqlı anlaşma, əlbəttə, davam etdiriləcəkdir. Biz dost ölkələrik, mənafe və maraqlarımız da birdir, regional və dünya xarakterli bütün məsələlərdə fikirlərimiz tam uyğun gəlir, mən hələ ikitərəfli münasibətlərimizi yeni məzmunla dolğunlaşdırmaq üçün göstərilən səmimi cəhdləri demirəm.

Xarici xarakterli məsələlərdə bizim aramızda tam qarşılıqlı anlaşma var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə qəti və ədalətli mövqe tutduğuna görə İslam Abduqəniyeviçə çox minnətdarıq. Ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi üçün biz, öz tərəfimizdən bütün işləri görəcəyik. Bundan ötrü potensial var, bundan ötrü siyasi iradə də mövcuddur, xalqlarımızın intellektual səviyyəsi bütün məsələləri istər öz dövlətlərimiz çərçivəsində, istərsə də beynəlxalq aləmdə həll etməyə imkan verir. Ona görə də biz bugünkü danışıqları böyük ruh yüksəkliyi ilə qarşıladıq, imzalanmış sənədlər səmimi niyyətlərimizi təsdiqləyir.Belə uzun, saat yarımdan çox çəkən təkbətək səmimi söhbətə görə Özbəkistan Prezidentinə çox minnətdaram. Biz xalqlarımızın qarşılıqlı münasibətlərinin tarixinin bir çox mərhələlərini xatırladıq, istər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərə dair çox geniş səpkili məsələlər barədə fikir mübadiləsi apardıq.

İslam Abduqəniyeviç dedi və mən də vurğulamaq istəyirəm ki, ölkələrimizi bu gün və sabah necə gördüyümüz barədə, hansı yolla gedəcəyimiz barədə, müstəqilliyi və suverenliyi bundan sonra necə möhkəmləndirəcəyimiz, xalqlarımızın rifahını necə yüksəldəcəyimiz, iqtisadi və sosial məsələləri necə həll edəcəyimiz barədə aramızda tam qarşılıqlı anlaşma oldu. Zənnimcə, Özbəkistan rəhbərliyinin də, Azərbaycan rəhbərliyinin də gücü xalqın iradəsinə əsaslanmasındadır. Biz xalq üçün və xalqın rifahı naminə işləyirik və qurub-yaradırıq. Bu siyasət İslam Abduqəniyeviçin rəhbərliyi ilə Özbəkistanda uzun illərdir aparılır. Bu siyasət Azərbaycanda da Heydər Əliyevin rəhbərliyi ilə son on il ərzində aparılmışdır. Mən bu siyasəti davam etdirmək niyyətindəyəm.

Əziz dostlar, bizə və nümayəndə heyətimizə göstərilmiş belə qonaqpərvərliyə, diqqətə

görə bütün özbək xalqına, ilk növbədə, Özbəkistan Prezidentinə bir daha təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, əlaqələrimiz davam edəcəkdir.

Fürsətdən istifadə edərək, İslam Abduqəniyeviçi onun üçün münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək, habelə dostlarımızın hamısını bütün səviyyələrdə yaxından əlaqə saxlamağa və fəal işləməyə çağırmaq istəyirəm. Əminəm ki, hökumətlərarası komissiyanın işi də, nazirlərimizin və digər məsul əməkdaşlarımızın əlaqələri də ümumi məqsədimizə nail olmaqda ancaq kömək edəcəkdir.

Qardaş Özbəkistanın şərəfinə, onun Prezidenti İslam Abduqəniyeviç Kərimovun sağlığına, onun xanımının sağlığına, bütün özbək xalqının şərəfinə badə qaldırmağı təklif edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏRQƏNDƏ GƏLMİŞDİR

Martın 24-də Azərbaycan Prezidenti İlham Əliyev dünyanın qədim şəhərlərindən olan Səmərqəndə gəldi. Dövlətimizin başçısını Özbəkistanın Baş naziri Şavkat Mirziyayev müşayiət edirdi.

Prezident İlham Əliyevi hava limanında Səmərqənd vilayətinin hakimi Rüstəm Xolmuradov dostcasına, mehribanlıqla qarşıladı.

Azərbaycanın Prezidenti əvvəlcə, Uluqbəy rəsədxanasına gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, bu rəsədxana Əmir Teymurun nəvəsi, məşhur özbək astronomu Uluqbəy tərəfindən XV əsrdə yaradılmışdır. Sonrakı dövrlərdə bura uçulub dağılsa da, XX əsrin əvvəllərində bu rəsədxananın qalıqları tapılmış və yenidən bərpa olunmuşdur.

Sonra Prezident İlham Əliyev Səmərqəndin ən qədim abidələrinin yerləşdiyi ərazidəki Əfrasiyab muzeyinə gəldi. 1970-ci ildə yaradılmış bu muzeydə eramızdan əvvəl 5-4-cü və bizim eramızın 7-8-ci əsrlərinə aid arxeoloji tapıntıları, müxtəlif qədim bəzək əşyaları saxlanılır.

Azərbaycan Prezidenti Səmərqəndin qədim mədrəsələrinin binaları ilə də yaxından tanış oldu.

Şəhərlə tanışlıqdan sonra Prezident İlham Əliyev jurnalistlərə müsahibə verdi. O, Özbəkistana dövlət səfərinin çox uğurlu keçdiyini, nəticələrini yüksək qiymətləndirdiyini bildirdi və əminliklə vurğuladı ki, bu səfər Azərbaycan və Özbəkistan xalqları arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə kömək edəcəkdir. Dövlətimizin başçısı dedi ki, biz - mən və Prezident İslam Kərimov Azərbaycan və Özbəkistanın müvafiq hökumət strukturlarına iqtisadi əlaqələrin daha da gücləndirilməsi barədə tapşırıqlar verəcəyik.

* * *

Səmərqənd şəhərinin tarixi-mədəni yerləri ilə tanışlığı davam etdirən Prezident İlham Əliyev Əmir Teymurun dəfn olunduğu Gur-Əmir türbəsinə gəldi. XV əsrdə inşa edilmiş bu türbədə Teymurilər sülaləsindən olan digər hökmdarların da məzarları var. Dövlətimizin başçısına türbənin tikintisi barədə ətraflı məlumat verildi.

Azərbaycan Prezidenti İlham Əliyev Bibixanım məscidinə də gələrək, XVI əsrin yadigarı olan bu memarlıq abidəsinə tamaşa etdi, habelə Səmərqəndin ən böyük ticarət obyekti sayılan "Siab" bazarı ilə tanış oldu.

Şəhərlə tanışlıqdan sonra Səmərqənd vilayəti hakimiyyətinin iqamətgahında şəhərin hakimi Rüstəm Xolmuradovun adından nahar təşkil edildi.

Martın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTACI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 27-də Prezident sarayında Amerika Birləşmiş Ştatları dövlət katibinin birinci müavini Riçard Armitacı və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Hörmətli qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev dedi ki, Amerika ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf edir. Ölkələrimiz bütün sahələrdə çox gözəl əməkdaşlıq edir. Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə Azərbaycanda energetika sektorunda irimiqyaslı, dünya üçün əhəmiyyətli layihələr həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi uğurla davam edir və heç kəs üçün sirr deyil ki, Amerika hökumətinin dəstəyi olmasaydı, bu layihə həyata keçirilə bilməzdi.

İqtisadi islahatların aparılmasında ABŞ hökumətinin Azərbaycana böyük yardımlar etdiyini, ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan sosial-iqtisadi inkişaf proqramının Birləşmiş Ştatlar tərəfindən dəstəklənəcəyinə ümid etdiyini bildirən Prezident İlham Əliyev vurğuladı ki, hərbi sahədə də əməkdaşlığımız çox yüksək səviyyədədir. Biz əminik ki, gələcəkdə bu əməkdaşlıq daha da güclənəcəkdir. Azərbaycan antiterror əməliyyatlarında Amerika ilə bir alyansdadır. Biz müttəfiqik və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bütün bunlar onu göstərir ki, ölkələrimiz çox uğurlu əməkdaşlıq edir və bu, gələcəkdə daha da dərinləşəcəkdir.

Regional təhlükəsizlik məsələlərinin çox mühüm olduğunu vurğulayan Prezident İlham Əliyev əminliklə dedi ki, tezliklə regionda sülh bərqərar olunacaqdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizlik üçün böyük bir çətinlik yaradır. Biz ümid edirik ki, ATƏT-in Minsk qrupu bu münaqişənin həllində müsbət rol oynayacaqdır. Azərbaycanın torpaqları işğaldan azad ediləcək, bütün beynəlxalq hüquq normaları öz təsdiqini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır. Mən sizin Azərbaycana səfərinizi çox yüksək qiymətləndirirəm və əminəm ki, bu səfərdən sonra bizim aramızda, ölkələrimiz arasında olan münasibətlər daha da yüksək pilləyə qalxacaqdır.

Səmimi qəbula görə təşəkkür edən, Bakıya səfərindən məmnunluğunu sözlə ifadə edə bilmədiyini vurğulayan ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, Sizə və Azərbaycan xalqına minnətdarlığımı söyləmək istəyirəm ki, terrorizmə qarşı mübarizədə bizə dəstək vermisiniz, bizimlə bir koalisiyadasınız və birgə əməliyyatlarda iştirak edirsiniz. Xüsusilə də Azərbaycan əsgərlərinin çox mətin xidmətini qeyd etmək istəyirəm. Onlar İraqda və Əfqa-

nıstanda bizə yardım edirlər. Əslində, bizim fikrimiz, məqsədimiz ondan ibarətdir ki, əməkdaşlığı yüksək səviyyəyə qaldıraq və bu əməkdaşlıq həm iqtisadi, həm siyasi, həm hərbi, həm sosial, həm də digər bütün mümkün sahələri əhatə etsin.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan cənab Armitac bildirdi ki, ABŞ da bu məsələnin sülh yolu ilə həll olunmasını istəyir. Biz hesab edirik ki, Qafqaz gələcəkdə Qərb üçün çox yaxşı tərəfdaş, əməkdaş ola bilər. Lakin bunun üçün gərək əvvəlcə, Qafqazdakı mövcud problemlər həll olunsun. Ona görə mən də Sizinlə söhbətimizə böyük ümid bəsləyirəm. Ümid edirəm ki, bu söhbət maraqlı keçəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTAC İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 27-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatları dövlət katibinin birinci müavini Riçard Armitac ilə təkbətək görüşü olmuşdur.

Səmimilik və dostluq şəraitində keçən görüş zamanı Azərbaycanla Birləşmiş Ştatlar arasında müxtəlif sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev irimiqyaslı neft və qaz layihələrinin həyata keçirilməsində, Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində ABŞ hökumətinin ölkəmizə dəstəyini yüksək qiymətləndirdi və ümidvar olduğunu bildirdi ki, bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

Riçard Armitac Azərbaycanın Birləşmiş Ştatların rəhbərlik etdiyi antiterror koalisiyasında fəal iştirak etdiyini vurğuladı, əsgərlərimizin İraqda və Əfqanıstanda aparılan əməliyyatlarda xidmətinə görə minnətdarlığını bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının Cənubi Qafqaz regionunda da və ümumən dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan Azərbaycanın dövlət başçısı və ABŞ-ın dövlət katibinin birinci müavini bu problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında həllinin zəruriliyini qeyd etdilər.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Dövlət dumasının sədri Boris Qrızlov başda olmaqla, Rusiya Federasiyasının parlament nümayəndə heyətini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqları səmimiyyətlə salamlayaraq dedi ki, mən Moskvada, Rusiyaya rəsmi səfərim çərçivəsində Dövlət dumasında keçirdiyimiz görüşlərimizi xatırlayıram. Sizin Azərbaycana səfəriniz dialoqumuzu davam etdirmək üçün yaxşı imkandır.

Mən öz səfərimi, bu səfər çərçivəsində Prezident Vladimir Vladimiroviç Putinlə, Rusiyanın digər rəsmi şəxsləri ilə keçirdiyim çox mühüm görüşləri böyük səmimiyyətlə xatırlayıram.

Münasibətlərimiz uğurla inkişaf edir. Biz bütün istiqamətlərdə çox yaxşı dinamika olduğunu görürük. Siyasi dialoq baxımından xeyli tərəqqi müşahidə edilir. Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri və Rusiya Prezidenti ilə aparılmış danışıqlar bir daha təsdiq etdi ki, ölkələrimiz arasında həll olunmamış problemlər yoxdur. Müxtəlif problemlər doğuran nə vardısa, hamısı keçmişdə qalmışdır. İndi ölkələrimiz arasında münasibətlər iqtisadi sahədə də, - əmtəə dövriyyəsi ildən ilə artır, - humanitar əməkdaşlıq sahəsində də dinamik inkişaf edir. Biz Azərbaycan mədəniyyət xadimlərinin Rusiyaya vaxtaşırı səfərlər etməsi, ölkələrimizin mədəniyyət günlərinin keçirilməsi barədə də razılığa gəlmişik.

Əlbəttə, bütün bunların əsasını ölkələrimizin rəhbərləri arasında qarşılıqlı siyasi anlaşma təşkil edir. Yaxın vaxtlarda Bakıda Rusiya-Azərbaycan biznes forumu keçiriləcəkdir. Biz Moskvada bu barədə də danışmışıq. Zənnimcə, Rusiya biznesinin Azərbaycanda fəal iştirakı daha da yaxınlaşmağımıza kömək edəcəkdir.Olduqca fərəhlidir ki, - biz sizinlə bu barədə Moskvada danışmışıq, - ölkələrimizin parlamentləri arasında çox yaxşı əlaqələr, qarşılıqlı anlaşma mövcuddur. Bütün məsələlərdə tərəflərin mövqeləri tam uyğun gəlir. Hörmətli Boris Vyaçeslavoviç, Siz Dövlət dumasının sədri seçilərkən parlamentimizin sədri cənab Ələsgərov dumanın birinci iclasında iştirak etmişdir. Bu da Azərbaycanın Rusiyaya, Rusiyanın Azərbaycana münasibətlərindən xəbər verir. Bir sözlə, biz bu müsbət təcrübəni bütün istiqamətlərdə inkişaf etdirəcəyik. Əlbəttə, Rusiyadan hər bir hörmətli qonağın gəlişi bizim üçün çox vacibdir. Odur ki, Sizin bugünkü səfəriniz münasibətlərimizin daha da möhkəmlənməsinə, şübhəsiz, kömək edəcəkdir.

Xoş gəlmisiniz, sizi görməyimizə şadıq.

Səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edən Rusiya Dövlət dumasının sədri BORİS QRIZLOV Bakıya səfərə dəvətə görə minnətdarlığını bildirərək dedi ki, mən bu imkandan böyük məmnuniyyətlə istifadə etdim. Ünvanıma söylədiyiniz səmimi sözlərə, seçilməyim münasibətilə təbriklərinizə görə sağ olun.

Bizim Moskvadakı görüşümüzdən sonra o qədər də çox vaxt keçməyibdir. Pezidentimizlə görüşünüzdə formalaşdırdığımız vəzifələr bu gün parlamentdə cənab Ələsgərovla söhbətin mövzusu oldu. Biz mühüm iqtisadi problemləri müzakirə etdik. Biz bu fikirdəyik ki, yaxın vaxtlarda ölkələrimiz arasında əmtəə dövriyyəsi bir milyard dollar təşkil etməlidir və buna necə nail olacağımızı bilirik.

Dövlət dumasında parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir və ona deputat Səfərəliyev başçılıq edir. Bundan əlavə, deputat Kozlovskinin rəhbərlik etdiyi parlamentlərarası işçi qrupu da yaradılmışdır. O, buradadır və Siz onu yaxşı tanıyırsınız. Siz olimpiya hərəkatı üzrə həmkarsınız. Odur ki, biz bu istiqamətdə də sıx qarşılıqlı fəaliyyət göstərməliyik.

Biz başa düşürük ki, parlamentlərarası qrupun işi ümumi mövqeləri axtarıb tapmaq baxımından ölkələrimizin qanunvericiliyinin real şəkildə nəzərdən keçirilməsinə yönəldiləcəkdir. Növbəti görüşü biznes foruma qədər, aprel ayının ilk günlərində Moskvada ke-

çirmək nəzərdə tutulmuşdur. Bu qrup hər iki ölkədə qəbul edilə biləcək bir sıra qanun layihələrini real surətdə müzakirə etməlidir. İndi dövlətlər, onların strukturları, o cümlədən parlamentlər arasında qarşılıqlı fəaliyyətin səviyyəsi çox yüksəkdir. Mən cənab Ələsgərova bir daha minnətdarlığımı bildirirəm. Sədr seçilməyim münasibətilə məni şəxsən ilk təbrik edən o olmuşdur.

İndi dumada, ilk dəfə olaraq, bir partiyaya – "Yedinaya Rossiya" partiyasına əsaslanan böyük parlament çoxluğu fəaliyyət göstərir. Parlamentdə "Yedinaya Rossiya" fraksiyasının 306 deputatı vardır. Siz bilirsiniz ki, Prezidentin qərarı ilə o, yenidən seçilənədək hökumət istefaya göndərilmiş və "Yedinaya Rossiya" partiyası yeni hökumətin təşkili barədə Prezidentlə məsləhətləşmələr aparmışdır. İndi hökumətdə partiyanın nümayəndələri çoxdur və biz başa düşürük ki, bu, bir anlıq nailiyyət yox, gələcək dörd il ərzində həm hökumətdə, həm də Dövlət dumasında daşıyacağımız məsuliyyətdir. Dumada 29 komitə vardır və bunların hamısına "Yedinaya Rossiya" fraksiyasından olan deputatlar başçılıq edirlər.

Bununla bərabər, Dövlət dumasında iş prosesi, ənənəvi olaraq, demokratikdir. Biz digər fraksiyaların, o cümlədən solların – RFKP-nin təklifləri əsasında səmərəli qərar qəbul edirik. Biz "Yabloko" partiyasının üzvü cənab Lükini insan hüquqları müvəkkili seçmişik. Demək istəyirəm ki, bu, Dövlət dumasında mövcud olan normal, yaradıcı və demokratik prosesdir. Biz qanunvericilik sahəsində ciddi iş görmək əhval-ruhiyyəsindəyik və bu sahədə təcrübəni parlamentlərarası qrup vasitəsilə sizin parlamentin üzvləri ilə bölüşəcəyik. Biz artıq görürük ki, bir sıra qanunlar var və onları Azərbaycanda həyata keçirmək həqiqətən mümkündür, digər tərəfdən, biz sizdə aparılan işdən bəhrələnə bilirik. Bir sözlə, artıq qarşılıqlı fəaliyyət prosesi gedir.

Prezident İLHAM ƏLİYEV ətraflı məlumata görə təşəkkür edərək dedi ki, biz belə sıx əməkdaşlıqda çox maraqlıyıq. Fürsətdən istifadə edərək, Vladimir Putinin növbəti müddətə Prezident seçilməsi münasibətilə "Yedinaya Rossiya" Partiyasını, bütün Rusiya xalqını bir daha təbrik etmək istərdim. Mən ona məktub göndərdim və telefonla təbrik etdim. Bizim çox yaxşı söhbətimiz oldu. Hesab edirəm ki, bu, Rusiya xalqının böyük qələbəsidir. Prezident Putin hakimiyyətdə olduğu illərdə Rusiya dövlətçiliyinin möhkəmlənməsinə çox böyük töhfə vermişdir. O, iqtisadi baxımdan da çox böyük nailiyyətlər əldə etmişdir. İndi Rusiyanın on milyardlarla dollarlıq valyuta ehtiyatları var, halbuki o, hakimiyyətə gələndə xəzinə, əslində, boş idi. Rusiya beynəlxalq maliyyə təşkilatlarının təzyiqi altından çıxmışdır, əvvəllər ölkənin rifahı bu təşkilatların kreditlərindən asılı idi. Bununla yanaşı, dövlətçiliyin möhkəmlənməsi də böyük nailiyyətdir. Vladimir Putinin hakimiyyəti illərində Rusiya hər cəhətdən möhkəmlənmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Ona görə də Vladimir Vladimiroviçin qələbəsi heç kimdə əsla şübhə doğurmamışdır. Biz çox şadıq ki, Rusiya xalqı bir daha ən doğru seçim etmişdir. Vladimir Putini seçkiqabağı kampaniyada fəal surətdə dəstəkləmiş partiyanı da müvəffəqiyyət münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, bu, Rusiya-Azərbaycan münasibətləri üçün də, əlaqələrimizin, Moskvada prezident seçkilərindən əvvəl haqqında danışdığımız hər şeyin inkişafı, dərinləşməsi üçün də yaxşı amil olacaqdır. Əminəm ki, bizim hələ çox görüşlərimiz olacaq, qarşılıqlı münasibətlərin bütün sahələrində daha da irəliləyəcəyik.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN MİNSKƏ RƏSMİ SƏFƏRİ

Azərbaycanın Baş naziri Artur Rasizadə martın 30-da Minskə rəsmi səfərə gəlmişdir.

"Minsk" milli hava limanında Azərbaycan hökumətinin başçısını və onu müşayiət edən nümayəndə heyətini Belarus Baş nazirinin müavini A.Kobyakov, xarici işlər nazirinin müavini A.Gerasimenko, Azərbaycanın Belarusdakı səfiri T. Əliyev, digər rəsmi şəxslər qarşılamışlar.

Martın 30-da paytaxtın "Juravinka" kompleksinin konfrans salonunda A.Rasizadə Belarusun Azərbaycan İcmaları Konqresi beynəlxalq ictimai təşkilatının rəhbərliyi və idarə heyətinin üzvləri ilə görüşmüşdür.

Görüşü giriş sözü ilə ölkəmizin Belarusdakı səfiri Tələt Əliyev açaraq, Belarusun Azərbaycan İcmaları Konqresinin sədri, sambo üzrə dəfələrlə dünya və Avropa çempionu, Belarusun cüdo üzrə yığma cüdo komandasının baş məşqçisi Natiq Bağırova söz verdi. O, Azərbaycan hökumətinin başçısını səmimiyyətlə salamlayaraq, Konqresin idarə heyətinin üzvlərini, fəallarını, tanınmış alimləri, həkimləri, ictimai xadimləri, sahibkarları - Rəhman İsmayılovu, Həsən Abdullayevi, Etibar Bağırovu, Rauf Sadıqovu, Tapdıq Abışovu və digərlərini ona təqdim etdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Baş nazir Artur Rasizadə həmvətənlərimizi öz sıralarını daha da möhkəmlətməyə, bütün dünya azərbaycanlılarının Prezidenti Heydər Əliyevin elan etdiyi siyasəti – milləti sıx birləşdirmək siyasətini əzmlə həyata keçirməyə çağırdı. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlərdən, Azərbaycanla Belarus arasında ticarət-iqtisadi əməkdaşlığı genişləndirmək planlarından və digər məsələlərdən danışdı.

Soydaşlarımız Baş naziri əmin etdilər ki, ümummilli lider Heydər Əliyevin siyasətinin davam etdirilməsini bundan sonra da dəstəkləyəcək, tarixi Vətənlə əlaqələri möhkəmləndirəcəklər.

A.Rasizadə Bakının təsvir olunduğu rəsm əsərini Konqresə hədiyyə etdi.

* * *

Martın 31-də səhər Azərbaycanın Baş naziri Artur Rasizadə ölkəmizin hökumət nümayəndə heyətinin üzvləri ilə birlikdə Minskin Qələbə meydanındakı abidə önünə əklil qoydu. Hər bir belarus üçün bu müqəddəs yerdə, Əbədi məşəl önündə Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.

* * *

Həmin gün Belarus Respublikasının Nazirlər Şurasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan hökumətlərarası komissiyasının ilk iclası keçirildi. Komissiyanın həmsədrləri Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Abbas Abbasov, Belarus tərəfindən hökumət başçısının müavini Andrey Kobyakovdur.

Tərəflər Belarus-Azərbaycan münasibətlərinin aktual məsələlərini müzakirə etdilər, iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın perspektiv istiqamətlərini müəyyənləşdirdilər.

Komissiyanın ilk iclasının yekunlarına əsasən protokol imzalandı. Sənəddə sənaye, kənd təsərrüfatı, nəqliyyat, elm, mədəniyyət, idman və turizm sahəsində bir sıra birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Komissiyanın növbəti iclasını cari ilin sonunadək Bakıda keçirmək barədə razılaşma əldə edildi.

Azərbaycanın Baş naziri Artur Rasizadə Hökumət evində belaruslu həmkarı Sergey Sidorski ilə təkbətək danışıqlar apardı.

Sonra Hökumət evinin Ağ salonunda A.Rasizadənin və S.Sidorskinin geniş tərkibdə danışıqları oldu. Görüşdə A.Rasizadə Azərbaycanın siyasi və iqtisadi həyatının müxtəlif sahələri barədə məlumat verdi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən, respublikamızda bir milyon qaçqın və məcburi köçkünün olmasından, digər məsələlərdən danışdı.

* * *

Hökumətlərarası komissiyanın ilk iclasının gedişində aparılmış danışıqlardan sonra ikitərəfli sənədlər - Azad ticarət haqqında saziş, Belarus Respublikası və Azərbaycan Respublikası hökumət nümayəndə heyətlərinin danışıqları zamanı əldə edilmiş razılaşmaların həyata keçirilməsi sahəsində birgə tədbirlər protokolunun layihəsi imzalandı. Sənədləri hökumət başçıları Artur Rasizadə və Sergey Sidorski imzaladılar. Hava əlaqəsi haqqında saziş və Belarus Respublikasının Nazirlər Şurası yanında Torpaq Ehtiyatları, Geodeziya və Xəritəçəkmə Komitəsi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında geodeziya, xəritəçəkmə, yer quruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında saziş də imzalandı. Bu sənədləri Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Abbas Abbasov imzaladı. Belarus Respublikasının XİN ilə Azərbaycan Respublikasının XİN arasında əməkdaşlıq haqqında protokol da imzalandı. Bu sənədi Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov imzaladı.

Görüşlərdən və sənədlər imzalandıqdan sonra A.Rasizadə və S.Sidorski yerli və xarici jurnalistlərin suallarına cavab verdilər.

Martın 31-də Baş nazir A.Rasizadə "Atlant" Qapalı Səhmdar Cəmiyyətində, Minsk avtomobil və traktor zavodlarında oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN DİN-İN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Prezident Sarayında Gürcüstanın daxili işlər naziri Giorgi Baramidze başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları səmimiyyətlə salamlayaraq dedi ki, ölkəmizin Daxili İşlər Nazirliyində, digər qurumların rəhbərləri ilə görüşləriniz barədə məlumatım var. Çox xoşdur ki, ölkələrimizin hüquq mühafizə orqanları arasındakı ənənəvi sıx qarşılıqlı münasibətlər davam edir. Mənim Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə həm onun Azərbaycana səfəri çərçivəsində, həm də beynəlxalq konfransda bir neçə görüşüm

olubdur. Elə ilk görüşdən bizim aramızda yaxşı qarşılıqlı anlaşma, dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Ölkələrimiz bir-birinə həmişə kömək göstərmişlər, həmişə dostluq etmişlər, birlikdə olmuşlar. Əlbəttə, burada dövlət başçılarının şəxsi qarşılıqlı münasibətlərindən də çox şey asılıdır. Müxtəlif qurumların rəhbərlərinin münasibətləri də prezidentlər arasındakı münasibətlər kimi olmalıdır. Biz çox çalışırıq ki, yeni rəhbərliklə aramızda bütün səviyyələrdə - iqtisadiyyat, siyasət, təhlükəsizliyin təmin edilməsi sahəsində yaxşı əlaqə və ünsiyyət olsun. Artıq hökumətlərarası komissiya yaradılmışdır. Əvvəllər belə bir komissiya yox idi. O, iqtisadi əlaqələrlə bilavasitə məşğul olacaqdır.

Ölkələrimizin və ümumən, regionun təhlükəsizliyini təmin etmək üçün hüquq mühafizə orqanlarımızın əməkdaşlığı çox vacibdir. Bizim ölkələrimiz Cənubi Qafqazın mühüm hissəsini təşkil edir və regional inkişafdan, kommunikasiyaların inşası və istismarından, eləcə də bu zaman təhlükəsizliyin nə dərəcədə təmin olunmasından da çox şey asılıdır.

Əminəm ki, Bakıda keçirdiyiniz görüşlərin bu baxımdan mühüm rolu olacaqdır. Xahiş edirəm, Mixail Nikolayeviçə yeni görüşlər ümidi ilə böyük salamımı yetirin.

Gürcüstanın daxili işlər naziri Giorgi Baramidze səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür etdi.

Prezident Mixail Saakaşvilinin qardaş salamını Azərbaycan Prezidentinə yetirdi, münasib vaxtda Gürcüstana dostluq səfərinə gəlmək barədə rəsmi dəvət məktubunu təqdim edərək dedi ki, o, Sizinlə keçirdiyi görüşləri həmişə böyük məhəbbətlə və səmimiyyətlə xatırlayır. Nəinki iki qardaş dövlətin prezidentləri arasında təşəkkül tapan və xalqlarımızın strateji mənafelərindən irəli gələn qarşılıqlı münasibətlər, həm də yeni nəsil liderlərinin - eyni cür düşünən və dünyaya eyni nəzərlə baxan, təbii olaraq, öz xalqlarının mənafeləri qeydinə, bir-biri ilə çox sıx çulğalaşmış Gürcüstanın və Azərbaycanın taleləri qeydinə eyni dərəcədə qalan liderlərin sırf insani əlaqələri xüsusi əhəmiyyətə malikdir.

Bu gün mən dahi insanın - Heydər Əliyevin məzarını ziyarət etməkdən iftixar hissi duydum. 1997-ci ildə mənə onunla görüşmək, onun əlini sıxmaq şərəfi nəsib olmuşdur. O vaxt mən "Gürcüstan Vətəndaş İttifaqı" partiyasında Eduard Amvrosiyeviçin müavini idim və Yeni Azərbaycan Partiyasının qurultayına gəlmişdim. Yeni Gürcüstanın və yeni Azərbaycanın belə sıx əməkdaşlıq etməsi üçün məhz bu iki böyük siyasətçi mümkün olan bütün işləri görmüşlər. Ölkəmizin yeni və keçmiş rəhbərliyi arasında müəyyən siyasi ziddiyyətlər olmasına baxmayaraq, Gürcüstanın və Azərbaycanın münasibətlərində biz əsası Eduard Amvrosiyeviç tərəfindən qoyulmuş dostluq, qardaşlıq, strateji tərəfdaşlıq siyasətini davam etdiririk. Gürcüstan Prezidenti dəfələrlə vurğulamışdır ki, o, Sizinlə yaranmış qardaşlıq münasibətlərinə görə çox fəxr edir, çox sevinir.

Söhbət zamanı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN LİTVA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycanın Baş naziri Artur Rasizadə aprelin 1-də Litva Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Litvanın dövlət bayraqları ilə bəzədilmiş Vilnüs Beynəlxalq hava limanında Artur Rasizadəni və ölkəmizin hökumət nümayəndə heyətini Litvanın kommunikasiyalar naziri Ziqmantas Balçitis, Litvanın Azərbaycandakı səfiri Qalina Kobeskayte və digər rəsmi şəxslər qarşıladılar.

Elə həmin gün Litvanın Prezident sarayında dövlət başçısı Rolandas Paksas Azərbaycanın Baş nazirini qəbul etdi. Görüşdə, qarşılıqlı maraq doğuran bir çox məsələlər, ilk növbədə, ticarət-iqtisadi məsələlər müzakirə olundu.

Axşam Vilnüsün Milli icmalar evində hökumətimizin başçısının Azərbaycan icmasının nümayəndələri ilə səmimi görüşü keçirildi. İcmanın sədri Mahir Həmzəyev Baş nazir A.Rasizadəyə Litvadakı soydaşlarımızın həyatı və fəaliyyəti barədə məlumat verdi. Baş nazir diasporun nümayəndələrinə xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycanın Baş naziri Artur Rasizadə və onu müşayiət edən şəxslər aprelin 2-də Antakalnis qəbiristanını ziyarət etmiş, Litvanın müstəqilliyi uğrunda həlak olmuş şəhidlərin - 1991-ci il yanvarın 13-də Vilnüs telemərkəzi yaxınlığında həyatlarını qurban vermiş mübarizlərin abidəsi önünə əklil qoymuş, onların xatirəsini ehtiramla anmışlar.

Köhnə şəhərə və Litva paytaxtının görməli yerlərinə ekskursiyadan sonra Vilnüs meriyasında Azərbaycan hökumətinin başçısı paytaxtın vitse-meri Algimantas Vakarinasla görüşdü. Söhbət zamanı şəhərsalma, mənzil-kommunal təsərrüfatı və digər məsələlərə dair fikir mübadiləsi apardılar.

Həmin gün Artur Rasizadənin Litva Respublikasının Baş naziri Algirdas Brazauskas ilə təkbətək görüşü oldu. Sonra hər iki ölkənin hökumət başçılarının rəhbərlik etdikləri nümayəndə heyətlərinin görüşü keçirildi. Danışıqlarda müstəqil dövlətlərimiz arasında ticarət-iqtisadi münasibətlərin fəallaşdırılması zərurəti ilə bağlı bir çox məsələlər müzakirə edildi.

Görüşlərin və danışıqların yekunlarına əsasən, aşağıdakı sənədlər imzalandı: Litva Respublikasının Baş naziri A.Brazauskasın Azərbaycan Respublikasının Baş naziri A.Rasizadə ilə görüşünün protokolu, Gəlirdən və kapitaldan vergilər barəsində ikiqat vergiqoymaya yol verilməməsi haqqında konvensiya, Gömrük işlərində qarşılıqlı yardım haqqında saziş, habelə Vergi hüquq pozmaları ilə mübarizədə əməkdaşlıq haqqında Litva Respublikasının Maliyyə Pozuntularının Təhqiqi Xidməti ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında idarələrarası saziş. İlk iki sənədi baş nazirlər imzaladılar.

İkitərəfli görüşlərdən və sənədlərin imzalanmasından sonra A.Rasizadə və A.Brazauskas yerli və xarici jurnalistlərin suallarına cavab verdilər.

Aprelin 2-də Azərbaycanın Baş naziri A.Rasizadənin Litva Parlamentinin - Seymin sədri Arturas Paulauskas ilə də görüşü oldu.

Görüşdə ölkələrimizin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi məsələləri müzakirə edildi.

Sonra A.Rasizadə diyarın mühafizəsi (müdafiə) naziri Linas Linkyaviçyusla görüşdü.

Həmin gün axşam Litvanın işgüzar dairələrinin nümayəndələri, iri dövlət və özəl qurumlarının başçıları ilə keçirilən görüşdə Baş nazir Artur Rasizadə Litvanın iş adamlarına Azərbaycandakı əlverişli sərmayə şəraitindən, milli iqtisadiyyatın yüksəlişindən danışdı və Litva biznesmenlərini Azərbaycan bazarına cəsarətlə gəlməyə çağırdı.

Baş nazir Artur Rasizadənin Vilnüsə rəsmi səfərinin ikinci günü Litva Respublikasının NATO-ya daxil olması münasibətilə Litva Seyminin sədri və ölkənin Baş naziri tərəfindən təşkil edilmiş rəsmi qəbulda iştirakla sona yetdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Rusiya Federasiyası Sverdlovsk vilayətinin qubernatoru Eduard Rosseli qəbul etmişdir.

Səmimilik şəraitində keçən görüşdə dövlətimizin başçısı İlham Əliyev həmin gün Bakıda açılan birinci Azərbaycan-Rusiya iqtisadi forumunun əhəmiyyətini vurğulayaraq, Rusiyadan böyük nümayəndə heyətinin bu tədbirdə iştirakını qarşılıqlı əməkdaşlığa olan marağın daha bir nümunəsi kimi dəyərləndirdi. Moskvada səfərdə olarkən Rusiyanın regionları ilə ölkəmiz arasında iqtisadi əməkdaşlığın perspektivlərinin də geniş müzakirə edildiyini xatırladan Prezident İlham Əliyev bu istiqamətdə də böyük potensialın mövcud olduğunu vurğuladı.

Azərbaycanla Rusiyanın Sverdlovsk vilayəti arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qarşılıqlı səfərlərin mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya iqtisadi forumunun hər iki ölkənin işgüzar dairələri arasında əlaqələrin yaranması üçün daha geniş imkan yaratdığını bildirdi, Bakıda Sverdlovsk vilayətinin Ticarət evinin fəaliyyət göstərməsini qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişafı baxımından müsbət qiymətləndirdi.

Prezident İlham Əliyevlə görüşünü əlamətdar hadisə kimi vurğulayan qubernator Eduard Rossel Sverdlovsk vilayətində də Azərbaycan Ticarət evinin açılacağını bildirdi.

Dahi şəxsiyyət Prezident Heydər Əliyevlə görüşlərini böyük məmnunluqla xatırlayan cənab Rossel onun Sovet İttifaqının rəhbərlərindən biri kimi ağır sənayeyə başçılıq etdiyi dövrdə mədən sənayesindən tutmuş elektronikaya qədər böyük bir sahəni əhatə edən və on minlərlə müəssisəsi olan Sverdlovsk vilayətinin qayğıları ilə yaxından maraqlandığını söylədi.

Eduard Rossel başçılıq etdiyi vilayətin iqtisadi və mədəni həyatı barədə də ətraflı məlumat verdi. Azərbaycanla əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində görülən işlərdən danışdı.

BİRİNCİ AZƏRBAYCAN-RUSİYA İQTİSADİ FORUMUNDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Əziz qonaqlar! Hörmətli forum iştirakçıları!

Mən, ilk növbədə, sizi Azərbaycanın paytaxtında, Bakı şəhərində salamlamaq və foruma uğurlu iş arzulamaq istərdim.

Siz indicə kadrlar gördünüz. Bu kadrlar bizi Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfərinin unudulmaz günlərinə qaytardı. Həmin səfər çərçivəsində çoxlu razılaşmalar əldə edildi, ən başlıcası isə, Rusiya və Azərbaycan rəhbərliyi arasında qarşılıqlı anlaşmanın səviyyəsi daha da yüksəldi.

Hesab edirəm ki, ölkələrimiz arasında indiki mehriban qonşuluq, dostluq münasibətlərinin əsasını Prezident Vladimir Putinin Azərbaycana səfəri, Rusiya Prezidentinin ilk səfəri qoymuşdur. Bundan sonra ölkələrimiz arasında qarşılıqlı anlaşma çox əhəmiyyətli dərəcədə artdı, çox intensiv siyasi dialoq başlandı, bir çox sahələrdə iqtisadi əməkdaşlıq üçün dərhal imkanlar yarandı. Bu gün bu barədə danışıldı. Əlbəttə ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti Heydər Əliyevlə sonrakı görüşləri, onların arasındakı şəxsi qarşılıqlı anlaşma, qarşılıqlı rəğbət və dostluq münasibətləri ölkələrimizin əlaqələrinin inkişafında, hesab edirəm, ümdə rol oynamışdır. Bu xətt Azərbaycanda davam etdirilir. Biz bütün istiqamətlərdə münasibətlərimizi daha da inkişaf etdirmək əzmindəyik. Azərbaycan Prezidentinin cari ilin fevralındakı səfəri də bu siyasətin məntiqi davamı idi.

Müstəqillik illərində ölkəmiz öz təşəkkülünün müxtəlif mərhələlərini yaşamışdır. Başlanğıc mərhələ ağır sarsıntılarla, iqtisadi dağıntılarla, qarmaqarışıqlıqla, Azərbaycan iqtisadiyyatını süquta uğradan səriştəsiz hökumətin az səmərəli fəaliyyəti ilə səciyyəvi olmuşdur. Bütün bunlara əlavə olaraq, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, nəticədə ərazimizin 20 faizi işğal olunmuş, bir milyon azərbaycanlı isə qaçqın və köçkünə çevrilmişdir ki, bu da ölkəmizin inkişafı işində mənfi rol oynamışdır. Əgər o vaxtlar daxili vəziyyətin sabitliyinin pozulması təhlükəsi, hakimiyyəti zorakılıqla devirmək üçün 1996-cı ilədək ara verməyən cəhdlər də olduğunu xatırlasaq, onda görərik ki, Azərbaycan dövlətçiliyi necə ağır bir dövrdə formalaşmışdır.

Prezident Heydər Əliyevin səyləri sayəsində 1993-cü ildən başlayaraq ölkə bu böhrandan, ağır sarsıntılardan çıxmağa və iqtisadi inkişaf yoluna qədəm qoymağa müvəffəq olmuşdur. İqtisadi göstəricilərin dinamikasına nəzər salsaq, çox aydın şəkildə görə bilərik ki, 1996-cı ilədək bütün iqtisadi göstəricilərin hər il aşağı düşməsi onlarca, bəlkə də, yüzlərcə faizlə ölçülürdü. Vəziyyət yalnız 1996-cı ildə sabitləşdi və iqtisadi artım başlandı. Bu artım bu günədək davam edir. Azərbaycanda ümumi daxili məhsulun illik artımı son 7 ildə, orta hesabla, 10 faiz təşkil edir. Ötən il bu göstərici 11 faizdən artıq olmuşdur. Ölkəyə böyük məbləğdə xarici sərmayələr qoyulur ki, bu da əlverişli sərmayə mühitinin və sərmayəçilərin respublikamıza olan inamının göstəricisidir. Azərbaycan iqtisadi islahatlar, bazar iqtisadiyyatı siyasətini uğurla aparır. Bunu belə bir fakt aydın şəkildə sübut edir ki, indi ÜDM-in 70 faizindən çoxu özəl sektorda formalaşır. Torpaq islahatı uğurla aparılmış və bunun nəticəsində yüz minlərlə kəndli torpaq mülkiyyətçisi olmuşdur. Kənd təsərrüfatı məhsulu istehsalının artımına nəzər yetirsək, bu sahədə islahatların nəticələrinin nə dərəcədə səmərəli olduğunu görə bilərik. Ölkəmiz iqtisadi inkişafın bütün istiqamətlərində yüksəliş dövrünü keçirir və fərəhli haldır ki, iqtisadi və makroiqtisadi göstəricilər ildən-ilə yaxşılaşır, əhalinin real gəlirləri artır, real əmək haqqı artır və təbii olaraq, sosial həyat şəraiti yaxşılaşır. Başlıca vəzifəmiz bazar xarakterli islahatları tam həyata keçirməklə yanaşı, sosial ədalət prinsipinə də əməl etməkdir. Ona görə də, əgər Azərbaycan büdcəsinə diqqət yetirilsə, görmək olar ki, onun əksər hissəsi sosial problemlərin həllinə, əmək haqqının, pensiyaların, müavinətlərin artırılmasına yönəldilmişdir ki, vətəndaşlarımız öz maddi vəziyyətinin ilbəil yaxşılaşdığını hiss etsinlər.

Eyni zamanda, Azərbaycan iqtisadiyyatının vəziyyətini, ümumən, qiymətləndirsək, görərik ki, o, təbii olaraq, bazar prinsiplərinə əsaslanmışdır. Zənnimcə, hər bir cəmiyyətin inkişafının bu iki amilinin sintezi bizdə iqtisadi uğuru təmin etmişdir. Azərbaycanın neft-qaz sektorunun inkişafında da böyük nailiyyətlər qazanılmışdır.

Xəzərin Azərbaycan sektorundakı yataqlara milyardlarla dollar məbləğində sərmayə qoyulmuşdur ki, bu da artıq öz müsbət nəticəsini verir, gələcəkdə isə iqtisadiyyatımıza gəlirlərin çox böyük axınına gətirib çıxaracaqdır. Bu gün hökumətin qarşısında iqtisadiyyata çoxşaxəli xarakter vermək vəzifəsi durur. Biz daim ancaq neft amilinə arxalana bilmərik. Əlbəttə, ölkənin dolğun və hərtərəfli regional inkişafı naminə təbii ehtiyatlarımızdan, habelə Prezidentimiz Heydər Əliyevin uzaqgörən siyasətindən və neft strategiyasından istifadə etməliyik. Hazırda 2008-ci ilədək Azərbaycanın regional inkişaf proqramı qəbul olunmuşdur. Burada regionlarda həyata keçiriləcək konkret layihələrə çox böyük diqqət yetirilir. Bu proqram şüar xarakteri deyil, konkret əməli xarakter daşıyır.

O, mətbuatda dərc edilmiş və kitab şəklində nəşr olunmuşdur. Odur ki, hər bir rayon, rayon qurumları bu proqramın nədən ibarət olduğunu və Azərbaycan hökuməti səviyyəsində, yerli orqanlar səviyyəsində nə kimi addımlar atılmalı olduğunu bilirlər.

Hesab edirik ki, biznesin fəal inkişafı, güclü orta sinif yaradılması, neftin qiymətinin dəyişməsindən asılı olmayaraq, ölkəmizin gələcəkdə uğurla inkişaf etməsinə imkan verəcəkdir. Əgər ölkədə sosial, ictimai-siyasi sabitlik olmasaydı, seçilmiş xəttin düzgünlüyünə əhalinin inamı olmasaydı, düzgün siyasət aparılmasaydı, bütün bu planlar mümkün olmazdı. Bu amillərin hamısı var və bu, hökumətin siyasi-iqtisadi islahatları gələcəkdə də arxayınlıqla həyata keçirə bilməsi üçün çox əlverişli şərait yaradır. Təbii ki, Azərbaycan öz münasibətlərini qonşu ölkələrlə də, region ölkələri ilə də inkişaf etdirir və dünya iqtisadiyyatına fəal integrasiya olunur. Bu baxımdan, Rusiya ilə münasibətlərimiz öncül xarakter daşıyır. Qeyd etdiyim kimi, siyasi etimad və qarşılıqlı fəaliyyət çox yüksək səviyyədədir və bu, birgə iqtisadi layihələrin həyata keçirilməsi üçün ən əlverişli zəmindir. Artıq qeyd olundu ki, əmtəə dövriyyəsi artır. Sevindirici haldır ki, bu artım təkcə ötən il baş verməmişdir, inişil də təxminən 50 faiz olmuşdur.

Biz bu göstəriciləri sıfırdan başlayaraq deyil, artıq ciddi təməl əsasında yüksəldirik. Bu, iqtisadi münasibətlərimizin inkişafının dinamikliyindən, sabitliyindən xəbər verir. Viktor Borisoviç qeyd etdi ki, əmtəə dövriyyəsini bir milyard dollaradək artırmaq qərara alınmışdır və belə bir arzu vardır.

Əminəm ki, bu vəzifə yerinə yetiriləcəkdir. Mən hətta düşünürəm ki, biz daha irəli gedəcəyik, çünki bu gün Rusiya da, Azərbaycan da dinamik inkişaf edən ölkələrdir. İndi bu ölkələrin potensiallarından fəal istifadə edilir. Hazırda biz iqtisadi inkişafımızın, bəlkə də, müəyyən dərəcədə başlanğıc mərhələsindəyik.

Odur ki, ölkələrimiz nə qədər güclü, qüdrətli olarsa, iqtisadiyyatlarımız nə qədər qüdrətli olarsa, təbii ki, biz daha sıx əməkdaşlıq, daha çox ticarət edəcəyik, müxtəlif iqtisadi layihələri həyata keçirəcəyik. Ona görə də mən ölkələrimiz arasında iqtisadiyyat sahəsində münasibətlərin bu cür inkişafına çox şadam. Bu gün elə layihələr həyata keçirilir ki, beş il əvvəl onlar, bəlkə də, az real görünərdi. Bunların hamısı ona görədir ki, münasibətlərimiz üçün əsas olan əlverişli siyasi zəmin mövcuddur.

Azərbaycanda Rusiya kapitalı ilə işləyən 300-dən çox müəssisə var və onların sayı ildən-ilə artır. Bu da ölkələrimizin şirkətlərinin öz aralarında necə əməkdaşlıq etdiyinin mühüm göstəricisidir. Biz əməkdaşlığın daha da genişləndirilməsində maraqlıyıq. Bugünkü Rusiya-Azərbaycan iqtisadi forumu bu siyasi xəttin daha bir vəsiləsidir. Rusiya-Azərbaycan hökumətlərarası komissiyası çox uğurla işləyir. Kağız üzərində qalan xeyli müxtəlif strukturlar, komissiyalar, təşkilatlar da mövcuddur ki, bunlar yalnız zahirən fəaliyyət göstərirlər.

İndiki halda isə, Rusiya-Azərbaycan hökumətlərarası komissiyası real fəaliyyət göstərir, nəzərdə tutulan proqramları real surətdə həyata keçirir, vəzifələri bənd-bənd müəyyənləşdirərək həll edir ki, bu da çox sevindiricidir. Qarşılıqlı arzu, səy, hörmət, hətta deyərdim, xalqlarımız arasında qarşılıqlı məhəbbət olmadan buna nail olmaq mümkün deyildi. Azərbaycanı Rusiya ilə çoxdankı tarixi münasibətlər bağlayır. Sevindirici haldır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra münasibətlərimiz daha sürətlə inkişaf etməyə başlamışdır. Çox mürəkkəb, çox gərgin dövrlər də olmuşdur. Lakin münasibətlərimizi daim inkişaf etdirmək və möhkəmləndirmək səyi olmuşdur. Münasibətlərimizin son dörd ildəki vəziyyəti Azərbaycan və rus xalqlarının bu siyasətə tərəfdar olduqlarına parlaq sübutdur.

Siz Azərbaycanda Rusiyaya, ruslara, rus dilinə olan münasibəti, yəqin ki, bilirsiniz. Azərbaycanda təhsilin rus dilində aparıldığı bir dənə də olsun məktəbin bağlanmadığını deməyə, yəqin ki, ehtiyac yoxdur. Bu gün təhsilin rus dilində aparıldığı 400-dən çox məktəb var. Azərbaycanın, demək olar ki, bütün ali məktəblərində dərslər rus dilində də keçilir. Qəzetlər nəşr olunur, indi onların sayı Sovet İttifaqı dövründəkindən daha çoxdur. Bütün bunlar ikitərəfli münasibətlərimizin çox yaxşı amilidir və daha sıx əməkdaşlıq etmək və əlaqələr yaratmaq baxımından biznes birliklərinə köməkdir. Mən bu forumun işinə bir daha uğurlar arzulamaq istəyirəm. Hesab edirəm ki, bu, xeyirxah başlanğıcdır və o, gələcəkdə iqtisadi sahədə daha sıx qarşılıqlı əməkdaşlıq üçün müəssisələrimizin, müştərək müəssisələrimizin fəaliyyətini əlaqələndirəcək və istiqamətləndirəcək orqan ola bilər.

Foruma uğurlar arzulayıram. Əminəm ki, qonaqlarımız həm havadan, həm qonaqpərvərliyimizdən, həm də forumun nəticələrindən razı qalacaqlar.

Foruma böyük uğurlar arzulayıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ENERGETİKA VƏ SƏNAYE NAZİRİ, RUSİYA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Rusiyanın energetika və sənaye naziri, Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Viktor Xristenkonu qəbul etmişdir.

Dövlətimizin başçısı aprelin 6-da keçirilmiş birinci Azərbaycan-Rusiya iqtisadi forumunun ölkəmizdə və Rusiyada böyük maraqla qarşılandığını, bu mühüm tədbirin hər iki ölkənin sahibkarları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün əlverişli şərait yaratdığını vurğulayaraq dedi: "Bütün bunlar bir daha göstərdi ki, əməkdaşlığımızın perspektivləri çox böyükdür və bu forumun nəticələri konkret layihələrin həyata keçirilməsinə təkan verəcəkdir".

Prezident İlham Əliyev hökumətlərarası komissiyanın çərşənbə günü keçirilmiş iclasını da yüksək qiymətləndirdi, Azərbaycan və Rusiya əlaqələrinin Moskvaya rəsmi səfəri zamanı müəyyən edilmiş istiqamətdə - əməkdaşlığın möhkəmləndirilməsi, təsərrüfat subyektləri arasında yeni əlaqələrin qurulması yönündə uğurla davam etdiyini vurğuladı.

Azərbaycan dövlətinin başçısı forumun əhəmiyyətini bir daha qeyd edərək, bu ənənənin davam etdirilməsinin zəruriliyini söylədi.

Qonaqpərvərliyə və birinci Azərbaycan-Rusiya iqtisadi forumunun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Viktor Xristenko dedi ki, forumun təşkilinə həsəd aparmaq olar. İlk dəfə olaraq belə çoxlu sayda iş adamlarının forumun işində iştirakını əlamətdar hadisə kimi dəyərləndirən qonaq, tədbirə kiçik sahibkarların da cəlb edilməsini xüsusi vurğuladı. O, iki ölkənin iş adamlarının əməkdaşlığına daha əlverişli şərait yaradacaq hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması və digər məsələlərin hökumətlərarası komissiyanın iclasında da müzakirə mövzusu olduğunu bildirdi.

Viktor Xristenko ölkələrimiz arasında mal dövriyyəsinin artırılmasının zəruriliyini vurğulayaraq dedi: "Cənab Prezident mal dövriyyəsinin iki dəfə artırılması barədə qarşımızda qoyduğunuz vəzifə çox böyük əhəmiyyətə malikdir. Hesab edirəm ki, mal dövriyyəsinin həcminin 1 milyard dollara çatdırılması tamamilə realdır". O, əməkdaşlığın inkişaf dinamikasının bundan sonra da saxlanılması və ticarət əlaqələrinin genişləndirilməsi vasitəsilə daha yüksək nəticələr əldə olunacağına inamını ifadə etdi. Rusiya naziri ticarət əlaqələri ilə yanaşı, xidmət və nəqliyyat, maliyyə sahələrində də əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Prezident sarayında Avropa Şurasının baş katibi Valter Şvimmeri və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa Şurasının baş katibini və onu müşayiət edən şəxsləri salamlayaraq dedi ki, sizin Azərbaycana səfərinizi çoxdan gözləyirdik və şadıq ki, bu səfər həyata keçirilir. Bildiyimə görə, ölkəmizə səfəriniz çox uğurlu keçir və Azərbaycanla bilavasitə tanışlığınız gələcək əməkdaşlığımız üçün mühüm bir amil olacaqdır.

Üç ildən artıqdır ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu müddət ərzində ölkəmiz demokratiyanın inkişafı istiqamətində önəmli addımlar atmışdır. Avropa Şurasının tövsiyələri ilə Azərbaycanda həyata keçirilən siyasi islahatlar, qəbul olunmuş qanunlar gələcəkdə də insan haqlarının qorunması sahəsində, demokratiyanın daha da inkişaf etdirilməsində yeni uğurlar qazanmağa imkan verəcəkdir.

Azərbaycan və ümumilikdə region üçün böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurası tərəfindən müzakirəyə çıxarılması da çox müsbət haldır. Bu məsələyə Siyasi Komitədə baxılacaq və ümidvarıq ki, komitədə müzakirələr zamanı və plenar iclaslarda münaqişəyə obyektiv siyasi qiymət veriləcəkdir.

Bildiyiniz kimi, mənim həyatımın bir hissəsi Avropa Şurası ilə bağlıdır. Strasburqda keçirdiyim tədbirləri və görüşləri mən həmişə xatırlayıram. Cənab baş katib, istərdim bu müddətdə Sizinlə birlikdə fəaliyyətimizə görə təşəkkürümü bildirəm. Mən, eyni zamanda, Avropa Şurası Parlament Assambleyasının Büro üzvü də olmuşam və o illər mənim siyasi fəaliyyətimdə böyük rol oynamışdır. Əminəm ki, gələcəkdə də bizim əməkdaşlığımız inkişaf edəcək və əlaqələrimiz daha da güclənəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə təşəkkür edən, Azərbaycana səfəri özünün də səbirsizliklə gözlədiyini söyləyən Avropa Şurasının baş katibi Valter Şvimmer dedi ki, cənab Prezident bizimlə əməkdaşlıq etdiyinizə görə də Sizə minnətdarlığımı bildirmək istərdim. Mənim Azərbaycana səfər etməyim üçün Siz də böyük səylər göstərmisiniz.

Mən, eyni zamanda, bugünkü görüş haqqında qürur hissi ilə danışıram. Çünki Siz mənim Avropa Şurası Parlament Assambleyası üzrə keçmiş həmkarımsınız. Siz Avropa Şurası Parlament Assambleyası sədrinin müavini olmusunuz və hazırda ölkə Prezidentisiniz. Mən Sizi ürəkdən təbrik edirəm.

Mənim rəsmi səfərimin iki başlıca səbəbi vardır. Birincisi, Avropa Şurasının təmsilçisi kimi, Azərbaycanda olan prosesləri yaxından izləmək və burada əldə edilmiş uğurlara qiymət vermək, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bilavasitə tanış olmaqdır. Bu, bizim tövsiyə etdiyimiz bir sıra qanunların ratifikasiyası və eyni zamanda, hüquq islahatları ilə bağlıdır. Məqsəd islahatların gedişi ilə tanış olmaq və Avropa Şurasının gələcəkdə verəcəyi tövsiyələrdir. İkinci məsələ isə, Avropaya aid olan problemlər ətrafında Sizinlə müzakirələr aparmaqdır.

Mən, eyni zamanda, "dondurulmuş münaqişələr" haqqında Sizinlə fikir mübadiləsi aparmaq istərdim. "Dondurulmuş münaqişə" dedikdə, bu söz birləşməsi mənim xoşuma gəlmir. Məsələn, bu gün mən məcburi köçkünlərin məskunlaşdığı yerlərdən birinə getdim və münaqişənin onlar üçün dondurulmuş mənası daşımadığının şahidi oldum. Biz gücümüz, səlahiyyətimiz və imkanımız daxilində Avropa Şurası tərəfindən humanitar yardımı əsirgəməyəcəyik və tərəfləri dialoqa çağıracağıq.

Bu baxımdan hesab edirəm ki, mənim Azərbaycana rəsmi səfərim yalnız Avropa Şurası

üçün deyil, habelə bizim təşkilatın yeni üzvü olan ölkəniz üçün də səmərəli olacaqdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Türkiyənin dövlət naziri Bəşir Atalayı və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev dedi ki, bu gün çox gözəl hadisə baş vermiş, Atatürk Mərkəzi açılmışdır və biz birlikdə mərasimdə iştirak etmişik. Bu, bir daha onu göstərir ki, iki ölkə bir-birinə nə qədər bağlıdır, yaxındır. Türkiyə-Azərbaycan münasibətləri bütün dövrlərdə yüksək səviyyədə olmuşdur. Bütün sahələrdə uğurlu işbirliyi, əməkdaşlıq aparılır.

Bir neçə gündən sonra Türkiyəyə rəsmi səfər edəcəyini xatırladan Azərbaycan Prezidenti bunun uğurlu olacağına əminliyini ifadə edərək bildirdi ki, bu səfərdən sonra bizim münasibətlərimiz daha da inkişaf edəcəkdir. Xalqlarımız bir-birinə daha da yaxın olacaqdır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin də arzusu bu idi ki, Türkiyə ilə Azərbaycan həmişə bir yerdə olsun. Onun fəaliyyəti sayəsində ölkələrimiz iqtisadi, siyasi, mədəni – bütün sahələrdə çox uğurlu əməkdaşlıq etmişdir. Biz də bu siyasətə sadiqik. Əminəm ki, gözlənilən səfər də ümumi işimizə öz töhfəsini verəcəkdir.

Qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını bildirən dövlət naziri Bəşir Atalay dedi ki, bu gün Atatürk Mərkəzinin açılması çox önəmli hadisədir. Heydər Əliyevin təlimatlarını və əməllərini gənc Prezident kimi Siz tamamladınız, onun vəsiyyətini yerinə yetirdiniz. Mən də belə möhtəşəm tədbirdə Türkiyəni təmsil etməkdən qürur duydum.

Prezident İlham Əliyevin Türkiyəyə qarşıdakı səfərinə toxunan dövlət naziri vurğuladı ki, biz böyük hazırlıq görürük və Sizi gözləyirik. Bakıya gəlməzdən əvvəl, hörmətli Cümhurbaşqanımızla görüşdüm. Sizə salamlarını göndərdi və səfər gününü gözləyirik dedi. Baş nazirimiz də Sizə çoxlu salam göndərdi və tezliklə görüşəcəyinizi söylədi. İnşallah, səfəriniz yaxşı keçəcəkdir. Əminəm ki, Sizin Türkiyəyə ziyarətiniz ölkələrimiz üçün xeyirlə nəticələnəcəkdir. Qardaş ölkə Azərbaycan günbəgün güclənir və Sizin liderliyinizlə daha da güclü olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə rəsmi səfəri ərəfəsində bu ölkənin "Samanyolu" televiziyasına müsahibə vermişdir.

- Azərbaycan xalqının gələcəyə ümidlə, arxayınlıqla baxması üçün çox mühüm işlər görülməyə başlandı və bu, davam edir. Azərbaycan xalqının daha rahat, sakit, daha təhlükəsiz bir şəraitdə yaşaya bilməsi üçün hansı işlər görürsünüz? Azərbaycan dövlətinin

dünyada yerini necə görürsünüz. Hədəfiniz nədir? Bu hədəfə çatmaq üçün hansı işlər görürsünüz?

- Azərbaycan dinamik inkişaf edən bir ölkədir. Ölkəmizdə aparılan iqtisadi islahatlar çox gözəl nəticələr verməkdədir. Bu siyasət 1993-cü ildən başlayaraq Prezidentimiz Heydər Əliyev tərəfindən aparılmışdır və bundan sonra da davam etməlidir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk illərdə böyük çətinliklərə məruz qalmışdır. İqtisadi böhran, siyasi və hərbi böhran yaşanmışdır. Azərbaycanın iqtisadiyyatı hər il 10, 30, 50 faiz tənəzzül edirdi. Yəni, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Bunu bərpa etmək, canlandırmaq Prezidentimizin əsas vəzifələrindən biri idi və o, buna müvəffəq olmuşdur. Ölkəmiz dirçəldi və bu gün Azərbaycan böyük addımlarla irəliləyir. İqtisadi artım ildə orta hesabla 10 faizə yaxındır. İnflyasiya isə ildə 2-3 faizi keçmir. Eyni zamanda, onu da qeyd etməliyəm ki, böyük həcmdə xarici sərmayə qoyulur. Bütün bu amillər ölkəmizi iqtisadi cəhətdən gücləndirir. Bu baxımdan iqtisadi islahatlar siyasəti davam edəcəkdir.

Mən Prezident kimi vəzifəmin icrasına başladıqdan sonra mühüm addımlar atmışam, ölkəmizin sosial-iqtisadi inkişafı üçün mühüm proqramlar qəbul edilibdir. Azərbaycanın bölgələrinin iqtisadi inkişaf proqramı da var və həyata keçirilir. Qarşımızda duran bütün bu məqsədlərə nail olmaq üçün, ölkəmizi daha da qüdrətli dövlətə çevirmək üçün sabitlik və sülh olmalıdır. Biz buna da nail olmuşuq. Azərbaycan bu baxımdan sabit ölkədir, burada asayiş var, qanun-qayda var. Əlbəttə ki, sabitlik olmasaydı, bu iqtisadi nailiyyətlərə çata bilməzdik.

Dünya birliyinə inteqrasiya edirik. Azərbaycan dünya birliyində layiqli yerini tuta bilib. Beynəlxalq təşkilatların işində fəal iştirak edir, Avropa Şurasının üzvüdür, Avropa Birliyi ilə sıx əməkdaşlıq edir. Beləliklə, Azərbaycan gələcəkdə məhz bu istiqamətdə inkişaf edəcək, iqtisadi cəhətdən güclənəcək, siyasi baxımdan bölgədə daha da mühüm mövqeyə sahib olacaqdır. Nəticədə, Azərbaycanın inkişafı hərtərəfli və daha geniş olacaqdır.

- Güclü iqtisadiyyata malik və xarici əlaqələrdə güclü olan Azərbaycan ilə Ermənistan arasındakı münaqişənin həlli məsələsində qarşıdakı illərdə hansı mənzərə yarana bilər?

- Əlbəttə, bütün bunlar münaqişənin həllinə də böyük və müsbət təsirini göstərəcəkdir. Bu gün Azərbaycanın büdcəsi Ermənistandakından 3 dəfə çoxdur. Sabah bu, 5-10 dəfə çox olacaqdır. Əlbəttə ki, Ermənistanla Azərbaycan arasında olan bu uçurum daha da dərinləşəcəkdir. Ermənistanda iqtisadi inkişafa nail olmaq üçün heç bir əsas yoxdur. Bu ölkə beynəlxalq aləmdən təcrid olunub, izolyasiyadadır. Azərbaycan isə regionda Türkiyə ilə, Gürcüstanla və digər ölkələrlə çox sıx və əlverişli əməkdaşlıq edir. Əlbəttə, iqtisadiyyatımız və nəticədə hərbi potensialımız gücləndikcə, mən əminəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də mövqelərimiz daha da güclənəcəkdir.

- Cənab Prezident, vaxtaşırı Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatlar verirsiniz. Münaqişənin həlli üçün çalışmalı olan ATƏT kimi beynəlxalq qurumların uzun müddətdir konkret bir iş görməmələri problemin həllini yubadır. Necə fikirləşirsiniz, qarşıdakı illərdə Qarabağ münaqişəsi həll ediləcəkmi və ya onun həlli üçün hansı addımlar atılmalıdır?

- Biz ümid edirik ki, münaqişə həll ediləcək. Çünki, artıq bu vəziyyətlə barışmaq mümkün deyildir. Dünyada mövcud olan ikili standartlara son qoyulmalıdır. Ermənistan artıq bir neçə beynəlxalq təşkilat tərəfindən işğalçı, təcavüzkar ölkə kimi tanınmışdır. Avropa Şurasının rəsmi sənədlərində bu məsələ öz əksini tapmışdır. Bu yaxınlarda məsələ Avropa Şurasının geniş iclasında müzakirəyə çıxarılacaqdır. Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir və bu da çox müsbət haldır. Eyni zamanda, Avropa Birliyi parlamentində də bu məsələyə toxunulub və Azərbaycanın haqlı olmasının sübutları ortaya qoyulubdur. Meyllər bizim xeyrimizədir. ATƏT-in Minsk qrupunun fəaliyyəti, əlbəttə ki, bizi qane etmir. Çünki bu fəaliyyətin nəticəsi yoxdur. Amma burada da mən ümid edirəm ki, ciddi təkliflər olmalıdır. İlk növbədə, Azərbaycanın torpaqları işğalçılardan azad edilməlidir. Bu, bizim ədalətli tələbimizdir. Ondan sonra Dağlıq Qarabağın statusu müzakirə oluna bilər.

Bu məsələdə iki prinsip ziddiyyət təşkil edir. Mən istəyirəm buna aydınlıq gətirəm. Azərbaycanın rəhbər tutduğu prinsip - ərazi bütövlüyü prinsipi hər bir ölkə üçün mühümdür. Biz bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq və tələb edirik ki, bizim də ərazi bütövlüyümüz tanınsın və bərpa olunsun. Ermənistanın irəli sürdüyü prinsip xalqın öz müqəddəratını təyin etməsi prinsipidir. Yəni, Dağlıq Qarabağda yaşayan ermənilər özləri öz müqəddəratını təyin etməli və qərar verməlidirlər ki, Dağlıq Qarabağ ya müstəqil olsun, ya da ki, Ermənistanın bir hissəsi olsun. Birincisi, biz buna heç vaxt razı olmayacağıq. Bu barədə dəfələrlə bəyanatlar verilibdir. Biz bu mövqedə dayanırıq və bundan dönməyəcəyik. Əgər biz bu prinsipi rəhbər tutsaq, ermənilərin bütün ölkələrdə bu yanaşma ilə çıxış etməsi mümkün olacaqdır. Ermənilər Gürcüstanda, Türkiyədə, Amerikada, Fransada yaşayırlar. Hər yerdə yaşayan ermənilər o ölkədə özləri üçün dövlətmi yaradacaqlar? Erməni xalqı artıq öz müqəddəratını təyin edib, erməni dövləti var. Kim istəyir gedib orada öz müqəddəratını təyin etməkdə davam etsin. Bu prinsip yanlış prinsipdir. Biz bununla barışa bilmərik. Beynəlxalq ictimaiyyət də bununla heç vaxt barışa bilməz.

- Qarabağ münaqişəsinin həllində Türkiyə, xüsusilə Baş nazir Rəcəb Tayyib Ərdoğan öz öhdəsinə bir iş götürə bilər, necə ki, Kipr məsələsində vasitəçi kimi öhdəsinə mühüm işlər götürdü. Bununla bağlı danışıqlarınız olacaqmı?

- Türkiyə hər zaman, bütün dövrlərdə bizim yanımızda olmuşdur. Qarabağ məsələsinin həllində də biz bu yardımı çox yüksək qiymətləndiririk. Türkiyə həmişə bizə böyük siyasi dəstək vermişdir, bütün beynəlxalq təşkilatlarda, forumlarda bizim mövqeyimizi müdafiə etmişdir. Əlbəttə ki, biz istərdik Türkiyə bu məsələdə daha fəal rol oynasın. Təbii ki, iki tərəfdən də buna razılıq olmalıdır, yəni Ermənistan da gərək müsbət reaksiya versin. Amma biz bunu çox istərdik.

- Son bir həftə, on gün ərzində Azərbaycan mətbuatında və televiziyalarında Türkiyənin Ermənistan ilə sərhədləri açacağına dair ciddi söhbətlər yayılır. Bu mövzu ilə bağlı Siz vaxtaşırı bəyanatlar verdiniz. Bu məsələyə necə baxırsınız?

- Rəsmi qaydada heç bir məlumat yoxdur. Mən keçən ilin sentyabr ayında Baş nazir kimi Türkiyədə olarkən bu barədə, təbii ki, danışıldı və heç bir yenilik yoxdur. Türkiyə rəhbərləri yekdilliklə bəyan etmişlər ki, Dağlıq Qarabağ məsələsi öz həllini tapmayana qədər sərhəd açılmacaqdır. Bir Prezident kimi mənim üçün bu, kifayətdir. O ki qaldı mə-

sələnin ictimai rəydə müzakirə mövzusuna çevrilməsinə, yəqin ki, bu da təbiidir. Çünki müəyyən dairələrdən belə səslər gəlir. Bilirsiniz ki, Amerikanın rəhbər şəxsləri bu barədə artıq açıq fikirlər səsləndirirlər. Avropa Birliyi tərəfindən müəyyən təzyiqlər göstərilir və yəqin ki, bizim də ictimaiyyət bunu rəhbər tutaraq məsələni müzakirəyə çıxarıb. Biz inanmırıq ki, belə bir hal baş versin. Hesab edirəm ki, hər dövrün bir tələbi ola bilər. İqtisadi maraqlar ola bilər, təzyiqlər ola bilər. Azərbaycan da 1990-cı illərin əvvəllərində dəfələrlə təzyiqlərə məruz qalmışdır. Azərbaycan həmin illərdə Bakı-Tbilisi-Ceyhan layihəsini həyata keçirmək niyyətini açıq şəkildə ifadə edəndə də böyük təzyiqlərə düçar olmuşdur. Biz bu təzyiqlərə dözdük, baxmayaraq ki, Azərbaycan o vaxt çox zəif idi. Türkiyə isə böyük dövlətdir, bu təzyiqlərə dözəcəkdir. Əminəm ki, bu məsələ ikitərəfli münasibətlərə heç bir zərər gətirməyəcəkdir. Türkiyə-Azərbaycan qardaşlığı, dostluğu, birliyi - bunlar əbədi məfhumlardır. Bu, bu gün də belədir, yüz ildən, 300 ildən sonra da belə olmalıdır. Bu, tarixdir. Biz bu amilləri bizim qəhrəmanlıq tariximizə heç vaxt qata bilmərik.

- Cənab Prezident, Türkiyə Avropa Birliyinə üzv olmaq yolunda mühüm məsafə qət etdi. Bu ilin sonunda müzakirələr başlayacaqdır. Azərbaycan da Avropa Birliyi ilə sərhəddə yerləşən ölkə olacaqdır. Türkiyənin Avropa Birliyinə daxil olması Azərbaycana nə verər? İkincisi isə, Azərbaycan Avropa Birliyinə doğru yolda hansı məsafəni qət etmişdir, daxil olmağı düşünürmü, onun meyarlarına uyğun gəlmək üçün hansı işləri görür?

- Bir daha qeyd etmək istəyirəm ki, Türkiyənin xoşbəxtliyi Azərbaycanın da xoşbəxtliyidir. Türkiyənin xeyrinə atılan hər bir addıma biz də eyni dərəcədə sevinirik. Əlbəttə, çox istəyirik ki, yaxın zamanlarda Türkiyə Avropa Birliyinin üzvü olsun və indiyə qədərki ədalətsizliyə də son qoyulsun. Bu, yenə də ikili standartların təzahürüdür. Biz hər zaman düşünürük ki, nə üçün Türkiyədən sonra Avropa Birliyinə üzv olmaq istəyən ölkələrin müraciətlərinə müsbət reaksiya verilir, Türkiyəyə isə müsbət yanaşılmır. Nə üçün? Türkiyə bütün meyarlara görə Avropa Birliyinin üzvü ola bilər və Avropa üçün çox dəyərli töhfələr verə bilər. Amma baxın, bu ikili standartlar yenə bizim qarşımızda əngəllər yaradır. Ancaq mən inanıram ki, dünyada və Avropada artıq bu məsələyə ədalətlə yanaşılacaq və Türkiyə tezliklə Avropa Birliyinin üzvü olacaqdır. Əlbəttə, bu, Türkiyə iqtisadiyyatına böyük fayda gətirəcəkdir. Dolayısı ilə bundan Azərbaycan da xeyir götürəcəkdir. Mən dəfələrlə demişəm ki, biz də öz gələcəyimizi Avropa strukturlarına, dünya birliyinə inteqrasiyada görürük. Azərbaycan bu baxımdan müəyyən addımlar atıbdır. Bizim Avropa Birliyi ilə, digər qurumlarla əməkdaşlığımız var. Əlbəttə ki, bundan sonra bu yolla gedəcəyik.

- Siz Avropa Şurasında Azərbaycanı təmsil etdiniz, avropalıları çox yaxından tanıyırsınız. Onlar bizi başa düşürlərmi, səmimidirlərmi? Bir az əvvəl həm Dağlıq Qarabağ məsələsi, həm də Türkiyənin Avropa Birliyinə üzvlüyü məsələsi ilə bağlı ikili standartlardan danışdınız. Bizim daxili siyasətimizi başa düşürlərmi, və ya biz özümüzü avropalılara tanıda bildikmi?

- Bilirsiniz, bu, əlbəttə ki, uzun bir prosesdir. Mən deyə bilərəm ki, Azərbaycan Avropa Şurasına üzv olandan sonra ilk iclaslarda gördük ki, Dağlıq Qarabağ haqqında onların, ümumiyyətlə, heç bir məlumatı yoxdur. Çünki bu barədə onlara kifayət qədər məlumat

çatdırılmamışdır. Türkiyə nümayəndələri ilə birlikdə apardığımız fəaliyyət nəticəsində artıq Dağlıq Qarabağ mövzusu nəinki orada müzakirə olunur, hətta məruzə də hazırlanır. Siyasi Komitə xüsusi bir məruzəçi təyin edibdir və bu yaxınlarda o, məruzə ilə çıxış edəcək və beləliklə, Avropa Şurası Ermənistan-Azərbaycan münaqişəsinə siyasi qiymət verəcəkdir. Bu da, hesab edirəm ki, bizim böyük uğurumuzdur. Ermənistan tərəfi hər vəchlə bunun əleyhinə çıxır. Amma yenə də deyirəm, biz gərək öz təbliğatımızı güclü aparaq. Avropa Birliyinin, Avropa Şurasının, digər beynəlxalq qurumların bizi daha çox tanımaları üçün öz təbliğatımızı daha da gücləndirməliyik. Əgər belə fəaliyyət göstərməsək, təbii ki, onlar bizim haqqımızda kifayət qədər məlumat almayacaqlar. Bu, bizim öhdəmizə düşən vəzifədir və biz bunu etməliyik.

- Cənab Prezident, qarşıdakı günlərdə ilk dəfə dövlət başçısı kimi Türkiyədə olacaqsınız. Türkiyə rəhbərləri ilə görüşlərinizdə ön plana çıxacaq mövzular hansılar olacaqdır?

- Hesab edirəm ki, məsələlərin geniş spektri - iki ölkə arasındakı siyasi əlaqələr müzakirə ediləcək, gələcək əməkdaşlıq haqqında söhbət açılacaq, iqtisadi baxımdan mühüm layihələr müzakirə mövzusu olacaqdır. Bizim iqtisadi-ticarət əlaqələrimiz güclənir, mal dövriyyəsinin həcminin artmasında maraqlıyıq. Eyni zamanda, Türkiyə ilə biz mədəni, hərbi, iqtisadi, siyasi - bütün sahələrdə əməkdaşlıq edirik. Bütün bu məsələlər, əlbəttə ki, müzakirə olunacaqdır. Əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi müzakirə ediləcəkdir. Siz bilirsiniz ki, biz bu məsələdə böyük uğurlar əldə etdik, böyük nailiyyətlərimiz var. Biz bu layihənin xülyadan gerçəkliyə çevrilməsinə nail olduq. Müzakirə olunacaq məsələlər çoxdur, bütün məsələlər nəzərdən keçiriləcəkdir.

- Türkiyədən iş adamları Azərbaycana gəldilər, neft sənayesindən kənarda bir çox sahədə fəaliyyət göstərirlər, neft sahəsində daha çox başqa ölkələr işləyir. Xarici sərmayənin Azərbaycana gəlməsi asanlaşdırıla bildimi? Xüsusilə, türk iş adamlarının hansı sahələrdə fəaliyyət göstərməsini gözləyirsiniz?

- Azərbaycanda xarici sərmayələrin qoyulması üçün çox əlverişli zəmin var, sərmayə mühiti çox gözəldir. Əgər belə olmasaydı, xarici şirkətlər buraya milyardlarla dollar sərmayə qoymazdılar. Deyə bilərəm ki, adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan bütün keçmiş sovet respublikaları arasında ilk yerlərdədir. Bizim ölkəmizin gələcəyi üçün əhəmiyyət daşıyan müqavilələr Milli Məclis tərəfindən təsdiq olunur. Ondan sonra Prezident bu sənədləri qanun kimi imzalayır. Bu isə sərmayiçilərdə əminlik yaradır ki, əldə olunan razılaşmalar dəyişməyəcəkdir. Bu, çox vacibdir.

Əlbəttə, biz maraqlıyıq ki, Azərbaycan iqtisadiyyatının bütün sahələrinə sərmayə qoyulsun. Türkiyənin iş adamları Azərbaycanda uğurla işləyirlər, burada böyük işlərlə məşğul olurlar. Həm xidmət sektorunda, həm sənayedə, neft sektorunda onların fəaliyyətindən çox məmnunuq. Biz, əlbəttə, istərdik ki, daha çox sərmayə qoyulsun. Hər bir ölkə bunu istəyir. Çünki bu, ölkənin gələcəyi, iqtisadi inkişafı üçün lazımdır. Mənim də istəyim budur. Türkiyənin iş adamları ilə dəfələrlə söhbətlərim, görüşlərim olubdur və hər dəfə mən onları sərmayə qoymağa çağırmışam. Bizim qapımız Türkiyənin iş adamlarına açıqdır, onlar üçün ən gözəl şəraiti yaratmağa hazırıq və bunu edirik. Çox şad olardıq ki, bizim qardaşlarımız burada daha çox iş görsünlər.

- Mərhum Prezidentimizin ən böyük layihələrindən biri "Əsrin müqaviləsi"dir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi davam edir. Tikinti işləri hansı mərhələdədir,

bu işlər cədvələ uyğun olaraq vaxtında tamamlanacaqmı? Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsi nə yerdədir və nəhayət, bu böyük layihələrin, sadəcə, iqtisadi tərəfinimi fikirləşmək lazımdır, yoxsa, onların həm Azərbaycana, həm də bölgəyə müxtəlif baxımlardan hansı faydaları olacaqdır?

- İnşaat işləri uğurla davam edir. Böyük çətinliklər olmuşdur, bu çətinliklər, maneələr haqqında bəlkə saatlarla danışmaq olar. Amma bütün bu maneələrə baxmayaraq, biz bunu reallaşdırmağı bacardıq. Artıq tikinti uğurla gedir, işlərin yarıdan çoxunun görülməsi təmin olunmuşdur. Deyə bilərəm ki Azərbaycan ərazisində bütün işlər vaxtında görülür, bir gün də yubanma yoxdur. Biz əminik ki, dünyanın ən nəhəng energetika layihəsi olan Bakı-Tbilisi-Ceyhan boru xətti vaxtında istismara veriləcəkdir. Ondan sonra Azərbaycan nefti təhlükəsiz bir şəraitdə dünya bazarlarına çıxarılacaq və bundan hər üç ölkə böyük fayda əldə edəcəkdir.

Bakı-Ərzurum qaz kəmərinin tikintisi istiqamətində də işlər görülür. "Şahdəniz" qaz yatağında böyük işlər görülür, bu yatağın işlənilməsi və boru kəmərinin tikilməsi böyük vəsait tələb edir. Amma nəticədə, Azərbaycan qazı Türkiyəyə, oradan Yunanıstana, sonra isə digər Avropa ölkələrinə çatdırılacaqdır.

Əlbəttə ki, bütün bu layihələr regional əməkdaşlıq üçün yeni gözəl şərait yaradacaqdır. Biz bu məsələlərə, Bakı-Tbilisi-Ceyhan layihəsinə yalnız və yalnız iqtisadi baxımdan yanaşırdıq. Biz həmişə qeyd edirdik ki, bu, Azərbaycanın gələcəyi, iqtisadiyyatımızın inkişafı üçün çox mühüm bir amildir. Amma sirr deyil ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri işə salınandan sonra bunun regional əməkdaşlığa da yəqin ciddi təsiri olacaqdır. Amma bu təsir də yenə Türkiyə, Gürcüstan, Azərbaycan üçün müsbət təsir olacaqdır. Ola bilər ki, regionda yeni bir mühit yaransın, yeni meyllər ortaya çıxa bilər. Bu layihə bizi daha da birləşdirəcəkdir ki, bu da, öz növbəsində, bizim maraqlarımıza cavab verir.

- Qazaxıstanın da bu layihələrə qoşulması ilə enerji ehtiyatlarının Avropa bazarlarına çıxışının Azərbaycan vasitəsilə olması, problemlərin həllində Azərbaycanın əlində mühüm imkanların yaranması ölkənizə nələr verə bilər?

- Çox şey verə bilər. Siz çox düzgün buyurursunuz. Azərbaycanın coğrafi-siyasi vəziyyəti çox mühümdür. Heç bir regional əməkdaşlıq layihəsi Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz. Nəzərə alsaq ki, Xəzər dənizinin neft və qaz ehtiyatları Azərbaycan vasitəsilə dünyaya çıxarılacaq, deməli, bu, ölkənin əhəmiyyətini daha da artıracaqdır. Əlbəttə ki, əhəmiyyəti artan ölkə dünyada daha güclü mövqeyə malik olacaqdır. Dünyada sözümüz, bəlkə də, daha asan keçəcəkdir. Bütün bu imkanlardan biz birgə istifadə etməliyik. Azərbaycanın imkanları Türkiyənin sərəncamındadır, Türkiyənin imkanları Azərbaycanın sərəncamındadır. Biz bütün məsələlərə həmişə bu nöqteyi-nəzərdən yanaşmışıq.

Qazaxıstanı qeyd etdiniz. Qazaxıstanın bu barədə fikri artıq qətiləşdi. Bu yaxınlarda mən Qazaxıstanda dövlət səfərində oldum. Artıq həmin ölkənin Prezidenti və digər məsul şəxsləri birmənalı şəkildə Bakı-Ceyhana qoşulmaq haqqında bəyanatlar vermişlər. Hesab edirəm ki, bu Bakı-Ceyhan layihəsi üçün mühüm bir töhfə olacaqdır. Azərbaycanın öz neft ehtiyatları kəmərin səmərəli olması üçün kifayətdir. Amma əgər əlavə həcmlər olsa, biz hamımız bunun faydasını görəcəyik. Bu kəmər tam gücü ilə işə salınandan sonra, ümid edirəm ki, biz regionda yeni hadisələrin şahidi olacağıq.

- Cənab Prezident, Azərbaycanın uğurlarına biz öz uğurumuz kimi sevinirik, Azərbaycanın hər sahədə irəliləməsi bizi sevindirir. Bu sahələrdən biri də mərhum Prezidentimizin təşviqi ilə açılan türk litseyləridir. Orada azərbaycanlı yeniyetmələr oxuyurlar. Onların olimpiadalarda 100-dən artıq medal aldıqlarını öyrəndik. Bunu televiziyamızın xəbərlərində də verdik. Həmin məlumat Türkiyədə böyük marağa səbəb oldu. Bu litseylərin gələcəyini necə görürsünüz, yəni türk iş adamlarının Azərbaycanda təhsil sahəsində fəaliyyətləri haqqında nə düşünürsünüz? Bununla yanaşı, bilirsiniz ki, bütün dünyada gənclər narkotik maddələr, içki, əxlaqsızlıq kimi təhlükələrlə üz-üzədir. Gəncləri bu təhlükələrdən qorumaq üçün hansı layihələriniz var?

- Mən buradakı türk litseylərinin fəaliyyətini çox yüksək qiymətləndirirəm və bunları yaradan, işlədən insanlara öz minnətdarlığımı bildirmək istəyirəm. Orada təhsil alan gənclərimiz beynəlxalq yarışlarda çox yüksək mükafatlar qazanırlar. Bu, bizi çox sevindirir və onu göstərir ki, həmin litseylər Azərbaycanın gələcəyi üçün gözəl kadrlar yetişdirir. Əlbəttə ki, bir Prezident kimi mən bu litseylərin öz fəaliyyətini davam etdirmələrini, daha da genişləndirməsini istərdim.

Biz gənclərimizin tərbiyəsi ilə, onların fəaliyyəti ilə çox məşğuluq. Mən 7 ildir ki, Milli Olimpiya Komitəsinin Prezidentiyəm və deyə bilərəm ki, öz fəaliyyətimin əsas istiqamətini idmanın kütləviliyinin təmin edilməsində görürəm. İdmanla məşğul olan gənc nə siqaret çəkəcək, nə spirtli içki qəbul edəcək, nə də başqa bir pis iş görəcək. Ona görə təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində ən müasir, ən yüksək standartlara cavab verən idman kompleksləri, qurğuları yaratdıq və bundan sonra da yaradacağıq. Mən bütün gəncləri idmanla məşğul olmağa çağırmışdım və sizə deyə bilərəm ki, bu çağırışdan sonra, idmançılara yaratdığımız şəraitdən sonra müsbət meylləri görürəm. Dövlət təkcə bununla kifayətlənməməlidir. Əlbəttə ki, təhsil mühüm rol oynayır. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi bizim vəzifəmizdir. Mən bu istiqamətdə öz siyasətimi dəfələrlə bildirmişdim. Gənclərimiz vətənpərvərlik ruhunda böyüməli, öz tarixini bilməlidir, öz keçmişi ilə bağlı qürur hissləri keçirməlidir, mədəni-mənəvi irsimizi dünyada təbliğ etməlidir. Biz - Türkiyə və Azərbaycan dünya birliyi üçün çox böyük töhfələr vermiş ölkələrik. Bizim xalqlarımızın çox böyük tarixi var, mədəni irsi var. Biz bunu bir töhfə kimi dünyaya bəxş etməliyik. Keçmişdə etmişik, amma bu gün yeni, müasir şəraitdə bunu daha da geniş şəkildə etməliyik. Nailiyyətlərimizi təbliğ etməliyik. Bizim zəifliyimiz, qüsurumuz ondadır ki, bəzən əldə olunan nailiyyətləri dünya ictimaiyyətinin nəzərinə istədiyimiz səviyyədə çatdıra bilmirik. Bu istiqamətdə hələ çox iş görüləcəkdir.

- Elə bilirəm ki, bu sahədə Azərbaycanda əlverişli potensial da var. İdmanın fərdi növlərində son dövrdə qazandığınız uğurlar, təhsil sahəsində əldə edilən uğurlar göstərir ki, Azərbaycanda bunların sağlam təməli var. Sadəcə, buna texnologiya əlavə edilərsə, insanlara imkan açılarsa uğur qazanmamaq mümkün deyildir.

- Doğrudur, bizdə çox güclü intellektual potensial var, insanlar bilikli, savadlıdır. Əhalinin 100 faizi savadlıdır. İqtisadiyyatda, neft sahəsində, elmdə peşəkar kadrlar çoxdur. Sadəcə olaraq, yeni texnologiyanı tətbiq etməliyik, yeni vasitələri tətbiq etməliyik ki, Azərbaycan dünyada gedən proseslərdən kənarda və yaxud geridə qalmasın.

- 11 sentyabr hadisələrindən sonra beynəlxalq terrorizmlə birgə mübarizə başlandı.

Azərbaycan hər zaman bu mübarizənin içində olmağa çalışdı. Beynəlxalq terrorizmə Siz necə baxırsınız? Azərbaycan qlobal sülhə hansı töhfəni verə bilər?

- Mən dəfələrlə demişəm ki, Azərbaycan terrordan zərər çəkən ölkədir. Erməni terrorçu təşkilatları 1990-cı illərdə Azərbaycanda 30-dan artıq terror aktı həyata keçirmiş, nəticədə, 2 min günahsız insan həlak olmuşdur, yüzlərlə insan yaralanmış, əlil olmuşdur. Ona görə də biz terror nə olduğunu yaxşı bilirik. Əfsuslar olsun ki, bizim ölkəmiz bunu yaşayıb. Əlbəttə ki, biz gözəl bilirik ki, terrorla mübarizədə bütün ölkələr birləşməlidir. Terrorçu təkcə sənin ölkənə qarşı terror aktı keçirən deyildir. Başqa ölkədə terror aktının həyata keçirilməsinə göz yumursansa, heç vaxt terrorizmlə mübarizə uğurlu olmayacaqdır. Bütün dövlətlər terrorizmə qarşı mübarizədə birləşməlidir, bütün dünyada mövcud olan terrorçu təşkilatlar, onların fəaliyyəti dayandırılmalıdır, bank hesabları, bütün əmlakı müsadirə olunmalıdır. Ancaq bu təqdirdə terrorizmlə mübarizə səmərəli ola bilər. Yox, əgər bunda da ayrı-seçkiliyə yol veriləcəksə, əgər yalnız özünə müxalif olan terrorçu təşkilatlara qarşı mübarizə aparılacaqsa, bunun heç bir faydası olmayacaq. Terrorizmə qarşı mübarizədə gərək bütün ictimaiyyət, beynəlxalq aləm birləşsin.

- Azərbaycanın mədəniyyət və sənət adamları, şairləri terrorun aradan qaldırılması və sülhə nail olunması üçün bir sülh elçiləri kimi nə edə bilərlər?

- Bu barədə məqsədyönlü iş aparılmayıbdır. Amma bilirsiniz ki, Azərbaycanın çox qədim mədəni irsi var. Bizim sənət adamlarımız müxtəlif ölkələrdə olurlar, tədbirlərdə iştirak edirlər. Deyə bilərik ki, bu baxımdan da öz töhfəmizi veririk. Amma əlbəttə ki, terrorla səmərəli mübarizə aparmaq üçün, ilk növbədə, gərək vahid bir yanaşma ortaya qoyulsun, bütün ölkələrdə terrora qarşı mübarizə aparılsın və terrorçu təşkilatlar gərək bunu bilsinlər.

- Müsahibə üçün çox təşəkkür edirik. Azərbaycan üçün, Türkiyə üçün və dünya üçün bundan əlavə söyləmək istədikləriniz varmı?

- Mənim mesajım belədir ki, Prezident kimi çalışacağam öz vəzifəmi ləyaqətlə yerinə yetirəm. Xalq məni seçib, mənə inanıb, mən də xalqa xidmət edirəm və öz vəzifəmi bunda görürəm. Bir neçə gündən sonra mən Türkiyəyə Prezident kimi səfər edəcəyəm. Məni Türkiyə ilə uzun illər, tellər bağlayır. Türkiyə bizim üçün doğma ölkə, doğma vətəndir. Amma Prezident kimi ilk dəfə gedəcəyəm. Əlbəttə, ümid edirəm ki, bu səfərdən sonra qardaş ölkələrimiz arasında əlaqələr daha da möhkəmlənəcək, yeni layihələr üzərində işləyəcəyik, həmişə olduğu kimi, bir-birimizə dəstək, arxa olacağıq. Bizim gücümüz birlikdədir, biz bu siyasətə sadiqik, bu yolla gedəcəyik. Bütün türk xalqına hörmət və sevgilərimi çatdırıram. Xoşbəxt olsunlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə aprelin 13-də bu ölkəyə rəsmi səfərə gəlmişdir.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 13-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Türkiyə və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş iqamətgahın qarşısında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər və xanımı Səmra Sezər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.

Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı. Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Dövlət başçıları mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.

PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI

- Hörmətli Prezident!

Əziz qonaqlar!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini öz adımdan və türk ulusu adından ən səmimi hisslərlə salamlayır, dost və qardaşlarımızı ölkəmizdə görməkdən duyduğum böyük xoşbəxtlik hisslərini dilə gətirmək istəyirəm. Hörmətli İlham Əliyevin Prezident kimi Türkiyəyə bu ilk səfəri ölkələrimiz arasında ardıcıl olaraq həyata keçirilən ən yüksək səviyyədəki görüşlərin yeni və mühüm bir vəsiləsini təşkil edir.

Türk ulusunun Azərbaycana mehriban hissləri hamıya məlumdur. Ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələri, xalqlarımız arasındakı köklü bağlar və həmrəylikdən aldığı güc gündən-günə daha da möhkəmlənməkdədir. Türkiyə ilə Azərbaycanın gələcəkdə də sıx əməkdaşlığı davam etdirəcəyi şübhəsizdir.

Türkiyə Cənubi Qafqaz bölgəsində cərəyan edən hadisələri yaxından izləyir və bölgədə sülh, sabitlik və tərəqqi olmasına böyük əhəmiyyət verir. Bu bölgədəki problemlər sülhün, əməkdaşlığın və sabitliyin bərqərar olmasına mane olur. Türkiyə Dağlıq Qarabağ münaqişəsi başda olmaqla Cənubi Qafqazdakı bütün problemlərin ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində ən qısa müddətdə sülh yolu ilə həllini istəyir. Prezident İlham Əliyev ilə aparacağımız danışıqlarda Türkiyə-Azərbaycan əlaqələrinin bütün aspektləri müzakirə ediləcək və münasibətlərimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi imkanları araşdırılacaqdır. Eyni zamanda, danışıqlarda regional münaqişələrlə bağlı fikir mübadiləsi aparılacaqdır.

Azərbaycan Prezidenti, əziz qardaşım hörmətli İlham Əliyevə və hörmətli xanımına, nümayəndə heyətinə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti Əhməd Necdət Sezər!

Hörmətli dostlar, xanımlar və cənablar!

İlk növbədə, Sizə və hamınıza Azərbaycan xalqının xoş arzularını çatdırıram və əziz qardaşım, Cümhurbaşqanı məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri günü-gündən güclənir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Türkiyə onu tanıyan ilk ölkə olmuşdur. O illərdən başlayaraq, bu günə qədər və xüsusən, son 10 il ərzində ölkələrimiz arasında olan münasibətlər inkişaf etmiş, güclənmişdir. Bütün sahələrdə, siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz uğurlu əməkdaşlıq edir. Türkiyə daim Azərbaycana arxa, dəstək olmuşdur. Azərbaycanın ən çətin dövrlərində biz bu dəstəyi, bu köməyi daim hiss etmişik. Azərbaycan üçün, bütün bölgə üçün ən təhlükəli məsələdə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də biz daim Türkiyənin dəstəyini hiss etmişik və hiss edirik. Ümid edirik ki, bundan sonra aparılacaq danışıqlarda beynəlxalq birlik, ictimaiyyət münaqişənin beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətində öz səylərini göstərəcəkdir.

Mən çox şadam, çox məmnunam ki, Türkiyəyə Prezident kimi gəlmişəm. Mən Türkiyədə dəfələrlə olmuşam. Türkiyə mənim üçün doğma, əziz ölkədir, hamımızın Vətənidir, amma Prezident kimi, bu mənim ilk səfərimdir. Mən əminəm ki, burada keçiriləcək ikitərəfli danışıqlarda ölkələrimizin mənafeyi üçün mühüm qərarlar qəbul ediləcəkdir. Ölkələrimiz bundan sonra da bir-birinə həmişə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq. Bizim gücümüz birliyimizdədir. Azərbaycanın Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti də məhz bundan ibarət idi. O, daim çalışırdı ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf etsin, güclənsin. Biz, Azərbaycanın indiki rəhbərləri bu siyasətə sadiqik, əlimizdən gələni əsirgəməyəcəyik ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin. Bu ümidlərlə mən Türkiyəyə gəlmişəm və ilk anlardan böyük hörmət, diqqət, qonaqpərvərlik görürəm. Əminəm ki, bu səfər uğurlu olacaq və münasibətlərimiz yeni pilləyə qalxacaqdır.

Təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 13-də Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər arasında təkbətək görüş keçirildi.

Səmimi dostluq və mehribanlıq şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf perspektivlərini ətraflı müzakirə etdilər, regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi apardılar.

Türkiyə tərəfi Azərbaycanda gedən demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu

və bazar iqtisadiyyatı münasibətlərinin formalaşması proseslərinə verdiyi dəstəyi bir daha təsdiqlədi, bu istiqamətdə görülən işlərin davam etdirilməsinin böyük əhəmiyyəti olduğunu bildirdi.

Görüşdə dost və qardaş ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə edildi və Azərbaycan-Türkiyə əməkdaşlığının regionun digər dövlətləri üçün örnək ola biləcəyi vurğulandı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq prinsipləri əsasında həlli məsələsinə geniş yer verildi, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinin, qaçqın və məcburi köçkünlərin öz yerlərinə qayıtmasına imkan yaradılmasının zəruriliyi bildirildi.

Dövlət başçıları hər iki tərəf üçün qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Dövlət başçılarının təkbətək görüşü başa çatdıqdan sonra Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi ilə nümayəndə heyətlərinin görüşü oldu.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsi bir daha vurğulandı, iqtisadi əlaqələrin bundan sonra da genişləndirilməsinin vacibliyi bildirildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisindən ayrıca söhbət getdi, onun 2005-ci ildə tam başa çatdırılacağına əminlik ifadə edildi. Xəzərin enerji ehtiyatlarının bu kəmər vasitəsilə nəqlinin region ölkələrinin iqtisadi inkişafına və sabitliyinə böyük töhfə verəcəyi ilə yanaşı, Avropanın enerji daşıyıcıları ilə təminatında mühüm rol oynayacağı da vurğulandı. Azərbaycanın "Şahdəniz" yatağından hasil ediləcək təbii qazın nəqli üçün Bakı-Ərzurum boru kəməri layihəsinin gerçəkləşdirilməsi üçün bütün qüvvələrin səfərbər olunmasının vacibliyinə diqqət yetirildi.

Tərəflər Cənubi Qafqazda sülh, sabitlik və inkişafa əsas mancə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əməl edilməklə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsasında sülh yolu ilə tezliklə aradan qaldırılmasının zəruriliyi xüsusi vurğulandı.

Görüşdə Prezident İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyi, Azərbaycan-Türkiyə əlaqələrinin ənənəvi dostluq və qardaşlıq ruhunda daha da genişlənməsi üçün hər cür səylər göstəriləcəyi bildirildi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Çankaya köşkündə prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanma mərasimi oldu.

Əvvəlcə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat" imzalandı. Bəyanatı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafına dair protokol"u "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Türkiyə Mülki Aviasiya İdarəsinin baş direktoru Tofa Biltəkin Toker imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəniyyət sahəsində işbirliyinə dair protokol"u Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu və Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Mustafa İten imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənaye mülkiyyətinin mühafizəsinə dair əməkdaşlıq müqaviləsi"ni Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyev və Türkiyənin sənaye və ticarət naziri Əli Coşqun imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi"ni Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və Türkiyənin dövlət naziri Kürşat Tüzmen imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq sazişi"ni Azərbaycan Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin dövlət naziri Kürşat Tüzmen imzaladılar.

İmzalanma mərasimindən sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezər və Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdilər.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ÇIXIŞI

- Dəyərli mətbuat nümayəndələri!

Dost və qardaş Azərbaycanın çox hörmətli Prezidenti İlham Əliyev ilə keçirdiyimiz təkbətək və heyətlərarası görüşlərdə ikitərəfli əlaqələrimizin bütün sahələrini müzakirə etdik. Siyasi və iqtisadi əlaqələr başda olmaqla, yüksək səviyyədə davam edən işbirliyimizin hər sahədə daha da inkişaf etdirilməsinin yollarını araşdırdıq.

Az öncə imzalanan Birgə bəyanat və dəyərli sənədlər ölkələrimiz arasındakı yaxın əlaqələri daha da yüksək nöqtələrə çatdırmaq arzusunda olduğumuzun ən gözəl göstəricisidir. Sarsılmaz təməllərə dayanan Türkiyə-Azərbaycan əlaqələri günbəgün inkişaf edərək daha da sağlamlaşmaqdadır.

Hörmətli İlham Əliyev ilə keçirdiyimiz görüşlərdə ölkələrimizi yaxından maraqlandıran regional məsələlər gündəmə gəlmiş, bu çərçivədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Cənubi Qafqaz bölgəsində azərbaycanlı qardaşlarımıza böyük acılar çəkdirən məsələnin sülh yolu ilə çözülməsi üçün atıla biləcək addımlar müzakirə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun sülh yolu ilə həlli üçün əlimizdən gələn hər cür köməyi göstərməyə hazır olduğumuzu azərbaycanlı qardaşlarımıza bir daha çatdırmaq istəyirəm.

Cənubi Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik və işbirliyinin qurulması sahəsində hörmətli İlham Əliyev ilə eyni fikirdə olduğumu görməkdən məmnunam.

Görüşlərimizdə ölkələrimiz arasındakı işbirliyinin ən gözəl nümunəsini göstərən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri haqqında

fikir mübadiləsi apardıq. Bakı-Tbilisi-Ceyhan xəttinin inşasındakı irəliləmələrdən və ilk neftin 2005-ci ildə Ceyhana çatdırılacağından məmnunluğumuzu dilə gətirdik. Bütün dünyanın yaxından izlədiyi bu layihələrlə əlaqədar birgə çalışmalarımız ölkələrimiz arasında mövcud olan əlaqələri inkişaf etdirərək, bölgəmizi güclü və təhlükəsiz bir gələcəyə aparacaqdır.

Hörmətli İlham Əliyevin ölkəmizə Prezident kimi gerçəkləşdirdiyi bu ilk ziyarət Türkiyə ilə Azərbaycan arasındakı yaxın dostluq əlaqələrinin daha da inkişafına və Cənubi Qafqaz bölgəsinin sülhə qovuşmasına təkan verəcəyinə inanıram. Bir daha təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının Prezidenti kimi mən Türkiyəyə ilk səfərə gəlmişəm. Bu səfər çox uğurla həyata keçirilir. İlk növbədə, Türkiyə Respublikasının Cümhurbaşqanı, qardaşım Əhməd Necdət Sezərə məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Mənə, bizim nümayəndə heyətimizə göstərilən diqqətə və qonaqpərvərliyə görə bütün türk qardaşlarıma minnətdaram.

Bu gün biz Türkiyə-Azərbaycan münasibətlərinin gələcək perspektivlərini ətraflı müzakirə etdik. Bir daha əmin olduq ki, ölkələrimiz arasında əlaqələr, münasibətlər uğurla inkişaf edir. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O illərdən bu vaxta qədər ölkələrimiz arasında əlaqələr ilbəil güclənir, inkişaf edir. Ölkələrimiz bütün sahələrdə uğurlu işbirliyi aparır və bu, təkcə ölkələrimiz üçün deyil, bütün bölgə üçün önəm daşıyır.

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanla daim birlikdə olubdur, Azərbaycanın yanında olubdur. Bugünkü görüşlər, danışıqlar bunu bir daha göstərir. Bu münaqişə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Yəni, hörmətli Cümhurbaşqanın qeyd etdiyi kimi, mərhələli yolla öz həllini tapa bilər. Çox şadıq ki, artıq beynəlxalq ictimaiyyət də məsələyə bu prizmadan yanaşmağa başlayıbdır. Əminik ki, əgər bu məsələ ilə məşğul olan qurumlar, beynəlxalq təşkilatlar da bu nöqteyi-nəzərdən yanaşsalar, problem tezliklə öz həllini tapa bilər. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişafı göz önündədir. Mən burada qeyd elədim ki, üç gün bundan əvvəl Bakıda Atatürk Mərkəzi açılmışdır. Prezident Heydər Əliyev tərəfindən qərar verilmişdi ki, bu Mərkəz açılsın. Çox şadam, xoşbəxtəm, bəxtiyaram ki, bunun açılışını etmək mənə nəsib olmuşdur. Türkiyədən gələn heyətlə birlikdə biz bu Mərkəzi açdıq. Bütün türk dünyasının ulu öndəri Mustafa Kamal Atatürkün tarixi irsi orada öyrəniləcək və təbliğ ediləcəkdir.

İqtisadi əlaqələrimiz uğurla inkişaf edir. Türkiyə ilə Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Ölkələrimiz son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə etmişdir. Azərbaycanın iqtisadiyyatı hər il orta hesabla 10 faiz artır. Türkiyə iqtisadiyyatının da artımı bizi çox sevindirir. Bu, deməyə əsas verir ki, ölkələrimizin iqtisadi potensialı güc-

ləndikcə, iqtisadi əlaqələrimiz də güclənəcək, mal dövriyyəsinin həcmi artacaqdır. Beləliklə, ölkələrimiz daha da səmərəli işbirliyi, əməkdaşlıq edəcəkdir.

Əlbəttə, bu məsələdə Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin uğurla tikilib istifadəyə verilməsi böyük önəm daşıyır. Bu, təkcə iqtisadi məsələ deyil, həm də bölgədə yeni bir mühit yaradacaqdır. Bölgəyə sülh, təhlükəsizlik, əmin-amanlıq gətirəcəkdir. Biz hamımız səbirsizliklə o günü gözləyirik ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışında iştirak edək. Bu günlər uzaqda deyildir. Əminəm ki, yaxın zamanlarda biz buna nail olacağıq.

Bir daha qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında heç bir problem yoxdur. Həll olunmayan məsələ yoxdur. Biz Türkiyə tərəfindən daim dəstək, yardım, diqqət görmüşük. Münasibətlərimiz daim qardaşlıq, dostluq prinsiplərinə söykənibdir. Biz bu prinsiplərə sadiqik.

Hörmətli Cümhurbaşqanı, mən Sizi və bütün qardaşlarımızı bir daha ürəkdən salamlayır və nümayəndə heyətimizə göstərilən diqqətə, məhəbbətə, qonaqpərvərliyə görə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də onun üçün ayrılmış iqamətgahda - Camlı köşkdə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi ordu generalı Hilmi Özkökü qəbul etmişdir.

Prezident İlham Əliyev Baş Qərargahın rəisini səmimiyyətlə salamlayaraq, dövlət başçısı kimi Türkiyəyə ilk səfərinə böyük əhəmiyyət verdiyini bildirdi.

Səmimi qəbula görə təşəkkür edən ordu generalı Hilmi Özkök Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfərini yüksək qiymətləndirdi, bunun ölkələrimiz arasında münasibətlərin daha da inkişafına xidmət edəcəyini söylədi. O, Azərbaycanın ümummilli lideri, türk dünyasının böyük şəxsiyyəti Heydər Əliyevə çox böyük hörmət və ehtiramı olduğunu xatırladaraq dedi ki, indi Prezident İlham Əliyevə də eyni hissləri bəsləyir.

Söhbət zamanı ölkələrimizi maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Aprelin 13-də axşam Çankaya köşkündə Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.

Dövlət başçıları qəbulda nitq söylədilər.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

- Azərbaycan Respublikasının çox hörmətli Prezidenti İlham Əliyev!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün ölkəmizə ilk dəfə rəsmi səfərə gələn Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyədə görməkdən çox məmnunuq.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr çox gözəl səviyyədədir. Ölkələrimiz arasında hər sahəni əhatə edən və getdikcə dərinləşən bu əlaqələrdə Azərbaycanın ümummilli lideri mərhum Heydər Əliyevin unudulmaz xidmətlərini xatırlamaq bizim borcumuzdur. Bu fürsətdən istifadə edərək, müasir Azərbaycanın qurucusunun əziz xatirəsini hörmətlə anıram.

Dəyərli qonaqlar, Cümhurbaşqanı hörmətli İlham Əliyev bir tərəfdən, çox görkəmli dövlət adamı Heydər Əliyevin varisi kimi onun uzaqgörən siyasətini yeridir, digər tərəfdən, öz tərzi ilə ölkəsinə önəmli yeniliklər gətirməyə başlamışdır. Bu sırada Azərbaycanın Avropanın möhtəşəm təşkilatlarında fəaliyyətini daha da genişləndirdiyini qeyd edir, hörmətli Prezident İlham Əliyevin bu xidmətlərini yaxından izlədiyimizi və bu sahədə uğur qazanması üçün ona dəstək verdiyimizi və verəcəyimizi bildirmək istəyirəm.

Azərbaycanın atdığı addımlarla önəmli yüksəlişi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsinin başa çatması olacaqdır. Bir zamanlar xəyal kimi görünən Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq bu gün gerçəkləşmək yolundadır. Əminik ki, önümüzdəki ilin bu günlərində üç ölkə olaraq biz birlikdə Ceyhanda neftin gəmiyə yüklənməsinin şahidi olacağıq. Məqsədimiz ən qısa vaxtda Qazaxıstanın da Bakı-Tbilisi-Ceyhan layihəsinə qoşulmasından sonra "Şahdəniz" layihəsinin gerçəkləşdirilərək, Azərbaycan təbii qazının Türkiyəyə, buradan da Avropaya çatdırılmasıdır. Çox böyük əhəmiyyət daşıyan və faydalı olan bu layihələrin reallaşması təkcə iqtisadi məsələ deyil, həm də Türkiyənin xarici siyasətdə çox böyük önəm verdiyi məsələlərdən olan Cənubi Qafqazda əmin-amanlığın bərpasına, işbirliyi ruhunun yaradılmasına da təkan verəcəkdir.

Bu bölgədə ən yaralı məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemidir. Bunun nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, 1 milyondan çox insan torpağını tərk etmiş və qaçqın vəziyyətinə düşmüşdür. Tanınmış beynəlxalq sərhədlərin zor gücünə dəyişdirilməsi, problemlərin güc vasitəsilə çözülməsi qəbul edilə bilməz. Türkiyə Cümhuriyyəti bu məsələnin ədalətli həlli yolunda qardaş Azərbaycan Cümhuriyyətini hər zaman dəstəkləmişdir və dəstəkləməkdə davam edəcəkdir. Bizim arzumuz Dağlıq Qarabağ məsələsinin beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllidir. Bölgənin daha inkişaf etmiş və güclü olması hər kəsin diləyidir. Bunun üçün, yəni, Cənubi Qafqazda sülhün, ədalətin və təhlükəsizliyin yenidən bərpa olunması üçün Ermənistanın doğru siyasət yürütməsi, düzgün addımlar atması lazımdır. Bu günə qədər Azərbaycan çözümə gedən yolda üzərinə düşən hər bir işi etmiş, ədalətli mövqeyini ortaya qoymuşdur. Azərbaycanın bu məsələnin dialoq vasitəsilə həllinə tərəfdar olmasını hamımız bilirik.

Hörmətli Cümhurbaşqanı!

Hörmətli qonaqlar!

Bu gün bizim dəyərli görüşlərimiz oldu. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etməsi yolundakı baxışlarımız bir-birinə tamamilə uyğundur. Xüsusilə ölkələrimizi maraqlandıran regional və beynəlxalq məsələlərə, bölgəmizdə yaşanan hadisələrə baxışlarımızın üst-üstə düşməsindən məmnunuq. Ölkələrimiz arasında əlaqələr və bunun ən geniş çərçivədə yetərincə möhkəmləndirilməsi hər iki tərəfin faydalı şəkildə yararlanmasını asanlaşdıracaqdır. Bu gün imzalanan çox önəmli sənədlər də bu amallara çatmaqda bizə yardımçı olacaqdır.

Hörmətli Cümhurbaşqanı!

Ölkəmizə etdiyiniz bu ziyarətdən öncə, Bakıda Atatürk Mərkəzinin Sizin iştirakınızla açılmasından böyük məmnunluq duyuruq. Çağdaş Türkiyə Cümhuriyyətinin qurucusu, ulu öndər Atatürkə Azərbaycanda göstərilən bu hörmət bizə şərəf vermişdir.

Mən Sizi, hörmətli xanımınızı və nümayəndə heyətinin bütün üzvlərini ölkəmizdə görməkdən duyduğum qüruru bir daha xatırladıram. Burada özünüzü evinizdə olduğunuz kimi hiss etmənizi istəyirəm.

Badəmi Türkiyə-Azərbaycan qardaşlığının şərəfinə qaldırıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Cümhurbaşqanı Əhməd Necdət Sezər!

Hörmətli Səmra xanım!

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə Türkiyənin Cümhurbaşqanı, Azərbaycan xalqının yaxın dostu Əhməd Necdət Sezərə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Sizə demək istəyirəm ki, ilk anlardan biz burada qonaqpərvərlik, diqqət görmüşük və buna görə bütün nümayəndə heyəti adından Sizə təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri uzun illərdir ki, davam edir, inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafı istiqamətində çox böyük addımlar atılır. Azərbaycanın ümummilli lideri Prezident Heydər Əliyevin səyləri nəticəsində xalqlarımız böyük uğurlara nail olmuşlar. Bizim münasibətlərimiz güclənibdir və demək olar ki, bütün sahələrdə uğurlu işbirliyi, əməkdaşlıq var. Siyasi, iqtisadi, mədəni, bütün digər sahələrdə işbirliyimiz örnək, nümunə ola bilər.

Bizi bağlayan tarixi köklər əsasında qurulmuş yeni münasibətlər bölgədə mühüm rol oynayır. Bölgənin inkişafı üçün, Qafqazın inkişafı üçün Türkiyə-Azərbaycan münasibətləri müstəsna rol oynayır. Bölgəmiz sabit bölgə deyildir. Bölgədə sabitlik ən önəmli şərtdir, sülhün, əmin-amanlığın bərqərar olunması, inkişaf üçün əsas amildir.

Bizi bağlayan iqtisadi əlaqələr təkcə ölkələrimiz üçün deyil, bütün bölgə üçün, Avropa üçün önəmlidir. Həyata keçirdiyimiz irimiqyaslı neft layihələri, qaz layihələri, xüsusən

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə bölgədə vəziyyət dəyişmiş olur. Yaxın zamanlarda istifadəyə veriləcək Bakı-Tbilisi-Ceyhan neft kəməri xalqlarımızı daha da sıx birləşdirəcəkdir.

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası istiqamətində çox önəmli addımlar atılıbdır. Bu layihə də uğurla həyata keçirilir və biz ümid edirik ki, o da öz həllini tapacaq, Azərbaycan qazı Türkiyəyə və buradan da Avropa istehlakçılarına çatdırılacaqdır.

Türkiyə bütün məsələlərdə Azərbaycana daim arxa, dayaq olmuşdur. O cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində də biz daim qardaş ölkənin köməyini hiss etmişik. Bu dəstəyi bu gün də hiss edirik və əminik ki, yaxın zamanlarda bu münaqişə öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq normaları əsasında bərpa olunacaq, torpaqlarımız işğalçılardan azad ediləcəkdir.

Bugünkü danışıqlarda, keçirdiyimiz təkbətək görüşümüzdə bir daha əmin olduq ki, Türkiyə ilə Azərbaycan arasında heç bir problem yoxdur. Bütün məsələlər öz həllini tapır və biz bu siyasətə, bu qardaşlığa sadiqik.

Hörmətli Cümhurbaşqanı qeyd etdi ki, üç gün öncə Bakıda Atatürk Mərkəzi öz qapılarını açmışdır, çox möhtəşəm mərasim keçirilmişdir. Deməyə tam əsas var ki, Azərbaycanda ulu öndərimiz Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Bu, bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər bağlıdır, yaxındır. Bu dostluq, qardaşlıq hər şeydən üstündür. Mən əminəm ki, aramızda olan dostluq, qardaşlıq münasibətləri bundan sonra da davam və inkişaf edəcək, xalqlarımıza səadət, xoşbəxtlik gətirəcəkdir.

Bu badəni Türkiyə-Azərbaycan münasibətləri şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, qardaş ölkənin Cümhurbaşqanı Əhməd Necdət Sezərin şərəfinə qaldırıram.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏND ARINÇ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ankaraya rəsmi səfərinin ikinci günü, aprelin 14-də Türkiyə Böyük Millət Məclisinə gəldi.

Türkiyə parlamentinin sədri Azərbaycan rəhbərini böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Prezident İlham Əliyev ilə TBMM-in sədri Bülənd Arınç arasında görüş oldu. Dostluq və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olundu, parlamentlərarası əlaqələrin inkişafına və bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdən sonra Türkiyə parlamentinin iclas salonuna gəldi. Böyük Millət Məclisinin deputatları dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev parlamentin iclasında geniş nitq söylədi.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Türkiyə Böyük Millət Məclisi!

Hörmətli millət vəkilləri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Türkiyə Böyük Millət Məclisinin qarşısında çıxış etmək mənim üçün böyük şərəfdir. Bu şərəfi mənə verdiyinizə görə, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

İkinci gündür mən Türkiyədə rəsmi səfərdəyəm. Artıq demək olar ki, bu səfər çox uğurlu keçib və apardığımız bütün danışıqlarda, söhbətlərdə bir daha əmin olduq ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri davam edir, inkişaf edir, güclənir. Bu münasibətlər Azərbaycan üçün prioritet məsələdir.

Bildiyiniz kimi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O illərdən sonra bütün dövrlərdə Türkiyə daim Azərbaycanın yanında olmuş, Azərbaycana arxa-dayaq olmuşdur. Biz bunu çox yüksək qiymətləndiririk və ümid edirik, əminik ki, bundan sonra bizim qardaş ölkələrimiz daim bir-birinin yanında olacaqlar. Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü Türkiyənin gücüdür.

Azərbaycan son 12 ildə, müstəqilliyini əldə etdikdən sonra çox çətin yollardan keçmişdir. Ölkəmiz müstəqilliyin ilk illərində böyük təhlükələrlə üzləşmişdir. Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkar siyasət Azərbaycanın torpaqlarının bir hissəsinin itirilməsi ilə nəticələnmişdir. Üstəgəl, daxildə vəziyyət qeyri-sabit idi. Beləliklə, Azərbaycan çox böyük fəlakətlərlə üz-üzə qalmışdı. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanın ümummilli lideri Heydər Əliyev rəhbərliyə qayıdandan sonra ölkədə vəziyyət tədricən normallaşdı və Azərbaycan bu böhran içindən çıxa bildi.

Sizə deyə bilərəm ki, 1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox gərgin idi. Bir neçə dəfə dövlət çevrilişinə cəhdlər olmuşdu, vətəndaş müharibəsi başlanmışdı. Azərbaycanda qeyri-qanuni silahlı birləşmələr özbaşınalıq edirdi. Əlbəttə, bütün bu xoşagəlməz halların qarşısını almaq üçün böyük səylər sərf olunmuşdur. Demək olar ki, Azərbaycanda sabitlik 1996-cı ildə yaranmışdır. O ildən başlayaraq, bu günə qədər ölkəmiz inkişaf edir, öz potensialını gücləndirir və iqtisadiyyatımız da inkişaf edir.

1996-cı ildən 2003-cü ilə qədər orta hesabla bizim iqtisadiyyatımız ildə on faiz artmışdır. Keçən ilin ümumi daxili məhsulun artımı – iqtisadiyyatın əsas göstəricisi – 11 faiz olmuşdur. Azərbaycanda son yeddi il ərzində inflyasiya 2-3 faiz təşkil edir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş sovet cümhuriyyətləri arasında liderliyi saxlayır və son illər ərzində ölkəmizə 17 milyard dollar sərmayə qoyulmuşdur.

Azərbaycanda iqtisadi islahatlar uğurla aparılır. Özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq özəlləşdirilibdir. Sənaye müəssisələri özəlləşdirilir, xidmət sektorunun, demək

olar ki, hamısı özəlləşdirilibdir. Bu gün ümumi daxili məhsulda, Azərbaycanın iqtisadiyyatında özəl sektorun payı 74 faizdir. Bu, onu göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri öz əksini tam tapmışdır. Ölkə bazar iqtisadiyyatı əsasında inkişaf edir və biz əminik ki, bu, gələcəkdə də Azərbaycana böyük fayda, mənfəət gətirəcəkdir.

Eyni zamanda, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Baxmayaraq ki, Azərbaycan artıq yeni bir sistemdə yaşayır, kommunist sistemindən yeni sistemə keçid dövrünü yaşayır, ölkədə sosial ədalətə böyük diqqət göstərilir. Bizim büdcəmizin əsas məxaric hissəsi məhz sosial məsələlərin həllinə yönəldilibdir. Maaşların, pensiyaların, təqaüdlərin, digər sosial müavinətlərin ödənilməsi və artırılması bizim hökumətimiz üçün prioritet məsələdir.

Siyasi islahatlar uğurla aparılır. Azərbaycan müasir, dünyəvi dövlətdir. Azərbaycanda demokratikləşmə prosesi uğurla gedir. Ölkəmiz insan haqlarının qorunması istiqamətində böyük uğurlar əldə etmişdir, ümumbəşəri dəyərlərə çox sürətlə yiyələnir. Eyni zamanda, dünya sivilizasiyasına öz dəyərli töhfələrini verməkdədir. Azərbaycanın çox qədim tarixi, çox zəngin, mədəni irsi vardır. Əlbəttə, biz bu irsi, bu tarixi töhfə olaraq dünya sivilizasiyasına bəxş edirik.

Azərbaycan üç ildən artıqdır ki, Avropa Şurasının üzvüdür. Bu illər ərzində ciddi dəyişikliklər baş vermişdir ki, bu da öz növbəsində, ölkəmizi daha da demokratikləşdirir. Azərbaycanın Avropa Şurasında fəaliyyəti çox uğurlu olmuşdur və Avropa Şurası öz sənədlərində Ermənistanı işğalçı dövlət kimi tanımışdır. Bu, bizim böyük uğurumuzdur və hesab edirik ki, gələcək danışıqlar prosesinə güclü zəmin yaradacaqdır.

Eyni zamanda, Avropa Birliyi ilə də münasibətlərimiz inkişaf edir, güclənir. Çox sevindirici haldır ki, Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir. Bu, onu göstərir ki, Avropa Birliyinin bizim bölgəmizə olan diqqəti artır. Biz əminik ki, bütün beynəlxalq birlik Azərbaycanla bundan sonra da uğurlu əməkdaşlıq edəcək və Azərbaycan da öz gələcəyini dünya birliyinə, Avropa məkanına inteqrasiyada görür.

Bizim planlarımız, proqramlarımız çoxdur. Bu yaxınlarda qəbul edilmiş sosial-iqtisadi inkişafın sürətləndirilməsi proqramı uğurla həyata keçirilir. Eyni zamanda, yenə bu yaxınlarda qəbul etdiyimiz regional proqram da həyata keçirilir və beləliklə, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Bölgələrimiz bu proqramların həyata keçirilməsindən daha böyük fayda görəcəkdir.

Ölkəmizin perspektivləri çox gözəldir. Bildiyiniz kimi, təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün, geniş mənada Avropa üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir. Biz əminik ki, o, vaxtında, zamanında istismara veriləcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təşəbbüskarı və müəllifi Azərbaycanın ümummilli lideri Heydər Əliyev olmuşdur. Təsadüfi deyil ki, onu inşa edən şirkət bu kəmərə Heydər Əliyevin adını vermişdir. Məhz Heydər Əliyevin uğurlu neft strategiyası sayəsində Azərbaycana, onun neft sahəsinə böyük həcmdə sərmayələr qoyuldu. Azərbaycan heç kəsdən asılı olmayaraq, müstəqil şəkildə öz siyasətini apardı və biz, nəhayət, istədiyimizə nail olduq. Bakı-Tbilisi-Ceyhan layihəsi xəyaldan gerçəkliyə çevrilibdir.

Bu yolda çoxlu çətinliklərimiz var idi. Çoxlu əngəllər, maneələr var idi. Azərbaycanın

gələcəyi üçün böyük təhlükələr yaradılırdı. Amma bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, şəxsən Prezident Heydər Əliyevin iradəsi, qətiyyəti, cəsarəti hər şeydən üstün olubdur. Biz əminik ki, bu boru xətti, neft kəməri işə salınandan, istismara verilməndən sonra bölgədə bütün vəziyyət, ab-hava dəyişəcəkdir və dəyişməlidir. Bu kəmər, bu boru xətti bölgəmizə əmin-amanlıq, sabitlik, təhlükəsizlik gətirəcəkdir. Bu, Azərbaycanı Türkiyə ilə daha da sıx bağlayacaqdır. Türkiyənin və Azərbaycanın dünyadakı mövqeləri daha da güclənəcəkdir. Ona görə biz hamımız bu kəmərin işə salınmasını səbirsizliklə gözləyirik və əminik ki, vaxtında, gələn ilin birinci rübündə biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılışını qeyd edəcəyik.

Eyni zamanda, ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ərzurum qaz kəməri də uğurla irəliyə gedir. Bu layihə də həyata keçirilir və o, bizə imkan verəcək ki, Azərbaycan qazı rahat, təhlükəsiz şəraitdə Türkiyəyə nəql edilsin və sonra buradan digər Avropa ölkələrinə çatdırılsın. Beləliklə, Avropa istehlakçıları üçün Azərbaycan qazı böyük əhəmiyyət kəsb edəcəkdir. Bir tərəfdən, bu qaz digər qazlardan ucuz olacaq, çünki bunun nəqli ilə bağlı xərclər daha az olacaqdır. Digər tərəfdən, hər bir istehlakçı üçün alternativ mənbə çox vacibdir və biz də bu mənbəni təmin edəcəyik.

Bir sözlə, bir neçə ildən sonra, bütün bu regional, irimiqyaslı layihələr həyata keçirilməndən sonra Azərbaycan və Türkiyə əl-ələ verərək, uğurla irəliyə gedəcəklər. Bölgədə Türkiyəsiz, Azərbaycansız heç bir əməkdaşlıq, işbirliyi, regional işbirliyi mümkün deyildir. Bu, bizim böyük nailiyyətimizdir. Bu baxımdan bölgəni daha da təhlükəsiz etmək üçün, mövcud təhlükəni aradan qaldırmaq üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmalıdır.

Uzun illərdir ki, bu münaqişə öz həllini tapmır. Bilirsiniz ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Bu işğal nəticəsində bir milyondan artıq vətəndaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət öz qətiyyətini ortaya qoymur və belə olan halda, bu münaqişə öz həllini tapmır.

Azərbaycanın mövqeyi ədalətlidir və bu mövqe beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq hüquq normaları bərpa olunmalıdır. Azərbaycan bütün digər ölkələrin ərazi bütövlüyünü tanıyır. Əlbəttə, tələbimiz odur ki, bizim də ərazi bütövlüyümüz tanınsın, bərpa edilsin. Bu, bizim haqlı tələbimizdir və mən əminəm ki, bu istiqamətdə uğurlar olmalıdır və olacaqdır. Çünki biz XXI əsrdə yaşayırıq. XXI əsrdə bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsinə yol vermək olmaz.

Ermənistanın mövqeyi isə heç bir məntiqə söykənmir və bütün beynəlxalq hüquq normalarını pozur. Ermənistanın tələbi nədir? Qısa desək, onların tələbi bundan ibarətdir ki, Dağlıq Qarabağ ermənilər, orada yaşayan ermənilər öz müqəddəratını özləri təyin etsinlər.

Birincisi, onu deməliyəm ki, Dağlıq Qarabağda yaşayan ermənilər oraya, qədim Azərbaycan torpağına qonaq kimi gəlmişlər. 1820-ci illərdə onlar oraya gəlmişlər və Dağlıq Qarabağa gəlmələrinin 150 illik yubileyi münasibətilə, hətta bir abidə də ucaltmışdılar. Bu, məsələnin tarixi tərəfidir.

İkincisi, Ermənistan dövləti var və erməni xalqı öz müqəddəratını Ermənistan dövləti

çərçivəsində artıq təyin edibdir. Əgər ermənilər yaşadıqları bütün ölkələrdə öz müqəddəratını təyin etmək eşqinə düşərlərsə, dünyada nə qədər erməni dövləti yaranacaqdır? Ermənilər Gürcüstanda, Rusiyada, Amerikada, Fransada və digər ölkələrdə yaşayırlar. Nə üçün onlar yaşadıqları bütün ölkələr içərisində öz müqəddəratını təyin etmək üçün yalnız Azərbaycanı seçiblər?! Bu prinsip beynəlxalq hüquq normalarına ziddir. Əgər Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, buyursunlar, onu Ermənistan dövləti çərçivəsində etsinlər.

Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Həmişə Azərbaycan torpağı olub, bundan sonra da Azərbaycan torpağı olacaqdır. Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq və nəyin bahasına olursa-olsun, öz torpaqlarını azad edəcəkdir. Mən çox məmnunam ki, son zamanlarda bizim ədalətli mövqeyimiz bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupu tərəfindən də qəbul edilir. Mən əminəm ki, yaxın zamanlarda bu istiqamətdə önəmli addımlar atıla bilər.

Əziz dostlar!

Qeyd etdiyim kimi, mən ikinci gündür Prezident kimi Türkiyədə rəsmi səfərdəyəm. Mən Türkiyədə dəfələrlə olmuşam, Türkiyəyə çox bağlıyam, bu ölkəni çox sevirəm. Türkiyəni özümə vətən hesab edirəm. Amma Prezident kimi bu, mənim ilk səfərimdir. Mən bu səfəri çox həyəcanla gözləyirdim. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında böyük rol oynayacaqdır, yeni mərhələyə çevriləcəkdir.

Bayaq dediyim kimi, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Bizim ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər çox yüksək pilləyə qalxıbdır. Mən bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də Heydər Əliyevin siyasətinə sadiqəm, bu siyasəti aparacağam. Mən bu yoldan dönməyəcəyəm və əlimdən gələni edəcəyəm ki, Türkiyə-Azərbaycan münasibətləri həmişə olduğu kimi, dostluq, qardaşlıq prinsiplərinə əsaslansın.

Bizim tarixi köklərimiz birdir, mənşəyimiz birdir. Heydər Əliyev demişkən, "Biz bir millət, iki dövlətik". Gücümüz də birliyimizdədir. Əminəm ki, keçmişdə olduğu kimi, bundan sonra da - 50, 100, 200 ildən sonra – bütün dövrlərdə bizim qardaş xalqlarımız daim bir yerdə olacaqlar.

Əziz dostlar!

Mənə bu fürsəti verdiyinizə görə, məni buraya dəvət etdiyinizə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

Yaşasın böyük Türkiyə Cümhuriyyəti!

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜ QƏBUL ETMİŞDİR

Aprelin 14-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – Camlı köşkdə Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülü qəbul etmişdir.

Dostluq və səmimilik şəraitində keçən söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinin vacibliyi bildirildi, bu baxımdan Prezident İlham Əliyevin rəsmi səfərinin əhəmiyyəti vurğulandı.

Görüşdə ikitərəfli iqtisadi əlaqələrin perspektivləri, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisində işlərin gedişi, Bakı-Ərzurum qaz kəmərinin reallaşdırılması ilə bağlı müzakirələr aparıldı. Eyni zamanda, hər iki ölkəni maraqlandıran regional və beynəlxalq məsələlər ətrafında, o cümlədən Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün əsas manea olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüququn başlıca prinsipləri gözlənilməklə, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilmək şərti ilə aradan qaldırılması haqqında fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DOĞRU YOL PARTİYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Ankarada, Türkiyə Böyük Millət Məclisinin binasında Doğru Yol Partiyasının sədri, parlamentin deputatı Mehmet Ağar ilə görüşmüşdür.

Dövlətimizin başçısının Prezident seçildikdən sonra Türkiyəyə ilk rəsmi səfər etməsini yüksək qiymətləndirən Mehmet Ağar ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin möhkəm təməl üzərində qurulduğunu və inkişaf etdiyini, bu işdə türk dünyasının görkəmli oğlu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri olduğunu vurğuladı. Prezident İlham Əliyevin parlamentdə söylədiyi nitqi diqqətlə dinlədiyini və səslənən fikirlərə böyük önəm verdiyini bildirən partiya sədri ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsində Türkiyənin, həmişə olduğu kimi, bundan sonra da Azərbaycanı dəstəkləyəcəyini dedi.

Mehmet Ağar Azərbaycanda gedən demokratik dəyişiklikləri, aparılan genişmiqyaslı islahatları yüksək dəyərləndirdi, Prezident İlham Əliyevin rəsmi səfərindən sonra ölkələrimiz arasında ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyacağına əmin olduğunu söylədi.

Səmimi sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin əbədi və sarsılmaz olduğunu, dost və qardaş ölkənin Azərbaycana daim dəstək verdiyini vurğuladı.

Mehribanlıq şəraitində keçən görüşdə bir sıra məsələlər barədə də fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CÜMHURİYYƏT XALQ PARTİYASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Aprelin 14-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – Camlı köşkdə Türkiyənin əsas müxalifət partiyası olan Cümhuriyyət Xalq Partiyasının sədri Dəniz Baykalı qəbul etmişdir.

Partiyanın sədri səmimi qəbula görə minnətdarlıq edərək dedi ki, Azərbaycan Prezidentinin Türkiyə parlamentində söylədiyi nitq bütün deputatların, eləcə də ölkə ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. Dəniz Baykal dövlətimizin başçısı İlham Əliyevin Prezident kimi Türkiyəyə ilk rəsmi səfərini yüksək qiymətləndirdi, bunun ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına müsbət təsir göstərəcəyini vurğuladı.

Azərbaycanda aparılan genişmiqyaslı islahatların və bu yolda əldə edilmiş uğurların Türkiyə üçün sevindirici olduğunu söyləyən Cümhuriyyət Xalq Partiyasının sədri Dağlıq Qarabağ probleminə də toxundu və region üçün böyük təhlükə doğuran bu münaqişənin sülh yolu ilə ədalətli həllinə ümid bəslədiyini, bu məsələdə Türkiyənin Azərbaycanı bundan sonra da dəstəkləyəcəyini bildirdi.

Xoş sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev dövlət başçısı kimi Türkiyəyə ilk rəsmi səfərindən, aparılan danışıqlardan və keçirilən görüşlərdən məmnunluğunu ifadə etdi. Azərbaycan Prezidenti vurğuladı ki, dost və qardaş ölkələrimiz və xalqlarımız arasındakı münasibətlər bundan sonra da genişlənib möhkəmlənəcək, biz ümummilli liderimiz Heydər Əliyevin bu istiqamətdə müəyyən etdiyi xətti gələcəkdə də davam etdirəcəyik.

Söhbət zamanı bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN 9-CU PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 14-də Türkiyənin 9-cu Prezidenti, ölkəmizin və xalqımızın böyük dostu Süleyman Dəmirəl Azərbaycan Prezidenti İlham Əliyev üçün ayrılmış iqamətgaha – Camlı köşkə gəldi. Dövlətimizin başçısı cənab Süleyman Dəmirəli böyük hörmət və ehtiramla qarşıladı.

Prezident İlham Əliyev ilə yenidən görüşmək fürsətindən son dərəcə məmnun qaldığını söyləyən Süleyman Dəmirəl respublikamızın rəhbərinin Türkiyəyə rəsmi səfərini, Böyük Millət Məclisindəki nitqini yüksək qiymətləndirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə dostluq əlaqələrini xatırladan, onun türk dünyası qarşısındakı xidmətlərini xüsusi vurğulayan cənab Dəmirəl Azərbaycanın dahi oğluna Ulu Tanrıdan rəhmət dilədi.

Cənab Süleyman Dəmirəl ilə hər bir görüşündən hədsiz sevinc duyduğunu bildirən Prezident İlham Əliyev ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı və möhkəmlənməsində Türkiyənin 9-cu Prezidentinin xüsusi xidmətləri olduğunu və Azərbaycan xalqının bunu heç vaxt unutmayacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-Türkiyə münasibətlərinin daim yüksək səviyyədə olacağına əminliyini bildirdi.

ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Ankaranın yaxınlığında, Batıkənddə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə salınmış parkın təntənəli açılış mərasimində iştirak etmişdir.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi. Təntənəli mərasimi Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı Nazirliyi Baş meşəsalma idarəsinin müdiri Mustafa Yüksəl açdı.

BAŞ MEŞƏSALMA İDARƏSİNİN MÜDİRİ MUSTAFA YÜKSƏLİN ÇIXIŞI

- Hörmətli Prezident!

Hörmətli nazirlər, hörmətli vali, dövlət məmurları!

Əziz tələbələr, vətəndaşlar, dəyərli mətbuatın nümayəndələri!

Hamınızı hörmətlə salamlayıram. Bu gün biz Atatürk Meşə Təsərrüfatında yerləşən bu ərazidə Heydər Əliyevin adı verilmiş parkın açılış mərasiminə yığışmışıq. Bu gün buraya hörmətli Prezidentimiz də təşrif buyurmuşdur. Park 75 hektar ərazini əhatə edir və burada 81 min ədəd ağac əkiləcəkdir. Bu günə qədər 50 min ağac əkilmişdir. Qarşıdakı on gün ərzində bütün ağacların əkilməsi başa çatacaqdır. Burada idman kompleksləri olacaq, gəzinti və istirahət üçün şərait yaradılacaqdır. Parkın yaradılması üçün lazım olan bütün xərcləri qeyri-hökumət təşkilatlarımız, müxtəlif qurumlar, xalqımız çəkmişdir. Türk dünyasının ləyaqətli oğlu Heydər Əliyevin gələcəkdə ən yaxşı səviyyədə yaşadacağımız adını burada ağac əkərək tarixə yazırıq.

Bu mərasimin ölkəmizə, Azərbaycan xalqına, məhəllə sakinlərinə xeyirli və uğurlu olmasını arzulayır, hamınızı hörmət və sevgi ilə salamlayıram.

ANKARA VALİSİ YƏHYA GURUN ÇIXIŞI

- Azərbaycan Respublikasının çox hörmətli Prezidenti cənab İlham Əliyev və hörmətli xanımı!

Hörmətli nazirlər!

Azərbaycandan gələn çox dəyərli qonaqlarımız!

Hörmətli mətbuat nümayəndələri!

Hörmətli qonaqlarımız başda olmaqla hamınızı ən xoş arzularımla salamlayır, "Xoş gəldiniz"" deyir və sizləri ölkəmizdə görməkdən məmnun olduğumuzu bildirmək istəyirəm.

Cümhuriyyətimizin yaradıcısı ulu öndər Atatürkün millətimizə ən gözəl əmanətlərindən biri, heç şübhə yoxdur ki, Atatürk Meşə Təsərrüfatıdır. Bu müqəddəs əmanəti ən yaxşı şəkildə qoruyub, daha da gözəlləşdirərək gələcək nəsillərə ötürməliyik. Bununla Atamızın əmanətinə sahib çıxmış olarıq. Bu amalla 2003-cü ildə Cümhuriyyətimizin

yaradılmasının 80-ci ildönümü ilə bağlı tədbirlər çərçivəsində burada ağac əkilməsi layihəsi həyata keçirilmişdir. Həmin sahədən 75 hektarlıq əraziyə can dostumuz, qardaş Azərbaycan dövlətinin ulu atası Heydər Əliyevin adının verilməsi onun əziz xatirəsini yaşatmaq baxımından məqsədəuyğun görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev ulu atası Heydər Əliyevin adını daşıyan bu parkda ağac əkərək, onun əziz xatirəsini əbədiyyətə qədər yaşadacaqdır. Bildirildiyi kimi, bu parkda 81 min ağacın əkilməsi planlaşdırılmışdır.

Biz türk ulusu olaraq rəhmətlik Heydər Əliyevi sonsuz bir sevgi və hörmətlə anırıq, onun əziz xatirəsini yad edirik. Onun adına yaradılan bu xatirə parkına töhfələrinizə görə sizlərə çox təşəkkür edirik. Buradakı ağacların yarpaqları əsən küləklərlə bərabər, Azərbaycan və türk ulusunun böyük övladı, dəyərli dövlət adamı Heydər Əliyevin "Azərbaycan" dastanını gələcək nəsillərə çatdıracaqdır.

Mən onun ruhunun şad, məkanının cənnət olmasını diləyərək, hamınızı ən dərin hörmət hisslərimlə bir daha salamlayıram.

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPENİN ÇIXIŞI

- Dost və qardaş ölkənin dəyərli Prezidenti İlham Əliyev və hörmətli xanımı!

Azərbaycandan gələn hörmətli qonaqlarımız!

Hörmətli nazirlər!

Hörmətli vali!

Bu gün burada - Ankaramızın ən gözəl, müstəsna guşələrindən birində Cümhuriyyətimizin qurucusu əziz Atatürkün Ankaraya və hamımıza böyük uzaqgörənliklə hədiyyə etdiyi ormanda Azərbaycanın böyük övladı, türk dünyasına göstərdiyi xidmətlərlə Türkiyədəki insanların qəlbində də müstəsna yeri olan mərhum Heydər Əliyevin adı verilmiş və müasir şəhər standartlarına uyğun şəhər parkında əkəcəyimiz ağaclarla iki qardaş ölkənin dostluğunu bir daha təsdiq edəcəyik. Burada əkiləcək ağaclarla birlikdə iki ulusun, iki dövlətin dostluğunun yüz illərlə sarsılmayacağını, qol budaq atacağını, ürəklərinin eyni sevda ilə döyündüyünü, aramızdakı sərhədlərin bizi ayırmadığını, XXI əsrin türk əsri olması üçün Azərbaycan və Türkiyə respublikaları rəhbərlərinin əllərindən gələni etməyə hazır olmalarını bir daha təsdiq edirik.

Əlbəttə, burada, paytaxtımızın ən böyük yaşayış rayonlarından biri olan yeni məhəllənin tam mərkəzində yaradılan Heydər Əliyev parkı artıq indidən, hələ ağacların əkilməsi mərhələsində olmasına baxmayaraq, insanların maraq mənbəyinə çevrilməyə başlamışdır. İnsanlar - uşaqlar, yaşlılar Heydər Əliyev parkının yaratdığı gözəlliyi hiss edir, buna görə təşəkkürlərini bildirirlər.

Allah Heydər Əliyevə rəhmət eləsin! O, yaşasaydı 81 yaşı olacaqdı. Ona görə də bu parka 81 min ağac əkiləcəkdir. Hər il üçün min ağac əkirik. Biz türk milləti olaraq, əlbəttə, ağaca, meşəyə, yaşıllığa, ətraf mühitə hörmətlə yanaşırıq. Burada, sadəcə, park salmaq niyyətində deyilik. Burada yaratdığımız parkda futbol, basketbol, volcybol meydançala-

rı ilə insanların idmana olan tələbatını ödəməklə yanaşı, biz Heydər Əliyevin ölməz insanlar karvanına qoşulması üçün öz imzamızı qoyuruq.

Bugünkü son dərəcə mənalı mərasimi şərəfləndirən dost və qardaş ölkəmiz Azərbaycanın hörmətli Prezidentinə və onun xanımına onları burada görməyimizə, bizimlə birlikdə olduqlarına görə təşəkkür edirəm və bu mərasimin iki xalq arasındakı dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə böyük töhfə verdiyini bir daha bildirirəm. Hamınıza hörmət və ehtiramımı çatdırıram.

KƏND TƏSƏRRÜFATI NAZİRİ SAMİ GÜCLÜNÜN ÇIXIŞI

- Hörmətli Prezident!

Hörmətli xanım!

Azərbaycandan gələn dəyərli qonaqlar!

Hamınızı hörmətlə salamlayıram. 2004-cü il aprelin 10-da Bakıda hörmətli Prezident İlham Əliyevin iştirakı ilə Atatürk Mərkəzinin açılışı olmuşdur. Atatürk Mərkəzi görkəmli bir binada, rəsmi şəxslərin iştirakı və azərbaycanlıların marağı, dəstəyi və sevinci ilə açıldı. Bu gün isə ulu öndər Atatürkün türk millətinə əmanət etdiyi bu ərazidə dost və qardaş Azərbaycan Respublikasının böyük lideri, mərhum Heydər Əliyevin xatirəsinə yeni park yaradırıq. Bu münasibətlə sizlərin qarşısında çıxış etməkdən böyük məmnunluq hissləri keçirirəm.

Böyük Atatürkün iqtisadi uğurlara verdiyi əhəmiyyəti hamımız xatırlayırıq. Bunun davamı kimi, 1925-ci il mayın 5-də bilavasitə onun özü tərəfindən Qazi Orman Təsərrüfat sahəsi yaradıldı. Bununla yorğun və yoxsul olan ölkəmizdə yeni bilik və texnologiyalardan istifadə edilərək, kənd təsərrüfatı sahəsində güclü istehsal dövrü başladı. Bu proses həmin işin istifadə üçün əlverişsiz sayılan ərazilərdə də görülə biləcəyini göstərmişdir. Eyni zamanda, bu sahədə əldə edilən qazancın sənaye üçün maliyyə və xammal məsələlərini təmin edə biləcəyini nümayiş etdirmişdir.

Bu gün burada Cümhuriyyətimizin 80 illiyi ilə əlaqədar Atatürk Meşə Təsərrüfatında başladığımız ağacəkmə işlərinin, şübhəsiz ki, ən mənalı hissəsini birlikdə həyata keçirməyə toplaşmışıq. Qardaş Azərbaycan dövlətinin müasir qurucusu, böyük dövlət adamı hörmətli Heydər Əliyevin adına yaradacağımız park onun əziz xatirəsinin türk millətinin qəlbində əbədiləşməsinə xidmət edəcəkdir. Rəhmətlik Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsinin nə qədər doğru və mənalı olduğunu böyük xilaskar Atatürkün tamamilə öz vəsaiti və iradəsi ilə yaratdığı və bizlərə əmanət etdiyi bu gözəl məkanda təsdiqləməyimizə kömək edəcəkdir. Bu xatirə parkı iki böyük liderin - Atatürkün və Heydər Əliyevin bizlərə əmanət etdiyi müştərək bir dəyər kimi qəbul olunacaq, qorunacaq və inkişaf etdiriləcəkdir.

Hamınızı bir daha hörmətlə salamlayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli nazirlər!

Hörmətli vali!

Əziz xanımlar və cənablar!

İlk növbədə, mən Türkiyə hökumətinə, ətraf mühitin mühafizəsi və meşə təsərrüfatı nazirinə, bütün türk qardaşlarımıza öz dərin minnətdarlığımı və təşəkkürümü bildirmək istəyirəm ki, bu parka Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını vermisiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan xalqları, ölkələrimiz daim birlikdə olublar, bir-birinə yardım, kömək ediblər. Biz bu dəstəyi, Türkiyədən gələn məhəbbəti həmişə, bütün zamanlarda hiss edirdik. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyədən gələn dəstək bizim rahat və təhlükəsiz şəraitdə yaşamağımıza böyük fayda veribdir.

Heydər Əliyev müasir Azərbaycanın qurucusudur. Müasir, müstəqil Azərbaycan onun əsəridir. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkəmizdə sabitlik bərpa olundu, hərc-mərcliyə, anarxiyaya son qoyuldu və ölkəmiz yavaş-yavaş inkişaf etməyə başladı.

1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanın tarixində çox çətin illər yaşanmışdır. O illər ərzində Azərbaycan böyük təhlükələrdən keçərək, öz dövlət müstəqilliyini möhkəmləndirmiş və beləliklə, ölkəmizin gələcək inkişafı üçün gözəl imkanlar əldə olunmuşdur. 1996-cı ildən başlayaraq, bu günə qədər ölkəmiz dinamik şəkildə inkişaf edir. Bizdə iqtisadi artım ildə 10 faiz həddindədir. Azərbaycanın dünyada mövqeləri möhkəmlənibdir, ölkəmiz dünya birliyində özünə layiq yerini tuta bilibdir. Ölkəmiz beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir. Azərbaycanın bütün sahələrinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Biz, ondan sonrakı rəhbərlər, bu gün Azərbaycana rəhbərlik edən şəxslər bütün zamanlarda onun siyasətinə sadiq olacağıq. Çünki bu siyasətin alternativi yoxdur. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və bu siyasətə səs verir.

Heydər Əliyevin Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında da müstəsna rolu olmuşdur. Onun siyasətinin ən əsas istiqamətlərindən biri də o idi ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə inkişaf etsin. Biz bunun şahidiyik ki, bütün sahələrdə - siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz çox güclü münasibətlər qurmuşlar və birlikdə mühüm işlərin öhdəsindən gəlirlər.

Heydər Əliyevin ifadəsi bu gün burada səsləndi: "Biz bir millət, iki dövlətik". Bu, bir daha onu göstərir ki, o, Türkiyəyə, türk dünyasına nə qədər bağlı idi. Biz bu siyasətə sadiqik, bu siyasəti davam etdirəcəyik. Mənim Türkiyəyə indiki rəsmi səfərim də məhz bu siyasətin məntiqi nəticəsidir.

Dünən və bu gün keçirdiyim bütün görüşlərdə, apardığım bütün danışıqlarda bir daha əmin oldum ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri davam edir, güclənir. Mən əminəm ki, bu səfərdən sonra bu münasibətlərə yeni təkan veriləcəkdir. Ölkələrimiz daha sıx işbirliyi, əməkdaşlıq edəcəklər. Bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, bizim gücümüz bizim birliyimizdədir. Biz daim

bir-birimizin yanında olmalıyıq və əminəm ki, olacağıq.

Heydər Əliyevi Türkiyəyə böyük tellər bağlayırdı. O, qəlbən Türkiyəyə, türk xalqına yaxın idi. Bizə də vəsiyyət etmişdir ki, bu siyasəti davam etdirək. Biz də bunu edirik. Əminəm ki, bundan sonra, - bütün zamanlarda, 50-100-200 ildən sonra, bütün əsrlərdə Türkiyə və Azərbaycan, iki qardaş ölkə daim bir-birinin yanında olacaqdır.

Bu parka Heydər Əliyevin adının verilməsi çox rəmzi xarakter daşıyır. Deməliyəm ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev meşələrə, yaşıllığa daim böyük diqqət göstərmişdir. Onun təşəbbüsü ilə Azərbaycanın, bütün bölgələrində meşələr, parklar salınmışdır. Həmin parklar bu gün də Azərbaycanımızı gözəlləşdirir və onun adını daşıyır. O, bir dəfə çıxışları zamanı demişdir ki, ağacları kəsməyin, ağacları əkin, bilin ki, ağacları kəsəndə, elə bil, mənim qolumu kəsirsiniz. Bu gün bu parkı görəndə mən düşünürəm ki, bir neçə il sonra bu fidanlar böyüyəcək, qollu-budaqlı olacaq, şəhərinizi gözəlləşdirəcəkdir. Beləliklə, Heydər Əliyevin xatirəsi burada da yaşayacaqdır.

Əziz qardaşlar, Azərbaycanın Prezidenti kimi, Heydər Əliyevin varisi kimi, davamçısı kimi mən sizə ürəkdən minnətdaram. Siz Heydər Əliyevin xatirəsinə böyük hörmət göstərirsiniz. Azərbaycanımıza böyük məhəbbət göstərirsiniz. Mənə, Azərbaycanın Prezidentinə, mənimlə Türkiyəyə rəsmi səfərə gəlmiş bütün nümayəndə heyətinin üzvlərinə böyük qonaqpərvərlik göstərirsiniz.

Mən sizin hamınızı bir daha salamlayır, Azərbaycan xalqının ən xoş arzularını çatdırıram. Əmin olduğumu bildirirəm ki, qardaş xalqlarımız, ölkələrimiz bundan sonra da əl-ələ verib irəliyə doğru uğurla gedəcəklər. Təşəkkür edirəm.

PREZİDENT İLHAM ƏLİYEVƏ BİLKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU VƏ İHSAN DOĞRAMACI ADINA DÜNYA SÜLH MÜKAFATI TƏQDİM EDİLMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Türkiyənin məşhur Bilkənd Universitetinə gəldi.

Dövlətimizin başçısını universitetin qurucusu, xalqımızın böyük dostu professor İhsan Doğramacı, təhsil ocağının müəllimləri hörmət və ehtiramla qarşıladılar.

Ankarada, o cümlədən Bilkənd Universitetində təhsil alan azərbaycanlı tələbələr Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə salamladılar, gül-çiçək təqdim etdilər. Azərbaycan Təhsil Nazirliyinin təmsilçisi Nəsibə Nəsibovanın qısa məlumatından sonra Prezident İlham Əliyev tələbələrin vəziyyəti, təhsildəki uğurları ilə maraqlandı. Tələbələrimiz burada onlara yaradılmış şəraitdən razılıqlarını söylədilər.

Universitetdə Azərbaycan Prezidenti İlham Əliyevin professor İhsan Doğramacı ilə görüşü oldu. Cənab İhsan Doğramacı respublikamızın rəhbərini universitetdə salamlamaqdan böyük şərəf duyduğunu vurğuladı, Türkiyənin bu məşhur təhsil ocağı haqqında məlumat verdi.

Sonra Prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomunun və İhsan Doğramacı adına dünya sülh mükafatının təqdim edilməsi münasibətilə universitet Senatının təntənəli iclası keçirildi.

Universitetin böyük konsert salonuna toplaşanlar Azərbaycan Prezidentini və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi.

Universitetin prorektoru, Senatın rəhbəri Abdullah Atalar respublikamızın Prezidenti İlham Əliyevin tərcümeyi-halı barədə məlumat verdi, dövlətimizin başçısının bu ali təhsil ocağının fəxri doktoru adına layiq görülməsi haqqında qərarı oxudu.

Bilkənd Universitetinin rektoru professor Əli Doğramacı Azərbaycan Prezidenti İlham Əliyevi və Professor İhsan Doğramacını səhnəyə dəvət etdi. O, fəxri doktor diplomunu və mantiyanı, cənab İhsan Doğramacı isə öz adını daşıyan dünya sülh mükafatının medalını Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev təntənəli iclasda nitq söylədi, xatirə olaraq, universitetə azərbaycanlı rəssamın tablosunu bağışladı.

Mərasimdən sonra Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri professor İhsan Doğramacının adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz və hörmətli İhsan Doğramacı!

- Əziz və hörmətli rektor Əli Doğramacı!

- Əziz dostlar, bacılar və qardaşlar!

Bu gün mənim həyatımda çox əlamətdar və tarixi bir gündür. Bilkənd Universiteti mənə fəxri doktor adını vermişdir və eyni zamanda, hörmətli İhsan Doğramacının adını daşıyan Dünya sülh mükafatının medalı mənə təqdim edilmişdir. Mən bu münasibətlə Sizə öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən bu yüksək adı şərəflə daşıyacağam, öz gələcək fəaliyyətimdə çalışacağam ki, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin, daha da güclənsin.

Türkiyə daim Azərbaycanın yanında olmuşdur. Azərbaycanı və Türkiyəni böyük əlaqələr, tarixi köklər bağlayır. Xalqlarımız bütün zamanlarda bir olmuşlar. Düzdür, Azərbaycan uzun illər ərzində Sovet İttifaqının tərkib hissəsində olduğuna görə, Türkiyədən ayrı düşmüşdür. Amma buna baxmayaraq, insanların qəlbindəki duyğular, yaşanan o həsrət bizi rahat buraxmırdı. Biz daim çalışırdıq, istəyirdik ki, Türkiyə ilə bir yerdə olaq, türk xalqı ilə bir yerdə olaq. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra biz buna nail ola bildik. Azərbaycan müstəqil dövlət kimi yaşamağa başladı və dərhal Türkiyədə Azərbaycanı tanıdılar və Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf etməyə başladı.

Bu tarixi dövr ölkəmiz üçün, Azərbaycanda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün çox önəmli olmuşdur. Bu dövr ərzində Azərbaycanın gənc dövləti böyük sınaqlardan keçmişdir. Böyük problemlər, əziyyətlər ortaya çıxmışdır. Bütün bu problemlərin

həllində biz daim qardaş ölkənin – Türkiyənin dəstəyini hiss etmişik və bunu bu gün də hiss edirik.

Mən bu günlərdə Türkiyədə rəsmi səfərdəyəm. Türkiyədə dəfələrlə olmuşam, çoxlu səfərlərim olubdur, amma ilk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti kimi səfərə gəlmişəm. Deyə bilərəm ki, dünən və bu gün keçirdiyim bütün görüşlərdə, danışıqlarda bir daha əmin oldum ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf edir, güclənir. İnanıram ki, bu səfərdən sonra münasibətlərimiz yeni pilləyə qalxacaqdır.

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində daim Azərbaycana siyasi dəstək vermişdir. Biz bunu bu gün də hiss edirik və əminik ki, yaxın zamanlarda münaqişə sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, işğal olunmuş torpaqlar azad ediləcək və bir milyondan çox qaçqın, köçkün öz doğma torpaqlarına qayıdacaqdır. Bu, zamanın tələbidir. XXI əsrdə ölkələr sülh içində yaşamalıdır. XXI əsrdə beynəlxalq ictimaiyyət Avropada bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsi ilə barışmamalıdır.

Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri çox yüksək olmuşdur. O, 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycanın Prezidenti idi. Ondan əvvəl Naxçıvan Muxtar Respublikasının rəhbəri idi. Bütün bu dövrlərdə onun siyasətinin əsas istiqamətlərindən biri Türkiyə-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi olmuşdur.

Biz yaxşı xatırlayırıq, Heydər Əliyev Naxçıvanın rəhbəri olan dövrdə Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsü salınmış və açılmışdır. O körpü Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. Məhz Heydər Əliyevin və Türkiyə rəhbərlərinin fəaliyyəti nəticəsində o körpü qısa müddət ərzində tikilmişdir və indi insanlar o körpüdən rahat istifadə edirlər.

Bütün başqa dövrlərdə Prezident Heydər Əliyevin siyasətində Azərbaycan-Türkiyə münasibətlərinin xüsusi yeri olmuşdur. Onun məşhur "Biz bir millət, iki dövlətik" kəlamı bu gün də aktualdır, sabah da aktual olacaq, bütün dövrlərdə yaşayacaqdır. Keçmişdə olduğu kimi, bundan sonra da - bütün dövrlərdə bizim xalqlarımız daim birlikdə olacaqlar. Bir-birinə dayaq, arxa olacaqlar.

Bu gün Bilkənd Universitetində olmaq mənim üçün böyük şərəfdir, xoşbəxtlikdir. Mənim bu universitetə böyük hörmətim var. Bu, böyük bir elm, təhsil ocağıdır. Bilirsiniz ki, universitetin qurucusu, Azərbaycan xalqının yaxın dostu hörmətli İhsan Doğramacı Heydər Əliyevin çox yaxın, səmimi dostu olmuşdur. İhsan bəyin Türkiyə qarşısında, bütün böyük türk dünyası qarşısında misilsiz xidmətləri vardır. O, bütün türk dünyasını birləşdirən bir insandır. Türk dünyasını bilən, türk dünyasında böyük nüfuza malik olan bir insandır. İhsan bəyi Azərbaycanda da çox sevirlər, ürəkdən sevirlər, ona böyük hörmət edirlər. O cümlədən bizim ailə üçün İhsan bəy çox doğma, yaxın adamdır.

Prezident Heydər Əliyevin çox dostu yox idi. O, dostluqda da çox diqqətli idi. Amma İhsan bəylə onu ən səmimi tellər, duyğular bağlayırdı. *1999-cu ilin may ayını xatırlayıram.* O vaxt Heydər Əliyevin çətin dövrü idi. Onun ürəyində əməliyyat aparılmışdı və Amerikanın Klivlend şəhərində reabilitasiya kursu keçirdi. Bu müddət onun ad gününə

təsadüf etdi. Beləliklə, biz onun doğum gününü orada, demək olar ki, xəstəxana şəraitində qeyd edəsi olduq. Bizim üçün çox böyük sürpriz olmuşdu ki, Heydər Əliyevin yaxın dostu, qardaşı İhsan Doğramacı bu münasibətlə xüsusi olaraq Türkiyədən Klivlend şəhərinə gəlmişdi. On min kilometrdən çox məsafəni qət etmişdi ki, öz dostunun yanında olsun. Bəlkə başqa bir vaxtda bunu etməzdi. Amma onun dostu çətin günlər yaşayırdı, çətin əməliyyatdan çıxmışdı.

Əlbəttə, mən xatırlayıram, bundan sonra Heydər Əliyevin əhval-ruhiyyəsi yaxşılaşdı və deyə bilərəm ki, İhsan bəyin gəlişi onun sağalma prosesində də çox böyük rol oynadı. İhsan bəy öz yüksək insani keyfiyyətlərini bir daha ifadə etdi. Əsl dostluğu ifadə etdi. Əlbəttə, bu xatirələr bizim üçün çox əzizdir, unudulmazdır. Bütün dövrlərdə onların – Heydər bəyin və İhsan bəyin dostluğu bizim üçün, ailə üzvləri üçün nümunə olmuşdur, örnək olmuşdur. Biz həyatı onlara baxıb öyrənirik.

Düzdür, insan ixtisası elm ocağında, universitetdə, məktəbdə alır. Sonra digər ixtisaslaşmış qurumlarda alır. Amma o da sirr deyil ki, ailə tərbiyəsi çox önəmli bir amildir. Biz bu tərbiyəni də görə-görə əldə edirik. Əlbəttə, bu dostluq, bu mehribanlıq, bu səmimiyyət bizim hamımızın - mənim, ailəmin, uşaqlarımın qəlbində həmişə yaşayacaqdır. Ona görə bugünkü gün, mənim üçün, bəlkə də, ikiqat, beşqat, onqat əzizdir. Çünki bu mükafatı, bu fəxri adı mən İhsan bəyin əlindən alıram.

Mən bu gün onun surətini əks etdirən medal ilə təltif olunuram.

Mən Azərbaycanda prezident seçkiləri ərəfəsində və ondan sonrakı dövrlərdə etdiyim çıxışlarımda, bəyanatlarımda birmənalı şəkildə bildirmişdim ki, Heydər Əliyevin siyasətini davam etdirmək əzmindəyəm. Mən bu siyasətə sadiqəm. Bu siyasət Azərbaycana böyük uğurlar gətirmişdir. Azərbaycanı böhrandan, xaosdan, anarxiyadan inkişafa, tərəqqiyə, uğurlara gətirmişdir. Azərbaycanın xoşbəxt gələcəyi bu siyasətlə bağlıdır. Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Məhz bunun nəticəsində Azərbaycan xalqı bu siyasətə səs verir. Azərbaycan xalqı rahat yaşamaq istəyir, sülh, əmin-amanlıq, asayiş şəraitində yaşamaq istəyir.

Azərbaycanda böyük quruculuq işləri görülür. Heydər Əliyevin təməlini qoyduğu iqtisadi islahatlar, neft siyasəti, sosial məsələlər öz həllini tapır. Ölkəmizi müasirləşdirmək, yeniləşdirmək, gücləndirmək, iqtisadiyyatımızı, ordumuzu gücləndirmək - bu gün bizim planlarımız məhz bundan ibarətdir. Azərbaycan xalqı üçün gözəl şərait yaratmaq və Azərbaycanı dünya birliyinə daha da sürətlə, hərtərəfli inteqrasiya etmək bizim əsas, prioritet məsələlərimizdir. Əminəm ki, biz buna nail olacağıq. Azərbaycan xalqının iradəsi, qardaş Türkiyə Cümhuriyyətinin dəstəyi bütün bu məqsədlərə çatmaq üçün bizə kömək edəcəkdir.

Əziz dostlar!

Əziz və hörmətli İhsan bəy!

Hörmətli xanımlar və cənablar!

Mənə göstərdiyiniz bu hörmətə, diqqətə görə sizin hamınıza bir daha minnətdarlığımı bildirirəm. Sizə bir daha bəyan edirəm ki, mən bu fəxri doktor adını şərəflə daşıyacağam. Sağ olun, təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ TİCARƏT PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Aprelin 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış Camlı köşk iqamətgahında Türkiyə Ticarət Palatasının sədri Rüfət Hısarçıqlıoğlunu qəbul etmişdir.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlığın vəziyyətindən, perspektivlərindən danışıldı, ticarət əlaqələrinin genişləndirilməsi imkanları müzakirə olundu, ticarət-iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi üçün mövcud potensialdan səmərəli istifadənin zəruriliyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış Camlı köşk iqamətgahında Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

Dostluq və səmimilik şəraitində keçən görüşdə Baş nazir yenicə qayıtdığı Yaponiya səfəri barədə məlumat verdi. Cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı kimi Türkiyəyə ilk səfərinin ölkədə böyük maraqla qarşılandığını vurğuladı, aparılmış danışıqları və imzalanmış sənədləri yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev səfər günlərində ona və respublikamızın nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və diqqətə görə minnətdarlıq etdi.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin indiki vəziyyəti və perspektivləri, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi, habelə hər iki ölkəni maraqlandıran bir sıra regional və beynəlxalq məsələlər barədə, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı.

TÜRKİYƏNİN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ankarada onun üçün ayrılmış iqamətgahda - Camlı köşkdə Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və məsul əməkdaşları ilə görüşmüşdür. Nahar süfrəsi ətrafında keçən görüşdə TRT kanalının baş direktoru Şenol Dəmiröz, Anadolu Agentliyinin baş direktoru Hilmi Bengi, "Sabah" qəzetinin baş redaktoru Muharrem Sarıqaya, "Turkish daily news" qəzetinin siyasi şərhçisi İlnur Çevik, "Axşam" qəzetinin siyasi şərhçisi Səmih İdiz, "Tərcüman" qəzetinin baş redaktoru Aydın Candabakoğlu, "Türkiyə" qəzetinin baş redaktoru Nuri Elibol, "Zaman" qəzetinin baş redaktoru Əkrəm Dumanlı, "Yeni Çağ" qəzetinin siyasi şərhçisi İrfan Ülkü və müstəqil siyasi şərhçi Yavuz Gökalp iştirak edirdilər. Görüşdə Azərbaycan-Türkiyə münasibətlərindən söhbət getdi, xalqlarımız arasında tarixi dostluq və qardaşlıq ənənələrinə əsaslanan əlaqələrin bundan sonra da bütün sahələrdə genişlənməsi və möhkəmlənməsinin həm ölkələrimizin əməkdaşlığı üçün, həm də türk dünyasının birliyi baxımından faydalı olacağı vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi Türkiyəyə ilk rəsmi səfərinə bu ölkənin kütləvi informasiya vasitələrinin böyük əhəmiyyət verməsindən məmnunluğunu bildirdi və buna görə görüş iştirakçılarına təşəkkür etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ankaraya rəsmi səfərini başa çatdıraraq, aprelin 15-də Vətənə yola düşdü.

PREZİDENT İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TƏHSİL NAZİRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin təhsil nazirlərinin Bakı görüşündə iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı QİƏT ölkələri təhsil nazirlərinin Bakı görüşünün uğurla keçməsindən məmnunluğunu bildirdi, təhsilin inkişafına dair müxtəlif məsələlərin müzakirə olunmasını müsbət addım kimi səciyyələndirdi. Azərbaycanın bu təşkilatın fəal üzvü olduğunu vurğulayan Prezident İlham Əliyev QİƏT-in baş katibi Valeri Çeçelaşvili ilə keçirdiyi görüşü xatırlatdı və bu görüş zamanı müxtəlif sahələr üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldığını bildirdi. Ən vacib sahələrdən biri olan təhsilin inkişafına dair Bakıda aparılmış müzakirələri yüksək qiymətləndirən dövlətimizin başçısı dedi: "Bir daha qeyd etmək istəyirəm ki, bu görüş çox əlamətdar bir hadisədir. Ümidvaram ki, belə görüşlər bundan sonra digər ölkələrdə də davam edəcək və Azərbaycan onların fəal iştirakçısı olacaqdır".

Təşkilatın baş katibi Valeri Çeçelaşvili Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu söyləyərək, nümayəndə heyəti adından ona minnətdarlığını bildirdi. QİƏT çərçivəsində çoxşaxəli əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdıran qonaq təhsilin problemləri ətrafında aparılmış müzakirələr barədə geniş məlumat verdi. Görüşün yekununa dair imzalanmış Bakı Bəyannaməsinin əhəmiyyətini xüsusi vurğulayan baş katib bu mühüm sənədin ölkələrin təhsil sahəsində əməkdaşlığının daha da güclənməsinə təkan verəcəyini söylədi.

Gürcüstanın təhsil və elm naziri Aleksandr Lomaya ölkəsinin dövlət başçısı Mixail Saakaşvilinin salamlarını Prezident İlham Əliyevə çatdıraraq dedi: "Gürcüstan Prezidentinin Azərbaycana səfəri çox uğurlu olmuşdur və qardaş ölkələr arasında yaxın əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdiyini nümayiş etdirmişdir. Bu sahədə Sizin göstərdiyiniz səylər dostluğumuzun və qardaşlıq əlaqələrimizin daha da möhkəmlənməsinə təkan vermişdir. Mən bu görüşə və tədbirin yüksək səviyyədə keçməsinə şərait yaratdığınıza görə Sizə və hökumətinizə təşəkkürümü bildirirəm". Qonaq bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu vurğuladı.

Türkiyə milli təhsil nazirinin birinci müavini Necat Birinci Bakıda keçirilmiş görüşün nəticələrindən məmnunluğunu ifadə edərək bildirdi ki, Türkiyə və Azərbaycan təhsil nazirliklərinin daimi komissiyasının qarşıdakı görüşündə də əməkdaşlığın gələcək perspektivləri müzakirə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovu və Rusiya Olimpiya Komitəsinin baş katibi Leonid Miroşniçenkonu qəbul etmişdir.

Azərbaycan və Rusiya olimpiya komitələri arasında möhkəm əlaqələrin olduğunu vurğulayan Prezident İlham Əliyev beynəlxalq konfranslarda, habelə Bakıda keçirdikləri görüşləri, xüsusilə Azərbaycan MOK-un on illiyi ilə bağlı tədbirləri məmnunluqla xatırladığını söylədi.

Dövlətimizin başçısı vaxtilə, Vitali Smirnovun Rusiya Olimpiya Komitəsinə başçılıq etdiyi dövrlərdə əlaqələrin yüksək səviyyədə olduğunu və indi də davam etdiyini vurğuladı, qonağın son illər inşa edilmiş idman obyektləri ilə tanışlığı zamanı əldə etdiyi təəssüratlarla maraqlandı.

Ölkəmizə yenidən, 40-cı dəfə səfər etməsindən məmnunluğunu bildirən Vitali Smirnov Prezident İlham Əliyevi dövlət başçısı seçilməsi və Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – "Olimpiya ordeni" ilə təltif olunması münasibətilə təbrik etdi.

O dedi: "Mən bu ordenlə təltif olunmağınızla bağlı iclasda iştirak etmişəm. Bu iclasda Beynəlxalq Olimpiya Komitəsinin prezidenti və dörd vitse-prezidenti iştirak edirdi. Onlar bu qərarı yekdilliklə qəbul edərək Sizin ölkənizdə idmanın inkişafı və yüksəlişinə verdiyiniz şəxsi töhfələri xüsusi qeyd etdilər. Böyük məmnunluqla vurğulandı ki, Siz ölkə Prezidenti olduqdan sonra da Olimpiya Komitəsinin prezidenti vəzifəsində də qalmısınız. Bu, dövlətin başçısı kimi Sizin bədən tərbiyəsi, idman və olimpiya hərəkatının inkişafına, sağlam və möhkəm gənclərin tərbiyəsinə necə böyük bir diqqət yetirdiyinizi bir daha göstərir. Mən Beynəlxalq Olimpiya Komitəsinin bu qərarı ilə və onu yerinə yetirməyimlə fəxr edirəm. Biz, habelə Sizinlə dostluğumuz və ölkənizin idman təşkilatları ilə əlaqələrimizlə də fəxr edirik".

Qonaq Beynəlxalq Olimpiya Komitəsinin gələcəkdə də Prezident İlham Əliyevin dəstəyindən yararlanacağına əmin olduğunu söyləyərək dedi: "Olimpiya hərəkatı çox incə bir hərəkatdır və Sizin kimi təcrübəli rəhbərlərin onu dəstəkləməsinin böyük əhəmiyyəti var".

Yüksək mükafata görə Beynəlxalq Olimpiya Komitəsinin rəhbərliyinə təşəkkürünü bildirən Prezident İlham Əliyev olimpiya hərəkatındakı fəaliyyətini həyatının ən əziz bir hissəsi olduğunu söylədi.

Dövlətimizin başçısı dedi: "Mən Prezident seçildikdən sonra Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində qaldım və bu vəzifəni gələcəkdə də saxlayacağam. Siz idmanın hər bir ölkənin həyatında mühüm rolunu qeyd etdiniz. Mən bununla razıyam. Bir daha mənim fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə təşəkkürümü bildirirəm".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Almaniya Federativ Respublikasının xarici işlər naziri Yoşka Fişeri qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı iki ölkə arasında münasibətlərin sürətlə inkişaf etdiyini, Yoşka Fişerin bu səfərinin ikitərəfli əlaqələrə təkan verəcəyini söylədi. Prezident İlham Əliyev Azərbaycanla Almaniyanın müxtəlif sahələrdə uğurlu əməkdaşlıq etdiyini, iqtisadi sahədə də əməkdaşlığın çox ümidverici olduğunu vurğulayaraq dedi: "Azərbaycan iqtisadi cəhətdən inkişaf edən ölkədir, ümumi daxili məhsulun həcmi ildən-ilə artır, adambaşına düşən xarici sərmayələrə görə ölkəmiz MDB məkanında ilk yerlərdədir. Azərbaycanda çox gözəl sərmayə mühiti vardır, eyni zamanda, özəlləşdirmə proqramı çox uğurla həyata keçirilir. Bir sözlə, bu sahədə uğurlu əməkdaşlıq üçün bütün əsaslar mövcuddur. Bütün bunlarla yanaşı, ölkəmizdə siyasi islahatlar da aparılır, demokratikləşmə prosesi uğurla gedir. Üç ildən artıqdır ki, Azərbaycan Avropa Şurasının üzvüdür və bu təşkilatda çox böyük fəallıq göstərir. Avropa Birliyi ilə əməkdaşlığımız da sürətlə inkişaf edir. Çox sevindirici haldır ki, Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etmişdir. Bu, regionumuza marağın artdığını göstərir. Bu isə çox önəmlidir. Çünki regionda mövcud olan problemlər, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizi çox narahat edir. Ermənistan torpaqlarımızın 20 faizini işğal etmişdir. Bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Bu münaqişə region üçün çox böyük təhlükə mənbəyidir. Biz ümid edirik ki, münaqişənin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupu öz səylərini daha da gücləndirəcək və bu problem beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır".

Almaniyanın xarici işlər naziri Yoşka Fişer ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olması barədə fikri ilə razılaşaraq söylədi ki, biz bu münasibətləri gələcəkdə də inkişaf etdirməliyik. İkitərəfli əlaqələrin perspektivlərinə toxunan qonaq dedi: "Bir çox alman müəssisələrinin Azərbaycanla əlaqələrinin tarixi çox qədimdir. Biz öz tərəfimizdən bu münasibətləri daha da inkişaf etdirməyə, həm müəssisələr arasında əlaqələri, həm də sərmayə qoyuluşu sahəsində əməkdaşlığı daha da möhkəmləndirməyə hazırıq. Təbii ki, bunun üçün lazım olan şərait daha da yaxşılaşdırılmalıdır.

Siz qeyd etdiniz ki, Azərbaycan üç ildən artıqdır Avropa Şurasının üzvüdür. Bildiyiniz kimi, ölkənizin bu təşkilata üzv qəbul olunmasında biz də öz səylərimizi göstərmişik. Biz çox şadıq ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Avropa Şurası müəyyən standartlar irəli sürmüşdür. Bu standartlar insan hüquqları, demokratiya, ədalətli məhkəmə və s. sahələri əhatə edir. Ümidvarıq ki, bu sahələrdə səyləriniz daha da artacaqdır. Əminik ki, Azərbaycan iqtisadi cəhətdən daha da inkişaf edəcək və bu, bizim üçün də çox vacibdir. Azərbaycan Cənubi Qafqazda iqtisadi cəhətdən ən mühüm ölkədir və bu region Avropa Birliyi ilə qonşuluqda yerləşir. Sizin ölkənizin iqtisadi inkişafı regionlararası əlaqələrimizin, yəni Avropa Birliyi ilə Cənubi Qafqaz arasında əlaqələrin daha da yaxşılaşmasına öz təsirini göstərəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Yoşka Fişer dedi: "Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, biz münaqişə tərəflərinin həlledici addımlar

atacağına və problemin həllində müəyyən uğurlar əldə edilməsi üçün əllərindən gələni edəcəklərinə ümid bəsləyirik. Bu problemin necə ağır nəticələr verdiyini və onun nə dərəcədə mürəkkəb olduğunu bilirik. Biz Minsk qrupundakı beynəlxalq tərəfdaşlarımızla birlikdə imkanlarımız daxilində münaqişənin həlli üçün əlimizdən gələni etməyə hazırıq və gələcəkdə də hazır olacağıq".

Almaniyanın xarici işlər naziri Azərbaycana ikinci dəfə səfər etməsindən məmnun olduğunu bildirdi və öz azərbaycanlı həmkarı ilə çox səmərəli görüş keçirdiyini söylədi.

Sonda Yoşka Fişer səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Prezident sarayında ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Stiven Mənni qəbul etmişdir.

Yeni təyinat münasibətilə diplomatı təbrik edən və bu fəaliyyətində uğurlar diləyən Prezident İlham Əliyev dedi ki, sizi Azərbaycanda yaxşı tanıyırlar. Ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələrdə bilavasitə iştirak etmisiniz. Bu istiqamətdə sizin fəaliyyətiniz çox müsbət və uğurlu olmuşdur. Mən şəxsən bütün bunları yaxşı bilirəm, çünki biz birgə işləmişik. Bütün region üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan layihəsi uğurla həyata keçirilir. Ümidvaram ki, yeni vəzifədə fəaliyyətiniz də uğurlu olacaqdır.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin region üçün böyük təhlükə mənbəyi olduğunu vurğulayaraq bildirdi ki, Azərbaycan bu məsələnin beynəlxalq hüquq normaları əsasında tezliklə öz həllini tapmasını istəyir. Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu uzun illərdir ki, işğal altındadır. Bizim haqlı tələbimiz ondan ibarətdir ki, bu işğala son qoyulsun, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Ümid edirəm ki, Minsk qrupu öz fəaliyyətini davam etdirəcək və bu fəaliyyətin nəticəsində bu problem öz həllini tapacaqdır.

Cənab Stiven Mənn növbəti dəfə Bakıya səfər etməsindən və Prezident İlham Əliyevlə görüşündən məmnunluğunu bildirərək, Azərbaycan paytaxtında Şərq-Qərb enerji dəhlizinin əsasının qoyulması mərasimində iştirakını xatırlatdı və digər enerji layihələrinin də məhz buradan başlandığını vurğuladı.

Daha sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Stiven Mənn dedi: "Sizə məlumdur ki, ABŞ hökuməti mənim qarşımda yeni vəzifələr qoymuşdur və mən onların həlli ilə məşğul olmaq əzmindəyəm. Bu, yeni vəzifəmdə regiona ilk səfərimdir. Bakıya gəlməzdən əvvəl Yerevanda görüşlərim olmuşdur. Cənab Prezident, bu vəzifəyə təyin olunmağım mənim üçün böyük şərəfdir. Mənim hökumətimin məqsədi ondan ibarətdir ki, münaqişə tərəfləri ilə iş aparılsın və problemin ədalətli həllinə nail olunsun. Biz tərəflərin əldə etdiyi razılığa dəstək verəcəyik".

Sonda Stiven Mənn səmimi qəbula görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.

MACARISTAN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR

Aprelin 22-də xarici işlər naziri Elmar Məmmədyarov Macarıstanın xarici işlər nazirliyi dövlət katibinin müavini Yeno Boros ilə görüşmüşdür.

Görüşdə nazir Elmar Məmmədyarov iki ölkə arasında hüquqi bazanın genişləndirilməsinin vacibliyini önə çəkərək, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafına təkan verdiyini qeyd etmişdir.

Macarıstanlı qonaq ölkəsinin Azərbaycanla əlaqələrinin genişlənməsinə böyük əhəmiyyət verdiyini qeyd edərək, dövlətlərimiz arasında iqtisadi, enerji, qeyri-neft sektoru, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin gələcək inkişafının vacibliyini bildirmişdir.

Daha sonra ölkəmizin xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov müstəqillik əldə etdikdən sonra respublikamızda aparılan islahatlar, Azərbaycanın Avropa institutlarına inteqrasiyası, beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklər və onların uğurla həyata keçirilməsi barədə qonağa ətraflı məlumat vermişdir. İkitərəfli münasibətlərin perspektivlərinə toxunan nazir iqtisadi əlaqələrin genişləndirilməsi məsələsinin Azərbaycan üçün önəmli olduğunu qeyd etmişdir. Sonra nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin vəziyyəti və münaqişənin nizamlanması istiqamətində aparılan işlər barədə qonağa ətraflı məlumat vermişdir. Erməni zabitinin qətlində şübhəli şəxs qismində saxlanılan Azərbaycan Ordusunun zabiti Ramil Səfərovun istintaqının gedişi ilə maraqlanan nazir, prosesin qərəzsiz aparılacağına əmin olduğunu bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Brayan Follu qəbul etmişdir.

Prezident İlham Əliyev Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin fəaliyyətini yüksək qiymətləndirdi və onun regiona səfərinin ölkələr arasında əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli olacağını bildirdi.

Böyük Britaniya ilə Azərbaycan arasında siyasi, iqtisadi sahədə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini xatırladan Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən irimiqyaslı enerji layihələrində Britaniya şirkətlərinin və sərmayəçilərinin fəal iştirakını vurğuladı. O, xüsusilə bp şirkətinin təkcə region üçün deyil, bütün dünya üçün böyük əhəmiyyətli olan neft və qaz layihələrinin həyata keçirilməsindəki fəaliyyətindən məmnunluğunu ifadə etdi.

Regionda mövcud olan problemlərə toxunan, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapmadığını, Ermənistanın təcavüzkar siyasəti nəticə-

sində ərazimizin 20 faizinin işğal olunduğunu və 1 milyondan çox insanın qaçqın və köçkün vəziyyətinə düşdüyünü xatırladan Prezident İlham Əliyev beynəlxalq təşkilatların bu problemin həlli yolunda səylərini artıracağına ümidvar olduğunu söylədi. O, Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin də münaqişənin nizama salınması prosesində fəal iştirakının zəruriliyini bildirdi.

Böyük Britaniya şirkətlərinin Azərbaycanın iqtisadiyyatına xeyli sərmayə qoyduqlarını və təkcə neft və qaz sektorunun deyil, digər sahələrin də inkişafında fəal iştirakını xüsusi vurğulayan Brayan Foll dedi ki, ölkəmizə ikinci səfəri zamanı böyük tərəqqinin və müsbət dəyişikliklərin şahidi olmuşdur.

Qonaq bildirdi ki, təkcə Britaniya şirkətləri üçün deyil, dünyanın bir sıra nüfuzlu sərmayəçiləri üçün də əlverişli şəraitin yaradıldığı Azərbaycanın firavan və işıqlı gələcəyi vardır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Brayan Foll problemin uzun müddət həll olunmamasından narahatlığını bildirərək dedi: "Sizin sözlərinizə dəstək olaraq demək istəyirəm ki, bu münaqişədən ən çox əziyyət çəkən qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanlardır. Biz hesab edirik ki, Prezident İlham Əliyevin istər münaqişənin dinc yolla həlli, istərsə də qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması sahəsində fəaliyyəti təqdirəlayiqdir".

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa iqtisadi sammitində iştirak etmək üçün aprelin 27-də Polşa Respublikasının paytaxtı Varşavaya gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ GÖRÜŞÜ

Aprelin 27-də Polşa dövləti başçısının sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Polşa Prezidenti Aleksandr Kvasnevski arasında görüş oldu.

Polşa rəhbəri dövlətimizin başçısını böyük hörmətlə qarşıladı. Prezident İlham Əliyevi səfərdə müşayiət edən Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Aleksandr Kvasnevskiyə təqdim olundu.

Sonra dövlət başçılarının görüşü başlandı. Prezident İlham Əliyevlə görüşdən məmnun qaldığını söyləyən cənab Aleksandr Kvasnevski aprelin 28-də işə başlayacaq Avropa iqtisadi sammitində respublikamızın rəhbərinin iştirakını Azərbaycanın Avropa Birliyinə inteqrasiyası baxımından mühüm hadisə kimi qiymətləndirdi. Polşa rəhbəri ölkəsinin bu quruma üzvlük məsələsinin bu ilin mayında müzakirə olunacağını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanda gedən demokratikləşmə prosesindən, ölkəmizin Avropa strukturlarına inteqrasiyasından, respublikamızda həyata keçirilən və təkcə region üçün deyil, həm də ümumən Avropadan ötrü böyük əhəmiyyəti olan irimiqyaslı la-

yihələrdən ətraflı söhbət açdı. Dövlətimizin başçısı vurğuladı ki, bu layihələr başa çatdırıldıqdan sonra Azərbaycandan neftin və təbii qazın Avropa ölkələrinə çatdırılması üçün geniş imkanlar yaranacaqdır.

Söhbət zamanı Azərbaycan-Polşa iqtisadi əməkdaşlığının perspektivləri, genişlənən Avropada hər iki ölkənin yeri və bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEV AVROPA İQTİSADİ SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR

Aprelin 28-də Polşanın paytaxtı Varşavanın "Sofitel Viktoria" mehmanxanasında Dünya (Davos) iqtisadi forumunun təşkil etdiyi Avropa iqtisadi sammitinin açılışı olmuşdur. "Avropa: genişlənmə və gələcək perspektivlər" adı altında keçirilən sammitdə dünyanın 45 ölkəsindən 700-dək nümayəndə, o cümlədən 31 ölkənin prezidentləri, baş nazirləri və xarici işlər nazirləri, görkəmli siyasətçilər, ictimai xadimlər, biznes təmsilçiləri iştirak edirlər. Polşa Prezidenti Aleksandr Kvasnevskinin himayəsi altında keçirilən və üç gün davam edəcək sammitdə bu il mayın 1-də Avropa Birliyinin genişlənməsi və bunun Birliyin iqtisadi və siyasi fəaliyyət problemlərinə təsiri, habelə rəqabət, demoqrafiya, səhiyyə və pensiya sistemi məsələləri müzakirələrin əsas mövzusu olacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyevi "Sofitel Viktoria" mehmanxanasında tədbirin bir sıra iştirakçıları, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer, Dünya Bankının və digər qurumların nümayəndələri səmimiyyətlə qarşıladılar və ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələr və bəzi başqa məsələlər barədə suallarla müraciət etdilər.

Avropa iqtisadi sammitini Polşa Prezidenti Aleksandr Kvasnevski açdı.

Sammitin "Şərqi Avropa ölkələrinin Avropa Birliyinə daxil olması xüsusiyyətləri və problemlər" mövzusuna həsr olunmuş bölmə iclasında tədbirin təşkilatçıları iştirakçıları səmimi salamlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu müzakirələrə xüsusi qonaq kimi dəvət olunduğunu elan etdilər. Digər iştirakçılar da təqdim edildikdən sonra müzakirələrin aparıcısı DULİP ALVİVARİYƏ söz verildi. O dedi:

- Avropa Birliyinə daxil olarkən Şərqi Avropa ölkələrində nəzərəçarpacaq infrastruktur qıtlığı hiss edilir. Bu ölkələrin Avropa strukturlarına inteqrasiyasına keçid dövrünün başlamasından 14 il ötsə də, bir sıra problemlər hələ qalmaqdadır. Təkcə bir rəqəmi nəzərinizə çatdıraq ki, 14 il ərzində Qərbi Avropa ölkələrində 10 kilometr avtomobil yolu çəkilmişdir, həmin müddətdə Şərqi Avropa ölkələri üzrə bu göstərici 700 kilometrdir. Polşa, Macarıstan və Çexiya digər ölkələrlə müqayisədə bir qədər irəli gediblər. Bu ölkələrdə hətta infrastrukturun inkişafına özəl sərmayənin cəlb olunmasına söy göstərilmişdir.

Buradan bir sıra suallar meydana çıxır. Bu, Şərqi Avropa ölkələri hökumətlərinin günahı üzündən, yoxsa onların infrastruktur layihələrini həyata keçirmək istəməməsindən baş verir? Bəlkə də, bu hal Avropa Birliyinin ləng hərəkət etməsindən irəli gəlir? Yoxsa, səbəb həmin ölkələrin kifayət qədər resurslarının və hüquqi bazasının olmamasıdır? Yaxud, dövlət sektoru ilə özəl sektor arasında münasibətlər lazımi səviyyədə qurulmamışdır?

Biz bu müzakirələrdə bütün bu suallara cavab tapmağa çalışacağıq. Amma bundan əvvəl mən böyük məmnuniyyətlə sözü bu müzakirələrə xüsusi qonaq kimi dəvət olunmuş Azərbaycan Prezidenti cənab İlham Əliyevə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz xanımlar və cənablar!

Hər şeydən əvvəl, dəvətə görə təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm ki, mənə bu forumda iştirak etmək imkanı veriblər. Azərbaycanın region üçün əhəmiyyət kəsb edən və dünya üçün də əhəmiyyətli hesab olunan irimiqyaslı layihələri həyata keçirmək sahəsində təcrübəsi, özü də müsbət təcrübəsi vardır. Baxmayaraq ki, Azərbaycan müstəqil dövlət kimi gəncdir, müstəqilliyini yalnız 1991-ci ildə, Sovet İttifaqının dağılmasından sonra əldə edib və bu müddət ərzində çoxsaylı problemlərlə üzləşibdir. Bu problemdən ən əsası Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunması və bu işğalın hələ də davam etməsi, bunun nəticəsi kimi ölkəmizdə 1 milyon qaçqının olmasıdır.

Buna baxmayaraq, Azərbaycan xarici sərmayəçiləri ölkəyə də cəlb edə bildi. Bu da xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması nəticəsində mümkün olmuşdur. Ölkəmizdə sərmayə mühiti çox əlverişlidir. Xarici sərmayələr yaxşı qorunur və bu da bugünkü gündə dünyada ən iri enerji layihəsinin Azərbaycanda həyata keçirilməsinə imkan vermişdir. Neft və qaz kəmərlərinin inşası, Xəzərin neft və qaz ehtiyatlarının, dənizin Azərbaycan sektorundakı ehtiyatların işlənilməsi bu gün dünyada həyata keçirilən ən böyük enerji layihələridir.

Bu layihələr çox uğurla həyata keçirilir. Bunun bir neçə səbəbi var. Birincisi, qeyd etdiyim kimi, yaxşı sərmayə mühitidir, sərmayəçilərin arxayınlığıdır. Sonra yerli və xarici işçi heyətinin peşəkarlığıdır. Xarici sərmayəçilərlə yerli rəsmilər arasındakı işgüzar əməkdaşlığın yaranmasıdır. Layihələrin həyata keçirilməsinin əsas elementi olan şəffaflıqdır. Azərbaycanın neft və qaz sahələrindəki bütün fəaliyyəti olduqca açıq və şəffaf tərzdə həyata keçirilir. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünün fəal iştirakçısıyıq. Azərbaycanda neft sənayesindən alınan bütün gəlirlərin Neft Fonduna yığılması bu şəffaflığın göstəricisidir. Nəhayət, ölkədəki ictimai-siyasi sabitlikdir. Çünki sərmayəçilər şəraitin sabitliyinə əmin olmadan, iqtisadiyyatın artımını görmədən, ölkənin demokratik istiqamətdə hərəkətini hiss etmədən milyardlarla dollarını heç zaman risk altına qoymazlar.

Dediyim kimi, olduqca çətin vaxtlarımız olubdur. Qeyri-sabitlik dövrü var idi. Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü isə bütün region üçün təhlükədir. Gələn il yaxın keçmişimizin ən böyük layihəsini başa çatdıracağıq. Bakı-Tbilisi-Ceyhan kəməri işə düşəcəkdir. Bu layihə nəinki Azərbaycan və qonşu ölkələr üçün xeyirlidir, onların iqtisadiyyatını şaxələndirməyə kömək edəcək, həm də regional təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb edir, region Avropa üçün böyük əhəmiyyətə malikdir, dünya üçün əhəmiyyətlidir. Ona görə də regionun təhlükəsizliyi dünya bazarlarına gələcəkdə etibarlı neft nəqlinin əsasını təşkil edəcəkdir.

Qarşımızda duran məsələlər çoxdur. İqtisadiyyatı şaxələndirmək lazımdır, yeni iş yerləri açmalıyıq, sosial problemləri həll etməliyik. Ona görə də təbii sərvətlər bizim üçün

yalnız məqsədə çatmaq vasitəsidir. Neft hasil edən bəzi digər ölkələrin uğursuz təcrübəsi bizə məlumdur. Təəssüf ki, onların nəhəng neft ehtiyatları insanların rifahının yüksəlməsinə xidmət etməyibdir. Bu təcrübə bizə məlumdur. Biz əlimizdən gələni edəcəyik ki, həyata keçirdiyimiz layihələrdən Azərbaycanın hər bir vətəndaşı bəhrələnsin. Mən əminəm ki, beynəlxalq maliyyə qurumlarının davamlı yardımı, onların maddi dəstəyi ilə, - çünki maddi dəstək həlledicidir, - dünyada sözükeçən ölkələrin dəstəyi sayəsində Azərbaycandakı layihələr uğurla həyata keçiriləcək və ölkə iqtisadi-sosial, siyasi inkişaf yolunu davam etdirəcəkdir.

Bir daha çox sağ olun və müzakirələrdə böyük məmnuniyyətlə iştirak edəcəyəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 28-də Varşavada Avropa iqtisadi sammitində iştirak edən Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edildi.

Prezidentlər vurğuladılar ki, dost və qardaş ölkələrimizin münasibətlərinin bundan sonra da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün geniş imkanlar vardır.

Söhbət zamanı regional əməkdaşlıq və Cənubi Qafqazda təhlükəsizlik məsələləri barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ OLMUŞDUR

Aprelin 28-də Varşavada, "Parkova" dövlət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan Prezidenti Robert Koçaryan arasında təkbətək görüş keçirilmişdir. Görüşün əvvəlində ATƏT-in Minsk qrupunun ABŞ, Fransa və Rusiyadan olan həmsədrləri də iştirak edirdilər. Sonra isə dövlət başçıları danışıqları təklikdə apardılar.

İki saat davam edən görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsi müzakirə olundu.

Görüş başa çatdıqdan sonra prezidentlər mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Görüş konstruktiv şəraitdə keçdi. Biz ötən dəfə dekabrda görüşmüşdük. Ondan bəri müəyyən vaxt keçmişdir, həmsədrlərin səfərləri, onlarla görüşlər olmuşdur, bu yaxınlarda xarici işlər nazirləri görüşmüşlər və bugünkü görüş danışıqlar prosesinin davamıdır. Danışıqlar prosesi davam edir, danışıqları bundan sonra konstruktiv məcrada aparmaq üçün qarşılıqlı istək var. Məsələlər müzakirə olundu. Ümidvarıq ki, gələcəkdə danışıqlar prosesi də konstruktiv şəraitdə davam edəcəkdir.

Azərbaycan tərəfinin bu məsələni həll etmək arzusu var, Ermənistan tərəfində də belə arzu olduğu hiss edilir. Odur ki, bu məsələnin həlli yolunu tapmaq üçün qarşılıqlı istək olarsa, biz irəliləyə bilərik.

ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN BƏYANATI

- Azərbaycan Prezidentinin ifadə etdiyi fikirlə razıyam. Biz razılığa gəldik ki, nazirlərin görüşləri davam etdiriləcəkdir. Yaxın görüş may ayında olacaqdır. Ola bilsin, biz onları daha fəal əlaqələrə, daha fəal danışıqlar prosesinə istiqamətləndirməyə çalışacağıq.

Əlbəttə, biz əlaqələr üçün, danışıqlar prosesinin davam etdirilməsi üçün çoxtərəfli görüşlərin bütün imkanlarından istifadə edəcəyik. Biz nəticə ilə öyünə bilmərik, lakin zənnimcə, danışıqların xarakteri və ab-havası əlverişli olmuşdur.

CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİ PREZİDENTLƏRİNİN ŞƏRƏFİNƏ İŞGÜZAR NAHAR

Aprelin 28-də Avropa iqtisadi sammiti çərçivəsində Cənubi Qafqaz ölkələri prezidentlərinin şərəfinə işgüzar nahar təşkil olunmuşdur.

Nahardan əvvəl müxtəlif neft şirkətlərinin, digər sahələri təmsil edən nüfuzlu şirkətlərin nümayəndələri Prezident İlham Əliyevə yaxınlaşaraq söhbət etdilər, dövlətimizin başçısına səmimi arzularını bildirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Prezidenti Robert Koçaryan və Gürcüstan Prezidenti Mixail Saakaşvili naharda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Əvvəlcə, istərdim ki, bu mühüm tədbirin təşkilatçılarına öz minnətdarlığımı bildirim. Sammitin yaxşı təşkilinə görə sağ olun! Həm də polyak həmkarlarımıza minnətdarlığımı bildirirəm ki, bütün iştirakçılara belə qonaqpərvər münasibət bəsləyirlər.

Azərbaycanda son illər ərzində həyata keçirilən iqtisadi islahatlar mühüm uğurlarla nəticələnmişdir. Ölkə iqtisadi cəhətdən inkişaf edir, dinamik inkişafdadır və bu inkişaf, əlbəttə ki, dünya iqtisadiyyatında gedən proseslərlə həmahəngdir. Azərbaycanda keçirilən irimiqyaslı özəlləşdirmə proqramı özəl sektorun inkişafı üçün yaxşı şərait yaratmışdır. Ticarətin sərbəstləşdirilməsinə nail olmuşuq. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Son 7 il müddətində Azərbaycanda ümumi daxili məhsul 90 faiz artmışdır. Ümumi daxili məhsulda özəl sektorun payı 75 faiz təşkil edir. Adambaşına düşən birbaşa xarici sərmayə baxımından Azərbaycan keçmiş SSRİ, Mərkəzi və Şərqi Avropa ölkələri arasında liderlik mövqeyindədir. Azərbaycan iqtisadiyyatına qoyulan ümumi sərmayənin həcmi 17 milyard dollara çatmışdır. Bunun 12 milyard dolları birbaşa xarici sərmayədir.

Azərbaycandakı bu sərmayə qoyuluşu fəallığının səbəbləri nədir? Birincisi, yaxşı sər-

mayə mühitinin yaranmasıdır. Azərbaycanda xarici şirkətlər tərəfindən həyata keçirilən bütün mühüm layihələr parlament tərəfindən ratifikasiya olunub qanun şəklində qüvvəyə minmişdir. Ona görə də sərmayəçidə əminlik var ki, onun qoyduğu sərmayə qorunacaqdır.

Səbəblərdən biri də şəffaflıqdır. Azərbaycan Britaniya Baş nazirinin hasilat sənayələrində şəffaflıq təşəbbüsünə qoşulubdur. Biz Neft Fondu yaratmışıq və onun strukturu tamamilə şəffafdır. Neft və qaz sahəsindən alınan bütün gəlirlər həmin Fondda şəffaf şəkildə yığılır. Fondun işinə xarici auditorlar nəzarət edir.

Azərbaycanda bu gün dünyanın ən iri enerji layihəsi həyata keçirilir. Həyata keçirilən 4 neft və qaz layihələri - Azəri-Çıraq-Günəşli neft yataqlarının işlənilməsi, "Şahdəniz" qaz yatağının işlənilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi üzrə hər gün 10 milyon dollar sərmayə yatırılır. Növbəti 3 il müddətində daha 9 milyard dollar sərmayə qoyulacaqdır.

Bütün bunlar göstərir ki, ölkədə çox müsbət sərmayə mühiti yaradılıbdır, ictimai-siyasi sabitlik mövcuddur, sərmayəçilər inanırlar ki, ölkə uğurlu yolunu davam etdirəcək, iqtisadiyyatını, siyasi sistemini inkişaf etdirəcəkdir. Ölkədə müasir, demokratik cəmiyyət quruluşu davam etdiriləcəkdir.

Bizə o da məlumdur ki, neft hasil edən bir sıra ölkələr nəhəng neft ehtiyatlarına baxmayaraq, uğur əldə edə bilməyiblər. Biz mənfi təcrübəni də diqqətlə öyrənmişik ki, başqalarının buraxdığı səhvlərə yol verməyək. Ümumiyyətlə, 5 il, 10 il sonraya nəzər salsaq, Azərbaycan iqtisadi-sosial inkişafını bu sürətlə davam etdirərsə, regionda ən firavan ölkələrdən olacaqdır.

Ölkə vacib yolların kəsişdiyi məkanda yerləşir. Bizim coğrafi-siyasi mövqeyimiz elədir ki, ölkə Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin qovuşuğunda yerləşir. Regionda istər enerji layihələri, istər digər sahələrə aid layihələr Azərbaycanın birbaşa fəal iştirakı ilə həyata keçirilir. Bir daha vurğulamaq istərdim ki, ölkəmiz Avropa strukturlarına inteqrasiya yoluna sadiqdir, dünya iqtisadiyyatına inteqrasiya əzmindədir və biz ümumavropa dəyərlərini yüksək qiymətləndiririk. Mən qonaqpərvərliyə görə bir daha minnədarlığımı bildirir və sammitin işinə uğur arzu edirəm.

Çox sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRASBURQA GƏLMİŞDİR

Aprelin 28-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Varşavadan Strasburqa gəlmişdir.

PREZİDENT İLHAM ƏLİYEV AŞPA-NIN SƏDRİ PİTER ŞİDER İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurasının iqamətgahına – Avropa sarayına gəldi. Sarayın qarşısında Azərbaycan Respublikasının bayrağı dalğalanırdı. Prezident İlham Əliyevi burada Avropa Şurasının baş katibi Valter Şvimmer, Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider, AŞPA-nın baş katibi Bruno

Haller və digər yüksək vəzifəli şəxslər səmimiyyətlə, mehribanlıqla qarşıladılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin AŞPA-nın sədri Piter Şider ilə görüşü oldu.

Cənab Piter Şider Prezident İlham Əliyevi Avropa Şurasında bir daha salamlamaqdan qürur duyduğunu, dəvəti qəbul edib Avropa Şurasına gəldiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O dedi ki, biz ən fəal deputat və nümayəndə heyətinin rəhbəri, habelə AŞPA-nın ən fəal rəhbərlərindən biri, nəhayət, ən fəal dövlət başçısı kimi qiymətləndirdiyimiz Azərbaycan Prezidenti İlham Əliyevi yenidən öz yanımızda görməkdən fərəh hissi keçiririk. Sizin Avropa dəyərlərinə, Avropa Şurasına xüsusi diqqətiniz hamımızda minnətdarlıq hissi doğurmuşdur. Piter Şider dövlətimizin başçısının Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması və vətəndaş cəmiyyətinin qurulması sahəsində fəaliyyətini yüksək dəyərləndirdi. O, indiyədək yalnız iki ölkənin – Finlandiyanın və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətləri rəhbərlərinin sonradan dövlət başçısı seçildiyini xatırlatdı və bundan şərəf duyduğunu söylədi.

Avropa Şurasına növbəti dəfə gəlməsindən məmnunluğunu vurğulayan Prezident İlham Əliyev AŞPA-dakı fəaliyyətini həyatının ən gözəl illəri kimi qiymətləndirdi. Avropa Şurasının rəhbərliyinə təşəkkürünü bildirən dövlətimizin başçısı dedi ki, bu qurumun üzvü olduğu müddətdə Azərbaycan demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyəti qurulması istiqamətində böyük yol keçmişdir. Ötən müddətdə Azərbaycanın Avropa ailəsinə daha sıx inteqrasiyası üçün əlindən gələni əsirgəmədiyini bildirən İlham Əliyev dedi ki, dövlət başçısı vəzifəsində də bu xətti ardıcıl surətdə davam etdirəcək, ölkəmiz Avropanın demokratik dəyərlərinə daim sadiq olacaqdır.

Sonra Prezident İlham Əliyev Avropa Şurasının fəxri qonaqları kitabına ürək sözlərini yazdı:

"Üç ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu illər ərzində ölkəmiz Avropaya inteqrasiya yolunda böyük uğurlar əldə etmişdir.

Çox məmnunam ki, 2001-2003-cü illərdə Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmişəm. Bu illər həyatımda çox önəmli rol oynamışdır. Əminəm ki, Avropa Şurası ilə Azərbaycan arasında aparılan əməkdaşlıq uğurla davam etdiriləcəkdir.

Avropa Şurasındakı dostlarımıza cansağlığı və uğurlar arzulayıram.

Böyük hörmətlə,

İlham Əliyev,

Azərbaycan Respublikasının Prezidenti.

29 aprel 2004-cü il".

Sonra AŞPA-nın sədri Piter Şider Azərbaycan Prezidenti İlham Əliyevə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomunu və medalını təqdim etdi, Azərbaycan ilə AŞ arasında əlaqələrin gələcəkdə daha da sıx olacağına əminliyini söylədi.

Prezident İlham Əliyev ona göstərilən səmimi münasibətə və yüksək etimada görə təşəkkür etdi, ölkəmizin Avropa Şurası ilə əlaqələrinin daim diqqət mərkəzində olacağını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa Şurasının iqamətgahında bu təşkilatın baş katibi Valter Şvimmer ilə görüşmüşdür.

Dövlətimizin başçısını Avropa Şurasında salamlamaqdan məmnunluğunu bildirən cənab Valter Şvimmer bu yaxınlarda Azərbaycana səfərini və Prezident İlham Əliyev ilə görüşünü, müxtəlif məsələlər ətrafında faydalı fikir mübadiləsi apardığını razılıqla xatırladı. O, İlham Əliyevin Azərbaycan Prezidenti kimi Avropa Şurasına ilk gəlişinin əhəmiyyətini vurğuladı, Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Avropa Şurasında fəaliyyətini həyatının ən yaxşı illəri kimi qiymətləndirdi, bu təşkilatla ölkəmiz arasında keçmişdə və indi mövcud olan sıx əməkdaşlıqdan məmnun olduğunu söylədi. Azərbaycan ilə Avropa Şurası arasında heç bir problem olmadığını, bu təşkilata üzvlüyün üç ili ərzində ölkəmizdə demokratiyanın inkişafı, insan hüquqları və azadlıqlarının qorunması sahəsində böyük işlər görüldüyünü bildirərək dedi ki, bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN YAZ SESSİYASININ İCLASINDA ÇIXIŞ ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasının iclasında çıxış etmişdir.

İclas salonuna gələn Prezident İlham Əliyevi AŞPA-nın rəhbərliyi və deputatlar hərarətlə qarşıladılar.

İclasın sədri respublikamızın rəhbərini AŞPA adından salamlayaraq, dəvəti qəbul edib sessiyaya gəldiyinə görə ona minnətdarlığını bildirdi. Sonra o, dövlətimizin başçısı İlham Əliyevə söz verdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurasının üzvü olduğu üç il ərzində ölkəmizdə aparılan hüquqi islahatlar, respublikamızdakı ictimai-siyasi, iqtisadi vəziyyət barədə geniş məlumat verdi. İqtisadiyyatdakı irəliləyişdən danışan dövlətimizin başçısı dedi ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir, son yeddi ildə ümumi daxili məhsulun artımı 90 faiz təşkil etmiş, inflyasiyanın səviyyəsi 2-3 faizdən çox olmamışdır. Ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 75 faizə çatmışdır. İndiyədək ölkə iqtisadiyyatına 17 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da 12 milyard dolları birbaşa xarici sərmayədir. Azərbaycan bazar münasibətlərinə əsaslanan iqtisadiyyata malik azad, demokratik, plüralist cəmiyyət qurmaq yolu ilə gedir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açan Prezident İlham Əliyev erməni təcavüzünün ölkəmiz üçün ağır nəticələrini xatırladaraq bildirdi ki, bu münaqişə beynəlxalq hüquq normalarına əməl edilməklə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsasında aradan qaldırılmalıdır. Azərbaycan öz ərazisinin itirilməsi ilə heç zaman razılaşmayacaq, XXI əsrdə Avropa Şurasının üzvü olan bir dövlətin həmin təşkilatın digər üzvünün ərazilərini işğal etməsi yolverilməzdir və beynəlxalq birlik bununla barışmamalıdır.

Dövlətimizin başçısı ölkəmizin Avropa ailəsinə inteqrasiyasına toxunaraq dedi ki, bu, bizim strateji seçimimizdir. Azərbaycan Avropa Şurasında fəal üzvlüyünü bundan sonra da davam etdirəcəkdir.

Sonra Prezident İlham Əliyev iclas iştirakçılarının suallarına cavab verdi və belə bir məqamı da vurğuladı ki, əgər Azərbaycan görsə ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqlar prosesi bir nəticə vermir, onda yəqin ki, biz öz siyasətimizə yenidən baxmalı olacağıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI KEÇİRMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa Şurasının iqamətgahında - Avropa sarayında mətbuat konfransı keçirmişdir.

Mətbuat konfransında müxtəlif ölkələrin, demək olar ki, bütün Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın, Rusiyanın, Ukraynanın, Gürcüstanın, Ermənistanın kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak edirdilər.

Prezident İlham Əliyev jurnalistlər qarşısında çıxış edərək dedi ki, Avropa Şurasında olması onun üçün əlamətdar hadisədir, çünki Azərbaycan üç ildir Avropa Şurasının üzvüdür və özünün də siyasi fəaliyyətinin bir hissəsi bu təşkilatla bağlıdır. Azərbaycan ilə AŞ arasında əməkdaşlıq yüksək səviyyədədir və ölkəmiz bu qurumun üzvü olduğu müddətdə demokratiyanın inkişafı, insan hüquqları və azadlıqlarının qorunması, vətəndaş cəmiyyətinin qurulması yolunda böyük uğurlar qazanmışdır.

Mətbuat konfransı üçün ayrılmış vaxtın çox hissəsi jurnalistlərin suallarına cavablara həsr olundu. Məsələn, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hansı əsasda imzalana biləcəyi barədə erməni jurnalistinin sualına cavabında Prezident İlham Əliyev vurğuladı ki, bu, yalnız Ermənistan silahlı birləşmələrinin işğal edilmiş ərazilərdən çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpası şərti ilə mümkündür.

Digər bir suala cavab verərkən dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda tam ictimai-siyasi sabitlikdir, ölkədə qanunçuluğun möhkəmləndirilməsi sahəsində görülən tədbirlər davam etdirilir. Prezident İlham Əliyev dedi ki, Azərbaycanda siyasi məhbusların olması barədə vaxtaşırı qaldırılan söz-söhbətə son qoyulmasının tərəfdarıdır, çünki ölkəmizdə belə məhbuslar yoxdur, yalnız cinayət törətmiş şəxslər var və onlar məhkəmələr tərəfindən cəzalandırılır. Əgər cinayətkarlar törətdikləri əməllərə görə cəzalandırılmasa, ölkədə hərc-mərclik yaranar.

Dövlətimizin başçısı Budapeştdə erməni zabitinin öldürülməsi ilə bağlı suala cavabında bildirdi ki, bu hadisə ətrafında siyasi şou düzəltməyin tərəfdarı deyildir. Təkcə 2003-cü ildə 20 nəfər Azərbaycan vətəndaşı erməni snayperləri tərəfindən öldürülmüşdür, halbuki, Avropada bundan heç kimin xəbəri olmadı. Ona görə də belə faciəli hadisələrə son qoymağın ən düzgün yolu münaqişəni beynəlxalq hüquq normalarına əməl etməklə aradan qaldırmaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinə gəldi.

Dövlətimizin başçısını binanın önündə məhkəmənin sədri Luzius Vildhaber, Azərbaycan Respublikasının məhkəmədəki hakimi Xanlar Hacıyev və digər şəxslər ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev binanın salonları, iş otaqları ilə tanış oldu.

Sonra Azərbaycan Prezidenti ilə Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinin sədri arasında görüş keçirildi.

Dövlətimizin başçısı Azərbaycanda insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin qurulması, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları barədə ətraflı bəhs etdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, insan hüquqlarının qorunması sahəsində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Söhbət zamanı Azərbaycanda qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması və qarşılıqlı maraq doğuran bir sıra başqa məsələlər haqqında da fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 29-da, Strasburqa səfərinin ikinci günü Avropa Şurasının iqamətgahında - Avropa sarayında mətbuat konfransı keçirmişdir. Mətbuat konfransında müxtəlif ölkələrdən olan kütləvi informasiya vasitələrinin Avropa Şurasında akkreditə olunmuş nümayəndələri iştirak edirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

İlk əvvəl demək istəyirəm ki, Avropa Şurasında olmaq mənim üçün böyük şərəfdir. Bu gün səhər Avropa Şurası Parlament Assambleyasının sədri, Avropa Şurasının baş katibi, digər rəsmilərlə görüşlərim olmuşdur. Parlament Assambleyasının sessiyasında çıxış etmək imkanım olmuşdur. Mən bir neçə il Avropa Şurasındakı Azərbaycan nümayəndə heyətinin başçısı olmuşam və həmin dövrlərdə çox vacib mövzularla bağlı birgə fəaliyyətimizi məmnuniyyətlə xatırlayıram. Bunlar Avropa, bizim ölkə, region üçün çox mühüm mövzulardır. Azərbaycan Avropa Şurasının çox fəal üzvüdür. Bu təşkilatda üzvlüyümüz bizim üçün vacibdir. Avropa Şurasının üzvü kimi Azərbaycan üzərinə müəyyən öhdəliklər götürüb və onları həyata keçirir.

Avropa Şurasına qəbul edildiyimiz üç il müddətində ölkədə bir sıra dəyişikliklər baş veribdir. Siyasi sahədə bir sıra qanunvericilik aktları qəbul olunubdur və ölkə demokratik

yöndə inkişafını davam etdirir. Bu, bizim strateji məqsədimizdir. Məqsədimiz müasir günün tələblərinə cavab verən demokratik cəmiyyət qurmaqdır. Güclü iqtisadiyyat yaratmaq, qanunun aliliyini, hər bir vətəndaşa bütün hüquqları və imkanları təmin etməkdir. Hər bir vətəndaşa imkan yaratmaqdır ki, öz fikirlərini və baxışlarını sərbəst ifadə edə bilsin. Giriş çıxışımla vaxtınızı çox almaq istəmirəm. Yaxşı olar ki, sual-cavaba çox vaxt ayıraq. Suallarınıza cavab verməkdən xoşbəxt olaram. Sağ olun!

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlərin suallarına cavab verdi.

SUAL: Cənab Prezident, Siz bir neçə ay bundan əvvəl bildirmisiniz ki, Dağlıq Qarabağ üzrə danışıqlar sıfır nöqtəsindən başlamalıdır. Siz sıfır nöqtəsi dedikdə nəyi nəzərdə tutursunuz?

CAVAB: Sizin dediklərinizi həqiqəti düzgün əks etdirmir. Bu mövzu ilə bağlı lap əvvəldən başlasaq görərik ki, ilk dəfə bu mövzu ilə əlaqədar Ermənistan şərh vermişdir. Çalışıb mövzunu elə qələmə versin ki, guya Ermənistanla Azərbaycan arasında hansısa bir razılıq əldə edilmişdir və İlham Əliyev Prezident olduqdan sonra bu razılığı pozmuşdur. Bu, faktları saxtalaşdırmağın daha bir nümunəsidir.

Keçmişdə Ermənistan və Azərbaycan prezidentləri arasında heç bir razılıq olmayıbdır. Bu, birincisi. Mən istərdim mətbuat nümayəndələrindən xahiş edim ki, fikirlərini bunun ətrafında cəmləşdirsinlər, daha söz-söhbətə fikir verməsinlər. Bu yaxınlarda Birləşmiş Ştatların dövlət katibinin müavini Azərbaycana səfər etmişdir. O, açıq dedi ki, Ermənistanla Azərbaycan arasında heç bir razılıq yoxdur. Ona görə də razılıq olmadığı halda, danışıqlar da müxtəlif istiqamətdə aparıla, bütün mövzular müzakirə oluna bilər. Razılıq olmadığına görə, heç bir öhdəlik də yoxdur. Ona görə də hər tərəf danışıqları öz siyasətinə uyğun olaraq sərbəst apara bilər.

Azərbaycanın mövqeyi aydındır və dəfələrlə bəyan edilmişdir. Bu bəyanatlarla indiyədək tanış olmağa imkanınız olmayıbsa, mən sizin yadınıza salım: Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə, yaxud Ermənistanın bir hissəsi olmasına razılıq verməyəcəkdir. Dağlıq Qarabağ Azərbaycanındır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Beynəlxalq hüququn bütün normaları da bunu tələb edir.

SUAL: Cənab Əliyev, mən Sizə Ukrayna ilə münasibətlər, regional əməkdaşlıqla bağlı sual vermək istəyirəm. Odessa-Brodı boru kəməri ilə bağlı bizim Prezidentimiz Kuçma bildirmişdir ki, Amerika şirkətləri bu kəmərin tikintisində maraqlı deyildirlər. Siz bu mövzu ilə bağlı nə deyə bilərsiniz? Xəzər dənizindən neftin bu yolla Avropaya daşınması Azərbaycan üçün maraqlıdırmı? Belədirsə, bu kəmərlə nə qədər neft daşımaq fikrindəsiniz?

CAVAB: Ukrayna ilə münasibətlərimiz konstruktiv və dostluq münasibətləridir. Biz dostuq, əməkdaşlıq münasibətləri qurmuşuq və çox yaxşı siyasi münasibətlərimiz var. Mənim Prezident Kuçma ilə şəxsi münasibətlərim yaxşıdır və tezliklə Ukraynaya rəsmi səfər etməyə hazırlaşıram. Bir sıra regional təşkilatların, məsələn, GUÖAM-ın üzvüyük. Nəqliyyat, kommunikasiya boru kəmərləri daxil olmaqla, müxtəlif sahələrdə əlaqə saxlayır, əməkdaşlıq edirik. Azərbaycan bir neçə dəfə Odessa-Brodı boru xəttinə si-

yasi dəstəyini bildirmişdir. Əlbəttə ki, bu mövzuya iqtisadi mənfəət baxımından yanaşmaq lazımdır. Azərbaycan neftini nəql etmək üçün bizim iki işlək neft kəmərimiz var. Üçüncüsü isə tikilir və gələn il istismara veriləcəkdir. Üç boru kəməri tam gücü ilə işləyərsə, ümumi nəql həcmi, təxminən, 100 milyon tona yaxın olacaqdır. Bu həcmdə nefti müxtəlif istiqamətlərdə nəql etmək olar. Biz nəqliyyat siyasətimizi kommunikasiyaları şaxələndirmək əsasında qururuq. Əlbəttə, beynəlxalq bazarlara neftini daşımağa Azərbaycanın nə qədər çox imkanı olarsa, bir o qədər də yaxşı olar. Ona görə də biz Odessa-Brodı boru xəttinin praktiki əhəmiyyətinə ciddi fikir veririk. Deyə bilərəm ki, artıq əməli müzakirələrə başlamışıq. Mən boru xəttinə uğur arzu edirəm.

SUAL: Cənab Prezident, sualım Azərbaycandakı siyasi məhbuslarla bağlıdır. Sizin növbəti əfv Fərmanınızda 15-16 oktyabr hadisələri ilə bağlı həbs olunanların azadlığa buraxılması nəzərdə tutulurmu? İkinci sual, vətəndaş cəmiyyətinin həmrəyliyi üçün müxalifətlə dialoqu nəzərdə tutursunuzmu? Üçüncü sual, Prezident sarayında keçirilən bəzi tədbirlərdə müxalifət mətbuatının iştirakı problemli olur. Bu, sizin siyasətinizdir, yoxsa, başqa səbəblər var?

CAVAB: Son 3 il müddətində Avropa Şurasında məhbuslar mövzusu geniş müzakirələrdən keçdi. Mövzu ilə bağlı tövsiyələr, müzakirələr, fikir mübadiləsi hər iki tərəf üçün çox əhəmiyyətlidir. Azərbaycanın mövzu ilə bağlı siyasəti aydındır və faktlar bütün sözlərdən daha çox məna kəsb edir. Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Bu cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan və azadlıqlardan istifadə etməli və onun bütün hüquqları və azadlıqları qorunmalıdır.

Eyni zamanda, cinayət törədən adamlar cəzalanmalıdır. Belə olmasa, nə demokratiya olar, nə də ümumiyyətlə, cəmiyyət ola bilər. Anarxiya və xaos olar. Ona görə də cinayət törətmiş adamlarla digərləri arasında ciddi fərq qoyulmalıdır. Proses davam edir və bugünkü gündə Avropa Şurasında ona hörmətlə yanaşırlar. Eləcə də Azərbaycan cəmiyyəti bu sahədə aparılan siyasəti bəyənir. 15-16 oktyabr hadisələrindən sonra həbs olunanlar siyasi məhbus hesab edilə bilməz. Onların təqsiri məhkəmə tərəfindən müəyyən olunacaq, qərarı da məhkəmə verəcəkdir. Elə bilirəm, cəmiyyətimizin xeyri üçün yaxşı olar ki, siyasi partiyalarımız müxtəlif mövzularla bağlı müzakirələri küçələrdə deyil, masa ətrafında aparsınlar. Daha əllərinə daş-kəsək, dəmir parçaları almaqla yox. Polisə rəhmsiz hücum etməklə yox. Dünyanın istənilən ölkəsində polisə Azərbaycanda 16 oktyabrda olduğu kimi hücum etsəydilər, cavab tədbirləri eyni olardı. Bəzi ölkələrdə isə cavab tədbirləri daha qətiyyətli olardı. Ona görə hesab edirəm, hər iki tərəf aydın anlamalıdır ki, demokratik cəmiyyətdə yaşayırıq. Amma elə cəmiyyətdə ki, qanunun aliliyi hər şeydən üstündür və kimsə cinayət törədirsə, cəzalanmalıdır.

Dialoqla bağlı. Bununla bağlı bir neçə dəfə - seçkilərdən əvvəl, seçkilərdən sonra müraciət etmişəm. Seçkilərdən əvvəl bunu əlavə səslər qazanmaq xatirinə eləmədim. Ölkədəki vəziyyət mənə məlum idi. İctimaiyyətin rəyi ilə tanış idim. Əlavə səslərə ehtiyacım yox idi. Bunu inandığıma görə etdim. Mən hökumətlə müxalifət arasındakı konstruktiv münasibətlərə inanıram. Təəssüf ki, Azərbaycanda bu, belə deyildir. Amma, eyni zamanda, mən günaşırı dialoq təklif etmək fikrində də deyiləm. Mən bunu bir neçə dəfə, üç dəfədən də artıq etmişəm. Amma hələ cavab almamışam. Müxalifətə də dialoq lazımdırsa, hər iki tərəfdən qarşılıqlı hərəkət olmalıdır. Mətbuatın fəaliyyətinə gəldikdə, Azərbaycanda mətbuat azaddır, senzura, qadağalar yoxdur. İstədiklərini yaza

bilərlər. Bu da normaldır, çünki demokratik cəmiyyətdə yaşayırlar. Eyni zamanda, hər bir oxucu da bu və ya digər qəzeti oxuya bilər və yaxud ona baxmaya bilər. Hər bir təşkilat da bu və ya digər qəzeti öz tədbirlərinə dəvət edib-etməməkdə azaddır. Hər bir tərəfin haqqı var və bu haqdan istifadə edə bilər. Burada təsirlə nə isə əldə etmək mümkün deyildir. Biz gərək bir-birimizin haqlarına hörmət etməyi öyrənək.

SUAL: Cənab Prezident, Sizin səyinizlə, Azərbaycan nümayəndə heyətinin səyi ilə Avropa Şurası Parlament Assambleyasının sənədlərində Ermənistan təcavüzkar, işğalçı dövlət kimi tanımır. Bu sənədlər Avropa Şurasının üzvü olan ölkələrin Ermənistanın işğalçı ölkə kimi tanınmasına əsas ola bilərmi?

CAVAB: Avropa Şurasında qəbul olunmuş bu sənədlər böyük əhəmiyyət kəsb edir. İlk dəfədir ki, belə mötəbər bir təşkilat öz sənədlərində Ermənistanı Azərbaycanın ərazilərini işğal etmiş bir dövlət kimi tanıyır. Bəzi qətnamələrdə Azərbaycanın bütün işğal olunmuş rayonlarının adı çəkilir. Digər qətnamələrdə bir milyondan artıq qaçqın-köçkün məsələsinə toxunulur. Bəzi sənədlərdə "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər əraziləri" ifadəsi işlədilir. Bunun özü də vacibdir, çünki sənədlərdə tanınır ki, Dağlıq Qarabağın özü də ermənilər tərəfindən işğal olunmuş Azərbaycan ərazisidir. Bütün bunlar müsbət məqamlardır. Onlar vəziyyəti olduğu kimi, düzgün əks etdirir.

Ermənilər uzun müddət çalışırlar ki, vəziyyəti başqa cür büruzə versinlər. Elə indinin özündə də çalışırlar, amma bir o qədər müvəffəqiyyətlə yox. Özlərini qurban kimi qələmə verirlər. Amma mən başa düşə bilmirəm ki, nəyin qurbanı kimi. Bu gün həqiqət gizlədilə bilməz. Həqiqət də ondan ibarətdir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal edib, bu işğalın nəticəsi kimi, bizim 1 milyon qaçqınımız və köçkünümüz var, onlar çox çətin şəraitdə yaşayırlar. Ermənistan beynəlxalq hüququn bütün normalarını pozub, onlara məxsus olmayan əraziləri nəzarət altında saxlayır.

Yeri gəlmişkən, bu ərazilər heç vaxt onlara məxsus olmayıbdır. Tarixə nəzər salsaq, - münaqişənin tarixini çoxları yaxşı bilirlər, - ermənilər bugünkü Dağlıq Qarabağ ərazisinə gəlmədirlər. Ermənilər Dağlıq Qarabağ ərazisinə 1820-ci illərdən gəlmişlər. Onlar azərbaycanlıların qonaqpərvərliyindən istifadə edib bu yerlərdə məskən salmışlar. Bir əsr keçəndən sonra separatist hərəkata başladılar. Mənim dediklərimin təsdiqini tapmaq üçün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki abidənin şəklinə baxmaq kifayətdir. Həmin abidə 1970-ci illərdə ucaldılmış və ermənilərin ilk köçünün Dağlıq Qarabağda məskən salmasının 150 illiyinə həsr olunmuşdur. Abidəni də ermənilər özləri ucaltmışlar. Bu, aydın göstərir ki, həmin ərazi heç vaxt ermənilərə məxsus olmayıbdır. Bu, məsələnin tarixi tərəfidir. Hüquqi tərəfi isə ondan ibarətdir ki, işğal bütün beynəlxalq hüquq normalarına ziddir və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Avropa Şurasının fəaliyyəti çox faydalıdır. Siyasi komitədə hazırlanan məruzə məsələyə siyasi qiymət verəcək və münaqişəyə ümumi yanaşma formulunu müəyyən edəcəkdir. Münaqişə öz əksini yazılı qətnamədə tapacaq, orada işğalçı qüvvələrin dərhal geri çəkilməsi zərurəti göstəriləcəkdir.

SUAL: Budapeştdə Azərbaycan zabiti erməni zabitini qətlə yetirmişdir. Azərbaycan mətbuatında zabitin müdafiəsi üçün maddi vəsait toplamaqla bağlı çağırışlar səslənirdi, onu milli qəhrəman adlandırırdılar. Sizin məsələyə münasibətiniz necədir?

CAVAB: Bizim rəsmi mövqeyimiz Xarici İşlər Nazirliyinin bəyanatında ifadə olunmuş-

dur. Hamının bu bəyanatla tanış olmaq imkanı vardır. Amma eyni zamanda, əlbəttə ki, biz baş verən hadisədən təəssüflənirik, buna bəraət qazandırmaq olmaz. Bununla yanaşı, yadınıza salmaq istəyirəm ki, 2003-cü il ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində erməni snayperləri tərəfindən 20 Azərbaycan vətəndaşı, dinc sakinlər, mülki adamlar qətlə yetirilmişdir. Qətlə yetirilənlər də insandır. Onların Avropada deyil, Azərbaycanda qətlə yetirilməsi vəziyyəti yüngülləşdirmir. Onlar da insandır, ermənilər tərəfindən qətlə yetiriliblər, erməni snayperləri tərəfindən qəsdən öldürülüblər. Ona görə də düşünürəm, yaxşı olar ki, bundan siyasi şou düzəltməyəsiniz. Belə hallar baş verir, bunun da səbəbi Ermənistanın təcavüzünün, Azərbaycan ərazilərinin işğal altında saxlanmasının davam etməsidir. Düşünürəm ki, məsələyə son qoymağın ən yaxşı çıxış yolu, bu cür halların baş verməməsinin yolu münaqişənin dinc vasitələrlə həll olunmasıdır. Bu problemin həll olunması isə yalnız beynəlxalq hüquq normaları gözlənildiyi halda mümkündür.

SUAL: Sualım iqtisadiyyatla bağlıdır. Rusiya mediasında belə bir fikir vardır ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri tikildikdən sonra Azərbaycan Bakı-Novorossiysk neft kəməri ilə daşımaları azaldacaqdır. Bu, reallığa nə qədər uyğundur? İkinci sual. Sentyabrda, Siz hələ Baş nazir olarkən, Krımda Rusiya, Ukrayna, Belarus və Qazaxıstan ümumi iqtisadi zona yaradılması barədə razılıq əldə ediblər. Azərbaycan bu razılaşmaya qoşulmağa nə qədər yaxındır?

CAVAB: İndi Bakıdan Rusiyanın Novorossiysk limanına gedən kəmərlə təxminən 2,5 milyon ton neft nəql olunur. Demək istərdim ki, bu neft tamamilə Azərbaycana məxsusdur. Bu o deməkdir ki, yüz faiz ARDNŞ tərəfindən hasil edilir. Eyni zamanda, Azərbaycanın xarici sərmayəçilərlə birgə hasil etdiyi neft də var və bu neft Bakı-Supsa kəməri ilə Gürcüstana ixrac olunur. Həmin kəmərlə daşınan neftin həcmi 6 milyon tona yaxındır. Əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan xətti tamamlandıqdan sonra Azərbaycanın daha böyük həcmdə, 50 milyon tondan artıq neft nəql etmək imkanı olacaqdır. Amma biz, ARDNŞ Bakı-Novorossiysk xətti ilə nəql edilən neftin həcmini azaltmaq fikrində deyilik. Əksinə, Rusiya-Azərbaycan birgə komissiyası Bakı-Novorossiysk xəttinin daha çox cəlbedici yollarını axtarırlar ki, bəlkə, gələcəkdə bu kəmər vasitəsilə daşınan neftin həcmi artsın. Amma bunu etməkdən ötrü, əlbəttə, digər kəmərlərlə müqayisədə bu kəmər bərabər iqtisadi göstəricilərə malik olmalıdır. Təəssüf ki, bu gün Azərbaycan üçün nefti Novorossiyskə nəql etmək digər variantlardan az sərfəlidir.

Amma dediyim kimi, nəqli dayandırmaq fikrində deyilik və onu azaltmayacağıq. Rusiya tərəfi ilə mümkün variantlar üzərində işləyəcəyik.

İkinci sualla bağlı demək istəyirəm ki, Azərbaycan ümumi iqtisadi zona ilə əlaqədar hələ daha çox məlumat toplayır. Bu zona nədən ibarət olacaq, əsas element nədir? Biz qonşularla regional əməkdaşlıq mövzuları ətrafında işləyirik və iqtisadi mövzular haqqında da düşünürük. Amma dediyiniz məsələ ilə bağlı daha çox məlumat almalıyıq. Ümid edirəm ki, bu məlumatı əldə edəcəyik.

SUAL: Siz ölkənin siyasəti haqqında danışdınız. Ölkə vətəndaşlarının istifadə etdikləri hüquqlar milli azlıqlara da aiddirmi?

CAVAB: Azərbaycanda milli azlıqlar var. Bütün başqa vətəndaşlar kimi, həmin azlıqların da öz hüquqları və öhdəlikləri var. Cəmiyyətimiz çox dözümlüdür. Etnik və dini to-

lerantlıq ölkəmizin əldə etdiyi ən yüksək nailiyyətlərdəndir. Bu, uğurlu inkişafın çox vacib amilidir. Milli azlıqları olmayan ölkələrdə, qonşuluğumuzda olan monoetnik ölkədə isə, əksinə, bununla bağlı problemlərlə üzləşirlər. Biz qloballaşma, inteqrasiya dövründə yaşayırıq və əlbəttə ki, Azərbaycanda yaşayan bütün milli azlıqlar bərabərhüquqlu vətəndaşlardır. Onların hüquqları bizim qanunvericiliklə qorunur. Ölkəmizdə milli azlıqların azad, sülh şəraitində yaşaması faktı onlara olan normal münasibətlərin göstəricisidir və bu siyasət davam etdiriləcəkdir.

SUAL: ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri Rusiyadır və onun həm Ermənistanla, həm də Azərbaycanla yaxşı əlaqələri var. Rusiya münaqişənin həllində xüsusi rol oynaya bilərmi?

CAVAB: Biz hesab edirik ki, Minsk qrupu həmsədrlərinin hər biri bu prosesdə fəal iştirak edəcəkdir. Onların mandatı bundan ibarətdir və cavabdeh olduqları sahə prosesdə vasitəçilik etməkdir. Biz bütün həmsədrlərdən - həm Rusiya, həm Fransa, həm də Birləşmiş Ştatlardan məsələnin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında həll olunması istiqamətində daha fəal səylər gözləyirik. Əlbəttə, Rusiya həm Ermənistanla, həm də Azərbaycanla yaxşı münasibətləri olan bir dövlətdir və münaqişəni həll etmək üçün mühüm rol oynaya bilər.

AVROPA SARAYINDA PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ ZİYAFƏT

Aprelin 29-da Avropa Şurasının İqamətgahında - Avropa sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verilmişdir.

Ziyafətdə Avropa Şurasının baş katibi Valter Şvimmer, AŞPA-nın sədri Piter Şider, AŞ-nin digər rəhbər şəxsləri, AŞPA-da müxtəlif ölkələri təmsil edən deputatlar, Strasburqda yaşayan azərbaycanlılar, mətbuat nümayəndələri iştirak edirdilər.

Prezident İlham Əliyev salona toplaşanlarla səmimi söhbət etdi, müxtəlif məsələlər haqqında fikir mübadiləsi apardı.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 29-da Strasburqa səfərini başa çatdıraraq, vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 10-CU İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) Xarici İşlər Nazirləri Şurasının 10-cu iclasına toplaşmış nümayəndə heyətləri başçılarını qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı QİƏT-in Xarici İşlər Nazirləri Şurasının fəaliyyətini yüksək qiymətləndirərək, onun növbəti iclasının da uğurla başa çatdığından məmnun olduğunu söylədi. Azərbaycanın regional əməkdaşlıq baxımından çox fəal olduğunu xatırladan Prezident İlham Əliyev ölkəmizin bilavasitə iştirakı ilə regionda çox mühüm, dünya üçün böyük əhəmiyyət kəsb edən layihələrin həyata keçirildiyini bildirdi.

QİƏT çərçivəsində müxtəlif sahələr - nəqliyyat, turizm, təhsil üzrə nazirlərin görüşünün Azərbaycanda keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu görüşlərin uğurlu olduğunu söylədi. O, təşkilatın fəaliyyətinin genişlənməsini, yeni üzvlər cəlb olunmasını müsbət hal kimi dəyərləndirdi, iclasda iştirak etmiş Serbiya və Çernoqoriya xarici işlər nazirinin müavinini salamlayaraq dedi: "Bu, onu göstərir ki, təşkilatın gözəl gələcəyi var və o bizim hamımızı birləşdirən bir qurumdur. Bütün bu məsələlərdə təşkilatın Katibliyi fəal iştirak edir. Biz bir neçə dəfə təşkilatın baş katibi ilə müzakirələr aparmışıq və hesab edirik ki, konkret layihələr üzərində işləməyin vaxtı gəlib çatmışdır. Biz buna hazırıq və böyük təcrübəmiz vardır. Qeyd etdiyim kimi, Azərbaycan bütün regional layihələrdə fəal iştirak edir".

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, təşkilatın bu iclasının gözəl nəticələri olacaqdır.

Görüşdə çıxış edən Gürcüstanın xarici işlər naziri Salome Zurabişvili səmimi qəbula görə nümayəndə heyətlərinin başçıları adından Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, Azərbaycanla Gürcüstanın bu təşkilatda bir-birini əvəzləməsini rəmzi hal kimi qiymətləndirdi. O, təşkilatın Avropa Birliyinə sıx inteqrasiyasını xüsusilə vurğulayaraq, QİƏT üzvü olan ölkələrin əməkdaşlığının yüksək səviyyədə olduğunu söylədi. Azərbaycan Prezidentinin konkret layihələrin həyata keçirilməsi ilə bağlı söylədiyi fikirlə əlaqədar nazir dedi ki, təşkilat çərçivəsində bu cür layihələrin həyata keçirilməsinə qadir olduğumuzu sübut etməyin vaxtı çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SÜLH KORPUSUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Prezident sarayında ABŞ Sülh Korpusunun direktoru Qəddi Vasgezin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ötən ilin oktyabrından ABŞ Sülh Korpusu ilə birlikdə Azərbaycanda həyata keçirilən və humanitar, təhsil və digər sahələri əhatə edən proqramı yüksək qiymətləndirdi. O, bu proqramı Birləşmiş Ştatlarla Azərbaycan arasında uğurla inkişaf edən əməkdaşlığın daha bir müsbət istiqaməti kimi dəyərləndirdi. Dövlətimizin başçısı ABŞ Sülh Korpusuna Azərbaycanda göstərdiyi fəaliyyətə görə təşəkkürünü bildirdi və təşkilatın üzvlərinə uğurlar dilədi.

Görüşdə iştirak edən ABŞ-ın ölkəmizdəki səfiri Rino Harniş Prezident İlham Əliyevə müraciətlə dedi: "Cənab Prezident, ilk olaraq, Sizi Strasburqdakı çox məzmunlu çıxışınıza görə təbrik edirəm. Sizin çıxışınız Avropa və Birləşmiş Ştatlarla əməkdaşlığa göstərdiyimiz böyük diqqəti bir daha nümayiş etdirmiş və çox yüksək qiymətləndirilmişdir".

Səfir ABŞ Sülh Korpusunun Birləşmiş Ştatların Prezidenti Corc Buş tərəfindən dəstəkləndiyini və əsasən amerikalı könüllü gənclərdən ibarət olduğunu söyləyərək bildirdi ki, ABŞ hökumətinin dəstəyi ilə həyata keçirilən bu proqramın Azərbaycanda geniş vüsət alması Birləşmiş Ştatların ölkəmizlə və xalqımızla sıx əməkdaşlığa necə böyük əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu, ABŞ-ın Azərbaycan iqtisadiyyatının inkişafına, xüsusilə enerji və kommunikasiya layihələrinin həyata keçirilməsinə böyük kömək göstərdiyini xatırlatdı. O dedi ki, regionda təhlükəsizlik və əməkdaşlıq məsələlərində, Xəzərin enerji ehtiyatlarının işlənilməsində Birləşmiş Ştatların xüsusi rolu olmuşdur. Azərbaycan ABŞ-la əməkdaşlığın daha da genişləndirilməsini, xüsusilə humanitar və təhsil sahəsində əlaqələrin daha da güclənməsini istəyir. Dövlətimizin başçısı xüsusilə vurğuladı ki, inkişaf edən Azərbaycanda gənc və enerjili bir nəsil formalaşır. Biz bu gənc nəslin dünyada gedən proseslərdə fəal iştirak etməsini, ingilis dilini mükəmməl öyrənməsini istəyirik. Bu, təhsilin vacib elementlərindəndir.

Prezident İlham Əliyev ABŞ Sülh Korpusunun ölkəmizdə həyata keçirdiyi proqramların uğurla başa çatacağına əminliyini ifadə edərək, bir daha təşkilatın üzvlərinə müvəffəqiyyət arzuladı.

ABŞ Sülh Korpusunun direktoru Qəddi Vasgez təşkilatın fəaliyyəti barədə Prezident İlham Əliyevə ətraflı məlumat verdi. O bildirdi ki, Birləşmiş Ştatların sabiq Prezidenti Con Kennedi tərəfindən əsası qoyulmuş Sülh Korpusu müxtəlif ölkələr və xalqlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə, mədəniyyətlər arasında qarşılıqlı anlaşmaya xidmət edir. Qonaq Azərbaycanda həyata keçirdikləri proqramın humanitar və təhsil sahələrindən əlavə, kiçik sahibkarlığa kömək və müasir texnologiyaların tətbiqi məsələlərini də əhatə etdiyini bildirdi.

Sonda Qəddi Vasgez rəhbərlik etdiyi təşkilatın Azərbaycanda fəaliyyət göstərməsi üçün yaradılan şəraitə və yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür etdi.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ VAŞİNQTONA SƏFƏR ETMİŞDİR

Aprelin 30-da Vaşinqtonda təhlükəsizliyə dair ABŞ-Azərbaycan ikitərəfli dialoqunun növbəti raundu keçirilmişdir. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Araz Əzimov, ABŞ nümayəndə heyətinə isə dövlət katibinin siyasi-hərbi məsələlər üzrə müavini Linkoln Blumfild başçılıq etmişdir. Bir günlük dialoq ərzində tərəflər qlobal terrorla müharibə, təhlükəsizliyə dair ABŞ-Azərbaycan əməkdaşlığı, bölgədə təhlükəsizlik mövzuları ətrafında fikir mübadiləsi aparmış, NATO-nun xüsusi tərəfdaşlıq fəaliyyəti planı təşəbbüsünü müzakirə etmişdilər. Dövlət Departamenti bildirmişdir ki, həyata keçirilən danışıqlar Amerika və Azərbaycan arasında yüksək dostluq və əməkdaşlıq əlaqələrinin göstəricisidir.

Araz Əzimov Vaşinqtonda olduğu müddətdə Konqresdə, Milli Təhlükəsizlik Şurasında, ABŞ-ın Milli Müdafiə Universitetində də bir sıra görüşlər keçirmiş, Azərbaycanla ABŞ arasında siyasi-hərbi tərəfdaşlıq məsələlərinə dair müzakirələr aparmışdır.

O, ABŞ-Azərbaycan Ticarət Palatasında keçirilən "dəyirmi masa"da da iştirak etmişdir. Nazir müavini çıxışında bəyan etmişdir ki, Azərbaycan təkcə Cənubi Qafqazda deyil, sabiq Sovet məkanında ən sabit və inkişaf etmiş ölkələrdən biridir. Xəzər hövzəsinin qapılarını dünyaya məhz Azərbaycanın açdığını xatırladan Əzimov, hazırkı hakimiyyətin ölkənin neft gəlirlərinin xalqın rifahına yönəldilməsi səylərindən söhbət açmışdır.

Azərbaycanın bir sıra beynəlxalq təşkilatlara inteqrasiya etdiyini bildirən Araz Əzimov iyundakı NATO-nun qarşıdakı zirvə toplantısından ölkəmizin gözlədiklərini açıqlayaraq demişdir ki, Alyans Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyü və təhlükəsizliyinə dəstəyini vurğulamalı, Azərbaycanla əməkdaşlığı ikitərəfli tərəfdaşlıq çərçivəsində davam etdirməlidir.

O, Ermənistan-Azərbaycan münaqişəsindən danışarkən Ermənistanı "yanlış xülyalar" yolundan çəkinməyə çağıraraq demişdir: "Münaqişə dondurulmayıb, hələ də davam edir. Biz müharibə ilə həll yoluna üstünlük verən dövlət deyilik, lakin məcbur edildiyimiz halda bundan istifadə edəcəyik". Nazir müavini bildirmişdir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal altında saxlamaqla, bəyan etdiyi kimi, təhlükəsizliyini artırmır. Əksinə, belə vəziyyət Azərbaycan ictimaiyyətini daha da radikallaşdırır. Bu isə, müharibəni başlamaq ehtimalını artırır və Ermənistanın təhlükəsizliyini azaldır.

Araz Əzimov "dəyirmi masa"da iştirak edən hökumət, Konqres, qeyri-hökumət təşkilatları nümayəndələrinin və analitiklərin çoxsaylı suallarına cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Prezident sarayında Gürcüstanın xarici işlər naziri Salome Zurabişvilini və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı Gürcüstanla dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyəsindən məmnunluğunu ifadə edərək, ikitərəfli münasibətlərin durmadan inkişaf etdiyini vurğuladı. O, iki ölkə arasında olan əlaqələri regional əməkdaşlığın nümunəsi kimi dəyərləndirdi, bu əlaqələrin xüsusilə enerji ehtiyatlarının nəqli üzrə irimiqyaslı layihələrdə daha nəzərəçarpan olduğunu xatırladaraq dedi ki, iqtisadi əməkdaşlığın nəticəsi olaraq ölkələrimizdə yeni iş yerləri yaradılır. Prezident İlham Əliyev Gürcüstanın iqtisadi inkişafında və tərəqqisində ölkəmizin maraqlı olduğunu söylədi.

Dövlətimizin başçısı Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı çox səmərəli danışıqların aparıldığını xatırladaraq, bu danışıqların ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını söylədi. Prezident İlham Əliyev dedi ki, sonralar müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycan və Gürcüstan dövlət başçılarının görüşləri zamanı da ikitərəfli əlaqələrin və regional əməkdaşlığın möhkəmlənməsinə dair məsələlər ətrafında geniş fikir mübadilələri aparılmışdır.

Xanım Salome Zurabişvili dövlət rəhbərlərinin görüşlərinin ikitərəfli əlaqələrin möhkəmlənməsində müsbət rol oynadığını vurğuladı. O, Gürcüstanda gedən demokratikləşmə prosesləri, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində görülən işlər barədə ətraflı məlumat verdi. Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfərini ikitərəfli əlaqələrin inkişafında mühüm addım kimi dəyərləndirən qonaq dedi ki, ölkələrimizin Avropaya inteqrasiyası sahəsində birgə səyləri də təqdirəlayiqdir. O, Azərbaycan Prezidentinin xarici siyasətinin və iqtisadi tərəqqi yolunda atdığı addımların bu məqsədə çatmaq üçün gözəl vasitə olduğunu, xüsusilə irimiqyaslı neft və qaz layihələrinin mühüm əhəmiyyət kəsb etdiyini söylədi. Nazir dedi

ki, Gürcüstanla Azərbaycan arasında strateji tərəfdaşlıq, yüksək səviyyədə olan iqtisadi əməkdaşlıq regionun inkişafı üçün xüsusilə vacibdir.

Salome Zurabişvili səmimi qəbula və QİƏT Xarici İşlər Nazirləri Şurasının 10-cu iclası zamanı gördüyü qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Son günlər Azərbaycanın və Türkiyənin bir sıra kütləvi informasiya vasitələri bu il aprelin 29-da Avropa Şurası Parlament Assambleyasının sessiyasında Kiprin türk icmasının nümayəndələrinə AŞPA-nın işində iştirak hüququ verilməsi məsələsinə dair debatlarda Azərbaycan deputatlarının bir qisminin iştirak etmədiyi və guya bununla əlaqədar Azərbaycan-Türkiyə münasibətlərinin "soyuması" barədə məlumat yaymışlar. Bununla əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bəyan edir:

Azərbaycan-Türkiyə münasibətlərinin hər hansı şəkildə "soyumasından" söhbət belə gedə bilməz. Azərbaycan Respublikası və Türkiyə Respublikası çoxəsrlik tarixi, mədəni, dil və digər tellərə əsaslanan möhkəm qardaşlıq və mehriban qonşuluq münasibətləri ilə bağlı olan strateji tərəfdaşdırlar.

Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda Türkiyəyə səfəri iki ölkə arasında mövcud olan münasibətlərin yaxınlığını və beynəlxalq, regional xarakterli bütün məsələlərdə qarşılıqlı dəstəyi bir daha əyani surətdə nümayiş etdirdi. İki dövlətin liderləri arasında yaranmış sıx qarşılıqlı anlaşma əsası son on ildə qoyulmuş ardıcıl siyasətin davam etdirildiyinə sübutdur.

Azərbaycan parlamentinin, əslində, bütün siyasi spektrini təmsil edən azərbaycanlı deputatların bir qisminin Kiprin türk icmasının nümayəndələrinə AŞPA-nın işində iştirak hüququ verilməsi məsələsinə dair debatlarda iştirak etməməsinə gəldikdə, Azərbaycan deputatlarının mövqeyi və bəyanatları ölkə hökumətinin mövqeyini əks etdirmir və Azərbaycan ilə Türkiyə arasında siyasi xəttin dəyişməsi kimi qiymətləndirilə bilməz.

Azərbaycan Respublikası həmişə Kipr məsələsinin tezliklə ədalətli həllinə tərəfdar olmuşdur və həmin məsələnin tənzimlənməsi və BMT-nin himayəsi ilə bu problemin hərtərəfli və həyat qabiliyyətli həllinə nail olunması sahəsində BMT-nin, Avropa Birliyinin, Avropa Şurasının və digər beynəlxalq təşkilatların səylərini dəstəkləyir.

5 may 2004-cü il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Prezident sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Asxat Orazbayı qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı İlham Əliyev qonağı səmimiyyətlə salamlayaraq bildirdi ki, ölkəmiz İƏT-in fəaliyyətində və regional xarakterli bir çox layihələrdə yaxından iştirak edir. Bu əməkdaşlıq gələcəkdə də fəal davamı etdiriləcəkdir. O, ikitərəfli və çoxtərəfli əlaqələr çərçivəsində Azərbaycanla İƏT arasında əməkdaşlığın konkretləşdirilməsini arzu etdiyini bildirdi. Prezident İlham Əliyev dedi: "Azərbaycan regional miqyasda energetika sektorunda, nəqliyyat sahəsində çox fəal əməkdaşlıq aparan ölkədir. Biz ümumi işə gələcəkdə də öz töhfəmizi verəcəyik".

İƏT-in baş katibi Asxat Orazbay səfərinin məqsədindən danışaraq qeyd etdi ki, hazırda İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrə tanışlıq səfərinə çıxmışdır. Qonaq ilk dəfə gəldiyi Bakı haqqında onda gözəl təəssürat yarandığını söylədi.

Asxat Orazbay Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevin xidmətlərindən söz açdı, onun məzarını ehtiramla ziyarət etdiyini bildirərək dedi: "Biz hamımız Prezident Heydər Əliyevi yüksək qiymətləndiririk. O, tarixdə, ilk növbədə, qardaş türkdilli xalqların tarixində böyük iz qoymuşdur".

İƏT-in baş katibi Azərbaycan Prezidenti İlham Əliyevə hökumətdə, nazirliklərdə apardığı danışıqlar, ölkəmizin müxtəlif regional layihələrdə iştirakına dair əldə edilmiş sazişlər barədə məlumat verdi. O, həmçinin bildirdi ki, İƏT dövlətləri başçılarının növbəti zirvə toplantısı sentyabrın 14-də Düşənbədə keçiriləcəkdir. Türkiyə, İran, Qazaxıstan, Qırğızıstan rəhbərləri bu toplantıda iştirak edəcəklərini bildirmişlər. Asxat Orazbay ümidvar olduğunu söylədi ki, Azərbaycan rəhbərinin iş cədvəli ona bu toplantıda iştirak etməyə imkan verəcəkdir.

Prezident İlham Əliyev İƏT-in zirvə toplantısında iştirak etməyə razılığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL TƏMİNAT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Prezident sarayında Türkiyənin əmək və sosial təminat naziri Murat Başesgioğlunu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Türkiyəyə rəsmi səfərinin çox uğurlu keçdiyini, mühüm görüşlər keçirildiyini xatırladaraq dedi ki, biz bütün məsələləri müzakirə etdik və bir daha əmin olduq ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. İki qardaş ölkə həmişə olduğu kimi, indi də bütün məsələlərdə - ikitərəfli, beynəlxalq, regional məsələlərdə bir-birinə kömək göstərir, bir-birini dəstəkləyir. Biz birlikdə çox mühüm iqtisadi layihələri həyata keçiririk. Bir sözlə, mənim bu yaxınlardakı səfərim, bir daha təsdiq etdi ki, ölkələrimiz həmişə olduğu kimi, regional məsələlərdə vahid mövqedən çıxış edir.

Azərbaycan Prezidenti qonağın ölkəmizə səfərini yüksək qiymətləndirərək bildirdi ki, əmək, sosial müdafiə sahəsində bizim oxşar problemlərimiz var. Azərbaycanda bu sahədə böyük planlar, işsizliyin aradan qaldırılması, insanların sosial məsələlərinin həlli istiqamətində atılacaq addımlar haqqında önəmli qərarlar verilmişdir.

Ona göstərilən hörmətə görə dərin minnətdarlığını bildirən və Türkiyədən Prezident İlham Əliyevə səmimi salamlar gətirdiyini vurğulayan dost ölkənin əmək və sosial təminat naziri Murat Başesgioğlu dedi: Türkiyə-Azərbaycan dostluğu tarixi dərin və çox möhkəm olan, gələcək nəsillərin öyünə biləcəyi bir dostluqdur. Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və dövlətçiliyinin möhkəmləndirilməsi sahəsindəki xidmətləri bütün türk dünyasına örnək olmuşdur. Zati-alinizin rəhbərliyi ilə bu səylərin

davam etdiriləcəyinə və daha yüksək səviyyəyə çatacağına ürəkdən inanırıq. Doğrudan da, türk dünyasının bu cür gözəl nailiyyətlərə ehtiyacı vardır. İnşallah, öndərliyinizdə Azərbaycanın həm siyasi, həm də iqtisadi nailiyyətləri bütün türk dünyasına örnək olacaq və hamımızı məmnun edəcəkdir.

Azərbaycanın müstəqilliyini tanıyandan indiyədək Türkiyənin ölkəmizin dünyada özünəməxsus yer tutması sahəsində qət etdiyi yolu iftixarla izlədiyini və bundan sevinc duyduğunu vurğulayan nazir dövlətimizin başçısının Ankaraya son rəsmi səfərinə toxunaraq dedi ki, bu səfər zamanı iki ölkə arasında yaxın işbirliyinin ən yüksək səviyyəyə qalxdığı göründü. Kipr məsələsi ilə bağlı müzakirələrin qızğın vaxtında verdiyiniz bəyanatlarınız, çıxışlarınız Kıpr türklərinə böyük cəsarət vermişdir. Buna görə də Sizə minnətdarlığımızı bildiririk.

Murat Başesgioğlu Azərbaycan və Türkiyənin nazirlikləri arasında sənəd imzalandığını, iki ölkənin sosial müdafiə sahəsində daha irəliyə getməsi üçün çalışmaların davam etdiyini söylədi. O dedi ki, ən önəmli sahələrdən biri kimi bu işdə əməkdaşlıq yaratmaq, təcrübə mübadiləsi etmək üçün müzakirələr aparılır. İnşallah, bu səfərimiz və Sizin apardığımız siyasət Türkiyə-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcək və bu, xalqlarımızın xeyrinə olacaqdır.

Nazir səmimi qəbula görə respublikamızın rəhbərinə bir daha təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MƏRUZƏÇİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının "siyasi məhbuslar" məsələsinə dair məruzəçisi Malkolm Bryusu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev bu yaxınlarda Strasburqa səfərini və orada keçirdiyi görüşləri yüksək qiymətləndirdi. Azərbaycanın üç ildən çoxdur Avropa Şurasının üzvü olmasını, bu təşkilatla çox faydalı qarşılıqlı əməkdaşlığın cəmiyyətimiz üçün əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev ölkəmizdə qanunvericiliyin təkmilləşdirilməsi sahəsində böyük işlər görüldüyünü, Azərbaycanın Avropanın mühüm konvensiyalarına qoşulduğunu bildirdi. O, əmin olduğunu vurğuladı ki, bu səmərəli əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

AŞPA-nın məruzəçisi Malkolm Bryus bildirdi ki, Azərbaycan üçün əlamətdar bir tarixdə və özünün səfəri günlərində 363 nəfərin əfv edilməsi barədə Prezident İlham Əliyevin müdrik fərmanı onda və təmsil etdiyi təşkilatda böyük məmnunluq doğurmuşdur. Qonaq dedi: "Sizin Strasburqda keçirdiyiniz görüşlər və orada etdiyiniz məzmunlu çıxış məndə böyük təəssürat yaratmışdır". Cənab M.Bryus bildirdi ki, bu çıxış Avropa Şurasında çox yüksək qiymətləndirilmiş, böyük müzakirələrə səbəb olmuşdur. Deputatlar bunu tarixi çıxış hesab etmişlər və o, maraqlı məqamları ilə yadda qalmışdır. AŞPA nümayəndəsi dedi: "Xüsusilə Sizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar söylədiyiniz fikirlər anlaşıqlı qəbul olunmuşdur. Ölkənizdə cəmiyyətin demokratikləşməsi prosesi, əfv fərmanının imzalanması bu münaqişənin ədalətli, Azərbaycanın mövqeyinə uyğun şəkildə qəbuluna və dəstəklənməsinə kömək edəcəkdir.

Bütün bu proseslər, Azərbaycanın atdığı addımlar çox konstruktivdir".

Prezident İlham Əliyev səmimi sözlərə görə minnətdarlıq etdi, ötən üç il ərzində Avropa Şurasında müxtəlif məsələlərin, o cümlədən Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirə olunmasını yaxşı hal kimi dəyərləndirərək dedi ki, bu münaqişə təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün böyük təhlükədir. Bu məsələnin Avropa Şurasının gündəliyində olması çox yaxşı haldır. Bütün səylər bu problemin ədalətli həllinə yönəldilməlidir.

Azərbaycan Prezidenti göstərdiyi fəaliyyətə görə qonağa bir daha təşəkkürünü bildirərək, Avropa Şurası ilə qarşılıqlı əməkdaşlığın bundan sonra da davam edəcəyini vurğuladı və dedi ki, konstruktiv əməkdaşlıq göstərir ki, biz layiqli tərəfdaşlarıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Mehdi Səfəri İran Prezidenti Məhəmməd Xatəminin səmimi salamını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı, ölkəsinin dövlət başçısının Azərbaycanla ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini söyləyərək, xüsusilə energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd etdi. Energetika sahəsində əməkdaşlığa dair imzalanmış 17 milyon dollarlıq sazişi iki ölkənin elektrik şəbəkələrinin əlaqələndirilməsi sahəsində mühüm addım kimi dəyərləndirən Mehdi Səfəri təbii qazın nəqli üzrə aparılan işlərin böyük perspektivi olduğunu vurğuladı. Qonaq xüsusilə İran qazının Naxçıvana nəqlinə dair aparılan danışıqların uğurla nəticələnəcəyinə əminliyini ifadə etdi, Astara-Bakı magistral yolunun tikintisinin də iqtisadi əlaqələrin inkişafının bir nümunəsi olduğunu bildirdi.

Diplomat Azərbaycan Prezidentinin İrana səfərini səbirsizliklə gözlədiklərini və bu səfərin ikitərəfli əlaqələrin daha da möhkəmlənməsində böyük rol oynayacağını vurğulayaraq xatırlatdı ki, İranla Azərbaycan arasında dinamik inkişaf edən əməkdaşlığın və Xəzərin statusu ilə əlaqədar danışıqların əsası məhz Prezident Heydər Əliyevin bu ölkəyə səfərindən sonra qoyulmuşdur.

Prezident İlham Əliyev ən xoş və səmimi arzularını İran Prezidenti Məhəmməd Xatəmiyə çatdırmağı xahiş edərək, onunla bir neçə dəfə telefonla əlaqə saxladığını və ötən ilin dekabrında Cenevrədə keçirilmiş İnformasiya Texnologiyaları üzrə Sammit zamanı görüşdüklərini və bir sıra məsələlər ətrafında fikir mübadiləsi apardıqlarını xatırlatdı. Dövlət başçılarının dostluq münasibətlərini çox mühüm amil kimi dəyərləndirən Azərbaycan rəhbəri dedi ki, Prezident Heydər Əliyevlə İranın Prezidenti Məhəmməd Xatəmi arasında da yaxın dostluq əlaqələri olmuşdur. Bütün bunlar ikitərəfli əlaqələrin möhkəmlənməsi üçün gözəl zəmin yaradır.

Dövlətimizin başçısı Prezident Heydər Əliyevin İrana uğurlu səfərini və o vaxt bir sıra birgə layihələr barədə geniş fikir mübadiləsi aparıldığını xatırlatdı, İranla ikitərəfli

əməkdaşlığın möhkəmləndirilməsi siyasətinin davam etdiyini və bunun Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri olduğunu vurğuladı. Energetika, nəqliyyat, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində hər iki ölkənin maraqlı olduğunu söyləyən Prezident İlham Əliyev dedi ki, mövcud birgə layihələr müvəffəqiyyətlə başa çatdırıldıqdan sonra digər layihələr də hazırlanıb həyata keçirilməlidir. Xüsusilə yüksəkgərginlikli elektrik xətlərinin tikintisi üzrə layihələrin böyük perspektivləri vardır. Blokadada olan Naxçıvana təbii qaz verilməsi layihəsinin xüsusi əhəmiyyət daşıdığını söyləyən Prezident İlham Əliyev, bu layihənin başa çatdırılmasının çox soyuq qışı olan muxtar respublika əhalisinin yaşayış şəraitini xeyli yaxşılaşdıracağını vurğuladı.

Azərbaycan Prezidenti yaxın zamanlarda İrana səfər edəcəyini və İran Prezidenti Məhəmməd Xatəmini də tezliklə Bakıda gözlədiyini bildirdi və qarşılıqlı səfərlərin bu il baş tutacağına ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Belçikaya işgüzar səfərə gəlmişdir.

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİ İLƏ GÖRÜŞÜ

Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşmüşdür.

Cənab Romano Prodi Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük səmimiyyətlə qarşıladı, onunla ilk dəfə görüşmək imkanından məmnun olduğunu vurğuladı. Onlar Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Söhbət zamanı, əsasən, "Avropa qonşuluq siyasəti" proqramı və Azərbaycanın ona cəlb edilməsi ətrafında fikir mübadiləsi oldu. Romano Prodi dedi ki, bu gündən etibarən Avropa Komissiyası ilə Azərbaycan arasında geniş əməkdaşlıq başlayır və biz bu ölkənin Dünya Ticarət Təşkilatına üzv qəbul olunmasını, Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyirik. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, bu problemin hələ də həll olunmamasından Avropa Komissiyasının narahatlığını söylədi və bildirdi ki, biz münaqişənin ədalətlə aradan qaldırılması üçün Minsk qrupunun fəaliyyətinin nəticələr verməsini istəyirik.

Azərbaycan Prezidenti İlham Əliyev Avropaya inteqrasiyanın ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən olduğunu xatırlatdı və bu sahədə görülən məqsədyönlü tədbirlərdən danışdı. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi Cənubi Qafqazda öz nümayəndəsini təyin etmişdir. Həmin nümayəndə Azərbaycanın "Avropa qonşuluq siyasəti" proqramına qoşulmasını tövsiyə edib və biz bunu yüksək qiymətləndiririk. Prezident İlham Əliyev Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar və onların uğurlu nəticələri barədə də məlumat verdi. Azərbaycan rəhbəri Dağlıq Qarabağ problemindən

söhbət açaraq dedi ki, biz öz ərazi bütövlüyümüzü bərpa etmək əzmindəyik. Məsələnin ədalətli həllində Minsk qrupu daha fəal olmalıdır. Azərbaycan bu istiqamətdə Avropa Birliyinin, Avropa Şurasının və digər təşkilatların kömək göstərməsini arzulayır. Avropanın bir hissəsi olan, "Avropada qonşuluq siyasəti"nə qoşulan Azərbaycana qarşı Ermənistanın təcavüzünə dözmək olmaz.

* * *

Sonra görüş iştirakçıları mətbuat nümayəndələri üçün brifinq keçirdilər. Cənab Romano Prodi və Prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.

AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN ÇIXIŞI

- Birincisi, deyim ki, bu, Prezident İlham Əliyevin Brüsselə, Avropa Birliyinə ilk səfəri idi və mən bu görüşdən olduqca məmnunam. Mən məmnuniyyətlə demək istəyirəm ki, bu gün biz ümumi məsələləri, məqsədləri müzakirəyə çıxardıq. Çox açıq müzakirələrimiz oldu. İlk əvvəl görüşün çərçivəsi "qonşuluq siyasəti" ilə bağlı idi. Bildiyiniz kimi, uzun müzakirələrdən sonra Avropa Birliyi üç Cənubi Qafqaz ölkəsini öz "qonşuluq siyasəti"nə daxil etmişdir. Bu da AB ilə Azərbaycan arasında dərin, artan əməkdaşlıq strategiyası deməkdir. Aydındır ki, bu iqtisadi-siyasi əməkdaşlıqdır. Bu, bizim təsisatlara, siyasi dəyərlərə, hüquqlara hörmətə, ümumi siyasi strategiyaya yaxınlaşmaqdan ötrü aparılan uzun-uzadı danışıqlar deməkdir.

Beləliklə, Azərbaycanın dostlar cərgəsinə daxil olması çox sevindiricidir. Deyə bilərəm ki, bu, bizim davamlı əlaqələrimizin yalnız başlanğıc görüşü idi. Bu gündən etibarən bu əlaqələrin yeni mərhələsi başlayır. Bu, həm də o deməkdir ki, biz Azərbaycanın dünya Ticarət Təşkilatına yaxınlaşmaq üzrə atdığı addımlarını da dəstəkləyirik. Bundan sonra çiyin-çiyinə işləyib xarici ticarət sahəsindəki fəaliyyəti də şaxələndirməyə çalışacağıq. Energetika sahəsində əməkdaşlıq edəcəyik.

Görüşümüzün ikinci hissəsində biz Dağlıq Qarabağ münaqişəsini dərindən təhlil və müzakirə etdik. Biz narahatıq ki, 10 ildən çoxdur ki, məsələ uzanır və sülh yolu ilə həll olunmur. Artıq 10 ildən çoxdur ki, sülh yoxdur. Aydındır ki, biz Minsk qrupunun işinə qarışmaq istəmirik. Amma təkidlə inandırır və təzyiq edirik ki, bu qrup müəyyən nəticə ilə işləsin. Mən arzu və iradəmi ifadə edərək bildirdim ki, biz hər iki tərəfin, ölkənin sərəncamındayıq. Minsk qrupuna məsələnin həllində əlimizdən gələn köməyi etməyə hazırıq. Çünki, həqiqətən, dost deyiriksə, bu cərgədə olan ölkələrin hamısı əsl dost olmalıdır. Dostluğa xələl gətirə bilən problemlər olmamalıdır. İqtisadi və siyasi əməkdaşlıq olmalıdır. Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Ən əvvəl istərdim ki, Avropa Birliyinə məni dəvət etdiyinizə görə minnətdarlığımı bildirim. Azərbaycanın Avropa strukturlarına inteqrasiya strategiyası davam edir. Bugünkü səfər bu strategiyanı bir daha təsdiq edir. Biz bu seçimi 10 il əvvəl etmişik. Azərbaycan Avropaya fəal inteqrasiya istiqamətində sürətlə irəliləyir. Avropa Birliyinin Cənubi Qafqaz məsələləri ilə məşğul olan xüsusi nümayəndəsinin təyin edilməsi və xüsusilə də yeni "qonşuluq siyasəti"ndə Cənubi Qafqaza ayrılan diqqət göstərir ki, Avropa Birliyi

bizim regionda təmsil olunmuş ölkələrlə əlaqələrə xüsusi əhəmiyyət verir.

Azərbaycan iqtisadiyyatın inkişafı sahəsində böyük addımlar atmışdır. Biz ölkəmizdə siyasi, sosial və iqtisadi islahatlar keçiririk. Azərbaycandakı vəziyyət hər il yaxşılığa doğru dəyişir. Biz enerjidaşıyıcılarının inkişafı, nəqli məsələlərini, həm də Avropa Birliyi ilə Azərbaycan arasında münasibətləri və əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məsələləri müzakirə etdik. Əsas müzakirə mövzularının biri elə bu idi. Azərbaycan münaqişənin sülh yolu ilə həll olunması siyasətini davam etdirmək niyyətindədir. Amma eyni zamanda, bu həll yolu beynəlxalq hüququn hamı tərəfindən tanınmış və qəbul olunmuş prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır. Minsk qrupunun münaqişəni həll etməkdə vasitəçilik mandatı var, biz bu qrupun daha fəal iştirakına ümid bəsləyirik. Ümid edirik ki, Minsk qrupu məsələnin həlli yolunun axtarılmasını davam etdirəcəkdir. Amma eyni zamanda, Azərbaycan digər Avropa qurumlarının və ilk növbədə, Avropa Birliyinin bu məsələdə daha fəal mövqe tutacağına da ümid bəsləyir. Biz özümüzü Avropanın bir hissəsi hesab ediriksə, həm Azərbaycan, həm də Ermənistan bu yeni "qonşuluq siyasəti"nin çərçivəsindədirsə, bir ölkənin digər ölkənin ərazilərini işğal etməsinə son qoyulmalıdır. Bu, Avropa ailəsinə xas olan davranış tərzi deyildir. Hər bir ölkə digər ölkələrin ərazi bütövlüyünü tanımalıdır. Əlbəttə ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal çıxarılması məsələnin sülh yolu ilə həllinin əsas şərtlərindən biridir. Bir daha Avropaya inteqrasiya siyasətimizi təsdiq etmək istəyirəm. Ümidvaram ki, Avropanın bütün ölkələrinin naminə münasibətlərimiz gələcəkdə davam etdiriləcəkdir.

Sağ olun!

* * *

Sonra jurnalistlərin suallarına cavab verildi.

SUAL: Nəyə görə Avropa Birliyi Cənubi Qafqazda mövcud olan separatizmə diqqət yetirmir? Avropa Birliyi Dağlıq Qarabağ məsələsinin həllində hansı rolu oynaya bilər?

ROMANO PRODİ: Biz bu məsələni sadədən mürəkkəbədək ətraflı müzakirə etmişik. Belə münaqişənin mövcudluğundan təəssüflənirik. Ümumiyyətlə, "qonşuluq siyasəti"ndə bu 3 ölkəni görmək istəməyimiz o deməkdir ki, onların arasında münaqişə olmasını istəmirik. Nəyi bacarırıqsa edəcəyik ki, münaqişələr həll olunsun. Bu işlə məşğul olan xüsusi qrup var - Minsk qrupu. Biz istəməzdik ki, onların işinə qarışaq. Onları narahat etmək istəmirik, amma təzyiq edəcəyik. Çünki neçə ildir ki, bu işlə məşğul olurlar, amma nəticə yoxdur. Avropa Birliyi məsələnin həllini təcili hesab edir. Əgər bizdən xahiş olunarsa, bizə müraciət edilərsə, biz sizin ixtiyarınızdayıq. Əlbəttə ki, bizə məsələnin həllini sürətləndirməklə bağlı müraciət olunarsa.

SUAL: Cənab Prodi, Sizin iştirakınızla bağlı kim müraciət etməlidir? Ermənistan və Azərbaycanın "qonşuluq siyasəti"nə cəlb olunmasından əvvəl Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi ilə bağlı Prezident İlham Əliyevin bəyanatına münasibətiniz necədir?

Prezident Əliyev, Dağlıq Qarabağla bağlı son görüşlərdən sonra atılacaq addımlar necə olacaq?

ROMANO PRODİ: Biz detallara varmamışıq. Amma arzumuzu ifadə etmişəm ki, hər iki ölkənin sərəncamındayıq və kömək edə bilərik. Bu mərhələdə müsbət təklif verə bilmirik. Sadəcə, tərəfləri razılığa çağırırıq və deyirik ki, müraciət olunarsa, ixtiyarınızdayıq. Elə bilirəm ki, bunun özü elə bizim tərəfimizdən müsbət addımdır. Münaqişədə olan ölkələrin siyasi müstəqilliyinə və seçiminə göstərdiyimiz hörmətdir.

İLHAM ƏLİYEV: Mən elə bilirəm ki, sülh dialoqunun davam etdirilməsi üçün Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin görüşləri vacibdir. Dialoqun davamı yaxşı göstəricidir. Amma eyni zamanda, biz həmişə deyirik ki, danışıqlar yalnız danışıq obyekti ola biləcək halda aparıla bilər. Gündəlikdə müzakirə olunacaq mövzu yoxdursa, biz düşünmürük ki, yalnız danışıqlar xatirinə və yaxud da danışıqlar görüntüsü yaratmaq xatirinə danışıqları davam etdirmək lazımdır. Əgər müzakirə olunacaq məsələ varsa, danışıqlar prosesində olacağıq. Mən elə düşünürəm ki, xarici işlər nazirlərinin görüşləri mövzunu geniş səpkidə müzakirə etməyə imkan verir. Biz belə fikirdəyik ki, görüşlər davam etdirilməlidir və ümidvarıq ki, bu görüşlər nəticə verəcəkdir.

SUAL: Cənab Əliyevə sual. Cənab Prodi dedi ki, siz xahiş etsəniz Avropa Birliyi məsələ ilə məşğul olacaqdır. Nə zaman xahiş edəcəksiniz?

İLHAM ƏLİYEV: Biz artıq müraciət etmişik. Bugünkü görüş zamanı bir daha müraciət etdik. Əlbəttə, hamımız anlamalıyıq ki, Minsk qrupunun ATƏT-dən mandatı var və heç kim bu mandatı şübhə altına almır. Minsk qrupu məsələnin sülh yolu ilə həll olunması üçün mümkün yol axtarır. Eyni zamanda, biz düşünürük ki, Avropa qurumları, Avropa təşkilatları, - Avropa Birliyi, Avropa Şurası, habelə Avropa ictimai rəyi də prosesə qatıla, sülh yolu ilə həll tapmaq imkanlarına təsir edə bilər. Biz heç də nəzərdə tutmuruq ki, hansısa ölkə və yaxud da qurum Minsk qrupuna alternativ olacaqdır. Biz bu məsələyə geniş beynəlxalq diqqət ayrılmasını istəyirik. Sağ olun!

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ GENİŞLƏNMƏ ÜZRƏ ÜZVÜ GÜNTER VERHOGEN İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşmüşdür.

Cənab Günter Verhogen dövlətimizin başçısını Avropa Komissiyasının iqamətgahı önündə böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyev və cənab Günter Verhogen binanın foyesində, Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Sonra təkbətək görüş keçirildi. Söhbət zamanı Azərbaycan-Avropa Komissiyası əməkdaşlığı və onun perspektivlərinə dair müzakirələr aparıldı. Cənab Günter Verhogen bildirdi ki, Avropa Komissiyası özünün yeni proqramı olan "Avropa qonşuluq siyasəti"nə Azərbaycanı da cəlb etmək niyyətindədir və bu, Azərbaycanın iqtisadi və digər sahələrdə inkişafı üçün faydalı ola bilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlar prosesinin gedişi, Cənubi Qafqaz regionunda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi edildi.

Cənab Günter Verhogen dövlətimizin başçısı ilə görüşməkdən şərəf duyduğunu vurğuladı və Prezident Heydər Əliyevin Azərbaycanın inkişafı sahəsində göstərdiyi xidmətləri vaxtilə yaxından izlədiyini bildirdi.

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ LOYOLA DE PALASİO İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyası sədrinin müavini, energetika, nəqliyyat və Avropa Parlamenti ilə əlaqələr üzrə üzvü xanım Loyola De Palasio ilə görüşmüşdür.

Prezident İlham Əliyev ilə görüşmək imkanından məmnun olduğunu bildirən xanım Loyola De Palasio son illərdə Azərbaycanda həyata keçirilən mühüm işləri vurğuladı, bunların Avropa Komissiyası tərəfindən yüksək qiymətləndirildiyini, dövlətimizin başçısının demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsindəki fəaliyyətinin faydalı olacağını söylədi.

Görüşdə TRACECA proqramının, Xəzərin enerji ehtiyatlarının işlənilməsinə dair imzalanmış müqavilələrin həyata keçirilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi barədə söhbət getdi. "Şahdəniz" yatağından çıxarılacaq qazın Avropaya nəqli məsələsi diqqət mərkəzində oldu. Xanım Loyola De Palasio dedi ki, biz bu layihəyə böyük əhəmiyyət veririk və Avropa Komissiyası Azərbaycan qazının Türkiyə və Yunanıstan vasitəsilə Avropaya çatdırılması üçün öz köməyini əsirgəməyəcəkdir. O, bunu da bildirdi ki, Avropa Komissiyası "Avropada qonşuluq siyasəti" strateji sənədini bu il mayın 12-də hazırlamış və Avropa Birliyinə göndərmişdir. İyunun sonunda həmin sənəd Avropa Parlamentində müzakirə olunacaqdır.

Prezident İlham Əliyev ölkəmizdə aparılan iqtisadi islahatların müsbət nəticələrindən, əsas ixrac boru kəmərinin tikintisinin gedişindən danışdı. Azərbaycanın TRACECA layihəsinə böyük əhəmiyyət verdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan "Şahdəniz" yatağından hasil ediləcək qazın tezliklə Avropa bazarlarına çatdırılmasında maraqlıdır. Azərbaycan Prezidenti dedi ki, ölkəmiz Avropa strukturlarına inteqrasiyanı öz siyasətinin mühüm istiqamətlərindən biri hesab edir.

PREZİDENT İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ Gİ VERHOFSTADT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə - Belçika Kralлığı Baş nazirinin iqamətgahında bu ölkənin hökumətinin başçısı Gi Verhofstadt ilə görüşmüşdür.

Prezident İlham Əliyevi səmimiyyətlə salamlayan cənab Gi Verhofstadt Azərbaycan ilə Belçika arasında ikitərəfli əlaqələrin inkişaf dinamikasından məmnunluğunu söylədi və bu ilin oktyabrında ölkəsinin iş adamlarının respublikamıza səfərinin iqtisadi əməkdaşlığın genişlənməsinə böyük təsir göstərəcəyini vurğuladı.

Belçikaya səfərindən razılığını bildirən Prezident İlham Əliyev ikitərəfli münasibətlərin gələcəkdə də inkişaf edəcəyinə əmin olduğunu söylədi. Dövlətimizin başçısı

1995-ci ildən Brüsseldə Azərbaycanın səfirliyinin uğurla fəaliyyət göstərdiyini xatırladaraq dedi ki, Belçikanın da Bakıda səfirliyinin açılması zəruridir.

Prezident İlham Əliyev Azərbaycanda əldə olunmuş nailiyyətlərdən, o cümlədən iqtisadiyyata xarici sərmayə qoyuluşu, neft və qeyri-neft sektorlarının inkişafı barədə söhbət açdı. Azərbaycanın regionda və ümumən Avropa miqyasında oynadığı rol haqqında danışdı.

Baş nazir Gi Verhofstadt Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə də maraqlandı. Prezident İlham Əliyev uzun sürən bu problemin sülh yolu ilə həllinə dair aparılan danışıqlar barədə məlumat verdi. Belçika hökumətinin başçısı bu məsələnin həllində ölkəsinin səylərini əsirgəməyəcəyini bildirdi.

Səmimilik və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi edildi.

AZƏRBAYCAN-BELÇİKA SƏNƏDLƏRİNİN İMZALANMASI

Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikası ilə Belçika Kralлığı arasında sənədlərin imzalanma mərasimi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev və Belçikanın Baş naziri Gi Verhofstadt ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında konvensiyanı, sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında sazişi, gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardım göstərilməsi haqqında ikitərəfli sazişi imzaladılar.

PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Birliyinin iqamətgahına gəldi. Binada Azərbaycan Respublikasının dövlət bayrağı asılmışdı.

AB Şurasının baş katibi, AB-nin ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Avropa Birliyinin iqamətgahında "Avropa Birliyinə yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol"un imzalanma mərasimi oldu. Sənədi AB tərəfindən İrlandiyanın AB yanında daimi nümayəndəsi xanım Ann Anderson və Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Mayk Li, Azərbaycan tərəfindən ölkəmizin AB yanında daimi nümayəndəliyinin başçısı səfir Arif Məmmədov imzaladılar.

Sənədin imzalanmasından sonra Avropa Birliyinin iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyev ilə AB Şurasının baş katibi Xavyer Solana arasında görüş oldu.

Prezident İlham Əliyev ölkəmizdə gedən proseslərdən, əldə edilmiş nailiyyətlərdən danışdı, Azərbaycanda sabitliyin tam bərqərar olduğunu, sosial-iqtisadi inkişafın sürətləndiyini bildirdi. Dövlət başçısı seçildiyi vaxtdan ötən yeddi ay ərzində üçüncü əfv fərma-

nı imzaladığını xatırladan Prezident İlham Əliyev cəmiyyətdə dialoqun tərəfdarı olduğunu vurğuladı.

Azərbaycanda gedən proseslərdən məmnunluğunu söyləyən cənab Solana Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə də maraqlandı. Prezident İlham Əliyev bu barədə ətraflı məlumat verərək bildirdi ki, hazırda inşaat işləri uğurla davam edir. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsindən məmnunluğunu bildirdi.

Söhbət zamanı regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə ətraflı fikir mübadiləsi aparıldı.

Görüşdən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi.

Cənab Xavyer Solana və Prezident İlham Əliyev qısa bəyanatlarla çıxış etdilər.

XAVYER SOLANA: Hər vaxtınız xeyir. İcazə verin, görüşümüz haqqında qısaca deyim. Mənim üçün doğrudan da, burada, Brüsseldə ilk dəfə olaraq, Prezident İlham Əliyevi qəbul etmək, həqiqətən, çox xoş oldu. Onunla bir müddət əvvəl, o, hələ digər məsul vəzifəni icra edərkən görüşmək imkanım olmuşdur. Mən siyasi həyatım boyu bir neçə dəfə Azərbaycana səfər etmişəm. Ölkəni, Bakını görə bilmişəm və o gözəl şəhərə, o füsunkar ölkəyə səfərlərimi ürəyimə çox yaxın ülvi xatirələrdə saxlayıram. Bu gün Prezidentlə Avropa Birliyi və Azərbaycan arasındakı münasibətləri təhlil etdik. Eyni zamanda, son müddət ərzində baş verən inkişafa daha çox təsir etmək, münasibətləri daha da irəli aparmaq yollarını nəzərdən keçirdik. Ölkədəki müsbət iqtisadi proseslər bizi valeh edir, mən energetika layihələrini nəzərdə tuturam. Möhkəm ikitərəfli münasibətləri davam etdirmək təkcə siyasi baxımdan deyil, iqtisadi baxımdan da bizim üçün həmişə maraqlı olacaqdır. Beləliklə, mən istərdim ki, Prezidentə bu səfərə görə minnətdarlığımı bildirim və Sizə, cənab Prezident, həm siyasi, həm şəxsi həyatımızda ən xoş arzularımı yetirirəm. Ölkənizə xoşbəxtlik arzulayıram.

İLHAM ƏLİYEV: Çox sağ olun, cənab baş katib. Bəli, biz Bakıda bir neçə dəfə görüşmüşük. Cənab baş katib ölkəmizi bir neçə dəfə ziyarət edib və məmnunuq ki, Azərbaycanda gedən proseslər barədə xoş təəssüratı var. Bu gün burada, Avropa Birliyində Prezident kimi baş katiblə görüşməyim mənim üçün böyük şərəfdir.

Bugünkü günüm çox səmərəli oldu. Səhər lap tezdən keçirdiyim bütün görüşlər, cənab baş katiblə bu görüş də daxil olmaqla, bir daha göstərdi ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz uğurla davam edir. Bu, bizim strateji seçimimizdir. Azərbaycan gələcəyini Avropa ailəsində görür. Əlbəttə ki, biz əlimizdən gələni edəcəyik ki, Avropanın bütün meyarlarına cavab verək.

Bizim müxtəlif sahələrdə - həm nəqliyyatda, həm energetika sahəsində, ümumiyyətlə, iqtisadiyyatda əməkdaşlığımız olduqca uğurludur və biz bu münasibətləri qətiyyətlə davam etdirmək əzmindəyik. Biz Avropa Birliyinin ölkəmizə, ümumiyyətlə, bütün Cənubi Qafqaza yetirdiyi diqqətə çox hörmətlə yanaşırıq. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunması və Cənubi Qafqaz ölkələri ilə yeni qonşuluq proqramı göstərir ki, bizim bölgə yaddan çıxmayıbdır, maraq dairəsindədir. Bölgəmizdəki ölkələrlə Avropa Birliyinin münasibətləri olduqca böyük əhəmiyyət kəsb edir. Mən Azərbaycanın adından çıxış edirəm və şübhə olmasın ki, bizim ölkəmiz bu istiqa-

mətdə siyasətini davam etdirəcəkdir. Daha möhkəm münasibətlərə, daha yüksək səviyyəli əməkdaşlığa və daha sıx inteqrasiyaya çalışacaqdır.

Mən qonaqpərvərliyə görə cənab Solanoya şəxsən minnətdarlığımı bildirmək istəyirəm. Çox gözəl söhbətimiz oldu. Bir çox məsələləri əhatə etdik. Əminəm ki, gələcək görüşlərimiz, Bakıda keçirəcəyimiz görüşlər də bu görüş kimi səmərəli olacaqdır. Sağ olun.

SUAL: Dağlıq Qarabağ mövzusunu müzakirə etdinizmi? Belə görünür ki, ATƏT məsələnin həlli ilə bağlı uğur əldə edə bilmir. Avropa Birliyi ATƏT-dən fərqli addım ata bilərmi?

İkinci sual. Azərbaycanın uğrunda çalışdığı yeni qonşuluq proqramının Dağlıq Qarabağ məsələsinə təsiri necə ola bilər?

XAVYER SOLANA: Əlbəttə, biz Dağlıq Qarabağ mövzusunu müzakirə etdik. Bu, bizi uzun müddətdir narahat edən mövzudur. Doğrudur ki, bu məsələdə tərəqqinin əldə olunması nəzərə çarpmır. Biz istərdik ki, danışıqların irəliyə getməsini görək. Ümid edirik ki, son vaxtlar keçirilən görüşlər, təkcə prezidentlərin görüşləri yox, xarici işlər nazirlərinin də ünsiyyətləri prosesə töhfə verəcək, bu prosesi yerindən tərpətməyə başlayacaqdır. Prezidentə bunu söz vermişəm, əlimizdən nə gəlirsə, çalışacağıq edək.

Doğrudur ki, ölkələrə təklif etdiyimiz yeni qonşuluq layihəsi Avropa Birliyinin prosesə qatıla bilməsinə yardım edəcəkdir. Amma o da doğrudur ki, proseslə ATƏT-in Minsk qrupu məşğul olur. Biz kömək edə, biz əməkdaşlıq edə bilərik. Amma bu işlə birbaşa Minsk qrupu məşğuldur.

SUAL: Cənab Prezident və cənab Solana, Avropa Birliyi ilə Azərbaycan arasındakı siyasi və iqtisadi münasibətləri qənaətbəxş hesab edirsinizmi?

İkinci sualım. Cənab Solana, üç Qafqaz ölkəsindən hansı Sizə daha yaxındır?

XAVYER SOLANA: Siz istəyirsiniz ki, mən üçündən birini seçim. Bilirsiniz ki, mən çox qəliz siyasətçiyəm, bunu etməyəcəyəm.

İcazə verin, deyim ki, Azərbaycanla münasibətlərimiz çox yaxşıdır. Yaxın gələcəkdə Azərbaycanın iqtisadi perspektivi çox-çox ümidvericidir, çox parlaqdır, olduqca gözəldir. Ona görə də əlaqələr artacaqdır. Buna şübhə ola bilməz. Ölkənin irəliləyişi, enerji ehtiyatlarının nəzərə alınması ilə nəqliyyat sistemlərinin inkişafı, infrastrukturun şaxələnməsi, Türkiyə, Yunanıstan vasitəsilə Avropa ölkələrinə daşımaların həcminin artması ümidvericidir. Ona görə də münasibətlərdə inkişaf olacaqdır. Bu gün yaxşıdır. Amma daha vacibi sabah bundan da yaxşı olmasıdır.

Əvvəl dediyim kimi, ikinci sualınıza cavab verməyəcəyəm.

İLHAM ƏLİYEV: Mən istərdim əlavə edim ki, Avropa Birliyi ilə münasibətlərimiz, iqtisadi münasibətlərimiz uğurla inkişaf edir. Təkcə 2003-cü ildə ticarət əlaqələrimiz 40 faiz artmışdır. Bu, yaxşı dinamikanın göstəricisidir. Azərbaycan iqtisadiyyatı artan ölkədir. İqtisadi potensialımız artır. Əlbəttə, bunun nəzərə alınması ilə gələcəkdə daha geniş, daha fəal iqtisadi əməkdaşlıqdan danışmaq olar.

Mən həm də istərdim ki, birinci sualla - Dağlıq Qarabağla bağlı şərhimi verim. Biz he-

sab edirik ki, Avropa Birliyi bu yöndə çox vacib rol oynayır. Əlbəttə ki, məsələ ilə bağlı ATƏT-in Minsk qrupunun mandatı var. Biz bu mandatı əvəz etmək fikrində deyilik. Amma eyni zamanda, Azərbaycan qəti inanır ki, daha geniş beynəlxalq diqqət, Avropa strukturlarının diqqəti və Avropa ictimaiyyətinin rəyi münaqişənin sülh yolu ilə və tezliklə həll olunması istiqamətində kömək etmiş olar.

Fürsətdən istifadə edərək, bu problemlə bağlı fəal iştirakına görə Avropa Birliyinin rəhbərliyinə bir daha minnətdarlığımı bildirirəm. Çox sağ olun.

BRÜSSELDƏ "DƏDƏ QORQUD" ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Mayın 18-də Brüsseldə, Dünya Gömrük Təşkilatının (DGT) iqamətgahı qarşısında "Dədə Qorqud" abidəsinin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün DGT-nin iqamətgahına gəldi. Dövlətimizin başçısını burada DGT-nin baş katibi Mişel Dane böyük ehtiramla, səmimiyyətlə qarşıladı. Azərbaycan diasporunun nümayəndələri, Belçika Azərbaycan Evinin təmsilçiləri, səfirliyin əməkdaşları respublikamızın rəhbərini hərarətlə salamladılar, ona gül dəstəsi təqdim etdilər.

Milli geyimli azərbaycanlı oğlan və qız "Dədə Qorqud" abidəsinin üzərindəki örtüyü götürdülər. Heykəltəraş Namiq Zeynalovun hazırladığı abidə Belçika Azərbaycan Evinin rəhbəri Büləndd Gurcanın təşəbbüsü ilə qoyulmuşdur.

Abidənin yanındakı lövhədə Azərbaycan, ingilis və fransız dillərində verilmiş yazıda deyilir: "Dədə Qorqud Azərbaycan xalqının əcdadı olan qədim oğuzların baş bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu simasıdır. Haqq-ədalət, barışıq carçısı olub. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının, bütün türkdilli xalqların qədim və möhtəşəm abidəsidir. Elm aləminə iki nüsxəsi məlumdur. Bunlardan biri Drezden, ikincisi Vatikan kitabxanasındadır. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildə Bakı şəhərində bütün türkdilli xalqların mədəni irsinin qədim və ayrılmaz hissəsi, Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley mərasimi təntənəli surətdə keçirilmişdir. Eyni zamanda, "Kitabi-Dədə Qorqud" eposunun yaranmasının 1300 illiyi UNESCO xətti ilə dünya miqyasında qeyd edilmişdir".

Mərasimi Dünya Gömrük Təşkilatının baş katibi Mişel Dane açdı.

DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ MİŞEL DANENİN ÇIXIŞI

- Cənab Prezident!

Cənab səfirlər!

Xanımlar və cənablar!

Bu gün bizim üçün, doğrudan da, böyük hadisədir. Dünya Gömrük Təşkilatı üçün təntənəli bir gündür ki, Azərbaycan Prezidenti zati-alilləri cənab İlham Əliyevi qəbul edirik.

Siz Avropanın paytaxtındasınız və bilirəm ki, Prezidentin iş cədvəli çox sıxdır və çoxlu görüşləri var. Ona görə bizim üçün böyük şərəfdir ki, Azərbaycan Prezidenti vaxt tapa-

raq, Dünya Gömrük Təşkilatının iqamətgahına gəlmişdir. Biz bundan şərəf, məmnunluq duyur və təşkilatımızın 162 üzvü adından Sizə öz təşəkkürümüzü bildiririk.

Qloballaşma prosesləri gedən müasir dünyada Azərbaycan bizimlə ikitərəfli münasibətləri çox açıq aparmışdır. Ölkəniz bu təşkilatın işində həmişə fəal iştirak edir və biz sizin yardımınızı həmişə hiss etmişik.

Azərbaycanın gömrük təşkilatı ilə DGT arasında ikitərəfli münasibətlər sürətlə inkişaf edir və buna görə, ilk növbədə, atanız Prezident Heydər Əliyevə minnətdarıq. Eyni zamanda, Sizin Prezidentliyiniz dövründəki əlaqələrimizə görə də təşəkkür edirik. İlk növbədə, keçən il Bakıda açdığımız təlim mərkəzini və yanvar ayında Böyük İpək yoluna həsr etdiyimiz tədbirimizi xatırlatmaq istərdim.

Cənab Prezident, bizim təşkilat barədə Sizin kifayət qədər məlumatınız, eyni zamanda DGT-yə öz baxışınız var. Sizin həyata keçirdiyiniz siyasəti bu sahədəki təşkilatımızın sədri cənab Kəmaləddin Heydərov yerinə yetirir. Bu, regionda və dünyada mühüm rolu olan bizim təşkilata böyük dəstəkdir. Biz bilirik ki, islahatlar heç vaxt qurtarmır, ona görə Sizin bütün təşəbbüslərinizi bəyənir və apardığınız islahatları dəstəklədiyimizi bir daha bildiririk.

Bu binanın qarşısında "Dədə Qorqud" abidəsinin açılması o deməkdir ki, Azərbaycanın mədəniyyətini təmsil edən abidə Dünya Gömrük Təşkilatına daha böyük bir önəmlilik verir. Mən bilirəm ki, bu abidə Sizin üçün çox dəyərlidir. Siz burada öz evinizdə, dostlarınızın, soydaşlarınızın arasındasınız. Bura Azərbaycan evi deyil, amma burada Azərbaycanın ürəyi döyünür. Ümid edirik ki, Sizin başçılığınız altında ölkəniz sülh və tərəqqiyə nail olacaqdır.

Bir daha çox sağ olun ki, buraya gəlmisiniz.

GÖRKƏMLİ QAZAX ƏDİBİ, QAZAXISTANIN UNESCO-DAKI DAİMİ NÜMAYƏNDƏSİ OLJAS SÜLEYMENOVUN ÇIXIŞI

- Cənab Prezident!

Cənab Mişel Dane!

Əziz dostlar!

Mənə bütün türkdilli dövlətlərin yazıçıları adından çıxış etmək şərəfi nəsib olmuşdur. Bu gün bizim hamımız üçün böyük gündür. Bax, gördüyünüz bu abidə "Dədə Qorqud"un ən qədim əlyazmalarını Vatikanda və Drezdendə qoruyub saxlamış mədəni Avropaya ehtiramın əlamətidir.

Bu gün biz mədəniyyətin böyük himayədarını, yaxınlarda həyatdan getmiş Heydər Əliyevi xatırlayırıq. "Dədə Qorqud" kitabının oxucusu olaraq mən bu abidənin müəlliflərinə, yaradıcılarına, xüsusən cənab Mişel Dancyə, onun azərbaycanlı həmkarlarına bu gün bizim hamımıza belə bir hədiyyə bəxş etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm.

Fürsətdən istifadə edərək, Böyük Müəllimimizin işlərinin layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevi salamlamaq istəyirəm.

Dədə Qorqud Azərbaycan xalqının neçə-neçə nəslinə həyat xeyir-duası vermişdir. Onun xalqa və bütün bəşəriyyətə ünvanlanmış belə sözləri var: "Qarlı qara dağların yıxılmasın! Allah verən ümidin üzülməsin!" Qoy bu sözlər gerçək olsun. Amin!

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Mən bu gün burada, Ümumdünya Gömrük Təşkilatının binası qarşısında olmaqdan və Dədə Qorqudun abidəsinin açılmasından çox xoşbəxtəm. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var.

1997-ci ildə Azərbaycanın Prezidenti Heydər Əliyev Dədə Qorqud dastanının 1300 illiyinin rəsmi qeyd olunması barədə Fərman imzaladı və 2000-ci ildə Bakıda türkdilli ölkələrin prezidentlərinin iştirakı ilə bu yubileyə həsr edilmiş böyük mərasim keçirildi. 1999-cu ildə UNESCO da böyük proqramlarla çıxış edərək, "Dədə Qorqud" dastanının 1300 illiyini qeyd etdi. Bu ədəbi inci bu gün də yaşayır, "Kitabi-Dədə Qorqud"dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır.

Bu gün mən həm də çox xoşbəxtəm ki, Brüsseldə, Avropanın paytaxtındayam. Buraya Avropa Birliyinin dəvəti ilə gəldim. Çox səmərəli fikir mübadiləmiz oldu. Azərbaycan Avropa ailəsinə inteqrasiya xəttini bir daha qəti surətdə təsdiq etdi. Bizim Avropa Birliyi ilə gözəl münasibətlərimiz yaranıb, birlikdə iqtisadiyyatımızın və həyatımızın ayrı-ayrı sahələrində müxtəlif proqramlar üzərində işləyirik. Düşünürəm ki, Azərbaycan da daxil olmaqla, Cənubi Qafqaz ölkələri üçün hazırlanmış yeni qonşuluq strategiyası bizim ölkəni Avropa Birliyinə daha da yaxınlaşdıracaqdır.

Bugünkü Avropanın sərhədləri Azərbaycana daha çox yaxınlaşır. Bu da hadisələrin müsbət inkişafıdır. Azərbaycan Avropa strukturlarına genişmiqyaslı inteqrasiya siyasətini davam etdirəcəkdir. Düşünürəm ki, biz qazandığımız uğurlara gələcəkdə yenilərini əlavə edəcəyik.

Dünya Gömrük Təşkilatında olmaq mənim üçün xoşdur. Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında münasibətlər uğurla inkişaf edir, yaxşı qarşılıqlı anlaşma mövcuddur və bizim gömrük xidmətinə göstərdiyi yardıma görə Dünya Gömrük Təşkilatına minnətdaram. Cənab baş katib regional tədris mərkəzinin açıldığını qeyd etdi. Bu mərkəz tamamilə müasir cihazlar və infrastrukturla təchiz olunmuşdur. Burada təkcə Azərbaycandan deyil, bütün regiondan gömrük işçiləri təhsil alıb, peşə bacarıqlarını artıra biləcəklər. Mərkəzin Bakıda, ölkəmizin paytaxtında açılması faktı Dünya Ticarət Təşkilatı ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsini bir daha göstərir.

Cənab baş katib, siz bizim ölkəyə bir neçə dəfə səfər etmisiniz. Siz Azərbaycanın necə inkişaf etdiyini, necə irəlilədiyini bilirsiniz və ölkədə aparılan əməli işlərin inkişaf prosesinə necə təsir etdiyindən xəbərdarsınız. Bizim siyasi, iqtisadi və sosial islahatlar xət-

timiz davam etdiriləcəkdir. Düşünürəm ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz çox uğurla davam etdiriləcəkdir. Bu gün Avropa Birliyindəki görüşlər bir daha göstərdi ki, qarşılıqlı surətdə faydalı münasibətlərə maraq olduqca böyükdür.

İstərdim ki, Dədə Qorquda heykəl qoyulması münasibətilə bir daha hamınızı təbrik edim, bu abidənin bu gözəl ağaclıqda, bağçada ucaldılmasına görə Dünya Gömrük Təşkilatına, onun baş katibinə minnətdarlığımı bildirim. Bir daha Azərbaycanla Avropa arasındakı daha sıx inteqrasiya ilə bağlı arzu və düşüncələrimi ifadə edirəm. Azərbaycan özünü Avropanın bir hissəsi hesab edir və biz əlimizdən gələni edəcəyik ki, münasibətlərimizi gələcəkdə daha da irəli aparaq.

Diqqətinizə görə sağ olun.

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Türkiyə Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülü qəbul etmişdir.

Mehribanlıq və səmimiyyət şəraitində keçən görüşdə ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində atılan addımlar yüksək qiymətləndirildi və bu prosesin gələcəkdə də davam etdiriləcəyi xüsusi vurğulandı.

Cənab Abdullah Gül türk dünyasının böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini, bu istiqamətdə qazanılmış uğurları yüksək dəyərləndirdiyini, həmin siyasətin davam etdirilməsindən məmnun olduğunu bildirdi.

Nazir Azərbaycanda hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri, Türkiyə-Azərbaycan əlaqələrinin bütün istiqamətlərdə sürətlə inkişaf etməsini yüksək qiymətləndirdi.

Söhbət zamanı dost və qardaş ölkələrimizin beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış etməsinin, biri-birini dəstəkləməsinin xüsusi əhəmiyyəti olduğu vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması barədə fikir mübadiləsi edildi. Cənab Abdullah Gül bir daha xatırlatdı ki, Türkiyə bu məsələdə Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi diqqət mərkəzində oldu, nəzərdə tutulan işlərin normal şəraitdə getdiyi və uğurla başa çatacağı bildirildi.

PREZİDENT İLHAM ƏLİYEV KÜVEYTİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə onun üçün ayrılmış iqamətgahda - "Conrad" mehmanxanasında Küveytin xarici işlər naziri şeyx Məhəmməd əs-Sabahı qəbul etmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan nazir Küveytlə Azərbaycan arasında

münasibətlərin günbəgün inkişaf etdiyini və ikitərəfli əlaqələrin yaxşı perspektivi olduğunu söylədi. Dünya mətbuatının Azərbaycanı tez-tez "Yeni Küveyt" adlandırdığını xatırladan cənab Məhəmməd əs-Sabah ölkəsinin rəhbərliyinin Azərbaycanla iqtisadi əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiyini bildirdi.

Xoş sözlərə görə nazirə təşəkkür edən Prezident İlham Əliyev dedi ki, biz Küveyt hökumətinin Azərbaycana müxtəlif sahələrdə göstərdiyi yardımları, habelə beynəlxalq təşkilatlarda ölkəmizi dəstəkləməsini yüksək qiymətləndiririk.

Şeyx Məhəmməd əs-Sabah bir daha vurğuladı ki, Küveyt Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqq işini həmişə müdafiə etmişdir və bu dəstəyi gələcəkdə də davam etdirəcəkdir.

Söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra beynəlxalq və regional məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Nazir Azərbaycan Prezidenti İlham Əliyevi Küveyt rəhbərliyi adından öz ölkəsinə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

PREZİDENT İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİ

Prezident İlham Əliyev mayın 18-də Brüsseldə onun üçün ayrılmış iqamətgahda - "Conrad" mehmanxanasında "Euronews" telekanalına geniş müsahibə vermişdir. Böyük marağa səbəb olmuş müsahibə ayrı-ayrı mövzular üzrə qruplaşdırılaraq həmin televiziya kanalının proqramlarında dünyanın müxtəlif dillərində bütün gün ərzində bir neçə dəfə yayımlanmışdır. Mayın 20-də efirə gedən həmin müsahibənin mətninin bir hissəsini oxuculara təqdim edirik.

APARICI: Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında iştirak edəcəkdir. Bu qərar Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfərinin nəticəsi olmuşdur. Avropa Birliyi Azərbaycan, Ermənistan və Türkiyə arasında üçtərəfli diskussiya aparılmasının mümkünlüyünü nəzərdən keçirir. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması Azərbaycanda vəziyyətin sabitliyi üçün vacibdir, ölkənin coğrafi-siyasi mövqeyi isə elədir ki, bütün regionda da sabitlik Azərbaycanın ərazisindəki sabitlikdən çox asılıdır. "Euronews" müxbirinin suallarına Azərbaycan Prezidenti İlham Əliyev cavab verir.

SUAL: Cənab Prezident, "Euronews"ə xoş gəlmisiniz. İraqda vəziyyət gərginləşir. Azərbaycan bu qarşıdurmada, terrorizmə qarşı mübarizədə nə kimi mövqe tutur?

CAVAB: İraq Azərbaycanın yaxınlığında yerləşir. Əslində, bu, eyni bir regiondur. Odur ki, biz bu ölkədə baş verən hadisələrə biganə qala bilmərik. Azərbaycan antiterror koalisiyasının həmişə iştirakçısı olub, çünki bu bəladan, terrordan ölkəmiz də əziyyət çəkir. Biz müharibənin və terrorizmin nə demək olduğunu çox yaxşı təsəvvür edirik. Çünki bunlar bizə tanışdır. Ona görə də biz İraqda sülhün bərqərar edilməsinə tərəfdarıq. Bu, nə qədər tez olsa, bir o qədər yaxşıdır.

SUAL: Siz Azərbaycanda vəziyyətin gərginləşməsinin mümkünlüyündən ehtiyat etmirsinizmi?

CAVAB: Ölkəmiz bütün sahələrdə - dini sahədə də, etnik sahədə də dözümlülüyü ilə fərqlənir. Azərbaycan tarixində dini zəmində hər hansı münaqişə baş verdiyini xatırlaya bilmirəm. Xristianlar, müsəlmanlar, yəhudilər – onların hamısı ölkəmizdə sülh və həmrəylik şəraitində yaşayır. Həqiqətən, bu gün Azərbaycanda dini təməlçilik üçün səbəblər yoxdur. Ölkə inkişaf edir, adamlar getdikcə varlanır, daha savadlı olurlar. Biz Avropa cəmiyyətinə yaxınlaşırıq. Odur ki, belə şəraitdə bu cür münaqişələr riski, demək olar, yoxdur.

SUAL: Sizin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair təkliflərinizvarmı?

CAVAB: Biz istəyirik ki, Ermənistan öz qoşunlarını bu ərazidən çıxarsın. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. Ermənilərin yaşadıqları bütün yerləri Ermənistan hesab etmək olmaz. Bu gün onlar San-Fransiskoda, Marseldə, Gürcüstanda, Rusiyada yaşayırlar. Amma bu o demək deyil ki, onlar harada yaşayırlarsa, orada müstəqil dövlət yaratmaq lazımdır. Azərbaycanda ermənilər milli azlıqdır və bütün hüquqlardan istifadə edə bilərlər. Biz güzəştə getməyə və Dağlıq Qarabağda ermənilərə mümkün qədər çox müstəqillik verməyə hazırıq. Lakin biz ərazi bütövlüyümüzü və suverenliyimizi təhlükəyə məruz qoya bilmərik.

SUAL: Bu gün Azərbaycan neftin mühüm təchizatçısıdır. Dünya bazarında indiki qiymətlər barədə nə düşünürsünüz? Hesab edirsinizmi ki, qiymətlər qəsdən qaldırılıb, yaxud bu, məhz real dəyərdir?

CAVAB: Əgər məndən soruşsaydınız ki, neftin qiymətlərinin yüksək olmasından razıyammı, iqtisadiyyatı neft satışından götürülən gəlirlərdən çox asılı olan ölkənin lideri kimi cavab verərdim: Bəli, razıyam. Yox, əgər dünya iqtisadiyyatından danışsaq, onda mən, ümumən, güman edirəm ki, qiyməti bazar tənzimləyir, qiymət tələbata müvafiq olur. Azərbaycan artıq dünya iqtisadiyyatının bir hissəsinə çevrilmişdir, ona görə də dünyada baş verən bütün proseslər ölkəmizə də aiddir. Əlbəttə, bizim bazar çox həssasdır və azacıq belə uyğunsuzluğa reaksiya verir. Ona görə də biz neftin elə bir qiymətinə tərəfdarıq ki, bu qiymət onun real dəyərini əks etdirsin. Çünki bu, öz növbəsində, real vəziyyəti əks etdirir.

SUAL: Nə vaxtsa Azərbaycanın Avropa Birliyi üçün enerji ehtiyatlarının mühüm təchizatçısı olması mümkündürmü?

CAVAB: Biz neft kəmərinə neftimizi dünya bazarına göndərmək və bununla da ölkə iqtisadiyyatının inkişafı üçün maliyyə axınını cəlb etmək vasitəsi kimi baxırıq. Biz həmişə neftin qiymətlərindən asılı olmaq istəmirik. Biz bu amildən ölkəni inkişaf etdirmək, yeni iş yerləri, iqtisadiyyatda yeni sektorlar yaratmaq imkanı kimi istifadə edirik. Əlbəttə, Azərbaycan nefti Avropa istehlakçıları üçün vacibdir. Lakin hesab edirəm ki, Azərbaycanın qaz ixracında da böyük gələcəyi var. Bir neçə ildən sonra ölkəmiz avropalı tərəfdaşları üçün qazın etibarlı təchizatçısı olacaqdır. Biz olduqca böyük qaz ehtiyatları kəşf etmişik və hazırda qazı Avropaya çatdıracaq boru kəmərinin tikintisi ilə məşğuluq.

PREZİDENT İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Conrad" mehmanxanasında Ukraynanın Baş naziri Viktor Yanukoviçi qəbul etmişdir.

Səmimilik şəraitində keçən söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında mövcud olan dostluq münasibətlərindən, iqtisadi-ticarət əlaqələrinin genişlənməsindən məmnunluq ifadə edildi. Görüşdə iri iqtisadi layihələr diqqət mərkəzində oldu.

Daha sonra ölkələrimizi maraqlandıran regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparıldı. Bir daha vurğulandı ki, Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirlər.

PREZİDENT İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 19-da NATO-nun qərargahına gəldi.

NATO-nun baş katibi Yaap de Hoop Sxeffer Azərbaycan rəhbərini binanın önündə böyük səmimiyyətlə qarşıladı. Prezident İlham Əliyev və cənab Yaap de Hoop Sxeffer NATO-nun bayrağı önündə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti ilə NATO-nun baş katibi arasında təkbətək görüş oldu.

Sonra Prezident İlham Əliyev Azərbaycanın NATO yanında nümayəndəliyi tərəfindən hazırlanmış, Azərbaycan-NATO əməkdaşlığına və ölkəmizin mədəniyyətinə həsr olunmuş fotosərgiyə baxdı.

Alyansın iqamətgahının daxili televiziyasında on gün müddətində Azərbaycan mədəniyyəti və incəsənətindən bəhs edən film nümayiş etdirilir.

Fotosərgi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Şimali Atlantika Şurasında çıxış etdi. Xatırladaq ki, Azərbaycan Prezidentinə bu tribunadan çıxış etmək imkanının verilməsi müstəsna bir haldır və ölkəmizin NATO-nun vacib tərəfdaşı olmasını göstərən amildir.

Sonra Azərbaycan Prezidenti və NATO-nun baş katibi mətbuat nümayəndələri üçün brifinq keçirdilər.

NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Hər vaxtınız xeyir. Bu gün Azərbaycan Prezidenti zati-alilləri İlham Əliyevi qəbul etmək həm Şura, həm də mənim üçün, həqiqətən, çox xoşdur. Bu görüş çox vacib bir zamanda baş tutur. Azərbaycan adından Prezident mənə bu gün "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" adlanan sənədi təqdim etdi. Bu sənədin Azərbaycanla NATO arasında münasibətlərin, əlaqələrin və əməkdaşlığın gələcəyi üçün böyük əhəmiyyəti vardır. Azərbaycan və NATO bu sənədə əsaslanaraq, aidiyyəti olan bütün mövzuları, müdafiə islahatlarını, siyasi islahatları müzakirə edə biləcəklər.

Prezident İlham Əliyev və mən qısa ikitərəfli görüş keçirdik. Görüş zamanı mən Azərbaycana və onun Prezidentinə Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakına görə NATO-nun təriflərini ünvanladım. Bilirsiniz ki, Azərbaycan Əfqanıstandakı əməliyyatlarda iştirak edir, NATO əməliyyatları olmasa da, İraqda sülhməramlı əməliyyatlarda iştirak edir. Beləliklə, əməkdaşlıq üçün əla əsas var.

Hörmətli Prezident İlham Əliyev bu gün buradadır və mən Bakıya dəvət olunmuşam. İndi bilirəm ki, gələn dəfə Bakıda Prezidentlə NATO nümayəndəsi kimi görüşəcəyəm. Şurada Prezidentin çox maraqlı çıxışına qulaq asdıq. NATO səfirləri çox məmnun oldular. Maraqlı müzakirələrimiz oldu. Əminəm və bilirəm ki, regionun siyasi problemləri ilə bağlı Prezident İlham Əliyev və regionun digər prezidentləri əsl liderlik nümayiş etdirərək, orada sülh və sabitliyin təmin olunması üçün əllərindən gələni əsirgəməyəcəklər. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- İlk əvvəl istəyirəm ki, cənab baş katibə və Şuraya bu dəvətə görə minnətdarlığımı bildirim.

Bu gün burada, NATO-nun baş qərargahında olmaq məndən ötrü böyük şərəfdir. Cənab baş katibin qeyd etdiyi kimi, bugünkü gün NATO ilə Azərbaycan arasındakı münasibətlər üçün çox əlamətdar gündür. 10 il əvvəl Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu, bu, 1994-cü ilin may ayı idi. Bu gün, 2004-cü ilin mayında Azərbaycan "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"na qoşulur. Bu, bizim gələcək münasibətlərimiz, daha sıx əlaqələrimiz, NATO ilə əməkdaşlığımız üçün çox vacib təməldir.

Azərbaycan öz strateji seçimini 10 il əvvəl edibdir. Bizim Avroatlantik strukturlara inteqrasiyamız, NATO ilə yaxın tərəfdaşlığımız və əməkdaşlığımız Azərbaycanın əməli işi ilə bu strateji seçimə nə dərəcədə sadiq olduğunu hər bir sözdən daha qabarıq nümayiş etdirir. Əminəm ki, "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" bizə daha dərin inteqrasiya imkanı verəcəkdir. Azərbaycan həqiqi tərəfdaşdır, etibarlı tərəfdaşdır, biz dünyanın müxtəlif yerlərində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakçıyıq. Biz artıq sübuta yetirmişik ki, tərəfdaşlıqda möhkəmik.

Şimali Atlantika Şurasında görüşümüz çox gözəl keçdi. Səfirlər çox vacib şərhlər verdilər, mən də çıxış etdim. Burada olmağıma şadam və əminəm ki, Bakıda keçirəcəyimiz növbəti görüş də,- Baş katib gəlməyə söz veribdir, - uğurlu olacaqdır. Əminəm ki, hər yeni görüş, hər yeni addım Azərbaycanı NATO-ya daha da yaxınlaşdıracaqdır. Qonaqpərvərliyinizə görə bir daha çox sağ olun.

Sonra Prezident İlham Əliyev və NATO-nun baş katibi Yaap de Hoop Sxeffer jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Prezident, NATO-nun baş katibi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini müzakirə etdinizmi? NATO-nun münaqişə ilə bağlı bugünkü mövqeyini izah edə bilərsinizmi?

İLHAM ƏLİYEV: Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi

müzakirə olundu. Görüşlərimiz zamanı bu mövzu həmişə mənim gündəliyimdədir. Mən mövzu ilə bağlı Azərbaycanın mövqeyini bildirdim və bizim danışıqları davam etdirməyə hazır olduğumuzu nəzərə çatdırdım. Biz məsələnin elə həll yoluna ümid bəsləyirik ki, o, beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslansın. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Əlbəttə ki, bu mövzu mənim bütün görüşlərim zamanı müzakirə edilir.

YAAP DE HOOP SXEFFER: Bilməlisiniz ki, NATO-nun baş katibi olmaqdan əvvəl, mən başqa vəzifədə idim, ATƏT-in fəaliyyətdə olan sədri vəzifəsini yerinə yetirirdim. Demək istəmirəm ki, Dağlıq Qarabağ münaqişəsini daxildən bilirəm, amma bu məsələ ilə tanış olmayan adam da deyiləm. Biz bunu müzakirə etmişik, mən bilirəm ki, çox şey Prezident Əliyevin, Prezident Koçaryanın iradəsindən asılı olacaq, onların təmasları, xarici işlər nazirlərinin görüşləri münaqişənin ədalətli həllini tapmağa imkan verəcəkdir. Münaqişə həddindən artıq çox uzanır. Məsələ ilə beynəlxalq qurumların məşğul olmasına da gəldikdə, bildiyiniz kimi, bununla ATƏT-in Minsk qrupu məşğuldur. Elə bilirəm ki, Minsk qrupu əlindən gələni edəcək ki, - onların fəaliyyəti ilə tanışam, - problem həll olunsun. Amma gərək çoxdan həll ediləydi.

Cənab Prezident, Sizə bir daha təşəkkür edirəm, uğurlar arzulayıram. Çox sağ olun.

PREZİDENT İLHAM ƏLİYEV BRÜSSELDƏ SİYASİ BRİFİNQDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 19-da Avropa Siyasi Mərkəzinin "Conrad" mehmanxanasında təşkil etdiyi səhər yeməyində iştirak etdi. Burada siyasi brifinq, yəni "Avropa Birliyi və Azərbaycan – tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda diskussiya oldu.

Belçika Krallığının nüfuzlu siyasətçilərinin iştirak etdiyi diskussiyanı Avropa Siyasi Mərkəzinin rəhbəri Hans Martens açdı.

AVROPA SİYASİ MƏRKƏZİNİN RƏHBƏRİ HANS MARTENSİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli iştirakçılar!

Bu gün sizə böyük məmnuniyyətlə qonşu ölkələrdən birini – Azərbaycanı təqdim edirik. Azərbaycan bizim yeni qonşularımızdandır. Mən şəxsən orada olmuşam. Azərbaycana səfərimlə bağlı xoş təəssüratlar hələ də xatirimdədir. Azərbaycan bizimlə əməkdaşlıq edən ölkədir. Bizim Azərbaycana marağımız olduqca böyükdür. Çox zəngin ölkədir. Gələcəyi çox ümidvericidir.

Bu yaxınlarda Azərbaycanda yeni Prezident seçilmişdir. Ona görə də Azərbaycana ümidlər böyükdür. Bu gün bizim üçün xüsusi başucalığıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab Əliyevi təqdim edirik. Cənab Prezident, biz Sizə çox minnətdarıq ki, dəvətimizi qəbul edib Brüsselə gəlmisiniz.

Mən Prezident haqqında sizə qısaca məlumat vermək istəyirəm. Beynəlxalq münasibət-

lər sahəsində böyük təcrübəyə malikdir. Beynəlxalq münasibətlərdən savayı, cənab Prezident müasir biznes ilə yaxından tanışdır. Zəngin siyasi təcrübəsi də var. Azərbaycan parlamentinin üzvü olubdur. Hökumətdə təmsil olunub, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı, daha sonra Baş nazir təyin edilib və hazırda Azərbaycanın Prezidentidir.

Qeyd etdiyim kimi, bizim üçün çox xoşdur və böyük məmnuniyyətlə hörmətli Prezidenti kürsüyə dəvət edirəm ki, iştirakçılar qarşısında çıxış etsin. Cənab Prezident sizi maraqlandıran məsələlərlə bağlı müzakirə aparmağa da razılıq vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Mən hər şeydən əvvəl istərdim ki, bugünkü görüşə gəldiyinizə görə sizə minnətdarlığımı bildirim. Dünəndən etibarən mənim Brüsseldə Avropa Birliyi rəsmiləri ilə çox faydalı görüşlərim olubdur. Bu görüşlərin böyük əhəmiyyəti var, çünki bizim Avropa Birliyi ilə münasibətlərimiz uğurla inkişaf edir. Azərbaycan Avropa strukturlarına inteqrasiya siyasətinə möhkəm sadiqdir. Mənim Avropa Birliyinə səfərim bu siyasəti bir daha təsdiq edir. Bu, bizim strateji seçimimizdir. Azərbaycan bu seçimi 10 il əvvəl edibdir. SSRİ dağıldıqdan və Azərbaycan müstəqillik qazandıqdan sonra, əlbəttə ki, ölkənin qarşısında müxtəlif imkanlar var idi və seçim imkanları da çox idi. Amma bizim ölkənin, Azərbaycanın lideri Heydər Əliyevin siyasəti Avropa ailəsinə inteqrasiya siyasəti idi. Dünya iqtisadiyyatına inteqrasiya siyasəti idi. O zamandan indiyədək ölkəmiz nəzərəçarpacaq dərəcədə tərəqqi əldə edibdir.

Sovet İttifaqı dağılan zaman Azərbaycan digər respublikalarla müqayisədə ən pis vəziyyətdə idi. Tam siyasi, iqtisadi və hərbi böhran vətəndaş müharibəsi və Ermənistanın hərbi təcavüzü ilə müşayiət olunurdu. Bütün bu hallar Azərbaycanı uçurum kənarına gətirib çıxarmışdı. Bir neçə il lazım oldu ki, vəziyyəti sabitləşdirə bilək. Düşmənçiliyə, vətəndaş müharibəsinə son qoyaq, Ermənistanla atəşkəsə nail olaq və iqtisadiyyatımızı inkişaf etdirməyə başlayaq.

Bu gün Azərbaycanın regiondakı mövqeyinə baxsaq, qonşuları ilə müqayisə etsək görərik ki, iqtisadi baxımdan ölkəmiz böyük tərəqqiyə nail olubdur. Bu baxımdan lider mövqeyindədir. 1996-cı ildən illik ümumi daxili məhsul orta hesabla 10 faizədək artmışdır. Son 7 il müddətində ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. Azərbaycan adambaşına xarici sərmayə cəlb edilməsi baxımından keçmiş SSRİ ölkələri içərisində aparıcı mövqedədir. Ölkədə yaxşı sərmayə mühiti yaranmışdır. Bu da iri xarici transmilli şirkətlərin Azərbaycanda özlərini çox rahat hiss etmələrinə imkan verir. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur. Əlbəttə, bu rəqəmi daha da artırmaq fikrindəyik. Artıq imzalanmış müqavilələr də, yerinə yetiriləcək layihələr də göstərir ki, növbəti üç ildə daha 10 milyard dollar vəsait yatırılacaqdır. Əlbəttə ki, xarici sərmayəçilər vəsaitlərinin qorunacağına, ölkədəki sabitlik və təhlükəsizliyə arxayın olmasaydılar, bəlkə də, Azərbaycana gəlib-gəlməməyi çox ölçüb-biçərdilər. İctimai-siyasi sabitlik, təhlükəsizlik uğurlu iqtisadi siyasətin ən başlıca elementlərindəndir.

Azərbaycan regionda ən sabit ölkələrdəndir. Bu da ölkəmizə iqtisadi islahatları həyata keçirməyə imkan verir. Bəzən islahatları həyata keçirərkən çətinliklərlə üzləşirik, amma Azərbaycan iqtisadi islahatlar keçirmək qətiyyətində israrlıdır. Ölkəmizdə irimiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Artıq torpağın özəlləşdirilməsi proqramı tamamlanmışdır. İndi ölkəmiz Avropa ailəsinə daha çox inteqrasiya etməkdən ötrü Avropa məkanının meyarlarına cavab vermək üçün çalışır. Siyasi vəziyyət də müsbət xarakter daşıyır. Ötən ilin oktyabrında keçirilən Prezident seçkiləri göstərdi ki, Azərbaycan xalqı tərəqqi, sabitlik olmasını, hadisələrin inkişafının əvvəlcədən görünə biləcəyi şəraitdə yaşamağını istəyir.

Azərbaycan xalqı sülh şəraitində yaşamaq istəyir. Təəssüf ki, Azərbaycan Sovet İttifaqı dağıldıqdan sonra təcavüzə məruz qalmış ölkədir. Azərbaycanın əraziləri Ermənistan tərəfindən təcavüzə və işğala məruz qalmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələnmişdir. İşğal nəticəsində bizim ölkədə bir milyondan artıq qaçqın və köçkün var. Azərbaycan əhalinin sayına nisbətdə dünyada ən çox qaçqını olan ölkədir. Səkkiz milyon əhalinin bir milyonunun belə vəziyyətdə olması, əlbəttə, həm böyük siyasi, həm də iqtisadi problemdir. Təəssüf ki, Ermənistanla Azərbaycan arasında gedən danışıqlar hələ heç bir nəticə vermir. Amma son vaxtlar beynəlxalq birlik bu mövzuya daha çox diqqət yetirir. Biz ümid edirik ki, məsələyə beynəlxalq birliyin qatılması ilə həll yolu tapıla bilər. Amma əlbəttə, həll yolu yalnız beynəlxalq hüququn normalarına əsaslana bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistanın silahlı qüvvələri işğal edilmiş ərazilərdən geri çəkilməlidir ki, qaçqınlar doğma yurdlarına qayıda bilsinlər.

Ermənistan yalnız Dağlıq Qarabağı yox, həm də Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan 7 digər rayonu da işğal etmişdir. O ərazilər ki, keçmişdə ermənilər heç zaman orada yaşamayıblar. Həmin ərazilərdə yaşamış 700 min azərbaycanlı Ermənistanın təcavüzü nəticəsində ölkə daxilində məcburi köçkünə çevrilmişdir. Üstəgəl, 250 mindən çox azərbaycanlı - əvvəllər Ermənistan ərazisində yaşamış azərbaycanlılar qaçqın olmuşlar. Ermənistanın mövqeyi beynəlxalq hüququn qanunlarına tam ziddir.

Biz bu gün XXI əsrdə yaşayırıq. Bu gün təcavüzkar separatizm siyasəti qəbulolunmazdır. Bu gün Avropanın birləşdiyi vaxtda, qloballaşma və inteqrasiya prosesinin dünyada vüsət aldığı bir vaxtda bir ölkənin digər ölkənin ərazisini işğal etməsi faktı və həmin ərazini 10 ildən çox işğal altında saxlaması, ordusunu geri çəkmək istəməməsi, əlbəttə, narahatlıq doğurmaya bilməz. Biz ümid edirik ki, Avropa Birliyi və digər təşkilatlar və əlbəttə, məsələnin həlli ilə bağlı mandatı olan ATƏT daha fəal rol oynayacaq, azərbaycanlı qaçqınların daimi yaşadığı ərazilərə qayıtmalarına çalışacaqlar.

Hazırda Dağlıq Qarabağın özünün ərazisi regional sabitlik üçün təhlükə doğurur. Çünki bu, tamamilə nəzarətsiz zonadır. Burada beynəlxalq monitorinq keçirilmir, beynəlxalq nəzarət yoxdur və bizdə təsdiqini tapmış məlumat vardır ki, həmin ərazidə qeyri-qanuni fəaliyyət həyata keçirilir. Ona görə də münaqişə nə qədər tez həll edilərsə, bütün region üçün bir o qədər yaxşı olar. Çünki bu, həqiqi mənada, daha geniş regional təhlükəsizlik məsələsidir.

İndi regional əməkdaşlıq inkişafdadır. Azərbaycan regional əməkdaşlığın fəal hissəsidir. Azərbaycan Xəzər dənizinin neft və qazının beynəlxalq bazarlara daşınması layihə-

lərində vacib rol oynayan tərəfdir. Son on ildə Azərbaycanda həyata keçirilən neft siyasəti Xəzər dənizindən Aralıq dənizinə enerji daşıyıcıları nəql edəcək kəmərləri reallığa çevirmişdir. Buna inananların sayı çox deyildi. Bəziləri fikirləşirdilər ki, bu, əfsanədir. Digərləri isə düşünürdülər ki, bu, xülyadır. Amma bu əfsanə həqiqətə çevrildi. Gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri fəaliyyətdə olacaq və böyük həcmdə Xəzər neftinin dünya bazarlarına daşınmasına imkan yaradacaqdır. Əlbəttə, bunun özü də regional təhlükəsizliyə və sabitliyə töhfə olacaqdır.

İkinci vacib layihə Azərbaycan qazının Türkiyəyə və daha sonra Avropaya daşınmasıdır. Bu layihə Avropa istehlakçıları üçün, bəlkə də, neft layihəsindən də vacibdir. Çünki Azərbaycan qazı böyük həcmdə Avropaya daşınacaq və Avropa istehlakçıları üçün alternativ qaz təchizatı çox faydalı olacaqdır. Qiymətlər rəqabət baxımından münasibdir, mənbə etibarlıdır. Azərbaycan bu layihəni yerinə yetirməyə qadirdir. Əminəm ki, bir neçə ilə, təqribən 5-6 ilə Avropa istehlakçılarına Azərbaycan qazından istifadə etmək imkanı yaranacaqdır. Planlaşdırdığımız kimi, 2006-cı ilin sonunda qaz layihəsi tamamlanacaq və sonra qaz hasilatının özünü yuxarı həddə çatdırmaq üçün müəyyən vaxt tələb olunacaqdır. Regional əməkdaşlığın bütün elementləri bizim regiona, bizim ölkəyə, dostlara bu layihələrdən bəhrələnməyə imkan verəcəkdir.

Çox zaman belə bir sual çıxır ki, Ermənistan necə olsun? Nəyə görə Ermənistan regional əməkdaşlığın bir hissəsi deyil? Nəyə görə Azərbaycan Ermənistanı bu proseslərdən təcrid edir? Biz regional əməkdaşlığın əleyhdarı deyilik, biz bütün mümkün variantları nəzərdən keçirə bilərik. Amma burada əsas amil ölkəmizin ərazilərinin işğal altında qalmasıdır. Əminəm ki, sizin ölkənizin bir hissəsi başqa ölkə tərəfindən işğal olunsa, heç biriniz həmin ölkə ilə iqtisadi əməkdaşlıq istəməzsiniz. Erməni işğalçı qüvvələri bizim əraziləri tərk etməlidirlər, ondan sonra iqtisadi əməkdaşlıq baş tuta bilər. Mən düşünürəm ki, bu, məsələyə çox ədalətli baxışdır və regiondakı real şəraiti əks etdirir.

Ölkəmizin böyük planları var. Rayonlarımızın inkişafına dair sosial-iqtisadi proqramımız var. Eləcə də, Dünya Bankı ilə birlikdə yoxsulluğun azaldılması proqramı üzərində işləyirik. Çünki ölkənin iqtisadiyyatda böyük tərəqqi əldə etməsinə baxmayaraq, problemlər hələ də mövcuddur. İşsizlik, yoxsulluq, qaçqın-köçkünlərin sosial-məişət problemləri. Bütün bu problemlərlə ölkə məşğul olmalıdır. Bunu etməkdən ötrü bizə maliyyə ehtiyatları, bütün regionda sülh, sabitlik lazımdır. Regional təhlükəsizlik olmadan planlarımız təhlükə altında olar. Amma zaman göstərir ki, biz qarşımızda duran vəzifələrin öhdəsindən gələ bilərik.

Azərbaycan öz gələcəyini Avropa ailəsinə inteqrasiyada görür. Bu siyasət dəyişməz olaraq qalır və bu, bizim strateji məqsədimizdir. Qeyd etdiyim kimi, bu seçim 10 il əvvəl edilib və Azərbaycan bu illər ərzində tədricən, lakin qətiyyətlə bu istiqamətdə irəliləyir. Azərbaycan özünü belə şəraitdə görmək istəyir. Çünki Avropanın nailiyyətləri, uğurları göstərir ki, bu, bizim də getməli olduğumuz yoldur və biz bu yolu gedirik. Yeni qonşuluq siyasəti, Avropa Birliyi tərəfindən Cənubi Qafqaz ölkələrinə dair təklif olunmuş siyasət bizim ölkəyə Avropa Birliyi ilə daha səmərəli əməkdaşlıq imkanı verəcəkdir. Bu gün Avropa Birliyinin sərhədləri Cənubi Qafqaza daha çox yaxınlaşır və əlbəttə, biz də çox istərdik ki, regional proseslərin, Avropa inteqrasiyasının iştirakçısı olaq. Ölkəmizin bunu etməyə bütün potensialı var.

O da məlumdur ki, davamlı inkişafın əsas elementlərindən biri də davamlı siyasi islahatlardır. Cəmiyyətimizin demokratikləşdirilməsi prosesi davam edir. Bu istiqamətdə çoxlu müsbət addımlar atılmışdır və bu gün Azərbaycan cəmiyyəti əlbirdir. Bizdə bütün azadlıqlar mövcuddur. Bütün siyasi spektrlərdə siyasi fəaliyyətə imkan vardır. Ölkəmizin daha bir nailiyyəti də Azərbaycanda olduqca güclü etnik və dini dözümlülüyün mövcudluğudur. Bu mənada bizdə keçmişdə heç vaxt heç bir problem olmamışdır. Azərbaycan çoxmillətli ölkədir və burada yaşayan bütün xalqlar, millətlər və etnik qruplar eyni məsuliyyət daşıyır və eyni hüquqlardan istifadə edirlər. Azərbaycandakı dini dözümlülük də yaxşı məlumdur və təqdirəlayiqdir. Bunlar da bizim gələcək inkişafımıza müsbət təsir edə biləcək amillərdir. İqtisadiyyatın da güclü ola bilər, özün də güclü ola bilərsən, amma ölkədə yaşayan müxtəlif millətlər arasında birlik yoxdursa, normal ünsiyyət çatışmırsa, onda heç bir uğur əldə edə bilməzsən.

Qarşımızda duran daha bir prioritet məsələ də neftdən gələn gəlirləri gələcəkdə necə idarə etməkdir. Biz artıq bu haqda indidən, iri neft sahəsində böyük inkişafın başlanğıcında fikirləşirik. Mən elə bilirəm ki, biz bunu əsl vaxtında düşünməyə başlamışıq. Təəssüf ki, neft hasil edən elə ölkələr vardır ki, onların nəhəng neft ehtiyatlarına baxmayaraq, uğur əldə edə bilməyiblər. Sadə vətəndaşlar neftdən gələn gəlirləri hiss etməlidirlər. Yaşından, mənşəyindən asılı olmayaraq, ölkənin hər bir vətəndaşı gündəlik həyatında hiss etməlidir ki, neft gəlirlərində onun da payı var.

Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır və neftdən gələn bütün vəsait burada toplanır. Bu, şəffaf strukturdur, beynəlxalq auditorlar onun işinə nəzarət edirlər. Azərbaycanın hər bir vətəndaşına məlumdur ki, ölkənin Neft Fondunda nə qədər vəsait var. Xərcləmələr şəffaf, büdcə vasitəsilə, parlamentdəki müzakirələrdən sonra həyata keçirilir və istənilən adam bu haqda məlumat əldə edə bilər. Bu, uğurun əsas elementlərindən biridir. Çünki bugünkü dünyada şəffaflıq mühümdür. Xüsusilə də keçid dövründə yaşayan Azərbaycan kimi ölkələr üçün.

Amma eyni zamanda, əvvəl dediyim kimi, bütün bu uğurlarla yanaşı, Azərbaycanın həll etməli olduğu problemlər də var. Çətinliklər çoxdur. Amma biz siyasi, iqtisadi və sosial islahatları davam etdirmək xəttimizdə qətiyyətliyik. Avropa Birliyinin yardımı, müdaxiləsi və digər Avropa təşkilatlarının iştirakı bu proseslərə çox yardım etmiş olar.

Dünən burada keçirdiyim görüşlər göstərdi ki, energetika, nəqliyyat sahəsində, siyasi sahədə münasibətlərin inkişafı üçün hər iki tərəfdən böyük istək və arzu var. Avropa ilə əməkdaşlıq bizim münasibətləri davam etdirməyimizə yardım edəcəkdir.

Vaxtınızı çox almaq istəmirəm. Səhər yeməyində iştirak etdiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirirəm. Sizin hamınıza uğur arzulayıram və hamınızı Azərbaycana dəvət etmək istəyirəm ki, ölkəmizə gələsiniz və Azərbaycanın həyata keçirdiyi layihələrdə yaxından iştirak edəsiniz.

* * *

HANS MARTENS: Cənab Prezident, dəvətə görə çox sağ olun. Həqiqətən, bu proseslərdən geri qalmamaqdan ötrü gərək indidən Bakıya təyyarə biletlərimizi sifariş edək. Sizə minnətdarıq ki, ölkənizdəki proseslərlə bağlı bu cür əla şərh verdiniz. Çox xoşagələn haldır ki, danışıqlarınızın əsasında realist nikbinlik durur və qarşımızda duran iqtisa-

di, sosial, ətraf mühit, demokratikləşmə ilə bağlı məsələlərin həyata keçirilməsi yolunda üzləşdiyiniz problemlərin həll olunacağında da qətiyyətlisiniz.

SƏFƏR BAŞA ÇATDI

Mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfəri başa çatdıraraq, vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ AVRASİYA ÖLKƏLƏRİNƏ YARDIM ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Prezident sarayında ABŞ dövlət departamentinin Avropa və Avrasiya ölkələrinə yardım üzrə əlaqələndiricisi Karlos Paskualı qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Karlos Paskualla 1996-cı ildə görüşünü xatırladaraq, indi onu Bakıda görməyindən məmnun olduğunu söylədi. Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında münasibətlərin bütün istiqamətlərdə - siyasi, iqtisadi, hərbi sahələrdə uğurla inkişaf etdiyini, xüsusilə ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırdı. Xüsusilə regional təhlükəsizlik məsələləri üzrə əməkdaşlığın durmadan inkişaf etdiyini söyləyən Prezident İlham Əliyev Birləşmiş Ştatların yeni müstəqillik qazanmış dövlətlərdə demokratik cəmiyyət quruculuğu prosesinə yardım göstərdiyini, bu gün ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın antiterror koalisiyasının fəal üzvü olduğunu və beynəlxalq terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlara dəstək verdiyini xatırladaraq, bunu ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi səciyyələndirdi.

Dövlətimizin başçısı ABŞ-la iqtisadi və ticarət əlaqələrinin ölkəmiz üçün önəmli olduğunu, hazırda Birləşmiş Ştatların dəstəyi ilə iri enerji layihələrinin həyata keçirildiyini xüsusilə vurğuladı. O, əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq gələcəkdə də uğurla davam edəcəkdir və ölkəmiz bütün bu layihələri, habelə demokratik cəmiyyət quruculuğu prosesini, sosial islahatları, xüsusilə qaçqınların və məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün aparılan işləri uğurla başa çatdıracaqdır.

Karlos Paskual Azərbaycan hökumətinin üzvləri ilə, xüsusilə Maliyyə Nazirliyinin və Milli Bankın rəhbərliyi ilə səmərəli müzakirələr olduğunu, bu qurumlarda, habelə vergi təşkilatlarında işin səmərəliliyinin artırılması sahəsində ətraflı fikir mübadiləsi aparıldığını diqqətə çatdırdı. O, Birləşmiş Ştatlar hökumətinin Azərbaycanda müxtəlif sahələrin inkişafına, o cümlədən humanitar proqramların həyata keçirilməsinə maliyyə yardımı ayırmaqda davam etdirəcəyini, xüsusilə demokratik təsisatların, vətəndaş cəmiyyətinin möhkəmlənməsinə, hüquq mühafizə və təhlükəsizlik proqramlarına dəstək verəcəyini bildirdi. Qonaq iqtisadi layihələrin və yeni iş yerlərinin açılmasının əhəmiyyətini xüsusilə vurğuladı. Ölkələrimizin gəncləri arasında mübadiləni genişləndirmək üçün təhsil proqramlarının həyata keçirilməsini zəruri addım kimi qiymətləndirən Karlos Paskual bu sahədə aparılan tədbirlərin gələcəkdə də davam etdiriləcəyini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "CASTEL" ŞİRKƏTLƏR QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Prezident sarayında Fransanın "Castel" şirkətlər qrupunun prezidenti Pyer Kastelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Parisə səfəri zamanı "Castel" şirkətlər qrupunun prezidenti ilə keçirdiyi səmərəli görüşləri xatırlatdı və fransız iş adamlarının iqtisadiyyatımıza yeni sərmayələr yatırmasını təklif etdi. "Castel" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin çox uğurlu olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanda əvvəllər şərabçılığın inkişafı sahəsində böyük nailiyyətlərin olduğunu söylədi. Sonralar Sovet İttifaqı rəhbərliyinin sərişdəsiz siyasəti nəticəsində Azərbaycanda üzüm bağlarının böyük bir hissəsinin məhv edildiyini bildirən dövlətimizin başçısı, indi bu sahənin inkişafı üçün geniş perspektivlər olduğunu vurğuladı. O, şirkətin Azərbaycanda istehsal edəcəyi məhsulların yüksək keyfiyyətə malik olacağına və Avropa bazarlarına çıxarılacağına əminliyini ifadə etdi.

Cənab Pyer Kastel Azərbaycan Prezidenti ilə Parisdə keçirdikləri görüşdən sonra ölkəmizdəki şəraiti öyrənmək üçün nümayəndə göndərdiklərini və artıq respublikamızda şərabçılığın inkişafı üçün xüsusi proqram hazırlandığını söylədi. Bu ilin oktyabrında üzüm tənəklərinin əkilməsi üçün sahələr müəyyən ediləcəyini, gələn ilin əvvəllərində isə tənəklərin əkilməsinə başlanacağını söyləyən Pyer Kastel dedi ki, bu gəlirli sahənin inkişafı üçün Azərbaycanda hər cür şərait, ən başlıcası isə, yaxşı peşəkarlar vardır. Qonaq Rusiyada yaxşı əlaqələrinin və böyük bazarlarının olduğunu vurğulayaraq, Azərbaycanda istehsal ediləcək şərab məhsullarının böyük bir hissəsinin Moskva və Sankt-Peterburqa ixrac olunacağını da diqqətə çatdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "ITOCHU" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Prezident sarayında Yaponiyanın "ITOCHU" şirkətinin icraçı vitse-prezidenti Akira Yokotanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev "ITOCHU"nun Azərbaycanda fəaliyyətini yüksək qiymətləndirdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə iri layihələrin – Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, "Azəri-Çıraq-Günəşli" layihəsinin həyata keçirilməsində mühüm rolunu qeyd etdi. Dövlətimizin başçısı şirkətin Azərbaycan iqtisadiyyatına sərmayə qoymasından məmnun olduğunu bildirdi və bu prosesin davam etdiyini söylədi.

Cənab Akira Yokota Prezident İlham Əliyev ilə görüşdən böyük şərəf duyduqlarını söyləyərək, Bakıya səfərləri zamanı ilk olaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini və onun xatirəsini dərin ehtiramla yad etdiklərini bildirdi. Qonaq dedi: "Heydər Əliyevin məzarı qarşısında nümayəndə heyətinin adından mən böyük minnətdarlığımızı ifadə edərək, bizim burada fəaliyyət göstərməyimizə şərait yaratdığına görə və "Azəri-Çıraq-Günəşli" layihəsində yaxından iştirakımızı təmin etmək barədə qərarına görə bu böyük şəxsiyyətin xatirəsini bir daha andıq".

Qonaq təmsil etdiyi şirkətin Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirmək niyyətində olduğunu söylədi və onların fəaliyyətinə verdiyi yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, bu etimadı doğrultmaq üçün səylərini artıracaqlarını vurğulayaraq dedi ki, bu layihə təkcə "ITOCHU" şirkəti üçün deyil, bizim ölkəmiz – Yaponiya üçün də çox böyük əhəmiyyətə malikdir. Bunu bizim hökumətimiz bir neçə dəfə qeyd etmişdir. Cənab Akira Yokota Azərbaycan Prezidentini tezliklə Yaponiyada görmək istədiklərini də bildirdi.

Səmimi sözlərə görə qonağa təşəkkür edən Prezident İlham Əliyev dedi ki, Prezident Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının təşəbbüskarı və banisi olmuşdur. Bu strategiya son on ildə uğurla davam etdirilir və Azərbaycan xalqına böyük gəlir gətirmişdir. Bu gün Azərbaycanla Yaponiya arasında olan mehriban və işgüzar münasibətlər də öz başlanğıcını neft sahəsindən götürmüşdür. Mən 1996-cı ildə Yaponiyaya səfər etmiş ilk nümayəndə heyətinin tərkibində idim və o zaman biz çox fəal müzakirələr apardıq. Bundan sonra Yaponiya şirkətləri Azərbaycanda fəaliyyətə başladılar. Biz Azərbaycana göstərdikləri böyük köməyə, ayırdığı maliyyə vəsaiti, kreditlərə görə Yaponiya hökumətinə təşəkkürümüzü bildiririk. Bu kreditlər hesabına Azərbaycanda yeni infrastruktur yaradılır. Xahiş edirəm Azərbaycana bu cür münasibətinə görə Yaponiya hökumətinə mənim təşəkkürümü çatdırasınız.

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ VƏ MÜDAFİƏ NAZİRİ YOLÜSTÜ BAKIDA OLMUŞLAR

Mayın 20-də Belçika Krallığının Baş naziri Gi Verhofstadt və müdafiə naziri Andre Flao yolüstü Bakıda olmuşlar. Qısamüddətli dayanacaq zamanı qonaqlar Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüş və qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparmışlar.

Görüş zamanı Gi Verhofstadt və Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 17-19-da Belçika Krallığına işgüzar səfərini və səfər zamanı imzalanmış ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiyanı, sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında Sazişi, gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardım göstərilməsi haqqında ikitərəfli Sazişi yüksək dəyərləndirmişlər. Qeyd olunmuşdur ki, bu səfər və imzalanmış sənədlər Belçika ilə Azərbaycan arasında əlaqələrin daha intensiv inkişafına imkan verəcəkdir.

Belçika Krallığının Baş naziri Gi Verhofstadt bu ilin payızında Belçikanın yüksək rütbəli şəxslərinin Azərbaycana nəzərdə tutulmuş səfərinin genişlənməkdə olan əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BÖHRANLAR QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Beynəlxalq Böhranlar Qrupunun prezidenti Haret Evansın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaq Azərbaycanda olduğu müddətdə Nazirlər Kabinetində, Xarici İşlər Nazirliyində keçirdiyi səmərəli görüşlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, rəhbərlik etdiyi qurumun Balkan yarımadasında, Mərkəzi Asiya və Afrika ölkələrində fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə apardığı işlərdən bəhs edərək, bu ölkələrin rəhbərliklərinə əməli kömək göstərdiklərini bildirdi. Qrupda peşəkarların – keçmiş baş nazirlərin, xarici işlər nazirlərinin və digər yüksək rütbəli şəxslərin fəaliyyət göstərdiklərini söyləyən Haret Evans dedi ki, onun Vaşinqton və Nyu-York ofislərinə keçmiş Klinton hökumətinin üzvləri rəhbərlik edirlər. Sırf beynəlmiləl qurum olan təşkilatda 35 ölkənin nümayəndələri münaqişələrin qarşısının alınması sahəsində də iş aparırlar. Hazırda dünyanın müxtəlif ölkələrində - münaqişə ocaqlarında və potensial münaqişə bölgələrində tədqiqatlar aparılır və müvafiq hesabatlar tərtib olunur. Cənab Evans Dağlıq Qarabağ münaqişəsi barədə də hesabat hazırladıqlarını, habelə Cənubi Qafqaz regionunda münaqişələrin həlli ətrafında Gürcüstan və Ermənistan rəhbərlikləri ilə görüşlər keçirdiklərini bildirdi. O dedi ki, münaqişələrin həlli və fəlakətlərin aradan qaldırılması sahəsində BMT-nin baş katibi, Təhlükəsizlik Şurası, ABŞ Dövlət Departamenti ilə sıx əməkdaşlıq edirlər.

Prezident İlham Əliyev bu təşkilatın regiona marağını bəyəndiyini söylədi və təəssüflə bildirdi ki, münaqişələr insanlar üçün ağır problemlər və faciələr törədir. Ölkəmizdə bir milyona yaxın qaçqın və köçkünün olduğunu diqqətə çatdıran dövlətimizin başçısı beynəlxalq ictimaiyyətin Ermənistanın Azərbaycana qarşı təcavüzünə daha çox diqqət yetirməsinin vacibliyini vurğuladı.

Hazırda ATƏT-in, digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olduğunu xatırladan Prezident İlham Əliyev dedi ki, əgər beynəlxalq ictimaiyyət problemin ədalətli həlli sahəsində səylərini artırarsa, münaqişəyə daha tez son qoyular. Əgər beynəlxalq təşkilatlar burada nə baş verdiyini, niyə baş verdiyini, kimin işğalçı olduğunu və təcavüzün hansı nəticələr verdiyini, kimin ona məxsus olmayan torpaqları işğal altında saxladığını aydınlaşdırsalar, onda bəlli olar ki, məhz Ermənistan işğalçı dövlətdir və beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, Azərbaycan torpaqlarını zəbt etmişdir və indiyədək işğal altında saxlayır. Prezident İlham Əliyev vurğuladı ki, əgər beynəlxalq ictimaiyyət bu məqamlara xüsusi diqqət yetirərsə və münaqişə tezliklə aradan qaldırılarsa, regionda təhlükəsizliyin möhkəmlənməsi də mümkün olar.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "AMERADA HESS" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının "Amerada Hess" neft şirkətinin nümayəndə heyətini qəbul etmişdir.

Səmimilik şəraitində keçən görüş zamanı şirkətin idarə heyətinin sədri və baş icraçı rəhbəri Con Hess ümummilli liderimiz Heydər Əliyevin xatirəsini böyük ehtiramla anaraq, onun layiqli davamçısı İlham Əliyevi Prezident seçkilərində inamlı qələbəsi və dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi. Qonaq bildirdi ki, Azərbaycan onun təmsil etdiyi şirkət üçün çox önəmli bir ölkədir. O, Bakıda səfərdə olduğu bir neçə il bundan əvvəllə müqayisədə indi ölkəmizdə böyük dəyişikliklərin və tərəqqinin şahidi olduğunu diqqətə çatdırdı.

Con Hess dövlətimizin başçısına şirkət barədə məlumat verdi, "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrində fəaliyyətlərini bundan sonra da davam etdirəcəklərini, Azərbaycanda müxtəlif sosial və humanitar proqramların maliyyələşdirilməsində fəal iştirak edəcəklərini bildirdi. Qonaq Azərbaycanın ən gözəl şəhərlərindən olan Gəncəyə səfər etdiklərini və burada xəstəxana tikintisini maliyyələşdirəcəklərini də diqqətə çatdırdı. O, zəngin neft yataqlarına malik olan ölkəmizdə uzun müddət və səmərəli fəaliyyət göstərmək niyyətində olduqlarını vurğuladı.

Səmimi sözlərə və Azərbaycanda həyata keçirilən layihələrdə fəal iştirakına görə şirkətin rəhbərliyinə təşəkkürünü bildirən Prezident İlham Əliyev "Amerada Hess"in Gəncədə səhiyyə obyekti tikmək səylərini yüksək qiymətləndirdi. "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrinin təkcə Azərbaycan üçün deyil, bütün region və dünya üçün böyük əhəmiyyətini vurğulayan dövlətimizin başçısı, bu layihələrin beynəlxalq neft şirkətləri ilə, o cümlədən "Amerada Hess" şirkəti ilə sıx əməkdaşlıq şəraitində həyata keçirildiyini qeyd etdi.

Beynəlxalq neft şirkətlərinin sosial proqramların həyata keçirilməsindəki iştirakını yüksək qiymətləndirən Prezident İlham Əliyev gələcəkdə neftin hasilatından və nəqlindən əldə olunacaq gəlirlərin məhz sosial sahəyə yönəldilməsini Azərbaycan hökumətinin siyasətinin öncül istiqamətlərindən biri kimi dəyərləndirdi. O, bu layihələrin yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və digər sahələrdə ölkəmizdə həyata keçirilən proqramların uğurla başa çatdırılmasında mühüm rol oynadığını söylədi. Bildirildi ki, neft və qaz sektorunda əldə olunacaq gəlirlər xüsusilə bölgələrin inkişafı, paytaxt və əyalətlər arasında fərqin azaldılması üzrə dövlət proqramının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti əmin olduğunu vurğuladı ki, şirkətlə ölkəmiz arasında əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyeri qəbul etmişdir.

Prezident İlham Əliyev bu yaxınlarda Jan Lemyerlə Varşavada görüşü zamanı onunla bir sıra mühüm məsələlər ətrafında səmərəli fikir mübadiləsi apardığını xatırlatdı, AYİB-lə sıx əməkdaşlığın ölkəmiz üçün faydalı olduğunu, bu bankın köməyi ilə müxtəlif infrastruktur layihələrinin həyata keçirildiyini bildirdi. Azərbaycanda ölkənin müasirləşdirilməsi, yeni iş yerlərinin yaradılması sahəsində aparılan işlərdən ətraflı bəhs edən dövlətimizin başçısı, hazırda regionların inkişafı üzrə dövlət proqramının həyata keçirildiyini və bunun paytaxtla əyalətlər arasındakı fərqin azaldılmasında mühüm rol oynayacağını söylədi.

Prezident İlham Əliyev dedi ki, Azərbaycanda yüz minlərlə yeni iş yerlərinin açılması hökumətin siyasətinin əsas istiqamətlərindəndir. Dünya Bankının dəstəyi ilə yoxsulluğun azaldılması üzrə proqram da həyata keçirilir. Ölkəmiz sosial-iqtisadi proqramların həyata keçirilməsində Beynəlxalq Valyuta Fondu ilə fəal əməkdaşlıq edir. Bütün bu maliyyə qurumlarının köməyi ilə enerji daşıyıcılarının nəqli üzrə iri layihələr də həyata keçirilir və bunların uğurla başa çatdırılması Azərbaycanda və regionda tərəqqinin əldə olunmasında mühüm rol oynayacaqdır.

Prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir.

Jan Lemyer Azərbaycanda əldə olunmuş uğurlara heyranlığını bildirdi, xüsusilə neft sənayesindəki şəffaflığı yüksək qiymətləndirdi. O, irimiqyaslı layihələrin Azərbaycan və bütün region üçün çox əhəmiyyətli olduğunu vurğuladı. İqtisadi İnkişaf Nazirliyində və Milli Bankda müxtəlif layihələr ətrafında səmərəli fikir mübadiləsi apardığını söyləyən qonaq özəl sektorun möhkəmlənməsi sahəsində də böyük uğurlar olduğunu vurğulayaraq, regionların inkişafı və yeni iş yerlərinin yaradılması sahəsində Azərbaycan hökumətinə yardım göstərəcəklərini, orta sahibkarlığın inkişafı üçün 2 milyon dollar vəsait ayıracaqlarını bildirdi.

Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu söyləyən cənab Jan Lemyer bunun gələcəkdə də davam edəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN BEYNƏLXALQ TƏSİSATLARA SÜRƏTLƏ İNTEQRASİYA EDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 21-də BMT-nin Cenevrə Bölməsi Protokolunun baş direktoru Mehmet Ülkümən ilə görüşmüşdür.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mehmet Ülkümən Azərbaycana ilk dəfə səfərindən məmnun qaldığını bildirmişdir. Hazırkı vəzifədə otuz ilə yaxın bir vaxtda çalışdığını qeyd edən qonaq Azərbaycanın BMT-nin Cenevrə Bölməsi və digər beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəliyi ilə faydalı münasibətlər qurduğunu nazirin diqqətinə çatdırmışdır. 2000-ci ildə BMT-nin Nyu-Yorkda keçirilmiş Minillik Sammiti zamanı ümummilli liderimiz Prezident Heydər Əliyev tərəfindən Azərbaycana dəvət edildiyini yüksək qiymətləndirən Mehmet Ülkümən, səfərin texniki səbəblər üzündən həyata keçmədiyini bildirmişdir.

Respublikamızın xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov Mehmet Ülkümənı Azərbaycanda görməkdən məmnunluq ifadə etmiş və onun protokol sahəsindəki böyük təcrübəsinin nazirliyin bu işlə məşğul olan əməkdaşları üçün faydalı olacağını qonağın diqqətinə çatdırmışdır. Azərbaycanın beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətinin vacib olduğunu xüsusi qeyd edən nazir Elmar Məmmədyarov bunun ölkəmizin beynəlxalq təsisatlara inteqrasiyasına kömək etdiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RUSİYA VAHİD ENERJİ SİSTEMİ" SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında "Rusiya vahid Enerji Sistemi" Səhmdar Cəmiyyətinin sədri Anatoli Çubaysı qəbul etmişdir.

Dövlətimizin başçısı qonağın Bakıda keçirdiyi görüşlərdən məmnunluğunu bildirərək dedi ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə, ümumən, çox uğurla inkişaf edir. Azərbaycan Prezidentinin Rusiyaya səfəri bir daha təsdiq etdi ki, ölkələrimiz arasında bütün istiqamətlərdə çox fəal əməkdaşlıq, iqtisadi sahədə də, siyasi dialoq aparılması sahəsində də tam qarşılıqlı anlaşma var. Bu, çox sevindiricidir və mehriban qonşuluq siyasətinin çox yaxşı nəticələr verdiyini göstərir.

Prezident İlham Əliyev vurğuladı ki, energetika sahəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı tərəfdaşlıq münasibətləri yaranmışdır. Neft və qazın iki istiqamətdə nəqlinə dair birgə layihələr hər iki ölkəyə iqtisadi səmərə gətirir. Rusiya ilə Azərbaycan arasında energetika sahəsində son illər artmış əməkdaşlıq da çox faydalıdır. İndi ölkələrimiz arasında elektrik enerjisi mübadiləsi artmaqdadır. Biz bu əməkdaşlığı genişləndirmək və gələcəkdə elektrik enerjisi mübadiləsinin daha tam həcmdə həyata keçirilməsinə nail olmaq istəyirik.

Azərbaycan dövlətinin başçısı əmin olduğunu bildirdi ki, Anatoli Çubaysın Bakıya səfəri və burada keçirdiyi görüşlər bu sahədə daha böyük irəliləyişə nail olmağa kömək edəcəkdir.

"Rusiya VES" SC-nin sədri dedi ki, Bakıya ilk səfərindən onda çox səmimi təəssürat yaranmışdır. "Bu gün Heydər Əliyeviçin məzarı önünə gül-çiçək qoyarkən bu insanın özünü və bir dəfə onunla olmuş xüsusi, çox ciddi və əsaslı bir görüşümü xatırladım. Onda biz iki saatdan çox söhbət etdik. Mübaliğəsiz deyə bilərəm ki, bu görüşdən aldığım təəssürat bütün ömrüm boyu xatirimdə qalacaqdır. O, həqiqətən, tarixi miqyaslı şəxsiyyətdir. Ona görə də mənim peşə vəzifələrimlə yanaşı, bugünkü günlə bağlı şəxsi təəssüratlarım da var. Bu təəssüratlar mənim üçün əziz və qiymətlidir".

Qonaq Azərbaycan energetikləri ilə qarşılıqlı münasibətləri məzmunlu hesab edərək, Prezident İlham Əliyevə "Azərenerji" SC-də və hökumətdə keçirdiyi görüşlər barədə məlumat verdi. Onun sözlərinə görə, əməkdaşlıq sahəsində strategiyanın və güclü irəliləyişin yaxşı perspektivləri var. Rusiya tərəfi Azərbaycanda iqtisadiyyatın inkişafını maraqla izləyir və bu inkişaf sabit və inflyasiya səviyyəsinin aşağı olduğu şəraitdə baş verir. Bu, o deməkdir ki, Azərbaycan uzunmüddətli və ciddi iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdur və elektrik enerjisinə tələbat artacaqdır. Odur ki, Rusiya və Azərbaycan elektrik enerji təchizatının etibarlılığının təmin olunmasına kömək edəcək əlaqələrin gücləndirilməsi, yeni elektrik xətləri çəkilməsi barədə ciddi düşünməlidir.

Qonaq Rusiya, Azərbaycan və İran energetiklərinin əməkdaşlığına, elektroenergetika sistemlərini sinxronlaşdırmaq məsələsinə də toxundu. Onun fikrincə, elektroenergetika sistemlərinin sinxronlaşdırılması bu ölkələrə fayda gətirəcəkdir. Bundan əlavə, "Rusiya VES" SC-nin Gürcüstanda aldığı güclü energetika qurğuları Rusiyanın Azərbaycan və Gürcüstanla əməkdaşlığını möhkəmlətməyə, bu ölkələrin hamısının təchizatının eti-

barlılığını təmin etməyə imkan verəcəkdir. Bu vəzifələrin həlli üçün işçi qrupu yaradılmışdır. Anatoli Çubays dedi: "Cənab Prezident, bu istiqamətlərdə irəliləməyimiz üçün, respublikanın tanınmış lideri kimi Sizin prinsipial mövqeyiniz gərəkdir".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Litva Respublikası xarici işlər nazirinin müavini Darius Yurgeleviçius başda olmaqla bu ölkənin xarici siyasət idarəsinin nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Litva arasında yaxşı münasibətlərin olduğunu bildirən Prezident İlham Əliyev Litvanın Avropa Birliyinə daxil olması münasibətilə qonaqları təbrik edərək, bunu böyük fayda gətirəcək mühüm nailiyyət adlandırdı. O, yaxınlarda Avropa Birliyində olduğunu xatırladaraq vurğuladı ki, ölkəmiz bu təşkilatla fəal inteqrasiya edir.

Prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında əməkdaşlıq üçün çox yaxşı iqtisadi zəmin müşahidə olunur. Azərbaycanın Baş naziri bu yaxınlarda Litvaya səfər etmiş və orada səmərəli danışıqlar aparmışdır. Biz Litvanı özümüzə tərəfdaş bilirik və bütün sahələrdə əməkdaşlıq yaratmaq istəyirik. Əməkdaşlıq prosesində müəyyən fasilə olmasına, bir çox əlaqələrin qırılmasına baxmayaraq, indi bunu bütün istiqamətlərdə genişləndirmək vaxtı gəlib çatmışdır.

Dövlətimizin başçısı əmin olduğunu söylədi ki, Litva nümayəndə heyətinin səfəri qarşılıqlı surətdə faydalı münasibətlərin möhkəmlənməsinə kömək edəcəkdir.

Litva xarici işlər nazirinin müavini Darius Yurgeleviçius Prezident İlham Əliyevə qarşıdakı Respublika günü münasibətilə ölkəsinin Prezidentinin təbrikini və Litvaya rəsmi səfərə dəvətini yetirdi. Qonaq dedi ki, ölkələrimiz, həqiqətən, intensiv və hərtərəfli əməkdaşlıq mərhələsinə qədəm qoyurlar. Azərbaycan Baş nazirinin Litvaya və özünün başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərləri buna sübutdur. D.Yurgeleviçiusun sözlərinə görə, onun ölkəsinin Avropa Birliyinə üzvlüyü Azərbaycanın çox böyük arzu və maraqlarını geniş Avropa ailəsinə yetirmək üçün əməli imkanlar yaradır. Qonaq dedi: "İstəyirik ki, siz bizi Avropa Birliyində, Avroatlantika qurumlarında öz vəkiliniz və dostlarınız kimi qəbul edəsiniz. Biz bu yöndə addımlar atacağıq. Cənubi Qafqaz ölkələrinin Avropa Birliyi sənədlərinə daxil edilməsinin təşəbbüsçüsü Litva olmuşdur. Yeni qonşuluq proqramına dair bu təşəbbüs indən belə əməli mərhələyə keçir".

Prezident İlham Əliyev nəzərə çarpdırdı ki, Azərbaycan da Litvanı dost ölkə bilir. Biz Litvanın NATO-ya və Avropa Birliyinə daxil olmasına çox sevindik. Dövlətimizin başçısı qonağın xatırlatdığı yeni qonşuluq proqramını Azərbaycan üçün çox mühüm və Avropaya inteqrasiyanın strateji xəttinə uyğun olan proqram adlandıraraq dedi ki, bu proqram ölkəmiz qarşısında yeni perspektivlər açır. O vurğuladı ki, NATO-ya səfəri zamanı Şimali Atlantika Alyansı Şurasında çıxışından sonra Litva səfiri də çıxış etdi. Onun çıxışı çox müsbət məzmunlu idi. Bu isə bir daha təsdiq edir ki, ölkələrimiz arasında yüksək səviyyədə qarşılıqlı anlaşma yaranmışdır.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan inteqrasiyanın daha da genişləndirilməsinə çalışacaqdır. Biz fərdi tərəfdaşlıq planı çərçivəsində artıq müəyyən addımlar atmışıq.

Söhbət sülh naminə tərəfdaşlıqdan növbəti mərhələyə keçiddən gedir. Bütün bu istiqamətlərdə ölkəmiz Litvanın dəstəyinə və onunla əməkdaşlığa ümid bəsləyir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN SİLAHLI QÜVVƏLƏR KOMİTƏSİNİN SƏDRİ KURT UELDONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında ABŞ Konqresinin Silahlı Qüvvələr Komitəsinin sədri Kurt Ueldonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Cənab Kurt Ueldon və nümayəndə heyətinin üzvləri əvvəlcə İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi və dövlət başçısı seçilməsi münasibətilə təbrik etdilər, bununla fəxr etdiklərini vurğuladılar.

Prezident İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, ötən ilin avqustunda cənab Kurt Ueldonun ölkəmizə səfəri zamanı keçirdiyi görüşü xatırlatdı. Dövlətimizin başçısı dedi: Həmin görüşdə çox gözəl fikir mübadiləsi aparılmışdır və ondan sonra ölkələrimiz arasında münasibətlərdə yeni uğurlar əldə edilmişdir. Əminəm ki, ölkələrimiz bundan sonra da uğurla əməkdaşlıq edəcəklər. Bütün sahələrdə - siyasi, hərbi sahələrdə əməkdaşlıq uğurludur, Amerika ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf edir. Bu, bizi çox sevindirir. Azərbaycana ABŞ-ı təmsil edən müxtəlif nümayəndə heyətləri, yüksək vəzifəli şəxslər gəlmişlər. Bu, onu göstərir ki, bizim aramızda olan münasibətlər gələcəkdə də uğurla inkişaf edəcəkdir.

Prezident İlham Əliyev son zamanlar ABŞ Konqresi ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsinin başlandığını vurğulayaraq bildirdi ki, bu, cənab Kurt Ueldonun fəaliyyəti nəticəsində mümkün olmuşdur. Dövlətimizin başçısı nümayəndə heyətinin rəhbərinə müraciətlə dedi ki, Sizin təşəbbüsünüzlə Konqresdə Azərbaycanla əlaqədar işçi qrupu yaradılmışdır və bu, tarixi hadisədir. Ümid edirəm ki, bundan sonra Konqresdə Azərbaycan haqqında məlumatlar daha dolğun olacaqdır. Bu isə bizə Konqreslə Azərbaycan arasında münasibətləri daha uğurla inkişaf etdirməyə imkan verəcəkdir. Buna görə mən sizə öz dərin minnətdarlığımı bildirirəm.

Sizi bir daha salamlayır və demək istəyirəm ki, sizi görməyimə çox şadam, sevinirəm ki, siz bu gün Azərbaycandasınız.

Azərbaycana bir daha səfər etməsindən məmnunluğunu bildirən Kurt Ueldon dedi: "Cənab Prezident, biz buraya həm də kədər içində gəlmişik. Bu kədərimizin də səbəbi odur ki, cənab Heydər Əliyev dünyasını dəyişmişdir. O, bütün dünyada və əlbəttə ki, Azərbaycanda sevilən bir şəxsiyyət idi. Mən Sizinlə keçən dəfə Baş nazir kimi görüşmüşəm, şadam ki, indi Prezident kimi görüşürük. Buradakı görüşlərim zamanı Sizin rəsmilərə başsağlığımı ifadə etmişəm, indi isə Sizə də dərin hüznlə başsağlığı verirəm.

Bizim səfərimizin sevindirici tərəfi isə ondan ibarətdir ki, Sizi ölkənin yeni seçilmiş Prezidenti kimi görürük. Siz təkcə Azərbaycanda deyil, bütün regionda əsl liderlik nümayiş etdirir, ölkənizi irəli aparırsınız. Bu, bizim üçün çox sevindiricidir. Dünyada çox az sayda lider tapılar ki, dünyanın hansı səmtə doğru irəlilədiyini, onun gələcək perspektivlərini əvvəlcədən görə bilsin. Eyni zamanda, dünyada Sizin kimi çox az lider

tapılar ki, xarici dilləri mükəmməl bilsin və prezidentliyinin qısa müddəti ərzində bu dərəcədə liderlik nümayiş etdirsin. Regionda Sizin nümayiş etdirdiyiniz liderliyə, həqiqətən, valeh olmuşuq. Eyni zamanda, Sizin yorulmaz səyləriniz, terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlara dəstəyiniz bizim üçün çox vacibdir. Bizdən ötrü, həqiqətən, böyük şərəfdir ki, Sizin ölkənin əsgərləri, sizin xalqın övladları bizim ölkənin əsgərləri ilə birlikdə vuruşurlar, çiyin-çiyinə dayanaraq terrorizmə sinə gərirlər. Hərbi sahədə ölkələrimizin əməkdaşlığı ABŞ-ın ən yuxarı dairələrində çox yüksək qiymətləndirilir. Bu, Birləşmiş Ştatların Prezidenti səviyyəsində də qeyd olunmuşdur".

Kurt Ueldon daha sonra vurğuladı ki, onların səfərinin əsas məqsədi Prezidentlə fikir mübadiləsi etmək, müəyyən məsələlərdə dövlət başçısının fikrini öyrənməkdir. O bildirdi ki, Azərbaycan parlamentinin sədri və onun müavinləri ilə görüşmüş, Milli Məclislə ABŞ Konqresi arasında əməkdaşlığa dair məsələləri müzakirə etmişlər. İndi isə Prezidentlə təhlükəsizlik, ölkəyə qoyulan sərmayələr, iqtisadi inkişaf, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında ATƏT-in və ABŞ Dövlət Departamentinin oynaya biləcəyi rol haqqında fikir mübadiləsi aparmaq istəyirlər.

Qonaq respublikamızın Vaşinqtondakı səfirinin fəaliyyətini də yüksək qiymətləndirərək dedi ki, o, Azərbaycan dövləti və xalqı üçün çox böyük iş görür.

Cənab Kurt Ueldon daha sonra nümayəndə heyətinin üzvlərini - Demokratlar Partiyasından olan konqresmenləri Prezident İlham Əliyevə təqdim edərək bildirdi ki, ABŞ Konqresində Azərbaycanın dostlarının sayı durmadan artır və onlardan bir neçəsi buradadır. Onlar Konqresdə Azərbaycan haqqında məlumatları fəal yaymaqla məşğuldurlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında Beynəlxalq Valyuta Fondunun Yaxın Şərq və Mərkəzi Asiya ölkələri Departamentinin şöbə müdiri Con Uikman-Linnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Con Uikman-Linnin Bakıda keçirdiyi səmərəli görüşlərdən məmnun olduğunu, xüsusilə neft sektorunda Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan arasında əməkdaşlığın gündən-günə inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, Azərbaycan iqtisadiyyatı durmadan inkişaf edir və ölkəmizin qarşısında yeni-yeni vəzifələr qoyur. Ona görə də Fondun köməyi və məsləhətləri bizim üçün çox faydalıdır. Əminik ki, Beynəlxalq Valyuta Fondu, habelə digər maliyyə qurumları ilə Azərbaycanın əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.

Con Uikman-Linn dövlətimizin başçısı İlham Əliyevi prezident seçkilərində uğurlu qələbəsi münasibətilə bir daha ürəkdən təbrik etdi. O, Azərbaycan hökumətinin yoxsulluğun azaldılmasına dair proqramını yüksək qiymətləndirdi və onun həyata keçirilməsində uğurlar dilədi, eyni zamanda, bildirdi ki, Beynəlxalq Valyuta Fondu bu işdə Azərbaycan hökumətinə öz köməyini əsirgəməyəcəkdir. Ölkəmizin neft-qaz sektorunda əldə etdiyi uğurları yüksək qiymətləndirən Con Uikman-Linn xüsusilə şəffaflığın təmin olunması sahəsində Neft Fondunun fəaliyyətini zəruri amil kimi dəyərləndirdi. O, Azərbaycan hökumətinin bu sahədəki tədbirlərini ölkənin rifahı naminə gələcəyə yönəlmiş strateji əhəmiyyətli bir zəmin kimi də vurğuladı. Azərbaycanda həyata keçirilən layihələrin və proqramların uğurla başa çatdırılacağına əmin olduğunu bildirən BVF təmsilçisi dedi ki, biz əməkdaşlığımızı daha da möhkəmləndirməyə, Sizə və hökumətinizə gələcəkdə də köməyimizi və məsləhətlərimizi davam etdirməyə hazırıq.

AZƏRBAYCANIN ZƏNGİN MƏDƏNİYYƏTİNİ ƏKS ETDİRƏN ƏSƏRLƏRİN ELEKTRON VARİANTI UNESCO-NUN İNTERNET SAYTINDA YERLƏŞDİRİLƏCƏK

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov mayın 25-də UNESCO-nun Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Rusiya Federasiyası üzrə Moskva bürosunun yeni təyin olunmuş direktoru Filip Keo ilə görüşmüşdür.

Görüşdə Filip Keo Azərbaycanda olacağı üç gün ərzində bir sıra görüşlər keçirəcəyi haqqında məlumat vermiş və təmsil etdiyi təşkilatın ölkəmiz ilə bir çox sahələrdə əməkdaşlığın genişlənməsində maraqlı olduğunu bildirmişdir.

Filip Keo, ötən il Vilnüs şəhərində keçirilmiş "Sivilizasiyaların dialoqu" adlı tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, Qafqaz xalqlarının bənzərsiz musiqisinə həsr olunmuş 1 saatlıq verilişin televiziya ilə yayımlanmasının nəzərdə tutulduğunu bildirmişdir.

Sonra qonaq rəhbərlik etdiyi quruma daxil olan hər bir ölkənin Milli Komissiyasının saytının da yaradılması və onların Büronun İnternet saytına qoşulmasının nəzərdə tutulduğunu və bunun üçün kömək göstərməyə hazır olduğunu bildirmişdir.

Filip Keo, həmçinin, Azərbaycanın zəngin mədəniyyətinin gələcək nəsillərə çatdırılması üçün milli musiqimizin, klassiklərimizin əsərlərinin və habelə dünya klassiklərinin Azərbaycan dilinə tərcümə edilmiş əsərlərinin CD və DVD vasitəsi ilə UNESCO–nun və üzv dövlətlərin kitabxanalarında yerləşdirilməsinin zəruri olduğunu bildirmişdir.

Filip Keo Azərbaycan hökumətinin UNESCO-nun bir sıra beynəlxalq konvensiyalarını imzaladığını qeyd edərək, "Təhsildə diskriminasiyaya qarşı konvensiya"ya qoşulmasını birgə əməkdaşlıq üçün əhəmiyyətli olduğunu bildirmişdir.

Nazir Elmar Məmmədyarov Filip Keonu yeni təyinatı ilə təbrik etmiş və UNESCO ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsinə tərəfdar olduğunu vurğulamışdır.

Qonağın təşəbbüsünü yüksək qiymətləndirən nazir bu layihələrin həyata keçirilməsində Azərbaycan tərəfinin səylər göstərməyə hazır olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Bakı ofisinin rəhbəri Piter Burhardı qəbul etmişdir.

Azərbaycanda diplomatik missiyasının başa çatması ilə əlaqədar Piter Burhardın ölkəmizi tərk etməsindən təəssüfləndiyini bildirən İlham Əliyev onun fəaliyyət göstərdiyi dövrün çox yaddaqalan və maraqlı olduğunu söylədi. Dövlətimizin başçısı ölkəmizdə gedən demokratikləşmə, siyasi-iqtisadi islahatlar, vətəndaş cəmiyyəti quruculuğu proseslərində fəal əməkdaşlığa görə ATƏT-in Bakı ofisinin rəhbərinə təşəkkürünü bildirdi. Piter Burhardın ölkəmizdəki fəaliyyətinin səmərəli olmasından razılığını bildirən Prezident İlham Əliyev ona gələcək işlərində uğurlar dilədi, Azərbaycanın Avropa strukturlarına inteqrasiyasının, ATƏT və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlığının çox faydalı olduğunu və bunun gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

Cənab Piter Burhard səmimi qəbula və xoş arzulara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək, Azərbaycanda fəaliyyət müddətinin başa çatmasından təəssüfləndiyini söylədi. O vurğuladı ki, bir müddət Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ATƏT-in ofisinə başçılıq etmişdir və gələcəkdə də burada fəaliyyət göstərməsi onun üçün çox maraqlı olardı. ATƏT-in təmsilçisi Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə yüksək qonaqpərvərlik və hörmətlə qarşılaşmasından məmnunluğunu vurğuladı və əmin olduğunu bildirdi ki, ölkəmizin ATƏT-lə və digər nüfuzlu beynəlxalq təşkilatlarla fəal əməkdaşlığı bundan sonra da davam etdiriləcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji ehtiyatları üzrə xüsusi nümayəndəsi səfir Stiven Mənni qəbul etmişdir.

Prezident İlham Əliyev həmin gün öz işinə başlayan XI beynəlxalq neft-qaz sərgisinin çox uğurlu olduğunu söyləyərək dedi ki, adətən, ənənəvi keçirilən tədbirlərə maraq tədricən azalır. Lakin bu sərgi-konfransa olan maraq ildən-ilə artır. Əlbəttə, bu, həm də Azərbaycanda həyata keçirilən çox mühüm və irimiqyaslı layihələrlə əlaqədardır. Azərbaycan xarici şirkətlər, sərmayəçilər, xidmət sahəsində fəaliyyət göstərən firmalar üçün cəlbedici ölkə olaraq qalır.

Prezident İlham Əliyev daha sonra dedi: "İlk növbədə, səmimi məktuba görə ABŞ Prezidentinə mənim təşəkkürümü çatdırmağı xahiş edirəm. Siz bu məktubu bu gün səhər təqdim etdiniz. Bu, çox mühümdür və əlaqələrimizin inkişafına güclü bir təkandır. Mən bundan çox məmnunam. Əminəm ki, bizim enerji və digər sahələrdə əməkdaşlığımız gələcəkdə uğurla davam edəcəkdir".

Səmimi sözlərə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirən Stiven Mənn sərgi-konfransı mühüm tədbir kimi dəyərləndirərək dedi ki, burada sizin ölkənin 11 il ərzində əldə etdiyi nailiyyətlər bir daha nümayiş etdirildi. Prezident Corc Buş məktubunda neft və qaz sərgisi münasibətilə öz təbriklərini və Sizə şəxsi salamlarını ifadə etmişdir. Mənim ölkəm Azərbaycanla enerji sahəsində tərəfdaşlıqdan çox məmnundur və biz bu yolda çox böyük uğurlar qazanmışıq. Gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri işə

düşəcəkdir. Bugünkü tədbir aydın şəkildə göstərir ki, Azərbaycan neft şirkətləri və digər sərmayəçilər üçün çox cəlbedici ölkədir. Ölkəmizin buradakı səfiri Rino Harnişlə və ABŞ şirkətləri ilə əməkdaşlıq yüksək səviyyədədir.

Prezident İlham Əliyev dedi ki, neft və qaz layihələri sahəsində əldə olunan uğurlar Azərbaycan və ABŞ-ın birgə nailiyyətidir. Bakı-Tbilisi-Ceyhan və digər layihələrin uğurla həyata keçirilməsi Birləşmiş Ştatların güclü dəstəyi sayəsində mümkün olmuşdur və Siz, cənab səfir, bu uğurlara öz töhfənizi vermisiniz. Mən Sizin bu istiqamətdə göstərdiyiniz səylərin şahidiyəm və əminəm ki, bu uğurlarımız gələcəkdə də davam edəcəkdir.

Prezident İlham Əliyev cənab Stiven Mənnin daha bir mühüm missiyanı yerinə yetirdiyini – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədri olduğunu xatırladaraq, onun ölkəmiz üçün ən ağrılı problemin aradan qaldırılmasında səylərini əsirgəməyəcəyinə əminliyini vurğuladı.

Görüşdə bu münaqişənin sülh yolu ilə həlli məsələsinə dair geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN BİZNES İMKANLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ TƏMSİLÇİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Böyük Britaniya Baş nazirinin biznes imkanlarının inkişafı üzrə xüsusi təmsilçisi Brayn Uilsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Brayn Uilsonla əvvəllər keçirdiyi görüşləri xatırlatdı, onun başçılıq etdiyi nümayəndə heyətinin indiki sərgi-konfransda iştirakını yüksək dəyərləndirdi. Azərbaycan Prezidenti Britaniya Baş nazirinin ona göndərdiyi məktubdan məmnunluğunu bildirərək dedi: "Xahiş edirəm, ünvanıma göndərdiyi məktuba görə cənab Toni Bleyerə mənim təşəkkürümü çatdırın. Bu məktubda Azərbaycanın hasilat sənayelərinin şəffaflığı təşəbbüsündə fəal iştirakı yüksək qiymətləndirilmişdir".

Prezident İlham Əliyev neft və qaz layihələrinin həyata keçirilməsində hər il yeni uğurlar əldə olunduğunu vurğuladı, Böyük Britaniyanın bp şirkətinin aparıcı rol oynadığı Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin gələn il başa çatacağını söylədi. Dövlətimizin başçısı dedi ki, bp şirkəti ölkəmizdə həyata keçirilən digər layihələrdə də çox fəal iştirak edir. Bu şirkətin əməkdaşları artıq cəmiyyətimizin ayrılmaz hissəsinə çevrilmişlər, sosial və humanitar proqramların həyata keçirilməsində də böyük səylər göstərirlər. Azərbaycanda neft və qaz sektorunun inkişafı uğurla davam edir və bütün layihələr nəzərdə tutulduğu vaxtda həyata keçirilir.

Brayn Uilson əvvəllər Prezident Heydər Əliyevlə keçirdiyi görüşlərdən böyük təəssürat aldığını xatırlatdı, onun neft və qaz sənayesinin inkişafında böyük xidmətlərini xüsusi vurğuladı. Qonaq dedi ki, bp şirkətinin Azərbaycandakı çox uğurla fəaliyyəti ümumən Azərbaycan-Böyük Britaniya əlaqələrinə körpü salır. Əmin olduğumu bildirirəm ki, neft və qaz layihələri uğurla başa çatacaq və bu, təkcə Azərbaycana deyil, digər ölkələrə də böyük mənfəət gətirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Gürcüstanın yanacaq və energetika nazirinin müavini İsaq Novruzovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev hər il təşkil olunan ənənəvi sərgi-konfransın uğurla davam etdiyini söyləyərək, Gürcüstan nümayəndə heyətinin bu tədbirdə həmişə fəal iştirakını qeyd etdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanla Gürcüstan bir çox irimiqyaslı layihələri uğurla həyata keçirirlər. İki ölkə vahid mexanizm kimi Şərq-Qərb dəhlizində fəal iş aparırlar. Bakı-Tbilisi-Ceyhan neft kəməri və həyata keçiriləcək qaz kəməri layihəsi hər iki ölkənin xalqları üçün böyük əhəmiyyət kəsb edir. Sevindirici haldır ki, dövlətlərimiz arasında olan siyasi əlaqələrin yüksək səviyyəsi, qarşılıqlı inam və dəstək bu layihələrin uğurla həyata keçirilməsinə şərait yaradır. Gürcüstan Prezidentinin ölkəmizə səfəri çox uğurlu olmuşdur. Mən də tezliklə Gürcüstana rəsmi səfər edəcəyəm. Bizim ənənəvi qardaşlıq əlaqələrimiz uğurla inkişaf edir.

Prezident İlham Əliyev Gürcüstana və gürcü xalqına böyük uğurlar dilədi.

Gürcüstanın yanacaq və energetika nazirinin müavini İsaq Novruzov Azərbaycan və gürcü xalqları arasında əsrlər boyu mövcud olan qardaşlıq əlaqələrinin durmadan inkişaf etdiyini xatırladaraq dedi ki, prezidentlər Heydər Əliyev və Eduard Şevardnadzenin əsasını qoyduqları indiki strateji tərəfdaşlıq münasibətləri bu gün İlham Əliyev və Mixail Saakaşvili tərəfindən uğurla davam etdirilir. Prezident Mixail Saakaşvili həmişə qeyd edir ki, bizim xalqlar dost deyil, qardaş xalqlardır. Bu yaxınlarda Gürcüstanın dövlət başçısı Tbilisidəki məscidə gələrək, azərbaycanlılarla görüşmüş və soydaşlarımızın həmişə onu dəstəklədiklərini söyləmişdir. Heydər Əliyev Gürcüstana səfərləri zamanı həmişə burada yaşayan azərbaycanlılara müraciətlə deyərdi ki, siz Gürcüstan vətəndaşısınız və əsrlər boyu burada yaşamısınız. İsaq Novruzov Gürcüstanda yaşayan azərbaycanlılara göstərdiyi qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN NEFT VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Norveçin neft və energetika üzrə dövlət katibi Oyvind Habrekkenin başçılığı ilə nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev neft, qaz sərgi və konfransında fəal iştirakına görə qonağa təşəkkürünü bildirərək dedi ki, on birinci dəfə keçirilən bu tədbirin iştirakçıları ilbəil çoxalır. Bu, onu göstərir ki, sərgi-konfransa maraq ildən-ilə artır.

Dövlətimizin başçısı xarici şirkətlərlə, o cümlədən Norveçin "Statoil" şirkəti ilə ölkəmiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini söyləyərək vurğuladı ki, "Statoil" bir sıra mühüm beynəlxalq layihələrin də fəal iştirakçısıdır. ARDNŞ ilə bu şirkət arasında ikitərəfli əlaqələrin səviyyəsindən də məmnunluğunu bildirən Prezident İlham Əliyev dedi ki, ümidvaram, bu əməkdaşlıq gələcəkdə də davam edəcək və yeni layihələr həyata keçiriləcəkdir. Azərbaycanın neft və qaz ehtiyatları artıq dünya bazarlarına yol açır. "Statoil" şirkətinin qaz sektorunda böyük təcrübəsi vardır və Azərbaycan bu sahədə şirkətlə əməkdaşlığı müsbət qiymətləndirir.

Norveçin dövlət katibi Azərbaycana ilk səfərindən məmnunluğunu və ölkə Prezidenti ilə görüşündən fərəh duyduğunu söylədi. O, ARDNŞ-də keçirdikləri konstruktiv danışıqlar haqqında Prezident İlham Əliyevə ətraflı məlumat verərək, əməkdaşlığın daha da inkişaf edəcəyinə əmin olduğunu dedi. Ölkələrimiz arasında iqtisadi sahə ilə yanaşı, mədəniyyət sahəsində də fəal əməkdaşlığın olduğunu vurğulayan qonaq dedi ki, ikitərəfli və qarşılıqlı surətdə faydalı münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensial mövcuddur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Türkiyənin enerji və təbii ehtiyatlar naziri Hilmi Gülər və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev artıq on birinci dəfədir Bakıda keçirilən ənənəvi sərgi-konfransın çox uğurla davam etdiyini və Türkiyənin enerji və təbii ehtiyatlar nazirinin konfransda çox gözəl çıxış etdiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, hər il təşkil olunan bu tədbirə xarici şirkətlərin və müxtəlif ölkələrin marağı durmadan artır. Təsadüfi deyildir ki, bu il iştirakçıların sayı təxminən 340-a çatmışdır.

Prezident İlham Əliyev dedi ki, neft-qaz sektorunun inkişafı sahəsində ölkəmiz çox uğurlu bir yol keçmişdir. 1994-cü ildə Azərbaycan haqqında dünyada, demək olar ki, məlumat yox idi və neft sahəsində elə də böyük işlər görülməmişdi. Bu gün artıq Azərbaycanda irimiqyaslı və bütün dünya üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Sevindirici haldır ki, bu layihələr qardaş Türkiyə ilə birgə həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildikdən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə başlanacaq ki, bu da təbii qazın qardaş ölkəyə və Avropaya çatdırılmasına imkan verəcəkdir. Dövlətimizin başçısı Türkiyənin Prezidenti Əhməd Necdət Sezər və Baş nazir Rəcəb Tayyib Ərdoğanla bu sahədə mühüm danışıqlar apardığını xatırlatdı və iki ölkənin rəhbərləri arasında dostluq və qarşılıqlı anlaşmanın olduğunu vurğulayaraq bildirdi ki, bu gün ölkələrimiz arasında istər yüksək səviyyədə, istərsə də ayrı-ayrı qurumlar səviyyəsində konstruktiv əməkdaşlıq mövcuddur.

Prezident İlham Əliyev Türkiyəyə rəsmi səfərini xatırladaraq, imzalanmış sənədlərin və aparılmış danışıqların əhəmiyyətini vurğuladı.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin durmadan möhkəmlənməsini söyləyən Hilmi Gülər həyata keçirilən irimiqyaslı layihələrin hər iki ölkənin inkişafında önəmli rol oynayacağını söylədi. O, İngiltərədə olarkən aparılan danışıqlar zamanı Böyük Britaniya rəhbərliyinin də bu layihələrə daim dəstək verdiyini vurğuladı. Nazir Azərbaycan Prezidentinə müraciətlə dedi ki, biz buradakı fəaliyyətimizə göstərdiyiniz köməyə görə Sizə öz təşəkkürümüzü bildiririk. İnşallah, möhtərəm Heydər Əliyevin arzuları reallığa çevriləcəkdir. Biz bunu çox istəyirik.

ENERJİ XARTİYASININ KATİBLİYİ AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 1-də ölkəmizdə səfərdə olan Enerji Xartiyası Katibliyinin baş katibi xanım Ria Kemper ilə görüşmüşdür.

Görüşdə xanım Ria Kemper səfərinin əsas məqsədinin Bakıda keçirilən neft, qaz sərgi və konfransında iştirak edib Enerji Xartiyası Katibliyinin fəaliyyəti ilə bağlı çıxış etməkdən ibarət olduğunu bildirmişdir.

Qonaq rəhbərlik etdiyi təşkilatın Azərbaycanla səmərəli əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu vurğulamış və katiblikdə yaranan boş yerlərdə azərbaycanlı namizədlərin də iştirak etməsinin vacib olduğunu söyləmişdir.

Sonra xanım Ria Kemper işi ilə bağlı məlumat verərək demişdir ki, enerjinin nəqli məsələsi rəhbəri olduğu təşkilatın fəaliyyətinin əsas istiqamətlərindən biridir və bununla əlaqədar Enerji Xartiyası Müqaviləsinə tranzit üzrə protokol tətbiq etmək niyyətindədir.

Nazir Elmar Məmmədyarov qonağın neft, qaz sərgi və konfransında iştirakını yüksək qiymətləndirmiş, ölkəmizin Enerji Xartiyasına 1997-ci ildə qoşulmasını bu beynəlxalq təşkilata ciddi münasibət bəsləməsinin təzahürü kimi qiymətləndirmişdir.

Nazir ölkəmizin Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrində fəal iştirak etdiyini diqqətə çatdıraraq, bu və hazırda Azərbaycan neftini dünya bazarına çıxaran mövcud kəmərlərin təhlükəsizliyi sahəsində Enerji Xartiyası ilə əməkdaşlığın əsas istiqamətlərindən biri olduğunu bildirmişdir.

Azərbaycanın Enerji Xartiyası Katibliyində boş yerlərə namizədlərinin iştirak etməsinə toxunan nazir Elmar Məmmədyarov, gənc diplomatlarımızın bu iş yerlərində çalışmalarında maraqlı olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında Qırğızıstanın müdafiə naziri general-polkovnik Esen Topoyevi qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla Qırğızıstan arasında əlaqələrin dostluq və qardaşlıq zəminində uğurla inkişaf etdiyini söylədi. O, ötən ilin dekabrında beynəlxalq konfrans zamanı Prezident Əsgər Akayevlə görüşünü xatırladaraq, ikitərəfli əlaqələrin perspektivləri və gələcəyə yönəlmiş planlar haqqında geniş fikir mübadiləsi apardıqlarını bildirdi. Dövlətimizin başçısı dedi ki, biz Qırğızıstanla əməkdaşlığı bütün istiqamətlərdə, o cümlədən, hərbi sahədə inkişaf etdirmək istəyirik. Qırğızıstan və Azərbaycan müdafiə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış saziş də bu sahədə atılmış müsbət bir addımdır.

Xalqlarımızın dil, din, adət-ənənələr baxımından bir-birinə yaxın olduğunu, hazırda suveren dövlətlərimizin müstəqil siyasət yeritdiyini, beynəlxalq təşkilatlardakı əməkdaşlığın yüksək səviyyəsini vurğulayan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Qırğızıstanın müdafiə nazirinin səfəri xalqlarımızın və ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəkdir. O, özünün salamlarını və ən xoş arzularını Prezident Əsgər Akayevə çatdırmağı xahiş etdi.

Esen Topoyev Bakıya səfəri ərəfəsində Prezident Əsgər Akayevin qəbulunda olduğunu bildirərək dedi ki, Qırğızıstan rəhbəri ən xoş arzularını və salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş etmişdir. Nazirin sözlərinə görə, Qırğızıstanın dövlət başçısı da Azərbaycan xalqına və Prezidentinə uğurlar arzulamışdır. Xalqlarımız ümumi tarixi köklərinin, ümumi adət və ənənələrinin olduğunu vurğulayaraq demişdir ki, Sovet İttifaqı dağıldıqdan sonra ölkələrimiz arasında əlaqələrdə müəyyən bir qırılma olmuşdur, lakin indi əlaqələrimizi bərpa edir və türkdilli dövlətlərin "yeni bir piramidasını" yaradırıq.

General Topoyev Mərkəzi Asiya regionundakı proseslərdən, öz ölkəsinin antiterror koalisiyasında iştirakından bəhs etdi. MDB çərçivəsində fəaliyyətləri barədə, Azərbaycanın müdafiə naziri ilə apardıqları danışıqlar və imzaladıqları saziş barədə məlumat verən nazir Azərbaycan Ali Hərbi Məktəbində olarkən aldığı yüksək təəssüratdan danışdı və bu təcrübəni öz ölkəsində də tətbiq edəcəklərini söylədi. Esen Topoyev Qırğızıstan zabitlərinin də bu ali məktəbdə təhsil almasına imkan yaradılmasını xahiş etdi.

Prezident İlham Əliyev bu məsələnin həll olunması üçün Azərbaycanın müdafiə nazirinə müvafiq tapşırıq verdi. Azərbaycanda hərbi kadrların hazırlanması tarixindən bəhs edən dövlətimizin başçısı dedi: "Bu proses hələ 1970-ci illərdə başlanmışdır. Bizim ümummilli liderimiz Heydər Əliyev həmin illərdə general Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaratmışdı. O zaman bu, SSRİ-nin tarixində nadir bir hadisə idi. Rusiyada Suvorov, Naximov məktəbləri fəaliyyət göstərirdi. Digər respublikalarda isə milli kadrlar hazırlamaq üçün məktəblər yox idi. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Lakin yəqin ki, bizim liderimiz öz ölkəsinin müstəqilliyini görürdü və çox gözəl bilirdi ki, müstəqil dövlətin müstəqil ordusu olmalıdır. Bütün bunlar gələcək proseslərə öz ciddi təsirini göstərdi. Bu gün hərbi litsey də, Heydər Əliyevin adını daşıyan ali hərbi məktəb də çox yüksək səviyyədə fəaliyyət göstərirlər. Ali Hərbi Məktəbdə təlim prosesi çox peşəkar şəkildə aparılır və artıq üçüncü buraxılış olacaqdır. Nəticədə bizim ordumuz çox güclü və peşəkar kadrlarla təmin edilir. Bütün bunların əsası 1970-ci illərdə qoyulmuş, son 10 ildə isə Azərbaycanda ordu quruculuğu çox fəal aparılmışdır. 10 il əvvəl ölkədə, demək olar ki, ordu yox idi. Ayrı-ayrı heç kimə tabe olmayan silahlı qruplar mövcud idi. Bu gün isə bizim güclü, nizami, yaxşı təlim görmüş ordumuz vardır. Mən çox şadam ki, Siz də bunu qeyd edirsiniz".

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ XƏZƏRİN STATUSU MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 2-də Bakıda səfərdə olan Rusiya Federasiyasının xarici işlər nazirinin müavini, Rusiya Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Viktor Kalyujnı ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında əlaqələrin inkişafına, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi, Xəzər akvatoriyasının bölünməsi, Xəzərdə demilitarizasiya məsələləri, Rusiyanın daxili suları, o cümlədən Volqa və Don çayları ilə Azərbaycan gəmilərinin sərbəst tranziti, hidrometeorologiya sahəsində əməkdaşlıq və ortaya çıxan problemlərin həllinə dair geniş fikir mübadiləsi aparılmışdır.

Nazir Elmar Məmmədyarov Xəzər problemi ilə bağlı yaranmış vəziyyətin tezliklə faydalı nəticələrlə öz həllini tapacağına və Xəzəryanı dövlətlər arasında qarşılıqlı razılığın əldə olunacağına ümid etdiyini bildirmişdir.

Söhbət zamanı bu il iyunun 9-10-da Xəzər dənizinin statusunun müəyyən edilməsi ilə bağlı Xəzəryanı dövlətlərin nümayəndələrinin Astanada keçiriləcək növbəti işçi görüşü və digər yüksək səviyyəli görüşlər barədə məsələlər müzakirə olunmuşdur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

İSRAİL HÖKUMƏTİ DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNDƏ AZƏRBAYCANIN MÖVQEYİNİ MÜDAFİƏ EDİR

Milli Məclisin sədri Murtuz Ələsgərov iyunun 2-də parlamentdəki Heydər Əliyev zalında İsrail Knessetinin ölkəmizdə səfərdə olan deputatı Amnon Koeni qəbul etmişdir.

Parlamentin sədri Murtuz Ələsgərov demişdir ki, ölkələrimiz arasında mehriban dostluq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Münasibətlərimizin bu səviyyəyə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin İsrailin hökumət və dövlət rəsmiləri ilə keçirdiyi görüşlərin xüsusi rolu olmuşdur. Ümumiyyətlə, ölkəmiz İsrail dövləti ilə əlaqələrin genişlənməsində maraqlıdır.

Milli Məclisin sədri parlamentlərarası əlaqələrin də istənilən səviyyədə olduğunu vurğulamışdır.

Sonra Murtuz Ələsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, baş vermə səbəbləri və ölkəmizin problemin həllində tutduğu ədalətli mövqe barədə ətraflı məlumat vermişdir. O, həmçinin, İsrail hökumətinə və dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən yəhudi diaspor təşkilatlarına problemin həllində Azərbaycanın mövqeyini dəstəklədiklərinə görə təşəkkürünü bildirmişdir.

Amnon Koen demişdir ki, onun dövləti də Azərbaycanla əlaqələrin genişlənməsində maraqlıdır. Bunun üçün əlindən gələni edir. İsrailin iş adamları Azərbaycanda tibb, kənd təsərrüfatı və digər sahələrdə yerli mütəxəssislərə yardımlar göstərirlər.

İsrail də terrordan əziyyət çəkir, ona görə də, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ağrı-acılarını başa düşür və problemin həllində rəsmi Bakının ədalətli mövqeyini həmişə dəstəkləyəcəkdir. Bütün dövlətlər terrorizmə qarşı birgə mübarizə aparmalıdır və biz Azərbaycanın bu məsələdə də tutduğu mövqeyi yüksək qiymətləndiririk.

Amnon Koen parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün qarşılıqlı səfərlərin vacibliyini bildirmiş və tezliklə Milli Məclis üzvlərinin İsrailə dəvət olunacaqlarını qeyd etmişdir.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransaya rəsmi səfəri zamanı Senatın fəxri qonaqlar kitabını imzalayarkən. Paris, 22 yanvar 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində bu ölkənin sahibkarlar təşkilatının - MEDEF-in üzvləri ilə görüşü. Paris, 22 yanvar 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moskvaya ilk rəsmi səfəri zamanı Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü. Moskva, Kremlin Yaşıl salonu, 6 fevral 2004-cü il



Gürcüstan Prezidenti Mixail Saakaşvilinin Azərbaycana rəsmi səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü. Bakı, Prezident Sarayı, 4 mart 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında sənədlərin imzalanması mərasimi. Qazaxıstan Prezidenti sarayının Qızıl salonu. 1 mart 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına ilk dövlət səfəri. Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimi. 24 mart 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə bu ölkəyə rəsmi səfəri. Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi. 13 aprel 2004-cü il



AŞPA-nın sədri Piter Şider Azərbaycan Prezidenti İlham Əliyevə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomunu və medalını təqdim edərkən. Strasburq, 29 aprel 2004-cü il



Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Strasburqa səfəri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Şurasının baş katibi Valter Şvimmer ilə görüşü. Avropa Şurasının iqamətgahı – Avropa sarayı. 29 aprel 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya işgüzar səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü. Brüssel, 18 may 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın Prezid ti Leonid Kuçmanın dəvəti ilə bu ölkəyə dövlət səfəri. Azərbaycanın Prezide İlham Əliyevin rəsmi qarşılanma mərasimi. Kiyev, 3 iyun 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Birgə rəsmi məlumat imzalayarkən. Gürcüstan Dövlət Dəftərxanası, Tbilisi, 14 iyun 2004-cü il



Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Prezidenti Konstantinos Stefanopulos "Heydər Əliyev Fondu"nda. Bakı, 21 iyun 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun zirvə görüşündə iştirak etmək üçün İstanbula işgüzar səfəri. Birgə xatirə şəkli. İstanbul, 28 iyun 2004-cü il



İstanbulda keçirilən Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü. 29 iyun 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri. Azərbaycan-Almaniya sənədlərinin imzalanması mərasimi. Almaniya Federativ Respublikası kanslerinin iqamətgahı, Berlin, 25 avqust 2004-cü il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin ölkəmizə rəsmi səfəri. Rəsmi qarşılanma mərasimi.
Bakı, 8 iyul 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri. Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərginin rəsmi açılış mərasimi. Fransa Senatının muzeyi, Paris, 8 sentyabr 2004-cü il



Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolən ilə görüşü. Paris, 8 sentyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astana şəhərinə səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə üçtərəfli görüşü keçirilmişdir. Astana, 15 sentyabr 2004-cü il



Azərbaycan Prezidenti İlham Əliyev MDB dövlət başçılarının 38-ci zirvə görüşündə iştirak edərkən. Astana, Qazaxıstan Prezidentinin yeni iqamətgahı, 16 sentyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 59-cu sessiyasının ümumi müzakirələrində çıxışı. Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhəri. 24 sentyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin baş katibi Kofi Annan ilə görüşü. Nyu-York şəhəri, Birləşmiş Millətlər Təşkilatının iqamətgahı. 24 sentyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun ölkəmizə rəsmi səfəri. Azərbaycan və Bolqarıstan prezidentlərinin geniş tərkibdə görüşü. 7 oktyabr 2004-cü il





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya dövlət səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti İon İliyeskunun birgə mətbuat konfransı. Buxarest, 11 oktyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya dövlət səfəri. Buxarestdə Azərbaycan Respublikası səfirliyi binasının təntənəli açılışı mərasimi. 12 oktyabr 2004-cü il



Prezident İlham Əliyevin Rumıniyaya rəsmi səfəri çərçivəsində bu ölkədəki Azərbaycan diasporunun nümayəndələri və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, digər qurumların üzvləri ilə görüşü. 12 oktyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumrusiya Azərbaycan Konqresinin II qurultayında çıxış edərkən. Moskva, 18 oktyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü. Moskva, Kreml, 19 oktyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Leonid Kuçmanın dəvəti ilə bu ölkənin faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün işgüzar səfəri. Kiyev, 27 oktyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər dövlətinə rəsmi səfəri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Qətər Dövlətinin əmiri şeyx Həməd bin Xəlifə Al Tani arasında görüşü. "Əmiri-divan" sarayı. 30 noyabr 2004-cü il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Londona işgüzar səfəri zamanı "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda çıxış edərkən. London, Avropa Yenidənqurma və İnkişaf Bankının binası. 14 dekabr 2004-cü il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın Prezidenti Leonid Kuçmanın dəvəti ilə iyunun 3-də Kiyevə dövlət səfərlə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 3-də Kiyevdə, Ukrayna dövləti başçısının iqamətgahında - Mariya sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Ukrayna Prezidenti Leonid Kuçma arasında təkbətək görüş keçirilmişdir.

Prezident İlham Əliyev Ukraynaya dövlət səfərinə dəvətə görə Prezident Leonid Kuçmaya minnətdarlıq etdi və ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacaqdır. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Kiyevdə abidəsinin ucaldılması haqqında qərarına görə Ukrayna rəhbərinə təşəkkürünü bildirərək dedi ki, məhz Heydər Əliyevin və Leonid Kuçmanın səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər sürətlə və uğurla inkişaf edir. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq da yüksək səviyyədədir. Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişafından, mal dövriyyəsinin səviyyəsindən və bir sıra ikitərəfli layihələrin həyata keçirilməsindən də məmnunluğunu söylədi.

Prezident Leonid Kuçma Ukrayna-Azərbaycan münasibətlərinin inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayaraq dedi ki, o, bu böyük insanı daim xatırlayır.

Cənab Kuçma ölkələrimiz arasında münasibətlərin perspektivlərinə toxunaraq əmin olduğunu bildirdi ki, Prezident İlham Əliyevin dövlət səfəri və onun gedişində imzalanacaq sənədlər, o cümlədən dövlət başçılarının imzalayacaqları birgə bəyannamə ikitərəfli əlaqələrin möhkəmlənməsində yeni bir mərhələ olacaqdır.

Görüşdə ticarət-iqtisadi əməkdaşlıq, o cümlədən neft sahəsində və enerji daşıyıcılarının Avropaya nəqli sahəsində işbirliyi məsələləri ətraflı müzakirə edildi, beynəlxalq problemlər, GUÖAM çərçivəsində əməkdaşlıq məsələləri, Avropa Birliyi və NATO ilə qarşılıqlı əlaqələr, hər iki ölkədə siyasi, sosial-iqtisadi vəziyyət barədə fikir mübadiləsi aparıldı. Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxundular. Prezident Leonid Kuçma bildirdi ki, Ukrayna problemin sülh yolu ilə həllinə tərəfdardır, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Geniş tərkibdə görüşdən sonra sənədlərin imzalanması mərasimi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Leonid Kuçma Birgə bəyannamə imzaladılar.

Sonra Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov və Ukrayna Baş naziri-

nin müavini Andrey Klyuyev Azərbaycan Respublikası hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft sahəsində əməkdaşlığın prinsipləri haqqında sazişi, Azərbaycan Respublikası hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında sazişi imzaladılar.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın sənaye siyasəti naziri Aleksandr Neustroyev Azərbaycan Respublikası hökuməti və Ukrayna Nazirlər Kabineti arasında sənayenin müdafiə sahəsində müəssisə və təşkilatların istehsal və elmi-texniki kooperasiyası haqqında sazişi, Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov və Ukraynanın müdafiə naziri Yevgeni Marçuk hər iki ölkə aviasiyasının mühəndis-texniki uçuş heyətinin hazırlanmasında əməkdaşlıq haqqında sazişi, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev və Ukraynanın əmək və sosial siyasəti naziri Mixail Papiyev Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında sazişi, Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və Ukraynanın Dövlət Gömrük Xidmətinin sədri Nikolay Kalenski qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, habelə silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında sazişi, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Xudiyev və Ukrayna Milli Teleşirkətinin birinci vitse-prezidenti Vladimir Kmetık əməkdaşlığa dair sazişi imzaladılar.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Ukraynanın nəqliyyat nazirinin müavini, Dövlət Aviasiya Nəqliyyatı Departamentinin direktoru Vladimir Maksimov mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair protokol imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Sənədlərin imzalanma mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Leonid Kuçma birgə mətbuat konfransı keçirmişlər.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BƏYANATI

- Çox hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlar!

Xanımlar və cənablar!

Prezident başda olmaqla Azərbaycan Respublikasının yüksək nümayəndə heyətini Ukrayna torpağında salamlamaq mənim üçün böyük şərəfdir. Mən qəti əminəm ki, bu səfər sizə ən xoş təəssürat bağışlayacaqdır. Siz bilirsiniz ki, bugünkü görüşümüzü mən Heydər Əliyevin xatirəsi haqqında sözlərlə başladım. Mən bununla başlamaya bilməzdim, çünki bu insan Ukrayna-Azərbaycan dostluğu üçün çox işlər görmüşdür. O, həmişə kömək əlini uzatmağa hazır idi və Ukrayna bu və ya digər problemlə qarşılaşarkən bunu

edirdi. Bu müdrik insanla ünsiyyətdə olmaqdan mən həmişə, sadəcə, çox böyük məmnunluq duyurdum. O, həmişə öz ağıl-zəkası ilə yaşayırdı. Bilirsiniz ki, prezidentlərin həmişə çoxlu məsləhətçisi olur. Bax, mən bunu nəzərə çarpdırmaq istərdim.

İlham Heydəroviçlə bizim bütün problemləri, ikitərəfli münasibətlərimizi müzakirə etmək imkanımız oldu. Biz şadıq ki, münasibətlərimiz yüksələn xətlə inkişaf edir, iqtisadiyyatda əmtəə dövriyyəsi də artır, bütün digər sahələrdə, o cümlədən, siyasi sahədə, beynəlxalq aləmdə də münasibətlərimiz genişlənir. Bu gün siz özünüz də burada, bu salonda imzalanmış sənədlərin sayına görə gördünüz ki, biz doğru yoldayıq. Sadə sözlərlə desək, indi mövcud olan bütün problemlər barəsində bizim aramızda qarşılıqlı anlaşma var və biz onları həm ikitərəfli formatda, həm də bütün beynəlxalq təşkilatlar formatında həll etmək əzmindəyik. Strateji inkişaf planları baxımından bizim aramızda fikir ayrılığı yoxdur. Mən həm Avropa yolunu, həm MDB çərçivəsində əməkdaşlığı, həm GUÖAM çərçivəsində əməkdaşlığı, həm də NATO çərçivəsində geniş əməkdaşlığı nəzərdə tuturam.

Bu gün bizim kontingentlərimiz İraqdadır, orada sülhyaratma borcumuzu birlikdə yerinə yetiririk. İraqın gələcəyi barədə bizim eyni baxışlarımız var. Həm BMT Təhlükəsizlik Şurasının İraq barədə qərarı mümkün qədər tezliklə qəbul etməsini, həm də İraqda Birləşmiş Millətlər Təşkilatının bayrağının qaldırılmasını istəməyimiz nöqteyi-nəzərindən də baxışlarımız uyğun gəlir. İstəyirik ki, orada mülki hökumət tezliklə formalaşdırılsın və bütün hakimiyyət İraq xalqına verilsin. Başqa heç bir problemimiz yoxdur.

Odur ki, İlham Heydəroviçi bir daha səmimi qəlbdən salamlamaq və demək istəyirəm ki, biz hamımız həmişə onu burada görməyə şad olacağıq. Bu səfərlə biz həm Azərbaycan Respublikasına, həm də Azərbaycan xalqına dərin hörmət bəslədiyimizi nəzərə çarpdırmaq istəyirik. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox hörmətli Leonid Daniloviç, sağ olun.

Əziz dostlar!

Mən, ilk növbədə, Ukraynaya dövlət səfərinə gəlmək barədə dəvətinə görə Ukrayna Prezidenti Leonid Daniloviç Kuçmaya təşəkkür etmək istərdim.

Bu səfərin mənim üçün böyük əhəmiyyəti var. Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Ukrayna və Azərbaycan xalqları arasında bütün dövrlərdə səmimi dostluq, qardaşlıq münasibətləri olmuşdur. Çox dəyərlidir ki, ölkələrimiz müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha möhkəm, daha sıx olmuşdur. Bu işdə bütün dünyada tanınmış iki liderin - öz ölkələrinin təşəkkülünün, bəlkə də, ən ağır dövründə onlara başçılıq etmiş və onları tərəqqi, iqtisadi inkişaf yolu ilə aparmış liderlərin çox böyük xidməti var. Məhz Leonid Daniloviç Kuçmanın və Heydər Əlirza oğlu Əliyevin sayəsində ölkələrimiz daha yaxın olmuş, istər ikitərəfli münasibətlərdə, istər regional təşkilatlar, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində daha fəal əməkdaşlıq etməyə başlamışlar. Ona görə də inamla demək olar ki, bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bizim aramızda ən dərin qarşılıqlı anlaşma, çox fəal siyasi dialoq və bütün istiqamətlərdə əməkdaşlıq mövcuddur. Bu gün görüş zamanı biz məmnunluqla qeyd etdik ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi dönmədən və ildən-ilə artır. Bu, onu göstərir ki, ilk növbədə, ölkələrimizin iqtisadiyyatı getdikcə daha da güclənir və indi Ukraynada da, Azərbaycanda da ümumi daxili məhsulun artım sürəti ən yüksək səviyyədədir, bəlkə də, dünyada ən yüksək səviyyələrdən birini təşkil edir. Birgə hökumətlərarası komissiya iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi baxımından böyük iş görmüş, iqtisadi əlaqələrin inkişafının mühüm yollarını müəyyənləşdirmişdir.

Humanitar sahədə çoxdan yaranmış və inkişaf edən möhkəm münasibətlər mövcuddur. Azərbaycanda Ukrayna dilinə böyük hörmətlə yanaşılır və Bakı Slavyan Universitetində Ukrayna dili fakültəsi fəaliyyət göstərir. Biz buna çox qayğı ilə yanaşırıq. Azərbaycanda bütün xalqlar, bütün millətlər özlərini çox rahat, azad hiss edirlər və hökumət tərəfindən də onlara münasibət çox müsbətdir. Ölkələrimizi və xalqlarımızı bu da bir-birinə bağlayır. Bizdə dini dözümlülük, tolerantlıq mövcuddur.

Ukraynada yaşayan çoxsaylı azərbaycanlılar burada özlərini evlərindəki kimi hiss edirlər. Biz onların istər siyasi səviyyədə, istər məişət səviyyəsində, istərsə də bütün işlərdə rəhbərlik tərəfindən necə diqqət və qayğı ilə əhatə olunduqlarını bilirik. Mən buna görə də Leonid Daniloviçə və ukraynalı dostlarımıza təşəkkür etmək istərdim.

Leonid Daniloviçin qeyd etdiyi kimi, ölkələrimiz arasında problem yoxdur. Biz dostuq, tərəfdaşıq. Biz inteqrasiya proseslərimizi çox fəal inkişaf etdiririk, beynəlxalq qurumlara inteqrasiya olunuruq. Beynəlxalq işlərdə Ukraynanın və Azərbaycanın sanbalı da, əhəmiyyəti də ildən-ilə artır. Bu, ölkələrimizin uğurla inkişaf etməsinin ən mühüm göstəricisidir. Mən Leonid Daniloviçə dedim ki, son 10 ildə Azərbaycanda aparılmış siyasətin, o cümlədən də ikitərəfli münasibətlər çərçivəsində aparılmış siyasətin davam etdirilməsi üçün öz tərəfimdən bütün işləri görəcəyəm.

Prezident Heydər Əlirza oğlu haqqında dediyi səmimi sözlərə görə mən Leonid Daniloviçə çox minnətdaram. Sizin necə dostluq etdiyinizi, bir-birinizə necə dərin məhəbbət, rəğbət hissləri bəslədiyinizi mən şəxsən bilirəm, bunu Azərbaycanda da hamı bilir. Əlbəttə ki, Sizin diqqətiniz və Ukraynada Heydər Əliyevə abidə qoyulması haqqında şəxsən qəbul etdiyiniz qərar həm ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsini, həm də siyasətdə heç də sonuncu rol oynamayan məhz Sizin aranızda olmuş şəxsi, sırf insani münasibətləri bir daha nəzərə çarpdırır.

Mən səfərimdən çox razıyam, Ukraynada olmağıma çox şadam. Ümidvaram ki, belə səfərlər çox olacaqdır. Mən lap əvvəldən böyük diqqətlə, qonaqpərvərliklə, səmimi münasibətlə əhatə olunmuşam və bütün bunlara görə, ilk növbədə, Prezidentə, habelə bütün ukraynalı dostlarımıza çox minnətdaram.

Sağ olun.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: İki ölkə arasında əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində necə inkişaf edəcəkdir?

LEONİD KUÇMA: Mən öz çıxışımda dedim ki, bizimlə Azərbaycan arasında həm ikitərəfli səviyyədə, həm də müasir dünya məsələləri, Qarabağ münaqişəsi də daxil olmaqla beynəlxalq aləmdə mövcud olan problemlər üzrə heç bir fikir ayrılığı yoxdur. Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal altındadır, 750 min azərbaycanlı yurdsuz-yuvasız qalmışdır. Bu, insanların çox böyük faciəsidir. Biz ərazi bütövlüyü prinsipini həmişə dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Bu baxımdan, bizim bu problemə heç vaxt başqa bir münasibətimiz olmamışdır və olmayacaqdır. Zənnimcə, vaxt sizin xeyrinizə işləyir. Belə bir həqiqəti getdikcə daha çox adam dərk edir ki, bu cür problemləri sülh yolu ilə həll etmək lazımdır. Minsk qrupunun öz fəaliyyətini artırması və problemə təkcə bir ölkənin nöqteyi-nəzərindən yanaşması deyil, həm də Qafqazda sabitliyin təkcə bu regiona yox, həm də bütün dünyaya təsir göstərdiyini düşünməsi arzu olunur. Bu təsirdən danışarkən Xəzər regionunun inkişafı - neft-qaz hasilatı və onların digər ölkələrə nəqli nəzərə alınmalıdır. GUÖAM-a gəldikdə isə, biz bu təşkilat çərçivəsində birgə fəaliyyət göstəririk və başlıca vəzifə nəqliyyat problemidir. Allah eləsin, əməkdaşlığımız indiki kimi inkişaf etsin.

İLHAM ƏLİYEV: Mən hörmətli Leonid Daniloviçin dediklərini tam dəstəkləyirəm. Biz strateji tərəfdaşlarıq, regionumuzda və ümumən bütün dünyada baş verən bir çox əsas proseslərə münasibətlərimiz eynidir. Buna görə də problemə ümumi yanaşmalar hərtərəfli qərarlar qəbul edərkən daha düzgün yol tapmağa kömək edir. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Ukraynanın tutduğu mövqeyə görə də Leonid Daniloviçə çox minnətdaram. Biz bu məsələni təkbətək görüşdə də, geniş heyətdə görüşdə də müzakirə etdik. Əlbəttə, münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətlə həllində Ukraynanın birmənalı mövqeyi böyük hörmət hissi doğurur. Şübhəsiz, həqiqət Azərbaycanın tərəfindədir. Heç kimə sirr deyil ki, Ermənistan Azərbaycan ərazilərini işğal etmişdir, bu işğal nəticəsində Azərbaycanın yüz minlərlə vətəndaşı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Həqiqət bundan ibarətdir ki, ərazilərimizin 20 faizi erməni işğalı altındadır və Ermənistanın köməyi və fəal iştirakı ilə Dağlıq Qarabağ tərəfindən təcavüzkar separatizm siyasəti bu işğala gətirib çıxarmışdır. Təəssüf ki, müxtəlif ölkələrdəki müəyyən dairələr bu həqiqəti ya görmək istəmirlər, ya görsələr də susmağa üstünlük verirlər, yaxud da ondan istifadə etmək istəyirlər. Ən dəhşətlisi də odur ki, hansısa siyasi, regional və digər mənafelər naminə dünyada ikili standartlar mövcuddur. Müəyyən dairələr baş vermiş hadisənin mahiyyətini təhrif etməyə cəhd göstərirlər. İndiki halda bu məsələdə Ukrayna Prezidentinin beynəlxalq hüquq normalarına və bütün dövlətlərin ərazi bütövlüyü prinsipinə tam uyğun olan birmənalı mövqeyi Azərbaycanda və Azərbaycan xalqında hörmət və minnətdarlıq hissi doğurur. Zənnimcə, bütün münaqişələr məhz beynəlxalq hüquq normaları əsasında öz həllini tapsa, Qafqazda da, bütün dünyada da daha heç bir problem olmayacaq, qan axıdılmayacaq və çoxdan gözlənilən sülh yaranacaqdır.

SUAL: Mənim sualım hər iki prezidentədir. Siz GUÖAM-ın növbəti zirvə toplantısından nə gözləyirsiniz?

İLHAM ƏLİYEV: Azərbaycan ilə Ukrayna təkcə ikitərəfli formatda deyil, həm də regional qurumlarda fəal əməkdaşlıq edir. Həmin qurumlardan biri də GUÖAM-dır. Bu təşkilat bizi və digər ölkələri birləşdirir, regional əməkdaşlığın inkişafına kömək edir.

Azərbaycan regional əməkdaşlığın dərinləşdirilməsinə həmişə tərəfdar olmuşdur. De-

yə bilərəm ki, indi Azərbaycanda baş verən proseslər buna sübutdur. Ölkəmizdə çox mühüm beynəlxalq iqtisadi layihələr gerçəkləşdirilir. Bunu demək kifayətdir ki, ümumi rəyə görə, dünyanın ən iri energetika layihəsi Azərbaycanda həyata keçirilir.

Bu, bir daha göstərir ki, biz regional əməkdaşlıq, dialoq üçün açığıq. GUÖAM məhz bu istiqamətdə irəliləmək üçün çox yaxşı qurumdur. GUÖAM ölkələri siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək istəyirlər. Əminəm ki, həm ikitərəfli, həm də regional əməkdaşlıq çərçivəsində biz konkret layihələrin həllində irəliləyəcəyik. Əlbəttə, konkret layihələr olduqda, məsləhətləşmək imkanı olduqda beynəlxalq təşkilatlar cəlbedici olurlar. Belə layihələr var və biz onları inkişaf etdirməyə, habelə regional əməkdaşlığın inkişafı üçün yeni yollar tapmağa çalışacağıq.

LEONİD KUÇMA: Mən İlham Heydəroviçi dəstəkləmək istəyirəm. Regional qurumlar olmuşdur, var və olacaqdır. Biz, ilk növbədə, iqtisadi mənafeləri əsas götürürük. Biz bu təşkilatın yaradılması haqqında qərarı imzalayarkən indi dillər əzbəri olan Böyük İpək yolunun dirçəldilməsi perspektivlərini nəzərdə tuturduq. Mən onun Xəzər dənizi vasitəsilə və oradan da o yana davam etdirilməsini deyirəm.

Təfərrüatı xatırlaya bilərəm. Biz Heydər Əliyevin təklifi ilə qərara aldıq ki, GUÖAM-ın zirvə toplantıları Yaltada keçirilsin. İndi biz Gürcüstan tərəfinin - Mixail Saakaşvilinin xahişi ilə bu prinsipdən çəkilirik. Lakin vəzifələr və nəticələr məlumdur. Ən başlıcası isə, bu gün malik olduqlarımızı itirməmək və iqtisadiyyatımızın sürətli inkişafını nəzərə alaraq, indiyədək əldə edilənləri artırmaqdır.

Bir daha vurğulamaq istəyirəm ki, Ukraynadan Gürcüstan, Azərbaycan vasitəsilə və oradan da o yana nəqliyyat kommunikasiyalarının çox böyük əhəmiyyəti var. Biz vahid iqtisadi məkanın timsalında bilirik ki, Qazaxıstan, Ukrayna və Belarusun təklif etdiyi başlıca məsələlərdən biri nəqliyyat tariflərıdir. Hər hansı yükün Rusiya ərazisi ilə daşınması malın dəyərinin azı 15 faizinə başa gəlir.

Bu problemlərin həlli ölkələrimizin iqtisadiyyatının inkişafı üçün zəmin yaradır.

SUAL: İmzalanmış bəyannamə və sazişlər münasibətlərimizin inkişafına necə təsir göstərəcəkdir?

İLHAM ƏLİYEV: Siz elə yaxşı suallarla müraciət edirsiniz ki, onlara cavab vermək xoşdur. Əlbəttə, bu sənədlər münasibətlərimizin möhkəmlənməsinə təsir göstərəcəkdir. Sənədlər müxtəlif sahələrdə əməkdaşlığın geniş spektrinə aiddir və gələcək qarşılıqlı fəaliyyətimizin həm iqtisadi, həm də siyasi tərəflərini əhatə edir. Bu, Leonid Daniloviçlə danışdıqlarımıza daha bir sübutdur.

Münasibətlərimiz uğurla inkişaf edir. Hökumətlərarası komissiya öz işinə başlayanda beş sənəd imzalamaq planlaşdırılırdı, lakin böyük potensial olduğunu nəzərə alaraq, sənədlərin sayı 9-dək artırıldı. Bunun özü də son həddi deyildir. Əminəm ki, ikitərəfli sazişlərin həyata keçirilməsi çərçivəsində ölkələrimiz daha da yaxınlaşacaq, müxtəlif sahələrdə daha sıx əməkdaşlıq edəcəklər. Bu, bizim milli mənafelərimizə uyğundur.

LEONİD KUÇMA: Bir neçə kəlmə əlavə etmək istəyirəm. İlham Heydəroviçin dediyi kimi, biz strateji tərəfdaşlarıq. Müstəqil dövlətlərimizin təşəkkül illəri ərzində biz çox məsələləri həll etməli olduq. Biz çoxsaylı problemlərin həlli ilə məşğul olduq. Qarşılıq-

lı əməkdaşlığın və etimadın ildən-ilə dərinləşməsi əlaqələrimizin möhkəm zəminə söykəndiyini duymağa kömək edirdi. Bu, mütləq həqiqətdir. İmzalanmış Bəyannamə də əməkdaşlığımızın inkişafı üçün yeni bünövrə qoyur. Biz bunu alqışlamalıyıq.

SUAL: Mənim sualım Azərbaycan Prezidentinədir. Neft sahəsində əməkdaşlıq haqqında sazişin girişində deyilir ki, Azərbaycan tərəfi Odessa-Brodı boru kəmərini doldurmaq üçün Ukraynaya kommersiya əsasında neft almağa imkan verəcəkdir. Lütfən deyin, Azərbaycan Ukraynaya neft satmağa nə vaxt hazır olacaqdır? Bu, ölkəmiz üçün çox vacib məsələdir.

İLHAM ƏLİYEV: Azərbaycan özünün neft ehtiyatlarını müxtəlif istiqamətlərdə satır. Hazırda Azərbaycan nefti iki neft kəməri ilə nəql olunur. Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə üçüncü neft kəmərinin tikintisində fəal iş gedir. Bu kəməri gələn ilin birinci rübündə istismara vermək nəzərdə tutulmuşdur. Bir neçə milyard dollar dəyərində olan bu ən iri beynəlxalq layihə uğurla həyata keçirilir. Əlbəttə, hər hansı digər əmtəə kimi, neft də beynəlxalq bazarda sərbəst tədavülə malikdir, müəyyən kommersiya şəraitində iqtisadi cəhətdən sərfəli olan hər hansı istiqamətdə nəql oluna bilər. Artıq dediyim kimi, indi Azərbaycan nefti səmərəli surətdə Qara dənizin limanlarına çatdırılır və təbiidir ki, oradan istənilən istiqamətdə daşına bilər. Deməliyəm ki, Azərbaycandan Qara dəniz limanlarına nəql olunan neftin həcmi təxminən 8-9 milyon tona bərabərdir. Əlbəttə, müştərilərin onu almağa tam haqqı vardır. Biz dəfələrlə bildirmişik ki, Azərbaycan Odessa-Brodı neft kəmərini siyasi cəhətdən dəstəkləyir, bu məsələnin kommersiya tərəfinə gəldikdə isə, bununla kommersiya təşkilatları məşğul olurlar. İqtisadi məsələlər öz prioritetlərini özləri müəyyənləşdirməlidir.

LEONİD KUÇMA: Əlavə etmək istərdim ki, İlham Heydəroviç sizin sualınıza çox diplomatik cavab verdi, mən isə bu suala müəyyən dərəcədə fəhlə-kəndlisayağı cavab vermək istəyirəm. Qərar qəbul ediləndə, həmin qərar üçün məsuliyyət dərəcəsini də başa düşmək lazımdır. Siz hamınız yaxşı bilirsiniz, Azərbaycan Prezidenti də bunu təsdiq etdi ki, bu gün dünyada ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Mən Bakı-Tbilisi-Ceyhan neft kəmərini nəzərdə tuturam. Bu neft kəməri gələn ilin birinci rübündə istismara veriləcəkdir. Buna görə də hasil edilən neftin miqdarını, həqiqətən, strateji əhəmiyyətə malik bu boru kəmərinin buraxıcılıq qabiliyyətini hesablamaq üçün Karl Marks, yaxud Fridrix Engels, böyük iqtisadçı olmaq lazım deyildir, çünki o, nefti Aralıq dənizinə və bütün dünya bazarlarına çıxarır. Bu baxımdan Odessa-Brodı neft kəmərinin imkanlarını da nəzərə almaq lazımdır. Odur ki, azərbaycanlılar bizim dostlarımız və strateji tərəfdaşlarımız kimi bizə neft satmağa hazırdırlar, lakin biz bunu hələ 5-6 il gözləməli olacağıq. Zənn edirəm ki, şərhə ehtiyac yoxdur. Çox sağ olun, mətbuat konfransımız başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Ukraynanın Baş naziri Viktor Yanukoviç ilə görüşmüşdür.

Prezident İlham Əliyev ölkələrimizin iqtisadi sahədə çox uğurlu əməkdaşlıq etdiklərini, hökumətlərarası komissiyanın bu baxımdan səmərəli fəaliyyət göstərdiyini vurğuladı.

İqtisadi əməkdaşlığın geniş perspektivləri olduğunu söyləyən dövlətimizin başçısı dedi ki, indiki səfər çərçivəsində imzalanmış sənədlər əlaqələrin gələcək inkişafı üçün yeni imkanlar açacaqdır.

Azərbaycan Prezidenti ümummilli liderimiz Heydər Əliyevin Kiyevdə abidəsinin qoyulması qərarına görə Ukrayna hökumətinə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyevin Ukraynaya dövlət səfərinin uğurlu keçməsindən məmnunluğunu söyləyən Baş nazir Viktor Yanukoviç qarşılıqlı surətdə faydalı əməkdaşlığın ölkələrimizin mənafelərinə uyğun olduğunu vurğuladı.

Görüş zamanı bir sıra sahələrdə əlaqələrin perspektivləri barədə fikir mübadiləsi edildi.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukraynanın Baş naziri Viktor Yanukoviç işgüzar nahar yeməyində söhbəti davam etdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏSİ

İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna dövlət televiziyasının birinci kanalına müsahibə vermişdir.

Dövlətimizin başçısı iki ölkə arasında əlaqələrin perspektivləri, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası, ölkəmizdə aparılan siyasi, iqtisadi, hüquqi və sosial islahatlar, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası və həyata keçirilən irimiqyaslı neft və qaz layihələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlərə dair suallara ətraflı cavab verdi.

Azərbaycan Prezidentinin Ukraynaya dövlət səfəri bu ölkənin digər kütləvi informasiya vasitələri tərəfindən də geniş işıqlandırılmışdır. Ukraynanın "1+1", "İCTV", İNTER, "Novıy Kanal" televiziya kanalları və "Den", "Ekonomiçeskiye izvestiya" və digər qəzetlər Azərbaycan Prezidentinin səfərinə geniş yer ayırmışdılar. Dövlətimizin başçısının "Azərbaycan Odessa-Brodı neft kəmərini siyasi cəhətdən dəstəkləyir" fikri xüsusilə vurğulanmışdır.

Prezident İlham Əliyevin dövlət səfəri zamanı Ukraynanın kütləvi informasiya vasitələrində ümummilli liderimiz Heydər Əliyev haqqında da yazılar dərc olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

İyunun 3-də Ukrayna Prezidenti Leonid Kuçmanın adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Prezidentlər Leonid Kuçma və İlham Əliyev qəbulda nitq söylədilər.

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN NİTQİ

- Çox hörmətli İlham Heydəroviç!

Çox hörmətli Mehriban xanım!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Azərbaycan Respublikasının Prezidenti İlham Heydəroviç Əliyevi və Mehriban xanımı Kiyevdə salamlamağa ürəkdən şadam.

Qardaş Azərbaycanın rəhbərliyi ilə hər bir görüş zamanı özümü həqiqi dostların və etibarlı tərəfdaşların əhatəsində hiss edirəm.

Son on il ərzində Ukrayna ilə Azərbaycan arasında xüsusilə səmimi və mehriban münasibətlər yaranmışdır. Biz dövlətlərarası qarşılıqlı əlaqələrin yüksək səviyyəsinə nail olmuşuq, əslində, bütün sahələrdə əməkdaşlığın səmərəli mexanizmini qaydaya salmışıq. Nəzərə çarpdırmaq istəyirəm ki, biz ikitərəfli münasibətlərin inkişafında yüksək nəticələrə daha çox Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Ukraynanın böyük dostu möhtərəm Heydər Əliyevin şəxsi töhfəsi sayəsində nail olmuşuq. Hesab edirəm ki, Kiyevdə abidənin ucaldılması onun nurlu xatirəsinin layiqli rəmzidir.

Belə bir fakt xüsusi ümid doğurur ki, təşəkkül tapmış olan Ukrayna-Azərbaycan dostluğu ənənələrini Azərbaycan dövlətinin indiki başçısı şərəflə davam etdirir və yeni məzmunla dolğunlaşdırır. İlham Heydəroviçin indiki səfəri nəinki yüksək səviyyədə siyasi dialoqun növbəti mərhələsi olmuşdur, həm də Azərbaycanın xarici siyasətinin varisliyini təsdiq edir, respublika rəhbərliyinin Ukrayna ilə strateji tərəfdaşlığı daha da dərinləşdirməyə hazır olduğuna inandırıcı sübutdur. Bu gün bütün danışıqlar Ukrayna-Azərbaycan münasibətlərinin – ticarət-iqtisadi, nəqliyyat sahələrində münasibətlərin yeni öncül vəzifələrini də müəyyənləşdirməyə imkan verdi. Biz mühüm regional layihələrin həyata keçirilməsində ilk növbəli addımları müəyyənləşdirdik.

Mühüm cəhət budur ki, hər iki ölkənin mövqeləri beynəlxalq siyasət sahəsində də, əsasən, uyğun gəlir. Biz sülh və təhlükəsizliyə görə məsuliyyəti dərk edirik, onların möhkəmlənməsinə öz töhfəmizi vermək istəyirik. Bu baxımdan ümumdünya forumlarında, beynəlxalq təşkilat və birliklərdə Ukraynanın mövqeyini dəstəklədiyinə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirmək istəyirəm. Əminəm ki, dövlətlərimiz bundan sonra da sadiq müttəfiq və tərəfdaş olacaqlar. Müdrik bir Azərbaycan kəlamında deyildiyi kimi, tək əldən səs çıxmaz. Əminəm ki, biz bugünkü təhdidlərə ancaq əl-ələ verib müqavimət göstərə bilərik. Yalnız qarşılıqlı fəaliyyət göstərməklə müştərək strateji planları gerçəkləşdirə və müasir dünyada layiqli rol oynaya bilərik.

Çox hörmətli cənab Prezident!

Xanım Əliyeva!

Əziz dostlar!

Böyük məmnuniyyətlə sizin sağlığınıza badə qaldırmağı təklif edirəm. Azərbaycanda deyildiyi kimi, bağınız bəhrəli, torpağınız bərəkətli olsun. Ukrayna və Azərbaycan xalqlarının tərəqqisi şərəfinə! Dostluğumuzun və qarşılıqlı anlaşmamızın şərəfinə! Beynəlxalq aləmdə uğurlarımızın şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox hörmətli Leonid Daniloviç!

Möhtərəm Lyudmila Nikolayevna!

Əziz dostlar!

Hörmətli Leonid Daniloviç, əvvəla, izn verin, qardaş Ukraynaya dövlət səfərinə dəvət edildiyimə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu səfər artıq indidən çox uğurlu oldu. Bu gün keçirilən təkbətək və geniş heyətdə görüşlər, habelə imzalanmış sənədlər sübut edir ki, Ukrayna ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edir və möhkəmlənir. Ölkələrimizin və xalqlarımızın ümummilli liderləri Leonid Kuçma və Heydər Əliyev bu münasibətlərin inkişafına böyük töhfə vermişlər. Onların ölkələrimizin müstəqilliyinin inkişafına və möhkəmlənməsinə yönəlmiş ardıcıl və uzaqgörən siyasəti sayəsində həm Ukrayna, həm də Azərbaycan beynəlxalq aləmdə də, ölkədaxili iqtisadi və sosial vəzifələrin həllində də böyük uğurlara nail olmuşdur. Əlbəttə ki, ölkələrimiz arasında əlaqələrin inkişafı və möhkəmlənməsi işində Leonid Daniloviç Kuçma ilə Heydər Əlirza oğlu Əliyev arasında olan şəxsi münasibətlər böyük rol oynamışdır. Dostluq, qarşılıqlı hörmət, qarşılıqlı kömək, bir-birini dəstəkləmək hissləri ölkələrimiz arasında münasibətlərə həmişə xas olmuşdur. Dövlətlərimizin tarixində elə hal olmamışdır ki, aramızda hər hansı bir fikir ayrılığı, yaxud müəyyən problemə müxtəlif münasibətlər meydana çıxsın. Xalqlarımız ölkələrimizin möhkəmlənməsi və müstəqilliyi kimi yeganə məqsədə doğru birgə addımlamışlar. Ukrayna Prezidentinin qərarı ilə sabah Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılması faktı Leonid Daniloviçin Heydər Əliyevə dərin şəxsi münasibətini və ölkələrimiz arasında əlaqələrin nə dərəcədə möhkəm olduğunu və bu əlaqələrin heç vaxt, heç kim tərəfindən pozula bilməyəcəyini sübut edir. Bizim vəzifəmiz bu münasibətləri inkişaf etdirmək, möhkəmləndirmək və təkmilləşdirməkdir, elə etməkdir ki, Ukrayna və Azərbaycan uzun illər, əsrlər dost və qardaş ölkələr, strateji tərəfdaşlar olaraq qalsınlar. Ukrayna və Azərbaycan həm ikitərəfli münasibətlərdə, həm də regional miqyasda, habelə mühüm beynəlxalq problemlərin həlli çərçivəsində həmişə çiyin-çiyinədir. Onlar eyni mövqedən çıxış edirlər. Leonid Daniloviçin qeyd etdiyi kimi, beynəlxalq qurumlarda qarşılıqlı yardım bizim qardaşlıq münasibətlərimizə çox parlaq sübutdur.

Bu gün fürsətdən istifadə edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normalarının prinsipləri çərçivəsində nizama salınması məsələsində Ukraynanın prinsipial, birmənalı mövqeyinə görə Leonid Daniloviçə bir daha təşəkkür etmək istəyirəm.

İqtisadi baxımdan çox böyük uğurlar var. Əmtəə dövriyyəsi artır, ötən il xeyli çoxalmışdır. İlin əvvəlindən bəri əmtəə dövriyyəsi 70 faiz artmışdır. Bu, çox şey deyir. Əvvəla, ölkələrimizin iqtisadiyyatları inkişaf edir. Deməli, ölkələrimizdə aparılan iqtisadi siyasət uğurludur. İnteqrasiyaya qarşılıqlı səylərimiz və meylimiz də artır. Biz buna çalışırıq. Biz çalışırıq ki, Ukrayna ilə ikitərəfli münasibətlər bundan sonra da inkişaf etsin.

Mən bu yaxınlarda Azərbaycan Prezidenti seçilmişəm. Bütün istiqamətlərdə - daxili siyasətdə də, xarici siyasətdə də Heydər Əliyevin siyasətini davam etdirmişəm və davam etdirirəm. Çünki bu, yeganə düzgün siyasətdir və onun alternativi yoxdur. Azərbaycan

xalqı seçkilərdə bu siyasətə səs vermişdir və Azərbaycan millətinin və dövlətinin inkişafının gələcək yüksəlişini yalnız bu siyasət təmin edə bilər.

İkitərəfli münasibətlərimiz çərçivəsində də belədir. Mən bu gün bu barədə Leonid Daniloviçə dedim, ölkələrimiz və onların rəhbərləri arasında təşəkkül tapmış bütün dostluq, qardaşlıq, qarşılıqlı yardım, dəstək ənənələrini davam etdirəcəyəm. Çox sevindirici haldır ki, bütün səviyyələrdə - nazirlər, idarələrin rəhbərləri səviyyəsində də çox yaxşı əlaqələr və qarşılıqlı anlaşma var. Mən çox şadam ki, bu gün dost torpaqda, qardaş Ukraynadayam. Mehriban xanıma, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən hərarətli, səmimi qəbula və qonaqpərvərliyə görə çox-çox təşəkkür edirəm.

Çox hörmətli Leonid Daniloviç, bu dəvətə görə, xoş münasibətə, dostluq və qardaşlığı dəstəkləyən səmimi sözlərə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

Bu badəni çox hörmətli Ukrayna Prezidenti Leonid Daniloviç Kuçmanın, çox hörmətli Lyudmila Nikolayevnanın, ukraynalı qardaşlarımızın şərəfinə qaldırmaq istəyirəm.

Ukraynanın və Azərbaycanın tərəqqisi şərəfinə!

PREZİDENT İLHAM ƏLİYEVİN UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN İLƏ GÖRÜŞÜ

Ukraynada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev iyunun 4-də ölkə parlamentinə - Ali Radaya gəldi.

Prezident İlham Əliyevi parlament binasının önündə Ali Radanın sədri Vladimir Litvin və digər rəsmi şəxslər mehribanlıqla qarşıladılar.

Sonra Azərbaycan Prezidentinin Ukrayna parlamentinin sədri və üzvləri ilə görüşü keçirildi.

Ali Radanın sədri Ukrayna-Azərbaycan əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirərək dedi ki, ölkələrimizin parlamentləri də səmərəli əməkdaşlıq edirlər. Azərbaycan Prezidentinin səfəri çərçivəsində imzalanmış sənədlər qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsində yeni mərhələ olacaq və Ukrayna parlamenti həmin razılaşmaların həyata keçirilməsinə öz köməyini göstərəcəkdir. Vladimir Litvin ölkələrimizin parlamentlərinin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığını xatırladaraq dedi ki, bu, gələcəkdə də davam edəcəkdir.

Prezident İlham Əliyev dövlət səfərinin uğurla keçməsindən məmnunluğunu vurğulayaraq bildirdi ki, Ukrayna ilə Azərbaycan dost və qardaş ölkələrdir və qarşılıqlı münasibətlərin bundan sonra da möhkəmlənməsi üçün səylərini artıracaqlar.

Söhbət zamanı GUÖAM Parlamentlərarası Assambleyasının yaradılması perspektivləri də müzakirə olundu. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu ideyanı tam dəstəkləyir və öz köməyini göstərməyə hazırdır.

Bundan əlavə, strateji tərəfdaşlığı təsdiqləyən ikitərəfli sənədlərin ratifikasiyasının mümkünlüyü də müzakirə edildi.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdən sonra Ukrayna Ali Radasının fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

KİYEVDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

İyunun 4-də Ukrayna paytaxtında - Azərbaycan səfirliyinin yaxınlığındakı xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin təntənəli açılışı olmuşdur. Abidənin müəllifi Azərbaycan Rəssamlıq Akademiyasının kafedra müdiri, əməkdar rəssam Natiq Əliyevdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Leonid Kuçma mərasimdə iştirak edirdilər.

Kiyev şəhər şurasının sədri ALEKSANDR OMELÇENKO mərasimi açaraq dedi:

- Çox hörmətli Leonid Daniloviç!

Çox hörmətli İlham Heydər oğlu!

Xanımlar və cənablar!

Əziz kiyevlilər və paytaxtın qonaqları!

İcazə verin, şəhərimizdə əlamətdar hadisə münasibətilə keçirilən mərasimin bütün iştirakçılarını salamlayım. Biz iki dövlətin - Ukrayna və Azərbaycan Respublikası rəhbərlərinin iştirakı ilə görkəmli şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin abidəsini açırıq.

* * *

Azərbaycanın və Ukraynanın dövlət başçıları abidənin üzərindən ağ örtüyü götürdülər. Hər iki ölkənin dövlət himnləri səsləndi.

Ukrayna və Azərbaycan prezidentləri mərasimdə nitq söylədilər.

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN NİTQİ

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli xanım Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Şübhəsiz, azərbaycanlı qonaqlarımız bilirlər ki, Heydər qədim türk dilindən "Öndə çapan süvari" kimi tərcümə edilir. Bu məğrur ad unudulmaz Heydər Əlirza oğlu Əliyevin ruhuna, coşğunluğuna və məqsədyönlülüyünə tam uyğundur. Onun xarakteri, iş üslubu üzvi şəkildə vəhdət təşkil edirdi: bir tərəfdən əsaslılıq və praqmatiklik, digər tərəfdən isə, keçmişin qalıqları olan hər şeyə, mühafizəkarlığa dözümsüzlük. O, həmişə realist siyasətçi olmuşdur.

Heydər Əliyevin həyatı, sözün əsl mənasında, öz xalqına sədaqətlə xidmət rəmzidir. O, özünün bütün təşkilatçı və hətta diplomat istedadını müstəqil Azərbaycanın öz inkişafında yeni, əvvəllər görünməmiş zirvələr fəth etməsinə yönəltmişdi. Gənc dövlətə rəhbərlik etməyə başlayan Heydər Əliyeviç ölkənin bütün sağlam qüvvələrini sıx birləşdirmək, sülhü və ictimai-siyasi sabitliyi bərqərar etmək, iqtisadiyyatı dirçəltmək üçün misilsiz səylər göstərmişdir.

Onun ardıcıl, ölçülüb-biçilmiş xarici və daxili siyasəti sayəsində Dağlıq Qarabağda döyüş əməliyyatları dayandırıldı, beynəlxalq birlik bu münaqişənin həllinə cəlb edildi. Onun öz respublikasının sosial-iqtisadi inkişafının möhkəmlənməsinə töhfəsi də misilsizdir. Onun bilavasitə rəhbərliyi ilə yeni Konstitusiya işlənib hazırlanmış və qəbul edilmiş, cəmiyyətin inkişafı üçün geniş qanunvericilik bazası yaradılmış, qanunçuluq və hüquq qaydaları möhkəmləndirilmiş, iqtisadiyyatda köklü dəyişikliklər aparılmış, xarici sərmayələrin ölkəyə cəlb olunması üçün əlverişli şərait yaradılmışdır.

Ölkənin beynəlxalq nüfuzunun yüksəlməsi, Böyük İpək yolu üstündə çox mühüm qovşaq olan Azərbaycanın dirçəlməsi də onun adı ilə bağlıdır. Mən dəfələrlə yəqin etmişəm ki, Azərbaycan xalqı millətin atası, müdrik və uzaqgörən siyasətçi kimi Heydər Əliyeviçi ürəkdən sevirdi. Bilirəm ki, azərbaycanlılar bu sönməz məhəbbət və ehtiramı öz qəlblərində indi də yaşadırlar.

Hörmətli xanımlar və cənablar!

Ukrayna ilə Azərbaycan arasında dostluq və qarşılıqlı anlaşma münasibətlərinin formalaşmasında xüsusi rol oynayan o idi ki, Heydər Əliyeviç şəxsən özü ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişafına yorulmadan diqqət yetirirdi, həmişə Ukraynanın sadiq dostu olmuşdur.

Sıx əməkdaşlıq sayəsində xalqlarımız sənayenin inkişafında və elmi- texniki inkişafda, Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizlərinin yaradılması sahəsində birgə fəaliyyətdə, mühüm beynəlxalq enerji layihələrinin gerçəkləşdirilməsində sanballı nəticələr əldə etmişlər.

Heydər Əliyeviçə məhəbbət və hörmət təkcə Azərbaycanın dövlət sərhədləri daxilində məhdudlaşmırdı. Görkəmli dövlət xadimi kimi ona Ukraynada həmişə dərin ehtiram hissi ilə yanaşmışlar. Onun xidmətləri dövlətimizin ali mükafatı – Yaroslav Mudrı ordeni ilə qeyd edilmişdir. Regionlararası İdarəçilik Akademiyasının bazasında isə Heydər Əliyev adına Ukrayna-Azərbaycan Sosial Elmlər İnstitutu açılmışdır.

Heydər Əliyeviçin çox böyük xidməti ondan ibarətdir ki, Ukrayna və Azərbaycan Respublikası etibarlı tərəfdaşlar və sadiq dostlardır və həmişə də belə olacaqlar. İndiki və gələcək bir çox nəsillər üçün o, siyasətçinin və insanın ən yaxşı keyfiyyətlərini özündə təcəssüm etdirmiş lider nümunəsi olaraq qalacaqdır.

Əminəm ki, Ukrayna paytaxında ona ucaldılan abidə ölkələrimizin səmimi dostluğunun, ukraynalıların Azərbaycan xalqına qardaşlıq duyğularının parlaq rəmzi olacaqdır.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Çox hörmətli Leonid Daniloviç!

Çox hörmətli Lyudmila Nikolayevna!

Əziz dostlar!

İlk növbədə, Kiyevdə Heydər Əliyevə abidə qoyulması qərarına görə mən Ukrayna Prezidenti, çox hörmətli Leonid Daniloviç Kuçmaya özümün dərin minnətdarlığımı bil-

dirmək istərdim. Bu qərar bütün Azərbaycan xalqı tərəfindən son dərəcə minnətdarlıqla qarşılanmışdır. Çünki Heydər Əliyev Azərbaycanın ümummilli lideridir.

Heydər Əliyev həmişə - sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə də, müstəqil Azərbaycana başçılıq etdiyi illərdə də öz xalqına, Azərbaycanın milli mənafeyinə xidmət etmişdir. Təsadüfi deyil ki, 1970-80-ci illərdə, onun 13 ildən artıq rəhbərliyi dövründə Azərbaycanda güclü iqtisadi potensial və sənaye potensialı yaradılmışdır. İndi bu potensial ölkəmizin iqtisadi təhlükəsizliyini əhəmiyyətli dərəcədə təmin edir.

Azərbaycan müstəqil dövlət olduqdan sonra istər daxili səbəblər üzündən, istərsə də xarici təcavüz nəticəsində son dərəcə mürəkkəb çətinliklərlə qarşılaşdıqda, xalq öz liderini yenidən ölkəyə başçılıq etməyə çağırdı. Azərbaycanda hamı qəti əmindir və bilir ki, əgər o ağır günlərdə Heydər Əliyev Bakıya qayıdıb Azərbaycana başçılıq etməsəydi, ölkəni çox ağır nəticələrə gətirib çıxara biləcək dağılma, parçalanma təhlükəsi gözləyirdi.

O illər - 1993-2003-cü illər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi dövrü oldu. Azərbaycan beynəlxalq birlikdə layiqli yerini tutdu, mühüm beynəlxalq təşkilatların üzvü oldu. İqtisadiyyat möhkəmləndi, iqtisadi potensial artdı. Heydər Əliyevin təşəbbüsü ilə başlanan neft strategiyası uğurla həyata keçirilir. Azərbaycan öz əhalisinin sosial məsələlərini həll edir.

Əlbəttə ki, bütün bunlarda əsas xidmət Azərbaycanın ümummilli liderinə məxsusdur.

Lideri itirmək xalq üçün həmişə böyük faciədir. Heydər Əliyevin yaxın və köhnə dostu Leonid Daniloviç Kuçmanın onunla vidalaşmaqdan ötrü matəm mərasimində iştirak etməsi bizim hamımız üçün, ilk növbədə, mənim üçün böyük təsəlli oldu.

Leonid Daniloviçlə Heydər Əliyevi çox yaxın dostluq telləri bağlayırdı. Zəmanəmizin bu iki görkəmli siyasətçisi, öz xalqlarının və ölkələrinin liderləri xarici təzyiqi və daxili çətinlikləri aradan qaldıraraq, öz ölkələrini böhrandan çıxardı, müstəqilliyini möhkəmləndirdi, iqtisadi potensialı gücləndirdi. Onları həm də sırf insani münasibətlər, dostluq münasibətləri yaxınlaşdırırdı. Bu, mənə çox yaxşı məlum idi. Atamın Leonid Daniloviçlə görüşlərindən, səmimi söhbətlərindən danışması çox yaxşı yadımdadır. Onlar bir-birinə, həqiqətən, ən səmimi hisslər, dostluq hissləri bəsləyirdilər.

Əlbəttə, bu şəxsi bağlılıq, qardaşlıq münasibətləri Ukrayna ilə Azərbaycanın strateji tərəfdaş olmasına çox kömək etmişdir. Ukraynaya indiki dövlət səfərim bunu bir daha təsdiqlədi. Ölkələrimiz arasında heç bir problem yoxdur, ikitərəfli əməkdaşlıq, regional əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma, mühüm dünya proseslərinə eyni mövqedən yanaşma, habelə əlaqələrimizi möhkəmlətmək və inkişaf etdirməkdə ümumi qarşılıqlı istək var.

Ukraynada yaşayan azərbaycanlılara mehriban, səmimi münasibətə görə Ukrayna Prezidentinə çox minnətdaram. Bu gün mən Azərbaycan diasporunun nümayəndələri ilə görüşdüm və bir daha yəqin etmək mənə olduqca xoş idi ki, rəhbərliyin onlara münasibəti çox müsbətdir, onlar burada özlərini evdəki kimi hiss edirlər. Onu da bilin ki, Azərbaycanda da Ukraynaya, ukraynalılara xüsusi məhəbbət hissləri bəsləyirlər. Bakı Slavyan Universitetində Ukrayna dili fakültəsinin olması, Ukrayna dilinin öyrənilməsi, - yeri gəlmişkən, Ukrayna dilinin öyrənilməsinə böyük maraq göstərilir, - sözlərimi bir daha təsdiq edir.

Əlbəttə, bir daha qeyd etməyə bilmərəm ki, iki liderin bu proseslərə - xalqlarımızın yaxınlaşması proseslərinə töhfəsi həlledici olmuşdur.

Bu gün Kiyevdə Heydər Əliyevə abidə qoyulması qardaşlığımızın, dostluğumuzun daha bir rəmzidir. Bu, münasibətlərimizin bir çox onilliklər və əsrlər ərzində davam və inkişaf edəcəyinin, indiki kimi sarsılmaz, möhkəm olacağının, dostluq və qardaşlıq münasibətləri olacağının daha bir rəmzidir.

Azərbaycanın yeni Prezidenti kimi mən bu siyasəti, ölkələrimizin və xalqlarımızın yaxınlaşması yolunu davam etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Mənə göstərilən qonaqpərvərlik, səmimiyyətə, mehribanlığa görə bütün Ukrayna xalqına da təşəkkür etmək istəyirəm. İnanın ki, bu iki gündə mən özümü evimdəki kimi hiss etdim. Mən Prezident Leonid Daniloviçə çox minnətdaram. Bizim müzakirə etdiyimiz bir çox problemlər barəsində ətraflı söhbətimiz oldu. Bir daha yəqin etdik ki, biz birlikdəyik, ölkələrimizin inkişafı yolunda, tərəqqi yolunda çiyin-çiyinə irəliləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

Sonra Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın şanlı qızı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan küçəyə gəldi.

Dövlətimizin başçısı həmin küçədə yerləşən və xalqımızın görkəmli övladının adı verilmiş mərkəzi parkda Zərifə Əliyevanın abidəsinin açılış mərasimində iştirak etdi.

Mərasimi Kiyev vilayəti dövlət administrasiyasının sədri Anatoli Zasuxa açdı.

KİYEV VİLAYƏTİ DÖVLƏT ADMİNİSTRASİYASININ SƏDRİ ANATOLİ ZASUXANIN ÇIXIŞI

- Çox hörmətli İlham Heydəroviç!

Çox hörmətli xanım Əliyeva!

Hörmətli azərbaycanlı dostlar!

Əziz həmyerlilər!

İrpen şəhərinin həyatında bugünkü hadisə unudulmazdır. Bu, xarici dövlətin prezidentinin şəhərinizə ilk səfəridir. Bu, müasir Ukraynanın tarixində yeni səhifədir, Azərbaycan-Ukrayna münasibətlərinin yeni tarixində səhifədir.

Azərbaycanda 29 min ukraynalı, Ukrayna torpağında 400 mindən çox azərbaycanlı yaşayır. Bu gün biz Taras Qriqoryeviç Şevçenkonun abidəsini ziyarət etdik. Azərbaycan Prezidenti abidənin önünə gül-çiçək qoydu. Azərbaycan diasporunun və İrpen şəhəri sakinlərinin dostluğu bu abidədən başlanmışdır. Kiyev vilayəti nümayəndə heyətinin ötən ilin iyununda Bakıya səfəri bu dostluğun davamı oldu. Azərbaycan Prezidenti, əfsanəvi insan Heydər Əliyeviç Əliyev ilə görüşlərdən alınan təəssürat unudulmayacaqdır. Biz Bakı şəhərinin Qaradağ rayonunda Lesya Ukrainka adına park açdıq. Bu il orada şairimizin büstü qoyulacaqdır.

Hörmətli cənab Prezident, biz Sizin səfərinizə çoxdan hazırlaşırdıq. Sizin səfərinizin intizarı çox həyəcanlandırıcı oldu. Budur, indi Siz bizim torpağımızdasınız. Bu gün Siz öz ananızın - görkəmli alim, akademik Zərifə Əliyevanın abidəsini açа bilərsiniz.

Hörmətli cənab Prezident, sözü Sizə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

İcazə verin, ilk növbədə, dostluğa görə, Azərbaycana, ölkəmizin nümayəndəsinə - bu gün abidəsini birlikdə açdığımız görkəmli alim Zərifə Əliyevaya münasibətə görə sizə öz ehtiramımı və minnətdarlığımı bildirim.

Zərifə Əliyeva heyrətamiz insan idi. O, bütün həyatını elmə, təbabətə həsr etmişdi, çox məşhur oftalmoloq-praktik, habelə böyük alim idi. O, insanlara görmə qabiliyyətini qaytarırdı. Onun fəaliyyəti və elmi əsərləri sayəsində müasir oftalmologiya çox böyük uğurlara nail olmuşdur. Eyni zamanda, o, çox xeyirxah, həssas insan, son dərəcə qayğıkeş ana və atam üçün sadiq dost, yaxşı məsləkdaş idi. Əlbəttə, onun həyatdan getməsi təkcə ailəmizin üzvləri üçün deyil, həm də onu tanıyanların və onunla ünsiyyətdə olanların hamısı üçün çox böyük itki idi. Aradan artıq neçə illər keçmişdir, lakin bu itkinin ağrısı çox kəskin duyulur.

Bu gün qardaş Ukrayna torpağında, İrpen şəhərində Zərifə Əliyevanın abidəsinin açılışında iştirak etmək mənim üçün ikiqat xoşdur.

Mən dünəndən Ukraynadayam, dövlət səfərini həyata keçirirəm və özümü dostlarımın arasında hiss edirəm. Böyük qayğı və diqqətlə əhatə olunmuşam, mənə çox böyük qonaqpərvərlik göstərilir. Fürsətdən istifadə edərək, dəvətə və səmimi münasibətə görə, ilk növbədə, Ukrayna Prezidenti Leonid Daniloviç Kuçmaya təşəkkürümü bildirmək istəyirəm.

Dünən Ukrayna ilə Azərbaycan arasında 9 dövlətlərarası saziş imzalandı. Bu sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, ikitərəfli münasibətlərdə, regional və beynəlxalq miqyaslı münasibətlərdə daha fəal iştirak etməyə imkan verəcəkdir. Ölkələrimiz arasında tarixən dostluq və qardaşlıq münasibətləri olmuşdur və mövcuddur. Müstəqillik əldə edildikdən sonra Ukraynanın və Azərbaycanın əsl tərəfdaşlar, strateji tərəfdaşlar olması faktı, ilk növbədə onu göstərir ki, ötən illərdə ölkələrimizdə həyata keçirilən siyasət səmərəli və düzgün olmuşdur. Mən münasibətlərimizin daha da möhkəmlənməsi üçün bu siyasəti Azərbaycanda davam etdirəcəyəm, ölkələrimiz, xalqlarımız arasında daha sıx əlaqələr olmasına çalışacağam.

Azərbaycanda Ukraynanı və ukraynalıları çox sevirlər, Ukrayna dilinə, mədəniyyətinə böyük səmimiyyətlə yanaşır, Azərbaycanın ali məktəblərində Ukrayna dilini öyrənirlər. Bütün bunlar da dövlətlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox yaxşı bazadır.

Dediyim kimi, biz yaxın ölkələrik, strateji tərəfdaşlarıq, bütün dünyada baş verən proseslərdə vahid mövqedən fəal iştirak edirik. Bizi, eyni zamanda, səmimi insani münasibətlər – dostluq, qarşılıqlı rəğbət, qarşılıqlı hörmət telləri bağlayır. Bax, elə bugünkü

gün, Azərbaycanın görkəmli nümayəndəsi Zərifə Əliyevaya Ukraynada abidə açılması dostluq münasibətlərimizin, xalqlarımızın bir-birinə dərin məhəbbət və hörmət hisslərinin ifadəsidir. Fürsətdən istifadə edərək, abidənin qoyulmasında, bu gözəl parkın, habelə indən belə Zərifə Əliyevanın adını daşıyacaq küçənin abadlaşdırılmasında fəal iştiraka görə Kiyev vilayəti hökumətinin başçısı cənab Zasuxaya və İrpen Şəhər Şurasının başçısı cənab Skarçinskiyə şəxsən təşəkkür etmək istəyirəm.

Mən həm Ukraynaya dost dövlətin - Azərbaycan dövlətinin Prezidenti kimi, həm də Zərifə Əliyevanın oğlu kimi minnətdaram. Əminəm ki, bütün dövrlərdə - Sovet İttifaqında yaşadığımız dövrdə də, ən başlıcası isə, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra da mövcud olmuş dostluq, qarşılıqlı yardım, qarşılıqlı dəstək münasibətləri davam etdiriləcək, ölkələrimizə və xalqlarımıza daha böyük fayda gətirəcəkdir.

Bir daha Ukraynaya, Ukrayna xalqına, gözəl İrpen şəhərinin sakinlərinə ən dərin hörmət hisslərimi və Azərbaycana, Zərifə Əliyevanın xatirəsinə belə münasibətə görə təşəkkürümü qəbul edin.

Sağ olun!

AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

İyunun 4-də Prezident İlham Əliyev Kiyevdə, onun üçün ayrılmış iqamətgahda Ukraynа, Belarus və Moldovada yaşayan azərbaycanlıların nümayəndələri – görkəmli ziyalılar, iş adamları ilə görüşmüşdür.

Görüşü ölkəmizin Ukraynadakı səfiri TƏLƏT ƏLIYEV açaraq dedi:

- Möhtərəm cənab Prezident!

Çox rəmzidir ki, 1997-ci ildə möhtərəm Prezidentimiz Heydər Əliyev elə bu salonda Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüşdü. O gündən Ukraynada Azərbaycan diasporunun formalaşması geniş vüsət almışdır.

Bu gün də Ukraynada, Moldovada və Belarusdakı Azərbaycan diasporunun fəalları Sizinlə görüşə gəlmişdir. İcazə verin, onların adından Sizi səmimi salamlayım və Ukraynaya dövlət səfərinizin uğurlu keçməsi münasibətilə ürəkdən təbrik edim. Xalqımızın gələcəyi üçün təkcə ölkəmizin daxilində göstərdiyiniz səylərə görə deyil, həm də uğurlu xarici səfərləriniz, apardığınız danışıqlar və onların nəticələri münasibətilə Sizi ürəkdən təbrik edirik.

Azərbaycan diasporunun inkişafında böyük əməyi olan insanlar bu gün Sizinlə görüşə gəliblər. Burada bizim məşhur akademiklərimiz, idmançılarımız, dövlət və hökümət xadimləri, iş adamları iştirak edirlər. İcazənizlə, mən sözü onlara verərdim.

UKRAYNA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ OQTAY ƏFƏNDİYEVİN ÇIXIŞI

- Möhtərəm cənab Prezident, ilk növbədə, Ukrayna Azərbaycanlıları Konqresi adından Sizi salamlayır və vaxt ayırıb bizimlə görüsdüyünüzə görə dərin minnətdarlığımızı bildiririk.

Mən Ukrayna Azərbaycanlıları Konqresi haqqında bir neçə kəlmə demək istərdim. Konqres 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin Ukraynaya səfəri vaxtı diasporun nümayəndələri ilə görüşdən sonra yaradılmışdır.

Həmin görüşdə ümummilli liderimiz bizə birləşməyi, bir yerdə olmağı, Azərbaycana və azərbaycançılığa xidmət etməyi, milli dəyərlərimizi və adət-ənənələrimizi respublikadan kənarda qoruyub saxlamağı tövsiyə etmişdir. Konqres bu tövsiyələr, ideya və prinsiplər əsasında azərbaycanlıların ölkə hüdudlarından kənarda yaradılmış ilk təşkilatıdır. Ötən bir neçə il ərzində Konqres inkişaf edərək monolit, güclü bir ictimai quruma çevrilmişdir. Ukraynanın bütün vilayətlərində Konqresin regional təşkilatları vardır və onlar mərkəzləşdirmə prinsipləri əsasında fəaliyyət göstərirlər.

Biz həm Ukraynanın, həm də Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edirik. Ötən ilin payızında biz Azərbaycanda keçirilmiş prezident seçkilərində fəal iştirak etdik, burada ümumukrayna konfransı çağırdıq və yekdilliklə ümummilli liderimiz Heydər Əliyevin siyasətinin davamçısı olan İlham Əliyevin namizədliyini dəstəklədik. Bu konfransda Azərbaycan xalqına müraciət qəbul olundu. Müraciətdə deyilirdi ki, biz gələcəyimiz üçün düzgün seçim etməli və yalnız ümummilli liderimiz Heydər Əliyevin xəttinə və onun layiqli davamçısı olan İlham Əliyevin siyasətinə xidmət etməliyik.

Bundan əlavə, biz çalışırıq ki, Ukraynanın ictimai-siyasi həyatında fəal iştirak edək. Qeyd etmək istəyirəm ki, 2002-ci ildə ümummilli liderimizin Ukraynaya səfəri zamanı Yalta şəhərində onunla görüşdə qarşımızda qoyduğu əsas vəzifələrdən biri Ukrayna parlamentində - Ali Radada azərbaycanlıların təmsil olunması idi. Biz ümummilli liderimizə söz verdik ki, 2006-cı ildə keçiriləcək parlament seçkilərində mütləq bir neçə azərbaycanlı burada təmsil olunacaqdır. Biz bu sahədə gərgin iş aparırıq.

Bildiyiniz kimi bu yaxınlarda Ukraynada prezident seçkiləri olacaqdır. Təbii ki, Ukrayna vətəndaşları kimi biz bu seçkilərdə fəal iştirak edəcəyik və bizim bu və ya digər namizədi dəstəkləməyimiz Azərbaycan dövlətinin mənafeləri çərçivəsində olacaqdır. Çalışacağıq ki, buradakı sağlam qüvvələrə xidmət edək.

Möhtərəm cənab Prezident, bir daha Sizə öz dərin minnətdarlığımı bildirir və üzərinizə götürdüyünüz böyük və şərəfli işdə Sizə uğurlar diləyirəm.

BELARUSDAKI AZƏRBAYCAN İCMASININ SƏDRİ NATİQ BAĞIROVUN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Mən Sizi Belarusda yaşayan azərbaycanlılar adından salamlamaq, bu gün bizimlə görüşə gəldiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mənim həmkarımın dediyi kimi, biz də Belarusda diasporumuzun fəaliyyətini gücləndirməyə, burada yaşayan azərbaycanlıları birləşdirməyə çalışırıq. Çünki tək əldən səs çıxmır. Ümummilli liderimiz Heydər Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri həll etmək, Azərbaycan diasporunu bütün dünyada möhkəmləndirmək məqsədi ilə biz yaşadığımız ölkənin parlamentinə seçkilərdə fəal iştirak etmək əzmindəyik. Bizimlə birlikdə Belarusda yaşayan Azərbaycan vətəndaşları da vətənimizin ictimai-siyasi həyatında

fəal iştirak edirlər. Biz Azərbaycanda keçirilmiş referendumda və prezident seçkilərində yaxından iştirak etmişik. Eyni zamanda, biz burada milli bayramlarımızı geniş surətdə qeyd edir, uşaqlarımızı adət-ənənələrimizin ruhunda tərbiyə etməyə, idmana cəlb etməyə çalışırıq. Sentyabr ayında Minsk şəhərində bazar günü məktəbi açılacaqdır. Belarusda yaşayan azərbaycanlılar məndən xahiş ediblər ki, Sizi dəstəklədiyimizi bildirim və onlar Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırlar.

MOLDOVA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ MEHMAN İSMAYILOVUN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

İlk növbədə, mən Moldovada yaşayan azərbaycanlılar adından Sizin rəhbərliyinizlə ölkəmizin dünya siyasət meydanında qazandığı parlaq qələbələrə görə təşəkkürümü bildirmək istəyirəm.

Diaspor o deməkdir ki, hər bir millətin nümayəndəsi yaşadığı ölkədə öz adət-ənənələrini davam etdirir və öz vətənini ləyaqətlə təmsil edir. Bu gün biz Moldovada səfirliyin köməyi ilə geniş işlər aparırıq. Səfirimizin oradakı diasporun nümayəndələri ilə ilk görüşündən sonra bu fəaliyyətimiz daha da güclənmişdir. Biz moldovalılar arasında Azərbaycan xalqının nüfuzunu daim yüksəltməyə çalışırıq. Yaşadığımız ölkədə bazar günü məktəbi açmışıq, səfirliyin köməyi ilə bu məktəbə dərsliklər, müxtəlif kitablar verilmişdir. Kişinyov şəhərində, dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan meydanda onun heykəlinin qoyulmasına çalışırıq. Dünya şöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin adına da küçə veriləcək və onun vəfatının ildönümünədək biz bu küçəni abadlaşdıracağıq.

Demək istəyirəm ki, biz hər zaman öz vətənimizi düşünürük. Bizə deyirlər ki, sizin iki vətəniniz vardır. Bu, həqiqətən də belədir. Biz Bakıda dünya azərbaycanlılarının I qurultayında iştirak etdik və hörmətli Prezidentimiz Heydər Əliyevin bu sözləri həmişə yaddaşımıza həkk olunmuşdur. O dedi ki, "mən ağacam, siz isə mənim budaqlarımsınız". Bu dərin mənalı sözlər bizi daha sıx birləşməyə, vətənpərvərlik hisslərini daha uca tutmağa vadar etdi.

Möhtərəm cənab Prezident, bir daha Sizə öz minnətdarlığımı bildirir və söz verirəm ki, Moldovadakı Azərbaycan diasporunun nümayəndələri ölkəmizi daha yüksək səviyyədə təmsil edəcəklər.

UKRAYNADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏSİ ELBRUS ABDULLAYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Ukrayna-Azərbaycan əlaqələri durmadan inkişaf edir. Biz ümummilli liderimiz, dünya şöhrətli siyasətçi Heydər Əliyevin buradakı nüfuzunu həmişə hiss etmişik. Dövlət strukturlarında çalışdığımız zaman Azərbaycanın adını və nüfuzunu yüksək tutmağa səy göstərmişik. İstəmişik ki, bütün Ukrayna xalqı bizim həmişə layiqli işlərlə məşğul olduğumuzu bilsin.

Hörmətli Prezident, hazırkı siyasi şəraitdə ölkələrimizin dostluq münasibətləri, həqiqətən, möhkəmlənir və biz bunu hər addımda hiss edirik. Sizi əmin etmək istəyirik ki, biz öz işimizdə Azərbaycanın tarixi ənənələrini inkişaf etdirməyə və Sizin siyasətinizi daim dəstəkləməyə çalışacağıq. Bu görüşə görə Sizə minnətdarlığımızı bildirir və şərəfli fəaliyyətinizdə uğurlar diləyirik.

KİYEV ŞƏHƏRİ PEÇERSK RAYON RADASININ DEPUTATI VİLAYƏT QULİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Ukraynada yaşayan azərbaycanlı kimi mən Sizi burada salamlayır və "Xoş gəlmisiniz!" deyirəm. Sözümü mayın 26-da Azərbaycanda səfərdə olan ABŞ konqresinin Silahlı Qüvvələr Komitəsinin sədri Kurt Ueldonun sözləri ilə başlamaq istəyirəm. O dedi ki, "biz Prezident İlham Əliyevin regionda nümayiş etdirdiyi liderliyə valeh olmuşuq". Biz Sizə demək istəyirik ki, dünya şöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin davamçısı kimi onun siyasətini məharətlə davam etdirməyinizə biz də valeh olmuşuq.

Ukrayna Azərbaycanlıları Konqresi sədrinin müavini kimi demək istəyirəm ki, bizim fəaliyyətimizdə həll olunası müəyyən məsələlər də vardır. Sizi əmin edə bilərik ki, bu məsələləri həll etməyə bizim imkanımız vardır. Mən həmişə bir hisslə yaşamışam - heç zaman soruşmayım ki, Azərbaycan mənim üçün nə etmişdir? Mən həmişə özümdən soruşmalıyam ki, mən Azərbaycan üçün nə etmişəm? Biz hələ 1990-cı illərdə, müharibə zamanı Azərbaycana əlimizdən gələn köməyi edirdik. Allaha şükürlər olsun ki, bu gün ölkəmiz dinc şəraitdə yaşayır və biz düşünürük ki, bu şəraitdə ölkəmizə hansı köməyimiz deyə bilər. Mənim təmsil etdiyim Peçersk rayonu Kiyev şəhərinin mərkəzi rayonlarından biridir. Ukraynadakı yerli özünüidarəetmə haqqında qanun Peçersk rayon radasının təşəbbüsü əsasında həyata keçirilir. Bizim sədrimiz Anatoli Kovalenko bununla əlaqədar kitab yazmışdır və bu gün Ukraynada qüvvədə olan qanun onun kitabı əsasında təqdim olunmuşdur. Bu qanunun icrası baxımından deməliyəm ki, Azərbaycanda da bu müsbət təcrübəni tətbiq etmək olar və biz buna kömək etməyə həmişə hazırıq. Əgər mənim bu təcrübəni Azərbaycanda yaymağa hər hansı bir köməyim dəyərsə, bundan çox şad olardım.

Biz Sizə söz veririk ki, Azərbaycanın bayrağını, azərbaycançılıq ideyasını həmişə yüksək tutacağıq. Apardığınız uğurlu siyasətə görə Sizə öz minnətdarlığımızı bildiririk.

Möhtərəm Prezident, mən xarici ölkələrdə çox oluram. Həmişə fəxr edirəm ki, mənim dövlətimi, Azərbaycanımı Sizin kimi cavan və savadlı Prezident təmsil edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Mən sizi görməyimdən çox şadam. Məmnunam ki, azərbaycanlılar yaşadıqları ölkələrdə öz layiqli yerlərini tutublar, bu ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında çox mühüm rol oynayırlar.

Mən dünəndən Ukraynadayam və dövlət səfərini həyata keçirirəm. Böyük məmnuniyətlə deyə bilərəm ki, bu səfər çox uğurlu keçir. Dünən apardığımız ikitərəfli danışıqlar bir daha göstərdi ki, Ukrayna və Azərbaycan strateji tərəfdaşlardır. Müzakirə etdiyimiz bütün məsələlər üzrə bizim mövqeyimiz üst-üstə düşür, həm ikitərəfli münasibətlərdə, həm regionda gedən proseslərə baxışlarımız, eyni zamanda, beynəlxalq siyasət məsələlərində mövqelərimiz üst-üstə düşür. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq güclənir, mal dövriyyəsi artır. Bu, bir tərəfdən onu göstərir ki, Azərbaycanın və Ukraynanın iqtisadiyyatı hərtərəfli inkişaf edir. Digər tərəfdən, ölkələrimiz arasında mövcud olan iqtisadi əlaqələr daha da güclənir. Əlbəttə, Ukraynada yaşayan və bizneslə məşğul olan azərbaycanlıların bu işdə böyük rolu ola bilər və onlar bu sahədə öz töhfəsini verə bilərlər.

Eyni zamanda, siyasi məsələlər də müzakirə olundu. Çox sevindirici haldır ki, Ukrayna ilə Azərbaycan arasındakı münasibətlər təkcə ikitərəfli formatda deyil, habelə regional təşkilatlar çərçivəsində də uğurla həyata keçirilir və bu əməkdaşlıq getdikcə güclənir.

Humanitar sahədə böyük nailiyyətlərimiz vardır. Mən qeyd etdim ki, Azərbaycanda fəaliyyət göstərən Slavyan Universitetində Ukrayna dili fakültəsi vardır, burada ukraynaşünaslıq öyrənilir və Ukrayna dili tədris olunur. Ölkəmizdə ukraynalılara münasibət çox müsbətdir. Çox şadam ki, ölkəmiz müstəqilliyə qovuşduqdan sonra bu münasibətlər daha da güclənmişdir. Eyni zamanda, burada yaşayan azərbaycanlılara olan diqqətə görə Ukrayna rəhbərliyinə, şəxsən Prezidentə öz minnətdarlığımı bildirdim.

Mən bilirəm ki, burada azərbaycanlılar çox rahat yaşayırlar. Dövlət orqanları tərəfindən onlara münasibət çox yüksəkdir və bu da məni çox sevindirir.

Çox mühüm məsələ kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi də müzakirə olunmuşdur. İkitərəfli formatda, geniş tərkibdə görüşdə, eyni zamanda, keçirilmiş mətbuat konfransında Ukrayna Prezidenti cənab Leonid Kuçma birmənalı şəkildə qeyd etmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bu, çox mühüm bir bəyanatdır. Mən qeyd etdim ki, bəzi hallarda müəyyən dairələr bu məsələnin üstündən keçmək, bunu danmaq, bu məsələ ilə əlaqədar müxtəlif manipulyasiyalar etmək istəyirlər. Əfsuslar olsun ki, dünyanın bəzi yerlərində hələ də ikili standartlar siyasəti hökm sürür. Ancaq Ukrayna kimi böyük dövlətin başçısının belə birmənalı bəyanatı çox böyük siyasi addımdır və iki ölkə arasında olan münasibətləri əhəmiyyətli dərəcədə gücləndirən bir amildir. Mən buna görə Ukrayna Prezidenti cənab Kuçmaya öz minnətdarlığımı bildirdim və sizi də məlumatlandırıram ki, gündəlik həyatınızda ünsiyyətdə olduğunuz insanlarla bu məsələ ətrafında söhbət aparasınız, Azərbaycan dövlətinin və xalqının Ukrayna xalqına olan dərin məhəbbətini, o cümlədən bu mövqeyə görə təşəkkürünü bildirəsiniz. Hesab edirəm ki, bu, çox vacib məsələdir.

Ölkələrimiz arasında doqquz sənəd imzalanmışdır. Bu sənədlər ikitərəfli münasibətlərimizin, demək olar ki, bütün sahələrini əhatə edir. Prezidentlər tərəfindən siyasi sənəd, eyni zamanda, iqtisadi inkişafa və ikitərəfli münasibətlərin möhkəmlənməsinə dair sazişlər imzalanmışdır. Ümid edirəm ki, bu sənədlər qüvvəyə mindikdən sonra ikitərəfli əlaqələrimiz daha da güclənəcəkdir.

Çox şadam ki, Ukrayna ilə yanaşı, Belarus və Moldovada da diasporlarımız formalaşıb

və fəaliyyət göstərir. Bu, çox müsbət haldır. Yəqin ki, sizə məlumdur, biz bu istiqamətdə öz fəaliyyətimizi gücləndiririk. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə qəbul olunmuş qərar bu istiqamətdə atılmış ən mühüm addımlardan biridir. Çox sevindirici haldır ki, demək olar, bütün keçmiş sovet respublikalarında Azərbaycan diasporları yaradılmışdır. Biz bu siyasəti davam etdiririk və eyni zamanda, müxtəlif ölkələrdə Azərbaycanın yeni səfirliklərinin açılması haqqında qərar qəbul etmişik. Bu yaxınlarda mən Belarusda səfirliyin açılması barədə qərar qəbul etmişəm. Artıq müəyyən müddətdən sonra bu ölkəyə səfir də təyin olunacaqdır. Bu, bizim üçün daha geniş imkan yaradacaqdır.

Azərbaycanın işi haqq işidir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bütün dünya ölkəmizin təcavüzə məruz qaldığını, torpaqlarımızın işğal altında olduğunu və bu işğalın nəticəsində 1 milyona yaxın soydaşımızın öz doğma torpaqlarından didərgin düşdüyünü bilməlidir. Diasporların, səfirliklərin bu istiqamətdə apardıqları işlərin çox böyük əhəmiyyəti vardır.

Bizim diplomatiyamız bütün ölkələrlə ikitərəfli, faydalı, mehriban münasibətlərin qurulmasına yönəlmişdir. Biz bütün ölkələrlə çox gözəl münasibətlər yaratmışıq və deyə bilərəm ki, Azərbaycanın digər ölkələrlə heç bir problemi yoxdur. Ümidvaram ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapacaqdır. Ermənistan-Azərbaycan münaqişəsi həll olunduqdan sonra ölkəmizdə daha böyük iqtisadi inkişaf baş verəcəkdir.

Bu gün ölkəmiz çox dinamik inkişaf edir, bütün iqtisadi göstəricilər Azərbaycanın ildən-ilə gücləndiyini göstərir. Hazırda qəbul etdiyimiz sosial-iqtisadi və regional proqramlar çərçivəsində qeyri-neft sektoruna böyük sərmayələr qoyulacaqdır. Yeni iş yerləri, xüsusilə regionlarda iş yerlərinin açılması ən mühüm məsələdir. Prezident seçkilərindən ötən yeddi ay ərzində 30 minə yaxın iş yeri açılmışdır ki, bu da çox yüksək göstəricidir. Bu, bir tərəfdən işsizliyi aradan qaldıracaq, digər tərəfdən Azərbaycanda yerli istehsal inkişaf edəcək, idxal azalacaqdır. Beləliklə, daha çox vergilər ödəniləcəkdir. İqtisadiyyatla məşğul olanlar çox gözəl bilirlər ki, iş yerinin açılmasının əhəmiyyəti təkcə hansısa bir insanı işlə təmin etməklə bitmir. Bunun arxasında böyük və dərin məsələlər durur və onun bütövlükdə iqtisadi inkişafa təsiri olur.

Ölkəmiz dünya birliyində özünəlayiq yerini tutmuşdur. Seçkilərdən sonra mənim etdiyim bütün səfərlər çox uğurlu olmuşdur. Xarici ölkələrə, beynəlxalq təşkilatlara – Avropa Şurasına, Avropa Birliyinə, NATO-ya etdiyim səfərlər çox yüksək səviyyədə keçmişdir və bir daha Azərbaycanın dünya birliyinin dəyərli üzvü olmasını təsdiq etmişdir. Ölkəmizdə dünyanın ən böyük layihəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi, habelə Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsi uğurla həyata keçirilir, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənilməsi çox sürətlə gedir. Şübhə etmirəm ki, yaxın zamanlarda bu kəmərlər istifadəyə veriləcək və ölkəmizə böyük həcmdə maliyyə resursları daxil olacaqdır. Bu, bizə imkan verəcəkdir ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, iqtisadiyyatımızı şaxələndirək. Elə etməliyik ki, Azərbaycanın hər bir yerində, bölgəsində yeni infrastruktur yaradılsın, binalar, xəstəxanalar, məktəblər, sənaye müəssisələri istifadəyə verilsin. Əminəm ki, biz buna nail olacağıq. Bunu etmək üçün hər cür

imkan vardır. Heydər Əliyevin siyasəti yaşayır, mən bu siyasəti davam etdirirəm, xalq bu siyasəti dəstəkləyir və bəyənir. Ötən ilin oktyabrında keçirilmiş prezident seçkiləri bunu bir daha təsdiq etdi. Həm Azərbaycanın daxilində, həm də xaricdə yaşayan soydaşlarımız birmənalı şəkildə Heydər Əliyev siyasətinə səs vermişlər.

Bu amillə yanaşı, iqtisadi inkişaf da sürətlə gedir. Son yeddi il ərzində iqtisadiyyatımız hər il təxminən 10 faiz artmışdır ki, bu da dünyada çox nadir hallardan biridir. Xarici sərmayələrin həcmi artır, sosial məsələlər öz həllini tapır. Ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin problemləri də həll olunur, onlar üçün yeni şəhərciklər və qəsəbələr salınır. Bir neçə gündən sonra daha bir yeni və müasir şəhərcik öz qapılarını onların üzünə açacaqdır.

Mən gələcəkdə Azərbaycanın qarşısında heç bir problem görmürəm. Qonşularla münasibətlər çox yüksək səviyyədədir. Bu da Heydər Əliyev diplomatiyasının təntənəsidir. Yadınıza salın, on il əvvəl qonşularımızla problemlərimiz çox idi və onlar Azərbaycana çox mənfi təsir edirdi. Amma indi heç bir problem yoxdur, bütün qonşularla çox mehriban, səmərəli, ikitərəfli münasibətlər qurulmuşdur. Ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də, əminəm ki, öz həllini tapacaqdır. Azərbaycan bu məsələdə öz mövqeyindən geri çəkilmir. Ölkəmizin ərazi bütövlüyü bərpa olunmalı və işğalçı qüvvələr torpaqlarımızdan çıxmalıdır. Beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların bu məsələyə baxışlarında da müəyyən dəyişikliklər baş vermişdir. Mən əvvəlcədən bir şey demək istəmirəm, amma inanıram ki, biz bu məsələni həll edəcəyik. Bu hansı yolla olacaq - onu gələcək göstərəcəkdir. Amma Azərbaycan xalqı heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Biz çalışacağıq ki, bunu sülh yolu ilə həll edək.

Mən çox sevinirəm və məmnunam ki, Ukraynada, Belarusda və Moldovada fəaliyyət göstərən diasporlarımız çox güclənmiş və fəallaşmışlar. Onlar demək olar ki, tam formalaşmışlar. Azərbaycanlıların ali qanunvericilik və hökumət strukturlarında təmsil olunması da çox mühüm bir haldır. Biz buna çox çalışmalıyıq. Ümid edirəm ki, Ukraynada 2006-cı ildə keçiriləcək parlament seçkilərində bizim diasporumuz, səfirliyimiz və əlbəttə, Azərbaycan hökuməti bu parlamentdə azərbaycanlıların təmsil olunması üçün və onların sayının çox olması üçün əlindən gələni edəcəkdir. Bu, bizə böyük imkanlar verəcəkdir. Sirr deyil ki, ölkəmizin mövqeləri də, burada yaşayan azərbaycanlıların gündəlik həyatı da bundan fayda görəcəkdir. Əmin ola bilərsiniz ki, Sizin arxanızda Azərbaycan dövləti, bu dövlətin başçısı dayanıbdır. Xaricdə yaşayan bütün soydaşlarımız hansı ölkənin vətəndaşı olmağından asılı olmayaraq, bizim qardaşlarımızdır və hər an doğma vətən sizi qarşılamağa hazırdır. Amma biz istəyirik ki, siz yaşadığınız ölkələrdə güclənəsiniz, daha möhkəm mövqeyə sahib olasınız. Siyasi aləmdə, biznesdə, bu ölkələrin mədəni həyatında sizin möhkəm mövqeyiniz Azərbaycanın adının daha da yüksəlməsi deməkdir. Ölkəmiz haqqında həqiqətlər daha dolğun şəkildə dünya ictimaiyyətinə çatdırılmalıdır. Əlbəttə, hər bir ölkənin səfirliyi vardır və bu səfirlik ölkənin maraqlarını təmsil edir. Amma diaspor üzvləri də Azərbaycanın elçiləridir. Sizin fəaliyyətinizdən çox şey asılıdır. Siz Azərbaycana dəstəksiniz, Azərbaycanın da hökuməti və dövləti sizə dəstəkdir. Əlbəttə, ikitərəfli münasibətlər güclü olanda, - Ukrayna ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə gəlib çatmışdır, - burada yaşayan azərbaycanlılara da öz müsbət təsirini göstərəcəkdir.

Mən bir daha sizin hamınızı salamlayıram, bu görüşə gəldiyinizə görə sizə öz təşəkkürümü bildirirəm. Sizə uğurlar arzu edir və əmin olduğumu bildirirəm ki, Azərbaycanın adını daim yüksək tutacaq, ölkəmizi ləyaqətlə təmsil edəcək və onun gələcəyi naminə bütün azərbaycanlılarla birlikdə fəal iş aparacaqsınız.

SƏFƏR BAŞA ÇATDI

İyunun 4-də Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya dövlət səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 9-da Prezident sarayında Amerika Türk Assosiasiyaları Assambleyasının prezidenti Ərcümənt Qılıncun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev dedi:

- Əziz dostlar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Siz artıq bir neçə gündür ki, Azərbaycandasınız, ölkəmizlə tanış olursunuz. Amerika Türk Assosiasiyaları Assambleyası dünyada böyük nüfuza malik, Türkiyə-Amerika əlaqələrinin inkişafında böyük rolu olan bir təşkilatdır. Biz sizin fəaliyyətinizi maraqla izləyirik və əldə olunan uğurlara da sevinirik.

Bu ilin yanvar ayında keçirilən qurultayda Azərbaycan nümayəndə heyəti də iştirak edirdi. Eşitdiyimə görə, çox fəal iştirak edirdi. Biz çox istəyirik ki, Azərbaycanla sizin təşkilat arasında əməkdaşlıq inkişaf etsin, genişlənsin. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə ölkəmizdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu komitə çox fəal işləyir və böyük işlər görür.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasında münasibətlər bütün dövrlərdə çox mehriban olubdur. Biz qardaş ölkəyik. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə dövləti olubdur. Son 10 il ərzində Türkiyə ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə qalxmışdır. Bu münasibətlərin xalqlarımıza çox böyük faydası olmuşdur. Türkiyə ilə Azərbaycan birlikdə bölgədə böyük iqtisadi nəqliyyat layihələri həyata keçirir. Biz daim beynəlxalq təşkilatlarda bir-birimizə kömək edirik, dəstək veririk. Bu yaxınlarda Türkiyəyə etdiyim rəsmi səfərim bizim nə qədər yaxın olmağımızı bir daha təsdiqlədi. İndi biz çalışmalıyıq ki, Türkiyə ilə Azərbaycan arasında olan münasibətləri, qardaşlıq əlaqələrini daha da genişləndirək.

Azərbaycanın Amerika ilə də münasibətləri çox yüksək səviyyədədir. Həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə əməkdaşlığımız çox uğurludur. Azərbaycan Amerika üçün çox etibarlı bir tərəfdaşdır. Keçən on il ərzində biz təkcə bəyanatlarla deyil, əməli-praktiki addımlarla bu siyasətə sadiq olduğumuzu sübut etdik. Biz bu münasibətlərin genişlənməsində maraqlıyıq və ikitərəfli münasibətlər son illər ərzində çox yüksək səviyyəyə gəlib çatmışdır.

Bu yaxınlarda ABŞ Konqresində Amerika-Azərbaycan işçi qrupunun yaradılmasından danışan Prezident İlham Əliyev dedi ki, bu çox böyük nailiyyətdir, uğurdur. Konqresdə bir neçə ölkə belə bir nailiyyətə gəlib çatıbdır. O cümlədən Azərbaycan. Bu da müsbət bir haldır.

İstəyirik ki, bizim nailiyyətlərimiz, Azərbaycan haqqında həqiqətlər, eyni zamanda, Konqresdə də səslənsin. Çünki 1992-ci ildə Azərbaycana tətbiq edilən ədalətsiz 907-ci düzəliş hələlik qüvvədədir. Baxmayaraq ki, Amerika Prezidenti tərəfindən bu düzəliş dayandırılıb, amma eyni zamanda, bu tamamilə ləğv edilməyibdir. Bunun nəticəsində Azərbaycan uzun illər Amerika hökumətinin birbaşa yardımından məhrum olmuşdur. Bu düzəliş Amerikada, xüsusilə Konqresdə fəaliyyət göstərən erməni lobbisi tərəfindən o vaxt tətbiq edilmişdir. Bilirsiniz ki, erməni lobbisi Azərbaycana qarşı Amerikada çox böyük işlər aparır. Bu düzəliş də həmin işlərin biri idi.

Biz çalışırıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll edək. Amma əfsuslar olsun ki, hələlik nəticə yoxdur. Hamı bilməlidir, o cümlədən Amerika ictimaiyyəti də bilməlidir ki, bu münaqişədə zərər çəkən tərəf Azərbaycandır. Bizim torpaqlarımız işğal altına düşmüşdür. Bu işğalın nəticəsində bir milyondan artıq soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür.

Mən dünən Mingəçevir şəhərində qaçqınlar və məcburi köçkünlər üçün yeni salınmış qəsəbənin açılışında iştirak edirdim. Biz çalışırıq ki, onların yaşayış səviyyəsini qaldıraq, müvəqqəti olaraq məskunlaşdıraq, normal şəraitlə təmin edək. Onlar üçün yeni evlər tikilir, qəsəbələr salınır. Əlbəttə, bunlar müvəqqəti xarakter daşıyır. Bizim istəyimiz ondan ibarətdir ki, beynəlxalq hüquq normaları öz əksini tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çəkilsinlər. Bu istiqamətdə böyük işlər aparılır. Əlbəttə, bizim bütün dostlarımızın bu istiqamətdə fəaliyyəti bizə böyük kömək, dəstək olacaqdır.

Səmimi qəbula görə dərin minnətdarlığını bildirən ATAA-nın prezidenti Ərcümənt Qılınc dedi ki, Azərbaycan Prezidenti ilə görüşmək bizim üçün bir neçə səbəbdən çox önəmlidir. Birincisi, hamımız çox həyəcanlıyıq. Sizin bizi qəbul etməyiniz hamımız üçün çox böyük şərəfdir. İkincisi, biz Atatürkü sevənləri görəndə deyirik ki, onların hüzurunda olmaq Atatürkü yad etmək kimidir. O cümlədən eyni şəkildə burada Sizi görməklə bərabər, rəhmətlik atanızı, türk dünyasının böyük lideri Atatürklə bərabər tutduğumuz Heydər Əliyevi qarşınızda bir daha anır, ona Allahdan rəhmət diləyirik.

Rəhbərlik etdiyi Assambleyasının fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verən qonaq türkdilli ölkələrə səfərlərindən söhbət açaraq Azərbaycana ikinci dəfə gəldiyini nəzərə çarpdırdı.

Son illər Azərbaycanda baş vermiş çox müsbət dəyişiklikləri görməkdən məmnun qaldığını söyləyən Assambleyanın prezidenti daha sonra dedi ki, Azərbaycandakı dəyişikliyi biz hələ təyyarədə olarkən gördük. Yanan işıqlardan, hava limanından, otellərdən gördük. Dörd gündür ki, bunların şahidiyik. Bunlar bizi son dərəcə məmnun edir.

O, Azərbaycanın demokratiya sahəsindəki inkişafının, bazar iqtisadiyyatına keçmək yolunda qazandığı uğurlarının, dünya siyasətində göstərdiyi cəsarətinin, sülhyaratma əməliyyatlarında iştirakının, ölkəmizin dünyada öz layiqli yerini tutmasının son dərəcə sevindirici olduğunu vurğuladı, bütün bunları Amerikada təbliğ etdiklərini bildirdi.

Cənab Ərcümənt Qılınc son zamanlar amerikalı deputatlarla yaxşı əlaqələr qurulduğunu vurğulayaraq dedi ki, bütün deputatlara Azərbaycanı, Qarabağı anladırıq. Qarabağ Sizin yaranız olduğu qədər bizim də yaramızdır. Amerikada yaşayan 300 minlik türk adından və 20 minlik üzvümüz adından Sizi əmin edirik ki, bu yolda əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Sizə fəaliyyətinizdə uğurlar arzulayır, inşallah, Azərbaycanı dünyada daha yüksəkdə görmək istəyirik və bir çox mühüm işlərin görüləcəyinə əminik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının qərargah rəisinin müavini general Çarlz Uoldun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev general Çarlz Uoldla keçirdiyi son görüşü xatırladaraq, bunun ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm bir addım olduğunu söylədi. Ötən ay NATO-ya səfərini və apardığı danışıqları ölkəmizin Şimali Atlantika Alyansına inteqrasiyası istiqamətində əlamətdar hadisə kimi dəyərləndirən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu təşkilatla gələcək əməkdaşlıq uğurlu olacaqdır.

Birləşmiş Ştatlarla Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafında böyük tərəqqi əldə edildiyini vurğulayan Prezident İlham Əliyev qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini söylədi, general Çarlz Uoldun Azərbaycanın müdafiə naziri ilə keçirdiyi səmərəli görüşdən razılığını bildirərək dedi ki, ölkələrimizin daha da yaxınlaşmasında bu cür görüşlərin böyük əhəmiyyəti vardır.

Səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkür edən general Çarlz Uold dedi: "Cənab Prezident, mən Sizi regionda çox uğurla davam edən liderliyinizə görə təbrik edirəm. Bizim üçün çox mühüm ölkə olan Azərbaycanla əlaqələrə böyük önəm veririk. ABŞ-ın Avropa Komandanlığı ölkənizlə əməkdaşlığı gələcəkdə də davam etdirmək əzmindədir. Sizin göstərdiyiniz liderliyə görə, xüsusilə ölkənizin bütün regionda nümayiş etdirdiyi liderliyə görə Sizə təşəkkürümüzü bildirirəm. Azərbaycan bu regionda lider olmaqla bərabər, həm də ən mühüm ölkədir".

Qonaq ölkəmizin Birləşmiş Ştatların Avropa Komandanlığı ilə əməkdaşlığının gələcək perspektivlərindən bəhs edərək, həyata keçirilən birgə proqramların xüsusi əhəmiyyətini vurğuladı. O dedi ki, xüsusilə Xəzər hövzəsində təhlükəsizliyin təmin edilməsi sahəsində iki ölkənin həyata keçirdiyi birgə tədbirlər və neft kəmərlərinin təhlükəsizliyinin təmin olunması məsələləri gündəlikdə duran ən aktual problemlərdir. Bunun üçün Vaşinqtonda yaradılmış qrupların iştirakı ilə təlim və treninqlərin keçirilməsi davam etdiriləcəkdir.

General sonda bir daha vurğuladı ki, Azərbaycanın regionda liderliyi və burada baş verən mühüm hadisələr Birləşmiş Ştatlar üçün böyük əhəmiyyət kəsb edir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının İraqa dair bu il 8 iyun tarixli 1546 nömrəli qətnaməsini alqışlayır və hesab edir ki, həmin qətnamənin uğurla həyata keçirilməsi təkcə İraqın özündə deyil, həm də bütün regionda sülhün və sabitliyin möhkəmlənməsinə kömək edəcəkdir.

Azərbaycanlılar üçün müqəddəs olan iki şəhərin - Nəcəf və Kərbəla şəhərlərinin yerləşdiyi İraqda baş verən hadisələri Azərbaycanda diqqətlə izləyirlər. Sülhün qorunması üçün bu ölkəyə Azərbaycanın sülhməramlı hərbi kontingenti göndərilmişdir. İraqın müstəqilliyinə, suverenliyinə, vahidliyinə və ərazi bütövlüyünə tərəfdar olan Azərbaycan İraqın müvəqqəti hökumətinin yaradılmasını alqışlayır, bunu ölkənin demokratik dövlət idarəçiliyinə keçid prosesinin başlanmasına doğru ilk addım kimi qiymətləndirir.

10 iyun 2004-cü il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MƏDƏNİYYƏT VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİNİ QƏBUL ETMİŞDİR

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına sarayda Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolovu qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq, Rusiyanın mədəniyyət xadimlərindən ibarət mötəbər nümayəndə heyətinin Azərbaycana gəlməsini ölkənin həyatında əlamətdar hadisə adlandırdı. Prezident İlham Əliyev Rusiya dövlətinin zəngin mədəni ənənələrindən danışaraq qeyd etdi ki, Azərbaycanda rus mədəniyyətinə maraq həmişə yüksək olmuşdur. Ölkəmizdə Rusiyanın televiziya kanalları yayımlanır və onların vasitəsilə Azərbaycan sakinləri Rusiya mədəniyyətinin dəyərli irsi ilə tanış olurlar.

Rusiya nümayəndə heyətinin indiki səfəri və Azərbaycanda Rusiya mədəniyyəti günlərinin keçirilməsi ölkələrimiz arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin inkişafına böyük töhfə olacaqdır. Azərbaycan Prezidenti mədəniyyət günlərinin uğurla keçməsini arzuladı.

Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolov mədəniyyət günlərinin iştirakçıları üçün yaradılmış yaxşı şəraitə görə Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirdi və bu tədbirin keçirilməsini mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsində mühüm mərhələ kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

İyunun 12-də Bakıda - Heydər Əliyev adına sarayda Azərbaycanda Rusiya Federasiyası mədəniyyət günlərinin təntənəli açılışı olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Mərasimin aparıcıları - Rusiya kinosunun populyar aktrisası Oksana Korostışevskaya və Rusiya Federasiyasının əməkdar artisti, bəstəkar Sergey Şustitski dövlətimizin başçısını və iştirakçıları salamlayaraq xatırlatdılar ki, Rusiya və Azərbaycan xalqları arasındakı əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç zaman qırılmayıb, mədəniyyətlərimiz isə həmişə qaynayıb-qarışıb və bir-birini zənginləşdiribdir. Rusiya incəsənətinin bir çox ustalarının yaradıcılığı azərbaycanlılara yaxşı məlumdur. Eləcə də Azərbaycanın bir çox musiqiçilərinin, yazıçı və şairlərinin yaradıcılığı rusiyalılara əziz və yaxındır.

Sonra çıxış edən Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu vaxt tapıb mədəniyyət günlərinin açılışına gəldiyinə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi.

O, qonaqları səmimiyyətlə salamlayaraq, Rusiya Federasiyasının milli bayramı münasibətilə təbrik etdi.

Nazir dedi ki, biz mədəni ənənələrimizin davam etməsindən çox şadıq. Şadıq ki, hər il bizdə böyük tədbirlər keçirilir. Bir il Azərbaycan öz incəsənətini Rusiyada, növbəti ildə isə Rusiya öz incəsənətini Azərbaycanda təqdim edir. Prezident İlham Əliyevin fevralda Rusiyaya səfəri zamanı yüksək səviyyədə belə bir razılaşma əldə edilmişdir ki, 2005-ci il Rusiyada Azərbaycan ili, 2006-cı il isə Azərbaycanda Rusiya ili elan olunacaqdır. Əminəm ki, bu incəsənət illəri böyük uğurla keçəcək və bizi daha da yaxınlaşdıracaqdır.

Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar naziri Aleksandr Sokolov Azərbaycan Prezidentinə və mərasim iştirakçılarına müraciətlə dedi ki, bu gün burada, Rusiyanın mədəniyyətinin təqdim edildiyi bu gözəl sarayda sizi görməyimə çox şadam. Bu, çoxdankı və gözəl ənənədir. Mən bu səfərə hazırlaşarkən əvvəlki görüşlərimi yadıma saldım və belə bir qəti nəticəyə gəldim ki, Rusiya ilə Azərbaycan arasında təşəkkül tapmış belə təcrübə, mədəniyyət sahəsində bu cür mehriban qonşuluq siyasəti yoxdur. Bu, doğrudan da belədir. Çünki heç yerdə, heç bir mərhələdə bizim aramızda ayrılıq olmamışdır.

A.Sokolov daha sonra bildirdi ki, bu gün iki nazirlik arasında XXI əsrə yol açan konkret sənədlər imzalanmışdır. Biz keçmiş ənənələri davam etdiririk.

Biz bu gün burada sevimli artistlərinizin iştirak etdiyi konsertlə çıxış edirik. Gələn ildə biz Azərbaycan artistlərini Moskvada gözləyəcəyik. Bu, təkcə mədəniyyət günləri yox, həm də məhz respublika ili olacaqdır. Başqa sözlə, biz dövlətlərarası ünsiyyətimizin tamamilə yeni səviyyəsinə qədəm qoyuruq.

ESTONİYADA AZƏRBAYCANA BÖYÜK MARAQ VARDIR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 12-də ölkəmizdə səfərdə olan Estoniya Respublikasının xarici işlər naziri xanım Kristina Oculand ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan və Estoniyanın NATO və Avropa Birliyinə daxil olması ilə bağlı təbrik edən nazir Elmar Məmmədyarov, bu səfərin ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsi üçün faydalı olacağını qeyd etmiş və Estoniyanın Azərbaycana marağının təzahürü kimi qiymətləndirmişdir.

Nazir Elmar Məmmədyarov Azərbaycanın Estoniya ilə əməkdaşlığa böyük maraq göstərdiyini və ölkələrimizin bir çox sahələrdə geniş potensiala və böyük imkanlara malik olduqlarını vurğulamışdır. O, həmçinin Azərbaycanın yaxın zamanda Baltikyanı ölkələrdə öz səfirliyini açacağı barədə qonağa məlumat vermişdir.

Estoniyanın xarici işlər naziri xanım Kristina Oculand öz ölkəsi ilə Azərbaycan arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə də inkişafının, həmçinin respublikalarımızın XİN-ləri arasındakı sıx əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulamışdır. O, əlaqələrin bu şəkildə inkişafının ölkələrimiz arasında əməkdaşlığın perspektivlərinə inam yaratdığını qeyd etmişdir.

Daha sonra natiq Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına son səfərinin əhəmiyyətindən, respublikamızın regionda mühüm coğrafi-strateji rolundan, TRACECA proqramında fəal iştirakından, həmçinin ölkəmizin bir sıra böyük iqtisadi layihələrdə fəaliyyətindən, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasından, həmçinin GUÖAM təşkilatı çərçivəsində bu quruma daxil olan dövlətlərlə səmərəli əməkdaşlıqdan söhbət açmışdır.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin vəziyyəti və münaqişənin nizamlanması istiqamətində görülən işlər barədə qonağa ətraflı məlumat vermişdir.

Estoniyanın xarici işlər naziri xanım Kristina Oculand Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq birliyin səyləri nəticəsində sülh yolu ilə həll olunacağına ümid etdiyini bildirmişdir. Sonra o, öz ölkəsinin biznesmenlərinin Azərbaycana böyük maraq göstərdiklərini bildirmiş və bu il bir qrup iş adamının respublikamıza səfər etmək niyyətində olduğunu söyləmişdir.

Görüşdə, həmçinin, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Mixail Saakaşvilinin dəvəti ilə iyunun 14-də Tbilisiyə dövlət səfərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 14-də Gürcüstan Dövlət Dəftərxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü olmuşdur.

Dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı siyasi əlaqələrin yüksək səviyyəsindən razı olduqlarını vurğuladılar. Bildirildi ki, ölkələrimiz arasında münasibətlər bütün sahələrdə uğurla in-

kişaf edir, əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır.

Görüşdə bütün sahələrdə ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri, regionda və dünyada təhlükəsizlik problemləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüşdən sonra Azərbaycan və Gürcüstan prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Danışıqlarda ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyəsindən məmnunluq ifadə olundu, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edildiyi vurğulandı. İki ölkə arasında əmtəə dövriyyəsinin ildən-ilə artması Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin yüksək səviyyədə olduğunu göstərən müsbət amil kimi qeyd edildi. Eyni zamanda, əmtəə dövriyyəsinin daha da artırılması ilə bağlı məsələlər nəzərdən keçirildi.

Danışıqlar zamanı sərhəd-buraxılış məntəqələrinin işini təkmilləşdirmək məsələləri, habelə nəqliyyat daşımaları üçün tariflərlə bağlı problemlər müzakirə olundu. Bildirildi ki, sərhəd-buraxılış məntəqələrinin işinin təkmilləşdirilməsi sərhədyanı bölgələrin əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına xidmət edəcəkdir.

AZƏRBAYCAN-GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

Azərbaycan-Gürcüstan danışıqları başa çatdıqdan sonra ikitərəfli sənədlərin imzalanması mərasimi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Birgə rəsmi məlumat imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Gürcüstan hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında sazişi Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Abbas Abbasov, Gürcüstan tərəfindən yanacaq və energetika naziri Nika Gilauri imzaladılar. Azərbaycan Respublikasının hökuməti və Gürcüstan hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında sazişi Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfindən infrastruktur və inkişaf naziri Tamar Suluxiya imzaladılar. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişi Azərbaycan tərəfindən vergilər naziri Fazil Məmmədov, Gürcüstan tərəfindən maliyyə naziri Zurab Noqaideli imzaladılar. Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya xidmətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi haqqında protokolu Azərbaycan tərəfindən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov, Gürcüstan tərəfindən Mülki Aviasiya Administrasiyasının rəisi Georgi Mjavanadze imzaladılar. Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti və Gürcüstan Dövlət Teleradio Korporasiyası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Xudiyev, Gürcüstan tərəfindən Dövlət Teleradio Korporasiyası sədrinin müavini Kaxa Bekauri imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Sənədlərin imzalanma mərasimindən sonra Azərbaycan və Gürcüstan prezidentləri birgə mətbuat konfransı keçirmişlər.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI

- Cənab Prezident!

Mən Sizə, habelə qardaş Azərbaycan xalqına bir daha qardaşlıq salamı ilə müraciət etmək istəyirəm. Müsaidənizlə, bir neçə kəlmə gürcücə deyəcəyəm. Sonra, təbii ki, hamının başa düşdüyü dildə danışacağıq.

Mən bir daha nəzərə çarpdırmaq istəyirəm ki, iqtisadi münasibətlərimiz çox dinamik inkişaf edir. İlham Heydəroviç, Siz öz ölkənizin Prezidenti olduqdan və Gürcüstana yeni hakimiyyət gəldikdən sonra əmtəə dövriyyəsi, əslində, iki dəfə artmışdır. Bu, çox əlamətdar göstəricidir. Çox şadıq ki, Siz qaçaqmalçılıqla apardığımız mübarizəyə rəğbətlə yanaşırsınız. Ona görə də istərdim ki, qonşularımızın hamısı buna rəğbətlə yanaşsınlar. Zənnimcə, bu məsələdə Azərbaycandan nümunə götürmək olar.

Biz bir-birimizin tərəqqi, inkişaf etməsini istəyirik. Bu gün biz dəmir yolu tariflərinin aşağı salınması haqqında mühüm sazişə nail olduq. Bu, yüklərin buraya cəlb edilməsi üçün çox vacibdir. Biz vergi, gömrük tariflərimizi eyniləşdirməyə başlayırıq və maliyyə sistemlərimizi eyniləşdirmək yolu ilə gedirik. Hesab edirik ki, Azərbaycan bizim üçün, təbii olaraq, mühüm tərəfdaşdır, qardaş, dostdur, həmçinin gələcək inkişafımızın rəhni, əsasıdır.

Gürcüstanda Azərbaycana xüsusi, qardaşcasına münasibət bəslənilir. Bunun təməli keçmişdə qoyulmuşdur – biz tarixən həmişə, xüsusən də ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra dostluq etmişik. Mən Gürcüstanın Azərbaycan üçün əhəmiyyətini gözəl başa düşən, münasibətlərimizin əhəmiyyətini gözəl başa düşən və yeni Azərbaycan dövlətçiliyinin banisi, müasir Azərbaycan millətinin atası olan və təbii ki, öz nümunəsi ilə təkcə azərbaycanlıları deyil, Azərbaycanın qonşularını da ruhlandıran atanız Heydər Əliyevin rolunu ayrıca qeyd etmək istəyirəm. Gürcüstanda onu çox qiymətləndirirdilər və indiyədək də qiymətləndirirlər, regionumuzun möhkəmlənməsində onun rolunu gözəl başa düşürlər. Hesab edirəm ki, atanızın gördüyü işlər, son aylarda və illərdə hökumətlərimizin gördüyü işlər xalqlarımızın rifahına, gələcək inkişafına real təsir göstərməlidir.

Sizi bir daha salamlayırıq. Bu gün bizdə, Gürcüstanda böyük bayramdır və bu, təkcə Gürcüstan hökuməti və Prezidenti üçün deyil, həqiqətən, hər bir ailə üçün də bayramdır. Bunu xüsusi vurğulamaq lazımdır.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, qardaş Gürcüstana səfər etmək barədə dəvətinə görə Gürcüstan Prezidenti cənab Mixail Saakaşviliyə təşəkkür etmək istərdim.

Ölkələrimiz arasında münasibətlər həmişə çox uğurla inkişaf etmişdir, bizi həmişə dostluq, qardaşlıq, qarşılıqlı yardım, qarşılıqlı dəstək telləri bağlamışdır. Çox dəyərlidir ki, ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü illərində bu münasibətlər inkişaf etmiş və möhkəmlənmiş, indi strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Gürcüstanla Azərbaycan arasında çox yüksək səviyyədə qarşılıqlı anlaşma var, istər beynəlxalq aləmdə, istərsə də regional səpkidə və ölkələrimiz çərçivəsində fəaliyyətimizi əlaqələndiririk. Bizi qədim köklərə malik mədəni, tarixi əlaqələr sıx bağlayır və biz bu dostluqla, bu qardaşlıqla çox fəxr edirik.

İndi Gürcüstanda və Azərbaycanda yeni rəhbərlər var. Məlum olduğu kimi, ölkələr arasında münasibətlər onların rəhbərləri arasında münasibətlərdən də xeyli dərəcədə asılıdır. Mən Gürcüstana çox böyük nümayəndə heyəti ilə təsadüfən gəlməmişəm. İstəyirəm ki, dialoq təkcə prezidentlər səviyyəsində deyil, həm də icra hakimiyyətinin, qanunvericilik hakimiyyətinin bütün qolları səviyyəsində olması üçün, bu əlaqələrin konstruktiv xarakter daşıması üçün nümayəndə heyətimizin üzvləri gürcü həmkarları ilə fəal ünsiyyətdə olsunlar. Prezidentlər arasında qarşılıqlı anlaşmaya gəldikdə isə, zənnimcə, bu barədə danışmağa lüzum yoxdur. Məncə, ölkələrimizin bəxti gətirmişdir ki, onların prezidentləri dostdurlar. Azərbaycanda biz cənab Mixail Saakaşvilinin çox uğurlu səfərini xatırlayırıq və aparılmış danışıqlar, keçirilmiş görüşlər, imzalanmış sazişlər bizi daha da yaxınlaşdırdı. Bizim bundan sonra, beynəlxalq tədbirlər çərçivəsində də görüşlərimiz olmuşdur. Hər bir beynəlxalq forumda, harada olurduqsa-olaq, həmişə görüşür, ən geniş səpkili məsələləri müzakirə etmişik. Bu gün mən Gürcüstana gəlmişəm və buna çox şadam. Gürcüstan torpağında olmaq mənə çox xoşdur. Deməliyəm ki, buraya gəldiyimiz ilk dəqiqələrdən mən böyük diqqətlə əhatə olunmuşam, bizə böyük qonaqpərvərlik göstərilir.

Bizi çox mühüm iqtisadi və siyasi layihələr, nəqliyyat layihələri birləşdirir və əlbəttə ki, ölkələrimizin gələcəyi bütün planlarımızın uğurla həyata keçirilməsindən asılı olacaqdır. Ölkələrimizin gələcəyi isə, biz əminik, uğurlu olacaq, çiçəklənən gələcək olacaqdır. Azərbaycan xalqı, Gürcüstan xalqı ən yüksək səviyyədə yaşamağa layiqdirlər. Buna görə də indiki mürəkkəb tarixi zaman kəsiyində ölkələrə rəhbərlik etmək etibar olunmuş şəxslərin vəzifəsi ölkələrimizi irəli aparmaq üçün onlardan asılı olan bütün işləri görməkdən ibarətdir. Mən qəti əminəm ki, xalqlarımızın firavanlığı, əmin-amanlığı yalnız qarşılıqlı əlaqə, qarşılıqlı fəaliyyət və bir-birimizi dəstəkləməyimiz sayəsində mümkündür. Bütün bu amillər var və mən əminəm ki, bugünkü görüşlər, imzalanmış sazişlər, habelə gələcək əlaqələrimiz bu məqsədə xidmət edəcəkdir.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Prezident, Sizcə, sazişlər, digər sənədlər imzalandıqdan sonra iki ölkənin münasibətləri necə dəyişəcək və Bakı-Ərzurum layihəsinin nə kimi perspektivi var? Daha bir sual, amma təkcə Gürcüstan Prezidentinə. İcazənizlə, sualımı gürcücə verim. Bizdə olan məlumata görə, ölkəmizin Rusiyadakı səfiri Kote Kemulariya Gürcüstan Ali Məhkəməsinin sədri təyin olunmuşdur. Xahiş edirəm, bu barədə məlumat verəsiniz.

İLHAM ƏLİYEV: Dediyim kimi, ölkələrimiz arasında münasibətlər bütün istiqamətlərdə uğurla inkişaf edir. İmzalanmış sazişlər bizi daha da yaxınlaşdıracaqdır. Qarşılıqlı münasibətlərimizin səviyyəsi çox yüksəkdir. Əlbəttə ki, imzalanmış sazişlərin həyata keçirilməsi çərçivəsində atılacaq bütün addımlar daha böyük inteqrasiyamıza kömək edəcəkdir. Bakı-Tbilisi-Ərzurum təkcə region üçün deyil, həm də bütün dünya üçün, Avropa üçün mühüm energetika layihəsidir və o, uğurla həyata keçirilir və nəzərdə tutulan müddətdə istismara veriləcəkdir. Bu layihə də inteqrasiyamızın, belə demək mümkündürsə, iqtisadi gələcəyimizin qarşılıqlı asılılığının çox mühüm elementidir.

MİXAİL SAAKAŞVİLİ: O ki qaldı Kote Kemulariya barədə məlumata, bu məlumat düz deyildir. Biz onu bu vəzifəyə təyin etmək fikrindəyik. Bunu onun özünə hələ rəsmən bildirməmişik. Kote Kemulariya haqqında onu deyə bilərəm ki, o, Gürcüstan Ali Məhkəməsinin sədri vəzifəsinə ən real namizəddir. O, çox fəal, böyük potensiala malik, savadlı, yenilməz iradəli, qətiyyətli insandır. Gürcüstanın indiki vəziyyətində - ölkədə cinayətkarlığın, özbaşınalığın, qaçaqmalçılığın baş alıb getdiyi indiki vəziyyətdə o, bizə çox gərəkdir. Bir sözlə, o, bütün tələblərə cavab verən kadrdır. Məncə, biz seçimimizdə yanılmamışıq və öz qərarımızda israrlıyıq.

SUAL: Cənab Saakaşvili, Sizin Türkiyəyə səfəriniz zamanı Türkiyə ilə Gürcüstan arasında dəmir yolu məsələsində razılaşma əldə edilmişdir. Lakin onda qeyd olunmuşdu ki, donorlarla bağlı problem var. Bəs, bu layihənin gerçəkləşdirilməsi üçün indi donorlar məsələsi nə yerdədir? Eyni sualı Azərbaycan Prezidentinə də verirəm. Bu dəmir yolunun çəkilməsinin Azərbaycan üçün də strateji əhəmiyyəti var, çünki bu layihə həyata keçirilərsə, Türkiyənin və Azərbaycanın Ermənistandan keçən dəmir yoluna ehtiyacı olmayacaqdır. Azərbaycan bu yolun tikintisinə kömək edəcəkmi və necə kömək edəcək?

MİXAİL SAAKAŞVİLİ: Əvvəla, biz demək istəyirik ki, nəqliyyat və infrastruktur, həqiqətən, çox dinamik inkişaf edir. Hazırda Türkiyə İstanbuldan Batumiyə müasir avtomobil yolu çəkir. Gələn payızdan etibarən İstanbuldan Batumiyə, indiki iki gün əvəzinə, əslində, 8-9 saata gəlmək mümkün olacaqdır. Bu yol məsafəni azaldır. Təbii ki, biz müxtəlif özəl firmalarla danışıqlar, o cümlədən Gürcüstanın daxilində böyük yol tikintisinə dair danışıqlar aparırıq. Təbii ki, bu yol Azərbaycana da sərfəli olardı. O ki qaldı dəmir yoluna, bunun üçün əlavə olaraq 700-800 milyon dollar gərəkdir. Türkiyə bu pulları axtarır, biz də pul axtarırıq. Bu, Türkiyə hökuməti üçün önəmli məsələdir. Çünki bu yol Türkiyənin dəmir yolunu Gürcüstan vasitəsilə, Azərbaycan vasitəsilə, Orta Asiya vasitəsilə Çinlə birləşdirərdi, təbii olaraq, əmtəə dövriyyəsi kəskin surətdə artardı.

Biz belə bir razılığa gəldik ki, həm Azərbaycanın, həm də Gürcüstanın dəmir yollarında

tariflər aşağı salınacaqdır. İndi böyük rəqabət var, yüklər uğrunda mübarizə aparmaq lazımdır. Biz bu yükləri müəyyən səylərlə əldə edə bilərik. Üstəlik, bu, ən kəsə yoldur – buradan Batumi vasitəsilə, Türkiyə vasitəsilə Rumıniyaya keçid var. Hazırda Rumıniya hökuməti Batumi dəmir yol stansiyasının yenidən qurulmasını maliyyələşdirir. Bu işlər əvvəlki rejim tərəfindən 6-7 il ərzində dayandırılmışdı. Yəni, əslində, Batumi stansiyasına gələn Rumıniya bərəsi dəmir yol bərəsi olacaq və qatarlar elə oradaca yeni yola keçiriləcək və Azərbaycan dəmir yolu ilə birləşə biləcəkdir. Bu, əslində, Orta Asiyadan Avropaya ən qısa yoldur. Bu, yolun biridir. İkinci yol, təbii ki, Türkiyə yoludur. Odur ki, həqiqətən, regionda nəqliyyat kommunikasiyaları baxımından qarşıdakı bir-iki ildə inqilab baş verəcəkdir. Gürcüstan və Azərbaycan bu müddət ərzində öz yüklərini və əmtəə dövriyyələrini itirməmək uğrunda mübarizə aparmalıdırlar. Bizim əmtəə dövriyyəmiz iki dəfə artmışdır. Lakin, eyni zamanda, nəzərə almaq lazımdır ki, biz bir sıra yükləri itirmişik. Təbii ki, böyük rəqabət var, bir sıra başqa ölkələr var, bu işlə özəl şirkətlər də məşğul olurlar, amma coğrafiyadan qaçmaq mümkün deyildir. Əvvəla, bu, ən qısa yoldur. İkincisi, zənnimcə, bu, ən sivilizasiyalı yol olacaqdır. Günki biz sabitliyi - hüquqi sabitliyi, iqtisadi sabitliyi təmin edirik və ölkələrimiz nə qədər dinamik inkişaf edərlərsə, bu, hamı üçün daha aşkar olar. Odur ki, bu mənada bizim çox nikbin əhval-ruhiyyəmiz və planlarımız var.

İLHAM ƏLİYEV: Demək istəyirəm ki, Türkiyə ilə Gürcüstan arasında dəmir yolunun tikintisinin layihəsini Azərbaycan tamamilə dəstəkləyir. Bu, çox mühüm regional layihədir. Bildiyiniz kimi, Gürcüstan, Azərbaycan və Türkiyə bütün regional proseslərin fəal iştirakçılarıdır. Hazırda ölkələrimizin ərazilərində dünyada bu gün üçün ən iri energetika layihəsi həyata keçirilir. İndi ölkələrimiz arasında regional inteqrasiyanın və birgə fəaliyyətin səviyyəsi çox yüksəkdir. Biz əminik ki, Türkiyə ilə Gürcüstan arasında dəmir yolu tikintisinin layihəsi bu regional əməkdaşlığın daha bir elementi olacaqdır. Biz, öz tərəfimizdən, bu layihədə də iştirak etməyə hazırıq. Hesab edirəm ki, layihəni həyata keçirmək üçün beynəlxalq konsorsium yaradıla bilər. Bu qurum həm müxtəlif dövlət, həm də qeyri-hökumət strukturlarından ibarət ola bilər. Ölkələrimiz üçün bu mühüm layihənin həyata keçirilməsində Azərbaycan da fəal iştirak edə bilər.

SUAL: Mənim sualım hər iki prezidentədir. Mixail Saakaşvili çox tez-tez təkrar edir ki, Siz, cənab İlham Əliyev onun qardaşısınız. Cənab Gürcüstan Prezidenti, Siz azərbaycanca bu ifadəni bilirsinizmi: "Xoş gəlmisən, qardaşım!"

MİXAİL SAAKAŞVİLİ: Mən çox dil bilirəm. Sabah biz Marneuliyə gedirik, düşünürəm ki, biz orada birlikdə azərbaycanca danışacağıq. İstərdim ki, azərbaycanca sərbəst danışım. Mən bu dili çox sevirəm. Təbii ki, biz orada yaşayan azərbaycanlıları çox sevirik.

İLHAM ƏLİYEV: Sağ olun. Əlavə etmək istəyirəm ki, mən bu sözlərlə tam razıyam. Çıxışımda dedim ki, Gürcüstan və Azərbaycan rəhbərlərini şəxsi münasibət telləri bağlayır. Bir-birimizə qardaş deməyimiz, sadəcə, gəlişigözəl söz deyildir, bu, əslində, belədir. Bizim aramızda lap əvvəldən həm sıx dostluq, həm də sıx qardaşlıq münasibətləri yaranmışdır. İstər təhsil, istər gələcək fəaliyyət, istər deputatlıq fəaliyyəti, istər yaş baxımından, əlbəttə ki, müasir dünyaya, ölkələrimizin müasir dünyada rolu və yerinə baxış nöqteyi-nəzərindən oxşar cəhətlərimiz çoxdur. Eləcə də vətəndaşlarımızın həyatını

necə daha yaxşı etmək baxımından. Əgər siz cənab Saakaşvili ilə bizim bu rolda hələlik qısa fəaliyyətimizə nəzər salsanız, görərsiniz ki, bütün qərarlarımız, bütün fərmanlarımız, bütün işlərimiz vətəndaşlarımızın həyatı üçün daha əlverişli şərait yaradılmasına, ölkələrimizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə, Gürcüstanın və Azərbaycanın dünyada baş verən proseslərdə daha fəal iştirak etməsinə, Avropaya inteqrasiyaya, çox mühüm iqtisadi layihələrin gerçəkləşdirilməsinə yönəldilmişdir. Zənnimcə, ölkələrimizin ümumi gələcəyi naminə xalqlarımıza məhz layiqincə və şərəfli xidmət etmək arzusu bizi daha çox birləşdirir.

MİXAİL SAAKAŞVİLİ: Mən, sadəcə, qısa demək istəyirəm ki, İlham Əliyev bizim üçün çox çətin olan vəziyyətlərdə həmişə köməyə gəlir. Bəlkə də bunların hamısı mətbuat üçün deyildir, amma çox vacibdir: bizdə hər hansı problem yarandıqda, həmişə ilk olaraq ağlımıza böyük dövlətlər deyil, birinci növbədə, qardaşımız İlham, Azərbaycan və Bakı gəlir, bu, çox vacibdir, bu, bizdə formalaşmış instinqdir. Düşünürəm ki, bu, qarşılıqlı surətdədir. Əslində, bütün bunlar son illər real surətdə təşəkkül tapmış, lakin möhkəmlənmiş olan əməkdaşlığımız üçün tamamilə yeni genetik koddur. Biz tab gətirdik. Sovet respublikalarında hamı qardaş idi, amma məsələ əməli işə gəlib çatanda, necə deyərlər, qarşıya çoxlu ziddiyyətlər çıxırdı. Azərbaycan-Gürcüstan dostluğu yalnız müstəqillikdən sonra möhkəmlənmişdir. Bu, çox vacibdir. Müstəqillikdən sonra yaxınlaşmağımız daha sürətli olmuşdur. Deməli, bu, artıq əbədidir.

SUAL: Cənab prezident, Siz Cənubi Qafqazda separatizmlə mübarizə sahəsində Gürcüstanla Azərbaycan arasında sıx əməkdaşlığın perspektivini necə görürsünüz?

MİXAİL SAAKAŞVİLİ: Mənim üçün çox mühümdür ki, bu gün İlham Əliyev Gürcüstanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəmanların xatirəsini yad etməyə gedəcəkdir. Zənn edirəm, başlıca məsələ bundadır ki, Gürcüstan da, Azərbaycan da sülhsevər dövlətdir. Biz məsələni sülh yolu həll etmək istəyirik. Görün, tutaq ki, Cənubi Osetiyada, yəni mikroskopik ərazidə, əslində, Tbilisinin mərkəzindən də kiçik olan ərazidə nə baş verir. Nədənsə, bu ad bütün dünyaya məlumdur. Lakin biz başlıca məqsədə nail olduq. Biz qaçaqmalçılığın və sərhəddəki kriminal fəallığın qarşısını ala bildik. Bu, birincisi. İkincisi, hamının bildiyi kimi, biz milliyyətindən asılı olmayaraq, öz əhalimizi müdafiə edirik. Onlar davakar dildə danışırlar, biz isə deyirik ki, sizin bu davakar bəlağətinizə əhaliyə pensiya ayırmaqla, gübrə verməklə cavab veririk, biz Gürcüstan hakimiyyətinin ən yüksək dairələrinə sizin üçün bütün yolları açırıq, biz uşaqların qayğısına qalacağıq, qocaların qayğısını çəkəcəyik, bəlkə də 55 nəfərin nifrətinə minlərlə digər həmvətənlərimizə qarşı məhəbbətlə cavab verəcəyimizi göstərmək üçün əlimizdən gələni edəcəyik. Bu, bizim siyasətimizdir. Mən zənn edirəm ki, bölünməyin, parçalanmağın perspektivi yoxdur, yalnız bir perspektiv var – inteqrasiya, əməkdaşlıq, insanların bir-birinə yaxınlaşması. Düşünürəm ki, əgər kimsə bu proseslə ayaqlaşa bilmirsə, o, indi dünyada gedən irəliləyişdən, sadəcə, geri qalacaqdır. Zənn edirəm ki, ölkələrin hamısı bunu başa düşür və bütün məsələləri sülh yolu ilə həll etmək mümkün olacaqdır.

İLHAM ƏLİYEV: Gürcüstan və Azərbaycan təcavüzkar separatizmin əməllərindən zərər çəkmişdir. Ölkələrimizin ərazi bütövlüyü pozulmuşdur. Təbiidir ki, biz bununla barışa bilmərik. İndi, XXI əsrdə yaşadığımız, Avropa və dünya qurumlarına inteqrasiya olunduğumuz bir vaxtda, əlbəttə, dünya təcavüzkar separatizm ocağının hələ də möv-

cud olması ilə barışa bilməz. Separatizmə münasibətdə ikili standartlar olmamalıdır. Separatizm və hər hansı bir dövlətin ərazi bütövlüyünə qəsd beynəlxalq təşkilatların və iri dövlətlərin çox fəal müdaxiləsinin predmeti olmalıdır. Azərbaycan on ildən çoxdur ki, erməni təcavüzündən və ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasından əziyyət çəkir. İndi biz bu təcavüzə son qoymağa çalışırıq. Biz sülh danışıqları aparırıq, lakin hamı bilməlidir ki, Azərbaycan xalqının səbri tükənməz deyildir. Azərbaycan xalqı ərazisinin bir hissəsinin işğal altında olması ilə heç vaxt razılaşmayacaqdır. Şübhəsiz, biz inanırıq ki, Gürcüstanın da ərazi bütövlüyü, Azərbaycanın da ərazi bütövlüyü bərpa olunacaqdır. Çünki, bu, beynəlxalq hüququn əsas amilidir. İstərdim ki, bu, sülh yolu ilə, özü də mümkün qədər tez baş versin.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANIN SABİQ PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstana dövlət səfərinin birinci günü, iyunun 14-də Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze ilə görüşmüşdür.

Dövlətimizin başçısı İlham Əliyev qonşu ölkənin sabiq rəhbəri, Azərbaycan xalqının dostu cənab Şevardnadzeni səmimi salamlayaraq, onunla hər bir görüşün çox qiymətli və yaddaqalan olduğunu bildirdi.

Azərbaycan Prezidenti müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsi və möhkəmləndirilməsində Eduard Şevardnadzenin xüsusi xidmətlər göstərdiyini vurğuladı.

Cənab Eduard Şevardnadze onu ziyarət etdiyi üçün Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirərək, Azərbaycan xalqına daim hörmət bəslədiyini vurğuladı və dedi ki, tarixi köklərlə bir-birinə bağlı olan Gürcüstan və Azərbaycanın dostluğu daimidir və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Eduard Şevardnadze əziz dostu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərindən, respublikamız üçün gördüyü mühüm işlərdən danışaraq, onun əziz xatirəsinin daim yad olunacağını söylədi və atasının başladığı müqəddəs işləri Prezident İlham Əliyevin uğurla və ləyaqətlə davam etdirməsindən məmnunluğunu bildirdi, bu şərəfli və məsuliyyətli vəzifəsində ona uğurlar arzuladı.

PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

İyunun 14-də axşam Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və xanımının adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımının şərəfinə rəsmi qəbul təşkil edilmişdir. Dövlət başçıları qəbulda nitq söylədilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Mən qəbulun rəsmi hissəsini çox qısaca açmaq və dərhal da bağlamaq istəyirəm. Hörmətli İlhamı qarşılamaqla yanaşı, mən olduqca əziz qonaqlarımızı - Prezidenti, onun xanımını, bütün nümayəndə heyətini, sadəcə, salamlamaq istəyirəm.

Bizim hər hansı diplomatik etiketlərə riayət etməyimizə ehtiyac yoxdur, düşünürəm ki, heç bir sədd yoxdur, heç bir şərtilik olmamalıdır. Biz həmişə bir-birimizə düşündüklərimizi deyirik və bu mənada gürcülərlə azərbaycanlıların münasibətləri çox nadir münasibətlərdir. Mən bu gün dedim ki, sovet dövründə Sovet İttifaqında yaşamış bütün millətlər qardaş adlanırdılar. İttifaq dağılan kimi məlum oldu ki, onların əksəriyyəti bir-birinə, yumşaq desək, çox da səmimi hisslər bəsləmir. Lakin Gürcüstanla Azərbaycan arasındakı münasibətlər, əksinə, daha da möhkəmləndi, yaxın və daha sərbəst oldu. Deməli, bu, bizim qanımızdadır, deməli, buna heç nə heç vaxt mane ola bilməz. Hesab edirəm ki, bizim iki xalq arasında çox möhkəm tarixi və genetik əlaqələr vardır. Mən hətta Gürcüstanda etnik gərginliyin hər vasitə ilə qızışdırılmasına cəhd göstərilən vaxtları xatırlayıram. Həmvətənlərimizdən buna əsla uymayan yeganə qrup azərbaycanlılar olmuşlar. Biz bunu da xüsusi qiymətləndirməli və qeyd etməliyik. Bu gün biz yeni lideri, postsovet məkanı üçün çox qeyri-adi olan lideri, öz ölkəsi və bütün region üçün rəhbərliyin yeni üslubunu həyata keçirən lideri, həmişə bel bağlamaq mümkün olan dostu qarşılayırıq. Bu, sadəcə, söz deyil, bu, həqiqətən belədir. Bizim bir-birimizdən çəkindiyimiz naqisliyimiz yoxdur, biz əsl dostlar, qardaşlar kimi bir-birimizə həmişə güvənə bilərik. Mən hesab etmirəm ki, siyasətdə dostluq ola bilməz, bizim dostluğumuz, münasibətlərimiz bunu sübut etmişdir. Bu bir yana, demək istəyirəm ki, siyasət əsl dostluq üçün daha böyük imkanlar yaradır. İnsanı uşaq bağçasından tanımaq olar, amma həlledici məqamda o, sənə xəyanət edər və səni taleyin ümidinə buraxa bilər. Siyasətdə isə əsl qardaş dostluğunun sınaqdan çıxarıldığı həlledici məqamlar olur. Siyasət mənə Gürcüstanın daxilində də olduqca çox dostlar vermişdir. Xoşbəxtəm ki, mənim beynəlxalq münasibətlərdə də həqiqətən əsl dostum, qardaşım var. O, İlham Heydəroviçdir, onun ətrafındakılar, onun ailəsidir, əziz dostlar, sizsiniz.

Mən bu badəni əziz qonaqlarımızın şərəfinə, Azərbaycan Prezidentinin şərəfinə, onun çox gözəl xanımının şərəfinə, sizin hamınızın, buraya gələnlərin hamısının şərəfinə, dostluğumuzun şərəfinə qaldırmaq istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Əziz Mixail, əziz Sandra!

Əziz dostlar!

Biz artıq səhərdən Tbilisidəyik və əlbəttə, bir çox mühüm görüşlər keçirmişik, müzakirə edilməli olan bir çox məsələləri müzakirə etmişik. Zənnimcə, ən başlıcası budur ki, biz xalqlarımızın nə qədər yaxın olduqlarını, ölkələrimizin nə qədər sıx bağlı olduğunu, inteqrasiya etdiyini və prezidentlər arasında qarşılıqlı anlaşmanın, dostluğun, əməkdaşlığın səviyyəsinin nə qədər yüksək olduğunu bir daha yəqin etdik. Gürcüstan Prezidenti ilə tanışlığımızın müddəti çox da uzun deyildir. Lakin bu tanışlığın elə ilk günündən bizim aramızda çox səmimi münasibətlər, dostluq, qardaşlıq münasibətləri yarandı. Bu hisslər, bu münasibətlər möhkəmlənir. Harada görüşməyimizdən, hansı tədbirlərdə iştirakımızdan asılı olmayaraq, biz görüşməyə, fikir mübadiləsi aparmağa, mühüm məsələləri müzakirə etməyə həmişə vaxt tapırıq. Elə bunun özü də ölkələrimizin bir-birinə necə yaxın olduğunu bir daha göstərir. Qardaş gürcü torpağında olduğum elə ilk anlar-

dan mənə böyük hörmət, diqqət, böyük qonaqpərvərlik göstərildiyini hiss etdim. Mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə, ilk növbədə, Prezidentə, habelə bütün gürcü qardaşlarımıza minnətdaram. Mən bu gün qeyd etdim ki, son vaxtlar həyata keçirdiyim bütün səfərlər arasında ən böyük nümayəndə heyəti Gürcüstana gəlmişdir. Bu da təbiidir, çünki ölkələrimiz bütün səviyyələrdə əməkdaşlıq etməlidir. İndiki halda prezidentlər ən yaxşı nümunə göstərirlər. Bütün nazirlərimiz, deputatlarımız da bu nümunəyə qoşulmalıdırlar. Daimi əlaqə olmalıdır, daimi ünsiyyət olmalıdır, bir çox cəhətdən oxşar olan sosial-iqtisadi problemlərimizin həlli zamanı beynəlxalq aləmdə səylər əlaqələndirilməlidir. Ölkələrimiz çətin inkişaf dövrü keçirir və əcdadlarımızın uğrunda qətiyyətlə və fədakarlıqla mübarizə apardıqları və itirilmiş olan müstəqillik bərpa edilmişdir, indi möhkəmləndirilir. Bizim vəzifəmiz, yeni nəslin vəzifəsi müstəqilliyi möhkəmlətmək, inkişaf etdirməkdir, onu təkmilləşdirmək və dönməz etməkdir. Odur ki, Gürcüstanın yeni rəhbərliyinin bu istiqamətdə qazandığı uğurlar bizim hamımızı, Azərbaycandakı dostlarımızı çox sevindirir. Biz regionun problemlərinə eyni mövqedən yanaşırıq. Bizi bu da birləşdirir. Bizim qayğılarımız da birdir, problemlərimiz də birdir. Ölkələrimiz təcavüzkar separatizmdən eyni dərəcədə əziyyət çəkmişlər. Əminəm ki, ölkələrimiz bu çətin vəziyyətdən çıxış yolu tapacaq, Gürcüstanın ərazi bütövlüyü, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Mən Mixail Saakaşvilinin mart ayında Azərbaycana səfərini böyük səmimiyyətlə xatırlayıram. Onda azərbaycanlılar, Azərbaycan xalqı yeni gürcü lideri ilə tanış oldular. Onadək biz sənə ancaq televizorda baxırdıq, indi isə hamı görüb sevdi. İndi məni dinləyən hər bir kəs mənimlə razılaşar. Bizə çox xoşdur ki, indi ölkələrimiz və rəhbərlərimiz arasında yüksək səviyyədə qarşılıqlı anlaşma və qarşılıqlı dəstək mövcuddur. Bu gün də fikir mübadiləsi apararkən, biz əlimizdən gələn hər şeydə bir-birimizə kömək göstərmək və yardım üçün, dəstək üçün, ilk növbədə, bir-birimizə müraciət etmək arzumuzu bir daha ifadə etdik. Zənnimcə, bunu müvafiq nazirlərimiz də nəzərə almalıdırlar. Mən bu badəni Gürcüstanın tərəqqisi şərəfinə, qardaş gürcü xalqının şərəfinə qaldırmaq, Gürcüstanın bütün əhalisinə xoşbəxtlik, əmin-amanlıq arzulamaq istəyirəm.

Gürcüstan Prezidentinin, əziz Mixailin şərəfinə, hörmətli Sandranın şərəfinə, əziz dostlar, sizin şərəfinizə! Sağ olun!

TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ GÖRÜŞ

İyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Tbilisidəki Cümə məscidinə gəlmişlər.

Məscidin axundu, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə səlahiyyətli nümayəndəsi məşədi Əli Əliyev və ibadətgaha toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Görüşü axund məşədi Əli Əliyev açdı.

AXUND MƏŞƏDİ ƏLİ ƏLİYEVİN ÇIXIŞI

- Əziz və hörmətli cənab Prezident İlham Əliyev!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün mən Sizi Tbilisidə yaşayan müsəlmanlar adından salamlayır, Sizə "Xoş gəlmisiniz!" deyirəm. Tbilisi Cümə məscidi bu gün özünün tarixi bir gününü yaşayır. Çünki Azərbaycan Respublikasının hörmətli Prezidenti bu gün buranı ziyarət edir.

Hörmətli Prezident, mən istərdim bir neçə məlumatları Sizin diqqətinizə çatdıram. Bu, çox tarixi bir məsciddir. Burada bizim böyük bir mədrəsəmiz, mədəniyyət mərkəzimiz var, tələbələrimiz təhsil alırlar. Bura Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadənin birbaşa nəzarəti altındadır.

Sizin Gürcüstana səfəriniz tarixi bir səfərdir, Gürcüstan və Azərbaycanın dostluq əlaqələri üçün mühüm bir rol oynayır. Gürcüstan və Azərbaycan arasında dostluq əlaqələri tarixən olub və Sizin bu səfəriniz bunu daha da möhkəmləndirir, gələcəkdə daha da genişlənməsi üçün imkanlar yaradır. Biz Tbilisi Cümə məscidi, ağsaqqallar adından Sizə öz minnətdarlığımızı bildiririk ki, bu məscidi ziyarət edirsiniz. Sizin bu gəlişinizi Gürcüstanda yaşayan azərbaycanlılar böyük məmnuniyyətlə, böyük sevinc hissi ilə qarşılayırlar. Bizim Sizin səfər proqramınız barədə məlumatımız var. Bundan sonra Borçalıya səfəriniz var. İnşallah, Borçalı camaatı Sizi gözəl və açıq ürəklə qarşılayacaq, neçə gündür çox böyük sevinclə bunun üçün hazırlıq gedir.

Sizə yenə də öz minnətdarlığımızı bildiririk və icazə verin, Tbilisi Cümə məscidi adından Tbilisi şəhərinin qədim guşəsinin təsvir olunduğu rəsm əsərini Sizə təqdim edim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Mən Gürcüstana dövlət səfəri edirəm, səfərim çox uğurlu keçir. Azərbaycanın Prezidenti kimi bu, mənim Gürcüstana ilk səfərimdir. Dünən keçirdiyim bütün görüşlərdə, danışıqlarda bir daha əmin oldum ki, Gürcüstan-Azərbaycan dostluğu, birliyi əbədidir, sarsılmazdır. Gürcü, Azərbaycan xalqları həmişə dostluq şəraitində yaşamışlar, həmişə biri-birlərinə kömək etmişlər. Hesab edirəm ki, dünən keçirdiyim görüşlər bu istiqamətdə atılan böyük bir addımdır.

Bilirsiniz ki, bir müddət bundan əvvəl Gürcüstan Prezidenti Azərbaycanda rəsmi səfərdə olmuşdur və bu səfər də çox uğurlu keçmişdir. Müxtəlif sənədlər imzalanmışdır. Bu dəfə də mən böyük heyətlə Gürcüstana gəldim. Burada bizim nümayəndə heyətinin tərkibində nazirlər, komitə rəhbərləri, Milli Məclisin üzvləri təmsil olunurlar. Bu da çox əlamətdar bir haldır. Mən istəyirəm ki, bütün səviyyələrdə bizim insanlarımız, vəzifəli şəxslər biri-birləri ilə ünsiyyətdə olsunlar.

Əlbəttə ki, burada yaşayan azərbaycanlıların taleyi bizi çox maraqlandırır, biz bu məsələyə biganə qala bilmərik. Biz çox istəyirik ki, burada yaşayan azərbaycanlılar Gürcüstan cəmiyyətində daha da yüksək yerləri tuta bilsinlər.

Mən bu gün Borçalıya gedirəm və Gürcüstan Prezidenti ilə birlikdə orada olacaq, vəziy-

yətlə tanış olacağam. Eyni zamanda, orada yaşayan soydaşlarımızla da görüşlər olacaqdır. Bizim xoşbəxt gələcəyimiz, Gürcüstanın, Azərbaycanın gələcəyi bizim birliyimizdədir. Bilirsiniz ki, bizi birləşdirən böyük, nəhəng layihələr vardır. Böyük işlər var, bu işlər də uğurla davam edir. Azərbaycanın da, Gürcüstanın da öz dövlət müstəqilliyini daha da möhkəmləndirməsi istiqamətində bizim birliyimiz çox böyük amildir, böyük şərtdir. Ona görə də artıq deyə bilərəm ki, mənim səfərim çox uğurlu səfər olubdur. Bütün müzakirə etdiyimiz məsələlərdə bizdə fikir ayrılığı yoxdur, bir mövqedəyik. Əlbəttə ki, burada yaşayan azərbaycanlıların gələcəyi, onların taleyi müzakirə mövzusu olmuşdur. Təhsillə bağlı, mədəniyyətlə bağlı, ümumiyyətlə, azərbaycanlıların ictimai həyatda iştirakı ilə bağlı məsələlər müzakirə edilmişdir. Ümid edirəm ki, bu səfərdən sonra bizim ənənəvi dostluq, qardaşlıq münasibətlərimiz daha da inkişaf edəcəkdir.

Sağ olun, çox təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞLƏR

İyunun 15-də Tbilisinin mərkəzində Heydər Əliyev adına parkın açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, dövlətimizin başçısını səfərdə müşayiət edən Azərbaycan nümayəndə heyətinin üzvləri mərasimdə iştirak edirdilər.

Mərasimi Gürcüstan paytaxtının meri Zurab Çiaberişvili açdı.

Gürcüstan Prezidenti Mixail Saakaşvili və Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Bu gün biz görkəmli siyasi xadim, müstəqil Azərbaycan dövlətinin banisi, Gürcüstanı özünə mühüm müttəfiq, mühüm dost bilən Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq parkın açılışında iştirak edirik. Heydər Əliyev ölkələrimizin münasibətlərinin möhkəmlənməsi üçün olduqca çox işlər görmüşdür. Onun tərəfindən əsası qoyulmuş bu ənənəni, yaranmış ənənəni bundan sonra öz övladlarımıza verməyimiz, onlara Azərbaycanın bizdən ötrü mühüm müttəfiq olduğunu təlqin etməyimiz bizim üçün çox vacibdir. Azərbaycanın uğuru Gürcüstanın uğurudur.

Heydər Əliyeviçin dediyi kimi, Gürcüstanın uğuru Azərbaycanın uğurudur. O, münasibətlərimizin əhəmiyyətini görür, dəqiq başa düşürdü.

Bu parkın olduğu yer Tbilisinin gözəl tarixi guşəsidir, burada bir çox mədəniyyətlər qaynayıb-qarışır, zənnimcə, bura çox gözəl bir guşə, çox romantik bir yer olacaq və Azərbaycan xalqının görkəmli oğlu, Gürcüstanın böyük dostu Heydər Əliyevin adını daşıyacaqdır.

Mən bütün qonaqlarımızı bir daha salamlamaq istəyirəm. Hesab edirəm ki, bura Gürcüstan paytaxtında ən yaxşı yer olacaq, buraya təkcə Tbilisi sakinləri deyil, onun qonaqları da məmnuniyyətlə gələcəklər və onların hamısı Heydər Əliyevi həmişə xatırlayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Əziz dostlar!

Heydər Əliyev adına parkın yaradılması haqqında qərara görə, ilk növbədə, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə bütün Azərbaycan xalqı adından və şəxsən öz adımdan təşəkkür etmək istəyirəm. Bu qərar Azərbaycanda böyük minnətdarlıqla qarşılanmışdır. Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə Gürcüstanda ölkə rəhbərliyi tərəfindən göstərilən ehtiram bizə çox əziz və qiymətlidir. Bu, ölkələrimiz arasında və xalqlarımız arasında olan sarsılmaz əlaqələrə daha bir sübutdur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, Azərbaycanın iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad dövlət kimi təşəkkül tapmasında müstəsna rol oynamışdır. Prezident kimi Azərbaycana başçılıq etdiyi on il ərzində o, beynəlxalq aləmdə də, iqtisadi, sosial məsələlərin həllində də, habelə ən yaxın qonşumuz, strateji tərəfdaşımızla – Gürcüstanla münasibətlərdə çox böyük uğurlar qazanmışdır.

Onun millətlərarası münasibətlərin inkişafı işindəki rolunu Azərbaycanda və Gürcüstanda çox yüksək qiymətləndirirlər. Buna görə də biz Heydər Əliyevin adını daşıyacaq belə gözəl parkın yaradılması haqqında Gürcüstan rəhbərliyinin qərarını bir daha böyük minnətdarlıqla qarşılayırıq.

Bizim münasibətlərimiz bünövrəsi Prezidentimiz Heydər Əliyev tərəfindən qoyulan təməl üzərində inkişaf edir və özü də uğurla inkişaf edir. Mənim Gürcüstana səfərim də buna daha bir sübutdur. Prezident Mixail Saakaşvilinin Azərbaycana çox uğurlu səfərini ölkəmizdə xatırlayırlar. İndi mən Gürcüstandayam. Biz bütün tədbirlərdə, imkan olan hər bir yerdə çox fəal ünsiyyətdə oluruq. Bizim dostluğumuz, şəxsi münasibətlərimiz bunun böyük rəhnidir ki, Gürcüstan və Azərbaycan əvvəlki kimi, yenə də həmişə bir-birinin yanında, həmişə birlikdə olacaq, həmişə bir-birinə kömək göstərəcək və ümumi məqsədə - mühüm məsələləri birlikdə həll edəcək azad, demokratik, iqtisadi cəhətdən güclü tərəfdaş dövlətlər yaratmaq məqsədinə doğru birlikdə irəliləyəcəklər.

Heydər Əliyevin xatirəsinə göstərilən belə səmimi ehtirama görə bir daha Prezidentə təşəkkür edirəm, bütün gürcü xalqına təşəkkür edirəm. Bu, həm Azərbaycan Prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi mənim üçün çox qiymətlidir.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ MARNEULİ RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞMÜŞLƏR

İyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Marneuli rayonuna gələrək, burada yaşayan azərbaycanlılarla görüşmüşlər.

Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş rayon mərkəzinin küçələrinə çıxan sakinlər dövlət başçılarını səmimiyyətlə və hərarətlə qarşıladılar.

Sonra Nəriman Nərimanov adına Marneuli şəhər mədəniyyət evinin qarşısındakı meydanda Gürcüstanın bu bölgəsində yaşayan azərbaycanlıların nümayəndələri ilə görüş oldu.

Kvemo Kartli – Borçalı bölgəsinin qubernatoru Soso Mazmişvili görüşü açaraq dedi ki, Azərbaycan və gürcü xalqları arasında dostluğun kökləri əsrlərin dərinliklərinə gedir. Prezidentlər İlham Əliyev ilə Mixail Saakaşvili arasında yaranmış səmimi qardaşlıq əlaqələri də Azərbaycan-Gürcüstan münasibətlərinin sarsılmazlığını təsdiq edir.

Sonra Marneuli rayonunun sakini Fazil Həsənova söz verildi.

MARNEULİ RAYONUNUN SAKİNİ FAZİL HƏSƏNOVUN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Bugünkü gün nəinki müasirlərimizin yaddaşında qalacaq, o həm də qardaş xalqlarımızın tarixinə iki dövlətin qarşılıqlı münasibətlərində yeni mərhələnin başlanğıcı kimi daxil olacaqdır. Bu, bizim üçün böyük bayramdır. Çünki xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlı olan Azərbaycanın dövlət bayramına – Qurtuluş gününə təsadüf etmişdir.

Hörmətli Prezident cənab İlham Əliyev!

İzn verin, Sizi və Azərbaycan xalqını bu gözəl bayram münasibətilə təbrik edim və bütün Azərbaycan xalqına sülh və tərəqqi arzulayım. Gürcüstan və Azərbaycan suveren, müstəqil dövlətlər olduqdan sonra ölkələrimiz arasındakı qarşılıqlı münasibətlər daha da möhkəmlənmiş, daha da konstruktiv olmuşdur. Bu işdə siyasətini Gürcüstanda yaşayan azərbaycanlıların əzəldən dəstəklədikləri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. İndi İlham Əliyevin yeritdiyi siyasət isə bünövrəsi Heydər Əlirza oğlu tərəfindən qoyulmuş ənənələrin davamıdır. Qısa müddətdə iki prezident arasında yaranmış dostluq münasibətləri belə bir inam hissi doğurur ki, bizim səmərəli münasibətlərimiz bundan sonra da intensiv inkişaf edəcəkdir.

Hörmətli batono Mixail!

Kvemo-Kartlinin əhalisi Sizin siyasətinizi dəstəkləyir və seçkilər də bunu bir daha təsdiq etdi. Biz bundan sonra da Sizin həyata keçirdiyiniz islahatlarda fəal iştirak etməyə və onları hər cür dəstəkləməyə hazırıq. Bunun üçün bizim hər cür imkanlarımız, o cümlədən kadr ehtiyatımız vardır. Gürcüstan və Azərbaycan prezidentlərinin burada iştirakından istifadə edərək, ölkələrimiz arasında sıx iqtisadi və mədəni əlaqələri nəzərə alaraq, diqqəti təhsil, mədəniyyət, idman sahəsində daha sıx əməkdaşlığın inkişafına yönəltmək istərdim. İstərdik ki, hər bir tərəf bu sahəyə görkəmli xadimləri cəlb edərək, bu işdə fəal iştirak etsin.

Cənab Saakaşvili, Sizin xeyir-duanızla biz Marneulidə Azərbaycan Mədəniyyət Mərkəzi açmaq fikrindəyik və onun yaradılması, fəaliyyət göstərməsi üçün Azərbaycan Prezidentindən kömək xahiş edirik. Bu mərkəzdə gənclərin dövlət dilini öyrənməsinə xüsusi diqqət yetirməyi planlaşdırırıq. Hörmətli cənab Saakaşvili! Buradakı azərbaycanlı əhalinin Gürcüstanın vətəndaş cəmiyyətinə inteqrasiyasının zəruriliyini, ölkənin dövlət həyatında onların fəal surətdə iştirak etmək arzusunu nəzərə alaraq, yeni peşəkar kadrlar

hazırlığı, ümumtəhsil məktəbləri üçün yeni keyfiyyətli dərsliklər hazırlanması üçün lazımi şərait yaratmağı xahiş edirik.

Hörmətli cənab İlham Əliyev!

Kvemo-Kartlinin əhalisi həmişə Azərbaycan dövlətinin dəstəyini hiss etmişdir. Biz Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin bizim Azərbaycan məktəblərinə, onların tədris vəsaitləri ilə təmin edilməsinə göstərdiyi qayğını həmişə minnətdarlıqla xatırlayacağıq və ümidvarıq ki, Siz də bu ənənəni davam etdirəcəksiniz və Sizin səfərinizdən sonra bu yardım daha çox hiss olunacaqdır. Azərbaycan məktəblərinin əlavə pedaqoji kadrlarla təmin olunmasına da kömək etmək lazımdır. Azərbaycandan olan yüksək vəzifəli qonaqların burada iştirak etməsindən istifadə edərək, diqqəti Gürcüstanın üç ali məktəbinin Marneuli şəhərində yerləşən və həm Gürcüstan, həm də Azərbaycan üçün mütəxəssislər hazırlayan filiallarına yönəltmək istərdim. Bu sahədə əməkdaşlığın hüdudlarının genişləndirilməsini istərdik. Bu, həm müəllimlər arasında təcrübə mübadiləsinə, həm də tələbə mübadiləsinə aiddir.

Hörmətli cənab Əliyev!

Biz Azərbaycanda baş verən bütün dəyişiklikləri və yenilikləri daim izləyirik. Xüsusi vurğulamaq istəyirik ki, Sizin rəhbərlik etdiyiniz Olimpiya Komitəsi idmanın inkişafına və onun daha yüksək səviyyəyə çatmasına kömək etmişdir. Azərbaycanın bir çox regionlarında idman komplekslərinin tikilməsi bu işə təkan vermişdir. Zənnimizcə, Azərbaycan Prezidenti gənclərimizin idmanla məşğul olmasına kömək edərsə və bizim xahişimizlə Marneuli şəhərində bu cür idman kompleksləri tikintisi üçün imkanlar axtarıb taparsa, cənab Saakaşvili buna etiraz etməz. Bu, bizim idmançılarımız üçün gözəl hədiyyə olar və Gürcüstanda idmanın inkişafına kömək edərdi. Gürcüstanın iqtisadi dirçəlişi bir çox xarici sərmayədarları cəlb edir. Bununla əlaqədar Azərbaycanın iş adamlarının diqqətini müştərək istehsala cəsarətlə sərmayə qoymağa yönəltmək istərdim. Biz Azərbaycanda fəaliyyət göstərən şirkətlərin burada filiallarının və törəmə müəssisələrinin açılmasını yalnız alqışlayardıq.

Əziz dostlar, qoy prezidentlərimizin görüşü yeni qarşılıqlı iqtisadi münasibətlərə təkan versin. Mən regionlarımızın problemlərinə və qayğılarına belə diqqətə görə onlara minnətdarlıq etmək, öz xalqlarına xidmət etmək kimi ağır işlərində böyük uğurlar arzulamaq istərdim.

Cənab Prezident İlham Əliyev!

Gürcüstana səfər çərçivəsində vaxt tapıb bizimlə görüşə gəldiyiniz üçün bütün əhali adından Sizə dərin təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, Gürcüstan azərbaycanlıları böyük öndərimiz Heydər Əliyev siyasətini necə dəstəkləyirdisə, eləcə də Sizin siyasətinizi daim dəstəkləyəcəklər.

Diqqətinizə görə sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Mən dünəndən Gürcüstandayam. Burada keçirdiyim bütün görüşlərdə, apardığım danışıqlarda bir daha əmin oldum ki, Gürcüstan-Azərbaycan dostluğu, qardaşlığı yaşayır, möhkəmlənir və bizim xalqlarımızı bir-birinə daha da sıx bağlayır.

Gürcüstanda əziz dostum Prezident Saakaşvili tərəfindən mənə göstərilən bu xoş münasibətə, qonaqpərvərliyə görə, mən Prezidentə və bütün Gürcüstan xalqına öz minnətdarlığımı bildirirəm.

Dünən iki ölkə arasında çox önəmli, müxtəlif sahələri əhatə edən sənədlər imzalanmışdır. Əminəm ki, bu sənədlərin icrası nəticəsində ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar. Bilirsiniz ki, bir neçə ay bundan əvvəl Gürcüstan Prezidenti Azərbaycana səfər etmişdi. Həmin səfər çərçivəsində də çox əhəmiyyətli məsələlər müzakirə olunmuşdur. Mənim səfərim də iki ölkənin rəhbəri arasında olan dostluğun davamıdır. Bizim aramızda çox gözəl münasibətlər var. Bütün məsələlərdə - beynəlxalq, regional məsələlərdə, eyni zamanda, iki ölkə arasında olan münasibətlərdə bizim mövqeyimiz üst-üstə düşür. Heç kəs üçün sirr deyil ki, bu münasibətlərin yüksək səviyyəyə çatdırılmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Bilirsiniz ki, bu gün Azərbaycanda böyük bayramdır. Bütün Azərbaycan xalqı Milli Qurtuluş gününü qeyd edir. Bu gün də Heydər Əliyevin adı ilə bağlıdır. Məhz iyunun 15-də onun Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkəmiz dirçəlməyə başladı. Ölkə xaosdan, böhrandan çıxdı, inkişafa, tərəqqiyə doğru addımlar atmağa başladı. Son on il ərzində Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan inkişaf etdi, dünyada özünün layiqli yerini tuta bildi. İndi ölkəmiz bütün sahələrdə çox sürətlə inkişaf edir. Mən ümid edirəm ki, gələcəkdə də Azərbaycan inkişaf edəcək, zənginləşəcək, qüdrətli dövlətə çevriləcəkdir.

Biz, əziz dostum Mixail ilə bir məsələni dəfələrlə vurğulamışıq, fikrimizi bildirmişik: Gürcüstanın, Azərbaycanın xoşbəxt gələcəyi bizim birliyimizdədir. Bizim ölkələrimiz bir-biri ilə çox sıx bağlıdır. Biz istəyirik ki, bu əlaqələr daha da inkişaf etsin, genişlənsin. Fürsətdən istifadə edib bir məsələni də sizin diqqətinizə çatdırmaq istəyirəm. Bu gün səhər Tbilisi şəhərinin ən gözəl, görkəmli yerlərindən birində Heydər Əliyevin adını daşıyan park açıldı. Biz bu parkın açılışında iştirak etdik. Eyni zamanda, Tbilisidə fəaliyyət göstərən, Azərbaycan Dram Teatrına da dövlət statusu verilibdir. Bütün bu addımlara görə mən əziz dostum Mixail Saakaşviliyə öz adımdan, sizin adınızdan, bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Bizim xalqlarımız qardaş xalqlardır. Gürcülər, azərbaycanlılar bütün dövrlərdə *sülh, əmin-amanlıq, dostluq* şəraitində yaşamışlar. Çox şadıq ki, müstəqilliyimiz əldə olunandan sonra bu əlaqələr daha da genişlənibdir. Bu gün iki ölkənin rəhbərləri arasında olan bu dostluq münasibətləri bizim gələcəyimiz üçün gözəl zəmindir.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Siz Gürcüstan vətəndaşlarısınız. Amma, eyni zamanda, azərbaycanlısınız. Ona görə siz iki ölkə arasında çox önəmli rol oynayırsınız. Mən buraya çox böyük heyətlə gəldim. Demək olar ki, bizim Nazirlər Kabinetinin yarısı bu gün mənimlə birlikdə buradadır. Mən istəyirəm ki, istər təhsil sahəsində, istər iqtisadiyyat sahəsində, istərsə də digər sahələrdə sizi maraqlandıran, sizi narahat edən bütün məsələlər öz həllini birgə tapsın. Siz Gürcüstan cəmiyyətinə daha fəal və sürətli şəkildə inteqrasiya olunmalısınız, daha da yüksək yerləri tutmalısınız. Mən çox şadam ki, ictimai-siyasi həyatda azərbaycanlıların fəaliyyəti çox yüksəkdir və bu, daha da yüksəlir. Mən bu gün çox şad və xoşbəxtəm ki, Azərbaycanın milli bayramını - Qurtuluş gününü burada sizinlə birlikdə qeyd edirəm.

Mən əminəm ki, bu səfərdən sonra iki ölkə arasında olan münasibətlər daha da dərinləşəcək, bütün sahələrdə əməkdaşlıq inkişaf edəcəkdir. Bizim qarşımızda duran ən böyük, ən nəhəng məsələlər Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilməsidir. Əminəm ki, bunlar vaxtında işə düşəcək və bizim xalqlarımıza xoşbəxtlik, rifah, firavanlıq gətirəcəkdir. Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram, sizin hamınızı bağrıma basıram, qucaqlayıram, öpürəm. Yaşasın Gürcüstan-Azərbaycan dostluğu, qardaşlığı! Gürcü-Azərbaycan xalqlarına eşq olsun!

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Mənim əzizlərim, mənim istəklilərim.

Öncə mən istəyirəm ki, dostum, qardaşım İlham Əliyevi öz adımdan və bütün Gürcüstan xalqı adından bir daha səmimi salamlayım.Sizin və Gürcüstanda yaşayan bütün insanların ana vətəni olan müstəqil ölkəmizin daha güclü, daha qüdrətli olması üçün biz var gücümüzü əsirgəməyəcəyik. Bütün Gürcüstanın Prezidenti olduğum kimi, mən sizin də Prezidentinizəm, Sizin heç bir qayğınız, probleminiz olmayacaqdır. Mən sizə söz verirəm ki, hər an sizin yanınızda olacağam, qayğınıza qalacaq, hüquqlarınızı qoruyacağam, dostunuz və qardaşınız olacağam. Gürcüstanı və Azərbaycanı çox güclü tellər bağlayır. Bizi bir-birimizə nəinki dövlət əlaqələri, həm də qardaşlıq əlaqələri bağlayır və bizi yaxınlaşdırır. Bugünkü tarixi, əlamətdar gün münasibətilə hamınızı təbrik edir və xoş arzularımı çatdırıram. Onu da bildirmək istəyirəm ki, azərbaycanlıların, gürcülərin dostluğu sarsılmazdır, yenilməzdir və qardaşım İlham Əliyev ilə birlikdə biz bu dostluğu daha da möhkəmləndirməliyik.

AZƏRBAYCAN PREZİDENTİNİN GÜRCÜSTANA DÖVLƏT SƏFƏRİ BAŞA ÇATDI

Gürcüstana dövlət səfərini başa çatdıran Prezident İlham Əliyev iyunun 15-də günortadan sonra maşın karvanının müşayiəti ilə Azərbaycan-Gürcüstan sərhədinə gəlmişdir.

AZƏRBAYCAN NATO İLƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 16-da NATO baş katibinin müavini Jan Furne ilə görüşmüşdür.

Qonağı salamlayan nazir Elmar Məmmədyarov Azərbaycanda NATO-nun "Yay məktəbi" həftəsinin keçirilməsini yüksək qiymətləndirmişdir. O, Azərbaycanın Şimali Atlantika Alyansı ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində bütün istiqamətlərdə, o cümlədən elmi tədqiqat və bir sıra digər sahədə də əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini vurğulamışdır.

NATO baş katibinin müavini Jan Furne səmimi qəbula görə təşəkkürünü bildirərək, Bakıda "Yay məktəbi" həftəsinin keçirilməsinin Azərbaycan ilə NATO əlaqələrinin hərtərəfli inkişafına müsbət təsir göstərəcəyini qeyd etmişdir. O, Şimali Atlantika Alyansının Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verdiyini vurğulamış və bu istiqamətdə müxtəlif tədbirlərin keçirilməsinin zəruriliyini diqqətə çatdırmışdır. O, NATO Elm Komitəsinin iyunun 13-15-də Bakıda keçirilmiş iclası barədə nazir Elmar Məmmədyarova məlumat vermişdir.

Görüşdə ölkəmizin xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin may ayında Belçika Krallığına və iyunun 14-15-də Gürcüstana səfərlərinin əhəmiyyətindən, regiondakı vəziyyət, ölkəmizdə aparılan iqtisadi islahatlar, neft sənayesinin inkişafı, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilməsi, onların mühafizəsi və bu sahədə perspektivlər barədə fikirlərini bildirmişdir. O, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan işlər, ATƏT-in Minsk qrupunun bu istiqamətdə fəaliyyəti və Azərbaycan qaçqınlarının ağır vəziyyəti barədə də qonağa ətraflı məlumat vermişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Prezident sarayında əhali məskunluğu məsələləri naziri Paul-Eerik Rummo başda olmaqla Estoniya Respublikasının nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları salamlayaraq, nümayəndə heyəti üzvlərinin Bakıda keçirdikləri görüşlərdən və danışıqlardan razı qaldığını bildirdi. Dövlətimizin başçısı dedi ki, biz bütün səviyyələrdə əlaqələrimizi hərtərəfli inkişaf etdirmək istəyirik. Əvvəllər bir dövlətin tərkibində olmuş ölkələrimiz ittifaq dağıldıqdan sonra çox arzusunda olduqları müstəqilliyə qovuşdu, öz taleyinin sahibi olmaq hüququ qazandı. Müstəqilliyin təşəkkülü dövründə həm Estoniyanın, həm də Azərbaycanın siyasi və iqtisadi inkişafda əldə etdiyi uğurların sevindirici olduğunu bildirən respublikamızın rəhbəri vurğuladı ki, bu, ölkələrimizin son 12 ildə seçdikləri inkişaf yolunun düzgünlüyünə daha bir sübutdur.

Prezident İlham Əliyev qeyd etdi ki, Estoniyanın Avropa qurumlarına inteqrasiya yolunda qazandığı nailiyyətləri, beynəlxalq təşkilatlarda fəal iştirakını Azərbaycanda ruh yüksəkliyi ilə qarşılamışlar. Azərbaycan da bu yolla gedir və beynəlxalq qurumlara fəal inteqrasiya edir. Lakin Ermənistan tərəfindən təcavüz ölkəmizdə vəziyyəti çətinləşdirir. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi işğal edilmiş, bir milyondan çox adam doğma ocaqlarından didərgin salınmışdır. Lakin biz inanırıq ki, haqq-ədalət öz yerini tutacaq və Azərbaycanın ərazi bütövlüyü də bərpa ediləcəkdir.

Azərbaycan rəhbəri dedi ki, ikitərəfli əlaqələrin inkişafı ölkələrimizin mənafelərinə uyğundur və bunun üçün iqtisadiyyatda, siyasi məsləhətləşmələr sahəsində böyük potensial var. Estoniyadakı Azərbaycan diasporu ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, parlamentdə təmsil olunmuşdur ki, bu da iki ölkənin xalqlarının yaxınlaşması işinə xidmət edəcəkdir.

Cənab Paul-Eerik Rummo səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edərək bildirdi ki, nümayəndə heyətinə Azərbaycan ilə Estoniya arasında dostluq qrupunun üzvləri olan deputatlar da daxildir. O dedi ki, Estoniya azərbaycanlıları ölkənin əsl vətənpərvərləridir və biz bütün işlərdə azərbaycanlıların dəstəyini hiss edirik.

Nazir Azərbaycan-Estoniya əməkdaşlığının perspektivlərindən danışaraq qeyd etdi ki, xüsusilə, Avropa Birliyinin proqramları sahəsində birgə layihələrin həyata keçirilməsi mümkündür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Prezident sarayında Böyük Britaniyanın bp qrupunun direktoru, kəşfiyyat və hasilat işləri üzrə baş vitse-prezidenti Toni Heyvordu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev dedi ki, bizim əməkdaşlığımız uğurla davam edir. Bu əməkdaşlığa aid olan məsələlər vaxtında həyata keçirilir. Respublikamızın rəhbəri eyni zamanda, Azərbaycanda enerji sahəsində layihələrin həyata keçirilməsində işlərin uğurla getdiyini vurğuladı və dedi ki, bp ilə Azərbaycan Dövlət Neft Şirkətinin əməkdaşlığı çox faydalıdır və bu da Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafına dəlalət edir.

Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən iri neft layihələrində bp şirkətinin aparıcı yer tutduğunu və öz fəaliyyətini uğurla həyata keçirdiyini, ölkəmizdə reallaşdırılan enerji layihələrində özünün də iştirakından məmnunluğunu söylədi, mövcud əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirdi.

Vaxt ayırıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlıq edən cənab Toni Heyvord iki gündür Azərbaycanda olduğunu, bu səfərdən razı qaldığını bildirərək dedi ki, mən burada enerji layihələrinin həyata keçirilməsini, işlərin gedişini izləmişəm. O, "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 10 il ərzində görülən işləri yüksək qiymətləndirdi və dedi ki, bu layihələrin gerçəkləşməsində Prezident Heydər Əliyevin böyük əməyi vardır. Biz, həmçinin cənab İlham Əliyevin də bu prosesdə iştirak etməsindən məmnunuq. Tam əminik ki, dünya miqyaslı layihə olan Bakı-Tbilisi-Ceyhan neft

kəmərinin tikintisi vaxtında başa çatdırılacaqdır. Müşahidələrimiz bizə tam əminlik verir ki, bu layihə 2005-ci ilin birinci rübündə tam reallaşacaqdır.

Qonaq əməkdaşlığımızın gələcəkdə də uğurla davam edəcəyini söyləyərək vurğuladı ki, biz birlikdə çox böyük işlər görəcəyik, nailiyyətlər qazanacağıq. Yadda saxlamaq lazımdır ki, əgər cənab Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin diqqət və qayğısı olmasaydı, biz bütün bunları edə bilməzdik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ƏDLİYYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Prezident sarayında İran İslam Respublikasının ədliyyə naziri Məhəmmədismayıl Şüştərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq vurğuladı ki, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və biz buna çox sevinirik. Siyasi əlaqələrimiz güclənir. Çox məmnunuq ki, iqtisadi əlaqələr də inkişaf edir. Biz buna çox böyük əhəmiyyət veririk. Digər sahələrdə də əməkdaşlıq yüksək səviyyədədir. O cümlədən ədliyyə nazirlikləri arasında da çox gözəl əməkdaşlıq var və sizin səfəriniz bu əməkdaşlığı daha da gücləndirəcəkdir. Mən bilirəm ki, bu səfər çərçivəsində əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Səfəriniz çox uğurlu keçir, gərgin səfərdir, çoxlu görüşlər keçirirsiniz. Bu, məni çox sevindirir. Biz istəyirik ki, İranla Azərbaycan arasında bütün sahələrdə əlaqələr daha da genişlənsin, əməkdaşlığımız daha da dərinləşsin.

İran Prezidenti Xatəmi ilə çox gözəl şəxsi münasibətlərinin olduğunu söyləyən Prezident İlham Əliyev dedi ki, mən istəyirəm nazirlər, digər vəzifəli şəxslər də öz aralarında gözəl münasibətlər qursunlar. Sizin səfəriniz də bu məqsədə xidmət edir.

Səmimi qəbula görə təşəkkür edən və Azərbaycan Prezidenti ilə görüşdən böyük şərəf duyduğunu bildirən İranın ədliyyə naziri Məhəmmədismayıl Şüştəri dövlətimizin başçısına ölkəsinin Prezidenti cənab Xatəminin salamını çatdırdı. O dedi ki, İran ilə Azərbaycan arasında münasibətlər müştərək səylərlə inkişaf edir. Bunun da bir çox amilləri vardır. Çalışırıq ki, ölkələrimizin əlaqələri günbəgün inkişaf etsin. Biz möhtərəm Heydər Əliyevin siyasi fəaliyyətini diqqətlə izləmişik. Onun İrana son səfəri bizim münasibətlərimizdə dönüş yaratmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini və əklil qoyduğunu xatırladan qonaq ölkələr arasında müəyyən problemlərin yaranmasının təbii hal olduğunu söylədi və bildirdi ki, bunlar əsas məsələyə mane olmamalıdır. İki ölkənin məsul şəxsləri İran-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirlər. Bölgədə heç bir ölkə bizimlə Azərbaycan qədər müştərək köklərə malik deyildir.

Ölkələrimizin ədliyyə nazirlikləri arasında əlaqələrin günbəgün inkişaf etdiyini vurğulayan cənab Şüştəri dedi ki, indiki səfər zamanı üç sənəd - məhkəmə, icra orqanları arasında əməkdaşlıq və dustaqların təhvil verilməsinə dair sənəd imzalanmışdır. Siyasi, iqtisadi əməkdaşlıqla bərabər, biz hüquq sahəsində də əməkdaşlığa böyük əhəmiyyət veririk.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir bu problemin, nəhayət, öz həllini tapacağını bildirdi. Qonaq axırda dedi: ümidvarıq ki, Prezident Xatəminin Azərbaycana nəzərdə tutulan səfəri iki ölkə arasındakı münasibətlərdə yeni mərhələ olacaqdır. Biz Heydər Əliyevə böyük hörmət bəsləyirdik. Bu şəxsiyyətin fikir və əqidəsinə görə ona məhəbbətimiz böyük idi. Azərbaycanın inkişafında onun çox böyük rolu olmuşdur. Ümidvarıq ki, onun davamçısı kimi Siz bu sahədə böyük işlər görəcəksiniz.

Xoş sözlərə görə nazirə təşəkkürünü bildirən Prezident İlham Əliyev dedi:

- Siz doğru deyirsiniz. Heydər Əliyev bu əlaqələrə çox böyük önəm verirdi. Onun İrana etdiyi son səfəri nəticəsində ölkələrimiz arasında bütün istiqamətlərdə əlaqələr daha da gücləndi. Bütün başqa sahələrdə olduğu kimi, İran-Azərbaycan münasibətlərində də Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və davam etdirilir. Bu, onun siyasəti idi, onun uzaqgörənliyi idi, onun bizə etdiyi məsləhətlərdir ki, biz bunu davam etdiririk. İstəyirik ki, bu əlaqələr daha da inkişaf etsin. Heydər Əliyevin İran Prezidenti cənab Xatəmi ilə də çox gözəl şəxsi əlaqələri olmuşdur. Şəxsi əlaqələr iki ölkə arasında olan münasibətlərə çox böyük təsir edir. Ona görə bir daha demək istəyirəm ki, mənim də cənab Prezident Xatəmi ilə əlaqələrim çox gözəldir. Yəni bir-birimizə çox böyük hörmətlə, rəğbətlə yanaşırıq. Fürsətdən istifadə edib, sizdən xahiş edirəm ki, mənim ən dərin hörmətimi, ehtiramımı cənab Prezidentə çatdırasınız. Biz onu Azərbaycanda səbirsizliklə gözləyirik. Əlbəttə, mən də İrana böyük məmnuniyyətlə səfər edəcəyəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Prezident sarayında Rusiya Ticarət-Sənaye Palatasının prezidenti Yevgeni Primakov başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev son illər ölkələrimiz arasında sıx mehriban qonşuluq münasibətlərinin yarandığını vurğulayaraq dedi ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana ilk səfəri və sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiyaya səfəri indiki mərhələdə səmərəli əməkdaşlığın bünövrəsini qoymuşdur. Mən bu ilin əvvəlində Rusiyaya səfərimi, keçirilmiş danışıqları və görüşləri böyük səmimiyyətlə xatırlayıram. Bu, bizim hamımızı bir daha inandırdı ki, ölkələrimiz geniş qarşılıqlı fəaliyyət göstərir və əməkdaşlıq edirlər. Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri var, mühüm birgə energetika layihələri həyata keçirilir, ölkəmizdə gerçəkləşdirilən bir sıra layihələrdə Rusiya biznesinin iştirakı genişlənir. Bu yaxınlarda Bakıda Rusiya mədəniyyəti günləri uğurla keçdi. Gələn il Rusiyada Azərbaycan ili olacaqdır. Bu tədbirdə ölkəmiz təkcə mədəniyyət sahəsi ilə deyil, həm də sənaye müəssisələri ilə təmsil olunacaq və onlar il ərzində öz məhsullarını göndərəcəklər.

Prezident İlham Əliyev ikitərəfli əməkdaşlığın səviyyəsindən razı qaldığını söyləyərək vurğuladı ki, Rusiya nümayəndə heyətinin hər bir səfəri, o cümlədən də Rusiya Ticarət-Sənaye Palatası nümayəndələrinin indiki səfəri ölkələrimiz arasında əlaqələrin inkişafına dinamika verir.

Səmimi qəbula görə təşəkkür edən Yevgeni Primakov Prezident Heydər Əliyevin Rusiya ilə ikitərəfli əlaqələrin inkişafına yönəldilmiş siyasətinin uğurla davam etdirilməsindən məmnunluq duyduğunu söylədi. Bakıya səfərinin əvvəlində Azərbaycanın ümummilli liderinin xatirəsini andığını bildirdi.

Palatanın rəhbəri qeyd etdi ki, Azərbaycan ilə Rusiya arasında münasibətlərin çox böyük əhəmiyyəti var və Azərbaycan Prezidentinin Rusiyaya səfəri bu münasibətlərin inkişafına təkan vermişdir. O, Azərbaycana səfərinin məqsədindən danışaraq dedi ki, danışıqlar aparılmışdır və əməkdaşlıq haqqında saziş imzalanacaqdır. Yevgeni Primakov hər iki ölkənin sahibkarları arasında əməkdaşlığın genişləndiriləcəyinə ümidvar olduğunu söyləyərək bildirdi ki, bu, Bakıda danışıqların əsas mövzusu olmuşdur. Çünki Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti rotasiya əsasında bu il MDB ölkələri Ticarət-Sənaye Palataları İttifaqının sədri olacaqdır.Yevgeni Primakov Azərbaycan Prezidentinə fəaliyyətində uğurlar arzuladı.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Yunanıstan Respubliklsının Prezidenti Konstantinos Stefanopulos iyunun 20-də ölkəmizə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 21-də Prezident sarayında Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosun rəsmi qarşılanma mərasimi olmuşdur.

Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun təkbətək görüşü olmuşdur.

Dövlətimizin başçısı İlham Əliyev ali qonağı səmimiyyətlə salamlayaraq, onun ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacağını vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, o, Azərbaycan-Yunanıstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir.

Azərbaycana rəsmi səfərə dəvətə və yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına təşəkkür edən Yunanıstan Prezidenti Konstantinos Stefanopulos ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün imkanlar olduğunu söylədi.

Dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı siyasi əlaqələrin səviyyəsindən razı qaldıqlarını və ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar. İqtisadi sahədə əməkdaşlıqdan söhbət açan prezidentlər ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdilər.

Mehribanlıq və səmimilik şəraitində keçən görüş zamanı dövlət başçıları siyasi-iqtisadi

və mədəni sahələrdə əlaqələrin genişlənməsi, ikitərəfli əməkdaşlığın daha da dərinləşməsi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı, beynəlxalq təhlükəsizlik problemləri və tərəfləri maraqlandıran digər məsələlərə dair ətraflı fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!Hörmətli qonaqlar!Mən sizin hamınızı ürəkdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Yunanıstanla Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf edir. Biz çox istəyirik ki, bu münasibətlər bütün sahələri əhatə etsin. Biz bu gün sizinlə təkbətək görüşdə bu məsələni müzakirə etdik. Biz çox istəyirik ki, aramızda siyasi dialoq daha da güclənsin. İqtisadi sahədə çoxlu layihələr var, çoxlu imkanlar var. Mən ümidvaram ki, iqtisadi əlaqələrimiz bundan sonra da güclənəcəkdir.

Biz çox şadıq ki, sizinlə bərabər, Azərbaycana Yunanıstan iş adamlarının böyük bir qrupu gəlibdir və onlar çox səmərəli görüşlər keçirirlər. Humanitar sahədə əlaqələrimiz də çox uğurla inkişaf edir. Bakı Slavyan Universitetində yunan bölməsi fəaliyyət göstərir və ona çox böyük maraq vardır.

Bildiyiniz kimi, enerji sektorunda da uğurlu əməkdaşlıq gedir. Biz bu istiqamətdə ilkin addımları atmışıq. Ümid edirəm ki, gələcəkdə Yunanıstanla Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq daha da yüksək pilləyə qalxacaqdır. Mən sizi bir daha salamlayır və əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra bütün sahələrdə əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Sonra Yunanıstan Prezidenti KONSTANTİNOS STEFANOPULOS çıxış edərək dedi:

- Cənab Prezident, təşəkkür edirəm.Mətbuat nümayəndələrinin burada olmasından istifadə edərək, Sizi əmin etmək istəyirik ki, biz bu səfərə böyük əhəmiyyət veririk. İcazə verin, Sizin atanızın əziz xatirəsinə ehtiramımı bildirim. Mən onunla iki dəfə görüşmüşəm və regionda mühüm əhəmiyyət kəsb edən bir çox məsələlər ətrafında, o cümlədən ölkənizin problemləri ilə bağlı fikir mübadiləsi aparmışıq.

Bu gün biz iki ölkə arasında mümkün əməkdaşlıq imkanlarını araşdıracağıq. Ölkəmiz enerji sektoruna maraq göstərir və biz Azərbaycanda təbii qaz yataqlarının səmərəli istifadə olunmasına ümid bəsləyirik. Düşünürük ki, Azərbaycanın təbii qazının digər ölkələrə çatdırılmasında hansı yollarla, vasitələrlə iştirak edə bilərik.

Biz ticarət əlaqələrinin genişlənməsində də çox maraqlıyıq. Mənimlə Bakıya çoxsaylı biznesmenlər gəlmişdir. Biznesmenlərin Bakıya gəlişi də bu istəyi bir daha təsdiq edir. İnanıram ki, ikigünlük iqtisadi forum da uğurlu, səmərəli olacaqdır. Mən sabah forumun

nəticələrinin müzakirəsinə dəvət almışam və əminəm ki, bu forum ölkələrimiz arasında əlaqələrdə tərəqqiyə yeni yol açacaqdır.

Yunanıstan böyük mədəniyyətə malik olan bir ölkədir. Biz istəyirik Sizinlə mədəni əlaqələrimizi, o cümlədən elm ocaqları, universitetlərimiz və alimlərimiz arasında əlaqələri genişləndirək. Mən Bakı Slavyan Universitetinə dəvət olunmağımdan və mənə universitetin fəxri doktoru adı verilməsindən və Yunan Araşdırmalar Mərkəzinin açılmasından çox məmnunam.

İcazə verin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bölüşdüyümüz fikirlərə bir daha qayıdım. Ölkəmizin təcrübəsindən çıxış edərək, biz bu problemi tam dərk edirik. Çünki bizim ölkə də eyni problemlə üzləşmişdir. Məlum çətinliklərə baxmayaraq, tərəflərin səmimi istəyi, səyi və beynəlxalq təşkilatların köməyi ilə problemin tezliklə həll yolunu tapacağına inanmaq istərdik. Cənab Prezident, Yunanıstan Avropa təşkilatları çərçivəsində bütün mümkün vasitələrdən istifadə edəcəkdir ki, Avropada olan münaqişələrin həllində daha fəal rol oynasın. Cənab Prezident, sonda icazə verin, səmimi qonaqpərvərliyinizə görə Sizə təşəkkürümü bildirim. Sizi ölkəmizə rəsmi səfərə dəvət etmək istərdim. Səfərin vaxtı, əlbəttə, diplomatik kanallar vasitəsilə müəyyən olunacaqdır. Bir daha inanmaq istərdim ki, bu gün biz səmərə verəcək əhəmiyyətli səylərin təməlini qoyuruq.

Görüşdə ikitərəfli və regional problemlərə dair bir sıra məsələlər müzakirə olundu.

SƏNƏDLƏRİNİN İMZALANMASI

Prezidentlərin geniş heyətdə görüşü başa çatdıqdan sonra ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Yunanıstan tərəfindən xarici işlər nazirinin müavini Yevripidis Stilianidis imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında beynəlxalq avtomobil daşınmaları haqqında sazişi Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Yunanıstan tərəfindən xarici işlər nazirinin müavini Yevripidis Stilianidis imzaladılar.

Azərbaycanın maliyyə naziri Əvəz Ələkbərov və Yunanıstan xarici işlər nazirinin müavini Yevripidis Stilianidis Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında sazişi imzaladılar.

Sənədlərin imzalanma mərasimində respublika Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Yunanıstanın Bakıdakı səfiri Merkurios Karafotias, Yunanıstan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 21-də, Azərbaycan-Yunanıstan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Konstantinos Stefanopulosun birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Yunanıstan Prezidentinin Azərbaycana rəsmi səfəri çox uğurla davam edir. Həm təkbətək görüşdə, həm də geniş tərkibdə aparılan danışıqlarda müxtəlif məsələlər - ikitərəfli məsələlər, regional məsələlər müzakirə olunubdur. Müzakirə olunan bütün məsələlərdə bizim mövqeyimiz bir-birinə çox yaxındır. Biz ümid edirik ki, bu səfərdən sonra ölkələrimiz arasında əlaqələr daha da güclənəcəkdir.

Biz iki ölkə arasında aparılan siyasi dialoqun davam etməsində çox maraqlıyıq. Bu gün aparılan danışıqlar deməyə əsas verir ki, Yunanıstanla Azərbaycan arasında bundan sonra bu istiqamətdə yeni ikitərəfli məsələlər ortaya çıxacaq və bu dialoq daha da səmərəli şəkildə aparılacaqdır.

İqtisadi sahədə əlaqələrimiz sürətlə inkişaf edir. Biz Yunanıstan iş adamlarının Azərbaycana böyük marağını görürük, hiss edirik. Bu gün Azərbaycanda keçirilən biznes forum bunun əyani sübutudur. Azərbaycanda bizneslə məşğul olmaq üçün çox gözəl şərait vardır. Çox gözəl sərmayə mühiti vardır. Biz əminik ki, Yunanıstan şirkətləri Azərbaycanda daha fəal işləyəcəklər, birgə layihələr həyata keçiriləcəkdir. Enerji sektorunda aparılan işlər deməyə əsas verir ki, Azərbaycanla Yunanıstan arasında bu istiqamətdə əlaqələr daha da güclənəcəkdir.

Azərbaycanda həyata keçirilən böyük neft-qaz layihələri Yunanıstan tərəfini də maraqlandırır və aparılan danışıqlar nəticəsində ümid edirəm ki, Azərbaycan və Yunanıstan bu sahədə çox səmərəli əməkdaşlıq edəcəkdir.

Danışıqlar əsnasında regional məsələlər də müzakirə olundu. Regionda mövcud olan problemlərə münasibət bildirildi. Biz iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrə də böyük əhəmiyyət veririk. Mən cənab Prezidentə məlumat verdim ki, Bakı Slavyan Universitetində yunan bölməsi fəaliyyət göstərir. Biz çalışacağıq ki, bu sahədə əlaqələr daha da genişlənsin. Əminəm ki, bu səfərdən sonra Yunanıstanla Azərbaycan arasında olan əlaqələr bütün sahələrdə daha da sürətlə inkişaf edəcəkdir.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BƏYANATI

Mən cənab Prezident Əliyevə çox gözəl qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Yunanıstan bu səfərə böyük önəm verir. Bizim məqsədimiz, sadəcə, səfər etmək deyil, eyni zamanda, bütün sahələrdə əlaqələri genişləndirməkdir. İstərdik ki, ölkələrimiz arasında, universitetlər arasında münasibətlər genişlənsin. Alimlər mübadilə aparsınlar və bütün mümkün sahələr əhatə olunsun.

Ümid edirik ki, biznes forum öz işini çox uğurla davam etdirəcəkdir. Çox keçməz ki, biz bu uğur haqqında, əməli nəticə haqqında eşidəcəyik. Sabah mənim Slavyan Universitetində çox maraqlı görüşlərim olacaqdır. Sizə demək istəyirəm ki, məni burada biznesmenlərlə bərabər, akademiklər, alimlər də müşayiət edirlər. Treys və Fatra universitetlərindən alimlər də gəlmişdir. Mən sabah Slavyan Universitetində görüşlər keçirəcəyəm, orada mənə fəxri doktor adı veriləcəkdir. Mən bütün bunlarla çox fəxr edirəm. Mən çıxışımın sonunda istərdim ki, mərhum Prezidentlə, indiki Prezidentin atası ilə keçirdiyim görüşləri xatırlayım. 1995-ci ildə Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının 50 illiyində onunla ilk dəfə görüşümüz oldu. Bu, çox uzunsürən bir görüş oldu. Birləşmiş Millətlər Təşkilatı bu görüş üçün bizə bir otaq ayırmışdı. Mən orada Prezidentlə görüş keçirdim. Prezident Heydər Əliyev Azərbaycanın ən ağrılı problemi - Dağlıq Qarabağ problemi haqqında mənə ətraflı, geniş məlumat verdi. Mən Dağlıq Qarabağ haqqında məlumatı ilk dəfə ondan aldım. Daha sonra biz Buxarestdə görüşdük. Orada da Prezidentlə çox gözəl, çox dostyana söhbətimiz oldu. Onun işə ciddi yanaşması və nəhəng təcrübəsi həmişə mənim xatirimdə qalacaqdır. Demək istəyirəm ki, onun layiqli davamçısı bu ciddi yanaşmanı və nəhəng təcrübəni burada uğurla davam etdirir. İndi biz Azərbaycanın uğurunu müşahidə edirik. Sizi inandırmaq istəyirəm və zənnimcə, Azərbaycan tərəfi də bu və fikirdədir ki, Yunanıstan tərəfi bu gün keçirilən və sabah keçiriləcək görüşlərə çox ciddi yanaşacaqdır. Məni müşayiət edən nazirlər bu işə ciddi yanaşacaqlar. Bizim tərəfimizdən Azərbaycana maraq çox böyükdür və bu, qarşılıqlı maraqdır. Ümid edirəm, bu səfərin nəticəsi kimi, biz tezliklə uğurlu nəticəni müşahidə edəcəyik. Cənab Prezident, Sizə demək istəyirəm ki, yunan tərəfi Sizi Afinada, Yay Olimpiya oyunlarında səbirsizliklə gözləyir. Eyni zamanda, biz Sizin qarşılıqlı səfərinizi də gözləyirik. Ümid edirik ki, Siz Yunanıstana dövlət səfəri edəcəksiniz və bu səfər də çox uğurlu alınacaqdır. Cənab Prezident, bizə göstərilən qonaqpərvərliyə, bizə qarşı münasibətinizə görə bütün nümayəndə heyətinin adından Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Çox sağ olun.

* * *

Sonra Prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Azərbaycan Prezidentinədir. Lakin suala keçməzdən əvvəl Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm ki, nümayəndə heyətinə və mətbuat işçilərinə bu qədər diqqət ayırmış və işləmək üçün onlara gözəl şərait yaratmışdır. Sualım belədir: Siz Avropa Birliyinin Azərbaycana marağını necə izah edərdiniz? Məlumdur ki,

ötən il Yunanıstan Avropa Birliyinə sədrlik edən dövrdə Azərbaycan Avropa Birliyinə yeni qonşular siyahısına daxil olmuşdur. Avropa Birliyinin Azərbaycana olan bu böyük marağını nə ilə izah edirsiniz?

CAVAB: Həqiqətən, Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələr çox sürətlə inkişaf edir. Biz bu əlaqələrə böyük əhəmiyyət veririk. Biz istəyirik ki, Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə inkişaf etsin. İlk növbədə, iqtisadi əməkdaşlıq daha da güclənsin.

Azərbaycan öz siyasətini bu istiqamətdə aparır. Biz Avropa ailəsinə, Avropa strukturlarına inteqrasiya edirik və bu proses çox uğurla davam edir. Eyni zamanda, Azərbaycan da Avropa üçün çox önəmli bir ölkədir. Azərbaycanın siyasi meylləri, Azərbaycanda aparılan xarici siyasət, ölkəmizin coğrafi-siyasi vəziyyəti və təbii sərvətləri Azərbaycanı Avropa Birliyi üçün çox cəlbedici ölkəyə çeviribdir.

Mən bu yaxınlarda Avropa Birliyinə səfər etmişəm və bu səfər çox uğurlu olmuşdur. Çox müsbət haldır ki, Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir və Azərbaycanı yeni qonşular siyahısına salıbdır. Biz ümid edirik ki, atılan bütün bu addımlar bizi Avropa ilə daha da sıx bağlayacaqdır.

SUAL: Mənim sualım Yunanıstan Prezidentinədir. Cənab Prezident, Sizi bu səfərdə çoxlu sayda iş adamları müşayiət edir. Ümumiyyətlə, Siz Azərbaycanda neft sektorundan savayı, hansı sahələrdə əməkdaşlıq etmək və işbirliyi qurmaq fikrindəsiniz?

CAVAB: Mən elə bilirəm ki, biznes imkanları çox genişdir. Mənim səfərimin əsas uğuru da elə biznes forumun nəticələrindən asılı olacaqdır. Bizim biznesmenlər bunda nə qədər uğurlu iştirak etsələr, nə qədər uğurlu əlaqə yaratsalar, mənim səfərimin qiyməti də bir o qədər artıq olacaqdır. Mən Yunanıstan hökuməti adından demək istəyirəm ki, hökumət biznesmenlərin bu fəaliyyətinə hər cür dəstəyini əsirgəməyəcəkdir. Əminəm ki, neftdən kənarda da sektorlar mövcuddur. Bu sektorları bizim biznesmenlər azərbaycanlı həmkarları ilə birlikdə arayıb axtaracaq və tapacaqlar. Əsas məqsəd ondan ibarətdir ki, qarşılıqlı maraq vardır. Biznesmenlərin fəaliyyəti ölkələr arasındakı münasibətlərdə əsas lokomotiv, mühərrik rolunu oynayır.

SUAL: Cənab Prezident İlham Əliyev, Yunanıstanın əhalisi tam inanır ki, Azərbaycan ərazilərinin bir hissəsi, ermənilər yaşayan bir hissəsi Ermənistan ordusu tərəfindən işğal olunubdur və bu ərazilər işğal altındadır. Biz bunu qanunsuz hesab edirik, lakin eyni zamanda, Türkiyə mətbuatı belə məlumatlar yayır ki, guya Azərbaycan Prezidenti Denktaşın rəhbərlik etdiyi qeyri-qanuni ərazini tanımağa hazırdır. İndi bizim əlimizə yaxşı fürsət düşmüşdür ki, bu sualın cavabını Sizin özünüzdən soruşaq. Bilmək istəyirik ki, Azərbaycanın bu barədə mövqeyi nədən ibarətdir?

CAVAB: İlk növbədə, demək istəyirəm ki, həqiqətən, artıq bütün dünya ictimaiyyəti bilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir. Dağlıq Qarabağı və onun inzibati sərhədindən kənarda Azərbaycanın digər yeddi bölgəsini işğal edibdir. Bu işğal nəticəsində 1 milyona yaxın azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır, ölkəmizin ərazi bütövlüyü pozulubdur. Biz haqlı olaraq tələb edirik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, işğalçı qüvvələr həmin torpaqlardan çıxsınlar. Beynəlxalq hüquq normaları bunu tələb edir. Əlbəttə,

dünyanın hər bir yerində beynəlxalq hüquq zəfər çalmalıdır. Biz ümid edirik ki, bu münaqişə öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıdacaqlar.

O ki qaldı digər məsələyə, bununla əlaqədar Azərbaycanın rəsmi mövqeyi bir neçə dəfə açıqlanmışdır. O cümlədən mən də bir neçə dəfə bəyanatlar vermişdim və bunlar Azərbaycan mətbuatında öz əksini tapmışdır. Bilirəm ki, bu məsələ ilə bağlı müəyyən mətbuat orqanlarında qeyri-sağlam ajiotaj yaradılıbdır. Bunun səbəbləri də bizə bəllidir. Mən bu detallara toxunmaq istəmirəm. Amma onu bir daha demək istəyirəm ki, Azərbaycanın rəsmi mövqeyini Azərbaycan Prezidenti və Xarici İşlər Nazirliyi ifadə edir. Müxtəlif mülahizələr ola bilər. Müxtəlif mətbuatda hansısa fərziyyələr irəli sürülə bilər. Amma sizə bu suala görə təşəkkür edirəm ki, ilk mənbədən buna bir daha cavab alacaqsınız.

Biz ümid edirdik ki, Kiprdə keçirilən referendum bu məsələyə son qoyacaqdır. Biz çox istəyirik ki, dünyada, bölgədə əməkdaşlıq olsun, mövcud problemlər öz həllini tapsın. Əlbəttə, biz çox ümid edirdik ki, Kiprdə keçirilən referendumda bu məsələ birmənalı şəkildə öz həllini tapacaqdır. Əfsuslar olsun ki, buna imkan olmadı.

Azərbaycanın mövqeyi ondan ibarət idi ki, əgər referendumdan sonra yeni bir vəziyyət yaranarsa, əlbəttə, Birləşmiş Millətlər Təşkilatı və Avropa dövlətləri öz siyasətlərində düzəlişlər etməli olacaqlar. Əgər belə bir düzəlişlər olarsa, Azərbaycan bunu dəstəkləyəcək və bu məsələdə fəal iştirak edəcəkdir. Hər hansı başqa bir məsələdən söhbət getmirdi və siz bunu keçmişdə verilən bəyanatlarda da görə bilərsiniz.

SUAL: Cənab Stefanopulos, Azərbaycanla Yunanıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivini necə qiymətləndirirsiniz?

CAVAB: İndiyədək Azərbaycanla bizim münasibətlərimizdə heç bir problem olmayıbdır. Beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlıq etmişik. Mən bu əməkdaşlığa görə Azərbaycan Respublikasının Prezidentinə öz minnətdarlığımı bildirirəm. Cənab Prezidentə təşəkkür etmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Yunanıstanı qeyri-daimi üzv kimi dəstəkləmisiniz. Buna görə çox sağ olun. Yunanıstan isə öz növbəsində, Azərbaycana daim dəstək vermişdir. Siz Avropa Şurasına qəbul olunarkən Yunanıstanın dəstəyini hiss etmisiniz. Avropa Birliyi çərçivəsində Yunanıstan əlindən gələni edir ki, Azərbaycanla əməkdaşlıq artsın. Yunanıstan Avropa Birliyinin bundan sonra genişlənməsində Azərbaycanı da nəzərdən keçirir. Mən cənab Əliyevin son şərhi ilə bağlı öz fikrimi demək istəyirəm. Prezident Kiprdə yaranacaq yeni vəziyyətlə bağlı danışdı. Bu barədə bildirmək istəyirəm ki, həqiqətən, referendumdan sonra yeni vəziyyət yaranmışdır. Hazırda Şimali Kipr Avropa qurumları tərəfindən dəstəklənir və bunun da səbəbi iqtisadi səbəblərdir. Çünki Şimali Kipr hərbi təcavüz nəticəsində bir o qədər yaxşı inkişaf etmir. Kiprin yunan tərəfində isə inkişaf kifayət qədər hamar gedir. Amma biz istəməzdik ki, şimal tərəf xoşbəxt olmasın, biz bütün adanın inkişafını istəyirik. Biz Yunanıstan olaraq, Şimali Kiprin inkişafı üçün əlimizdən gələn maliyyə yardımını əsirgəməyəcəyik.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS "HEYDƏR ƏLİYEV FONDU"NDA OLMUŞLAR

İyunun 21-də Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Prezidenti Konstantinos Stefanopulos "Heydər Əliyev Fondu"nda olmuşlar.

Burada dövlət başçılarını mehribanlıqla qarşıladılar.

Ali qonağa məlumat verildi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiramın ifadəsi kimi yaradılmış Fondun məqsədi Prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir.

Dövlətimizin başçısı İlham Əliyev Yunanıstan Prezidenti Konstantinos Stefanopulosu və onu müşayiət edən şəxsləri müxtəlif dövrlərə aid olan və ulu öndər, türk dünyasının böyük oğlu Heydər Əliyevin şəxsi arxivindən götürülmüş eksponatlar barədə məlumat verdi.

Qonaqlar Prezident Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın tanınmış siyasi liderlərinin bağışladıqları hədiyyələrlə, ulu öndərimiz haqqında yazılmış kitablarla tanış oldular, İnternet xətti ilə Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini nümayiş etdirən məlumat bazasına daxil olmaqla, bu müdrik şəxsiyyətin çoxcəhətli ictimai-siyasi fəaliyyəti barədə informasiya almaq üçün yaradılmış otağa baxdılar.

Sonra Yunanıstan Prezidenti Konstantinos Stefanopulos Fondun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin adını daşıyan Fondda olmağımdan çox şadam. Mən Prezident Heydər Əliyevlə ilk görüşlərimi böyük məmnuniyyətlə xatırlayıram. Bu gün isə Fonda gələrək, bu unudulmaz şəxsiyyəti bir daha yada salır, ona Allahdan rəhmət diləyirəm.

Konstantinos Stefanopulos

Yunanıstan Respublikasının Prezidenti

21 iyun 2004-cü il".

* * *

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos xatirə şəkli çəkdirdilər.

YUNANISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

İyunun 21-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını alqışlarla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos qəbulda nitq söylədilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram və sizə "Xoş gəlmisiniz!" deyirəm. Bu gün Azərbaycanla Yunanıstan arasındakı münasibətlərin yeni səhifəsi açılır, səmərəli siyasi dialoq aparılır. Münasibətlərimiz sürətlə inkişaf edir. Biz istəyirik ki, bu münasibətlər bütün sahələri əhatə etsin.

Hörmətli cənab Prezident!

Mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, bu səfərin ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin bundan sonra daha da genişlənməsinə öz töhfəsini verəcəkdir. Ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin daha da inkişafı və genişlənməsi xüsusi əhəmiyyət daşıyır. Ümidvaram ki, bu günlər keçirilən Yunanıstan-Azərbaycan biznes forumunda ölkənizin iş adamlarının Azərbaycanın işgüzar dairələri ilə əlaqələri əməkdaşlığımıza yeni təkan verəcəkdir. Sizin səfərinizdən sonra əlaqələrimiz daha da güclənəcəkdir. Azərbaycan dövləti özünün ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan Azərbaycanın Avropaya və Avroatlantik strukturlarına, beynəlxalq təşkilatlara inteqrasiyası önəmli yer tutur.

Məhz Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dünyada özünəlayiq yer tutmuşdur. Ölkəmiz Avropa Şurasının üzvüdür və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO və eləcə də Avropa və Avroatlantika strukturları ilə uğurlu əməkdaşlıq edir. Avropa Birliyi Azərbaycanı genişlənmiş Avropa və qonşuları siyasətinə daxil etmişdir. Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata ke-

çirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRACECA proqramı, Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu layihələrin həyata keçməsi ilə həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında yeni mərhələ başlayacaqdır. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarı Azərbaycan-Yunanıstan münasibətlərini daha da genişləndirəcəkdir. Bu kəmər ölkələrimizin iqtisadi tərəqqisi ilə yanaşı, əlaqələrinə də müsbət təsir göstərəcəkdir.

Azərbaycan regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişə ilə bağlı BMT-nin 4 qətnaməsi, ATƏT-in qərarları icra olunmamış qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində tezliklə aradan qaldırılmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Əziz qonaqlar, məmnunluqla qeyd etmək istəyirəm ki, olimpiya oyunları bu il öz tarixi vətənində - Yunanıstanda keçirilir. Azərbaycanın həm idmançıları, həm də mədəniyyət və incəsənət xadimləri bu möhtəşəm hadisəyə xüsusi hazırlaşırlar.

Hörmətli cənab Prezident!

Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edib, sizə möhkəm cansağlığı, ölkənizə isə daim inkişaf və tərəqqi arzulayıram.

Cənab Prezident, bu badəni Sizin şərəfinizə, Azərbaycanla Yunanıstan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ

- Cənab Prezident!

Səmimi sözləriniz üçün Sizə təşəkkur edirəm və Sizi əmin edirəm ki, ürəkdən gələn hisslərim yunan xalqının Azərbaycan xalqına olan dostluq münasibətini əks etdirir. Mən, həmçinin, Yunanıstan Prezidentinin Azərbaycan Respublikasına ilk rəsmi səfərində iştirak edən nümayəndə heyətimizin bütün üzvlərinə göstərdiyiniz səmimi və sıcaq qonaqpərvərliyə görə də Sizə təşəkkür edirəm.

Hələ antik dövrlərdən yunanlarla bu regionun əhalisi arasında sıx əlaqələr mövcud olmuşdur. Amma bugünkü əlaqələr daha böyük əhəmiyyət daşıyır və biz dostluğu uca tutaraq, bu əlaqələri inam ruhunda inkişaf etdirməliyik. İzn verin, Sizə xatırladım ki, Yunanıstan Azərbaycanın müstəqilliyini hələ 1991-ci ildə tanımışdır və sonra da Sizin yeni ölkənizlə diplomatik əlaqələr qurmuşdur.

Bugünkü sohbətlərimiz bizi əməkdaşlığımızın nə qədər zəruri olduğuna əmin etdi, eləcə də qarşılıqlı hörmət və inam mühiti yaradılmasının vacibliyini göstərdi. Belə mühitin olması bütün sahələrdə ikitərəfli əməkdaşlığı irəli aparmağa yardım edəcəkdir.

Yunanıstan Bakıda öz səfirliyini 1993-cü ildə açmışdır və bu, ölkənizlə əlaqələrimizin inkişaf etdirilməsinə nə qədər əhəmiyyət verdiyimizi aydın göstərir. Onun fəaliyyətə başlaması Yunanıstan-Azərbaycan əlaqələrinin tərəqqisinə güclü təsir göstərdi.

Fürsətdən istifadə edərək, Azərbaycan parlamentinin Afinada ölkənizin səfirliyini açmaq haqqındakı qərarından nə qədər məmnun olduğumuzu Sizə bildirmək istərdim. Azərbaycanın ölkəmizdə açılacaq səfirliyi Afina ilə Bakı arasında əlaqələri daha da canlandıracaqdır.

Cənab Prezident!

İndiki səfərim çərçivəsində Azərbaycan və Yunanıstan arasında iqtisadi əlaqələrin genişləndirilməsinə yönəlmiş işgüzar görüş keçirmək nəzərdə tutulmuşdur. Odur ki, nümayəndə heyətimizin tərkibinə ölkələrimiz arasında iqtisadiyyat və ticarətin müxtəlif sahələrində əməkdaşlığın perspektivlərini öyrənən biznes qrupu da daxildir. İnanırıq ki, onların burada olması və azərbaycanlı həmkarları ilə aparacağı işgüzar söhbətlər iqtisadi əlaqələrimizi daha da genişləndirəcəkdir.

İndiki səfərin iqtisadi uğuru üc mühüm ikitərəfli iqtisadi sazişin bağlanması ilə şərtlənir ki, bu da biznes və sərmayə yatırımının artmasına təkan verəcəkdir.

Enerji sahəsində bizim əlaqələrimiz artıq yaxındır və mən əminəm ki, tezliklə Azərbaycanı Qərbi Avropa ilə birləşdirəcək enerji dəhlizinin istifadəyə verilməsi ilə əlaqələrimiz yeni səviyyəyə çatacaqdır. Bu dəhliz Avropa ilə Asiya arasında yerləşən ölkənizin coğrafi-strateji və coğrafi-iqtisadi mövqeyini daha da gücləndirəcəkdir.

Mən həmcinin mədəniyyət sahəsində əlaqələrimizin tərəqqisinə sevinirəm. 1994-cü ildə ilk mədəniyyət mübadiləsi proqramının həyata keçirilməsi mədəni fəaliyyət mübadilələrinin yeni dövrünü açdı. Universitetlərimiz arasında əməkdaşlıq böyük əhəmiyyətə malikdir. Əməkdaşlıq Azərbaycan və Yunanıstan ali məktəbləri arasında sazişlər imzalamaq şəklində aparılır. Tezliklə belə razılıqların sayı artacaqdır.

Bu istiqamətdə səylərimizin bəhrəsi kimi, Bakı Slavyan Universitetində yaradılmış Müasir Yunan dili və mədəniyyəti mərkəzini göstərə bilərik. Yunanıstan hökümətinin qrantı ilə işləyəcək həmin tədqiqat və təhsil proqramı mərkəzinin açılışı sabah olacaqdır.

Cənab Prezident!

Avropa İttifaqının genişlənməsi bütün Avropa qitəsi üçün tarixi irəliləyişdir. Yunanıstan Kiprin Avropa ailəsinə daxil olmasını xüsusilə dəstəkləmişdir.

Avropaya doğru genişlənmə İttifaqın həm Şərq, həm də Cənub qonşuları ilə gələcək əlaqələri üçün nadir imkan yaradır. Əslində, genişlənmə zamanı yeni qonşulara daha sıx əlaqəyə ehtiyac duyulması faktı Aİ-nin Avropa qonşuluq siyasətinin qəbul olunmasına gətirib çıxardı. Bu siyasətin əsas məqsədi Avropa İttifaqı ilə onun qonşuları arasında əməkdaşlığı möhkəmləndirmək, siyasi dialoqu və iqtisadi əlaqələri gücləndirmək, ticarət və daxili bazar, ədliyyə və daxili işlər, eləcə də digər sektorlarda birgə işi əlaqələndirməkdir.

Biz xüsusilə şadıq ki, bir neçə gün əvvəl Yunanıstanın təklifi ilə və sədrliyi dövründə Avropa Şurası Azərbaycanı Avropa qonşuluq siyasətinə daxil etməyi qərara almışdır. Bu, bizim siyasətimizdir və Yunanıstan həmişə belə bir siyasəti dəstəkləmişdir ki, Qafqazın hər üc ölkəsi mümkün qədər tezliklə və əslində, eyni vaxtda bu siyasətə qoşulmalıdır.

İcazə verin xatırladım ki, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunması və Azərbaycanla enerji dialoqu aparılması da Yunanıstanın sədrliyi dövrünə təsadüf edir.

Cənab Prezident!

Yunanıstan ölkənizdə siyasi və iqtisadi islahatların gedişinə, demokratik təsisatların güclənməsi və qanunun aliliyi naminə həyata kecirilən tədbirlərə xüsusi maraq göstərir və Sizi işdə ruhlandırır.

Ölkəmiz 2001-ci ildə Azərbaycanın Avropa Şurasına qəbul olunmasını ürəkdən müdafiə etmişdir.

Yunanıstan bizim beynəlxalq təşkilatlarda əməkdaşlığımızı olduqca qənaətbəxş hesab edir.

Fürsətdən istifadə edərək, 2005-2006-cı illərdə Yunanıstanın BMT Təhlükəsizlik Şurasında sədrliyə namizədliyini dəstəklədiyi ücün Azərbaycana minnətdarlığımı bildirirəm.

Yunanıstan Dağlıq Qarabağ probleminin həlli üçün Azərbaycan hökümətinin göstərdiyi səylərə böyük əhəmiyyət verir. Avropa İttifaqı kimi, mənim ölkəm də problemin Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqlar yolu və Minsk qrupunun vasitəçiliyi ilə ədalətli və həmişəlik həll əldə olunmasına dəstəyini bildirir. Məsələnin həllində beynəlxalq qanunlara əsaslanmaq və regionda sülhə təhlükə yarada biləcək addımlardan çəkinmək lazımdır.

Cənab Prezident!

Yunanıstan Cənub-Şərqi Avropanı xarici siyasətində prioritet hesab edir. Biz qonşularla ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığa can atırıq ki, regionda sülh və təhlükəsizliyi qoruyaq. Təəssüf ki, regionda qığılcımın alovlanması risqi var. İnanırıq ki, Cənub-Şərqi Avropa ölkələrini Avropa İttifaqına və NATO-ya qoşulması barədə qəti qərarı regionda sülhün və əməkdaşlığın möhkəmləndirilməsinə kömək edəcək, əhaliyə firavanlıq gətirəcəkdir. Yunanıstan həmin ölkələrə Avropa yolunda öz köməyini əsirgəməyəcəkdir. Ölkəmizin bu istiqamətdə Salonik sammitində (2003-cü il, 21 iyun) göstərdiyi səylər hamıya məlumdur. Nəticədə, Qərbi Balkan ölkələri Avropa İttifaqına daxil olmağa imkan tapdılar

Ölkəmiz, həmçinin, regionda ümumi maraqlar naminə Yunanıstan-Turkiyə əlaqələrinin yaxşılaşdırılmasına yönələn əməkdaşlıq siyasətinə üstünlük verir. Biz Yunanıstan-Turkiyə əlaqələrini beynəlxalq qanunlar çərçivəsində və mehriban qonşuluq münasibətləri zəminində qurmaq istəyirik. Ümid edirik ki, səmimi arzumuz qonşularımız tərəfindən eyni səmimiyyətlə qarşılanacaqdır. Baş nazir Ərdoğanın yaxın zamanda Afinaya səfəri bizim ümidimizi də, ölkələrimiz arasında əməkdaşlığa olan istəyi də artırmışdır.

Cənab Prezident,

Kiprdə keçirilmiş referendumun nəticələri göstərdi ki, o, nə iki icma arasında tarazlığı möhkəmləndirdi, nə də gələcəkdə əlaqələrin inkişaf edə bilməsinə lazımi təminat yaratdı. Sizi əmin etmək istəyirəm ki, Yunanıstan kimi, Kipr yenə də icmaların maraqları və

Avropa İttifaqının əsas prinsipləri çərçivəsində BMT baş katibinin adanın yenidən birləşməsi planına tərəfdardır. Kiprin İttifaqa qəbul olunması Kipr probleminin həllinə yeni dinamizm gətirdi. Görüləcək işlər bəzi əsaslı aydınlıq gətirməkdən və BMT baş katibinin planını mükəmməlləşdirməkdən ibarətdir ki, bundan da hər iki tərəf xeyir görər.

Axırda mən iki aydan sonra dünyanın diqqətini cəlb edəcək Olimpiya oyunları üzərində dayanmaq istərdim. Bu, bizim tarixi irsimizdir, fəxr etməyə haqqımız var. Biz oyunları keyfiyyətli təşkilat və yüksək ədalət ölçüsü ilə keçirməkdə israrlıyıq. Bunun üçün nə lazımdırsa edirik və inanırıq ki, səylərimiz uğurlu nəticəsini verəcəkdir. Həmçinin ümid edirik ki, antik dövrlərdən keçib gələn böyük Olimpiya barışığı xalqlar arasında sülhü və əməkdaşlığı möhkəmləndirəcəkdir.

Cənab Prezident,

İnanıram ki, bizim bugünkü danışıqlarımız ölkələrimiz arasında gələcək əlaqələrimizin inkişafı və dərinləşməsi üçün möhkəm zəmin yaradacaqdır. Elə həmin ruhda da qonaqpərvərliyinizə görə bir daha Sizə təşəkkür edirəm və bu badəni Sizin və xanımınızın şərəfinə, dost Azərbaycan xalqının tərəqqisi və xoşbəxt gələcəyi naminə qaldırıram.

AZƏRBAYCAN İQTİSAD UNİVERSİTETİNDƏ GÖRÜŞ

Ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Prezidenti Konstantinos Stefanopulos və onu müşayiət edən nümayəndə heyəti iyunun 22-də Azərbaycan İqtisad Universitetində olmuşdur.

Ali qonağı universitetdə mehribanlıqla, gül-çiçəklə qarşıladılar.

Universitetin akt salonunda keçirilən görüşü AİU-nun rektor əvəzi, professor Telman Hüseynov açaraq, ali qonağı və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini çoxsaylı professor-müəllim və tələbə heyəti adından salamladı. O bildirdi ki, Azərbaycan Dövlət İqtisad Universiteti 74 ildir fəaliyyət göstərir. Hazırda bu ali təhsil müəssisəsinin 12 fakültəsində 15 minə yaxın tələbə bazar iqtisadiyyatının tələblərinə uyğun olan 50 ixtisas üzrə təhsil alır. Onlara 58 kafedrada 800-dən çox müəllim dərs deyir ki, bunlardan 59-u professor, 52-si elmlər doktoru, 395-i isə elmlər namizədi və dosentdir.

T.Hüseynov üniversitetin zəngin maddi-texniki bazasından, tədrisin və elmi araşdırmaların beynəlxalq standartlara uyğun aparılmasından danışdı, dünyada gedən qlobal iqtisadi proseslərlə daha yaxından tanış olmaq və tədrisin səviyyəsini beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədi ilə 500-dən çox kompüterin lokal şəbəkədə birləşdirilərək fasiləsiz olaraq İnternet sisteminə qoşulduğunu, qısa müddət ərzində dünyanın bir sıra tanınmış ali təhsil mərkəzləri ilə sıx əlaqələr qurulduğunu söylədi. O dedi ki, hazırda Yunanıstanda oxuyan 6 nəfər azərbaycanlıdan biri AİU-nun tələbəsidir və Afina Universitetinin doktoranturasında təhsil alır.

Universitetin rektor əvəzi Yunanıstan Prezidentinə müraciətlə dedi ki, bu bina bizim üçün, bütün Azərbaycan xalqı üçün çox əzizdir. Çünki ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev vaxtilə məhz bu binada təhsil almışdır. Siz bura təşrif buyuran ikinci, prezidentsiniz. İki il bundan öncə, məhz iyun ayında, universitetimizin 70 illik yubileyində Azərbaycan xalqının ümummilli lideri cənab Heydər Əliyev bizim görüşümüzə gəlmiş-

di. O, universitetin professor-müəllim heyəti qarşısında çox geniş məzmunlu nitq söylədi. Üstündən iki il keçməsinə baxmayaraq, biz indi də həmin nitqin təsiri altındayıq. Sizdən əvvəl heç bir əcnəbi ölkə prezidenti bizim qonağımız olmamışdır. Buraya təşrif gətirən ilk xarici ölkə prezidenti kimi Sizin adınız bizim universitetin tarixinə düşəcəkdir.

Yunanıstan Prezidenti KONSTANTİNOS STEFANOPULOS çıxış edərək dedi ki, mənim üçün çox böyük şərəf və sevincdir ki, bu universitetdəyəm. Biz iqtisadi sahədən başlayaraq, bütün sektorlarda əlaqələrimizi inkişaf etdirəcəyik. Mən verilən məlumatları çox diqqətlə dinlədim. Ümidvaram ki, Azərbaycan İqtisad Universiteti ilə Yunanıstanın universitetləri arasında münasibətlər inkişaf edəcəkdir. Tələbə mübadiləsi əməkdaşlığımızın bir hissəsi olacaqdır. Əminəm ki, bu işdən hər iki tərəf faydalanacaq və bu da əməkdaşlığımıza daha da təkan verəcəkdir.Ali qonaq qloballaşmadan danışaraq bildirdi ki, heç kəs qloballaşmanın dəqiq mənasını bilmir. Lakin onun elmi cəhətdən bir mənası var. Qloballaşma dinlərin birləşməsi deyil, insanların birgə inamı deyil, sülhə nail olmaq üçün dövlətlərin razılaşması da deyildir. Belə görünür ki, qloballaşma maliyyə sektoruna aiddir. Bu, dünyada gedən proseslərdə çox böyük əhəmiyyət kəsb edir. Qloballaşmanın iqtisadi mənası o deməkdir ki, bu, üstünlük təşkil edən ümumi azad bazardır. Yəni bütün sahələrdə azadlıq başa düşülməlidir. Bu, təkcə iş adamlarına, biznesmenlərə deyil, bütün insanlara səmərə gətirir. Hökumətlərin bu sahədə çox vacib rolu var. Yəni onlar elə bir siyasət aparmalıdır ki, deyilən dəyərlər insanlar arasında bərabər bölüşdürülsün. Burada iş adamlarının fəaliyyəti vacibdir. Lakin onların da fəaliyyəti vergi siyasətinin düzgün qurulmasından sonra həyata keçirilə bilər.

Cənab Konstantinos Stefanopulos görüşə toplaşanların professorlar və iqtisadiyyat sahəsində fəaliyyət göstərən insanlar olduğunu vurğulayaraq dedi ki, burada yunan iş adamlarını da görürəm və çox şadam. Təşəkkür edirəm ki, onlar bizim nümayəndə heyətinə qoşulub buraya gəlmişlər. Azərbaycanın da iş adamları buradadırlar. Bakıya gələn iş adamlarından ibarət nümayəndə heyəti mənim Prezident olduğum dövrdə xaricə səfər edən ən böyük heyətdir. Bizim iş adamlarımız bir çox şirkətlərdən gəlmişlər. Onların arasında neft, təbii qaz şirkətlərinin nümayəndələri vardır. Özəl sektordan olan iş adamları öz həmkarları ilə əməkdaşlıq etmək üçün buraya gəliblər və bu səfəri o zaman uğurlu hesab edərik ki, iqtisadi sahədə uğur qazanılsın. Xoşbəxtlikdən, bizim xalqlarımız və iş adamlarımız arasında heç bir ziddiyyət yoxdur. Ona görə də yeganə iş onların özlərinin əməkdaşlıq etməsidir.

Yunanıstan Prezidenti Bakıda keçirilən görüşlərin uğurlu olduğunu, qurulan əməkdaşlığın iki dövlətin və xalqın mənafeyinə xidmət etdiyini, yunan iş adamlarının yaxşı təcrübəsinin olduğunu vurğuladı.

Ali qonaq dedi ki, Azərbaycan çox sürətlə inkişaf edən bir ölkədir. Azərbaycanın təbii sərvətləri təkcə neft və qazla məhdudlaşmır. Azərbaycanın əsas sərvəti onun savadlı, ağıllı insanlarıdır ki, onlar qarşıya qoyduqları məqsədə çatmaq üçün çalışır və buna nail olurlar. Mən Azərbaycanla tanış olduğum müddətdə görürəm ki, bizim mentalitetimiz bir-birindən çox da fərqlənmir. Ümid edirəm ki, əlaqələrimiz gələcəkdə də inkişaf edəcək və xalqlarımıza, dövlətlərimizə fayda gətirəcəkdir. Biz bu səfər çərçivəsində Azərbaycanla Yunanıstan arasında iqtisadi əməkdaşlığın əsasını qoyduq. Əminəm ki, bunun üzərində biz böyük bir bina tikəcəyik. Bu əməkdaşlıq təkcə iki xalqa səmərə gətirməyəcək, qonşuluğumuzda olan ölkələr də bundan faydalanacaqlar.

Sonda Yunanıstan Prezidenti Konstantinos Stefanopulos bu görüşə görə universitetin rəhbərliyinə, iştirakçıların hamısına təşəkkür etdi və dedi ki, mən Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Çünki məhz onun siyasəti nəticəsində Azərbaycanda Yunanıstana qarşı səmimi və xoş hisslər var. Azərbaycana tərəqqi, İqtisad Universitetinə, bütün Azərbaycan xalqına uğurlar diləyirəm.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

İyunun 22-də Bakı Slavyan Universitetində Yunanıstan Prezidenti Konstantinos Stefanopulosa BSU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi olmuşdur. Yunanıstan Prezidentini universitetdə hərarətlə qarşıladılar. Tələbələr qonağa gül dəstəsi təqdim etdilər.

Mərasim tələbə xorunun ifasında Azərbaycanın və Yunanıstanın dövlət himnlərinin səslənməsi ilə başlandı.

Mərasimi Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev açdı.

BAKI SLAVYAN UNİVERSİTETİNİN REKTORU PROFESSOR KAMAL ABDULLAYEVİN ÇIXIŞI

- Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, həmkarlar və tələbələr!

Xanımlar və cənablar!

İcazənizlə, Yunanıstan Respublikasının Prezidenti möhtərəm cənab Konstantinos Stefanopulosa Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimini açıq elan edim.

Mən böyük məmnuniyyətlə bildirirəm ki, Bakı Slavyan Universiteti Elmi şurasının 2004-cü il 12 iyun tarixli geniş iclası Yunanıstan və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsində, iki dövlət arasında əməkdaşlığın genişləndirilməsində, elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin dərinləşdirilməsində göstərdiyi xidmətlərinə görə Yunanıstan Respublikasının Prezidenti cənab Konstantinos Stefanopulosa Bakı Slavyan Universitetinin fəxri doktoru adı verilməsi barədə yekdilliklə qərar qəbul etmişdir.

Cənab Prezident, mən bu münasibətlə həm Sizi, həm də Bakı Slavyan Universitetinin elmi şurasını ürəkdən təbrik edirəm.

Bugünkü görüş, şübhəsiz ki, Azərbaycanda son illər aparılan daxili və xarici siyasətin nəticəsidir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik dövlət quruculuğu sayəsində müstəqil Azərbaycan bu gün dünya birliyi ölkələri ilə, o cümlədən qədim tarixə və zəngin mədəniyyətə malik, regionda nüfuzlu bir dövlət olan Yunanıstanla qarşılıqlı fayda verən əməkdaşlıq, əsl dostluq münasibətləri qurur. Bu gün biz çox şadıq ki, möhtərəm Prezident, Siz və Prezident İlham Əliyev bu münasibətlərin daha da dərinləşməsinə və genişlənməsinə çalışırsınız. Sizin ölkəmizə səfərinizi bu müdrik və perspektivli siyasətin yeni bir təzahürü kimi yüksək qiymətləndirir, universitetimizə gəlişinizdən şərəf duyur, Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, hörmətli qonaqlar!

Bakı Slavyan Universiteti Azərbaycanın bir sıra xarici ölkələrlə elmi, mədəni əlaqələrinin qurulmasının vacib bir komponentinə çevrilmişdir.

Biz bu gün əsas profilimiz olan slavyan dilləri ilə yanaşı, yunan, ingilis, türk, Azərbaycan dil və ədəbiyyatlarını, tarix və mədəniyyətlərini də uğurla tədris edirik. Bu genişliyə çıxmağı bizə BSU-nun yaradıcısı Prezident Heydər Əliyev tövsiyə etmişdir. Məmnuniyyətlə qeyd edirəm ki, öyrəndiyimiz, tədqiq etdiyimiz dillərin mədəniyyət-tədris mərkəzlərinin açılışı bir ənənəyə çevrilməkdədir. BSU-da artıq Rusiya mədəniyyət mərkəzi, Türk mədəniyyət mərkəzi, Ukrayna mədəniyyət mərkəzi fəaliyyət göstərir. Bu gün mən fərəh hissi ilə Yunan mədəniyyət mərkəzinin açılışı barədə xəbər verirəm və ikiqat xoşdur ki, cənab Prezident, bu mərkəzi məhz Siz açacaqsınız.

Cənab Prezident!

Diqqətinizə çatdırmaq istərdim ki, yunan dili və ədəbiyyatı, yunan mədəniyyəti, ümumiyyətlə, yunanşünaslıq ixtisası universitetimizdə layiqli yer tutur. Yunanşünaslıq həm bakalavriat, həm də magistraturada müstəqil ixtisas kimi təmsil olunmuşdur.

Tələbə və magistrlərə yunan dili və ədəbiyyatı, Yunanıstanın zəngin tarixi və etnoqrafiyası, ictimai-fəlsəfi fikir tarixi, yunan mədəniyyəti, müasir Yunanıstanın qanunvericiliyi, siyasi qurumları, kütləvi informasiya vasitələri, iqtisadiyyatı, coğrafiyası, beynəlxalq əlaqələri, o cümlədən Azərbaycanla siyasi, iqtisadi və mədəni əlaqələri barədə ətraflı biliklər verilir. Elə bu yaxınlarda tələbələrimizin təşəbbüsü ilə "Yunanıstanın müasir dünyada yeri: ideologiya, siyasət, iqtisadiyyat və mədəniyyət" adlı çox maraqlı və geniş tələbə konfransı keçirilmiş, məruzələr çap olunmuşdur. Universitetimiz yunan mədəniyyətinin təbliği sahəsində respublika miqyasında da ciddi işlər görməkdədir. Belə ki, 2001-ci ildə BSU-da "Beynəlxalq Kazanzakis və onun dostları cəmiyyəti"nin "Banin və Kazanzakis" filialı yaradılmışdır.

Cənab Prezident!

Tələbə və müəllimlərimiz imkan düşdükcə, Yunanıstanın ali məktəblərində, - bunlardan Afina və Yanin universitetlərini xüsusi qeyd etmək istərdim, - ixtisaslarını artırırlar. Lakin bu işin genişlənməsinə ehtiyac duyulduğunu diqqətinizə çatdırmaq istərdim. Biz artıq Yunanıstanın Makedoniya (Saloniki) Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalamışıq, Yanin Universiteti ilə müqavilə bağlanması ərəfəsindəyik. Yunanıstanın bir sıra dövlət adamları, təhsil işçiləri ilə maraqlı görüşlər keçirmişik. 2002-ci ilin sentyabrından başlayaraq, Yunanıstan Xarici İşlər Nazirliyinin mədəniyyət-təhsil departamentinin, təhsil nazirliyinin beynəlxalq əlaqələr departamentinin, mədəniyyət nazirliyinin beynəlxalq mübadilə departamentinin rəhbər və əməkdaşları, Makedoniya (Saloniki) Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor xanım Parulo Parakes BSU-nun qonağı olmuşlar.

Özümə borc bilirəm deyəm ki, bizə bu əlaqələrin qurulmasında Yunanıstanın Azərbaycandakı səfiri, universitetimizin həqiqi dostu cənab Merkurios Karafotias yaxından kö-

mək edir. Sizin qarşınızda ona bir daha dərin təşəkkürümü bildirirəm.

Ta qədim zamanlardan Azərbaycan-Yunanıstan əlaqələri ədəbiyyatla, elmlə başlanır. Qədim azərbaycanlıların epik dastanı "Kitabi-Dədə Qorqud" da qədim yunan mifləri sanki özlərinə yeni ədəbi məskən bulmuş kimidirlər. Bu dastanda Odisseyin, Aqamemnonun, Heraklın, Admetin, Gözəl Yelenanın, Penelopanın paralel variantlarının mövcudluğunu hələ XIX əsrdə avropalı alimlər qeyd edirdilər.

Nizami XII əsrdə öz ölməz poemalarından birini Makedoniyalı İskəndərə həsr etmişdi.

Sokrat, Platon, Aristotel orta əsrlərdən bəri bir çox görkəmli Azərbaycan alim və şairlərinin yaradıcılığına təsir göstərmiş, onlara müdriklik ruhu vermişdir. Biz bu gün də bu xətləri davam etdirmək üçün çalışırıq.

Cənab Prezident, biz Sizin Azərbaycan səfərinizi, Prezident İlham Əliyevlə strateji əlaqələr qurmaq təşəbbüslərinizi alqışlayırıq. İnanırıq ki, Sizinlə, dost və qardaş Yunanıstan Respublikasının Prezidenti ilə bu görüş tələbə və müəllimlərimizi yeni nailiyyətlərə ruhlandıracaq, BSU və Yunanıstan Universitetləri arasında əlaqələrin inkişafına təkan verəcək, xalqlarımız arasında, ümumiyyətlə regionumuzda qarşılıqlı anlaşma və inteqrasiya proseslərinə müsbət təsir göstərəcəkdir.

Əminik ki, Azərbaycana gəlişiniz bu gün ən böyük problemi totalitar sovet rejiminin məhsulu olan Dağlıq Qarabağ probleminin obyektiv həllini bir addım da bizə yaxınlaşdıracaqdır. Biz inanırıq ki, qədim Elladanı bölmək mümkün olmadığı kimi, qədim Azərbaycan torpağının da bölünməsini bizlər kimi, Siz və Sizin kimi mütərəqqi dünya liderləri qəbul edə bilməzlər.

Cənab Prezident, ümidvaram və əminəm ki, bu gün Sizin BSU-da açacağınız yunan mədəniyyət mərkəzi ölkələrimiz və xalqlarımız arasında yeni, möhkəm mənəvi körpü olacaqdır.

İcazə verin, universitetimizə gəlişiniz, professor-müəllim və tələbə kollektivi ilə görüşünüz üçün Sizə bir daha təşəkkürümü bildirim, Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunu və doktor mantiyasını Sizə təqdim edim.

* * *

BSU-nun rektoru professor Kamal Abdullayev Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosa universitetin fəxri doktor diplomunu və doktor mantiyasını təqdim etdi. Qonağa Azərbaycan xalçası da hədiyyə olundu.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ

- Hörmətli rektor, tələbələr və qonaqlar!

Mənim üçün burada olmaq çox böyük şərəfdir. Mən bunu xoş söz xatirinə demirəm. Səmimi qəlbdən bildirmək istəyirəm ki, Bakı Slavyan Universitetinin fəxri doktoru olmaq mənim üçün çox böyük şərəfdir.

Sizə onu da bildirim ki, mən indiyədək bu cür böyük elmi adlardan imtina etmişəm. Bu, ilk elmi addır ki, mən onu qəbul edirəm. Onun səbəbini mən sizə izah edəcəyəm.

İlk növbədə, buna səbəb Azərbaycanın təhsil ocağının məni bu ada layiq görməsidir. Mən bu ölkəyə ilk dəfədir ki, səfər edirəm və Azərbaycanla ən yaxın əlaqələrin qurulması arzusundayam. Mən Azərbaycanda olan inkişafı çox yüksək qiymətləndirirəm. Azərbaycanın dövlət başçılarından mən ilk dəfə mərhum Prezident cənab Heydər Əliyevlə görüşmüşdüm. O vaxtdan indiyədək onun apardığı siyasətin nəticələrini görürəm və heyran oluram. Heydər Əliyevlə ilk görüşümdən sonra sizin ölkə ilə münasibətlərə böyük diqqət yetirirəm. Ölkələrimiz arasında münasibətlər çox səmimidir. Buna görə də sizin mənə layiq gördüyünüz fəxri doktor adını böyük sevinc hissi ilə qəbul edirəm.

Bunun ikinci səbəbi, bu adın məhz Bakı Slavyan Universiteti tərəfindən verilməsidir. Bilirsiniz ki, qədimdən slavyanlar və yunanlar arasında fikir mübadiləsi mövcud idi. Onların arasında çox sıx əlaqələr var idi.

Ən başlıca səbəblərdən biri isə sizin universitetdə Yunan dili və mədəniyyəti mərkəzinin yaradılmasıdır. Biz onun açılışında iştirak edəcəyik. Ümumiyyətlə, hər hansı xarici dili öyrənmək çox çətin bir sahədir. Çünki dili öyrənən zaman həmin dilin nə vaxtdan yarandığını, insanların bu dildə nə vaxtdan danışdığını öyrənmək lazım gəlir. Dil insanlar üçün vacibdir. Hələ lap qədimlərdə insanlar ancaq mimikaları ilə nə isə anlada bilirdilər. Lakin sonralar sifət əzələlərinin zəifləməsi nəticəsində onların beyinləri inkişaf etməyə başladı. Bunun nəticəsi olaraq insanlar beyinlərini işlədərək, müxtəlif səslərlə bir-birilərini başa salmağa çalışırdılar. Beləliklə, qədim insanlarda dil formalaşmağa başladı.

Əsrlər boyu gedən bu inkişafdan sonra insanlar ünsiyyətin yazı formasını öyrəndilər.

Yunan dili dünyanın ən qədim dillərindəndir. Yunan dilinin inkişafını iki istiqamətə ayırmaq olar. Birinci istiqamət bizim eradan əvvəl 1400-cü ildə, ikinci istiqamət isə eradan əvvəl 1200-cü ildə yaranmışdır. Yunanıstanda və Misirdəki tapıntılar və aparılan tədqiqatlar belə fikir söyləməyə əsas verir ki, yunan dilinin yaranması eramızdan çox əvvəllərə təsadüf edir. Müasir yunan dilinin əlifbası məhz qədim yunan dilinin əlifbasıdır. Bununla yanaşı, yunan dili inkişaf mərhələsi də keçmişdir.

Sizin universitetdə yaradılmış Yunan dili mərkəzinin açılışında görəcəksiniz ki, müasir yunan dilində istifadə olunan sözlər məhz qədim yunan tarixçilərinin, filosoflarının istifadə etdikləri sözlərdir. Yunan dilinin davamlı inkişafı və müasir dövrədək gəlib çatması şərəfli bir hadisədir. Yunan dili bir çox müasir dillərin inkişafına da böyük təkan vermişdir. Fikir versəniz görərsiniz ki, bütün dillərdə xüsusilə də Avropa dillərində yunan dilindən törənmiş sözlər mövcuddur və onlar eyni səslənir.

- Hörmətli tələbələr!

Sizə bildirmək istəyirəm ki, siz həyatınızın ən vacib mərhələsindəsiniz.İndi siz biliyinizi artırırsınız, inkişaf edirsiniz. Sizin üçün yaradılmış bütün şəraitlərdən istifadə etməyə çalışın. Elm öyrənin, çünki müəyyən vaxt keçdikdən sonra siz bunlara vaxt tapmayacaqsınız. Mən də cavan olmuşam, mən də tələbəlik illəri keçirmişəm. Lakin o zaman öyrəndiklərim indi yadımda deyildir. Mənim sizə məsləhətim ondan ibarətdir ki, oxuyub elmli olun və gələcəkdə ölkəniz üçün xeyirli vətəndaş olasınız.

Mənim Prezidentlik müddətimin bitməsinə az vaxt qalır. Lakin mən Azərbaycana etdiyim səfəri və sizin universitetdə olan bu gözəl tədbiri yadımda saxlayacağam.

Əminəm ki, Bakı Slavyan Universiteti öz keçmişi ilə, müasir dövrü və gələcəyi ilə dünyanın ən qabaqcıl universitetlərdən biri olacaqdır. Mən Afina Universitetinin hüquq fakültəsini bitirmişəm və çox şadam ki, sizin universitetin fəxri doktoru adına layiq görülmüşəm.

Mən bu şərəfli tədbirə və burada iştirakınıza görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Hamınıza müvəffəqiyyətlər arzu edirəm. Xahiş edirəm, bu kiçik hədiyyəni qəbul edəsiniz. Bu, gümüş qabdır. Orada mənim şəxsi imzam var.

Çox sağ olun.

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İNZİBATİ BİNASINDA "OLİMPİYA RUHU" SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİ

İyunun 22-də Azərbaycan Milli Olimpiya Komitəsinin inzibati binasında "Olimpiya ruhu" sərgisinin açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos mərasimdə iştirak edirdilər.

Yunanıstan Mədəniyyət Nazirliyinin sponsorluğu ilə bu ölkənin Bakıdakı səfirliyinin təşkil etdiyi sərgi "Antik Olimpiya oyunları", "1896-cı ildə Afina Olimpiya oyunlarının bərpası" və "Afina-2004" bölmələrindən ibarətdir. Birinci və ikinci bölmələr Yunanıstan muzeyləri və arxivlərinin eksponatları əsasında hazırlanmışdır. Sonuncu bölmə isə qarşıdakı Olimpiya oyunlarının keçiriləcəyi idman qurğularından bəhs edir.

Burada Azərbaycan rəssamı Kərim Cəlalın "Afina-2004" adlı əsəri də nümayiş edilir.

Dövlət başçıları sərginin açılışını bildirən lenti kəsdilər. Prezident İlham Əliyev Yunanıstan Prezidenti Konstantinos Stefanopulosa Azərbaycan Milli Olimpiya Komitəsinin hədiyyələrini təqdim etdi.

Sonra Milli Olimpiya Komitəsinin akt salonunda respublikamızın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi. Yığıncaqda Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Artıq ikinci gündür ki, Yunanıstan Prezidenti cənab Stefanopulos Azərbaycanda rəsmi səfərdədir. Artıq demək olar ki, bu səfər çox uğurlu keçir. Dünən və bu gün keçirdiyimiz görüşlərdə, apardığımız danışıqlarda bir daha əmin olduq ki, Yunanıstanla Azərbaycan arasında münasibətlər sürətlə inkişaf edir, bir çox sahələri əhatə edir. Biz əminik ki, bu səfər nəticəsində aramızda olan əlaqələr daha da genişlənəcəkdir.

Səfər çərçivəsində müxtəlif tədbirlər keçirilmişdir. Buna misal olaraq 1-ci Yunanıstan–Azərbaycan biznes forumunu göstərmək olar. Deyə bilərəm ki, cənab Prezidentlə

ölkəmizə gəlmiş böyük sayda iş adamları Azərbaycanın iş adamları ilə çox səmərəli işləyiblər. Biz ümid edirik ki, iki ölkə arasında olan iqtisadi əlaqələr bundan sonra daha da güclənəcəkdir.

Cənab Prezidentin səfəri çox gərgin keçir. Səfər çərçivəsində Bakı Slavyan Universitetində Yunanıstan Prezidentinə fəxri doktor adı verilibdir. Bu gün isə əziz dostlar, biz sizinlə görüşürük. Çox sevindirici haldır ki, səfər çərçivəsində Milli Olimpiya Komitəsində gözəl sərgi keçirilir. Mən əminəm ki, bu sərgi böyük maraqla qarşılanacaqdır.

Azərbaycanda idmanın inkişafına, olimpiya hərəkatına çox böyük diqqət göstərilir. İdmanın maddi-texniki bazası güclənir, ölkəmizin müxtəlif bölgələrində yeni müasir idman qurğuları, dünya standartlarına uyğun olimpiya kompleksləri inşa edilir. Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlardan, olimpiya oyunlarından, dünya və Avropa çempionatlarından vətənə qələbə ilə qayıdırlar. Xüsusilə qeyd etməliyəm ki, 2000-ci ildə Sidneydə keçirilmiş Olimpiya oyunlarında Azərbaycan idmançıları iki qızıl, bir bürünc medal qazanmış, bununla da dünya ölkələri sırasında 34-cü yeri tutmuşlar.

Deyə bilərəm ki, bizim idmançılarımız, idman ictimaiyyəti Afinada keçiriləcək Olimpiya oyunlarına da çox ciddi hazırlaşır. Nəinki hazırlaşır, hətta deyə bilərəm ki, Olimpiya oyunlarının proqramlarında fəal iştirak edir. Olimpiya oyunlarına hazırlıq proqramı çərçivəsində Azərbaycanda üç idman növü - voleybol, taekvondo və boks üzrə təsnifat turnirləri keçirilmişdir. Bu turnirlərdə bir çox ölkələrdən gələn idmançılar Azərbaycanda qarşıdakı Olimpiya oyunlarına vəsiqələr qazanmışlar.

Bir ölkədə üç təsnifat turnirinin keçirilməsi dünya praktikasında nadir hallardan biridir. Biz bunu beynəlxalq idman ictimaiyyətinin Azərbaycana olan diqqətinin, hörmətinin əlaməti kimi qəbul edirik. Əlbəttə, biz ümid edirik ki, Azərbaycan idmançıları Afinada Olimpiya oyunlarında da ölkəmizi layiqincə təmsil edəcək, vətənə qələbə ilə qayıdacaqlar.

Mən əminəm ki, bu iki gün ərzində Yunanıstan və Azərbaycan bir-birinə daha yaxın olublar. Prezident Stefanopulosun səfəri çox uğurlu sayıla bilər. Bu səfərdən sonra iki ölkə arasında olan münasibətlər bütün sahələrdə uğurla inkişaf edəcəkdir.

Əziz cənab Prezident,

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sərginin MOK-da təşkilinə görə onun təşkilatçılarına dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ

- Cənab Prezident,

Xanımlar və cənablar,

Əziz qonaqlar!

Həqiqətən də, Azərbaycana səfərimiz çox uğurlu keçir. Bu, yalnız cənab Prezidentin sadaladığı səbəblərdən irəli gəlmir. Bu səfər ona görə uğurludur ki, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan xalqı bizə çox böyük qonaqpərvərlik göstərmişdir. Bizi burada istiqanlılıqla qarşılamışlar. Bütün bunlara görə biz Azərbaycanda olduğumuzdan məmnunuq.

Qonaqpərvərlik ənənələri Yunanıstanda da qədimdən mövcuddur. Lakin son 30 il ərzində Yunanıstanda bu ənənə bir qədər zəifləmişdir. Bununla belə, qonaqpərvərlikdə biz sizinlə rəqabət aparsaq, bu, gözəl idman yarışı olardı.

Cənab Prezident, bugünkü imkandan istifadə edərək, bizə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımızı bildirmək istəyirik. Elə bilirik ki, bizim bu görüşümüz gələcək imkanların, əməkdaşlığın möhkəm əsasını qoymuşdur.

Əgər bu gün bu müasir binadan baxsaq görərik ki, həqiqətən, ətrafda müasir idman qurğuları, meydançalar və üzgüçülük hovuzları vardır.

Ümid edirəm ki, hamımızın səbirsizliklə gözlədiyimiz və böyük maraqla izləyəcəyimiz Afina Olimpiya oyunları uğurla başa çatacaqdır.

Sizə məlum olduğu kimi, qədim Yunanıstan bir sıra nadir inciləri kəşf etmişdir. Olimpiya oyunlarının özünü də buna misal gətirmək olar. İlk dəfə Olimpiya oyunları qədim Yunanıstanda eramızdan əvvəl 776-cı ildə keçirilmişdir. Qədim yunanlar Olimpiya oyunlarına böyük əhəmiyyət vermişlər və onun vacibliyi indi də öz aktuallığını saxlayır, bu ənənə bütün dünyada davam etdirilir.

Olimp dağında keçirilmiş idman yarışları qədim Yunanıstanda keçirilən yeganə yarışlar olmamışdır. Eyni zamanda, Yunanıstanın bir sıra bölgələrində də idman yarışları keçirilirdi. Olimpiya oyunları həmişə mühüm mədəniyyət hadisələri ilə müşayiət olunurdu. İdmançıların yarışları ilə bərabər şairlər, natiqlər öz çıxışlarında Olimpiya oyunlarına ruh verirdilər. Bu dəfə də belə olacaqdır. Olimpiya oyunları qədim yunanların məşq etmək, yaxşı əsgər olmaq arzusundan irəli gəlmişdir. Onlar həmişə qaçmaqda, vuruşmaqda, üzməkdə yaxşıların yaxşısı sırasında olmağa çalışmışlar. Bununla belə, yunanların əsas arzusu, əsas istəyi sülh olmuşdur. Olimpiya oyunları da sülh rəmzidir. Ona görə də bu zaman müharibə edən tərəflər arasında barışıq imzalanır və mədəni tədbirlər keçirilirdi.

Elə vaxtlar olmuşdur ki, Yunanıstanda Olimpiya oyunlarına lazımi diqqət yetirilməmişdir. Bunun da əsas səbəbi romalıların Yunanıstana qarşı təcavüzkar siyasəti idi. Lakin onların təcavüzündən sonra yenidən Olimpiya oyunları bərpa olunmuş və sülh şəraitində davam etdirilmişdir.

Biz Afina Yay Olimpiya oyunlarının keçirilməsinə hazırlaşırıq. Bizim əsas məqsədimiz olimpiya idealını bütün dünyaya tanıtmaqdan ibarətdir. İştirakçılar hansı kürsüyə qalxacaqlarından asılı olmayaraq, Olimpiadada iştirak etdiklərindən qürur duya bilərlər. Olimpiya oyunlarında iştirak etməyin özü hər bir idmançıya qürur hissi gətirir.

Milli Olimpiya Komitəsinin qarşısında bir sıra məqsədlər durur. Bunlardan mühümləri idmana maliyyə yardımı etmək, idmanla məşğul olan gənclərə bilik toplamağa kömək etməkdir. Lakin ən əsası onlara öz ölkələrinin idman şərəfini qorumaq və dövlətinin başını uca etmək hisslərini aşılamaqdan ibarətdir.

Zati-aliləri cənab Prezident!

Siz Olimpiya oyunlarına gələcəksiniz. Siz orada Yunanıstanın imkanları ilə özünüz tanış olacaqsınız. Lakin mən bu gündən Sizi əmin etmək istəyirəm ki, Yunanıstan Olimpiya oyunlarına çox ciddi hazırlaşmışdır.

Qədim yunanlar idmana öz məhəbbətlərini memarlıq abidələri vasitəsilə də ifadə edirdilər. Onlar qaliblərin şəkillərini çəkir, idmançıların qələbə hisslərindən doğan qürurlarını əks etdirirdilər. İndi isə müasir rəssamlar, fotoqraflar bunu tablolar, fotolar vasitəsilə göstərirlər. Cənab Prezident, ona görə biz istərdik ki, Yunanıstan nümayəndə heyəti adından Sizə qədim Olimpiya oyunlarını tərənnüm etdirən bir kitab bağışlayaq.



Yunanıstan Prezidenti Konstantinos Stefanopulos Olimpiya oyunları ilə bağlı xüsusi hədiyyələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.



Görüşdən sonra prezidentlər "Olimpiya ruhu" sərgisi ilə tanış oldular. Sərgiyə baxışdan sonra Yunanıstan Prezidenti Konstantinos Stefanopulos və Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan televiziyasına qısa müsahibə verdilər.

MÜXBİR: Cənab Stefanopulos, Yunanıstan futbolçuları Avropa çempionatında uğurla çıxış edirlər. Bu münasibətlə Sizi təbrik edirik və fikirlərinizi bilmək bizim üçün maraqlı olardı.

KONSTANTİNOS STEFANOPULOS: Biz Yunanıstan komandasının Avropa çempionatındakı çıxışından qürur duyuruq. İlk dəfədir ki, bizim futbol komandamız belə mötəbər yarışda ən güclü komandalar sırasına çıxmışdır. Növbəti mərhələdə rəqibimiz güclü Fransa komandası olsa da, mən bu oyunda futbolçularımıza uğurlar arzulayıram.

SUAL: Cənab Prezident, Azərbaycandakı Olimpiya hərəkatını necə qiymətləndirirsiniz?

CAVAB: Çox yüksək. Sizin ölkə artıq dünya idman mərkəzlərindən birinə çevrilmişdir. Elə burada, Olimpiya Komitəsinin inzibati binasının ətrafında çoxlu sayda idman kompleksləri, stadionlar var. Bu da onu göstərir ki, Azərbaycanda idmanın, olimpiya hərəkatının inkişafına dövlət səviyyəsində diqqət və qayğı göstərilir.

SUAL: Cənab Prezident, bütün idmançıları bir sual maraqlandırırdı - cənab İlham Əliyev Afina Olimpiya oyunlarına gedəcəkmi?

İLHAM ƏLİYEV: Bəli, mən hazırlaşıram, cənab Stefanopulos da məni dəvət etdi. Mən oraya ölkə başçısı kimi, eyni zamanda, Milli Olimpiya Komitəsinin prezidenti kimi gedəcəyəm. Bizim idmançılarla bir yerdə olmaq istəyirəm. Sidney Olimpiya oyunlarını yəqin xatırlayırsınız. Orada biz çox gözəl günlər keçirdik. Ümid edirəm ki, Afinada keçiriləcək Olimpiya oyunlarında da idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

"HYATT PARK" MEHMANXANASINDA ZİYAFƏT

İyunun 22-də Yunanıstan tərəfi "Hyatt Park" mehmanxanasında ziyafət vermişdir.

Ziyafətə dəvət olunanlar Azərbaycan Prezidenti İlham Əliyevi və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosu hərarətlə qarşıladılar.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ

- Xanımlar və cənablar!

Mən Prezident İlham Əliyevin şərəfinə badə qaldırmaq istəyirəm. Mənə rəsmiyyətdən uzaq olmaq daha asan olardı. Mən ürəkdən gələn səmimi minnətdarlığımı bildirmək istəyirəm. Mən bir çox ölkələrin paytaxtlarında olmuşam və bütün prezidentlərlə görüşlərim çox maraqlı keçibdir. Mən Bakıda da dostyana və səmimi münasibət gördüm. Buna görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən istərdim ki, Azərbaycan xalqına xoşbəxtlik və tərəqqi arzu edim. Bütün bunlar Azərbaycan xalqının özündən asılıdır və mən inanıram ki, bu xalq öz xoşbəxtliyinə çatacaqdır.

Əlimdəki badəni Prezident İlham Əliyevin şərəfinə qaldırmaq istəyirəm. Mən ona sağlamlıq, xoşbəxtlik arzu edirəm.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram. Ümid etdiyimi bildirmək istəyirəm ki, bu səfərdən sonra Azərbaycan-Yunanıstan əlaqələri daha da inkişaf edəcək, ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar. Bu səfər çərçivəsində iki ölkə arasında çox vacib sənədlər imzalanmışdır. 1-ci Azərbaycan-Yunanıstan biznes forumu, Milli Olimpiya Komitəsinin inzibati binasında gözəl sərgi keçirilmişdir. Prezident Stefanopulosun görüşləri olmuşdur. Bütün görülən işlər, aparılmış danışıqlar bizi bir daha əmin edir ki, Azərbaycanla Yunanıstan arasında olan siyasi, iqtisadi, mədəni əlaqələr böyük sürətlə inkişaf edəcək, xalqlarımıza xeyir gətirəcəkdir.

Bu iki gün çox tez keçdi. Ancaq, bu iki gün ərzində Azərbaycan və Yunanıstan iş adamları, siyasi xadimlər, mədəniyyət xadimləri dostlaşıblar. Mən ümidvaram ki, bu dostluq bundan sonra da davam edəcəkdir.

Bu badəni Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun şərəfinə, Yunanıstandan gəlmiş bütün qonaqların şərəfinə, Yunanıstan-Azərbaycan dostluğu şərəfinə qaldırıram.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos iyunun 22-də Bakıdan yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALMIKİYA PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında Kalmıkiya Respublikasının Prezidenti, FİDE-nin prezidenti Kirsan İlyumjinovu qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq, Kalmıkiya Prezidentinin Azərbaycana axırıncı səfəri, ümummilli liderimiz Heydər Əliyev ilə görüşü barədə xatirələrini bölüşdü. Prezident İlham Əliyev Azərbaycan-Rusiya münasibətlərindən danışaraq dedi ki, ölkələrimiz arasında uğurlu əlaqələr yaranmışdır və bu bütün istiqamətlərdə - siyasi, iqtisadi və mədəni sahələrdə inkişaf edir. Biz bu əlaqələrin daha da inkişaf etməsi üçün səylərimizi əsirgəmirik.

Ölkəmizə dəvətə görə təşəkkürünü bildirən Prezident Kirsan İlyumjinov dedi ki, sovet dövlətinin, Rusiyanın və Azərbaycanın ictimai-siyasi həyatında misilsiz xidmətləri olmuş Prezident Heydər Əliyevi Kalmıkiyada səmimiyyətlə xatırlayırlar. O, Kalmıkiya sakinlərinin, FİDE rəhbərliyinin salamını və ən xoş arzularını Azərbaycan Prezidentinə yetirdi. Qonaq vurğuladı ki, Kalmıkiya ilə Azərbaycanı çox şey – Xəzər dənizi, təbii ehtiyatlar, habelə idmanın qədim növü olan şahmata böyük məhəbbət birləşdirir. FİDE prezidenti Azərbaycanı bütün dünyada şöhrət qazanmış şahmat ölkəsi adlandırdı. O, gənc Azərbaycan qrossmeysterləri Teymur Rəcəbovun, Şəhriyar Məmmədyarovun Liviyada şahmatçı kişilər arasında dünya çempionatında uğurla çıxış etdiklərini vurğuladı. Kirsan İlyumjinov ümidvar olduğunu bildirdi ki, növbəti dünya çempionu Azərbaycan vətəndaşı olacaqdır.

Prezident İlham Əliyev FİDE-nin uğurlarından danışaraq, Azərbaycan şahmatçılarına daimi qayğıya görə onun rəhbərinə təşəkkür etdi. Dövlətimizin başçısı dedi: Biz inanırıq ki, şahmat tacı Bakıya qayıdacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında Rusiya Federasiyasının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Dövriyyəsinə Federal Nəzarət Xidmətinin direktoru Viktor Çerkesov başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları salamlayaraq, Azərbaycan ilə Rusiya arasında bütün istiqamətlərdə - yüksək siyasi səviyyədə, nazirliklər səviyyəsində müsbət münasibətlərin yaranmasından məmnunluq duyduğunu bildirdi. O xatırlatdı ki, bu yaxınlarda Azərbaycanda Rusiya mədəniyyəti günləri uğurla keçdi və Azərbaycan tamaşaçılarının Rusiya incəsənətinə məhəbbətini bir daha təsdiqlədi.

Prezident İlham Əliyev ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan-Rusiya münasibətlərinin müxtəlif mərhələlərdən keçdiyini vurğulayaraq dedi ki, indiki mərhələ konstruktivliyi, müsbət məcrada inkişafı ilə fərqlənir. Mən Rusiyaya rəsmi səfərimi, aparılmış danışıqları, bizi daha da yaxınlaşdıran sazişləri məmnunluqla xatırlayıram. Rusiya ilə Azərbaycan strateji tərəfdaşdır, iqtisadiyyat, energetika, mədəniyyət sahələrində yaxşı qarşılıqlı əlaqələr var. Əlbəttə, siyasi element, fəal siyasi məsləhətləşmələr olmasaydı, bütün bunları əldə etmək çətin olardı, ona görə də biz ikitərəfli əlaqələrin inkişafına çox böyük əhəmiyyət veririk.

Prezident İlham Əliyev Azərbaycan-Rusiya əməkdaşlığının regional baxımdan da fəal inkişafından, istər ikitərəfli, istərsə də regional xarakterli məsələlərdə hər hansı fikir

ayrılığının olmadığından danışaraq, iki ölkənin müxtəlif idarələri, o cümlədən də daxili işlər nazirlikləri arasında dinamik əməkdaşlıq faktlarından razı qaldığını söylədi. O vurğuladı ki, dünya beynəlxalq terrorizmin dəhşətli təhlükəsi ilə üzləşdiyi bir dövrdə bu istiqamətdə səyləri birləşdirmək çox vacibdir. Rusiya və Azərbaycan beynəlxalq terrorizmdən zərər və əziyyət çəkmişdir, ona görə də hər iki ölkə bu təhlükə ilə əlbir və fəal mübarizə aparmalıdır.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Rusiya nümayəndə heyətinin indiki səfəri ikitərəfli idarələrarası əməkdaşlığın inkişafında mühüm rol oynayacaq və ümumən, Azərbaycan ilə Rusiya arasında qarşılıqlı fəaliyyət işinə xidmət edəcəkdir.

Rusiya Federasiyasının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Dövriyyəsinə Federal Nəzarət Xidmətinin direktoru Viktor Çerkesov səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirərək, ötən il yaradılan Xidmətin fəaliyyəti, Rusiyada narkobiznesin, mütəşəkkil cinayətkarlığın kökünü kəsmək üçün görülən tədbirlər barədə məlumat verdi.

Viktor Çerkesov Azərbaycana səfərinin yekunlarından danışaraq dedi ki, Bakıda aparılmış danışıqlar, imzalanmış qarşılıqlı anlaşma memorandumu əməkdaşlıq, real və müntəzəm işin gücləndirilməsi üçün yeni formalar açır. Bunlar isə narkotəcavüz və beynəlxalq terrorizm təhlükəsi ilə qarşılaşan ölkələrimizdə vəziyyətə də müsbət təsir göstərəcəkdir.

Rusiya və Azərbaycanın narkotiklərin daşınması yolunda tranzit ölkələr olduğunu vurğulayan qonaq narkotiklərin dövriyyəsi ilə mübarizədə hüquq mühafizə orqanlarının səylərini birləşdirməyin zəruriliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Prezident sarayında Ukraynanın sənaye siyasəti naziri Aleksandr Neustroyev başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı qonaqları səmimiyyətlə salamlayaraq, Ukrayna nümayəndə heyətinin Bakıda keçirdiyi danışıqlardan və görüşlərdən razı qaldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycan-Ukrayna əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayaraq, əmin olduğunu söylədi ki, onun Ukraynaya bu yaxınlardakı dövlət səfərindən, aparılmış danışıqlardan sonra ikitərəfli münasibətlər bütün istiqamətlərdə, o cümlədən birgə iqtisadi layihələrin həyata keçirilməsi sahəsində inkişaf edəcəkdir. Azərbaycan rəhbəri Ukrayna aviasiya sənayesinin uğurlarından danışaraq dedi ki, dost ölkəyə səfəri zamanı təyyarələrin yeni modelləri ilə tanış olmuşdur. İki ölkənin aviasiya xidmətləri arasında səmərəli əməkdaşlıq yaradılmışdır və bu, gələcəkdə də qarşılıqlı surətdə faydalı olacaqdır. O, əmin olduğunu bildirdi ki, ölkələrimizin müəssisələri fəal əməkdaşlıq edəcəklər.

Prezident İlham Əliyev ölkələrimizin iqtisadiyyatının yüksək sürətlə inkişaf etdiyini, sənaye potensialının artdığını vurğulayaraq dedi ki, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün kifayət qədər maliyyə və texnologiya imkanları var. Ukrayna nümayəndə he-

yətinin indiki səfəri ikitərəfli iqtisadi əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Səmimi qəbula görə təşəkkür edən Aleksandr Neustroyev səfərin məqsədindən danışaraq bildirdi ki, Ukraynada əldə olunmuş razılaşmaya əsasən, Ukrayna istehsalı olan AN təyyarəsinin seriya ilə buraxılan modeli Azərbaycana gətirilmiş və nümayiş etdirilmişdir.

Nazir Prezident İlham Əliyevin Ukraynaya səfəri zamanı çəkilmiş şəkillərdən ibarət fotoalbomu dövlətimizin başçısına təqdim etdi.

Aleksandr Neustroyev Azərbaycana səfərin yekunları barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, səfər zamanı səmərəli danışıqlar aparıldı, Azərbaycan mütəxəssisləri Ukrayna təyyarəsi ilə tanış oldular. O, Heydər Əliyev adına Bakı beynəlxalq hava limanının və ümumən, Azərbaycan aviasiyasının inkişaf səviyyəsini yüksək qiymətləndirdi. Nazir dedi ki, Ukrayna daşımalar sahəsində Azərbaycan aviatorları ilə əməkdaşlığa hazırdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycanın işğal olunmuş ərazilərində mövcud erməni separatçı rejiminin nümayəndələri bu il avqustun 8-də "yerli özünü idarəetmə orqanlarına" "seçkilər" keçirmək niyyətində olduqlarını bəyan etmişlər.

Bu cür "seçkilər" beynəlxalq hüquq normaları, həmçinin Azərbaycan Respublikasının milli qanunvericiliyinə tamamilə zidd olduğundan, habelə təcavüzün, işğalın və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi əhalisinin üçdə bir hissəsini təşkil edən yerli azərbaycanlıların öz torpaqlarından zorla qovulması şəraitinin davam etdiyi bir halda keçirildiyindən heç bir vəchlə qanuni hesab oluna bilməz.

Birinci dəfə deyildir ki, Ermənistan tərəfi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində müxtəlif qondarma "seçkilər" keçirir və bu cür qeyri-qanuni hərəkətlər həmişə beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən pislənmişdir. Demokratiya etnik təmizləmə və işğal üzərində qurula bilməz. Beləliklə, separatçıların beynəlxalq ictimaiyyətin aldadılmasına yönəldilmiş bütün cəhdləri iflasa məhkumdur.

Ermənistan tərəfinin bu cür hərəkətləri münaqişənin həlli istiqamətində aparılan mövcud prosesə mənfi təsir göstərəcəkdir. "Baş vermiş fakt" münaqişənin həllinin əsasını təşkil edə bilməz. Nə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindəki hazırkı vəziyyət, nə də seçkilərin keçirilməsi də daxil olmaqla oradakı mövcud vəziyyətin möhkəmləndirilməsinə yönəldilmiş hər hansı bir hərəkət heç bir halda qanuni hesab oluna bilməz.

Azərbaycan Respublikası yenidən təsdiqləyir ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisində hər hansı bir legitim hakimiyyətin formalaşdırılması yalnız Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in müvafiq qərarları əsasında ədalətli həllini tapandan sonra mümkündür.

24 iyun 2004-cü il

BEYNƏLXALQ İCTİMAİYYƏT AZƏRBAYCANIN TERRORİZMƏ QARŞI MÜBARİZƏDƏ FƏAL MÖVQEYİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 24-də Amerika Yəhudilər Komitəsinin yəhudilərin beynəlxalq işləri üzrə direktoru Endryu Beyker ilə görüşmüşdür.

Görüşdə nazir Elmar Məmmədyarov Azərbaycan ilə ABŞ arasında münasibətlərin ənənəvi dostluq xarakteri daşıdığını və inkişafda olan əlaqələrin bütün sahələrdə genişlənməsi üçün siyasi dialoqların davam etdirilməsinin zəruriliyini qeyd etmişdir.

Nazir, həmçinin Azərbaycan xalqının hər zaman sivil ənənələrə rəğbət bəsləyən və öz dini dözümlülüyü ilə seçilən xalq olduğunu bildirmişdir. O, daha sonra Azərbaycandakı ictimai-siyasi vəziyyət, həyata keçirilən demokratik islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər barədə qonağa ətraflı məlumat vermişdir.

Təmsil etdiyi qurumun ABŞ-ın Azərbaycan ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Endryu Beyker ikitərəfli əməkdaşlığın daha intensiv şəkildə davam etdirilməsinə tərəfdar olduğunu bildirmişdir. O qeyd etmişdir ki, ölkəmizin Avroatlantika strukturlarına inteqrasiyası və terrorizmə qarşı mübarizədə fəal mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyə Respublikasına səfərə gəlmişdir.

İSTANBULDA HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ ÜMUMMİLLİ LİDERİMİZİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 26-da İstanbulun mərkəzində - Şişli bələdiyyəsinin ərazisində Azərbaycanın ümummilli lideri Heydər Əliyev adına parkın və xalqımızın dahi oğlunun büstünün açılış mərasimində iştirak etmişlər.

Büstün yaxınlığındakı binada ümumilli liderimizin həyat və fəaliyyətindən bəhs edən "Əsrlərə bərabər bir ömür" adlı fotosərgi təşkil olunmuşdu. Binanın divarındakı mərmər lövhədə Heydər Əliyevin məşhur "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" kəlamı həkk edilmişdi.

Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Mərasim iştirakçılarına ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyəti barədə məlumat verildi.

İstanbulun minlərlə sakininin toplaşdığı mərasimi Şişli bələdiyyəsinin sədri Mustafa Sarıgül açdı.

ŞİŞLİ BƏLƏDİYYƏ SƏDRİ MUSTAFA SARIGÜLÜN ÇIXIŞI

- Ölkəmizə şərəf gətirən, varlıqları ilə İstanbulumuzu, Şişlimizi qürurlandıran hörmətli Prezident və hörmətli xanımı!

İstanbulumuzun və Şişlimizin inkişafında bizi heç vaxt yalnız qoymayan hörmətli valim və hörmətli xanımı!

Hörmətli qonaqlar!

Şişli bu gün tarixi günlərdən birini yaşayır. Bu tarixi günümüzün yaşanmasında bizə çox gözəl bir təklif verən Azərbaycanın İstanbuldakı konsulu İbrahim Nəbioğluna hüzurunuzda təşəkkür etmək istəyirəm. Hörmətli Prezidentimiz Heydər Əliyevin yer üzündə sülhə, demokratiyaya, qardaşlığa və Türkiyə Cümhuriyyətinə verdiyi əhəmiyyət dünyada türklər tərəfindən, bizlər tərəfindən heç vaxt, əsla unudula bilməz. Prezidentiniz hörmətli Heydər Əliyevin gözəl sözlərini yenidən xatırlatmaq istərdim: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu söz bizlərə rəhbər olmalıdır. Bu söz iki ölkə arasında ticarət, iqtisadiyyat, mədəniyyət sahəsindəki əlaqələrimizin ən yüksək səviyyəyə çıxması üçün çox böyük işarədir.

Hörmətli Prezident Heydər Əliyevin hər zaman qəlbimizdə və ürəyimizdə yaşadacağımız adını ölkəmizin, İstanbulun ən gözəl nöqtələrindən biri olan Şişlidə, gündə milyonlarla yurddaşımızın keçdiyi bu nöqtədə əbədiləşdirməkdən böyük qürur və xoşbəxtlik hissi keçirirəm.

Hörmətli Prezident, Sizi xanımınızla birlikdə Şişlidə qarşılamaqdan şərəf və xoşbəxtlik hissi keçirirəm. Təşriflərinizi Türkiyə və Azərbaycan arasındakı əlaqələrin inkişafı və möhkəmləndirilməsinə böyük töhfə vermişdir.

Hörmətli Zeyno Barana bu əlaqələrin beynəlxalq səviyyəyə çıxarılmasındakı xidmətlərinə görə hüzurunuzda çox təşəkkür edirəm. Azərbaycan və Türkiyə xalqları dünyadakı inkişaf etmiş çağdaş və demokratik ölkələrlə olan əlaqələrini hər zaman davam etdirəcəklər. Azərbaycan və Türkiyə Cümhuriyyəti ən yüksək səviyyəyə, inşallah əmin addımlarla irəliləyəcəkdir.

Şişli bələdiyyəsinin sədri kimi bu gün mən Sizi burada qarşılamaqdan xoşbəxtlik hissi keçirirəm. Millət vəkili olduğum dövrdə və ondan əvvəlki vaxtlarda Ankarada apardığımız söhbətlərdə mən Sizin bu yerlərə gəlmənizi arzu etmişdim və həmin söhbətlərdə Azərbaycan xalqının və dünya xalqlarının Sizdən çox şeylər gözlədiyini ifadə etmişdim. Bu söhbətlər on il əvvəl olmuşdur və bu gün Sizi burada Prezident kimi qarşılamaqdan xoşbəxtlik hissi keçirirəm.

Son olaraq demək istəyirəm ki, ulu öndər Atatürkümüz və Heydər Əliyevimiz, Türkiyə Cümhuriyyətimiz və Azərbaycanımız əbədiyyətə qədər yaşayacaqdır. Bizlərin vəzifəsi Azərbaycan bayrağını və Türkiyə Cümhuriyyətinin bayrağını, inşallah, ən yüksəklərə qaldırmaqdır.

Hörmətli Prezident, Sizə hörmət və ehtiramlarımı çatdırıram.

***

Sonra İstanbul valisi Müəmmər Gülər çıxış etdi.

İSTANBUL VALİSİ MÜƏMMƏR GÜLƏRİN ÇIXIŞI

- Dostumuz, qonşumuz, qardaşımız Azərbaycan Respublikasının hörmətli Prezidenti zati-aliləri İlham Əliyev və möhtərəm xanımı!

Şişli bələdiyyəsinin sədri, hörmətli səfir, hörmətli baş konsul!

Əziz istanbullular, hörmətli mətbuat nümayəndələri!

Bu gün çox xoşbəxt bir gün yaşayırıq. İstanbul böyük bir zirvə toplantısının dəyərli qonaqlarını, Şişli isə çox dəyərli bir qardaşımızı qarşılayır. Prezident kimi İstanbula ilk dəfə gəlirsiniz. Xoş gəlmisiniz, hörmətli Prezident və xanımı. Əziz qızımız Leyla xanıma da xoş gəldiniz deyirəm.

Hörmətli Prezident, Azərbaycan xalqının böyük sevgisi ilə bütünləşib əbədiyyətə qovuşan böyük dövlət adamı Prezident Heydər Əliyevin ruhu qarşısında bir daha baş əyir, onu hörmət və ehtiramla yad edirik. Azərbaycan xalqı ilə türk xalqının ortaq dəyərinin birləşməsində, iki xalqın dostluğunun möhkəmlənməsində lider rolu oynayan hörmətli Prezident Heydər Əliyevi Azərbaycan xalqı kimi, Türkiyə xalqı da bağrına basır. Bu gün İstanbulda, Şişlidə yaşayan insanlarımız bu xatirəni əbədiyyətə qədər yaşadacaqlar. İstanbulun yaraşıqlı rayonu olan Şişli gözəl bir xatirəni ömür boyu yaşatmaqdan qürur duyacaqdır. Bunu həyata keçirən Şişli bələdiyyəsinin sədri hörmətli Musfata Sarıgülü və hörmətli iş yoldaşlarını, əziz şişlililəri səmimi qəlbdən təbrik edirəm. İstanbul xoş məramın, barışın, mədəniyyətlərin kəsişdiyi bir mərkəzdir. Bu mənada Şişli rayonu çox mühüm işlərin görüldüyü rayondur. Bu rayonda Türkiyə ilə dostluq edən bir çox insanın xatirəsi əbədiləşdirilmişdir. Ancaq Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi burada çox mühüm yer tutacaqdır.

Hörmətli Prezident, bu mənalı günlərdə bizlərlə bərabər olub, mərhum atanız hörmətli Prezident Heydər Əliyevin xatirəsinə yaradılan və istanbullular tərəfindən hər zaman sevgi ilə yad ediləcək bu parkın açılışında iştirak etmənizdən məmnun olduğumuzu xüsusilə ifadə etmək istəyirəm. Türk xalqı ilə Azərbaycan xalqının yaxınlaşmasında, bir-biri ilə qaynayıb-qarışmasında mərhum atanızın çox böyük əməyi olmuşdur. Bir az əvvəl hörmətli bələdiyyə sədrimiz söylədi, "Bir millət, iki dövlət" ifadəsi, əlbəttə ki, əbədiyyətə qədər yaşayacaqdır. Bu sözlər çox mühümdür. Bu, ürəkləri bir olan insanları ifadə edir. Bu, insanların bərabərliyini ifadə edir, atanız mərhum Heydər Əliyevdən sonra müqtədir iradənizlə Azərbaycanın daha inkişaf etmiş, daha bəxtiyar ölkə kimi irəliləməsində Sizin xidmətlərinizin çox mənalı olduğunu ifadə edir. Bu birlik əbədiyyətə qədər davam edəcəkdir. Sizə İstanbula, Şişli rayonuna xoş gəldiniz deyirəm. Mərhum atanızın xatirəsinin əbədiyyətə qədər yaşamasını diləyirəm. Bir millətin iki ayrı dövləti olaraq güc birliyi ilə, könül birliyi ilə, inşallah, bu dostluğumuz əbədi olaraq davam edəcəkdir.

Yaşasın Türkiyə-Azərbaycan dostluğu!

Yaşasın Heydər Əliyevin xatirəsi!

Allah rəhmət eləsin!

Sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab vali!

Hörmətli Şişli bələdiyyəsinin başqanı!

Əziz dostlar, qardaşlar, xanımlar və cənablar!

Mən, ilk növbədə, sizin hamınızı ürəkdən salamlayıram. Sizi görməyimə çox şadam. Bu gün qeyd olundu ki, mən dövlət başçısı kimi İstanbula ilk səfərdəyəm. İstanbulda dəfələrlə olmuşam. Bu şəhəri çox sevirəm. Bu şəhər bizim hamımız üçün, həm Türkiyədə, həm də Azərbaycanda yaşayanlar üçün çox əziz, doğma şəhərdir. Mənim də həyatımın bir hissəsi İstanbulda keçmişdir. Ona görə mən İstanbulu çox yaxşı tanıyıram, gözəl xatirələrim var. Mən öz fikrimi demək istəyirəm və siz mənimlə razılaşarsınız ki, İstanbul dünyanın ən gözəl şəhəridir.

Əlbəttə, mənim üçün və bütün Azərbaycan xalqı üçün çox böyük şərəfdir ki, bu gün İstanbulda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan park açılır. Burada Heydər Əliyevin abidəsi ucaldılıb və sərgi təşkil edilibdir. Bütün bu işlərdə iştirak edən, bunları təşkil edən dostlarımıza, qardaşlarımıza öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Heydər Əliyev, həqiqətən, Azərbaycan xalqının ümummilli lideri idi. Azərbaycanın ən çətin anlarında, ən çətin dövrlərində xalqla bir yerdə idi. Xalqı çətin vəziyyətdən irəli, tərəqqiyə, inkişafa aparırdı. Keçən əsrin 70-ci illərində Azərbaycan müstəqil dövlət deyildi, Sovet İttifaqı çərçivəsində bir respublika idi. Amma o illər ərzində Azərbaycanda böyük quruculuq işləri aparılmış, zavod və fabriklər tikilmişdir. Azərbaycan, demək olar ki, öz iqtisadi potensialını məhz o dövrlərdə, məhz 70-ci illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman yaratmışdır.

Azərbaycanın müstəqilliyinin ilk illəri çox ağır keçirdi. Ölkə böhran içində idi, vətəndaş müharibəsi, qardaş qırğını baş verirdi. Müharibədə Azərbaycan torpaqları işğal olunurdu. Ölkə iqtisadiyyatı çökmüşdü. Ümumiyyətlə, Azərbaycan və onun müstəqil gələcəyi çox böyük təhlükə altında idi. Məhz o zaman, 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtmış və qısa müddət ərzində ölkəni böhran vəziyyətindən çıxarmışdır. Bundan sonra Azərbaycan sabitlik əldə etmiş və öz inkişaf yoluna qədəm qoymuşdur.

Bu gün müstəqil Azərbaycan dünya birliyinin layiqli üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlarda fəal iştirak edir. Ölkəmizin iştirakı ilə dünyada və bölgədə önəmli regional layihələr həyata keçirilir. Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Mən sizə deyə bilərəm ki, son yeddi il ərzində iqtisadiyyatımız 90 faiz artmışdır. Hər il iqtisadi artım 10 faizdən yuxarıdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Ölkəmizin çoxlu sosial problemləri öz həllini tapır. Bir sözlə, bu gün Azərbaycan inamla irəliyə, gələcəyə baxır.

Ölkəmizin iqtisadi, siyasi potensialı çox güclüdür. Siz bilirsiniz ki, Azərbaycanda həyata keçirilən böyük neft layihələri də Heydər Əliyevin neft strategiyası ilə bağlıdır. Məhz onun cəsarəti, uzaqgörənliyi və siyasi iradəsi 1994-cü ildə bu strategiyanın təməlini qoymuşdur. Baxmayaraq ki, o illərdə Azərbaycana bu məsələ ilə əlaqədar böyük təz-

yiqlər olmuşdur. Ölkə daxilində də buna müqavimət var idi. Xaricdə də bəzi dairələr açıq şəkildə bunun əleyhinə çıxırdı. Belə cəhdlər olurdu. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyevin iradəsi və qətiyyəti nəticəsində bu layihələr həyata keçdi. Türkiyə və Azərbaycanı iqtisadi baxımdan daha da yaxınlaşdıran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi uğurla davam edir. Bu, bir daha onu göstərir ki, Heydər Əliyev ikitərəfli münasibətlərə, Türkiyə-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirdi. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası uğurla başa çatacaq və biz bu mərasimi qeyd edəcəyik.

Türkiyə-Azərbaycan əlaqələri Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. O, daim çalışırdı ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr bütün sahələrdə güclənsin və inkişaf etsin. Məhz onun rəhbərliyi altında son 10 il ərzində iki qardaş ölkə arasındakı əlaqələr ən yüksək zirvəyə qalxmışdır. Bu gün bizi siyasi, iqtisadi, mədəni və digər sahələrdə möhkəm tellər bağlayır. Türkiyə və Azərbaycan beynəlxalq aləmdə bir mövqedən çıxış edir, daim bir-birinə dəstək olur. Əlbəttə ki, Azərbaycanın və Türkiyənin xoşbəxt gələcəyi bizim xalqlarımızın birliyindədir. Bu gözəl kəlam Azərbaycanda və Türkiyədə çox məşhurdur. Bu, həm həqiqəti, həm də Türkiyə ilə Azərbaycan arasında olan əlaqələri əks etdirir. Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Bu şüar bizim hamımız üçün örnəkdir. Bu şüar bizim siyasətimizin əsasıdır. Biz bu dostluğa, bu qardaşlığa sadiqik.

Mən çox şadam ki, ölkə başçısı kimi bu əlaqələrin inkişafına da öz töhfəmi verirəm. Sizə deyə bilərəm ki, keçən il Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunduqdan sonra mənim ilk xarici səfərim məhz Türkiyəyə olmuşdur. Mən Prezident seçiləndən sonra da Türkiyə-Azərbaycan əlaqələrinə çox böyük əhəmiyyət verirəm və Azərbaycanın müasir siyasətinin prioriteti hesab edirəm. Mən Prezident kimi də Türkiyəyə səfər etmişdim. Lakin əfsuslar olsun ki, o zaman vaxt çox məhdud idi və İstanbula gələ bilmədim. Bu gün çox xoşbəxtəm ki, İstanbuldayam, bu gözəl mərasimdə sizinlə birlikdəyəm.

Heydər Əliyevin xatirəsinə belə hörmətlə, belə məhəbbətlə yanaşdığınıza görə mən sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan bu siyasətə, Heydər Əliyev siyasətinə sadiq qalacaqdır. Bu siyasət bütün sahələrdə davam etdirilir. Mən bu siyasətə sadiqəm. Yalnız Heydər Əliyev siyasəti Azərbaycanı xoşbəxt gələcəyə apara bilər.

Mən bir daha qeyd etmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri çox güclüdür. Aramızda olan qardaşlıq, dostluq çox güclüdür və heç kim bu münasibətlərə təsir edə bilməz. Bu, bizim siyasətimizdir, biz də bunu aparacağıq.

Əziz dostlar, qardaşlar, bu gözəl parka Heydər Əliyevin adını verdiyinizə görə, burada bu gözəl abidəni yaratdığınıza görə mən sizə həm Heydər Əliyevin oğlu kimi, həm də Azərbaycan Prezidenti kimi bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!



Sonra büstün uzərindəki örtük götürüldü.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, mərasim iştirakçıları "Əsrlərə bə-

rabər bir ömür" adlı fotosərgi ilə tanış oldular. Sərgidə ümummilli liderimiz Heydər Əliyevin həyatının ən müxtəlif dövrlərindən bəhs edən fotoşəkillər nümayiş etdirilir. Burada dünyanın görkəmli dövlət xadimlərinin Azərbaycanın ümummilli lideri barədə fikirlərinə də geniş yer verilmişdir.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:

"Bu gün Türkiyənin İstanbul şəhərində Heydər Əliyev adına parkın açılışında iştirak etməkdən böyük mutluluq və qürur hissi duyuram. Parkda ucaldılan Heydər Əliyevin abidəsi çox böyük ustalıqla işlənilib.

Türkiyə-Azərbaycan ilişkiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətində ən önəmli yer tuturdu. Mən Azərbaycanın Cümhurbaşqanı kimi bu siyasətə sadiqəm. Türkiyə-Azərbaycan ilişkiləri daha da inkişaf edəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaqdır. Biz bir millət, iki dövlətik.

Yaşasın Türkiyə Azərbaycan dostluğu, qardaşlığı!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

26 iyun 2004-cü il".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ KOMİTƏ SƏDRİNİ QƏBUL ETMİŞDİR

NATO-nun zirvə görüşündə iştirak etmək üçün Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da İstanbulda, onun üçün ayrılmış iqamətgahda – "Çırağan" mehmanxanasında ABŞ Senatının xarici əlaqələr komitəsinin sədri Bill Fristi qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ əlaqələri haqqında ətraflı fikir mübadiləsi aparıldı. Söhbət zamanı respublikamızın Birləşmiş Ştatlarla sıx əməkdaşlığı ilə yanaşı, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi sahəsində apardığı ardıcıl siyasət də vurğulandı.

Senator Azərbaycanın NATO-nun zirvə görüşündə iştirakının məqsədi ilə də maraqlandı. Azərbaycanın beynəlxalq və regional təşkilatlarla yaxından əlaqələr saxladığını bildirən Prezident İlham Əliyev dedi ki, ölkəmiz Şimali Atlantika İttifaqı ilə birgə layihələrdə də fəal əməkdaşlıq edir. Bu nüfuzlu qurumun dünya siyasətində artan rolunu nəzərə alaraq, ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllində onun dəstəyinə nail olmağa ümid bəsləyir.

Cənab Bill Frist bildirdi ki, ABŞ Senatında Azərbaycanın ədalətli mövqeyini başa düşən senatorların sayı getdikcə artmaqdadır və onlar bu sahədə öz köməyini göstərəcəklər.

Görüşdə hər iki ölkənin energetika layihələrində birgə iştirakı, beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlığın davam etdirilməsinə dair fikir mübadiləsi də aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA BUNDESTAQININ KOMİSSİYA SƏDRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da İstanbulda onun üçün ayrılmış iqamətgahda – "Çırağan" mehmanxanasında Almaniya parlamentinin Müdafiə məsələləri komissiyasının sədri Volfqanq Rühe ilə görüşmüşdür.

Görüşə görə təşəkkürünü bildirən cənab Rühe Almaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından belə görüşlərin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev son illərdə Azərbaycanda aparılan iqtisadi islahatlar, neft strategiyasının uğurlu nəticələri barədə ətraflı məlumat verdi. Dövlətimizin başçısı ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlardan, Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə fəal iştirakından da söhbət açdı.

Azərbaycan Prezidenti xatırlatdı ki, ölkələrimiz arasında münasibətlərin yaranması və indiki səviyyəyə çatmasında ümummilli liderimiz Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

Prezident İlham Əliyevin regionda liderliyini vurğulayan Volfqanq Rühe respublikamızda aparılan islahatları yüksək qiymətləndirdi, Azərbaycanı bölgənin inkişaf etmiş ölkəsi kimi səciyyələndirdi. O bildirdi ki, nəhəng enerji layihələrinin həyata keçirilməsi təkcə Azərbaycan üçün deyil, dünya ölkələri, o cümlədən Avropa üçün faydalı olacaqdır.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri, bir sıra regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

İyunun 26-da İstanbulun "Çırağan" mehmanxanasında Qara dəniz hövzəsi ölkələri üçün təşkil olunmuş "Avratlantik İttifaqı yol ayrıcında" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.

Konfransı NATO üzrə Amerika Komitəsinin prezidenti və həmsədri BRYUS CEKSON açdı:

Mən istərdim ki, hamınızı Avratlantikanın Qara dəniz hövzəsi ətrafındakı perspektivləri ilə bağlı müzakirələrdə salamlayım. Zənnimcə, elə mövzunun adı kifayət qədər məlumat verir. Burada çıxış edənlər Qərbin münasibətini, məsələyə öz baxışlarını ifadə edəcəklər.

İcazə verin, natiqləri sizə təqdim edim. Gürcüstan Prezidenti Mixail Saakaşvili. Onun liderliyi və məşhur "qızılgül inqilabı" Vatslav Havelin "inkişaf inqilabı" ilə müqayisə olunur. Çoxları bu fikirdədir ki, bu onillikdə Tbilisidə baş verənlər, keçən əsrin son onilliyində Praqada baş verən hadisələrə çox bənzəyir.

Azərbaycanın Prezidenti İlham Əliyev. Onun ölkəsi Avropadan Mərkəzi Asiyaya pəncərə rolunu oynayır, eynilə Türkiyə Avropa ilə Yaxın Şərq arasında pəncərə olduğu kimi. Onun ölkəsi Avropanın enerji təhlükəsizliyi mövzusunun əsasını təşkil edir. Eyni

zamanda, ölkədə dondurulmuş münaqişə də mövcuddur. Prezident Əliyevin liderliyi ilə Bakıda böyük dəyişikliklər müşahidə olunur.

Mirca Coane Avropada tanınmış xarici işlər nazirlərindən biridir. Yorulmadan öz ölkəsinin xarici siyasəti üçün işləyir. Onun nazirliyi dövründə ölkə bir sıra nailiyyətlər əldə etmişdir. Ölkəsi bu sammitdə yeni NATO-nun yeni üzvü kimi təmsil olunur. NATO-nun yeni üzvlərinin əhalisinin 50 faizdən çoxu Rumıniya vətəndaşlarıdır. Nazir NATO-ya daxil olmaq kampaniyasının aparıcısı, NATO-nun cənub strategiyasının təşəbbüskarı olmuşdur. Polşa NATO-ya üzv kimi daxil olduğu dövrdən sonra Rumıniya bu sahədə ən çox fəallıq göstərən ölkə kimi tanınmışdır.

Əhməd Davudoğlu, sadəcə, Ankaranın Kondoliza Raysıdır. Adətən, əldə olunan nailiyyətlər Baş nazirin adına yazılır və müşavirlərin adına tərif söylənilmir. Lakin son 18 ay müddətində Türkiyədə demokratik islahatlar sahəsində onun böyük rolu olmuşdur. Düşünmürəm ki, bu, təsadüfdür. Ümid edirəm ki, dekabr ayında Avropa Birliyində Türkiyənin məsələsi müzakirə olarkən bu uğur nəzərdən qaçmayacaq və Avropa Birliyi Türkiyə ilə danışıqlara başlamaqdan ötrü vaxt təyin edəcəkdir. Bu, qısaca bizim natiqlər haqqında.

Yaxın Şərqdə və ətraf regionlarda demokratiya haqqında danışarkən həmişə düşünmək lazımdır ki, nəyə görə bizdə inam vardır ki, ixrac olunan digər məhsullar kimi, demokratiyanı başqa ölkələrdə yaymaq mümkündür? Nəyə görə biz düşünürük ki, tarixi bir an çatacaq ki, siyasi azadlıqlar və demokratiyanın qüvvəyə minməsi labüd olsun? Ötən əsr müddətində, xüsusilə də, əsrin ikinci yarısında Avropada baş verən transformasiya bunun labüdlüyünə əsas verir. Lap yaxınlarda isə bu transformasiya Mərkəzi və Orta Asiyada baş verdi. Demokratik islahatlar və inqilabi dəyişikliklər qüvvəyə minəcəkdir.

Bugünkü gündə həmin islahatların və dəyişikliklərin baş verə biləcəyi ən ilk region Qara dəniz hövzəsidir. Aşağıdakı səbəblərə görə bunu qətiyyətlə demək olar. Regiondakı 8 ölkədən 3-ü NATO-nun və Avropa Birliyinin üzvüdür. Yalnız Ukrayna və Rusiya ilə 26+1 formatı üzrə iş aparılır. Qara dəniz hövzəsindəki bütün ölkələr Avropanın qonşuluq siyasətinə daxil edilmişdir. Yalnız Aralıq dənizi hövzəsində proseslər eyni sürətlə gedir. Sizə məlum olduğu kimi, Cənubi Qafqaz ölkələri bir neçə gün əvvəl Avropanın qonşuluq siyasətinə daxil edilmişdir. Məlum olduğu kimi, müasir dövrdə biz bütün demokratiyalara Avropanın müəyyən etdiyi, Avropadakı dostlar və həmkarlarımızın tətbiq etdiyi demokratiya baxımından yanaşırıq. Qara dəniz hövzəsi ölkələrinin həmin standartlara yaxınlaşmasını uzunmüddətli bir proses kimi nəzərdən keçirsək, ölkələrin liderlərinin bu barədəki fikirlərini öyrənmək çox yaxşı olar. Bugünkü çıxışlara başlamazdan əvvəl xahiş etmək istəyirəm ki, uzun çıxış etməyəsiniz. Kopenhagen meyarlarına, Avropa standartlarına riayət edəsiniz. Çıxışlarınızı, sözünüzü qəti, lakin qısa ifadə etməyinizi xahiş edirəm. Bir qədər də çərçivədən kənara çıxacağıq. Bugünkü görüşü soldan sağa prezidentlərin çıxışı ilə yox, xarici işlər nazirinin çıxışı ilə başlayacağıq. Buyurun, Mister Coane.

RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİRÇA COANENİN ÇIXIŞI

- Mənə söz verdiyinizə görə minnətdarlığımı bildirirəm.

Hörmətli prezidentlər, əziz qonaqlar!

İcazə verin, iki azadlıq carçısını da burada salamlayım. Onlar bizim aramızdadırlar. Burada, salonda əyləşən dinləyicilərdirlər. German Marşall Fondunun (GMF) əməkdaşlarını salamlayıram. Gəlin prosesi haradan başladığımızı ərz edim. Yəni bizim millətlər ailəsinin əsl birləşmə prosesini nəzərdə tuturam. Biz işimizi ardıcıl, sakit yerinə yetirirdik. Cənab Prezident Saakaşvili, Sizə deyim ki, Buxarestdə biz GMF qrupu ilə çalışarkən Sizin ölkədə "qızılgül inqilabı" baş verdi. Sizin ölkədən də bəzi nümayəndələr bizim görüşlərdə iştirak edirdilər. Onlar indi burada bizim dinləyicilər arasındadırlar. Burada pəncərədən baxsaq, Bosfor boğazını görərik. Xatirinizə gəlirsə, qədim yazıların birində deyilirdi ki, Nuhun gəmisi Bosforu keçib Qara dənizə girmişdi və bu, bir zarafat deyildir. Milli Coğrafiya İnstitutunun alimləri tədqiqat aparmışlar ki, həqiqətən də, o gəmi bu marşrutla keçmişdir və demokratiyanın da yayılma marşrutu bu yol ilə gedəcəkdir. Bizim yunanıstanlı və romalı əcdadlarımızın üzdüyü Qara dəniz Avropa dənizidir. Daha sonra Qara dəniz əsrlər boyu mübahisə obyektinə çevrilmişdir. Əsas qüvvələr bu dənizə sahib olmaq üçün müharibələr etmişlər. Çalışmışlar ki, bu strateji əraziyə nəzarət etsinlər. Bu dəniz elə bir strateji ərazidə yerləşib ki, Avropanı, Kiçik Asiyanı və Qafqazı birləşdirir. Qara dənizin səthi və sahilləri farsların, rusların, osmanlıların və digərlərinin üstünlük qazanmaq üçün uzun illər apardığı böyük oyunların şahidi olmuşdur. Bu gün isə Qara dəniz başqa tarixi missiyanı yerinə yetirir. Onun qərbində Rumıniya və Bolqarıstan Türkiyə ilə birlikdə NATO-ya daxil olmuşlar. Biz həm də Avropa Birliyinə qəbul olunmuşuq və ümid edirik ki, türkiyəli dostlarımız da bu nailiyyəti əldə edəcəklər.

Şərq sahilində Gürcüstan qətiyyətli islahatlara başlayıb və Avratlantik İttifaqına inteqrasiya siyasətini gücləndirmişdir. Azərbaycan və Ermənistan da NATO və Avropa Birliyi ilə əlaqələrin artması üçün böyük səylər göstərirlər. Ukrayna demokratik konsolidasiya yolunda tərəqqi əldə edibdir, NATO və Avropa qurumları ilə əlaqələri daha da sıxlaşdırır. Qara dəniz hövzəsindəki bütün ölkələr qərb təsisatları ilə islahatlar aparılması sahəsində əməkdaşlığa qatılıblar. Adını çəkdiyim əməkdaşlığa "Sülh naminə tərəfdaşlıq" proqramını aid etmək olar. Eləcə də, NATO-Rusiya və NATO-Ukrayna məsləhətləşmələri də bu qəbildəndir. Region ölkələri indi Bolqarıstanın sədrlik etdiyi ATƏT-lə də əməkdaşlıq edirlər. Şimali Atlantika Alyansı sərhədlərini aşaraq, Əfqanıstanda da, Yaxın Şərqdə də yardımçı olmağa cəhd göstərir.

"Soyuq müharibə"dən sonra baş verən təkamül prosesi və NATO-nun transformasiyası Qara dəniz hövzəsi ölkələrini dəyişikliklərin ön cəbhəsinə çəkmişdir. İndi Avratlantik İttifaqının əlaqələndirilmiş qətiyyətli addımlarına ehtiyac vardır. Uzun müddətə nəzərdə tutulmuş dəyişikliklər prosesinə yeni güc verilməsi gərəkdir. Bu cür fəaliyyətə hazırkı dövrdə mənəvi ehtiyac var. Çünki demokratiya və azadlığı qorumaqdan ötrü Avropaya yüksək standartlar divarı qurmaq yox, ümumi dəyərlərlə yaşayan icmalar yaratmaq lazımdır. Bu yaxınlarda Balkanlarda baş verən qarışıqlıq, Cənub-Şərqi Avropanın tarixindən alınan dərslər bizə öyrədir ki, Avropanın bir hissəsində iqtisadi çətinliklər, uzun-uzadı münaqişələr, cinayət hadisələri tüğyan etdiyi bir zamanda, onun digər hissə-

si özünü xoşbəxt hesab edə bilməz. Demaqoqlar və populistlər baş qaldırmazdan əvvəl demokratlara səlahiyyətlər verilməlidir. Demokratik icma Balkan yarımadasında gedən proseslərə vaxtında reaksiya vermişdi. Bu gün bu ərazi böyük dəyişikliklər ərəfəsindədir. Cəmi bir neçə il bundan əvvəl hamıya elə gəlirdi ki, bu regionun heç bir perspektivi yoxdur. İndi isə biz düzgün istiqamətdə irəliləyirik. Qərbi Balkanların təcrübəsi yeni şəraitin nəzərə alınması ilə Qara dəniz regionuna da tətbiq edilməlidir. Avratlantik qurumunun Qara dəniz siyasətini hazırlamağının strateji zərurəti də vardır. Bu ərazidə sabit və güclü demokratiya olmasını Avropa çox istəyir. Ərazidəki kövrək ölkələrin demokratiya və suverenliyinin gücləndirilməsi üçün Avropa icmasının və Avratlantik qurumunun Moldovadan Gürcüstanadək ardıcıl və fəal siyasəti olmalıdır. Hazırda Cənubi Qafqazda gedən proseslər iqtisadi dəstək almalıdır. Zaman keçdikcə, bu ölkələr regional əməkdaşlıq vasitəsilə daha da güclənəcəkdir. Bildiyiniz kimi, sabah burada, İstanbulda yeni üzvlərin NATO-ya qəbul edilməsi bir daha təntənəli surətdə təqdim olunacaqdır və düşünürəm ki, region ölkələrinin həmrəyliyi və birgə çalışması son nəticə üçün mühüm əhəmiyyət kəsb edir. Düşünürəm ki, eyni zamanda, Qərb Qara dəniz sahilində yerləşən Rusiya ilə də əlaqələrini genişləndirməlidir. Bunu etməkdən ötrü tərəflər cinahlar üzrə razılıq şərtlərinə əməl etməlidirlər.

Avropa Birliyi və Rusiya ilə dialoq yeni xarakter almalıdır. Qara dəniz regionunun sabitliyi və təhlükəsizliyi Avropanın daha geniş Yaxın Şərq siyasətini də asanlaşdıra bilər. Bildiyiniz kimi, son zamanlar biz "daha geniş", "daha əhatəli" kimi söz birləşmələrindən çox istifadə edirik. Bu, sizə təəccüblü gəlməsin. Deməliyəm ki, Qara dəniz regionundakı problemlər həll olunduqdan sonra daha geniş Yaxın Şərq probleminin həlli də Avropa üçün bir qədər asanlaşacaqdır. Eyni zamanda, NATO ilə Avropa Birliyinin razılaşdırılmış təşəbbüsləri də olmalıdır. Bu gün nahar yeməyi zamanı Türkiyənin xarici işlər naziri Gül ilə söhbət vaxtı o bildirdi ki, Qara dəniz regionunun inkişafı və transformasiyası böyük əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, Avratlantik Alyansının regionla bağlı yeni siyasəti vacibdir və dərk etmək lazımdır ki, bu region daha geniş Yaxın Şərqin bir hissəsi olmaqla bərabər, eyni zamanda, Avropanın da bir hissəsidir. Özü də təkcə coğrafi baxımdan yox, sivilizasiya baxımından da. Bir gün ərzində fantastik nailiyyətlər əldə edilməsi inandırıcı deyildir. Amma real cədvəl seçmək və məqsədə doğru daim irəliləmək lazımdır. Tam əhatəli, çoxşaxəli fəal iştirak, bu regionla bağlı Mərkəzi Avropa və Cənub-Şərqi Avropaya göstərilən münasibətin mövcudluğu uğura gətirib çıxaracaqdır. (Söz verirəm ki, mənim ölkəm buna hər cür dəstək verəcəkdir. Avropanı da, ABŞ-ı da çağırıram ki, regionda vətəndaş cəmiyyəti yaratmaq naminə əllərindən gələni etsinlər).

Avropa Birliyinin və NATO-nun genişlənməsindən alınan dərslər bizi öyrədir ki, lazımi keyfiyyətli dəstək vacibdir. Əlbəttə ki, regional liderlik də vacibdir və regional liderlər bugünkü görüşdə iştirak edirlər. Əlbəttə, qeyd etdiyim kimi, Avropa təşkilatlarının və Avratlantik İttifaqının dəstəyi vacibdir. Cənab Bryus işin səmərəsi haqqında danışdı. Mən Avropa Birliyinin və NATO-nun genişlənməsi ilə bağlı təcrübədən bilirəm ki, Avropanın müəyyən bir regionunda bir sıra ölkələrlə bağlı müəyyən proqram həyata keçirilən kimi, digər ölkələrlə bağlı proqram başlanmalıdır. Balkanlarda Xorvatiya Avropa Şurası ilə danışıqlara başladı. Dərhal üç Adriatik ölkəsi ilə, üstəgəl Bosniya-Herseqovina və Serbiya-Çernoqoriya ilə NATO-ya inteqrasiyaya və "Sülh naminə tərəfdaşlıq" proqramında əməkdaşlığa dair danışıqlar başlamalıdır. NATO fərdi fəaliyyət planı ilə

Gürcüstan, Azərbaycan və Özbəkistanla daha yaxından işləməlidir. Avropa Birliyi dekabrda Türkiyəyə 2005-ci il üçün "yaşıl işıq" göstərdikdən sonra biz sabitləşdirmə və əməkdaşlıq fəlsəfəsindən artıq qəbul edilmə fəlsəfəsinə keçməliyik. Yəni Balkanlardan sonra Qara dəniz regionu ölkələri gəlməlidir. Bu prosesə təkamül və transformasiya baxışıdır və mənim ölkəm bu baxışı dəstəkləyir.

Sonda onu da demək istəyirəm ki, 1990-cı illərin əvvəllərində heç kim NATO-nun və Avropa Birliyinin genişlənəcəyinə inana bilməzdi. İndi gördüyünüz kimi, proses həyata keçib və davam edir. Elə bilirəm ki, Qara dəniz regionu bu prosesin davamı olacaqdır. Bu gün Qara dəniz regionu və daha geniş Qara dəniz regionu haqda danışırıqsa, biz Avropanın əsl birləşməsini nəzərdə tuturuq. Mən həqiqətən əminəm ki, bu proses uğurla tamamlanacaqdır. GMF təşkilatına və türkiyəli dostlarımıza bu konfransı keçirdiklərinə görə minnətdarlığımı bildirirəm. Mən bunu dəfələrlə demişəm. Mənim ölkəm NATO-ya və Avropa Birliyinə daxil olmaq üçün çox çalışıbdır.

Amma biz heç zaman, bütün qonşularımızın bu ailədə bizə qovuşacağı anadək, özümüzü rahat hiss edə bilmərik. Həqiqi siyasət və Avropanın birləşdirilməsi prosesi sona çatmaq üzrədir. Rumıniyanın milli maraqları – Balkanlarda və Qara dəniz bölgəsindəki dostlarımızı eyni ailədə birlikdə görməkdir. Cənab prezidentlər və əziz dostlar, mən sizə ölkəmin tam dəstəyini bildirirəm. Düşünürəm ki, bütün dünyadakı demokratiyanın dostları sizə bu işdə dəstək verəcəklər.

Çox sağ olun!

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ÇIXIŞI

- Cənab nazirin maraqlı çıxışından sonra konkret mövzular haqda danışmaq çətindir. O, məsələyə daha geniş perspektivdən baxır və bizə bu proseslərdə kömək edir, bizi irəli çəkməyə çalışır. Rumıniyanın daxilindəki çətinliklərə baxmayaraq, o heç zaman bizi unutmur. O, həm də Avratlantik strukturlarına regional inteqrasiyanın tərəfdarıdır. Yəqin ki, hamı razılaşar ki, genişmiqyaslı siyasi transformasiyaları ölkə daxilindəki dəyişikliklər yaradır. Bizim regionda da belə olubdur. Mərkəzi Avropada da, Şərqi Avropada da 1990-cı illərdə belə olmuşdu. Hazırda tarixi təkamül prosesi Zaqrebdən Tbilisiyə və Bakıyadək olan ərazilər daxil olmaqla Cənub-Şərqi Avropada müşahidə edilir. Belə bilirəm ki, keçən il noyabrda Gürcüstandakı demokratik "qızılgül inqilabı" Avropanın təkamülündə dönüş nöqtəsi yaradan hadisə idi. Nəyə görə? İlk əvvəl Gürcüstan əhalisi avropalılara xas olan bir tərzdə öz demokratik gələcəklərini birdəfəlik müəyyən etmək qərarına gəldi. İkincisi, Cənubi Qafqazda demokratik dəyişikliklərin yer alması o deməkdir ki, regionda sivilizasiyalı cəmiyyətin transformasiyası prosesinə başlamaq olar. Bu dəyişikliklər bizə xatırladır ki, Cənubi Qafqazın da daxil olduğu Qara dəniz regionu, Avropa mədəniyyəti və özünüdərketməsinin ən qədim ocaqlarından biridir. Avropanın ən dərin strateji və iqtisadi maraqlarının cəmləşdiyi bu region dərin siyasi transformasiya prosesinə başlayıbdır. Bu transformasiya regionun Avropa üçün əhəmiyyətini təsdiq edir. Xüsusilə də ki, Gürcüstanın Avropa üçün oynayacağı ön cəbhə rolunu, Gürcüstanın təcrübəsini, bizim regionun çətinliklərini və ehtiyacı olduğu dəyişiklikləri əks etdirir.

Qarşımızda müəyyən çətinliklər vardır və onlara qarşı mübarizə aparmalıyıq. Birincisi, ölkənin birləşdirilməsi. Biz artıq gürcü millətinin birləşdirilməsi prosesini tamamlayıq. Gürcüstanın "uğursuzluğa düçar olmuş ölkə" imicinə son qoyacağıq. Acarıstanla yaranmış münaqişədə biz siyasi əzmimizi ortaya qoyub sülh yolu ilə Gürcüstanın bu vacib strateji ərazisini siyasi sferamıza qaytara bildik. Separatist hərəkətlər nəticəsində yaranmış dondurulmuş münaqişə zonalarında kriminal ünsürlərin zərərsizləşdirilməsi qarşımızda duran digər məsələdir.

Biz artıq Cənubi Osetiyada qanunun aliliyinin yaradılması prosesinə başlamışıq. Biz Rusiya ilə qarşılıqlı hörmət əsasında razılığa gəlmişik ki, hərbi hissələr Gürcüstan ərazisindən ağrısız və tamamilə çıxarılsın. Regionda yarımhərbi vəziyyətdə olan qruplaşmaların da zərərsizləşdirilməsi lazımdır və bütün bu proseslərin açarı da demokratiyadır. Ölkədə genişmiqyaslı demokratikləşdirmə proqramı həyata keçirilir ki, bu da sovet irsini aradan götürmək və bazar iqtisadiyyatı yaradılması məqsədi daşıyır. Proqrama əsasən, bütün siyasi maraqlar ən yüksək səviyyədə təmsil olunacaqdır. Biz dramatik dəyişikliklər aparırıq.

Bütün region da dəyişilir, eyni transformasiyaya uğrayır. Düşünürəm ki, Gürcüstan, eyni zamanda, həm Avropa Birliyinə, həm də NATO-ya inteqrasiyanı həyata keçirir. Avropa Birliyi ölkəmizdə gedən bu prosesləri yüksək qiymətləndirərək, bizi daha geniş Avropa siyasətinə daxil etmişdir. NATO bizimlə fərdi fəaliyyət planı əsasında işləyəcəkdir. Qarşıda duran məqsəd bu prosesləri daha da dərinləşdirməkdir. Bizim strateji yönümümüz və dövlət quruculuğu planımız inteqrasiyadır. 3, 4, 5 il bundan əvvəl heç kim təsəvvürünə gətirməzdi ki, Gürcüstanın Prezidenti bu kürsüdən NATO üzvü və yaxud da ki, Avropa Birliyi ilə qonşuluq siyasəti haqqında danışa bilər. Amma bu, baş verir və bu transformasiya yalnız bizdə deyil, qərbi avropalılarda da heyrət doğurur. Artıq Qərbdə dərk edirlər ki, Mərkəzi və Şərqi Avropanın qəbul olunması nə isə qeyri-adi dramatik, qorxulu bir proses deyildir. Əksinə, bu, yaxşılığa doğru dəyişiklikdir. Hazırda Qərbdə - NATO-da və Avropa Birliyində anlayırlar ki, Avropanı eksklüziv üzvlər klubundan ümumi coğrafi-mədəni məkana çevirməyin vaxtı gəlib çatmışdır.

Qarşımızda bir sıra regional problemlər var. Biz siyasi və iqtisadi islahatları həyata keçirməliyik. Bu yolda biz, eyni zamanda, korrupsiyaya və cinayətkarlığa qarşı mübarizə aparmalıyıq. Bu bizi digər ölkələrdən fərqləndirən cəhətlərdir. Coğrafi siyasət yalnız hərbi bazaların yerləşdirilməsi deyil, adi bəyanatlar və təşkilatlarda üzvlük də coğrafi siyasəti müəyyən etmir. Coğrafi siyasət hökumətin fəaliyyətgöstərmə yolu deməkdir. Yəni ki, hökumətlərin təxminən eyni cür, eyni qaydalara əsasən fəaliyyətinə nail olmaq lazımdır.

Gürcüstan, həqiqətən, uğursuzluğa düçar olmuş ölkə idi. Təsisatları korrupsiyaya məruz qalmışdı. İnsanların idarəçiliyə ümidləri az idi. Bircə gecənin içərisində insanlar özləri dəyişikliyə nail oldular. Özlərini inandırdılar ki, bu, onların hökumətidir və bu hökumət onlara xidmət etməlidir. Hazırkı gündə korrupsiyaya qarşı qəti mübarizə aparılır, korrupsiyaya qurşanmış yüksək vəzifəli şəxslər yeni işgüzar, inamlı adamlarla əvəz olunur. Nazirlər daxil olmaqla ən yüksək rütbəli məmurlar işdən çıxarılır, rüşvətxorlar qanun tərəfindən təqib olunur. İnsanların sağlam münasibətlərə inamı güclənibdir. Bu mübarizədə biz gərək daha güclü olaq. Biz Birləşmiş Ştatların təklif etdiyi "minilliyin vəzifələri" planını qəbul etmişik. Bildiyiniz kimi, bu yeni ölkə üçün nəzərdə tutulmuş "Marşall planı"na bənzər bir plandır. Bu sahədə bizə yardım lazımdır. Çünki təsisatların quruculuğu prosesində yardıma ehtiyac duyulur.

Yardım yalnız konkret infrastruktur layihəsini əhatə etməməlidir. Əsas infrastruktur yaradılmalıdır. Çünki məndən soruşanda ki, özəlləşdirmə zamanı vəsait hansı sahəyə ayrılmalıdır, mən cavab verirəm, ilk növbədə, vəsait ədliyyə sisteminə, polisə, hökumətin idarə olunmasına sərf edilməlidir. Əsas vəsait buraya ayrılmalıdır ki, daha sonra bundan çıxış edərək yollar, məktəblər tikilsin, hökumətin fəaliyyəti üçün lazımi iqtisadi obyektlər açılsın. Ən ilkini isə dövlətçiliyin, idarəçiliyin əsası qoyulmalıdır. Və bu gün də qeyd etdiyim kimi "minilliyin vəzifələri" proqramı bizə çox yardım edir.

Regionda da görüləcək işlər çoxdur, regional əməkdaşlıq gücləndirilməlidir. Qara dəniz regional təhlükəsizlik sistemi yaradılmalıdır. Bu əməkdaşlıq yalnız Qara dəniz hövzəsini yox, daha geniş Yaxın Şərq adlandırdığımız regionu əhatə etməlidir. Burada Türkiyənin rolu olduqca böyükdür. O, təhlükəsizlik alyansının ən fəal iştirakçılarındandır. Cənubi Qafqaz ölkələri ilə, Ermənistan və Azərbaycanla sıx işləyirik. Xüsusilə də Azərbaycanın Prezidenti cənab Əliyevlə. Regional məsələlərdə əməkdaşlıqdan savayı, o, həm də mənim çox yaxın dostumdur. İnanıram ki, həmkarlarımızla birlikdə işimiz daha yaxşı ola bilər. Biz daha yaxşı işləməyə qadirik. Bölgədə olan münaqişələri aradan qaldırmaq üçün də birgə işləməliyik. Baltik hövzəsində və Adriatik dənizi hövzəsində mövcud olan təhlükəsizlik sxemlərini bizim regiona da tətbiq etmək lazımdır. İndiki təhlükəsizlik bizim əhalinin sabahkı firavanlığı deməkdir. Münaqişə haqqında danışarkən bilməliyik ki, bu münaqişələr bizə keçmişdən qalma mirasdır. Keçmişdən qalan mənfi mirasları aradan qaldırmadan gələcəyə gedə bilməyəcəyik. Burada əsas element yenə də korrupsiyaya qarşı mübarizə, vergilərin lazımi qaydada yığılması olacaqdır. Məsələn, biz cəmi 6 ay müddətində vergi yığımını iki dəfə artırmışıq. Bu da geniş kütlələrin yardımı nəticəsində mümkün olmuşdur. Biz Gürcüstan dövlət təsisatlarını yaratmaqda qərarlıyıq və bu yöndə işləyirik. Bu da demokratikləşmə prosesinin bir hissəsidir.

Yenə təkrar edirəm ki, dondurulmuş münaqişələri həll etməyin əsas yolu demokratikləşmədən keçir. Bu gün səhər mən qəzetlərə baxarkən "Uol Strit Cornel"də məqaləyə rast gəldim. Həmin məqalə Avropada mövcud olan toxunulmaz zonalar haqqındadır. Müəllif yazır ki, Avropada elə ərazilər vardır ki, həmin ərazilərdə narkotiklər daşınır, silahlar yayılır, əraziləri özlərini ömürlük hakim elan etmiş diktatorlar idarə edir. Onlara toxunan kimi beynəlxalq icma buyurur ki, "yox-yox, onlara toxunmayın, toxunsanız, yeni münaqişə yaranacaqdır". Amma sizə deyim ki, belə olmaz. Bu cür zonalara dözməməliyik. İstər Dnestryanı ərazi olsun, istər Abxaziya olsun, istərsə də başqa yer olsun. Biz abxaz ailələrindən olan 20 uşağı Tbilisiyə gətirmişdik. Onlar şəhəri gəzdilər, mən onlarla gəzintiyə çıxdım. Oyunlar keçirdik, parkda ağac əkdik. Onlar gürcü həmyaşıdları ilə söhbət etdilər. Bu uşaqlar geri qayıdarkən müəyyən olundu ki, onların valideynləri həbs ediliblər, uşaqları məktəbdən çıxarıblar və heç kimin də bu barədə söz deməyə ixtiyarı yoxdur.

Çünki bu, münaqişə zonasıdır.

Eyni sözü Cənubi Osetiya haqqında da demək olar. Çox cüzi, xırdaca bir ərazidir. Əslində, bu ərazi Rusiyadan gələn malların qaçaq yolu ilə Gürcüstana ötürülməsi rolunu oynayır. Onların əsas gəlirləri də bunun üzərində qurulubdur. Əhalinin ümumi sayı 30 min nəfərdən artıq deyildir. Burada da ki, bütün əhali acından öldüyü bir halda, cəmi

100-200 adam qaçaqmalçılıqdan gəlir əldə edir. Biz qaçaqmalçılıq yollarını kəsəndə, onlar əsəbiləşməyə başladılar. Bizim də şərtimiz belə oldu ki, qoy insanlar bir-biri ilə danışsın, biz yardım etməyə hazırıq. Qoy gəlsinlər bizim universitetlərdə təhsil alsınlar. Biz onlara yüksək təqaüd verməyə hazırıq, ərzaq yardımı göstərə bilərik.

Onlarla danışmağa hazırıq. Onların liderləri isə şərt qoydular ki, "yox" biz istəmirik ki, siz bizim adamlarla danışasınız. Biz icazə vermirik. Mən dedim, yaxşı, siz əgər bu qədər güclüsünüzsə, niyə qorxursunuz ki, mən sizin əhali ilə danışım. Siz niyə insanların birbaşa ünsiyyətindən qorxursunuz? Siz niyə qeyri-hökumət təşkilatlarının birbaşa ünsiyyətindən qorxursunuz? Siz niyə istəmirsiniz ki, uşaqlar gəlib-getsinlər? Bu yaxınlarda oradan 500 uşaq gətirmişdik. Baxmayaraq ki, onların da bəzilərinin valideynləri həbs olundu. Biz isə, sadəcə, onları dənizkənarı əraziyə gətirdik ki, uşaqlar dənizi görsünlər. Sonra isə bizə rusiyalı həmkarlarımız dedilər yox, siz nə edirsinizsə, edin, osetiyalılar bunu təsir vasitəsi kimi qiymətləndirəcəklər. Xahiş edirik, bunu etməyəsiniz.

Biz təsiri də gücləndirəcəyik. Çünki bu cür anklavların mövcudluğuna dözmərik. Orada heç bir irəliləyiş yoxdur, hər şey donub qalıb, heç kimin gələcəyi yoxdur. Ona görə də Avropa təsisatlarının və eləcə də, alyansın həmin münaqişələrin həllində daha fəal rolu bizim tərəfdən çox bəyənilir və çox vacibdir. Bu münaqişələri daim dondurulmuş vəziyyətdə saxlamaq mümkün deyildir. Region gərək ümumavropa təhlükəsizlik şəbəkəsinə töhfə versin. Amma bu mövzularla məşğul olmasaq, region daimi narahatlıq ocağı olacaqdır.

Bu məsələnin öhdəsindən gəlməyin yolu bizim Acarıstanda separatçılara qarşı tətbiq etdiyimiz yoldur. Biz oraya ordumuzu göndərmədik. Baxmayaraq ki, hərbi yolla da məsələni həll edə bilərdik. Biz oraya inqilabımızın sülhməramlı əsgərlərini göndərdik, fəallarımızı göndərdik. Onlar Acarıstan xalqına narazılığı necə ifadə etməyin yolunu öyrətdilər. Nümayişə necə çıxmağın yolunu göstərdilər. Konkret mövzuları necə dəstəkləmək, öz haqları uğrunda necə mübarizə aparmaq yollarını göstərdilər. Orada yerli elitanın əlindən cana doymuş insanlar qaçaqmalçılıqdan, narkotik daşınmasından boğaza yığılmış insanlar (təəssüf ki, bu narkotik daşıyıcılarının hələ bir müəyyən dəstəyi də vardı) özləri bələlərini aralarından çıxartdılar. Əlbəttə ki, bizim mənəvi dəstəyimizlə, yalnız mənəvi dəstəyimizlə. Gördüyünüz kimi, demokratiya işini gördü. Demokratiya bizə imkan verdi ki, qan tökülməsin. Yenə deyirəm ki, o məsələni həll etmək üçün yetərincə qüvvəmiz də vardı. İndinin özündə də Cənubi Osetiya problemini həll etməkdən ötrü yetərincə qüvvəmiz var. Amma, bu, daha çətin yoldur və biz bunu istəmirik. Məsələni həll etməyin yolu getmək və insanlarla danışmaq və onları inandırmaq lazımdır ki, bir olmalıyıq. Onları inandırmaq lazımdır ki, hökumət dəyişilməlidir. Hökumətin cavabdehliyinə nail olmaq lazımdır. Bizim məqsədimiz var - əhalimizə uzunmüddətli firavanlıq gətirmək.

***

BRYUS CEKSON: Sağ olun, cənab Prezident. Çıxışının sonunda Prezident Saakaşvili son məqsədin firavanlıq olduğunu dedi. Qara dəniz regionu ölkələrinə həqiqi firavanlıq və iqtisadi sərbəstlik gətirən liderlərin sayı çox deyildir. Yəqin ki, regionda bunu Prezident Əliyev qədər yerinə yetirən digər lider yoxdur. Əvvəlcə bir sənayeçi kimi, indi isə Prezident kimi o, bu işləri layiqincə yerinə yetirir. Bakı-Tbilisi-Ceyhan və digər bu kimi

layihələrin həyata keçməsi üçün səylərini əsirgəməmiş, ölkəsində region üzrə hamıdan çox böyük ticarət dövriyyəsinə və sərmayə axınına nail olmuşdur. Bu, həmin ölkə idi ki, 1989-cu ildən tənəzzül dövrünü keçirirdi. Cənab Prezident, yüksək kürsü sizindir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz cənab sədr!

Xanımlar və cənablar!

İlk əvvəl mən istərdim ki, vacib beynəlxalq tədbiri hazırladığına görə Marşall Fonduna minnətdarlığımı bildirim. Bu gün mən burada dostlarımla olmağıma sevinirəm. Rumıniyanın xarici işlər naziri cənab Coane. Dostum Mixail Saakaşvili ilə, lap bu yaxınlarda Gürcüstanda onunla görüşlərimiz oldu. Cənab Bryus Cekson, o, Bakıya bir neçə dəfə səfər edib, bizim çox maraqlı müzakirələrimiz olubdur. Bizim ümumi strateji seçimimizə onun töhfəsini də yüksək qiymətləndirirəm. Əlbəttə ki, ev yiyəsinin nümayəndəsi, Azərbaycanın ən yaxın münasibətləri olan, ən yaxın bağlantıları olan, bu münasibətlərin günü-gündən möhkəmləndiyi Türkiyənin nümayəndəsi cənab Davudoğlu.

Burada, Türkiyədə olmağımdan çox məmnunam. Bu konfransda iştirakımdan çox məmnunam. Azərbaycan Avratlantik strukturlara inteqrasiyasında nəzərəçarpacaq irəliləyiş əldə edibdir. 1993-cü ildə Prezidentimiz Heydər Əliyevin müəyyən etdiyi seçim indi də ölkə üçün dəyişməz olaraq qalır. Azərbaycanın strateji xətti beynəlxalq birliyə inteqrasiyadır.

Avropa və Avratlantik strukturlarına inteqrasiya xətti olan bu seçim ölkəmizin o zaman qəbul etdiyi uğurlu qərar idi. Ölkə müstəqilliyini yenicə qazanarkən onun çox ciddi problemləri vardı. Daxildə narahatlıq, toqquşmalar, Ermənistanla müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzü, iqtisadi böhran, iqtisadi tənəzzül Azərbaycanı dağılmaq ərəfəsinə çıxaran amillər idi. Azərbaycanın gələcək taleyi şübhə altında idi. Son on ildə Prezidentimiz Heydər Əliyevin apardığı siyasət ölkəmizə imkan verdi ki, bütün sahələrdə inkişaf etsin. Biz beynəlxalq birliyin mühüm iştirakçılarından olduq. Azərbaycan Avropa Şurasının üzvü oldu və həmin təşkilatda uğurla fəaliyyət göstərir. Rəsmi qəbul olunma vaxtı üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Azərbaycanın Avropa Birliyi ilə çox gözəl münasibətləri var. Biz çox şadıq ki, Avropa Birliyi Cənubi Qafqaza öz xüsusi nümayəndəsini təyin etmişdir. Bu, Avropa Birliyinin bizim regiona artan marağından irəli gəlir. Artıq 10 ildir ki, Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının fəal iştirakçısıdır.

Bu gün biz artıq NATO ilə əməkdaşlığın ikinci mərhələsindəyik. Fərdi əməkdaşlıq planını təqdim etmişik və yalnız iki ölkə bunu etməyə nail olmuşdur - Gürcüstan və Azərbaycan. NATO-nun baş qərargahında olarkən soruşdum ki, nəyə görə Gürcüstan bu məsələdə birinci, Azərbaycan isə ikincidir? Mənə cavab verdilər ki, dostunuz Mixail Saakaşvili sizdən bir ay əvvəl NATO baş qərargahına səfər etmişdi. Ona görə də gələn dəfə yəqin ki, birlikdə gedərik.

Əslində, qonşularımızla olan münasibətlər, xüsusilə də, Gürcüstanla, Türkiyə ilə olan münasibətlər, yalnız daxili siyasət üçün deyil, regional əməkdaşlıq baxımından da bö-

yük əhəmiyyət kəsb edən amillərdir. Regionun inkişafı üçün vacibdir. Regionun inkişaf istiqamətlərinin müəyyən olunması üçün əhəmiyyət kəsb edir. Bu istiqamətdə Azərbaycan qonşuları ilə fəal əməkdaşlıq edir. Bu gün ölkənin iqtisadi inkişafı uğurludur. Biz iqtisadi problemləri həll etməkdə qərarlıyıq. Son 7 ildə iqtisadiyyat ildə ən azı 10 faiz artımla irəliləyir.

Yeri gəlmişkən, son 7 il müddətində ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. Təkcə keçmiş SSRİ respublikaları arasında deyil, Şərqi Avropa ölkələri də daxil olmaqla, Azərbaycan adambaşına düşən xarici sərmayənin həcminə görə aparıcı mövqedədir. Azərbaycan əla sərmayə mühiti yaradıbdır. Sərmayəçilər özlərini və sərmayələrini burada tamamilə müdafiə olunmuş hesab edirlər. Bu da bizim ölkəyə milyardlarla dollar vəsait yatırılmasının əsas səbəbləridir. Həmin vəsait təkcə neft və qaz sektoruna deyil, iqtisadiyyatımızın digər sahələrinə də yatırılmışdır. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik davamlı və uğurlu iqtisadi inkişafın əsas amilidir.

Qonşularımız və dostlarımızla - Türkiyə və Gürcüstanla dünyanın ən iri enerji layihələrini həyata keçiririk. Bu, təkcə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri deyildir. Həm də bizim nəhəng neft və qaz yataqlarının işlənilməsi layihələridir. Biz artıq lazımi proqnozları aparmışıq. Azərbaycanın neftdən nə qədər fayda götürəcəyini bilirik. Bunun nəzərə alınması ilə bir neçə il əvvəl Neft Fondu yaratmışıq. Bu struktur, tam şəffaflığı ilə seçilir. Beynəlxalq auditorlar ona nəzarət edir. Neft Fondu Beynəlxalq Valyuta Fondunun tövsiyə və məsləhətləri ilə idarə olunur. Azərbaycan Britaniya Baş nazirinin hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən olmuşdur. Ölkədə neft və qaz gəlirlərinin tam şəffaflığına nail olmaq üçün lazımi tədbirlər həyata keçirilir. Bir sözlə, ölkəmizin qarşısında çox problem görmürük. Regional əməkdaşlığı artırmaq lazımdır. Əminəm ki, enerji və nəqliyyat layihələri başa çatdırıldıqdan sonra dünyanın özü də daha təhlükəsiz olacaqdır. Regionda da təhlükəsizlik artacaq, əməkdaşlıq genişlənəcəkdir.

Regiona isə təhlükəsizlik lazımdır. Təəssüf ki, Cənubi Qafqazda baş verən proseslər, xüsusilə də, təcavüzkar separatçılıq, ölkələrimizdə - Gürcüstan və Azərbaycanda baş verən hadisələr bütün regional əməkdaşlığı və təhlükəsizliyin özünü təhlükə altına alır. Azərbaycan separatçılıqdan əziyyət çəkmiş ölkədir. Azərbaycan erməni işğalından əziyyət çəkmiş ölkədir. Bu təcavüzün nəticəsi kimi, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilib, 1 milyon qaçqın-köçkünümüz var.

Bu, dünyada ölkənin əhalisinin sayına nisbətdə qaçqın-köçkünlərin ən yüksək göstəricisidir. 8 milyon əhalinin 1 milyonu qaçqınlar və məcburi köçkünlərdir.

Təəssüf ki, beynəlxalq ictimaiyyət bu məsələlərə kifayət qədər diqqət yetirmir. Təcavüzkar separatçılıq, beynəlxalq hüquq normalarının pozulması, ərazi bütövlüyünün pozulması beynəlxalq ictimaiyyət tərəfindən pislənməli, lənətlənməli hərəkətlərdir. Həm də bunları yalnız pisləməklə kifayətlənmək olmaz. Sanksiyalar tətbiq olunmalı, təcavüzə son qoymaq üçün praktiki addımlar atılmalıdır.

Bu gün Cənubi Qafqazda, bizdə, qanunsuz ərazilər mövcuddur. Dağlıq Qarabağ onlardan biridir. Gürcüstan ərazisində də qanunsuz ərazilər mövcuddur. Burada beynəlxalq nəzarət, beynəlxalq monitorinq yoxdur və həmin zonalarda qanunun aliliyi qorunmur. Bu cür təhlükə ilə yanaşı necə yaşamalı? Nəzarətsiz ərazilərin törədə biləcəyi təhlükə

potensialı hamıya məlumdur. Bu, bütün kriminal elementlər üçün rahat ərazidir və beynəlxalq ictimaiyyətin terrora qarşı mübarizədə birləşdiyi bir şəraitdə, düşünürəm ki, bu qanunsuz ərazilərə də diqqət artırılmalıdır. Çünki bu ərazilərdə terrorizmin çox böyük dayaqları ola bilər. Azərbaycan ərazilərinin itirilməsi ilə heç vaxt razılaşmayacaq, biz bu əraziləri geri alacağıq. Biz bunu sülh yolu ilə etmək istəyirik, amma təəssüf ki, sülh yolu ilə ciddi uğur əldə etməmişik.

Bu gün Azərbaycandakı iqtisadi vəziyyət Ermənistanın iqtisadi vəziyyəti ilə müqayisə oluna bilməz. Bizim iqtisadiyyatın bugünkü gücü Ermənistanınkından 3-4 dəfə böyükdür. Bir neçə ilə fərq 10 dəfəyə çatacaqdır. Əlbəttə ki, bütün imkanların, ehtiyatların istifadə olunması ilə biz sonda ərazimizi azad edəcəyik. Biz digər ərazilərə can atmırıq. Amma Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Azərbaycanın torpaqlarıdır. Azərbaycanın ayrılmaz hissəsidir və Azərbaycana qaytarılmalıdır.

Mən əminəm ki, məsələ ilə birbaşa məşğul olan beynəlxalq təşkilatlar bunu həll etməkdən ötrü səylərini ikiqat gücləndirəcəklər. Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə ki, ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır.

Əminəm ki, Azərbaycanı gözəl gələcək gözləyir. Qeyd etdiyim kimi, regional əməkdaşlıq çox yaxşı səviyyədədir. Bütün qonşularla çox yaxşı münasibətlərimiz var. İqtisadi artım üçün gözəl iqtisadi potensial var. Biz sosial problemlərimizi həll edirik. Yalnız bizə deyil, bütün regiona, bütün dünyaya lazım olan ancaq sülhdür. Azərbaycan bütün dünyada sülhün bərqərar olmasına öz töhfəsini vermişdir. Biz regiona sülh gətirilməsi yolunda səylərimizi əsirgəməmişik və bu siyasətimiz dəyişməz qalacaqdır. Mən sizi əmin etmək istəyirəm ki, həyata keçirdiyimiz siyasət, xüsusilə də Avropa strukturlarına, Avratlantik qurumlarına inteqrasiya siyasətimiz davam edəcəkdir. Ölkəmiz ümumavropa işinə öz töhfəsini verməkdə davam edəcəkdir. Çox sağ olun.

* * *

BRYUS CEKSON: Sağ olun, cənab Prezident. Gördüyünüz kimi, qarşınızda nəzəriyyə də var, nəzəriyyəni həyata keçirən lider də. Sonuncu natiqimiz yekun sözü ilə buyursun.

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜŞAVİRİ ƏHMƏD DAVUDOĞLUNUN ÇIXIŞI

- Cənab sədr!

Zati-alilləri!

Hörmətli qonaqlar!

Bu Avropa şəhərinə bir daha xoş gəlmisiniz. Bu Asiya şəhərinə xoş gəlmisiniz. Bu Qara dəniz şəhərinə, Mərmərə dənizi şəhərinə, Aralıq dənizi və Egey dənizi şəhərinə xoş gəlmisiniz. Qərb və Şərq şəhərinə xoş gəlmisiniz. Bu, qloballaşmanın şəhəridir. Mənim işim hamınızdan çətindir. Çünki gərək yekunlaşdırım. Sədrin tövsiyəsi belə olmuşdur. Üstəlik, öz əlavəmi də etməliyəm. Avratlantik qurumunun Qara dəniz regionu barədə strategiyasını necə müəyyən etməklə bağlı mülahizələrimi də sizə çatdırmalıyam.

Amma sədrin təqdimatları, xarici işlər nazirinin və prezidentlərin çıxışları o qədər gözəl oldu ki, mənim işimi asanlaşdırdı. Xarici işlər naziri cənab Coane regionu gözəl təsvir etdi. Albaniyadan başlayaraq, Cənubi Qafqazadək çox gözəl təsviri təhlil verdi. Cənab Saakaşvili ilə cənab Əliyevin təqdimatları region üçün vacib ölkələrdə nəzəriyyənin praktikada tətbiqinə dair konkret addımların göstəricisi idi. Bu iki təqdimatı eşitdikdən sonra mən özümü iki səviyyədə təhlillər aparmağa hazırladım. Birinci, Qara dəniz regionu üzrə təhlil, digəri isə, ayrı-ayrı ölkələr üzrə təhlillər. Çünki regional və fərdi səviyyədə davamlı təhlillərin olması vacibdir. Qara dəniz zonasına nəzər salmaqla bir daha deyirəm ki, cənab nazir çox gözəl tarixi və coğrafi giriş sözü ilə çıxış etdi.

İlk əvvəl müəyyən edək ki, Qara dəniz nə deməkdir? Sahilyanı ölkələr var. Rusiya, Rumıniya, Bolqarıstan, Türkiyə, Gürcüstan. Amma daha sonra regiona birbaşa bağlı ölkələr gəlir. Çıxışlara qulaq asdıqca düşünməyə əsas var ki, Albaniyadan Azərbaycana, oradan da Belarusa qədər böyük bir ərazi əhatə olunur. Beləliklə, Qara dəniz regionu Xəzərdən Baltik dənizinə, Baltik dənizindən isə Adriatik dənizinə kimi üçbucaq ərazini əhatə edir. Bu ərazidəki ölkələr qarşılıqlı surətdə bir-birindən asılıdırlar. Qara dəniz hövzəsində yerləşən ölkələrin birində gedən prosesləri digərində gedən proseslərdən ayırmaq mümkün deyildir. Əgər beladirsə, qarşınızda bu ərazinin coğrafiyası və imici dilemması durur. Bir tərəfdən, siyasi cəhətdən burada çox kövrək zonalar vardır - Balkan, Qafqaz. Digər tərəfdən isə coğrafi ərazi bir-biri ilə sıx əlaqədədir. Enerji daşıyıcılarının nəqli coğrafi ərazinin hamısını əhatə edir. Prezident Əliyev öz çıxışında vurğuladı ki, eyni zamanda, burada coğrafi-mədəni aspekt də öz sözünü deyir. Oxşar etnik qruplar, oxşar dillərlə yanaşı, müxtəlif millətlər, mixtəlif dillərdə danışan xalqlar bu ərazidə yaşayır. Ona görə də bu ərazilərdə dövlət quruculuğu prosesi çətinləşir. Cənab Saakaşvili Gürcüstanın birləşdirilməsi ilə bağlı çətinliklərdən danışarkən bunu qeyd etdi. Beləliklə, qarşımızdakı ərazi bu cür çətin bir ərazidir. Coğrafiya və imic məsələsi qarşımızdadır. Xəritəyə baxarkən, Qara dənizlə Türkiyə arasında maraqlı bir təzad alınır. Elə bil Qara dəniz Avropanın ortasındadır. Amma hər hansı fransız və yaxud da britaniyalının təbirincə, Qara dəniz Avropanın qurtaracağındadır. Çinli üçün, Uzaq Şərqdə yaşayan asiyalılar üçün Qara dəniz Asiyanın qurtaracağındadır. Yenidən xəritəyə baxsaq, Türkiyə yolayrıcının mərkəzində yerləşir. Amma yenə də Qərbdən baxanda, Türkiyə haradasa ucqarlarda, Şərqdə görsənir, Şərqdən nəzər salsaq, yenə də ucqarlarda, Qərbdə qəbul olunur. Bunun bizim üçün mənfi, yoxsa üstün cəhətləri çoxdur?

Həm Qara dəniz, həm də Türkiyə üçün üstün cəhətdir. Əgər sənə verilən xarakteristika bu qədər fərqlidirsə, bu,o deməkdir ki, regionda çox mühüm bir rol oynayırsan. Ona görə də gəlin görək, tarixdə olduğu kimi, indi də Qara dəniz mühüm rol oynaya bilərmi? Məsələn, "soyuq müharibə" dövründə Qara dəniz tərəfləri qəti şəkildə, radikal şəkildə ayırırdı. Amma cənab nazirin dediyi kimi, Yunan-Roma tarixindən Osmanlı tarixinədək Qara dəniz vahid iqtisadi zona olmuşdur. Burada yaşayan xalqlar bir-birindən asılı olmuşlar.

İndi hansı strategiyanı qəbul etmək lazımdır ki, regionda olan problemlər həll olunsun və ümumbəşəri sülhə töhfə versin? Üç əsas qruplaşma aparaq. Türkiyə, Bolqarıstan və Rumıniya NATO-nun üzvləridir. Gürcüstan, Azərbaycan və Ermənistan təxminən eyni xarakteristikaya malik olan ölkələrdir. Rusiya, Ukrayna, Belarus, Moldova başqa cür xarakterizə olunan ölkələrdir. Amma ümumi strategiya işlənəcəyi halda, bütün bu müxtə-

lif elementlər həmin strategiyaya daxil olmalıdır və heç bir ölkəni bu strategiyadan kənarda saxlamaq olmaz. Təəssüf olsun ki, "üzvlük fəaliyyət planı"nda da bu problem qalmaqdadır. Vahid qərar işlənilməlidir. Abxaziya problemi, Balkanlarda Kosovo problemi. De-fakto adlanan bu şərait nə zamana qədər davam edəcəkdir? Bunun həlli yollarını çalışıb tapmalıyıq. Bu, ümumilikdə Qara dəniz regionuna aid olan suallardır. Bundan əlavə, hər ölkə ilə bağlı inkişaf planı hazırlanmalı, demokratikləşmə prosesi önə çəkilməlidir. Bu gün səhər daha geniş Yaxın Şərqlə bağlı gözəl müzakirə keçirdik...

* * *

BRYUS CEKSON: Natiqlərin çıxışından sonra bizim sual-cavab üçün təxminən 22-23 dəqiqəmiz var. Sual verərkən özünüzü təqdim edin. Buyurun.

SUAL (*Stənford Universitetindən Mayk Makfol*): Sualım Prezident Əliyevədir. Mən Stənford Universitetində demokratikləşmədən dərs deyirəm. Tələbələrimə izah etməyə çalışıram ki, demokratiyaya keçid səhv ifadədir. Demokratiya bütün ölkələrdə daim tərəqqi edən iş tələb edir. Mən özüm Amerika haqqında danışmağa başlasam, bir neçə mövzunun adını çəkərdim ki, onların düzəlməsi ilə Amerikada demokratiyanın səviyyəsi artar. Bəlkə, Siz ölkənizə aidiyyatı olan bu məsələlərin adını çəkərdiniz?

İLHAM ƏLİYEV: Hər bir cəmiyyətin demokratikləşməsi prosesdir. Sonu olmayan proses. Hər bir ölkə müəyyən şəraitdə yaşayır. Bəzən həmin şərait və mühit ölkənin istəkləri və strategiyasından asılı olmur. Azərbaycan və eləcə də keçmiş SSRİ-nin digər respublikaları 70 il tamam başqa sistemdə yaşamışlar. Siz həmin sistem haqqında universitetdə təhsil zamanı məlumat almısınız. Amma onu şəxsi həyatınızda hiss etməmisiniz. Onu hiss etməkdən ötrü gərək sistemin içərisində yaşayasan. Biz Mixail və mənim özüm bu sistemdə yaşamışıq. Xoşbəxtlikdən, həmin sistem dağılarkən biz kifayət qədər gənc idik. Biz sistemin dağılması ilə yaranan azadlıqdan və müstəqillikdən yaşlı nəsildən daha çox bəhrələnə bildik Bu gün Azərbaycanın nailiyyətlərindən biri, müstəqillikdən sonrakı bütün çətinliklərə, ərazimizin işğal olunmasına baxmayaraq, daxili çətinliklərə, vətəndaş müharibəsinə və digər təhlükəli proseslərə baxmayaraq, ölkənin həqiqi müstəqilliyini qoruyub saxlaya bilməsidir. Ərazimizdə xarici qoşunlar yoxdur. Siyasətimizi digər qurumların və strukturların maraqlarına uyğun yox, tamamilə milli maraqlarımıza uyğun aparırıq.

Əlbəttə ki, bölgəmizdə demokratikləşmə prosesi davam etməkdədir. Azərbaycanı 10 il əvvəlki şəraiti ilə müqayisə etsəniz, görərsiniz ki, o vaxt ölkə demokratik cəmiyyətin standartları və normalarından çox uzaqda idi. Bu gün məndən soruşsanız ki, Azərbaycan bütün meyarlara cavab verir, yoxsa yox, əlbəttə, Azərbaycan azad dünyanın bir əsrdən çox yaşadığı standartlara cavab vermir. Keçmiş SSRİ respublikalarından Avropa Birliyində olan demokratiya səviyyəsini gözləmək hələ çox tezdir. Amma bu istiqamətdə siyasət aparılır. Strategiya, strateji seçim müəyyən olunubdur. 1993-cü ildən ölkəmiz beynəlxalq birliyə çox uğurla inteqrasiya edir. Demokratikləşmə prosesi də uğurla aparılır.

SUAL: Mən Estoniyadanam. Sualım cənab Saakaşviliyədir. Rusiyanın Gürcüstandakı inqilabda rolu və maraqları nədən ibarət idi?

MİXAİL SAAKAŞVİLİ: Düşünürəm ki, Rusiya ilə Gürcüstan arasında olan münasibətlər çox pis, çox gərgin idi. Münasibətləri bundan da pis təsəvvür etmək mümkün deyil-

di. Son 10 il müddətində Rusiya Gürcüstanın daxilində 2 müharibədə iştirak etdi və yaxşı tərəfdən iştirak etmədi. "Qızılgül inqilabı"na ilk reaksiya çox mənfi idi. Ruslar dedilər ki, bu, MDB ölkələri üçün Latın Amerikası təcrübəsindən istifadə olunmasıdır. MDB-nin lideri kimi Rusiya özü də digər MDB liderləri tərəfindən təsir altında idi. Çünki həmin liderlər belə bir inqilabı özləri üçün də təhlükə hesab edirdilər. Amma bir neçə aydır ki, Rusiya ilə intensiv və yaxşı dialoq yaranmışdır. Müəyyən tədbirlər həyata keçirilmişdir. Siyasətimiz daha praqmatik şəkildə qurulubdur. Rusiyanın regionla bağlı qanuni narahatlıqları vardır. Məsələn, sərhədlərinin təhlükəsizliyi, ərazisinə bu sərhədlər vasitəsilə yaraqlıların soxula bilməsi ehtimalı. Rusiyanın regionda həm də iqtisadi maraqları mövcuddur. Amma sərmayələrin, iqtisadi fəaliyyətin olduğu bir şəraitdə praqmatik siyasətə üstünlük verilməlidir. Daha rasional siyasət aparmaq lazımdır. Rusiyanın motivləri haqqında sizə deyim ki, Rusiya siyasətinin əsasında qeyri-rasionallıq dururdu.

SUAL: Karen Qazaryan, Ermənistan Xarici İşlər Nazirliyi. Natiqlərə gözəl çıxışlarına görə minnətdaram. Cənab Əliyev, çıxışınızda Dağlıq Qarabağı nəzarətsiz və qanunsuz ərazi adlandırdınız. Amma Sizə xatırladım ki, Dağlıq Qarabağ öz qurumlarını yaratmışdır. Təsisatları işləyir və regionda sülh və təhlükəsizliyə töhfə verməyə hazırdır. Keçən ay Dağlıq Qarabağda atəşkəsin on illiyi qeyd olundu. Tərəflər özləri buna nəzarət edirlər. Bu, dünyada ən uzun sürən atəşkəsdir, məqsəd də atəşkəsin sülhə transformasiyasından ibarətdir. Mənim sualım belədir: Sizin hökumətiniz nəyə görə ATƏT-in Minsk qrupunun fəaliyyətindən narazıdır? Sizin rəsmilər Bakıda bununla bağlı bir sıra bəyanatlar veriblər.

Biz beynəlxalq birliyin üzvü olmaqdan bəhrələnməyi bacardıq. Biz artıq kiçik qardaş, digər millətlərdən asılı millət deyildik. Siyasətini tamamilə müstəqil müəyyən edən millət idik.

İLHAM ƏLİYEV: Mən də xronologiyaya riayət edərək, əvvəlcə sizin şərhinizə münasibətimi bildirim, sonra isə sualınıza cavab verim. Dağlıq Qarabağ dünyada heç kimin tanımadığı bir qurumdur. Bu, tanınmayan, qanunsuz, özü-özünü müstəqil elan etmiş dırnaqarası qurumdur. Dağlıq Qarabağ region üçün ciddi təhlükə mənbəyidir. Səbəblərini mən sadalamışam. Beynəlxalq monitorinq keçirilmir. Narkotik daşınması ehtimalı böyükdür. Bununla bağlı sübut da vardır. Terrorist düşərgələri mövcuddur. Terrorçuların burada himayə olunması məlumdur. Çünki terrorçular harada gizlənməlidirlər? Əlbəttə ki, nəzarətsiz zonalarda. Dağlıq Qarabağ bu ərazilərdən biridir və əlbəttə ki, yalnız Azərbaycan üçün deyil, bütün region üçün təhlükədir.

Vasitəçilərin missiyasının qənaətbəxş olmamasının səbəbi sadədir. Onlar nəticə əldə edə bilməyiblər. Azərbaycanın ərazi bütövlüyü pozulub. Ermənistan, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir. Dağlıq Qarabağın inzibati ərazisindən əlavə, Azərbaycanın digər 7 rayonu da işğal altındadır. Sizə məlum olduğu kimi bu 7 rayonda heç vaxt ermənilər yaşamayıbdır. Bu 7 rayonda 700 min azərbaycanlı yaşayırdı ki, onlar da ölkə daxilində köçkünə çevriliblər. Üstəgəl, Ermənistan ərazisində yaşayan 250 min azərbaycanlı da etnik təmizləmə nəticəsində oradan çıxarılmışdır. Üstəgəl, hansılar ki, Dağlıq Qarabağın öz ərazisində yaşayan 50 minədək azərbaycanlı da etnik təmizləmə nəticəsində hazırda çadır şəhərciklərində, şəraiti olmayan vəziyyətdə yaşayır. Ermənistanın Azərbaycana qarşı müharibəsinin nəticəsi budur.

Uzun illərdir ki, Ermənistan təbliğatı həqiqəti gizlədir. Erməni təbliğatı ona yönəlib ki, səbəb unudulsun və problem həll olunsun. Bu, alınmayacaq. Bütün dünya bilməlidir və artıq hamı bilir ki, Azərbaycanda nə baş verir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Beynəlxalq hüquq normaları kəskin şəkildə pozulubdur. Biz XXI əsrdə yaşayırıq. Ermənistan və Azərbaycan beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının üzvləridir. Beynəlxalq birlik bir ölkənin digər ölkənin ərazisini işğal etməsi və işğal olunmuş əraziləri tərk etməməsi faktı ilə razılaşmamalıdır. Bratislavadakı sammiti xatırlayıram. Orada Ermənistanın xarici işlər naziri iştirak edirdi və o dedi ki, Ermənistan özünə məxsus olmayan torpaqları özündə saxlayır. Bu, həqiqətən belədir. Erməni rəsmilərinin ən ciddi və ən doğru bəyanatlarından biri idi. Əgər özünə məxsus olmayan nəyisə özündə saxlayırsansa, onu geri qaytarmalısan. Bu da münaqişənin həll olunmasının yeganə yoludur.

BRYUS CEKSON: Hamımız razılaşarıq ki, dondurulmuş münaqişələr regionun sabitliyi üçün təhlükədir. Hər iki prezident qeyd etdi ki, sonrakı strategiyanın müəyyən olunmasında münaqişələrin həllinin böyük əhəmiyyəti var.

SUAL: Bilkənd Universitetindən Sezer Dilbazoğlu, beynəlxalq münasibətlər üzrə professor. Gözəl, aydın və məlumatlı çıxışlara görə sizə minnətdaram. Qara dəniz regionunun NATO-nun strateji maraq dairəsinə daxil edilməsi ilə bağlı Rusiyadan nə gözləyirsiniz? Çünki biz hələ 1990-cı illərdə elmi tədqiqat aparmışıq və o zaman Rusiya bərk narahat idi ki, Qara dəniz, bir növ, "NATO gölünə" çevrilə bilər. NATO-nun Cənubi Qafqaz ölkələrinə - Gürcüstana və Azərbaycana təsiri də Rusiyanı narahat edirdi.

Ermənistan bir qədər başqa vəziyyətdədir. Bu gün Rusiyadan nə gözləyirsiniz?

İkinci sualım isə regional münaqişələrlə bağlıdır. Münaqişələr davam edir və onları necə həll etmək fikrindəsiniz? İndiyə qədər beynəlxalq ictimaiyyətin fəaliyyəti səmərəli olmayıbdır. Rusiya çoxtərəfli sülhməramlıların regionda olmasına razılıq verərdimi? Sonda şərhim də var ki, təəssüflər olsun, Qərb Qara dəniz regionunun önəmini dərk etməkdə çox gec oyanıbdır.

MİXAİL SAAKAŞVİLİ: İlk əvvəl Türkiyənin oynadığı rolu qeyd edim. Türkiyə heç zaman regiondakı münaqişələrdən bəhrələnməyə çalışmayıbdır. Əksinə, çalışıb ki, münaqişələrin həll olunmasında rol oynasın. Məsələn, Acarıstandakı vəziyyət türklər üçün çox həssas bir məsələdir. Acarıstandakı separatçılar həmişə deyirdilər ki, Qars razılığı var və ona əsasən, əgər Gürcüstan hökuməti bizə qarşı qüvvə tətbiq edərsə, türklər əraziyə daxil olacaqlar. Türklər çox birmənalı və aydın dedilər ki, bu, Gürcüstanın daxili problemidir və biz Gürcüstanın ərazi bütövlüyünü istəyirik, Gürcüstana sülh, sabitlik arzu edirik və məsələ Gürcüstanın paytaxtında həll olunmalıdır. Bu, bizə çox yardım etdi. Beləliklə, Türkiyə ədalətli hərəkət edərək, əvvəllərdə bəzi digər ölkələrin etdiyi kimi, daxili gərginlikdən öz xeyrinə necə istifadə etmək yollarını axtarmırdı. Sualın Rusiya ilə bağlı hissəsinə gəldikdə isə, biz, əlbəttə, istəyirik ki, Avratlantik təsisatlara inteqrasiya edək. Amma Rusiyanı da kənarda qoymaq istəmirik. İstəyirik ki, bu inteqrasiya paralel olsun. Rusiyanın özü də demokratikləşmə prosesinə keçməlidir. Mən buraya gəlməzdən əvvəl cənab Putinlə konkret məsələləri müzakirə etmişəm. Ondan soruşmuşam ki, iştirakçılara konkret bir mesajı var, yoxsa yox? Bilirəm ki, o, dəvəti qəbul etməyibdir. O dedi yox, hamıya salam söylə. Məmnuniyyətlə onun salamını sizə yetirirəm və

əlbəttə ki, Rusiya siyasətini müəyyən etməlidir. Bu, Rusiyanın daxili siyasəti üçün çox çətin bir qərardır və Rusiyaya istehza ilə yanaşmaq çox təhlükəlidir. Lakin Rusiyaya anlatmaq da gərəkdir ki, müstəqil ölkələrlə münasibətlər qurur. Onların öz maraqları, daxili siyasətləri, demokratiyaları, əhalisi, öz gələcəkləri var və Rusiya bu fikrə alışmalıdır. Bu, ağrılı bir prosesdir. Burada anlaşma, əməkdaşlıq olmalıdır. Yeni inteqrasiya növləri tapılmalıdır. Elə bilirəm ki, bir sıra məsələlər üzrə Qərb də Rusiya ilə inteqrasiyaya maraqlıdır. Elə bilirəm ki, Türkiyə Rusiya ilə münasibətlərlə Qərblə əməkdaşlıq arasında gözəl tarazlıq yarada bilmişdir. Bu modeldən biz də istifadə edə bilərik və çoxmillətli sülhməramlıların istifadə olunmasında maraqlıyıq. Biz uzun müddətdir ki, xahiş edirik, amma indiyədək Qərb ölkələri bu məsələdə kifayət qədər təsir göstərə bilməmişdir. Rusiya isə özü hər şeyi öhdəsindən gələ biləcəyini düşünmüşdür. Amma artıq belə deyildir. Məsələn, bizə məlumdur ki, qaçaqmalçılıqda Gürcüstan ərazisində xidmət edən rus generallarının əli vardı. Yerli polisi cəlb etdik. Rus generalı dedi ki, sizə 6 saat vaxt veririk, ya yerli polis postunu yığışdırın, ya da o postu əzib keçəcəyik. Onda biz də iki hərbi vertolyotla əraziyə hərbçilərimizi göndərdik və dedik ki, əzə bilirsənsə, əz, biz artıq sizin fikirləşdiyiniz balaca uşaqlardan deyilik. Onda Kremlin reaksiyası belə oldu ki, general heç bir qərar qəbul etməsin və tabe olsun. Beləliklə, hər şey dəyişir və heç kim üçün əvvəlki oyunun qaydaları ilə oynamaq asan başa gəlmir. Bizə ciddi siyasi qərarlar qəbul etmək və yeni oyunun qaydalarını öyrənmək lazımdır.

SUAL: Kiyevdə Avropa və Beynəlxalq Tədris Mərkəzinin direktoru. İki sualım var: birinci sualım prezidentlərədir. Nəyə görə çıxışlarınızda GUÖAM haqqında heç bir söz demədiniz? İkinci sualım isə cənab Saakaşviliyə və nazir Coanneyədir. Qarşıdakı 5-10 il müddətində yeni qonşuluq siyasətində və Qara dəniz regionunda Ukraynanın oynayacağı rolu necə görürsünüz?

BRYUS CEKSON: Qalan sualları da eşidək, sonra cavablandırarıq.

SUAL: Birinci sualım Prezident Saakaşviliyə və Prezident Əliyevədir. Belə bir fikir aşılanıbdır ki, Gürcüstan və Azərbaycan təhlükəsizliyin əsas istehlakçıları olacaqlar. Hazırda isə Gürcüstan və Azərbaycana daha çox təhlükəsizliyi təmin edən tərəf kimi baxırlar. Bununla bağlı fikriniz? Ölkələrinizin NATO üzvü olması həmin təhlükəsizliyə töhfə verəcəkmi?

İkinci sualım Moldova ilə bağlıdır. Qara dəniz hövzəsi ölkəsi, Cənub-Şərqi Avropa ölkəsi 10 ildir ki, münaqişədən əziyyət çəkir. Məlumdur ki, Moldovanın kommunist prezidenti Moldovadakı Avropa meylli sivilizasiyalı cəmiyyətin arzusunu ifadə etmir və Dnestryanı münaqişədə də demokratiya və təhlükəsizlik prinsipləri əsasında həll variantına üstünlük verilir. Tələskənliyə yol verilir. Bu da ki, gələcəkdə Cənubi Qafqazdakı münaqişələrin həll olunmasına pis nümunə yaradır. Nə etmək lazımdır ki, bu tələskənliyə yol verilməsin?

SUAL: Sofiya, Regional və Beynəlxalq Araşdırmalar İnstitutu. Sualım professor Davudoğlunadır. 10 ildən artıqdır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı fəaliyyət göstərir. Amma əldə etdiyi nailiyyətlər də çox deyildir. Təşkilatın daha səmərəli işləməsi üçün imkan görürsünüzmü?

SUAL: Boris Tarasyuk, Ukraynadan. Çıxışların hamısı tərifəlayiqdir. İkincisi, kaş ki, yeni müstəqillik qazanmış ölkələrin prezidentləri hamısı bu gün çıxış edən prezidentlər

kimi ingiliscə sərbəst danışaydılar. GUÖAM-la bağlı sualım var və bu, hər iki prezidentədir. GUÖAM-ın gələcəyini görürsünüzmü? Yaxın gələcəkdə hansı addımlar atılmalıdır? Növbəti sualım cənab Əliyevədir. Xəzər neftindən ötrü Odessa-Brodı kəmərinə alternativ görürsünüzmü?

ƏHMƏD DAVUDOĞLU: Rusiyanın rolu və Qara dəniz iqtisadi zonası ilə bağlı şərh verim. Elə bilirəm ki, Qara dəniz iqtisadi zonasına və ümumiyyətlə, Qara dəniz regionuna yeni yanaşmanın əsasında Rusiyanın rolu duracaqdır. Çünki Avropa Birliyi və NATO təsisat kimi fəaliyyət göstərirlər və Qara dəniz bölgəsində də Rusiya kimi vacib tərəf var. Rusiyanın Qafqazdakı təsirini müzakirə etmək istəmirəm. Amma Avratlantik qurumu Qara dəniz siyasətində uğur qazanmaq istəyirsə, Rusiya ilə münasibətləri tənzimləməlidir. NATO-Rusiya Şurası fəaliyyət göstərir. Amma, eyni zamanda, strateji çərçivə də yoxdur. 20 il əvvəl Türkiyə Qara dənizdə yeganə NATO ölkəsi idi, bütün digərləri Varşava Müqaviləsinə daxil olan ölkələr idi. Ona görə də, indi elə etməyək ki, bütün digər ölkələr NATO üzvü olsunlar, Rusiya isə təcrid edilsin. Rusiya bu prosesə cəlb olunmalıdır, kənarda qalmamalıdır.

Ona görə də, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və Qara Dəniz İqtisadi Forumunun işini canlandırmaq lazımdır. Çünki Qara dənizdə həm iqtisadi əməkdaşlıqda, həm də təhlükəsizlik sahəsində əməkdaşlıqda Rusiya prosesin bir hissəsidir. Avratlantika qurumu yeni mexanizmlər, yeni strategiyalar işləməlidir ki, bunların vasitəsilə Rusiya prosesin bir hissəsi olsun. Doğrudur, deyə bilmərik ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı uğurlu qurumdur. Amma iki aspekt vardır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işini çox vacib edir. Çünki nəqliyyat, kommunikasiya, yeni tənzimləmələr və sair məsələlərdə birgə iş görmək zərurəti vardır. Digər aspekt isə təsisat aspektidir. Məsələn, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyası vardır. Bildiyiniz kimi, ölkələrin qarşısında demokratikləşmə məsələsi durur. Ölkələrin parlamentləri də bu təşkilatın çərçivəsində görüşüb fikir mübadiləsi aparırlar və bundan gələcəkdə cəmiyyətlərin transformasiyası üçün mühüm vasitə kimi istifadə oluna bilər. Amma Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının son illərdəki fəaliyyətinə bir daha nəzər yetirməliyik, onu yenidən qiymətləndirməliyik. Gələcəkdə Qara dənizlə bağlı yeni strategiyamız vardırsa, onu yenidən təşkil etməliyik. Beləliklə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ümumi işə xidmət edə bilər. Eləcə də Qara Dəniz İqtisadi Forumu.

İLHAM ƏLİYEV: GUÖAM-ın adı ona görə çəkilmədi ki, GUÖAM-ı təmsil edən yalnız iki prezident buradadır və biz azlıq təşkil edirik. Əlbəttə, istərdik ki, GUÖAM daha fəal olsun. GUÖAM-ın Parlamentlərarası Assambleyası yaradılacaqdır. Təşkilat çərçivəsində həyata keçiriləsi konkret layihələr varsa, bu GUÖAM-ın işinə daha çox dinamizm gətirər. O fikirlə tamamilə razıyam ki, Gürcüstan və Azərbaycan regionda artıq təhlükəsizliyi təmin etməyə başlayıblar. Bizim enerji layihələrimizin, əlbəttə ki, böyük iqtisadi mənası var. Amma regiona təhlükəsizlik gətirməyə də xidmət edəcəkdir. Xəzər dənizindən alternativ marşrutlara gəldikdə isə, bütün mümkün variantları nəzərdən keçirmişik. Məqsədimiz gündə 1 milyon barrel neft hasil etməkdir. Bu həcmi də ki, Bakı-Tbilisi-Ceyhan kəməri daşıyacaqdır. Amma, əlbəttə, əlavə neft olacaqdır ki, gələcəkdə digər marşrutlardan da istifadə etmək olar.

Bilkənd Universitetindən olan xanımın davam edən münaqişə ilə bağlı sualı. Bir məsələni nəzərinizə çatdırmaq istəyirəm. Bu müzakirələrdə Ermənistanın nümayəndəsi yoxdur. Olsaydı, bəlkə də, belə deyərdi: Dağlıq Qarabağ ermənilərı öz müqəddəratını təyin etmək istəyirlər. Cavab verim ki, erməni xalqı artıq Ermənistan dövləti çərçivəsində öz müqəddəratını təyin edibdir. Bir çox ölkələrdə erməni azlıqları yaşayır və bu da o demək deyil ki, yaşadıqları ərazilərdə müstəqil dövlət yaratsınlar.

MİXAİL SAAKAŞVİLİ: Ukraynanın rolu barədə. Ukraynanın Avropada həm rolu, həm də çəkisi artmaqdadır. Ukraynanın təbii sərvətləri azdır. Amma, onun digər sərvətləri var. Möhkəm işləmək qabiliyyəti olan əhalisi var, iqtisadiyyatı çox dinamikdir, hərbi qüvvəsi nəzərəçarpandır. Mən elə bilirəm ki, gələcəkdə Ukrayna, Polşa kimi, Avropa üçün mühüm rol oynayacaqdır.

Düşünürəm ki, Qara Dəniz kontekstində də mühüm rol oynaya bilər.

Hesab edirəm ki, GUÖAM-ın və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətini əlaqələndirməliyik. Onların işinə yeni elementlər əlavə olunmalıdır və Avropa Birliyinə inteqrasiya üçün onların fəaliyyətində müəyyən əlaqələndirməyə nail olmaq lazımdır. Bununla, bizim kimi, Avropa Birliyi da maraqlanmalıdır. Bu halda regional əməkdaşlığın böyük perspektivi ola bilər.

MİRÇA COANE: Həm yaxşı xəbər, həm də pis xəbər. Yaxşı xəbər odur ki, başladığımız Qara dəniz təşəbbüsü dayanmaz bir prosesdir. Onu saxlamaq mümkün deyildir. Pis xəbər isə odur ki, bu dəfə NATO-nun genişləndirilməsinin birinci və ikinci raundundan daha çətin olacaqdır. Amma bizim mənəvi strateji və siyasi məsuliyyətimiz və borcumuz var. Bunu həyata keçirməliyik. Bu təşəbbüsü dostlarımızla başlamışıq. Dostlarımızın hamısının adını çəkmək mümkün olmadı. Onların adları bu kitabçada çəkilibdir, hamısına minnətdarlığımı bildirirəm. Daha geniş Qara dəniz regionu haqqında danışarkən, söhbət ikitərəfli yoldan gedir. Bu, Avropanın birləşməsinin növbəti addımıdır və bundan sonra gələn, lakin hələ tamamlanmayan məsələ də Rusiyanın cəlb olunmasıdır və Qərblə inteqrasiyasıdır. Rusiya bu məsələyə cəlb olunmayana qədər, Rusiya Qərbə inteqrasiyada bizimlə birlikdə olacağını dərk etməyənə qədər işimizi tamamlanmış hesab edə bilmərik. Sonrakı addım daha geniş Yaxın Şərqdir. Bu regionda uğurlu olsaq, sabitliyə nail olsaq, bu sabitliyi daha geniş əraziyə yaya bilərik. Türkiyənin fundamental əhəmiyyəti var. Əminəm ki, Avropa Birliyi Türkiyəyə yaşıl işıq yandıracaqdır. Türkiyənin Avropa Birliyinə cəlb olunması ilə bizim də işimiz asanlaşacaqdır. Üçüncüsü, Ukraynanın böyük əhəmiyyəti var. Zənnimcə, gələcək illərdə Ukrayna Avropa Birliyinə və NATO-ya bu gün düşünüldüyündən daha çox yaxınlaşacaqdır. GUÖAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və Cənubi Qafqaz əməkdaşlığı arasında əlaqələr intensivləşməlidir. Düşünürəm ki, mövcud strukturlardan istifadə etmək, əlaqələri genişləndirmək lazımdır. Moldovadakı qardaşlarımız isə bizə arxayın ola bilərlər. Biz Moldovanı Cənubi Avropa əməkdaşlığına cəlb etmək üçün əlimizdən gələni edəcəyik. Azərbaycan öz sərvətləri ilə və strateji əhəmiyyəti ilə məlumdur. Bizim Gürcüstana yardım etmək kimi mənəvi borcumuz var. Çünki Gürcüstanın dondurulmuş münaqişələrinin həll olunması ümumi marağa xidmət edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da axşam "Çırağan" mehmanxanasında mətbuat konfransı keçirmişdir.

Mətbuat konfransının aparıcısı jurnalistlərə müraciətlə dedi:

- Xanımlar və cənablar!

Hər vaxtınız xeyir. Marşall Fondunun təşkil etdiyi bu görüşdə Prezident Əliyevin mətbuat konfransına xoş gəlmisiniz. Bizi gözlədiyinizə görə minnətdaram. Məlum olduğu kimi, Prezidentin ölkəsi Azərbaycanda və ümumiyyətlə, regionda canlanma hiss olunur. Azərbaycan sürətlə inkişaf edən dinamik dövlətə çevrilmişdir. İndi dünyada Azərbaycana böyük maraq var. Ona görə də sualların müxtəlifliyi məndə təəccüb doğurmaz. Buyurun, suallarınızı verin.

SUAL: Cənab Prezident, Türkiyəyə səfəriniz zamanı demişdiniz ki, ölkəniz Şimali Kipr Türk Cümhuriyyətini tanıyacaqdır. Amma hələ ki, bu yönümdə addım atılmayıbdır. İkinci sualım, Şimali Kipr Türk Cümhuriyyətinə bu yaxınlarda səfər etmək planınız varmı?

CAVAB: Mənim mövqeyim və Azərbaycanın bu mövzu ilə bağlı mövqeyi dəfələrlə rəsmi qaydada elan olunubdur. Qəzetlərdə dərc edilib, televiziyada yayımlanıbdır. Amma mövzuya maraq o qədər böyükdür ki, jurnalistlər eyni sualı dönə-dönə təkrarlayır və həmişə də eyni cavabı alırlar. Azərbaycanın rəsmi mövqeyi mənim Türkiyəyə səfərim zamanı Türkiyə mətbuat nümayəndələri ilə söhbətimdə bildirilibdir. Ondan sonra mənim bəyanatım və Xarici İşlər Nazirliyinin rəsmi bəyanatı olubdur. Rəsmi mövqe belə idi və belə olaraq qalır. Məlum olduğu kimi, mövqe referendumdan əvvəl bildirilibdir və deyilirdi ki, əgər referendumdan sonra bir tərəf "hə", digər tərəf "yox" deyərsə, dünyada yeni şərait yaranacaqdır. Bu yeni şəraitdə BMT, beynəlxalq ictimaiyyət problemə münasibətlərində dəyişiklik etməli olacaqdır. Mövzu ilə bağlı mövqelərində dəyişiklik etməli olacaqlar və bu dəyişikliklər edilərkən, Azərbaycan bu beynəlxalq səylərə qoşulan ilk ölkələr sırasında olacaqdır. Elə bilirəm ki, bunu başa düşmək bir o qədər də çətin deyildir. Xüsusilə də nəzərə alsaq ki, bu mövqe bir neçə dəfə təkrar olunubdur.

SUAL: Cənab Prezident, bu gün konfransda çıxışınız zamanı dediniz ki, Avropa Birliyinin Qarabağ münaqişəsi ilə bağlı daha fəal olmasını istərdiniz. ATƏT-in ata bilmədiyi hansı addımları Avropa Birliyindən gözləyirsiniz?

CAVAB: Mən çıxışımda dedim ki, biz mandatla bağlı dəyişiklik etmək istəmirik. ATƏT-in Minsk qrupunun məsələnin həlli ilə bağlı mandatı var və münaqişənin sülh yolu ilə həll olunmasında səylərini davam etdirir. Mən dedim ki, beynəlxalq birliyin prosesə daha geniş cəlb olunmasını istərdik. Burada Avropa Birliyi də, Avropa Şurası da, digər beynəlxalq təşkilatlar da nəzərdə tutulur. Artıq bu yönümdə atılan addımları görürük. Avropa Şurası Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsini müzakirə edir, mövzu ilə bağlı məruzə hazırlanıbdır. Avropa Birliyi Cənubi Qafqaza xüsusi nümayəndəsini təyin edibdir. Onun regiona səfərləri zamanı Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunur. Biz beynəlxalq birliyin daha geniş iştirakını istəyirik. Biz istəyirik ki, beynəlxalq ictimaiyyət həqiqətlə, reallıqla tanış olsun.

Erməni təbliğatı uzun illər boyu şəraiti onlara sərf edən tərzdə qələmə verirdi. Beynəlxalq ictimaiyyətə yalançı faktlar verilirdi. Bu gün şərait dəyişibdir. Bu gün dünya bilir ki, Ermənistan təcavüzkardır, işğalçıdır. Azərbaycan əraziləri işğal altındadır. Mən elə bilirəm ki, Avropa Birliyinin və digər beynəlxalq təşkilatların rolu çox güclü ola bilər. Onlar prosesə təsir də edə bilərlər, sülh əldə olunduqdan sonra proqramlar da təklif oluna bilər və gələcək müzakirələr də yer ala bilər.

SUAL: Siz Avropa Birliyinin daha fəal iştirakını görmək istədiyinizi bildirdiniz. Qarabağ mövzusunu NATO-nun gündəliyinə çıxarmağı planlaşdırırsınızmı?

CAVAB: Mənim Brüsselə - həm Avropa Birliyinə, həm də NATO-ya səfərim zamanı məsələ müzakirə olunubdur. Bu məsələ bütün səviyyələrdə müzakirə edilibdir. Elə bilirəm ki, bu cür müzakirələrin olması problemi bütün tərəflərin anlaması üçün vacibdir. Amma, əlbəttə ki, ATƏT-in Minsk qrupu sülh danışıqları çərçivəsində bu məsələ ilə məşğuldur. Biz hələ də ümidliyik ki, bu danışıqlar nəticə verəcəkdir.

Bəzən belə görüntü yaradılır ki, güzəştlər olmalıdır. Güzəştlər, əlbəttə ki, danışıqların əsas elementlərindəndir. Bu da o halda mümkün olur ki, hər iki tərəf güzəşt etsin. Azərbaycan Ermənistana məxsus olan heç bir şeyi özündə saxlamır ki, güzəştə də getsin. Bizim ərazi bütövlüyümüz isə güzəşt mövzusu ola bilməz. Ona görə də bizim tərəfdən güzəşt haqqında söhbət gedərsə, güzəştimiz yalnız təhlükəsizlik təminatı ola bilər. Biz heç zaman Dağlıq Qarabağın müstəqil olmasına, yaxud da Ermənistanın bir hissəsi olmasına razılıq verə bilmərik və bu mövqeyimiz dəyişməzdir.

SUAL: Cənab Əliyev, Siz Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya imkanlarını real surətdə necə qiymətləndirirsiniz?

İkinci sual, bu, Sizə Rusiya ilə qarşılıqlı münasibətlərdə mane olmurmu?

CAVAB: Azərbaycan Avratlantik strukturlarına fəal inteqrasiya edir. Biz "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçısıyıq. "Sülh naminə tərəfdaşlıq" proqramından sonra Azərbaycanla fərdi fəaliyyət proqramı çərçivəsində işbirliyi nəzərdə tutulur. Daha dərin inteqrasiya siyasətimiz davam etdiriləcəkdir. Əlbəttə ki, həll olunmamış münaqişə, Ermənistanla Azərbaycan arasında problemin mövcudluğu ciddi problemdir. Bizim beynəlxalq təşkilatlarla münasibətlərimizdə çətinliklər doğurur. Ümid edirəm ki, münaqişə həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Rusiya ilə münasibətlərdə Azərbaycanın heç bir problemi yoxdur. Bizim bütün istiqamətlərdə - siyasi, iqtisadi və mədəni sahələrdə çox yaxşı əməkdaşlığımız vardır. Bizim aramızda həll edilməmiş problemlər yoxdur. Siyasi dialoqumuzun səviyyəsi çox yüksəkdir və hər iki ölkənin mənafelərinə uyğundur.

İSTANBULDA NATO-NUN ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI

İyunun 28-də İstanbulun Lütfü Kırdal adına beynəlxalq konfrans və sərgi salonunda NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşünün açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edirdi.

Görüşü açan NATO-nun baş katibi Yaap de Hoop Sxeffer iştirakçıları salamlayaraq, bu toplantının əhəmiyyətini vurğuladı. O bildirdi ki, zirvə görüşündə 46 ölkənin dövlət və hökumət başçıları, ümumiyyətlə, 3 mindən çox nümayəndə iştirak edir. Bu, NATO-nun genişlənməsindən sonra keçirilən ilk toplantıdır. İştirakçı ölkələrdən 26-sı Alyansın üzvləridir. Qalanları tərəfdaş ölkələrdir. Tədbiri işıqlandırmaq üçün 3500 jurnalist akkreditə olunmuşdur.

Baş katib dedi ki, dünyada təhlükəsizliyin təmin olunması baxımından NATO sammitinin keçirilməsi çox əhəmiyyətlidir. Bu tədbirin keçirilməsindən əsas məqsəd İraq və Əfqanıstan məsələlərinin müzakirəsi, eləcə də beynəlxalq terrorizmə qarşı birgə mübarizə haqqında fikir mübadiləsi aparmaqdır.

Sonra çıxış edən Türkiyə Prezidenti Əhməd Necdət Sezər görüş iştirakçılarını səmimi salamlayaraq, ölkəsində onları görməkdən böyük şərəf duyduğunu söylədi və zirvə görüşünün keçirilməsi üçün hər cür şəraitin yaradıldığını bildirdi. O, NATO-nun İraq və Əfqanıstanla bağlı, beynəlxalq terrorizmə qarşı birgə mübarizəyə dair gündəliyə çıxardığı məsələlərin əhəmiyyətini xüsusi vurğuladı.

Fransa Prezidenti Jak Şirakın çıxışından sonra görüş qapalı şəkildə davam etdirildi.

İyunun 29-da zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı nəzərdə tutulmuşdur.

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

İyunun 28-də NATO-nun İstanbul zirvə toplantısı çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyənin xarici işlər naziri Abdullah Gül, Ermənistanın xarici işlər naziri Vartan Oskanyan arasında üçtərəfli görüş keçirilmişdir.

Görüşdən sonra nazirlər mətbuata açıqlama verdilər. Türkiyənin xarici işlər naziri Abdullah Gül bildirdi ki, danışıqlar çox faydalı oldu. Bu görüş Minsk qrupu çərçivəsində gedən sülh prosesinə yardım məqsədi daşıyır. Genişlənən Avropa Birliyi və NATO Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində çox maraqlıdır. Tərəflər bu görüşləri davam etdirmək qərarına gəlmişlər.

Ermənistanın xarici işlər naziri Vartan Oskanyan açıqlamasında dedi ki, görüşdə regionda sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı. Avropa Birliyinin və NATO-nun genişlənməsi fonunda Cənubi Qafqazda yeni strategiyanın parametrlərinin müəyyənləşdirilməsi çox zəruridir. O qeyd etdi ki, tərəflər Dağlıq Qarabağ probleminin həlli istiqamətində səylərini davam etdirəcəklər. Türkiyə, Azərbaycan, Ermənistan regionda sabitliyin təmin olunmasında maraqlıdır.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov vurğuladı ki, görüşdə tərəflər öz mövqelərini bir daha bildirdilər. Lakin əsas müzakirə obyekti Türkiyənin sülh prosesində daha fəal rol oynaması idi. Tərəflər razılığa gəldilər ki, bununla bağlı xüsusi mexanizm üzərində işləsinlər və 1-2 aydan sonra üçtərəfli görüş yenidən davam etdirilsin. Bu görüş irəliyə doğru daha bir addımdır. Belə görüşlər bizi problemin həllinə daha da yaxınlaşdırır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 28-də İstanbulun "Həyat" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü olmuşdur.

Azərbaycan Prezidentini səmimiyyətlə qarşılayan Türkiyə Prezidenti dövlətimizin başçısının NATO-nun zirvə görüşündə iştirak etməsindən məmnunluğunu söylədi və belə görüşlərin əhəmiyyətli olduğunu xüsusi vurğuladı. Cənab Əhməd Necdət Sezər Azərbaycan-Türkiyə münasibətlərinin günbəgün genişləndiyini, iqtisadi-siyasi sahədə əlaqələrin hər iki ölkənin maraqlarına uyğun şəkildə inkişaf etdiyini bildirdi. Türkiyə Prezidenti Şimali Kipr məsələsi ilə bağlı öz fikirlərini də söylədi.

Prezident İlham Əliyev səmimi görüş üçün təşəkkür edərək, NATO-nun zirvə görüşü çərçivəsində İstanbulda olmaqdan böyük şərəf duyduğunu bildirdi, tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından söhbət açdı, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində işlərin nəzərdə tutulduğu şəkildə getdiyini vurğulayaraq dedi ki, bu layihənin vaxtında başa çatdırılması hər iki tərəfə böyük fayda gətirəcəkdir.

Söhbət zamanı ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulan neft strategiyasının həyata keçirilməsindəki uğurlar, Türkiyə-Azərbaycan münasibətlərinin indiki səviyyəyə çatmasında xalqımızın dahi oğlunun xidmətləri xüsusi vurğulandı.

Tərəflər hər iki ölkəni maraqlandıran regional və beynəlxalq məsələlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi apardılar. Prezident Əhməd Necdət Sezər Türkiyənin bu münaqişədə Azərbaycanın mövqeyini daim dəstəkləyəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

İyunun 28-də İstanbulun Lütfü Kırdar adına beynəlxalq konfrans və sərgi sarayının fəxri qonaqlar salonunda Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

Azərbaycan rəhbərini böyük hörmət və ehtiramla salamlayan cənab Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi yenidən görməyindən və onun NATO-nun zirvə toplantısında iştirakından məmnunluğunu ifadə etdi. Baş nazir Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi sahəsində son illər ərzində görülən işlərdən danışdı, eləcə də NATO çərçivəsində keçirilən tədbirlərdə Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində önəmli fikir mübadiləsi aparıldığını da diqqətə çatdırdı.

Prezident İlham Əliyev NATO-nun zirvə görüşündə iştirak etməsini yüksək qiymətləndirdi və bu dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı bir çox beynəlxalq layihələrin həyata keçirilməsində ölkələrimizin əməkdaşlığına toxunuldu, ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu Ba-

kı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin gedişi ilə bağlı heç bir narahatlıq olmadığı və onun vaxtında başa çatdırılacağı vurğulandı.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Türkiyə əməkdaşlığının yüksək səviyyəsini qeyd etdi. O, Baş nazirə bir daha təşəkkür edərək dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında Türkiyə əlindən gələni əsirgəmir və Azərbaycan bunu həmişə yüksək qiymətləndirir.

Görüşdə regional, beynəlxalq problemlər və ölkələrimizi maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi edildi.

İSTANBULDA GUÖAM DÖVLƏTLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ VI İCLASI KEÇİRİLMİŞDİR

İyunun 28-də İstanbulda, NATO-nun zirvə toplantısı çərçivəsində, GUÖAM dövlətləri Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) VI iclası keçirilmişdir. İclasda Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna nümayəndələri, habelə ABŞ-ın nümayəndə heyəti iştirak etmişdir.

Xarici İşlər Nazirləri Şurası 2003-cü il sentyabrın 26-da Nyu-Yorkda keçirilmiş GUÖAM XİNŞ-in iclasının və GUÖAM-ABŞ görüşünün qərarlarının yerinə yetirilməsini müzakirə etmişdir. XİNŞ-in iclasında nazirlər bir sıra sənədləri təsdiqləmişlər.

Şuranın iclasında GUÖAM-ın 2002-2003-cü illərdə Yaltada keçirilmiş zirvə toplantılarında imzalanan sənədlərin qüvvəyə minməsinə dair dövlətdaxili prosedurların tezliklə yerinə yetirilməsinin zəruriliyi vurğulanmışdır. Nazirlər "GUÖAM-ın iştirakçısı olan dövlətlər arasında azad ticarət zonası yaradılması haqqında saziş"i və "GUÖAM-ın İnformasiya ofisi haqqında Müvəqqəti Əsasnamə"ni hələ ratifikasiya etməyən dövlətləri bu sənədlərin ratifikasiyası prosesini sürətləndirməyə çağırmışlar. Sahə işçi qruplarının əlaqələndirici ölkələri barədə məsələyə də baxılmışdır.

İclas iştirakçıları beynəlxalq təşkilatlar çərçivəsində, GUÖAM ölkələrinin ümumi mövqelərinin qorunmasına, o cümlədən münaqişələrin dövlətlərin ərazi bütövlüyünün gözlənilməsi prinsipi əsasında nizama salınmasına dair birgə təşəbbüslərin vacibliyini nəzərə çarpdırmışlar.

Nazirlər BMT Baş Məclisi yanında müşahidəçi statusu nəzərə alınmaqla, 2004-cü il üçün BMT çərçivəsində əməkdaşlığın inkişafına dair GUÖAM ölkələrinin fəaliyyət planına müsbət qiymət vermişlər. Həmin plan Milli Əlaqələndiricilər Komitəsinin 2004-cü il martın 22-23-də Bakıda keçirilən iclasında təsdiq edilmişdir.

Nazirlər konkret layihələr hazırlanarkən ABŞ ilə sıx əməkdaşlığın xüsusilə vacibliyini və GUÖAM-ın təşəbbüslərinin ABŞ hökuməti tərəfindən fəal dəstəkləndiyini vurğulamışlar. Şura GUÖAM çərçivəsində nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsində Avropa Birliyi ilə əməkdaşlıqda maraqlı olduğunu və GUÖAM-AB və GUÖAM-ABŞ formatında dialoqun davam etdirilməsinə tərəfdar olduğunu da bildirmişdir.

XİNŞ-in iclasında nazirlər GUÖAM-ABŞ çərçivə proqramının həyata keçirilməsinin gedişini müzakirə etmiş və aşağıdakı razılaşdırılmış sənədləri təsdiqləmişlər:

- GUÖAM dövlətlərinin ticarətinə və daşımalarına yardım layihəsinin (TDYL) həyata keçirilməsinə dair Regional strategiyanın və Tədbirlər planının təsdiq edilməsi haqqında qərar;

- GUÖAM-ın Virtual Mərkəzinin (VM) və GUÖAM-ın dövlətlərarası informasiya-analitik sisteminin (DİAS) yaradılması haqqında layihələrin təsdiq edilməsi barədə qərar.

Nazirlər TDYL və VM/DİAS layihələrinin öz dövlətlərində gerçəkləşdirilməsinə qəti yardım göstərmək niyyətində olduqlarını təsdiqləmiş və bu layihələri nəqliyyat dəhlizlərinin ümumavropa sisteminin inkişafı ilə əlaqəli şəkildə həyata keçirməyin vacibliyini xüsusi vurğulamışlar.

XİNŞ-in iclasında GUÖAM ölkələrinin ərazilərindən keçən və təhlükəsiz, səmərəli fəaliyyət göstərəcək, beynəlxalq daşımaların rəqabət qabiliyyətli və təhlükəsiz xidmətlərini təmin edə biləcək nəqliyyat dəhlizi yaradılması haqqında beynəlxalq layihə ideyası bəyənilmişdir.

XİNŞ GUÖAM Parlament Assambleyasının 2004-cü ilin sentyabrında Kiyevdə ilk iclasının keçirilməsi haqqında qərarı da alqışlamışdır. Bu qərar Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna parlamentləri rəhbərlərinin Avropa Şurasının üzvü olan ölkələrin parlament başçılarının bu il mayın 17-19-da Strasburqda keçirilmiş konfransında qəbul olunmuşdur.

İclasda GUÖAM-ın 2004-cü il zirvə toplantısı çərçivəsində XİNŞ-in VII iclasını keçirmək haqqında qərar qəbul edilmişdir.

XİNŞ-in iclasının yekunlarına dair birgə rəsmi məlumat qəbul olunmuşdur.

NATO-NUN ZİRVƏ GÖRÜŞÜNÜN İKİNCİ İŞ GÜNÜ

NATO-nun zirvə görüşünün iyunun 28-dəki birinci günü yekun sənədlərinin qəbul edilməsi ilə başa çatmışdır.

İraq barədə bəyannamədə deyilir ki, biz, NATO-nun üzvü olan 26 ölkənin dövlət və hökumət başçıları İraq Respublikasının müstəqilliyini, suverenliyini, birliyini, ərazi bütövlüyünü və bu ölkədə azadlığın, demokratiyanın, insan hüquqlarının, qanunun aliliyinin və bütün İraq xalqının təhlükəsizliyinin möhkəmləndirilməsini tam dəstəkləyirik. Ölkədə daxili təhlükəsizliyi təmin etməyə çalışan və 2005-ci ildə milli seçkilər keçirməyə hazırlaşan yeni suveren müvəqqəti hökumətə tam əməkdaşlıq təklif edirik. İraqdakı terror aktlarını pisləyir və onlara dərhal son qoyulmasına çağırırıq. İraqın daxilindəki və İraqdan qaynaqlanan terrorçuluq fəaliyyəti İraqın qonşuları və bütün bölgənin əmin-amanlığı üçün təhlükə yaradır.

Sənəddə İraqda Birləşmiş Millətlər Təşkilatının mövcudluğu saxlanmaqla terrorizmə qarşı mübarizədə, daxili sabitliyin, təhlükəsizliyin təmin olunmasında NATO-nun imkanlarından geniş istifadə edilməsi də vurğulanır.

Lakin İraqla bağlı qərarın qəbul edilməsi birmənalı olmamış, Fransa və Almaniya bu məsələdə bir qədər fərqli mövqe tutmuşlar.

"Yeni dövrdə təhlükəsizliyimiz" adlı digər sənəddə vurğulanır ki, Şimali Atlantika İtti-

faqına üzv ölkələrin dövlət və hökumət başçıları kollektiv müdafiəyə sadiqliyi yenidən təsdiq etmək və XXI əsrin əvvəlində qarşıya çıxan təhlükəsizlik problemlərinə NATO-nun reaksiyasını ortaya qoya bilmək məqsədi ilə İstanbulda toplaşmışlar. Hazırkı vəziyyətdə Şimali Amerika və Avropa terrorizm təhlükəsi ilə üzləşmişdir və buna görə də NATO-nun qarşısında yeni vəzifələr durur.

Sənəddə deyilir ki, NATO Avropa Birliyi ilə yanaşı, Rusiya, Ukrayna, Orta Asiya və Qafqaz dövlətləri də daxil olmaqla, Avropa dövlətləri və ayrıca Aralıq dənizi və genişləndirilmiş Yaxın Şərq dövlətləri ilə birgə təhlükəsizlik qayğıları çərçivəsində əməkdaşlığın inkişafını davam etdirməkdədir. XXI əsrin problemləri ilə mübarizədə güclü əməkdaşlıq məqsədi ilə bu əlaqələri daha da möhkəmləndirməyi nəzərdə tutan qərarlar qəbul olunmuşdur.

NATO-nun baş katibi Yaap de Hoop Sxeffer toplantının birinci iş gününün sonunda keçirdiyi brifinqdə demişdir: Biz bu zirvə görüşünün mədəniyyətlərin qovuşduğu İstanbul şəhərində keçirilməsini qərara alarkən, genişləndirilmiş NATO-nun qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün mühüm qərarlar qəbul ediləcəyinə inanırdıq. İnamla deyə bilərik ki, zirvə görüşü ümidləri doğrultdu. NATO-nun fəal üzvü kimi, Türkiyənin bölgədə və dünyada təhlükəsizlik tədbirlərində yeri və rolu artmaqdadır.

İyunun 29-da İstanbul zirvə görüşü öz işini davam etdirdi. Toplantı çərçivəsində Avratlantik Tərəfdaşlığı Şurasının dövlət və hökumət başçıları səviyyəsində görüşü keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edirdi. İştirakçılar əvvəlcə xatirə şəkli çəkdirdilər.

Görüşü açan NATO-nun baş katibi Yaap de Hoop Sxeffer dövlət və hökumət başçılarını salamlayaraq, "Sülh naminə tərəfdaşlıq" proqramının on illiyinin tamam olduğunu xatırlatdı, bu proqram çərçivəsində səmərəli əməkdaşlığa görə tərəfdaş dövlətlərə təşəkkür etdi. O, ümidvar olduğunu bildirdi ki, əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Cənab baş katib! Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Mən bu sammitdə iştirak etməyimdən məmnunam və inanıram ki, sammitin işi Alyansın inkişaf etməsinə güclü təkan verəcəkdir.

Mən yeni NATO üzvlərini təbrik edirəm. Onların NATO üzvlüyü meyarlarına uyğun gəlmək üzrə səyləri məntiqi nəticəyə çatmışdır. Mən əminəm ki, NATO-nun ən böyük genişlənməsi ümumilikdə Avratlantik məkanının sülh, təhlükəsizlik və azadlıq sərhədlərinin daha da genişlənməsinə töhfə verəcəkdir.

1994-cü ildən Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir. NATO ilə bizim ikitərəfli əlaqələrimiz çox uğurla inkişaf edir.

"Fərdi tərəfdaşlıq fəaliyyəti" planında iştirakımız Azərbaycanın NATO ilə işbirliyində

vacib dönüş nöqtəsidir və bizim təhlükəsizlik siyasətimizin inkişafına nəzərəçarpacaq töhfə verəcəkdir. Azərbaycanın on ildən bəri həyata keçirdiyi Avropaya və Avratlantik strukturlarına inteqrasiya siyasəti bundan sonra da davam etdiriləcəkdir. Biz əminik ki, bu inteqrasiya regionumuza daha çox təhlükəsizlik, insanlarımıza firavanlıq gətirəcəkdir.

Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq yalnız bəyanatlarla deyil, praktiki addımlarla sübuta yetirmişdir. Biz siyasi iradəmizi ifadə edərək, həm də ümumi məqsədimiz olan NATO-nun sülhü dəstəkləyən əməliyyatlarına qoşulmağa hazır olduğumuzu bildirdik. Bu gün bizim sülhməramlılar NATO və tərəfdaş dövlətlərin hərbçiləri ilə birlikdə dünyanın müxtəlif bölgələrində sülh və təhlükəsizliyə töhfələrini əsirgəmirlər.

Birləşmiş Ştatlara 11 sentyabr hücumlarından sonra Azərbaycan antiterror koalisiyasına qoşulan ölkələrin ilk cərgəsində durdu. Bu gün bizim ölkəmiz terrora qarşı qlobal savaşa öz əməli töhfəsini verməkdədir.

Erməni terroruna məruz qalmış bir ölkə kimi (32 terror aktı nəticəsində 2 mindən çox adam həlak olmuşdur), biz yaxşı anlayırıq ki, yalnız beynəlxalq ictimaiyyətin ümumi səyləri ilə bu bəlaya qarşı səmərəli mübarizə aparmaq mümkündür.

Ermənistanın on ildən artıq davam edən təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuşdur ki, bu da bizim regionun sülh və sabitliyinə ən böyük təhlükələrdən biridir. Ermənistanın təcavüzü və apardığı etnik təmizləmə nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünə çevrilmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və 7 digər rayonu işğal altındadır. Ölkəmizin ərazi bütövlüyü pozulubdur. Ermənistan hərbi birləşmələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən BMT-nin dörd qətnaməsinə Ermənistan hələ də məhəl qoymur. Ermənistan və Azərbaycan arasında on ildən artıq davam edən sülh danışıqları indiyədək heç bir nəticə verməyibdir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini güzəştə getməyəcəkdir.

Dağlıq Qarabağ Cənubi Qafqazda sülhə və sabitliyə daimi təhlükə yaradan qanunsuz və nəzarətsiz ərazidir.

Biz ümid edirik ki, sammitin nəticələri Avratlantik məkanına və onun qonşuluğunda olan ərazilərə daha çox təhlükəsizlik və sabitlik gətirə bilmək imkanlarımızı artıracaqdır.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİR SIRA XARİCİ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da, İstanbulda keçirilən Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Fransa Prezidenti Jak Şirak, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Ukrayna Prezidenti Leonid Kuçma, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Latviya Prezidenti xanım Vayra Vike-Freyberqa, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Litva Prezidentinin səlahiyyətlərini icra edən Arturas Paulauskas ilə görüşmüşdür.

Görüşlərdə ikitərəfli əməkdaşlığın vəziyyəti və perspektivləri müzakirə olunmuş, tərəfləri maraqlandıran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün NATO-nun baş katibinin Əfqanıstan üzrə yüksək səviyyəli mülki nümayəndəsi Hikmət Çətin və Türkiyənin Doğru Yol Partiyasının sədri Mehmet Ağar ilə də görüşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞÜ

İstanbulda keçirilən Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində, iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşmüşdür.

Görüş zamanı Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında son illər dinamik şəkildə inkişaf edən strateji tərəfdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

ABŞ Prezidenti Azərbaycanda son vaxtlar həyata keçirilən islahatların sürətlə inkişaf etdiyini vurğulayaraq, bu prosesləri yüksək qiymətləndirdiyini bildirmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası məsələsinə toxunularaq, bu layihənin təkcə Azərbaycan üçün deyil, ümumilikdə, bütün bölgədə iqtisadi inkişafın, sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminlik ifadə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində ABŞ hökumətinin verdiyi dəstəyə görə Prezident Corc Buşa minnətdarlığını bildirmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

İyunun 29-da, Avratlantik Tərəfdaşlıq Şurasının zirvə toplantısı başa çatdıqdan sonra İstanbulun Lütfü Kırdar adına beynəlxalq konfrans və sərgi sarayının "Rumeli B" və "Borsa" salonlarında NATO-nun baş katibi Yaap de Hoop Sxefferin və Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülün adından dövlət və hökumət başçılarının şərəfinə işgüzar ziyafət verildi.

Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak edirdi.

AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASINA ÜZV OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

NATO-nun zirvə görüşünün proqramına uyğun olaraq, iyunun 28-də İstanbulun məşhur Topqapı sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından Avratlantik Tərəfdaşlıq Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Topqapı sarayına gəldilər. Dövlətimizin başçısı və xanımı Osmanlı imperiyası dövrünün gözəl memarlıq abidələrindən sayılan sarayla tanış oldular.

Tikintisinə hələ XV əsrdə başlanmış bu saray 1839-cu ilədək Osmanlı sultanlarının iqamətgahı olmuş, 1924-cü ildən incəsənət muzeyinə çevrilmişdir. Burada Türkiyənin, habelə dünyanın müxtəlif ölkələrinin sənətkarlarının işlərindən ibarət zəngin dekorativ-tətbiqi və təsviri sənət nümunələri toplanmışdır. Bunların arasında Səfəvi hökmdarı Şah İsmayılın taxtı, XIII-XIV əsrlərə aid Azərbaycan xalçaları, orta əsr Azərbaycan rəssamlarının əsərləri, o cümlədən Təbriz miniatür məktəbinə mənsub miniatürlər də vardır.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş, Fransa Prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Almaniyanın federal kansleri Gerhard Şröder, eləcə də NATO-nun üzvü olan digər ölkələrin dövlət və hökumət başçıları rəsmi qəbulda iştirak edirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev rəsmi qəbul zamanı bir sıra xarici ölkələrin rəhbərləri ilə görüşərək, müxtəlif məsələlər barədə fikir mübadiləsi apardı.

İyunun 29-da axşam, Azərbaycan Prezidenti İlham Əliyevin İstanbula işgüzar səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının baş katibi Bruno Halleri qəbul etmişdir.

Avropa Şurasında fəaliyyəti dövrünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu təşkilatla Azərbaycan arasında əməkdaşlığın uğurla inkişaf etdiyini söylədi. Ölkəmizin Avropa Şurasının tamhüquqlu üzvü olduqdan sonra əlaqələrin daha da möhkəmlənməsini vurğulayan dövlətimizin başçısı bu sahədə baş katib kimi Bruno Hallerin rolunu xüsusi qeyd etdi.

Prezident İlham Əliyev Avropa Şurasına üzv olduğu ötən üç il ərzində Azərbaycanda müasir demokratik cəmiyyət quruculuğu yolunda mühüm addımlar atıldığını bildirdi, ölkəmizin bu təşkilat qarşısında götürdüyü öhdəliklərin uğurla yerinə yetirildiyini və beynəlxalq konvensiyalara qoşulmanın böyük əhəmiyyətə malik olduğunu söylədi. Azərbaycan Prezidenti Strasburqa son səfərini xatırlayaraq, onun yüksək səviyyədə təşkil olunmasına görə Avropa Şurasının rəhbərliyinə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı səfər zamanı ona AŞPA-nın fəxri üzvü diplomunun və medalının təqdim olunması mərasimini də məmnunluqla xatırladı və Avropa Şurası ilə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu vurğuladı.

Prezident İlham Əliyevlə Avropa Şurasındakı birgə fəaliyyətinin təəssüratı altında olduğunu söyləyən Bruno Haller bu təşkilatdakı səmərəli əməkdaşlığa görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O, Bakıda keçirdiyi görüşlər barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verərək, əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair konkret məsələlərin müzakirə olunduğunu söylədi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Bruno Haller Azərbaycan Prezidenti İlham Əliyevin bu problemin nizama salınması yolunda səylərini yüksək qiymətləndirdi. O qeyd etdi ki, Avropa Şurası da öz növbəsində münaqişənin sülh yolu ilə və tezliklə nizama salınması sahəsində səylərini davam etdirəcəkdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BAKIDAKI SƏFİRİ KLAUS QREVLİXİ VƏ BU ÖLKƏNİN HƏRBİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ EKSPERTİ VİLHELM GERMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Prezident sarayında Almaniyanın Bakıdakı səfiri Klaus Qrevlixi və bu ölkənin hərbi və təhlükəsizlik məsələləri üzrə eksperti Vilhelm Germanı qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları salamlayaraq, Avropa İttifaqının tədbirləri ilə bağlı Brüsselə son səfərini məmnunluqla xatırladı, bu səfərin uğurla keçdiyini bildirdi. Azərbaycanın Avropaya sürətlə inteqrasiya etdiyini bildirən Prezident İlham Əliyev ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin daha da inkişaf etdirilməsi, o cümlədən bu təşkilatla qonşuluq siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəmin olduğunu vurğuladı. Bu baxımdan ölkə başçısı həmin tədbirdə energetika, təhlükəsizlik və s. məsələlərlə bağlı səmərəli danışıqlar apardığını söylədi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqına, ümumilikdə Avropa strukturlarına inteqrasiya proseslərində səfir Klaus Qrevlixin səylərini yüksək qiymətləndirdi.

NATO-nun İstanbul zirvə görüşü ilə əlaqədar Türkiyəyə son səfərinə toxunan dövlətimizin başçısı bu səfərin də uğurlu olduğunu bildirdi və Azərbaycanın problemlərinin və nailiyyətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün yaxşı imkan yaratdığını vurğuladı.

Səmimi qəbula görə təşəkkürünü bildirən Klaus Qrevlix Almaniyanın Bakıdakı səfirliyinin Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin səlahiyyətlərini yerinə yetirməsi müddətinin başa çatması ilə əlaqədar keçirdiyi mətbuat konfransı barədə məlumat verdi.

Sonra Azərbaycan Prezidentinin Brüsselə səfərinin maraqla izləndiyini deyən səfir Qrevlix bu səfərin uğurla keçdiyini söylədi. Səfər zamanı xüsusilə enerji daşıyıcılarının Avropaya nəqli kimi əhəmiyyətli məsələnin tədbirin gündəliyində durduğunu qeyd edən cənab Qrevlix Azərbaycanın bu proseslərdə yaxından iştirakının Avropa İttifaqının qonşuluq siyasətinin uğurla həyata keçməsində mühüm rol oynadığını vurğuladı.

Səfir Qrevlix Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfərinin də uğurla keçdiyini bildirdi.

Sonra səfir Almaniyanın hərbi və təhlükəsizlik məsələləri üzrə eksperti doktor Vilhelm Germanı təqdim edərək, onun Almaniyada təhlükəsizlik məsələləri sahəsində çox nüfuzlu və təcrübəli ekspert olduğunu söylədi.

Səmimilik və mehribanlıq şəraitində keçən qəbulda bir sıra digər məsələlər də müzakirə olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Rusiyaya səfərə yola düşmüşdür.

İyulun 3-də Moskvanın mərkəzi cıdır meydanında Rusiya Prezidentinin mükafatı uğrunda ilk atçapma yarışları keçirilmişdir. Prezident belə yarışların keçirilməsi barədə qərarı 2003-cü ilin dekabrında təsdiq etmişdir.

Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Leonid Kuçma, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qırğızıstan Prezidenti Əsgər Akayev, Özbəkistan Prezidenti İslam Kərimov, Moldova Prezidenti Vladimir Voronin, Tacikistan Prezidenti Emomeli Rəhmonov, Ermənistan Prezidenti Robert Koçaryan yarışları izləmişlər.

Həmin gün Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin prezidentlərinin qeyri-rəsmi görüşü keçirilmişdir. Görüşdə bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Moskvanın meri Yuri Lujkov başda olmaqla Rusiya Federasiyası paytaxtının nümayəndə heyətini qəbul etmişdir.

Geniş tərkibdə görüşdən əvvəl Prezident İlham Əliyev və Moskvanın meri Yuri Lujkov təkbətək görüş keçirmişlər.

Dövlətimizin başçısı İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq dedi:

- Hörmətli Yuri Mixayloviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağıma çox şadam, xoş gəlmisiniz.

Moskvanın nümayəndə heyəti həmişə bizim əziz qonağımızdır. Yuri Mixayloviç, Sizinlə cəmi iki gün bundan əvvəl Moskvada görüşdüyümüzü xatırlayıram və bu gün Sizi Azərbaycanda görməyimə çox şadam. Biz artıq ikitərəfli görüş, təkbətək görüş keçirdik, çox mühüm məsələləri müzakirə etdik. Əlbəttə, biz sənayenin, biznesin müxtəlif sahələrini təmsil edən Rusiya nümayəndə heyətinin səfərini böyük ruh yüksəkliyi ilə qarşıladıq. Bu, Azərbaycanla Moskvanın ikitərəfli iqtisadi münasibətlərin inkişaf etdi-

rilməsinə böyük qarşılıqlı maraq göstərdiyini sübut edir. Zənnimcə, bunun üçün yaxşı potensial var. Moskva infrastrukturun inkişaf sürətinə görə və ümumən, şəhərin inkişaf dinamikasına görə dünyada xüsusi yer tutur. Azərbaycan da, həm iqtisadiyyatın inkişaf sürətinə görə, həm də tikintiyə və infrastrukturun müxtəlif sahələrinə görə dinamik inkişaf edən ölkədir. Bu, hər iki tərəfin rifahı naminə səyləri birləşdirmək və fəal işləmək üçün çox yaxşı zəmindir. Xüsusən də ona görə ki, bunun üçün çox müsbət siyasi əsas var.

Sizə dərin hörmət hissləri bəsləmiş ümummilli liderimiz Heydər Əliyevlə olan münasibətlərinizə çox gözəl bələdəm. Bakıda və Moskvada keçirilmiş görüşlərinizi xatırlayıram. Bu gün biz Heydər Əliyevin siyasətini ikitərəfli münasibətlərimiz çərçivəsində də davam etdiririk. Yuri Mixayloviç, ona görə də əminəm ki, Sizin səfəriniz, hələ keçiriləcək və artıq keçirilmiş görüşlər iqtisadiyyatın müxtəlif istiqamətlərində, humanitar sahədə yeni nailiyyətlər qazanmağımıza kömək edəcəkdir.

Son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında münasibətlər çox fəal inkişaf edir, biz bütün istiqamətlərdə çox böyük və ciddi tərəqqi olduğunu görürük, siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə ciddi irəliləyiş yaranmışdır. Bu, bizi çox sevindirir. Rusiya bizim üçün strateji tərəfdaşdır, biz bu siyasətə sadiqik. Xoşdur ki, indi ölkələrimizin rəhbərliyi arasında, müvafiq idarələr, nazirliklər arasında çox konstruktiv, yaxşı münasibətlər mövcuddur. Təbii ki, biz həmişə bu münasibətlərin daha da inkişaf etməsinə çalışacağıq. Bu baxımdan Sizin səfərinizin çox mühüm rolu olacaq və ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək və dərinləşəcəkdir.

Bir daha səmimi qəlbdən Sizi salamlamaq və ümidvar olduğumu bildirmək istəyirəm ki, Moskva nümayəndə heyətinin üzvləri evə yaxşı təəssüratlarla qayıdacaqlar.

Moskvanın meri YURİ LUJKOV qəbula görə təşəkkür edərək dedi:

- Çox hörmətli İlham Heydəroviç!

Sizinlə görüşmək, ümumi məqsədlərimiz olan məsələləri müzakirə etmək imkanına görə Sizə Moskva şəhərinin nümayəndə heyəti adından ürəkdən təşəkkür edirəm. Əlaqələrimizin inkişaf etdirilməsi üçün Heydər Əliyeviçin yaratdığı birgə komissiyanın işini lazımınca qiymətləndirirəm. Abbas Aydınoviç bu komissiyanın həmsədridir. Hesab edirəm ki, komissiya çox fəal, səmərəli işləyir. Bizim işimiz bir neçə istiqamətdə gedir. Onlardan biri humanitar sahədir. Burada yaxşı nəticələrimiz var. Görülmüş işlərin sadalanması çox vaxt aparar, ona görə də qarşılıqlı fəaliyyət mühitini formalaşdıran keyfiyyətli nəticələrdən danışacağam.

Mədəniyyət sahəsinə gəldikdə, biz mədəniyyət günlərinin keçiriləcəyi 2005-ci ili səbirsizliklə gözləyirik. Əminəm ki, mədəniyyət günləri çox yüksək səviyyədə keçəcək və çox gözəl rəy doğuracaqdır. Təhsil sahəsində çox yaxşı irəliləyişimiz var. Bakı Slavyan Universiteti bu cəhətdən əsas mərkəzlərdən biridir. Biz orada "Moskva auditoriyası" yaratmışıq, onu təchiz etmişik, ona klassik və müasir müəlliflərin çoxlu əsərlərini, əyani ədəbiyyat vermişik. Ümumtəhsil sahəsində əməkdaşlığımız da yaxşı gedir. Biz tədrisin rus dilində aparıldığı məktəblərə dərsliklər sarıdan kömək edirik. Bizdə, Moskvada da Azərbaycan məktəbləri fəaliyyət göstərir.

Biz səhiyyə sahəsində əməkdaşlığımızdan da razıyıq. Keçmiş İttifaqın paytaxtı kimi və

əvvəllər bütün hospitalların, avadanlığın cəmləşdiyi şəhər kimi Moskva öz üzərinə mənəvi öhdəliklər götürmüşdür. Ona görə də biz cərrahiyyə əməliyyatları baxımından, terapiya sahəsində mürəkkəb vəziyyətlərdə kömək etməliyik. Bizdə Azərbaycandan təkcə rəsmən 4,5 mindən çox xəstə qeydiyyata alınmışdır. Biz burada naftoterapiya filialı yaradılmasından da danışdıq. Ortopedik sümük xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün mənə çox maraqlı bir təklif oldu. Biz bu təklifdən mütləq istifadə edəcəyik.

Biz mədəniyyət sahəsində də əməkdaşlığı fəallaşdırmaq niyyətindəyik. Bu sahədə gözəl əlaqələrimiz vardır. Ümumi mədəni məkanımızı dəstəkləmək qarşımızda duran vəzifədir. Bu məsələdə Azərbaycan mədəniyyət nazirinin fəaliyyəti çox yaxşıdır.

Əməkdaşlığımızın üçüncü hissəsinə gəldikdə, indiki halda, o, səfərimizin proqramında əsas məsələlərdən biridir. Mən mütəxəssislərimizdən, biznesmenlərimizdən buraya bizdən əvvəl gəlməyi xahiş etmişdim. Onlar azərbaycanlı həmkarları ilə birlikdə işləmişlər. Əminəm ki, imkanlarımızdan heç də tam istifadə olunmur. Artımın yaxşı olmasına baxmayaraq, 500 milyon dollarlıq əmtəə dövriyyəsi, hər halda, azdır. Məlumat üçün deyim ki, bizim Belarusla əmtəə dövriyyəmiz 18 milyard dollardır və bunun 60 faizi Moskvanın payına düşür. Bu baxımdan Azərbaycanın, ilk növbədə, maşınqayırma, kimya sənayesi, ən yeni texnologiyalar sahəsində çox güclü potensialı var. Amma biz bu potensialdan zəif istifadə edirik. Burada mən iki məqam görürəm.

Bizə, ilk növbədə, profilə uyğun olan və dəyişikliklərlə əlaqədar vəziyyəti çətinləşmiş sənaye sahələrini inkişaf etdirən koopcrasiyaya qayıtmaq lazımdır. Burada iştirak edən kimya sənayesi nazirinin keçmiş birinci müavini Qolubkov ölkəmizin ən ciddi kimyaçılarından biridir. O, hazırda Rusiyada kimya sənayesinə hamıdan yaxşı bələddir. Biz birgə sərmayələr ayırmaqla, əvvəllər fəaliyyət göstərdiyimiz sahələrdəki layihələri həyata keçirə bilərik. Biz Azərbaycandan yod-brom, kalsium-xlorid almağa hazırıq.

Moskva şimalda yerləşən paytaxtdır və biz qış aylarında qarla mübarizə aparırıq. Əvvəllər bu məqsədlə xörək duzundan istifadə edirdik, o da hər şeyi korlayır, külli miqdarda ağacı məhv edirdi. Biz bundan imtina etməyə məcbur olduq və kalsium-xloridə keçdik. Beləliklə, hər yaz 140 min ağac əkmək məcburiyyətindən xilas olduq. Biz 5 min ton kalsium-xlorid almağa hazırıq. Bizə şəhər təsərrüfatında işlətmək üçün zəruri olan 20 min ton alüminium sulfatı lazımdır. Bu, suyun təmizlənməsini və onun tərkibindəki zərərli konsentratların faizinin aşağı salınmasını asanlaşdırır. Biz, eyni zamanda, Azərbaycanda kifayət qədər çox istehsal olunan poliefir qətranı alınması sahəsində də əməkdaşlıq etmək niyyətindəyik. Xörək duzunun membran üsulu ilə elektrolizi istehsalını yaratmaq və bazarda yüksək qiymətləndirilən yod-brom almaq da lazımdır. Hesab edirəm ki, kauçuk istehsalının bərpa edilməsi də son dərəcə vacibdir. Bütün bunlar cənab Qolubkov ilə birgə üzərində işlədiyimiz məsələlərin heç də tam siyahısı deyildir. Bu işdə səfir Ramiz Rizayev bizə kömək etmişdir. Mən təkcə onun hörmətli səfirlərdən biri kimi bacarığından istifadə etməmişəm, o, kimya elmini və kimya sənayesini heç də yaddan çıxarmamışdır. Bütün bu məhsulun illik həcmi 50 min tondur. Mən özüm də 29 il kimya sənayesində işləmişəm. Vaxtilə mənim rəisim olmuş Sergey Qolubkovun tapşırığı ilə aylarla Sumqayıtda olmuşam. Orada biz bu problemlərlə məşğul olurduq.

Bizim texniki vasitələrimizin baş konstruktoru Yuri Solomonov tərəfindən irəli sürül-

müş bir sıra təkliflər vardır. O, külək enerjisindən istifadə üçün 35-60 kilovatt gücündə qurğunun ilk nümunəsini təklif edir. Biz onu quraşdırmaq niyyətindəyik və birlikdə ilk qurğunun tətbiqi təcrübəsini öyrənəcəyik. Bütün görülən işlər yüksək texnologiyaya cavab verir. Burada hər şey avtomatlaşdırılmışdır və quraşdırma işləri 20 dəqiqə çəkir. Biz artıq bununla Moskvada məşğul oluruq.

Cənab Prezident, iş yerlərinin yaradılması ilə əlaqədar qarşıya qoyduğunuz vəzifə bu layihələrin həyata keçirilməsi nəticəsində yerinə yetiriləcəkdir. Bundan əlavə, Sizin qənnadı məmulatları istehsalının qaydaya salınması ilə bağlı fikrinizi biz işgüzarlıqla qəbul etdik. Cənab Nosenko buradadır, o, bizim ən iri fabrikimizin - Babayev adına kombinatın baş direktorudur. Fabrik müasir avadanlıqla qənnadı məmulatları istehsal edir. Bu, maraqlı mövzudur. Əvvəla, bu, yeni iş yerləri deməkdir, ikincisi isə burada yerli xammal var. Qoz-fındıq, lazım olan hər şey burada yetişir. Odur ki, burada qənnadı məmulatları istehsalını təşkil etmək sizin üçün çox sərfəlidir. Hamıya məlumudur ki, Moskvanın qənnadı məmulatları bütün dünyada çox yüksək qiymətləndirilir. Çünki biz 150 ildir ki, resepturamı dəyişmirik.

Yeni texnologiyalarla bağlı problemlər də vardır. Bu gün biz Azərbaycan mütəxəssislərinin radio-internet texnologiyalarının tətbiqinə dair təklifi ilə tanış olduq. Bu, azərbaycanlı mütəxəssislərin yeniliyidir və biz Moskva hökumətinin sifarişi ilə onlarla əməkdaşlıq etmək istəyirik.

Axırda meyvə göndərilməsi məsələlərinə toxunmaq istəyirəm. Şəhər hökumətinin naziri Aleksandr Baburin yanımdadır. O, meyvə-tərəvəz satınalmasına dair müqavilələr imzalamaq üçün topdansatış-pərakəndə birliklərin bir qrup rəhbəri ilə buraya gəlmişdir. Zənn edirəm ki, dəmir yolunda tarif siyasətinə və gömrük rüsumlarına təsir göstərmək üçün biz birgə səy göstərməliyik. Belə olarsa, Moskva ilə Azərbaycan, habelə Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi daha da artacaqdır. Tariflərdən qazanc əldə etmək istəyən, tarifləri aşağı salmaq və əmtəə dövriyyəsini artırmaqla daha çox gəlir əldə edə bilər.

Nəhayət, ən axırıncısı. Cənab Bakirov da bu gün nümayəndə heyətimizin tərkibindədir. Siz onu da yaxşı tanıyırsınız. Fəaliyyətdə olan yataqların intensivləşdirilməsi üzrə ciddi təklifləri vardır. Bu sənədlər dövlət orqanlarında baxıldıqdan və təsdiq edildikdən sonra həyata keçirilə və yaxşı nəticələr verə bilər. Bu təkliflər neft və qaz hasilatında Azərbaycan üçün əlavə imkanlar yaradacaqdır. Təkliflərin müəllifi görkəmli mütəxəssis və Rusiya geologiyasının, necə deyərlər, "sonuncu mogikanlarından" biridir.

Dövlətimizin başçısı İlham Əliyev Moskva şəhərinin meriniə müraciətlə dedi: Möhtərəm Yuri Mixayloviç, çox sağ olun. Həll oluna biləcək məsələləri belə müfəssəl şərh etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Məsələlərin məhz konkret şəkildə qoyulmasını və onların həllinin konkret yollarının göstərilməsini eşitmək mənə çox xoş idi. Mən bu planların həyata keçirilməsinə yönəldilmiş bütün təşəbbüsləri tamamilə dəstəkləyirəm. Bundan ötrü bizim qarşılıqlı istəyimiz vardır. Sadəcə olaraq, iqtisadi məqsəd bütün bu layihələrin tezliklə həyata keçirilməsini tələb edir.

Haqqında danışdığımız layihələrin, əsasən, yaxşı bazası - onların gerçəkləşdirilməsi və modernləşdirilməsi üçün Azərbaycandakı mövcud infrastruktur, habelə Rusiyadakı mövcud bazar vardır. Məlum olduğu kimi, hazırda bazar bütün bu proseslərin əsas kom-

ponentidir. Azərbaycanda elə müəssisələr var ki, onlar çoxdandır boş dayanmışdır, işləyə bilmir, çünki ya bazarlar itirilmişdir, ya avadanlıqları köhnəlmişdir, yaxud da texnoloji prosesin modernləşdirilməsi problemləri mövcuddur. Sizin dediyiniz bütün bu istiqamətlər Azərbaycan üçün çox mühümdür. Siz iş yerləri yaradılmasına dair proqramımızı da qeyd etdiniz. Bu, indi ölkəmizin qarşısında duran başlıca problemlərdən biridir. Yeni iş yerləri yaradılması işsizliyi xeyli azaltmağa və hətta tamamilə aradan qaldırmağa, insanları əmək haqqı ilə təmin etməyə imkan verəcəkdir. Bununla əlaqədar, planlarımıza idxalı azaltmaq və onu öz istehsalımız olan məhsulla əvəz etmək də daxildir. Təbii ki, bütün bunlar inzibati üsullarla edilə bilməz, çünki hər şeyi bazar tənzimləyir. Ölkələrimiz yeni şəraitdə - bazar iqtisadiyyatı şəraitində yaşayır, bazar proseslərinin stimullaşdırılması, qarşılqlı surətdə faydalı iqtisadi əməkdaşlıq üçün lazımi infrastruktur yaradılması – bax, biz məhz bununla məşğul olacağıq. Zənnimcə, sadalanmış istiqamətlərdən hər birinin bizim üçün böyük əhəmiyyəti var və uğurla həyata keçirilə bilər.

Bundan əvvəl komissiya çərçivəsində bir çox məsələlərin müzakirə edildiyindən, əməli yolların və atıla biləcək addımların müəyyənləşdirildiyindən xəbərim var. Burada sırf sərmayə xarakterli layihələr, məsələn, qənnadı fabriki tikilməsinə dair layihə də mövcuddur. Həm də, bunu regionlarda həyata keçirmək nəzərdə tutulur ki, bu da onların inkişafına dair siyasətimizə və proqramımıza tam uyğundur. Azərbaycanda yeni sahələrin yaradılmasına, yaxud unudulmuş, köhnə sahələrin dirçəldilməsinə və Moskvanın tələbatının ödənilməsinə yönəldilmiş layihələr də mövcuddur.

Mən bütün bu təklifləri dəstəkləyirəm və hökumətə, nazirliklərə müvafiq göstərişlər verəcəyəm ki, hər şeyi ətraflı və qısa müddətdə işləyib hazırlasınlar və Sizin kimi konkret şəkildə təqdim etsinlər, onların yaxın vaxtlarda həyata keçirilməsi üçün bütün tədbirləri görsünlər. Hesab edirəm ki, bu, tamamilə mümkündür. Bundan ötrü iqtisadi və intellektual potensial, ən başlıcası isə, bütün istiqamətlərdə birlikdə işləmək üçün siyasi iradə və istək vardır.

Əminəm ki, bütün bu planlar həyata keçirildikdən sonra Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsində böyük irəliləyiş yaranacaqdır. Mən Sizinlə tamamilə razıyam ki, əmtəə dövriyyəsinin mövcud həcmi ölkələrimizin real potensialını əks etdirmir. Lakin qeyd etmək lazımdır ki, əvvəllər əmtəə dövriyyəsi daha az idi. 2003-cü ildə o, təxminən 40 faiz artmışdır. Cari ilin birinci yarısında isə böyük artım vardır. Mən bu ilin əvvəllərində Moskvada olarkən biz özümüz üçün belə bir məqsəd müəyyənləşdirdik - əmtəə dövriyyəsini bir milyard dollara çatdırmaq və onu ikiqat artırmaq lazımdır. Düşünürəm ki, biz buna nail olacağıq. İndi gündəlikdə duran layihələr bunu daha tez etməyə, Moskva ilə bu gün o qədər də intensiv olmayan əməkdaşlığı gücləndirmək hesabına ölkələrimiz arasında əmtəə dövriyyəsini xeyli artırmağa imkan verəcəkdir. Bir sözlə, belə təkliflərə və əməkdaşlığa görə Sizə çox minnətdaram. Bir qədər əvvəl buraya mütəxəssislər göndərdiyinizə görə də minnətdaram. Onlar gəlib kimya, neft sahəsində, Azərbaycanın meyvə və tərəvəzinin Moskvaya ixracı sahəsində də bütün məsələlərlə məşğul oldular. Demək istəyirəm ki, bütün bu sahələrdə yaxşı baza var. Biz, sadəcə olaraq, bunları başa çatdırmalı və artıq konkert addımları müəyyənləşdirməliyik. Biz öz tərəfimizdən bunu edəcəyik.

Mən bu layihələrin gələcəyinə və ümumən, Moskva ilə Azərbaycan arasında münasibətlərə böyük nikbinliklə baxıram. Siz qeyd etdiniz ki, gələn il Rusiyada Azərbaycan ili

olacaqdır. Biz buna çox ciddi hazırlaşırıq və yaxşı təmsil ediləcəyik. Azərbaycan ilinə təkcə mədəni tədbirlər deyil, digər sahələr də daxildir. Odur ki, bütün istiqamətlər - iqtisadi, humanitar, sosial, sənaye istiqamətləri üzrə çox fəal işləyəcəyik.

Mən təkbətək görüşümüzdə dedim ki, bu yaxınlarda bizdə Rusiya mədəniyyəti günləri çox böyük uğurla keçdi. Mən açılış mərasimində və gözəl konsertdə oldum. Bu tədbir xalqlarımızın bir-birinə nə qədər yaxın olduğunu, bir-biri ilə ünsiyyət saxlamaq və bir-birini görmək arzusunun necə güclü olduğunu bir daha göstərdi. Bu, ikiqat mühümdür, çünki həm Azərbaycanın, həm də Rusiyanın milli müstəqillik şəraitində yaşamağa başladığı vaxtdan 10 ildən artıq keçmişdir. Fərəhli haldır ki, ölkələrimiz və xalqlarımız arasındakı əlaqələr qırılmayıb, əksinə, daha böyük məna və daha böyük əhəmiyyət kəsb etmişdir. Biz bunu çox əziz tuturuq. Düşünürəm ki, əməkdaşlığımızın tərkib hissəsi olan iqtisadi, siyasi və humanitar sahələr ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəkdir. Bir sözlə, biz bu istiqamətdə fəal işləyəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOSKVANIN MERİ YURİ LUJKOV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

İyulun 5-də, geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Moskvanın meri Yuri Lujkov, Rusiya nümayəndə heyətinin üzvləri Prezident sarayından piyada Heydər Əliyev Fondunun binasına gəldilər.

Burada moskvalı qonaqlara Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə yönəldilmiş genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləməkdən, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etməkdən, əhalinin rifahının yüksəldilməsinə dair müxtəlif proqramların və tədbirlərin dəstəklənməsindən ibarətdir.

Dövlətimizin başçısı İlham Əliyev Yuri Lujkova və onu müşayiət edən şəxslərə ümummilli liderimiz Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və müxtəlif dövrlərə aid eksponatlar barədə ətraflı söhbət açdı.

Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, dahi öndərimiz haqqında kitablarla tanış oldular.

Sonra Moskvanın meri Fondun fəxri qonaqları kitabına ürək sözlərini yazdı: "Azərbaycan xalqının böyük oğlu Heydər Əliyeviç Əliyevin xatirəsi keçmiş Sovet İttifaqının bütün xalqlarının və xüsusən onunla birlikdə olmuş insanların qəlbində əbədi yaşayacaqdır".

Prezident İlham Əliyev və qonaqlar Fondun eyvanına çıxaraq, şəhərin mənzərəsini seyr etdilər. Dövlətimizin başçısı şəhərin inkişafından danışarkən bildirdi ki, hazırda Bakıda

geniş miqyasda tikinti işləri aparılır və memarların, inşaatçıların qarşısında qədim paytaxtımızın milli koloritini də qoruyub saxlamaq vəzifəsi qoyulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "LA LETTRE DİPLOMATİQUE" JURNALINA MÜSAHİBƏSİ

Parisdə fransız və ingilis dillərində nəşr olunan nüfuzlu "La lettre diplomatique" jurnalının 65-ci nömrəsində "Azərbaycan dünyaya çıxır" başlığı altında ölkəmizin Prezidenti İlham Əliyevlə geniş müsahibə dərc edilmişdir.

Redaksiya Böyük İpək yolu üzərində, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi sahəsində bölgədə mühüm rol oynadığını vurğulayır, müstəqil Azərbaycan dövlətinin memarı olan ümummilli liderimiz Heydər Əliyevdən sonra onun ideyalarını müvəffəqiyyətlə həyata keçirən Prezident İlham Əliyevin müsahibəsində respublikanın gələcək inkişafı üçün öz proqramının əsas müddəaları barədə fransız oxucularına məlumat verdiyini bildirir.

- Cənab Prezident, Siz 2003-cü ilin oktyabrında Prezident seçilərək, Azərbaycan müstəqilliyə qovuşduqdan sonra uzun müddət ölkəyə rəhbərlik etmiş mərhum atanız Heydər Əliyevi bu vəzifədə əvəz etdiniz. Siz onun Azərbaycan üçün qoyub getdiyi irsi necə qiymətləndirirsiniz? Onun işini davam etdirmək istəyinizi nəzərə alsaq, Sizin fəaliyyət proqramınızın üstün istiqamətləri hansılardır?

- Cənab Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlər barədə bir müsahibə çərçivəsində danışmaq çox çətindir, çünki bu, çox geniş mövzunu əhatə edən bir məsələdir. Məsələnin mahiyyətinə varmaqdan ötrü cənab Heydər Əliyevin 1993-cü ildə Azərbaycana yenidən rəhbərliyə başladığı dövrə qısa nəzər salaq.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdiyi ilk günlərdən xalqımız böyük tarixi sınaqlarla üzləşmişdi. Bu tarixi sınaqları bir sıra amillər şərtləndirirdi: bir tərəfdən, Ermənistanın Azərbaycana qarşı yüz minlərlə soydaşımızın tarixən məskunlaşdığı doğma yurdlarından didərgin düşməsi, şəhər, rayon və kəndlərimizin dağıdılması və digər faciələrlə müşayiət olunan hərbi təcavüzü, digər tərəfdən, Azərbaycanı müstəqil görmək istəməyən xarici qüvvələrin gənc dövlətimizə göstərdiyi təzyiqlər, ölkədə hakimiyyəti müvəqqəti ələ alan qüvvələrin müstəqillik pərdəsi altında Azərbaycanı başqa dövlətlərin təsiri altına salmaq niyyətləri, ayrı-ayrı fərdlərin və hərbi qruplaşmaların bütün vasitələrdən istifadə edərək hakimiyyəti zəbt etmək cəhdləri və s.

Azərbaycan iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Həm dünya erməni lobbisinin Azərbaycan əleyhinə güclü dezinformasiya maşınını işə salması, həm də ölkədə müvəqqəti hakimiyyətdə olan adamların naşı siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuşdu. Vətəndaş müharibəsinin başlandığı Azərbaycanda ümumilikdə xaos hökm sürürdü.

Belə bir mürəkkəb vəziyyətdə 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan cənab Heydər Əliyev çox ağır və tarixi missiyanı öz üzərinə götürərək, ilk günlərdən bütün fəaliyyətini xalqımızın fəlakətdən çıxarılmasına yönəltdi. Qısa zaman ərzində ölkədəki hərc-mərcliyə son qoyuldu. Qanunsuz silahlı dəstələr ləğv edildi. Dövlət

hakimiyyəti formalaşdı, ictimai-siyasi sabitlik bərqərar oldu. Cəbhə xəttində atəşkəsə nail olundu. Bu, bir tərəfdən, Ermənistanın davam etməkdə olan işğalının törətdiyi müharibədə xeyli sayda günahsız cavanlarımızın məhvinin qarşısını aldı, digər tərəfdən isə, müasir tələblərə uyğun, sərhədlərimizin toxunulmazlığının təminatçısı olan ordumuzun təşkili və quruculuğu baxımından ölkəmizə vaxt qazandırdı.

İflic vəziyyətinə düşmüş iqtisadiyyatımızın sağlamlaşdırılması, yenidən qurulması, ölkəyə yeni texnologiyaların gətirilməsi, xarici sərmayələrin cəlb edilməsi ilə bağlı fəaliyyət planı hazırlandı. Müstəqil Azərbaycan dövlətinin neft strategiyası müəyyənləşdirildi və onun həyata keçirilməsinə başlandı. 1994-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın bir sıra aparıcı neft şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi" bu proseslərin sürətlənməsinə təkan verdi. Bu müqavilənin imzalanması ölkəmiz üçün təkcə iqtisadi deyil, həm də böyük siyasi önəm daşıyırdı. Bu, dünya birliyinin, dünyanın aparıcı dövlətlərinin Azərbaycandakı ictimai-siyasi sabitliyə, ölkənin gələcəyinə olan böyük inamının təzahürü idi. Bütün bunların nəticəsində ölkənin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıldı. Azərbaycan beynəlxalq iqtisadi əlaqələr sisteminə sürətlə inteqrasiya etməyə başladı, regional beynəlxalq iqtisadi layihələrdə fəal iştirak edən dövlətlərdən birinə çevrildi.

Ölkəmizin xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsi ilə bağlı da çox mürəkkəb bir prosesin başlanğıcı qoyuldu. Keçmiş SSRİ respublikalarından, ümumiyyətlə, sosialist düşərgəsi məkanında yeni müstəqillik qazanmış bir çox dövlətlərdən fərqli olaraq, Azərbaycanda bu proses, yuxarıda qeyd etdiyim kimi, bir sıra obyektiv və subyektiv çətinliklərlə müşayiət olunurdu.

Belə bir tarixi şəraitdə dövlətimizin başçısı ölkəmizin xarici siyasət strategiyasının formalaşdırılması və həyata keçirilməsi istiqamətində titanik fəaliyyətə başladı. Cənab Heydər Əliyevin ölkə daxilində çox ağır problemlərin həlli ilə bağlı gərgin iş rejimində işləməsi ilə yanaşı, eyni zamanda, dünyanın xeyli sayda dövlət və hökumət başçıları, nüfuzlu siyasətçiləri ilə keçirdiyi görüşlər, mötəbər beynəlxalq təşkilatların tribunalarından etdiyi çıxışlar, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi geniş müsahibələr nəticəsində qısa bir zaman ərzində erməni lobbisinin ölkəmizi saldığı informasiya blokadası yarıldı. Azərbaycanın ATƏT, Avropa Şurası, NATO və digər nüfuzlu beynəlxalq təşkilatlara, ümumilikdə Avratlantik strukturlarına sürətlə inteqrasiyası başlandı. Dünya dövlətləri ilə xarici siyasət əlaqələrinin hüquq bərabərliyi və qarşılıqlı fayda prinsipləri əsasında qurulması nəticəsində Azərbaycan beynəlxalq aləmdə, sözün əsl mənasında, müstəqil siyasət həyata keçirən bir dövlət kimi öz layiqli yerini tutdu. Cənab Heydər Əliyevin zəngin siyasi təcrübəsi, bölgədə, ümumiyyətlə, dünyada gedən siyasi proseslərə qlobal mövqedən yanaşması hətta Azərbaycana qarşı açıq-aydın soyuq münasibət bəsləyən ölkələrlə də əlaqələrin normallaşdırılması və inkişaf etdirilməsinə gətirib çıxardı. Beləliklə, xarici siyasət sahəsində tarazlaşdırılmış münasibətlərin qurulması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeyi xeyli dərəcədə möhkəmləndi.

Ümumiyyətlə, müasir Azərbaycan dövlətçiliyinin əsasını qoymuş cənab Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub saxlanması, inkişaf etdirilməsində, Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutmasında müstəsna xidmətləri vardır.

Bir daha qeyd etmək istərdim ki, yuxarıda sadaladıqlarım cənab Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərin yalnız müəyyən bir hissəsini təşkil edir. Təsadüfi deyil ki, Azərbaycan xalqı özünün ümummilli lideri cənab Heydər Əliyevin əziz xatirəsini yüksək tutur və mən əminəm ki, bütün azərbaycanlılar onun xatirəsini daim öz qəlblərində yaşadacaqlar.

Azərbaycan Respublikasının Prezidenti kimi mən gələcək fəaliyyətimdə də Heydər Əliyevin siyasətini ardıcıl surətdə davam etdirəcəyəm. Bu siyasətin əsas prioritetlərini isə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması, iqtisadiyyatımızın gələcəkdə də daha da inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması, ölkəmizin beynəlxalq aləmdə əlaqələrinin daha da genişləndirilməsi, Azərbaycanın dünya birliyinə, o cümlədən Avropa xalqları ailəsinə daha sıx inteqrasiya olunması təşkil edir. Qədim tarixə, zəngin iqtisadi və mədəni potensiala malik olan Azərbaycan xalqının gələcək firavanlığı və əmin-amanlığı Prezident kimi mənim fəaliyyətimin əsasını təşkil edir və əminəm ki, biz əl-ələ verərək buna nail olacağıq.

- Azərbaycan MDB-nin ən dinamik inkişaf edən ölkələrindən biridir, 2001-ci ildən başlayaraq bir sıra mühüm struktur islahatları həyata keçirmişdir. İnkişafın daxili amillərini sağlamlaşdırmaq və təkmilləşdirmək üçün nə kimi işlər görülməlidir? Neft-qaz sahəsi Azərbaycan iqtisadiyyatının mühərriki olduğu şəraitdə Siz respublikanın gəlir mənbələrinin genişləndirilməsini nədə görürsünüz? Ölkənizdə hələ də mövcud olan xeyli sosial bərabərsizliyi nəzərə alaraq, yoxsulluqla mübarizə tədbirləri nədən ibarətdir?

- Azərbaycan Respublikası iqtisadi inkişaf sürətinə görə təkcə MDB ölkələri deyil, Şərqi Avropa ölkələri arasında da ön sırada gedən ölkələrdəndir. 1996-cı ildən etibarən Azərbaycanda genişmiqyaslı iqtisadi islahatlara başlanılmış və bunun nəticəsində ölkə qısa müddət ərzində çox böyük uğurlara nail olmuşdur. Belə ki, yeddi il ərzində ümumi daxili məhsulun orta illik artımı təxminən 10 faiz təşkil etmişdir. Ötən il bu göstərici 11 faizdən artıq olmuşdur. İnflyasiyanın səviyyəsi uzun illərdir ki, 2-3 faizdən yuxarı qalxmır. Əhalinin pul gəlirləri ildən-ilə artır. Azərbaycana böyük məbləğdə xarici sərmayələr qoyulur ki, bu da sərmayəçilərin ölkəmizə olan inamının və əlverişli sərmayə mühitinin mövcudluğunun göstəricisidir. Azərbaycanın neft-qaz sektorunun inkişafında da böyük nailiyyətlər qazanılmışdır. Xəzərin Azərbaycan sektorundakı yataqlara milyardlarla ABŞ dolları məqləğində sərmayə qoyulmuşdur ki, bu da artıq öz müsbət nəticəsini verir, gələcəkdə isə gəlirlərin çox böyük axınına gətirib çıxaracaqdır.

Azərbaycanda torpaq islahatı uğurla aparılmış və bunun nəticəsində yüz minlərlə kəndli torpaq mülkiyyətçisi olmuşdur.

Dövlət əmlakının özəlləşdirilməsi iqtisadiyyatımızda struktur islahatlarının ən mühüm istiqamətini təşkil edir. Özəlləşdirmə, habelə sahibkarlığın inkişaf etdirilməsi nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 2003-cü ilin yekunlarına görə 73,4 faizə çatmışdır. Son zamanlar həyata keçirilmiş və ölkənin güclü iqtisadi potensialının tam reallaşdırılmasına yönəlmiş tədbirlər Azərbaycanın dayanıqlı iqtisadi inkişafında daxili amillərin rolunu artıracaq və müvafiq olaraq, xarici amillərdən asılılığı azaldacaqdır. Bu tədbirlər sistemi, ilk növbədə, qəbul edilmiş Yoxsulluğun

azaldılması və iqtisadi inkişaf və Regionların sosial-iqtisadi inkişafı və digər dövlət proqramlarında ətraflı göstərilmişdir. Bunlar, ilk növbədə, iqtisadiyyatın həm sahəvi, həm də regional baxımından tarazlı inkişafının təmin edilməsi, struktur islahatlarının genişləndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, emal müəssisələrinin yaradılmasına dövlət dəstəyinin artırılması, sosial siyasət və sairdir.

Azərbaycanda neft gəlirlərinin səmərəli idarə olunması, bu sahədə şəffaflığın təmin edilməsi məqsədi ilə 1999-cu ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılmış, bu qurumun fəaliyyəti ilə bağlı beynəlxalq tələblərə cavab verən zəruri normativ-hüquqi sənədlər təsdiq edilmişdir.

Ölkəmizdə gəlir mənbələrinin genişləndirilməsi məqsədi ilə qeyri-neft sektorunun inkişafı istiqamətində böyük işlər görülür. Buraya normativ-hüquqi bazanın təkmilləşdirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektoruna sərmayələrin cəlb olunmasının stimullaşdırılması və s. istiqamətləri aid etmək olar.

Azərbaycanda sosial bərabərsizliyə gəlincə isə, bu, bir tərəfdən bazar iqtisadiyyatına keçid dövrünü yaşayan bütün ölkələrdə mövcud olan amillərlə şərtləndirilə bilər. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunması və bunun nəticəsində bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi də bu prosesə ciddi təsir edir. Lakin yuxarıda qeyd etdiyim kimi, Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olması və uğurlu iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində əhalinin yaşayış səviyyəsi ildən-ilə artır və yoxsulluğa qarşı mübarizə sahəsində ciddi tədbirlər həyata keçirilir. Belə ki, 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, 2003-2005-ci illər üçün "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icra mərhələsinə başlanılmışdır. Proqramda Azərbaycandakı yoxsulluğun səviyyəsi, onun müxtəlif aspektləri təhlil edilmiş, yoxsulluğun azaldılması məqsədi ilə iqtisadiyyatda, sosial sahədə islahatların, institusional dəyişikliklərin əsas istiqamətləri göstərilmişdir. Mən əminəm ki, bütün bunların nəticəsində yaxın gələcəkdə yoxsulluğun səviyyəsinin xeyli dərəcədə azaldılmasına nail ola biləcəyik.

- Siz Qafqazın aparıcı iqtisadi qütbünə çevrilməli olan Azərbaycana regionda nə kimi yer ayırırsınız? Ölkəniz xarici sərmayələrə şəraiti yaxşılaşdırmaq üçün hansı tədbirləri həyata keçirmək niyyətindədir? Beynəlxalq maliyyə təşkilatları tərəfindən Sizə yenidən etimad göstərildiyinə əsaslanaraq, ölkədə maliyyə şəffaflığının gücləndirilməsi üçün nə kimi addımlar atmaq fikrindəsiniz? Dünya Ticarət Təşkilatına üzvlüyə namizəd olaraq, Azərbaycan gələcəkdə beynəlxalq iqtisadi sistemə tam inteqrasiya ediləcəyi vaxtı müəyyənləşdiribmi?

- Yuxarıda qeyd etdiyim kimi, ümumilikdə bütün MDB məkanında iqtisadi inkişaf sürətinə görə ön sıralarda gedən Azərbaycan təkcə iqtisadi deyil, bütün digər sahələrin inkişafına görə də Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Hazırda ölkəmiz regionda həyata keçirilən bütün qlobal iqtisadi layihələrin ən fəal iştirakçılarından biridir. İqtisadiyyata yatırılmış xarici sərmayənin adambaşına düşən həcminə görə də Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Belə ki, son on ildə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 16,9 milyard ABŞ dollarından

dan çox sərmayə qoyulmuşdur. Keçən ilin yekunlarına görə, xarici sərmayələrin həcmi 2002-ci illə müqayisədə 1,8 dəfədən çox artaraq, 3,3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkəmizdə sərmayə mühitinin bundan sonra da yaxşılaşdırılması məqsədi ilə qanunvericilik bazasının daha da təkmilləşdirilməsi, qeyri-neft sektorunun, regionlarımızın inkişafı və sair istiqamətlərdə kompleks işlər görülür. Proqnoz hesablamalarına görə, 2004-2008-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldiləcək sərmayələrin həcmi artmaqda davam edəcəkdir. Bu illər ərzində bütün maliyyə mənbələri hesabına 16,9 milyard ABŞ dollarından çox (son on ildəki qədər), o cümlədən daxili mənbələr hesabına 5,7 milyard ABŞ dolları, xarici mənbələr hesabına isə 11,2 milyard ABŞ dolları həcmində sərmayə cəlb olunacaqdır.

Son on ildə Azərbaycan beynəlxalq maliyyə təşkilatları ilə çox uğurlu əməkdaşlıq edir. Ölkəmizdə aparılan iqtisadi islahatlar beynəlxalq maliyyə təşkilatları tərəfindən müsbət qiymətləndirilmişdir. Azərbaycan hökuməti iqtisadi islahat tədbirlərini həyata keçirərkən bu təşkilatlarla məsləhətləşmələr aparmış, onların texniki və maliyyə yardımından istifadə etmişdir. Hazırda ölkədə makroiqtisadi sabitlik təmin edilmiş, dayanıqlı iqtisadi artıma nail olunmuş, mükəmməl bank və maliyyə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Şübhəsiz ki, Azərbaycanda son dövrlərdə əldə olunmuş böyük iqtisadi irəliləyişlər nəzərə alınmaqla, ölkəmiz milli maraqlarına əsaslanaraq, maliyyə təşkilatları ilə gələcəkdə də əməkdaşlığı davam etdirəcəkdir.

Hazırda maliyyə şəffaflığının gücləndirilməsi ölkəmiz qarşısında duran vacib məsələlərdən biridir. Bu məqsədin reallaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən ölkənin maliyyə sisteminin qəbul edilmiş büdcə sistemi haqqında qanuna və ona edilmiş dəyişikliklərə tam uyğunlaşdırılması, xəzinədarlıq sisteminin və dövlət satınalmaları sisteminin daha da təkmilləşdirilməsi, neft gəlirinin istifadəsi ilə bağlı uzunmüddətli strategiyanın qəbul edilməsi və s. planlaşdırılır.

İndi Azərbaycan iqtisadiyyatı beynəlxalq iqtisadi sistemə sürətlə inteqrasiya etməkdədir. Bu baxımdan Azərbaycan dünyanın bir çox iqtisadi təşkilatları, o cümlədən Dünya Ticarət Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirir. Azərbaycan Respublikasının bu təşkilata üzv olması prosesi 1997-ci ildə Azərbaycan hökumətinin üzvolma istəyini əks etdirən ərizənin DTT-yə təqdim olunmasından və ölkəmizin bu qurumda müşahidəçi statusu əldə etməsindən başlanmışdır. 2003-cü ilin avqust ayında Azərbaycan Respublikasının DTT-yə üzv olmasına hazırlıq işləri üzrə komissiya yaradılmışdır. Komissiyanın yaradılmasından məqsəd Azərbaycan Respublikasının DTT-yə üzv olması prosesini sürətləndirməkdən, DTT ilə aparılacaq danışıqlarda vahid iqtisadi siyasətin təmin edilməsi üçün əlaqələndirməni həyata keçirməkdən ibarətdir. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında imzalanmış "Qrant sazişi"nə əsasən, 2003-cü ilin aprel ayından Azərbaycanın DTT-yə üzv olması üzrə Texniki yardım layihəsi fəaliyyət göstərməkdədir.

- SSRİ-nin süqutundan sonra Qafqaz regionu keçid dövrünə xas bir çox dəyişikliklərə məruz qalmışdır. Tbilisidə "qızıl güllər" inqilabı nəticəsində hakimiyyətin dincliklə dəyişməsinə Sizin münasibətiniz necədir? Sizcə, bu hadisə Azərbaycan-Gürcüstan münasibətlərində yeni eranın başlanmasına səbəb ola bilərmi?

- Doğrudan da, SSRİ dağıldıqdan sonra Qafqaz regionu, o cümlədən Cənubi Qafqaz siyasi proseslərin sürətlə inkişaf etməsi, xüsusilə də münaqişə zonalarının yaranması ilə müşayiət olunan transformasiyalara uğramışdır. Bütün bunlara baxmayaraq, Azərbaycanla qonşu Gürcüstan arasında əlaqələr qarşılıqlı anlaşma və dostluq münasibətlərinə söykənərək ilbəil inkişaf etmiş və Gürcüstanda gedən proseslər ölkəmizdə daim maraqla izlənilmişdir.

Gürcüstanda bu il keçirilən prezident və parlament seçkiləri də Azərbaycanda diqqətlə izlənilirdi və biz əmin idik ki, Gürcüstanın yeni rəhbərliyi ölkədə gedən proseslərə tam nəzarət edəcək və bu proseslərlə bağlı ortaya çıxan ağır problemlər həll olunacaqdır. Biz çox məmnunuq ki, belə də oldu. Gürcüstanda sabitlik Azərbaycan üçün çox mühümdür. Bu baxımdan Gürcüstanın yeni seçilmiş Prezidenti cənab Mixail Saakaşvilinin atdığı addımlar mühüm rol oynayır. Gürcüstanla Azərbaycan qonşu, dost ölkələrdir. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin, mədəni əlaqələrin böyük tarixi vardır. Çox mühümdür ki, əsrlər boyu bu hisslər qorunub saxlanılmış, ölkələrimiz müstəqillik əldə etdikdən sonra isə münasibətlərimiz daha yüksək səviyyəyə qalxmışdır. Siyasi əlaqələrimiz çox fəaldır. Biz regional və dünya xarakterli məsələlərə dair siyasi məsləhətləşmələr aparırıq və demək olar ki, bütün istiqamətlər üzrə baxışlarımız uyğun gəlir. İki ölkəni ümumi iqtisadi layihələr də birləşdirir. Hazırda Azərbaycanda və Gürcüstanda Bakı-Tbilisi-Ceyhan kimi dünya səviyyəli layihə də həyata keçirilir.

Ölkələrimizin ərazi bütövlüyünün bərpası baxımından da ümumi problemləri mövcuddur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan və Gürcüstan ərazi bütövlüyünün pozulmasına gətirib çıxaran təcavüzkar separatizmə məruz qalmışlar. Lakin biz əminik ki, Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü beynəlxalq hüquq normalarına uyğun şəkildə bərpa ediləcəkdir. İki ölkə arasında əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır və mən inanıram ki, münasibətlərimizin xalqlarımızın maraqlarına uyğun şəkildə dinamik inkişafı Cənubi Qafqazda ümumiyyətlə, bütün bölgədə sülhün və sabitliyin, regional əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

- Həm Sizin ölkəniz üçün, həm də bütün region üçün qeyri-sabitlik amili olan Dağlıq Qarabağ problemi Azərbaycanla Ermənistan arasında münasibətlərin inkişafına əngəl törədir. Sizcə, bu münaqişənin həlli hansı amillərdən asılıdır? Siz bu məsələdə Minsk qrupunun vasitəçilik rolunu, xüsusən də, Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz?

- Həqiqətən də, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təkcə ölkəmiz üçün deyil, ümumilikdə Avropa təhlükəsizlik arxitekturasında mühüm rol oynayan Cənubi Qafqaz regionu üçün sabitliyi əngəlləyən bir amilə çevrilmişdir. Uzun tarixçəsi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən böyük təhlükə mənbəyidir. Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayon – ümumilikdə Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız ata-baba yurdlarından qovularaq, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Faktiki olaraq, bu gün beynəlxalq ictimaiyyətin nəzarətindən kənarda olan və qanunsuzluq zonasına çevrilmiş bu ərazilərdə beynəlxalq səviyyəli mütəşəkkil cinayətkarlıq növləri geniş vüsət almış-

dır. Qeyri-konstruktiv mövqedən çıxış edən Ermənistan rəhbərliyi BMT-nin məlum dörd qətnaməsinə, ATƏT-in Lissabon sammitində bəyan olunmuş prinsiplərə və digər beynəlxalq təşkilatların Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən, Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələrinə məhəl qoymayaraq, bu günə kimi ölkəmizə qarşı işğalçılıq siyasətini davam etdirir. Uzun illərdir ki, ATƏT-in Minsk qrupu ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə bu münaqişənin həlli ilə məşğuldur. Əfsuslar olsun ki, indiyə qədər bu istiqamətdə heç bir müsbət dəyişiklik yoxdur və münaqişə həll edilməmiş qalır. Bu baxımdan biz digər beynəlxalq təşkilatların da məsələyə diqqəti artıracağına ümid edirik. Düzdür, bu günə kimi Avropa Şurası, Avropa Birliyi və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra qətnamə, qərar və digər rəsmi sənədlərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktı öz əksini tapmış, ölkəmizin ərazi bütövlüyü və suverenliyi dəstəklənmişdir. Lakin münaqişənin tez bir zamanda sülh yolu ilə həll edilməsi üçün bütün beynəlxalq təşkilatların, ümumilikdə beynəlxalq birliyin səylərinin artırılması vacibdir. Problemin həlli üçün, ilk növbədə, beynəlxalq hüquq normalarına, bu normaların əsasını təşkil edən ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əməl olunmalıdır və münaqişə yalnız bu norma və prinsiplər əsasında öz həllini tapa bilər. Yəni, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

Ermənistan tərəfi bu təcavüzə və işğala bəraət qazandırmaq üçün, adətən, beynəlxalq hüququn digər bir prinsipindən çıxış etməyə çalışır. Onlar belə hesab edirlər ki, Dağlıq Qarabağ ermənilər öz müqəddəratını təyin etmək hüququna malikdirlər. Lakin mən belə bir faktı vurğulamaq istərdim ki, ermənilər artıq öz müqəddəratını Ermənistan dövləti çərçivəsində təyin etmişlər. Ermənilər müxtəlif ölkələrdə yaşayırlar və onların yaşadıqları hər bir ölkədə öz müqəddəratını təyin etməyə çalışacaqları təqdirdə, dünyada nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir.

Belə bir məsələyə də toxunmaq istərdim ki, Ermənistan rəhbərliyi tərəfindən Azərbaycanla Ermənistan arasında iqtisadi əlaqələrin qurulmasına dair tez-tez cağırışlar səslənir. Bu, cəfəng bir məsələdir. Dünyanın heç bir dövləti onun torpaqlarının bir qismini işğal etmiş başqa bir dövlətlə iqtisadi əməkdaşlıq edə bilməz. Ermənistan məhz özünün təcavüzkar siyasəti nəticəsində bu gün regionda həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən kənarda qalmışdır.

Münaqişənin həll edilməsindən ötrü yardımçı amillərdən danışarkən mən belə bir məsələni qeyd etmək istərdim ki, hazırda bizim ərazimizdə heç bir xarici hərbi baza yoxdur. Əgər Cənubi Qafqazın digər ölkələrində də buna nail olunarsa, əminəm ki, regionda tezliklə sülh və təhlükəsizlik bərqərar olar. Biz sülh şəraitində yaşamaq, iqtisadiyyatımızı, ölkəmizi daha da inkişaf etdirmək istəyirik. Cənubi Qafqaz regionunun sülh, sabitlik və firavanlıq şəraitində yaşamasını arzu edirik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bunlara nail olmaq mümkün deyildir.

Buna görə də bir daha təkrar edirəm ki, beynəlxalq birlik Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması istiqamətində səylərini artırmalıdır.

Qeyd etmək istərdim ki, münaqişənin həlli ilə məşğul olan Minsk qrupunun fəaliyyəti

indiyədək heç bir nəticə verməmişdir. Bu baxımdan biz ümid edirik ki, Minsk qrupunun həmsədrləri, o cümlədən Rusiya Federasiyası bu sahədə fəallıqlarını artıracaqlar.

- Bu ilin fevralında Moskvaya rəsmi səfəriniz zamanı Azərbaycan ilə Rusiya arasında yeni sazişlər imzalandı. Siz iki ölkə arasında bugünkü münasibətləri necə qiymətləndirirsiniz? Siz Rusiyanın region ölkələri ilə, xüsusən ümumi Avrasiya məkanında sıx əlaqələrin bərpa edilməsi üçün, habelə MDB-nin kollektiv təhlükəsizlik müqaviləsinin gücləndirilməsi üçün göstərdiyi cəhdləri necə qiymətləndirirsiniz?

- Bu gün Azərbaycan ilə Rusiya arasında əlaqədər uğurla inkişaf edir. Bütün istiqamətlərdə çox yaxşı dinamika mövcuddur. Bizim aramızda çox ciddi siyasi dialoq, regional və beynəlxalq siyasət məsələlərində tam qarşılıqlı anlaşma var. İkitərəfli münasibətlərimizdə ildən-ilə böyük tərəqqi və bütün istiqamətlərdə əlaqələrin yaxşılaşması müşahidə olunur. 2000-ci ilin yanvar ayında Rusiya Federasiyasının Prezidenti cənab Vladimir Putinin Azərbaycana və bu ilin fevral ayında Azərbaycan Respublikası Prezidentinin Rusiyaya rəsmi səfərləri zamanı imzalanmış sənədlər münasibətlərimizin gələcəkdə də inkişaf etdirilməsi baxımından hüquqi bazanın genişləndirilməsində mühüm rol oynamışdır.

Uğurlarımızı təsdiqləyən konkret misallardan danışarkən, Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında siyasi qarşılıqlı anlaşmanı göstərmək olar. Azərbaycan ilə Rusiya arasında milli sektorlarımızı müəyyənləşdirən müvafiq saziş imzalanmışdır.

Hər iki ölkədə iqtisadiyyatın dinamik inkişafı, ümumi daxili məhsulun həcminin sabit şəkildə artması əmtəə dövriyyəsinin həcminin genişləndirilməsi üçün geniş zəmin yaradır.

Yanacaq-energetika sahəsində də əməkdaşlıq qarşılıqlı faydalılıq prinsipi əsasında inkişaf edir. İndi Azərbaycan nefti Rusiyanın Novorossiysk limanına nəql edilir. Ölkəmizə Rusiya ərazisindən qaz və elektrik enerjisi göndərilir.

Regional siyasət məsələlərində çox fəal qarşılıqlı anlaşma var, beynəlxalq siyasətin bir çox məsələlərində baxışlarımız uyğun gəlir.

Qeyd etdiyim kimi, Azərbaycan Rusiya ilə münasibətlərini sıx əməkdaşlıq üzərində qurur. Bu əməkdaşlıq həm ikitərəfli şəkildə, həm də çoxtərəfli münasibətlərdə uğurla həyata keçirilir və biz xalqımızın, dövlətimizin maraqlarının təmin olunması əsasında istər MDB çərçivəsində, istər regional səviyyədə, istərsə də daha geniş məkanda coxtərəfli əlaqələrin inkişafını normal proseslər kimi qiymətləndiririk.

MDB-nin kollektiv təhlükəsizlik müqaviləsinə gəldikdə isə, Azərbaycan bu müqavilənin iştirakçısı deyildir. Bunun əsas səbəblərindən biri Azərbaycana qarşı 15 ildən artıqdır təcavüz siyasətini həyata keçirən Ermənistanın həmin müqavilədə iştirak etməsidir.

- SSRİ-nin süqutundan sonra ən mühüm coğrafi-iqtisadi problemə çevrilən Xəzər dənizinin hüquqi statusu, habelə onun neft-qaz sərvətlərindən istifadə məsələsi indiyədək öz həllini tapmayıbdır. Bu məsələdə konsensusa nail olmaq üçün Azərbaycanın nə kimi təklifləri var? Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə əlaqədar ölkəniz öz neft-qaz sərvətlərini dünya bazarına çıxarmaq üçün hansı strategiyanı hazırlamışdır?

- Keçmiş SSRİ zamanı Xəzər dənizinin müvafiq sektorlara bölünməsi prinsipi mövcud

idi və müttəfiq respublikalar Xəzər dənizinin mineral ehtiyatlarından istifadə edilməsini orta xətt prinsipi ilə müəyyən edilmiş sektorlar çərçivəsində həyata keçirirdilər. Hazırkı şəraitdə Xəzər dənizinin bölünməsi məsələsinə gəldikdə, Azərbaycan Respublikasının konseptual mövqeyinə görə, dəniz sahilyanı dövlətlərin suveren hüquqları və yurisdiksiyası şamil olunan müvafiq sektorlara bölünməlidir. Bu bölgü sahilyanı dövlətlər arasında orta xətt prinsipi nəzərə alınmaqla, bu dənizdə əldə edilmiş təcrübə, beynəlxalq hüququn hamı tərəfindən tanınmış prinsipləri və sahilyanı dövlətlərin Xəzərdə suveren hüquqlarının tətbiq olunması əsasında həyata keçirilməlidir.

Qeyd olunan prinsiplər Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2001-ci ilin noyabr ayında və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2002-ci ilin sentyabr ayında imzalanmış sazişlərdə təsbit edilmişdir. Biz ümidvarıq ki, Xəzərin hüquqi statusu ilə əlaqədar yaxın zamanlarda digər Xəzəryanı dövlətlər də qarşılıqlı anlaşmaya gələcək və dənizin hüquqi statusu məsələsi tam həll olunacaqdır.

Məlum olduğu kimi, 1994-cü ildən başlayaraq, Azərbaycan özünün neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmiş, Xəzər dənizinin Azərbaycan sektorunda xeyli iş görülmüşdür. Ölkəmizə milyardlarla dollar sərmayə qoyulmuş və 1997-ci ildə "Çıraq" yatağından ilkin neft hasil olunmuşdur. Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri istismara verilmişdir ki, bu da Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında əhəmiyyətli rol oynamışdır. Əlbəttə, bütün bu dövrdə biz Azərbaycanda böyük ixrac neft kəmərinin inşasını qarşımıza məqsəd qoymuşduq ki, belə bir kəmər Azərbaycanda böyük həcmdə hasil olunacaq neftin dünya bazarına çıxarılmasına imkan versin.

Bu, artıq reallaşmaqdadır. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası uğurla aparılır. Bu layihənin təxminən 50 faizi həyata keçirilmişdir. Yaxın zamanlarda Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləcəkdir. Bu ilin fevral ayında Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlər imzalanmışdır. Həmin sənədlərin imzalanması Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin maliyyə məsələsinin son nöqtəsini təşkil etmişdir. Bu baxımdan dünyanın aparıcı qurumları tərəfindən verilən dəstək həm Bakı-Tbilisi-Ceyhan neft kəməri üçün, həm də gələcəkdə digər layihələr üçün böyük əhəmiyyət kəsb edir.

Biz gələcəkdə də Azərbaycanın neft-qaz yataqlarından səmərəli şəkildə istifadə olunmasını qarşımıza məqsəd qoymuşuq. Hazırda "Şahdəniz" layihəsinin həyata keçirilməsi məsələsi gündəlikdə durur. "Şahdəniz" Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin qaz yataqlarından biridir. Bu layihə üzərində iş aparmaq üçün dünyanın müxtəlif ölkələrinin aparıcı şirkətlərindən ibarət konsorsium yaradılmışdır. Mən əminəm ki, biz bu layihənin də həyata keçməsinə nail olacağıq və bütün bu proseslər Azərbaycanı daha da gücləndirəcək, regionda mövcud olan əməkdaşlığın daha da genişləndirilməsi, ümumilikdə bölgədə sülhün və sabitliyin təmin olunması, xalqların həyat səviyyəsinin daha da yaxşılaşdırılması işinə xidmət edəcəkdir.

- Xəzər hövzəsinin neft-qaz ehtiyatlarının dünya bazarlarına ixracı layihələrinin inkişafı və beynəlxalq terrorizmin genişlənməsi kontekstində regionun təhlükəsizliyi öncül istiqamət olmalıdır. Təhlükəsizlik baxımından ölkəniz hansı regional əməkdaşlıq siyasəti aparmağı nəzərdə tutur?

- Bəli, Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarıl-

ması və beynəlxalq terrorizmin genişlənməsi kontekstində regional təhlükəsizliyin təmin olunması məsələsi bu gün ölkəmizin yerləşdiyi bölgə üçün ən önəmli məsələlərdən biridir. Cənubi Qafqaz bölgəsində uzun müddətdir ki, münaqişə ocaqlarının mövcud olması bu məsələnin aktuallığını daha da artırır. Bu gün Azərbaycan regionun və dünyanın qabaqcıl dövlətləri ilə dialoq və siyasi məsləhətləşmələr, təcrübə mübadiləsi apararaq, regional təhlükəsizliyin təmin olunması istiqamətində ikitərəfli və çoxtərəfli qaydada uğurlu əməkdaşlıq həyata keçirir, dövlətlərarası və hökumətlərarası sənədlərin hazırlanmasında yaxından iştirak edir. Lakin bir daha qeyd etmək istərdim ki, bölgəmizdə münaqişələrin həll olunmaması bütün bu proseslərə əngəllər törədir. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli regional təhlükəsizliyə böyük fayda vermiş olardı. Bu münaqişə həll edilməyənə qədər regionda sülh və sabitlik bərqərar ola bilməz. Ona görə də beynəlxalq birlik münaqişənin həlli üçün səylərini artırmalı və bu istiqamətdə konkret addımlar atmalıdır.

- Azərbaycan beynəlxalq terrorizmlə mübarizəyə yaxından qoşulmuşdur. Siz islam terrorizmi, xüsusən, İspaniyada, Türkiyədə, Mərakeşdə törədilən son terror aktları barədə nə düşünürsünüz? ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin 2003-cü ilin dekabrında Bakıya səfəri ilə əlaqədar Siz Birləşmiş Ştatlarla ölkənizin hərbi əməkdaşlığının gücləndirilməsi perspektivlərini necə görürsünüz?

- Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə ən fəal iştirak edən dövlətlərdən biridir. Məlum 11 sentyabr hadisələrindən sonra Azərbaycan rəhbərliyi dərhal beynəlxalq terrorizmə qarşı koalisiyaya qoşulmaq barədə bəyanat verərək, bu sahədə real addımlar atmışdır. Azərbaycan Respublikası siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq, terrorizmin bütün formalarının pislənməsi mövqeyində qəti durur və beynəlxalq birliyin bu istiqamətdə səylərini tam dəstəkləyir.

Azərbaycan özü terrorizmin qurbanıdır. Ötən əsrin 80-ci illərinin sonlarına doğru Ermənistanın Azərbaycana qarşı təcavüzü başlandığı dövrdən Azərbaycan ərazisində erməni terrorçuları tərəfindən xeyli sayda terror aktı törədilmiş və bunun nəticəsində yüzlərlə günahsız insan ölmüş və yaralanmışdır. Bu baxımdan beynəlxalq terrorizmə qarşı mübarizə ölkəmiz üçün çox böyük aktuallıq kəsb edir. Biz İspaniyada, Türkiyədə, Mərakeşdə və digər ölkələrdə baş vermiş terror aktlarını qətiyyətlə pisləyirik. Eyni zamanda qeyd etmək istərdim ki, terrorizmlə mübarizə məsələsində qərəzli yanaşmaya da yol vermək olmaz. Terrorçunun dini və milliyyəti olmadığı kimi, ümumilikdə terrorizm də hansısa ayrılıqda götürülmüş dinə və ya mədəniyyətə aid edilə bilməz. Əks təqdirdə, beynəlxalq terrorizm kimi ümumbəşəri bəlaya qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi çətinləşər.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında hərbi əməkdaşlığa gəldikdə isə, deyə bilərəm ki, yaxın tərəfdaşlıq münasibətlərində olan ölkələrimizin bu əməkdaşlığı müxtəlif istiqamətlərdə uğurla həyata keçirilməkdədir. Beynəlxalq terrorizmlə mübarizədə yaxından iştirak edən Azərbaycan hərbçiləri Amerika əsgərləri ilə birlikdə beynəlxalq koalisiyanın qüvvələri tərkibində Kosovo, Əfqanıstan və İraqda sülhyaratma əməliyyatlarında iştirak edirlər. NATO çərçivəsində də əməkdaşlıq uğurla inkişaf edir. Müxtəlif səviyyədə qarşılıqlı səfərlər həyata keçirilir. ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin 2003-cü ilin dekabr ayında Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından mühüm rol oynamışdır. Mən əminəm ki, gələcəkdə də bu əməkdaşlığın davam etdirilməsi beynəlxalq təhlükəsizliyin təmin olunması, beynəlxalq terrorizmə qarşı mübarizənin gücləndirilməsi işinə xidmət edəcəkdir.

- 2001-ci il yanvarın 21-dən Avropa Şurasının üzvü olan ölkənizlə Avropa Birliyinin yaxınlaşması perspektivləri necədir? Bu baxımdan, AB-nin genişlənməsi Şərqi Avropa ölkələri üçün nə kimi üstünlüklər verir? TASIS və TRACECA kimi Avropa yardım proqramlarının əməli nəticələri necədir? Sizcə, bu əməkdaşlıq daha hansı sahələri əhatə edə bilər?

- Avropa ailəsinə sıx inteqrasiya etməkdə olan ölkəmiz bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Birliyi ilə uğurlu əməkdaşlıq edir. Azərbaycanın bu təşkilatla hərtərəfli münasibətlərinin hüquqi əsasını 1996-cı ilin aprel ayında Lüksemburq şəhərində imzalanmış "Tərəfdaşlıq və əməkdaşlıq sazişi" təşkil edir. Yenə Lüksemburq şəhərində 1999-cu ilin iyun ayında keçirilən zirvə toplantısı zamanı Avropa Birliyinin Qafqaz ölkələri ilə əlaqələri barədə Birgə bəyannamə qəbul olunmuşdur. Həmin saziş Avropa Birliyi və Azərbaycan arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və ticarət sahələrini əhatə edir.

Qeyd etmək istərdim ki, son zamanlar Avropa Birliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə də böyük diqqət göstərir. Bu, bizi çox sevindirir. Bir halda ki, Cənubi Qafqazda yerləşən ölkələr Avropa üçün yeni qonşulardır, əlbəttə, Avropa Birliyinin bu məsələ ilə ciddi məşğul olması təqdirəlayiqdir. Bu istiqamətdə artıq ilk addımlar atılmışdır. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsini buna misal göstərmək olar. Avropa Birliyi-Azərbaycan Əməkdaşlıq Komitəsinin 2002-ci ilin iyul ayında keçirilən iclasında və Avropa Birliyinin 2002-ci ilin avqust ayında qəbul etdiyi bəyannamədə Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağ münaqişəsinin həll olunması prosesində Azərbaycanın çıxış etdiyi bir sıra mövqelərin dəstəklənməsi bu məsələnin beynəlxalq hüquq normalarına uyğun şəkildə öz həllini tapması istiqamətində Avropa Birliyinin gələcəkdə də səylərini artıracağına ümid verir. Mən əminəm ki, Azərbaycanın bu təşkilatla əlaqələri bundan sonra daha da inkişaf edəcək və ölkəmiz yaxın gələcəkdə Avropa Birliyinin fəal üzvlərindən birinə çevriləcəkdir.

Biz belə hesab edirik ki, hazırda Avropa Birliyinin Şərqi Avropaya genişlənməsi prosesi, ümumavropa inteqrasiyasının daha da sürətlənməsi keçid dövrünü yaşayan ölkələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılması və Avropa xalqlarının bir-birinə daha da yaxınlaşması işinə xidmət edir və əminik ki, Azərbaycan da bu proseslərdə daim yaxından iştirak edəcəkdir.

Azərbaycanın Avropa və Asiya arasında strateji mövqedə yerləşməsi onun digər dövlətlərlə iqtisadi əlaqələrinin müəyyənləşdirilməsinə böyük təsir göstərir. Qafqaz bölgəsinin şərq hissəsində, Xəzər dənizinin sahilində yerləşən Azərbaycandan tarixən ticarət yolları keçmişdir. Bu baxımdan Azərbaycan Avropa, Qafqaz və Mərkəzi Asiya arasında, habelə Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsilə Qərbə nəql edilməsində körpü rolunu oynamaq imkanına malikdir. Avropa Birliyi bu imkanların inkişaf etdirilməsi üçün TASİS proqramı çərçivəsində texniki yardım vasitəsilə Azərbaycana kömək göstərmək öhdəliyini üzərinə götürmüşdür. Avropa Birliyi TASİS proqra-

mı ilə Avropadan Azərbaycana yeni texnologiyalar gətirən layihələri qrant şəklində maliyyələşdirərək, ölkəmizdə bazar iqtisadiyyatının və demokratik cəmiyyətin inkişafını təşviq edir. Avropa Komissiyası Azərbaycan hökuməti və habelə digər təşkilatlar ilə TASİS proqramı çərçivəsində maliyyələşdirməyə ehtiyacı olan əsas sektorları müəyyənləşdirmək üçün birgə fəaliyyət götərir. Eyni zamanda, bu proqram Azərbaycanda islahatların aparılmasına yardım göstərir. Bununla yanaşı, Avropa Birliyi Azərbaycana TASİS çərçivəsində Fövqəladə yardım proqramı üçün 30 milyon avro məbləğində vəsait ayırmışdır. Bu vəsaitin ayrılmasından məqsəd Azərbaycan şirkətləri tərəfindən həyata keçirilən layihələrin maliyyələşdirilmək və bunun nəticəsində dövlətimizin vəsaitlərinin sosial məsələlərin həll olunmasına istiqamətləndirməkdir. Avropa Birliyi TASİS Milli proqramı çərçivəsində 2002-2003-cü illər üçün Azərbaycana 14 milyon avro məbləğində vəsait ayırmışdır. Avropa Birliyinin Humanitar təşkilatı Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ və digər ərazilərindən olan qaçqınlara və məcburi köçkünlərə indiyədək 92,17 milyon avro məbləğində humanitar yardım göstərmişdir. Qeyd etmək istərdim ki, Avropa Birliyinin ölkəmizə müxtəlif istiqamətlər üzrə ayırdığı vəsaitin ümumi həcmi 370 milyon avro təşkil edir.

"Yeni İpək yolu" adlandırılan TRACECA Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək üçün TASİS tərəfindən həyata keçirilən proqramdır və qədim zamanlardan tarixi İpək yolunun üzərində strateji mövqedə duran Azərbaycan bu layihədə Avropa Birliyinin ən əsas tərəfdaşıdır. TRACECA-nın məqsədi hazırda mövcud olan yollara əlavə olaraq, Avropadan Qara dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya ən tez və ən ucuz ikitərəfli yolun yaradılmasından ibarətdir. TRACECA, eyni zamanda, bölgədə avtomobil və dəmir yollarının təkmilləşdirilməsi üzrə layihələri maliyyələşdirir. Azərbaycan TRACECA-nı konseptual mərhələdən praktiki fazaya keçirən, 1998-ci ilin sentyabr ayında Bakıda zirvə toplantısı zamanı imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş"in hazırlanmasında fəal iştirak etmiş və proqramın daimi katibliyinin Bakıda yerləşməsi üzrə razılaşmaya nail olmuşdur. Eyni zamanda, TRACECA proqramı Azərbaycanı Gürcüstan ilə birləşdirən yeni körpünün tikilməsinə və XII əsrə aid qədim Qırmızı körpünün bərpa edilməsinə yardım göstərmişdir.

Azərbaycan-Avropa Birliyi münasibətlərinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün geniş perspektivlər mövcuddur. Bu münasibətlərin gələcək inkişaf istiqamətləri "Tərəfdaşlıq və əməkdaşlıq sazişi"ndə və Lüksemburq Zirvə toplantısı zamanı qəbul olunmuş Birgə bəyannamədə təsbit edilmişdir. Əməkdaşlığın əsas istiqamətləri "Tərəfdaşlıq və əməkdaşlıq sazişi"nin həyata keçirilməsindən, ticarətin, sərmayələrin və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin təşviq edilməsindən ibarətdir və Avropa Birliyinin yardımı məhz bu sahələrə yönəldiləcəkdir.

Şübhəsiz ki, Azərbaycanın regionda mövqeyinin günü-gündən möhkəmlənməsi və ölkəmizin Cənubi Qafqazda bütün sahələrdə aparıcı dövlət olması faktları yaxın perspektivdə Avropa Birliyi – Azərbaycan əlaqələrinin istiqamət spektrlərinin daha da genişlənəcəyinə əminlik yaradır və Avropa Birliyinin Azərbaycanı uzunmüddətli tərəfdaş kimi qiymətləndirməsi bu proseslərin sürətlənməsinə xidmət edəcəkdir.

- Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Sizin bu il yanvarın

22-23-də Parisə ilk rəsmi səfəriniz Azərbaycan ilə Fransa arasında münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Bu seçimin səbəbləri hansılardır? Bu iki ölkəni birləşdirən üstün əhəmiyyətli əlaqələr nədən ibarətdir? Fransız və Azərbaycan xalqlarının bir-birini daha yaxşı tanımasına kömək edən ikitərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün, öz təcrübənizə arxalanaraq, nə kimi tədbirlər görmək lazımdır?

- Azərbaycan və Fransa xalqları arasında əlaqələrin, o cümlədən mədəni, ticarət əlaqələrinin tarixi çox zəngindir. XX əsrin sonlarına doğru Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1993-cü ildən başlayaraq bu əlaqələr keyfiyyətcə yeni mərhələyə qalxmış və ildən-ilə inkişaf etməyə başlamışdır. Təsadüfi deyildir ki, 1993-cü ildə Azərbaycan Prezidenti cənab Heydər Əliyev ilk səfərini Fransaya etmişdir. 2004-cü ildə də Azərbaycan Respublikasının Prezidenti ilk rəsmi səfərini Fransaya etmişdir. Bu, artıq ənənə halını almışdır.

Xüsusilə vurğulamaq istərdim ki, Prezident Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan–Fransa əlaqələri daim ölkə başçısının diqqətində olmuş və Fransa ilə münasibətlər Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etmişdir. Cənab Heydər Əliyevin Fransanın ən yüksək mükafatlarından olan "Fəxri legionun böyük xaç komandoru" ordeni ilə təltif edilməsi Fransa rəhbərliyinin Azərbaycan liderinin xidmətlərini yüksək qiymətləndirməsinin ifadəsidir.

Ölkələrimizi və xalqlarımızı bir–birinə bağlayan müxtəlif amillər vardır. Məlum olduğu kimi, strateji coğrafi mövqedə yerləşən Azərbaycan Şərqlə Qərb arasında daim körpü rolunu oynamışdır. Öz növbəsində, Fransa Avropanın tarixində ən mühüm rol oynayan ölkələrdən biri olmuşdur. Həm Azərbaycan, həm də Fransa xalqları çox qədim tarixə və zəngin mədəniyyətə malikdirlər. Bu gün ölkələrimiz arasında əlaqələrin gündən–günə inkişaf etməsi, həm qeyd etdiyim bu tarixi–mənəvi dəyərlərlə, həm də ölkələrimizin iqtisadi əməkdaşlıq maraqları ilə şərtləndirilə bilər.

Hazırda ölkələrimiz arasında uğurlu əməkdaşlıq həyata keçirilir. Bu əməkdaşlıq bütün sahələrdə öz gözəl nəticələrini verməkdədir. Siyasi sahədə əlaqələr qarşılıqlı anlaşma əsasında qurulur. Fransa həm də Avropanın ən aparıcı ölkələrindən biridir. Azərbaycanın da öz gələcəyini Avropa strukturlarına inteqrasiyada gördüyünü nəzərə alsaq, bu baxımdan da ikitərəfli münasibətlərimiz böyük əhəmiyyət kəsb edir.

İqtisadi sahədə də əməkdaşlığımız gündən-günə inkişaf etməkdədir. Fransa şirkətləri Azərbaycanın neft-qaz sənayesinə sərmayə qoyuluşunda fəal iştirak edirlər. Mən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasında öz payına malik olan "Total" şirkətinin ölkəmizin neft sektorunda fəaliyyətini xüsusilə vurğulamaq istərdim. Ölkələrimiz arasında ticarət dövriyyəsi də xeyli artmışdır. Mədəni sahədə əlaqələrimiz də daim inkişaf etməkdədir. Bir sözlə, Fransa ilə bizi güclü dostluq əlaqələri bağlayır və əminəm ki, gələcəkdə bu əlaqələr daha da güclənəcəkdir. Ölkələrimiz arasında siyasi dialoqun daha da intensivləşdirilməsi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması, humanitar əlaqələrin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Mən əminəm ki, biz bu potensialdan tam şəkildə istifadə edərək, qarşımızda qoyulan məqsədlərə nail olacağıq və bütün bu proseslər xalqlarımızın gələcəkdə bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN YANACAQ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ NAURİZ ŞAKUR XANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Prezident sarayında Pakistan İslam Respublikasının yanacaq və təbii sərvətlər naziri Nauriz Şakur Xanı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan tərəfinin Pakistan Prezidentinin ölkəmizə qarşıdakı səfərinə böyük əhəmiyyət verdiyini bildirdi və bu səfərin uğurlu olacağına əminliyini söylədi.

Azərbaycanla Pakistan arasında dostluq münasibətlərinə söykənən əlaqələrin dinamik şəkildə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyini xüsusi vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, iqtisadiyyat, enerji, ticarət və digər sahələrdə dinamik şəkildə inkişaf edən qarşılıqlı faydalı əməkdaşlıq hər iki ölkənin xalqlarının mənafelərinə xidmət edir.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana səfəri ölkələrimiz arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına təkan verəcəkdir.

Səmimi qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən nazir Azərbaycan-Pakistan əlaqələrinin durmadan inkişaf etdiyini vurğuladı. O, bu əlaqələrin inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək, Prezident İlham Əliyevin bu siyasəti davam etdirməsini Pakistan tərəfinin yüksək qiymətləndirdiyini söylədi.

Qonaq, habelə Pakistan Prezidentinin Azərbaycana səfərinə yüksək səviyyədə hazırlıq işlərinin görülməsini ikitərəfli əlaqələrin durmadan inkişafının daha bir nümunəsi kimi dəyərləndirdi.

Sonra pakistanlı nazir Azərbaycanda keçirdiyi görüşlər və apardığı danışıqlar barədə Prezident İlham Əliyevə ətraflı məlumat verərək, ölkələrimiz arasında sənaye, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu qeyd etdi. Enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunan qonaq dedi ki, quruda karbohidrogen ehtiyatları yataqlarının işlənilməsində Pakistan mütəxəssislərinin təcrübəsi olsa da, dənizdə neft çıxarılması sahəsində onlar azərbaycanlı həmkarlarının təcrübəsindən istifadə etməkdə maraqlıdırlar.

Nauriz Şakur Xan bir daha qeyd etdi ki, Pakistanın dövlət başçısının Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Prezident sarayında Avropa Birliyinin genişlənmə məsələləri üzrə komissarı Yaneş Potoçnikin başçılığı ilə bu təşkilatın nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Brüsseldə Yaneş Potoçnik ilə keçirdiyi görüşü və apardığı danışıqları məmnunluqla xatırladı. Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətinin bir hissəsi olduğunu vurğulayan dövlətimizin başçısı, bu təşkilatın ölkəmizə və regiona olan marağını xüsusilə qeyd etdi. O, əmin olduğunu vurğuladı ki, ölkəmizin bu proqram çərçivəsində əməkdaşlığı daha uğurlu olacaqdır.

Prezident İlham Əliyev Azərbaycanın Avropa strukturlarına inteqrasiyasının siyasətimizin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq, bu siyasətin gələcəkdə də davam edəcəyini söylədi.

Azərbaycan Prezidenti Avropa Birliyinə daxil olan ölkələrlə təkcə enerji sahəsində deyil, digər sahələrdə də işbirliyinin davam etdiriləcəyini bildirdi, enerji sahəsində əməkdaşlığa dair məsələlərin bu yaxınlarda Bakıda səfərdə olan Yunanıstanın Prezidenti və NATO sammiti zamanı Türkiyənin Prezidenti və Baş naziri ilə səmərəli şəkildə müzakirə olunduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir və hazırda sənayenin bir çox sahələrində böyük uğurlar əldə edilmişdir.

Dövlətimizin başçısı görüşdə iştirak edən Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin də fəaliyyətini yüksək qiymətləndirirdi, Yaneş Potoçnikə Azərbaycana ilk səfərində uğurlar dilədi.

Cənab Yaneş Potoçnik ölkəmizdə səmərəli görüşlər keçirdiyini bildirərək dedi ki, Avropa Birliyi Azərbaycanın potensialını yüksək qiymətləndirir. Avropa Birliyinin genişlənməsindən sonra baş verən proseslər barədə Prezident İlham Əliyevə məlumat verən qonaq Türkiyənin Avropa ailəsinə yaxınlaşması üçün məsləhətləşmələr aparıldığını da söylədi. Onun sözlərinə görə, Avropa Birliyinin genişlənməsi reallıqlarla hesablaşmağı və qonşularla siyasəti yeni əsaslarda qurmağı tələb edir. Hazırladıqları hesabatda Cənubi Qafqaz ölkələri, xüsusilə mühüm coğrafi-siyasi əhəmiyyətə malik olan Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə geniş yer ayrılmışdır. Bu ilin sentyabr ayında Avropa Birliyi yeni qonşuluq siyasəti proqramı çərçivəsində əməkdaşlığa dair sənədlər paketini də müzakirə edəcəkdir. Bu sənədlərdə enerji sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdır. Bundan başqa, terrorizmə qarşı mübarizə, yoxsulluğun azaldılması və Avropa Birliyinin öz qonşuları ilə siyasətinin bir sıra ümumi cəhətləri də müzakirə olunacaqdır.

Görüşdə Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Prezident sarayında Türkiyənin ətraf mühitin mühafizəsi və meşə təsərrüfatı naziri Osman Pepeni qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı səmimiyyətlə salamlayaraq, Ankarada Heydər Əliyev parkının açılışındakı görüşü xatırlatdı, çox gözəl mərasimə və parka görə təşəkkürünü bil-

dirdi və dedi ki, ölkələrimiz arasında çox gözəl münasibətlər davam edir. Mən bu yaxınlarda İstanbulda NATO-nun zirvə toplantısında idim, Prezidentlə, Baş nazirlə görüşdüm. Çox əhəmiyyətli söhbətlər etdik, öz iradəmizi bir daha bildirdik, nə qədər yaxın olduğumuzu gördük. Bu səfər çərçivəsində İstanbulda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkın açılışı da olmuşdur və orada onun heykəli də qoyulmuşdur.

Əlaqələrimizin sürətlə inkişaf etməsindən çox şad olduğunu vurğulayan Prezident İlham Əliyev qarşıda böyük vəzifələrin durduğunu söyləyərək bildirdi ki, hamımız üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi diqqət mərkəzindədir. Eyni zamanda, bütün başqa sahələrdə də əlaqələr inkişaf edir və biz çox istəyirik ki, bu əlaqələr daha da güclənsin. O cümlədən ətraf mühit, ekologiya sahələrində də əməkdaşlığın çox böyük önəmi vardır. Azərbaycan bu baxımdan müəyyən çətinliklər çəkir. Çünki sovet dövründə, ümumiyyətlə, ekologiya anlayışı yox idi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra respublikamızın o qədər böyük iqtisadi-sosial və digər problemləri var idi ki, bu məsələ bir az arxa plana keçmişdi. İndi biz buna çox böyük əhəmiyyət veririk. Bir müddət əvvəl yeni nazirlik yarandı və bu sahədə böyük planlarımız vardır.

Azərbaycanda ətraf mühitin qorunmasının indi öncül məsələyə çevrildiyini vurğulayan dövlətimizin başçısı dedi ki, mən müvafiq göstərişlər vermişəm və geniş proqram hazırlanır. Ümumiyyətlə, Azərbaycanda, xüsusilə Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılacaqdır. Əlbəttə, buna maliyyə vəsaiti lazımdır, təşkilatçılıq məsələləri öz həllini tapmalıdır və beynəlxalq məsləhətlər, tövsiyələr çox lazımdır. Bu baxımdan Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bu istiqamətdə çox uğurlu inkişaf edə birlər. Mən sizin səfərinizi məhz bu baxımdan qiymətləndirirəm.

Səmimi qəbula görə minnətdarlığını bildirən nazir Osman Pepe dedi ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyan, Ankarada açılışı mərasimində iştirak etdiyimiz park Türkiyə paytaxtının çox mənzərəli və gözəl gəzinti yeri olacaq və bu böyük insanın tarixi xidmətləri hamı tərəfindən xatırlanacaqdır. Biz ölkələrimiz arasında Heydər Əliyevin qurduğu çox güclü dostluq və qardaşlıq əlaqələrinin mövcudluğunu və bunun inkişafı yolunda zati-alinizin göstərdiyi fəaliyyəti təqdirlə qarşılayırıq.

Türkiyə naziri azərbaycanlı həmkarı ilə görüşü zamanı səmərəli müzakirələr aparıldığını və bununla əlaqədar protokolun imzalancağını söylədi və gələcəkdə bunların icrası üçün çalışacaqlarını və mövcud təcrübələri birlikdə bölüşəcəklərini vurğuladı.

Onunla birlikdə Bakıya Türkiyənin nüfuzlu iş adamlarının da gəldiyini, burada lazımi layihələr həyata keçirmək niyyətində olduqlarını bildirən Osman Pepe dedi ki, Azərbaycanın güclü olması, xalqın firavan yaşaması böyük lider Heydər Əliyevin ideyaları olmuşdur və bilirik ki, bu ideyanı yaşatmaq Prezident İlham Əliyevin də məqsədidir. Ölkələrimiz arasındakı qardaşlığı sadəcə sözdə yox, müştərək layihələrlə, bölgədə sülhü möhkəmləndirməklə, Azərbaycanın və Türkiyənin mənafeyini qorumaqla, mütəxəssislərimizin peşəkarlığından bəhrələnməklə yaşatmaq lazımdır. Ümid edirəm, iki qardaş ölkə arasındakı son dərəcə yaxşı münasibətlər hökumətlərimizin fəaliyyəti ilə çox güclü şəkildə irəliyə gedəcəkdir.

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf iyulun 8-də ölkəmizə rəsmi səfərə gəlmişdir.

İyulun 8-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti cənab Pərviz Müşərrəfin təkbətək görüşü olmuşdur.

Görüş zamanı dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı surətdə faydalı əlaqələrin səviyyəsindən razı qaldıqlarını vurğuladılar. Bildirildi ki, ölkələrimiz arasında münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin rəsmi İslamabad tərəfindən daim dəstəklənməsi faktını məmnunluqla vurğuladı.

Görüşdə ikitərəfli əməkdaşlığın daha da dərinləşməsi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri, beynəlxalq və regional təhlükəsizlik problemləri və tərəfləri maraqlandıran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistan Prezidenti Pərviz Müşərrəfin geniş tərkibdə görüşü oldu.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha ürəkdən salamlayıram və "Azərbaycana xoş gəlmisiniz!" deyirəm. Bizim dəvətimizi qəbul edib ölkəmizə səfər etdiyinizə görə Sizə minnətdaram.

Ölkələrimiz arasında münasibətlər çox sürətlə inkişaf edir. Bu bizi çox sevindirir. 1996-cı ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Pakistana rəsmi səfər etmişdir. Həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlər bütün istiqamətlərdə inkişaf etməyə başlamışdır. Bu gün həm siyasi, həm də iqtisadi və mədəni sahələrdə ikitərəfli əlaqələr çox uğurla inkişaf edir. Pakistanla Azərbaycan beynəlxalq aləmdə daim bir-birini dəstəkləyir və bu dəstəyə görə Sizə öz minnətdarlığımı bildirirəm. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinizə görə Sizə minnətdaram.

İqtisadi sahədə əməkdaşlığımızın çox gözəl perspektivləri vardır və biz bunu Sizinlə müzakirə etdik. Hökumətlərarası birgə komissiya çox gözəl işləyir və ümidvaram ki, bu səfərdən sonra iqtisadi sahədə əlaqələrimiz daha da güclənəcəkdir.

Əlbəttə ki, humanitar sahədə əməkdaşlığımız da güclənməlidir. Bizim xalqlarımız

bir-birinə böyük hörmət və rəğbətlə yanaşırlar. Əminəm ki, bu səfərdən sonra xalqlarımız arasında olan münasibətlər də durmadan inkişaf edəcəkdir.

Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz deyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra Pakistan-Azərbaycan münasibətləri bütün sahələrdə sürətlə inkişaf edəcəkdir.

Səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirən Pakistan Prezidenti PƏRVİZ MÜŞƏRRƏF dedi:

- Hörmətli Prezident!

Mən də əvvəlcə "Xoş gördük!" demək istəyirəm. Biz Azərbaycana gəlişimizdən çox məmnun olduq.

Cənab Prezident, dəvətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun ki, məni və nümayəndə heyətini Azərbaycana dəvət etdiniz. Biz qardaş ölkədə olmağımızdan çox məmnunuq. Həqiqətən də, burada olmaq bizim üçün böyük başucalığıdır. Azərbaycana gəldiyimiz dəqiqədən burada olan qonaqpərvərliyi və səmimiliyi hiss edirik.

Cənab Prezident, Sizinlə təkbətək görüş zamanı məlum oldu ki, bizim ümumi maraqlarımız çoxdur. Bu maraqlar həm siyasi sahəyə aiddir və müzakirə etdiyimiz bütün məsələlər üzrə biz ümumi məxrəcə gəldik. Hesab edirəm ki, iqtisadi sahədə də bizim ümumi maraqlarımız böyükdür.

Siyasi məsələlər üzrə bizim maraqlarımız üst-üstə düşür. Cənab Prezident, Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəklədiyinizə görə Sizə öz minnətdarlığımı bildirirəm. Bəyan etmək istərdim ki, Pakistan hər zaman Azərbaycan xalqı ilə birlikdə olacaqdır, Dağlıq Qarabağ məsələsində Sizin xalqınızın haqlı tələbini və mövqeyini dəstəkləyəcəkdir.

Bir halda ki, bizim ölkələrimiz və xalqlarımız arasında oxşarlıq vardır və tarixi baxımdan eyni köklərə malikdir, mədəniyyətlərimiz çox oxşardır, xalqlarımız eyni dinə qulluq edirlər, hesab edirəm ki, bütün bunlara söykənərək, iqtisadi və ticarət əlaqələrini daha da genişləndirmək, bu sahədə imkanlar axtarıb tapmaq lazımdır.

Müdafiə sahəsində də bizim ümumi maraqlarımız çoxdur. Biz uzun zaman apardığımız araşdırmalardan sonra bu qənaətə gəlmişik və bu sahədə sizə işbirliyi təklif etmək istəyirik. Biz sizin Müdafiə Nazirliyinizin nümayəndə heyətini böyük məmnuniyyətlə Pakistanda qəbul edəcəyik. Onlar bizim ölkədə həm təlim keçə, həm də istehsal olunan hərbi avadanlıqla tanış ola bilərlər.

İqtisadi sahədə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Hər şeydən əvvəl, düşünürəm ki, neft və qaz sahəsində işbirliyi üçün böyük potensial vardır. Biz burada birgə müəssisələr açа bilərik və Pakistan neftçiləri sizin neftçilərin zəngin təcrübəsindən faydalana bilərlər. İqtisadiyyatın digər sahələrində də imkanlar olduqca genişdir. Bizim maliyyə, bank sahələrində zəngin təcrübəmiz vardır. Bu qurumları təmsil edən şəxslər mənim nümayəndə heyətimə daxildirlər. Eyni zamanda, bizim sığorta sahəsində də geniş təcrübəmiz vardır. Biz sizə toxuculuq sahəsində işbirliyi təklif edə bilərik. Bilirik ki, Azərbaycan pambıq istehsal edən ölkədir. Nəzərinizə çatdırmaq istəyirəm ki, Pakistan-

da bu sahədə özəl sektor olduqca yaxşı inkişaf etmişdir. İnformasiya texnologiyaları və telekommunikasiya sahəsində də böyük təcrübəmiz vardır və bu sahədə də sizə əməkdaşlıq təklif edirik.

Sonda diqqətinizə çatdırmaq istəyirəm ki, müasir dövrdə, XXI əsrdə heç bir dövlət informasiya sahəsində mübadilə olmadan inkişaf edə bilməz. Ona görə də biz sizə elm sahəsində də təcrübə mübadiləsi təklif etmək istəyirik və bu, bizim xalqlarımızın inkişafına xidmət edəcəkdir. Onu da əlavə edim ki, biz beş nəfərin Pakistana gələrək bank və maliyyə sahəsində təhsil almaları üçün şərait yaratmağa hazırıq. Eyni zamanda, informasiya və kommunikasiya sahəsində biz sizin tələbələrin Pakistanda təhsil alması üçün 10 yer ayırmağa hazırıq.

Müdafiə sahəsində də sizin mütəxəssislər Pakistana gələ bilər və orada təcrübə keçə bilərlər. Bununla da biz əməkdaşlığımızı daha da möhkəmləndirərik.

Çox sağ olun.

AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Prezidentlərin geniş heyətdə görüşü başa çatdıqdan sonra Prezident sarayında ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf birgə bəyannamə imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, Pakistan tərəfindən neft və təbii ehtiyatlar naziri Nauriz Şakur Xan, Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov, Pakistan tərəfindən neft və təbii ehtiyatlar naziri Nauriz Şakur Xan imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən daxili işlər naziri Ramil Usubov, Pakistan tərəfindən xarici işlər katibi Riyaz Toxaş imzaladılar.

Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Pakistanın sənaye və istehsal naziri Liakat Əli Catoy Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında beynəlxalq terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında sazişi imzaladılar.

Sənədlərin imzalanma mərasimində baş nazirin müavini Yaqub Eyyubov, nazirlər, Pakistanın Bakıdakı səfiri Məhəmməd Hafiz, Azərbaycanın İslamabaddakı səfiri Eynulla Mədətli və dost ölkənin nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI

İyulun 8-də, Prezident sarayında Azərbaycan-Pakistan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Pərviz Müşərrəfin birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Azərbaycana rəsmi səfərə gəlmiş Pakistan İslam Respublikasının Prezidenti cənab Pərviz Müşərrəfi və onu müşayiət edən nümayəndə heyətinin bütün üzvlərini bir daha salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Qardaş Pakistan Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında olan çox əlamətdar bir hadisədir. Pakistanla Azərbaycan arasında çox gözəl əlaqələr mövcuddur. Siyasi, iqtisadi, mədəni sahələrdə bizim ölkələrimiz çox səmərəli və uğurlu əməkdaşlıq edirlər. Pakistan və Azərbaycan bütün beynəlxalq tədbirlərdə, ümumiyyətlə, beynəlxalq aləmdə bir-birini daim dəstəkləyir, bir-birinə kömək edirlər.

Pakistan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyir və mən bu dəstəyə görə bir daha hörmətli cənab Prezidentə bütün Azərbaycan xalqı adından öz təşəkkürümü bildirirəm. Azərbaycan da əvvəllər olduğu kimi, bundan sonra da Pakistanı daim dəstəkləyəcəkdir, öz siyasi dəstəyini verəcəkdir.

Belə gözəl bir şəraitdə, əlbəttə, iqtisadi əlaqələrin inkişafı bizim ölkələrimizi daha da yaxından birləşdirəcəkdir. Biz çox istəyirik ki, iqtisadi əlaqələr inkişaf etsin, güclənsin və hər iki ölkəyə fayda gətirsin. Hökumətlərarası komissiyanın iclasında bu məsələlər müzakirə olunubdur və ümidvaram ki, bu səfərdən sonra iki ölkə arasında olan iqtisadi əlaqələr daha da güclənəcəkdir.

Yanacaq, energetika, kənd təsərrüfatı, turizm, digər sahələrdə əməkdaşlıq üçün çox gözəl zəmin vardır. Əlbəttə, humanitar, mədəni sahələrdə bizim əlaqələrimiz çox uğurla inkişaf edir, xalqlarımız bir-birinə böyük hörmətlə, rəğbətlə yanaşırlar.

Pakistan və Azərbaycan müttəfiq ölkələrdir. Biz bir-birimizi çox yaxşı başa düşürük. Beynəlxalq, regional məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Mən əminəm ki, bu səfərdən sonra aramızda olan əlaqələr daha da güclənəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq və ümumiyyətlə, Pakistanla Azərbaycan arasında olan münasibətlər inkişaf edəcəkdir.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram və əminəm ki, bu səfər, onun nəticələri də çox uğurlu olacaqdır.

PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BƏYANATI

- Bismillahir-rəhmanir-rəhim!

Cənab Prezident, çox sağ olun ki, Pakistan və Azərbaycan dostluğu haqqında bu qədər xoş sözlər dediniz. Ondan başlamaq istəyirəm ki, məni Azərbaycana dəvət etməyinizdən çox məmnunam. Böyük ehtiram hissi və başucalığı ilə nümayəndə heyətinə rəhbərlik edirəm və Azərbaycana, Sizin böyük ölkəyə gəlmişəm.

Pakistan və Azərbaycan ümumi mədəniyyətə malik ölkələrdir. Bizim insanlarımız eyni dinə sitayiş edirlər. Ona görə də bundan çıxış edərək, ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələri daha da genişləndirmək üçün böyük imkanlar mövcuddur.

Biz cənab Prezidentlə təkbətək görüşdə və nümayəndə heyəti ilə görüşdə bir sıra məsələləri müzakirə etdik. Bu müzakirələr zamanı qərara alındı ki, bütün mümkün sahələrdə əməkdaşlığı genişləndirmək lazımdır və bunun üçün imkanlar da vardır.

Siyasi sahədə bizim münasibətlərimizin xüsusiliyi ondan ibarətdir ki, biz bir-birimizə qarşılıqlı hörmətlə yanaşırıq və bütün məsələlərdə bir-birimizi daim dəstəkləyirik. Bu özünü Azərbaycanın Kəşmir məsələsinə münasibətində göstərir və eləcə də, Dağlıq Qarabağ məsələsində Pakistanın Azərbaycanın düzgün mövqeyini daim dəstəkləməsində özünü büruzə verir.

Dağlıq Qarabağın və onun ətrafında olan rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi hər bir adi pakistanlını narahat edir. Mən bu gün Azərbaycan Prezidentinə söz vermək istəyirəm ki, biz bu münaqişədə Azərbaycanın ərazi bütövlüyünü və düzgün mövqeyini daim dəstəkləyəcəyik.

Beynəlxalq məsələlərə baxışda bizim mövqelərimiz bütün məsələlərdə eynidir. Xüsusilə də islam dünyasının üzləşdiyi bütün problemlərdə biz eyni mövqedən çıxış edirik. Bu, həm Fələstin, həm Kəşmir, həm də İraq və Əfqanıstanda olan məsələlərə aiddir. Qərara alınmışdır ki, bundan sonra ölkələrimiz bu sahədə əməkdaşlığı daha da gücləndirsinlər və əlaqələndirsinlər.

Məlum olduğu kimi, bizim yaşadığımız dövr, XXI əsr iqtisadiyyat əsridir. Burada da biz Prezidentlə razılaşdıq ki, ümumi maraqları müəyyən edək və birgə iqtisadi komissiya ümumi maraqlar üzərində işləsin, məsələləri araşdırsın. Beləliklə, biz bütün imkanları inkişaf etdirək.

Mən imzalanmış sənədlərdən olduqca razıyam, olduqca məmnunam. Ümid edirəm ki, bu gün Prezidentlə aramızda imzalanan sənədlər ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və xalqlarımız arasında əməkdaşlıq bundan sonra yüksələn xətlə davam edəcəkdir.

Cənab Prezident, Pakistan bütün mümkün sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirməyin tərəfdarıdır. Sonda sizin qarşınızda bəyan etmək istəyirəm ki, mən böyük məmnuniyyətlə cənab Prezidenti Pakistana rəsmi səfərə dəvət etmişəm. O da Pakistana gəlməyə razılıq veribdir. Minnətdarlığımı bildirmək istəyirəm ki, bu da bizə Azərbaycanın nümayəndə heyətinə burada bizə qarşı göstərilən qonaqpərvərliyi Pakistanda eyni ilə təkrar etməyə imkan yaradacaqdır. Bəyan etmək istəyirəm ki, Azərbaycan ilə Pakistan arasında münasibətlər davam edəcək və daha da güclənəcəkdir. Mən

hesab edirəm ki, biz tərəfdaş deyilik, biz qardaşıq. Pakistan hər zaman Azərbaycanla olacaqdır.

Çox sağ olun.

Yaşasın Azərbaycan-Pakistan dostluğu!

* * *

Sonra Prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Azərbaycan Prezidentinədir. Cənab Prezident, məlum olduğu kimi, Azərbaycanla Pakistan arasında çox güclü siyasi əlaqələr mövcuddur. Siz Pakistan Prezidenti ilə bu siyasi münasibətləri iqtisadi səviyyəyə keçirmək haqqında müzakirələr aparmısınızmı?

İLHAM ƏLİYEV: Bu barədə geniş fikir mübadiləsi aparılmışdır. Həm təkbətək görüşdə, həm də nümayəndə heyətləri ilə görüşdə bu məsələ müzakirə olunmuşdur. Bu sahədə böyük imkanlar var. Azərbaycan və Pakistan iqtisadi əməkdaşlıq edirlər. Amma bu, istənilən səviyyədə deyildir. Biz çox ümid edirik ki, bu səfərdən sonra iqtisadi əlaqələr daha da güclənəcək və biz konkret layihələr üzrə işləyəcəyik.

Bu əməkdaşlıq müxtəlif sahələrdə mümkündür. Bu məsələlər müzakirə olunubdur. Əminəm ki, ilk növbədə, neft-qaz sektorunda, kənd təsərrüfatında, turizm sahəsində və digər sahələrdə əlaqələr güclənəcəkdir. Biz çox istəyirik ki, bizneslə məşğul olan şirkətlər, iş adamları bir-birinə daha yaxın olsunlar, qarşılıqlı səfərlər etsinlər. Çünki həm Azərbaycanda, həm də Pakistanda qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün gözəl şərait var. Şübhəsiz ki, gözəl siyasi münasibətlər iqtisadi əlaqələrin güclənməsinə öz töhfəsini verəcəkdir. Mən əminəm ki, bu səfərdən sonra bu sahədə biz gözəl nəticələr görəcəyik.

SUAL: Mənim sualım Pakistan Prezidentinədir. Cənab Prezident, hər iki ölkənin dövlət başçısı iqtisadi əlaqələri gücləndirmək niyyətini ifadə etdi. Konkret olaraq soruşmaq istəyirəm ki, neft-qaz sahəsində Pakistanla Azərbaycan arasında iqtisadi əməkdaşlığın perspektivlərini necə görürsünüz?

PƏRVİZ MÜŞƏRRƏF: Bəli, həqiqətən də, bu, bizim müzakirə etdiyimiz çoxsaylı məsələlərdən yalnız biridir. Bizə məlumdur ki, Azərbaycan neft və qaz sahəsində böyük təcrübəyə malikdir. Çox istərdik ki, Azərbaycanın bu təcrübəsindən faydalanaq, bu sahədə birgə müəssisələr açaq, Azərbaycanla birlikdə çalışaq, Azərbaycandan öyrənək. Bu səfər zamanı məni Pakistanın neft naziri müşayiət edir. O, öz azərbaycanlı həmkarı ilə görüşəcəkdir və konkret layihələr haqqında fikir mübadiləsi aparılacaqdır.

SUAL: Mənim sualım belədir: Kəşmir və Dağlıq Qarabağ məsələləri prezidentlərin görüşündə müzakirə olunmuşdur. Bu məsələdə tərəflər öz hərəkətlərini, bundan sonra atılacaq addımları əlaqələndirə bilərlərmi ki, bu sahədə daha çox səmərə əldə olunsun?

İLHAM ƏLİYEV: Bu sahədə əlaqələndirmə var. Biz qeyd etdik ki, bu məsələ müzakirə olunmuşdur. Bildiyiniz kimi, bütün beynəlxalq təşkilatlarda Pakistanla Azərbaycan bu məsələlərdə bir-birini dəstəkləyir, öz siyasi dəstəyini verir. Biz istəyirik ki, beynəlxalq hüquq normaları işləsin, istəyirik ki, ədalət bərpa olunsun. Biz istəyirik ki, bu mə-

sələ sülh yolu ilə öz ədalətli həllini tapsın. Amma beynəlxalq hüquq normaları əsasında.

Birləşmiş Millətlər Təşkilatının qətnamələri var və bunlar icra olunmur. Əlbəttə, biz tələb edirik ki, bunlar icra olunsun və tezliklə bu münaqişələr öz həllini tapsın. Gələcəkdə də bu məsələlərlə əlaqədar iki ölkə bir-birini dəstəkləyəcəkdir.

PƏRVİZ MÜŞƏRRƏF: Mən cənab Prezidentin dediklərinə əlavə etmək istəyirəm ki, həqiqətən, biz bundan sonra da bu məsələlərdə bir-birimizi dəstəkləməkdə davam edəcəyik.

SUAL: Mənim sualım Pakistan Prezidentinədir. Cənab Prezident, İslam Konfransı Təşkilatının iclası zamanı Siz maarifçi-liberalizm ideyasını irəli sürmüşdünüz. Bu ideya nədən irəli gəlmişdir?

PƏRVİZ MÜŞƏRRƏF: Məlum olduğu kimi, hazırda bütün dünya inkişaf edir. Lakin eyni zamanda, bütün dünya çox təhlükəli bir yerə çevrilmişdir. Bu dünyanın sakinləri kimi, bizim də hamımızın əsas məqsədimiz, borcumuz ondan ibarətdir ki, dünyanı daha da təhlükəsiz məkana çevirək. İkinci tələbat ondan irəli gəlir ki, hazırda bütün müsəlman dünyasında sosial sektor çox zəif inkişaf edibdir və əhali arasında savadın səviyyəsi olduqca aşağıdır. Ona görə də İslam Konfransı Təşkilatının bir üzvü kimi biz istərdik ki, müsəlman xalqları, islam dininə sitayiş edən xalqlar savadlarını artırsınlar.

Mən maarifçi-liberalizm dedikdə, iki məsələni nəzərdə tuturam. Birincisi, müsəlman dünyası özü-özünə yardım etməlidir. Biz ekstremizmdən azad olmalıyıq və sosial inkişafa doğru getməliyik. İkincisi isə, Qərbdən daha çox asılıdır. İlk növbədə, Birləşmiş Ştatlar, Qərb ölkələri yardım etməlidirlər ki, biz bu siyasi münaqişələrdən yaxa qurtaraq. Bu siyasi münaqişələrin həll olunmasında onlar bizə yardım etməlidirlər. Əlbəttə, ədalətli əsaslarla. Onlar bundan sonra bizim sosial və iqtisadi inkişafımıza yardım əllərini uzatmalıdırlar. Biz düşünürük ki, əgər belə olarsa, burada uduzan tərəf olmayacaqdır. Hamı qalib gələcəkdir. Xüsusilə də müsəlman dünyası. Çox sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 8-də Bakı Əyləncə Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını alqışlarla qarşıladılar.

Prezidentlər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Pakistan İslam Respublikasının Prezidenti zati-alileri cənab Pərviz Müşərrəf!

Hörmətli xanım Müşərrəf!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Pakistan İslam Respublikasının Prezidenti, hörmətli cənab Pərviz Müşərrəf Azərbaycana səfər etmişdir. Deyə bilərəm ki, bu səfər çox uğurlu səfərdir. Biz bu səfəri çoxdan

gözləyirdik və indi artıq demək olar ki, bu səfər iki ölkə arasında olan münasibətlərə çox böyük təsir göstərəcəkdir.

Pakistanla Azərbaycan müstəqil ölkələrdir. Biz bir-birimizə çox yaxınıq və siyasi sahədə əlaqələrimiz çox yüksək səviyyədədir. Qeyd etməliyəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Pakistan onu tanıyan ilk dövlətlərdən biri idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1996-cı ildə Pakistana rəsmi səfər etmişdi və bu səfərdən sonra iki ölkə arasında münasibətlər yeni bir pilləyə qalxmışdır. Keçən ilin sentyabr ayında mən Amerika Birləşmiş Ştatlarında Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında cənab Pərviz Müşərrəflə görüşmüşdüm və bu görüş çox uğurlu olmuşdur. Mən çox məmnunam ki, cənab Prezident bizim dəvətimizi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmişdir.

Apardığımız danışıqlarda bir daha əmin olduq ki, müstəqil ölkələrimizin siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığı uğurla davam edir. Bu gün iki ölkə arasında çox önəmli sazişlər imzalanmışdır və ümid edirəm ki, bunlar gələcək əməkdaşlıq üçün daha gözəl şərait yaradacaqdır. Bildiyiniz kimi, Pakistanla Azərbaycan beynəlxalq aləmdə daim bir-birinə dəstək verir. Azərbaycan Pakistanı Kəşmir məsələsində dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir. Pakistan isə ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində daim dəstəkləyir və buna görə biz Pakistan xalqına, onun hökumətinə və şəxsən Prezidentə minnətdarıq. Müzakirə etdiyimiz bütün məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Mən əminəm ki, bu səfərdən sonra iqtisadi, hərbi, mədəni sahələrdə, turizm sahəsində bizim əlaqələrimiz daha da genişlənəcəkdir. Əsrlər boyu bir-birinə böyük hörmətlə, rəğbətlə yanaşan xalqlarımız bundan sonra daha da yaxınlaşacaqlar.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Sizə, xanım Müşərrəfə, bütün qonaqlarımıza uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun!

PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN NİTQİ

- Bismilahir-rəhmanir-rəhim!

Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar!

Doğrudan da, nadir bir imkandır ki, mənim xanımım, mən, nümayəndə heyətim burada Azərbaycanda səfərdəyik. Bu tarixi diyarda mənə və mənim xanımıma, nümayəndə heyətimə, həqiqətən də, böyük qonaqpərvərlik göstərilmişdir. Əslində, Pakistanla Azərbaycan arasındakı münasibətlərin çox dərin kökləri vardır. Bunlar hökumətlərarası əlaqələrin köklərindən daha dərinə gedir. Bu köklər, ilk növbədə, insanlar arasında bir-birinə qarşı olan münasibətlərdən gələn köklərdir.

Biz pakistanlılar böyük qürur hissi keçiririk ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olmuşuq. Mən buraya ona görə gəlmişəm ki, bu əlaqələri daha çox reallığa çevirim, yəni siyasi, iqtisadi, ticarət əlaqələrini daha da möhkəmlədim. Mən böyük

məmnuniyyətlə qeyd etmək istəyirəm ki, çox şadam ki, bütün beynəlxalq mövzularda biz konsensus əldə etmişik və eyni mövqedən çıxış edirik. Beynəlxalq təşkilatlar çərçivəsində və eləcə də, ikitərəfli münasibətlər qarşılıqlı surətdə, konstruktiv surətdə, bir-birinə hörmət əsasında davam edir. Bu gün Azərbaycan Prezidentinə, Azərbaycan hökumətinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, Pakistanın mövqeyini daim dəstəkləyiblər. Böyük məmnuniyyətlə onu da nəzərinizə çatdırmaq istəyirəm ki, Hindistanla Pakistan arasında olan münasibətlər mülayimləşmək üzrədir və biz bir sıra məsələlərdə eləcə də Kəşmir məsələsində, razılığa gəlmək üzrəyik. Qarşılıqlı surətdə Pakistan da Azərbaycanı Dağlıq Qarabağ məsələsində dəstəkləyir və sizə demək istəyirəm ki, bu, yalnız hökumətdən gələn dəstək deyil, bu, hər bir sadə pakistanlının dəstəyidir və sadə pakistanlılar daim azərbaycanlı qardaşları ilə çiyin-çiyinə olacaqlar. Bu dəstək Azərbaycanın ərazi bütövlüyü təmin olunana qədər davam edəcəkdir.

Pakistan və Azərbaycan həm də İqtisadi Əməkdaşlıq Təşkilatının üzvləridir. Biz əlimizdən gələni etməliyik ki, bu təşkilat daha da möhkəmlənsin və buradakı əməkdaşlıq geniş vüsət alsın. Biz həm də İslam Konfransı Təşkilatının üzvləri olan ölkələrik. Bizim borcumuzdur ki, bu təşkilatın çərçivəsində əməkdaşlıq edək və təşkilatı mümkün qədər gücləndirək. Böyük məmnuniyyətlə onu da nəzərinizə çatdırmaq istəyirəm ki, İslam Konfransı Təşkilatının Kuala-Lumpurda keçirilən zirvə görüşündə Pakistanın irəli sürdüyü maarifçi liberalizm ideyası qəbul olunmuşdur və indi təşkilatda struktur dəyişiklikləri nəzərdə tutulub və bundan sonra bütün müsəlman dünyasında böyük irəliləyiş əldə olunması gözlənilir. Biz iki ölkə olaraq müsəlman dünyasına öz dəstəyimizi əsirgəməyəcəyik və İslam Konfransı Təşkilatı çərçivəsində struktur islahatlarının keçirilməsinə daim yardım etməkdə davam edəcəyik ki, müsəlman dünyasına daxil olan bütün xalqlar sosial və iqtisadi cəhətdən inkişaf etsinlər.

Pakistanla Azərbaycanın qarşısında iqtisadi əməkdaşlığın konturlarını müəyyən etmək məsələsi durur. Biz bunları müəyyən etdikdən sonra qətiyyətlə planlarımızın və layihələrimizin icrasına keçərik.

Sonda ümidvar olduğumu bildirmək istəyirəm ki, Pakistanla Azərbaycan arasında olan bu münasibətlər hər iki ölkənin, hər iki xalqın xeyrinə və marağına uyğun olaraq, bundan sonra da davam edəcəkdir. Mən Prezidentdən xahiş etmişəm ki, Pakistana səfər etsin və o, bu dəvəti qəbul etdi. Böyük məmnuniyyətlə onu və onun xanımını Pakistanda gözləyəcəyik.

Yaşasın Pakistan-Azərbaycan qardaşlığı!

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

İyulun 9-da Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Milli Məclisə gəlmişdir.

Ali qonağı parlamentin binası önündə Milli Məclisin sədri Murtuz Ələsgərov, parlament sədrinin müavini Ziyafət Əsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Sonra Murtuz Ələsgərov və Pərviz Müşərrəf arasında təkbətək görüş oldu.

Görüşdə Azərbaycan-Pakistan münasibətlərinin genişləndirilməsi, parlamentlərarası əlaqələrin dərinləşdirilməsi, qanunverici orqanlar arasında təcrübə mübadiləsi və digər məsələlər müzakirə edildi.

PAKİSTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ ÇIXIŞ ETMİŞDİR

Ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti iyulun 9-da Milli Məclisin deputatları ilə görüşmüşdür.

Azərbaycan parlamentinin deputatları ali qonağı hərarətli alqışlarla qarşıladılar. Görüşü Milli Məclisin sədri Murtuz Ələsgərov açdı.

MİLLİ MƏCLİSİN SƏDRİ MURTUZ ƏLƏSGƏROVUN ÇIXIŞI

- Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Pərviz Müşərrəf!

Hörmətli deputatlar!

Hörmətli səfirlər, xanımlar və cənablar!

Bildiyiniz kimi, Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Pərviz Müşərrəf iyulun 8-dən Azərbaycanda rəsmi səfərdədir. Dünən Azərbaycan Prezidenti cənab İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf görüşmüş, danışıqlar aparmışlar. Danışıqların yekunu olaraq, Pakistanla Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün böyük əhəmiyyət kəsb edən bir sıra mühüm sənədlər imzalanmışdır.

İcazə verin, Pakistan İslam Respublikasının Prezidentini Milli Məclisdə olması münasibətilə sizin hamınızın adından salamlayaq və "Azərbaycana xoş gəlmisiniz!" deyək.

Pakistan İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. 1992-ci il iyun ayının 9-da Azərbaycanla Pakistan arasında diplomatik əlaqələr yaradılmışdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Pakistanın sədrliyi ilə keçən iclasında Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad olunması, işğalçı qoşunların Azərbaycandan çıxarılmasını tələb edən 822 nömrəli qətnamə qəbul edilmişdir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1996-cı il aprelin 9-11-də Pakistana rəsmi səfər etmişdir. Bu səfər zamanı bir sıra mühüm görüşlər keçirilmiş, Azərbaycan-Pakistan əməkdaşlığının möhkəmləndirilməsini nəzərdə tutan bir sıra mühüm sənədlər imzalanmışdır. Xüsusi vurğulamaq istəyirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatının 2002-ci ilin iyun ayında Tehranda və 2002-ci ilin oktyabr ayında İstanbulda keçirilmiş zirvə toplantılarında Azərbaycan Prezidenti Heydər Əliyev ilə Pakistan Prezidenti cənab Pərviz Müşərrəf arasında görüşlər keçirilmişdir.

İyulun 8-də isə Prezident sarayında Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Pakistan Prezidenti cənab Pərviz Müşərrəfin iştirakı ilə imzalanmış sənədlər dostluq, əməkdaşlıq əlaqələrinin yeni mərhələdə davamı kimi qiymətləndirilməlidir.

İndi isə icazə verin, sözü Pakistan İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Pərviz Müşərrəfə verim.

PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ÇIXIŞI

- Bismillahir-rəhmanir-rəhim!

Hörmətli cənab sədr Murtuz Ələsgərov!

Hörmətli millət vəkilləri!

Burada bu gün Sizin qarşınızda çıxış etmək mənim üçün çox böyük şərəfdir. Xüsusilə Sizə minnətdaram ki, məni Milli Məclisə dəvət etmisiniz və burada Pakistanın Azərbaycanla münasibətləri və ümumilikdə dünyada cərəyan edən hadisələr haqqında sizinlə fikir mübadiləsi apara bilirəm.

Pakistanla Azərbaycan arasında xüsusi münasibətlər mövcuddur və bu münasibətlərin minilliklərlə tarixi vardır. Dinimiz, mədəniyyətimiz və ümumilikdə tarixi təcrübəmiz bizi birləşdirir və gələcək illərdə əlaqələrimizi daha da gücləndirəcəkdir. Bakının mərkəzində yerləşən Multan karvansarası bu tarixi münasibətlərin gözəl bir nümunəsidir. Bu, o zamanlar qədim İpək yolu boyunca səyahət edən tacirlər tərəfindən yaradılmış bir abidədir. Həmin İpək yolu bir daha TRACECA proqramı çərçivəsində bərpa edilir və bu, ticarət, ümumilikdə mübadilə üçün çox gözəl bir imkandır. Ümid edirik ki, Pakistan İslam Respublikası da yaxın vaxtlarda bu proqramın üzvü olacaqdır.

1991-ci ildə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bizim ölkələrimiz arasında sıx və səmimi münasibətlər qurulmuşdur. Bu da bizim ölkələrimizi bir-birini tam şəkildə dəstəkləməsinə xidmət etmişdir. Xüsusilə də Kəşmir və Dağlıq Qarabağ problemləri kimi mühüm məsələlərdə.

Hazırda Pakistan daxili, regional, eləcə də qlobal məsələlərdə sülhün və sabitliyin tərəfdarıdır. Lakin təəssüflər olsun ki, hazırda dünyada qarışıqlıq və qeyri-sabitlik hökm sürməkdədir. Üçüncü minilliyin başlanğıcında biz dünyada münaqişə ilə sabitliyin toqquşmasının şahidi oluruq. Təəssüflər olsun ki, siyasi məsələlərdə siyasi həll yollarının zəruriliyini hiss edib buna nail olmurlar. Əksinə, buna dini və mədəni aspektlər əlavə edilir. Hazırda Qərblə Şərq arasında, Qərblə İslam dünyası arasında müəyyən bir parçalanma mövcuddur. Hər bir adam da bunu özünün mühüm maraqlarına zidd olan bir amil kimi dəyərləndirir.

Bu gün biz artıq sivilizasiyaların toqquşmaları haqqında danışırıq. Biz hazırda dünyada sülhü, harmoniyanı və sabitliyi təşviq etməliyik və bunun üçün də əlimizdən gələni etməliyik. Pakistanla Azərbaycan maarifçiliyin önündə gedən ölkələrdən olduğu üçün bu sahədə mühüm töhfəsini verməlidirlər.

Bizim qarşımızda bir çox çağırışlar və problemlər durmaqdadır və biz dünyanı münaqişələrdən xilas edərək, onu sülh və sabitliyə gətirməliyik. Əks halda, bu dünya tamamilə xaosa bürünəcəkdir. Hazırda biz ötən əsrin siyasi mirasları ilə mübarizə aparırıq. Eyni zamanda da, XXI əsrin yeni çağırışları ilə üz-üzəyik. Bunlar bir tərəfdən qloballaşma, qarşılıqlı asılılıq, ticarət siyasəti, yoxsulluğun aradan qaldırılması, maarifləndirmə, digər tərəfdən isə beynəlxalq terrorizm, sivlizasiyaların toqquşması və azadlıq uğrunda mübarizədir.

Təəssüflər olsun ki, hazırda İslam dünyası qarşısında böyük problemlər durmaqdadır və sanki, İslam dünyası böyük bir fırtına əsnasındadır. Çox təəssüflü bir haldır ki, hazırda

xarici işğal altında olan ərazilərin çoxu müsəlmanlara məxsusdur. Buraya Fələstin, Kəşmir və Dağlıq Qarabağ məsələləri daxildir və on illərlə davam edən münaqişələrdə heç bir ümid işığı görünmür. Təəssüflər olsun ki, hazırda İslam dünyada düzgün qəbul edilmir və bu da öz növbəsində, müxtəlif problemlər yaradır. Bir çox ölkələr müsəlman dövlətlərini terrorizmin himayədarları kimi qələmə verirlər, müsəlmanlar ayrı-seçkiliyə məruz qalırlar. Bunun müqabilində İslam dünyası özünü qabarıq şəkildə büruzə verir və bunlar da ekstremizmlə nəticələnir. Bu gün İslam dünyasının qurbanları məhz İslam ölkələrində yaşayan qardaş vətəndaşlardır və sırf şəkildə azadlıq uğrunda mübarizə kimi başlayan hərəkatlar daha sonra terrorçuların əlinə keçir, onlar da bundan öz çirkin əməllərinə nail olmaq üçün istifadə edirlər. Ən təəssüfedici hal odur ki, bu gün terrorizm müsəlman ölkələrinin nüfuzuna xələl gətirir. Nəticədə isə hər il yüzlərlə, bəlkə də, minlərlə müsəlman terrorçuların düşündüyü cihadın qurbanı olur. Bunun nəticəsində də müsəlman ölkələrinin iqtisadiyyatına əvəzolunmaz ziyan dəyir. Hazırda terrorçuların tətbiq etdiyi praktikalar yəni, terrorçuluq, maşın bombaları, başların kəsilməsi və sair kimi çirkin əməllər heç də İslam tərəfindən qəbul edilmir və bunlar heç bir şəkildə cihad adlandırıla bilməz.

Çünki onlar dinimizin gözəl adına xələl gətirirlər. Bu gün onlar bizim cəmiyyətlərimizi girov saxlayırlar. Onlar bunu dərk etməlidirlər ki, bununla İslam dünyasının problemlərini heç cür həll edə bilməzlər. Əksinə, problemləri daha da çətinləşdirirlər. Bu fürsətdən istifadə edərək, mən onlara müraciət edir, onları düzgün yola dəvət edirəm, İslam ümmətinin qarşısında duran problemləri düzgün şəkildə həll etməyə çağırıram. Hesab edirəm ki, biz əl-ələ verib qarşıda duran bütün məsələlərimizi həll etməliyik, yolunu azmış bütün insanları yenidən doğru yola dəvət etməliyik.

Hörmətli millət vəkilləri!

Aydın məsələdir ki, bu gün dünya ekstremizm və terrorçuluqla mübarizə aparmaqla yanaşı, müsəlman dünyasının adını bərpa etməlidir və mənim fikrimcə, burada cavab iki məsələdən ibarət olacaqdır. Bu, mənim təklif etdiyim liberal maarifçilik strategiyasıdır ki, bunun da iki hissəsi vardır. Strategiyanın bir hissəsi müsəlman ölkələri dünyası tərəfindən həyata keçirilməlidir. Bu, o ölkələrdir ki, militarizmi və ektremizmi özlərinə məqsəd seçiblər. Bunun əvəzində onlar ictimai və iqtisadi inkişafa nail olmalıdırlar, öz xalqlarını firavanlığa gətirib çıxarmalıdırlar. Strategiyanın ikinci hissəsi isə Qərb dünyasına, xüsusilə də ABŞ-a ünvanlanıb. Onlar müsəlmanların qarışdığı bütün siyasi münaqişələri ədalətli şəkildə həll etsinlər və müsəlman dünyasının iqtisadi, ictimai inkişafına yardım göstərsinlər.

Zənnimcə, bu, yeganə mümkün olan bir strategiyadır ki, burada heç bir uduzan tərəf olmayacaqdır. Biz dünyanı, xüsusilə də müsəlman dünyasını ekstremizmdən və terrorçuluqdan azad edirik, bütün siyasi münaqişələri həll edirik. Bunun müqabilində onilliklərlə davam edəcək tərəqqi və firavanlığa nail olacağıq.

Srategiyamızın müsəlmanlara aid olan hissəsini icra etmək üçün biz İslam Konfransı Təşkilatı çərçivəsində müəyyən çatışmazlıqları görürük. Hazırda təşkilatın strukturu onun heç də XXI əsrin çağırışlarına cavab vermək iqtidarında olmadığını göstərir. Bu da təklif etdiyim liberal maarifçilik strategiyasının mühüm bir hissəsidir. İKT çərçivəsində islahatlar aparılmalı və o dünyada özünəməxsus bir yer tutmalıdır. Bunun üçün də ictimai və iqtisadi inkişaf əldə edilməlidir ki, İslam ümməti dünyada öz həqiqi yerini tuta bilsin. Mən çox məmnunam ki, İKT-nin Kuala-Lumpurda keçirilən zirvə toplantısında təklif etdiyim liberal maarifçilik ideyası dəstəklənmişdir və orada islahatların zəruriliyi vurğulanmışdır. Biz hesab edirik ki, mötəbər insanlardan ibarət bir qrup yaradılmalıdır ki, onlar İKT-də bütün zəruri islahatlara dair öz tövsiyələrini versinlər.

Hörmətli deputatlar!

İslam ümmətinin çox böyük təbii ehtiyatları vardır, böyük var-dövlətə malik olan bir dünyadır. Hazırda bizim iqtisadi və ictimai inkişafımız üçün bütün insani potensiallar mövcuddur. Bizim çatışmazlığımız təkcə ondadır ki, təşkilatçılığımız yoxdur və kollektiv şəkildə səylərimizi bir araya gətirib, İslam ümmətinin inkişafına xidmət edəcək iradə nümayiş etdirə bilmirik. Bu gün bütün İslam ölkələrinin rəhbərliyi gələcək nəsillər naminə öz səylərini birləşdirməlidirlər.

Burada biz siyasi münaqişələrin həll edilməsindən danışırıq və təəssüflər olsun ki, bu münaqişələrin bir çox cəbhələri açıqdır və bu cəbhələri artıq bağlamaq lazımdır. Fələstin münaqişəsi yalnız ədalətli şəkildə həll edilə bilər ki, bütün müsəlman dünyası bunun şahidi ola bilsin. Pakistanın mövqeyi ondan ibarətdir ki, İsrail dövləti reallıqla barışıb, özünün 1967-ci il sərhədlərinə geri dönməlidir. Bu, eyni zamanda, Fələstin dövlətinin yaradılması ilə nəticələnəcək və bu dövlət İsraillə sülh və harmoniya şəraitində yaşayacaqdır. Bu mümkün olsa, dünya ekstremizmin, terrorizmin kökünü kəsə biləcəkdir. Əks halda, yəni status-kvo davam etsə, heç bir çıxış yolu olmayacaqdır. Kəşmir məsələsi on illərlə davam edən bir məsələdir. Biz çox məmnunuq ki, həmin məsələnin sülhsevər xarakteri Pakistan, Hindistan, eləcə də Kəşmir əhalisi tərəfindən qəbul olunur. Biz inanırıq ki, mövcud olan səmimilik, maksimalist mövqelərdən mümkün qədər çəkinmək, eyni zamanda, ekstremist düşüncələrə qarşı cəsarətli çıxışlar bu məsələnin həllinə gətirib çıxaracaqdır. Bu da, öz növbəsində, narahat olan Cənubi Asiya regionunda əbədi sülhün bərqərar olmasına xidmət edəcəkdir. Məsələnin həlli, eyni zamanda, militarizmin və ekstremizmin köklərinin kəsilməsinə səbəb olacaqdır. Burada iki kanaldan istifadə olunması - birincisi, etimad yaradan tədbirlərin görülməsi, ikincisi isə, dialoq prosesinin həyata keçirilməsi Hindistan və Pakistan tərəfindən qəbul edilir ki, bu da, öz növbəsində, Cənubi Asiya regionunda yoxsulluq içərisində yaşayan insanların sosial-iqtisadi inkişafına xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək, mən Azərbaycan Prezidentinə, Azərbaycan hökumətinə və Azərbaycan xalqına minnətdarlıq edirəm ki, onlar öz kəşmirli qardaşlarını daim qəti şəkildə dəstəkləmişlər. Sizin daimi olan birmənalı dəstəyiniz Pakistan və Kəşmir xalqı üçün hər zaman ilham mənbəyi olmuşdur.

Zati-aliləri, biz hesab edirik ki, Azərbaycan özünün işğal edilmiş bütün ərazilərini, o cümlədən Dağlıq Qarabağ üzərində öz idarəçiliyini, nəzarətini bərpa etməlidir. Sizi əmin etmək istərdim ki, Pakistan hökuməti və xalqı bundan sonra da daim Azərbaycanın yanında olacaq və bu məsələnin ədalətli şəkildə həll edilməsi üçün bütün səylərini əsirgəməyəcəkdir.

Bunu da türkcə söyləmək istəyirəm. Dağlıq Qarabağ məsələsində Pakistan hökuməti və hər bir pakistanlı hər zaman Azərbaycanla olacaqdır.

Xanımlar və cənablar!

Burada mən Əfqanıstan məsələsinə toxunmaq istərdim. Qeyd etmək istərdim ki, Əfqanıstanın suverenliyi və ərazi bütövlüyünə hörmət hazırda ölkəmizin xarici siyasətinin mühüm istiqamətlərindəndir. Biz tezliklə Əfqanıstanın sülh və sabitlik şəraitində yaşamasının tərəfdarıyıq. Bu gün Pakistan bu prosesin tərəfdarıdır və eyni zamanda, milli barışıq və ölkənin bərpa edilməsi istiqamətində Prezident Kərzainin tətbiq etdiyi səyləri tamamilə dəstəkləyir. Loyya cirgə tərəfindən hazırlanmış Konstitusiyanın meydana gəlməsini də biz dəstəkləyirik, çünki bu Konstitusiya nəticəsində ölkədə demokratiya və davamlı inkişaf bərqərar olacaqdır. Eyni zamanda, ümidvarıq ki, bu Konstitusiyanın həyata keçirilməsi nəticəsində tezliklə bütün xarici qüvvələr Əfqanıstan ərazisini tərk edəcəklər. Pakistan Əfqanıstanın inkişafında çox maraqlıdır və hazırda biz bu ölkəyə bərpa işləri üçün yüz milyon ABŞ dolları həcmində maliyyə vəsaiti ayırmışıq. Pakistan, eyni zamanda, minlərlə əfqan qaçqınını öz ərazisində yerləşdirir və ümidvardır ki, tezliklə bu qaçqınlar öz vətənlərinə dönəcəklər.

Xanımlar və cənablar!

Mən hesab edirəm ki, İraqın gələcəyi məsələsinə beynəlxalq yanaşma mövcud olmalıdır və bunun nəticəsində İraq özünün siyasi müstəqilliyini və suverenliyini bərpa etməlidir. Eyni zamanda, İraq xalqı özünün gələcəyini müəyyən etmək iqtidarında olmalıdır və özünün təbii ehtiyatlarını istədiyi şəkildə sərf etmək hüququna malik olmalıdır.

Ölkədə siyasi sabitliyin təmin edilməsi prosesində İraq xalqı yaxından iştirak etməli, bu proses BMT çərçivəsində həyata keçirilməlidir. Biz İraqda prezident Qazi əl-Yavər və Baş nazir Əyyad Əllavinin rəhbərliyi altında yaradılmış keçid hökumətini tamamilə dəstəkləyirik. Biz ümidvarıq ki, İraq öz siyasi keçidini, demokratik bir cəmiyyətə keçidini sülh şəraitində təmin edəcəkdir. Çox şadıq ki, bu sahədə Azərbaycan və Pakistan eyni mövqedən çıxış edir.

Xanımlar və cənablar!

Mən hesab edirəm ki, Azərbaycan və Pakistan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də səylərini intensivləşdirməli, gücləndirməlidirlər. EKO çox mühüm alətdir, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə xidmət edən bir qurumdur. Hazırda Azərbaycan və Pakistan özlərinin coğrafi-strateji mövqeyinə görə çox mühüm bir mərkəz rolu oynaya bilər və dəniz çıxışı olmayan Mərkəzi Asiya ölkələri də bizim ərazilərdən istifadə edərək, Avropaya və Uzaq Şərqə də çıxa bilərlər. Hesab edirəm ki, çox sürətli iqtisadi və demokratik inkişafa malik olan Pakistan və Azərbaycan bu baxımdan öz səylərini əsirgəməməlidirlər.

Təəssüflər olsun ki, öz potensialına baxmayaraq, hazırda EKO qarşısında duran və regionun iqtisadi inteqrasiyasına nail olmaq barədə nizamnaməsində əks etdirilən məqsədinə heç də çatmayıbdır. Bu da o deməkdir ki, təşkilat terrorizm və narkotik maddələrin qaçaqmalçılığı kimi problemlərlə heç də səmərəli şəkildə mübarizə apara bilmir. Bu gün EKO çərçivəsində də islahatlar aparılmalıdır ki, o regionda iqtisadi inteqrasiyanın təmin olunmasında öz mühüm rolunu yerinə yetirsin. Biz Azərbaycanla bir yerdə çalışacağıq ki, bu sahədə qurumun səmərəliliyini artıraq.

Xanımlar və cənablar!

İcazənizlə, mən qısa şəkildə münasibətlərimizin iqtisadi aspektinə də toxunmaq istərdim. Təəssüflər olsun ki, Pakistanla Azərbaycan arasında olan iqtisadi münasibətlər heç də bizim yüksək səviyyədə olan siyasi münasibətlərimizə uyğun deyildir. Mən hesab edirəm ki, bu sahədə ölkələrimiz arasında ikitərəfli sıx iqtisadi əməkdaşlıq həyata keçirilməlidir. Xatırlatmaq istərdim ki, iyulun 8-də mən Azərbaycan Prezidenti cənab İlham Əliyevlə çox səmərəli görüş keçirmişəm. Biz belə bir razılığa gəldik ki, diqqətimizi qarşılıqlı maraq doğuran sahələrə yönəldək və daha sonra da iqtisadi və ticarət sahəsində əməkdaşlığımızı genişləndirək.

Çox xoş bir haldır ki, mənim səfərim ərəfəsində Bakıda Pakistan-Azərbaycan birgə iqtisadi komissiyasının nazirlər səviyyəsində toplantısı keçirilmişdir. Bu da çox mühümdür ki, ölkələrimiz arasında mövcud olan ikitərəfli sazişlər və qərarlar birgə iqtisadi komissiya çərçivəsində həyata keçirilsin, faydalı iqtisadi əlaqələrin gücləndirilməsinə xidmət etsin.

Mən çıxışımı bu sözlərlə bitirmək istərdim ki, biz əminik, ümidvarıq ki, dost Azərbaycan xalqı gələcəkdə də inkişaf edəcək və biz onun tərəqqisi və firavanlığı naminə daim dualar edəcəyik. Bir də onu vurğulamaq istərdim ki, biz mövcud olan dostluq və əməkdaşlıq əlaqələrimizi yeni səviyyəyə və gələcəkdə qardaşlıq səviyyəsinə çatdırmaq istəyirik.

Yaşasın Pakistan-Azərbaycan dostluğu, qardaşlığı!

AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİ FİLARMONİYADA KONSERTDƏ OLMUŞLAR

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf və Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında incəsənət ustalarının konsertində olmuşlar.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Pakistan Prezidenti Pərviz Müşərrəfi və xanımı Sehba Müşərrəfi hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının dövlət himnləri səsləndi.

Respublikamızın incəsənət ustalarının ifasında rəngarəng konsert proqramı böyük maraqla qarşılandı.

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf iyulun 10-da Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HESABLAMA PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Prezident sarayında Rusiya Federasiyası Hesablama Palatasının sədri Sergey Stepaşini qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq, son illər Azərbaycanla Rusiya Federasiyası arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında yüksək səviyyədə siyasi dialoqun mövcud olduğunu söyləyərək, Azərbaycanın və Rusiyanın dövlət, hökumət orqanları arasında da əlaqələrin bu səviyyədə inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Bu baxımdan Azərbaycan Prezidenti ölkələrimizin hesablama palataları, habelə hüquq mühafizə orqanları arasında əməkdaşlığın uğurla həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Bildirildi ki, digər sahələrdə, o cümlədən ticarət, mədəniyyət sahəsində də əlaqələrin durmadan inkişafı Azərbaycan və Rusiya arasında qarşılıqlı anlaşmanın yüksək səviyyədə olmasını göstərir.

Prezident İlham Əliyev bütün bu proseslərin ölkələrimiz arasında tərəfdaşlıq münasibətləri prinsiplərinə cavab verdiyini vurğuladı. Əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin rolunu qeyd edən Azərbaycan Prezidenti Rusiya Federasiyası Hesablama Palatası rəhbərinin də ölkəmizə növbəti səfərinin bu işə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Sergey Stepaşin Rusiya Prezidentinin səmimi salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. Əvvəlki səfərləri zamanı Azərbaycanın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini böyük məmnunluqla xatırlayan S.Stepaşin Prezident İlham Əliyevə dövlət başçısı vəzifəsində fəaliyyəti ilə bağlı uğurlar arzuladı.

Daha sonra qonaq ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq, Azərbaycan və Rusiyanın müxtəlif strukturları, o cümlədən hesablama palataları arasında çox uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. O qeyd etdi ki, Azərbaycan və Rusiya hesablama palatalarının gələn il Moskvada keçirilməsi planlaşdırılan birgə kollegiya iclası bu əlaqələrin daha da inkişafına xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Prezident sarayında MDB-nin icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı qonağı səmimiyyətlə salamlayaraq, onu məsul vəzifəyə - MDB-nin icraçı katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. O, Vladimir Ruşaylonun namizədliyinin dövlət başçıları tərəfindən yekdilliklə dəstəkləndiyini vurğulayaraq, onun dövlət fəaliyyəti və ictimai-siyasi fəaliyyət sahəsində böyük təcrübəsi olduğunu bildirdi. Prezident İlham Əliyev Vladimir Ruşaylonun ölkəmizə keçmiş səfərlərini, Rusiya Federasiyasında yüksək dövlət vəzifələrində çalışdığını xatırladaraq, Azərbaycan-Rusiya əməkdaşlığının inkişafına töhfəsindən söz açdı. Azərbaycan Prezidenti

ölkəmizin xarici siyasətinin mühüm cəhətlərindən biri olan MDB çərçivəsində əməkdaşlıqdan danışaraq, bu münasibətlərin əsasının qoyulması və inkişaf etdirilməsi prosesində ümummilli liderimiz Heydər Əliyevin misilsiz rolunu nəzərə çarpdırdı. Dövlətimizin başçısı yüksək səviyyəli görüşlərin əhəmiyyətini qeyd edərək dedi ki, Moskvada konstruktiv ruhda keçirilən sonuncu qeyri-rəsmi görüş MDB çərçivəsində qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət etmişdir.

Prezident İlham Əliyev Vladimir Ruşayloya yeni vəzifəsində uğurlar arzuladı.

MDB-nin icraçı katibi Vladimir Ruşaylo onun namizədliyinin dəstəklənməsinə görə Azərbaycan rəhbərinə təşəkkürünü bildirdi və əmin etdi ki, MDB İcraiyyə Komitəsinin və ümumən, Birliyin fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün səylərini əsirgəməyəcəkdir. O, səfərinin məqsədindən danışaraq, Prezident İlham Əliyevə Bakıda keçirdiyi görüşlər barədə məlumat verdi və dedi ki, bu görüşlərdə Azərbaycanın MDB çərçivəsində əməkdaşlığının perspektivləri müzakirə olunmuşdur. MDB-nin icraçı katibi bildirdi ki, iqtisadi inteqrasiya əməkdaşlığın çox mühüm istiqaməti olaraq qalır və bu inteqrasiyanın inkişaf etdirilməsi üçün var qüvvəsi ilə səy göstərəcəkdir. Vladimir Ruşaylo humanitar sahəni, beynəlxalq terrorizmlə, narkotiklərin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıqla mübarizəni əməkdaşlığın əsas istiqamətləri adlandırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI AVROPA REGİONAL BÜROSUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Prezident sarayında Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun direktoru Mark Danzonu və həmin büronun ölkələrə yardım departamentinin direktoru Natella Menabdeni qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Mark Danzonu Fransanın milli bayramı münasibətilə təbrik etdi və 14 iyulun - 35 il əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması gününün ölkəmiz üçün də əlamətdar tarix olduğunu söylədi.

Azərbaycanda son illər sürətli iqtisadi inkişaf prosesinin getdiyini bildirən dövlətimizin başçısı hazırda sosial problemlərin həllinin ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu qeyd etdi. Dinamik şəkildə inkişaf edən iqtisadiyyat xalqımızın həyat səviyyəsinin yüksəlməsi üçün geniş imkanlar yaradır. Bu sahədə uğurlu addımlar atıldığını söyləyən Prezident İlham Əliyev ölkəmizə göstərdikləri yardımlara görə Mark Danzona və onun təmsil etdiyi təşkilata minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı daha sonra Ermənistanın işğalı nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü və onların böyük problemlərlə üzləşdiyini xatırlatdı, eyni zamanda, bu insanların həyat səviyyəsinin yaxşılaşdırılması, təhsil və səhiyyə problemlərinin həlli üçün Azərbaycan hökuməti tərəfindən böyük işlər görüldüyünü qeyd etdi. Bu baxımdan, dövlətimizin başçısı beynəlxalq təşkilatların Azərbaycandakı qaçqın və məcburi köçkünlərə bundan sonra da öz yardımlarını əsirgəməyəcəklərinə ümidvar olduğunu söylədi.

Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əlaqələrə toxunan Prezident İlham Əliyev bu əlaqələrin konstruktiv şəkildə inkişaf etdiyini və ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını dedi. O, ümidvar olduğunu bildirdi ki, Ümumdünya Səhiyyə Təşkilatı, o cümlədən onun Avropa Regional Bürosu ilə əlaqələr gələcəkdə də uğurla davam etdiriləcəkdir.

Səmimi qəbula və ölkəsinin milli bayramı münasibətilə təbriklərə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Mark Danzon dövlətimizin başçısını Prezident seçilməsi, habelə xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi günü münasibətilə təbriklərini çatdırdı. Həmin gün səhər Heydər Əliyevin məzarını ziyarət etdiyini və ümummilli liderimizə öz dərin ehtiramını bildirdiyini qeyd edən Mark Danzon hələ də bir neçə ilə əvvəl Bakıda Heydər Əliyevlə keçirdiyi görüşün təəssüratı altında olduğunu söylədi. O, xüsusilə vurğuladı ki, hələ Sovetlər Birliyi dövründə ölkənin ən yüksək vəzifələrdən birində çalışdığı vaxt Heydər Əliyevin fəaliyyəti Fransada çox diqqətlə izlənilirdi.

Hazırda iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrdən biri kimi Azərbaycanda sosial məsələlərin həllinin gündəlikdə durduğunu vurğulayan qonaq ümidvar olduğunu bildirdi ki, təmsil etdiyi təşkilatla ölkəmiz arasında əlaqələr bundan sonra da öz müsbət nəticələrini verməkdə davam edəcəkdir. O, ümidvar olduğunu söylədi ki, yaxın gələcəkdə Azərbaycan özü digər ölkələrə yardım etmək iqtidarında olan donor ölkələrdən birinə çevriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN KEÇMİŞ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Prezident sarayında Rusiya Federasiyası hökumətinin keçmiş sədri Viktor Çernomırdini qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı səmimiyyətlə salamlayaraq, Viktor Çernomırdinin Rusiya Federasiyasının qaz sənayesinə başçılıq etdiyi və sonralar hökumətin sədri olduğu dövrdə onunla Azərbaycan arasında sıx əlaqələr yarandığını vurğuladı. Prezident İlham Əliyev xatırlatdı ki, həmin illərdə Rusiya ilə Azərbaycan arasında neft və qaz sənayesi, enerji daşıyıcılarının nəqli və ümumən, ikitərəfli iqtisadi əlaqələrin möhkəmləndirilməsi sahəsində əməkdaşlığın inkişafı ilə bağlı mühüm qərarlar qəbul edilmişdir.

Azərbaycan rəhbəri vaxtilə qonağı və ümummilli liderimiz Heydər Əliyevi bağlayan dostluq tellərindən danışaraq, dərin məmnunluqla qeyd etdi ki, bu əlaqələr həmişə dərin qarşılıqlı hörmət hisslərinə əsaslanmışdır.

Prezident İlham Əliyev Rusiya-Azərbaycan münasibətlərindən söz açaraq, bu münasibətlərin möhkəm təmələ əsaslanan müsbət dinamikasını nəzərə çarpdırdı. Azərbaycan dövləti başçısının cari ilin əvvəlində Rusiya Federasiyasına rəsmi səfəri, orada keçirilmiş səmərəli danışıqlar və görüşlər bunun yaxşı təsdiqi olmuşdur. Bu yaxınlarda Bakıda uğurla keçən Rusiya mədəniyyəti günləri, Rusiya-Azərbaycan biznes forumu, Rusiyada Azərbaycan və Azərbaycanda Rusiya illərinin keçirilməsinin planlaşdırılması, hökumətlərarası komissiyanın səmərəli işi, rəsmi nümayəndə heyətlərinin tez-tez qarşılıqlı səfərlər etməsi ölkələrimiz arasında qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğuna

sübutdur. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu meyllər bundan sonra da strateji tərəfdaşlıq ruhunda davam etdiriləcəkdir.

Azərbaycan rəhbəri Ukraynaya dövlət səfəri zamanı Viktor Çernomırdinlə sonuncu görüşünü xatırlayaraq, ümummilli lider Heydər Əliyevin bu ölkədə abidəsinin açılış mərasimində iştirakına görə ona təşəkkür etdi və bunu həm Viktor Çernomırdin tərəfindən, həm də, ümumən, Rusiya tərəfindən onun xatirəsinə dərin ehtiram əlaməti kimi qiymətləndirdi.

Rusiya hökumətinin keçmiş sədri səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edərək, Rusiya Prezidenti Vladimir Putinin salamını ona yetirdi. Viktor Çernomırdin Azərbaycanla çoxillik əlaqələrindən danışaraq, ümummilli lider Heydər Əliyevin vəfatından dərindən təəssüfləndiyini bildirdi. Qonaq ona həmişə unudulmaz təsir bağışlayan bu görkəmli siyasi xadimlə görüşlərini böyük səmimiyyətlə xatırladı. Viktor Çernomırdin dərin məmnunluqla vurğuladı ki, hələ ötən əsrin 80-ci illərində öz elmi fəaliyyəti ilə əlaqədar Azərbaycanda olarkən, habelə müxtəlif məsul dövlət vəzifələrində çalışarkən Azərbaycanın ümummilli lideri Heydər Əliyevin həssas qayğısı və diqqətini duyurdu.

Qonaq Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişaf etdiriləcəyinə və möhkəmləndiriləcəyinə ümid bəslədiyini söylədi.

Sonra Viktor Çernomırdinin adından dövlətimizin başçısına Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin təsvir edildiyi rəsm əsəri təqdim olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Prezident sarayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından, Rusiyadan və Fransadan olan həmsədrləri Stiven Mənni, Yuri Merzlyakovu və Anri Jakoleni qəbul etmişdir.

Qonaqları salamlayan Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun üzvləri ilə Bakıda və digər yerlərdə keçirilmiş görüşləri xatırlatdı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması sahəsində Minsk qrupunun fəaliyyətinin əhəmiyyətli olduğunu söyləyərək, eyni zamanda, problemin həlli ilə məşğul olan bu qurumun fəaliyyətinin hələ də heç bir nəticə vermədiyini təəssüflə qeyd etdi. Dövlətimizin başçısı tezliklə bu münaqişənin öz həllini tapacağına ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin ATƏT-in Minsk qrupunun həmsədrlərinə yaxşı məlum olduğunu, bu mövqenin prezidentlər və xarici işlər nazirləri arasında keçirilmiş görüşlərdə dəfələrlə bəyan edildiyini deyərək, bir daha vurğuladı ki, Azərbaycanın mövqeyi münaqişənin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmasından ibarətdir. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi təcavüzkar separatizmlə müşayiət olunan bütün digər münaqişələrə də bu cür vahid yanaşmanın vacibliyini vurğulayaraq, yalnız bu halda münaqişələrin öz həllini tapa biləcəyini bildirdi. Azərbaycan Prezidenti işğal olunmuş tor-

paqların qeyd-şərtsiz azad olunması ilə əlaqədar BMT-nin məlum dörd qətnaməsinin hələ də Ermənistan tərəfindən yerinə yetirilmədiyini bir daha diqqətə çatdırdı.

ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolen öz həmkarları adından Bakıya növbəti səfərlərindən məmnun olduqlarını söyləyərək, Ermənistanda və Azərbaycanda keçirdikləri görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İTAR-TASS AGENTLİYİNİN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Prezident sarayında Rusiyanın İTAR-TASS informasiya agentliyinin baş direktoru Vitali İqnatenkonu qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı qonağı salamlayaraq, İTAR-TASS agentliyinin rəhbərliyi ilə Moskvada, habelə Ümumdünya Rus Mətbuatı Konqresi zamanı Bakıda keçirilən görüşləri səmimiyyətlə xatırladı. Prezident İlham Əliyev Azərbaycan-Rusiya əlaqələrindən söz açaraq vurğuladı ki, son illər ölkələrimizin müxtəlif sahələrdə - siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətləri uğurla inkişaf edir. Bu yaxınlarda müvəffəqiyyətlə keçən Rusiya-Azərbaycan biznes forumu, Azərbaycanda Rusiya mədəniyyəti günləri, təkcə humanitar sahəni deyil, digər sahələri də əhatə edəcək Azərbaycanda Rusiya ili və Rusiyada Azərbaycan ili keçirilməsinin planlaşdırılması buna parlaq sübutdur. Dövlətimizin başçısı cari ilin əvvəlində Rusiya Federasiyasına rəsmi səfərinin yekunlarından məmnun qaldığını söyləyərək, əmin olduğunu bildirdi ki, bu münasibətlər gələcəkdə də ardıcıl surətdə inkişaf edəcəkdir.

Prezident İlham Əliyev İTAR-TASS agentliyi ilə Azərbaycanın informasiya agentlikləri arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, onun daha da genişlənəcəyinə ümid bəslədiyini bildirdi.

İTAR-TASS agentliyinin baş direktoru Vitali İqnatenko səmimi qəbula görə Azərbaycan dövlətinin başçısına təşəkkür edərək, Rusiya informasiya agentliyi rəhbərinin indiki səfərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moskvaya rəsmi səfəri zamanı onunla Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında əldə olunmuş razılaşmaların gerçəkləşdirilməsi kimi qiymətləndirdi. İTAR-TASS agentliyi baş direktorunun sözlərinə görə, bu müddət ərzində informasiya əməkdaşlığı sahəsində böyük uğurlar əldə edilmişdir. Vitali İqnatenko əlamətdar bir hadisənin - ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsinin respublikada geniş qeyd edildiyi günlərdə Azərbaycana səfərini rəmzi səfər adlandırdı.

Qonaq səfərinin məqsədindən danışaraq dedi ki, informasiya mübadiləsi sahəsində gələcək qarşılıqlı fəaliyyətin konkret planı hazırlanmışdır. O, əmin olduğunu bildirdi ki, dövlətlərimizin başçılarının ciddi diqqəti altında olan Azərbaycan-Rusiya birgə informasiya məkanı səmərəli surətdə inkişaf etdiriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN QADIN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Prezident sarayında ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin qadın deputatlarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan dövlətinin başçısı Türkiyəyə son səfəri zamanı Böyük Millət Məclisində etdiyi çıxışı və keçirdiyi görüşləri məmnunluqla xatırladı. Prezident İlham Əliyev belə böyük tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərinin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da inkişaf etməsi baxımından əhəmiyyətini vurğuladı.

Türkiyə ilə Azərbaycan arasında münasibətlərin siyasi sahədə yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev əlaqələrin iqtisadi, mədəni və bütün digər sahələrdə də sürətlə inkişaf etdiyini söylədi. Dövlətimizin başçısı Azərbaycanla Türkiyənin ali qanunvericilik orqanları arasında əməkdaşlığın durmadan inkişaf etdiyini qeyd edərək, bu əlaqələrin beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirildiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv olduqdan sonra iki ölkənin bu təşkilatdakı parlament nümayəndə heyətinin üzvləri ilk günlərdən müzakirə olunan məsələlər üzrə eyni mövqedən çıxış etmişlər.

Sonra Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında əlaqələrin, o cümlədən parlamentlərarası münasibətlərin bundan sonra da durmadan inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Nümayəndə heyətinin rəhbəri, Türkiyə parlamentində Ədalət və İnkişaf Partiyasının qrup başqan vəkili Haluk İpək səmimi qəbula görə Prezident İlham Əliyevə nümayəndə heyəti adından dərin minnətdarlığını bildirərək, qardaş ölkənin parlament rəhbərlərinin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bu səfərə böyük əhəmiyyət verir.

Nümayəndə heyətinə daxil olan millət vəkillərinin, eyni zamanda, Azərbaycan parlamenti ilə dostluq qrupunun üzvü olduqlarını diqqətə çatdıran Haluk İpək Türkiyə parlamentindəki bu cür qruplar arasında onun ən çoxsaylı olduğunu bildirdi. Qonaq qeyd etdi ki, Türkiyə parlamentinin qadın deputatları Azərbaycan qadınlarının siyasətdə, xüsusilə ali qanunverici orqanda fəal iştirakı haqqında geniş məlumata malikdirlər. O bildirdi ki, burada iştirak edən hər bir türkiyəli millət vəkili, eyni zamanda, Azərbaycanın elçisi kimi beynəlxalq təşkilatlarda ölkəmizin ədalətli mövqeyini bundan sonra da müdafiə edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Prezident sarayında Tokio Dünya Ticarət Mərkəzinin sədri, Yaponiyanın Ticarət və Sərmayə Sığortalanması Təşkilatının rəhbəri Toru Toyoşima başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları salamlayaraq, son illər bir çox istiqamətlərdə, o cümlədən siyasi sahədə uğurla inkişaf edən Azərbaycan-Yaponiya münasibətlərinin yüksək səviyyədə olduğunu söylədi. Prezident İlham Əliyev iqtisadi sahədə əldə olunmuş səmərəli nəticələri xüsusi qeyd etdi. Məsələn, Yaponiya hökumətinin yardımı ilə Azərbaycanda bir sıra iri layihələr həyata keçirilmişdir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycanda ən böyük həcmdə kredit qoyuluşları həyata keçirən ölkə kimi Yaponiya xeyli təmənnasız yardım da göstərir. Prezident İlham Əliyev neft-qaz sahəsində Azərbaycan-Yaponiya əməkdaşlığının yüksək səviyyədə olduğunu vurğulayaraq, Yaponiya şirkətlərinin Azərbaycanda fəaliyyətindən razı qaldığını bildirdi. O, Yaponiya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf edəcəyinə və genişlənəcəyinə əmin olduğunu söylədi. Azərbaycan Prezidenti Yaponiya nümayəndə heyətinin indiki səfərinin əhəmiyyətindən danışaraq, bu səfərin ikitərəfli əlaqələrin genişlənməsində rolunu qeyd etdi.

Cənab Toru Toyoşima səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi ki, ölkələrimiz arasında əlaqələrin əsası məhz ümummilli lider Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfəri ilə qoyulmuşdur. O, Yaponiya ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə ümid bəslədiyini bildirdi. Qonaq nümayəndə heyətinin səfərinin məqsədindən danışaraq dedi ki, Azərbaycanda gələcək ikitərəfli əməkdaşlığın istiqamət və perspektivlərinin öyrənilməsi üçün aparılmış araşdırmaların nəticələri Yaponiya hökumətinə, ölkənin işgüzar qurumlarına təqdim olunacaqdır. Toru Toyoşimanın sözlərinə görə, Yaponiya Azərbaycanla əlaqələrin genişlənməsində maraqlıdır. Nümayəndə heyətinin başçısı Prezident İlham Əliyevə Bakıda keçirilmiş görüşlər, hökumətdə aparılmış danışıqlar, iki ölkə arasında münasibətlərin daha da genişləndirilməsi məsələləri barədə edilmiş fikir mübadiləsi haqqında məlumat verdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-a İŞGÜZAR SƏFƏRİ

İyulun 20-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dövlət katibi Kolin Pauell, energetika naziri Spenser Abraham və Konqres-Milli Məclis işçi qrupunun həmsədrləri, konqresmenlər Kurt Ueldon və Solomon Ortislə, ABŞ-ın yəhudi icmasının nümayəndələri ilə görüşmüşdür.

Energetika naziri Spenser Abrahamla apardığı danışıqlarda E.Məmmədyarov ölkəmizdə neft və qaz sahəsində əldə olunan nailiyyətlər barədə məlumat vermişdir. Tərəflər Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin bölgə üçün böyük əhəmiyyətini vurğulamışlar. Nazir Məmmədyarov demişdir ki, hazırda Azərbaycan tərəfi Yunanıstanla qaz nəqli ilə bağlı müzakirələr aparır. Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün yaxşı imkanlar yaranıbdır. O, bu məsələdə ABŞ dəstəyinin vacibliyini bildirmişdir.

Nazirlər energetika sektorunda ikitərəfli əməkdaşlığı əhatə edən "ABŞ-Azərbaycan enerji dialoqu"na dair sənəd layihəsinin imzalanması vacibliyinə toxunmuşlar. Qeyd olunmuşdur ki, dünyada bərpa olunan enerji mənbələrinə maraq artır. S.Abraham ümid etdiyini bildirmişdir ki, ölkələrimiz arasında bu sahədə faydalı əməkdaşlıq yaranacaq-

dır. Söhbət zamanı, ABŞ-dakı tanınmış elmi tədqiqat mərkəzləri ilə əlaqələrin qurulması, Azərbaycan alimlərinin buradakı laboratoriyalarda amerikalı həmkarları ilə birgə tədqiqatlar aparılmasına dair təkliflər səslənmişdir.

Həmin gün E.Məmmədyarov Vaşinqtonun Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində "Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Nazir ölkəmizin ABŞ, İran, Rusiya, Türkiyə və NATO ilə əlaqələri, Xəzər hövzəsində həyata keçirilən layihələr, neft-qaz yataqlarımızın təhlükəsizliyinin təmin edilməsi, Ermənistan-Azərbaycan münaqişəsinə dair ətraflı məlumat vermişdir. Ölkədə demokratik və iqtisadi islahatların sürətinin səngimədiyini vurğulayan nazir demişdir ki, neft gəlirlərini Azərbaycanın qeyri-neft sektoruna yatırdaraq, möhkəm və rifahlı dövlət qurmaq Azərbaycan hökumətinin qarşısında duran ən vacib məsələlərdən biridir. Şəffaf şəkildə fəaliyyət göstərən Dövlət Neft Fondunda toplanan vəsait kənd təssərrüfatı, turizm, nəqliyyat, kommunikasiya və digər sahələrin inkişafına sərf ediləcəkdir.

Cənubi Qafqazda regional inkişafı ləngidən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzindəki görüşün ən başlıca mövzusuna çevrilmişdir. Tədbir iştirakçılarının çoxsaylı suallarına cavab verən E.Məmmədyarov bildirmişdir ki, ərazimizin 20 faizinin işğalına və 1 milyon nəfər qaçqın və məcburi köçkünün mövcudluğuna baxmayaraq, Azərbaycanın niyyəti hələ də münaqişəni beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həll etməkdir. O, bu ilin əvvəlindən Ermənistan və Azərbaycan prezidentlərinin iki dəfə, xarici işlər nazirlərinin isə üç dəfə görüşdüklərini xatırlatmışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin bölgəyə səfəri zamanı aparılan müzakirələrin təfərrüatına varmayan nazir demişdir ki, məsələyə nikbinliklə yanaşır. Onun sözlərinə görə, buna əsas beynəlxalq ictimayyətin Azərbaycanın mövqeyinə verdiyi dəstəkdir. O, Avropa Şurasının bu günlərdə qəbul etdiyi qətnaməsində Azərbaycanın ərazi bütövlüyünün bir daha təsdiq olunduğunu vurğulamışdır.

Görüşdə haqqında danışılan daha bir mövzu Konqres komitəsinin Azərbaycan və Ermənistana eyni miqdarda hərbi yardımın ayrılması barədə qərarı idi. E.Məmmədyarov Azərbaycanın Pentaqonla əlaqələrini yüksək qiymətləndirmiş, hərbi sahədə bir sıra uğurlu proqramların həyata keçirildiyini xatırlatmışdır. Eyni zamanda vurğulamışdır ki, anti terror koalisiyası çərçivəsində sülhməramlı qüvvələri qaynar nöqtələrdə olan Azərbaycana və koalisiyaya, sadəcə, dəstək ifadə edən Ermənistana eyni həcmdə yardımın göstərilməsi təəccüb doğurur. Nazir bildirmişdir ki, ABŞ bu sahədə Azərbaycanla əməkdaşlığı davam etdirmək istəyirsə, hərbi sahədə ayrılan yardım məsələsinə müvafiq şəkildə yanaşmalıdır.

İyulun 20-də Elmar Məmmədyarov Dövlət Departamentində dövlət katibi Kolin Pauellə görüşmüşdür. Danışıqlar zamanı Kolin Pauell anti terror kampaniyasında fəal iştirakına və xüsusilə də, silahlı qüvvələrimizin Kosovo, Əfqanıstan və İraqda sülhməramlı əməliyyatlarda xidmətinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirmişdir. Dövlət katibi demişdir ki, ABŞ Azərbaycanda aparılan demokratik və iqtisadi islahatları yaxından izləyir. Corc Buş hökumətinin hakimiyyətə gəldiyi dövrdən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə diqqət yetirdiyini söyləyən Kolin Pauell bildirmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ bölgədə baş verən prosesləri izləyəcək və danışıqlar prosesində fəal vasitəçi rolunu davam etdirəcəkdir. O qeyd etmişdir ki, cəmiyyətin münaqişənin həllini müzakirə etməyə nə qədər hazır olduğu nəzərə alınmalıdır.

Nazir E.Məmmədyarov bəyan etmişdir ki, "məcburi köçkün düşən insanlar öz yurd-yuvalarına qayıtmayınca, cəmiyyətdə münaqişənin həllinə olan həssaslıq yüksək qalacaq və bu halda, problemin həlli real deyildir". O, Minsk qrupunun həmsədri və fövqəldövlət kimi ABŞ-ı Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli yolla həllinə səylər göstərməyə çağırmışdır.

Söhbət zamanı Xəzər hövzəsində həyata keçirilən enerji layihələri də diqqət mərkəzində olmuşdur. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri də nəzərdən keçirmişlər. Görüşdə dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Elizabet Cons, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənn, Azərbaycanın Vaşinqtondakı səfiri Hafiz Paşayev, BMT-dəki daimi nümayəndəmiz Yaşar Əliyev iştirak etmişlər.

Elmar Məmmədyarov iyulun 22 və 23-də ABŞ paytaxtında bir sıra görüşlər keçirmişdir.

Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Elizabet Cons, siyasi-hərbi məsələlər üzrə müavini Linkoln Blumfild, demokratiya, insan hüquqları və əmək üzrə müavini Maykl Kozak, beynəlxalq dini azadlıqlar üzrə səlahiyyətli səfir Con Hanfordla apardığı müzakirələrdə Elmar Məmmədyarov Azərbaycanda keçirilən siyasi və iqtisadi islahatlar, ölkəmizin NATO-ya və digər Avropa strukturlarına inteqrasiyası, insan hüquqları ilə bağlı vəziyyətin yaxşılaşdırılması istiqamətində hökumətin atdığı addımlar haqda ətraflı məlumat vermişdir. Tərəflər ABŞ-Azərbaycan münasibətlərinin geniş spektri üzrə fikir mübadiləsi aparmışdır.

ATƏT-in Minsk qrupunun amerikalı həmsədri və Xəzər hövzəsi diplomatiyası üzrə müşavir Stiven Mənnlə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və bölgəmizdə həyata keçirilən energetika layihələri müzakirə edilmişdir.

Elmar Məmmədyarov ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Kondoliza Rayslа da görüşmüşdür. Xanım Rays qlobal terrorla mübarizədə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür etmişdir. Ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirən xanım Rays demişdir ki, Birləşmiş Ştatlar Azərbaycanı "yaxın dost və müttəfiq" hesab edir.

Elmar Məmmədyarov Azərbaycanın yerləşdiyi mürəkkəb coğrafi-siyasi bölgədəki vəziyyətdən, ölkəmizdə həyata keçirilən islahatlardan söhbət açmışdır. Nazir bildirmişdir ki, Azərbaycanın ABŞ-la münasibətləri strateji tərəfdaşlıq səviyyəsində qalmaqdadır.

Tərəflər Xəzər hövzəsinin enerji ehtiyatlarının işlənilməsi və nəqli, ABŞ-ın Cənubi Qafqaz bölgəsindəki yardım proqramları, Azərbaycanın qonşu dövlətlərlə münasibətləri barədə də fikir mübadiləsi aparmışlar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi danışıqların mövzularından biri idi. Kondoliza Rays vurğulamışdır ki, ABŞ məsələnin tezliklə sülh yolu ilə həllində maraqlıdır və bu istiqamətdə vasitəçi kimi münaqişənin aradan qaldırılması yollarının tapılması səylərini dəstəkləyəcəkdir.

Azərbaycanın xarici işlər naziri konqresmenlərlə - Cemys Gibbon və Nümayəndələr palatasının xarici əməliyyatlar üzrə yardımçı komitənin sədri Ceyms Kolbe ilə də görüşmüşdür. Amerika qanunvericiləri ilə müzakirələrdə Elmar Məmmədyarov Konqresin 2005-ci maliyyə ilində Azərbaycan və Ermənistana eyni miqdarda hərbi yardım ayrılması barədə qərarının ölkəmizdə birmənalı qarşılanmadığını vurğulamışdır. O demişdir ki, Azərbaycan antiterror müharibəsində ilk gündən ABŞ-a real dəstək nümayiş etdirdiyi halda, Konqres belə qərarları ilə ölkəmizin ictimayyətinə yanlış siyasi mesaj göndərir. Buna cavab olaraq konqresmenlər demişlər ki, Azərbaycanın məsələdəki mövqeyini həmkarları arasında yaymağa çalışacaqlar.

Elmar Məmmədyarov "The Washington Times" qəzetinin redaktorlar şurası ilə də görüşmüş, onların çoxsaylı suallarına cavab vermişdir.

ABŞ-Azərbaycan Ticarət Palatası ölkəmizin xarici işlər nazirinin şərəfinə ziyafət təşkil etmişdir. Ziyafətə Vaşinqtondakı diplomatik korpusun, ABŞ hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri gəlmişdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Prezident sarayında Ümumdünya Gömrük Təşkilatının Baş katibi Mişel Daneni qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Mişel Dane ilə bu yaxınlarda Brüsseldə keçirdiyi görüşü və Azərbaycan Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında sənədin imzalanmasını, habelə bu təşkilatın binasının qarşısında Dədə Qorqudun abidəsinin açılış mərasimini məmnunluqla xatırladı. Gömrük sahəsində Azərbaycana göstərdiyi köməyə və tövsiyələrə görə təşkilatın baş katibinə minnətdarlığını bildirən Prezident İlham Əliyev ölkəmizin Ümumdünya Gömrük Təşkilatının fəal üzvü olduğunu və Azərbaycanda gömrük sahəsində böyük işlər görüldüyünü vurğulayaraq, Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə ölkəmizdə Regional tədris mərkəzinin yaradılmasını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı ölkə iqtisadiyyatının sürətlə inkişaf etdiyini və Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən gömrük sahəsində bölgədə lider mövqeyində olduğunu diqqətə çatdıraraq, ölkəmizin gələcəkdə də bu liderliyi saxlayacağına inamını ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanın Ümumdünya Gömrük Təşkilatı ilə faydalı əməkdaşlığının bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səmimi sözlərə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirən Mişel Dane Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini və onun əziz xatirəsini ehtiramla andığını söylədi. Qonaq dedi: "Mən onunla keçirdiyim görüşləri xatırladım. Heydər Əliyevin dediyi hər bir sözə dərin hörmətlə yanaşmışam. Bu gün də onları yaddan çıxarmıram".

Prezident İlham Əliyevlə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayan Mişel Dane dövlətimizin başçısının orada səfərdə olarkən Avropa Birliyinin və NATO-nun rəhbərləri ilə görüşlərinin də çox uğurlu olduğunu vurğuladı. Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının ən fəal üzvlərindən biri olduğunu söyləyən qonaq Azərbaycanın Gömrük Komitəsi ilə bir sıra birgə uğurlu layihələrin həyata keçirildiyini bildirdi. Səfərinin əsas məqsədinin Brüsseldə imzalanmış protokol çərçivəsində daha konkret nəticələr əldə edilməsi imkanlarının araşdırılmasından ibarət olduğunu qeyd edən qonaq,

həmçinin, 2005-ci ilin mayında İnterpolun və Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə ölkəmizdə mühüm bir tədbirin – təhlükəsizliyi və mühafizəni təmin edən müasir avadanlıqlar sərgisinin keçiriləcəyini bildirərək, Prezident İlham Əliyevin bu tədbirin keçirilməsinə bilavasitə rəhbərlik etməsi barədə İnterpolun baş katibinin xahişini dövlətimizin başçısına çatdırdı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Prezident sarayında Çin Milli Neft Korporasiyasının (CNPC) vitse-prezidenti Cou Dzipinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Çin Milli Neft Korporasiyasının, ümumilikdə Çin şirkətlərinin Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirakından məmnunluğunu bildirdi və korporasiyanın bu sahəyə böyük həcmdə sərmayə qoymasını müsbət hal kimi dəyərləndirdi. Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən 1994-cü ildə əsası qoyulmuş neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın Xəzər dənizindəki neft və qaz ehtiyatlarının işlənilməsində xarici sərmayəçilərin iştirakı üçün geniş şərait yaradıldığını, indiyədək bu sahəyə milyardlarla dollar sərmayə qoyulduğunu diqqətə çatdırdı. Azərbaycan Prezidenti Çin şirkətinin neft layihələrində iştirakı ilə əlaqədar neft hasilatının artmasını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə durmadan inkişaf etdiyini, beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, bütün bu proseslərin iqtisadi əlaqələrin güclənməsi üçün yaxşı siyasi zəmin yaratdığını bildirdi. O, Çin Milli Neft Korporasiyasına Azərbaycanda gələcək fəaliyyətində uğurlar arzuladı.

Səmimi qəbula görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Cou Dzipin xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində xarici şirkətlərin Azərbaycan iqtisadiyyatına irihəcmli sərmayə qoyduqlarını və ötən 10 il ərzində Çin şirkətlərinin də bu siyasətdən yararlanaraq, müxtəlif layihələrin həyata keçirilməsində fəal iştirak etdiyini xatırlatdı.

Qonaq təmsil etdiyi korporasiyanın Çinin ən böyük şirkəti olduğunu və ARDNŞ ilə çox yaxşı əməkdaşlıq etdiklərini, təmsil etdiyi şirkətin istismarında olan sahədə gündəlik neft hasilatının durmadan artdığını diqqətə çatdırdı.

Azərbaycanla Çin arasında enerji sahəsində əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə edən qonaq Çin şirkətlərinin fəaliyyəti üçün yaradılan şəraitə görə şəxsən Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Prezident sarayında Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çunu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkəmizə səfəri zamanı Çanq Von Çunun idmanın, o cümlədən taekvondonun inkişafı ilə yaxından tanış olmaq imkanı əldə edəcəyini söylədi. Azərbaycanda idmanın bu növünün inkişafına böyük diqqət yetirildiyini bildirən Prezident İlham Əliyev taekvondoçular üçün müvafiq infrastruktur yaradıldığını, ötən ilin oktyabrında müasir tələblərə uyğun taekvondo idman zalının istifadəyə verildiyini diqqətə çatdırdı.

Azərbaycanlı idmançıların koreyalı mütəxəssislərlə çox yaxşı əlaqələri olduğunu bildirən Prezident İlham Əliyev qonağın səfərinin ölkəmizin idman əlaqələrinin gələcək inkişafına xidmət edəcəyinə əminliyini ifadə etdi.

Dünya Taekvondo Federasiyasının prezidenti seçildikdən sonra ilk rəsmi səfərini Azərbaycana etdiyini söyləyən Çanq Von Çu ölkəmizdə gördüyü yüksək qonaqpərvərliyə və səmimi qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycanlı idmançılara, xüsusilə taekvondoçulara Olimpiya oyunlarında uğurlar arzulayan qonaq Prezident İlham Əliyevi Afinada görəcəklərindən məmnun olacaqlarını söylədi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL SƏRHƏD MÜHAFİZƏ XİDMƏTİNİN RƏİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında Almaniya Federativ Respublikasının Federal Sərhəd Mühafizə Xidmətinin rəisi Udo Burkxolderi qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycanın Sərhəd Xidməti ilə Almaniyanın Sərhəd Mühafizə Xidməti arasında əlaqələrin inkişafından məmnunluğunu bildirərək, onun ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra yaranmış və çox da uzun olmayan müddət ərzində fəaliyyət göstərən Azərbaycan Sərhəd Xidmətinin daha da inkişaf etdirilməsi istiqamətində qarşıda böyük vəzifələr durur. Prezident İlham Əliyev regional təhlükəsizlik və sabitlik baxımından Azərbaycan Sərhəd Xidmətinin möhkəmlənməsinin və sərhədlərimizdə səmərəli nəzarətin həyata keçirilməsinin zəruriliyini qeyd edərək, yüksək texnologiyalara və təcrübəyə malik olan Almaniya Sərhəd Mühafizə Xidməti ilə Azərbaycan Sərhəd Xidmətinin təcrübə mübadiləsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Almaniya ilə ikitərəfli əlaqələrin, habelə beynəlxalq təşkilatlarda əməkdaşlığın yüksək səviyyədə olduğunu, ölkəmizin Avropa Birliyi ilə əlaqələrinin inkişafında Almaniyanın mühüm rol oynadığını vurğulayaraq, ölkələrimizin sərhəd xidmətləri arasında münasibətlərin bu əlaqələrin inkişafına xidmət edəcəyinə əminliyini ifadə etdi.

Səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Udo Burkxolder 50 illik təcrübəyə malik olan Almaniya Sərhəd Mühafizə Xidməti ilə Azərbaycan Sərhəd Xidməti arasında daimi məsləhətləşmələr əsasında yüksək səviyyədə təcrübə mübadiləsinin həyata keçirildiyini məmnunluqla vurğuladı. O, iki ölkənin sərhəd xidmətləri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə iştirak edən Almaniyanın ölkəmizdəki səfiri Klaus Qrevlix Azərbaycanla Almaniya arasında siyasi, iqtisadi və mədəni sahələrdə, habelə təhlükəsizlik sahəsində əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edərək, gələcəkdə də bu əlaqələrin inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Sonda Udo Burkxolder Prezident İlham Əliyevə Berlinin simvolu olan hədiyyə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKAMIZIN XARİCİ ÖLKƏLƏRDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 27-də Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşmüşdür.

Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin nazirliyin binasının foyesində hündür postament üzərində qoyulmuş mərmər büstünə tamaşa etdi.

Görüşü xarici işlər naziri Elmar Məmmədyarov açdı.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

Müstəqil Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və prinsipləri ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. İndiki mərhələdə qarşımızda duran yeni vəzifələr bu prinsiplərin əsasında ardıcıl işin aparılmasını və konkret addımların atılmasını tələb edir.

Hələ keçən il Prezident Heydər Əliyevin iştirakı ilə belə görüşün keçirilməsi nəzərdə tutulmuşdu. Amma əfsuslar olsun ki, onun səhhəti buna imkan vermədi.

2001-ci il iyunun 8-də qəbul olunmuş "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu Xarici İşlər Nazirliyinin fəaliyyətinin tənzimlənməsinə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilən xarici siyasətin həyata keçirilməsinə geniş imkanlar yaradır. Azərbaycanın diplomatik xidmətinin indiki vəziyyətini aşağıdakı rəqəmlərlə təsvir etmək olar.

Azərbaycan 156 ölkə ilə diplomatik əlaqələr qurmuşdur. Azərbaycanda 63 səfirlik akkreditə olunmuşdur. Bakıda iqamətgahı olan 26 səfirlik və 16 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın xaricdə 21 səfirliyi, 5 daimi nümayəndəliyi, iki baş konsulluğu və iki fəxri konsulluğu fəaliyyət göstərir. Yaxın zamanda Bolqarıstan, Belarus, İndoneziya, Küveyt, Kanada, Latviya, Hindistan, Macarıstan, Yaponiya və Yunanıstanda səfirliklərin açılması planlaşdırılır. Azərbaycan 44 beynəlxalq və regional təşkilatın üzvüdür. Bu təşkilatlarda 22 azərbaycanlı çalışır. Azərbaycan 250 çoxtərəfli beynəlxalq müqavilələrə qoşulmuşdur.

Azərbaycanın diplomatik nümayəndəlikləri ölkənin xarici siyasətini həyata keçirən qurumlardır və onların işində səmərəliliyin artırılması bu gün ən mühüm məsələlərdən biridir. Buna nail olmaq üçün onların işində təşəbbüskarlıq gücləndirilməli, fəallıq və məsuliyyət artırılmalıdır. Müasir dövrdə Azərbaycanın diplomatik xidmətinin əsas vəzifələri sırasında aşağıdakı məsələlər durur.

İlk növbədə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin ədalətli həll olunması istiqamətində diplomatik nümayəndəliklərin müvafiq işi gücləndirilməlidir. Ermənistanın Azərbaycan xalqı haqqında mənfi təəssürat yaratmaq istiqamətində apardığı təbliğatla davamlı mübarizə diplomatik nümayəndəliklərimizin əsas vəzifələrindən biri olmalıdır. Müasir informasiya texnologiyasından istifadə edərək, Azərbaycanda və xaricdə informasiya və təbliğat işi gücləndirilməlidir. Qaçqın və məcburi köçkünlərimizə humanitar yardımların davam etdirilməsi istiqamətində fəaliyyət göstərilməlidir. Xaricdəki nümayəndəliklərimiz yerləşdikləri ölkələrin kütləvi informasiya vasitələrində Azərbaycan haqqında yayılan məlumatları diqqətlə izləyib təhlil etməli və Xarici İşlər Nazirliyinə vaxtında məlumat verməli, eyni zamanda, o məlumatlara yerlərdə rəy bildirməlidirlər.

Diplomatik nümayəndəliklərin işində iqtisadi məsələlər də mühüm yer tutmalıdır. Azərbaycanın iqtisadi inkişafı, sərmayə qoyuluşu haqqında məlumat hazırlanmalı və müvafiq təşkilati işlər aparılmalıdır. Xaricdə yaşayan Azərbaycan diasporu ilə iş gücləndirilməlidir. Onlarla əlaqələrin genişlənməsi sahəsində iş davam etdirilməlidir. Azərbaycanın xaricdəki hüquqi və fiziki şəxslərinin hüquqları və maraqlarının qorunması vacib məsələdir. Bununla bağlı xaricdə yaşayan Azərbaycan vətəndaşlarının pasport, viza və digər konsul məsələlərinə daim diqqət göstərilməlidir. Azərbaycanın digər dövlət qurumları ilə, eləcə də müstəqil tədqiqat təşkilatları ilə əməkdaşlıqda Xarici İşlər Nazirliyində analitik işin gücləndirilməsi təmin edilməlidir.

Xarici İşlər Nazirliyi ölkəmizin xarici siyasətinə birbaşa təsir edən xarici siyasət, milli təhlükəsizlik və hərbi konsepsiyalar kimi mühüm konseptual sənədlərin işlənib hazırlanmasında aparıcı rol oynamağa hazırdır. Xarici İşlər Nazirliyi Milli Məclislə gündəlik əməkdaşlığın, eləcə də beynəlxalq parlamentlərarası əməkdaşlığın inkişafında iştirak etməlidir. Qloballaşma şəraitində xaricdə Azərbaycanın maraqlarını təmin etmək üçün Xarici İşlər Nazirliyinin əlaqələndirici rolu faktiki işlə təmin olunmalıdır.

Bir sıra məsələlərlə yanaşı, bu məqsədlə Xarici İşlər Nazirliyi ölkəmizin xarici siyasətinin prioritet məsələlərinə dair rəsmi mövqeləri əks etdirən sənədləri hazırlayıb Azərbaycanın digər dövlət qurumlarına təhvil verir.

Nazirliyin daxili strukturu təkmilləşdirilməli və ölkəmizin xarici siyasət prioritetlərinə uyğunlaşdırılmalıdır. Bununla bağlı nazirliyin bəzi idarələri və şöbələri ləğv olunacaq, bəziləri isə yenidən qurulacaqdır. Avropa qurumlarına inteqrasiya məsələləri, arxiv məsələləri üzrə bölmələr, təlim mərkəzi və digər struktur bölmələri təsis olunacaqdır. Na-

zirliyin kollegiyası yaradılmalıdır. Bununla bağlı təkliflər artıq Nazirlər Kabinetinə göndərilmişdir.

Yerli və xarici kütləvi informasiya vasitələri ilə iş gücləndirilməlidir. Keçirilmiş tədbirlər, baş vermiş hadisələr və xarici siyasətin ayrı-ayrı məsələlərinə dair dövlətimizin mövqeyi haqqında müəyyən olunmuş qaydada mətbuat nümayəndələri üçün brifinq keçirilməlidir. İnternet vasitəsilə təbliğat və məlumat işi genişləndirilməlidir.

Diplomatik xidmət ən layiqli və müasir tələblərə cavab verən kadrlarla təmin olunmalıdır. Xarici İşlər Nazirliyi bu istiqamətdə müəyyən iş aparır. Kadr siyasətində şəffaflıq, aşkarlıq, obyektivlik, peşəkarlıq, operativlik, kadrların seçilməsində aydın prinsiplərin müəyyən olunması, Xarici İşlər Nazirliyinə işə qəbul edilmədə və diplomatik nümayəndəliklərə ezam olunmada test sistemlərinin işlənib hazırlanması və tətbiqi, rotasiya prinsipi və sair təmin edilməlidir.

Çıxışıma yekun vuraraq demək istəyirəm ki, Azərbaycanın diplomatik xidməti müstəqilliyimizin bərpasından sonrakı dövrdə yeni şəraitdə formalaşmışdır. Diplomatik xidmət orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi sahəsində hələ çox iş görülməlidir. Yuxarıda göstərdiyim məsələlər onların yalnız bir hissəsini təşkil edir.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, Azərbaycanın diplomatik xidmət orqanlarının bütün əməkdaşları Sizin tərəfinizdən onlara tapşırılan məsələlərin yerinə yetirilməsində öz səylərini əsirgəməyəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Hörmətli diplomatlar, xarici işlər nazirliyinin əməkdaşları!

Mən bu gün Xarici İşlər Nazirliyinə sizinlə görüşə gəlmişəm. Bilirsiniz ki, belə müşavirənin çağırılmasının təşkili xalqımızın ümummilli lideri Heydər Əliyevin gündəliyində duran məsələ idi. Amma nazirin qeyd etdiyi kimi, onun səhhəti bu müşavirənin keçirilməsinə imkan yaratmadı.

Azərbaycan öz xarici siyasətini çox uğurla həyata keçirir. Əlbəttə, bu gün Azərbaycan diplomatiyası yeni bir mərhələdədir. Azərbaycanın Xarici İşlər Nazirliyində dəyişikliklər baş vermişdir, yeni nazir təyin edilmişdir. Güman edirəm ki, bundan sonra Xarici İşlər Nazirliyi, bütün səfirliklər daha da fəal işləyəcək, müasir zəmanənin tələblərinə uyğun şəkildə çalışacaqlar. Azərbaycanın milli maraqlarını beynəlxalq aləmdə daha da yüksək səviyyədə qoruyacaqlar.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmiz çox çətin vəziyyətdə fəaliyyət göstərirdi. Ölkə daxilində gedən proseslər, Azərbaycanın rəhbərliyində təmsil olunan insanların təcrübəsinin azlığı, səriştəsizliyi bir çox hallarda Azərbaycanı çox çətin vəziyyətə salmışdı. Ölkədə böhran yaşanırdı, iqtisadiyyat demək olar ki, dağılırdı. Azərbaycan ümumiyyətlə, parçalanma ərəfəsində idi.

Bildiyiniz kimi, xalqın tələbi ilə 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdandan sonra ölkədə vəziyyət dəyişdi. Ölkəmiz inkişaf etməyə başladı və son on ilin ərzində Azərbaycan bütün sahələrdə böyük uğurlar əldə edibdir.

Amma müstəqilliyimizin ilk illərində Azərbaycan xarici siyasət istiqamətində də böyük çətinliklərlə üzləşmişdi. Ölkə demək olar ki, təcrid edilmiş vəziyyətə salınmışdı. Azərbaycanın əleyhinə erməni təbliğatının aparılması Azərbaycan tərəfindən adekvat addımlarla müşayiət olunmurdu. Azərbaycan bu təbliğatın qarşısında çox aciz siyasət aparırdı. Ölkəmizdə, ümumiyyətlə, xarici siyasətlə məşğul olanların sayı çox az idi və əsas vəzifələrə təcrübəsi o qədər də böyük olmayan insanlar gətirilirdi.

Əlbəttə, təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan beynəlxalq aləmdə öz sözünü deyə bilmirdi, müxtəlif ölkələrdə Azərbaycana qarşı ədalətsiz, Azərbaycanın əleyhinə qərarlar qəbul olunurdu. Siz bunların hamısını yaxşı bilirsiniz. Beləliklə, ölkə xaricdə, beynəlxalq müstəvidə mənfi imicə malik idi. Bu vəziyyət 1993-cü ildən sonra dəyişməyə başladı. Heydər Əliyev diplomatiyası, onun siyasəti Azərbaycanı bu beynəlxalq təcriddən xilas etdi. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmlətməyə başladı. Ölkəmiz ikitərəfli və çoxtərəfli formatlarda çox uğurlu xarici siyasət aparmağa başladı. Bu siyasətin nəticəsində bu gün Azərbaycan beynəlxalq aləmin çox dəyərli üzvünə çevrilibdir.

İkitərəfli münasibətlərimizdə mən heç bir problem görmürəm. Qonşu dövlətlərlə münasibətlərimiz inkişaf edir. Bu münasibətlər çox işgüzar zəmində, qarşılıqlı hörmət zəminində qurulubdur. Bilirsiniz ki, prezident seçkilərindən sonra mən müxtəlif ölkələrə rəsmi səfərlər etmişəm. Bu səfərlər bir daha onu göstərir ki, beynəlxalq strukturlarda, beynəlxalq aləmdə Azərbaycana olan münasibət çox müsbətdir. Azərbaycana hörmət edirlər, Azərbaycanla hesablaşırlar. Azərbaycan regional məsələlərdə lider dövlətə çevrilir. Təkcə qonşu dövlətlərlə deyil, digər dövlətlərlə də ikitərəfli münasibətlərimiz çox uğurludur və Azərbaycanın milli maraqlarına cavab verir. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, bütün ölkələrlə ikitərəfli münasibətlərimizi daha da gücləndirək.

Bilirsiniz ki, bu yaxınlarda yeni səfirliklərin açılması haqqında qərar qəbul edilmişdir. Bu, bizə imkan verəcək ki, öz siyasətimizi, öz sözümüzü daha geniş ictimaiyyətə çatdıra bilək. Bildiyiniz kimi, Azərbaycan beynəlxalq təşkilatlarda çox uğurla fəaliyyət göstərir. Birləşmiş Millətlər Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Azərbaycan Avropa Birliyi ilə çox səmərəli əməkdaşlıq edir. Bu yaxınlarda Avropa Birliyi Azərbaycanı yeni qonşuluq proqramına daxil edibdir və bu əməkdaşlıq bütün istiqamətlərdə - həm siyasi istiqamətdə, həm də enerji sahəsində aparılır. Mənim bu yaxınlarda Avropa Birliyinə etdiyim səfər bir də onu göstərir ki, bizim aramızda çox gözəl münasibətlər mövcuddur.

Avropa Şurası ilə Azərbaycanın əlaqələri güclənir. Bu təşkilat Azərbaycana böyük diqqətlə yanaşır. Azərbaycan da üç ildən artıqdır ki, bu təşkilatın üzvüdür və çox fəal üzvüdür. Avropa Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş sənədlər həqiqəti əks etdirir. Bu sənədlər beynəlxalq hüquq normaları əsasında qəbul edilmişdir və təbii ki, Azərbaycanın milli maraqlarına cavab verir.

Mən bu yaxınlarda Avropa Şurasına da səfər etmişdim və bu səfər çox uğurlu keçmişdir. Avropa Şurasının Azərbaycana münasibəti çox müsbətdir və təbii ki, əgər belə olmasaydı, Azərbaycan Prezidentinə Avropa Şurasında yüksək mükafatlar verilməzdi. Mən ümid edirəm ki, Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində Avropa Şurasında müzakirəyə çıxarılacaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə

dair məruzə ədalətli məruzə olacaq, beynəlxalq hüquq normalarına əsaslanacaq və beləliklə, geniş Avropa auditoriyasına Ermənistan-Azərbaycan münaqişəsi haqqında bir daha doğru məlumat çatdıracaqdır. Ümid edirəm ki, Avropa Şurası bu məsələ ilə əlaqədar siyasi qərar verəcəkdir.

Bizim digər beynəlxalq təşkilatlarla əlaqələrimiz də inkişafdadır. Azərbaycan NATO ilə uğurlu əməkdaşlıq edir və biz artıq "Sülh naminə tərəfdaşlıq" proqramından hərbi əməkdaşlıq proqramına keçmişik. Bu yaxınlarda NATO-ya etdiyim səfər onu bir daha göstərir ki, bizim aramızda çox gözəl münasibətlər var.

Azərbaycan MDB çərçivəsində də uğurla fəaliyyət göstərir. İslam Konfransı Təşkilatında, GUÖAM təşkilatında və digər beynəlxalq təşkilatlarda bizim mövqelərimiz güclənir. Biz öz gələcək siyasətimizi bundan sonra da beynəlxalq strukturlara inteqrasiyada görürük. Bu siyasətin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun təməli 1993-cü ildə qoyulmuşdur və bu günə qədər Azərbaycana böyük uğurlar gətirir.

Bu gün Azərbaycan haqqında dünyada kifayət qədər ədalətli məlumatlar var. Biz hamımız çalışmalıyıq, əlbəttə, ilk növbədə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin digər işçiləri çalışmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar o ölkələrdə yaşayan ictimaiyyətə çatdırılsın.

Bir sözlə, Azərbaycanın bütün istiqamətlərdə, qeyd etdiyim kimi, ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlarla əməkdaşlığımızda apardığı xarici siyasət uğurludur. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Mən əminəm ki, Azərbaycan regionda öz mövqelərini gələcəkdə daha da gücləndirəcəkdir. Artıq hamı bilir ki, regionda Azərbaycanın iştirakı olmadan nə siyasi, nə də iqtisadi sahələrdə əməkdaşlıq mümkün deyildir. Azərbaycan bölgənin çox vacib ölkəsinə çevrilibdir. Burada təkcə bizim coğrafi-siyasi vəziyyətimiz, yaxud enerji resurslarımız rol oynamır. Halbuki, bu amillər də çox vacibdir. Azərbaycanın siyasəti, beynəlxalq aləmə inteqrasiyası, beynəlxalq aləm üçün çox vacib ölkəyə çevrilməsi, Azərbaycanın daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, sabit inkişaf və digər amillər burada böyük rol oynayır.

Biz çalışmalıyıq ki, bundan sonra da həm Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdıraq, eyni zamanda, apardığımız xarici siyasət vasitəsilə Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirək və milli maraqlarımızın daha yüksək səviyyədə qorunmasına nail olaq. Əlbəttə, səfirlərin və səfirliklərin bu istiqamətdə rolu çox mühümdür. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında xaricdə fəaliyyət göstərən diplomatlar daha da fəal olmalıdırlar.

Bilirsiniz ki, Azərbaycan bu məsələnin həllində sülh yolunun tərəfdarıdır. Biz bu məsələni danışıqlar yolu ilə həll etmək istəyirik. Ümid edirəm ki, bu danışıqlar yolu bizə uğur gətirəcəkdir. Amma eyni zamanda, mən dəfələrlə bildirmişəm ki, Azərbaycan heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər danışıqlar yolu bir səmərə verməsə, Azərbaycan bütün başqa, o cümlədən hərbi yoldan istifadə edib öz torpaqlarını azad edəcəkdir.

Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bizim torpaqlarımız işğal olunubdur. Haqq-

ədalət bizim tərəfimizdədir. İqtisadi potensial və digər məsələlər də Azərbaycanın xeyrinədir. Mən şübhə etmirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır. Bəzən güzəştlər haqqında təkliflər səslənir. Amma mən artıq bunu bir neçə dəfə demişəm ki, ərazi bütövlüyü məsələlərində güzəştdən söhbət gedə bilməz. Bu, o vaxt olur ki, hər bir tərəf nəyisə, hansısa məsələdəsə güzəştə gedir. Azərbaycanın əlində bir şey yoxdur ki, güzəştə getsin. Azərbaycanın torpaqları işğal altındadır. Bu işğaldan bir milyon adam əziyyət çəkir. Ona görə bu məsələdə bizim qətiyyətli mövqeyimiz dəyişməz olaraq qalacaqdır.

Sizin də vəzifəniz ondan ibarətdir ki, bu məsələnin mahiyyətini çalışdığınız ölkələrin rəsmi dairələrinə, ictimaiyyətinə daha dolğun şəkildə çatdırasınız. Təəssüflər olsun ki, bəzi hallarda bu məsələ ilə əlaqədar beynəlxalq aləmdə dəqiq təsəvvür yoxdur. Bunun müəyyən səbəbləri var. Əlbəttə, erməni təbliğatı burada böyük rol oynayır. Amma onu da etiraf etməliyik ki, biz də bəzi hallarda bu məsələni, onun mahiyyətini beynəlxalq aləmə lazımi səviyyədə çatdırmırıq. Burada ilk növbədə, səfirlər və səfirliklərin işçiləri daha fəal olmalıdırlar. Bu məsələni daim gündəliyə salmalıdırlar.

Mən bilirəm ki, diplomatiyada təkrara o qədər də çox yol verilmir. Ümumiyyətlə, mən də bir şeyin təkrar olunmasına o qədər də meylli deyiləm. Amma bu məsələ istisna təşkil edir. Bu məsələ daim təkrar olunmalıdır. Bütün tədbirlərdə yeri gəldi, gəlmədi, bu məsələ daim diqqət mərkəzində olmalıdır və rəsmi dairələrə, müxtəlif ölkələrin parlamentlərinə, ictimaiyyətə çatdırılmalıdır. Mən bununla əlaqədar ümid edirəm ki, Prezident Aparatı ilə birlikdə Xarici İşlər Nazirliyi tərəfindən xüsusi bir plan, proqramlar hazırlanmalı, tövsiyələr verilməlidir. Bu proqram çərçivəsində səfirlər öz fəaliyyətini qurmalıdır. Bütün beynəlxalq tədbirlərdə, konfranslarda, ictimai tədbirlərdə bu məsələ ilk növbədə yada salınmalıdır. Beləliklə, ümid edirəm, biz informasiya sahəsində daha böyük uğurlar əldə edəcəyik.

Biz informasiya hücumuna keçməliyik. Bəzən bizi günahlandırırlar ki, Azərbaycan bu baxımdan özünü çox davakar aparır. Ola bilər, amma bizim davakarlığımız hələ ki, yalnız informasiya sahəsində özünü büruzə verir. Bizim başqa yolumuz yoxdur. Əlbəttə, Ermənistan maraqlıdır ki, bu məsələyə ümumiyyətlə toxunulmasın. Ona görə mən xatırlayıram, Avropa Şurasında biz məsələ qaldıranda ki, bu barədə məruzə dinlənilsin, Ermənistan tərəfi bunun əleyhinə çıxırdı. Nə üçün? Bu məsələnin müzakirə olunmasını istəmirdi. Çünki bilirlər ki, əgər müzakirəyə çıxarılarsa, onda hər şey açıq-aydın görünəcəkdir. Hamı da görəcəkdir ki, işğalçı kimdir, işğalın qurbanı kimdir. Ona görə bütün tədbirlərdə, bütün sahələrdə bu məsələnin mahiyyəti açıqlanmalıdır və informasiya sahəsində də güclü olmalıyıq. Bütün imkanlardan istifadə etməliyik ki, Ermənistanın işğalçı siyasətini ifşa edək, onların bu təcavüzü haqqında bütün dairələrə məlumatı çatdıraq.

Əlbəttə, Azərbaycan üçün ən ağrılı problemlərdən olan qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında məlumatlar daha dolğun şəkildə yayılmalıdır. Məsəl üçün, mən fikir verirəm, xaricdən gələn bəzi rəsmi qonaqlar qaçqınlarla görüşəndə dəhşətə gəlirlər. Deyirlər, biz bilmirdik ki, Azərbaycanda bu qədər qaçqın var və onlar belə ağır vəziyyətdə yaşayırlar. Təbii ki, xaricdə bu məsələ ilə əlaqədar kifayət qədər informasiya yoxdur, məlumat yoxdur. Bunu biz bilirik və bizimlə sıx əlaqədə olan dairələr, qurumlar bilir. Amma geniş beynəlxalq ictimaiyyət bu haqda bilmir. Bu, bizim səhvimiz, nöqsanımızdır.

Mən bilirəm ki, bu haqda Dövlətqaçqınkomun sədri çıxış edəcək, məlumat verəcəkdir. Siz də bunu bilməlisiniz. Nəinki bilməlisiniz, çalışdığınız ölkələrdə gərək bu məsələni gündəlik fəaliyyətinizdə diqqət mərkəzinə çevirəsiniz. Orada fotosərgilər təşkil oluna bilər, seminarlar, müxtəlif konfranslar təşkil oluna bilər. Bu, humanitar fəlakətdir və bilirsiniz ki, dünyada qaçqınların probleminə çox böyük diqqət göstərilir. Müxtəlif xeyriyyə fondları mövcuddur. Onu da deməliyəm ki, əfsuslar olsun, beynəlxalq humanitar təşkilatlar Azərbaycana ayrılan vəsaitin həcmini azaldırlar. Mən bu məsələ ilə bağlı dəfələrlə görüşlər keçirmişəm. Bakıda keçirilmiş konfransda iştirak edib öz sözümü demişəm və onları da çağırmışam ki, bu yardımların həcmini azaltmayın. Belə olan halda, yeni mənbələr axtarılmalıdır. Xüsusilə, inkişaf etmiş ölkələrdə xeyriyyə fondları var. Amma bu fondların bəziləri, bəlkə də, böyük əksəriyyəti Azərbaycandakı problemin mövcudluğundan xəbərsizdir. Nə üçün?! Çünki onlara məlumat verilmir. Əgər onlara məlumat verilərsə, əlbəttə, onlar bu məsələni nəzərə alarlar. Yəni səfirliklər bu məsələyə çox böyük diqqət göstərməlidirlər. Xeyriyyə fondları ilə, digər humanitar təşkilatlarla işlər daha fəal şəkildə qurulmalıdır. Mən demək istəmirəm ki, bu işlər aparılmır. Amma lazımi səviyyədə deyil və bütün ölkələrdə bu işlər lazımi səviyyədə aparılmır. Siz gərək bu məsələyə daha da böyük diqqət yetirəsiniz.

Xaricdə yaşayan azərbaycanlılar bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Bilirsiniz ki, Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıbdır. 2001-ci ildə Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirilibdir. Bu gün bizim müxtəlif diasporlarımız güclənir, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha fəal rol oynayır. Biz də bunu dəstəkləyirik. Mən, demək olar, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu, bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər.

Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır. Mən bilirəm ki, bu iş bir çox ölkədə gedir. Səfirliklər bu baxımdan işləyirlər. Mən bunu bilirəm. Amma əlbəttə, istərdik ki, bunun böyük nəticəsi, səmərəsi olsun.

Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi qaydada izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud da ölkəmiz haqqında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar məlumatlar verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır. Müxtəlif ictimai-siyasi tədbirlər keçirilməlidir, Azərbaycandan nümayəndə heyətlərinin səfərləri təşkil olunmalıdır. Mədəniyyət xadimlərimizin səfərləri təşkil olunmalı, sərgilər keçirilməlidir. Mən demək istəmirəm ki, bu, yoxdur. Var, amma lazımi səviyyədə deyildir. Əgər bu tədbirlər varsa, yalnız hansısa bir məhdud çərçivə bundan xəbər tutur. Yəni bu mə-

sələlər müxtəlif ölkələrin mətbuatında öz əksini tapmır. Amma siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Əlbəttə, biz istərdik ki, Azərbaycan haqqında gedən məlumatlar reallığa əsaslansın.

Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Azərbaycan beynəlxalq aləmdə çox güclü mövqelərə malik olan ölkədir. Azərbaycanda böyük, dünya əhəmiyyətli layihələr həyata keçirilir. Azərbaycanda sosial məsələlər öz həllini tapır. Əlbəttə, yaxşı olardı ki, bütün bu reallıqlar haqqında xarici mətbuata daha böyük həcmdə məlumatlar çatdırılsın.

Ümumiyyətlə, çalışdığınız ölkələrdə mətbuatla işlər çox güclü qurulmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Baxın, bəlkə, hansısa xüsusi bir diplomat yalnız bu məsələlərlə məşğul olmalıdır. Yaxud əgər buna imkan yoxdursa, biz baxaq, bəlkə, əlavə bir ştat açmaq haqqında fikirləşək. Mütləq sırf mətbuatla əlaqə saxlayan bir nəfər olmalıdır ki, bu məsələ ilə mütəmadi qaydada məşğul olsun. Əksər hallarda əgər Azərbaycan haqqında hansısa yalan, yaxud da həqiqəti əks etdirməyən məqalə çıxırsa, bundan sonra bizim səfirliklər buna reaksiya verirlər. Bəzi hallarda isə heç reaksiya da vermirlər. Mən bu yaxınlarda nazirə dedim ki, belə hallar olanda səfirliklər mütləq öz sözünü deməlidir. Ən yaxşı halda, buna reaksiya verilir, təkzib ötürülür.

Amma bilirsiniz ki, bir var məlumat getsin, bir də var təkzib getsin. Təkziblər də bəzi hallarda dərc olunmur. Dərc olunanda da, təkziblərə bir şərh də əlavə olunur və demək olar ki, o, təkzibin əhəmiyyətini tamamilə sıfıra endirir. Yəni biz fəal olmalıyıq. Məlumatı biz verməliyik. Həm ölkəmiz haqqında, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında, həm də digər məsələlər haqqında, Azərbaycanın gələcəyi, potensialı haqqında, dünyada, bölgədə rolu haqqında həqiqi məlumatı biz verməliyik, bunu biz etməliyik. Əlbəttə, səfirliklər bu məsələ ilə əlaqədar daha fəal olmalıdırlar.

Bildiyiniz kimi, Azərbaycan iqtisadi cəhətdən inkişaf edir. Bizim bütün iqtisadi göstəricilərimiz yüksəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Azərbaycanda 1993-cü ildən 2003-cü ilə qədər aparılmış iqtisadi islahatlar siyasəti gözəl nəticələr vermişdir. Son 7 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 90 faiz artmışdır. Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci yerdədir. Bilirsiniz ki, Azərbaycanda çox gözəl sərmayə mühiti var və bu bizə imkan verir ki, xarici sərmayəçilər qorxmadan, çəkinmədən Azərbaycana vəsait qoysunlar.

Ölkə iqtisadiyyatı inkişafdadır. 2004-cü ilin birinci yarısında iqtisadiyyatımız 10 faiz artıbdır. Bilirsiniz ki, qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramları uğurla icra olunur. Seçkilərdən keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yerləri açılıbdır. Bilirsiniz ki, bu, bizim iqtisadi siyasətimizin əsas məsələlərindən biridir. Mən çox şadam ki, nəzərdə tutduğumuz bütün planlar yerinə yetirilir.

Mən şübhə etmirəm ki, Azərbaycan beş ildən sonra iqtisadi cəhətdən daha da güclü, qüdrətli dövlətə çevriləcəkdir. Həm neft sənayesi istiqamətində Heydər Əliyevin neft strategiyasının uğurlu icrası, həm də qeyri-neft sektorunun inkişafı bizə yeni imkanlar yaradacaqdır. Qeyri-neft sektorunun inkişafı bizim üçün, yəni hökumət üçün daha da önəmli olmalıdır.

Bizim neft sektorunda bütün işlər vaxtlı-vaxtında görülübdür. Bilirsiniz ki, bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir. Azərbaycanın qaz yataqları istismar

olunur və bu yaxınlarda qaz kəmərinin tikintisinə başlayacağıq. Ümumiyyətlə, Azərbaycan Avropanın qaz istehlakçıları üçün çox önəmli ölkəyə çevriləcəkdir. Bütün bunların təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuşdur və uğurla icra edilir, qarşımızda heç bir problem yoxdur.

Qeyri-neft sektorunun inkişafına daha böyük diqqət göstərilməlidir. Çünki Azərbaycanın hərtərəfli inkişafı bu amildən asılıdır. Heç kəs üçün sirr deyil ki, hələ uzun illər Azərbaycanın iqtisadiyyatı neft amilinə söykənəcəkdir. Amma bu o demək deyil ki, buna arxayın olaq və gözləyək ki, nə qədər neft çıxarılacaq, nə qədər neft satılacaqdır. Qeyri-neft sektorunun inkişafı, bölgələrin inkişafı, ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi bizim prioritet məsələmizdir.

Yəqin ki, siz bunları bilirsiniz. Mən bunları nə üçün deyirəm. Yəni bizim xaricdəki nümayəndəliklər bu istiqamətdə də fəaliyyət göstərməlidirlər. Azərbaycanın iqtisadi maraqları həm ölkə daxilində, həm də ölkənin xaricində qorunmalıdır.

Bilirsiniz ki, Azərbaycana müxtəlif işgüzar dairələrdə böyük maraq var. Azərbaycanda bir çox sahələrdə iş görmək, sərmayə qoymaq istəyən çoxlu şirkətlər var. Onlar Azərbaycana gəlirlər, işləyirlər. Yaxşı olardı ki, bizim səfirlərimiz bu məsələ ilə əlaqədar daha da fəal olsunlar. Azərbaycanın iqtisadi maraqlarına uyğun şəkildə fəaliyyət göstərsinlər. Bu məsələ ilə əlaqədar müşavirədə söhbət aparılacaqdır. İqtisadi inkişaf naziri burada çıxış edəcək, öz tövsiyələrini əməli şəkildə verəcəkdir.

Mən sizə demək istəyirəm ki, ümumiyyətlə, bu məsələyə böyük diqqət göstərilməlidir. Azərbaycan iqtisadi potensialını gücləndirir. Əlbəttə, daxildə imkanlar bizə kifayətdir ki, ölkəmizi sürətlə inkişaf etdirək. Amma bu o demək deyil ki, biz bununla kifayətlənək və xaricdə olan imkanlardan istifadə etməyək. Böyük şirkətlərin Azərbaycana gəlməsi bizim üçün lazımdır və zəruridir. İri sərmayəçilərin, firmaların Azərbaycanda fəaliyyət göstərməsi ölkəmiz üçün çox vacibdir. Baxın, neft sektorunda dünyada elə bir tanınmış şirkət yoxdur ki, Azərbaycanda sərmayə qoymasın. Bu, ölkəmiz üçün çox faydalıdır. Çünki bu, etibarlı tərəfdaşlıqdır. Bu, bir gündə yaranmış firma deyil, böyük iqtisadi potensiala malik olan şirkətlər Azərbaycanın neft sənayesində işləyir. Yaxşı olardı ki, digər sahələrdə də dünyanın bir nömrəli şirkətləri, tanınmış, etibarlı firmalar Azərbaycanın qeyri-neft sektorunda da fəaliyyət göstərsinlər. Bunu etmək üçün, əlbəttə, onları cəlb etmək lazımdır.

1994-cü ildə buraya xarici şirkətləri cəlb etmək üçün nə qədər səylər göstərildi. Azərbaycan çox riskli bir zona idi, müharibə gedirdi, daxildə xoşagəlməz proseslər hələ mövcud idi. Sabitlik tam bərqərar olmamışdı. Ona görə xarici sərmayəçiləri cəlb etmək asan məsələ deyildi. Sonrakı dövrlərdə bu məsələ artıq başqa istiqamətdə inkişaf etdi. Əksinə, daha çox tələbat var idi, nəinki imkan. Amma ilk illərdə xarici sərmayəçiləri Azərbaycanın neft sektoruna cəlb etmək bizdən böyük səylər tələb edirdi. Qeyri-neft sektoru da belədir. Gərək böyük şirkətləri biz buraya cəlb edək. Bu sahədə səfirliklərin fəaliyyəti çox önəmli ola bilər.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, Azərbaycanın xarici siyasəti çox uğurludur. Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur və xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın xarici siyasətinə, Azərbaycanın xaricdə olan imicinə çox böyük diqqət yetirirdi.

Azərbaycan beynəlxalq aləmin üzvüdür, müxtəlif təşkilatlarda fəal iştirak edir.

Mən qeyd etdim ki, bizim dünya birliyinə inteqrasiya siyasətimiz dəyişməz olaraq qalır və son müddət ərzində bu istiqamətdə Azərbaycan çox önəmli addımlar atmışdır. Biz dünyaya açıq bir ölkəyik. Belə olan halda, əlbəttə, bizim xarici siyasətimiz, xaricdə Azərbaycanın imici daha da güclənməlidir. Əlbəttə, bunu etmək üçün ölkə daxilində proseslər getməlidir, ölkə inkişaf etməlidir, demokratikləşmə prosesi daha da sürətlə getməlidir, iqtisadiyyat inkişaf etməlidir. Əlbəttə, əgər bunlar olmasa, nə istəyirsən et, Azərbaycan haqqında müsbət imic yaratmaq mümkün olmayacaqdır. Amma bütün bunlar olan halda, Azərbaycan dünya birliyi üçün çox önəmli bölgəyə çevrilir.

Bilirsiniz ki, Azərbaycanda demokratiyanın inkişafında böyük addımlar atılıbdır. Avropa Şurası ilə əlaqədar məsələlər öz həllini tapır. Baxmayaraq ki, hələ bizim maliyyə imkanlarımız məhduddur, amma sosial məsələlər öz həllini tapır. Azərbaycanın Neft Fondundan qaçqınların, məcburi köçkünlərin yerləşdirilməsinə, onların həyat səviyyəsinin yaxşılaşdırılmasına böyük vəsaitlər ayrılır. Digər sosial məsələlər öz həllini tapır, minimum əmək haqqı qaldırılıbdır. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əmək haqları qaldırılır. Bu proseslər bundan sonra da gedəcəkdir. Mən demişəm ki, Azərbaycan bazar iqtisadiyyatına sadiqdir və bilirsiniz ki, ümumi daxili məhsulun 74 faizi özəl sektorun fəaliyyəti nəticəsində formalaşır. Eyni zamanda, biz sosial məsələlərə biganə qala bilmərik. Ən çətin vəziyyətdə yaşayanlar, təqaüdçülər, büdcədən maliyyələşən təşkilatlar haqqında fikirləşirik və imkan daxilində onların həyat səviyyəsi ildən-ilə yaxşılaşacaqdır. Mən bunu bəyan etmişəm, bu, mənim proqramımdır və mən bunu icra edəcəyəm. Yəni demək istəyirəm ki, Azərbaycanda bütün sahələrdə gedən proseslər - həm xarici, həm də daxili siyasətdə gedən proseslər imkan verir ki, Azərbaycan özünü daha da yaxşı tanıtsın, dünya ictimaiyyəti qarşısında özünü daha da gözəl təqdim etsin. Bunu hər birimiz etməliyik. Buradakı vəzifəli şəxslər, ictimaiyyət, digər qurumlar və əlbəttə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin işçiləri.

Mən ümid edirəm ki, biz qarşımızda duran bütün məqsədlərə çatacağıq. Azərbaycanın xarici siyasəti bundan sonra da ölkəmizin milli maraqlarına xidmət edəcəkdir. Siz səfirlər ölkəmizi xaricdə təmsil edirsiniz və Azərbaycan haqqında rəylər, fikirlər xeyli dərəcədə sizin fəaliyyətinizin nəticəsində yaranır, formalaşır. Əlbəttə, bu, böyük şərəfdir. Amma eyni zamanda, böyük məsuliyyətdir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bundan sonra da doğma Vətənimizi xaricdə ləyaqətlə təmsil edəcəksiniz. Bu işlərdə sizə uğurlar arzulayıram. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DƏMİR YOLU İNKİŞAF KORPORASİYASI BEYNƏLXALQ TƏŞKİLATININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 28-də Prezident sarayında Dəmir Yolu İnkişaf Korporasiyası beynəlxalq təşkilatının (RDC) sədri, mesenat Henri Poznerin (ABŞ) başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan dövlətimizin başçısı Bakıda yaradılmış "COYNT" yəhudi mərkəzinin fəaliyyətə başlamasını yüksək qiymətləndirdi və bunun Azərbaycanın ictimai həyatında çox mühüm bir hadisə olduğunu qeyd etdi. Dövlətimizin başçısı yəhudi

icması üzvlərinin Azərbaycan cəmiyyətində iştirakı və əlaqələrinin koordinasiyası ilə məşğul olacaq bu mərkəzin təkcə yəhudilər üçün deyil, ümumiyyətlə, Azərbaycanda yaşayan müxtəlif millətlərin, xalqların və dinlərin respublikamızın ictimai həyatında iştirakı baxımından çox əhəmiyyətli rol oynayacağına əminliyini ifadə etdi. Son illərdə Azərbaycanın ən mühüm nailiyyətlərindən birinin milli və dini tolerantlıq olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycanda bütün millətlərin və xalqların nümayəndələrinin vahid bir ailənin üzvləri kimi yaşadığını bildirərək dedi ki, bu, Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin ən əsas istiqamətlərindən biridir. Hələ Sovet İttifaqı dövründə Azərbaycanda yaşayan millətlər və xalqlar arasında əmin-amanlıq hökm sürdüyünü qeyd edən Prezident, ümumiyyətlə, yəhudilərin ölkəmizin ictimai həyatının bütün sahələrində fəal iştirak etdiyini vurğuladı.

Prezident İlham Əliyev mərkəzin yaradılmasında nümayəndə heyəti başçısının və bu işdə iştirak edən təşkilatların rolunu yüksək qiymətləndirdi.

Bu yaxınlarda ölkəmizin şimal bölgəsinə səfəri zamanı Quba rayonunda yəhudilərin yığcam yaşadıqları Qırmızı qəsəbədə olduğunu məmnuniyyətlə xatırladan Azərbaycan Prezidenti onlarla görüşün çox gözəl keçdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda digər xalqların və millətlərin də azad və firavan yaşaması üçün hər cür şərait yaradılmışdır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən Henri Pozner mərkəzin açılmasının həqiqətən də çox əhəmiyyətli bir hadisə olduğunu bildirdi və yəhudilərin tarixən Azərbaycanın ictimai həyatında çox fəal iştirakını xatırladaraq, mərkəzin Azərbaycanda gələcəkdə bu prosesin davam etdirilməsi işinə xidmət edəcəyini xüsusi vurğuladı.

Qəbulda iştirak edən Bakı dağ yəhudiləri dini icmasının sədri Semyon İxilov Prezident İlham Əliyevə müraciətlə dedi ki, uzun illərdir Azərbaycanda yaşayan yəhudilərə olan xoş münasibətə görə təşəkkür edirik. Ötən prezident seçkilərində onlar müdrik dövlət xadimi, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısına, Sizə böyük məmnuniyyətlə səs vermişlər və daim Sizin siyasətinizi dəstəkləyəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA ALİ RADASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 28-də Prezident sarayında Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkili Nina Karpaçovanı qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq siyasi, iqtisadi və digər sahələrdə Azərbaycan-Ukrayna əlaqələrinin uğurlu inkişafından məmnun qaldığını bildirdi. Azərbaycan Prezidenti Ukraynaya bu yaxınlardakı dövlət səfərinin yekunlarından danışaraq qeyd etdi ki, bu səfər ikitərəfli münasibətlərin strateji səviyyəsinə sadiqliyimizi bir daha nəzərə çarpdırdı.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan və Ukrayna nisbətən gənc dövlətlərdir və müstəqil dövlətin təşəkkülü prosesi iqtisadiyyat, siyasət sahəsində və insan hüquqları-

nın müdafiəsi kimi üstün sahədə böyük səylər göstərilməsini tələb edir. Bununla əlaqədar Prezident müstəqil dövlətlərin ictimai həyatında yeni element olan ombudsman təsisatları arasında əməkdaşlığın vacibliyini vurğuladı, müxtəlif beynəlxalq təşkilatlarda, xüsusən Avropa Şurasında insan hüquqları sahəsində Azərbaycan-Ukrayna əməkdaşlığını yüksək qiymətləndirdi. Dövlətimizin başçısı bu istiqamətdə təcrübə mübadiləsinin və birgə səyləri əlaqələndirməyin vacibliyini vurğulayaraq ölkələrimizin ombudsman təsisatları arasında əməkdaşlığın daha da genişləndiriləcəyinə ümid bəslədiyini söylədi.

Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkili Nina Karpaçova səmimi qəbula görə Azərbaycan rəhbərinə təşəkkürünü bildirərək dedi ki, səfərin birinci günü Ukrayna nümayəndə heyətinin üzvləri ümummilli lider Heydər Əliyevin və onun həyat yoldaşı Zərifə xanımın məzarlarını ziyarət etdilər. O, Ukrayna Prezidenti Leonid Kuçmanın salamını və xoş arzularını Azərbaycan Prezidentinə yetirdi.

Qonaq ölkəmizin ictimai-siyasi həyatında yüksək dinamika olduğunu qeyd edərək, ümummilli lider Heydər Əliyevin Azərbaycanın sabit inkişafına yönəldilmiş siyasi xəttinin varisliyinin əhəmiyyətini vurğuladı. Nina Karpaçova Azərbaycanda keçirdiyi görüşlərdən danışaraq, qaçqınlarla qarşıdakı görüşü xüsusi qeyd etdi. Ukrayna ombudsmanı Azərbaycan qaçqınlarının ağır vəziyyətini humanitar fəlakət kimi qiymətləndirərək bildirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində onun ölkəsi Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir və yenə dəstəkləyir.

Nina Karpaçova səfərinin məqsədindən bəhs edərək dedi ki, ölkələrimizin ombudsmanları arasında əməkdaşlığa dair imzalanacaq ikitərəfli saziş insan hüquqlarının müdafiəsi sahəsində Ukrayna ilə Azərbaycan arasında münasibətlərdə yeni səhifə açacaqdır. O, Ukraynadakı yarım milyonluq Azərbaycan diasporunun ölkənin ictimai-siyasi həyatında fəal iştirak etdiyini vurğulayaraq, respublikamızdakı Ukrayna diasporunun nümayəndələrinə daimi qayğı və diqqətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Nina Karpaçova bu ilin yazında Bakıda qəzaya uğramış Ukrayna təyyarəsi heyətinin üzvlərinə Azərbaycan tərəfinin diqqətinə görə də təşəkkür etdi.

BÜTÜN QÜVVƏLƏR DÖVLƏTİMİZİN DAXİLİ VƏ XARİCİ QÜDRƏTİNİN ARTIRILMASINA YÖNƏLDİLMƏLİDİR

Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri rəhbərlərinin Xarici İşlər Nazirliyində keçirilən müşavirəsi iyulun 28-də öz işini davam etdirmişdir.

Səhər iclasında müdafiə naziri Səfər Əbiyev, daxili işlər naziri Ramil Usubov, milli təhlükəsizlik naziri Eldar Mahmudov, ədliyyə naziri Fikrət Məmmədov, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev çıxış etmişlər.

Müdafiə naziri Səfər Əbiyev ordu quruculuğunda ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərindən, ölkəmizin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nazirliyin qarşısında qoyduğu vəzifələrdən və onların yerinə yetirilməsi istiqamətində görülən işlərdən söhbət açmışdır. Daxili işlər naziri Ramil Usubov çıxışında müşavirənin əhəmiyyətini vurğulayaraq demişdir ki, bu tədbir səfirliklərimizin və digər diplomatik nümayəndəliklərimizin fəaliyyətinin gücləndirilməsinə, cinayətkarlığa qarşı mübarizə-

də, ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq imkanlarının daha da genişlənməsinə şərait yaradacaqdır. Xarici siyasətin milli təhlükəsizlik anlamı ilə sıx bağlı olduğunu xatırladan milli təhlükəsizlik naziri Eldar Mahmudov ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən dövlət strukturlarının sıx və işgüzar qarşılıqlı əlaqələrinin formalaşdırılmasının və bunun vahid mexanizm forması almasının vacibliyini vurğulamışdır. Dövlət sərhəd xidmətinin rəisi Elçin Quliyev rəhbəri olduğu qurumun xarici əlaqələrinin inkişafında beynəlxalq təşkilatlarla münasibətlərin xüsusi yer tutduğunu bildirmişdir.

Çıxışlardan sonra müzakirələr olmuş, səfirlər onları maraqlandıran suallara cavab almışlar. Əsasən xaricdə konsulluqda qeydiyyatda duran Azərbaycan vətəndaşlarının ümumvətəndaş pasportunun müddəti bitdiyi təqdirdə onun vaxtının uzadılması və ya yenisi ilə əvəz edilməsi məsələsinin asanlaşdırılması mexanizminə dair təkliflər irəli sürülmüşdür. Daxili işlər naziri Ramil Usubov bu məsələnin Xarici İşlər Nazirliyi ilə birlikdə nəzərdən keçiriləcəyini bildirmişdir.

Fasilədən sonra müşavirə iqtisadi inkişaf naziri Fərhad Əliyev, vergilər naziri Fazil Məmmədov, gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, maliyyə nazirinin birinci müavini İlqar Fətizadənin iştirakı ilə öz işini davam etdirmişdir. Ölkəmizdə səmərəli iqtisadi islahatların aparıldığını vurğulayan iqtisadi inkişaf naziri Fərhad Əliyev səfirlərin biznes mühitinin yaxşılaşdırılması, xaricdə təcrübə keçən iş adamlarına lazımi şərait yaradılması sahəsində, habelə TRACECA proqramına üzv olan ölkələrin səfirlikləri ilə intensiv iş aparmasının vacib olduğunu söyləmişdir.

Vergilər naziri Fazil Məmmədov əlavə dəyər vergisi tutulmasının qarşılıqlı aparılmasının, işlədikləri ölkələrdə iqtisadi proseslərlə bağlı arayışların hazırlanmasında səfirlərin fəallığının yüksəldilməsinin zəruriliyini qeyd etmişdir. Gənclər, idman və turizm naziri Əbülfəz Qarayev beynəlxalq yarışların təşkilində səfirliklərimizin nümayəndələrinin yaxından iştirak etməsinin, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin, konsulluqlarının respublikamızın turizm şirkətlərinə şərait yaratması üçün nazirliyə kömək göstərmələrinin vacibliyini diqqətə çatdırmışdır. Maliyyə nazirinin birinci müavini İlqar Fətizadə öz çıxışında büdcəyə nəzarətin gücləndirilməsinin vacibliyindən, səfirliklərdə xidməti avtomobildən istifadə qaydalarından, milli bayramların qeyd edilməsi ilə bağlı normativ sənədlərin hazırlanmasından söhbət açmışdır.

Qaldırılan məsələlər ətrafında müzakirələrdə səfirlər, əsasən, bank əməliyyatları zamanı rüsumların tutulması ilə əlaqədar qarşıya çıxan problemlərlə bağlı vergilər və maliyyə nazirliklərinin nümayəndələrinə müraciət etmişlər. Səfirləri maraqlandıran digər vacib məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Fasilədən sonra Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə, Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, mədəniyyət naziri Polad Bülbüloğlu, təhsil naziri Misir Mərdanov, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov müşavirədə çıxış etmişlər. Parlamentlərarası tədbirlərdə iştirak etmək üçün xarici ölkələrə səfər edən deputatların səfirliklərlə birgə fəaliyyətinin əlaqələndirilməsinin vacibliyindən danışan Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə bununla bağlı xarici işlər naziri Elmar Məmmədyarovun parlamentə yazılı müraciətinin yüksək qiymətləndirdiyini bildirmişdir. Qaçqınlara və məc-

buri köçkünlərə humanitar yardım göstərilməsinin diqqət mərkəzində olduğunu söyləyən Baş nazirin müavini Əli Həsənov səfirliklərin beynəlxalq maliyyə qurumları ilə əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışdır. Azərbaycan mədəniyyəti və incəsənətinin xaricdə təbliği sahəsində səfirliklərin yaratdıqları şəraitdən danışan mədəniyyət naziri Polad Bülbüloğlu diplomatik missiyalarda bu məsələ ilə məşğul olan attaşelərin təyin edilməsi və onların əvvəlcə Mədəniyyət Nazirliyində təcrübə keçməsi barədə təklif irəli sürmüşdür. Təhsil naziri Misir Mərdanov xarici ölkələrlə təhsil sahəsində ikitərəfli sazişlərin imzalanmasında, şagird, tələbə və magistr mübadiləsində, birgə elmi tədqiqatların aparılmasında, ölkəmizin beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulmasında Xarici İşlər Nazirliyi ilə gələcəkdə də birgə fəaliyyətin davam etdirilməsinin əhəmiyyətindən danışmış və xaricdə təhsil alan tələbələrə səfirliklərimiz tərəfindən kömək göstərilməsinin vacib iş olduğunu bildirmişdir.

Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycan diasporu ilə intensiv iş aparılmasının ölkəmizin milli maraqları üçün vacibliyini vurğulayaraq, bu sahədə XİN vasitəsilə səfirliklərlə birgə əməkdaşlığın zəruri olduğunu qeyd etmişdir.

Çıxışlardan sonra müzakirələr davam etdirilmişdir. Səfirlər diplomatik korpusun ölkəmizə aid audio, videokasetlər, kitablar, bukletlər və suvenirlərdən ibarət təbliğat materialları ilə təmin olunmasına dair təkliflə Baş nazirin müavini Əli Həsənova, azərbaycanlı tələbələrin xaricdə təhsil alması üçün vəsait ayrılmasından ötrü Dövlət Neft Fonduna müraciət olunması barədə təhsil naziri Misir Mərdanova və digər vacib məsələlərlə bağlı əlaqədar nazirlərə təkliflərini vermişlər.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev müşavirəyə yekun vurmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Prezident sarayında ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya işləri bürosunda dövlət katibinin köməkçisi Elizabet Consun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan dövlətimizin başçısı İlham Əliyev son illər ölkələrimiz arasında əlaqələrin çox sürətlə inkişaf etdiyini vurğuladı. Hazırda Azərbaycanla ABŞ arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini deyən Azərbaycan Prezidenti bütün bu proseslərin başlanğıcının bu yaxınlarda on illiyini qeyd edəcəyimiz neft sahəsində imzalanmış müqavilə ilə qoyulduğunu bildirdi. O dedi ki, siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sürətlə inkişaf edən əlaqələrimiz qarşılıqlı anlaşma və dəstəyə əsaslanır. Prezident İlham Əliyev Azərbaycanda iri enerji layihələrinin həyata keçirilməsində Amerika hökumətinin xüsusi rolunu yüksək qiymətləndirərək, buna görə ABŞ rəhbərliyinə minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı gələcəkdə də ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişaf edəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən qonaq dövləti-

mizin başçısına ABŞ Prezidenti Corc Buşun səmimi salamlarını, həmçinin ABŞ dövlət katibi Kolin Pauellin və dövlət katibinin birinci müavini Riçard Armitacın ehtiramlarını çatdırdı. O qeyd etdi ki, Prezident Corc Buş Prezident İlham Əliyevlə İstanbulda keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, Azərbaycanın dövlət başçısı ilə orada apardığı danışıqları yüksək qiymətləndirmişdir.

Xanım Elizabet Cons daha sonra müxtəlif məsələlər ətrafında Azərbaycan Prezidenti İlham Əliyevlə apardığı çox səmərəli siyasi məsləhətləşmələrə görə minnətdarlığını bildirdi. Ölkəsinin Azərbaycanla əlaqələrinin sürətlə inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın İraqda və Əfqanıstanda antiterror koalisiyasında fəal iştirakının ABŞ rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi və bunu Azərbaycanın dost bir ölkə kimi fəaliyyətinin təzahürü adlandırdı.

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda Prezident Corc Buşla keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, ABŞ Prezidentinə, habelə Kolin Pauellə və Riçard Armitaca səmimi salamlarını çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimizi maraqlandıran məsələlər ətrafında müzakirələr aparıldı.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Ölkəmizdə səfərdə olan Sloveniyanın ATƏT yanındakı daimi nümayəndəsi Yaneç Lenarçiç iyulun 30-da xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşdür.

Sloveniyanın 2005-ci ildə ATƏT-ə sədrlik edəcəyini xatırladan diplomat, Azərbaycanın mövqeyinin onun ölkəsi üçün əhəmiyyətli olduğunu vurğulamışdır. Qonaq nazirliyin ATƏT-in Bakı ofisi ilə əlaqələrinin səviyyəsi ilə də maraqlanmışdır.

Nazir Elmar Məmmədyarov ölkəmizin ATƏT-lə əlaqələri, 1992-ci ildə yaradılmış Minsk konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik edən Minsk qrupu ilə əməkdaşlıq barədə məlumat vermişdir. Minsk qrupunun münaqişənin həlli istiqamətində fəaliyyətinin konkret bir nəticə vermədiyini təəssüflə qeyd edən nazir ümidvar olduğunu bildirmişdir ki, ATƏT-ə sədrlik edəcək Sloveniya bu istiqamətdə öz səylərini əsirgəməyəcəkdir. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini, ATƏT-in Lissabon sammitinin üç prinsipini xatırladan Elmar Məmmədyarov demişdir ki, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinə bəraət qazandırıla bilməz.

ATƏT-in Bakı ofisi ilə əlaqələrə gəlincə isə, nazir bu sahədə birgə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini söyləmişdir. O, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində avqustun 8-də keçirilməsi nəzərdə tutulan qondarma "yerli özünüidarəetmə orqanlarına seçkilərə" ATƏT-in və beynəlxalq birliyin etiraz edəcəyinə əmin olduğunu vurğulamışdır.

Ölkəsi ilə Azərbaycan arasındakı əlaqələrə önəm verdiyini vurğulayan Yanеç Lenarçiç Sloveniyanın ATƏT-də sədrliyi zamanı Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq prinsiplərə əsaslanan ədalətli həlli işində səylərini əsirgəməyəcəyini xüsusilə qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Prezident sarayında Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Tyaqaçov başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı qonaqları salamlayaraq, Rusiya nümayəndə heyəti üzvlərinin Bakıda keçirdikləri görüşlərdən, idman komplekslərində olmasından, ölkələrimizin olimpiya komitələri arasında ikitərəfli sənədin imzalanmasından razı qaldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın və Rusiyanın olimpiya komitələri arasında yaranmış əməkdaşlığın yüksək səviyyədə olduğunu, Leonid Tyaqaçovun Rusiya Olimpiya Komitəsinə rəhbərliyə gəlməsindən sonra bu əməkdaşlığın daha da möhkəmləndiyini qeyd etdi. Bildirildi ki, ölkələrimizin olimpiya komitələrinin rəhbərləri arasında dostluq əlaqələrinin olması ikitərəfli əməkdaşlığın inkişafında mühüm amillərdən biridir.

Dövlətimizin başçısı bir çox istiqamətlərdə fəal inkişaf edən Azərbaycan-Rusiya əlaqələrindən danışaraq, cari ilin qışında Rusiyaya etdiyi rəsmi səfərini uğurlu adlandırdı. Respublikamızın rəhbəri dedi ki, Rusiyada Azərbaycan və Azərbaycanda Rusiya illərinin keçirilməsi bir çox məsələlərin, o cümlədən olimpiya hərəkatı, idman sahəsində, ümumən, humanitar sahədə məsələlərin həll edilməsinə imkan verəcəkdir.

Prezident İlham Əliyev Rusiya nümayəndə heyətinin üzvlərini Azərbaycanda artıq üçüncü dəfə keçirilən "Nə? Harada? Nə vaxt?" zəka oyunu üzrə dünya çempionatının bağlanış mərasiminə də dəvət etdi.

Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Tyaqaçov səmimi qəbula görə Azərbaycan Prezidentinə təşəkkür edərək, ona Rusiyanın bütün olimpiyaçılarının səmimi salamını yetirdi. Onun sözlərinə görə, Rusiyanı və Azərbaycanı yaxınlaşdıran həm də budur ki, ölkələrimizə idmanın inkişafına, sağlam həyat tərzinin tətbiqinə böyük diqqət yetirən şəxsiyyətlər rəhbərlik edirlər. Leonid Tyaqaçov idman sahəsində ikitərəfli əməkdaşlıqdan söz açaraq, səfər zamanı qarşılıqlı əməkdaşlıq haqqında imzalanmış müqaviləni tarixi sənəd adlandırdı.

Prezident İlham Əliyev onunla Rusiya Prezidenti Vladimir Putin arasında yaranmış sıx dostluq əlaqələrindən danışaraq qeyd etdi ki, hər iki dövlətin başçılarını idmana məhəbbət birləşdirir. Dövlətimizin başçısı idmanı cəmiyyətin həyatının ayrılmaz amili kimi qiymətləndirərək vurğuladı ki, Rusiyada da, Azərbaycanda da idmanın, o cümlədən də kütləvi idmanın inkişafına böyük diqqət yetirilir. O dedi: "Mən siyasətə idmandan gəlmişəm və bu gün Milli Olimpiya Komitəsinə başçılıq etməyimin 7 ili tamam olur". Azərbaycan Prezidenti Rusiya idmançılarının uğurlarından danışaraq qeyd etdi ki, son vaxtlar Rusiya idman sahəsində özünün keçmiş nüfuzunu qaytarmağa müvəffəq olmuşdur. O, ümidvar olduğunu söylədi ki, qarşıdakı Olimpiya Oyunlarında həm Rusiya, həm də Azərbaycan idmançıları uğurla çıxış edəcəklər.

Leonid Tyaqaçov Azərbaycan rəhbərinə Olimpiya kuboku təqdim etdi.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV İRANA SƏFƏR ETMİŞDİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyulun 31-də İran İslam Respublikasına işgüzar səfərə yola düşmüşdür.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovu iyulun 31-də bu ölkənin Prezidenti Seyid Məhəmməd Xatəmi qəbul etmişdir. Ölkəmizin xarici siyasət idarəsinin başçısı E.Məmmədyarov həmin gün iranlı həmkarı Kamal Xərrazi ilə də görüşüb danışıqlar aparmışdır.

Görüşlərdə E.Məmmədyarov Azərbaycan-İran münasibətlərinə xalqımızın ümummilli lideri Heydər Əliyevin xüsusi diqqət yetirdiyini vurğulamış, ölkələrimizin prezidentlərinin qarşılıqlı səfərlərinin ikitərəfli əlaqələrin inkişafına xidmət etdiyini bildirmiş, münasibətlərimizin irəli getməsi üçün həmin siyasi xəttin bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləmişdir.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində dövlətlərimiz arasında mövcud olan əməkdaşlıqdan məmnun qaldığını bildirən E.Məmmədyarov, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dövlətimizin ərazi bütövlüyünün İran tərəfindən dəstəkləndiyini yüksək qiymətləndirmişdir. Nazir İran Prezidentinin Azərbaycana yaxın günlərdə həyata keçiriləcək rəsmi səfəri ilə əlaqədar hazırlıq işlərinin davam etdirildiyini bildirmişdir.

İran-Azərbaycan münasibətlərinin inkişafına xüsusi diqqət yetirdiyini söyləyən Prezident Seyid Məhəmməd Xatəmi ümummilli liderimiz Prezident Heydər Əliyevin əlaqələrimizin inkişafına xüsusi qayğı ilə yanaşdığını minnətdarlıqla xatırlamış, ölkələrimizin münasibətlərinin tərəqqisinə göstərdiyi diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirmişdir.

Yaxın günlərdə Azərbaycan Respublikasına edəcəyi səfərdən son dərəcə məmnun olduğunu bildirən İran Prezidenti ölkəsinin respublikamızla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu vurğulamışdır. İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsinə tərəfdar olduğunu bildirən İran Prezidenti, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etmiş, münaqişənin nizamlanmasında ölkəsinin səylərini əsirgəməyəcəyini diqqətə çatdırmışdır.

Prezident Xatəmi ölkələrimiz arasında iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində birgə səylərin bundan sonra da davam etdirilməsinin zəruriliyini bildirmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovun iranlı həmkarı K.Xərrazi ilə görüşündə İran Prezidenti S.M.Xatəminin respublikamıza yaxın günlərdə həyata keçiriləcək rəsmi səfəri, habelə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur. K.Xərrazi Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində Azərbaycanın iştirakının İran tərəfindən dəstəkləndiyini bəyan etmişdir. Xarici işlər nazirlərinin danışıqlarının yekunlarına dair kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirilmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi A.Orazbay ilə də görüşmüşdür. Görüşdə İƏT-ə üzv ölkələrin dövlət başçılarının bu ilin sentyabr ayında Düşənbədə keçiriləcək zirvə toplantısına hazırlıq, habelə təşkilata üzv ölkələr arasında nəqliyyat, tarif və energetika sahələrində əməkdaşlığa dair məsələlər müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın Tehrandakı səfirliyinin əməkdaşları ilə görüşmüş, bu il iyulun 27-28-də respublikamızın xarici ölkələrdəki səfirləri ilə Bakıda keçirilən müşavirədə Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr barədə ətraflı məlumat vermişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov İran islam inqilabının lideri imam Xomeyninin məzar-məqbərə kompleksini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində komanda-qərargah təlimləri keçirməsinə dərin narahatlıq hissi ilə diqqəti cəlb edir.

Ermənistan tərəfinin bu hərəkətləri Dağlıq Qarabağın üzdəniraq "silahlı qüvvələri"nin, əslində isə, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində yaratdığı separatçı rejimin qeyri-leqal silahlı birləşmələrinin təlimləri kimi qələmə vermək cəhdləri dünya birliyini aldada bilməz.

Azərbaycanın işğal olunmuş ərazilərində 2004-cü il avqustun 8-də qanunsuz seçkilər keçirmək niyyəti ilə yanaşı, bu təlimlərin də keçirilməsi Ermənistan tərəfinin növbəti fitnəkarlığıdır.

Bu təlimlər NATO-nun Azərbaycanda sentyabrda keçiriləcək "Cooperative best effort-04" təlimlərində Ermənistan nümayəndələrinin nəzərdə tutulan iştirakı ətrafında ab-havanı da gərginləşdirir.

Ermənistan tərəfinin hərəkətləri münaqişə regionunda onsuz da sadə olmayan vəziyyəti ümumən gərginləşdirməklə yanaşı, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında danışıqların növbəti dövrəsinə hazırlığı əhəmiyyətli dərəcədə mürəkkəbləşdirir.

XİN beynəlxalq birliyin diqqətini ona cəlb edir ki, bu təlimlərin keçirilməsi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə və onun ərazilərinin işğalına növbəti əyani sübutdur.

Bu hərəkətlər Ermənistan Respublikasının Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə sülh yolu ilə həllinə doğru getmək istəmədiyini bir daha sübut edir və bu ölkənin hərbi təcavüzün nəticələrini hər vasitə ilə möhkəmləndirməyə cəhd etdiyini göstərir.

Bakı, 4 avqust 2004-cü il

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə İran İslam Respublikasının Prezidenti seyid Məhəmməd Xatəmi avqustun 5-də ölkəmizə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 5-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəminin təkbətək görüşü keçirilmişdir.

Təkbətək görüşdən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi bir daha ürəkdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm. Ölkələrimiz arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin İrana rəsmi səfərindən sonra bu münasibətlər daha da sürətlə inkişaf edir. Azərbaycan-İran münasibətləri bütün sahələrdə - siyasi, iqtisadi, mədəni və humanitar istiqamətlərdə inkişaf edir və gün-gündən güclənir. Biz əlaqələrimizə böyük önəm veririk. Azərbaycanda bütün sahələrdə olduğu kimi, xarici siyasətdə, o cümlədən İranla Azərbaycan arasında olan münasibətlərdə də Heydər Əliyev siyasəti davam etdirilir. Biz münasibətlərimizin daha da güclənməsini və bütün səviyyələrdə daha da inkişaf etməsini istəyirik.

Hörmətli cənab Prezident, bu baxımdan Azərbaycanda Sizin səfərinizə böyük əhəmiyyət verilir. Biz əminik ki, bu səfər çox uğurlu olacaq və aramızda olan əlaqələr yeni pilləyə qalxacaqdır. Biz artıq təkbətək görüş zamanı müxtəlif məsələləri müzakirə etmişik, fikir mübadiləsi aparmışıq və şübhə etmirəm ki, bu məsləhətləşmələr müxtəlif sahələrdə yaxından əməkdaşlıq etməyimizə imkan verəcəkdir.

Biz çox şadıq ki, Siz Azərbaycana böyük bir nümayədə heyəti ilə gəlmisiniz. Ümidvaram ki, nümayəndə heyətinin üzvləri Azərbaycanda səmərəli işləyəcək və bizim ölkənin rəsmi şəxsləri ilə səmərəli danışıqlar aparacaqlar. İran Azərbaycan üçün dost və qonşu ölkədir. Əminəm ki, bu gözəl münasibətlər davam edəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, səfəriniz uğurlu olacaqdır.

İran Prezidenti MƏHƏMMƏD XATƏMİ Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirərək dedi:

- Mən ilk öncə Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə bir daha təbrik edirəm və Sizi inandırıram ki, münasibətlərimiz daha da inkişaf edəcəkdir.

Mən habelə Azərbaycan xalqının ümummilli liderinin ruhunun şad olmasını arzu edirəm.

İran Prezidenti Məhəmməd Xatəmi rəsmi nümayəndə heyətinin üzvlərini Azərbaycan Prezidentinə təqdim etdikdən sonra dedi:

- Bizim istəyimiz Azərbaycan Respublikasını sabit, iqtisadi cəhətdən inkişaf etmiş və güclü dövlət kimi görməkdir. Siz əmin ola bilərsiniz ki, Azərbaycan Respublikasının iqtisadi inkişafı və sabitliyinin təmin olunması üçün görülən tədbirlərin hamısını alqışlayırıq və bunun üçün əlimizdən gələn köməyi əsirgəməyəcəyik. İran İslam Respublikasının siyasəti və bizim rəsmi şəxslərin fikirləri bundan ibarətdir ki, Azərbaycanla İran arasında münasibətlər inkişaf etdirilməlidir.

Mərhum Heydər Əliyevin Prezidentliyi dövründə İranla Azərbaycan arasında münasibətlərin inkişafında mühüm addımlar atılmışdır. Biz inanırıq ki, Sizin Prezidentliyiniz dövründə də həmin yol davam etdiriləcəkdir. Ümidvaram ki, Azərbaycan Respublikasına səfərimiz həm ikitərəfli münasibətlərin inkişafında, həm də regionda sülhün və sabitliyin möhkəmlənməsində mühüm rol oynayacaqdır. Biz Azərbaycan Respublikasının ərazi bütövlüyünü bir daha təsdiqləyir və elan edirik ki, Azərbaycanla İranın sərhədləri sülh, dostluq və qardaşlıq sərhədləri olacaqdır. Ümid edirik ki, Xəzər dənizinin hüquqi statusu ilə əlaqədar yaxın zamanlarda sahilyanı ölkələrin hamısının mənafeyini təmin edən və bütün tərəfləri qane edən bir razılığa nail olacağıq. Bu baxımdan Tehranda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə toplantısı bu istiqamətdə mühüm addım olacaqdır. Biz hesab edirik ki, ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı üçün geniş imkanlar mövcuddur. Energetika, kənd təsərrüfatı və ticarət sahəsində çox uğurlu əməkdaşlıq edirik. Sadaladığım sahələrdə əməkdaşlıqdan əlavə, digər istiqamətlərdə də işbirliyinin, layihələrin adını çəkə bilərəm ki, bunlar İran-Azərbaycan münasibətlərində yenilikdir.

Bakı-Astara avtomobil yolunun tikintisi və iki ölkənin dəmir yol xətlərinin birləşdirilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və bu xəttin Azərbaycan ərazisindən keçməsi üçün çox mühüm layihələr var ki, bunlar da ölkələrimizi bir-birinə daha yaxından bağlayacaqdır. Naxçıvan Muxtar Respublikasına İran təbii qazının ötürülməsi ilə bağlı layihə də həyata keçiriləcəkdir. İran İslam Respublikasının "Samir" şirkəti vasitəsilə Azərbaycan ərazisində 4 elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Habelə qeyd etməliyəm ki, iki ölkənin sərhəd zonalarında - Astara, Culfa və Poldəşt-Şahtaxtı körpülərinin inşası müzakirə edilir və ümidvarıq ki, bu sahədə də müsbət nəticələr əldə olunacaqdır. Biz Azərbaycanda iqtisadi layihələrin həyata keçirilməsi üçün kreditlər ayırmışıq və çalışırıq ki, Sizin ölkənizə birdəfəlik və əvəzsiz yardımlar ayıraq.

Bu gün mən bir daha Allaha minnətdaram ki, qəlbimin dərinliklərindən gələn arzum yerinə yetmişdir və Azərbaycan Respublikasına səfərə gəlmişəm. Bildiyiniz kimi, cənab İlham Əliyev müxtəlif vaxtlarda bizim müxtəlif nümayəndə heyətlərimiz tərəfindən İrana rəsmi səfərə dəvət olunmuşdur. Bu gün mən burada sizin iştirakınızla bir daha cə-

nab İlham Əliyevi İran İslam Respublikasına rəsmi səfərə dəvət edirəm.

Sağ olun. Təşəkkür edirəm.

Rəsmi dəvətə görə İranın dövlət başçısına təşəkkürünü bildirən Azərbaycan Prezidenti İLHAM ƏLİYEV dedi:

- Hörmətli cənab Prezident, bu dəvətə görə sağ olun. Mən böyük məmnuniyyətlə İran İslam Respublikasına səfər edəcəyəm.

AZƏRBAYCAN-İRAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan və İran prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

"Azərenerji" Səhmdar Cəmiyyəti və İran İxrac İnkişaf Bankı arasında İmişli-Əli Bayramlı-Astara elektrik verilişi xətlərinin və yarımstansiyaların layihələşdirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə maliyyə müqaviləsini Azərbaycan tərəfindən maliyyə naziri Əvəz Ələkbərov, "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, İran tərəfindən İran İxrac İnkişaf Bankının prezidenti və idarəedici direktoru Novruz Kohzadi, "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyəti və İran Milli Qaz Satışı Şirkəti arasında təbii qaz mübadiləsi üzrə müqaviləni Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Əlixan Məlikov, İran tərəfindən İran Qaz Satışı Şirkətinin prezidenti Davud Qasımzadə imzaladılar.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov və İranın xarici işlər naziri Kamal Xərrazi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının ətraf mühit departamenti arasında anlaşma memorandumunu imzaladılar. Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən mədəniyyət naziri Polad Bülbüloğlu, İran tərəfindən xarici işlər naziri Kamal Xərrazi, Azərbaycan Respublikası və İran İslam Respublikası dəmir yolları arasında əməkdaşlıq haqqında protokolu Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfindən yol və nəqliyyat nazirinin müavini Səid Nejat, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfindən yol və nəqliyyat nazirinin müavini Səid Nejat, Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında Astara-Bakı yolunun maliyyələşdirilməsinə dair memorandumu Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfindən İran İxrac İnkişaf Bankının prezidenti və idarəedici direktoru Novruz Kohzadi imzaladılar.

Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyev və İranın kooperasiya naziri Əli Sufi Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında sərhədyanı ticarət sahəsində memorandumu, Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında ticarət sazişini Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, İran tərəfindən isə ticarət nazirinin müavini Müştəba Xosrovtac imzaladılar.

Sonra Azərbaycanın daxili işlər naziri Ramil Usubov və İran İslam Respublikasının daxili işlər naziri Əbdülvahid Musəvi Lari Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında sazişi imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Avqustun 5-də Prezident sarayında Azərbaycan-İran sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Məhəmməd Xatəminin birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün İran İslam Respublikasının Prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfəri başlayıbdır. Deyə bilərəm ki, bu səfər çox uğurlu keçir. Həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüşümüzdə geniş fikir mübadiləsi aparılmış, müxtəlif məsələlər müzakirə edilmişdir. İkitərəfli məsələlər, regionda gedən proseslər müzakirə olunmuşdur. Bildiyiniz kimi, İranla Azərbaycan arasında olan münasibətlər uğurla inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra İran Azərbaycanla çox uğurlu əməkdaşlıq edir. Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində biz İranın dəstəyini daim hiss etmişik və bu gün də hiss edirik.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfərindən sonra bizim ikitərəfli münasibətlərimizə yeni təkan verilmişdir. Biz çox istəyirik ki, bütün sahələrdə münasibətlərimiz daha da inkişaf etsin, əlaqələrimiz güclənsin. Hazırda İranla Azərbaycan arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə münasibətlər inkişafdadır.

Bu gün çox önəmli, böyük əhəmiyyət kəsb edən sənədlər imzalanmışdır. İqtisadi, nəqliyyat, mədəni sahələrdə, energetika, qaz sahəsində çox önəmli sazişlər imzalanmışdır. Bu sazişlərin icrası nəticəsində Azərbaycanda minlərlə yeni iş yeri açılacaqdır. Energetika və qaz sahəsində mübadilə sazişləri bizə imkan verəcək ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi və qazla təmin edə biləcəyik.

Bu gün imzalanan sənədlər iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir və eyni zamanda, siyasi cəhətdən bu sazişlər iki ölkəni daha da yaxınlaşdıracaqdır. Mən əminəm ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfərindən sonra iki ölkə arasında olan münasibətlər yeni pilləyə qalxacaq və xalqlarımız bir-birinə daha da yaxın olacaqdır.

Mən qeyd etdim ki, bu səfər çox uğurlu başladı. Əminəm ki, uğurlu da davam edəcəkdir. Bu səfərdən sonra İranla Azərbaycan arasında olan münasibətlər daha da güclənəcək, inkişaf edəcəkdir.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BƏYANATI

- Mehriban və bağışlayan Allahın adı ilə!

Tarix və coğrafiya iki dost və mehriban millət arasında çox böyük bağlılıqlar yaratmışdır. Bu bağlılıqlar siyasi şəxslərin üzərinə çox böyük məsuliyyət qoyur ki, biz siyasi, iqtisadi, mədəni və sair sahələrdəki əməkdaşlığı daha da genişləndirək və möhkəmləndirək. Bizim münasibətlərimizin təminatı müştərək tariximiz, dinimiz və müştərək mədəniyyətimizdir. Bizim sərhədlərimiz qarşılıqlı təhlükəsizliyimizi və inkişafımızı bir-birinə bağlayır.

Mən bu gün hörmətli Prezidentlə görüşümüzdə qeyd etdiyim kimi, bir daha deyirəm ki, İran-Azərbaycan sərhədləri sülh, dostluq və qardaşlıq sərhədləridir. Biz Azərbaycan Respublikasının təhlükəsizliyini və inkişafını özümüzün təhlükəsizliyimiz və inkişafımız hesab edirik. Bunu bir daha bəyan edirəm ki, hər iki ölkənin yüksək səviyyəli siyasi rəhbərliyinin münasibətlərimizin inkişafına böyük iradəsi vardır.

Bu gün imzalanan sənədlərin sayı və müxtəlif sahələri əhatə etməsi onu göstərir ki, bizim münasibətlərimiz bütün istiqamətlərdə inkişaf edəcəkdir. Biz buna əminik, elə bir mövzu yoxdur ki, müzakirələr və məsləhətləşmələr yolu ilə həll olunmasın. Münasibətlərimizi bütün istiqamətlərdə inkişaf etdirəcəyik və Allahın köməyi ilə yaxın zamanlarda Azərbaycan Respublikasının Təbriz şəhərində baş konsulluğunun açılmasının şahidi olacağıq. Mən inanıram ki, bu gün imzalanan sənədlər siyasi, iqtisadi və mədəni münasibətlərimizdəki inkişafı daha da genişləndirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və onun komandasının mənə göstərdiyi yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqına və hökumətinə dərin təşəkkürümü çatdırıram. Azərbaycan xalqının ümummilli lideri mərhum Heydər Əliyevin istəyi var idi ki, Azərbaycan-İran münasibətləri bütün sahələrdə inkişaf etsin. Bu, onun davamçıları, yəni bizlər tərəfindən həyata keçirilir və keçiriləcəkdir. Əminəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev siyasi bacarığı və idarəçilik qabiliyyəti ilə Azərbaycanı gün-gündən daha da inkişaf etdirəcəkdir.

* * *

Sonra Prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Hörmətli cənab Prezident Əliyev, İran İslam Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri və imzalanan sənədlərdən sonra Azərbaycan-İran münasibətlərinin gələcəyini necə görürsünüz?

İLHAM ƏLİYEV: Mən qeyd etdim ki, biz bu səfərə çox böyük əhəmiyyət veririk. Biz İranla Azərbaycan arasında olan münasibətlərə böyük önəm veririk. İran bizim üçün qonşu, dost ölkədir. Çox istəyirik ki, iki ölkə arasında olan münasibətlər daha da inkişaf etsin və bütün sahələrdə daha da güclənsin.

Bu gün imzalanmış sənədlər iki tərəfin siyasi iradəsini ifadə edir. Eyni zamanda, sənədlərin böyük əməli-praktiki əhəmiyyəti vardır. Enerji mübadiləsi sazişi, Naxçıvana İran-

dan təbii qazın ötürülməsi, Bakı-Astara yolunun yenidən qurulması və digər məsələlər bu sazişlərdə öz əksini tapıbdır. Əminəm ki, bu sazişlərin icrası nəticəsində iki ölkə, xalqlarımız bir-birinə daha da yaxın olacaqlar. Beləliklə, İranla Azərbaycan arasında münasibətlər yeni pilləyə qalxacaqdır. Biz bunu arzulayırıq. Əminəm ki, bu sazişlər bu arzuya çatmaq üçün gözəl zəmin yaradır.

SUAL: Mənim sualım İran Prezidentinədir. Cənab Prezident, ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Konfransı Təşkilatında və digər qurumlarda uğurlu əməkdaşlıq edirlər. Bu əməkdaşlığın gələcəyi barədə nə deyərdiniz?

MƏHƏMMƏD XATƏMİ: Qeyd olunduğu kimi, bizim ikitərəfli münasibətlərimizdən əlavə, beynəlxalq və regional təşkilatlar çərçivəsində də Azərbaycan-İran əməkdaşlığı mövcuddur. O cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində. Təqribən bir aydan sonra həmin təşkilata üzv olan ölkələrin dövlət başçılarının zirvə toplantısı keçiriləcəkdir. Mən belə düşünürəm ki, region ölkələri, o cümlədən müsəlman ölkələri arasında müştərək problemlər, məsələlər vardır. Bunların birgə əməkdaşlıq nəticəsində aradan qaldırılmasına nail olmaq mümkündür. Xüsusilə, biz İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımızı genişləndirməklə, islam dünyasının problemlərinə və məsələlərinə birgə münasibət bildirməklə qarşıya çıxan məsələlərin həllinə nail ola bilərik.

Birgə inkişaf bütün islam ölkələrinin müştərək məsələsidir. Biz gərək birlikdə əməkdaşlıq edək. Xüsusilə də islam dininin elmə, biliyə və inkişafa verdiyi önəmli rola görə əməkdaşlıq etməliyik. Bu gün islam dünyasında səhv və ifrat hərəkətlər baş verir və bu hərəkətlərə görə başqa ölkələr islam dünyasını ittiham edirlər. Biz gərək İslam Konfransı Təşkilatı çərçivəsində sübut edək ki, islam dini sülh, əmin-amanlıq, təhlükəsizlik və inkişafın tərəfdarıdır.

Biz islam dünyasındakı bacı və qardaşlarımızın çəkdikləri əzab-əziyyətə biganə qala bilmərik. Bu sıradan biz Fələstin və İraqda müsəlman bacı-qardaşlarımızın çəkdikləri əzab-əziyyətlərə biganə qalmamalıyıq və bunlara qarşı öz münasibətimizi bildirməliyik. Biz belə düşünürük ki, Fələstin xalqının öz ədalətli haqqına çatması və orada sülhün bərpa olunması üçün əməkdaşlıq edilməlidir. İslam Konfransı Təşkilatının istəyi bundan ibarətdir ki, İraqda xalq hakimiyyəti qurulsun və xalqın seçdiyi demokratik bir hökumət yaradılsın.

Bizim İƏT çərçivəsindəki əməkdaşlığımızın səviyyəsi çox yüksəkdir. Ümid edirəm ki, yaxın gələcəkdə müsbət nəticələrə çatacağıq.

SUAL: Bu gün təhlükəsizlik sahəsində əməkdaşlığa dair sənəd imzalandı. Ümumiyyətlə, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması istiqamətində birgə əməkdaşlıq barədə Prezident Əliyevin fikirləri neçədir?

İLHAM ƏLİYEV: İmzalanan sənəd böyük əhəmiyyət kəsb edir. Bu, bizə imkan verəcək ki, təhlükəsizlik məsələlərində səylərimiz daha da güclənsin və əlaqələndirilsin. Biz çox istəyirik ki, bölgədə sülh, əmin-amanlıq olsun. Amma əfsuslar olsun ki, hələlik regionda buna nail ola bilmirik. Region üçün, bölgədə təhlükəsizliyin təmin edilməsi üçün ən böyük maneçilik törədən problem Ermənistanın Azərbaycana təcavüzüdür. Bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilib və 1 milyondan artıq azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşübdür.

Ermənistanın bu işğalçı siyasəti müasir dünyada gedən proseslərlə ziddiyyət təşkil edir. Ermənistan tərəfindən edilən bu təcavüz, əlbəttə, çox çəkə bilməyəcəkdir. Azərbaycan öz doğma torpaqlarını azad edəcəkdir. Biz istəyirik ki, buna sülh yolu ilə nail olaq. Məhz buna görə sülh danışıqlarında iştirak edirik. Biz tələb edirik ki, bu məsələ öz həllini beynəlxalq hüquq normaları əsasında tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Biz bütün başqa ölkələrin ərazi bütövlüyünü tanıyırıq və eyni münasibəti gözləyirik. Əgər bu region üçün ən böyük təhlükə, yəni Ermənistanın işğalı aradan qalxarsa, o zaman bölgəyə sülh, əmin-amanlıq, əməkdaşlıq gələcəkdir. Amma əlbəttə, Ermənistanın işğalçı siyasətinə görə hələlik tam mənada regional əməkdaşlıq mümkün deyildir. Biz çalışmalıyıq ki, regionda sülhün, təhlükəsizliyin təmin olunmasında öz səylərimizi birləşdirək. Bu baxımdan imzalanmış sazişlər, İranla Azərbaycan arasında bu sahədə olan əməkdaşlıq xüsusi rol oynayır.

SUAL: Mənim sualım İran Prezidentinədir. Cənab Prezident, Azərbaycanla İran arasında iqtisadi əməkdaşlıq ildən-ilə genişlənir. Sözsüz ki, Sizin bu səfəriniz bu əlaqələrə yeni təkan verəcəkdir. İqtisadi əməkdaşlıq çərçivəsində Naxçıvanda İran tərəfindən xeyli layihələr həyata keçirilir. Ümumiyyətlə, bu səfərinizdən sonra Naxçıvanda yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulurmu?

MƏHƏMMƏD XATƏMİ: Mən bu suala cavab verməzdən əvvəl İslam Konfransı Təşkilatı ilə əlaqədar bir məsələyə toxunmaq istərdim. Bu təşkilat çərçivəsində qəbul olunan qətnamələrdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı tanınır və bu fakt pisləniliir. İslam Konfransı Təşkilatının üzvü kimi İran qəbul olunan qətnaməni dəstəkləyir.

Mən burada bir daha elan edirəm ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ərazisidir, Azərbaycan Respublikasına məxsusdur. Biz bu məsələnin həlli istiqamətində zor işlədilməsini pisləyirik. Bu məsələnin həlli istiqamətində aparılan danışıqları və problemin sülh yolu ilə həll olunması üçün göstərilən iradəni alqışlayır və dəstəkləyirik və məsələnin həlli ilə bağlı əlimizdən gələn köməyi əsirgəməyəcəyik. Biz bu sahədə əməkdaşlıq etməyə hazırıq.

İndiyədək İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq çox geniş və müxtəlif istiqamətli olmuşdur. O cümlədən qeyd etmək istərdim ki, mənim səfərim zamanı imzalanan və razılaşdırılan bir çox məsələlərin bir hissəsi də Naxçıvan Muxtar Respublikasına aiddir. Bu da şübhəsizdir ki, bizim münasibətlərimiz gələcəkdə də davam edəcək və indikindən daha geniş şəkildə inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi Heydər Əliyev Fondunun binasına gəldilər.

Burada Prezident Məhəmməd Xatəmiyə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident

Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, Azərbaycanın tərəqqisinə yönəldilmiş genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləməkdən, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etməkdən, əhalinin rifahının yüksəldilməsinə dair müxtəlif proqramların və tədbirlərin dəstəklənməsindən, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən ibarətdir.

Dövlətimizin başçısı İlham Əliyev ali qonağa və nümayəndə heyətinin üzvlərinə ümummilli liderimiz Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və müxtəlif dövrlərə aid eksponatlar barədə ətraflı söhbət açdı.

Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular.

Cənab Məhəmməd Xatəmi Azərbaycan Prezidenti Heydər Əliyevlə birgə çəkilmiş fotoşəklə xüsusi maraqla baxdı.

İran Prezidenti Məhəmməd Xatəmi Fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı: "Mən Azərbaycanda, Bakı şəhərində avqustun 5-dən 7-dək olacağım müddətdə Heydər Əliyev Fondunu ziyarət etməyi arzu edirdim. İndi bu Fondu ziyarət etmək mənə çoxlu xatirələri yada salır və cənab Heydər Əliyevin Azərbaycanın müstəqil olması, inkişaf etməsi, ölkədə sabitlik və təhlükəsizlik şəraiti yaratması mənim bu xatirələrimi və onunla keçirdiyim görüşləri dirildir. Hamımız bilirik ki, iki qonşu və müsəlman ölkə - İran və Azərbaycan arasında yaranan əlaqələr mərhum Heydər Əliyevin rolunu göstərir və bu rol həmişəyaşardır.

Mənim bu səfərim bir daha fürsət yaratdı ki, İran İslam Respublikasının Prezidenti kimi, eləcə də İranın mədəniyyətsevən və uzun tarixi olan milləti adından cənab Heydər Əliyevin xidmətlərinə və fəaliyyətinə görə ona öz minnətdarlığımı bildirim".

Dövlət başçıları və qonaqlar Fondun eyvanına çıxaraq, Bakının mənzərəsini seyr etdilər. Prezident İlham Əliyev şəhərdə görülən işlərdən danışdı. İran Prezidenti Bakıda geniş miqyasda dəyişikliyin yaranmasını yüksək qiymətləndirdi.

Sonra söhbət çay süfrəsi ətrafında davam etdirildi.

Prezident Məhəmməd Xatəmi Heydər Əliyev Fonduna böyük zövqlə toxunmuş Təbriz xalçası təqdim edərək dedi ki, icazənizlə, biz Heydər Əliyev Fonduna xalça bağışlayardıq. Allah ona rəhmət eləsin, ruhu şad olsun. Bu, xalçanın pasportudur. Xalça 2002-ci ildən 2004-cü ilədək toxunubdur, yəni iki il ərzində ərsəyə gəlibdir. Müəllifi Cavad Pasbandır. Qədim Təbriz şəhərində toxunmuşdur. Ölçüsü 6 metrdir və hər bir santimetrində 50 ilmə vardır. Üzərindəki güllər ipəkdəndir, bunların toxunuşunun incəlikləri xalçanın arxasından görünür. Əlbəttə, bu, rəhmətlik Heydər Əliyevin ruhuna kiçik bir hədiyyədir. Amma bunun çox incəlikləri var, onun ruhuna xatirə ola bilən incəlikləri var.

Hədiyyəni yüksək qiymətləndirən Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, bu, bizim üçün çox qiymətli və əzizdir, Heydər Əliyev Fonduna təqdim edilən ilk hədiyyədir. Bu xalçanın burada xüsusi yeri olacaqdır.

Dövlətimizin başçısı İran Prezidentinə Bakıya rəsmi səfərinin ötən hissəsini əks etdirən fotoalbom təqdim edərək, sonrakı görüşlərə dair şəkillərin də veriləcəyini bildirdi.

Prezident Məhəmməd Xatəmi fotoalboma görə təşəkkür etdi.

XARİCİ İŞLƏR NAZİRLƏRİ AZƏRBAYCAN İLƏ İRAN ARASINDA MÜNASİBƏTLƏRİN DAHA DA MÖHKƏMLƏNƏCƏYİNƏ ƏMİNDİRLƏR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 6-da ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları səmimi salamlayan nazir Elmar Məmmədyarov Azərbaycan ilə İran arasında münasibətlərin inkişafındakı bugünkü uğurların təməlinin ümummilli liderimiz Prezident Heydər Əliyevin 2002-ci ildə qonşu ölkəyə rəsmi səfəri zamanı qoyulduğunu xüsusi vurğulamışdır. Nazir İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana indiki rəsmi səfərinin və bu səfər zamanı imzalanmış ikitərəfli sazişlərin ölkələrimiz arasında dostluq münasibətlərini və siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əmin olduğunu bildirmişdir.

Nazir Elmar Məmmədyarov ölkələrimiz arasında viza məsələlərinin sadələşdirilməsi istiqamətində işlərin aparılmasının vacib olduğunu və bunun xüsusən də kiçik ticarətin inkişafına təkan verəcəyini diqqətə çatdırmışdır.

İranın xarici işlər naziri Kamal Xərrazi ölkəsinin Prezidenti Məhəmməd Xatəminin respublikamıza rəsmi səfərini İran ilə Azərbaycan arasında əlaqələrin genişlənməsində mühüm rol oynayacağını qeyd etmiş və gələcəkdə dövlətlərimiz arasında siyasi və iqtisadi sahədə nailiyyətlərin artacağına əmin olduğunu bildirmişdir.

Görüşdə iranlı nazir Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, ticarət, biznes, enerji bölmələrində və digər sahələrdə ölkələrimizin əməkdaşlığı məsələlərinə toxunmuş və nəqliyyatla bağlı imzalanmış sazişlərin bütün region üçün əhəmiyyətli olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Prezident sarayında Avropa Şurası Parlament Assambleyası monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qross və Andres Herkeli qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Azərbaycanın dövlət başçısı AŞPA monitorinq komitəsinin həmməruzəçilərindən ibarət yeni tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanla Avropa Şurası Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvarlığını ifadə etdi. Həmməruzəçilərin Azərbaycanda səfərdə olduqları müddətdə səmərəli danışıqlar apardığını və

onların bölgələrə səfərlərinin planlaşdırıldığını məmnunluq hissi ilə qeyd edən Azərbaycan Prezidenti bütün bunların ölkəmizdə son illərdə müxtəlif sahələrdə əldə olunmuş uğurların Avropa ictimaiyyətinə daha geniş şəkildə çatdırılması baxımından əhəmiyyətli olduğunu söylədi.

Səmimi qəbula görə minnətdarlığını bildirən Andreas Qross Azərbaycan üzrə Estoniyadan olan yeni həmməruzəçini Azərbaycanın dövlət başçısına təqdim etdikdən sonra, ölkəmizdə səfərdə olduqları müddətdə keçirdiyi görüşlər barədə cənab İlham Əliyevə məlumat verdi. Dərin dəniz özülləri zavodunda və Səngəçal terminalında olduqlarını bildirən Andreas Qross bu müəssisələrdə çalışan azərbaycanlılar üçün çox gözəl şərait yaradıldığını vurğulayaraq yerli işçi qüvvəsinə münasibətdən böyük məmnunluq hissi keçirdiyini bildirdi.

Sonra ölkəmizlə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın müxtəlif sahələri üzrə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Prezident sarayında Küveyt dövlətinin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları səmimi salamlayaraq, onların Bakıda keçirdikləri görüşləri yüksək qiymətləndirdi, ölkələrimizin sıx əməkdaşlıq etdiyini vurğuladı. Prezident İlham Əliyev Küveyt Fondunun Azərbaycanda həyata keçirilən layihələrə göstərdiyi köməyə və dəstəyə görə minnətdarlığını bildirdi.

Azərbaycanla Küveyt arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev dost ölkənin Baş naziri ilə görüşünü yada saldı və ona səmimi salamının yetirilməsini xahiş etdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Azərbaycan Prezidenti Ermənistanın təcavüzü nəticəsində bir milyondan çox vətəndaşımızın qaçqın, köçkün vəziyyətinə düşdüyünü xatırladaraq vurğuladı ki, bu münaqişəyə münasibətdə Küveytin mövqeyi birmənalıdır və İslam Konfransı Təşkilatında açıqlanıbdır, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və bu münaqişə beynəlxalq hüquq normaları əsasında həllini tapmalıdır. Prezident İlham Əliyev bu məsələdə Küveyt Dövlətinin siyasi dəstəyinə görə minnətdarlığını bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə Prezident İlham Əliyevə təşəkkür edən doktor Abdullah Məətuq əl-Məətuq Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini bildirdi, bu dahi şəxsiyyətin Azərbaycanı böyük bəlalardan qurtardığını və ölkənin inkişafı naminə misilsiz işlər gördüyünü vurğuladı.

Küveyt rəhbərliyinin salamlarını və öz ölkəsinə səfərə dəvətini Azərbaycan Prezidentinə çatdıran nazir iki il əvvəl Bakıda olduğunu, ötən müddətdəki dəyişikliyin, aparılan tikinti işlərinin onu çox valeh etdiyini söylədi. Azərbaycanın geniş beynəlxalq əlaqələr yaratmasını yüksək qiymətləndirdi.

Nazir bir daha vurğuladı ki, Küveyt Dövləti Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü həmişə dəstəkləmişdir və Azərbaycanın haqq işini bundan sonra da müdafiə edəcəkdir.

Qonaq indiki səfərinin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi məqsədi daşıdığını bildirdi. Nazir Asiya İslam Xeyriyyə Təşkilatının Azərbaycanda uğurla fəaliyyət göstərdiyini xatırladaraq, bu işlərin gələcəkdə də davam edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASINDA "RODİNA" FRAKSİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Dmitri Roqozinin başçılıq etdiyi Rusiya Federasiyası Dövlət Dumasında "Rodina" fraksiyasının nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Prezident İlham Əliyev cənab Roqozinlə Avropa Şurası Parlament Assambleyası çərçivəsində birgə fəaliyyəti, rusiyalı qonağın Azərbaycana bundan əvvəlki səfərlərini və Rusiya Federasiyasına öz səfərini məmnunluqla xatırlayaraq, bu gün Azərbaycanla Rusiya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə sürətlə inkişaf etdiyini vurğuladı. Azərbaycan və Rusiya dövlət başçıları arasında yaranmış səmimi, mehriban dostluğu yüksək qiymətləndirən Prezident İlham Əliyev ölkələrimizin müxtəlif dövlət strukturları və nazirlikləri, ali qanunvericilik orqanları arasında əməkdaşlığın gündən-günə genişləndiyini söylədi. Son zamanlar həyata keçirilən səfərlərin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin sürətlə artmasının, bu yaxınlarda Rusiyanın Azərbaycanda mədəniyyət günlərinin müvəffəqiyyətlə keçirilməsinin, 2005-ci ildə Rusiyada Azərbaycan ilinin, sonra isə Azərbaycanda Rusiya ilinin elan olunmasının, siyasi sahədə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinin Azərbaycan-Rusiya strateji tərəfdaşlığının ruhuna tam cavab verdiyini bildirdi və münasibətlərimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə minnətdarlığını bildirən Dmitri Roqozin səfərinin ilk günü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini söyləyərək, cənab Heydər Əliyevin vəfatının həm Azərbaycan, həm də Rusiya üçün böyük bir itki olduğunu bildirdi. O, Prezident İlham Əliyevə Rusiyada böyük hörmət bəslədiyini nəzərə çatdıraraq, dövlətimizin başçısının ümummilli liderimiz tərəfindən həyata keçirilən böyük işləri uğurla davam etdirəcəyinə əminliyini vurğuladı.

Sonra qonaq başçılıq etdiyi fraksiyanın Rusiyada parlament seçkilərindən keçən dövr ərzində fəaliyyəti və gələcək planları barədə Prezident İlham Əliyevə ətraflı məlumat verdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Prezident sarayında senator Ted Stivensin başçılığı ilə ABŞ Senatının nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan dövlətimizin başçısı son illər ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, hərbi və digər sahələrdə sürətlə inkişaf etməsinin ölkələrimizin strateji əməkdaşlıq prinsiplərinə əsaslandığını qeyd etdi. Azərbaycanda həyata keçirilən enerji layihələrinin təkcə region üçün deyil, ümumilikdə dünya miqyasında böyük əhəmiyyət daşıdığını vurğulayan Azərbaycan Prezidenti bu layihələrin reallaşmasında ABŞ hökumətinin xüsusi rolunu yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üzrə Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-la müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycan haqqında həqiqətlərin, ölkəmizin üzləşdiyi problemlərin Amerika ictimaiyyətinə, ABŞ-ın qanunvericiliyi və xarici siyasəti ilə birbaşa məşğul olan şəxslərə daha geniş şəkildə çatdırılması baxımından ölkələrimizin ali qanunvericilik orqanları arasında bundan sonra da əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı ABŞ-a səfərləri zamanı Senatda keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında təkcə qanunvericilik sahəsində deyil, ümumiyyətlə, ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq Bakıya səfər edən ABŞ Senatı nümayəndə heyətinin tərkibində çox nüfuzlu senatorların daxil olduğunu diqqətə çatdırdı. İkitərəfli münasibətlərə toxunan Ted Stivens bildirdi ki, Azərbaycanın Əfqanıstanda və İraqda antiterror koalisiyasında fəal iştirakı beynəlxalq terrorizmlə mübarizədə ABŞ-a tərəfdaş ölkə olduğunu bir daha nümayiş etdirir.

Bu səfərin Azərbaycan haqqında daha dolğun təəssürat yaratması baxımından çox böyük əhəmiyyət daşıdığını qeyd edən qonaq ABŞ administrasiyasının Azərbaycanla müxtəlif sahələrdə uğurlu əməkdaşlığının Senatda maraqla izləndiyini bildirdi. O, həmçinin ABŞ-ın aparıcı şirkətlərinin Azərbaycanın karbohidrogen yataqlarının birgə işlənilməsində fəal iştirakından məmnun olduqlarını söylədi.

Sonra ölkələrimizi maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Prezident sarayında Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Məhəmməd Əziz Xanı qəbul etmişdir.

Qonağı səmimi salamlayan dövlətimizin başçısı İlham Əliyev Məhəmməd Əziz Xanın

Azərbaycanda səmərəli görüşlər keçirməsindən məmnun olduğunu bildirərək, ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etdiyini vurğuladı. Azərbaycan və Pakistan prezidentləri arasında yaranmış dostluq münasibətlərini yüksək dəyərləndirən dövlətimizin başçısı keçən il Nyu-Yorkda cənab Müşərrəflə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, onun Azərbaycan Respublikasına bu yaxınlardakı səfərinin çox uğurlu olduğunu qeyd etdi. Prezident İlham Əliyev daha sonra bildirdi ki, bu səfər zamanı aparılan danışıqlar, imzalanan sənədlər ölkələrimiz, xalqlarımız arasında münasibətlərin dostluq, qardaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslandığını bir daha nümayiş etdirdi. Azərbaycan rəhbərliyinin ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət verdiyini vurğulayan dövlətimizin başçısı beynəlxalq təhlükəsizlik məsələlərində Azərbaycanla Pakistanın eyni mövqedən çıxış etdiyini bildirərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Pakistanın Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləməsini yüksək qiymətləndirdi və öz növbəsində Azərbaycanın Kəşmir məsələsində Pakistanın mövqeyini müdafiə etdiyini nəzərə çatdırdı. Pakistan Prezidentinin ölkəmizə səfərindən sonra əməkdaşlığımızın müxtəlif istiqamətlərdə daha sürətlə inkişaf etdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyev general Məhəmməd Əziz Xanın bu səfərinin hərbi əməkdaşlığımızın daha da genişlənməsi işinə xidmət edəcəyinə əmin olduğunu vurğuladı.

Səmimi qəbula görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən qonaq Pakistan Prezidenti cənab Müşərrəfin dövlətimizin başçısı İlham Əliyevə dərin ehtiramını və salamlarını çatdırdı. Pakistan dövləti başçısının Azərbaycan Prezidentinə və xalqına böyük hörmət bəslədiyini bildirən Məhəmməd Əziz Xan Prezident Pərviz Müşərrəfin Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verdiyini bildirdi. Səfər zamanı bir sıra uğurlu görüşlərin keçirildiyini diqqətə çatdıran qonaq gələn ay Pakistanda hərbi texnika sərgisinin keçiriləcəyini və bu tədbirə Azərbaycan nümayəndə heyətinin də dəvət olunduğunu bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELDİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Prezident Sarayında Amerika Birləşmiş Ştatlarının müdafiə naziri Donald Ramsfeldin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan dövlətimizin başçısı ABŞ müdafiə nazirinin Azərbaycana son səfərini məmnunluqla xatırlayaraq qeyd etdi ki, ABŞ administrasiyası, konqresi, senatı və digər hakimiyyət qollarının nümayəndələrinin ölkəmizə mütəmadi olaraq gəlişi ikitərəfli münasibətlərimizin sürətlə inkişaf etdiyini göstərir. İki müttəfiq ölkə olan Azərbaycanla ABŞ-ın dünya əhəmiyyətli məsələlərdə, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsi, təhlükəsizlik məsələləri və digər sahələrdə uğurlu əməkdaşlıq etdiklərini diqqətə çatdıran Prezident İlham Əliyev bütün bu proseslərin bölgədə sülhün və əmin-amanlığın təmin olunması işinə xidmət etdiyini vurğuladı. Hərbi əməkdaşlıq məsələsinə toxunan dövlətimizin başçısı bu sahədə əlaqələrin uğurla inkişaf etməsindən məmnun olduğunu bildirdi. Ölkəmizin ABŞ-la münasibətlərə böyük əhəmiyyət verdiyini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, hərbi, mədəni və bütün digər sahələrdə gələcəkdə də müttəfiqlik səviyyəsində daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ABŞ müdafiə nazirinin Azərbaycana səfəri ikitərəfli münasibətlərimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən ABŞ müdafiə naziri yenidən ölkəmizə səfər etdiyindən və Azərbaycan Prezidenti ilə görüşündən böyük məmnunluq ifadə etdi. Ölkələrimiz arasında təhlükəsizlik sahəsində əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə fəal iştirakının, o cümlədən ölkəmizin Əfqanıstan və İraqda antiterror koalisiyasına yaxından dəstəyinin ABŞ rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini söylədi. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində ölkələrimizin uğurlu əməkdaşlığının əhəmiyyətini vurğulayan ABŞ müdafiə naziri bu əməkdaşlığın Azərbaycanın NATO ilə, həmçinin ABŞ-la əlaqələrinin daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.

Qəbulda ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNAYA YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanda XXVIII Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün avqustun 12-də Afinaya səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA "LİDER" TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR

XXVIII Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün Yunanıstanın paytaxtı Afinada olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də ölkəmizin "Lider" telekanalının müxbirinə qısa müsahibə vermişdir:

- Azərbaycan müstəqil dövlət kimi üçüncü dəfədir ki, Yay Olimpiya oyunlarında iştirak edir. Hər bir qələbəmiz, hər bir uğurlu çıxışımız hər bir Azərbaycan vətəndaşını sevindirir. O cümlədən mən də, tutduğum vəzifədən asılı olmayaraq, həmişə Azərbaycan idmanına böyük diqqətlə yanaşmışam. Çünki bu, təkcə idman deyil, həm də ölkənin şöhrətidir, ölkənin dünyada tutduğu yeridir. Ümid edirəm ki, bizim idmançılarımız bu dəfə də xalqımızı sevindirəcək, ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

SUAL: Cənab Prezident, ümumiyyətlə, dünyada Azərbaycanın imicinin formalaşdırılmasında, yüksəldilməsində idmanın yerini necə görürsünüz?

CAVAB: Əlbəttə, bu işdə idmanın yeri çox önəmlidir. Azərbaycan burada, mədəni Olimpiadada fəal iştirak edir. Bilirsiniz ki, Afinada "Azərbaycan günü" keçiriləcəkdir. 2000-ci ildə də biz Sidneydə "Azərbaycan günü"nü keçirmişdik, çalışdıq ki, Azərbaycan haqqında məlumat iştirakçılara çox dolğun şəkildə çatdırılsın. Bu dəfə də "Azərbaycan günü"nün keçirilməsinə xüsusi önəm veririk. Ümid edirik ki, çoxlu qonaqlar olacaq və onlar Azərbaycanla, ölkəmizin müasir reallıqları ilə tanış olacaqlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Avqustun 13-də axşam Yunanıstanın paytaxtı Afinanın 72 min tamaşaçı tutan Olimpiya stadionunda XXVIII Yay Olimpiya oyunlarının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.

Avqustun 29-dək davam edəcək Olimpiadada Beynəlxalq Olimpiya Komitəsinin üzvü olan 204 ölkədən 202-si təmsil olunmuşdur. Yarışlarda təxminən 10,5 min idmançı 2021 medal, o cümlədən 669 qızıl, 666 gümüş və 686 bürünc medala sahib olmaq uğrunda mübarizə aparacaqdır. Azərbaycan komandasının 38 üzvü idmanın 12 növündə yarışacaqdır.

Mərasimin əvvəlində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq, Olimpiadanın Təşkilat komitəsinin sədri xanım Janna Angelopulos Daskalaki, Yunanıstan Prezidenti Konstantinos Stefanopulos stadionun meydanına çıxdılar. Yunanıstanın dövlət himninin sədaları altında bu ölkənin dövlət bayrağı qaldırıldı.

Olimpiadanın təşkilatçıları açılış mərasimi üçün qədim yunan əfsanələrinin motivləri əsasında, həqiqətən, rəngarəng proqram hazırlamışdılar.

Olimpiya himni səsləndikdən sonra iştirakçı ölkələrin nümayəndə heyətləri öz milli bayraqları ilə stadiona daxil oldular. Azərbaycan Respublikasının dövlət bayrağını komandamızın ən tanınmış nümayəndələrindən biri, ağırlıqqaldırma üzrə dünya çempionu Nizami Paşayev aparırdı.

Açılış mərasiminin ən yaddaqalan məqamlarından biri Olimpiya məşəlinin alovlandırılması oldu. Məşəli Yunanıstanın məşhur yüngül atleti – 200 metr məsafəyə qaçmaqda olimpiya çempionu Kostas Kenteris yandırmalı idi. Lakin o, həyat yoldaşı, 100 metr məsafəyə qaçmaqda Sidney Olimpiadasının gümüş mükafatçısı Katerina Tanu ilə birlikdə avqustun 13-nə keçən gecə motosikletdə qəzaya uğrayaraq xəstəxanaya düşdüyünə görə, Olimpiya məşəlini alovlandırmaq kimi şərəfli missiya Yunanıstanın digər idmançısına – yaxtaçı Nikos Kaklamanakisə nəsib olmuşdur.

Olimpiadanın üç saat çəkən təntənəli açılış mərasimini Yer kürəsinin bütün qitələrində təxminən 4 milyard adam izləmişdir. Azərbaycanın idman həvəskarlarının da bu mərasimə tamaşa etmək imkanı olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNA OLİMPİADASININ AÇILIŞ MƏRASİMİNƏ GƏLMİŞ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR

Avqustun 13-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Olimpiadanın açılış mərasiminə gəlmiş 120 ölkənin dövlət və hökumət başçılarının şərəfinə Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun adından təşkil olunmuş ziyafətdə iştirak etmişlər.

Yunanıstan Prezidenti dövlətimizin başçısı İlham Əliyevi ehtiramla qarşılayaraq, onu

Afinada salamlamaqdan məmnun olduğunu vurğulamış, Olimpiadanın Azərbaycan rəhbərində xoş təəssürat doğuracağına əmin olduğunu bildirmiş, eyni zamanda, idmançılarımıza müvəffəqiyyətlər arzulamışdır.

AFİNADA XXVIII YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN GÜNÜ KEÇİRİLMİŞDİR

Avqustun 15-də Yunanıstanın paytaxtı Afinanın ən gözəl hotellərindən olan "Divani Karovel"də XXVIII Yay Olimpiya oyunları çərçivəsində Azərbaycan günü keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.

Prezident İlham Əliyev burada Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq ilə görüşdü. Səmimi söhbət zamanı BOK ilə Azərbaycan Milli Olimpiya Komitəsi arasında sıx əlaqələrin olduğu və bu münasibətlərin gələcəkdə daha da genişlənəcəyi bildirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimə dəvət olunmuş qonaqlarla – Avropa Olimpiya Komitəsinin prezidenti Mario Peskante, Ukraynanın Baş naziri Viktor Yanukoviç, BOK-un fəxri prezidenti Xuan Antonio Samaranç, Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinetti, Beynəlxalq Həvəskar Boks Federasiyasının prezidenti Ənvər Çoudri, Avropa Cüdo Federasiyasının prezidenti Marius Vizir, məşhur idmançı Sergey Bubka, BOK-un vitse-prezidenti Vladimir Smirnov, habelə Almaniya, Moldova, Gürcüstan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Belarus, Türkmənistan olimpiya komitələrinin prezidentləri, idman nazirləri ilə görüşərək səmimi söhbət etdi, Azərbaycanın mədəniyyəti, idmanın inkişafı haqqında qısa məlumat verdi. Qonaqlar respublikamızda olimpiya hərəkatının inkişafını, idmana göstərilən diqqət və qayğını yüksək qiymətləndirdilər.

Mərasimin keçirildiyi salon ölkəmizin dövlət bayrağı ilə, Azərbaycana xas milli üslubda zövqlə bəzədilmişdi. Burada quraşdırılmış iri ekranlarda mərasim boyu müstəqil Azərbaycanın bütün sahələrdə inkişafında əvəzsiz xidmətlər göstərmiş ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətindən, xalqımızın mədəniyyət və incəsənətindən, dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmançılarla görüşlərindən bəhs edən videomateriallar nümayiş etdirilirdi.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Hamınıza bizim Azərbaycan gününə "Xoş gəlmisiniz!" demək istəyirəm. Xüsusilə də, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, böyük dostumuz Jak Roqqu salamlayıram. Onun təkcə Azərbaycanda deyil, bütün dünyada idmanın, olimpiya hərəkatının inkişafına yardımı və dəstəyinin böyük əhəmiyyəti vardır. Çox xoşbəxtəm ki, Azərbay-

can Olimpiya Komitəsinin həmişə gözəl münasibətlərdə olduğu və bu münasibətləri gələcəkdə də davam etdirəcəyi dostları bu gün bizimlədirlər.

Mən iftixar hissi keçirirəm ki, yeddi il müddətində Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik edirəm və bu müddət ərzində Azərbaycan beynəlxalq olimpiya ailəsinin fəal üzvünə çevrilmişdir.

Azərbaycan həmişə öz atletləri ilə məşhur olmuşdur. Amma yalnız müstəqillik qazanandan sonra Azərbaycan suveren ölkə kimi Beynəlxalq Olimpiya Komitəsinin üzvünə çevrilmişdir. Azərbaycanın daxil olduğu olimpiya ailəsi nadir bir ailədir. Bu ailə bütün dünyadan olan insanları birləşdirir. Yalnız idmançıları, atletləri deyil, bütün dünyanı birləşdirir və olimpiada dünyada keçirilən ən böyük beynəlxalq tədbirdir.

Azərbaycanda olimpiya hərəkatı həyatımızın çox vacib, çox mühüm bir hissəsinə çevrilmişdir. Biz olimpizmin, idmanın inkişafına çox böyük fikir veririk. Olimpiya hərəkatının ideallarını inkişaf etdiririk. İdmançılar üçün qurğular yaradırıq. Son dörd il müddətində Azərbaycanda 10-dan artıq iri idman mərkəzi yaradılmışdır. Bunların hamısı yüksək beynəlxalq standartlar səviyyəsində tikilmişdir.

Azərbaycan idmançıları beynəlxalq yarışlarda uğurla çıxış edirlər. Bizim bir neçə olimpiya çempionumuz, eləcə də dünya və Avropa çempionlarımız var. Amma ən mühümü odur ki, idman Azərbaycanda gənc nəsil arasında çox populyar olmuşdur. Düşünürəm ki, bu, bizim ən böyük nailiyyətimizdir. Hazırda Azərbaycanda idman kütləvi xarakter almışdır. İdman təkcə idmançıların medal, mükafat aldığı yarış deyil, həm də gənclərin, cavanların fiziki cəhətdən möhkəmlənməsi, sağlam olması deməkdir. Əlbəttə ki, yaxşı idmançılar, yaxşı atletlər həmişə ölkədəki cavanlar üçün nümunə olmuşdur.

Azərbaycan olimpiya ideallarına, olimpiya hərəkatına möhkəm sadiqdir. Mən əminəm ki, ölkəmiz gələcəkdə də idmanın inkişafına və olimpiya hərəkatına sadiq olacaqdır. Düşünürəm ki, dostlarımızın dəstəyi ilə, milli olimpiya komitələrinin, indiyədək bizə dəstəyini əsirgəməyən Beynəlxalq Olimpiya Komitəsinin yardımı ilə nəticələri daha da artıracağıq.

Onu da fəxrlə deyirəm ki, son illər ərzində Azərbaycan bir neçə idman yarışlarında ev sahibi kimi çıxış etmişdir. Ölkəmizdə Dünya kuboku yarışları, dünya və Avropa çempionatları, eləcə də üç olimpiya təsnifat turniri keçirilmiş, hamısı da yüksək səviyyədə təşkil olunmuşdur.

Əziz dostlar, bu gün buraya gəldiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirirəm, Azərbaycan gününə xoş gəlmisiniz. Bu gün biz çalışdıq ki, ekranda nümayiş etdirilən filmlər vasitəsilə ölkəmizin ab-havasını burada canlandıraq. Biz bu gün burada, bu hoteldə özümüzü elə Azərbaycandakı kimi hiss edirik.

İstərdim ki, dostlarımın hamısını ölkəmizə dəvət edim. Yəqin ki, Azərbaycanda olanlar bir daha gəlmək istəyərlər, olmayanları isə Azərbaycana dəvət edirəm. Buraya gəldiyinizə görə hamınıza bir daha minnətdaram və olimpiadada yarışan bütün atletlərə uğurlar diləyirəm. Çox sağ olun!

* * *

Sonra Qırğızıstanın idman nümayəndə heyəti adından Prezident İlham Əliyevə hədiyyə olaraq milli geyim təqdim edildi.

Azərbaycan Prezidenti ölkəmizin olimpiya komandasının üzvləri ilə görüşüb qarşıdakı yarışlarla bağlı söhbət etdi, öz tövsiyələrini verdi. İdmançılar və onların məşqçiləri ilə xatirə şəkilləri çəkdirdi.

* * *

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV mərasimdən sonra respublikamızın jurnalistlərinə müsahibə verdi:

- Azərbaycan günü çox yaxşı keçdi, görürsünüz ki, çoxlu qonaqlar vardı. Biz çalışdıq ki, bunu yüksək səviyyədə keçirək. Bəlkə xatırlayırsınız, Sidneydə də Azərbaycan günü keçirmişdik, o, bizim üçün ilk təcrübə idi. Bu dəfə də bizim mütəxəssislərimiz yaxşı hazılaşmışdılar, Azərbaycanın reallıqlarını əks etdirən gözəl videomateriallar nümayiş etdirildi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq, BOK-un fəxri prezidenti Samaranç, federasiyaların rəhbərləri, digər ölkələrdən olan nümayəndələr buradadırlar. Bunun özü də göstərir ki, Azərbaycan beynəlxalq idman ailəsində özünə layiq yerini tutmuşdur və ona böyük hörmətlə yanaşırlar. İdmançılarımızın uğurlu çıxışları, Azərbaycanda idman sahəsində görülən tədbirlər nəticəsində buna nail olmuşuq. İdmançılarımız gərək bundan sonra da Azərbaycanın bayrağını yüksəklərə qaldırsınlar.

MÜXBİR: Sidneydə gözəl günlər yaşadıq, üç medal qazandıq. İnşallah, bu dəfə medallar daha çox olacaqdır.

İLHAM ƏLİYEV: Baxarıq, bu, idmandır. Əlbəttə, imkan var ki, medallar qazanaq, güclü idmançılarımız var. Boksçularımız dünən iki qələbə qazandılar, bu gün də boksçumuz görüşdə qalib gəldi. Yenə qələbələrimiz olacaqdır.

SUAL: Cənab Prezident, ilk dəfədir ki, Azərbaycanın "Lider" televiziyası Olimpiya oyunlarından canlı yayımla verilişlər təşkil edir. Siz bunu necə qiymətləndirirsiniz?

CAVAB: Mən bunu yüksək qiymətləndirirəm ki, ilk dəfədir Olimpiya oyunları Azərbaycanın televiziyası ilə birbaşa verilir. Bu onu göstərir ki, ölkəmiz inkişaf edir. Sidney Olimpiadasında belə deyildi, doğrudur, oradan materiallar ötürülürdü, amma bu dəfə "Lider" televiziyası belə bir gözəl tədbir gördü və bizim bütün idman həvəskarlarımız bu cür fürsət əldə etdilər. Çox müsbət haldır. Milli Olimpiya Komitəsinin prezidenti və Azərbaycan Respublikasının Prezidenti kimi sizə minnətdarlığımı bildirirəm.

Bilirsiniz ki, Azərbaycanda idmana böyük maraq, hörmət var. Sağ olun ki, sizin sayənizdə tamaşaçılarımız belə gözəl fürsət əldə ediblər.

SUAL: Bunlar, əslində, Sizin sayənizdə mümkün olubdur. Azərbaycanın bütün sahələrdə inkişafı televiziyada da öz əksini tapmışdır. İcazənizlə, Almaniyaya qarşıdakı səfərinizlə bağlı sual verərdim. Ümumiyyətlə, bu ölkəyə səfərinizi necə qiymətləndirirsiniz?

CAVAB: Bu səfər vacibdir. Almaniya ilə çox gözəl iqtisadi əlaqələrimiz var, siyasi cəhətdən də ölkələrimiz arasında münasibətlər yüksək səviyyədədir. Bilirsiniz ki, Almaniya dünyanın və Avropa Birliyinin aparıcı ölkələrindəndir və çox istəyirik ki, bizim

aramızda müxtəlif sahələrdə olan münasibətlər daha da inkişaf etsin. Almaniya iqtisadiyyatı çox böyük sürətlə inkişaf edir və dünyada aparıcı iqtisadiyyat kimi tanınmışdır. Azərbaycanın da iqtisadiyyatı inkişaf edir, irəliləyir. Ona görə də ikitərəfli əlaqələrin genişlənməsi hər iki ölkənin maraqlarına cavab verir.

MÜXBİR: Afinada Azərbaycandan daha çox azarkeşlər təmsil olunmuşdur...

İLHAM ƏLİYEV: Bu, bir daha onu göstərir ki, ölkəmiz inkişaf edir. Yəni son dörd il ərzində Azərbaycanda bütün sahələr, o cümlədən idman inkişaf etmişdir. İnsanlarımızın həyat səviyyəsi yaxşılaşır, ölkə daha da inamla irəliləyir. Əlbəttə ki, buraya gəlmək üçün müəyyən vəsait tələb olunur. Bu, onu göstərir ki, Azərbaycan vətəndaşları belə imkanları əldə ediblər. Eyni zamanda, bu göstərir ki, biz düz yoldayıq. Ümid edirəm ki, növbəti, Çində keçiriləcək Olimpiya oyunlarında daha da çox idmançılarımız və azarkeşlərimiz olacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV OLİMPİYA KƏNDİNDƏ OLMUŞDUR

XXVIII Yay Olimpiya oyunlarını izləmək üçün Afinada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Olimpiya kəndinə getmişdir.

Olimpiadanın Təşkilat Komitəsi sədrinin müavini dövlətimizin başçısına Olimpiya kəndi barədə ətraflı məlumat verdi.

Respublikamızın gənclər, idman və turizm naziri Əbülfəz Qarayev bildirdi ki, Azərbaycanın olimpiya komandası artıq bir həftədir burada yerləşmişdir.

Prezident İlham Əliyev Olimpiya kəndində idmançılar üçün yaradılmış şəraitlə tanış oldu. Azərbaycan Prezidenti burada Rusiya Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, məşhur xokkeyçi Vyaçeslav Fetisovla görüşdü. Söhbət zamanı ölkələrimiz arasında idman əlaqələrinin bundan sonra da inkişaf edəcəyi vurğulandı. V.Fetisov respublikamızın idmançılarına Afina Olimpiadasında uğurlar arzuladı.

Azərbaycan Prezidenti sonra avtobusla Olimpiya kəndini səyahət etdi, burada tikilmiş müxtəlif komplekslərlə tanış oldu. Dövlətimizin başçısı daha sonra Azərbaycan idman nümayəndə heyətinin məskunlaşdığı yerə gəldi, olimpiyaçılarımızın yaşayış şəraiti ilə maraqlandı. İdmançılarımızın Afina Olimpiadasında parlaq qələbələr qazanacağına ümidvar olduğunu bildirən Azərbaycan Prezidenti onlara müvəffəqiyyətlər diləd.

Prezident İlham Əliyev milli komandamızın üzvləri ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Afinada Yunanıstanın Baş naziri Konstantinos Karamanlislə görüşmüşdür.

Azərbaycanın dövlət başçısı Afina Olimpiadasının yüksək səviyyədə təşkil olunduğuna görə Baş nazirə minnətdarlığını ifadə etmişdir.

Öz növbəsində ikitərəfli münasibətlər məsələsinə toxunan cənab Karamanlis Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun bu ilin iyun ayında ölkəmizə səfərinin uğurla həyata keçdiyini vurğulayaraq, dövlət başçımızın Yunanıstanda Azərbaycan səfirliyinin açılması barədə qərarını ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi işinə xidmət edən bir addım kimi yüksək qiymətləndirmişdir.

Regionda sülhün və təhlükəsizliyin təmin olunması sahəsində ölkəmizin atdığı mühüm addımlardan bəhs edən Prezident İlham Əliyev bu proseslərə böyük təhlükə törədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı söhbət açmışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğulayan dövlətimizin başçısı bu münaqişənin yalnız beynəlxalq hüquq normaları və prinsipləri – ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllinin mümkün olduğunu bildirmişdir.

Azərbaycan-Yunanıstan münasibətlərinin hazırkı vəziyyətinə toxunan dövlətimizin başçısı iqtisadi əlaqələrin, o cümlədən enerji və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etməsindən məmnun qaldığını vurğulamışdır.

Sonra ölkələrimizi maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV Sİ-Sİ-AY-Sİ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Afinada Beynəlxalq Birləşmiş Müqavilələr Şirkətinin (CCIC) vitse-prezidenti Nəcib Xurini qəbul etmişdir.

Nəcib Xuri xarici şirkətlərin Azərbaycanda sərbəst fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını vurğulayaraq, təmsil etdiyi şirkət tərəfindən ölkəmizdə son illər həyata keçirilən işlər barədə dövlətimizin başçısına məlumat vermişdir.

Prezident İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlər və iş adamları üçün bundan sonra da daim dövlət qayğısının göstəriləcəyini bildirmişdir.

Sonra neft sektorunun infrastruktur təşkili ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV MOSKVAYA ÜÇGÜNLÜK İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 17-də Moskvaya üçgünlük işgüzar səfərə gəlmişdir.

Elə həmin gün o, Rusiya Dövlət Dumasının Beynəlxalq işlər Komitəsinin sədri Konstantin Kosaçov ilə görüşdü.

Görüşdə ölkəmizin xarici işlər naziri və duma komitəsinin sədri Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu və bu münasibətləri bü-

tün sahələrdə, xüsusən iqtisadi sahədə inkişaf etdirib dərinləşdirməyin zəruriliyini vurğuladılar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması məsələsinə və bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın roluna xüsusi diqqət yetirildi. E.Məmmədyarov danışıqlar prosesindən ətraflı söhbət açaraq, Azərbaycanın mövqeyini nəzərə çarpdırdı. O, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın bu yaxınlarda komanda-qərargah təlimləri keçirməsini və Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda yerli orqanlara "seçkilər"i kəskin tənqid etdi. E.Məmmədyarov bildirdi ki, erməni tərəfinin bu cür addımları danışıqlar prosesinə və Azərbaycan cəmiyyətində əhval-ruhiyyəyə mənfi təsir göstərir.

Nazir dedi: "Azərbaycanın mövqeyi çox sadədir - ərazi bütövlüyü prinsipinə əməl olunmalıdır. Bu, beynəlxalq birliyin əsas prinsipidir və Azərbaycan nizamasalmanın müxtəlif formalarını bu proses çərçivəsində müzakirə etməyə hazırdır". E.Məmmədyarov həmçinin diqqətə çatdırdı ki, Azərbaycanın mövqeyini, demək olar, bütün beynəlxalq təşkilatlar dəstəkləyir. Avropa Şurasının baş katibi, ATƏT-in hazırkı sədri, ABŞ və Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqelərini açıqlamış və ölkəmizin işğal edilmiş ərazilərində komanda-qərargah təlimləri və "seçkilər" keçirilməsini pisləmişlər. Ərazi bütövlüyü çərçivəsində ABŞ buna öz mənfi münasibətini birincilər sırasında açıqlamışdır. Avropa Birliyi də sərt mövqe tutmuşdur. Onların hamısı aydın şəkildə bəyan etmişdir ki, Azərbaycanın ərazi bütövlüyünü tamamilə dəstəkləyirlər. Azərbaycanın işğal olunmuş ərazilərini məskunlaşdırmağın qeyri-məqbulluğu barədə də fikirlər söylənilmişdir və bu, beynəlxalq normaların, o cümlədən Cenevrə Konvensiyasının və ona əlavə protokolların pozulması kimi qiymətləndirilir. Bu sənədlərdə bildirilir ki, işğal edilmiş ərazilərin məskunlaşdırılması qətiyyən yolverilməzdir.

K.Kosaçov bildirdi ki, Rusiya bu münaqişənin dincliklə nizama salınması yollarının axtarışı xəttini kifayət qədər şəffaf şəkildə aparır və hər vasitə ilə kömək göstərməyə hazırdır. Onun fikrincə, münaqişə nə qədər tez nizama salınarsa, bu, hamının xeyrinə olar, onun dondurulması Rusiyanın mənafelərinə əsla uyğun deyildir. Komitə sədri dedi: "Mən Strasburqda, Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqini dinləmişəm. Qeyd etməliyəm ki, Azərbaycan dövləti başçısının gətirdiyi dəlillər çox inandırıcı və sanballı idi. O, auditoriyaya çox gözəl təsir bağışladı. Görünürdü ki, BMT, ATƏT, Avropa Şurası kimi beynəlxalq təşkilatların əhval-ruhiyyəsi Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinə doğru meyil edir".

Görüşdə regional və beynəlxalq əməkdaşlıq məsələləri barədə də fikir mübadiləsi aparıldı.

XARİCİ İŞLƏR NAZİRİ RUSİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rusiyalı həmkarı Sergey Lavrovun dəvəti ilə həyata keçirilən rəsmi səfəri çərçivəsində avqustun 18-də Moskvada bir sıra məsələlərə dair ikitərəfli danışıqlar aparılmışdır.

S.Lavrov danışıqlardan sonra keçirilən brifinqdə jurnalistlərə bildirdi ki, Azərbaycanın

və Rusiyanın xarici siyasət idarələri başçılarının görüşündə, sonra isə geniş tərkibdə görüşdə ikitərəfli münasibətlərə, regionda əməkdaşlığın inkişaf etdirilməsinə, o cümlədən Xəzərdə əməkdaşlığa, Dağlıq Qarabağ münaqişəsinin və Qafqazdakı digər münaqişələrin həllinə, ölkələrimizin beynəlxalq aləmdə əməkdaşlığına və Avropada təhlükəsizliyin möhkəmlənməsinə dair məsələlər barəsində geniş fikir mübadiləsi aparıldı, habelə beynəlxalq terrorizmlə mübarizə və kütləvi qırğın silahlarının yayılmaması məsələləri müzakirə olundu. O, danışıqların yekunlarından məmnun qaldığını söyləyərək vurğuladı ki, xarici işlər naziri kimi E.Məmmədyarovun Moskvaya səfəri Rusiya-Azərbaycan münasibətlərinin yüksələn xətlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin əvvəllərində Rusiyaya rəsmi səfəri zamanı əldə olunmuş razılaşmalara müvafiq surətdə inkişaf etdiyi bir vaxtda həyata keçirilir. S.Lavrov həmçinin dedi ki, azərbaycanlı həmkarı ilə danışıqlarda bir sıra konkret məsələlərə dair razılaşmalar əldə edildi və bütün bunlar qarşılıqlı fəaliyyətimizi artırmağa, Azərbaycan və Rusiya xalqlarını yaxınlaşdırmağa imkan verməlidir.

Elmar Məmmədyarov isə bildirdi ki, rəsmi Bakı Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətləri bərabərhüquqlu müstəqil dövlətlərin strateji tərəfdaşlıq münasibətləri kimi qiymətləndirir. Onun sözlərinə görə, rusiyalı həmkarı ilə müzakirə edilən məsələlər hər iki dövlət üçün maraq doğurur. Azərbaycanın xarici siyasət idarəsinin başçısı dedi: "Hesab edirik ki, siyasi cəhətdən sabit, iqtisadi baxımdan güclü Azərbaycan regionun bütün dövlətlərinin mənafelərinə uyğundur və bununla əlaqədar siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq bizə qarşılıqlı münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmağa imkan verir".

S.Lavrov Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair danışıqların yekunlarını şərh edərək bildirdi ki, Rusiya həm ATƏT-in Minsk qrupunun həmsədri kimi, həm də Rusiya dövləti olaraq müstəqil surətdə nizamasalma prosesinin sürətləndirilməsində maraqlıdır və bu prosesə hər vasitə ilə kömək göstərməyə hazırdır. Rusiya naziri dedi: "Lakin bu problemi tərəflərin əvəzinə heç kim həll edə bilməz. ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinin əsasını məhz bu cür prinsip təşkil edir. Onlar tərəflərə ünsiyyətdə olmağa, hər hansı elementlər və ümumi razılaşmalar tapmağa kömək göstərirlər. Biz tərəfləri belə əlaqələri davam etdirməyə ruhlandırırıq".

S.Lavrov Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisində, Dağlıq Qarabağda bu yaxınlarda komanda-qərargah təlimləri deyilən manevr keçirməsinə, habelə yerli hakimiyyət orqanlarına "seçkilər"ə Rusiyanın necə baxdığı barədə Azər-TAc-ın müxbirinin sualına cavab verərək dedi ki, Rusiya ərazi bütövlüyü prinsipini həmişə ardıcıl surətdə və tamamilə dəstəkləmişdir və dəstəkləyir. Verdiyiniz sual Dağlıq Qarabağ münaqişəsinin həllinə aiddir, bu sahədə isə həm ATƏT-in Minsk qrupunun həmsədri kimi, həm Rusiya Federasiyası olaraq, həm də Azərbaycanın da, Ermənistanın da dostu və tərəfdaşı kimi Rusiyanın mövqeyi münaqişənin nizama salınmasına kömək etməkdən ibarətdir.

E.Məmmədyarov Rusiya jurnalistlərinin suallarına cavab verərək bildirdi ki, "müxtəlif dövlətlərlə hərbi-texniki sahədə əməkdaşlıq məsələsində Azərbaycan tərəfinin mövqeyi ancaq ölkənin milli mənafeləri əsasında, onun milli təhlükəsizliyinin təmin olunması məsələləri nəzərə alınaraq müəyyən edilir. Hesab edirik ki, müəyyən beynəlxalq strukturlarla əməkdaşlığımız istər iqtisadi sahədə, istərsə də ordu quruculuğu sahəsində

müvafiq islahatlar aparmağa imkan verəcəkdir. Biz xarici dövlətlərlə əməkdaşlığımızı bu mövqedən çıxış edərək həyata keçiririk".

Hər iki nazir Xəzər məsələsinə dair danışıqlar prosesinin davam etdirilməsinə də tərəfdar olduğunu bildirdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV MOSKVADAKI DANIŞIQLARIN YEKUNLARINDAN RAZIDIR

Moskvada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın xarici işlər naziri Sergey Lavrovla avqustun 18-də keçirilmiş ikitərəfli danışıqların əsas yekunlarını AzərTAc üçün şərh etmişdir.

E.Məmmədyarov danışıqların yekunlarını müsbət qiymətləndirmişdir. Onun sözlərinə görə, Rusiya Federasiyası ilə qarşılıqlı münasibətlər Azərbaycanın xarici siyasətinin öncül istiqamətlərindən biridir və hazırda bu münasibətləri iki bərabər hüquqlu müstəqil dövlətin strateji tərəfdaşlığı kimi qiymətləndirmək olar. Nazir bildirmişdir ki, Rusiya tərəfi ilə siyasi və iqtisadi məsələlər, o cümlədən beynəlxalq terrorizmlə, narkotrafiklə, qanunsuz miqrasiya ilə mübarizə problemləri, habelə bir sıra digər beynəlxalq məsələlər müzakirə olunmuşdur.

E.Məmmədyarov qeyd etmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi kifayət qədər intensiv müzakirə edilmişdir. Nazir demişdir: "Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycanın tutduğu mövqeyi kifayət qədər yaxşı başa düşür". Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında nizama salınmalıdır, bu prinsiplərin əsasını isə ərazi bütövlüyü təşkil edir. Biz belə hesab edirik ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya nizamlama prosesində daha fəal iştirak etməlidir. Rusiya tərəfindən belə bir meyil müşahidə olunur, çünki xarici işlər naziri Sergey Lavrov bəyan etmişdir ki, Rusiya tərəfi problemin tezliklə həllinə tərəfdardır. İşğal olunmuş ərazilərin azad edilməsinin və qaçqınların təhlükəsizliyi təmin edilməklə doğma yurd-yuvalarına qayıtmasının zəruriliyi barədə Azərbaycanın mövqeyi getdikcə daha düzgün başa düşülür.

Azərbaycan XİN-in başçısı, eyni zamanda bildirmişdir ki, iqtisadi məsələlər bloku üzrə də çox maraqlı müzakirələr aparılmışdır. İki dövlətin prezidentlərinin tapşırığına, habelə Azərbaycanla Rusiya arasında imzalanmış sənədlərə uyğun olaraq, əmtəə dövriyyəsinin artırılmasından, ticarət və iqtisadi əlaqələrin inkişafından, habelə "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsindən söhbət getmişdir. Humanitar məsələlərə, o cümlədən xarici işlər nazirlikləri arasında məsləhətləşmələrə dair də maraqlı müzakirələr aparılmışdır. Xəzər problematikası da müzakirə olunmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov həmin gün Rusiya Dövlət Dumasının sədri Boris Qrızlovla da görüşmüşdür. Görüşdə Azərbaycan-Rusiya münasibətlərinin və parlamentlərarası əlaqələrin inkişaf perspektivlərini müzakirə etmişlər.

E.Məmmədyarov Rusiyanın populyar "Exo Moskvı" radiostansiyasının birbaşa efirində də çıxış etmiş və ikitərəfli əməkdaşlığın perspektivləri ilə bağlı bir sıra suallara cavab vermiş, habelə Moskvada aparılan danışıqların yekunlarından bəhs etmişdir.

RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNİN DİNAMİK İNKİŞAFI HƏR İKİ ÖLKƏNİN ÜMDƏ MƏNAFELƏRİNƏ UYĞUNDUR

RF XİN-in İnformasiya və Mətbuat Departamenti Rusiyanın və Azərbaycanın xarici işlər nazirləri Sergey Lavrovun və Elmar Məmmədyarovun görüşünün yekunlarına dair məlumat yaymışdır.

Məlumatda deyildiyi kimi, nazirlər yekdil fikirdə olmuşlar ki, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin dinamik inkişafı hər iki ölkənin ümdə mənafelərinə uyğundur, Qafqazda sülhün və sabitliyin qorunmasının mühüm amilidir. Azərbaycan və Rusiya XİN başçılarının avqustun 18-də apardıqları danışıqlarda bu ilin fevralında Moskvada yüksək səviyyədə Rusiya-Azərbaycan görüşündə əldə edilmiş və Moskva bəyannaməsində təsbit olunmuş razılaşmaların həyata keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

S.Lavrov və E.Məmmədyarov dövlətlərimiz arasında siyasi, iqtisadi və humanitar əməkdaşlığın hər iki ölkənin imkanlarına və tələbatına tam dolğunluğu ilə cavab verməsi üçün bu əməkdaşlığın genişləndirilməsi istiqamətində işin vacibliyinin təsdiqlənməsində də yekdil olmuşlar.

Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesində vəziyyət də ətraflı nəzərdən keçirilmiş, Rusiya tərəfi Azərbaycanın və Ermənistanın prezidentləri və xarici işlər nazirləri səviyyəsində iki ölkə arasında dialoqun müntəzəm xarakter almasını alqışlamışdır. Rusiya tərəfi Dağlıq Qarabağ probleminin tezliklə həllində və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında maraqlı olduğunu, habelə buna həm ATƏT-in Minsk qrupunun həmsədrləri çərçivəsində, həm də ikitərəfli əsasda hər vasitə ilə kömək göstərməyə hazır olduğunu təsdiqləmişdir.

Beynəlxalq məsələlərin müzakirəsində əsas diqqət terrorizmlə, digər yeni təhdid və təhlükələrlə mübarizə problemlərinə, İraqda vəziyyətin tənzimlənməsinə yetirilmişdir.

RF XİN-in məlumatında deyilir ki, xarici siyasət idarələrinin başçıları MDB, BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti daha da dərinləşdirmək, qarşılıqlı maraq doğuran məsələlərə dair müntəzəm məsləhətləşmələr və fikir mübadiləsi keçirmək niyyətində olduqlarını bildirmişlər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN YEKUN MƏTBUAT KONFRANSI

Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun dəvəti ilə Moskvada ilk rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun avqustun 19-da İTAR-TASS agentliyində yekun mətbuat konfransı olmuşdur.

Agentliyin baş direktorunun birinci müavini Mixail Qusman mətbuat konfransını açaraq bildirdi ki, hələ ilin əvvəlində elə bu salonda biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlamışdıq. İndi bu xoş ənənə davam edir və biz Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovu salamlayırıq.

Azərbaycan XİN-in başçısı jurnalistlərə rusiyalı həmkarı ilə avqustun 18-də keçirilmiş

məsləhətləşmələrin yekunu barədə məlumat verdi. O dedi ki, Moskvada aparılmış danışıqları kifayət qədər uğurlu səciyyələndirmək olar, səfər zamanı siyasi, iqtisadi və humanitar xarakterli bir sıra aktual məsələlər müzakirə edilmişdir.

Ölkəmizin XİN başçısı Rusiya KİV-ləri müxbirlərinin suallarına cavab verərək bildirdi ki, müzakirə edilən əsas mövzulardan biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması problemi idi. E.Məmmədyarov dedi ki,"biz dondurulmuş münaqişələr ideyasına inanmırıq", xarici işlər naziri kimi mən bu münaqişənin dincliklə nizama salınması mövqeyini axıradək qoruyacağam. Dünya birliyi belə bir anlayışı dəqiq müəyyən etməlidir ki, etnik təmizləmələr və ərazilərin işğalı məsələlərin həlli yolu deyildir. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən və heç vaxt erməni əhalisinin yaşamadığı əraziləri işğal etmişlər. Bununla da etnik təmizlənmə aparılmışdır, hazırda orada bir nəfər də olsun, azərbaycanlı yoxdur. Təbii ki, məcburi köçkünlər öz daimi yaşayış yerlərinə qayıtmayınca danışıqlarda ciddi irəliləyiş olacağına ümid bəsləmək çətindir. E.Məmmədyarov bildirdi ki, ümumən, danışıqlar prosesi gedir, Azərbaycan və Ermənistan prezidentləri iki görüş, xarici işlər nazirləri üç görüş keçirmişlər və bu görüşlər münaqişənin nizama salınması yollarının axtarılmasına həsr olunmuşdur.

E.Məmmədyarov ATƏT-in Minsk qrupunun fəaliyyətindən danışaraq vurğuladı ki, ABŞ, Fransa və Rusiya kimi dövlətlər, yəni BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, dünya siyasətindəki ən nüfuzlu qüvvələrin bütün nümayəndələri münaqişənin həlli məsələsində öz sanballı sözünü deməlidirlər.

Azərbaycan XİN-in başçısı həmçinin bəyan etdi ki, iqtisadi məsələlər barədə də aparılan geniş fikir mübadiləsi əmtəə dövriyyəsinin artırılması, energetika sahəsində, habelə təhsil, humanitar və turizm sahələrində əməkdaşlığı dərinləşdirmək üçün böyük imkanlar açır. Nazir Azərbaycanda həyata keçirilən energetika layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi, qaz layihələri, "Şimal-Cənub" nəqliyyat layihəsi üzərində ətraflı dayandı.

NATO hərbi bazalarının Azərbaycan ərazisində yerləşdirilməsinin mümkünlüyü barədə suala cavabında nazir bildirdi ki, bu, bir sıra amillərdən asılı olan çoxpilləli və mürəkkəb məsələdir. İndiki vəziyyətdə bu barədə danışmaq sadəlövhlükdür.

E.Məmmədyarov bildirdi ki, qlobal terrorizmlə mübarizə məsələsi Moskvada da müzakirə edildi və ümumi rəy belədir ki, bu bəla ilə mübarizə aparmaq lazımdır. O, fikrini yekunlaşdıraraq dedi: "Azərbaycan müstəqilliyə qovuşduğu vaxtdan bəri öz ərazisində 32 terror aktı ilə qarşılaşmışdır və terrorizmin nə kimi müsibətlər doğurduğunu bilir. Bu məsələdə Rusiyanın və Azərbaycanın mövqeləri uyğun gəlir. Biz bu sahədə əməkdaşlığı davam etdirəcəyik".

E.Məmmədyarov Xəzərin statusuna dair danışıqlar prosesinə toxunaraq bildirdi ki, danışıqlar davam etdiriləcək və bu məsələ sentyabrda Moskvada xarici işlər nazirlərinin müavinləri səviyyəsində müzakirə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Afinada səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev avqustun 18-də Yunanıstanın turizm naziri Dimitris Avramopulos ilə görüşmüşdür.

Səmimi şəraitdə keçən söhbət zamanı Azərbaycan Prezidenti Afinada XXVIII Yay Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini bildirərək, bu məsul işdə Yunanıstan hökumətinin səmərəli fəaliyyətini vurğuladı.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərdən söhbət açan Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirdi. Turizm sahəsində geniş imkanları olan Yunanıstanın bu perspektivli sahədə respublikamızla əməkdaşlığını xatırladan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, tezliklə Azərbaycan da dünyanın inkişaf etmiş turizm ölkələrindən birinə çevriləcəkdir.

Cənab Avramopulos Azərbaycanda idman və turizmin inkişafına dövlət səviyyəsində göstərilən qayğını yüksək qiymətləndirdi. Yunanıstan naziri Dünya Turizm Təşkilatının son vaxtlar Azərbaycana marağının artdığını da xüsusi vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Yunanıstanın turizm nazirini Azərbaycana səfərə dəvət etdi. Cənab Avramopulos dəvəti məmnunluqla qarşıladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AFİNAYA SƏFƏRİ BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstan paytaxtı Afinaya səfərini başa çatdıraraq, avqustun 19-da Bakıya yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Prezident sarayında Danimarkanın xarici işlər naziri Per Stiq Möllerı qəbul etmişdir.

Qonağı səmimi salamlayan Azərbaycan Prezidenti ölkəmizin Avropa strukturlarına sıx inteqrasiya etdiyini vurğuladı. Azərbaycanın 3 ildən artıqdır ki, Avropa Şurasının tam hüquqlu üzvü olduğunu diqqətə çatdıran dövlətimizin başçısı ölkəmizin digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı ilə sıx əməkdaşlıq etdiyini bildirdi və qeyd etdi ki, Avropa İttifaqının yeni qonşuluq siyasətində fəal iştirakımız və bu təşkilatın Cənubi Qafqaz üzrə məruzəçisinin təyin edilməsi Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin sürətlə inkişaf etdiyini göstərir.

Azərbaycanın Danimarka ilə əlaqələrinin daha da genişləndirilməsi üçün böyük imkanlar olduğunu qeyd edən Azərbaycan Prezidenti Danimarkanın xarici işlər nazirinin ölkəmizə səfərinin Azərbaycan-Danimarka əlaqələrinin həm ikitərəfli əsaslarda, həm də

Avropa İttifaqı çərçivəsində bundan sonra daha da inkişaf etməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

On ildən artıqdır ki, müstəqilliyini qazanmış Azərbaycanın geostrateji planda regionda çox əhəmiyyətli rol oynayan bir ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün təkcə ölkəmiz üçün deyil, ümumilikdə regionda sülhə və əmin-amanlığa böyük təhlükə doğurduğunu bildirdi. Azərbaycanın uzun illərdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ədalətli şəkildə həlli istiqamətində böyük səylər göstərdiyini vurğulayan dövlətimizin başçısı bu münaqişənin yalnız beynəlxalq hüquq normaları və prinsipləri - ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında aradan qaldırılmasının mümkün olduğunu bildirdi. Beynəlxalq hüququn normaları və prinsiplərinin Azərbaycanın tərəfində olduğunu vurğulayan Prezident İlham Əliyev dünyanın bir çox ölkələrinin Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyini vurğuladı və əmin olduğunu bildirdi ki, beynəlxalq birlik bu münaqişənin tezliklə həlli üçün səylərini artıracaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Per Stiq Möller Azərbaycana ilk səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsi baxımından böyük əhəmiyyət daşıdığını söylədi. Azərbaycanda keçirdiyi görüşlərdən məmnunluğunu bildirən Danimarkanın xarici işlər naziri ölkəmizdə iqtisadi sahədə əldə edilmiş böyük irəliləyişlərin xalqımızın rifah halının daha da yaxşılaşması baxımından əhəmiyyətini yüksək qiymətləndirdi və Azərbaycanın gələcəyini çox yaxşı gördüyünü vurğuladı.

Azərbaycanın enerji sektorunda Danimarkanın bir sıra şirkətlərinin fəaliyyət göstərdiyini qeyd edən qonaq bu şirkətlərin Azərbaycan iqtisadiyyatının gələcəkdə daha da inkişaf etməsi işinə öz töhfələrini verəcəyinə əminliyini ifadə etdi.

Cənab Möller ölkələrimizin beynəlxalq terrorizmlə mübarizədə, Kosovo, Əfqanıstan və İraqda çiyin-çiyinə fəaliyyət göstərdiklərini də yüksək qiymətləndirdi. O, ölkəsinin BMT Təhlükəsizlik Şurasına üzvlük məsələsində Azərbaycanın dəstəyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

Sonda ölkələrimizi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Almaniya Federativ Respublikasına rəsmi səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA PREZİDENTİ HORST KÖLERİN GÖRÜŞÜ

Avqustun 25-də Berlində, rəsmi qarşılanma mərasimindən sonra Almaniyanın dövlət başçısının iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və AFR Prezidenti Horst Kölerin görüşü olmuşdur.

Prezident Horst Köler Azərbaycanın dövlət başçısı İlham Əliyevin Almaniyaya ilk rəsmi səfərini yüksək qiymətləndirdi və bunun ölkələrimiz arasında əməkdaşlığın, o cüm-

lədən iqtisadi əlaqələrin daha da inkişafına müsbət təsir göstərəcəyini vurğuladı.

Almaniyaya səfəri zamanı ona göstərilən qonaqpərvərlikdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev ikitərəfli münasibətlərin bundan sonra da genişlənməsi üçün səylərin artırılmasının vacibliyini bildirdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycanın və Almaniyanın beynəlxalq təşkilatlarda əməkdaşlığı, ölkəmizin Avropa strukturlarına inteqrasiyası, AFR şirkətlərinin respublikamıza sərmayə qoyması və sair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi toxunuldu. Cənab Horst Köler bildirdi ki, Almaniya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləmişdir və bu mövqeyi dəyişməzdir. ATƏT-in üzvü kimi Almaniya da bu problemin həllində səylərini artıracaqdır.

Prezident İlham Əliyev Almaniyanın bu mövqeyini yüksək qiymətləndirdi və cənab Kölerə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı AFR Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 25-də Almaniya federal kanslerinin iqamətgahına gəlmişdir.

Binanın üstündən Azərbaycanın və Almaniyanın dövlət bayraqları asılmışdı.

Federal kansler Gerhard Şröder dövlətimizin başçısı İlham Əliyevi binanın önündə səmimiyyətlə qarşıladı.

Sonra Prezident İlham Əliyev ilə federal kansler Gerhard Şröder arasında görüş oldu.

AFR hökumətinin başçısı Azərbaycan Prezidentini Berlində görməsindən məmnunluğunu bildirdi və Prezident seçildikdən sonra Almaniyaya ilk rəsmi səfər etməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev cənab Şröderə təşəkkür edərək, bu səfərin Almaniya ilə Azərbaycan arasında mövcud olan dostluq münasibətlərinin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcəyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı, qarşılıqlı siyasi əlaqələrin vəziyyəti, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Federal kansler Gerhard Şröder Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirdi ki, Almaniya Azərbaycanın ərazi bütövlüyünü həmişə olduğu kimi, bu gün də tanıyır və dəstəkləyir. ATƏT-in fəal üzvü olan Almaniya bu münaqişənin Minsk qrupu çərçivəsində tezliklə sülh yolu ilə ədalətli həll edilməsi üçün səylərini bundan sonra da artıracaqdır.

Cənab Şröder Azərbaycanın Almaniyadan aerobus təyyarələri almaq niyyətini iqtisadi sahədə əməkdaşlığın təzahürü kimi dəyərləndirdi və bildirdi ki, Almaniya Azərbayca-

na təkcə sərmayə qoymağı yox, həm də yeni texnologiyalar gətirməyi planlaşdırır. Bu ilin sonunda və ya gələn ilin əvvəlində Berlində Azərbaycana sərmayə qoyulmasına dair konfrans keçiriləcəkdir.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycanın regionda qlobal enerji layihələrində iştirakı da yüksək qiymətləndirilmişdir.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Avqustun 25-də Berlində, Almaniya Federativ Respublikası kanslerinin iqamətgahında Azərbaycan-Almaniya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Almaniyanın federal kansleri Gerhard Şröder mərasimdə iştirak edirdilər.

"Dörd ədəd aerobus təyyarəsi alınmasına dair Azərbaycan Respublikasının AZAL Dövlət Konserni ilə Almaniya Federativ Respublikasının "Aerobus" şirkəti arasında müqavilə"ni Azərbaycan tərəfindən Konsernin baş direktoru Cahangir Əsgərov, Almaniya tərəfindən "Aerobus" şirkətinin vitse-prezidenti Andreas Şperl imzaladılar.

Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyev və AFR-in dövlət katibi doktor Şarot isə "İkiqat vergidən azad olmaq barədə müqavilə"ni imzaladılar.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ KANSLER GERHARD ŞRÖDERİN BİRGƏ MƏTBUAT KONFRANSI

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Almaniyanın federal kansleri Gerhard Şröder mətbuat konfransı keçirdilər. AFR hökumətinin başçısı və Azərbaycan Prezidenti əvvəlcə bəyanatlarla çıxış etdilər.

ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDERİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Bildirmək istəyirəm ki, Azərbaycan Prezidenti İlham Əliyevi burada salamlamaqdan çox şadam. Ona görə şadam ki, cənab Əliyev Prezident seçildikdən sonra buraya ilk rəsmi səfərə gəlmişdir. Azərbaycanla Almaniya arasında siyasi münasibətlər çox gözəl, yüksək səviyyədədir. Mən belə fikirdəyəm ki, cənab Prezident Azərbaycanda hüquqi dövlət yaradılmasında çox maraqlıdır və çox böyük səylər göstərir, nailiyyətlər də əldə edibdir. Ona görə də mən ona çox böyük hörmətlə, ehtiramla yanaşıram. Cənab İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən islahatlar nəticəsində çox gözəl, yaxşı mənada təəccübləndirici nəticələr əldə olunubdur. Bu da iqtisadiyyatın inkişafına böyük təkan verir və bütün Azərbaycan ictimaiyyəti bundan bəhrələnəcəkdir.

Siyasi məsələyə gəldikdə isə, deyə bilərəm ki, əvvəllər olduğu kimi, Almaniya bu gün də Azərbaycanın tərəfdaşıdır və Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və tanıyacaqdır. Biz buna çox böyük hörmətlə yanaşırıq. Cənab Prezident və mən belə düşünürük və bu fikirdəyik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məhz sülh yolu ilə aradan qaldırılmalıdır. Almaniya ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində

bu işə öz töhfəsini verəcək və səylər göstərəcəkdir.

Bu gün hamımızın şahidliyi ilə dörd aerobusun alınmasına dair imzalanan müqavilə iqtisadi əlaqələrimizin bir təzahürüdür. Azərbaycan da bu müqaviləni çox ciddi hesab edir. Əlbəttə, məqsəd Avropaya inteqrasiya olmaqdan ibarətdir. Eyni zamanda, Avropa Birliyinin yeni qonşuluq siyasətini həyata keçirmək siyasətindən söhbət gedir. Yəni bunun arxasında çox böyük məqsədlər durur.

Almaniya şirkətlərinin Azərbaycandakı fəallığı barədə də danışmaq istəyirəm. Cənab Prezident keçirdiyimiz görüşdə qeyd etdi ki, Almaniya şirkətləri ilə enerji və infrastruktur sahələrində əməkdaşlıq etmək və fəaliyyət göstərmək üçün çox gözəl şərait mövcuddur və onlar Azərbaycana xoş gəliblər. Məsələn,"Siemens" kimi şirkətlər nəzərdə tutulur ki, onlar orada bəzi layihələrin həyata keçirilməsində maraqlıdırlar.

Biz danışıqlar çərçivəsində belə bir şifahi razılığa gəldik ki, bu ilin payızında və ya gələn ilin əvvəlində Berlində Almaniya iqtisadiyyatı nümayəndələrinin iştirakı ilə Azərbaycana sərmayə qoyulması ilə əlaqədar bir konfrans keçirilsin. Burada konkret olaraq Azərbaycanda mövcud olan real imkanlar müzakirə edilsin, konkret layihələr təqdim olunsun və sıx iqtisadi əməkdaşlığa başlayaq. Mən tamamilə əminəm ki, cənab Prezidentin Almaniyaya səfəri hər iki tərəf üçün faydalıdır və hər iki tərəf bundan bəhrələnəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, qeyd etmək istərdim ki, bu mənim Almaniya Federativ Respublikasına ilk rəsmi səfərimdir və çox məmnunam ki, bu səfər çox yüksək səviyyədə keçir. Səfər çərçivəsində bu gün səhər Almaniyanın Prezidenti ilə görüşüm olubdur. Eyni zamanda, bu gün cənab federal kanslerlə görüşüm olubdur. Demək istəyirəm ki, geniş fikir mübadiləsi aparılmışdır. Almaniya-Azərbaycan ikitərəfli münasibətləri müzakirə olunmuşdur.

Azərbaycanın Avropa Birliyi ilə münasibətləri sürətlə inkişaf edir. Bu həm bizi, həm də Avropa Birliyini qane edir. Almaniya Avropanın və dünyanın aparıcı ölkələrindən biridir və çox güclü iqtisadi potensiala malikdir.

Son illər ərzində Azərbaycanda da aparılmış iqtisadi islahatlar nəticəsində ölkəmiz güclənibdir və bizim iqtisadi potensialımız ildən-ilə artır. Bizim regionda Azərbaycanın həm iqtisadi, həm də siyasi cəhətdən çəkisi artır, mövqeləri möhkəmlənir. Əlbəttə, belə olan halda ümid edirik ki, iki ölkə arasında bütün istiqamətlərdə yaşanan əməkdaşlıq bu səfərdən sonra daha da genişlənəcəkdir. Biz çox istəyirik ki, siyasi, iqtisadi və bütün digər sahələrdə Almaniya ilə Azərbaycan arasında əlaqələr genişlənsin, möhkəmlənsin və iki ölkə bir-birinə daha da yaxın olsun.

Konkret layihələr haqqında fikir mübadiləsi aparılmışdır. Bu gün aerobusların alınması haqqında müqavilə imzalanmışdır. Cənab kansler qeyd etdi ki, bu müqavilə həm Azərbaycan, həm də Avropa ölkələri üçün çox vacibdir. Əminəm ki, bundan sonra başqa sahələrdə də Avropa ilə əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Almaniya hökumətinin mövqeyi bizi çox razı salır. Bu gün cənab kanslerin qeyd etdiyi kimi, Almaniya Azərbaycanın ərazi bütövlüyünə həmişə hörmətlə yanaşmışdır və bu, indi də davam edir. Ümid edirəm ki, bu prinsip əsas tutularaq, Ermənistanla Azərbaycan arasında olan münaqişə tezliklə və sülh yolu ilə öz həllini tapa bilər.

İkitərəfli münasibətlərin daha da inkişafı üçün çox gözəl zəmin vardır və bu səfər gələcək əməkdaşlığın yeni istiqamətlərini müəyyən etdi. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da bütün istiqamətlərdə uğurlu əməkdaşlıq edəcəyik.

* * *

Sonra jurnalistləri maraqlandıran suallara cavab verildi.

SUAL: Cənab kansler, Siz qeyd etdiniz ki, Azərbaycanla Almaniya arasında iqtisadi münasibətlər yüksək səviyyədədir. Bəs mədəniyyət sahəsində vəziyyət necədir? Bu sahədə də əlaqələri inkişaf etdirmək lazım gələrsə, Siz bunun üçün nə edərdiniz?

GERHARD ŞRÖDER: Mən həmişə belə fikirdə olmuşam ki, ölkələr arasında münasibətləri bir-birindən ayırmaq olmaz. Siyasətdən, iqtisadiyyatdan söhbət getməsindən asılı olmayaraq, hər bir sahəyə böyük hörmətlə yanaşmaq lazımdır. Çünki bu, yaxşı əməkdaşlığın, dostluğun əsasını təşkil edir. Ona görə Azərbaycanla mədəni əməkdaşlıq da çox vacibdir. Təəssüf ki, indiki halda mən bu sahədə konkret olaraq nələrin nəzərdə tutulduğunu deyə bilmərəm. Amma bu sahədə hər hansı təşəbbüs olarsa, mən onu dəstəkləməyə hazıram. Məncə, biz bu məsələyə nikbin yanaşa bilərik, çünki sizin alman dilini bu səviyyədə bilməyiniz mədəniyyət sahəsində nə qədər irəli getdiyimizi göstərir.

SUAL: Cənab Prezident, Siz qeyd etdiniz ki, Dağlıq Qarabağ münaqişəsini siyasi yolla həll etmək olar. Siz bunun üçün hansı vasitələri görürsünüz?

İLHAM ƏLİYEV: Birinci vasitə ondan ibarətdir ki, beynəlxalq hüquq normalarına əməl edilməlidir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı yeddi rayonumuzu işğal edib və bu, uzun illərdir davam edir. Ermənistan silahlı qüvvələri işğal olunmuş bu torpaqlardan çıxmayınca, münaqişə öz həllini tapa bilməz. Ona görə də ilk növbədə, beynəlxalq hüquq normalarına əməl edilməlidir. Dünyanın müxtəlif ölkələrində milli azlıqlar yaşayır. Lakin bu, heç də o demək deyil ki, milli azlıqlar separatizm yolu tutmalıdırlar. Azərbaycanda müxtəlif millətlər yaşayırlar, ermənilər də Dağlıq Qarabağda yaşaya bilərlər. Əgər beynəlxalq hüquq normaları öz ifadəsini taparsa, Azərbaycan torpaqları işğaldan azad olunarsa, Azərbaycan və Ermənistan sülh sazişinə yaxınlaşa bilər. Ermənistan tərəfinin irəli sürdüyü tezis ondan ibarətdir ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Amma mən bildirmək istəyirəm ki, erməni xalqı artıq öz müqəddəratını təyin etmişdir və dünyada Ermənistan dövləti vardır. Onların bu siyasətinin gələcəyi yoxdur, bu, dünyada gedən proseslərlə ziddiyyət təşkil edir. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bunu tezliklə başa düşər və silahlı qüvvələrini özünə məxsus olmayan torpaqlardan geri çəkər.

SUAL: Cənubi Qafqaz Avropa ailəsinə inteqrasiya edir, Avropanın bir hissəsi hesab olunmağa başlayır. Lakin Avropa Birliyi Cənubi Qafqazdakı münaqişələrlə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konkret mövqeyini bildirməmişdir. Almaniya

Avropanın aparıcı dövlətlərindən biridir, Avropa Birliyində, Avropa Parlamentində öz çəkisi vardır. Bu baxımdan Almaniya nə kimi rol oynaya bilər?

GERHARD ŞRÖDER: Avropa Parlamenti birbaşa bu məsələyə qoşulsa, bunu həmin dövlətlərin siyasətinə müdaxilə kimi qiymətləndirə bilərlər. Amma mən cənab Prezidentlə söhbət zamanı da qeyd etdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü həmişə tanımışıq və bu mövqeyimizdə də qalacağıq. Düşünürəm ki, bu, təkcə bizim yox, eyni zamanda, Avropa Parlamentinin də mövqeyidir.

SUAL: Siz beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı fikir mübadiləsi apardınızmı? Rusiyada sonuncu təyyarə qəzaları ilə əlaqədar nə deyə bilərsiniz?

GERHARD ŞRÖDER: Təəssüf ki, təyyarə qəzaları barədə dəqiq məlumatım yoxdur, yəqin ki, bununla əlaqədar təhqiqatlar gedir, ona görə də dəqiqsizliyə yol vermək istəməzdim. Qəzaların səbəbi təhqiqatlardan sonra məlum olacaqdır.

PREZİDENT İLHAM ƏLİYEV BUNDESTAQIN ALMANİYA-QAFQAZ QRUPUNUN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR

Avqustun 25-də Azərbaycan Prezidenti İlham Əliyev Berlində, onun üçün ayrılmış iqamətgahda AFR parlamentinin - Bundestaqın Almaniya-Qafqaz qrupunun rəhbəri Kristof Berqneri qəbul etmişdir.

Dövlətimizin başçısı ilə görüşmək imkanından məmnunluğunu söyləyən cənab Berqner Azərbaycan Prezidentinin Almaniyaya səfərini yüksək qiymətləndirdi və bunun ölkələrimiz arasında münasibətlərin daha da inkişafına təkan verəcəyini bildirdi.

Görüşdə Cənubi Qafqazda vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası, regional təhlükəsizlik məsələləri diqqət mərkəzində olmuşdur. Respublikamıza səfər edəcəyini bildirən parlament qrupunun rəhbəri münaqişə ilə bağlı ölkəsinin mövqeyindən danışaraq dedi ki, Almaniya bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir və bu mövqe dəyişməzdir. Eyni zamanda, Almaniya ATƏT-in Minsk qrupu çərçivəsində səylərini artırmağa çalışacaqdır.

Bundestaqın nümayəndəsinə təşəkkür edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropaya inteqrasiya yolunu seçmişdir. Ona görə də biz Avropanın aparıcı ölkələrindən olan Almaniya ilə əməkdaşlığın genişləndirilməsində maraqlıyıq. Almaniyanın Prezidenti və kansleri ilə keçirdiyi görüşlərdən söhbət açan dövlətimizin başçısı ikitərəfli əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUNDESTAQIN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Avqustun 25-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Bundestaqın - Almaniya parlamentinin Xarici əlaqələr komitəsinin sədri Fölker Rüheni qəbul etmişdir.

Səmimilik şəraitində keçən görüşdə Cənubi Qafqazda vəziyyət, Ermənistan-Azərbay-

can, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, regional təhlükəsizlik məsələləri barədə ətraflı söhbət getdi, parlament qrupları arasında əlaqələrin genişləndirilməsinin vacibliyi xüsusi vurğulandı. Bundestaqın komitə sədri parlamentlərarası əməkdaşlığın Almaniya üçün çox əhəmiyyətli olduğunu bildirərək, bu sahədə səyləri artıracaqlarını söylədi.

Prezident İlham Əliyev ölkəmizin ən çətin problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrini xatırlatdı, eyni zamanda məsələnin ədalətli, beynəlxalq hüququn əsas prinsiplərinə əməl olunmaqla həlli üçün Azərbaycanın göstərdiyi səylərdən danışdı.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Avqustun 25-də Berlinin "Adlon" hotelində Almaniyanın məşhur Siemens şirkəti tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə işgüzar şam yeməyi təşkil olunmuşdur.

Almaniyanın tanınmış şirkətlərinin rəhbərlərinin də dəvət olunduqları görüşü Şərqi Avropa Münasibətləri Komitəsi rəyasət heyətinin üzvü, Siemens şirkəti idarə heyəti sədrinin müavini RUDİ LAMPREXT açaraq dedi:

- Cənab Prezident!

Azərbaycandan olan möhtərəm qonaqlar!

Xanımlar və cənablar!

Bu gün xüsusi bir gündür. Yalnız ona görə yox ki, biz sizinlə buradayıq, həm də ona görə ki, cəmi 30 dəqiqə əvvəl Azərbaycan Olimpiya oyunlarında qızıl medal qazandı. Bu hadisə bugünkü axşam üçün yaxşı başlanğıcdır.

Cənab Prezident, böyük şərəfdir ki, bu gün Sizi Şərqi Avropa Münasibətləri Komitəsi adından salamlayıram. Mən məmnunam ki, Almaniya biznesi adından Sizi salamlayıram. Təmsil olunan şirkətlər Azərbaycanla uzun illər boyu iş təcrübəsinə malikdirlər. Bəziləri maraqlı layihələri həyata keçirirlər, bəziləri isə münasibətləri yenicə qururlar. Məmnunam ki, bu görüş Berlində baş tutur. Biz bir ildən çoxdur ki, bu görüşə hazırlaşırdıq. Cənab Prezident, son 8 ildə iki dəfədir ki, Komitə Azərbaycanın ən yüksək nümayəndəsi ilə görüşür.

Hamımıza məlumdur ki, Azərbaycan Almaniya biznesi üçün çox vacib və maraqlı tərəfdaşdır. Avropa Birliyinin genişlənməsi və yeni qonşuluq proqramı ilə onun əhəmiyyəti daha da artır. Zənnimcə, bunu deməklə elə bir sirr açmıram ki, Şərqi Avropa Münasibətləri Komitəsi Avropa Birliyinin daha da genişlənməsi və Cənubi Qafqaz ölkələrini əhatə etməsi planına sadiqdir və bu yöndə işləmək əzmindədir.

Azərbaycan dinamik şəkildə inkişaf edən və genişlənən potensial bazardır. İqtisadi göstəricilər özlüyündə hər şeyi izah edir. Son bir neçə ildə 10 faizdən də çox artan ümumi daxili məhsul Azərbaycan iqtisadiyyatını dünyada ən sürətlə artan iqtisadiyyatlar sırasına daxil etmişdir. Müqayisə etsək görərik ki, ölkənin iqtisadiyyatı Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatından 4 dəfə sürətlə artır və Avropa Birliyi iqtisadiyyatından 12

dəfə sürətlə inkişaf edir. Hətta iqtisadiyyatın miqyasının çox yüksək olmadığını nəzərə aldıqda belə, bunlar çox valehedici rəqəmlərdir. Amma o fakt da vardır ki, iqtisadi artım, əsasən, neftin qiymətindən asılıdır. Bu, neft hasilatı və ixracını təşviq edir, dövlət gəlirlərinin, büdcə mədaxilinin artmasına imkan yaradır. Bununla belə, iqtisadiyyatın davamlı artımı yalnız Azərbaycanın iqtisadi islahatlar siyasətini davam etdirəcəyi və özü də uğurla davam etdirəcəyi təqdirdə mümkündür.

Bu baxımdan neft və qaz sektoru digər sektorları arxasınca apara biləcək lokomotiv rolunu oynaya bilər. Uzunmüddətli baxımdan isə, iqtisadiyyatda özünü təminetmə prinsipi gözlənilməlidir. Digər sektorlar da, belə bir metafora işlətsək, özləri lokomotivə çevrilməlidirlər.

Təəssüflər olsun ki, Qafqaz hələ də sabitlik məkanı deyildir. Bunun da regionun iqtisadi inkişafına mənfi təsiri olur. Biz Azərbaycanın həm ölkədaxili, həm də beynəlxalq sabitliyi təmin etmək səylərini alqışlayırıq. Hökumətin üzərində işlədiyi yoxsulluğun azaldılması proqramı sabitliyin əldə olunmasında əsas rol oynayacaqdır. İqtisadi artım da yoxsulluğa qalib gəlmək yolunda aparıcı rol oynayır. Almaniya biznesi adından mən istərdim ki, davamlı inkişaf əldə etmək işində Sizə uğurlar arzulayım.

Azərbaycan və Almaniya bir-birinə loyal tərəfdaşlardır. Ölkələrimiz arasında ticarət davamlı şəkildə inkişaf edir və hazırda 400 milyon avro həddinə çatmışdır. Bu göstəriciyə baxmayaraq, hamımız bilirik ki, işbirliyi potensialından tam istifadə olunmayıbdır. Azərbaycan Müstəqil Dövlətlər Birliyində bizim 5-ci böyük ticarət tərəfdaşımızdır. Bununla belə, Azərbaycanla ikitərəfli ticarət çox azdır. Sərmayə qoyuluşu da hər iki tərəf üçün qənaətbəxş deyildir. Mən əminəm ki, Azərbaycan iqtisadiyyatı inkişafının ikinci fazasında bu ölkəyə gələn alman şirkətlərinin sayı artacaqdır. Xüsusilə də elektrik stansiyaları, tikinti, yüngül sənaye, informasiya texnologiyaları, telekommunikasiya sahəsində geniş imkanlar mövcuddur. Təhlükəsizlik texnologiyası, kənd təsərrüfatı sahəsində də imkanlar böyükdür.

Son bir neçə il müddətində çoxlu əlaqələr yaradılmış və komitələr müvafiq iş aparmışlar. Hökumətlər arasında sərmayə və ticarət üzrə işçi qrupu vardır. Xüsusi birgə biznes qrupu yaradılmışdır, oraya daxil olan şirkətlərin məqsədi ikitərəfli biznesi inkişaf etdirmək və çətinlikləri aradan götürməkdir. Bir neçə ay əvvəl 17 milyon avroluq yardım təsis etmək qərara alındı ki, bu vəsait də 2004-2005-ci illər üçün ikitərəfli biznes münasibətlərinin genişlənməsinə sərf olunacaqdır. Almaniya İnkişaf Agentliyinin Azərbaycanda ofisi var, onun da əsas məqsədi müxtəlif layihələri, o cümlədən biznes sahəsində olan layihələri həyata keçirməyə yardım etməkdir. Ticarət münasibətlərinin inkişaf etdirilməsi üzrə Almaniya-Azərbaycan Assosiasiyası buna misal ola bilər. Bu təşkilata artıq 40 alman şirkəti daxildir. Təşkilatın məqsədi Almaniya və Azərbaycanın iqtisadi maraqlarını birləşdirmək və hər iki ölkənin maraqlarına uyğun olaraq irəli çəkməkdir. Azərbaycan Ticarət və Sənaye Palatası bu yaxınlarda Berlində ofisini açdı və ölkələrimiz arasında münasibətləri fəal surətdə irəli aparır. Bütün bu deyilənlər onu göstərir ki, biz doğru yoldayıq.

Səmimiyyətlə inanıram ki, mənə Siemensin Azərbaycandakı işi ilə bağlı bir neçə kəlmə deməyə imkan verəcəksiniz. Bizim şirkətin Azərbaycanla xüsusi münasibətləri çox keçmişə gedib çıxır. Hələ 1864-cü ildə Karl Siemens bizim şirkətin təsisçilərinin dəstə-

yi ilə Gədəbəydə mis mədəni almışdı. Qafqazda uzun illər yaşamış və orada da dünyasını dəyişmiş Karl Siemens Hindistan-Avropa teleqraf xəttini yaratdı və o xətt də Azərbaycandan keçirdi. Bu misal göstərir ki, Siemens hələ o vaxt da, indi də aparıcı rol oynayan şirkətlərdəndir. Hazırda biz 190-dan artıq ölkədə təmsil olunuruq. Biz nəzərdə tutduğumuz xarici ticarətin 2/3-nə nail olmuşuq. Əlbəttə ki, biz ticarətimizi daha da genişləndirmək istəyirik və nəzərdə tutduğumuz ölkələrin ilk sıralarında Azərbaycan və digər MDB ölkələri gedir.

Biz 1997-ci ildən Azərbaycanda təmsil olunuruq. İnanırıq ki, ölkənin biznes imkanları böyükdür. İnfrastruktur şirkəti olaraq biz bu sahədə də töhfə verə və Azərbaycan vətəndaşlarının gündəlik həyatlarına daha çox rahatlıq gətirə bilərik. Buna misal olaraq, tibbi texnologiyanı göstərmək olar. Bizə həvalə olunan xəstəxanaları müasir tibbi avadanlıqla təchiz edirik. Çoxlu sayda energetika texnologiyaları layihələri də həyata keçiririk. Əminəm ki, bizim iştirakımız Sizin ölkənin bundan sonrakı inkişafında müsbət rol oynaya bilər. Mən yalnız Siemensi deyil, ümumiyyətlə, alman biznesinin iştirakını nəzərdə tuturam.

Xanımlar və cənablar, icazə verin çıxışımı yekunlaşdırım. İnanıram ki, bizim biznes münasibətlərimiz uzunmüddətli olacaq və sürətlə inkişaf edəcəkdir. Almaniya iş adamları üçün Azərbaycan cəlbedici məkandır. Alman biznesini təmsil edən çoxsaylı nümayəndələrin burada olması buna parlaq misaldır. Bu görüş iki ölkə arasında əməkdaşlığı irəlilətmək sahəsində daha bir addımdır. Burada işləyən alman biznesinin nümayəndələri artıq Sizin ölkədə müxtəlif sektorlarda layihələrin həyata keçirilməsinə qatılıblar və yaxud da yaxın gələcəkdə mühüm layihələrə başlamaq əzmindədirlər. Komitədəki işimizlə biz gələcəkdə Almaniya-Azərbaycan biznes münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirməyi planlaşdırırıq. Cənab Prezident, Sizə, eləcə də ölkənizə, Almaniya-Azərbaycan biznes münasibətlərinə uğurlar arzulayıram. Bizimlə birgə olduğunuza görə çox sağ olun. Qəbul zamanı Sizinlə səmərəli fikir mübadiləsi aparacağımıza ümid edirəm. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Hər şeydən əvvəl, bu görüşə dəvət etdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Qeyd etmək istərdim ki, Almaniyaya rəsmi səfərin nəticələrindən çox məmnunam. Bu gün mənim Prezidentlə, kanslerlə, digər rəsmilərlə görüşlərim oldu. Bir daha təsdiq edə bilərik ki, ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Siyasi səviyyədə çox yaxşı qarşılıqlı anlaşma var. Almaniya və Azərbaycan arasında çox ciddi siyasi dialoq mövcuddur. Bizim üçün həm də çox önəmlidir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniyanın mövqeyi tamamilə beynəlxalq hüquq normalarına əsaslanıbdır. Bu gün kansler cənab Gerhard Şröder qeyd etdi ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında Azərbaycanın ərazi bütövlüyünü çox vacib amil hesab edir. Bizim üçün bu, çox mühümdür. Çünki Almaniya yalnız Avropada deyil, bütün dünyada aparıcı ölkələrdəndir və sizin ölkənin mövqeyi, ümumiyyətlə, gələcəkdə Qafqazın inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Bu mövqe Ermənistanla Azərbaycan arasındakı münaqişənin həll olunmasında da əhə-

miyyətlidir. Məlum olduğu kimi, Azərbaycan bu münaqişədən əziyyət çəkir. Bizim ərazinin 20 faizi Ermənistanın işğalı altındadır və bu işğalın nəticəsi kimi, 1 milyondan artıq qaçqın və köçkünümüz var. Bu, bizim iqtisadiyyatımız üçün çətinlikdir. Həm Azərbaycan, həm də bütün region üçün ciddi siyasi mövzudur.

Amma, bununla belə, Azərbaycan, burada qeyd olunduğu kimi, iqtisadiyyatının inkişafında, iqtisadi islahatların aparılmasında nəzərəçarpacaq irəliləyiş əldə edibdir. Bu islahatlar uğurla həyata keçirilib, iqtisadiyyatın davamlı və sürətli inkişafına gətirib çıxarıbdır. Biz Almaniya ilə iqtisadi əlaqələrimizə böyük əhəmiyyət veririk. Biz başa düşürük ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin indiki səviyyəsi imkanlarımızı əks etdirmir. Almaniya iqtisadiyyatı dünyada aparıcı iqtisadiyyat hesab olunur. Azərbaycan son 7-8 ildə iqtisadiyyatını inkişaf etdirir.

Ona görə də biz daha yüksək səviyyədə əməkdaşlıq edə bilərik. Düşünürəm ki, bu rəsmi səfər və hadisələrin səfərdən sonrakı inkişafı iqtisadi və ticarət əlaqələrimizi genişləndirməyə imkan verəcəkdir.

Bu gün həm də cənab kanslerlə mənim aramda razılıq əldə olunubdur ki, ilin sonunda və yaxud da gələn ilin əvvəlində burada, Almaniyada Azərbaycanda sərmayə qoyuluşu imkanları ilə bağlı bir konfrans keçirək. Azərbaycanın nailiyyətləri ilə bağlı əhatəli bir təqdimat hazırlayaq. Nailiyyətlərlə yanaşı, biznes sahəsində mövcud imkanları da nəzərə çarpdıraq. Bu gün iqtisadi əməkdaşlığımızın genişlənməsinə dair daha bir fakt da qeydə alınmışdır. Bizim tərəfimizdən 4 aerobusun alınması barədə razılıq əldə olunubdur. Bu da bizim ölkənin potensialını göstərir. Eyni zamanda, bizim Avropa Birliyi ölkələri ilə daha geniş iqtisadi əlaqələr qurmaq əzmimizə nümunədir.

Avropa Birliyinin Cənubi Qafqaz ölkələrini də əhatə edən yeni qonşuluq siyasəti vacib olmaqla yanaşı, həm də çox mühüm bir addımdır. Düşünürük ki, bu siyasətin praktiki bəhrəsi tezliklə özünü göstərəcək, müstəqil ölkə kimi Azərbaycan Avropa strukturlarına daha çox inteqrasiya edəcəkdir. Bu, bizim xarici siyasətimizin elementlərindən biridir. Azərbaycanın Avropa strukturlarına nə dərəcədə inteqrasiya etməsi ölkənin inkişafının göstəricisidir. Mən əminəm ki, ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq artacaqdır.

Biz istərdik ki, daha çox alman şirkətinin Azərbaycana sərmayə qoymasını görək. Sizə deyə bilərəm ki, Azərbaycan müstəqil dövlət olduqdan sonra, əsas etibarilə, son 7-8 il müddətində bizim iqtisadiyyatımıza 20 milyard dollaradək vəsait yatırılıbdır. Bu rəqəmi əhalinin sayına nisbətdə götürsək, onda Azərbaycanın yalnız keçmiş SSRİ ölkələri arasında deyil, həm də keçmiş sosialist bloku ölkələri arasında ən irəlidə olduğunu görərik. Adambaşına düşən birbaşa sərmayə yatırımı Azərbaycanda çox yüksəkdir. Biz ölkədə yaxşı sərmayə mühiti yaratmağı bacardıq. Xarici sərmayələr lazımınca qorunur, bu da çox mühüm amildir. Çünki inam illər boyu yaranır. Amma xarici sərmayəçilərin inamı cəmi bircə günə, cəmi bircə səhv addıma görə itirilə bilər. Xoşbəxtlikdən, Azərbaycan səhv addım atmayıbdır. Hazırda sərmayəçilərlə hökumət arasında əməkdaşlığın səviyyəsi çox yüksəkdir.

Çox istərdik ki, iri alman şirkətləri Azərbaycana sərmayə yatırsınlar, xidmət şirkətləri, podratçı şirkətlər Azərbaycanda işləsinlər. Sir deyil ki, Almaniyanın yüksək, müasir texnologiyası var. Azərbaycan isə müasirləşmə prosesini yaşayan ölkədir. Biz yeni

infrastruktur, yeni imkanlar yaradırıq. Bu infrastrukturu ən mümkün yuxarı səviyyədə yaratmağı qarşımıza məqsəd qoymuşuq. Ona görə də alman texnologiyası, alman təcrübəsi bizim üçün çox gərəklidir. Mən inanmaq istərdim ki, gələcəkdə iki sahədə - sərmayə yatırımı proqramları və iqtisadi əməkdaşlıq sahəsində biz daha çox fəaliyyət və inkişaf görəcəyik. Düşünürəm ki, bu hər iki ölkəmizin xeyrinə olacaqdır.

Azərbaycan hazırda nəhəng iqtisadi yüksəliş ərəfəsindədir. Əlbəttə ki, nailiyyətlərimiz çox sanballıdır. Ümumi daxili məhsul son 7 ildə 90 faiz artıbdır. Büdcənin illik artımı, orta əmək haqqının artması ölkəmizdə adi hal alıbdır. Ölkəmizdə nəzərdə tutulan əsas enerji layihələri tamamlandıqdan sonra iqtisadi inkişafın sürəti çox yüksək olacaqdır. Hazırda dünyada ən iri enerji layihəsi Azərbaycanda keçirilir. Neft-qaz layihələrinin həyata keçirilməsi ölkəmizdə iqtisadiyyatın bütün digər sektorlarını da inkişaf etdirməyə imkan verəcəkdir. İqtisadiyyatı şaxələndirmək bizə imkan verəcək ki, yalnız neft amilindən və ya neftin qiymətlərindən asılı olmayaq.

Gələcəkdə Azərbaycan həm də Avropanın vacib qaz təchizatçısı olacaqdır. Hazırda biz Azərbaycanda nəhəng qaz yatağının işlənilməsi üzrə layihəni həyata keçiririk və qaz boru xəttinin çəkilməsi bizə imkan verəcək ki, qazı Türkiyəyə, Yunanıstana və sonra digər Avropa ölkələrinə nəql edək. Ona görə də alternativ qaz təchizatı əldə etmək Avropa istehlakçıları üçün də əlverişli olacaqdır.

Əlbəttə ki, neft amili bizim iqtisadiyyatda çox mühüm rol oynayır və əminəm ki, bu hələ uzun illər davam edəcəkdir. Çünki neft sahəsinin inkişaf səviyyəsi və neftdən gələn gəlirlər digər sektorlarla müqayisə oluna bilməz. Amma eyni zamanda, bizim üçün ən böyük prioritet qeyri-neft sahəsidir, iqtisadiyyatın şaxələnməsidir. Yeni infrastrukturun, yeni iş yerlərinin yaradılmasıdır. Biz nəhəng sosial-iqtisadi proqramın həyata keçirilməsinə başlamışıq. Regionların inkişafı proqramını həyata keçiririk. Həmin proqram bizə növbəti 5 ildə 600 min iş yeri açmağa ümid verir. 8 milyonluq ölkə üçün bu, nəzərəçarpan rəqəmdir. Sizə deyə bilərəm ki, oktyabrdakı prezident seçkilərindən sonra 70 min iş yeri açılıbdır, bunun da 50 mindən çoxu daimi iş yerləridir. Bu göstərir ki, bizim iqtisadi islahatlar siyasətimiz davam edir və yaxşı nəticələr verir. Məndə şübhə yoxdur ki, yaxın bir neçə ildə Azərbaycan iqtisadi baxımdan güclü ölkə olacaq.

Eyni zamanda, bizim çoxlu problemimiz var. Yoxsulluğa qarşı mübarizə aparmalıyıq. Beynəlxalq maliyyə qurumları ilə həyata keçirdiyimiz yoxsulluğun azaldılması proqramı uğurludur. Bütün sadalananlar xalqımıza iqtisadi inkişafdan bəhrələnməyə imkan verəcəkdir.

İqtisadi inkişafa lazım olan digər vacib amil də şəffaflıqdır. Bəzi neft hasil edən ölkələrin uğursuz təcrübəsi bizə məlumdur. Şəffaflığın kifayət qədər olmaması həmin ölkələrdə milli sərvətin qeyri-bərabər bölünməsi ilə nəticələnmişdir. Belə halın qarşısını almaqdan ötrü, şəffaflıq mühiti yaratmaqdan ötrü, Azərbaycan Neft Fondu təşkil etmişdir, neftin satışından alınan gəlirlər burada toplanır. Beynəlxalq auditorlar Fondun işinə nəzarət edir və hər bir Azərbaycan vətəndaşı gündəlik dəyişiklikləri müşahidə edə bilir. Fonda daxil olan gəlirlər barədə məlumat vaxtaşırı dərc olunur.

Azərbaycan həm də hasilat sənayelərində şəffaflıq adlanan bir təşəbbüsün fəal iştirakçısıdır. Bu, hasilat sənayelərinə malik bütün şirkət və hökumətlərdən məsuliyyət və cavabdehlik tələb edən mühüm təşəbbüsdür. Bu da bizim uğurumuzun əsas elementlərin-

dən biridir. Çünki hər bir Azərbaycan vətəndaşının həm neft sahəsindəki inkişafdan, həm də digər sektorlarda gedən inkişaf proseslərindən bəhrələnməyə haqqı vardır.

Mən qeyd etdim ki, qeyri-neft sahəsi hazırda hökumət üçün əsas məsələdir. Bu o demək deyildir ki, biz neft sektoruna diqqət yetirmirik. Məsələ ondadır ki, neft sektorunda, demək olar, hər şey öz yerini tapıbdır. Gələn il əsas ixrac neft kəmərinin tikintisinin tamamlanması qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sahəsinin inkişafının daha bir əsaslı təməlini qoyacaqdır. Bunlar bizim üçün prioritet məsələlərdir. Bizə yeni yollar salmaq, yeni elektrik stansiyaları tikmək, rabitə sistemini yüksək səviyyəyə çatdırmaq lazımdır. Hökumət bunlarla məşğul olmalıdır. Bu mənada alman şirkətlərinin bizimlə birgə işləməsi üçün çox böyük imkanlar mövcuddur.

Mən bildirdim ki, biz infrastrukturu ən yüksək səviyyədə yaratmağa çalışırıq. Çünki yüksək səviyyədə yaradılmış infrastruktur uzun müddət xidmət edər. Əminəm ki, bizim ölkəmizdəki iqtisadi inkişaf alman şirkətlərində maraq oyadacaqdır. Artıq Azərbaycana gəlmiş şirkətlər, əlbəttə ki, üstünlükləri və çətinlikləri bilirlər. Biz qanunvericilik üzərində işləməliyik ki, həm yerli sərmayələr, həm də xarici sərmayələr lazımınca qorunsun. Çünki bu, sərmayələri cəlb etməyin, orta sinfi yaratmağın yeganə yoludur. Güclü orta sinif olmadan, heç neft sektoru da güclü, bazar prinsipləri əsasında işləyən iqtisadiyyat yaratmağa kömək edə bilməz. Yeri gəlmişkən, nəzərinizə çatdırım ki, Azərbaycanda ümumi daxili məhsulun 75 faizi özəl sektorun payına düşür. Bu, çox mühüm amildir. Xüsusilə də nəzərə alsaq ki, ümumi daxili məhsula daxil olan neft dövlətin inhisarındadır.

Azərbaycanda bazar prinsiplərinə əsaslanmış iqtisadiyyatın inkişaf etdirilməsi, iqtisadi islahatlar davam edəcəkdir. Biz beynəlxalq maliyyə qurumları - Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə sıx işləyir və ümid edirik ki, bu əməkdaşlıq doğru qərar çıxarmaqda bizə kömək edəcəkdir.

Əlbəttə ki, hər bir ölkənin öz xüsusiyyətləri, özəlliyi var və beynəlxalq maliyyə qurumlarının bütün vacib tövsiyələri yerli şəraitə uyğunlaşdırılmalıdır. Eyni zamanda, dünyadakı inkişaf prosesləri bizə məlumdur. Dünya iqtisadiyyatındakı inkişaf dinamikası ilə tanışıq. Azərbaycan da bu gün dünya iqtisadiyyatının bir hissəsidir. Bir neçə ilə Azərbaycanda bir sıra inkişaf prosesləri yer alacaqdır. Planlarımız və proqramlarımızla bağlı detallara varmaq istəmirəm, bu, çox vaxt aparar.

Düşünürəm ki, Azərbaycanda sərmayə qoyuluşu imkanlarına dair Almaniyada konfrans keçirilərkən, - bu, yəqin ki, bir-iki günlük geniş təqdimat olacaq, - müzakirələr aparıla bilər və konkret layihələr təklif ediləcəkdir. İlkin iqtisadi araşdırma, qanunvericilik bazası təqdim olunacaq ki, potensial alman sərmayəçisi vəsait qoyduqdan sonra nə nəticə əldə edəcəyini əvvəlcədən hiss edə bilsin.

Beləliklə, təfsilatla vaxtınızı çox almaq istəmirəm, sadəcə, ümumi prinsiplərimizi nəzərinizə çatdırdım. Bu prinsiplər ölkəmizdə tətbiq olunan yeni prinsiplər deyildir. İqtisadi islahatlar siyasəti hələ bizim mərhum Prezidentimiz Heydər Əliyev tərəfindən 1990-cı illərin əvvəllərində başlanmışdı. Bundan dərhal sonra Azərbaycan sabit cəmiyyət qurmağı bacardı. Müstəqillik əldə etdikdən sonra, təxminən 1995-ci ilədək bir sıra problemlərlə üzləşirdik: Ermənistanın təcavüzü, vətəndaş müharibəsi, siyasi qarşıdurma,

dövlət çevrilişi cəhdləri və digər dramatik hadisələr yalnız 1995-ci ilin axırında vəziyyət sabitləşdi. İqtisadi artımın dinamikasına fikir versəniz, görərsiniz ki, yalnız 1995-ci ilin axırlarına doğru vəziyyət düzəldi. 1991-ci ildən 1995-ci ilədək hər il həm ümumi iqtisadiyyatda, həm də istehsal sahəsində ciddi tənəzzül müşahidə olunurdu. 1995-ci ildə vəziyyət sabitləşdi və 1996-cı ildən artım başladı. Dediyim kimi, son 7 ildə ümumi daxili məhsulun artımı hər il 10 faizdən yuxarıdır. Başqa sözlə, ictimai-siyasi, iqtisadi sabitlik istənilən inkişaf üçün əsas amildir. Bu sabitlik olmasaydı, 1990-cı illərin ortalarında bizim Prezidentimiz bu islahatları həyata keçirməkdə belə qətiyyət nümayiş etdirməsəydi, əlbəttə ki, bu uğuru əldə edə bilməzdik.

İndi bizim vəzifəmiz bugünkü dünyanın reallıqlarına uyğun olaraq həmin islahatları davam etdirmək, yeni mühit yaratmaq, özəl sektor üçün yeni imkanlar yaratmaqdır. Biz öz biznes ictimaiyyətimizə də eynilə yanaşırıq. Mən Prezident seçildikdən sonra ölkədəki biznes icması ilə, yerli iş adamları ilə bir neçə görüşüm olubdur. Biz onlar üçün də şərait yaratmalı, mövcud şəraiti yaxşılaşdırmalıyıq. Hazırda onlara kreditlər verilməsi proqramı üzərində işləyirik. Hələ ki, bu proqram geniş tətbiq olunmur. Lakin ardıcıl yerinə yetirilir. Biz ümid edirik ki, yerli iş adamları xarici sərmayəçilərlə rəqabət apara biləcəklər. Bütün bunlar bizim planımıza daxildir və mən ümidvaram ki, bu planlar reallığa çevriləcəkdir. İndiyədək Azərbaycanda nəzərdə tutulan bütün layihələr, hətta yerinə yetirilməsi çox çətin sayılan, çoxlarının mümkünsüz hesab etdiyi planlar həqiqətə çevrilibdir. Ümidvaram ki, bizdə olan iradə ilə, xalqımızın dəstəyi ilə, dostlarımızın yardımı ilə planlarımızı yerinə yetirəcəyik və müasir demokratik, iqtisadi cəhətdən güclü, dünyada bütün ölkələrlə dostluq münasibəti saxlayan ölkə olacağıq. Diqqətinizə görə çox sağ olun. Ümid edirəm ki, Almaniyada da, Azərbaycanda da daha çox görüşlərimiz olacaqdır.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev görüşdən sonra jurnalistlərə müsahibə verdi.

SUAL: *Almaniyada görüşləriniz necə keçdi?*

CAVAB: Yaxşı keçdi, çox gözəl təmaslar oldu.

SUAL: Dağlıq Qarabağ məsələsi ilə bağlı Almaniya tərəfi ilə danışıqlar oldumu?

CAVAB: Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə olundu. Almaniyanın mövqeyi ədalətli mövqedir. Almaniyanın kansleri cənab Gerhard Şröder bu mövqeyi bir daha təsdiqlədi. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu münaqişə beynəlxalq hüquq normalarına əsasən həll edilməlidir.

SUAL: İqtisadi əlaqələr haqqında nə deyə bilərsiniz?

CAVAB: Əlbəttə, bizim iqtisadi əlaqələrimiz yüksək səviyyədədir. Biz Almaniya ilə çox səmərəli əməkdaşlıq edirik. Bilirsiniz ki, dünən dörd təyyarənin alınması barədə saziş imzalandı. Digər ikitərəfli iqtisadi layihələr də var. Almaniya nəinki Avropanın, həm də dünyanın aparıcı ölkələrindən biridir. Çox güclü iqtisadi potensiala malikdir. Azərbaycan da iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Buna görə də qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq üçün çox gözəl şərait vardır. Bu baxımdan bütün məsələlər - həm siyasi, həm də iqtisadi məsələlər müzakirə olundu. Mən bu səfərdən çox razıyam.

SUAL: Gürcüstandakı siyasi vəziyyəti necə qiymətləndirirsiniz?

CAVAB: Ümid edirəm ki, bu məsələ öz həllini sülh yolu ilə tapa bilər. Gürcüstanda baş verən hadisələr Qarabağda baş verən hadisələrdən heç də fərqlənmir. Hər iki halda bu, təcavüzkar separatizmin təzahürüdür. Həm Cənubi Osetiyada da, Dağlıq Qarabağda da bu halların mənşəyi eynidir. Bütün bunlar dövlətə qarşı, onun ərazi bütövlüyünə qarşı edilən zorakılıqdır. Əlbəttə ki, Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü bərpa olunmalıdır və gec-tez bərpa ediləcəkdir. Hər halda, Azərbaycan xalqı torpaqlarının itirilməsi ilə heç vaxt barışmayacaq, öz torpaqlarını geri qaytaracaqdır. Biz düşünürük ki, indiki məqamda sülh danışıqlarının imkanları hələ ki, tükənməyibdir. Ona görə də sülh danışıqlarına üstünlük veririk. Nə vaxt görsək ki, aparılan danışıqların əhəmiyyəti yoxdur, onda biz başqa vasitələrə də əl ata bilərik.

SUAL: Azərbaycan ilə Almaniya arasında iqtisadi və siyasi əlaqələr getdikcə genişlənir. Bununla belə, mədəni əlaqələr də inkişaf etməlidir. Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi Almaniyada lazımınca tanınmır. Bunun üçün nə edilməlidir?

CAVAB: Bunun üçün hamımız çalışmalıyıq. Azərbaycan hökuməti, burada yaşayan azərbaycanlılar, bizim diasporumuz Azərbaycanı daha da geniş şəkildə tanıtmalıdır. Bu iş təkcə Almaniyada deyil, bütün Avropada, dünyada aparılmalıdır. Bizim gözəl nailiyyətlərimiz, zəngin tariximiz və mədəni irsimiz var. Bütün bunları biz gərək daha da geniş şəkildə təqdim edək.

SUAL: Bu gün qədim Azıx mağarası erməni işğalı altındadır. Ermənilər dünyada yaşayan erməniləri Qarabağa, Azıx mağarasına baxmağa dəvət edirlər ki, guya bu mağara ermənilərin tarixi ilə bağlıdır.

CAVAB: Ermənilər həmişə tarixi təhrif ediblər. Onlara məxsus olmayan dəyərlərə sahib olmağa çalışıblar. Amma onlar buna nail ola bilməyəcəklər. Haqq-ədalət öz yerini tapacaqdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpağından çıxmalıdır. Bundan sonra Ermənistan-Azərbaycan münasibətlərində hər hansı bir dəyişiklik ola bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 26-da Berlində, onun üçün ayrılmış iqamətgahda Almaniyanın xarici işlər naziri Yoşka Fişeri qəbul etmişdir.

Görüşdə ikitərəfli münasibətlərə toxunuldu və bu münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, regionda və beynəlxalq aləmdə vəziyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə fikir mübadiləsi aparıldı.

Almaniya xarici siyasət idarəsinin başçısı Prezident İlham Əliyevin rəsmi səfərini yüksək qiymətləndirərək, bunun ölkələrimizin əməkdaşlığının gələcək inkişafı baxımından əhəmiyyətli olduğunu söylədi. O bildirdi ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Azərbaycanın mövqeyini dəstəkləyir və bu yöndə səylər göstərəcəkdir.

Prezident İlham Əliyev gələcəkdə Azərbaycan-Almaniya münasibətlərinin, əməkdaşlı-

ğının daha da inkişaf etdirilməsi üçün ciddi addımlar atılacağını vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunuldu.

* * *

Almaniyanın xarici işlər naziri Yoşka Fişer görüşdən sonra jurnalistlərin suallarına cavab verdi.

SUAL: Görüşdə hansı məsələlər barədə söhbət getdi?

CAVAB: Hər şeydən əvvəl biz Azərbaycan Prezidenti başda olmaqla Azərbaycan nümayəndə heyətinin burada olmasına sevinirik. Biz görüş zamanı ikitərəfli əlaqələr, iqtisadi əməkdaşlıq imkanları, regional problemlər, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi apardıq. Bundan əlavə, regionun inkişafı, Rusiya, Ermənistan və Gürcüstandakı vəziyyət, regional və beynəlxalq məsələlər haqqında söhbətimiz oldu. Apardığımız danışıqlarda regiondakı münaqişələrin müharibə yolu ilə həllinin mümkün olmadığını bildirdik. Biz ümid edirik ki, regionda mövcud olan bütün münaqişələr qarşılıqlı razılıqlar əsasında və tərəflərin hüquqlarının qorunması çərçivəsində sülh yolu ilə həll ediləcəkdir.

SUAL: Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hansı məsələlərə toxunuldu?

CAVAB: Mən düşünürəm ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu məsələnin Minsk qrupu çərçivəsində həlli məqbuldur. Biz öz tərəfimizdən təklif edirik ki, hər iki ölkənin, yəni Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri mütəmadi görüşlər keçirsinlər. Hesab edirəm ki, belə görüşlər məsələnin Minsk qrupu çərçivəsində həllində öz bəhrəsini verəcəkdir. Biz isə öz tərəfimizdən bu konstruktiv görüşlərin baş tutmasına kömək göstərməyə hazırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ LİQASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının sədri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Yaponiya şirkətlərinin Azərbaycan iqtisadiyyatında, xüsusilə energetika sahəsində fəal iştirakını vurğulayan dövlətimizin başçısı Yaponiya hökumətinin ölkəmizin iqtisadiyyatının inkişafına töhfəsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan-Yaponiya əlaqələri digər sahələrdə, o cümlədən parlamentlər səviyyəsində uğurla inkişaf edir və bundan sonra daha da genişlənəcəkdir.

Dövlətimizin başçısı Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin, habelə qanunvericilik orqanları arasında əlaqələrin inkişafına təkan verəcəyinə əmin olduğunu bildirdi.

Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının sədri Akira Amari səmimi qəbul üçün minnətdarlıq etdi. O bildirdi ki, nümayəndə heyəti Bakıya səfərin ilk günü Fəxri xiyabana gedərək, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etmişdir. Qonaq 1998-ci ildə Prezident Heydər Əliyevin Yaponiyaya rəsmi səfərini məmnuniyyətlə xatırlayaraq dedi ki, Azərbaycan dövlətinin başçısı o zaman liqanın üzvlərini qəbul edərək, onlarla səmimi söhbət etmişdi. Dostluq liqasının formalaşmasının əsası da həmin vaxtdan qoyulmuşdur.

Nümayəndə heyətinin başçısı vurğuladı ki, Yaponiyada Prezident Heydər Əliyevi möhkəm siyasi iradəyə malik görkəmli dövlət xadimi və siyasi xadim kimi həmişə ehtiramla anırlar. Liqanın sədri Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Azərbaycan dövlətinin başçısı İlham Əliyevin bu xətti uğurla inkişaf etdirəcəyinə əmin olduğunu söylədi.

Daha sonra dostluq liqasının fəaliyyəti haqqında məlumat verən qonaq dedi ki, bu quruma Yaponiyanın çox nüfuzlu siyasətçiləri, parlament üzvləri daxildir.

Nümayəndə heyətinin Azərbaycana səfərinin gedişindən söhbət açan cənab Akira Amari bu səfərin çox uğurlu keçdiyini söylədi. O bildirdi ki, nümayəndə heyətinin üzvləri Azərbaycanda Yaponiya şirkətlərinin çalışdıqları obyektlərdə, o cümlədən Səngəçal terminalında, "Şimal" DRES-də olmuş, işlərin uğurla getməsindən razı qalmışlar. Qonaq əmin olduğunu bildirdi ki, Yaponiya-Azərbaycan münasibətləri, o cümlədən parlamentlərarası əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞININ BAŞ MÜFƏTTİŞİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 31-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının baş müfəttişi Tahir Əli ilə görüşmüşdür.

Görüşdə nazir Elmar Məmmədyarov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirmiş, bu qurum çərçivəsində BMT ilə əlaqələrin bundan sonra da davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Nazir, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz torpaqlarından silah gücünə qovulmuş qaçqın və məcburi köçkünlərin ağır şəraitdə yaşadıqlarını diqqətə çatdıraraq, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının vasitəsilə problemlərin aradan qaldırılması istiqamətində əməkdaşlığın genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

Baş müfəttiş Tahir Əli, təmsil etdiyi təşkilatın Azərbaycanda fəaliyyətini bundan sonra da səylə davam etdirəcəyinə və problemlərin həllində köməyini əsirgəməyəcəyinə əmin olduğunu söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Prezident sarayında Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir.

Qonağı səmimi salamladıqdan sonra Azərbaycan Prezidenti ölkəmizlə Avropa Şurası arasında uğurlu əməkdaşlığın olmasından razılıq ifadə etdi. Bu mötəbər təşkilatın Parlament Assambleyasında fəaliyyəti dövrünü məmnunluqla xatırlayan dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinin AŞPA-da daim fəal iştirak etdiyini nəzərə çarpdıraraq, ölkəmizin Venesiya Komissiyası ilə qarşılıqlı surətdə faydalı əlaqələrini də yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycanla AŞPA, habelə Venesiya Komissiyası arasında əlaqələrin bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula görə minnətdarlıq edən Venesiya Komissiyasının katibi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə keçirdikləri görüşləri dərin ehtiramla xatırladı. O, Azərbaycanda genişmiqyaslı hüquqi islahatların Heydər Əliyevin rəhbərliyi altında həyata keçirildiyini və bu sahədə yüksək nəticələrin əldə olunduğunu söylədi. Cənab Bukikkio Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sahəsində böyük təcrübəyə malik olduğunu vurğulayaraq, dövlətimizin başçısı ilə ötən illərdə Avropa Şurası çərçivəsində uğurlu əməkdaşlığı məmnunluqla xatırladı. O, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirildiyini diqqətə çəkərək, Avropa Şurasının, o cümlədən Venesiya Komissiyasının ölkəmizlə əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Prezident sarayında Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla, dinamik şəkildə inkişaf etdiyini bildirdi.

Azərbaycan və Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, vaxtilə ümummilli liderimiz Heydər Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında yaranmış səmimi dostluq münasibətləri bu əlaqələrin daha da inkişaf etməsinə böyük töhfə vermişdir.

Vladimir Putinin Azərbaycana ilk rəsmi səfərinin ölkələrimizin münasibətlərinin daha da möhkəmləndirilməsi baxımından çox böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev hazırda Azərbaycan və Rusiyanın dövlət başçıları arasında da yaxşı əlaqələrin mövcud olduğunu nəzərə çarpdırdı.

Azərbaycanın və Rusiyanın müxtəlif dövlət strukturları, habelə məhkəmə sistemləri arasında da əməkdaşlığın uğurla həyata keçirildiyini məmnunluqla xatırladan dövlətimizin başçısı İlham Əliyev cənab Zorkinin Azərbaycana səfərinin də bu baxımdan əhəmiyyətli olduğunu vurğuladı.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya arasında əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcəkdir.

Səmimi qəbula görə minnətdarlıq edən Valeri Zorkin Bakıya səfərinin ilk günü Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etdiyini bildirdi.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən cənab Zorkin Azərbaycanın bugünkü sürətli inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olduğunu qeyd etdi. O dedi ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun əsası məhz Heydər Əliyev tərəfindən qoyulmuş və onun ölkəyə rəhbərlik etdiyi dövrdə bu sahədə böyük islahatlar həyata keçirilməyə başlanmışdır.

Qonaq bildirdi ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsi Rusiyada həmişə ehtiramla yad edilir, eyni zamanda, Prezident İlham Əliyevə böyük hörmət bəslənilir.

Konstitusiya Məhkəməsinin sədri Rusiya Prezidenti Vladimir Putinin səmimi salamlarını və dərin ehtiramını Prezident İlham Əliyevə çatdırdı.

Valeri Zorkin əmin olduğunu bildirdi ki, Azərbaycan-Rusiya münasibətləri, o cümlədən hər iki ölkənin Konstitusiya Məhkəmələri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcəkdir.

Prezident İlham Əliyev cənab Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını və dərin ehtiramını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Fransaya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 7-də Yelisey sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Fransa Prezidenti Jak Şirak arasında təkbətək görüş olmuşdur.

Səmimilik şəraitində keçən görüşdə siyasi, iqtisadi və digər sahələrdə Azərbaycan-Fransa əlaqələrinin sürətlə inkişaf etməsi vurğulandı. Prezident Jak Şirak ölkələrimiz arasında əlaqələrin əla səviyyədə olduğunu bildirdi. Cənab Jak Şirak Fransanın xarici ticarət sahəsində Azərbaycanın üçüncü tərəfdaşı olmasını çox yaxşı göstərici kimi səciyyələndirdi.

Söhbət zamanı Azərbaycanın Avropa Birliyinə inteqrasiyası ilə bağlı məsələlərə də toxunuldu, ölkəmizin bu qurumun yeni qonşuluq siyasətinə fəal surətdə qoşulması və bunun perspektivləri geniş müzakirə olundu. Fransa Prezidenti gələcəkdə Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığının daha da genişlənəcəyinə ümidvar olduğunu və bunun zəruriliyini vurğuladı.

Görüşdə regional problemlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə geniş yer verildi. Fransa tərəfi münaqişənin aradan qaldırılması üçün sülh danışıqlarının davam etdirilməsinə tərəfdar olduğunu, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədri kimi vasitəçilik missiyasını bundan sonra da həyata keçirəcəyini bildirdi.

Dövlət başçıları ikitərəfli münasibətlərin perspektivləri, beynəlxalq məsələlər ətrafında da geniş fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR

Sentyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa Beynəlxalq Əlaqələr İnstitutunun (İFRİ) direktoru Tyerri de Montbiralı qəbul etmişdir.

Prezident İlham Əliyevi bir daha görməsindən çox şad olduğunu söyləyən cənab Tyerri de Montbiral bildirdi ki, Azərbaycan dövləti başçısının Parisə istər rəsmi, istərsə də işgüzar səfəri çox əlamətdar hadisədir.

Azərbaycan Prezidenti İlham Əliyev hələ Fransaya rəsmi səfəri zamanı bu institutda keçirdiyi görüşdən yaxşı təəssürat aldığını vurğulayaraq dedi ki, ölkələrimiz arasında əlaqələrin inkişafı üçün təkcə dövlət başçıları səviyyəsində deyil, eyni zamanda, müxtəlif təşkilatlar, o cümlədən ali təhsil müəssisələri, diplomatlar səviyyəsində də görüşlərin olması zəruridir.

Cənab Montbiral Azərbaycana böyük məhəbbəti olduğunu söyləyərək dedi ki, mən ölkənizin Parisdəki səfirliyi ilə daim əlaqə saxlayıram. İnstitutumuz azərbaycanlı tələbələrin burada təhsil alması ilə bağlı proqram həyata keçirmək niyyətindədir.

Görüşdən sonra Fransa Beynəlxalq Əlaqələr İnstitutu adından Azərbaycan dövləti başçısının şərəfinə nahar təşkil olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATIN SƏDRİ KRİSTİAN PONSÖLENİN GÖRÜŞÜ

Parisdə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də səhər Fransa Senatının yerləşdiyi Lüksemburq sarayına gəldi.

Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fransa Senatının sədri Kristian Ponsöle Azərbaycan Prezidenti İlham Əliyevi hörmət və ehtiramla qarşıladı.

Sonra Prezident İlham Əliyev ilə Senatın sədri Kristian Ponsöle arasında görüş oldu. Görüş iştirakçıları ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulamaqla yanaşı, iqtisadi əməkdaşlığın da çox uğurla inkişaf etdiyini bildirdilər. Eyni zamanda, humanitar sahədə də əlaqələrin ilbəil genişləndiyi qeyd olundu və bildirildi ki, sentyabrın 8-də Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərginin təşkili bunu bir daha təsdiq edir.

Prezident İlham Əliyev Azərbaycan Milli Məclisi ilə Fransa parlamenti arasında əlaqələrdən məmnun olduğunu vurğulayaraq dedi ki, bu sahədə əməkdaşlığın geniş perspektivləri var.

Görüşdə xatırladıldı ki, Fransa Senatı Cənubi Qafqaz ölkələri parlamentləri arasında əlaqələr qurulması üçün səylərini əsirgəmir. Bu ölkələrin parlament sədrlərinin görüşü də məhz Fransa Senatının təşəbbüsü ilə keçirilmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

Ssentyabrın 8-də Parisdə - Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərginin rəsmi açılış mərasimi olmuşdur.

Sərgi Azərbaycan Prezidentinin təşəbbüsü və Fransa Senatının razılığı ilə təşkil edilmişdir.

Lüksemburq bağında yerləşən muzeyin salonuna toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Fransa Senatının sədri Kristian Ponsöleni səmimiyyətlə qarşıladılar.

Mərasimi Fransa Senatının sədri Kristian Ponsöle açdı.

FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN ÇIXIŞI

- Cənab Prezident!

Hörmətli həmkarlarım!

Mən sizin hamınızı salamlayıram və deyirəm ki, bu günlərdə biz dostlarımızı qəbul edirik. Burada olan şəxslər hamısı bizim səmimi dostlarımızdır.

Hörmətli Prezident, hörmətli Mehriban xanım, Fransa Respublikası Senatının sədri kimi bu günlərdə Sizi burada yenidən görməyimdən çox şadam və bu, mənim üçün böyük şərəfdir. Bu, artıq ikinci görüşdür və sübut edir ki, Azərbaycanla Fransa arasında olan münasibətlər çox yüksək səviyyədədir, çox gözəldir. Bu sərginin açılışında Siz də iştirak edirsiniz. Eyni zamanda bu, bizim parlamentlərimiz arasında olan münasibətlərin inkişafı deməkdir. Bildiyiniz kimi, Dostluq qrupunun sədri Ambruaz Düpon parlamentlər arasında əlaqələrin inkişafı üçün daha böyük səylər göstərməyə çalışır.

Fransa Senatı mümkün qədər çalışır ki, Cənubi Qafqaz ölkələrinin parlamentləri arasında əlaqələri inkişaf etdirsin. Bu parlamentlərin sədrləri dəfələrlə görüşüblər. Bir dəfə Versalda görüşüblər, sonra da görüşlər keçirmişlər. Bu da Fransa Senatının təşəbbüsü ilə baş tutmuşdur.

Fransa Senatı Bakıda fəaliyyət göstərən Fransa Mədəniyyət Mərkəzinin açılması və inkişafında həlledici rol oynamışdır. Fransa Senatı Azərbaycan rəssamlarının tanıdılması üçün də əlindən gələni edir. Bu gün mən çox şadam ki, Azərbaycan rəssamlarının əsər-

ləri bu salonu bəzəyir. Bu sərginin təşkilində Azərbaycandakı keçmiş səfirimiz xanım Şantal Puare və yeni təyin olunmuş səfirimiz cənab Rolan Blatman da böyük səylər göstərmişlər. Fransa Senatı bu tədbirlə Azərbaycan mədəniyyətinə, incəsənətinə xüsusi diqqət yetirdiyini bir daha sübut etmək istəyir. Bu günlərdə bu salona gələrək, əsərlərə tamaşa edən hər kəs, Fransa ictimaiyyətinin hər bir nümayəndəsi Azərbaycan rəssamlarının necə peşəkar olduğunu, onların nə qədər böyük potensiala malik olduğunu deyə bilər. Artıq Azərbaycan rəssamlarının yeni nəsli formalaşıb və onlar öz əsərlərini sərgilərə çıxarırlar.

Azərbaycanın səfiri də mənim yanımda dayanıbdır. O da bu sərginin təşkilində azərbaycanlı tərəfdaşlarımızla çox sıx əlaqədə işləmişdir.

Bu günlərdə təşkil olunmuş bu sərgi artıq öz məqsədinə çatmışdır. Məqsəd isə ondan ibarətdir ki, sərgiyə gəlib buradakı əsərlərə tamaşa edən hər bir şəxs həmin əsərlərə öz qiymətlərini versin, onları dəyərləndirsin. Əminik ki, bu əsərlər bir çox kolleksiyaçıları maraqlandıracaqdır, bu da özlüyündə Azərbaycanı xaricdə daha da tanıtmaq üçün imkandır.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyiniz altında Azərbaycan çox böyük nailiyyətlər əldə etmişdir. Bu gün Azərbaycanda böyük inkişaf var, iqtisadiyyatı inkişaf edir. Bilirik ki, Azərbaycanın neft sənayesində böyük inkişaf var. Lakin eyni zamanda, qeyd etmək istəyirik ki, cənab Prezident, Sizin kimi böyük dövlət xadimi mədəniyyət, incəsənət sahəsinə də xüsusi diqqət yetirir. Bu, Azərbaycan mədəniyyətinin inkişafına öz töhfəsini verəcəkdir. Cənab Prezident, buna görə də mən Sizə səmimi qəlbdən və dərin minnətdarlığımı bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Fransa Senatının hörmətli sədri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının sərgisinin keçirilməsi ilə əlaqədar hörmətli cənab sədrə və bu sərginin təşkilində iştirak etmiş bütün dostlarımıza dərin təşəkkürümü bildirirəm.

Bu sərginin keçirilməsi bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında ənənəvi dostluq əlaqələri güclənir, inkişaf edir və bütün sahələri əhatə edir. Ölkələrimiz arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Eyni zamanda, Fransa və Azərbaycan iqtisadi sahədə də çox səmərəli əməkdaşlıq edirlər. Birgə layihələr həyata keçirilir, ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Bunlar hamısı göstərir ki, ölkələrimiz bütün sahələrdə bir-birinə yaxınlaşır və gözəl əməkdaşlıq edirlər.

Bu ilin yanvarında mən Fransada rəsmi səfərdə olarkən Senatda cənab sədrlə görüşmüşdük və çox geniş fikir mübadiləsi aparılmışdı. Bu gün də çox səmərəli söhbətimiz olmuşdur. Biz bir daha əmin olduq ki, ildən-ilə güclənən Fransa-Azərbaycan əlaqələri bu gün də genişlənir və çalışacağıq ki, bütün sahələrdə əməkdaşlığımız daha da səmərəli olsun.

Azərbaycanın Avropa strukturlarına inteqrasiyasında biz daim Fransanın dəstəyini hiss etmişik və bu gün də hiss edirik.

Bu gün burada Azərbaycanın rəssamlıq məktəbinin kiçik bir hissəsi təmsil olunur. Mən çox şadam ki, bizim mədəni əlaqələrimiz də inkişaf edir. Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çox istəyirik ki, Fransa tamaşaçıları bu mədəniyyətlə tanış olsunlar, gələcəkdə belə sərgilərin sayı daha da artsın, insanlarımız bir-birinə daha da yaxın olsunlar. Bu sərginin keçirilməsi bizim xalqlarımızı daha da birləşdirəcəkdir.

Sərginin keçirilməsi münasibətilə bir daha hamınızı təbrik edir və onun təşkilinə görə Fransa Senatına dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA SENATININ TELEVİZİYASINA MÜSAHİBƏSİ

Fransada işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 8-də Fransa Senatında görüşlərdən sonra Senatın televiziyasına müsahibə vermişdir.

MÜXBİR: Cənab Prezident, öncə Sizi salamlamaq istərdik. Sizə minnətdarlığımızı bildirmək istəyirik ki, Prezident seçildikdən sonra ikinci dəfədir Fransaya səfər edirsiniz. Biz bundan çox şadıq. Birinci suallımız ondan ibarətdir ki, bu yaxınlarda Şimali Osetiyada girovların götürülməsi hadisəsi baş vermişdir. Bu faciəli hadisə nəticəsində 300-dən çox insan həlak olmuşdur. Ümumiyyətlə, Kremlin bu hadisə zamanı apardığı siyasəti necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Sizin də söylədiyiniz kimi, bu, mənim Fransaya ikinci səfərimdir. Birinci dəfə yanvar ayında burada rəsmi səfərdə olmuşam. İndiki səfər isə işgüzar xarakter daşıyır. Bu, bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər inkişaf edir. Bizim həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə çox gözəl münasibətlərimiz vardır. Bilirik ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər güclənir və möhkəmlənir.

Azərbaycan özü terrorizmə məruz qalan bir ölkədir. Ölkəmizdə 30-dan çox terror aktı törədilmişdir, bu aktlar nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Biz yaxşı bilirik ki, terrorizmlə səmərəli mübarizə aparmaq üçün bütün dünya ictimaiyyəti, beynəlxalq aləm öz səylərini birləşdirməlidir. Yalnız bu halda beynəlxalq terrorizmlə mübarizə öz səmərəsini verə bilər. Şimali Osetiyada baş vermiş terror aktı bizi kədərləndirdi. Biz Rusiya hökumətinə və xalqına başsağlığı vermişik, eyni zamanda, öz yardımımızı təklif etmişik. Günahsız insanların, xüsusilə uşaqların həlak olması böyük faciədir.

SUAL: Bu günlərdə belə bir məlumat əldə edildi və Prezident Putin də dedi ki, bu terror aktı beynəlxalq terrorizmin bir elementidir, bunda "Əl-Qaidə" təşkilatının da əli vardır. Bu baxımdan nə deyə bilərsiniz?

CAVAB: Bizim üçün hər hansı bir fikir söyləmək çətindir. Çünki biz məsələnin tam mahiyyətini bilmirik, məlumatı yalnız televiziya ekranlarından, mətbuat vasitəsilə almışıq. Əgər Rusiya hökumətində belə bir məlumatlar varsa, yəqin ki, bunun bir əsası vardır. Amma əsas məsələ bunda deyildir. Əsas məsələ ondadır ki, terrorizm hər bir ölkə

üçün təhlükə mənbəyidir. Heç bir ölkə özünü arxayın hesab edə bilməz. Ən güclü ölkə də təkbaşına terrorizmlə mübarizə aparmaqda çətinlik çəkə bilər. Ona görə də mən yenə öz fikrimə qayıdıram ki, biz yalnız və yalnız beynəlxalq səylər nəticəsində terrorizmlə müvəffəqiyyətlə mübarizə apara bilərik.

SUAL: Cənab Prezident, Siz özünüz də dediniz ki, Azərbaycan vaxtilə terror aktlarına məruz qalmışdır. Belə bir sual vermək istəyirəm ki, bu günlərdə terrorizmə qarşı mübarizə aparmaq üçün Azərbaycan digər ölkələr tərəfindən hər hansı bir yardım alırmı?

CAVAB: Azərbaycanda baş vermiş terror aktları 1990-cı illərin əvvəllərinə təsadüf edir. O vaxt Ermənistanla Azərbaycan arasında müharibə gedirdi və Ermənistanın işğalçı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Ölkəmizə qarşı törədilmiş terror aktları erməni terror təşkilatı "Asala" tərəfindən həyata keçirilmişdir. O vaxt nə Çeçenistan müharibəsi var idi, nə də Nyu-Yorkda terror aktı törədilmişdi. Ümumiyyətlə, beynəlxalq ictimaiyyət bu məsələyə, yəni terroizmə ciddi yanaşmırdı. Biz, demək olar ki, erməni terrorizmi ilə üz-üzə qalmışdıq. Bəlkə də o vaxt beynəlxalq ictimaiyyət, böyük dövlətlər öz mövqeyini, öz etirazını bildirsəydilər, sonrakı terror aktları da baş verməzdi. Bu gün isə Azərbaycanda vəziyyət sabitdir, əmin-amanlıqdır, insanlarımız təhlükəsizlik şəraitində yaşayır.

SUAL: Biz bilirik ki, Azərbaycanın əhalisinin əsas hissəsi – 90 faizdən çoxu müsəlmandır. Belə bir şəraitdə Siz öz ölkənizin hər hansı bir islam terrorizminin təsiri altına düşməsindən ehtiyat etmirsiniz ki?

CAVAB: Azərbaycan dünyəvi dövlətdir, din dövlətdən ayrıdır. Biz öz siyasətimizi dünya birliyinə inteqrasiyada görürük. Azərbaycanın çox qədim tarixi, mədəniyyəti vardır. Xalqımız bəşəriyyətə çox böyük töhfələr vermişdir. Eyni zamanda, biz ümumbəşəri dəyərləri də çox sürətlə mənimsəyirik. Azərbaycanda dini zəmində heç bir problem yoxdur. Milli və dini dözümlülük bizim cəmiyyətimizi səciyyələndirən əlamətlərdən biridir. Azərbaycanda hər hansı bir dini təhlükə də yoxdur. Biz bütün dövlətlərlə yaxşı münasibətlər qurmaq arzusundayıq. Bu siyasət bundan sonra da aparılacaqdır.

SUAL: Cənab Prezident, Azərbaycan Avropaya sürətlə inteqrasiya edir. Bilmək istəyirik ki, bu siyasət Sizin üçün prioritetdirmi?

CAVAB: Əlbəttə, bizim üçün Avropa strukturlarına inteqrasiya siyasəti prioritet məsələlərdən biridir. Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz vardır. Bu təşkilatın Azərbaycanı yeni qonşuluq siyasətinə daxil etməsi onu göstərir ki, Avropa tərəfindən də Azərbaycana maraq günü-gündən artır. Ölkəmizin coğrafi-siyasi vəziyyəti, təbii ehtiyatları və siyasəti Avropa Birliyi üçün də önəmlidir. Biz bu əlaqələri Fransa, Almaniya, digər Avropa ölkələri ilə həm ikitərəfli formatda genişləndiririk, eyni zamanda, bu münasibətlər Avropa Birliyi çərçivəsində də inkişaf edir.

* * *

Sərgi ilə tanışlıqdan sonra Fransa Senatının sədri Kristian Ponsölenin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.

Fransa Senatının sədri və Azərbaycan Prezidenti naharda çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 8-də Parisdə, onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolən ilə görüşmüşdür.

Prezident İlham Əliyev Fransaya işgüzar səfərinin çox uğurlu keçdiyini və səmərəli danışıqlar apardığını xatırlatdı, ölkələrimiz arasında siyasi, iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirdi. Mədəniyyət sahəsində əməkdaşlığın da genişləndiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan rəssamlarının sentyabrın 8-də Fransa Senatının muzeyində açılmış sərgisinin parislilərin böyük marağına səbəb olduğunu vurğuladı.

Azərbaycan Prezidenti regiondakı münaqişələrin, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Fransanın səylərini yüksək qiymətləndirdi.

Cənab Anri Jakolən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Parisdə keçirdiyi görüş barədə məlumat verərək bildirdi ki, Fransa Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün səylərini davam etdirəcəkdir.

Görüşdə bu münaqişənin aradan qaldırılması istiqamətində ATƏT-in Minsk qrupunun səylərinin gücləndirilməsinin zəruriliyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə - UNESCO-nun iqamətgahında dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə UNESCO-nun Baş direktoru Koişiro Matsuura, Xoşməramlı səfirlər proqramının rəhbəri xanım Bəsma İrşeid və digər rəsmi şəxslər böyük səmimiyyətlə qarşıladılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə UNESCO-nun Baş direktoru Koişiro Matsuura arasında görüş oldu.

Söhbət zamanı Azərbaycanla UNESCO arasında əməkdaşlığın perspektivləri, həyata keçirilən birgə proqramlar, ölkəmizdə mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin dünyada layiqincə təbliğ edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdən sonra Azərbaycan Respublikası Prezidentinin xanımı Mehriban Əliyevaya UNESCO-nun Xoşməramlı səfiri fəxri adının verilməsinə həsr edilmiş mərasim oldu.

Mərasimdə UNESCO-nun Baş direktoru Koişiro Matsuura çıxış etdi.

UNESCO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI

- Hörmətli xanım Mehriban Əliyeva!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xoşməramlı səfirlər, xanımlar və cənablar!

UNESCO evinə xoş gəlmisiniz. Sizin hamınızı UNESCO-nun iqamətgahında böyük məmnuniyyətlə salamlayıram.

Bu əlamətdar gündə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri xanım Mehriban Əliyeva UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülür. Bu ad ona şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanılması və inkişaf etdirilməsinə görə təqdim olunur. Mən bu mərasimdə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin iştirak etməsindən şərəf duyuram. Həm hörmətli Prezidentə, həm də xanımı Mehriban Əliyevaya "UNESCO evinə xoş gəlmisiniz!" deyirəm. Bu imkandan istifadə edərək, Zati-aliləri cənab Prezidentə dövlət quruculuğu və sosial inkişaf sahəsində əldə etdiyi uğurlara nə qədər heyran olduğumuzu da bildirmək istəyirəm.

Xanım Mehriban Əliyevanın yüksək ada layiq görülməsi təşkilatımızın tarixindəki mühüm bir anda baş verir. Bu təltif onu göstərir ki, mədəniyyət inkişafın tacıdır və tacları bəzəyən bütün ləl-cəvahiratdan daha qiymətlidir.

UNESCO həmişə mədəniyyəti və inkişafı bir-birindən ayrılmaz hesab edir. Biz iqtisadi inkişafı ayrılıqda nəzərdən keçirmir, inkişaf dedikdə, həm də intellektual səviyyənin yüksəkliyini, ruhi, mənəvi, emosional rahatlığı nəzərdə tuturuq. Bu inkişaf qrupların, icmaların, millətlərin gələcəyi ilə yanaşı, həm də onların tarixlərinin qorunmasını nəzərdə tutur.

Ona görə də burada toplaşmış hörmətli qonaqlara böyük məmnuniyyət hissi ilə xanım Mehriban Əliyevanın Azərbaycanda mədəniyyət sahəsində yorulmaz fəaliyyəti barədə danışmaq istəyirəm. Mən onun mədəni irsin, o cümlədən musiqi irsinin qorunması, musiqi təhsili sahəsində gördüyü işləri xüsusi vurğulamaq istəyirəm. Xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu onun təşəbbüsü ilə 1995-ci ildə yaranmışdır və bu günə qədər uğurla fəaliyyət göstərir.

Musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi xanım Əliyevanın rəhbərlik etdiyi fondun daim diqqət mərkəzində olmuşdur. Təqdirə və hörmətə layiq haldır ki, fondun təşkil etdiyi xeyriyyə konsertləri dinləyicilərə sevinc bəxş etməklə yanaşı, milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına da xidmət etmişdir. Fondun səyləri nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tamamilə təmir olunmuş, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılmışdır. İmkansız ailələrdən olan uşaqların bu prosesə cəlb olunması xüsusilə diqqətəlayiq haldır.

Böyük məmnuniyyətlə mən üç dildə nəşr olunan "Azərbaycan-İRS" jurnalını da xatırlatmaq istəyirəm. Xanım Əliyeva bu jurnalda baş redaktor vəzifəsini icra edir. Jurnal Azərbaycanın və eləcə də bütün Qafqaz regionunun tarixi və mədəniyyəti barədə məlumatlar yaymaqla kifayətlənmir, eyni zamanda, bütün dünya xalqlarının adət-ənənələrindən ətraflı bəhs edir.

Bilirəm ki, xanım Əliyeva Azərbaycanda musiqi və şifahi xalq yaradıcılığının yayılmasına böyük önəm verir. Azərbaycan zəngin musiqi və şifahi xalq yaradıcılığı ənənələrinə malikdir. Son illər isə bu sahəyə maraq hədsiz dərəcədə artmışdır.

Musiqinin və musiqi alətlərinin funksiyası yalnız səslərlə bitmir. Bunlar xalqların və millətlərin tarixi yolunu, onların keçirdikləri hissləri, habelə estetik dəyərləri əks etdirir. Təsadüfi deyil ki, bəşəriyyətin mədəni incilərinin qorunması ilə bağlı 2003-cü ildə təşəbbüs irəli sürülərkən cəmi 30 saniyəlik proqrama məhz musiqi fraqmenti daxil edilmişdi.

Bu gün bizimlə bu mərasimdə iştirak edən digər Xoşməramlı səfir xanım Marianna Volqaros bu təşəbbüsü dəstəkləmişdir. UNESCO üzv ölkələri daim mədəni irsi inkişaf etdirməyə, xüsusilə nadir incilərin qorunub saxlanılmasına xüsusi qayğı göstərməyə çağırır. Keçən il qəbul olunmuş milli mədəni irsin qorunması ilə bağlı Konvensiya bu yönümdə çox mühüm bir sənəd və xalqları bu istiqamətdə birləşdirən ilk vasitə olmuşdur. Yeni Konvensiya hələ 1972-ci ildə qəbul olunmuş dünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiyaya mükəmməl bir əlavə idi. UNESCO bu Konvensiyanı tezliklə ratifikasiya etməyi bütün dünya ölkələrinə tövsiyə edir. Biz arzu edirik ki, bu mühüm sənədin müddəalarının yerinə yetirilməsi prosesinə mümkün qədər tez bir zamanda başlanılsın.

Zati-aliləri, xanımlar və cənablar!

Şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunması sahəsindəki yorulmaz səyləri ilə UNESCO-nun Xoşməramlı səfiri adını qazanan xanım Mehriban Əliyeva təşkilatımızın ideya və məramlarını həyata keçirən digər xoşməramlı səfirlərin sırasına daxil olur. Bu fəxri adı qəbul etdiyinə görə UNESCO adından ona minnətdarlığımı bildirirəm. Çox şadam ki, UNESCO-nu və bizim hamımızı narahat edən məsələlərlə bağlı səfirlik missiyasını yerinə yetirməyə razılıq vermişdir. Ümumi məqsədlərimizin həyata keçməsi üçün nüfuzundan istifadə edərək, işimizə töhfə vermək üçün göstərəcəyi səylərə görə xanım Mehriban Əliyevaya təşəkkürümüzü bildiririk.

Xanım Əliyeva, böyük məmnuniyyət hissi ilə musiqi mədəniyyətinin inkişafındakı səylərinizə görə Sizə UNESCO-nun Xoşməramlı səfiri fəxri adını təsdiqləyən diplomu təqdim edirəm. Sizə habelə müvafiq sertifikat da təqdim edir, yeni işinizdə uğurlar diləyirəm. UNESCO-nun səfirləri ailəsinə daxil olmağınız münasibətilə Sizi bir daha təbrik edirəm.

UNESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Xoşməramlı səfir kimi yüksək ada layiq görüldüyümə görə UNESCO-ya və cənab Matsuura, şəxsən Sizə, öz dərin minnətdarlığımı bildirim.

UNESCO-nun əsas prinsiplərindən biri dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaqdan ibarətdir. Mən də öz fəaliyyətimdə bu prinsipi əsas tuturam. Ona görə mənə bu yüksək adın verilməsi mənim üçün həm böyük şərəf, həm də

böyük məsuliyyətdir. Bu, mədəniyyətlər və svilizasiyalar arasında, keçmişlə bugün arasında əlaqə yaratmaq məsuliyyətidir.

Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırırlar. Bu, hələ tarixi Böyük İpək yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyə malik olması ilə bağlıdır. Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq, dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur.

Azərbaycan Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətənidir. Bu cür şəxsiyyətlərin yetişməsi üçün şərait yarada bilmiş xalqımız, həqiqətən də, böyük xalqdır.

Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi UNESCO çərçivəsində qeyd olunmuş " Kitabi-Dədə Qorqud" eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün, yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri–maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri–maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə UNESCO-nun rolu, şübhəsiz ki, çox böyükdür.

Yeri gəlmişkən, mən UNESCO tərəfindən qeyri–maddi irsin qorunması haqqında Konvensiyanın qəbul edilməsində cənab Matsuuranın böyük xidmətini vurğulamaq istərdim.

Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir.

Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını bir çox nəsillər boyu yaşada bilmişdir. Bu gün Azərbaycan mədəniyyətinin və incəsənətinin dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab olunur. Mənə bu gün verilən fəxri adı, hər şeydən əvvəl, UNESCO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir.

Fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə bir daha təşəkkürümü bildirirəm.

Diqqətinizə görə sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın mədəni həyatında çox mühüm bir gündür. Ölkəmizin nümayəndəsi UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülür. Bu, çox əlamətdar bir hadisədir. Çünki bu, mədəni əlaqələrimizin möhkəmlənməsi deməkdir.

Azərbaycan və UNESCO-nun əməkdaşlığının uzun tarixi vardır. Biz Baş direktorun ölkəmizə səfərini xatırlayırıq. Onun apardığı müzakirələr çox əhəmiyyətli olmuşdur. İndi biz birgə layihələr, proqramlar həyata keçiririk ki, Azərbaycan xalqının mədəni və tarixi irsini qoruyub saxlayaq və təbliğ edək.

Azərbaycanın çox qədim tarixi və zəngin mədəni irsi var. Ölkəmiz dünya mədəniyyətinə çoxlu töhfələr vermişdir. Eyni zamanda, dünya mədəniyyətinin nümunələri də Azərbaycanda geniş təmsil olunmuşdur. UNESCO ilə qarşılıqlı əməkdaşlıq gələcəkdə bizim daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Azərbaycan beynəlxalq aləmin bir hissəsi, müstəqilliyini nisbətən yeni qazanmış ölkədir. Əlbəttə, ölkəmizin beynəlxalq birliyə tam inteqrasiyası üçün hələ çox iş görülməlidir. Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır.

Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi də arzulayırıq. Mən əminəm ki, xanım Mehriban Əliyevanın UNESCO-nun Xoşməramlı səfiri təyin olunması bu sahədə bizə yardım edəcəkdir. Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi fond mədəniyyətin inkişaf etdirilməsi, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdiyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir. Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də fondun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaqdır.

Bu gün mənim üçün ikiqat əlamətdardır. Çünki bu, yalnız Azərbaycan nümayəndəsinin UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülməsi deyil, həm də mənim xanımımın təltif olunmasıdır. Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, Xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu, onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu yeni işdə də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəməyəcəkdir. Ümumi məqsədlərimiz isə bir-birimizi daha yaxından tanımaq, insanları, mədəniyyətləri tanıtmaq, müxtəlif xalqların və ölkələrin mədəniyyətlərindən bəhrələnməkdir.

Əminəm ki, Mehriban xanım bu vəzifəni səylə yerinə yetirəcək və bu vacib işdə uğurlar qazanacaqdır.

Bu fəxri adın verilməsinə görə UNESCO-ya bir daha minnətdarlığımı bildirir, yeni səfiri təbrik edir və ona uğurlar arzulayıram.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri başa çatdı.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DÜŞƏNBƏDƏ KEÇİRİLƏN 8-Cİ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Düşənbədə keçirilən növbəti 8-ci zirvə toplantısında iştirak etmişdir.

Sentyabrın 13-də Tacikistanın paytaxtına gələn Baş nazir Artur Rasizadə ilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonovun təkbətək görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 14-də İqtisadi Əməkdaşlıq Təşkilatının 8-ci zirvə toplantısı öz işinə başlamışdır. Toplantıda Azərbaycan, Türkiyə, Pakistan, Əfqanıstan, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan respublikalarının dövlət və hökumət başçıları iştirak edirdilər. İƏT-in üzvü olan ölkələrin dövlət bayraqları ilə bəzədilmiş iclas salonunda İqtisadi Əməkdaşlıq Təşkilatının yeni himni səsləndikdən sonra Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan 7-ci zirvə toplantısının ev sahibi kimi Düşənbə görüşünün iştirakçılarını səmimi salamladı, toplantının işinə uğurlar arzuladı və iclasa sədrlik üçün Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonovun namizədliyini irəli sürdü.

Emoməli Rəhmonov iclası açaraq dövlət və hökumət başçılarını, nümayəndələri və qonaqları tacik xalqı adından səmimi salamladı, onları Düşənbədə görməkdən məmnun olduğunu bildirdi. Sonra o, gündəlikdə duran məsələlər barədə iştirakçılara məlumat verdi.

Müzakirə olunan məsələlər ətrafında Əfqanıstanın keçid dövlətinin Prezidenti Həmid Kərzai, İran Prezidenti Seyid Məhəmməd Xatəmi, Qırğızıstan Prezidenti Əsgər Akayev, Azərbaycanın Baş naziri Artur Rasizadə, Qazaxıstanın Baş naziri Danial Əhmədov, Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Türkmənistan Xalq Məclisinin sədr müavini Rəcəb Səfərov və Özbəkistan Ali Məclisinin sədri Erkin Xəlilov çıxış etdilər. Onlar əsasən, İqtisadi Əməkdaşlıq Təşkilatında görülən işlərə qiymət verməklə yanaşı, qarşıda duran məsələlərə, regional əməkdaşlığın üstün sahələrinə, beynəlxalq terrorizmlə mübarizə problemlərinə dair fikir və mülahizələrini də söylədilər.

Azərbaycanın Baş naziri Artur Rasizadə çıxış edərək tədbirin yüksək səviyyədə təşkil olunmasına və qonaqpərvərliyə görə, Tacikistan xalqına və respublikanın rəhbərliyinə təşəkkürünü bildirdi. Sonra o, beynəlxalq iqtisadi-ticarət sisteminə inteqrasiya prosesinə böyük önəm verən Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də qarşılıqlı əlaqələrin genişləndirilməsinə, xüsusən energetika, kənd təsərrüfatı, nəqliyyat, rabitə, ticarət və sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişafına yüksək əhəmiyyət verdiyini diqqətə çatdırdı. Davamlı iqtisadi əməkdaşlığın və inkişafın vacib şərtlərindən biri kimi sülh, təhlükəsizlik və sabitlik məsələlərini xüsusi vurğulayan Baş nazir Artur Rasizadə, terrorçuluğun və təcavüzkar separatçılığın törətdiyi faciələrin daim nəzərə alınmasını, qaçqın və məcburi köçkünlərin yaranmasına səbəb olan silahlı münaqişələrin, nəzarətsiz zonalarda baş verən mənfi halların İƏT-in üzvü olan ölkələrin sosial-iqtisadi həyatı üçün ciddi təhlükə olduğunu qeyd etdi. Baş nazir Artur Rasizadə diqqəti Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və onun ətrafındakı ərazilərində baş verənlərə yönəldərək vurğuladı ki, İƏT məkanında mövcud silahlı münaqişələrin beynəlxalq hüququn normaları və region dövlətlərinin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunması prinsipləri əsasında tezliklə həllinə çalışılmalıdır. Çıxışının sonunda Baş nazir Artur Rasizadə İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə qurumda müəyyən islahatların aparılmasının vacibliyini söylədi.

İclasa sədrlik edən Tacikistan Prezidenti Emoməli Rəhmonov faydalı və səmərəli müzakirəyə görə dövlət və hökumət rəhbərlərinə təşəkkürünü bildirdi, regional əməkdaşlığı daha da dərinləşdirməklə bağlı təkliflərin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Zirvə toplantısında beynəlxalq təşkilatlar, qurumlar, birliklər adından təbrik nitqi ilə BMT-nin Asiya Ölkələri Komissiyasının nümayəndəsi Kim Xan Su çıxış etdi. İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Əshəd Orozbay qəbul olunmuş sənədlərin icrası ilə bağlı nümayəndələrə məlumat verdi.

Zirvə toplantısında 2004-cü il Düşənbə Bəyannaməsi qəbul edildi.

Sonra növbəti sammitin vaxtının və yerinin müəyyənləşdirilməsi məsələsi müzakirəyə çıxarıldı. Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti zirvə toplantısının 2006-cı ildə Bakıda keçirilməsi təklifi ilə çıxış etdi. Təklif yekdilliklə qəbul olundu.

Sammitin gündəliyinə İqtisadi Əməkdaşlıq Təşkilatının mükafatlarının təqdimat mərasimi də daxil edilmişdi. Görkəmli Azərbaycan alimi Arif Paşayev elm və texnologiya sahəsində xüsusi xidmətlərinə görə laureat adına layiq görülmüşdür.

Sonda jurnalistlər üçün mətbuat konfransı oldu.

Tacikistan Prezidenti Emoməli Rəhmonovun adından İƏT dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verildi.

Zirvə toplantısı başa çatdıqdan sonra Azərbaycanın Baş naziri Artur Rasizadə MDB ölkələri hökumət başçılarının növbəti toplantısında iştirak etmək üçün sentyabrın 15-də Düşənbədən Qazaxıstanın paytaxtı Astanaya gəlmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində 2004-cü il sentyabr ayının 14-26-da Azərbaycanda keçirilməsi nəzərdə tutulan "Kooperativ Best Effort- 2004" təlimlərinin ləğv edilməsi barədə NATO-nun qərarı ilə bağlı dərin təəssüfünü bildirir. Azərbaycan Respublikası öz ərazisində bu təlimləri Avratlantika məkanına inteqrasiya yolunda əlamətdar və mühüm bir

hadisə hesab edirdi və onların keçirilməsi üçün bütün lazımi şəraiti yaratmışdı.

Azərbaycan-NATO əməkdaşlıq münasibətləri son illərdə olduqca uğurlu inkişaf yolu keçmiş və nəticədə NATO-nun ən fəal tərəfdaşlarından biri olan Azərbaycan Respublikası bu ilin mayında təşkilatın rəhbərliyinə Fərdi Tərəfdaşıq üzrə Əməliyyat Planını da təqdim etmişdir.

Ermənistanın təlimlərin keçirilməsi nəzərdə tutulan ölkəyə - Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır, bir milyondan çox azərbaycanlı qaçqın və köçkündür. Aparılan sülh danışıqlarında isə bu ölkənin rəhbərliyi getdikcə daha kəskin və qeyri-konstruktiv mövqe tutur. Belə şəraitdə Azərbaycan üçün erməni hərbçilərinin ölkə ərazisində keçirilən hərbi təlimlərdə iştirakı qeyri-mümkün idi.

Azərbaycan tərəfi Avratlantik dəyərlərə və prinsiplərə bağlılığını və Şimali Atlantika Alyansı ilə tərəfdaşlığını daha da dərinləşdirmək əzmini bir daha bildirir və ümid edir ki, NATO ilə Azərbaycan Respublikası arasında illərdən bəri uğurla həyata keçirilən səmərəli tərəfdaşlıq münasibətləri və əməkdaşlıq bundan sonra da dinamik surətdə inkişaf edəcəkdir.

14 sentyabr 2004-cü il

ASTANADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ VƏ HÖKUMƏT BAŞÇILARI ŞURALARININ İCLASLARI KEÇİRİLMİŞDİR

Sentyabrın 15-də Qazaxıstanın paytaxtı Astanada Müstəqil Dövlətlər Birliyi Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir. İclasda xarici işlər naziri Elmar Məmmədyarovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Qazaxıstanın xarici işlər naziri Qasımcomərd Tokayev iclası açaraq iştirakçıları salamlamış, Beslanda, Rusiyanın başqa yerlərində və Daşkənddə törədilmiş terror aktlarını pisləmişdir. O demişdir ki, əgər terrorizmlə mübarizədə MDB çərçivəsində səyləri birləşdirməsək, bu bəlanın qarşısını almaq çətin olacaqdır.

İclasda beynəlxalq terrorizmlə və mütəşəkkil cinayətkarlıqla birgə mübarizədə MDB çərçivəsində hərtərəfli əlaqələrin genişləndirilməsi, habelə MDB-də islahatlar aparılması, onun rolunun artırılması, Birlik ölkələrinin hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, MDB-də azad iqtisadi zonaların yaradılması, mədəniyyət sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər müzakirə edilmiş, imzalanmaq üçün sənədlər hazırlanmışdır.

* * *

Həmin gün Astanada MDB Hökumət Başçıları Şurasının iclası olmuşdur. İclasda Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Qazaxıstanın Baş naziri Danial Axmetov iclası acaraq, üzv ölkələr arasında əlaqələrin genişləndirilməsində MDB-nin rolunun artırılmasından danışmışdır.

Hökumət başçıları Xarici İşlər Nazirləri Şurasının təqdim etdiyi sənədləri müzakirə etmiş, 30-dək sənədi imzalamışlar.

Qapalı keçən iclas qurtardıqdan sonra hökumət başçıları jurnalistlərin suallarına cavab vermişlər. Sentyabrın 15-dən etibarən Rusiyanın Azərbaycanla sərhəddə nəzarəti gücləndirməsi ilə bağlı suala cavabında Baş nazir Artur Rasizadə demişdir: Biz buna normal yanaşırıq, belə ki, bir ölkədə cinayət törətmiş adamlar sərbəst şəkildə digər ölkəyə keçə bilirlər. Azərbaycanın hüquq mühafizə orqanları ölkədə çoxlu belə cinayətkarı yaxalayaraq, Rusiyaya təhvil vermişlər. Biz Rusiyada baş vermiş bütün terror aktlarını, o cümlədən Beslanda törədilmiş cinayəti pisləyirik. Rusiyanın Azərbaycanla sərhəddə nəzarəti gücləndirməsi əlaqələrimizin genişlənməsinə mane olmayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ASTANAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün sentyabrın 15-də Qazaxıstanın paytaxtı Astana şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Astanada, onun üçün ayrılmış iqamətgahda Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin sədri-icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir.

Prezident İlham Əliyev MDB-nin icraçı katibini səmimiyyətlə salamlayaraq, Bakıda onunla keçirdiyi görüşü xatırlatdı. Dövlətimizin başçısı Azərbaycanın MDB çərçivəsində keçirilən tədbirlərdə yaxından iştirak etdiyini bildirərək dedi ki, bu çür tədbirlər Birlik ölkələri arasında əlaqələrin inkişafına və genişlənməsinə kömək göstərir.

Vladimir Ruşaylo səmimi qəbula görə minnətdarlıq etdi, Azərbaycan rəhbəri ilə yenidən görüşmək imkanından məmnun olduğunu söylədi. O, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astana zirvə görüşünə hazırlıqla bağlı görülmüş işlər, habelə sentyabrın 15-də Birliyin xarici işlər və hökumət başçıları şuralarının iclaslarında müzakirə olunan məsələlər barədə məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

Sentyabrın 15-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün belə görüşlərin keçirilməsinin, münaqişənin həlli istiqamətində bütün səylərin gücləndirilməsinin vacibliyi vurğulandı. Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Stiven Mənn (ABŞ) və Anri Jakolən (Fransa) son vaxtlar görülən işlər və aparılan danışıqlar haqqında prezidentlərə məlumat verdilər.

Görüşdə uzun illər davam edən bu münaqişənin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.

Yuri Merzlyakov görüşdən sonra jurnalistlərə bildirdi ki, prezidentlərin müzakirəsinə Praqa danışıqlarında razılaşdırılan məsələlər çıxarılmışdır. İrəli sürülmüş təkliflərdən biri də Dağlıq Qarabağın ətrafındakı rayonların işğaldan azad edilməsi, məcburi köçkünlərin həmin yerlərə qaytarılması və onların təhlükəsizliyinə zəmanət verilməsi barədədir. Danışıqlarda Azərbaycan və Ermənistan tərəfləri öz ideyalarını müzakirə etmişlər. Astana danışıqlarından sonra rəsmi Bakı və Yerevan öz təkliflərini həmsədrlərə təqdim edəcəklər və Minsk qrupu öz fəaliyyətini bunun əsasında quracaqdır. Aparılan danışıqlar və prezidentlərin müzakirəsinə çıxarılan bütün ideyalar Azərbaycanın ərazi bütövlüyü çərçivəsindədir. Danışıqlar prosesində qarşıya çıxan bir çox məqamlar münaqişənin səbəbləri və nəticələri ilə də bağlıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 15-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə təkbətək görüşü olmuşdur.

Dövlət başçıları xarici işlər nazirləri səviyyəsində aparılan danışıqları müsbət qiymətləndirdilər. Varşavadakı sonuncu görüş zamanı əldə olunmuş razılaşmaya əsasən keçirilən və üç saatdan çox çəkən təkbətək danışıqlarda prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə bağlı müxtəlif məsələləri və problemin həlli yollarını geniş müzakirə etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

Təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə üçtərəfli görüşü keçirilmişdir.

Prezident Vladimir Putin Astana sammiti çərçivəsində belə görüşün keçirilməsinin əhəmiyyətli olduğunu bildirərək dedi: mən çox şadam ki, Azərbaycan və Ermənistan prezidentləri bu ağır problemin həlli ilə bağlı danışıqları davam etdirirlər. Biz bu danışıqları və ikitərəfli görüşləri dəstəkləyirik. Başlıcası odur ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması məsələsində hər iki tərəfin arzusu eynidir. Ümid edirəm ki, aparılan danışıqlar fayda verəcəkdir. Hələlik heç bir nəticə olmasa da, hər bir görüş irəliyə doğru addımdır. Əminəm ki, hər iki ölkənin liderləri ortaq məxrəcə gələ biləcəklər. Danışıqların nəticəsindən asılı olmayaraq, bugünkü görüş də irəliyə doğru atılmış addımdır.

Prezident Robert Koçaryan dedi ki, bu, bizim ikinci görüşümüzdür. Birinci görüş tanışlıq xarakteri daşıyırdı. İndiki görüş olduqca maraqlı keçdi, münaqişə ilə bağlı geniş müzakirə aparıldı. Biz müəyyən məqamlar ətrafında geniş fikir mübadiləsi etdik. Robert Koçaryan bildirdi ki, bu barədə jurnalistlərin iştirakı olmadan Rusiya Prezidentinə məlumat veriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev məsələnin həllində göstərdiyi fəallığa görə Rusiya

Prezidenti Vladimir Putinə təşəkkür etdi. Dövlətimizin başçısı dedi ki, bizim qonşumuz və ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında mühüm rol oynayır. İndiki görüşdə biz problemi müzakirə etdik, fikir mübadiləsi apardıq. Biz çalışırıq ki, yaşadığımız regionda sülh olsun. Ümid edirik ki, gələcək danışıqlarımız səmərəli olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

Sentyabrın 15-də Astanada, üçtərəfli görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın yenidən ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələri davam etdirdilər.

Görüş başa çatdıqdan sonra prezidentlər mətbuat nümayəndələri qarşısında qısa bəyanatlarla çıxış etdilər.

ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN BƏYANATI

Azərbaycan Prezidenti ilə biz bu görüş barədə Varşavada keçirilmiş axırıncı görüşümüzdə razılığa gəlmişdik və nazirlərə müvafiq tapşırıqlar verilmişdi. Bilirsiniz ki, bizim xarici işlər nazirləri arasında görüş olmuşdur, biz prosesin necə getdiyi barədə fikir mübadiləsi apardıq. Nazirlərin işini müsbət qiymətləndirdik. İndi isə vəziyyət başqa idi, prezidentlər müəyyən mövqeləri dəqiqləşdirməli idilər. Biz bu mövqelər üzrə baxışlarımızı açıqladıq, artıq digər tərəfin mövqeyini bilərək, daha konkret fikrə gəlmək üçün bizə - mənə də, Azərbaycan Prezidentinə də vaxt lazımdır. Prinsip etibarilə, proses gedir. Biz hansısa xüsusi uğurların olması ilə öyünə bilmərik. Ancaq ən başlıcası odur ki, proses konstruktiv məcrada gedir. Bizə miras qalmış və hər halda həll etmək niyyətində olduğumuz çox mürəkkəb problemləri olduqca sakit və səbirlə müzakirə etməyə qadirik. Hələlik bu qədər, əlbəttə ki, bu gün təfsilata varmayacağıq. Diqqətinizə görə sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Görüş çox konstruktiv şəraitdə keçdi. Bir neçə saat ərzində münaqişə ilə bağlı müxtəlif məsələlər və onun aradan qaldırılması yolları müzakirə olundu. Minsk qrupu həmsədrlərinin iştirakı ilə xarici işlər nazirlərinin görüşlərinin müntəzəm formatda keçirilməsi faktını mən də müsbət qiymətləndirirəm. Bu, müsbət cəhətdir. Xüsusən ona görə ki, bu görüşlərdə çox fəal fikir mübadiləsi aparılır və münaqişənin həlli yolları axtarılır. Astanada prezidentlər səviyyəsində görüşümüz əvvəlcədən planlaşdırılmışdı. Nazirlər səviyyəsində danışıqlara müəyyən yekun vuruldu, habelə münaqişənin həlli ilə bağlı məsələlərin geniş spektri müzakirə edildi. Jurnalistlər həmişə böyük maraq göstərirlər, biz isə çox yayğın ifadələrlə kifayətlənməyə məcburuq. Bugünkü gün də istisna deyildir. Hesab edirəm ki, siz bizi başa düşürsünüz. Məsələ son dərəcə mühüm olduğuna görə, indi onun haqqında daha geniş danışmaq tezdir. Mən hesab edirəm ki, vəziyyətin

sonrakı inkişafı məsələnin həlli yolu ilə irəliləməyə kömək edə bilər. Sağ olun.

ROBERT KOÇARYAN: Mən, sadəcə, əlavə edərdim ki, zənnimcə, Rusiya Prezidenti ilə görüş maraqlı keçdi. Fikir mübadiləsi maraqlı oldu.

İLHAM ƏLİYEV: Bəli, həmin görüşdə iştirak etməyə vaxt tapdığı üçün biz Rusiya Prezidentinə minnətdarlığımızı bildirdik. Əlbəttə, belə görüşlər faydalıdır. Sağ olun.

MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ 38-Cİ ZİRVƏ GÖRÜŞÜ

Sentyabrın 16-da Astanada, Qazaxıstan Prezidentinin yeni iqamətgahında MDB dövlət başçılarının 38-ci zirvə görüşü keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.

On ölkənin dövlət başçılarının, habelə Moldova Baş nazirinin və Türkmənistan Prezidenti Administrasiyası rəhbərinin iştirakı ilə əvvəlcə qapalı keçirilən iclası açan Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirmişdir ki, bu ilin birinci yarısı MDB üçün kifayət qədər səmərəli olmuşdur. Müxtəlif formatlarda görüşlər keçirilmiş, bunların hamısı müsbət xarakter daşımışdır. Dövlətlərimiz yüksələn xətlə inkişaf edir və indi daha sıx yaxınlaşmaq və inteqrasiya üçün bütün amillər vardır.

İclasda regional əməkdaşlıq, Birlik ölkələri arasında əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılmışdır. MDB məkanında təhlükəsizlik və sabitlik məsələsi müzakirələrdə xüsusi yer tutmuşdur.

Sonra iclas geniş tərkibdə davam etdirilmişdir. Dövlət Başçıları Şurasının sədri, Ukraynanın Prezidenti Leonid Kuçma iclası açarkən demişdir: Biz yekdil fikirdəyik ki, müasir terrorizm bütün dövlətlərə təhlükə gətirir və onunla birgə səylərlə mübarizə aparmaq lazımdır. Biz beynəlxalq terrorizmin bütün formaları və təzahürlərinə qarşı səmərəli mübarizə üçün var gücümüzü sərf etmək əzmində olduğumuzu qətiyyətlə təsdiqləyirik.

İclasda əməkdaşlığın gələcək inkişaf yolları, təhlükəsizlik və sabitlik məsələləri, çoxtərəfli ticarət-iqtisadi əlaqələr sahəsindəki vəziyyət və digər məsələlər diqqət mərkəzində olmuşdur.

Qazaxıstan Prezidenti MDB-də islahatlar aparılmasına dair genişmiqyaslı proqramı iştirakçılara təqdim edərək vurğulamışdır ki, qloballaşma dövründə və yeni təhdidlərin meydana çıxdığı indiki şəraitdə Birlik dövlətləri ən aktual beynəlxalq problemlərin həlli üçün səylərini birləşdirməlidir və bu, ilk növbədə, qlobal və regional təhlükəsizliyin təmin olunmasına aiddir. Bu məqsədlə xarici işlər və müdafiə nazirlərindən, sərhəd xidmətlərinin və hüquq mühafizə orqanlarının rəhbərlərindən ibarət tərkibdə MDB-nin Təhlükəsizlik Şurasını yaratmaq nəzərdə tutulur. Birliyin bir sıra orqanlarını ləğv etmək, MDB İcraiyyə Komitəsinin strukturunda ştatların sayını 220-dən 140-a endirmək və digər dəyişikliklər təklif edilir.

Dövlət başçıları ötən müddətdə Şuraya sədrlik etmiş Ukrayna Prezidenti Leonid Kuçmanın fəaliyyətini müsbət qiymətləndirərək ona təşəkkürlərini bildirmiş, Rusiya Federasiyasının Prezidenti Vladimir Putini Dövlət Başçıları Şurasının yeni sədri seçmişlər.

Leonid Kuçmaya və Birliyin keçmiş icraçı katibi Yuri Yarova MDB–nin Fəxri nişanı təqdim olunmuşdur.

MDB dövlət başçılarının növbəti zirvə görüşünü 2005-ci ilin sentyabrında Belarusun paytaxtı Minskdə keçirmək qərara alınmışdır.

İclasın sonunda 20 sənəd, o cümlədən MDB-nin üzvü olan dövlətlərin dövlət başçılarının beynəlxalq terrorizmlə mübarizə haqqında bəyanatı, MDB, ATƏT və BMT çərçivəsində qəbul olunmuş sənədlər baxımından müasir mərhələdə beynəlxalq terrorizmə, habelə təhlükəsizlik və sabitliyə olan digər təhdidlərə qarşı dayanmaqda Birlik ölkələrinin əməkdaşlığının daha da inkişaf etdirilməsi barədə, Dövlət Başçıları Şurasının növbəti iclasının keçirilməsinin vaxtı və yeri haqqında, Şurada sədrlik haqqında, Böyük Vətən müharibəsində qələbənin 60 illiyi ilə əlaqədar MDB-nin üzvü olan dövlətlərin xalqlarına və beynəlxalq birliyə müraciət haqqında, Müstəqil Dövlətlər Birliyinin təkmilləşdirilməsi və onda islahatlar aparılması barədə, 2005-2007-ci illər üçün cinayətkarlığa qarşı mübarizəyə dair dövlətlərarası birgə tədbirlər proqramı haqqında, Transsərhəd çayları probleminə dair beynəlxalq konfransın keçirilməsi barədə, Müstəqil Dövlətlər Birliyinin Fəxri nişanı ilə təltif haqqında və digər sənədlər imzalanmışdır.

Zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransı keçirilmiş, dövlət başçıları jurnalistləri maraqlandıran suallara cavab vermişlər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirmişdir ki, dövlət başçıları xarici işlər nazirlərinə təklif olunan islahatlarla bağlı müzakirələr apararaq, ilin sonunadək qəti qərar qəbul etməyi tapşırmışlar. Ondan sonra bu məsələyə dövlət başçıları baxacaqlar.

Sonra prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.

Sentyabrın 16-da Astanada Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin adından Birlik ölkələri dövlət başçılarının şərəfinə nahar verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak etmişdir.

Qazaxıstanın paytaxtı Astana şəhərində MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da səfərini başa çatdıraraq vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Avropa Birliyi Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Romano Prodi ilə Belçikada keçirdiyi görüşü məmnunluqla xatırlatdı və həmin görüşün çox səmərəli olduğunu nəzərə çarpdırdı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan-Avropa Birliyi əlaqələri çox uğurla inkişaf edir, ölkəmiz bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi ilə əla-

qələr Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və bu sahədə yeni-yeni uğurlar əldə olunur.

Avropa Birliyinin yeni qonşuluq siyasətinin böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev bu siyasətin Azərbaycan-Avropa Birliyi münasibətlərində çox önəmli istiqamətlərdən biri olduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə nümayəndəsinin təyin olunmasının əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini vurğuladı.

Azərbaycan ilə Avropa Birliyi arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əmin olduğunu nəzərə çatdırdı. Azərbaycanın Avropanın bir hissəsi olduğunu xatırladan dövlətimizin başçısı ölkəmizin Avropa strukturlarına inteqrasiyasının xarici siyasətimizin prioritetlərindən biri olduğunu bildirdi.

Azərbaycan ilə Avropa Birliyi arasında iqtisadi sahədə, xüsusilə energetika sahəsində çox uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirən Prezident İlham Əliyev siyasi sahədə dialoqun yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Romano Prodinin Azərbaycana səfəri əlaqələrimizin daha da inkişaf etməsi və möhkəmləndirilməsi işinə kömək göstərəcəkdir.

Səmimi qəbula və Avropa Birliyi ilə münasibətlərə dair söylədiyi fikirlərə görə Prezident İlham Əliyevə təşəkkür edən qonaq Azərbaycana səfərindən çox böyük məmnunluq duyduğunu vurğuladı. Siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın yeni qonşuluq siyasətinin tərkib hissələrindən biri olduğunu nəzərə çatdıran qonaq dedi ki, bu siyasətin həyata keçirilməsi Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın daha da gücləndirilməsi, qarşıda duran problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyır. Bu siyasətin həyata keçirilməsi istiqamətində Avropa Birliyi qarşısında mühüm vəzifələr durduğunu bildirən cənab Prodi yeni qonşuluq siyasətinə yanaşmada təmsil etdiyi təşkilatın ədalətli mövqe tutduğunu vurğuladı.

Qonaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll edilməsinin yeni qonşuluq siyasətinin uğurla həyata keçirilməsi üçün vacib olduğunu söylədi.

Cənab Romano Prodi dedi ki, 500 milyon əhalinin yaşadığı geniş bir ərazini əhatə edən Avropa Birliyi bölgədə mühüm rol oynayan Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. O, əmin olduğunu söylədi ki, bu əlaqələr bundan sonra da durmadan inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Prezident sarayında görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçi qəbul etmişdir.

Hörmətli qonağı səmimiyyətlə, mehribanlıqla salamlayan və onunla görüşdən çox məmnun olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlardan, sürətli inkişafdan ətraflı söhbət açdı.

Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin yaxın dostu, xalqımızın böyük hörmət bəslədiyi Rostropoviçin vaxtaşırı olaraq vətənə gəlməsinin çox böyük əhəmiyyət daşıdığını vurğuladı.

Səmimi qəbula və xoş sözlərə görə dərin minnətdarlığını bildirən Mstislav Rostropoviç doğma vətənində olmasından çox böyük məmnunluq duyduğunu vurğuladı, Azərbaycanın sürətli inkişafına və respublikamızda görülən əzəmətli işlərə heyran qaldığını söylədi. O dedi ki, iftixar hissi keçirirəm ki, mənim üçün çox əziz olan Azərbaycanda bütün sahələr və onun regionları sürətlə inkişaf edir.

Cənab Rostropoviç ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın sürətli inkişafı naminə gördüyü işlərin uğurla davam etdirildiyini bildirərək dedi ki, mən Prezident İlham Əliyevin Azərbaycan xalqı tərəfindən sevildiyinin və ölkədə böyük nüfuz qazandığının şahidi oldum.

Vişnevskaya-Rostropoviç Fondunun Azərbaycanda uşaqlara peyvənd edilməsi sahəsində gördüyü işləri xatırladan Rostropoviç bildirdi ki, bundan sonra da yüz minlərlə uşağın vaksinasiyası davam etdiriləcəkdir.

Azərbaycandakı sürətli inkişafın onu qəlbən sevindirdiyini nəzərə çarpdıran maestro özünün xoş arzularını bildirdi və əmin olduğunu söylədi ki, ölkəmiz bundan sonra da böyük nailiyyətlər əldə edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MAESTRO MSTİSLAV ROSTROPOVİÇ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bakıda səfərdə olan görkəmli həmyerlimiz, maestro Mstislav Rostropoviç Heydər Əliyev Fonduna gəldilər.

Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimizin yaxın dostu olmuş Mstislav Rostropoviçə Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı söhbət açdı.

Mstislav Rostropoviç Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan, habelə keçmiş SSRİ tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldu. O, ümummilli liderimizin Sovetlər İttifaqının dövlət və hökumət rəhbərləri ilə birgə çəkilmiş fotoşəkillərinə xüsusi maraqla baxdı. Bu dahi şəxsiyyətin mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi daimi qayğı və diqqəti əks etdirən eksponatlar maestroda böyük maraq doğurdu.

Mstislav Rostropoviç fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Mstislav Rostropoviç binanın eyvanından Bakının mənzərəsini seyr etdilər. Dövlətimizin başçısı şəhərdə görülən işlərdən danışdı. Maestro Bakıda son illərdə aparılmış abadlıq və quruculuq işlərinə heyran olduğunu söylədi.

BAKIDA UŞAQLARIN PEYVƏND OLUNMASI MƏRASİMİ KEÇİRİLMİŞDİR

Sentyabrın 18-də Bakıdakı 6 nömrəli uşaq klinik xəstəxanasında Vişnevskaya-Rostropoviç Fondu tərəfindən həyata keçirilən uşaqları peyvənd mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç mərasimdə iştirak etmişlər.

Xəstəxananın qarşısına toplaşan paytaxt sakinləri, ictimaiyyətin nümayəndələri, səhiyyə işçiləri dövlətimizin başçısını və maestronu böyük hörmət və ehtiramla qarşıladılar. Prezident İlham Əliyevə və Mstislav Rostropoviçə gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyev xəstəxanada yaradılmış Heydər Əliyev guşəsinə baxdı. Burada ümummilli liderimizin səhiyyəyə göstərdiyi diqqət və qayğını, ölkəmizdə istifadəyə verilən yeni səhiyyə obyektlərinin açılış mərasimlərində iştirakını, müstəqil Azərbaycan dövlətinin qurucusunun gənc nəslin sağlam böyüməsi üçün gördüyü mühüm işləri əks etdirən fotoşəkillər nümayiş etdirilir.

Dövlətimizin başçısı İlham Əliyev, maestro Mstislav Rostropoviç və ABŞ-ın ölkəmizdəki səfiri Rino Harniş peyvənd otağına gələrək, 1 yaşlı Adil Quluzadənin və 6 yaşlı Ayan Əliyevanın peyvənd olunması prosesini müşahidə etdilər.

Prezidentə məlumat verildi ki, Vişnevskaya-Rostropoviç Fondu tərəfindən 2003-cü ildə başlanmış Milli Peyvənd Proqramı uşaqların üç ciddi infeksion xəstəlikdən - qızılca, parotit və məxmərəkdən qorunması üçün həyata keçirilir. Bu, eyni zamanda, yeni doğulmuş uşaqları anadangəlmə məxmərək sindromundan xilas edəcəkdir. Bütövlükdə, ABŞ-ın Kənd Təsərrüfatı Departamenti tərəfindən maliyyələşdirilən proqram üç il ərzində Azərbaycanda bir və altı yaşlı 750 min uşağın QPM vaksini ilə təmin olunmasını nəzərdə tutur. Bakı şəhərində aparılan QPM peyvənd proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir. Belə ki, 2003-cü ildə uşaqların 96 faizinə, bir yaşlı 24 minə yaxın uşağa qızılca, parotit və məxmərəyə qarşı peyvənd edilmişdir.

Azərbaycan, Rusiya Federasiyası və Gürcüstanda tətbiq olunan proqram mövcud səhiyyə infrastrukturları tərəfindən həyata keçirilir. Azərbaycanda vaksinlərin təhlükəsiz daşınması və saxlanması məqsədi ilə ölkənin bütün rayonlarına 191 ədəd soyuducu, bir o qədər generator və 336 ədəd termoçanta paylanmışdır. Proqramın həyata keçirilməsi müddətində Fond Dünya Səhiyyə Təşkilatının beynəlxalq standartlara cavab verən 316 min 668 ədəd QPM vaksini və 240 min ədəd özüməhvolan şprislərlə təmin edilmişdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Vişnevskaya-Rostropoviç Fondu tərəfindən həyata keçirilən vaksinasiya proqramının tətbiqinin genişləndirilməsi üçün ianə haqqında müqavilə imzalandı. Sənədi Azərbaycanın səhiyyə naziri Əli İnsanov və Vişnevskaya-Rostropoviç Fondunun prezidenti Mstislav Rostropoviç imzaladılar.

Daha sonra xəstəxananın qarşısında mərasim keçirildi. Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Əziz Slava!

Hörmətli cənab səfir!

Bu gün çox əlamətdar bir gündür. Bizim dostumuz Slava Rostropoviçin təşəbbüsü ilə Azərbaycanda vaksinasiyanın yeni mərhələsi başlayır. Bilirsiniz ki, Slava Rostropoviç bizim həmyerlimizdir. Azərbaycanın böyük dostudur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin yaxın dostu idi və bu dostluğa daim sadiq olmuşdur.

Xatırlayırıq ki, xalqımızın ümummilli lideri dünyasını dəyişdikdən sonra Slava Bakıya gəlmişdi və onun xatirəsinə ithaf olunmuş kiçik konsert də vermişdi. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, həqiqətən, dostluğun ən yüksək zirvəsi idi.

Slava eyni zamanda, Azərbaycanda müxtəlif xeyriyyə məsələləri ilə məşğuldur. Onun rəhbərlik etdiyi Fondun xətti ilə Azərbaycanda çox böyük proqramlar həyata keçirilir. Onların içərisində vaksinasiya proqramı da çox önəmli yer tutur.

Həmişə olduğu kimi, bu gün də Slava öz sözünə sadiq qalaraq Bakıdadır. O, söz vermişdi ki, hər il Bakıya gələcək, hər il Bakıda konsert verəcək, gənc musiqiçilərlə məşğələlər keçirəcəkdir. Mən çox şadam ki, bu ənənə davam edir və Slavanın Azərbaycana etdiyi xidmətlər davam edir.

Burada qeyd olundu ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə iki il bundan əvvəl buna oxşar bir tədbir keçirilmişdir. Bu gün biz iki uşağın peyvənd olunmasında iştirak etdik. Bu proqram çox genişdir və gələcəkdə yüz minlərlə uşağı əhatə edəcəkdir. Bu, sağlamlıq deməkdir, Azərbaycanın gələcək nəslinin sağlam böyüməsi deməkdir. Xalqımız sağlam xalqdır. Fiziki cəhətdən sağlamdır. Amma bilirsiniz ki, müasir dövrdə yoluxucu xəstəliklər bütün dünyada böyük təhlükə mənbəyidir. O cümlədən Azərbaycanda da. Bu istiqamətdə ölkəmizdə böyük işlər görülübdür və çox şadam ki, artıq Azərbaycanda bir çox təhlükəli xəstəlik ləğv edilibdir, yoxdur.

Slavanın təşəbbüsü ilə aparılan bu işlər imkan verəcək ki, uşaqlarımız daha da sağlam olsunlar, Vətənimizdə daha da sağlam yeni nəsil yetişsin və xalqına xidmət etsin.

Mən sizin hamınızı bu gözəl mərasim münasibətilə bir daha ürəkdən təbrik edirəm. Dostumuz Slavaya öz dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN ÇIXIŞI

- Əziz Prezident!

Əziz dostlarım!

Salaməleyküm!

Demək istəyirəm ki, nədənsə, özümü Yer üzündə ən xoşbəxt adam sayıram. Əlbəttə, bəlkə də, bunu demək yaxşı düşmür, amma, zənnimcə, ona görə xoşbəxtəm ki, Bakıda

doğulmuşam. Bilirsinizmi, Vətənimə, şəhərimə minnətdar olmaq istəyirəm və bu minnətdarlığın forması burada böyüyüb-başa çatacaq uşaqlar haqqında düşüncələr və onlara qayğıdır. Çünki mən özüm də burada doğulmuşam və şükürlər olsun ki, indiyədək inyeksiyasız yaşamışam.

Deməliyəm ki, proqramımız başlananda ona böyük dostum və böyük insan – indiki Prezidentin atası, Azərbaycan Prezidenti Heydər Əliyeviç Əliyev xeyir-dua verdi. İndicə gördüyüm fotoşəkillərdə o, burada, Bakıda iştirak etdiyimiz vaksinasiya zamanı təsvir olunmuşdur. Bu gün isə burada yeni Prezident, əziz, sevimli və gözəl dostum iştirak edir. Bütün bunlar proqramımıza xeyir-dua verir.

Onu da deməliyəm ki, mən Amerika Birləşmiş Ştatlarına çox minnətdaram. ABŞ səfiri Rino Harniş xanımı ilə birlikdə buradadır. Mən Sovet İttifaqından qovulanda 17 il ABŞ-da, Vaşinqtonda yaşadım, Milli Orkestrin baş dirijoru oldum. Bu ölkənin köməyi, bu ölkədən olan dostlarımın köməyi mənim üçün çox şey deməkdir. Bu kömək bütün dünyanı qəlbimdə xeyirxahlıqla birləşdirir.

Mən bütün həkimlərə təşəkkür etmək istəyirəm. Bilirəm ki, həyatınız çətindir. Amma deməliyəm ki, həyatımda ən yaxın dostlarım həkimlər olmuşlar, çünki biz eyni iş görürük – siz insanları cismən sağlam edirsiniz, biz isə onların qəlbini musiqi ilə müalicə edirik. Sizə təşəkkür etmək və səadət arzulamaq, demək istəyirəm, çox xoşbəxtəm ki, sizin belə gözəl səhiyyə naziriniz var. O da mənim gözəl dostumdur.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş təntənələrdə iştirak etmək üçün Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülərin başçılığı ilə ölkəmizə gəlmiş nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq bildirdi ki, bu günlər Azərbaycan "Əsrin müqaviləsi"nin onuncu ildönümünü geniş qeyd edir. Bu müqavilənin imzalandığı ilk gündən Türkiyə daim Azərbaycanın yanında olub, qardaş ölkənin şirkətləri müqavilənin həyata keçirilməsində yaxından iştirak edirlər. Dövlətimizin başçısı vurğuladı ki, ötən on ildə Azərbaycan bütün sahələrdə böyük nailiyyətlər əldə etmiş, o cümlədən "Əsrin müqaviləsi"nin reallaşdırılması ilə əlaqədar qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilmişdir. Bakı-Supsa neft kəməri çəkilmişdir, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin gələn il işə salınmasını səbirsizliklə gözləyirik. "Şahdəniz" yatağından çıxarılacaq təbii qazın dünya bazarına çatdırılması layihəsinin reallaşdırılması sahəsində də böyük irəliləyişlər əldə olunmuşdur.

Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasındakı daimi dostluq və qardaşlıq əlaqələrinin sürətlə inkişaf etdiyini vurğulayaraq, əminliklə bildirdi ki, bu münasibətlər gələcəkdə daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlıq edən nazir Hilmi Gülər Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını, hörmət və ehtiramlarını respublikamızın rəhbərinə çatdırdı. O dedi ki, ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən neft sahəsində əməkdaşlıq sürətlə inkişaf edir. Ceyhan terminalına türk dünyasının böyük oğlu Heydər Əliyevin adı verilmişdir. Bu, əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsində Heydər Əliyevin xidmətlərinin etirafının bariz nümunəsidir.

Nazir "Şahdəniz" layihəsinin də uğurla həyata keçirilməsindən söhbət açdı və dedi ki, ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" müdrik kəlamına söykənən əlaqələrimiz gələcəkdə daha da inkişaf edəcəkdir.

Sonra nazir Türkiyə Prezidenti Əhməd Necdət Sezərin təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında Norveçin dövlət katibi, energetika nazirinin müavini Oluf Ulsethin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev onların "Əsrin müqaviləsi"nin 10 illiyi münasibətilə Bakıda keçirilən tədbirlərdə iştirak etmək üçün respublikamıza gəlmələrindən məmnunluq duyduğunu bildirdi.

Dövlətimizin başçısı 10 il bundan əvvəl, Azərbaycan tarixi sınaqlarla üzləşən zaman Bakıda "Əsrin müqaviləsi"nin imzalanması mərasimində iştirak edən ölkələrin və onları təmsil edən şirkətlərin fəaliyyətini yüksək qiymətləndirdi.

1994-cü ildən bəri ötən illər ərzində Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft sənayesində böyük uğurlar qazanıldığını bildirən Prezident dedi ki, biz "Əsrin müqaviləsi"ni imzalayarkən neft gəlirlərini xalqın rifahının yüksəldilməsinə yönəltməyi qarşımıza məqsəd qoymuşduq. İxrac neft və qaz kəmərləri işə salındıqdan sonra əldə olunan gəlirlər xalqımızın rifahını daha da yaxşılaşdıracaqdır. Neft gəlirlərindən istifadə olunmasında şəffaflığın təmin edildiyini diqqətə çatdıran dövlətimizin başçısı bildirdi ki, bu siyasət bundan sonra da uğurla davam etdiriləcəkdir.

Azərbaycan ilə Norveç arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Prezident İlham Əliyev "Statoil" şirkətinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini xatırlatdı.

Ölkəmizin başçısı qeyd etdi ki, Azərbaycanın əsas məqsədi qeyri-neft sektorunda da yüksək inkişafa nail olmaqdır. Norveçin bu sahədəki təcrübəsi Azərbaycan üçün maraqlıdır. Biz təcrübə mübadiləsindən, qarşılıqlı faydalı əməkdaşlıqdan uğurla bəhrələnməliyik.

Azərbaycan Prezidenti ölkələrimiz arasında münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri Oluf Ulseth dedi ki, Azərbaycan təkcə neft sahəsində deyil, bütün sahələrdə böyük

uğurlar qazanmışdır. Biz Azərbaycana səfərlər zamanı bu inkişafı öz gözlərimizlə görmüşük.

Norveç ilə Azərbaycan arasında energetika sahəsində əlaqələrin sürətlə inkişaf etdiyini xatırladan qonaq bildirdi ki, "Statoil" bu işdə çox fəallıq göstərir. O, əminliyini bildirdi ki, bu əlaqələr gələcəkdə də uğurla davam edəcəkdir.

Prezident İlham Əliyev səmimi salamlarını və dərin ehtiramını Norveçin Baş naziri Kyel Maqne Bunnevikə çatdırmağı qonaqdan xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB JVANİYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Jvaniyanı qəbul etmişdir.

Hörmətli qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında bütün sahələrdə dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, o cümlədən energetika sahəsində əməkdaşlığımız çox səmərəli və yüksək səviyyədə davam edir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan təcavüzkar separatçılığa qarşı mübarizədə Gürcüstanın mövqeyini müdafiə edir və ərazi bütövlüyünü dəstəkləyir.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

Səmimi qəbula görə minnətdarlıq edən qonaq cənab Mixail Saakaşvilinin salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdıraraq dedi ki, iki ölkənin prezidentləri arasındakı səmimi dostluq Azərbaycan-Gürcüstan münasibətlərinin daha da inkişaf etdirilməsinə xüsusi təkan verir.

Zurab Jvaniya bildirdi ki, Heydər Əliyevin müdrikliyi və uzaqgörən siyasəti sayəsində əsası qoyulmuş neft strategiyasının uğurlu nəticələri bu gün göz qabağındadır və Prezident İlham Əliyev də bu siyasəti müvəffəqiyyətlə davam etdirir. O, Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın durmadan inkişaf etməsindən məmnunluqla söhbət açdı.

Cənab Jvaniya vurğuladı ki, Qafqazdakı problemlərə və beynəlxalq münasibətlərə dair məsələlərə yanaşmada Azərbaycan ilə Gürcüstanın mövqeyi eynidir.

Qonaq əmin olduğunu bildirdi ki, dost və qardaş ölkələrimiz arasında münasibətlər bundan sonra da uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİR İQOR YUSUFOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında Rusiya Federasiyasının beynəlxalq əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir İqor Yusufovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayaraq dedi ki, Bakı-Novorossiysk neft kəməri buna yaxşı misaldır, həmin marşrut indi də uğurla işləyir və gələcəkdə də bu cür fəaliyyət göstərəcəyinə əminəm.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində Rusiya, Azərbaycan və Qazaxıstan arasında ikitərəfli sənədlər imzalandığını nəzərə çarpdıran dövlətimizin başçısı dedi ki, ümid edirik ki, bu razılaşmalar Xəzərin hüquqi statusunun tam şəkildə həll olunması məsələsinə öz müsbət təsirini göstərəcəkdir.

Prezident İlham Əliyev İqor Yusufovu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi, ona gələcək fəaliyyətində uğurlar arzuladı.

Səmimi qəbula və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən İqor Yusufov əsası Heydər Əliyev tərəfindən qoyulmuş "Əsrin müqaviləsi"nin on illiyinin Azərbaycanda təntənəli surətdə bayram edilməsindən məmnunluqla söhbət açdı.

Azərbaycan ilə Rusiyanın bütün sahələrdə əməkdaşlığının durmadan inkişaf etməsindən razılıqla bəhs edən cənab İqor Yusufov bildirdi ki, Rusiya şirkətləri gələcəkdə də Azərbaycanın enerji layihələrində fəallıqla iştirak etmək əzmindədirlər. Qonaq daha sonra dedi ki, ölkələrimiz arasında təkcə neft sahəsində yox, energetika sahəsində əməkdaşlıq uğurla davam edir və bu, Azərbaycan-Rusiya strateji tərəfdaşlıq prinsiplərinə cavab verir.

Cənab Yusufov vurğuladı ki, Azərbaycan və Rusiya prezidentləri arasındakı səmimi dostluq münasibətləri ölkələrimizin bütün sahələrdə əlaqələrinin inkişafına xüsusi təkan verir.

Sonra qonaq Rusiya Prezidenti Vladimir Putinin təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Rusiya Prezidentinin təbrik məktubuna görə dərin minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev səmimi salamlarını və ehtiramını cənab Vladimir Putinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN BAŞ PROKURORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında Avstriyanın baş prokuroru Valter Preslauyeri qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Azərbaycan ilə Avstriya arasında əlaqələrin sürətlə inkişaf etdiyini nəzərə çarpdıraraq bildirdi ki, bu əlaqələr müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə genişlənməkdədir.

Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında əməkdaşlıq həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar, o cümlədən Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq qurumlar çərçivəsində uğurla davam edir.

Respublikamızın Avropa strukturlarına inteqrasiya edilməsini ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbayca-

nın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirak etdiyini nəzərə çarpdırdı.

Ölkələrimizin müxtəlif dövlət strukturları arasında, o cümlədən prokurorluq sistemləri arasında əlaqələrin daha da genişləndirilməsinin ikitərəfli münasibətlərin inkişafına müsbət təsir göstərdiyini bildirən dövlətimizin başçısı Avstriyanın ədliyyə nazirini Bakıda qəbul etdiyini məmnunluqla xatırlatdı, ümumiyyətlə, ədliyyə sistemi və hüquq mühafizə orqanları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin beynəlxalq aləmdə böyük önəm daşıdığını vurğuladı. Prezident İlham Əliyev dedi ki, beynəlxalq aləmin yeni təhlükələr, xüsusilə də beynəlxalq terrorizm kimi bəlalarla üzləşdiyini nəzərə alsaq, bu sahədə əməkdaşlığımız çox əhəmiyyətli sayıla bilər. Azərbaycan özü terrorizmin qurbanıdır, ona görə də terrorizmə qarşı mübarizədə səylərin durmadan gücləndirilməsində çox maraqlıdır.

Dövlətimizin başçısı İlham Əliyev cənab Valter Preslauyerin Bakıya səfərinin uğurlu keçməsini arzuladı.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən qonaq Azərbaycanda keçirdiyi uğurlu görüşlər barədə məlumat verdi. "Əsrin müqaviləsi"nin onuncu ildönümünün qeyd edildiyi günlərdə Bakıya səfər etməsindən böyük məmnunluq duyduğunu bildirən Valter Preslauyer Azərbaycan Prezidentini və xalqını səmimi qəlbdən təbrik etdi.

Ölkələrimizin keçdiyi tarixi yollar arasında oxşarlıq olduğunu nəzərə çarpdıran qonaq onun təmsil etdiyi xalqın da vaxtilə Azərbaycan xalqı kimi qaçqınlar problemi ilə üzləşdiyini xatırlatdı.

Beynəlxalq terrorizmlə mübarizənin birgə səylər vasitəsilə mümkün olduğunu vurğulayan qonaq ölkələrimizin prokurorluq sistemləri arasında əməkdaşlığın bu işdə mühüm rol oynadığını söylədi.

Cənab Valter Preslauyer əminliyini bildirdi ki, hər iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlıq daha da genişlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ÜZRƏ XÜSUSİ ELÇİSİ FİLİPP DİMİTROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında ATƏT-in hazırkı sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi elçisi Filipp Dimitrovin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı xalqımız üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Ermənistanın Azərbaycana təcavüzünə toxunaraq bildirdi ki, bu münaqişə ümumilikdə bütün bölgədə sülhün və sabitliyin təmin olunması işinə böyük əngəl törədir. Prezident İlham Əliyev dedi ki, bu münaqişə ilə əlaqədar Azərbaycanın mövqeyi dəyişməzdir. Bu problem beynəlxalq hüquq normaları və prinsipləri - ölkələrin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri əsasında həll olunmalıdır. Əgər məsələyə başqa cür yanaşma olarsa, bu münaqişə heç cür həll edilə bilməz. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edildiyi təqdirdə, bölgədə sülh və təhlükəsizlik təmin olunar, firavanlıq, əmin-amanlıq yaranar, iqtisadi inkişaf prosesi sürətlənər.

Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, beynəlxalq təşkilatlar – Avropa Birliyi, Avropa Şurası və digər təşkilatlar bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması işinə getdikcə daha çox maraq göstərirlər. ATƏT-in Minsk qrupu bu münaqişənin sülh yolu ilə həll edilməsi sahəsində xüsusi mandata malikdir. Təəssüf ki, Minsk qrupunun fəaliyyəti indiyədək müsbət nəticə verməyibdir. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Minsk qrupu bu sahədə səylərini daha da artıracaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Filipp Dimitrov Azərbaycana səfərindən böyük məmnunluq duyduğunu söylədi. O dedi ki, Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərinin münaqişənin sülh yolu ilə həll olunmasında böyük rolu vardır.

Qonaq əmin olduğunu bildirdi ki, tərəflər münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün öz səylərini davam etdirəcəklər.

AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA ƏLAQƏLƏRİN DAHA DA İNKİŞAFI ÜÇÜN YAXŞI ŞƏRAİT VARDIR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 21-də ölkəmizdə səfərdə olan Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Brayan Fol ilə görüşmüşdür.

Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini deyən Brayan Fol, ölkələrimizin əməkdaşlığının gələcəkdə də davam etdirilməsi üçün münbit şəraitin mövcud olduğunu xüsusi vurğulamışdır. Azərbaycanın zəngin təbii ehtiyatlarının onun üçün əlverişli iqtisadi imkan yaratdığını bildirən qonaq, İngiltərə sərmayədarlarının respublikamıza daha çox cəlb edilməsinin vacibliyindən söz açmışdır.

Ölkələrimiz arasında əməkdaşlığa yüksək qiymət verdiyini bildirən nazir Elmar Məmmədyarov, iqtisadi əlaqələrin genişləndirilməsinə dair fikirlərlə razı olduğunu bildirmişdir. Nazir ingiltərəli sərmayədarların yalnız Azərbaycanın neft sektoruna deyil, qeyri-neft sektoruna da cəlb olunmasının əhəmiyyətini qonağın diqqətinə çatdırmışdır. Elmar Məmmədyarov görüşlər, konfranslar və digər tədbirlərin ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi prosesinə müsbət təsir göstərəcəyinə əmin olduğunu demişdir. Yalnız iqtisadi sahədə deyil, siyasi sahədə də ölkələrimizin əlaqələrini yüksək qiymətləndirən nazir, gələcəkdə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Böyük Britaniyanın dəstəyinə ümid bəslədiyini söyləmişdir.

Xüsusi nümayəndə Brayan Fol ölkəsinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının tərəfdarı olduğunu bildirərək, məcburi köçkünlərin doğma torpaqlarına qayıdacaqlarına inandığını vurğulamışdır. Britaniyalı qonaq Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həll ediləcəyinə ümidvar olduğunu diqqətə çatdırmışdır.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASINDA AVROPA TƏSİSATLARI FƏAL İŞTİRAK ETMƏLİDİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 21-də Bakıda səfərdə olan Qərbi Avropa Birliyi Assambleyasının sədr müavini, qurumun Qafqaz regionunda sabitlik və təhlükəsizlik məsələləri üzrə məruzəçisi, İtaliya parlamentinin deputatı Marko Zakkera ilə görüşmüşdür.

Marko Zakkera respublikamıza təmsil etdiyi quruma Azərbaycan barədə hazırlanacaq məruzə üçün müvafiq məlumat və materiallar toplamaq məqsədi ilə gəlmişdir.

Bunun üçün hər cür şərait və imkan olduğunu deyən nazir Elmar Məmmədyarov qonağa bu işdə müvəffəqiyyətlər arzulamışdır.

Daha sonra nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər, ölkələrin başçıları və xarici işlər nazirləri səviyyəsində aparılan danışıqlar və respublikamızın bu məsələdə mövqeyi barədə ətraflı məlumat vermişdir.

Xarici siyasət idarəsinin başçısı münaqişənin indiyədək öz həllini tapmamasının təkcə Azərbaycanın deyil, ümumilikdə regionun inkişafına, həmçinin Ermənistanın özünün də iqtisadiyyatına mənfi təsir göstərdiyini xüsusilə vurğulamışdır. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində terrorçu dəstələrin hazırlandığını və bu prosesin respublikamızın nəzarəti xaricində olduğunu deyən nazir, bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmə qarşı mübarizədə birgə səylərin son dərəcə vacib olduğunu qonağın diqqətinə çatdırmışdır.

Ölkəmizin vahid Avropa ailəsinin üzvü olduğunu söyləyən nazir Elmar Məmmədyarov, Azərbaycanın demokratik inkişaf yolu tutduğunu bildirmiş, münaqişənin nizama salınmasında Avropa təsisatlarının iştirakı və fəaliyyətinin gücləndirilməsinin vacibliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasının ümumi müzakirələrində iştirak etmək üçün sentyabrın 22-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANXEL MORATİNOS KUYYAUBENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Nyu-Yorkda "Ualdorf Astoriya" mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda İspaniyanın xarici işlər naziri Migel Anxel Moratinos Kuyyaubeni qəbul etmişdir.

Cənab Moratinos İspaniya kralı I Xuan Karlosun və Baş nazir Xose Luis Rodriges Sapa-

teronun səmimi salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. O bildirdi ki, İspaniya hökuməti Azərbaycanda gedən prosesləri yaxından izləyir və Prezident İlham Əliyevin apardığı siyasəti yüksək qiymətləndirir.

Azərbaycan Prezidenti İspaniya kralı və Baş nazirinin səmimi salamlarına görə təşəkkürünü bildirərək dedi ki, ölkələrimiz arasında ikitərəfli əlaqələri inkişaf etdirmək üçün böyük potensial vardır. Ölkələrimiz bu potensialdan istifadə edərək siyasi, iqtisadi və digər sahələrdə münasibətləri genişləndirməlidir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın beynəlxalq strukturlara inteqrasiyası uğurla davam edir. Ölkəmiz Avropa Birliyinin qonşuluq siyasətinə daxil edildikdən sonra biz bu qurumla və onun üzvləri ilə münasibətləri yeni mərhələyə qaldırmaq niyyətindəyik..

Dövlətimizin başçısı İspaniya kralına və Baş nazirinə onun səmimi salamlarını çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EKSON/MOBİL ŞİRKƏTİNİN PREZİDENTİ TİM SEYKANI QƏBUL ETMİŞDİR

Nyu-Yorkda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də "Ualdorf Astoriya" mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda Ekson/Mobil şirkətinin prezidenti Tim Seykanı qəbul etmişdir.

Cənab Tim Seyka Azərbaycan üçün əlamətdar hadisə - "Əsrin müqaviləsi"nin imzalanmasının onuncu ildönümü münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, Xəzərin təbii ehtiyatlarının işlənilməsinə dair layihələrin uğurla həyata keçirilməsindən məmnunluqla söhbət açdı.

Görüşdə həmin layihələr ətrafında fikir mübadiləsi edildi. Bununla əlaqədar Ekson/Mobil şirkətinin Azərbaycanda gələcək fəaliyyəti də diqqət mərkəzində oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ SOLOMON PASİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Nyu-Yorkda "Ualdorf Astoriya" mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda ATƏT-in hazırkı sədri, Bolqarıstan Respublikasının xarici işlər naziri Solomon Pasini qəbul etmişdir.

Söhbət zamanı dövlətimizin başçısı ATƏT-in hazırkı sədrini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün səylərini daha da artırmağa çağırmışdır.

Görüşdə ATƏT-in gələcək fəaliyyəti barədə və bu təşkilatın genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır. Cənab Solomon Pasi bu məsələ ilə bağlı Bolqarıstanın mövqeyi haqqında Prezident İlham Əliyevə ətraflı məlumat vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-NİN BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Birləşmiş Millətlər Təşkilatının iqamətgahında BMT-nin baş katibi Kofi Annan ilə görüşmüşdür.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan ilə BMT arasında əlaqələrə dair fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində görülən işlərdən danışmış, eyni zamanda, xüsusi vurğulamışdır ki, uzun illərdən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəinki ölkəmizin, ümumən Cənubi Qafqazın inkişafına əngəl törədir, regionda sülh və sabitlik üçün başlıca təhlükə olaraq qalır.

Azərbaycanın problemi sülh yolu ilə həll etmək istədiyini bildirən Prezident İlham Əliyev bu işdə BMT-nin rolunun artırılmasının vacibliyini nəzərə çarpdıraraq demişdir ki, təcavüzkar Ermənistan bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə məhəl qoymur. Hesab edirik ki, BMT kimi nüfuzlu beynəlxalq təşkilat qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə qalmamalıdır. Azərbaycan isə torpaqlarının işğalı ilə heç vaxt barışmayacaqdır.

Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan çox insanın problemlərini həll etməyin Azərbaycan üçün ağır yük olduğunu xatırladan dövlətimizin başçısı BMT-nin əlaqədar təsisatlarının, donor ölkələrin bu məsələyə diqqətinin artırılmasının zəruriliyini vurğulamışdır.

Cənab Kofi Annan dövlətlərin BMT tərəfindən tanınmış sərhədlərinin dəyişməz olduğunu bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll ediləcəyinə ümid bəslədiyini söyləmişdir.

PREZİDENT İLHAM ƏLİYEV SOROS FONDUNUN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 59-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorkda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də "Ualdorf Astoriya" mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda Soros Fondunun prezidenti Corc Sorosu qəbul etmişdir.

Söhbət zamanı Fondun Azərbaycanda həyata keçirdiyi layihələr barədə fikir mübadiləsi aparılmış, keçid dövründə həmin layihələrin əhəmiyyəti vurğulanmışdır.

Prezident İlham Əliyev Azərbaycanda aparılan demokratik, iqtisadi islahatlar haqqında söhbət açmış, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin inkişafına mənfi təsirindən danışmışdır.

Corc Soros demişdir ki, Xəzərin karbohidrogen yataqlarının işlənilməsindən əldə olunan gəlirin Azərbaycan əhalisinin yaşayışının yüksəldilməsinə yönəldəcək Neft Fondunun yaradılması və onun şəffaf şəkildə idarə edilməsi çox müsbət haldır. O ümidvar olduğunu bildirmişdir ki, Azərbaycanda aparılan siyasi, sosial-iqtisadi islahatların sürəti ləngiməyəcəkdir.

BMT BAŞ MƏCLİSİ 59-CU SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab Sədr,

Xanımlar və cənablar,

Əvvəlki natiqlərə qoşularaq, cənab Jan Penqi BMT Baş Məclisi 59-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edirəm. Mən həmçinin onun sələfi cənab Julian Robert Hanteyə 58-ci sessiyaya sədrliyi dövründə Məclisi nümunəvi idarə etməsi münasibətilə təbriklərimi çatdırmaq istərdim.

Cənab Sədr,

Üzv dövlətlər Minilliyin Zirvə Toplantısında özlərinin qlobal həmrəyliyə və ümumi təhlükəsizliyə şərikli baxışlarına sadiqliyini ifadə etmişlər. Biz daha sülhsevər, təhlükəsiz və ədalətli dünya üçün çox zəruri olan BMT və onun Nizamnaməsinə inamımızı bir daha təsdiqləmişdik.

Yeni əsrə qədəm qoyan zaman bütün dövlətlərin lazım olan anda bu təşkilata güvənməsi və öz növbəsində, BMT-nin dünyanın ondan gözlədiyini həyata keçirməsi məqsədi ilə beynəlxalq hüququn ümdə vacibliyini təmin etmək üçün əlimizdən gələni etmişik.

Fəaliyyətimizin bir qismi qəddar silahlı münaqişələrin qurbanlarına çevrilmiş milyonlarla günahsız insanların, xüsusilə qadın və uşaqların müdafiə edilməsi məqsədini daşıyır. Fəaliyyətimizin digər qismi isə, bütün dövlətlərin doğru rəqabəti üçün bərabər imkanları təmin edən daha ədalətli dünya iqtisadiyyatının qurulmasına yönəlmişdir.

Azərbaycan qlobal və regional təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdədir.

Ölkəmiz beynəlxalq terrorizmə qarşı qlobal koalisiyanın fəal üzvlərindən biri olaraq, günahsız insanlara ölüm və məşəqqət gətirməkdə davam edən bəlanın qarşısını almaq məqsədi ilə həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə etibarlı əməkdaşlıq həyata keçirir.

Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir.

Əslində, bu münaqişələr bir-birinə bağlıdır və bizim bu münaqişələri birgə əməkdaşlıq əsasında kompleks şəkildə aradan qaldırmaqdan başqa yolumuz yoxdur. Bu işdə heç bir "ikili standart"lara yol vermək olmaz.

Cənab Sədr,

Azərbaycan BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Dağlıq Qarabağ ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması məsələsinə yönəltmişdir. Ölkəmiz BMT-dən təcavüzkarı işğal olunmuş torpaqlardan geri çəkilməyə məcbur edəcəyini və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkan yaradılacağını gözləyirdi.

Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdillikle qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir.Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir.Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və Azərbaycanın 7 digər rayonu on ildən artıqdır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.Cənab Sədr,Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə Zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır.

Bundan əlavə, həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir.

İşğal olunmuş Azərbaycan torpaqları Azərbaycan hökumətinin nəzarətindən kənarda qalan "boz əraziyə" və beynəlxalq monitorinqdən azad bir əraziyə çevrilmişdir.

Özü-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan qondarma "Dağlıq Qarabağ Respublikası" bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir.

Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq, işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər. Mən üzv dövlətləri öz vətəndaşlarını və şirkətlərini beynəlxalq hüquq normalarına hörmət bəsləməyə məcbur etməyə və onların ölkəmizin ərazisində qeyri-qanuni fəaliyyət göstərməsinin qarşısını almağa çağırıram.

Öz növbəsində, Azərbaycan suveren dövlətimizə məxsus olan təbii sərvətlərin mənimsənilməsində iştirak etdiklərinə görə bu şirkətlərin məsuliyyət daşıması üçün bütün lazımi hüquqi və praktiki tədbirləri həyata keçirəcəkdir.

Bundan başqa, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir. Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özünüküləşdirilmiş və talanıb aparılmışdır. Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində

ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir.

Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür.

Mən bu yüksək tribunadan vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və de-fakto suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilə bilər.

Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır.

Cənab Sədr,

Azərbaycanın məcburi köçkün düşmüş vətəndaşlarının öz doğma yurdlarına qayıtması münaqişənin həlli prosesində bizim üçün ən əsas prioritetlərdən birini təşkil edir. Lakin öz yurdlarından qovulmuş, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanlarımız öz yurdlarına qayıdana qədər bütün müvafiq BMT təsisatlarının, donor ölkələrin və beynəlxalq humanitar təşkilatların ən çox zərər çəkmiş əhalinin iztirablarının aradan qaldırılması işinə daha fəal cəlb olunmasına təcili zərurət vardır.

Azərbaycan hökuməti bu işdə bütün vaxtını, səylərini və maliyyə imkanlarını əsirgəmir, lakin məcburi köçkünlərin sayı nəzərə alınarsa, bu, kifayət etmir. Bu işdə müvafiq beynəlxalq təşkilatların hökumətimizə yardımı vacib bir məsələdir.

Bu sahədə sırf maddi yardımdan başqa, problemə beynəlxalq diqqətin yenidən artırılmasına, həmçinin BMT və onun müvafiq təsisatları tərəfindən bütün beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirmək üçün daha yaxşı şəraitin təmin edilməsinə ehtiyac duyulur. Biz Azərbaycandakı "unudulmuş humanitar böhran"la bağlı BMT-dən daha məsuliyyətli strategiya gözləyirik.

Cənab Sədr,

Azərbaycan yoxsulluğun aradan qaldırılması və yaxşı idarəçilik məqsədlərinə sadiqdir. Bu mövqeyə və həyata keçirilən tədbirlərə əsaslanaraq, biz Azərbaycanda iqtisadi fəaliyyətin və artımın genişlənməsini müşahidə edirik. Azərbaycan transregional əməkdaşlığın inkişafı işinə öz töhfəsini verir və TRACECA, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru xətləri kimi nəqliyyat və kommunikasiya şəbəkələrinin inkişafında böyük rol oynayır.

Bu layihələr açıq dənizə çıxışı olmayan ölkələrin ixrac üçün dünya bazarlarına və regional bazarlara sabit çıxışını təmin edəcəkdir. İştirakçı dövlətlərin ən kasıb təbəqələri bundan bəhrələnəcəkdir.

Cənab Sədr,

Bütün təhdidlərin öhdəsindən uğurla gəlmək üçün BMT özünü yeni şəraitə uyğunlaşdırmalıdır. BMT-də uzun müddət söhbəti gedən islahatlar məsələsi, nəhayət, öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid olan problemləri həll etməyə qadir olmaması etiraf edilməlidir.

Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ şəkildə cavab verməlidir.

Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir.

Cənab Sədr,

Hazırkı problemlərin həllinə səmərəli yanaşmanı kollektiv şəkildə tətbiq etmək hər birimizin borcudur. Belə ki, bu, millətlərin davamlı və demokratik inkişafı üçün sabit mühitin yaradılmasına xidmət edə bilər. Buna yalnız beynəlxalq hüququn normaları və prinsiplərinin həyata keçirilməsi, dövlətlər arasında dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlıq vasitəsilə nail olmaq mümkündür.

Diqqətinizə görə çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Nyu-Yorkda, onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri səfir Stiven Mənni qəbul etmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi diqqət mərkəzində oldu. Prezident İlham Əliyev problemin tezliklə sülh yolu ilə həllinin vacibliyini bildirərək, ATƏT-in Minsk qrupunun bu istiqamətdə fəaliyyətinin artırılmasının zəruriliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKUN KOLUMBİYA UNİVERSİTETİNDƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də, Nyu-Yorka səfəri çərçivəsində ABŞ-ın ən tanınmış ali məktəblərindən biri olan Kolumbiya Universitetində görüş keçirmişdir.

Dünyanın tanınmış dövlət başçılarının – ABŞ Prezidenti Corc Buşun, Rusiya Prezidenti Vladimir Putinin, görkəmli ictimai-siyasi xadimlərin qonağı olduqları bu məşhur elm və

təhsil ocağında Azərbaycan Prezidenti böyük hörmət və ehtiramla qarşılandı. 250 illik tarixi olan, bir çox elm sahələrinə dair, eləcə də ictimai və sosial araşdırmaların, siyasi diskussiyaların mərkəzinə çevrilən bu universitetdə, ənənəvi olaraq Dünya liderlərinin forumu çərçivəsində, beynəlxalq aləmdə yaxşı tanınan dövlət rəhbərləri, ictimai-siyasi xadimlərlə görüşlər keçirilir.

Azərbaycan Prezidenti ilə görüşü universitetin Yer İnstitutu təşkil etmişdi. Görüşü həmin institutun direktoru Ceffri Səks açdı.

KOLUMBİYA UNİVERSİTETİ YER İNSTİTUTUNUN DİREKTORU CEFFRİ SƏKSİN ÇIXIŞI

- Xanımlar və cənablar!

Mən institutun direktoru Ceffri Səksəm. İstərdim ki, bu gün hamınızı Dünya liderlərinin forumu sessiyasında salamlayım. Bu gün Forumumuzun qonağı Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevdir.Cənab Prezident, görüşə gəldiyinizə görə Sizə minnətdaram. Yəqin özünüz də müşahidə edirsiniz ki, Sizin çıxışınıza hədsiz maraq vardır. Çoxsaylı auditoriya Sizi gözləyir. Düşünürəm ki, Sizin çıxışınıza toplaşmış adamlar, ilk növbədə, yol polisi və təhlükəsizlik xidməti işçilərini ikiqat işləməyə məcbur edir. Prezident buraya Birləşmiş Millətlər Təşkilatından birbaşa gəlir. O, bu gün səhər çıxış etmişdir. Biz çox məmnunuq ki, Siz bizimləsiniz.

Bildiyiniz kimi, bu cür görüşlər bizdə illik keçirilən görüşlərdir. Universitetimizin müəllim-professorları və tələbələri bu forumlarda dünyanın aparıcı fikir sahibləri ilə görüşüb, onların baxışlarını öyrənmək, müzakirə aparmaq kimi nadir imkan qazanırlar. Dünya liderlərinin təhsil sahəsindəki qabaqcıl alimlərlə görüşməsi ənənəvi xarakter almışdır. Görüşlərdə həm universitetin tədqiqatçıları, həm də bu sahədəki alimlər iştirak edirlər. Bu gün qonağımız Azərbaycanın Prezidentidir. Biz amerikalılar üçün bu ölkə diqqətəlayiq maraq kəsb edir. Qeyri-sabit regionda mühüm lider olan ölkədir. Biz istərdik ki, bu gün regionun gələcəyi ilə bağlı Sizin fikirlərinizi öyrənək.

Prezident İlham Əliyev 1961-ci ildə Bakıda anadan olmuşdur. Dünya liderliyində cavanlaşma prosesi göz qabağındadır. O, Moskvada Beynəlxalq Münasibətlər Universitetini – keçmiş SSRİ-də və bütün dünyada sayılıb- seçilən təhsil ocağını bitirmişdir.

1985-ci ildən 1990-cı ilədək həmin universitetdə dərs demiş, mühazirələr oxumuşdur. Sonra Azərbaycana döndü, 1994-cü ildə Dövlət Neft Şirkətinin vitse-prezidenti oldu. 1995-ci ildə parlamentə seçildi və sonra 2000-ci ildə bir daha seçildi. 2003-cü ildə Baş nazir oldu və elə həmin ildəcə ölkənin Prezidenti seçildi.

Cənab Prezident, Sizin burada olmağınızdan hamımız çox həyəcan keçiririk. Sizə minnətdarıq ki, BMT-də çıxışdan və ikitərəfli görüşlərdən dərhal sonra bizi intizarda qoymadınız və Kolumbiya Universitetinə gəldiniz. Kolumbiya Universiteti Sizin burada olmağınızdan qürur hissi keçirir. Biz səbirsizliklə çıxışınızı gözləyirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən şərəf hissi keçirirəm ki, Sizin universitetdəyəm və bizim ölkə, regionla bağlı fikirləri sizinlə bölüşəcəyik. Əlbəttə, Birləşmiş Ştatlar və Azərbaycanla ikitərəfli münasibətlərin gələcəyi barədə fikirləri də.

Azərbaycan qədim tarixə malik olan ölkədir. Amma müstəqil ölkə kimi 10 ildən bir qədər artıq vaxtdır ki, beynəlxalq aləmin üzvüdür. SSRİ dağıldıqdan sonra Azərbaycan digər keçmiş sovet ölkələri ilə birlikdə müstəqillik qazandı və əlbəttə ki, xalqımızın həyatında yeni bir dövr başlandı.

Müstəqillik qazandıqdan sonra ölkə ağır bir vəziyyətdə idi. Keçmiş əlaqələr kəsilmişdi, ölkə iqtisadi tənəzzül dövrünü keçirirdi. Bu azmış kimi, daxili çəkişmələr, qarşıdurma ölkəni vətəndaş müharibəsinə sürükləmişdi. Üstəgəl, Ermənistanın ölkəmizə qarşı təcavüzü və ərazilərimizin işğal olunması vəziyyəti daha da pisləşdirdi.

Buna baxmayaraq, ölkə birləşə bildi. 1993-cü ildə, Azərbaycanın bütün gələcəyi sual altında olduğu bir vaxtda milli liderimiz Heydər Əliyev Prezident seçildi və vəziyyət sabitləşməyə başladı. Siyasi, iqtisadi və sosial sahələrdə vəziyyət dəyişməyə başladı. Artıq 1996-cı ildə biz tənəzzül dövrünə üstün gəlməyə başladıq. 1996-cı ildən bu günə qədər iqtisadi artım sürətlə davam edir. Son 8 ildə iqtisadi göstəricilər üzrə ildə 10 faiz artım müşahidə olunur. Ölkə çox gözəl sərmayə mühiti yarada bilmişdir. Bizdə birbaşa xarici sərmayə yatırımının həcmi kifayət qədər böyükdür. Adambaşına düşən xarici sərmayənin həcmi yüksəkdir. Bu göstəriciyə görə ölkəmiz regionda və keçmiş SSRİ-də lider mövqeyindədir. Neft və qaz sənayesinə çoxmilyardlıq sərmayələr, eləcə də qeyri-neft sənayesinə sərmayə qoyulması üçün şərait yaradılması bizim prioritet vəzifəmiz olmuşdur. Nəticədə bütün bunlar çox gözəl biznes mühiti yaratmışdır. Bu sərmayələrin hesabına infrastruktur sahələrini inkişaf etdiririk. İqtisadi artım bizə həm də sosial problemləri aradan qaldırmağa yardım edibdir. Xalqımız üçün daha yaxşı şərait yaratmaq üçün yeni proqramlar həyata keçiririk.

Ölkəmizin yerləşdiyi coğrafi ərazinin özü onun xarici siyasətini müəyyən edir. Biz həm ölkədə, həm də regionda sülh və sabitliyi saxlamağa çalışırıq. Amma region təhlükəsiz deyildir, dünyada təhlükəsiz sayılan region deyildir. Regionumuz əsrlər boyu qarşıdurma, münaqişələr, müharibələr regionu olubdur. Hələ də regionumuzun bəzi hissələrində həmin ağır vəziyyət müşahidə edilir.

Bütün bu məsələlərdə Azərbaycanın siyasi mövqeyi lap əvvəldən müstəqilliyi möhkəmlətməkdən, güclü iqtisadi əsas yaratmaqdan, qonşu ölkələrlə ikitərəfli münasibətləri möhkəmlətməkdən, dostluq əlaqələri yaratmaqdan ibarət olubdur. Əlbəttə ki, həm də Avropaya, dünya birliyinə inteqrasiya etmək olubdur. Bu mənada ölkədə böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycan fəal surətdə Avratlantik qurumuna inteqrasiya edir. Bizim ölkəmiz Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil olunmuşdur. Biz NATO ilə çox fəal əməkdaşlıq edirik və ilk ölkələrdənik ki, "Sülh naminə tərəfdaşlıq" proqramından sonra NATO ilə fərdi tərəfdaşlıq planı əsasında işləyəcəyik. Azər-

baycan bütün digər beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası, MDB ilə və digər qurumlarla sıx işləyərək regional təhlükəsizlik, sabitlik və inkişafa daha çox töhfə verməyə çalışır.

Qarşımızda məqsədlər çoxdur. 2003-cü il prezident seçkilərindən sonra çox ciddi inkişaf proqramları qəbul olunubdur. Beynəlxalq maliyyə təsisatları ilə yoxsulluğun azaldılması proqramı üzrə sıx işləyirik. Növbəti 5 il müddətində 600 min iş yeri açmaq siyasətimiz uğurla həyata keçirilir. Son il ərzində 70 mindən çox iş yeri açılmışdır ki, bunların da böyük qismi qeyri-neft sektorunda, əsasən, kənd yerlərindədir. Çünki bu, bizim üçün əhəmiyyət kəsb edən məsələdir. Neft sahəsində biz, həqiqətən, çox böyük uğur əldə etmişik. Hazırda biz neft strategiyasının bir hissəsi kimi karbohidrogen ehtiyatlarının təhlükəsiz, çoxşaxəli nəqlini təmin etmək üzərində işləyirik. Neft və qaz sənayesinə yatırılan sərmayələrin qeyri-neft sahəsi üçün də əhəmiyyəti böyükdür.

Biz bu gün neft strategiyamızın əsas hissəsinin astanasında olarkən regionda təhlükəsizlik böyük əhəmiyyət kəsb edir. Hazırda uğurla inşa olunan neft və qaz kəmərləri təkcə təbii ehtiyatların beynəlxalq ticarət bazarlarına daşınması demək deyildir. Əminəm ki, bu, həm də regional təhlükəsizlik və sabitliyə töhfəsini verəcək, praktiki olaraq, regionun gələcək inkşafını bir növ əvvəlcədən müəyyən edəcəkdir. Regional əməkdaşlıq da bizim siyasətimizin əsas elementlərindən biridir. Biz Azərbaycan olaraq məmnuniyyətlə bir sıra regional layihələrin önündə gedirik. Regiondakı nəqliyyat, kommunikasiya, enerji layihələri bizim fəal iştirakımızla həyata keçirilir.

Ölkəmizin və regionumuzun qarşısında duran ən böyük problemlərdən biri hələ də həll olunmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi, Azərbaycanın tarixi ərazisidir. Bu ərazidə erməni əhalisi 1828-ci ildən sonra məskən salmışdır. Sovet İttifaqı dağıldıqdan sonra və hətta ondan əvvəl də Dağlıq Qarabağda başlanmış separatist hərəkat bu ərazinin və eləcə də, Azərbaycanın digər 7 rayonunun Ermənistan tərəfindən işğalına gətirib çıxartdı. Bu gün bizim 20 faiz ərazimiz Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu işğalın nəticəsi kimi 1 milyon azərbaycanlı öz torpaqlarını və ev-eşiklərini itirərək, qaçqın və köçkünə çevirilmişdir. Bu, böyük humanitar böhran, böyük humanitar faciədir. Nəzərinizə çatdırım ki, Azərbaycan əhalisinin sayı 8 milyondur. Yəqin təsəvvür edirsiniz ki, 8 milyon əhalinin 1 milyonunun qaçqın və köçkün olması böyük problemdir, ölkə üçün ağır yük və humanitar böhrandır. Dünyada mövcud olan digər münaqişələr kimi, bu münaqişənin də həllinin bir yolu vardır: münaqişə beynəlxalq hüquq normalarına riayət olunması əsasında həll edilməlidir. BMT 4 qətnamə çıxarıbdır. Bu qətnamələr erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz geri çəkilməsini tələb edir.SSRİ dağıldıqdan sonra da BMT Dağlıq Qarabağ ərazisinin Azərbaycanın bir hissisi olduğunu qəbul edibdir. Bu mənada Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Ermənistan işğalçı qüvvələrinin Dağlıq Qarabağdan və onun inzibati hüdudlarından kənardakı 7 digər rayondan çıxarılması, münaqişənin sülh yolu ilə həll edilməsi üçün əsas şərtdir.

Bu münaqişə haqqında təfsilatı ilə danışarkən Ermənistan tərəfi millətlərin öz müqəddəratını təyin etməsi prinsipini əsas gətirir. Bu, əlbəttə ki, vacib prinsipdir. Amma qeyd etmək yerinə düşər ki, erməni xalqı artıq öz müqəddəratını təyin edibdir. Onların öz Ermənistan dövləti var və o dövlət beynəlxalq aləmin üzvüdür. Ermənilərin yaşadığı hər

bir yerdə öz müqəddəratlarını təyin etməyə başlayacaqları təqdirdə nəyin baş verə biləcəyini təsəvvür etmək çətindir. Beynəlxalq aləmdə azsaylı milli muxtariyyətlər, birliklər kimi tanınmış təsisatlar vardır. Azərbaycan da daxil olmaqla, hər bir ölkədə azlıqlar vardır. Onlar digər xalqlarla sülh şəraitində yaşayırlar. Bu da xalqlar, millətlər və sivilizasiyalar arasında daha yaxşı münasibətlər yaratmağın ən səmərəli yoludur.

Azərbaycan cəmiyyəti tarixən və indi də etnik və dini tolerantlığı ilə səciyyələnibdir. Dini və etnik dözümlülük müasir Azərbaycanın ən böyük nailiyyətlərindən biridir. Beynəlxalq aləm də bu faktı tanıyır və alqışlayır. Ermənistanla olan münaqişəni həll etmək və ərazilərimizin erməni işğalından azad olunması yalnız beynəlxalq hüquq normaları əsasında baş tuta bilər. Çünki dünyada buna alternativ olan mexanizm yoxdur. Hər bir ölkə beynəlxalq hüquq normalarına, BMT-nin qətnamələrinə tabe olmalıdır. Əks təqdirdə, dünyada qanun-qayda olmaz. Biz ümid edirik ki, münaqişənin həll yolu tapılacaqdır. Bu işdə vasitəçilik mandatına malik olan ATƏT-ə və Birləşmiş Ştatların da həmsədri olduğu ATƏT-in Minsk qrupuna ümidlər bəsləyirik.

Birləşmiş Ştatlarla bizim münasibətlərimiz strateji tərəfdaşlıq münasibətləridir. Biz uzun illərdir ki, tərəfdaşıq. Çətin anlarda Azərbaycan yalnız bəyanatlarla deyil, praktik addımlarla da özünün Birləşmiş Ştatların əsil və etibarlı tərəfdaşı olduğunu sübuta yetiribdir. Bizim çox yaxşı əlaqələrimiz, münasibətlərimiz var, müxtəlif sahələrdə - enerji sahəsində, neft və qazın nəqli sahəsində, təhlükəsizlik məsələlərində əməkdaşlıq edirik. Nyu-Yorkdakı dəhşətli fəlakətdən sonra Azərbaycan terrora qarşı beynəlxalq koalisiyaya qoşulan ilk ölkələrdən oldu. Digər mühüm sahələrdə də biz Birləşmiş Ştatlarla sıx işləyərək, dünyanı daha çox təhlükəsiz etmək işinə töhfəmizi veririk.

Qeyd etdiyim kimi, bizim regionumuz əlavə diqqət tələb edir. Region kövrək ərazidir, çoxdilli coğrafi ərazidir. Balaca Qafqazda müxtəlif mədəniyyətlərin çoxdilli nümayəndələri yaşayır. Bu ərazini özünə məskən seçmiş bütün xalqlar üçün sülh çox vacibdir. Biz Azərbaycanda sülhü qorumaq üçün əlimizdən gələni edirik. Ölkəmizin sabitliyini qoruyuruq. Bu inkişaf edə biləcəyimiz, məqsədimizə çata biləcəyimiz yeganə yoldur.

Bizim məqsədlərimiz çox aydındır və bunları müxtəlif tədbirlədə yüksək kürsülərdən bəyan etmişik. Məqsədimiz dünya aləminə daha çox inteqrasiya etmək, əhalimiz üçün daha yaxşı şərait yaratmaqdır. Milli sərvətlərimizin hər bir vətəndaşımıza xidmət etməsini, bəhrə verməsini təmin etməkdir. Beynəlxalq maliyyə təsisatları ilə çox sıx işləyirik. Neftdən gələn gəlirlərlə bağlı maksimum şəffaflıq yaratmaq məqsədi ilə çalışırıq. Bir neçə il əvvəl Prezident fərmanı ilə bu məqsədlə Neft Fondu yaradılmışdır və həmin Fond adı çəkilən istiqamətdə mühüm rol oynayır. Biz Azərbaycanı müasir, demokratik, regional inkişafa, dünya təhlükəsizliyinə daha çox töhfə verən, təhlükəsizlik və sülh şəraitində yaşayan ölkə kimi görmək istəyirik.

Mənə ayrılmış vaxt azalır. Diqqətinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Suallara cavab verməkdən məmnun olardım. Çox sağ olun.

* * *

CEFFRİ SƏKS: Çox sağ olun. Sual vermək istəyənlər üçün iki mikrofonumuz var. Xahiş edirəm, mikrofonlara yaxınlaşasınız. İki tələb var - özünüzü təqdim edin, suallarınızı qısa və konkret verin. Bəyanat və çıxışlara yol verilməsin. Cənab Prezident, suallardan

əvvəl istərdim ki, öz üstünlüyümdən istifadə edim, birinci sualı özüm verim. İraqla bağlı sizin fikirlərinizi öyrənmək maraqlı olardı. Sizin birbaşa qonşuluğunuzda olmasa da, regionda olan ölkədir. Oradakı şərait nəzarətsizdir. Sizcə, vəziyyətdən çıxış yolu hansıdır?

İLHAM ƏLİYEV: Əlbəttə ki, biz istərdik ki, İraqdakı vəziyyət mümkün qədər tez bir zamanda düzəlsin. Azərbaycan İraqın sabitliyi üçün vacib rol oynamağa hazırdır. Bizə elə gəlir ki, İraq xalqının ölkədə həlledici qərar çıxarmaq prosesində daha fəal rol oynaması üçün imkan yaratmaq lazımdır. Hazırkı şərait təhlükəlidir və hadisələrin gələcək inkişafını əvvəlcədən görə bilmək çox çətindir. Beynəlxalq aləm bu məsələ ilə bağlı gərək səylərini cəmləşdirsin. Azərbaycan bu istiqamətdə öz rolunu oynayır. Bizim hərbi kontingent İraqdadır, vəziyyəti nəzarətdə saxlamaq üçün lazımi kömək göstərir. Amma daha çox beynəlxalq diqqət və daha geniş koalisiya lazımdır ki, məsələ mümkün qədər tez həll olunsun. Təəssüf ki, hər hansı bir həllin konturları görünmür və bu da bizi çox narahat edir. Baxmayaraq ki, bizim sərhədlərə çox yaxın ərazi deyil, amma region ölkələri bir-birilə bağlıdır. İraqda vəziyyətin korlanması digər ölkələrə də təsir edə bilər.

CEFFRİ SƏKS: Çox sağ olun. Daha 10 sual da verərdim, amma gözləyənlərə imkan verək.

NİHAD ƏLİYEV: Cənab Prezident, mən Kolumbiya Universitetinin məzunuyam. Çox sağ olun ki, bizə şərəf verib gözəl universitetdə çıxış etdiniz. Cənab Prezident, Sizə sualım BMT-Azərbaycan münasibətləri ilə bağlıdır. Üç gün əvvəl Corc Buş BMT-də çıxış etdi. Dedi ki, o, İraqa ona görə daxil oldu ki, 1990-cı ildən bu tərəfə Səddam Hüseynin BMT qətnamələrini saymamasına son qoysun. Corc Buşun dediyinə görə, bu, İraqa daxil olmağın əsas səbəbi idi. Sizin bir az əvvəl dediyiniz kimi, BMT bir neçə qətnaməsində Ermənistandan Azərbaycan ərazilərini azad etməsini tələb etmişdir, amma Ermənistan da, elə İraq kimi, onlara məhəl qoymayıbdır. Siz Azərbaycan Prezidenti kimi BMT ilə münasibətlərdə və Kofi Annanla söhbətdə gələcəkdə bu sanksiyaları həyata keçirməklə bağlı fikirləri nəzərə çatdırdınızmı?

İLHAM ƏLİYEV: Sağ olun. Bu, çox vacibdir. Təəssüf ki, BMT qətnamələri qətnamə olaraq qalır. Onlar yerinə yetirilmək üçün məcburi deyildir. Bizim Ermənistanla münaqişəmizlə bağlı qətnamələrin çıxarıldığı vaxtdan 11 il keçir. Ermənistan isə onları yerinə yetirmir. Onu qətnamələri yerinə yetirməyə məcbur edən beynəlxalq mexanizm də yoxdur. Beynəlxalq aləm sanki bu mövzuda susmağı üstün tutur. Bu da ki, çox təhlükəli göstəricidir. Çünki dünyadakı problemlər, işğallar bir çox ölkələrin ümumi problemidir. Azərbaycan ölkəmizlə bağlı qətnamələrin yerinə yetirilməsini tələb edirsə, bu, bizim təbii tələbimizdir. Eyni zamanda, ümumiyyətlə, qətnamələrin yerinə yetirilməsi üçün ümumi mexanizm olmalıdır. Əgər bu yöndə bir iş görə bilməsək, onda BMT qərarlarının əlaqədar ölkələr üçün o qədər əhəmiyyəti olmayacaqdır.

CEFFRİ SƏKS: Sağ olun. Buyurun.

TİQRAN MİKAELYAN: Kolumbiya Universiteti ümumi təhsil fakültəsinin tələbəsiyəm. Sabiq Prezident Heydər Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin həll olunması üçün çox işlər gördü. Bu yaxınlarda isə Siz mətbuatda dediniz ki, Azərbaycan Ermənistanla münaqişəni həll etməkdə tələsmir. Danışıqlarda irəliləyiş olmaz-

sa, Siz tutulmuş əraziləri ermənilərdən istənilən yolla alacaqsınız. Mənim birinci sualım: Sizin Ermənistanla bağlı siyasətiniz əvvəlki Prezidentin siyasətindən fərqlidirmi? İkinci sualım: Əgər Ermənistanla danışıqlar durğun vəziyyət alarsa, Azərbaycan münaqişəni hərbi yolla həll edərmi?

İLHAM ƏLİYEV: Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasətimiz dəyişməz qalır. Münaqişənin başlandığı ilk gündən Azərbaycan beynəlxalq hüquq normalarına riayət etməyi tələb edir. Bu da ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edir. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və əlbəttə ki, özünə də eyni münasibət bəsləməyi tələb edir. Ona görə də əvvəllər olan siyasətlə bugünkü siyasət arasında heç bir fərq və ziddiyyət yoxdur. Azərbaycan münaqişənin sülh yolu ilə həll olunmasına sadiqdir. Bu baxımdan da fərq yoxdur. 10 ildən artıq müddətdə danışıq aparmağımız bizim münaqişəni sülh yolu ilə həll etmək istəyimizi göstərir. Əks təqdirdə, nəzərə alınsa ki, danışıqlar və Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməyibdir, bu prosesi çoxdan saxlayardıq. Amma eyni zamanda, bir şeyi də açıqlamaq lazımdır ki, Azərbaycan öz suverenliyinin itirilməsi, özünə məxsus olan ərazilərin itirilməsi ilə heç zaman barışmayacaqdır. Bir şey də aydındır ki, danışıqlar həmişəlik davam edə bilməz. Hər bir səbrin sonu olur, vaxtı olur. İndi isə danışıqların davam etdirilməsi üçün şərait vardır.

Biz indi konkret mövzular ətrafında söhbət edirik. Amma görsək ki, nə vaxtsa danışıqlar artıq həll axtarışına kömək eləmir, yəqin ki, danışıqları kəsməli olacağıq. Çünki biz danışıq aparmaq görüntüsü yaratmaq fikrində deyilik. Sülh həllini tapmaq üçün real imkan varsa, biz sülh yolu ilə həllə sadiq olacağıq. Yoxdursa, dünyadakı hər hansı başqa ölkə kimi, Azərbaycanın da tam haqqı vardır ki, istənilən vasitədən istifadə edib ərazi bütövlüyünü bərpa eləsin.

EYYUB HACIYEV: Kolumbiya Universiteti. Sualım Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Bu yaxınlarda Ermənistan heç Dağlıq Qarabağa daxil olmayan ərazilərdə - Laçın, Kəlbəcər kimi rayonlarda ermənilərin yerləşdirilməsi prosesinə başlayıbdır. Azərbaycan hökumətinin cavab tədbirləri necədir? Bu məsələ danışıqlar prosesinə necə təsir edir?

İLHAM ƏLİYEV: Azərbaycan bu mövzunu daim qaldırır və bu gün Baş Məclisdəki çıxışım zamanı mən qeyd etdim ki, bu, beynəlxalq hüquq normalarının və 1949-cu il Cenevrə Konvensiyasının - işğal olunmuş ərazilərdə məskunlaşma haqqında olan Konvensiyanın müddəalarının pozulması deməkdir. Bunun çox təhlükəli sonluğu ola bilər. Bu, bir daha nəyi göstərir? Onu göstərir ki, Ermənistan beynəlxalq hüquq normalarını saya salmır, düşünür ki, istədiyi cür hərəkət edə bilər. Amma ən pis tərəfi odur ki, beynəlxalq aləm buna heç bir reaksiya vermir. Təkcə Azərbaycan özü reaksiya verir, biz beynəlxalq tədbirlərdə narazılığımızı bildirir, mövzunu gündəliyə gətiririk. Amma beynəlxalq ictimaiyyətin, BMT-nin, digər beynəlxalq təşkilatların adekvat reaksiyası olmayanda, bu, münaqişənin sülh yolu ilə həlli məsələsinə kömək etmir. Bu, Azərbaycan cəmiyyətində münaqişənin sülh yolu ilə həll olunması mexanizminə inamsızlıq yaradır. Bu da ki, tamamilə yeni şəraitə gətirə bilər. Elə şəraitə ki, Azərbaycan hökuməti, Azərbaycan xalqı daha münaqişənin sülh yolu həllinə inanmaz. Sonra nə olacaq, bu, hamıya məlumdur: müharibə variantı. Biz müharibə istəmirik, sülh istəyirik. Amma Ermənistanın təcavüzkar siyasəti adekvat cavabını almalı və beynəlxalq ictimaiyyət müvafiq ölçülər götürməlidir.

ERİK YATAYEV: Mən Azərbaycanın Quba rayonunda anadan olmuş və böyümüşəm. Azərbaycan yəhudi icmasının antisemitizmlə rastlaşmadığı nadir ölkələrdən biridir. Zati-aliləri, Azərbaycanda yəhudi icmasına dəstək verdiyinizə görə Sizə minnətdaram. Gələcəkdə Azərbaycanın inkişafında yəhudi icmasının rolunu necə görürsünüz?

İLHAM ƏLİYEV: Çox sağ olun. Mən çıxışımda qeyd etdim ki, dini və etnik tolerantlıq ölkəmizin əldə etdiyi ən böyük uğurlardandır. Bu, heç də təkcə müstəqillik illərinə aid deyildir. Sovetlər Birliyi dövründə də Azərbaycan antisemitizmin olmadığı, milli, dini gərginlik yaşanmayan az ölkələrdən biri olubdur. Ondan da əvvəl, lap qədim dövrlərdə də belə olubdur. Bu yaxınlarda mən Qubaya getmişdim, Qırmızı qəsəbədə oldum. Orada səmimi, gözəl söhbətimiz oldu. Məmnun oldum ki, yəhudilər Azərbaycanda həyatlarından razıdırlar. Digər vətəndaşlar kimi bütün hüquq və haqlardan istifadə edirlər, azad, sərbəst yaşayırlar. Azərbaycanda çətinlik vardısa da, bu, hamıya aiddir. Seçki kampaniyası dövründə də bir neçə dəfə açıq demişəm ki, mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam və mənim üçün Azərbaycanda mövcud olan ənənəni davam etdirmək olduqca vacibdir. Bütün millətlər sülh və əmin-amanlıqda yaşamalıdır. Yəhudi icması ölkəmizin inkişafına çoxlu töhfələr veribdir. Eləcə də müstəqillik uğrundakı mübarizədə iştirak edibdir. Ermənistanla müharibə dövründə yəhudilərdən həlak olanlar var və onların xatirəsi bizim üçün çox əzizdir. Əminəm ki, yəhudi mənşəli Azərbaycan vətəndaşları əvvəllər olduğu kimi, gələcəkdə də götürülmüş ümumi xəttə, möhkəm, daha yaxşı Azərbaycan qurmaq, işinə, hər bir vətəndaşın sülh şəraitində, xoşbəxt yaşaması xəttinə töhfə verəcəklər.

RAMİL MƏHƏRRƏMOV: Mən Azərbaycandanam, Massaçusets Universitetində təhsil alıram. Sualım Azərbaycandakı sosial-iqtisadi islahatlarla bağlıdır. Məlumdur ki, son dövrdə Azərbaycan bu sahədə qətiyyətli addımlar atır. Yoxsulluğun azaldılması ilə bağlı proqram qəbul olunubdur. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı imzaladığınız fərman, eləcə də regionların sosial-iqtisadi inkişafı proqramı böyük əhəmiyyəti olan sənədlərdir.

Cənab Prezident, Sizcə bunlar necə həyata keçirilir? Azərbaycanda sosial-iqtisadi islahatların və eləcə də, idarəçilik sahəsində islahatların gələcəkdə nə cür həyata keçiriləcəyini görürsünüz?

İLHAM ƏLİYEV: Sağ olun. Proqramlar uğurla həyata keçirilir. Proqramları qəbul edərkən biz əmin olmaq istəyirdik ki, bunlar kağızda qalmasın. Onların həyata keçirilməsi mexanizmi birgə fəaliyyətin nəticəsi kimi olmalıdır. Dövlətin məqsədi, siyasəti proqramı həyata keçirmək üçün yaxşı şərait yaratmaqdır. Biznesə, özəl fəaliyyətə yaxşı şərait yaratmaq hökumətin işidir.

Prezident seçkilərindən sonra mən bir neçə görüşlərdə özəl biznesin nümayəndələri ilə fikir mübadiləsi apardım və onları ruhlandırdım, fəaliyyətlərinə tam dəstəyimi ifadə etdim. Bugünkü Azərbaycanın gələcəyi bu istiqamətdə olacaqdır. Ölkədə güclü orta sinif yaratmalıyıq. Biznesi başlamaq üçün kreditlər ayırmalıyıq. Bütün bu istiqamətlərdə çox yaxşı nəticələr əldə etmişik. Mən qeyd etdim ki, 70 min iş yeri açılıbdır. Müsbət tərəfi odur ki, əksər iş yerləri regionlarda, qeyri-neft sahəsində açılmışdır. Bu da bizim üçün

çox vacibdir. Gələn il üçün büdcədən özəl sektoru dəstəkləmək üçün əlavə maliyyə vəsaitləri ayrılacaq, fermerlərə daha yaxşı şərait yaratmaq üçün tədbirlər görüləcəkdir. Lazımi maşınlar alınacaq, avadanlıqla təchiz olunacaqdır. Əminənəm ki, 2005-ci ildə açılan iş yerlərinin sayı daha çox olacaqdır. Ölkənin inkişaf yolları bundan ibarətdir. Bizə çoxşaxəli iqtisadiyyat - yalnız neftdən və neftin qiymətlərindən asılı olmayan iqtisadiyyat lazımdır. Ona görə də son aylar ərzində atdığımız addımlar yalnız bu məqsədi daşıyır. Proqramların həyata keçirilməsindən çox razıyam.

ULAS SOLVAN: Mən beynəlxalq məsələlər və hökumət idarəçiliyi bölməsinin təlabəsiyəm. Mən ümid edirdim ki, Siz başqa bir mövzuya, Azərbaycandakı müxalifətlə bağlı mövzuya da toxunacaqsınız. Sonuncu prezident seçkiləri ilə bağlı qeydə alınmış pozuntular haqqında, eləcə də, müxalifət üzvlərinin həbsə alınması və döyülməsi barədə nə deyə bilərsiniz?

İLHAM ƏLİYEV: Azərbaycanda siyasi həyat çox uğurla inkişaf edir. Ölkədə bütün siyasi azadlıqlar mövcuddur. Bütün siyasi partiyalar üçün şərait yaradılıb, onların eyni hüquqları və öhdəlikləri var. Bununla bağlı heç bir problem yoxdur. Prezident seçkilərindən sonrakı dövr ərzində bütün siyasi spektr öz proqramını həyata keçirmək imkanından çox fəal istifadə edibdir. Mən seçkilərdən əvvəl və sonra Azərbaycandakı bütün siyasi qüvvələrə bir neçə dəfə açıq müraciət etdim ki, qarşıdurma dayansın. Çünki bizə siyasi münasibətləri küçələrdən normal şəraitə gətirmək lazımdır. Bizə polisi daş-qalaq etmək yox, dialoq lazım idi. Bugünkü vəziyyətə gəldikdə, mənim siyasi qüvvələrə olan bütün çağırışlarım, təəssüf ki, cavabsız qaldı. Eyni zamanda, hökumət normal siyasi şərait yaratmaq səylərini və siyasi dialoqu davam etdirməlidir. Amma bunu birtərəfli etmək mümkün deyildir. Hər iki tərəf bunda maraqlı olmalıdır.

Keçən ilin oktyabrındakı seçkilərlə bağlı sualınıza isə cavab verim ki, seçkilərdən əvvəl Azərbaycanda bir neçə dəfə əhali arasında rəy sorğusu aparılmışdı. O cümlədən də ABŞ-da yerləşən təşkilatlar tərəfindən, onların biri də Beynəlxalq Respublikaçılar İnstitutudur. Bu institut Azərbaycanda seçkilər ərəfəsində rəy sorğusu keçirmişdi. Həmin sorğunun nəticələri bütün siyasi qüvvələrə təqdim olunmuş və dərc edilmişdi. Respublikaçılar İnstitutunun sorğusu göstərdi ki, hakim partiyanın nümayəndəsi ən azı 65 faiz səs qazanacaqdır. Mən isə 76 faiz səs qazandım. Amma seçkilər ərəfəsindəki şəraiti nəzərə alın. Müxalifət vahid namizəd seçə bilmədi. Müxalifət namizədləri öz aralarında savaşırdılar və iqtidarı təmsil edən namizədlə düzgün, ağıllı mübarizə apara bilmədilər. Bu da, əlbəttə ki, Respublikaçılar İnstitutunun sorğusunda göstərilən rəqəmdən daha artıq səs toplamaq imkanı yaratdı. Ona görə də nə Azərbaycanda, nə də dünyada seçkilərdə kimin qalib gələcəyi barədə heç kimdə şübhə yoxdur. Bu, aydındır və buna şübhə yoxdur. Məğlub olan tərəf həmişə bəhanə axtarmağa çalışır. Bunun ən asan yolu da hökuməti bəzi manipulyasiyada günahlandırmaqdır. Amma bu seçkilərdə belə bir şey yox idi. Onu da sizə deyim ki, bu gün Azərbaycan hakimiyyətinin apardığı siyasət Azərbaycan xalqı tərəfindən hətta seçkidən qabaqkı dövrdəkindən daha çox dəstəklənir. Bu o deməkdir ki, Azərbaycan xalqı etdiyi seçimə təəssüflənmir. Xalqın öz Prezidentinin təşəbbüslərini dəstəkləməsi Prezidentə də öz təşəbbüslərini, proqramlarını həyata keçirməkdə yeni qüvvə verir. Çox sağ olun.

CEFFRİ SƏKS: Yalnız bir suala vaxt qalır. Sonra isə dekan xanım Liss Andersona söz verəcəyəm.

KRİSTİNA KARŞAKYAR: Mən Corctaun Universitetinin xarici ölkələrdə xidmət fakültəsindənəm. Cənab Prezident, iki məsələyə toxunmaq istəyirəm. Birincisi, öz rejiminizi burada başqa cür qələmə verməyə çalışırsınız. Beynəlxalq təşkilatlar Sizin ölkəni ən rüşvətxor və hüquqların tapdalandığı ölkə kimi səciyyələndirir. Bir ailənin idarə etdiyi təşkilata bənzədir. İkincisi isə, Siz Dağlıq Qarabağ münaqişəsini qəsdən başqa cür qələmə verirsiniz. BMT qətnamələrinin mahiyyətini saxtalaşdırırsınız. 822, nömrəsi yadımdan çıxan digər qətnamələr... Əslində, bu qətnamələrə hər bir adam baxa bilər. Mən özüm İnternet vasitəsilə bu gün səhər onlara baxmışam. Bu qətnamələrdə deyilmir ki, Ermənistan ərazilərdən çıxmalıdır. Çünki Ermənistan münaqişənin bir tərəfi deyil, yəni mövzu ilə bağlı danışarkən buna aydınlıq gətirilməlidir. Sonda isə soruşmaq istəyirəm ki, Sizin rejiminiz nə zaman sovet üslublu təbliğatına son qoyub münaqişəni konstruktiv həll edəcəkdir. Sağ olun.

İLHAM ƏLİYEV: Mənim dediklərimin hamısı faktlara əsaslanır. Bunlar real şəraitdə baş vermiş real faktlardır. Bu faktları yoxlamaq çətin deyildir. Əlbəttə ki, Ermənistan-Azərbaycan münaqişəsinin digər məsələlərə də təsiri olubdur. Biz ermənilərin azərbaycanlılara qarşı hücumlarını bütün dünyada müşahidə edirik. Birləşmiş Ştatlarda, erməni diasporunun uzun tarixi və güclü maddi dayaqları olan digər ölkələrdə də biz bunu fakt kimi qəbul edirik. Biz bu amillə mübarizə aparmalıyıq. Əlbəttə ki, Azərbaycanı nüfuzdan salmaqdan, qara boyalarla göstərməkdən ötrü ermənilərin saxta təbliğatı 1990-cı illərin əvvəllərində mühüm rol oynadı. O zamanlar Azərbaycana çıxış etmək üçün yüksək kürsü verilmirdi. Azərbaycanın bu saxta təbliğata və hücumlara cavab vermək imkanı yox idi. Amma bugünkü şərait fərqlidir. Bu gün Azərbaycanda və Ermənistanda olan vəziyyəti hamı asanlıqla ayıra bilər. Azərbaycanda biz bütün siyasi hüquqlara malikik. Biz normal demokratik cəmiyyət yaradırıq, əhalimizi daha yaxşı yaşayışla təmin etmək istəyirik. Əlbəttə ki, Azərbaycan xalqının iradəsi şəraiti əvvəlcədən müəyyən edir. Ermənistandakı şəraitə baxsaq, yoxsulluq, əhalinin sayının azalması və gələcəyə inamsızlıq görəcəyik. Nədir Ermənistanın regional əməkdaşlıqsız gələcəyi? İşğalın gələcəyi nədir? İşğalın gələcəyi yoxdur. Ona görə də mən düşünürəm ki, erməni xalqının xeyrinədir ki, bu siyasət haqqında bir daha düşünsün və Ermənistana məxsus olmayan əraziləri özündə saxlamağa davam etməsin. Ermənistan bunu nə qədər tez başa düşsə, bir o qədər yaxşı olar.

Qətnamələrə gəldikdə isə, onları yazılı formada götürə bilər və nə yazıldığını görərsiniz. Dağlıq Qarabağ Azəbaycanın bir hissəsidir. Və Birləşmiş Millətlər Təşkilatı bu ərazini Azərbaycanın bir hissəsi kimi tanıyır. Dağlıq Qarabağın ətrafında olan 7 rayon Ermənistan və Dağlıq Qarabağın hərbi rejimi tərəfindən işğal edilmişdir. Dağlıq Qarabağ bu gün qara ləkədir ki, Azərbaycanın və hər hansı bir beynəlxalq monitorinqin nəzarətindən tamamilə kənardadır. O ərazidən narkotik daşınması ilə bağlı bizim yetərli məlumatımız var. Orada terrorçular lövbər salıblar. Terrorçu düşərgələrinə ərazilər ayrılır. Qanunsuz iqtisadi fəaliyyət göstərilir, qaçaqmalçılıq çiçəklənir. Beynəlxalq nəzarət də yoxdur. Bugünkü dünyada hər bir ölkəyə beynəlxalq təşkilatlar tərəfindən və bu və ya digər şəkildə nəzarət edilə bilər. Dağlıq Qarabağ və keçmiş SSRİ-dəki digər separatçı rejimlərin olduğu ərazilər Avropada qara ləkələrdir. Münaqişə nə qədər tez həll olunsa, bir o qədər yaxşıdır. Onu da deyim ki, Azərbaycan tam müstəqil siyasət həyata keçirən ölkədir. Biz heç bir ölkədən asılı deyilik, yalnız Azərbaycan xalqının iradəsindən asılıyıq. Mən əminəm ki, ədalət və beynəlxalq hüquq üstün gələcək, Azərbaycanın ərazi

bütövlüyü bərpa olunacaq və təcavüzkar geriyə, yerinə çəkiləcəkdir.

CEFFRİ SƏKS: Çox sağ olun. Sual vermək istəyənlərin sayı çoxdur, onlardan üzr istəyirəm. Vaxt əvvəlcədən müəyyən olunubdur. Təhlükəsizlik xidməti gərək Prezidenti və nümayəndə heyətini müşayiət etsin. Yerlərinizdə əyləşin. Həmkarım, Liss Andersonu təqdim edirəm. Beynəlxalq və hökumət məsələləri fakültəsinin dekanı bəzi qeydləri ilə bugünkü sessiyamızı bağlayacaqdır.

LİSS ANDERSON: Çox sağ olun. Cənab Prezident, professor Səksə qoşularaq, bugünkü çıxışınıza görə zati-alilərı, minnətdarlığımı bildirmək istəyirəm. Çox fəxr eləyirik ki, bizdə, Kolumbiya Universitetində tələbələrin, müəllimlərin, tədqiqatçıların dünya liderləri ilə görüşməsi, onların fikrini öyrənməsi, cəmiyyəti narahat edən məsələlərlə bağlı fikir mübadiləsi aparması ənənə halını almışdır. Dünyanın müxtəlif ölkələri haqqında daha dolğun təsəvvür yaratmaq olur. Sizə minnətdarıq ki, razılığınızı bildirib bizimlə bu söhbətə qatıldınız. Ümid edirəm ki, bu, davamlı söhbətin başlanğıcı olacaqdır. Beynəlxalq və hökumət məsələləri fakültəsinə Azərbaycandan 10 nəfər gəlibdir. Onların arasında Kaspian Trans Companidə, BMT İnkişaf Proqramında, Dünya Bakında, Azərbaycan Milli Bankında çalışanlar var. Bizim ən son məzunumuz Elşad İsgəndərov Azərbaycanın BMT-dəki nümayəndəliyində işləyir. Elə bilirəm ki, bunlar Azərbaycandan Kolumbiya Universitetinə gələn çoxsaylı nümayəndələrin yalnız bir qismidir. Ümid edirəm ki, hərbi sahədə, təhlükəsizlik, münaqişələrin həlli, insan haqları, humanitar məsələlər, enerji siyasəti və digər sahələrdə ekspertlər buraya gələcəklər. Biz də təhsilimiz vasitəsilə Azərbaycanın inkişafına, dünyanın qalan hissəsi ilə münasibətlərinə öz töhfəmizi verə biləcəyik. Bu, yalnız başlanğıc olmalıdır və cənab Prezident, Siz və Sizin həmkarlarınız bizimlə görüşmək üçün gələcəkdə də vaxt tapacaqsınız. Buraya gəldiyinizə görə çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CİBUTİ PREZİDENTİ İSMAİL ÖMƏR QULLEH İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının binasında Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qulleh ilə görüşmüşdür.

Tanışlıq xarakteri daşıyan görüşdə Cibuti dövlətinin başçısı Azərbaycan Prezidentinin BMT Baş Məclisinin 59-cu sessiyasındakı çıxışını diqqətlə dinlədiyini bildirdi.

Prezidentlər Azərbaycan və Cibutinin beynəlxalq təşkilatlarda əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi apardılar. Belə bir əminlik ifadə olundu ki, ölkələrimiz arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin Nyu-Yorka səfəri başa çatdı.

KİYEVDƏ GUÖAM ÖLKƏLƏRİ PARLAMENT ASSAMBLEYASININ TƏSİS İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 23-də Kiyevdə, Ukrayna Ali Radasının binasında GUÖAM ölkələri Parlament Assambleyasının təsis iclası keçirilmişdir. İclasda Ukrayna Ali Radasının sədri Vladimir Litvin, Milli Məclisin sədri Murtuz Ələsgərov, Gürcüstan Parlamentinin sədri Nino Burcanadze, Moldova Parlamenti sədrinin müavini Mixail Kamerzan iştirak etmişlər.

V.Litvin iclası açaraq vurğuladı ki, Parlament Assambleyasının yaradılması bu qurum çərçivəsində əməkdaşlıq üçün imkanlardan istifadə etməyə şərait yaradır.

Ukrayna prezidentinin Ali Radadakı daimi nümayəndəsi Aleksandr Zadorojnı dövlət başçısı Leonid Kuçmanın iclas iştirakçılarına təbrikini oxudu.

Milli Məclisin sədri Murtuz Ələsgərov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikanın həyatının bütün sahələrində qazanılmış uğurlardan danışdı, habelə GUÖAM ölkələrinin siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığının daha da genişləndirilməsi naminə təşkilatın Parlament Assambleyasını yaratmağın vacibliyini söylədi. M.Ələsgərov ölkələrin ərazi bütövlüyünün təmin olunması işində, Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Dnestryanı bölgənin problemlərinin beynəlxalq hüquq normaları və dövlətlərin ərazi bütövlüyü prinsipi əsasında həlli məsələsində ümumi mövqenin əhəmiyyətini vurğuladı. Azərbaycan parlamentinin sədri xatırlatdı ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunmuşdur, bir milyondan çox insan öz doğma yerlərindən didərgin düşmüşdür. O, həmçinin bildirdi ki, ikili standartlar siyasəti nəticəsində bu problemlər həll edilmir. M.Ələsgərov GUÖAM ölkələrinin parlament üzvlərini bu problemlərin həlli üçün, habelə beynəlxalq terrorizmlə mübarizədə daha çox səy göstərməyə çağırdı.

Danışıqlardan sonra Azərbaycan, Gürcüstan, Moldova, və Ukrayna parlamentlərinin rəhbərləri GUÖAM-ın Parlament Assambleyasının yaradılması haqqında Bəyannamə və bu qurumun Parlament Assambleyasının prosedur qaydaları haqqında Əsasnaməni imzaladılar.

GUÖAM Parlament Assambleyasının təsis iclasında Milli Məclisin nümayəndə heyətinin üzvləri və Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev iştirak edirdilər. 10-dan çox ölkənin səfirləri iclasda olmuşlar.

Azərbaycan parlamentinin sədri Murtuz Ələsgərov sentyabrın 24-də bu ölkənin Ali Radasının sədri Vladimir Litvinlə danışıqlar aparmışdır.

V.Litvin bildirmişdir ki, Ukrayna-Azərbaycan münasibətləri özünün sabitliyi ilə seçilir. Parlamentlər arasında əməkdaşlıq bünövrəsi hər iki ölkənin prezidentləri tərəfindən qoyulmuş Ukrayna-Azərbaycan münasibətlərinin inkişaf sürətinə uyğun olmalıdır.

Milli Məclisin sədri Murtuz Ələsgərov demişdir ki, rəsmi səfərinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, bu, yeni beynəlxalq təşkilatın – GUÖAM Parlament Assambleyasının yaradılması kimi tarixi hadisə ilə bir vaxta salınmışdır. Onun sözlərinə görə, GUÖAM Parlament Assambleyasının yaradılması təşkilatın üzvü olan ölkələr, o cümlədən Azərbaycan ilə Ukrayna arasında əməkdaşlığın yeni inkişaf formasıdır.

Milli Məclisin başçısı vurğulamışdır ki, Ukrayna Azərbaycanın strateji tərəfdaşıdır və biz münasibətlərimizin həm də parlamentlər səviyyəsində möhkəmləndirilməsində maraqlıyıq.

Danışıqlar zamanı qarşılıqlı surətdə faydalı iqtisadi, siyasi, mədəni əməkdaşlığın qaydaya salınması istiqamətində geniş imkanlardan söhbət açılmış, ticarət-iqtisadi münasibətlərin inkişafı əməkdaşlığın öncül istiqamətləri olması vurğulanmışdır.

Hər iki ölkədə daxili siyasi vəziyyət, parlamentlərin fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılmış, gələcək parlamentlərarası əməkdaşlıq planları müəyyən edilmiş, parlament dostluq qruplarının fəallaşdırılmasının zəruriliyi bildirilmişdir.

Murtuz Ələsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzərində ətraflı dayanmış, bir milyondan artıq azərbaycanlı qaçqın-köçkünün ağır vəziyyətindən söhbət açmışdır.

Vladimir Litvin qeyd etmişdir ki, Ukraynanın mövqeyi dəqiqdir – bu cür problemlər yalnız sülh yolu ilə, hamı tərəfindən qəbul olunmuş beynəlxalq normalar, BMT və ATƏT-in qətnamələri çərçivəsində, suveren dövlətlərin ərazi bütövlüyü prinsiplərinə riayət olunması şəraitində həll olunmalıdır.

Danışıqlardan sonra M.Ələsgərov və V.Litvin jurnalistlərin çoxsaylı suallarına cavab vermişlər.

Sonra Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyətinin üzvləri Ukrayna XİN-də nazirin birinci müavini, aparatın rəhbəri Vladimir Yelçenko ilə görüşmüşlər.

Görüşdə qarşılıqlı maraq doğuran bir çox məsələlər müzakirə olunmuşdur.

Günün ikinci yarısında Azərbaycan Milli Məclisinin sədri T.Şevçenko adına Kiyev Milli Universitetinin (KMU) rəhbərliyi ilə görüşmüşdür.

KMU-nun rektoru Viktor Skopenko beynəlxalq hüququn inkişafında, Ukrayna-Azərbaycan münasibətlərinin dərinləşdirilməsində və genişləndirilməsində xidmətlərinə görə Milli Məclisin sədri, hüquqşünas alim Murtuz Ələsgərova universitetin fəxri doktoru diplomunu və mantiyasını təqdim etmişdir.

M.Ələsgərov belə yüksək şərəfə görə səmimi təşəkkürünü bildirərək demişdir ki, bu fəxri adı iftixar hissi ilə daşıyacaq və gələcəkdə də müstəqil dövlətlərimiz arasında dostluq əlaqələrinin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə kömək edəcəkdir.

M.Ələsgərov V.Skopenkoya xatirə hədiyyələri təqdim etmiş, Milli Məclisin deputatı, siyasi elmlər doktoru V.Abdullayev isə Azərbaycan Prezidenti İlham Əliyev haqqında bu yaxınlarda çapdan çıxmış "Sülh və sabitlik Prezidenti" kitabını bağışlamışdır.

Axşam Ukrayna parlamentinin spikeri V.Litvinin adından Azərbaycan Milli Məclisinin sədri M.Ələsgərovun şərəfinə qəbul təşkil olunmuşdur.

Sentyabrın 27-də Ukraynanın Baş naziri Viktor Yanukoviç Hökumət evində Milli Məclisin sədri Murtuz Ələsgərov başda olmaqla Azərbaycan parlament nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətini səmimiyyətlə salamlayan V.Yanukoviç Ukraynadakı iqtisadi vəziyyət, prezident seçkiləri ilə bağlı kampaniyanın gedişi haqqında məlumat verdi.

Azərbaycan parlamentinin sədri respublikadakı sabit ictimai-siyasi vəziyyətdən, aparılan iqtisadi islahatlardan danışdı. M.Ələsgərov Azərbaycanın başlıca probleminə - Ermənistanın ölkəmizə qarşı təcavüzünə toxundu, Ukraynanın bu məsələdə ölkəmizin mövqeyini başa düşməsinə və rəsmi Kiyevin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə görə minnətdarlığını bildirdi.

Milli Məclisin sədri daha sonra vurğuladı ki, sentyabrın 23-də Kiyevdə GUÖAM Parlament Assambleyasının yaradılması haqqında Bəyannamənin qəbul olunması bu təşkilat qarşısında yeni perspektivlər açır.

Səmimilik və dostluq şəraitində keçən görüşdə Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev, Rovno vilayət Radasının deputatı Elbrus Abdullayev, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Oqtay Əfəndiyev iştirak edirdilər.

Elə həmin gün M.Ələsgərovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Kiyevdən Bolqarıstana rəsmi səfərə yola düşdü.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 28-də Gürcüstana iki günlük rəsmi səfərə gəlmişdir. Həmin gün o, Gürcüstanın baş naziri Zurab Jvaniya, Milli Təhlükəsizlik Şurasının katibi Qela Bejuasvili, xarici işlər naziri Salome Zurabişvili ilə görüşmüşdür.

Gürcüstan XİN-də keçirilən mətbuat konfransında Elmar Məmmədyarov bildirmişdir ki, bu, onun Gürcüstana ilk rəsmi səfəridir. Görüşlərdə regional məsələlər, iqtisadi layihələr, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin çəkilişi müzakirə olunmuşdur. Nazir dostluq, mehriban qonşuluq əsasında qurulan Azərbaycan-Gürcüstan münasibətlərinin zəngin tarixi olduğunu və bunun hər iki tərəf üçün gözəl nəticələr verdiyini vurğulamışdır.

Sentyabrın 29-da Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovu qəbul etmişdir.

E.Məmmədyarov görüşdən sonra jurnalistlərə Gürcüstan Prezidenti ilə söhbətin çox səmərəli olduğunu, siyasi, iqtisadi xarakterli məsələlərin müzakirə edildiyini bildirmişdir. O demişdir ki, görüşdə regional və beynəlxalq məsələlər, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Qars-Axalkalaki dəmir yolunun çəkilişi, münaqişələrin tənzimlənməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Həm Azərbaycan, həm də Gürcüstan tərəfinin mehriban qonşuluq, strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyi vurğulanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KEÇMİŞ ENERGETİKA NAZİRİ, İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ TİM EQQARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Prezident sarayında Böyük Britaniyanın keçmiş energetika naziri, İngiltərə-Azərbaycan cəmiyyətinin sədri Tim Eqqarı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Böyük Britaniyanın da iştirakçısı olduğu "Əsrin müqaviləsi"nin onuncu ildönümünün bu yaxınlarda Bakıda böyük təntənə ilə qeyd edildiyini bildirdi. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı dövrdə Böyük Britaniya hökumətinin və bu ölkənin o vaxtkı energetika naziri Tim Eqqarın respublikamıza verdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı həmin vaxtdan keçən dövr ərzində Azərbaycanda siyasi, iqtisadi və bütün digər sahələrdə böyük uğurlar qazanıldığını vurğuladı.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən cənab Tim Eqqar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar bir daha dərin hüznlə başsağlığı verdi və bu hadisədən çox böyük sarsıntı keçirdiyini bildirdi.

İlham Əliyev Prezident seçildikdən sonra onunla keçirdiyi ilk görüşdən çox məmnun olduğunu söyləyən qonaq dövlətimizin başçısını bir daha səmimi qəlbdən təbrik etdi, fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Respublikamıza son səfərindən keçən dövr ərzində Azərbaycanda misli görünməmiş inkişafın şahidi olduğunu bildirən Tim Eqqar dedi ki, onunla ölkəmizə ilk dəfə səfərə gələn nümayəndə heyətinin üzvləri Azərbaycandakı böyük inkişafdan və uğurlardan məmnunluq duyduqlarını söyləyirlər.

AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BOLQARISTANA SƏFƏRİ

Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti Ukraynaya rəsmi səfərini başa vurduqdan sonra, sentyabrın 27-də Bolqarıstana gəlmişdir.

Sentyabrın 28-də Bolqarıstan Xalq Məclisinin sədri Oqnyan Qerdikovla Milli Məclisin nümayəndə heyətinin görüşü olmuşdur. Murtuz Ələsgərovu və nümayəndə heyətinin üzvlərini səmimi salamlayan Xalq Məclisinin sədri Bolqarıstan-Azərbaycan münasibətlərindən, o cümlədən parlamentlərarası əlaqələrin inkişaf perspektivlərindən söz açmışdır. O demişdir ki, Azərbaycan parlament nümayəndə heyətinin Bolqarıstana rəsmi səfəri çox böyük əhəmiyyət kəsb edir. Bu səfər və yaxın günlərdə Bolqarıstan Prezidenti Georgi Pırvanovun Azərbaycana gözlənilən rəsmi səfəri iki ölkənin münasibətlərinin inkişafına böyük təkan verəcəkdir. Qarşılıqlı səfərlər iqtisadi əlaqələrimizə də müsbət təsir göstərəcəkdir.

O.Qerdikov söhbət zamanı TRACECA layihəsindən geniş söhbət açmış və onun əhəmiyyətini xüsusi vurğulamışdır.

Səmimi qarşılandıqları üçün nümayəndə heyəti adından təşəkkürünü bildirən Murtuz

Ələsgərov parlamentlərarası münasibətlərdən, dostluq qruplarının fəaliyyətindən, habelə Dağlıq Qarabağ problemindən geniş söhbət açmışdır.

Görüşdə Xalq Məclisinin sədri ikitərəfli münasibətlərin inkişafından, parlament əlaqələrinin əhəmiyyətindən danışmış, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı onun ölkəsinin sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü prinsiplərini həmişə dəstəklədiyini bildirmişdir.

Görüşdən sonra parlament sədrləri və nümayəndə heyətinin üzvləri Sofiyada naməlum əsgərin abidəsi önünə əklil qoymuşlar. Hər iki ölkənin dövlət himnləri səsləndirilmişdir.

Həmin gün Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Murtuz Ələsgərov başda olmaqla Azərbaycan parlamentinin nümayəndə heyətini qəbul etmişdir. Bolqarıstan Prezidenti, ilk növbədə, Azərbaycana gözlənilən rəsmi səfərindən söz açmış, Prezident İlham Əliyevlə görüşünə böyük ümidlər bəslədiyini bildirmişdir.

Milli Məclisin sədri səmimi qəbula görə təşəkkür etmiş, Bolqarıstan rəhbərinə Azərbaycan Prezidentinin salamlarını çatdırmışdır.

M.Ələsgərov Azərbaycanla Bolqarıstan arasında siyasi, iqtisadi, mədəni əlaqələrin inkişaf perspektivlərindən, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətindən, Dağlıq Qarabağ probleminin həlli məsələsindən ətraflı bəhs etmişdir.

Bolqarıstan Prezidenti iki dövlətin dostluq münasibətlərindən, iqtisadi əlaqələrindən danışmış, eyni zamanda, Dağlıq Qarabağ probleminə toxunaraq demişdir ki, biz bu problemin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmasına tərəfdarıq.

Prezident Georgi Pırvanov onun səmimi salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etmiş və yaxın vaxtlarda respublikamıza səfər edəcəyini bir daha vurğulamışdır.

Azərbaycanın parlament nümayəndə heyəti həmin gün Bolqarıstanın Baş naziri Simeon Sakskoburqqotski ilə görüşmüşdür. Söhbət zamanı Azərbaycan-Bolqarıstan iqtisadi və mədəni əlaqələrinə dair fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi parlament nümayəndə heyəti sentyabrın 29-da Bolqarıstanın qədim tarixə malik şəhərlərindən olan Plovdivdə olmuş, şəhərin qubernatoru ilə görüşmüşdür. Görüşdə, Azərbaycan-Bolqarıstan dostluğunun tarixindən, ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişaf perspektivlərindən geniş söhbət açılmışdır.

Azərbaycan parlament nümayəndə heyəti Bolqarıstan Xalq Məclisinin plenar iclasında da iştirak etmişdir. Xalq Məclisinin üzvləri deputatlarımızı hərarətli alqışlarla qarşılamışlar. Həmin gün Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş keçirilmişdir. Bolqarıstan Xalq Məclisinin deputatı Rəmzi Osman başçılıq etdiyi parlament dostluq qrupunun fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir. Görüşdə parlament dotluq qruplarının gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Murtuz Ələsgərov Bolqarıstan dostluq qrupunun üzvlərini Azərbaycana dəvət etmişdir.

Daha sonra parlament nümayəndə heyətinin Bolqarıstan Xalq Məclisinin xarici siyasət, müdafiə və təhlükəsizlik komitəsinin rəhbərliyi ilə görüşü olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin inkişafı, qanunvericilik sahəsində təcrübə mübadiləsi aparılmışdır.

Sentyabrın 30-da nümayəndə heyətimizin Bolqarıstan Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Nikolay Vasilyevlə görüşü olmuşdur. Görüşdə nəqliyyat sahəsində əməkdaşlıq, Sofiya-Bakı birbaşa təyyarə reysinin açılması məsələsi müzakirə edilmişdir.

Günün ikinci yarısı nümayəndə heyəti Bolqarıstanın Milli tarix muzeyi, Aleksandr Nevski xatirə kompleksi və başqa tarixi yerlərlə tanış olduqdan sonra Vətənə qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RÖYTER AGENTLİYİNİN MDB ÜZRƏ BÜROSUNUN RƏHBƏRİ CONATAN TEÇÇERƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Prezident sarayında Röyter Agentliyinin MDB üzrə bürosunun rəhbəri Conatan Teççerə müsahibə vermişdir.

CONATAN TETÇER: Cənab Prezident, söhbətimizə Sizin bu yaxınlarda BMT Baş Məclisinin ümumi müzakirələrində çıxışınız məsələsindən başlamaq istərdim.

İLHAM ƏLİYEV: Mən belə düşünürəm ki, beynəlxalq birliyə bu cür yüksək tribunadan müraciət etmək və Azərbaycanda, regionda və ümumiyyətlə, dünyadakı vəziyyət, üzləşdiyimiz problemlərlə bağlı mövqeyimizin çatdırılması üçün imkanın qazanılması əhəmiyyətli məsələdir.

CONATAN TETÇER: Şübhəsiz ki, ölkənizə aid olan məsələlərlə bağlı mövqeyinizin çatdırılması Sizin üçün vacib məsələdir. Lakin, eyni zamanda, demək olarmı ki, ölkə rəhbərləri və rəsmiləri ilə keçirdiyiniz müxtəlif görüşlərdə Sizi ən çox narahat edən məsələlərlə bağlı inkişafa nail olunub?

İLHAM ƏLİYEV: Bizi ən çox narahat edən məsələ torpaqlarımızın Ermənistan tərəfindən davam edən işğalıdır ki, bu da beynəlxalq birliyə, xarici ölkələrin rəsmilərinə, habelə beynəlxalq təşkilatların rəhbərlərinə çox yaxşı məlumdur. Birləşmiş Millətlər Təşkilatına gəldikdə, bu təşkilat Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir.

Qeyd etdiyim kimi, bu məsələ ilə bağlı digər beynəlxalq təşkilatlar da, ümumilikdə, beynəlxalq birlik məlumatlıdır. Demək istəyirəm ki, BMT-dəki çıxışımın məqsədi, sadəcə, bu barədə məlumat verməkdən ibarət deyildi, məqsəd münaqişənin özünün, habelə ermənilərə məxsus olmayan torpaqları geri qaytarmaq istəməyən Ermənistan rəhbərliyinin yeritdiyi siyasətin doğurduğu təhlükənin bir daha diqqətə çatdırılmasından ibarət idi.

CONATAN TETÇER: Kənardan belə görünür ki, Siz Ermənistanı günahlandırırsınız, Ermənistan isə başqa bir şey deyir. Sanki, pat vəziyyəti yaranmışdır, heç nə dəyişməyir. Bu məsələdə irəliləyiş əldə etmək üçün hansısa bir şans varmı?İLHAM ƏLİYEV: Mən

sizinlə razıyam ki, vəziyyət dəyişməz olaraq qalır. Bu, təhlükəli bir haldır. Azərbaycanın mövqeyi aydındır. Beynəlxalq hüququn normaları və prinsiplərinə əməl edilməli, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxarılmalıdır. Sülhün əldə edilməsi üçün yeganə yol budur. Ermənilər Dağlıq Qarabağ üçün müstəqillik və bu ərazinin Ermənistana birləşdirilməsini tələb edirlər. Bu tələb beynəlxalq hüquq normalarına deyil, ermənilərin güya öz məqsədlərinə çatacaqlarını düşündükləri səhv təsəvvürə əsaslanmışdır. Biz bu cür məsələlərə yanaşmada vahid standartların tətbiq olunmasının tərəfdarıyıq. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı separatçı rejimlərinə eyni cür yanaşma prinsipi olmalıdır. Ermənilərin ABŞ-da, Rusiyada və digər ölkələrdə güclü lobbisi fəaliyyət göstərdiyinə görə, onlara fərqli yanaşma olmamalıdır. Bu münaqişənin həllinə nail olmağın yeganə yolu ermənilərin öz məqsədlərinə çata bilməyəcəklərini başa düşməsindən ibarətdir.

Dağlıq Qarabağ heç zaman müstəqillik əldə etməyəcəkdir. Biz ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı heç zaman, heç bir konpromisə getməyəcəyik və beynəlxalq birlik Dağlıq Qarabağdakı hərbi rejimi heç zaman özünün bir hissəsi kimi tanımayacaqdır. Dağlıq Qarabağ ermənilər muxtariyyət çərçivəsində milli azlıq kimi yaşamağı davam etdirə bilərlər. Yaxşı məlumdur ki, Avropada və dünyanın digər hissələrində muxtar qurumlar mövcuddur. Dünyanın bir çox ölkələrində milli azlıqlar vardır. İndi təsəvvür edin ki, dünyada hər bir milli azlıq özü üçün müstəqillik tələb etsə, nələr baş verər! Bu, cəfəngiyyatdır. Bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi ədalətə, həqiqətə və beynəlxalq hüquq normalarına söykənir. Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan "millətlərin öz müqəddəratını təyin etmək" hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirəm ki, ermənilər artıq bir millət kimi öz müqəddəratını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Ermənilərin yaşadıqları bütün ölkələrdə "öz müqəddəratlarını təyin etməyə" başladıqları halda nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir. Çünki onlar çox yerdə yaşayırlar. Yeri gəlmişkən, Gürcüstanda Dağlıq Qarabağda olandan 5 dəfə artıq erməni yaşayır. Dağlıq Qarabağda 50 mindən az, Gürcüstanda isə 250 minə yaxın erməni yaşayır. Rusiyada, bəlkə də, bir milyondan çox erməni vardır. Həmçinin ABŞ-da, Fransada yaşayırlar və bir daha təkrar edirəm ki, onlar hər yerdə "öz müqəddəratını təyin etməyi" qərara alsalar, onda neçə erməni dövləti olar? Demək istəyirəm ki, ermənilərin mövqeyi çox zəifdir və beynəlxalq hüquq normalarına və reallığa deyil, yalnız öz xülyalarına əsaslanmışdır.

CONATAN TETÇER: Siz deyəndə ki, vəziyyət təhlükəlidir, nəyi nəzərdə tutursunuz, vəziyyət hərbi baxımdanmı təhlükəlidir?

İLHAM ƏLİYEV: Əgər neçə illərdir ki, sülhə nail olunmayıbsa və danışıqlar heç bir nəticə verməyibsə, bunun alternativi nə ola bilər? Ümumiyyətlə, Qafqazda vəziyyət o qədər sabit deyildir. Eyni zamanda, Cənubi Qafqazda və Şimali Qafqazda baş verən proseslər müəyyən dərəcədə bir-biri ilə bağlıdır. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülhə nail oluna bilinməməsi, şübhəsiz ki, regional təhlükəsizliyin təmin olunması işinə xidmət etmir. Münaqişənin həll edilməsi uzandıqca, hərbi əməliyyatların yenidən başlanması təhlükəsi bir o qədər artır.

CONATAN TETÇER: Sizin təşəbbüsləriniz nədən ibarətdir?

İLHAM ƏLİYEV: Biz münaqişənin sülh yolu ilə həllinə hazırıq və yalnız bircə fakt, on ildən artıq dövr keçməsinə baxmayaraq, hələ də bu prinsipə sadiq qalmağımız faktı onu göstərir ki, biz münaqişəni siyasi yollarla həll etmək istəyirik. Əks təqdirdə, Azərbaycan hələ neçə illər bundan əvvəl öz ərazi bütövlüyünü bərpa etmək hüququnu həyata keçirərdi. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik və məsələnin bu cür həllinə ümid edirik. Lakin eyni zamanda hər kəs başa düşməlidir ki, biz torpaqlarımızın işğal olunması faktı ilə heç zaman razılaşa bilmərik və bizim səbrimizin də həddi vardır.

CONATAN TETÇER: Necə fikirləşirsiniz, növbəti addım Ermənistan tərəfindənmi atılmalıdır? Hazırkı danışıqlar prosesində atıla bilən ən təsirli addımlar sırasında hansıları görürsünüz?

İLHAM ƏLİYEV: Məlumdur ki, danışıqlar prosesi birtərəfli qaydada həyata keçirilə bilməz. Hər iki tərəf addımlar atmalıdır. Lakin heç şübhəsiz, Ermənistan tərəfi praktiki addımlar atmalıdır. Azərbaycanın kompromisə getməyə heç bir şeyi yoxdur. Biz heç kimin ərazisini işğal etməmişik, ermənilərdən fərqli olaraq, heç bir millətə qarşı etnik təmizləmə siyasəti həyata keçirməmişik. Buna görə bizdə ermənilərə məxsus olan bir şey yoxdur ki, onu geri qaytaraq. Ermənistan bizim torpaqlarımızın 20 faizini işğal altında saxlayır, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşərək əzab çəkir. Əlbəttə ki, ermənilər işğal olunmuş torpaqlarımızdan öz qoşunlarını çıxarmalıdır, bu, bizim təbii tələbimizdir. Əgər biz ermənilərin torpaqlarını işğal etsəydik, onda biz öz qoşunlarımızı oradan çıxarmalıydıq. Gördüyünüz kimi, bu baxımdan biz tərəfdən atılası addım yoxdur.

CONATAN TETÇER: Necə düşünürsüniz, Sizin Nyu-Yorkda müzakirə etdiyiniz məsələlər İrəvana beynəlxalq birlik və bu birliyin üzvləri tərəfindən daha çox təzyiq doğura bilərmi ki, Sizcə Ermənistan müsbət olan addımlar atsın?

İLHAM ƏLİYEV: Biz bu məsələ ilə bağlı beynəlxalq birliyi ədalətin bərpa edilməsi və BMT qərarlarının həyata keçirilməsi işinə daha fəal cəlb olunmağa çağırırıq. Bu vəziyyət ümumilikdə regionda təhlükəsizliyin təmin olunması işinə xidmət etmir. BMT TŞ-nin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfindən on ildən artıqdır ki, yerinə yetirilmir. Amma heç nə baş vermir, heç bir sanksiya tətbiq olunmur, heç bir praktik tədbir görülmür, BMT heç bir tələb irəli sürmür. Əgər Ermənistan görsə ki, BMT qərarlarının yerinə yetirilməməsi onun üçün ciddi problemlər yaradır, ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunur, təzyiq göstərilir və ya hər hansı digər bir mexanizm tətbiq edilir, şübhəsiz, onda Ermənistan öz siyasətinə yenidən baxar. Bəs reallıqda nə baş verir? Dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT dörd müvafiq qətnamə qəbul etmişdir, digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı mövqelərini ifadə etmişdir, lakin Ermənistana bunun təsiri yoxdur. BMT qətnamələrinin və digər beynəlxalq təşkilatların mühüm qərarlarının həyata keçirilməsi üçün heç bir mexanizm yoxdur. Şübhəsiz ki, işğalçı dövlətin təcavüzünə son qoyulması üçün ona təzyiq göstərilməsi ilə əlaqədar beynəlxalq birlik tərəfindən praktik addımlar atılmalıdır.

CONATAN TETÇER: Siz deyəndə ki, səbriniz hüdudsuz deyil və bu, Sizin üçün çox fundamental bir ərazi məsələsidir, heç şübhəsiz, Siz bir siyasətçi kimi dəqiq vaxtı deməyəcəksiniz, bəlkə də deyəcəksiniz. Səbriniz nə zaman tükənəcək? Bununla bağlı Sizə ölkə daxilindəki təzyiq nə qədər davam edəcək? Siz qeyd etdiniz ki, xeyli sayda qaçqınınız ağır vəziyyətdə yaşayır, münaqişə ilə bağlı beynəlxalq birlik Azərbaycana istədiyiniz dəstəyi vermir. Ermənistan tərəfi danışıqlar prosesində yeni bir təklif vermir. Mənim üçün maraqlıdır, bu məsələlərdən Siz nə gözləyirsiniz?

İLHAM ƏLİYEV: Biz belə güman edirik ki, danışıqların indiki mərhələsi bizim hansı mövqedə durduğumuzu göstərəcəkdir. Biz danışıqların müxtəlif dövrlərini keçmişik və bu dövrlərdə müxtəlif məsələlər müzakirə olunmuşdur. Lakin bütün dövrlərdə Ermənistan tərəfinin qeyri-konstruktiv mövqedə durması nəticəsində danışıqlar heç bir nəticə verməmişdir. Danışıqların indiki mərhələsinə ötən il Azərbaycanda və Ermənistanda prezident seçkiləri keçirildikdən sonra başlanılmışdır. Hazırda iki ölkə prezidentləri və xarici işlər nazirləri arasında danışıqlar aparılır. Biz konkret məsələləri müzakirə edirik. Buna görə biz hələ də ümid edirik ki, danışıqların indiki mərhələsi bizi hansısa həll yollarına gətirib çıxara bilər. Lakin mən bir neçə dəfə ictimaiyyət qarşısında bəyanat vermişəm: biz görsək və tam əmin olsaq ki, danışıqların davam etdirilməsinin heç bir mənası yoxdur, sözsüz ki, bu danışıqları dayandıracağıq. Çünki biz danışıqları yalnız danışıqlar prosesinin imitasiya edilməsi naminə aparılmasının əleyhinəyik. Biz görsək ki, bütün siyasi vasitələr tükənmişdir və sülh yolu ilə suverenliyimizin bərpa olunması üçün heç bir yol yoxdur, onda biz digər vasitələri, digər hüquqlarımızı nəzərdən keçirməyə başlayacağıq.

CONATAN TETÇER: Demək olarmı ki, məsələ bu həddə çatmayıb?

İLHAM ƏLİYEV: Biz hələ ümid edirik ki, razılığa gələcəyik, əks təqdirdə, biz bu danışıqları aparmazdıq. Münaqişənin həllində vasitəçilik mandatına malik olan ATƏT-in Minsk qrupu indi, deyəsən, fəallığını artırır, məsələnin həllinə daha çox cəlb olunur. Mən həmişə ATƏT-in Minsk qrupunun fəaliyyətini tənqid etmişəm, Ermənistan isə həmişə bu qurumun fəaliyyətini tərifləyir. Mən ona görə tənqid edirəm ki, ortalıqda heç bir nəticə yoxdur və bu, pis bir vəziyyətdir. Ermənistan isə belə bir vəziyyətdən çox məmnundur, çünki heç bir nəticə yoxdur. Lakin ədalət naminə, deməliyəm ki, Minsk qrupu hazırda çox gərgin fəaliyyət göstərir və mən bunu qiymətləndirirəm. Ümid edirəm ki, bu hansısa bir nəticə verə bilər.

CONATAN TETÇER: Mən qaçqınlar və məcburi köçkünlərin vəziyyətinə qayıtmaq istərdim. Siz qeyd etdiniz ki, onlar həqiqətən də çox ağır vəziyyətdə yaşayırlar. Bu sahədə nəsə etmək mümkündürmü?

İLHAM ƏLİYEV: Biz bu sahədə böyük işlər görürük. Mən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nı təsdiq etmişəm və digər tədbirlər həyata keçirilir. Biz bu insanların yaşayışının yaxşılaşdırılması, onlar üçün yeni iş yerlərinin açılması, xəstəxanaların, məktəblərin inşa edilməsi, biznes fəaliyyəti üçün şəraitin yaradılması məqsədi ilə böyük miqdarda maliyyə vəsaiti ayırmışıq. Artıq bu işlərə təxminən 100 milyon ABŞ dolları məbləğində vəsait xərclənmiş, bir sıra qaçqın düşərgəsi tamamilə sökülmüş və onların yerində minlərlə yeni evlər inşa edilmişdir. Hazırda digər bir neçə qaçqın düşərgəsinin sökülməsi üzərində də işlər gedir və gələn ilin ortalarına kimi dörd mindən artıq qaçqın ailəsinin yeni, müasir evlərlə təchiz olunması planlaşdırılır. Bu binaların yerləşdiyi yerlər şəhərcik formasındadır. Orada hər şey vardır: məktəblər, xəstəxanalar, müvafiq

infrastruktur, yollar, enerji təhcizatı, qaz və s.. Məqsədimiz, ilk növbədə, ən ağır vəziyyətdə, qaçqın düşərgələrində yaşayan soydaşlarımız üçün normal yaşayış şəraiti yaratmaqdan ibarətdir. Sözsüz ki, biz həmin insanlar üçün hökümət subsidiyasını və humanitar yardımı ildən-ilə artırırıq. Biz əlimizdən nə gəlirsə, onu da edirik. Bizim bir o qədər də böyük maliyyə imkanımız yoxdur, lakin bütün maliyyə ehtiyatlarımız həmin insanlar üçün daha yaxşı yaşayış şəraitinin təmin edilməsinə səfərbər olunmuşdur. Sözsüz ki, bu məsələdə beynəlxalq yardıma ehtiyac var və donor təşkilatlar öz yardımlarını azaltmamalıdır. Belə ki, münaqişənin uzun illərdir davam etməsi nəticəsində bəzi beynəlxalq humanitar və donor təşkilatlar hazırda bu yardımı azaldırlar. Deməliyəm ki, bu, böyük humanitar bir böhrandır. 8 milyon əhalisi olan ölkəmizdə bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz ümumi əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin sayına görə dünyada birinci yerdəyik.

CONATAN TETÇER: Siz təxminən bir ilə yaxındır Prezident seçilmisiniz və belə bir təəssürat var idi ki, bəlkə də bu səhv təəssürat idi, Siz bu vəzifəyə namizədliyinizi verməkdən qabaq bir o qədər Prezident olmaq arzusunda deyildiniz. Prezidentlik fəaliyyətinizdə bir neçə ay keçdikdən sonra bu haqda nə düşünürsünüz?

İLHAM ƏLİYEV: Bilirsiz, mən deməzdim ki, bu düz təəssürat idi. Bu təəssüratlar yalnız bəzi şayiələrə əsaslanırdı. Hamıya məlumdur ki, mən 1995-ci ildən siyasətdəyəm. Həmin ildən parlamentin üzvü olmuşam və heç şübhəsiz, mən siyasətlə məşğul olmaq barədə düşünməsəydim, biznesdə qalardım. Eyni zamanda, 1990-cı illərin sonlarından etibarən mən hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, sonra isə birinci müaviniyəm. Bu, onu aydın göstərir ki, artıq doqquz il bundan əvvəl mən ciddi surətdə siyasətə cəlb olunmuşam. Ona görə də prezidentliyə namizədliyimin irəli sürülməsi heç də Azərbaycan xalqı üçün hansısa gözlənilməz bir hadisə deyildi. Mənim siyasi fəaliyyətim xalqın gözü qarşısındadır. Lakin, əlbəttə ki, siyasi fəaliyyətlə məşğul olmaq və Prezidentlik tam fərqli şeylərdir. Prezident qəbul olunmuş bütün qərarlar üçün məsuliyyət daşıyır. Xüsusilə bizim ölkəmizdə. Uzun illər bərqərar olmuş siyasi təsisatların mövcud olduğu ölkələrdə vəziyyət fərqlidir. Keçid dövrünü yaşayan ölkələrdə isə baş verən hər şey üçün məsuliyyətin yükü prezidentin çiyninə düşür. Bu da fikrimcə, mənim indiki fəaliyyətimi Prezidentliyə qədər olan fəaliyyətimdən fərqləndirən əsas amildir. Lakin praktiki baxımdan çox da böyük dəyişikliklər baş verməmişdir. Sadəcə, indi daha çox işləməli və hər zaman müxtəlif məsələləri həll etməyə hazır olmalıyam.

CONATAN TETÇER: Siz müstəqil dövlətin təsəvvürləri ilə çox yüksək səviyyədə eyniləşdirilən, çox nüfuzlu və güclü dünya şəxsiyyətlərindən olan atanızın varisisiniz. Sözsüz ki, onun dövlətin idarə edilməsi ilə bağlı öz metodları olmuşdur, yəqin Sizin də müstəqillik barədə öz düşüncələriniz vardır. Necə fikirləşirsiniz, oğlu kimi Siz onun siyasətini davam etdirməlisiniz, yoxsa Sizin siyasətiniz bundan fərqlənməlidir?

İLHAM ƏLİYEV: Ümumi strategiya dəyişməz olaraq qalır. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə Azərbaycana yenidən hakimiyyətə gələn zaman xalqımız öz tarixi seçimini etmişdi. Bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, xarici siyasət, sosial və digər sahələrdə həyata keçirilən islahatlarla bağlı seçimimiz və siyasətimiz dəyişməz qalır. Biz beynəlxalq birliyə və Avropa ailəsinə gələcəkdə də inteqrasiya edilməsi siyasətinə sadiqik. Ermənistandan fərqli olaraq, biz tam müstəqil şəkildə xarici siyasət

həyata keçiririk, siyasi qərarlar qəbul edilməsi məsələsində heç bir dövlətdən asılı deyilik. Mən belə düşünürəm ki, bu, Azərbaycan xalqının, Heydər Əliyev siyasətinin ən böyük uğurlarından biridir. Bu cür çətin vəziyyətdə, ərazisinin bir qisminin işğal olunduğu şəraitdə Azərbaycan öz milli dəyərlərini, müstəqilliyini qoruyub saxlamışdır və bu gün regional və beynəlxalq məsələlərdə çox mühüm rol oynayan bir ölkədir. Bizim bu siyasətimiz dəyişməzdir və biz bu siyasəti davam etdiririk. Hazırda ölkəmizdə genişmiqyaslı iqtisadi islahatlar aparılır. Mən sizə deyə bilərəm ki, ən cəsarətli iqtisadi islahatlar Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Buraya torpağın özəlləşdirilməsi, qiymətlərin liberallaşdırılması və xeyli sayda digər məqamları aid etmək olar. Qeyd etdiyim kimi, biz bu gün bu siyasəti davam etdiririk.

Yeni iş yerlərinin açılması ilə bağlı siyasətimiz çox uğurla həyata keçirilir. Prezident seçkilərindən keçən dövrdə 70 mindən artıq yeni iş yeri açılmışdır. Mən seçkiqabağı kampaniyamda 600 min yeni iş yerinin açılacağını vəd etmişdim. Ümidvaram ki, biz bu məqsədə nail olacağıq. İqtisadiyyatımız tam bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır, özəl sektorun ümumi daxili məhsulda payı 75%-dən artıqdır, həm də nəzərə almaq lazımdır ki, ölkəmizin əsas ixrac məhsulunu təşkil edən neft dövlət inhisarındadır. Sosial məsələlər də həll olunmaqdadır, dövlət büdcəmiz, əsasən, sosial məsələlərin həllinə yönəlmişdir. Beləliklə, bu aspektlərdə Heydər Əliyev siyasəti davam etdirilir. Həyat dəyişir, yeni məsələlər, yeni problemlər ortaya çıxır və əlbəttə ki, ölkə inkişaf edir. Ölkə statik vəziyyətdə qala bilməz. Biz ölkəmizi müxtəlif istiqamətlərdə, müxtəlif ölçülərə əsaslanaraq inkişaf etdiririk. Sözsüz ki, biz indi elə qərarlar qəbul edə bilərik ki, onlar əvvəlki dövrlərdə olduğundan, bəlkə də, fərqlənə bilər. Ölkə özünü müasirləşdirir. Biz cəmiyyətimizin demokratikləşməsi, əhalinin müxtəlif qrupları arasında milli birliyə nail olunması istiqamətində uğurla irəliləyirik.

CONATAN TETÇER: Siz demokratikləşmə məsələsinə toxundunuz və Azərbaycan hökuməti arabir belə bir tənqidə məruz qalır ki, ölkədə az-çox real müxalifətin səsi batırılır. Bildiyimə görə, bəzi müxalifət liderləri hələ də həbsdədir, deyəsən, mənə 7 nəfər demişdilər.

İLHAM ƏLİYEV: Mən düşünmürəm ki, onlar liderlərdir, bəli, siz deyən adamlardan məhkəməyə cəlb olunanlar var.

CONATAN TETÇER: Nəzərə alsaq ki, Qərb ölkələrində daha açıq müzakirələr mövcuddur, Siz demokratikləşməni necə xarakterizə edərdiniz?

İLHAM ƏLİYEV: Bilirsiniz, mən Azərbaycanın Prezidenti seçildikdən sonra ölkədə həyata keçirilən siyasi islahatlarla bağlı heç bir beynəlxalq təşkilat və ya dünya birliyi tərəfindən tənqid olunmamışam. Əksinə, adətən bütün ölkələri tənqid edən Avropa Şurasının qərarlarına və sənədlərinə nəzər salsanız görərsiniz ki, Azərbaycanda prezident seçkilərindən keçən dövr ərzində ölkədəki vəziyyət və baş vermiş müsbət dəyişikliklər çox yüksək qiymətləndirilmişdir. Avropa dəyərlərinə verdiyim töhfələrə görə mən bu il Avropa Şurasının fəxri üzvü medalına və diplomuna layiq görülmüşəm. Həm seçkilərdən əvvəlki, həm də seçkilərdən keçən dövrdə mən ölkəmizdə fəaliyyət göstərən bütün siyasi qüvvələrə dəfələrlə zorakılığa və düşmənçiliyə son qoyulması, siyasi fəaliyyətin küçələrdən normal dialoqa gətirilməsi ilə bağlı ictimai çağırışlar etmişdim. Əfsuslar olsun ki, mənim bu çağırışlarım cavabsız qaldı. Buna baxmayaraq, seçkilərdən sonra mən

bir sıra əfv fərmanı imzaladım və bəzi beynəlxalq təşkilatlar tərəfindən "siyasi məhbus" hesab edilən xeyli sayda insan azadlığa buraxıldı. Hətta, onların sırasında ağır cinayətlər törədən şəxslər də vardır. Bir daha təkrar edirəm ki, bu məsələlərlə bağlı mən nəinki tənqid olunmuram, əksinə, Azərbaycanda bu istiqamətdə görülən işlər yüksək qiymətləndirilir. Mən bu məsələdən danışarkən qeyd etmək istəyirəm ki, bununla bağlı yerli müxalifətin mövqeləri tamamilə səhvdir. Belə ki, hökumət nə eləyirsə, onlar bunu düzgün olmayan addım kimi təqdim etməyə çalışırlar. Hazırda həbsdə olan insanlara gəldikdə isə, onlar cinayət törətmişlər və bu cinayətlər bütün televiziya kanalları vasitəsilə nümayiş etdirilmişdir. Seçkilərdən dərhal sonra polisə, adi insanlara qarşı hücuma keçməyə başlamış, nəqliyyat vasitələrini dağıtmış, polisi daş-qalağa tutmuş, hərbi avtomaşını polis nəfərlərinin üzərinə sürmüş bu insanlar törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb olunublar. Onlar bu əməllərinə görə məsuliyyətə cəlb olunmalıdırlar. Təsəvvür etmək çətin deyil ki, misal üçün, ABŞ-da və yaxud digər Qərb ölkələrində polis qüvvələrinə qarşı bu cür qəddarcasına hücum baş versəydi nə olardı. Qanun aliliyi təmin edilməlidir. Biz ölkəmizdə yenidən xaos və anarxiyanın baş qaldırmasına imkan verə bilmərik, müxalif qüvvələrin qeyri-qanuni şəkildə hakimiyyətə gəlmək istəyinə görə adi vətəndaşların həyatını və səhhətini risk və təhlükə altına qoya bilmərik. Mən prezident seçkilərində qalib gəlmişəm və buna heç kimin şübhəsi yoxdur. Bu fakt bütün beynəlxalq təşkilatlar tərəfindən təsdiq olunmuşdur və mənim üçün ən əsası odur ki, bunu Azərbaycan xalqı təsdiq etmişdir. Müxalifətin seçkilərin nəticələrini zor tətbiq etməklə dəyişmək cəhdləri cinayət əməli idi. Bir də vurğulamaq istəyirəm ki, həbsdə olan və müxalifət adlandırılan bu adamlar müxalifət partiyaların üzvləri olduqlarına görə deyil, qeyri-qanuni əməllərə yol verdiklərinə görə mühakimə edilirlər. Sabitlik, qanunun aliliyi, demokratikləşmə - bütün bunlar bizim üçün çox vacib məsələlərdir. Yeri gəlmişkən, bu gün müxalifətdə olan bir sıra adamlar 1992-ci ildə hərbi çevriliş nəticəsində hökuməti devirərək hakimiyyəti ələ almışdılar, onlar yenidən bunu etməyə cəhd göstərmişlər, lakin bu gün Azərbaycandakı vəziyyət o zamankı vəziyyət deyildir. Hökumət də həmin hökumət deyildir. Bizim ölkəmizdə bütün siyasi azadlıqlar təmin olunub, senzura tamamilə ləğv edilib, bütün siyasi partiyalar, hər bir adam öz fikirlərini hər yerdə, o cümlədən parlamentdə, mətbuatda azad ifadə etmək hüququna malikdir. Lakin hökuməti qeyri-qanuni yolla dəyişmək, devirmək dövrlərinə heç zaman qayıdılmayacaqdır. Biz bu mövqedə möhkəm durmuşuq və mən belə düşünürəm ki, müxalifət indiki şəraitdə hökumətlə bu cür davrana bilməyəcəyini yaxşı anlayır.

CONATAN TETÇER: İcazə verin, yenə də Azərbaycanda demokratikləşmə məsələsinə qayıdım. Siz siyasi, sosial, iqtisadi sahələrdə demokratikləşmənin gələcək inkişaf yollarını necə görürsünüz?

İLHAM ƏLİYEV: Ölkə gücləndikcə, vəziyyət də dəyişir. Azərbaycanda narahatlıq doğuran məsələlər öz həllini tapmaqdadır. İqtisadiyyatımız inkişaf edir, insanların yaşayış səviyyəsi gün-gündən yaxşılaşır, biz regionların hərtərəfli inkişafı proqramını qəbul etmişik və mən söz vermişəm ki, Azərbaycan vətəndaşlarının həyat səviyyəsi ildən-ilə yaxşılaşacaq və bu reallaşmaqdadır. Mən sizin vaxtınızı rəqəmlərlə almaq istəmirəm, əgər iqtisadi inkişaf göstəricilərinə baxsanız, özünüz bunu görərsiniz. Ona görə də müxalifətin istifadə etdiyi iqtisadi və sosial çətinliklər mövzusu tükənməkdədir. Onlar yaxşı başa düşürlər ki, ölkəmizdə həyata keçirilən nəhəng layihələr, o cümlədən enerji və

nəqliyyat layihələri, – yeri gəlmişkən bu layihələri onlar deyil, məhz biz başlamışıq və məhz biz həyata keçiririk, – bütün bunlar Azərbaycan xalqına yaxın zamanlarda firavanlıq, çox güclü iqtisadi inkişaf gətirəcəkdir. Belə bir şəraitdə onlar səs qazanmaq üçün xalqa nə vəd edə bilərlər? Əgər xalq onlara 2003-cü ildə inanmayıbsa, gələcəkdə necə inanacaq? Xüsusilə də, Azərbaycanda qlobal iqtisadi layihələrin reallaşmağa başladığı, 600 min iş yerinin açılması ilə bağlı real işlərin həyata keçirildiyi, iqtisadiyyatımızın daha da gücləndiyi, Azərbaycan xalqının həyat tərzinin yüksəldiyi bir dövrdə! Ona görə bunu təbii bir proses kimi qəbul etmək lazımdır ki, ölkədə nə qədər uğur əldə olunursa, obyektiv olaraq müxalifət daha da zəifləyir. Biz belə düşünürük ki, bu gün onlar Azərbaycan hökumətinə qarşı deyil, Azərbaycanın xoşbəxt gələcəyinə qarşı mübarizə aparırlar. Onlar ölkədəki vəziyyətin pisləşməsini istəyirlər, belə ki, ölkədə vəziyyət nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşı olar. Xalq bunu bilir və yaxşı dərk edir. Bu gün müxalifətin zəifliyi onun öz səhvi ucbatından baş verir. Onlar ortaya heç bir təklif qoya bilməmişlər.

Bundan başqa, mən sizə deyə bilərəm ki, müxalifət dəyişməlidir. Bu gün müxalifətin başında duran adamlar 1992-ci ildə hakimiyyəti ələ keçirmiş insanlardır. 1993-cü ildən, hakimiyyəti hətta bir il əldə saxlaya bilmədikdən sonra on ildən artıqdır ki, müxalifətdədirlər. Eyni sifətlər, eyni sözlər və hakimiyyətə qarşı eyni hücumlar. Müxalifətdə dəyişiklik olmalıdır. Xalq naftalin qoxusu gələn bu insanlardan bezmişdir. Lakin demək istəyirəm ki, biz onların fəaliyyətinə son qoymaq, onlar üçün problemlər yaratmaq fikrində deyilik. Cəmiyyətə sağlam, konstruktiv, bu və ya digər məsələyə hökumətin diqqətini cəlb edə bilən, hökuməti sağlam tənqid edən müxalifət lazımdır, cibinə daş yığıb polisə hücuma keçən müxalifət yox! Beynəlxalq təcrübə onu göstərir ki, məğlubiyyətə uğrayan müxalifət liderləri istefa verir. Biz bunun təkcə inkişaf etmiş ölkələrdə deyil, bəzi qonşu dövlətlərdə də şahidi olmuşuq. Lakin bizdəki müxalifət daim uduzmaqda davam edir, siyasətdən isə getmək istəmir. Onlar belə bir bəhanə gətirirlər ki, səsvermələr zamanı guya manipulyasiyalara, saxtakarlığa yol verilir və s. Bu, bir bəhanədir. Çünki onlar etiraf etsələr ki, bəli uduzmuşuq, onda nə baş verəcək, onlar siyasətdən getməlidirlər. Əgər onlar, bugünkü qondarma müxalifət liderləri bunu etsələr, onda nə ilə məşğul olacaqlar? Bu insanlar heç zaman, heç bir yerdə ciddi işlə məşğul olmamışlar. Onların heç zaman xalqa xeyri dəyməyibdir. Bircə bunu bacarırlar ki, meydanlara çıxıb qışqırsınlar.

Digər tərəfdən, onların həmişə guya seçkilərin ədalətsiz keçirilməsi barədə əsassız məlumatları təqdim etmək cəhdlərinin də səbəbi elə budur. Cəmiyyətin normal inkişafı tələb edir ki, müxalifət özünü dəyişsin. Oraya yeni insanlar gəlməlidir və bütün hallarda uduzan köhnə adamlar siyasəti tərk etməlidirlər. Hakimiyyətdə olduqları dövrdən cəmi bir il keçmiş, 1993-cü ildə xalq o dərəcədə təngə gəldi ki, onları hakimiyyətdən uzaqlaşdırdı. Onlar 1993-cü ildə prezident seçkilərini, 1995-ci ildə parlament seçkilərini, 1998-ci ildə yenidən prezident seçkilərini, 2000-ci ildə yenidən parlament seçkilərini, 2003-cü ildə yenidən prezident seçkilərini uduzdular. Onlar tutduqları yerləri tərk edənə və gənc nəslə yol açılmasına imkan verənə qədər daha neçə dəfə uduzmağı planlaşdırırlar?

CONATAN TETÇER: Fransua Mitteran bir neçə seçkini uduzduqdan sonra prezident ola bildi.

İLHAM ƏLİYEV: Fransua Mitteran siyasətçi idi.

CONATAN TETÇER: Siz müxalifətdə yeni insanları görmək istəyirsiniz, bu inkişaf etməkdə olan demokratik siyasi sistem deməkdir.

İLHAM ƏLİYEV: Bir siyasətçi kimi açığını desəm, bizim hakim partiya üçün yaxşı olardı ki, müxalifətdə heç bir dəyişiklik olmasın. Çünki mən şübhə edirəm ki, növbəti hansısa bir seçkilərdə kimsə bu köhnə sifətlər olan müxalifətə səs versin. Buna görə də siyasi mübarizə nöqteyi- nəzərindən bu müxalifət partiyalarının olduqları kimi qalması bizim hakim partiyanın xeyrinədir. Lakin müxalifətdə dəyişiklik cəmiyyətin mənafeyinə cavab verir. Cəmiyyətin mənafeyi isə tələb edir ki, siyasi partiyalar arasında düşmənçiliyə son qoyulsun. Nəyə görə Azərbaycanda siyasi partiyalar bir-birinə düşmən mövqedə durmalıdırlar, mən bunu başa düşə bilmirəm. Nəyə görə normal dialoq, müzakirələr və təmaslar olmasın. Lakin bu gün müxalifətdə olan adamlarla bunu etmək mümkün deyildir. Hökumət nə edə bilər? Biz onlar üçün nəsə etmək fikrində deyilik. Onlar bu barədə özləri fikirləşməlidirlər. Biz onu edə bilərik ki, normal siyasi mühit, sabit, açıq cəmiyyətin yaradılması ilə bağlı siyasi islahatlar davam etdirilsin. Biz cəmiyyətimizin demokratikləşməsi ilə bağlı Avropa Şurası qarşısında götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk. Daha nə edə bilərik? Qalan şeylər onların boynundadır.

CONATAN TETÇER: Siz iqtisadi məsələlərə toxundunuz. Sizin zəngin neft ehtiyatları baxımından bəxtiniz yaxşı gətirib və neftin qiymətinin qalxması baxımından isə bəxtiniz daha çox gətiribdir. Eyni zamanda, burada belə bir riskli məqam da vardır ki, neftin qiymətinin sürətlə qalxması birdən-birə dövlətə planlaşdırılmamış şəkildə gəlir gətirə bilər. Onda yəqin ki, bunun da nəticəsində hökumətinizə təzyiq göstərilə bilər ki, pulu buna xərcləyin, ona xərcləyin və.s. Bu problemlə üzləşməmək üçün nə edirsiniz?

İLHAM ƏLİYEV: Ölkəmizin bu günə kimi əldə etdiyi uğurların səbəbi heç də əsasən neft amili ilə bağlı deyildir. Biz hazırda böyük həcmdə neft çıxarmırıq, böyük həcmdə neft hasilatının yalnız astanasındayıq. Ölkəmizin əldə etdiyi inkişafın böyük qismi həyata keçirdiyimiz iqtisadi islahatların və iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur. Ancaq hamı bilir ki, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi neft və qeyri-neft sektorunun inkişafına güclü təkan vermişdir. Lakin bizi bu məsələ də düşündürür ki, qısa bir zamanda ölkə varlananda bu imkanlardan necə istifadə etmək lazımdır. Bu məqsədlə bir neçə il bundan əvvəl Azərbaycanda Neft Fondu yaradılmışdır. Neftdən əldə olunan bütün gəlirlər çox şəffaf bir şəraitdə bu Fondda cəmləşdirilir. Hər bir vətəndaş bilir ki, ölkə neftdən nə qədər gəlir əldə etmişdir, Fondda beynəlxalq audit aparılır və o, beynəlxalq maliyyə təsisatlarının tövsiyələri əsasında idarə olunur. Buna görə də prezident seçkilərindən sonra bizim qəbul etdiyimiz regional inkişaf proqramı və sosial-iqtisadi yönümlü digər proqramlar əsasən regionlarımızın inkişafı, iqtisadiyyatımızın çoxşaxəliliyinin təmin olunması, yeni iş yerlərinin açılması – sözsüz ki, bu yeni iş yerləri qeyri-neft sektorunda yaradılacaqdır, - məqsədi daşıyır.

Yalnız neftin qiymətlərinə bel bağlamaq çox təhlükəli bir haldır. Məndən soruşsanız, açıq cavab verərdim ki, neftin qiymətlərinin belə yüksək həddə çatması məni çox da sevindirmir. Əlbəttə ki, bu qiymətlər müəyyən həddən aşağı düşsəydi, bizi narahat edərdi, lakin bir barrel neftin qiymətinin 50 ABŞ dolları səviyyəsinə qalxması dünya iqtisadiyyatı üçün yaxşı hal deyildir. Azərbaycan dünya iqtisadiyyatının bir hissəsini təşkil

edir, buna görə də dünya iqtisadiyyatında baş verən bütün müsbət və mənfi hallar bizim iqtisadiyyatımıza da təsir göstərə bilər.

Mən həmişə hökumətə də deyirəm ki, biz Azərbaycanda neft amilinin mövcudluğunu sanki unutmalıyıq və iqtisadiyyatımızı bu amili əsas tutmayaraq qurmalıyıq. Neft böyük xoşbəxtlik gətirirsə, eyni zamanda böyük problemlər də yaradır. Bizə bəzi neft hasil edən ölkələrin təcrübəsi yaxşı məlumdur. Bunlar uğurlu təcrübə adlandırıla bilməz və həmin ölkələrdə əhali bu amildən faydalana bilməmişdir. Hər bir Azərbaycan vətəndaşının neft gəlirlərindən faydalanması bizim üçün vacibdir, biz dünyada mövcud olan bütün neft fondlarının təcrübəsini öyrəndik və daha səmərəli olan Norveç modeli üzərində dayandıq. Bizim Neft Fondunda tətbiq etdiyimiz idarəetmə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və əlimizdən gələni edəcəyik ki, neft hasil edən digər ölkələrin buraxdığı səhvlərə yol verməyək.

CONATAN TETÇER: Enerji məsələsinə toxunmaq istərdim. Deyəsən, qaz məsələsində siz rəqabətədavamlı olmağa çalışırsınız, xüsusilə də Rusiya ilə. Bu özünü boru xətləri layihələrində göstərir. Bununla bağlı fikirlərinizi bilmək istərdim.

İLHAM ƏLİYEV: Qaz da bizim üçün əhəmiyyətlidir. Çünki bildiyiniz kimi, neft ixrac boru kəməri hazırda inşa edilməkdədir və tikinti işlərinin böyük qismi başa çatmışdır. Gələn il bu işlər tamamlanacaqdır. Biz Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi ilə bağlı məqsədimizə nail oluruq. Vaxtilə çoxları bunu xəyali bir şey kimi qəbul edirdi. Qaz kəməri də çox əhəmiyyətlidir, bu Azərbaycan qazını Gürcüstana, Türkiyəyə, Avropa bazarlarına çıxaracaqdır. Lakin bu kontekstdə biz heç bir dövlətlə rəqabət aparmağı planlaşdırmırıq və buna cəhd etmirik.

Azərbaycan qazının bazarda öz yeri olacaqdır. Biz Yunanıstanla danışıqlar aparırıq və Azərbaycan qazını, sözsüz ki, adları çəkilən ölkələrə, həmçinin digər Avropa ölkələrinə çıxarmağı planlaşdırırıq. Mən belə güman edirəm ki, bu layihənin də gerçəkləşməsi Avropa istehlakçıları üçün faydalı olacaq, belə ki, zənnimcə, bizim qaz daha ucuz başa gələcəkdir. Çünki qazın ixrac marşrutu daha qısa, nəqletmə xərcləri isə daha aşağı olacaqdır. Bu marşrut Avropa üçün alternativ bir marşrut olacaqdır. Növbəti 5-6 il ərzində qazın Avropaya müxtəlif nəqledilmə variantlarının da həyata keçiriləcəyi güman edilir. Digər ölkələrdə qaz hasilatı azalarsa, Azərbaycan qazı bu fərqi kompensasiya edə bilər. Lakin bir daha mən aydınlıq gətirmək istəyirəm ki, biz rəqabətə girməyi planlaşdırmırıq. Fikrimcə, rəqabət istehsalçılara yaxşı heç bir şey gətirmir, bu, istehlakçıların xeyrinədir. Biz istehsalçıyıq, ona görə də bu məsələyə ehtiyatla yanaşmalıyıq. Mən belə düşünürəm ki, Azərbaycan qazı Avropaya vaxtlı-vaxtında çatdırılacaq, çünki bizim energetika sahəsində bütün layihələrimiz artıq həyata keçirilmişdir və mən ümid edirəm ki, Bakıdan Türkiyəyə və oradan digər ölkələrə gedəcək boru xətti vaxtında hazır olacaqdır.

CONATAN TETÇER: Bu məsələlərdə Moskva amilinə toxunmaq istərdim.

İLHAM ƏLİYEV: Mən bu barədə bir söz deyə bilmərəm. Bilirsiz, biz özümüzə aid olan işi yerinə yetiririk. Xəzərin Azərbaycana aid olan sektorunda beynəlxalq şirkətlərlə həyata keçirdiyimiz birgə işlər, Bakı-Tbilisi-Ceyhan layihəsi, Qaz layihəsi - bütün bunları edərkən kiminsə maraqlarına zərbə vurmağı qarşımıza məqsəd qoymuruq. Biz bu işləri sırf öz maraqlarımız və maraqlarımızın qorunması naminə həyata keçiririk. Azərbayca-

nın buna haqqı vardır. Bizim bu vaxta kimi həyata keçirdiyimiz işlər yalnız beynəlxalq təcrübəyə uyğun və qanuni şəkildə görülmüşdür. Ona görə də kimsə bu işlərdən narahatdırsa, bu, bizim problemimiz deyildir. Biz görəndə ki, bu, ölkəmiz üçün əhəmiyyətli və vacibdir, onu da edirik. Mən əminəm ki, planlaşdırıldığı kimi, Azərbaycan nefti Aralıq dənizi hövzəsinə çatdırılacaq, Azərbaycan qazı isə Avropaya nəql ediləcəkdir. Belə düşünürəm ki, bu, hər hansı bir istehsalçını qıcıqlandırmamalıdır. Xüsusilə, kəmiyyət nəzərə alınarsa. Azərbaycanın ixrac edəcəyi qaz digər ölkələrin ixrac etdiyi qazla müqayisədə həcmcə böyük olmayacaqdır.

CONATAN TETÇER: Uzaq olmayan gələcəkdə iqtisadi perspektivlər məsələsinə toxunmaq istərdim. Siz Neft Fondundan və digər məsələlərdən danışdınız.

Hazırkı şəraitdə hansısa spesifik islahatları həyata keçirməyi nəzərdə tutursunuzmu?

İLHAM ƏLİYEV: Mən belə düşünürəm ki, yuxarıda qeyd etdiyim proqramlar iqtisadi inkişafımıza kömək edəcəkdir. Bildirmək istərdim ki, ölkəmizdə vacib olan iqtisadi islahatlar, əsasən, həyata keçirilmişdir, çox mühüm qanunlar qəbul edilmişdir. İqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan azad edilməsi, özəl sektora dəstəyin verilməsi, sahibkarlara kreditlərin ayrılması və sair mühüm işlər həyata keçirilir. Gələn il özəl sektora maliyyə yardımını iki dəfə artırmağı planlaşdırırıq. Biz iqtisadiyyatı hökumətin hansısa iqtisadi layihəyə birbaşa müdaxiləsi yolu ilə deyil, lazımi infrastrukturun və özəl sektorun sərmayəsi hesabına maliyyə mənbələrinin yaradılması vasitəsilə stimullaşdırmağa çalışırıq. Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur. Ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə MDB və Şərqi Avropa ölkələri sırasında birinci yerlərdə durur.

İndi bizim qarşımızda duran vacib məsələlərdən biri də güclü orta sinfin yaradılmasına kömək göstərməkdən ibarətdir. Yerli şirkətlərimizin ciddi layihələrə sərmayə qoya bilməsi üçün imkanın yaradılması da mühüm məsələdir. Xarici sərmayələr əhəmiyyətlidir, lakin bizim yerli sərmayəçilərimiz də daha güclü olmalıdır. Bunun üçün mümkün olan nə varsa edirik və bu istiqamətdə gələcəkdə də lazımi addımlar atacağıq. Qeyd etmək istəyirəm ki, biz bütün bu işləri səs-küysüz, hansısa güclü təbliğatdan istifadə etmədən, özümüzü tərifləmədən görürük. Biz bunu ona görə edirik ki, bu işlər Azərbaycan xalqına lazımdır. Bu gün Azərbaycan, həqiqətən, bütün sahələrdə çox sürətlə inkişaf edir. Lakin biz bundan şou düzəltmirik, hər yerdə səs-küy salmırıq ki, baxın görün, bizdə işlər necə yaxşı gedir. Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqının bütün bunlardan faydalanmağa haqqı vardır və əgər qarşımıza qoyduğumuz planlar hamısı həyata keçirilsə, növbəti dörd ildə Azərbaycan tamamilə başqa bir ölkəyə çevriləcəkdir.

CONATAN TETÇER: Bağışlayın ki, vaxtınızı çox alıram. Tamam başqa bir məsələ ilə bağlı sual vermək olarmı? Bu, siyasi vəziyyətlə əlaqədardır. Ölkəniz çox həssas bir nöqtədə yerləşir. Sizin ABŞ-la çox yaxşı münasibətləriniz var, lakin qonşuluqda həyatı bir balaca çətinləşdirə bilən İran da vardır. Mənim üçün maraqlıdır, İranla yaxın keçmişdə olan gərginliklər indi Sizin üçün başağrısı yaradırmı? Qafqazdakı ümumi siyasi mühit nəzərə alınarsa, İranla münasibətlərinizdə tam tarazlıq yaratmaq çətindirmi?

İLHAM ƏLİYEV: Hazırda Azərbaycanla İran arasında çox konstruktiv münasibətlər mövcuddur. Bu yaxınlarda İran Prezidentinin Azərbaycana çox uğurlu səfəri olmuşdur. Biz İranla yaxşı münasibətlərin olmasını istəyirik və mən belə düşünürəm ki, bu gün bu-

na nail olmuşuq. Ölkələrimiz arasında bir sıra iqtisadi məsələlər, o cümlədən enerji və qaz mübadiləsinə dair və digər infrastruktur layihələr üzrə razılıqlar əldə edilmişdir. Bir daha bildirmək istəyirəm ki, bizim münasibətlər çox konstruktivdir və bundan çox razıyıq. Yuxarıda qeyd etdiyim kimi, Azərbaycan öz milli maraqlarına uyğun və maraqlarının qorunmasına yönəlmiş siyasət həyata keçirir. Biz imkan verə bilmərik ki, Azərbaycan müxtəlif ölkələr arasında qarşıdurma zonasına çevrilsin. Əgər hansısa ölkələr bir–biri ilə qarşıdurmaya girmək istəyirlərsə, onlar bunun üçün başqa yer tapa bilərlər. Biz Azərbaycanda əməkdaşlıq zonası yaratmağa çalışırıq və zənnimcə, buna nail oluruq. Azərbaycan xalqı erməni təcavüzündən, müharibədən çox əziyyət çəkmişdir. Biz ölkəmizdə sülh, təhlükəsizlik, sabitlik, firavanlıq istəyirik. Bütün digər dövlətlərlə, o cümlədən qonşu dövlətlərlə ikitərəfli münasibətləri bir-birinin maraqlarına hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qururuq. Bu kontekstdə Azərbaycan-İran münasibətlərinə xələl gətirə bilən bir amil yoxdur. Bizim münasibətlərimiz yuxarıda sadaladığım prinsiplər əsasında qurulmuşdur və mən əminəm ki, bu əlaqələr gələcəkdə də inkişaf edəcəkdir.

MARQARİTA ANTİDZE: Cənab Prezident, icazənizlə, çox qısa bir sualım var. Mənə elə gəlir ki, prezident olmaq doğrudan da, çox gərgin bir işdir. Sizin ən yaxşı məsləhətçiniz kimdir? Çünki Prezident kimi Siz mütəmadi olaraq çox mühüm və ciddi qərarlar qəbul edirsiniz. Sizin ətrafınızda çoxlu peşəkar insanlar çalışır. Lakin yenə də təkrar etmək istərdim, ən yaxşı məsləhətçiniz kimdir, Sizin özünüzsünüzmü, yaxud Siz fikirləşirsiniz ki, bu hallarda mərhum atanız nə edərdi?

İLHAM ƏLİYEV: Mən səmimi demək istərdim, çox məsələlər barədə qərar qəbul etmək mənim üçün çətinlik doğurmur. Çünki zənnimcə, mənim düzgün qərarlar çıxarmaq üçün imkanım çoxdur. Lakin bəzən mən qərar çıxararkən fikirləşirəm ki, mərhum atam bu vəziyyətdə nə edərdi? Mən bu barədə fikirləşirəm, amma... Bilirsiniz, bəzən elə hallar olur ki, fikirləşirsən, güman edirsən, mərhum atam olsaydı, nə edərdi. Lakin təbii ki, sən bunu heç zaman dəqiq bilə bilməzsən. Ona görə də bu, asan bir məsələ deyildir. Əlbəttə ki, Prezident olmaq da asan iş deyildir. Eyni zamanda, mən sizə deyə bilərəm ki, Prezidentlik fəaliyyətimin bu ilk ilində yəqin çox az anlar olub ki, hansısa ciddi qərarın qəbul edilməsi ilə bağlı çətinlik çəkim. Əksər hallarda mənim üçün bütün mənzərə, məqsədlər aydındır. Azərbaycanda siyasi, iqtisadi, ümumi vəziyyət müsbət şəkildə inkişaf edir. Buna görə də çıxardığımız qərarlar bugünkü vəziyyətə uyğun şəkildə qəbul edilir. Mən bütün qərarları özüm qəbul edirəm.

CONATAN TETÇER: Mən Bakıda olduğum qısa müddət ərzində çox yerdə mərhum atanızın portretlərini görmüşəm. Mən bilirəm ki, mərhum atanıza – ilk Prezidentə hörmət bəslənilir. Çox yerdə portretlərin olmasının hansısa başqa bir səbəbi də varmı?

İLHAM ƏLİYEV: Mən deməzdim ki, çox yerdə portretlər vardır. Heydər Əliyev Azərbaycan üçün təkcə Prezident olmamışdır. Heydər Əliyev, həqiqətən, Azərbaycan xalqının ümummilli lideridir. Onun Azərbaycan xalqı qarşısında xidməti yalnız son on illik Prezidentlik fəaliyyəti ilə məhdudlaşmır. Heydər Əliyev 1969-cu ildən Azərbaycana rəhbərlik etmiş, hətta müxtəlif siyasi şəraitlər dövründə də, o, xalqımızın lideri olmuşdur. Bu dövrlərdə insanlara yenə də yaxşılıqlar etməkdə, xalqın maraqları naminə fəaliyyət göstərməkdə davam etmişdir. Kiçik fasilələrlə, o, 35 il Azərbaycana rəhbərlik etmişdir. Ona görə də Azərbaycan xalqı Heydər Əliyevə yalnız bir Prezident kimi deyil,

Azərbaycanın müasir inkişafında güclü təsiri olan bir şəxsiyyət, bütün həyatını xalqın inkişafına sərf etmiş bir insan kimi münasibət bəsləyir. Heydər Əliyev dünyasını dəyişərkən günlərlə, həftələrlə, aylarla böyük insan axını səhər sübhdən ta gecə yarısına kimi onun xatirəsinə ehtiramını ifadə etmək üçün məzarını yad etməyə gəlirdi.

Ölkənin hər yerindən insanlar gələrək onun məzarını ziyarət edirdilər. Bu, xalqın hisslərinin təbii ifadəsi idi. Heydər Əliyev Azərbaycanın simvoludur, müstəqillik, ləyaqət və cəsarət simvolu! Siz dediklərniz xalqın Heydər Əliyevə və onun millət qarşısında xidmətlərinə münasibəti və xatirəsinin yad edilməsinin bir ifadəsidir. Şəhərin küçələrində və digər yerlərdə portretlərinin olması Heydər Əliyevin insanların şüurunda, bugünkü həyatımızda mövcudluğu deməkdir.

CONATAN TETÇER: Mən əvvəllər Azərbaycanda olmamışam və ona görə də müqayisə edə bilmirəm.

İLHAM ƏLİYEV: Bilirsiniz, həm sovet, həm də post-sovet dövründə yeni seçilən rəhbərlər, prezidentlər çox hallarda öz populyarlığını özündən əvvəlki prezidentlərin tənqidi üzərində qurmağa çalışırlar. Çünki bunu etmək asandır. Sən hər şeyi tənqid edə bilərsən. Yəqin ki, buna görə də siz digər ölkələrdə keçmiş prezidentlərin portretlərini görə bilməzsiniz. Azərbaycanda vəziyyət fərqlidir. Bilirsiniz, zənnimcə, keçmişi rədd etməklə deyil, keçmişə ədalətli yanaşmaqla, müsbət irsə əsaslanmaqla, yeni uğurlar qazanmaq çox stimullaşdırıcı bir faktdır. Buna görə də mən belə düşünürəm ki, digər ölkələrdə bu cür təcrübəni görməməyinizin səbəbi elə dediklərimdir. Orada yalnız iqtidarda olan prezidentlərin portretləri vurulur.

CONATAN TETÇER: Ona görə də biz təəccübləndik ki, bəs Sizin portretləriniz niyə yoxdur?

İLHAM ƏLİYEV: Mənim portretlərim prezidentliyə seçki kampaniyası zamanı vurulurdu. Seçkilərdən sonra isə mən tapşırdım ki, onları yığışdırsınlar. Ona görə də siz mənim portretlərimi görə bilməzsiniz. Çünki mən yalnız Prezidentəm.

CONATAN TETÇER: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan hökumətinə bizimlə əməkdaşlığa görə də təşəkkür edirik. Çox sağ olun.

İLHAM ƏLİYEV: Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ LİNKOLN BLUMFİLDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Prezident sarayında ABŞ dövlət katibinin müavini Linkoln Blumfildin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etdiyini vurğuladı. Ölkələrimizin iqtisadi sahədə əlaqələrinə toxunan Prezident İlham Əliyev energetika sahəsində əməkdaşlığın daim genişləndiyini nəzərə çarpdırdı. "Əsrin müqaviləsi"nin imzalanmasının onuncu il-

dönümünün bu yaxınlarda ölkəmizdə təntənə ilə qeyd edildiyini bildirən dövlətimizin başçısı Azərbaycanda nəhəng enerji layihələrinin həyata keçirilməsinə ABŞ hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Azərbaycan-ABŞ əlaqələrinin digər sahələrdə də genişləndirilməsi üçün böyük imkanlar olduğunu bildirən Prezident İlham Əliyev cənab Linkoln Blumfildin başçılıq etdiyi ABŞ nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına kömək göstərəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula görə minnətdarlıq edən və ölkəmizə ilk dəfə səfərə gəldiyini söyləyən qonaq Azərbaycanın çox böyük inkişafa nail olduğunu bildirdi. Cənab Linkoln Blumfild dedi ki, Azərbaycanda xüsusilə energetika sahəsində nəhəng, regional layihələr uğurla həyata keçirilir.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla genişləndiyini nəzərə çarpdıran qonaq əmin olduğunu bildirdi ki, ABŞ-Azərbaycan əməkdaşlığı gələcəkdə də müvəffəqiyyətlə inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ ERKKİ TUOMİOYYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Prezident sarayında Finlandiyanın xarici işlər naziri Erkki Tuomioyyanı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimiz arasında həm ikitərəfli əsaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin dinamik surətdə inkişaf etdiyini bildirdi, eyni zamanda, əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa İttifaqının üzvü kimi Finlandiya ilə Azərbaycanın əlaqələri məsələsinə toxundu, respublikamızın bu beynəlxalq təşkilatla münasibətlərinin sürətlə inkişaf etdiyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqının yeni qonşuluq siyasətində fəal iştirak etdiyini vurğuladı, eyni zamanda, bu qurumun bölgəyə, o cümlədən Azərbaycana marağının artmasını böyük məmnunluqla qeyd etdi, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunmasını bunun təzahürü kimi qiymətləndirdi.

Prezident İlham Əliyev Finlandiya xarici işlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq hələ altı il bundan öncə rəsmi nümayəndə heyətinin tərkibində Azərbaycanda olduğunu diqqətə çatdırdı. O, həmin vaxtdan sanki 20 ildən çox keçdiyini vurğulayaraq, Azərbaycanın bu müddətdə misli görünməmiş inkişaf etdiyini bildirdi. Qonaq dedi ki, heç bir ölkədə belə qısa zaman ərzində bu cür inkişafın şahidi olmamışdır.

Azərbaycan-Finlandiya əlaqələrinin daha da möhkəmlənməsi üçün geniş perspektivlər olduğunu vurğulayan nazir bu əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əmin olduğunu söylədi. O dedi ki, Azərbaycan çox həssas, münaqişələrin mövcud olduğu bir

bölgədə yerləşməsinə baxmayaraq, Qafqazda sabitlik mərkəzinə çevrilmişdir. Qonaq bildirdi ki, Finlandiya yeni qonşuluq siyasətinə qoşulan ölkələrdə sabitliyin bərqərar olmasında maraqlıdır.

Cənab Erkki Tuomioyya dedi ki, Finlandiya on ildən çoxdur Avropa İttifaqının fəal üzvlərindən biridir. O bildirdi ki, həm Finlandiya, həm də Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasını istəyir. Qonaq əmin olduğunu söylədi ki, Azərbaycanın Finlandiya, eləcə də Avropa İttifaqı ilə əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov oktyabrın 7-də ölkəmizə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

Azərbaycanın dövlət başçısı Bolqarıstan Prezidentini səmimi salamlayaraq, onun Bakıya səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı və əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin gələcək inkişafına güclü təkan verəcəkdir. O, ATƏT-in sədri kimi Bolqarıstanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında böyük səylər göstərdiyini qeyd etdi və bu səylərin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu söylədi.

Prezident Georgi Pırvanov Azərbaycanla ikitərəfli əlaqələrin inkişafı üçün böyük potensial olduğunu bildirdi və Avropaya inteqrasiya sahəsində Bolqarıstanın ölkəmizlə sıx əməkdaşlıq etmək istədiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Azərbaycan və Bolqarıstan prezidentlərinin təkbətək görüşündən sonra dövlət başçılarının geniş tərkibdə görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV Boqarıstan Prezidenti Georgi Pırvanovu və səfərdə onu müşayiət edən nümayəndə heyətinin üzvlərini salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm.

Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfərdən sonra iki ölkə arasında olan münasibətlər daha da inkişaf edəcəkdir. Həm iqtisadi, həm siyasi, həm mədəni, həm də digər sahələrdə münasibətlərin inkişafı üçün çox gözəl zəmin vardır. Hökumətlərarası komissiya da öz işini davam etdirir və əminəm ki, orada müzakirə olunan məsələlər ölkələrimizi iqtisadi baxımdan bir-birinə daha da yaxınlaşdıracaqdır.

Onu da qeyd etmək istəyirəm ki, ATƏT-in sədri kimi Bolqarıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində çox böyük səylər göstərir. Biz bunu çox bəyənirik və bu səylərə görə sizə öz təşəkkürümüzü bildiririk. Bir sözlə, mən ümid edirəm ki, bu səfərdən sonra bütün sahələrdə bizim əməkdaşlığımız daha da sürətlə inkişaf edəcək və Bolqarıstanla Azərbaycan arasında ikitərəfli münasibətlər daha da genişlənəcəkdir. Bilirsiniz ki, bu yaxınlarda Bolqarıstanda Azərbaycan səfirliyi öz işinə başlayacaqdır, bu da öz növbəsində, əlaqələrin daha da sürətlə inkişaf etməsinə imkan verəcəkdir.

Bir daha Sizi ürəkdən salamlayıram. Əminəm ki, bu səfər çox uğurlu olacaq və əlaqələrimiz yeni pilləyə qalxacaqdır.

Bolqarıstan Prezidenti GEORGİ PIRVANOV səmimi qəbula və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin başçısına təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident, icazə verin, ilk növbədə, dəvətə və ölkənizə gəlmək imkanına görə Sizə təşəkkür edim. Mən bu fikirdəyəm ki, münasibətlərimiz indiki siyasi əlaqələrə nisbətən daha güclü potensiala malikdir. İnanıram ki, dövlət başçıları kimi biz münasibətlərimizin və qarşılıqlı fəaliyyətimizin gücləndirilməsi istiqamətində Bolqarıstanın və Azərbaycanın digər təsisatlarına dəqiq və aydın siqnal verə, nümunə göstərə bilərik. Mən hökumətlərarası komissiyanın işindən razıyam və inanıram ki, komissiya Azərbaycana səfərimiz başa çatanadək işini yaxşı yerinə yetirəcəkdir.

Hüquqi bazanın yaradılması və modernləşdirilməsi üzərində indi – səfərim çərçivəsində də işləmək və bunu gələcəkdə də davam etdirmək mənim üçün çox əhəmiyyətlidir. Sazişlərin imzalanmasında iştirak etməyimiz və mərkəzi, yerli hakimiyyət orqanları nümayəndələrinin bu prosesə qoşulması faktının özü çox rəmzidir.

Cənab Prezident, iqtisadi münasibətlərimizdəki əlverişsiz vəziyyətin səbəblərini çox diqqətlə təhlil etmək yaxşı olar. Əgər cəmi 7 milyon dollar olan əmtəə dövriyyəsinin həcmini sizinlə qonşu ölkələrin göstəriciləri ilə müqayisə etsək görərik ki, bu, əsla inandırıcı deyildir və rəmzi xarakter daşıyır. Mənafelər isə, sözsüz ki, mövcuddur. İndi keçirilən Bolqarıstan-Azərbaycan biznes forumunda bolqar biznesmenlərinin iştirakı da buna sübutdur.

Beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətimizlə bağlı bir neçə mühüm məsələ var. İlk növbədə, Bolqarıstan NATO-nun üzvüdür və tezliklə Avropa Birliyinin üzvü olacaqdır. Zənnimcə, Sizin bəyan etdiyiniz niyyətləri nəzərə alaraq, biz çox gözəl qarşılıqlı fəaliyyət göstərə bilərik. Şəxsən mən bu fikirdəyəm ki, Avropa Birliyinin qonşu ölkələr barəsində elan etdiyi yeni siyasət yeni məzmunla dolğunlaşmalıdır. Bolqarıstan bu siyasətin tərəfdarlarından biri olacaqdır.

Digər tərəfdən, ümidvarıq ki, Azərbaycan, xüsusən, ölkəmizin biznesmenləri Bolqarıstanın simasında Avropa Birliyinə, bir növ, qapı tapacaq.

Cənab Prezident, beynəlxalq terrorizmlə mübarizədə bir sırada olmağımız çox vacibdir. Eyni münaqişə nöqtələrində olmağımız sübut edir ki, toqquşmalar dini və etnik əsasda baş vermir. Onlar tamam başqa xarakterlidir. Bolqarıstanın NATO üzvü, Azərbaycanın isə bu təşkilatın fəal tərəfdaşı olduğunu nəzərə alaraq, biz bu sahədə yaxşı qarşılıqlı fəaliyyət göstərə bilərik.

Sonda demək istərdim ki, qarşılıqlı fəaliyyətimizin səviyyəsini qaldırmağımız çox vacibdir. Bolqarıstanın artıq Azərbaycanda səfiri var və yaxın vaxtlarda Sofiyada səfirlik açmaq barədə qərarınızı alqışlayıram. Bu, bəlkə də, ilk baxışdan, texniki xarakterli kiçik amildir, amma bilirik ki, çox vaxt belə məsələlər böyük rol oynayır.

AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Georgi Pırvanov Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında Birgə Bəyannamə imzaladılar.

Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında birgə bəyannaməni Azərbaycan tərəfindən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Nazim İbrahimov, Bolqarıstan tərəfindən Qabrovo Şəhər İcra Hakimiyyətinin başçısı Boqomil Belçev imzaladılar.

Azərbaycan Dövlət Teleqraf Agentliyinin baş direktoru Aslan Aslanov və Bolqarıstan Teleqraf Agentliyinin baş direktoru Maksim Minçev Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında sazişi imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında səhiyyə və tibb elmi sahəsində sazişi Azərbaycan tərəfindən səhiyyə naziri Əli İnsanov, Bolqarıstan tərəfindən səhiyyə nazirinin müavini Lyubomir Kumanov, Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respubilkası hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Bolqarıstan tərəfindən Baş nazirin müavini, nəqliyyat və kommunikasiya naziri Nikolay Vasilyev imzaladılar.

Azərbaycan Baş nazirinin müavini Abid Şərifov və Bolqarıstan Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Nikolay Vasilyev ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Bolqarıstan Hökumətlərarası Komissiyasının ikinci iclasının protokolunu, Azərbaycan Respubilkası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında ticarət gəmiçiliyi haqqında sazişi, Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında sazişi imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 7-də Prezident sarayında, Azərbaycan-Bolqarıstan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Georgi Pırvanovun birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Bolqarıstan Respublikasının Prezidenti cənab Pırvanovun Azərbaycana rəsmi səfəri böyük əhəmiyyət kəsb edir. Biz bu səfəri çox səbirsizliklə gözləyirdik. Çox şadıq ki, bu səfər çox uğurlu keçir. Keçirdiyimiz danışıqlar bir daha onu göstərir ki, iki ölkə arasında olan münasibətlər inkişaf edir və əlaqələrimiz güclənir. Əminəm ki, bu səfərdən sonra siyasi, iqtisadi, mədəni və bütün digər sahələrdə əməkdaşlığımız daha da güclənəcəkdir.

Siyasi baxımdan ölkələrimiz bir-birinə çox yaxındır. Biz Avropa və Avratlantika strukturlarına uğurla inteqrasiya edirik və ikitərəfli münasibətlər də bu baxımdan çox müsbət istiqamətdə inkişaf edir. ATƏT-in sədri kimi, Bolqarıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində çox fəal rol oynayır və biz çox məmnunuq ki, bu fəaliyyət nəticəsində danışıqlar prosesində yeni irəliləyiş müşahidə oluna bilər.

İqtisadi sahədə də böyük potensial var, lakin bu potensial hələlik tam gücü ilə işə salınmayıbdır. Amma ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz arasında iqtisadi əlaqələr inkişaf edəcəkdir.

Hökumətlərarası birgə komissiyanın iclası keçirilmiş, işçi qrupunun yaradılması haqqında qərar qəbul edilmişdir. Ümid edirəm ki, Komissiyanın fəaliyyəti və eyni zamanda, bu gün Azərbaycana gəlmiş çoxsaylı Bolqarıstan biznesmenlərinin azərbaycanlı həmkarları ilə danışıqları nəticəsində iqtisadi sahədə də böyük uğurlar əldə edə biləcəyik.

Bolqarıstan və Azərbaycanın iqtisadiyyatı sürətlə və dinamik şəkildə inkişaf edir. Əlbəttə, iqtisadi potensial gücləndikcə bizə imkan verəcək ki, iki ölkə arasında iqtisadi əlaqələr daha da sürətlənsin və hər iki tərəfə böyük fayda gətirsin. Ümid edirəm, yaxın zamanlarda Azərbaycanın Bolqarıstanda açılacaq səfirliyinin fəaliyyəti də ümumi işimizə böyük töhfə verəcəkdir.

Qeyd etmək istəyirəm ki, bizim həm təkbətək, həm də geniş tərkibdə danışıqlarımız çox səmimi şəraitdə keçmişdir. Biz çox geniş əhatəli məsələləri müzakirə etdik. İkitərəfli münasibətləri, regional əməkdaşlıq məsələlərini müzakirə etdik və əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında fikir mübadiləsi apardıq. Mən

çox şadam ki, aramızda yaranmış gözəl münasibət, bu səmimiyyət bizə imkan verəcək ki, ölkələrimizin münasibətlərini yeni pilləyə qaldıraq.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, çox uğurla başlanmış bu səfər uğurla da davam edəcəkdir. Sizin səfərinizin nəticəsində iki ölkə bir-birinə daha da yaxın olacaqdır.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hesab edirəm ki, nümayəndə heyətimizin Azərbaycana səfəri uğurla başlanır. Bu səfər iştirakımızla imzalanmış çoxsaylı sazişlərlə çox yaxşı şəkildə dolğunlaşır. Danışıqlarımızdan sonra belə bir qənaətə gəlməyə əsasım var ki, bu səfər siyasi sahədə ikitərəfli münasibətlərimizin inkişafına təkan verəcəkdir. Etiraf etmək lazımdır ki, bu dialoq indiyədək rəvan aparılmamışdır. Əvvəla, iqtisadi münasibətlərimizin fəallaşdırılacağına ümid bəsləyirəm və buna əsas var. Ekspertlərimiz ölkələrimiz arasında əmtəə dövriyyəsinin vəziyyəti məsələsini müzakirə etmişlər. Demək olmaz ki, əmtəə dövriyyəsinin real vəziyyəti qənaətbəxşdir. Əmtəə dövriyyəmizi artırmağın konkret forma və metodlarından danışarkən biz, ilk növbədə, normativ bazanı nəzərdən keçirməli və lazım olarsa, ona əlavələr etməliyik. Nəqliyyat məsələlərini nəzərdən qaçırmaq olmaz, əmtəə dövriyyəsinin strukturunu konkret şəkildə tamamlamaq lazımdır.

Çox vaxt eyni mövqelərdən çıxış etdiyimiz Birləşmiş Millətlər Təşkilatından tutmuş, ölkələrimizin əlaqə saxladıqları Avropa strukturlarınadək dövlətlərimizin üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində gözəl qarşılıqlı fəaliyyət imkanı mövcuddur.

Biz regional təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etməliyik.

Ölkəmizin ATƏT-də sədrliyini yüksək qiymətləndirdiyinə görə Prezident İlham Əliyevə təşəkkür edirəm. Mən onu əmin etdim ki, Bolqarıstan bu istiqamətdə bundan sonra da fəal mövqe tutacaqdır. Həqiqətən, Bolqarıstan əvvəllər bu təşkilatda sədrlik edən bütün ölkələrdən fərqlənməyə, xüsusən bu konkret problem barəsində fərqlənməyə çalışır. Bu fəallıq təkcə xarici işlər nazirlərinin qarşılıqlı əlaqələrində deyil, missiyaların təsis olunmasında və digər məsələlərdə də öz ifadəsini tapmışdır. Hesab edirəm ki, biz beynəlxalq terrorizmlə mübarizə məsələsində eyni mövqedəyik. Digər tərəfdən, Bolqarıstanın və Azərbaycanın konkret nöqtələrdə - İraqda və Əfqanıstanda olması, bu münaqişələrin dini və etnik zəmində baş verməməsi faktının özü bizi müəyyən mənada yaxınlaşdırır.

* * *

Sonra prezidentlər İlham Əliyev və Georgi Pırvanov jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Prezident İlham Əliyevədir. Cənab Prezident, xahiş edirəm deyəsiniz, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi hansı mərhələdədir və Bolqarıstanın maraq göstərə biləcəyi digər neft layihələri varmı?

İLHAM ƏLİYEV: Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla tikilib istifadəyə verilməsi Azərbaycanın qarşısında duran ən önəmli məsələlərdən biridir. Bu kəmərin tikintisi yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə, onun əməyi nəticəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin adını daşıyır. Tikinti işləri çox uğurla davam edir və gələn il Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi böyük bayram kimi qeyd ediləcəkdir. Çoxlu sərmayə qoyulubdur. Ümumi sərmayənin həcmi təqribən 3 milyard dollara bərabərdir. Böyük beynəlxalq konsorsium bu işləri icra edir və hər şey vaxtında başa çatacaqdır. Beləliklə, Azərbaycan nefti dünya bazarlarına çıxarılacaqdır.

Azərbaycan qazının dünya bazarlarına, Avropaya çıxarılması üçün də çox önəmli addımlar atılır. Əminəm ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də uğurla başa çatacaq və beləliklə, Azərbaycan qazı Gürcüstana, Türkiyəyə və ondan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin illik gücü, təxminən 50 milyon tona bərabərdir. Nəzərə alsaq ki, Azərbaycanda və digər Xəzəryanı ölkələrdə neftin hasilatı kəskin surətdə artacaq, əlbəttə, gələcəkdə biz digər ixrac marşrutları haqqında ciddi fikirləşəcəyik. Bu baxımdan da Bolqarıstanla Azərbaycan arasında əməkdaşlıq çox uğurlu ola bilər.

SUAL: Mənim sualım Bolqarıstan Prezidentinədir. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmaq üçün mandatı verilmiş ATƏT-in Minsk qrupundan Azərbaycan tərəfi narazıdır. Bu narazılıq, qrupun fəaliyyətinin Azərbaycanı qane etməməsi rəsmi dairələr tərəfindən dəfələrlə bəyan edilibdir. İndiyə kimi, sanki müşahidəçi funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun fəaliyyətində ATƏT-ə Bolqarıstanın sədrlik etdiyi müddətdə ciddi irəliləyişlər əldə oluna bilərmi?

GEORGİ PIRVANOV: Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar! Qeyd etdiyim kimi, ATƏT-in sədri kimi Bolqarıstan münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin həllinə yönəldilmiş fəaliyyəti gücləndirməyi qarşısına məqsəd qoyur. Hesab edirəm ki, Minsk qrupunun fəaliyyəti həmin münaqişənin həllində vasitəçiliyin gücləndirilməsinə yönəldilməlidir. Həmçinin hesab edirəm ki, Avropa Birliyinin bu prosesə fəal qoşulması yollarını axtarmaq lazımdır. Mən bu ölkələrin prezidentləri və xarici işlər nazirləri arasında görüşləri yüksək qiymətləndirirəm. ATƏT-in sədri kimi Bolqarıstan bu məsələnin həllinə yönəldilmiş bütün formaları dəstəkləməyə hazırdır.

SUAL: Mənim sualım Azərbaycan Prezidenti İlham Əliyevədir. Siz dediniz ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin vəziyyətini araşdıracaqsınız. Bu vəziyyətin əsas səbəblərini və onun yaxşılaşdırılmasına yönəldilmiş tədbirləri konkret olaraq, göstərə bilərsinizmi? Bir də, Siz həm Bolqarıstan, həm də Azərbaycan iqtisadiyyatında neft sektoruna və digər sahələrə real sərmayə axını variantını necə görürsünüz?

* * *

İLHAM ƏLİYEV: Biz hesab edirik ki, iqtisadi əlaqələrin mövcud səviyyəsi nə Bolqarıstanı, nə də Azərbaycanı qane edir. Hökumətlərarası birgə komissiya bu məsələ ilə ciddi məşğul olur və ona tapşırıq verilmişdir ki, bu vəziyyətin səbəbləri araşdırılsın,

təhlil edilsin və konkret təkliflər irəli sürülsün. Nəzərə alsaq ki, həm Bolqarıstanda, həm də Azərbaycanda iqtisadiyyat yüksək sürətlə inkişaf edir, əlbəttə, deyə bilərik ki, bu sahədə əlaqələrin genişlənməsi üçün çox gözəl şərait vardır.

Qarşılıqlı sərmayələrin qoyulması istiqamətində də çox mühüm addımlar atıla bilər. Azərbaycanda çox gözəl sərmayə mühiti vardır. Adambaşına düşən xarici sərmayələrin həcminə görə ölkəmiz keçmiş sovet respublikaları arasında qabaqcıl yerlərdədir. Burada xarici sərmayələr çox etibarlı şəkildə qorunur və əminəm ki, Bolqarıstandan olan iş adamları da bu imkandan istifadə edəcəklər.

Mən bilirəm ki, Bolqarıstandan Azərbaycana bir qrup iş adamı gəlmişdir. Burada biznes forum keçiriləcəkdir. Ümid edirəm, yaranacaq əlaqələr imkan verəcək ki, qarşılıqlı sərmayələrin qoyulması mümkün olsun. Böyük həcmdə sərmayələrin qoyulması imkan versin ki, ölkələrimiz arasında iqtisadi əlaqələr yeni pilləyə qalxsın.

SUAL: Bolqarıstanın Prezidenti cənab Pırvanov bildirdi ki, Azərbaycan-Bolqarıstan danışıqlarında əsas müzakirə obyektlərindən biri nəqliyyat problemləri ilə bağlı olubdur. Bilmək istərdim, TRACECA proqramının perspektivləri barədə prezidentlərin mövqeyi necədir?

GEORGİ PIRVANOV: TRACECA nəqliyyat dəhlizinin inkişafı ilə bağlı artıq yeni faktlar məlumdur. Çox güman ki, bu faktlar barədə bizə bir qədər sonra məlumat verəcəklər. Məsələn, parlamentlərin imzalanmış sazişlərdə dəyişikliklər etməsi nəzərdə tutulur. Bu layihədə struktur dəyişiklikləri ilə əlaqədar ölkələrimizin öz üzərinə götürdükləri öhdəliklər mənim üçün xüsusilə vacibdir. Deməliyəm ki, nəqliyyat dəhlizinin inkişafı iqtisadi problemlərin həllində əsas məsələdir. Məsələn, energetika və nəqliyyat infrastrukturları ölkələrimizin inkişafına daha ciddi töhfədir, eyni zamanda, regionda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayırlar. Odur ki, Bolqarıstan TRACECA proqramında və enerji layihələrində fəal iştirak etməyə maraq göstərir.

Mən cənab Əliyevin diqqətini Bakı-Tbilisi-Ceyhan layihəsindən əlavə, digər uzunmüddətli layihələrə yönəltməyə cəhd göstərdim və ümidvaram ki, Azərbaycan bu ideyalara baxılmasına müsbət yanaşacaqdır. Çünki Azərbaycanda neft və qaz vardır, Avropa onları almağa, Bolqarıstan isə karbohidrogen ehtiyatlarını nəql etməyə maraq göstərir. Biz bu istiqamətdə münasibətlərin inkişafında maraqlıyıq.

BAKI BİZNES MƏRKƏZDƏ GÖRÜŞ

Bolqarıstan Prezidenti Georgi Pırvanov oktyabrın 7-də Bakı Biznes mərkəzində Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığa dair birgə komissiyanın ikinci iclasının iştirakçıları ilə görüşmüşdür.

Azərbaycan Baş nazirinin müavini ABİD ŞƏRİFOV görüşü açaraq demişdir: "Bolqarıstan Prezidentini ölkəmizdə bir daha salamlayıram. Sizi Azərbaycanda görməyimizə çox şadıq və bu görüşdə iştirak etmək üçün vaxt tapdığınıza görə sağ olun. Sizə məlumat verdiyimiz kimi, dünən Azərbaycan-Bolqarıstan komissiyasının birgə iclası keçirilmişdir. Doğrusu, hələlik iqtisadi münasibətlərlə öyünməli bir şey yoxdur. Bu gün qeyd olunduğu kimi, biz gələcək haqqında düşünməliyik. Bizim böyük planlarımız var. Gələcək münasibətlərimizi inkişaf etdirmək üçün görəcəyimiz işlər barədə ümid və inam-

la məlumat verə bilərik. Çox hörmətli Prezidentimiz də bu barədə Sizə danışmışdır. Bunun üçün Azərbaycanda bütün imkanlar var.

Sonra görüşdə iqtisadi inkişaf naziri FƏRHAD ƏLİYEV çıxış edərək dedi:

- Bolqarıstan Respublikasının Prezidenti çox hörmətli cənab Georgi Pırvanov!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Avropa ölkələri ilə hərtərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycan üçün öncül istiqamətlərdən biridir. Bu mənada, Bolqarıstanla müxtəlif sahələrdə münasibətlərin inkişafı da ölkəmiz üçün maraq doğurur.

İkitərəfli münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olan qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlıq əsasında qurulur.

Azərbaycanda ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış sosial-iqtisadi inkişaf strategiyası həyata keçirilir. Keyfiyyətcə yeni bazar iqtisadi münasibətlərinin yaradılması, mülkiyyət hüququnun təminatı, mülkiyyətin toxunulmazlığı prinsipinə riayət olunması, azad rəqabət şəraitinin yaradılması və bununla makroiqtisadi sabitliyə, ÜDM-in artımına, inflyasiyanın idarə edilən səviyyədə saxlanmasına nail olunması aparılan iqtisadi islahatların nəticəsidir.

Bu gün burada Azərbaycanın və Bolqarıstanın işgüzar dairələrinin nümayəndələri geniş təmsil edilmişlər. Azərbaycanda biznesin inkişafı üçün şəraitin yaradılması və sərmayə mühitinin yaxşılaşdırılması sahəsində aparılan islahatlar haqqında məlumat almaq qonaqlarımız üçün də maraqlı olacaqdır.

İqtisadi islahatların indiki mərhələsində qarşımızda duran vəzifələrin həlli üçün ölkəmizdə sahibkarlığın inkişafını sürətləndirmək, bu sektorun rolunu gücləndirmək və sosial-iqtisadi problemləri həll etmək, buna kömək göstərmək və ölkənin regionlarında sahibkarlığın mövcud potensialını işə salmaq lazımdır.

Təcili həllini gözləyən problemlərin nəzərdən keçirilməsi, sahibkarlarla dövlət orqanları arasında birbaşa dialoq yaradılması, habelə sahibkarlığa dövlət yardımının əsas istiqamətlərinin müəyyənləşdirilməsi məqsədi ilə Prezident Heydər Əliyev hələ 2002-ci ildə yerli və xarici sahibkarlarla görüşlər keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq, bir sıra mühüm fərmanlar imzalanmışdır. Həmin meyil bu gün də davam etdirilir.

Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ilin fevralında sahibkarlarla görüşündə onları maraqlandıran bir çox məsələlər tam qarşılıqlı anlaşma və açıqlıq şəraitində müzakirə olunmuşdur. Sahibkarlar görüşün yekunlarını həm biznes mühitinin yaxşılaşmasında, həm də inkişaf üçün yeni imkanlar açılmasında əyani surətdə hiss etmişlər.

Misal üçün, sahibkarların dövlət tərəfindən dəstəklənməsi və maliyyə yardımı sistemi, texniki yardım, informasiya xidmətləri göstərilməsi, məsləhətlər verilməsi üzrə struktur yaradılmışdır. Bununla yanaşı, sahibkarlığın inkişafı və dəstəklənməsi üçün müvafiq qurumlar da təsis olunmuşdur. Bu işin və sərmayələrin qorunması və təşviqi üzrə lazımi normativ-hüquqi baza yaradılması nəticəsində Azərbaycan adambaşına düşən xarici sərmayələrin həcminə görə MDB ölkələri arasında liderlərdən biri olmuşdur.

Deyilənlərdən göründüyü kimi, ölkələrimizin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsi üçün bütün lazımi şərait yaradılmışdır. Bolqarıstanla Azərbaycan arasında gələcək əməkdaşlıq aşağıdakı istiqamətlərdə davam etdirilə bilər: yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa, kiçik və orta sahibkarlığın inkişafına, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair proqramların həyata keçirilməsində Bolqarıstanın dövlət və özəl strukturlarının iştirakı; Azərbaycan müəssisələrinin özəlləşdirilməsində Bolqarıstan şirkətlərinin iştirakı; maşınqayırma, qara və əlvan metallurgiya, kimya sənayesi, yüngül sənaye, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində Azərbaycan sahibkarları ilə müştərək biznes yaradılması; müştərək müəssisələr yaradılması, turizm obyektlərinin tikilməsi və yenidən qurulması. Təbii ki, bundan ötrü müqavilə-hüquq bazasını genişləndirmək lazımdır.

* * *

Sonra görüşdə Bolqarıstan Baş nazirinin müavini, nəqliyyat və kommunikasiyalar naziri NİKOLAY VASİLYEV çıxış etdi. O dedi:

- Çox hörmətli Prezident!

Xanımlar və cənablar!

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Georgi Pırvanov Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında Birgə bəyannamə imzaladılar.

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının hökuməti ilə Bolqarıstan Respublikasının hökuməti arasında səhiyyə və tibb elmi sahəsində, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında, ticarət gəmiçiliyi haqqında, beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında sazişlər də imzalandı.

Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə müştərək komissiyanın ikinci iclasında bir sıra mühüm məsələlər müzakirə edildi və konkret qərarlar qəbul olundu. Tərəflər ticarət, sənaye, sərmayələr, kiçik və orta biznes və iqtisadiyyatın digər sahələrində, habelə təhsil, turizm sahəsində əməkdaşlığın müxtəlif cəhətlərini müzakirə etdilər.

Lakin statistika sahəsində problemlər var. Bolqarıstan mənbələrinin məlumatına görə, ötən il Azərbaycan mallarının Bolqarıstana ixracı cəmi bir neçə on min dollar olmuşdur. Azərbaycan tərəfinin məlumatına görə isə, bu rəqəm onlarca milyon dollara bərabərdir. Odur ki, biz bu problemləri birlikdə həll etməliyik.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ

- Hörmətli baş nazir müavinləri, nazirlər, xanımlar və cənablar!

Şadam ki, bu səfər çərçivəsində iki ölkənin biznes nümayəndələri ilə görüşmək imkanı əldə etmişəm. Mən bilirəm ki, siz iş adamlarısınız və buna görə də ümumi məsələlərdən danışıb vaxtınızı almayacağam. Mən sizə əməli tövsiyələr vermək niyyətində də

deyiləm, çünki iqtisadi vəziyyətin xüsusiyyətləri ilə məhz siz yaxşı tanışsınız. Belə olan halda, Bolqarıstan Prezidentinin bu görüşə gəlməsinin mənası nədədir?

Mənim üçün mühüm olan budur ki, sizin dəqiq bildiyiniz kimi, Prezident və dövlət təsisatları ölkələrimizin biznesini dəstəkləyirlər, mən bunu Bolqarıstanın adından deyirəm. Bu isə sərbəst bazar iqtisadiyyatının qaydalarına zidd deyildir. Lakin münasibətlərimizin biznes sahəsində sürətini artırması üçün dəstək lazımdır, axı burada iştirak edən dövlət nümayəndələrinin real və fəal müdaxiləsi olmadan bu məqsədə çatmaq çox çətindir. Sizə yaxşı məlum olan bir faktı xatırlatmaq istəyirəm. Prezident İlham Əliyevlə baxışlarımızda oxşar məqamlar çoxdur, lakin onlardan biri xüsusilə vacibdir. Bu, siyasətin, diplomatiyanın iqtisadiləşdirilməsi barədə tezisdir. Mən inanıram ki, biznesmenlər bundan iki dövlətin başçılarının dəstəyi kimi istifadə edəcəklər.

Eyni zamanda hesab edirəm ki, belə forumların mühümlüyü həm də onların intensiv informasiya mübadiləsinə kömək etməsindədir. Çünki etiraf etmək lazımdır ki, biz bir-birimizi siyasi, mənəvi və iqtisadi cəhətdən bir o qədər yaxşı tanımırıq.

Bu da çox vacib şərtdir ki, bugünkü görüşlərimiz zamanı qarşılıqlı öhdəliklərlə yanaşı, həm də ölkələrimizdəki biznes mühitlərini dəqiqləşdirmək üçün vacib olan informasiyalar da səslənmişdir. Bu səfərimdə Azərbaycanın iqtisadi inkişafının mənim üçün yeni olan bəzi amilləri ilə, məsələn, ölkədə ÜDM-in artması ilə tanış oldum. Xarici sərmayələrin dəstəklənməsi və təşviqi ilə bağlı informasiya da çox mühüm idi. Biz Bolqarıstanda sərmayələrə münasibətdə belə siyasətlə tam mənada öyünə bilərik.

Hörmətli xanımlar və cənablar, lakin bu mövqedən başlayaraq və sonra bir çox informasiya mərhələləri var və bu yolu biz əl-ələ verib keçməliyik. Bu mənada mən hökumətlərarası komissiyanın işini nəinki alqışlayır və dəstəkləyirəm, həm də öhdəliklərin yerinə yetirilməsinə, habelə informasiya axını mübadiləsinə nəzarət edəcək əlaqələndirmə vəsiləsinin yaradılması haqqında onun qərarını alqışlayıram.

Zənnimcə, biz təkcə əmtəə mübadiləsi məsələləri ilə məşğul olmamalıyıq, qarşılıqlı sərmayələr, habelə birgə müəssisələr yaradılması məsələlərini gündəliyə daxil etmək pis olmazdı. Daha iri infrastruktur layihələrindən söhbət getdiyi halda biznes bizi dəstəkləyə bilər. Azərbaycan kimi, Bolqarıstan da bu layihələrin tez və səylə həyata keçirilməsində eyni dərəcədə maraqlıdır. Biz bu layihələrin gerçəkləşdirilməsində mühüm amil olmalıyıq.

İnformasiyanın genişləndirilməsindən danışarkən sizin diqqətinizi ona cəlb etmək istərdim ki, burada, bu salonda iqtisadiyyat nazirinin müavini cənab Jarcinipulov əyləşmişdir. İstərdim təklif edim ki, birgə komissiyanın növbəti iclasını Bolqarıstanın Qara dəniz sahillərində keçirək. Əminəm ki, Prezident İlham Əliyev də bu ideyanın həyata keçirilməsinə maraq göstərəcək və bu, həmin ideyanın reallaşdırılmasını tamamilə başqa səviyyəyə qaldırardı.

Xanımlar və cənablar, bir daha demək istəyirəm ki, bu forum zamanı hər hansı konkret ideya və təkliflərin yaranması məni sevindirərdi. Öz növbəmdə, sizi əmin etmək istəyirəm ki, mən və mənim administrasiyam onların heç olmasa, bir hissəsinin həyata keçirilməsinə şad olardıq.

Sizə təşəkkürümü bildirir və uğurlar arzulayıram.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

Oktyabrın 7-də Bakı Slavyan Universitetində Bolqarıstan Prezidenti Georgi Pırvanova BSU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi olmuşdur.

Bolqarıstan Prezidentini universitetdə hərarətlə qarşıladılar. Tələbələr qonağa gül dəstəsi təqdim etdilər.

Prezident Georgi Pırvanovun və onu müşayiət edən nümayəndə heyətinin iştirakı ilə bu ali təhsil ocağında bolqar dili və mədəniyyəti mərkəzinin açılışı oldu. Universitetin rektoru professor Kamal Abdullayev və Prezident Georgi Pırvanov mərkəzin rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra Bolqarıstanın dövlət başçısı və nümayəndə heyətinin üzvləri mərkəzdə toplanmış bolqar ədəbiyyatı nümunələrinə, bu ölkənin həyatının müxtəlif sahələrini əks etdirən fotoşəkillərdən ibarət guşəyə baxdılar.

Bolqarıstan Prezidentinin adından mərkəzə xeyli dərslik və tədris proqramları, müxtəlif ədəbiyyat təqdim edildi.

Prezident Georgi Pırvanov universitetin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Mən çox şadam ki, bolqar dili və mədəniyyəti mərkəzinin açılışında iştirak etmişəm. İnanıram ki, belə mərkəzin açılması Azərbaycan və Bolqarıstan mədəni əlaqələrinin inkişafına böyük təkan verəcəkdir. Universitetin rəhbərliyinə səmimi minnətdarlığımı bildirirəm.

Georgi Pırvanov,

Bolqarıstan Prezidenti.

7 oktyabr 2004-cü il."

Sonra universitetin akt salonunda təntənəli mərasim keçirildi. Tələbə xorunun ifasında Azərbaycanın və Bolqarıstanın dövlət himnləri səsləndi.

Mərasimi Universitetin rektoru professor Kamal Abdullayev açdı.

BAKI SLAVYAN UNİVERSİTETİNİN REKTORU PROFESSOR KAMAL ABDULLAYEVİN ÇIXIŞI

- Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, həmkarlar və tələbələr!

Hörmətli xanımlar və cənablar!

İcazənizlə, Bolqarıstan Respublikasının Prezidenti möhtərəm cənab Georgi Pırvanova Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimini açıq elan edim.

Sizə böyük məmnuniyyətlə bildirirəm ki, Bakı Slavyan Universiteti Elmi şurasının 2004-cü il 29 sentyabr tarixli geniş iclası Bolqarıstan və Azərbaycan xalqları arasında

dostluq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsində, iki dövlət arasında əməkdaşlığın genişləndirilməsində, elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin dərinləşdirilməsində xidmətlərinə görə Bolqarıstan Respublikasının Prezidenti cənab Georgi Pırvanova yekdilliklə Bakı Slavyan Universitetinin fəxri doktoru adı verilməsini qərara almışdır.

Cənab Prezident, mən bu münasibətlə həm Sizi, həm də Bakı Slavyan Universitetinin Elmi şurasını ürəkdən təbrik edirəm.

Bugünkü görüş, şübhəsiz ki, xalqlarımız arasında uzun illərdən bəri mövcud olan səmimi dostluq münasibətlərinin, müasir Azərbaycanda və müasir Bolqarıstanda son illərdə aparılan daxili və xarici siyasətin nəticəsidir. Çox sevindiricidir ki, bu siyasət sayəsində Azərbaycan və Bolqarıstan arasında hərtərəfli əməkdaşlıq uğurla inkişaf etməkdədir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik dövlət quruculuğunun bəhrəsidir ki, müstəqil Azərbaycan bu gün dünya birliyi ölkələri ilə, regionda nüfuzlu bir dövlət olan Bolqarıstanla qarşılıqlı faydası olan əməkdaşlıq, əsil dostluq münasibətləri qurur. Bu gün biz çox şadıq ki, cənab Prezident Siz və Prezident İlham Əliyev bu münasibətlərin daha da dərinləşməsi və genişlənməsinə çalışırsınız. Sizin ölkəmizə səfərinizi biz bu dostluq münasibətlərinin yeni bir təzahürü kimi qiymətləndirir, universitetimizə gəlişinizdən şərəf duyur, Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident!

Hörmətli qonaqlar!

Bu gün artıq qürurla deyə bilərik ki, respublikamızın bir çox slavyan ölkələri, o cümlədən Bolqarıstanla əlaqələrinin inkişafında Bakı Slavyan Universiteti faydalı rol oynayır. Prezident Heydər Əliyevin Fərmanı ilə 2000-ci ildə, 50 illik tarixi olan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılmış Bakı Slavyan Universiteti nadir ixtisaslar üzrə, o cümlədən bolqarşünaslıq üzrə kadr hazırlayan, geniş beynəlxalq əlaqələri olan nüfuzlu təhsil müəssisəsi kimi bu gün bütün regionda tanınır.

Onu da deyim ki, öyrəndiyimiz, tədqiq etdiyimiz ölkələrin mədəniyyət-tədris mərkəzlərinin açılması da bir ənənəyə çevrilməkdədir. BSU-da rus, türk, Ukrayna, yunan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bu gün mən fərəh hissi ilə bolqar mədəniyyət mərkəzinin açılışı barədə xəbər verirəm və ikiqat xoşdur ki, cənab Prezident, bu mərkəzi məhz Siz açdınız.

Cənab Prezident, diqqətinizə çatdırmaq istərdim ki, bolqar dili və ədəbiyyatını, Bolqarıstanın tarixini, ictimai-fəlsəfi fikir tarixini, bolqar mədəniyyətini özündə ehtiva edən bolqarşünaslıq ixtisası universitetimizdə layiqli yer tutur. Bu ixtisas üzrə 34 tələbə bakalavr, 6 tələbə isə magist təhsili alır.

Biz bolqar mədəniyyəti, ədəbiyyatı və incəsənətini təkcə BSU-da deyil, respublika miqyasında da ciddi təbliğ edirik. Universitetimizin əməkdaşları və tələbələri tərəfindən bolqar dilindən ədəbi-publisistik əsərlər tərcümə və çap edilir, təhsil ocağımızda bolqar mədəniyyət günləri keçirilir, bolqarşünas tələbələrin elmi və özfəaliyyət dərnəkləri fəaliyyət göstərir. Bu yaxınlarda "Dəyişən dünyada Bolqarıstanın yeri" adlı çox maraqlı tələbə konfransı keçirilmiş, məruzələr çap olunmuşdur.

Cənab Prezident!

Universitetimiz Bolqarıstanın elm və təhsil müəssisələri ilə də sıx əməkdaşlığa çalışır. Belə ki, Müqəddəs Kliment Oxridski adına Sofiya, Yepiskop Konstantin Preslavski adına Şumen universitetləri ilə əməkdaşlıq haqqında müqavilələr imzalamışıq. Tələbə və müəllimlərimiz imkan düşdükcə, həmin ali məktəblərdə ixtisaslarını artırır, yay məktəblərində olurlar. Sofiya Universiteti ilə Bakıda və Sofiyada tələbələrin idman yarışlarını keçirməyi planlaşdırırıq.

Cənab Prezident, Bolqarıstanın BSU ilə əlaqələrə xüsusi diqqət verməyə çalışan çox uzaqgörən müdafiə naziri vardır. Məhz cənab Svinarovun təşəbbüsü və dəvəti ilə bizim 3 əməkdaşımız Bolqarıstanda olmuş, müxtəlif universitetlərlə təmaslar qurmuşlar. Biz çox istərdik ki, bütün bu əlaqələr birdəfəlik olmasın, möhkəm dostluq ənənələrinə çevrilsin.

Arzular böyükdür və onların həyata keçirilməsinə yüksək səviyyədə köməyə ehtiyac duyulduğunu diqqətinizə çatdırmaq istərdim.

Bolqarıstanın bir sıra dövlət adamları, mədəniyyət və təhsil işçiləri, bolqar universitetlərinin nümayəndələri ilə sıx əməkdaşlığımız var. BSU-nun fəxri doktoru, Bolqarıstanın görkəmli dövlət və ictimai xadimi cənab Jelyu Jelev universitetimizdə 10 gün ərzində bolqar dili, mədəniyyəti, tarixi haqqında məruzələrlə çıxış etmişdir.

Sofiya Universitetinin rektoru, tanınmış yazıçı, professor Boyan Biolçev və prorektoru, professor Aleksandr Fedotov BSU-nun qonağı olmuş, tələbə və magistrantlarımız, müəllimlərimizlə maraqlı görüşlər keçirmişlər. Şumen Universitetinin əməkdaşı, doktor Elka Dobreva bir ay universitetimizdə çalışmışdır. Belə canlı təmasların bolqarşünas tələbələrin formalaşmasında böyük rolu vardır.

Deməyi özümə borc bilirəm ki, bizə bu əlaqələrin qurulmasında Bolqarıstanın Azərbaycandakı səfiri, artıq universitetimizin həqiqi dostuna çevrilmiş cənab İvan Palçev yaxından kömək edir. Sizin qarşınızda ona bir daha dərin təşəkkürümü bildirirəm.

İnanırıq ki, Sizinlə, dost və qardaş Bolqarıstan Respublikasının Prezidenti ilə bu görüş tələbə və müəllimlərimizi yeni nailiyyətlərə ruhlandıracaq, BSU ilə Bolqarıstan universitetlərinin əlaqələrinin inkişafına təkan verəcək, xalqlarımız arasında, ümumiyyətlə, regionumuzda qarşılıqlı anlaşma və əməkdaşlıq proseslərinə müsbət təsir göstərəcəkdir. Ona da inanırıq ki, cənab Prezident, Siz nüfuzlu dünya liderlərindən biri kimi, Azərbaycanın haqq səsinə dəstək verəcəksiniz, bizim ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli və qərəzsiz mövqe tutacaqsınız.

Cənab Prezident, əminəm ki, bu gün Sizin BSU-da açdığımız bolqar mədəniyyəti mərkəzi ölkələrimiz və xalqlarımız arasında yeni, möhkəm mənəvi körpü olacaqdır.

İcazə verin, universitetimizə gəlişiniz, professor-müəllim və tələbə kollektivi ilə bu görüşünüz üçün Sizə bir daha təşəkkürümü bildirim, Bakı Slavyan Universitetinin Fəxri doktoru olmağınız münasibətilə Sizi bir daha təbrik edim və fəxri doktor diplomunu və mantiyanı Sizə təqdim edim.

* * *

BSU-nun rektoru professor Kamal Abdullayev Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanova universitetin fəxri doktoru diplomunu və mantiyanı təqdim etdi. Qonağa Azərbaycan xalçası da hədiyyə olundu.

* * *

Bolqarıstan Respublikasının Prezidenti mərasimdə nitq söylədi.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN ÇIXIŞI

- Hörmətli cənab rektor!

Hörmətli nazir və Elmi şuranın üzvləri, müəllimlər və tələbələr!

Xanımlar və cənablar!

Etiraf edim ki, bu son dərəcə mehriban və çox səmimi mərasimdə olduqca həyəcanlıyam. Mən qayda-qanuna uyğun olaraq, ciddi akademik nitq hazırlamışam. Lakin, cənab rektor, icazənizlə, qayda-qanunlardan bir qədər kənara çıxacağam, çünki bu ab-hava mənim başqa ruhda danışmağımı tələb edir. Mən təkcə şəxsi səpkidə həyəcanlı deyiləm, bir az öncə bolqar dili və mədəniyyəti mərkəzinin açılması faktının özü də məni az həyəcanlandırmadı. Məni belə bir fakt da həyəcanlandırdı ki, sizin bir çox tələbələriniz bolqar dilinə və mədəniyyətinə, müasir Bolqarıstana maraq göstərirlər. Söz verirəm ki, Bolqarıstanın burada adları çəkilən təhsil ocaqları ilə əlaqələr yaradılmasına kömək edəcəyəm. Ümidvaram ki, Bolqarıstanın ali məktəblərində təcrübə keçmək gələn il də davam etdiriləcəkdir.

Təxminən iki saat bundan əvvəl mən biznes forumda oldum, orada Azərbaycan və Bolqarıstan biznesmenləri iştirak edirdilər. Yəqin etdim ki, qarşılıqlı maraq güclənir. Mən üzümü Bolqarıstan biznesinin nümayəndələrinə tutaraq, onları sizin tələbələrinizə və müəllimlərinizə Bolqarıstanda ixtisaslaşma keçmək üçün təqaüdlər təsis etməyə çağırıram. Hörmətli cənablar, bu, mədəni əməkdaşlığın elm və təhsil sahəsində və əlaqələrin inkişafı işinə, az da olsa, töhfədir. Əgər müdafiə naziri üç tələbəyə təqaüd verilməsinə imkan tapmışdırsa, cənab vitse-prezident, biz bundan heç də az olmayan imkanlar tapmağa borcluyuq.

Cənab rektor, mənə fəxri doktor adı verilməsinə görə, Elmi şuraya səmimi təşəkkürümü bildirmək istərdim. Bu, mənim üçün nəinki şəxsi xidmətlərimin, həm də son illər xalqlarımız arasında dostluğun möhkəmlənməsinə kömək etmiş bütün həmvətənlərimin xidmətlərinin qiymətləndirilməsi deməkdir.

Nitqimin əsas məğzi qlobal dünyada öz riskləri, nicat yolu və perspektivləri olan mədəniyyətlərin dialoqu mövzusu ilə bağlıdır. Bu mövzu ona görə seçilmişdir ki, son vaxtlar mədəniyyətlərin toqquşması ideyasının bir çox tərəfdarları peyda olmuşdur. Düşünürəm ki, Bolqarıstanda da, Azərbaycanda da aparılan siyasət bu qüsurlu tezisi inandırıcı şəkildə rədd edir.

Bu mövzunu seçməyimin ikinci səbəbi sizin, artıq deyə bilərəm ki, bizim universitetin xüsusiyyətidir. Bu xüsusiyyət isə ondan ibarətdir ki, burada onilliklər boyu həm müxtəlif mədəniyyətlər, həm də müxtəlif dövlətlər və sivilizasiyalar arasındakı münasibətlər öyrənilir.

Daha bir, üçüncü, şəxsi səbəb də vardır və bu da ondan ibarətdir ki, mən elmi işçi kimi, siyasətçi kimi məhz bu mövzunun öyrənilməsinə xeyli vaxt sərf etmişəm. Mən tamamilə əks tezisin tərəfdarıyam. Bu tezis də ondan ibarətdir ki, mədəniyyətlər toqquşmama-

lı, qarşılıqlı fəaliyyətdə olmalı və dialoqa girməlidirlər.

Hörmətli xanımlar və cənablar!

Mədəniyyətlərin toqquşması arzuolunmaz haldır və xalqlarımızın qarşılıqlı münasibətlərinin heç də labüd taleyi deyildir. Bizim avropalı tərəfdaşlarımız bunu çoxdan başa düşmüşlər. Belə bir fakt da təsadüfi deyil ki, Avropa Şurasının qəbul etdiyi ilk aktlardan biri 1949-cu ildə qəbul edilmiş Mədəniyyət üzrə konvensiyadır. Xatırlatmaq lazımdır ki, Lissabon qrupu deyilən qrup qlobal dünyada mədəniyyətlər arasında dözümlülüyü, dialoqu dəstəkləyəcək müqavilə hazırlamaqla məşğul olur. Hörmətli cənab rektor və Elmi şuranın üzvləri, bunu da demək istəyirəm ki, mən yaşadığımız Şərqi Avropada, şərti olaraq, mədəniyyət dəhlizləri ideyası adlandırıla biləcək ideyanın müəllifiyəm. Tezliklə biz, Mərkəzi Avropa ölkələrinin başçıları bizim ölkədə Bolqarıstanda, Varnada görüşəcək və əsrlərin dərinliklərindən gəlib bizə çatmış irsi dialoq əsasında təhlil edə və araşdıra biləcəyik. Yəqin ki, Balkan yarımadasının Avropanın bərk çəlləyi hesab edilməsi dövrü çoxdan keçmişdir. Mən qəti əminəm ki, Qafqaz regionunun münaqişələr və toqquşmalara məhkum olması ideyası da səhvdir. Regionlarımızın tarixində əməkdaşlıq, qarşılıqlı fəaliyyət və dözümlülük dövrləri daha uzun çəkmişdir. Bu mənada, mən mədəniyyət dəhlizlərindən danışarkən daha çox məlum olan faktı, yəni Böyük İpək yolunu xatırlamaya bilmərəm. Minilliklər boyu fəaliyyət göstərən bu dəhliz təkcə ticarət mübadiləsi üçün deyil, həm də texnologiyalar, incəsənətlər və mədəniyyətlər mübadiləsi üçün dəhliz olmuşdur. Sözsüz ki, Bolqarıstanın və Azərbaycanın bu yolun üzərində yerləşməsi qloballaşan dünyada bizi bir-birimizə daha da yaxınlaşdırır.

Hörmətli xanımlar və cənablar!

Bizim hamımız müxtəlif əlifbalardan istifadə edirik, müxtəlif dillərdə danışırıq, müxtəlif dinlərə etiqad edirik. Keçmişdə bu, çox zaman bir-birinə qarşı şübhələr və etimadsızlıq üçün əsas olurdu. Lakin ümidvaram ki, bundan sonra belə olmayacaqdır. Müxtəliflik qarşılıqlı maraq və mədəniyyətlərin qarşılıqlı təsiri üçün zəmin olmalıdır.

Üstəlik, bu müxtəliflik vahid Avratlantik məqsədlərə uyğun olaraq birləşmək arzularını bəyan edən Bolqarıstanın və Azərbaycanın siyasi elitalarının vahid iradəsinə də tabedir. Ümummilli lider Heydər Əliyev bir neçə il bundan əvvəl Azərbaycanı nəinki dağılmaqdan və müharibədən xilas etdi, həm də ölkənin inkişafını Avropa və Avratlantik relsləri üzərinə çıxardı. Bu gün Balkan yarımadası və Qafqaz ölkələrinin Avropa perspektivi təkcə ikitərəfli münasibətlərin inkişafı üçün zəmin deyil, həm də mədəniyyətlər, dinlər arasında dialoq, münaqişələri həll etmək və ölkələrimizin vətəndaşları üçün yaxşı həyat qurmaq imkanıdır.

Mənim üçün xüsusilə mühümdür ki, Avropa Birliyi yeni "Geniş Avropa - yeni qonşular" proqramını həyata keçirməyə başlamışdır. Biz şadıq ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı xətti ilə yeni təmas nöqtələri tapırıq. Bunu da əlavə etmək istərdim ki, coğrafi cəhətdən Qafqazın bilavasitə yaxınlığında yerləşən Bolqarıstan Respublikası NATO-nun üzvü və ATƏT-in sədri, eləcə də Avropa Birliyinin gələcək tərəfdaşı, bu regionun dövlətlərinin və xalqlarının səmimi dostu kimi, həllini tapmamış problemlərdən, o cümlədən Dağlıq Qarabağ problemindən narahatdır. Burada mən xatırlatmaq istərdim ki, indi diplomatik siyasət lazımdır, ATƏT-dən tutmuş Avropa Birliyinə və digər beynəlxalq qurumlara qədər beynəlxalq təşkilatların köməyi lazımdır.

Hörmətli xanımlar və cənablar!

Əminəm, XXI əsrdə biz hamımız çalışmalıyıq ki, cəmiyyətlərimizdə mədəni separatizm və fundamentalizm genişlənməsin. Mən siyasi xadimlərin və liderlərin rolunu bunda görürəm ki, onlar dözümlülüyə və dialoqa geniş imkanlar açsınlar. Biz dialoq, yoxsa sivilizasiyaların toqquşması dilemmasını dərk etməklə yanaşı, həm də dünyanın inkişafına və fərqlərin aradan qaldırılmasına yönəlmiş praktiki qərarların və ideyaların axtarışı ilə məşğul olmalıyıq. XXI əsrdə dünyanın formalaşmasına bizim töhfəmiz məhz bundan ibarət olacaqdır. Mən "bizim töhfəmiz" deyəndə, indiki nəslin siyasətçilərini və dövlət xadimlərini deyil, sizi, öz ölkələrinin taleyini və bütün planetin gələcəyini həll edə biləcək hörmətli gənc həmkarımı nəzərdə tuturam. Qarşılıqlı anlaşma və dözümlülük, əməkdaşlıq və etimad dünyasının qurulub-qurulmayacağı məhz sizdən asılı olacaqdır.

Diqqətinizə görə minnətdaram.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Oktyabrın 7-də Bakı Əyləncə Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını alqışlarla qarşıladılar.

Prezidentlər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Georgi Pırvanov,

Hörmətli xanım Pırvanova,

Əziz qonaqlar,

Xanımlar və cənablar!

Sizi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyur, Sizə bir daha "Xoş gəlmisiniz deyirəm!".

Hörmətli cənab Prezident, mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, onun ölkələrimiz və xalqlarımız arasında münasibətlərdə yeni mərhələ olacağına inanıram. Şübhə etmirəm ki, keçirilmiş görüşlər, aparılmış danışıqlar və imzalanmış sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Bu gün Azərbaycanla Bolqarıstan arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərik ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycanla Bolqarıstan arasında hələ sovet dövründə kifayət qədər sıx əlaqələrimiz olmuşdur. Bu onu göstərir ki, müxtəlif sahələrdə əlaqələrimizin inkişafı və genişlənməsi üçün güclü potensial vardır. Bolqarıstanda səfirlik açmaq qərarımız ikitərəfli mü-

nasibətlərimizə xüsusi əhəmiyyət verməyimizə sübutdur.

Rəhbərlik etdiyiniz geniş tərkibli nümayəndə heyəti Azərbaycan nümayəndələri ilə səmərəli danışıqlar aparır. İkitərəfli əlaqələrimizin və əməkdaşlığımızın daha da inkişafı və genişlənməsi üçün siyasi, iqtisadi, humanitar, mədəniyyət və turizm sahələrində əlavə səylərin göstərilməsini məqsədəuyğun hesab edirəm. Eyni zamanda, düşünürəm ki, Milli Məclisin Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu və hökumətlərarası birgə komissiya da ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verməlidir.

Bu gün Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan, Azərbaycan Avropa və Avratlantik strukturlara inteqrasiyası önəmli yer tutur. Ölkəmiz Avropa Şurasının üzvüdür. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Qeyd etmək istərdim ki, Azərbaycan tərəfindən NATO rəhbərliyinə "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" təqdim olunmuşdur.

Azərbaycan Avropada qonşuluq siyasətinə qoşulmuşdur. Bu strukturlarda Bolqarıstanın Azərbaycana dəstəyinə görə təşəkkürümü bildirir, gələcək əməkdaşlığa ümid edirəm.

Müstəqillik illərində Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar həyata keçirilmişdir. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

1996-cı ildən Azərbaycanda ümumi daxili məhsul orta hesabla ildə 10 faiz artmışdır. Son 7 ildə ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. 2004-cü ilin birinci rübündə iqtisadiyyatda artım 10 faiz olmuşdur. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur, növbəti üç ildə daha 10 milyard dollar sərmayə yatırılacaqdır. Azərbaycanda yoxsulluğun azaldılması, regionların inkişafı ilə bağlı hökumət proqramları təsdiq edilmişdir və onlar uğurla həyata keçirilir. Sosial məsələlərin həllində mühüm addımlar atılır.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü olmasaydı, ölkəmiz və ümumən region bu müddətdə daha böyük uğurlar əldə edə bilərdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın torpaqlarının 20 faizi işğal edilmişdir, bir milyondan artıq qaçqın və məcburi köçkün doğma yurd-yuvalarından didərgin düşmüşdür. Hazırda Bolqarıstan ATƏT-ə başçılıq edir. İnanıram ki, ATƏT-ə sədrliyi dövründə Bolqarıstan bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli, beynəlxalq hüquq normalarına uyğun həllinə öz dəstəyini verəcəkdir.

Mən tarixi Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin, TRACECA proqramının həyata keçirilməsinin həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacağına əminəm.

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasına rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram. Cənab

Prezident, bu badəni Sizin şərəfinizə, Azərbaycanla Bolqarıstan arasında səmimi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

Sağ olun.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ

- Zati-aliləri cənab Prezident,

Hörmətli xanım Əliyeva,

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, ilk növbədə, nümayəndə heyətimizə qarşı göstərilən səmimi münasibətə və xoş qəbula görə Sizə öz təşəkkürümü bildirmək istərdim.

Dəvətinizi, Bolqarıstan Respublikasına qarşı dostluq münasibətinin göstərilməsini, qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsinə hazır olmağınız kimi qəbul edirəm.

Dövlətlərarası münasibətlərin tarixi nisbətən qısadır, lakin xalqlararası əlaqələr uzaq keçmişdə də mövcud idi. Bolqarıstanda Nizami Gəncəvinin dahi yaradıcılığı ilə tanışdırlar. Onun "Leyli və Məcnun", "Xosrov və Şirin" poemaları Azərbaycan və dünya ədəbiyyatının parlaq nümunələridir. Bolqarların əksəriyyətinə məlumdur ki, XII əsrdə Marağa şəhərində astronomik cədvəlləri ilə bütün Şərqdə və Avropada şöhrət qazanan rəsədxana mövcud idi. Ən müdrik şəxslərdən biri, ən zəngin kitabxanalardan birini toplayan Şah İsmayıl Xətai idi. Onun müdrikliyi qarşısında ehtiramla diz çökmək lazımdır. Bizim qonaqpərvər dostlarımız həmin zəngin mədəniyyətlə və öz tarixi irsi ilə ləyaqətlə fəxr edirlər.

Böyük İpək yolunun ayrılmaz hissəsi olan ölkələr olaraq, Avropa-Qafqaz-Asiya dəhlizinin rcallaşdırılması vasitəsilə həmin yolun artıq yüksək keyfiyyətlə yeni əsasda bərpasında ümumi mənafelərimizi qeyd etmək istərdim.

Bu gün Bolqarıstan və Azərbaycanın coğrafi-siyasi mövqeyi çox vacibdir və bundan iki xalqın rifahı naminə birgə səylərlə istifadə etmək imkanımız var.

Azərbaycan Respublikası bizim üçün dost ölkə və vacib tərəfdaşdır. Dünyada siyasət və iqtisadiyyat sahəsində öz əhəmiyyətini artıran Azərbaycanı Qafqaz regionunda ən mühüm dövlət hesab etmək olar.

Bu gün Bolqarıstan Azərbaycan ilə Avratlantik inteqrasiyası yolunda müvəffəqiyyətlə əməkdaşlıq edir və həmin əməkdaşlıqla beynəlxalq terrorizmə, narkotrafikə və qanunsuz insan alverinə qarşı mübarizəyə qoşulurlar.

Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə ikitərəfli əməkdaşlığın fəal inkişafına marağını yenidən təsdiq etmək istərdim. Bolqarıstan Respublikasının Bakıdakı səfirliyinin açılması və bir neçə gün öncə Bolqarıstan Respublikasının fövqəladə və səlahiyyətli səfirinin təyin olunması niyyətimizin ciddiliyi və səmimiyyətinə, xalqlarımızın mədəniyyəti, tarixi və milli sərvətləri ilə daha da tam və yaxından tanış olmağa göstəriləcək səyləri iqtisadi maraqlarla uzlaşdırmaq istəyimizə sübutdur.

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Səfərimizin məzmunlu proqramı, eyni zamanda, səmərəli danışıqlar ticarət-iqtisadi və elmi-texniki sahədə əməkdaşlıq, mədəniyyət, elm və digər qarşılıqlı mübadilə sahələrində əlaqələrimizin məqsədyönlülüyünü əks etdirir.

Cənab Prezident, həmin danışıqların siyasi nəticələri bu gün Sizinlə imzalanmış Birgə Bəyannamədə öz əksini tapmışdır. Azərbaycana rəsmi səfərimizin əlaqələrimizə yeni impuls verəcəyinə və dövlətlər arasında olan dialoqu yeni mərhələyə gətirəcəyinə öz qəti inamımı yenidən ifadə etmək istərdim.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının və dost Azərbaycan xalqının rifahı və əmin-amanlığı şərəfinə, Bolqarıstan-Azərbaycan münasibətlərinin gələcəyi şərəfinə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin, hörmətli xanım Əliyevanın şərəfinə, bütün bu məclisdə iştirak edənlərin sağlığına badə qaldırmağı təklif edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı Zorka Pırvanova Heydər Əliyev Fondunda olmuşlar.

Burada Bolqarıstanın dövlət başçısına və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsindən, Azərbaycanın tərəqqisinə yönəldilmiş genişmiqyaslı layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Bolqarıstanın dövlət başçısı və xanımı Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa ölkələrinin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə xüsusi maraqla baxdılar.

Bolqarıstan Prezidenti Georgi Pırvanov Fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı: "Azərbaycanın ümummilli lideri Heydər Əliyevin işıqlı xatirəsi önündə baş əyirəm.

Biz öz ölkəsinin inkişafı, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması, Avropaya inteqrasiya istiqamətində çoxlu enerji və qüvvə sərf etmiş bu siyasətçini və dövlət xadimini həmişə minnətdarlıqla xatırlayacağıq.

İnanıram ki, Heydər Əliyevin dost Azərbaycan xalqının işıqlı gələcəyi naminə gördüyü işlər və onun ideyaları bundan sonra da layiqincə davam etdiriləcəkdir".

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov oktyabrın 8-də axşam Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİ SİYASİ BÜROSUNUN ÜZVÜ, MK KATİBLİYİNİN KATİBİ LYU YUNŞANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Prezident sarayında Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, MK Katibliyinin katibi Lyu Yunşanı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan ilə Çin arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini bildirdi. Ölkələrimizin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsindən məmnunluğunu vurğulayan Prezident İlham Əliyev Çin Xalq Respublikasının belə bir tərkibdə nümayəndə heyətinin respublikamıza gəlməsini Azərbaycan-Çin əlaqələrinin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Beynəlxalq məsələlərlə bağlı ölkələrimizin münasibətinə toxunan dövlətimizin başçısı beynəlxalq təşkilatlarda Azərbaycan ilə Çinin bir- birilərinin mövqelərini müdafiə etmələrini yüksək qiymətləndirdi. Ölkələrimizin iqtisadi sahədə də əməkdaşlığının durmadan genişləndiyini nəzərə çarpdıran Prezident İlham Əliyev Çin şirkətlərinin Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində iştirakını xüsusi qeyd etdi, iqtisadi əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı ÇXR nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.

Vaxt tapıb onları qəbul etdiyinə görə təşəkkürünü bildirən qonaq Çin Xalq Respublikasının sədri Xu Szintaonun səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Cənab Lyu Yunşan dedi ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşmək başçılıq etdiyi nümayəndə heyəti üzvlərinin böyük arzusu idi.

Azərbaycan-Çin əlaqələrinin sürətlə inkişaf etdiyini vurğulayan qonaq xalqımızın çox əməksevər, qonaqpərvər olduğunu vurğuladı və nümayəndə heyətinin səfər zamanı bunun şahidi olduğunu söylədi.

Azərbaycanda bütün sahələrdə çox böyük uğurların əldə edildiyini məmnunluqla vurğulayan qonaq bildirdi ki, bu inkişafın əsası Azərbaycanın ümummilli lideri Heydər Əli-

yev tərəfindən qoyulmuşdur və həmin siyasət Prezident İlham Əliyev tərəfindən də uğurla həyata keçirilir.

Cənab Lyu Yunşan bir daha əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN İTALİYAYA SƏFƏRİ

Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov Veneto regionunun Senatoru Cüzeppe Qaburronun dəvəti ilə oktyabrın 6-8-də İtaliyada rəsmi səfərdə olmuşdur.

Venetoya səfərdən məqsəd regionun biznes dairələri ilə görüşlər keçirərək, Azərbaycanın iqtisadi imkanları barədə məlumat vermək və yerli şirkətlərin Azərbaycana cəlb olunması istiqamətində müzakirələr aparmaq idi.

Səfər regionun ən əhəmiyyətli iqtisadi-sənaye, turizm, səhiyyə mərkəzlərindən biri olan Abano Terme (Padova əyaləti) şəhərindən başlamışdır. Şəhər bələdiyyəsində keçirilmiş tanışlıq xarakterli görüşdə Padova əyalətinin prezidenti, əyalətdə mərkəzi hökumətin nümayəndəsi, yerli hüquq mühafizə orqanlarının rəhbərləri, Abano Terme şəhərinin meri, Padova Universitetinin rektoru və digər şəxslər iştirak etmişlər.

Sonra şəhərin biznes mərkəzində Azərbaycanın təqdimatı konfransı öz işinə başlamışdır. Padova əyalətindən olan 100-ə yaxın şirkətin təmsilçilərinin toplaşdığı tədbir Padova Ticarət Palatası və İtaliyada yenicə fəaliyyətə başlamış Azərbaycan-İtaliya Ticarət Palatası tərəfindən təşkil olunmuşdur.

Konfransda çıxış edən nazir Elmar Məmmədyarov Azərbaycanın əhəmiyyətli coğrafi-siyasi və coğrafi-iqtisadi məkanda yerləşməsi, zəngin təbii sərvətlərə malik olması, makroiqtisadi səviyyədə əldə olunan uğurlar, ölkəmizdə həyata keçirilən nəhəng enerji layihələri barədə məlumat vermişdir. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədi ilə qeyri-neft sektorunun inkişafının prioritet məsələ olduğunu bildirən nazir kənd təsərrüfatı, kimya, toxuculuq-trikotaj, ərzaq məhsullarının istehsalı, turizm, dəri emalı və sair sahələrdəki geniş imkanlardan danışmışdır. O, İtaliyanın kiçik və orta şirkətlərinin bu sahələrdə böyük təcrübəsi olduğunu vurğulamış, onları Azərbaycana dəvət etmişdir. Sonra nazir tədbir iştirakçılarının suallarına cavab vermişdir.

Elmar Məmmədyarov Venesiyada Veneto regionunun xarici işlər naziri xanım Marialuisa Koppola ilə görüşmüşdür. Görüşdə Azərbaycanla Veneto arasında birbaşa əlaqələrin qurulması, Venetonun iqtisadi təcrübəsinin əhəmiyyəti barədə müzakirələr aparılmışdır.

Sonra Azərbaycanın təqdimatı ilə bağlı növbəti konfrans keçirilmişdir. Tədbirdə Veneto regionu Sənaye Konfederasiyasının, Sənayeçilər Assosiasiyasının, Ticarət Palataları Birliyinin rəhbərləri iştirak etmişlər. Nazir Elmar Məmmədyarov Azərbaycanın iqtisadi imkanları ilə bağlı məruzə etmiş, tədbir iştirakçıları ilə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparmışdır.

Oktyabrın 7-də ilk görüş Vatikan dövlətinin xarici işlər naziri Cüzeppe Loyano ilə olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, əlaqələrin inkişaf perspektivləri, Vatikan dövlətinin Bakıda diplomatik nümayəndəliyinin açılması imkanları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı müzakirələr aparılmış, eləcə də beynəlxalq məsələlər, xüsusilə də İraq və Əfqanıstandakı vəziyyət barədə fikir mübadiləsi edilmişdir.

Həmin gün Elmar Məmmədyarov İtaliyanın xarici işlər naziri Franko Frattini ilə görüşmüşdür. Tərəflər Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin yüksək səviyyədə olmasını, iqtisadi sahədə, xüsusilə qeyri-neft sektorunda əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulamışdır. 2005-ci ilin birinci rübündə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfər proqramı çərçivəsində həyata keçiriləcək görüşlər və tədbirlər barədə də müzakirələr aparılmışdır. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə nizamlanmasına, eləcə də Qafqazdakı ümumi vəziyyətə dair fikir mübadiləsi edilmişdir.

Nazirin İtaliya parlamenti Deputatlar palatasının xarici əlaqələr komissiyasının sədri Qustavo Selva ilə görüşündə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi imkanlarından söhbət getmişdir.

Elmar Məmmədyarovun İtaliya Senatının sədri Marçello Pera ilə görüşündə ölkələrimiz arasındakı münasibətlərin hazırkı vəziyyət və parlamentlərarası əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qlobal siyasi problemlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Rumıniyanın paytaxtı Buxarestə gəlmişdir.

Rumıniyada ilk rəsmi səfərdə olan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin oktyabrın 11-də Rumıniya Prezidentinin iqamətgahında - "Kortoçen" sarayında rəsmi qarşılanma mərasimi keçirilmişdir.

Sarayın üzərində Rumıniyanın və Azərbaycanın dövlət bayraqları qaldırılmış, meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rumıniya Prezidenti İon İliyesku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi sarayın önündə səmimiyyətlə qarşıladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan və Rumıniya prezidentləri arasında təkbətək görüş keçirildi.

Dövlət başçıları Azərbaycan Prezidentinin bu səfərini yüksək dəyərləndirdilər və bunun ikitərəfli əlaqələrin daha yüksək səviyyəyə qalxmasında önəmli rol oynayacağına əminliklərini ifadə etdilər.

Görüş zamanı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin perspektivləri, re-

gional əməkdaşlıq, eləcə də beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparıldı.

Prezidentlər Azərbaycan-Rumıniya əlaqələrinin daha da inkişafı üçün görülən işlərdən və hökumətlərarası komissiyanın fəaliyyətindən mənunluqlarını bildirdilər.

Dövlət başçıları regionda sabitlik və təhlükəsizlik məsələləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi etdilər.

AZƏRBAYCAN VƏ RUMİNİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti İon İliyeskunun təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Rumıniya Prezidenti ali qonağı və onu müşayiət edən şəxsləri salamlayaraq bildirdi ki, Azərbaycanla Rumıniya bir sıra regional layihələr çərçivəsində uğurla əməkdaşlıq edirlər. TRACECA layihəsi çərçivəsində əməkdaşlıq çox sürətlə inkişaf edir və işbirliyini daha da genişləndirmək üçün görülən tədbirlər davam etdirilməlidir.

Prezident İlham Əliyev rəsmi səfərə dəvət etdiyinə və göstərilən qonaqpərvərliyə görə Rumıniya rəhbərinə təşəkkür edərək dedi ki, ölkələrimiz arasında əlaqələrin yaradılması və möhkəmləndirilməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Rumıniya Prezidenti İon İliyeskunun böyük səyləri olmuşdur. İndiki səfər çərçivəsində imzalanacaq 11 sənəd siyasi, iqtisadi və humanitar sahədə ikitərəfli əlaqələrin inkişafında yeni mərhələ açacaqdır.

Azərbaycanın və Rumıniyanın Avropa strukturlarına, Avropa və Avratlantika məkanına inteqrasiyası məsələlərini geniş müzakirə edən dövlət başçıları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq, bunun regional əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəyini bildirdilər.

Tərəflər Avropa Birliyinin yeni qonşuluq siyasətini bəyəndiklərini vurğuladılar və Qafqaz ölkələrinin, xüsusilə Azərbaycanın bu siyasətə daxil olunmasını çox əlamətdar hal kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanın təbii qazının Rumıniyaya və buradan Avropanın digər ölkələrinə nəqli məsələsinə də toxunuldu, Avropa Birliyinin Qafqazdakı münaqişələrin həlli sahəsində səylərinin gücləndirilməsi zərurəti qeyd olundu.

Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında həm ikitərəfli, həm də regional əməkdaşlıq baxımından daha da yaxınlaşma prosesi gedir. Bu gün təkbətək və geniş tərkibdə aparılan danışıqlar dost ölkələr - Rumıniya və Azərbaycan üçün çox vacibdir və ikitərəfli əlaqələrdə yeni mərhələ olacaqdır.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə də fikir mübadiləsi apardılar. Prezident İlham Əliyev xatırlatdı ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi işğal olunmuş, bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları əsasında həllinin tərəfdarıdır və öz ərazi bütövlüyünün bərpa olunmasını tələb edir.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikası ilə Rumıniya arasında sənədlərin imzalanması mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti İon İliyesku Birgə bəyannamə imzaladılar.

Azərbaycan və Rumıniya hökumətləri arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Rumıniya tərəfdən Daxili İşlər Nazirliyinin dövlət katibi Marian Florian Sanutşa, Azərbaycan və Rumıniya arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişi Azərbaycan tərəfdən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Rumıniya tərəfdən gömrük naziri Tudor Panosesku, Azərbaycan Ədliyyə Nazirliyi və Rumıniya Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən ədliyyə naziri Fikrət Məmmədov, Rumıniya tərəfdən ədliyyə naziri Kristian Dyakonesku imzaladılar.

Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniyanın Əmək, Sosial Həmrəylik və Ailə İşləri Nazirliyi arasında əməkdaşlıq haqqında protokolu Azərbaycan tərəfdən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Rumıniya tərəfdən əmək, sosial həmrəylik və ailə işləri naziri Dan Mirça Popesku, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rumıniya Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən milli təhlükəsizlik naziri Eldar Mahmudov, Rumıniya tərəfdən informasiya xidmətinin rəisi Aleksandru Radu Timofte, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti ilə Radio və Azad Rumın Televiziyası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Xudiyev, Rumıniya tərəfdən Radio və Azad Rumın Televiziyasının prezidenti Valentin Nikolau imzaladılar.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rumıniya Arxiv İdarəsinin baş direktoru İon Oros Azərbaycan Respublikası Milli Arxiv idarəsi ilə Rumıniya Milli Arxivi arasında əməkdaşlıq haqqında sazişi, Azərbaycan Dövlət Neft Akademiyası və Ployeşti Neft-Qaz Universiteti arasında əməkdaşlıq haqqında protokolu ADNA-nın rektoru Siyavuş Qarayev və universitetin direktoru Vlad Ulmanu, Azərbaycan Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Elmi Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Rumıniya tərəfdən təhsil və elmi tədqiqatlar naziri Aleksandru Atanasiu, Bakı Dövlət Universiteti ilə Buxarest Lazer Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutu və Konstansa Universiteti arasında əməkdaşlıq haqqında sazişi BDU-nun rektoru Abel Məhərrəmov, Buxarest Lazer Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutunun baş direktoru İon Morjanu imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ "RUMINİYA ULDUZU" ORDENİ TƏQDİM OLUNMUŞDUR

Oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyevə "Rumıniya Ulduzu" ordeni təqdim olunmuşdur.

Bu münasibətlə keçirilən mərasimdə Rumıniya Prezidenti İon İliyeskunun Azərbaycan Prezidentinin "Rumıniya Ulduzu" ordeni ilə təltif edilməsi haqqında Fərmanı oxundu. Fərmanda deyilir: "Rumıniya-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın yüksək dövlət mükafatı "Rumıniya Ulduzu" ordeni ilə təltif olunsun".

Cənab İliyesku Prezident İlham Əliyevə "Rumıniya Ulduzu" ordenini təqdim etdi.

Sonra Rumıniya Prezidenti İon İliyeskunun "İstiqlal" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı oxundu.

Prezident İlham Əliyev "İstiqlal" ordenini dost ölkənin Prezidenti İon İliyeskuya təqdim etdi.

BİRGƏ MƏTBUAT KONFRANSI

Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti İon İliyesku oktyabrın 11-də birgə mətbuat konfransı keçirdilər.

Rumıniya və Azərbaycan prezidentləri bəyanatla çıxış etdilər.

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN BƏYANATI

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Xanımlar və cənablar!

Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlamaq bizim üçün böyük şərəfdir. Azərbaycanla Rumıniya arasında bütün sahələrdə çox yüksək səviyyədə münasibətlər yaranmışdır və əməkdaşlığımız uğurla davam edir.

Bizim aramızda keçirilmiş ikitərəfli görüş bütün sahələri əhatə etdi. Biz həm ikitərəfli münasibətlərə toxunduq, həm də daha geniş səpkidə - regionda və beynəlxalq aləmdə baş verən prosesləri nəzərdən keçirdik. Eyni zamanda, böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ötən həftə Rumıniya ilə Azərbaycan arasında yaradılmış birgə komissiya iqtisadiyyat, elm və mədəniyyət sahəsində çalışaraq yaxşı nəticələr əldə etmişdir. Danışıqlarda Rumıniya Avropa Birliyinə daxil olduqdan sonra və bu ərəfədə iqtisadi münasibətlərin inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı. Görüşlərin nəticəsi olaraq biz qərara gəldik ki, ölkələr arasında əlaqələr daha intensiv xarakter almalıdır, hökumətlərin, parlamentlərin əməkdaşlığı daha da genişləndirilməlidir. Ən vacibi isə biz xalqlarımız və iş adamları arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirdik. Qərara alındı ki, iqtisadi münasibətləri mümkün qədər, siyasi münasibətlər səviyyəsinə qaldırmaq lazımdır.

Bu gün imzaladığımız sənədlər, xüsusilə Birgə bəyannamə onu göstərir ki, xalqlarımız arasında əlaqələri genişləndirmək üçün möhkəm iradə vardır. Prezident İlham Əliyev Azərbaycanda və regionda gedən son inkişaf prosesləri barədə bizi məlumatlandırdı. Biz də eyni keçid dövrünü yaşamış ölkəyik və hələ də bu dövrü yaşayırıq. Ona görə də bu dövrün problemlərini, çətinliklərini çox yaxşı anlayırıq. Biz azərbaycanlı dostlarımızla Rumıniyanın bu sahədə qazandığı təcrübəni bölüşməyə hazırıq.

Məlum olduğu kimi, bu il Rumıniyada seçkilər keçiriləcəkdir. Biz Prezident Əliyevlə bu barədə də ətraflı müzakirələr apardıq. Rumıniya üçün çox vacib olan məqam Avropa Birliyinə daxil olmaq, danışıqlardan işə keçməkdir. Bu, bizim strateji məqsədimizdir. NATO-nun üzvü kimi Rumıniyanın yeni statusunu da müzakirə etdik. Biz Prezident İlham Əliyevlə, eyni zamanda, əməkdaşlığımızın digər imkanlarını da geniş müzakirə etdik, habelə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyəti ətrafında da söhbət apardıq. Belə qərara gəldik ki, bu təşkilatın işinin daha da fəallaşdırılması regionda sülhə, sabitliyə və inkişafa xidmət edir. Məlum olduğu kimi, artıq Konstansa ilə Batumi arasında bərə vasitəsilə kommunikasiyalar vardır. Bizim fikrimiz ondan ibarətdir ki, Azərbaycan da bu kommunikasiyalara qoşulsun və beləliklə, yük daşımalarının həcmini artıraq.

NATO-nun yeni üzvü və Avropa Birliyinin gələcək üzvü kimi Rumıniyanın əsas məqsədi ondan ibarətdir ki, Qara dəniz və Xəzər hövzəsi, Mərkəzi Asiya ölkələri arasında əlaqələr daha da gücləndirilsin. Biz Cənubi Qafqaz ölkələrinin Avropa Birliyinin yeni qonşuluq siyasətinə cəlb olunmasını alqışlayırıq. Bu, həm də Rumıniyanın məqsədidir. Başlıca məqsəd ondan ibarətdir ki, Avropa Birliyi Qara dənizə və ondan sonra Xəzər dənizinə və Şərqə doğru irəliləsin.

Biz qazın nəqli məsələləri üzrə də ətraflı müzakirələr apardıq. Bu barədə təşəbbüs ilk dəfə Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev tərəfindən qaldırılmışdı. Plana əsasən, biz qazın Azərbaycandan Rumıniyaya və buradan Avropa ölkələrinə nəqlini nəzərdə tuturuq. Əslində, bu, qədim İpək yolunun bir hissəsidir.

Biz çox istəyirik ki, Avropa Birliyi Cənubi Qafqazda daha fəal rol oynasın və buradakı dondurulmuş münaqişələrin həllində öz sözünü deyə bilsin. Rumıniya bu bölgədə olan bütün münaqişələrlə bağlı ATƏT-in təşəbbüslərini dəstəkləyir. Eyni zamanda inanırıq ki, Avropa Birliyi də bu təşəbbüsə qoşula bilər. Bundan başqa, Avropa Birliyi iqtisadi məsələlərdə də öz fəallığını artıra və islahatların uğurla həyata keçirilməsi üçün bu ölkələrə kömək edə bilər.

Bizim əsas prioritetimiz sabitliyi qoruyub saxlamaq və Avropa dəyərlərini inkişaf etdirməkdir. Azərbaycan regionda sabitliyə töhfə verə biləcək çox mühüm ölkədir. Rumıniya NATO-nun İstanbul sammitinin qərarlarını da dəstəkləyir və ilk növbədə, düşünürük ki, nəqliyyat və təhlükəsizlik sahəsində Qafqaz və Mərkəzi Asiya ölkələrinə kömək göstərmək zəruridir.

Sonda ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim bütün səylərimiz öz məntiqi nəticəsini verəcək, Azərbaycanla Rumıniya arasında münasibətlər yüksək səviyyədə inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident İon İliyesku!

Hörmətli xanımlar və cənablar!

Hörmətli cənab Prezident, ilk növbədə, məni Rumıniyaya səfərə dəvət etdiyinizə görə Sizə öz dərin təşəkkürümü bildirirəm. Mənə göstərilən qonaqpərvərliyə görə Sizə minnətdaram.

Rumıniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Rumıniya onu tanıyan ilk ölkələrdən olmuşdur. Əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addımlar bizə siyasi, eyni zamanda iqtisadi və digər sahələrdə uğurla əməkdaşlıq etməyə imkan vermişdir. Bu əlaqələr həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından yüksək səviyyəyə qalxmışdır. Əlaqələrimizin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Rumıniya Prezidenti cənab İliyeskunun müstəsna xidmətləri vardır. Əminəm ki, bu səfər də bizim ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir. Səfər çərçivəsində imzalanmış sənədlər bizə imkan verəcək ki, həm siyasi, həm də iqtisadi və mədəni sahələrdə Rumıniya və Azərbaycan daha da yaxın olsunlar, xalqlarımız bir-birini daha yaxından tanısınlar.

Bu gün səmimi danışıqlar aparıldı, ikitərəfli münasibətlər müzakirə olundu, eyni zamanda, regionda və dünyada baş verən hadisələr haqqında fikir mübadiləsi aparıldı. Rumıniya ilə Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrdir. Bizim iqtisadi potensialımız ildən-ilə güclənir və bu, əməkdaşlığımızı daha da gücləndirməyə imkan verir. Azərbaycanın iştirakı və rəhbərliyi ilə regionda həyata keçirilən nəhəng enerji, nəqliyyat layihələri həm ölkəmiz, həm region, həm də Azərbaycana dost olan digər ölkələr üçün böyük əhəmiyyətə malikdir.

Region üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında da fikir mübadiləsi aparmışıq. Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi zəbt olunmuş, bir milyon azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür.

Biz tələb edirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın və Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin.

Rumıniya kimi, Azərbaycan da Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasəti aparır. Biz NATO ilə fərdi tərəfdaşlıq planı üzərində işləyəcəyik, eyni zamanda, Avropa Birliyi də Azərbaycanı yeni qonşuluq siyasətinə daxil etmişdir. Hər iki amil Azərbaycanın gələcək inkişafı üçün çox vacibdir. Biz Avratlantika strukturlarına inteqrasiya siyasətinə bundan sonra da sadiq qalacağıq.

Mən əminəm ki, bu səfərdən sonra Rumıniya ilə Azərbaycan arasında olan münasibətlər daha da inkişaf edəcək, yeni pilləyə qalxacaqdır. Bu isə bizə imkan verəcək ki, hər iki ölkə bundan sonra da müttəfiqlər kimi öz siyasətini aparsınlar, iqtisiadi potensialını gücləndirsinlər və regional əməkdaşlıq məsələlərində gələcəkdə də fəal iştirak etsinlər.

* * *

Sonra prezidentlər İlham Əliyev və İon İliyesku jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım cənab İliyeskuyadır. Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. Bu səfər zamanı keçirdiyiniz görüşlərdə Ermənistanın Azərbaycana təcavüzü məsələsi də müzakirə olunmuşdur. Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması faktına Sizin münasibətinizi bilmək istəyirəm. Dost ölkə kimi Rumıniya bu münaqişənin həllində Azərbaycana hansı köməyi göstərə bilər?

İON İLİYESKU: Biz həmişə bu münaqişə ilə bağlı Azərbaycanın mövqeyinə hörmətlə yanaşmışıq və bu məsələdə Azərbaycanı həmişə dəstəkləmişik. Azərbaycan sülh danışıqlarına sadiqdir və danışıqlar yolu seçmişdir. Məqsəd odur ki, münaqişə beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunmalıdır. Biz həmişə beynəlxalq qurumların bu məsələnin həllində daha fəal rol oynamasının tərəfdarı olmuşuq. ATƏT artıq bu problemin həllində fəal rol oynayır və düşünürəm ki, Azərbaycanın yeni qonşuluq siyasətinə daxil edilməsindən sonra Avropa Birliyi də bu məsələdə daha fəal olacaqdır. Rumıniya isə həm NATO üzvü, həm də Avropa Birliyinin sərhədində yerləşən bir dövlət kimi bu geniş ərazidə baş verən bütün münaqişələrdən narahatdır.

SUAL: İmzalanmiş sənədlər arasında təhsil sahəsində əməkdaşlığı gücləndirmək barədə sənəd də vardır. Siz necə bilirsiniz, bundan sonra Rumıniya və Azərbaycan arasında tələbə mübadiləsi genişlənəcəkmi?

İON İLİYESKU: Bu sənədə görə nazirliklər arasında birbaşa münasibətlər yaranacaq və eyni zamanda, təhsil ocaqları arasında da əlaqələr gücləndiriləcəkdir. Əlbəttə ki, burada geniş tədbirlər nəzərdə tutulub, o cümlədən rektorların və tələbələrin görüşləri keçiriləcəkdir. Bundan başqa, tədqiqat sahəsində də geniş əməkdaşlıq aparılacaqdır.

SUAL: Mənim sualım hər iki prezidentədir. Siz həm iqtisadi, həm də siyasi sahədə əməkdaşlığın perspektivləri haqqında geniş məlumat verdiniz. Bizi maraqlandırır ki, ölkələrimiz arasında mədəni sahədə əlaqələrin perspektivləri necə olacaqdır?

İON İLİYESKU: İnanıram ki, artıq ölkələrimiz arasında mədəni sahədə müəyyən bir ənənə yaranmışdır və bu, gələcəkdə də inkişaf etdiriləcəkdir. Təhsil nazirlikləri arasında yaranmış münasibətlər və universitetlər arasında imzalanmış sənədlər də mədəniyyətin bir hissəsidir. Bu sahədə, həqiqətən, geniş imkanlar vardır və inanıram ki, gələcəkdə də bunlardan istifadə olunacaqdır. Rəssamlar, musiqiçilər bir-birilərinin ölkələrinə gedib-gələcək, mədəni tədbirlər keçiriləcəkdir. Bu sahədə imkanlar olduqca böyükdür.

İLHAM ƏLİYEV: Mən qeyd etmək istəyirəm ki, Rumıniya ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə olduğu kimi, mədəni və humanitar sahələrdə də uğurla inkişaf edir. Bizim xalqlarımız həmişə bir-birinə böyük maraqla və hörmətlə yanaşmışlar. Bu gün imzalanan sənədlər arasında iki ölkənin humanitar sahədə gələcək inkişafını təmin edən sənədlər də vardır. Mədəni sahədə əlaqələrimizi gücləndirmək üçün, əlbəttə ki, biz bundan sonra daha da çox işləməliyik. Elm və mədəniyyət xadimlərinin qarşılıqlı səfərləri bu baxımdan böyük əhəmiyyət kəsb edir. Əminəm ki, başqa sahələrdə olduğu kimi, bu sahədə də, əlaqələrimiz daha da inkişaf edəcək və güclənəcəkdir. Amma hamı üçün aydındır ki, bunu etmək üçün gərək iqtisadi, maliyyə potensialı da güclü olsun.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Oktyabrın 11-də axşam "Kortoçen" sarayında Prezident İon İliyeskunun adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur. Salona toplaşanlar prezidentləri səmimiyyətlə qarşıladılar.

Dövlət başçıları qəbulda nitq söylədilər.

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN NİTQİ

- Hörmətli cənab Prezident,

Hörmətli xanım Mehriban Əliyeva,

Əziz qonaqlar!

Burada – Rumıniyada Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi, onun hörmətli xanımı Mehriban Əliyevanı və Rumıniya ilə bütün sahələrdə dostluq və əməkdaşlıq münasibətlərini inkişaf etdirmiş Azərbaycan Respublikasının nümayəndə heyətinin bütün digər üzvlərini böyük məmnuniyyətlə salamlayıram.

Bir daha hamınız dost ölkəyə xoş gəlmisiniz. Mənim fikrimcə, Azərbaycan özünü müstəqil dövlət elan etdikdən sonra ölkələrimiz arasında münasibətlərin bu cür uğurla inkişaf etdirilməsinə əvəzsiz töhfələr vermiş böyük dövlət xadimi, vəfatına həddindən artıq kədərləndiyimiz Heydər Əliyevin rolunu xatırlamağın əsil yeri və vaxtıdır.

Hörmətli cənab Prezident, xanımlar və cənablar!

İkitərəfli münasibətlərimizin keçdiyi yola nəzər salarkən mən belə qənaətə gəlirəm ki, bizim ölkələrimiz nisbətən qısa zaman kəsiyində uzunmüddətli dostluq və əməkdaşlığın həm təməlini qoymuş, həm də bu dostluq və əməkdaşlığı möhkəmləndirə bilmişlər.

Siyasi sahədə birlikdə səmərəli işləyərək, birgə səylərlə ikitərəfli hüquqi baza yaratmışıq. Biz istəyirik ki, XXI əsrin tələblərinə cavab verə bilməkdən ötrü bu hüquqi bazanı daha da inkişaf etdirək.

Mən Azərbaycan Respublikasına 2002-ci ildəki rəsmi səfərimi böyük məmnuniyyətlə xatırlayıram. O zaman Prezident Heydər Əliyevlə apardığımız müzakirələr vaxtı siyasi və iqtisadi sahədə ikitərəfli əməkdaşlığı sürətləndirmək iradəmiz aydın oldu. Cənab Prezident İlham Əliyev, Sizin burada, Buxarestdə olmağınız Azərbaycanın xarici siyasətinin davam etdirilməsinə, xüsusilə də Rumıniya ilə münasibətləri inkişaf etdirmək istəyinə dəlalətdir.

Keçən müddət ərzində ikitərəfli münasibətlərimizin inkişaf dinamikası bizə əlaqələrimizin gələcəyi ilə bağlı nikbin olmağa haqq verir.

Bizim əsas məqsədimiz siyasi sahədə olduğu kimi, ticarət dövriyyəsi və iqtisadi əməkdaşlıq sahəsində də eyni əla nəticələrə nail olmaqdır. Mən qəti inanıram ki, Sizin Rumıniyaya səfərinizin nəticələri və bizim danışıqlarımız ikitərəfli iqtisadi əməkdaşlığımıza, ticarət əlaqələrinə də təkan verəcəkdir.

Biz azərbaycanlı biznesmenlərin Rumıniyada çalışmasını arzulayır və təşviq edirik. Eyni zamanda, Rumıniyanın biznes dairələrinə tövsiyə edirik ki, Azərbaycanın iqtisadi bazarını gələcəkdə mümkün hədəf kimi nəzərdə tutsunlar. İş adamlarının fəaliyyətini sürətləndirmək məqsədi ilə biz ümumi siyasi səylər vasitəsilə müvafiq hüquqi baza və lazımi infrastruktur yaratmağa hazırıq ki, bu da ölkələrimiz arasındakı coğrafi məsafəni qısaldar. Bu sahədəki marağımızın aydın ifadəsi kimi istərdim ki, ölkələrimiz arasındakı nəqliyyat marşrutlarının inkişaf etdirilməsi ilə bağlı səyləri qeyd edim.

Bununla biz müstəqil təşəbbüsün inkişaf edə biləcəyi bazanı təmin edirik. Məqsədimiz özəl şirkətlər arasındakı əməkdaşlıqdan başlayaraq, ölkələrimiz üçün qarşılıqlı maraq kəsb edən yeni layihələrədək bütün mühüm sahələrdə demokratik şəraitdə, azad bazar iqtisadiyyatı qanunlarına uyğun şəkildə əməkdaşlıq etməkdir.

Mən qəti inanıram ki, Rumıniya-Azərbaycan Hökumətlərarası birgə iqtisadi komissiyasının bir neçə gün əvvəl keçirilən ilk iclası bizim iqtisadi əlaqələrimizin yeni meyarlarla ölçülməsinə təkan verəcəkdir. Keçid dövründən azad bazar iqtisadiyyatınadək olan prosesin təcrübəsindən istifadə edərək, rumıniyalı biznesmenlər azərbaycanlı tərəfdaşları ilə birgə Azərbaycan Respublikasının milli maraqlarına cavab verən məqsədlərə nail olmaq işinə mühüm töhfə verə bilərlər. Bu məqsədlərə bu günlərdə ölkəmizdə həyata keçirilən İqtisadi və sosial inkişaf proqramı da daxildir.

Cənab Prezident, əziz dostlar, Rumıniya Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına sadiqliyini və yaxınlaşma səylərini diqqətlə müşahidə edir və bu səylərə hörmət bəsləyir. Biz həm də Azərbaycan Respublikasının beynəlxalq antiterror əməliyyatlarındakı fəal iştirakına və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsindəki fəaliyyətinə hörmətlə yanaşırıq. Azərbaycan hərbçilərinin dünyanın Kosovo, Əfqanıstan və İraq kimi qaynar nöqtələrindəki sülhməramlı əməliyyatlarında iştirakına rəğbətimizi bildiririk.

Avropa və Avratlantik strukturlarına inteqrasiya çətin bir prosesdir və Rumıniya onu tamamlamaq üzrədir. Rumıniya artıq NATO-nun üzvüdür və bununla biz bugünkü əzablı dünyada həddindən artıq qorxulu, gözlənilməz hallardan təhlükəsizlik sipəri ilə təmin olunuruq. Yaxın gələcəkdə, yəqin ki, 2007-ci ildə Rumıniya Avropa Birliyinin də tamhüquqlu üzvü olacaqdır.

Vaxtilə Prezident Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyinə həsr olunmuş nitqini əsil böyük dövlət xadimi kimi tamamlayaraq demişdir. Mən həmin nitqdən sitatı olduğu kimi gətirirəm: "İqtisadiyyatın sürətli inkişafını təmin etmək, ölkədə işsizliyi azaltmaq, əhalinin rifahını yüksəltmək Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına doğru atılacaq vacib addımlardır". O, sadəcə olaraq, öz ölkəsinin xarici siyasət məqsədini bir daha təsdiq edirdi ki, bu məqsəd də dünya iqtisadiyyatına inteqrasiyadır.

Rumıniya dost Azərbaycanla birgə işləməyə, təcrübəsini bölməyə hazırdır ki, ən qısa müddətdə və ən az xərclərlə inteqrasiya prosesinin bütün fazaları əhatə olunsun.

Rumıniya BMT, Avropa Şurası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir. Biz hesab edirik ki, Rumıniya və Azərbaycan birlikdə fəaliyyət göstərərək,

Şərq-Qərb nəqliyyat dəhlizindəki strateji-coğrafi mövqelərindən daha yaxşı istifadə edə, Qara dəniz hövzəsi regionunda daha mühüm rol oynaya bilərlər.

Rumıniya Cənubi Qafqazdakı və bütün MDB məkanındakı hadisələrə böyük diqqət yetirir və əmin olduğunu bildirir ki, beynəlxalq ictimaiyyətin davamlı səyləri vasitəsilə bu region tədricən sabitlik və iqtisadi əməkdaşlıq məkanına çevriləcəkdir. Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını dəstəkləyirik. Belə bir həll yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət əsasında tapıla bilər. Rumıniya tərəflərin münaqişəni həll etmək üçün razılığa gəldiyi hər hansı bir həlli dəstəkləməyə hazırdır.

Rumıniya və Azərbaycan Respublikası birlikdə fəaliyyət göstərərək, beynəlxalq aləmin məsuliyyətli üzvləri kimi, digər demokratik ölkələrlə birgə sülh və sabitlik prinsiplərini irəli çəkə bilər, əsaslı töhfələri vasitəsilə həm öz xalqlarının, həm də gələcək nəsillərin maraqları naminə münaqişə zonalarına sülh gətirərlər.

Ölkələrimiz heç bir anlaşılmazlıq olmadan aralarındakı dostluğu möhkəmləndirərək sülh, sabitlik və firavanlıq naminə fəaliyyət göstərəcəklər.

Bu fikirlərlə mən zati-alinizin şərəfinə, Rumıniya və Azərbaycan arasındakı dostluğun möhkəmlənməsi şərəfinə, xalqlarımıza daha yaxşı və təhlükəsiz gələcək şərəfinə, Sizin və hörmətli xanımınızın şərəfinə badə qaldırıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Əziz dostlar!

Rumıniya torpağında mənə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Məmnunluqla bildirmək istəyirəm ki, Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Mən iki ölkə arasında yüksək səviyyədə qarşılıqlı anlaşmanın, siyasi dialoqun, iqtisadi əməkdaşlığın, bütövlükdə, müxtəlif sahələrdə əməkdaşlığın formalaşmasına xüsusi əhəmiyyət verirəm. Ölkələrimiz arasında münasibətlərin inkişaf etməsi, möhkəmlənməsi və keyfiyyətcə yeni mərhələyə qalxması üçün səylərimizi əsirgəməyəcəyik. Bu, ölkələrimizin mənafelərinə tam uyğundur. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz bundan sonra da yeni əməkdaşlıq formaları ilə zənginləşəcəkdir.

Bu gün Azərbaycan dövləti xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu siyasəti davam etdirir. Bu baxımdan Azərbaycanın Avropaya və Avratlantik strukturlarına inteqrasiyası bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz Avropa Şurasının üzvüdür və NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində uğurlu əməkdaşlıq edir. Azərbaycan fərdi əməkdaşlıq üzrə əməliyyat planını NATO-ya təqdim edən ilk ölkələrdən biridir. Avropa Birliyi Azərbaycanı genişlənmiş Avropa və qonşuları siyasətinə daxil etmişdir. Bu strukturlarda Rumıniyanın Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürümü bildirirəm.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının işlədilməsi, TRACECA proqramı, Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu layihələrin həyata keçməsi ilə həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında yeni mərhələ başlanacaqdır. Bu istiqamətdə Rumıniya ilə əməkdaşlığımıza böyük əhəmiyyət veririk. Azərbaycan regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

BMT-nin 4 qətnaməsi, ATƏT-in qərarları icra olunmamış qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Hörmətli cənab Prezident, Siz hələ gəncliyinizdən Azərbaycanla bağlı olduğunuzu və Mingəçevir Su Elektrik Stansiyasının tikintisi zamanı ölkəmizdə çalışdığınızı həmişə məmnuniyyətlə xatırlayırsınız. Bu xatirələr bizim üçün də əzizdir. Azərbaycan Respublikası ilə Rumıniya, rumın xalqı ilə Azərbaycan xalqı arasında mehriban dostluq münasibətlərinin formalaşmasında və əməkdaşlıq münasibətlərinin inkişafında, möhkəmlənməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Sizin böyük xidmətlərinizi ayrıca qeyd etmək istəyirəm. Bu istiqamətdə yorulmaz fəaliyyətinizi nəzərə alaraq, mən Sizi Azərbaycanın ən ali mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmək haqqında qərar qəbul etmişəm. Bu münasibətlə Sizi bir daha ürəkdən təbrik edirəm. Məni Rumıniyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox məmnunam ki, səfər zamanı olduqca səmərəli görüşlər keçirildi, danışıqlar aparıldı, sənədlər imzalandı.

Bu badəni Azərbaycan və Rumıniya xalqları arasında mövcud olan və daim inkişaf edən dostluq və qardaşlıq əlaqələrinin və Rumıniyanın Prezidenti İon İliyeskunun şərəfinə qaldırıram.

RUMİNİYA SENATINDA GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 12-də Rumıniya Senatına gəldi.

Dövlətimizin başçısını Senatın binası önündə Senatın sədri Nikolae Vekeroyu və parlamentin Deputatlar palatasının sədri Valeri Dornyanu böyük hörmətlə qarşıladılar.

Sonra Azərbaycan Prezidentinin Rumıniya parlamentinin hər iki palatasının sədrləri ilə görüşü oldu.

Görüş zamanı Prezident İlham Əliyev Rumıniyaya rəsmi səfərinin çox uğurla keçdiyini qeyd edərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələ olacağını söylədi.

Hökumətlərarası komissiyanın və xüsusilə parlamentlərin fəal əməkdaşlığı da xüsusi vurğulandı. Bildirildi ki, Milli Məclisdə Rumıniya parlamenti ilə dostluq qrupu fəaliyyət göstərir və gələcəkdə parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi zəruridir.

Görüşdə Milli Məclislə Rumıniya parlamenti arasında qanun yaradıcılığı sahəsində əməkdaşlığın inkişaf etdirilməsi barədə də söhbət getdi.

Prezident İlham Əliyevə Rumıniya parlamentinin 140 illiyi münasibətilə buraxılmış xatirə medalı təqdim olundu.

PREZİDENT İLHAM ƏLİYEV RUMİNİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Rumıniyanın xarici işlər naziri Mirça Coananı qəbul etmişdir.

Görüş zamanı Azərbaycanla Rumıniya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Bildirildi ki, ölkələrimizin nümayəndələri beynəlxalq təşkilatlarda da fəal əməkdaşlıq edirlər. Bir sıra regional layihələrin həyata keçirilməsi çərçivəsində Azərbaycan və Rumıniya arasında uğurlu işbirliyi vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ PLOYEŞTİ NEFT-QAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİ VƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ADINA TƏQAÜDÜN TƏQDİMATI MƏRASİMİ

Oktyabrın 12-də Rumıniyanın məşhur Ployeşti Neft-Qaz Universitetində Azərbaycan Prezidenti İlham Əliyevə bu ali təhsil ocağının Fəxri doktoru adının verilməsi və ümummilli liderimiz Heydər Əliyevin adına təqaüdün təqdim olunması mərasimi keçirilmişdir.

Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və nümayəndə heyətinin üzvləri universitetin foyesində açılmış və ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotosərgi ilə yaxından tanış oldular. Sonra Yaqub Eyyubov və universitetin direktoru Vlad Ulmanu Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi ilə təchiz olunmuş laboratoriyanın açılış mərasimində iştirak etdilər.

Neft-qaz sistemləri üzrə müasir avadanlıq quraşdırılmış laboratoriyada tələbələrin təcrübi məşğələləri üçün əlverişli şərait var.

Rektor və tələbələr laboratoriyanın yüksək səviyyədə təchizatına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Tələbələr qarşısında çıxış edən Yaqub Eyyubov bildirdi ki, Azərbaycan Dövlət Neft Akademiyasının və Ployeşti Neft-Qaz Universitetinin gələcəkdə birgə elmi tədqiqatlar aparmaları üçün gözəl imkan yaranmışdır. O, daha sonra bildirdi ki, Prezident İlham Əliyev keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərindən biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, orada dərs demiş və elmi fəaliyyətlə məşğul olmuşdur.

Sonra Ployeşti Neft-Qaz Universitetinin akt salonunda Azərbaycan Prezidenti İlham Əliyevə bu ali təhsil ocağının Fəxri doktoru adının verilməsi və ümummilli liderimiz Heydər Əliyevin adına təqaüdün təqdim olunması münasibətilə təntənəli mərasim keçirildi.

Universitetin rektoru Vlad Ulmanu bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevə bu adın verilməsi barədə qərar Elmi şuranın oktyabrın 12-də keçirilmiş iclasında yekdillikle qəbul edilmişdir. O, Prezident İlham Əliyevin tərcümeyi-halı barədə mərasim iştirakçılarına ətraflı məlumat verdi, Fəxri doktor diplomunu və mantiyanı Azərbaycan Prezidentinə təqdim etmək üçün Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubova verdi.

Baş nazirin birinci müavini Yaqub Eyyubov mərasimdə çıxış edərək, universitetin kollektivinə təşəkkürünü bildirdi, Azərbaycanda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasından, iqtisadi islahatların həyata keçirilməsindən, Azərbaycan-Rumıniya əlaqələrinin inkişafından danışdı.

Sonra Ployeşti Neft-Qaz Universitetinin rektoru Vlad Ulmanu Heydər Əliyevin adını daşıyan ilk təqaüdün təqdimatı və təsis olunması barədə Elmi şuranın növbəti qərarını elan etdi. Bildirildi ki, Elmi şuranın 51 üzvü yekdilliklə bu təqaüdün təsis olunmasına səs vermişdir. Çox nadir hallardan biridir ki, xarici ölkənin görkəmli siyasətçisinin adına burada təqaüd təsis olunur. Bu, dahi şəxsiyyət, siyasətçi Heydər Əlyevin xidmətlərinin təsdiqinin əyani sübutudur.

Sonra universitetin təhsildə fərqlənən ən yaxşı tələbələrinə Heydər Əliyev adına ilk təqaüd təqdim olundu.

Tələbələr dahi şəxsiyyət, böyük siyasi xadim Heydər Əliyevin adını daşıyan mükafata layiq görüldüklərindən sevinc hissi keçirdiklərini və xoşbəxt olduqlarını bidirdilər.

BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞI OLMUŞDUR

Oktyabrın 12-də, Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri çərçivəsində Buxarestin mərkəzində yerləşən 8 may parkında xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün açılışı olmuşdur.

Mərasimi Rumıniya Senatının üzvü, Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop De Popa açdı.

RUMİNİYA SENATININ ÜZVÜ İOAN POP DE POPANIN ÇIXIŞI

- Rumıniya Prezidenti Zati-aliləri cənab İon İliyesku!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli Azərbaycan nümayəndə heyətinin üzvləri, əziz dostlar!

İlk öncə, Azərbaycan Prezidenti İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini bir daha salamlayır və onlara Rumıniyaya - dost ölkəyə "Xoş gəlmisiniz!" deyirəm.

Hamınızın bildiyiniz kimi, buraya toplaşmağımızın səbəbi Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət Heydər Əliyevin büstünün açılış

mərasimidir. Bu əlamətdar mərasimdə açılış nitqi ilə çıxış etməkdən çox məmnunam. Rumıniya Prezidenti İon İliyeskunun Azərbaycana rəsmi səfəri zamanı Heydər Əliyevlə ilk şəxsi görüşümə qədər bu insan haqqında çox eşitmişdim. Birincisi, uzun illər Rumıniyanın siyasi həyatında fəal iştirak edən bir senator kimi həm keçmiş sovet respublikalarının həyatında baş verənləri izləyirdim, həm də beynəlxalq aləmdə siyasi mühiti təhlil etmişəm. Daha sonra isə, Rumıniyada Azərbaycanın səfirliyi və sədri olduğum Rumıniya-Azərbaycan Cəmiyyəti fəaliyyətə başladıqdan sonra bu qeyri-adi siyasətçi haqqında daha müfəssəl və dolğun məlumat almağa başladım. Bu görkəmli şəxsiyyətin həyatını və siyasi fəaliyyətini izləyən, onunla şəxsi tanışlığı olan bir insan kimi deyə bilərəm ki, Heydər Əliyev müdrik, uzaqgörən, lazımi anlarda ən düzgün və cəsarətli qərar qəbul etmək bacarığına malik nüfuzlu dövlət xadimi və qeyri-adi insani keyfiyyətləri ilə seçilən şəxsiyyət idi. Heydər Əliyev Rumıniyanın dostu idi.

Rumıniya-Azərbaycan dostluq əlaqələrinin möhkəm təməlinin qoyulmasında və inkişafında bu insanın danılmaz xidmətləri vardır. Məhz onun sərəncamı ilə Şərqi Avropada Azərbaycanın ilk diplomatik nümayəndəliyi Rumıniyada açılmışdır. Büstün postamentində Siz "Azərbaycan xalqının ümummilli lideri" sözlərini görəcəksiniz. Ömrünü təmənnasız olaraq xalqına xidmət etməyi şərəf saydığını dəfələrlə bəyan edən bu görkəmli siyasətçiyə ümummilli lider titulu hələ sağlığında onu sevən xalqı tərəfindən verilmişdir.

Sevindirici haldır ki, Heydər Əliyevin siyasəti xalqın dəstəyi və demokratik seçkilər yolu ilə hakimiyyətə gəlmiş Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu gün də layiqincə davam etdirilir. Bu düşünülmüş siyasət nəticəsində Azərbaycan inkişaf edir, iqtisadi cəhətdən çiçəklənir, dünyanın demokratik ölkələri sırasında layiqli yerini tutur. Eyni zamanda öz xalqını, dövlətini, cənab Prezident, Sizi bizə yaxından tanıtdıran və sevdirən Azərbaycanın Rumıniyadakı səfirliyinin peşəkar və örnək olacaq səmərəli fəaliyyəti münasibətilə Sizi təbrik edirəm.

Zati-aliləri cənab Prezidentlər!

Əziz dostlar, Buxarest şəhərinin mərkəzindəki gözəl parkların birində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün açılışı, eyni zamanda, Rumıniyadakı azərbaycanlıların və biz rumınların böyük sevincidir. Tam əminəm ki, ölkəmizdəki türk toplumlarının nümayəndələri də bu sevinci bizimlə bölüşürlər.

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN NİTQİ

- Hörmətli Azərbaycan Prezidenti İlham Əliyev və xanım Əliyeva!

Hörmətli qonaqlar!

Bugünkü tədbir cənab İlham Əliyevin Rumıniyaya səfərinin tərkib hissəsidir. Bu, bir daha bizim aramızdakı münasibətləri nümayiş etdirir.

Heydər Əliyev yeni, müstəqil Azərbaycan dövlətinin memarı idi. O, ilk növbədə, xalqını sevən, onun maraqlarını müdafiə edən və Azərbaycanı yeni dövlət statusuna qovuşduran vətənpərvər insan idi. Eyni zamanda, o, Azərbaycan dövlətinin uğurlarını təmin etmişdir. Heydər Əliyev TRACECA layihəsinin də müəllifidir. Bu, elə bir layihədir ki,

Avropa və Asiya ölkələrini birləşdirən Böyük İpək yolunu təkrar edir.

Mən Heydər Əliyevlə 1993-cü ildə tanış olmuşam. Onda Azərbaycan xeyli çətin vəziyyətdə idi. Çeçenistanda baş verən hadisələr, Qroznıdan keçən yolların bağlanması dünyaya əsas çıxışının Rusiyadan olduğu Azərbaycan üçün böyük problemlər yaratmışdı. O zaman münaqişə zonalarından kənarda olan bir yolun seçilməsi ideyası meydana çıxdı. Bu məsələ həm də regional və qlobal xarakter daşıyırdı.

Bizim ətrafımızda cəmi üç regionda neft və qaz ehtiyatları vardır. Birinci zona ənənəvi Yaxın Şərq regionudur ki, buradan neftin və qazın nəqli Aralıq dənizi vasitəsilə həyata keçirilir. Bu yol vaxtilə Britaniya və Fransa tərəfindən yaradılmışdı, sonradan isə ABŞ şirkətlərinin nəzarətinə keçmişdir. Başqa bir zona isə İkinci Dünya müharibəsindən sonra meydana çıxmış Rusiyanın Sibirdəki yataqlarıdır. Buradan çıxarılan neft isə Şimal marşrutu ilə Belarus və Polşa ərazisindən nəql olunurdu.

Artıq üçüncü bir zona da yaranmışdır ki, bu da Bakı zonasıdır. Lakin Xəzər dənizi hövzəsinin neft ehtiyatları ilə zəngin olmasına baxmayaraq, onların nəqli üzrə marşrut yox idi və bu ölkələr Şimal dəhlizindən istifadə etməyə məcbur idilər. Ona görə də Xəzər neftinin dünyaya və Avropaya birbaşa çıxışını təmin etmək üçün yeni marşrut yaradılması zərurəti meydana gəldi. Bunun üçün Gürcüstan, Qara dəniz limanları və Rumıniyanın dəmir yolu xətti bu marşruta daxil edilə bilərdi. Bu, eyni zamanda həm də Avropa və Asiya arasında mövcud olmuş qədim İpək yolunun bərpası demək idi. Bu ideya Prezident Heydər Əliyev tərəfindən irəli sürüldü və sonradan TRACECA proqramı şəklində meydana çıxdı. Rumıniya da belə bir layihənin meydana çıxmasını dəstəklədi və onun daha geniş miqyasda həyata keçirilməsində səylərini əsirgəmədi. Hələ ki, siyasətçilər tərəfindən meydana atılan bir çox problemlər mövcuddur. Layihə hələ də qüvvəsində qalır və onunla maraqlanan dövlətlərin diqqət mərkəzindədir. Bu layihə Gürcüstan vasitəsilə bizim ölkələrimizi birləşdirir və güman edirəm ki, gələcəkdə daha da konkretləşdiriləcəkdir. Bu ideyadan çıxış edərək, ikitərəfli əlaqələr haqqında da danışa bilərdim. Yəni, Prezident Heydər Əliyevin Buxarestə və mənim Bakıya səfərlərim haqqında geniş danışmaq olardı. Budur, artıq Prezident İlham Əliyev də Buxarestdə səfərdədir və bu, bizim ikitərəfli münasibətlərimizin gələcək təməli rolunu oynayacaqdır.

Bu gün büstün açılışı mərasimində iştirak edərək, mən öz hörmətimi ifadə etmək istəyirəm. Mən bundan çox məmnunam.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident İon İliyesku!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Rumıniya torpağında, Rumıniyanın paytaxtı olan Buxarest şəhərində büstünün ucaldılmasına görə bütün rumın xalqına və ilk növbədə, Prezident cənab İliyeskuya öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə

xidmət etmişdir. O, Azərbaycanda hakimiyyətə gələndə ölkəmiz çox çətin dövr yaşayırdı. Ölkə siyasi cəhətdən təcrid olunmuş vəziyyətdə idi, iqtisadiyyat tamamilə dağılmışdı və total böhran yaşanırdı. Ermənistanın Azərbaycana təcavüzü davam edirdi və torpaqlarımız işğal altına düşürdü. Məhz Heydər Əliyevin cəsarəti, qətiyyəti, uzaqgörənliyi nəticəsində ölkəmiz bu çətin vəziyyətdən çıxa bildi və bu gün Azərbaycan çox dinamik şəkildə inkişaf edir. Onun səyləri nəticəsində müharibə dayandırıldı, ölkədə vətəndaş müharibəsinə son qoyuldu, sülh və əmin-amanlıq yarandı. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bildi, Avropa, Avratlantik strukturlarına inteqrasiya etməyə başladı.

Bu gün Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə regionda irimiqyaslı layihələr həyata keçirilir. Bu layihələrin təşəbbüskarı da məhz Prezident Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə başlanmış iqtisadi islahatlar ölkəmizi iqtisadi cəhətdən gücləndirdi və deyə bilərəm ki, son səkkiz il ərzində Azərbaycanın ümumi daxili məhsulu yüz faiz artmışdır. Bu meyillər indi də davam edir.

Heydər Əliyevin neft strategiyası nəticəsində ölkəmizə milyardlarla dollar sərmayə qoyulubdur və bu gün adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Aparılmış iqtisadi islahatlar bizə imkan verdi ki, ölkədə mövcud olan çoxlu sosial problemlər öz həllini tapsın. Heydər Əliyevin təşəbbüsü ilə, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlər üçün yeni layihələr həyata keçirilməyə başlandı. Onlar üçün yeni qəsəbələr, şəhərciklər salındı. Yenə də qeyd etməliyəm ki, bu gün bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də siyasət davam etdirilir və biz bundan sonra da bu məsələ ilə ciddi məşğul olacağıq.

Bir sözlə, bütün sahələrdə - beynəlxalq, siyasi, iqtisadi, sosial, regional istiqamətlərdə Heydər Əliyevin siyasi xətti ölkəmizi yeni mərhələyə gətirib çıxarmış, Azərbaycanı möhkəmləndirmiş, beynəlxalq aləmdə onun mövqelərini gücləndirmiş və iqtisadi potensialını artırmışdır. Bu gün Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Biz bu gün də ölkəmizdə bu siyasəti davam etdiririk.

Heydər Əliyevin Rumıniyaya və rumın xalqına xüsusi münasibəti var idi. Burada qeyd olundu ki, Azərbaycanın Şərqi Avropada ilk səfirliyi Rumıniyada açılmışdır. Prezident Heydər Əliyevin Rumıniyaya və Prezident İon İliyeskunun Azərbaycana etdikləri səfərlər iki ölkə arasında olan əlaqələri daha da gücləndirmişdir. Bu gün ölkələrimiz arasında çox gözəl münasibətlər mövcuddur. Onu da demək istəyirəm ki, Prezident Heydər Əliyevlə Prezident İon İliyeskunu çox güclü dostluq telləri bağlayırdı. Bu iki lider həm öz ölkələri üçün, həm də regionun inkişafı üçün çox böyük işlər görmüşlər. Onların öz ölkələrinin inkişafında müstəsna xidmətləri vardır.

Ölkəmizdə bütün başqa sahələrdə olduğu kimi, Rumıniya-Azərbaycan münasibətlərində də bu gözəl ənənələr yaşayır, Heydər Əliyev siyasəti davam etdirilir. Mənim Rumıniyaya səfərim buna gözəl sübutdur. Fürsətdən istifadə edərək, mənə və nümayəndə heyətimizə göstərilmiş gözəl münasibətə, qonaqpərvərliyə görə hörmətli cənab Prezident İon İliyeskuya bir daha öz təşəkkürümü bildirirəm.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün ucaldılması münasibətilə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Büstün qoyulmasında iştirak etmiş

bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Heydər Əliyevin xatirəsini əziz tutduqları üçün rumın xalqına, Prezident İon İliyeskuya bir daha həm Azərbaycan Respublikasının Prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi öz təşəkkürümü bildirirəm.

BUXARESTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİ

Oktyabrın 12-də Rumıniyanın paytaxtı Buxarestdə Azərbaycan Respublikası səfirliyi binasının təntənəli açılışı olmuşdur.

Açılış mərasiminə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi böyük hərarətlə və ehtiramla qarşıladılar.

Mərasimi ölkəmizin Rumıniyadakı səfiri Eldar Həsənov açdı.

AZƏRBAYCANIN RUMİNİYADAKI SƏFİRİ ELDAR HƏSƏNOVUN ÇIXIŞI

- Möhtərəm cənab Prezident,

Hörmətli qonaqlar,

Əziz dostlar!

Bu gün Azərbaycan–Rumıniya dostluq, əməkdaşlıq münasibətlərinin tarixində ən əlamətdar günlərdən biridir. Əvvəla, ona görə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Rumıniyaya rəsmi səfəri ilə iki dost ölkə arasında əlaqələrin inkişafında yeni bir mərhələ başlanır. Səfər zamanı keçirilən görüşlər, aparılan danışıqlar, imzalanan sənədlər, görülən digər işlər ikitərəfli əməkdaşlığımızın daha da möhkəmlənməsində öz müsbət rolunu oynayacaqdır.

Digər tərəfdən, bu gün həm də dost ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin bütün sahələrdə dərinləşməsində böyük töhfələri və xidmətləri olan Rumıniyadakı Azərbaycan diasporunun, azərbaycansevərlər toplumunun böyük sevincli günüdür.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin mart ayında Şərqi Avropada ilk dəfə məhz Rumıniyada açılan Azərbaycan Respublikasının səfirliyinin fəaliyyəti haqqında məlumat verməklə vaxtınızı almaq istəməzdim. Yalnız onu deyə bilərəm ki, ötən müddət ərzində ümummilli liderimiz tərəfindən qarşımıza qoyulan bütün vəzifələrin öhdəsindən gəlməyə çalışmışıq. Eyni zamanda, cari ilin iyul ayında Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları ilə keçirilən müşavirədə Prezident cənab İlham Əliyev tərəfindən verilən tapşırıq və tövsiyələr fəaliyyətimiz üçün əsas götürülmüşdür.

İndiki səfər zamanı dövlət müstəqilliyimizi ikinci tanıyan ölkə kimi Rumıniyanın bu gün də Azərbaycanın ən yaxın dostları sırasında durduğunun bir daha şahidi olduq. Fürsətdən istifadə edərək, səfirliyimizə göstərdiyi dəstəyə, səmimi və xoş münasibətə görə Rumıniya dövlətinə və hökumətinə öz minnətdarlığımı bildirmək istərdim.

Çox sevindirici haldır ki, bugünkü görüşümüz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa göstərişi ilə ölkəmizin Rumıniyadakı səfirliyi üçün bu ya-

xınlarda alınan yeni binasında keçirilir. Hörmətli cənab Prezident, Sizin bu qərarınız müstəqil Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinə dövlət qayğısı və xarici siyasətimizin həyata keçirilməsinə dəstək kimi yüksək qiymətləndirilməlidir. Əmin ola bilərsiniz ki, belə qayğılı münasibətin məsuliyyətini dərk edən peşəkar kollektivimiz dövlət və milli maraqlarımıza əsaslanan vəzifələrin gələcəkdə daha uğurla həyata keçirilməsində səylərini əsirgəməyəcəkdir. Fürsətdən istifadə edərək, səfirliyimizin bütün kollektivi adından Sizə dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident,

Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Rumıniya Prezidenti İon İliyesku tərəfindən qoyulan və bütün sahələrdə dinamik inkişaf edən dostluq, əməkdaşlıq münasibətlərinin genişləndirilməsi üçün səfirliyimiz fəaliyyətini daha böyük əzmlə davam etdirəcəkdir. Əminəm ki, Sizin Rumıniyaya uğurlu rəsmi səfəriniz fəaliyyətinizə stimul olacaq və iki ölkə arasında münasibətlərin inkişafına güclü təkan verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılır və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Bir neçə ildir ki, Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır və onun fəaliyyəti çox uğurludur. Bu illər ərzində iki ölkə arasında olan əlaqələr daha da güclənmiş, yeni mərhələyə qədəm qoymuşdur.

Çox şadam ki, ümummilli liderimiz Heydər Əliyevin və Rumıniya Prezidenti İon İliyeskunun xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi sahəsindəki səyləri öz bəhrələrini verir. Mənim də Rumıniyaya rəsmi səfərim bu gün başa çatır və deyə bilərəm ki, bu səfər çox uğurlu olubdur, çoxlu mühüm sənədlər imzalanıb və geniş fikir mübadiləsi aparılıbdır. Bu səfərdən sonra qətiyyətlə deyə bilərəm ki, Rumıniya-Azərbaycan əlaqələri həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından çox sürətlə inkişaf edir. Ölkələrimiz bir-birinə çox yaxındır. Dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında Rumıniya və Azərbaycan fəal iştirak edirlər və bu amil bizi daha çox birləşdirir. Rumıniyanın Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasəti öz gözəl nəticələrini veribdir. Biz də buna çox sevinirik və bildirmək istəyirəm ki, Azərbaycan da bu yolla gedir. Ölkəmizin də siyasəti Avropa və Avratlantik strukturlarına inteqrasiyadan ibarətdir. Bu, bizim strateji seçimimizdir. Bu seçim 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra edilibdir və bu gün Azərbaycan dövləti və hökuməti bu siyasi xəttə sadiqdir, bu siyasəti davam etdirir.

Bir sözlə, deyə bilərəm ki, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Məqsədimiz ondan ibarətdir ki, iqtisadi əlaqələrimizi də yüksək səviyyəyə çatdıraq. Bunu etmək

üçün bütün imkanlar vardır. İqtisadi baxımdan Rumıniya ilə Azərbaycan ən dinamik inkişaf edən ölkələrdir. Bizim iqtisadi potensialımız günü-gündən güclənir. Yeni istehsal sahələri işə salınır, yeni infrastruktur layihələri həyata keçirilir. Azərbaycanın enerji daşıyıcılarının Avropaya və ümumən dünyaya çatdırılması istiqamətində çox mühüm addımlar atılıbdır və bu sahədə iki ölkə arasında çox gözəl əməkdaşlıq mümkündür. Əminəm ki, biz buna nail olacağıq.

Hökumətlərarası birgə komissiyanın bundan sonrakı fəaliyyəti ondan ibarət olmalıdır ki, bizim iqtisadi əlaqələrimizi bütün sahələrdə daha da gücləndirsin, iş adamlarına gözəl şərait yaratsın, ümumiyyətlə, iqtisadi-ticarət əlaqələrinin inkişafında daha da fəal rol oynasın.

Humanitar sahəni əhatə edən mühüm sazişlər imzalanıbdır. Bu, Azərbaycan dövlətini, hökumətini qane edir. Çalışmalıyıq ki, bu əlaqələri bundan sonra da inkişaf etdirək və gücləndirək. Səfirliyimizə də bu işdə yeni uğurlar arzulayıram. Bu gözəl binanın açılışı münasibətilə bir daha sizin hamınızı təbrik edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirliyin yeni binasının açılışında iştirak edən xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb söhbət etdi.

Dövlətimizin başçısı jurnalistlərin suallarına cavab verdi.

SUAL: Cənab Prezident, Sizin çıxışlarınızdan da məlum oldu ki, Rumıniya səfərinizdən razı qalmısınız...

CAVAB: Bəli, razı qalmışam. Çox uğurlu səfərdir. Bizim aramızda olan qarşılıqlı anlaşma apardığımız danışıqlar əsnasında bir daha təsdiqini tapdı. Biz çox geniş fikir mübadiləsi apardıq, həm ikitərəfli, həm də regional məsələləri müzakirə etdik. Əlbəttə ki, imzalanmış sənədlər gələcək əməkdaşlıq üçün hüquqi baza yaradır. Bütün görüşlər çox uğurlu keçibdir. Mən çox razıyam. Rumıniya-Azərbaycan əlaqələri bizim üçün çox vacibdir.

SUAL: Dünənki mətbuat konfransında Rumıniya Prezidenti xatırlatdı ki, ummummilli liderimiz Heydər Əliyevin vaxtında Azərbaycan qazının Rumıniyadan keçməklə Avropaya nəql olunması məsələsi qaldırılmışdı. Rumıniyanın enerji layihələrində iştirakı ilə bağlı konkret müzakirələr oldumu?

CAVAB: Biz bu məsələni müzakirə etdik. Bilirsiniz ki, Azərbaycan qazı Avropaya çatdırılacaqdır. Bu istiqamətdə önəmli addımlar atılıb. Gürcüstan və Türkiyə üzərindən Avropanın digər ölkələrinə qaz nəql olunacaqdır. Bu barədə Avropa Birliyində də müzakirlər aparılmışdır. Əlbəttə, bu baxımdan Rumıniya ilə Azərbaycan arasında da əməkdaşlıq ola bilər. Mən bu gün maraqlandım, Rumıniya ildə təxminən 5 milyard kubmetr qaz idxal edir və Azərbaycanın onu bu qazla təmin etməyə imkanı olacaqdır. Bizim "Şahdəniz" yatağından böyük həcmdə qaz çıxarılacaq və onu istənilən yerə çatdıra biləcəyik. Odur ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini də Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi uğurla başa çatdırmalıyıq və öz öhdəliyimizi yerinə yetirməliyik.

SUAL: Cənab Prezident, səfər zamanı Dağlıq Qarabağ münaqişəsi ətrafında da müzakirələr apardınız. Ümumiyyətlə, Rumıniyanın bu məsələ ilə bağlı mövqeyi Sizi qane edirmi?

CAVAB: Əlbəttə qane edir. Siz dünən bu sualı Rumıniya Prezidentinə verdiniz və o da cavabında sonrakı çıxışlarında da birmənalı şəkildə dedi ki, Rumıniya bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Bu, çox önəmli bəyanatdır. Bildiyiniz kimi, son müddət ərzində bir neçə dövlət başçısı birmənalı şəkildə belə bir bəyanatla çıxış etmişdir. Mənim əksər səfərlərimdə tərəf-müqabilim buna oxşar bəyanatla çıxış etmişdir. Bu, çox önəmli haldır, bu, bir də onu göstərir ki, dünyada ikili standartlara yol verilməməlidir. Bütün məsələlər yalnız beynəlxalq hüquq normaları prizmasından öz həllini tapmalıdır. Əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Ermənistanda bunu nə qədər tez başa düşsələr, o qədər yaxşıdır. İndi əsas məsələ bundadır ki, BMT-nin və ATƏT-in mühüm qərarları həyata keçirilsin, bunun üçün mexanizm yaradılsın. Əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsindən biri də icra olunmur, Ermənistana qarşı bir dəfə də olsun sanksiya tətbiq edilmir. Əlbəttə, bu, dözülməz haldır. Əgər beynəlxalq hüquq mexanizmləri hazırlanarsa və tətbiq olunarsa, onda bu münaqişə daha tez öz həllini tapacaqdır.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağ məsələsi AŞPA-nın sessiyasında da müzakirə olunmuşdur. Siz sessiyanın nəticələrindən razı qaldınızmı?

CAVAB: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanvar sessiyasında baxılacaqdır. Bilirsiniz ki, məruzə hazırlanıb, Terri Devis məruzəni təqdim edibdir və o mətbuatda da öz əksini tapıbdır. Bu, çox obyektiv, reallıqları əks etdirən məruzədir. Bu sessiyada da həmin məsələyə toxunuldu, müəyyən fikirlər səsləndi. Amma deyə bilərəm ki, onların hamısı bizim təməlini qoyduğumuz prinsipləri əks etdirir. Əsas məsələ o idi ki, işğal haqqında məlumatlar Avropa Şurasının sənədlərinə salınsın, Azərbaycanın ərazi bütövlüyünün pozulması barədə fikirlər öz əksini tapsın. Artıq bu, sənəddir, hüquqi bazadır. Əminəm ki, müzakirə olunacaq məruzə də Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini bir daha göstərəcəkdir.

Əlbəttə ki, müəyyən sanksiyalar da nəzərdə tutula bilər. Bəri başdan Avropa Şurasından bizim tələbimiz və istəyimiz ondan ibarət idi ki, bu münaqişəyə siyasi qiymət verilsin. Avropa Şurasının başqa mexanizmi yoxdur və biz ondan möcüzə gözləməməliyik. Amma siyasi qiymət veriləndən sonra bu, siyasi danışıqlar prosesi üçün də güclü baza olacaqdır. Deyə bilərəm ki, artıq dünyada bu münaqişə ilə əlaqədar dolğun məlumat var, Azərbaycanın haqlı olması regionda və beynəlxalq aləmdə qəbul edilir. Bizim vəzifəmiz ondan ibarətdir ki, öz siyasi iradəmizi, təzyiqi daha da gücləndirək, Ermənistanı işğalçı dövlət kimi bütün kürsülərdən ifşa edək və öz siyasi həmlələrimizi davam etdirək. Bunu Prezident də, deputatlar da, mətbuat da, hər bir Azərbaycan vətəndaşı da etməlidir. Yalnız bu təqdirdə biz istəyimizə nail olacağıq.

AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ VƏ RUMİNİYA-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Prezident İlham Əliyev oktyabrın 12-də, Rumıniyaya rəsmi səfəri çərçivəsində bu ölkədəki Azərbaycan diasporunun nümayəndələri və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, digər qurumların üzvləri ilə görüşmüşdür.

Görüşü giriş sözü ilə açan Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri İOAN POP DE POPA dedi:

- Zati-aliləri hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bizim Cəmiyyətimiz Rumıniya ilə Azərbaycan arasındakı dostluğun bütün sahələrdə - mədəni, iqtisadi, elmi sahələrdə inkişaf etməsi üçün böyük işlər görmüşdür. Cəmiyyətimiz parlament üzvləri, dövlət xadimləri, akademiklər, mədəniyyət xadimləri və yazıçılardan ibarətdir və onlar bu qurumda tutduqları yeri artıq öz işləri ilə sübut etmişlər.

İcazə verin, Cəmiyyətimizin əldə etdiyi nailiyyətlər haqqında məlumat üçün sözü professor Dimitru Balanuya verək.

Professor DİMİTRU BALANU Azərbaycan Prezidentinə müraciətlə dedi:

- Zati-aliləri hörmətli cənab Prezident!

İcazə verin, Sizi və Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərini Cəmiyyətimiz adından salamlayım. Azərbaycan və rumın xalqları arasında dostluq telləri öz kökləri ilə uzaq keçmişə gedib çıxır. Bu dostluğa dərin ehtiramımı ifadə edərək demək istəyirəm ki, Rumıniya Türkiyədən sonra Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ikinci dövlət olmuşdur. Sonralar daha da möhkəmlənmiş dostluq əlaqələri və beynəlxalq aləmdə iki ölkənin bir-birini dəstəkləməsi sübut etdi ki, bu fakt heç də təsadüfi deyildir.

Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti 2001-ci ildə yaradılmışdır. Təşkilatın məqsəd və vəzifələri ənənəvi dostluq əlaqələrinin daha da genişlənməsi və dərinləşməsinə kömək etməkdən, hər iki ölkənin ictimaiyyətinin və gənclərinin ölkələrimizin tarixi, mədəniyyəti ilə yaxından tanış olmasına şərait yaratmaqdan ibarətdir.

Cəmiyyətin idarə heyətinə Rumıniyanın görkəmli şəxsləri - siyasi partiyaların nümayəndələri, parlament fraksiyalarının başçıları, elm və mədəniyyət xadimləri, milli azlıqların təmsilçiləri, məşhur biznesmenlər daxildir.

Eyni zamanda, 2001-ci ildən Azərbaycan-Rumıniya Gənclər Təşkilatı fəaliyyət göstərir ki, onun tərkibinə iki ölkədən olan tələbələr, habelə dünyanın digər ölkələrindən olan gənclər daxildir. Hər iki təşkilatın idarə heyətinin üzvləri Rumıniya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və gələcək inkişafına öz töhfələrini vermək əzmindədirlər. Bu prosesə hər iki ölkənin gəncləri cəlb olunur ki, bu da əlaqələrimizin gələcəyi üçün çox müsbət haldır.

2002-ci ildə Buxarestdə beynəlxalq festivalın keçirildiyi vaxt Cəmiyyətimizin təşəbbüsü ilə tədbirin bir günü Azərbaycana həsr olunmuşdu. Həmin tədbirdə Azərbaycan şairlərinin sözlərinə yazılmış mahnılardan ibarət musiqi diski buraxılmışdır. Səfirliyin yardımı ilə Cəmiyyətimiz "Azərbaycanın dirçəlişi və inkişafı" adlı kitab hazırlayıb nəşr etmişdir. Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinə həsr olunmuşdur. Cəmiyyətin köməyi ilə Buxarest Universitetinin professorları türk folklorunun incisi sayılan "Dədə Qorqud" dastanını, habelə Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin və Elçin Əfəndiyevin kitablarını rumın dilinə tərcümə etmişlər. Bundan başqa, yazıçı Anarın və Çingiz Abdullayevin də əsərləri rumın dilinə çevrilmişdir. Cəmiyyətin və səfirliyin təşəbbüsü və hər iki ölkənin ekspertlərinin

köməyi ilə müqəddəs Quran da rumın dilində nəşr olunmuşdur.

Cəmiyyətin və gənclər təşkilatının Rumıniyanın, Azərbaycanın və Türkiyənin ayrı-ayrı nəşrləri, televiziya kanalları və jurnalist təşkilatları ilə sıx əlaqələri vardır. Xüsusilə təşkilatımız Azərbaycanda iqtisadi, sosial, mədəni sahələrdə baş verən böyük tərəqqi və inkişaf barədə kütləvi informasiya vasitələrinə düzgün və dolğun məlumatlar verir. Biz Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan torpaqlarının işğalı, bir milyondan çox qaçqın və köçkün haqqında ətraflı məlumat yaymışıq. Əlbəttə, bütün bunlar Azərbaycan səfirliyinin bizə göstərdiyi yardım olmadan mümkün olmazdı. Cənab səfir və onun əməkdaşları öz ölkələrini layiqincə təmsil etmək üçün əllərindən gələni edirlər.

Cənab Prezident, Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Rumıniya Prezidenti İon İliyesku bizim ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin, qarşılıqlı anlaşmanın möhkəm bünövrəsini qoymuşlar. Bu, bizim tarixi sərvətimizdir. Siz əmin ola bilərsiniz ki, Şərqi Avropanın mərkəzi olan Rumıniyada güclü diaspor vardır, Azərbaycanın buradakı dostları Sizin yürütdüyünüz düzgün siyasəti dəstəkləyirlər və həmişə dəstəkləyəcəklər.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə mükafatlar verilməsi mərasimi oldu.

Rumıniya İnsan Hüquqları Təşkilatının sədri FİORENTİN SKARETSKİ dövlətimizin başçısına təşkilatın mükafatını təqdim edərək dedi:

- Mən İnsan Hüquqları Təşkilatının sədriyəm və Azərbaycanda iki dəfə olmuşam. Dağlıq Qarabağ və işğal olunmuş digər yeddi rayondan didərgin düşmüş insanların vəziyyəti ilə tanış olmuşam və onların vəziyyətini dünya ictimaiyyətinə çatdırmışam. İkinci dəfə isə, Zati-alilləri Azərbaycanda prezident seçkilərində iştirak edərkən ATƏT-in nümayəndəsi kimi gəlmişəm. Mən Sizin cəmiyyətinizin inkişafının və tərəqqisinin şahidi olmuşam. Habelə şahidi olmuşam ki, Azərbaycan Prezidenti öz ölkəsində demokratiyanın bərqərar olunması və inkişafı yolunda böyük səylər göstərir. Qeyd edə bilərəm ki, Azərbaycanda cəmiyyət sürətlə inkişaf edir. Biz Azərbaycan xalqını dəstəkləyirik və yəqin ki, bu yaxınlarda edəcəyimiz səfər zamanı Azərbaycanda qaçqın-köçkünlərin vəziyyəti ilə tanış olacağıq. Bu qısa çıxışımı Azərbaycan səfirinə təşəkkürlə başa çatdırmaq istəyirəm. Arzu edirəm ki, əlaqələrimiz gələcəkdə də inkişaf etsin və yeni formalarla zənginləşsin. Bir daha təşəkkür edirəm və Rumıniyaya xoş gəlmisiniz.

Rumıniya-Türkiyə Ticarət və Sənaye Odasının başçısı TAMER ATALAY çıxış edərək dedi:

- Hörmətli Prezident, Ticarət və Sənaye Odasının üzvləri Sizi Rumıniyada görməkdən böyük sevinc hissi duyurlar. Rumıniyaya xoş gəlmisiniz və bizlərə şərəf verdiniz. Rumıniya həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmli ölkədir. Azərbaycanın müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkə Rumıniyadır. Balkanlarda həm Türkiyənin, həm də Azərbaycanın əsil dostu olan, ikitərəfli əlaqələrdə və beynəlxalq aləmdə ölkələrimizi dəstəkləyən bu ölkədə çoxlu türk iş adamları vardır. Balkanlarda 30 min türk və yüzlərlə azərbaycanlı iş adamı fəaliyyət göstərir. Siz təqribən 100 mindən çox türkün yaşadığı ölkədəsiniz. İnanıram ki, qardaş bir ölkədə olmaqdan xoşbəxtlik və rahatlıq duyursunuz. Rəhmətlik atanız, Azərbaycanın ümummilli lideri, türk dünyasının

hörmət və sevgi bəslədiyi Heydər Əliyevin vəfatı ilə əlaqədar bu ölkədə bizlər də yas saxladıq, Quran oxutduq və mövlud verdik. Türk icması olaraq, biz də Sizin kədərinizi bölüşdük. Biz Sizin atanız Heydər Əliyevin və Sizin ideyalarınızı burada yaşadan, Azərbaycanı ən yüksək səviyyədə təmsil edən hörmətli səfir Eldar Həsənov kimi bir insanın və səfirliyin digər əməkdaşlarının türk icmaları arasında dostluğun və qardaşlığın təmin olunmasındakı fəaliyyətlərini xüsusi qeyd edirik.

Bizim təşkilatın idarə heyətinin üzvləri və sədri Azərbaycanda oldular və rəhmətlik atanızın məzarını ziyarət etdik. Biz Bəxtiyar Vahabzadə ilə və digər insanlarla da görüşdük. Şahidi olduq ki, Azərbaycanda yüksək inkişaf prosesləri gedir, insanların gözlərində xoşbəxtliyi ifadə edən işığı gördük. Biz Sizin atanızdan miras aldığınız bayrağı daha yüksəyə qaldırmaq əzmini gördük. Bunun üçün Sizi ürəkdən təbrik edir və özümüzü xoşbəxt hiss edirik. Çünki rəhmətlik atanızın dediyi kimi, bir millət iki dövlətik və bu gün Heydər Əliyevin büstünün açılışında türk toplumlarının başçıları da iştirak edəcəklər. Biz əvvəllər burada Atatürkün heykəlini ucaltmışdıq və bu gün Atatürklə Heydər Əliyev Avropa torpaqlarında - Rumıniyada görüşür və türk toplumlarına Avropaya inteqrasiya olunmaqla sülhü və dostluğu təmin etmək sahəsində nümunə olacaqlar və yenə öndərlik edəcəklər. Bir daha Sizə xoş gəldiniz deyirəm və icazənizlə, Odamızın rəhbərliyi adından Sizə xatirə hədiyyəsi - plaket təqdim etmək istəyirəm.

Hörmətli cənab Prezident, indi isə icazənizlə, Müqəddəs Quranın rumın dilinə tərcümə edilməsinə və türklük atamızı - "Dədə Qorqud"un rumın dilinə çevirilməsinə yardım edən hörmətli səfirə də bir plaket təqdim edərdim.

Sonra Türk İş Adamları Dərnəyinin başçısı İSMƏT İSMAYIL BAYANDIRA söz verildi. O dedi:

- Hörmətli cənab Prezident, Sizi Rumıniyada görməkdən xoşbəxtlik hissi duydum. Azərbaycan və Türkiyə xalqlarının dostluğu sərhəd tanımır. Biz Rumıniyada azəri qardaşlarımızla əl-ələ çalışırıq. "Bir millət, iki dövlət" sözlərini yaşadaraq, türk dünyamızın böyük lideri mərhum Prezidentimiz hörmətli Heydər Əliyevi hüzurunuzda ehtiramla anırıq. Hörmətli cənab Prezident, səfir Eldar Həsənov və səfirliyin işçiləri bizimlə sıx əməkdaşlıq edirlər. Biz Rumıniyadakı Azərbaycan səfirliyini öz evimiz kimi hiss edirik. Siz qısa müddət ərzində çox böyük işlər görmüsünüz. Zati-alilərinizin Rumıniyaya səfəri iki ölkənin əlaqələrinin inkişafı baxımından çox faydalı olacaqdır. Biz bu sahədə üzərimizə düşən hər bir vəzifəni yerinə yetirməyə hazırıq. Zati-alilərinizə ən dərin hörmətimizi bildirir və əmrlərinizi gözləyirik. İcazənizlə, mən də Sizə bir plaket təqdim etmək istəyirəm.

Rumıniyanın "Poy Polidoy" Mədəniyyət Fondunun sədri POL POLİDOR çıxış edərək dedi:

- Zati-alilləri hörmətli cənab Prezident İlham Əliyev! Bizim mədəniyyət fondu adından Sizi Rumıniyada salamlayıram. Birincisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Rumıniya ilə Azərbaycan arasında əlaqələrin inkişafına verdiyi misilsiz töhfəni qeyd etmək istəyirəm. Biz həm də bu əlaqələrin inkişafında Sizin böyük səylərinizi alqışlayırıq. Bununla əlaqədar Fondun idarə heyəti adından Sizə fəxri üzv diplomunu, Heydər Əliyevə həsr olunmuş kompakt disk və medalı təqdim etmək istəyirəm. Rumıniyaya xoş gəlmisiniz!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Sizin hamınızı ürəkdən salamlayıram və mənə göstərilən yüksək qonaqpərvərliyə, deyilən xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm.

Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyəti iki ölkə arasında əməkdaşlıq üçün çox böyük əhəmiyyətə malikdir. Çox şadam ki, Rumıniya ilə Azərbaycan bütün sahələrdə əməkdaşlıq edirlər və bunun nəticəsində ölkələrimiz siyasi, iqtisadi və digər sahələrdə əlaqələrini gücləndirirlər. Mənim bu rəsmi səfərim də gələcək əməkdaşlığımız üçün yeni bir addımdır, yeni bir mərhələdir və şübhə etmirəm ki, bu səfərdən sonra əlaqələrimiz bütün sahələrdə daha da genişlənəcəkdir.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra daim Rumıniyanın dəstəyini görmüşdür və bunu bu gün də hiss edirik. Buna görə bir daha sizə və bütün rumın xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox ağrılı keçmişdir. Ölkədə xaos, anarxiya, hərc-mərclik hökm sürürdü, vətəndaş müharibəsi başlanmışdı, iqtisadi böhran yaşanırdı. Bir sözlə, Azərbaycanın müstəqil dövlət kimi yaşaması təhlükə altında idi. Yalnız Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xalqın tələbi ilə ölkəyə rəhbərliyə gəlməsindən sonra vəziyyət dəyişdi, sabitlik yarandı, böhrana son qoyuldu və bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ölkəmiz çox sürətlə beynəlxalq təşkilatlara inteqrasiya edir.

Ölkəmizdə həm siyasi, həm də iqtisadi sahələrdə çox ciddi islahatlar aparıldı. Bu islahatların nəticəsində dünyada və regionda Azərbaycanın mövqeyi möhkəmləndi və indi iqtisadi inkişaf baxımından ölkəmiz bütün postsovet məkanında qabaqcıl yerlərdədir.

Ötən il keçirilmiş prezident seçkilərində də xalqımız son illər ərzində ölkədə aparılmış siyasətə öz dəstəyini bir daha bildirərək, yenidən Heydər Əliyev siyasətinə, Heydər Əliyev siyasi xəttinə səs verdi. Bu dövr ərzində ölkəmizin iqtisadiyyatı daha da güclənmişdir. Ümumi daxili məhsulun orta illik artımı on faizə bərabərdir. Azərbaycanda həyata keçirilən regional sosial–iqtisadi inkişaf proqramı nəticəsində ölkədə 70 mindən çox iş yeri açılmışdır. Dünyanın ən böyük enerji layihəsi uğurla həyata keçirilir - region və bütün dünya üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir və yaxın zamanlarda biz onun açılışını qeyd edəcəyik. Bu, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin bariz nümunəsidir. Çox əlamətdar hadisədir ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinə və Türkiyənin Ceyhan şəhərində tikilən böyük terminala ümummilli liderimiz Heydər Əliyevin adı verilmişdir.

Azərbaycan beynəlxalq aləmdə də öz mövqelərini möhkəmləndirir. Bizim NATO və Avropa Birliyi ilə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Azərbaycan NATO-ya fərdi tərəfdaşlıq planını təqdim edən ilk ölkələrdəndir. Avropa Birliyinin ölkəmizi yeni qonşuluq siyasətinə daxil etməsi də çox mühüm hadisədir və Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində gələcəkdə atılacaq addımlar üçün böyük bir zəmindir.

Əlbəttə, bizim müxtəlif ölkələrlə ikitərəfli əlaqələrimiz də sürətlə inkişaf edir və genişlənir. Bu baxımdan Rumıniya ilə Azərbaycan arasında olan əlaqələrə xüsusi əhəmiyyət veririk və deyə bilərəm ki, Azərbaycanın bu regionda ilk səfirliyi məhz Rumıniyada açılmışdır. Mən çox şadam ki, bu səfirlik uğurla işləyir, bütün aidiyyəti orqanlarla əlaqədədir. Bu da bizə imkan verir ki, Azərbaycan haqqında həqiqətlər, reallıqlar geniş rumın ictimaiyyətinə dolğun şəkildə çatdırılsın.

Mən bu səfərdən çox razıyam. Əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha da güclənəcəkdir. İmzalanmış sənədlər bunu deməyə əsas verir.

Bilirsiniz ki, ölkəmiz və region üçün ən təhlükəli, ən ağrılı problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsidir.

Biz tələb edirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bizim üçün çox vacibdir ki, Rumıniya dövlətinin mövqeyi də məhz bundan ibarətdir və hörmətli cənab Prezident İon İliyesku dünən mətbuat konfransında və digər çıxışlarda bu mövqeyi açıq şəkildə bəyan etmişdir. O demişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Sizin ölkənizin bu açıq bəyanatı və bizə açıq dəstəyi bizim üçün çox vacibdir və mən əminəm ki, münaqişənin nizama salınması istiqamətində öz rolunu oynayacaqdır.

Biz bütün dövlətlərin ərazi bütövlüyünü tanıyırıq. Əlbəttə, tələbimiz ondan ibarətdir ki, bizim də ərazi bütövlüyümüz bərpa edilsin, Ermənistan öz işğalçı siyasətindən əl çəksin, işğal olunmuş torpaqlardan çıxsın və bir milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıda bilsin. Onu da qeyd etmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnamə qəbul edibdir və bu qətnamələrdə deyilir ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Biz istəyirik ki, dünyada ikili standartlar siyasətinə son qoyulsun və Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş qərarlar icra olunsun. Bu məsələ ilə əlaqədar Rumıniyanın birmənalı mövqeyi və digər Avropa ölkələrinin bizə verdiyi dəstək münaqişənin həllində böyük rol oynaya bilər. Bu münaqişə öz həllini taparsa, regionda sülh bərqərar olunar, təhlükəsizlik möhkəmləndirilər və bütün maneələr aradan qaldırılar. Biz istəyirik ki, regiondakı bütün xalqlar əmin-amanlıq şəraitində yaşasınlar.

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, mənim Rumıniyaya rəsmi səfərim çox mühümdür. Mən bu səfərə böyük əhəmiyyət verirəm və şadam ki, o, çox uğurlu keçir. Qeyd etdiyimiz kimi, ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir. Çox şadam ki, insanlarımız arasında da mehriban münasibət vardır. Mən Rumıniyaya böyük nümayəndə heyəti ilə gəldim. Burada aparılan danışıqlar, söhbətlər və imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradır. Biz istəyirik ki, əlaqələrimiz bütün sahələrdə və bütün səviyyələrdə inkişaf etsin. Hökumətlərarası birgə komissiya daha fəal işləməlidir, parlamentlərarası əlaqələr güclənməlidir, humanitar sahədə əməkdaşlıq da yeni mərhələyə çıxmalıdır. Mən ümid etmək istəyirəm ki, bu səfər bütün sadaladığım məsələlərə təkan verəcəkdir.

Əlbəttə, mənim üçün çox önəmli və əzizdir ki, burada, Rumıniya torpağında xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu, iki ölkə arasında olan əla-

qələrə çox müsbət təsir göstərəcəkdir. Bunun Azərbaycan və rumın xalqları arasında mehriban və səmimi münasibətlərə də güclü təsiri olacaqdır. Buna görə mən Rumıniya dövlətinə və hökumətinə, şəxsən cənab İon İliyeskuya öz minnətdarlığımı bildirirəm. Çox istərdim ki, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri də tez-tez Azərbaycana gəlsinlər, biz daha da sıx əlaqədə, təmasda olaq və Cəmiyyətin fəaliyyəti bundan sonra da xalqlarımızın yaxınlaşmasına xidmət etsin.

Verilən ödüllərə və dediyiniz xoş sözlərə görə sizin hamınıza bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, Rumıniya ilə Azərbaycan arasında olan əlaqələr yüksələn xətt üzrə davam edəcəkdir.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri başa çatdı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YAN PETERSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin sədri, Norveçin xarici işlər naziri Yan Petersenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycanda demokratik islahatların uğurla həyata keçirilməsindən bəhs edərək dedi ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Avropa strukturlarına inteqrasiya xətti bizim siyasətimizin əsas prioritetlərindən birini təşkil edir və Azərbaycan bu xəttə daim sadiqdir.

Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin dinamik, qarşılıqlı surətdə faydalı şəkildə inkişaf etdiyini məmnunluqla vurğulayan Prezident İlham Əliyev ölkəmizin bu təşkilata üzv olduğu ilk gündən Avropa Şurasının və onun Parlament Assambleyasının işində fəallıqla iştirak etdiyini nəzərə çarpdırdı.

Respublikamızın bu təşkilat qarşısında götürdüyü öhdəliklər məsələsinə toxunan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu öhdəlikləri tam şəkildə yerinə yetirir. Bunu təkcə təşkilat qarşısında öhdəlik götürdüyümüzə görə etmirik, bu, əsasən, Azərbaycanda cəmiyyətin demokratikləşməsi istiqamətində həyata keçirilən siyasətin təsdiqidir.

Ermənistanın ölkəmizə təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsindən bəhs edən dövlətimizin başçısı bu münaqişənin həllində Azərbaycanın mövqeyinin yalnız beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslandığını bir daha diqqətə çatdırdı.

Bu münaqişənin Avropa Şurasında, o cümlədən Parlament Assambleyasında müzakirəsi məsələsinə toxunan Prezident İlham Əliyev dedi ki, ölkəmiz bu problemin geniş müzakirə edilməsinə daim tərəfdar olmuşdur, çünki Azərbaycanın mövqeyi ədalətli mövqedir. Ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Avropa Şurası Parlament Assambleyasının məruzəçisinin təyin olunması təşəbbüsünü qaldırarkən Ermənistan həmişə bunun əleyhinə çıxış etmişdir. Bu isə aydın surətdə göstərir ki, Ermənistan münaqişənin dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırılmasında maraqlı deyildir.

Dövlətimizin başçısı dedi ki, Avropa Şurası və AŞPA ilə Azərbaycanın digər sahələrdə də əməkdaşlığı qarşılıqlı anlaşma əsasında həyata keçirilir və bu, həm Azərbaycan üçün, həm də Avropa Şurası üçün çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Avropaya inteqrasiya prosesində fəal iştirak edir, bu baxımdan həm Avropa Şurası, həm də Avropa Birliyi kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm veririk.

Səmimi sözlərə görə Prezident İlham Əliyevə təşəkkür edən Yan Petersen ölkəmizdə səfərdə olduğu müddətdə çox səmərəli görüşlər keçirdiyini bildirdi. Qonaq Bakıya səfərinin həm Azərbaycan-Norveç, həm də Azərbaycan-Avropa Şurası əməkdaşlığı baxımından böyük əhəmiyyət daşıdığını vurğuladı.

Azərbaycan ilə Norveç arasında əlaqələrin uğurla inkişaf etməsindən məmnunluqla bəhs edən cənab Yan Petersen dedi ki, bu, ilk növbədə, özünü iqtisadi sahədəki əməkdaşlıqda göstərir. Norveçin "Statoil" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən nazir ölkələrimiz arasında iqtisadi əməkdaşlığın təkcə neft və qaz sektorunda deyil, digər sahələrdə də genişlənəcəyinə əmin olduğunu vurğuladı.

Azərbaycan-Avropa Şurası münasibətlərinə toxunan cənab Petersen bildirdi ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə yalnız öhdəlik kimi yox, ölkənin demokratik inkişafı baxımından yanaşır. Qonaq Azərbaycanın həmin öhdəliklərə belə münasibətini yüksək qiymətləndirdi. O qeyd etdi ki, bu əməkdaşlığın inkişafı həm Azərbaycan, həm də Avropa Şurası üçün qarşılıqlı əhəmiyyət kəsb edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FİFA-NIN PREZİDENTİ YOZEF SEPP BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti Yozef Sepp Blatterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev FİFA prezidentinin onun dəvətini qəbul edib, gərgin işinə baxmayaraq, vaxt tapıb Azərbaycana səfərə gəlməsini yüksək qiymətləndirdi.

Azərbaycan futbolunun inkişafında cənab Blatterin xidmətlərini xüsusi qeyd edən Prezident İlham Əliyev ölkəmizlə FİFA arasında əməkdaşlığın gündən-günə inkişaf etdiyini nəzərə çarpdırdı. Azərbaycanda idmanın inkişafından bəhs edən dövlətimizin başçısı bu prosesin sürətlə getdiyini vurğuladı, idmançılarımızın beynəlxalq yarışlarda yeni-yeni uğurlar qazandığını diqqətə çatdırdı.

Azərbaycan Respublikasının Prezidenti həm də Olimpiya Komitəsinə rəhbərlik etdiyini vurğulayaraq dedi ki, ölkəmizdə idmanın inkişafı prioritet məsələlərdən biridir və

futbol sahəsində də irəliləyişlərin əldə edilməsi üçün böyük səylər göstərilir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, idmanın ən mühüm sahələrindən biri olan futbol gələcəkdə Azərbaycanda daha da inkişaf etdiriləcəkdir.

Prezident İlham Əliyev Azərbaycan futbolunun inkişafında və onun beynəlxalq əlaqələrinin genişləndirilməsindəki xidmətlərinə görə cənab Yozef Sepp Blatterin "Şöhrət" ordeni ilə təltif olunması barədə Sərəncam imzaladığını bildirərək, həmin yüksək mükafatı ona təqdim etdi.

Səmimi sözlərə və yüksək mükafata görə minnətdarlığını bildirən qonaq, Azərbaycan Prezidenti İlham Əliyevin Bakıya səfər etmək barədə dəvətini böyük məmnunluqla qarşıladığını söylədi. O dedi ki, işinin çox gərgin olmasına baxmayaraq, bu dəvəti qəbul edərək, Bakıya gəlməyi özünə borc bilmişdir. Qonaq Bakıda keçirdiyi görüşlərindən çox məmnun qaldığını söylədi, Azərbaycan Prezidenti İlham Əliyevin onu "Şöhrət" ordeni ilə təltif etməsindən böyük şərəf duyduğunu bildirdi.

Cənab Yozef Sepp Blatter Azərbaycan Prezidenti İlham Əliyevə FİFA-nın 100 illiyinə həsr olunmuş xatirə medalı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Prezident sarayında Rusiyanın nəqliyyat naziri İqor Levitini qəbul etmişdir.

Prezident İlham Əliyev qonağı səmimiyyətlə salamlayaraq vurğuladı ki, Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə əlaqələr inkişaf etməkdədir. Ölkələrimizin müxtəlif dövlət və hökumət strukturları, eləcə də ayrı-ayrı nazirlikləri arasında da əlaqələr genişlənir.

Dövlətimizin başçısı bu baxımdan Rusiyanın nəqliyyat nazirinin səfərinin ölkələrimizin nəqliyyat sahəsində əməkdaşlığının, ümumən iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəyinə əmin olduğunu vurğuladı.

Nəqliyyat sahəsinin iqtisadiyyatın mühüm tərkib hissələrindən biri olduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsinin artdığı bir dövrdə ölkələrimizin nəqliyyat sistemlərinin əməkdaşlığını daim genişləndirməyin vacibliyini, bunun üçün böyük potensialın olduğunu bildirdi.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən cənab İqor Levitin Bakıya səfərinin çox səmərəli keçdiyini söylədi. Nazir xatırlatdı ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vaxtilə SSRİ-nin rəhbərlərindən biri olarkən nəqliyyat sahəsinə də kuratorluq edirdi. Heydər Əliyev Baykal-Amur magistralı kimi dünyada analoqu olmayan nəhəng tikintiyə bilavasitə rəhbərlik edirdi və Xabarovsk vilayətində BAM-ın "qızıl bəndi"nin vurulmasında iştirak etmək üçün vilayətə səfəri zamanı mən Urqal qəsəbəsinin komendantı işləyirdim. Həmin vaxt cənab Heydər Əliyev ilə görüşməyimi özüm üçün böyük şərəf sayır və indiyədək bu görüşü məmnunluqla xatırlayıram.

Rusiya naziri bildirdi ki, ölkələrimizin nəqliyyat qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün konkret addımlar atılmış və müvafiq sənədlər imzalanmışdır.

Hazırda hər iki tərəfin mütəxəssisləri bu istiqamətdə sıx əməkdaşlıq edirlər. Qonaq ümidvar olduğunu söylədi ki, ölkələrimizin nəqliyyat sahəsində əlaqələri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sonra nazir İqor Levitin ümummilli liderimiz Heydər Əliyevin fotoportretini Azərbaycan Prezidentinə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRKƏZİ QƏRARGAHI VAŞİNQTONDA YERLƏŞƏN AVRASİYA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Prezident sarayında mərkəzi qərargahı Vaşinqtonda yerləşən Avrasiya Fondunun nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sosial və digər sahələrdə son illər əldə olunmuş uğurlardan ətraflı söhbət açdı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın beynəlxalq təşkilatlar, fondlar və qeyri-hökumət təşkilatları ilə əlaqələri gündən-günə genişlənməkdədir. Bu baxımdan Avrasiya Fondunun nümayəndə heyətinin Azərbaycana səfəri bu əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edir.

Azərbaycan ilə ABŞ arasında münasibətlərdən bəhs edən dövlətimizin başçısı İlham Əliyev bu sahədə də əlaqələrimizin sürətlə inkişaf etdiyini bildirdi.

Ölkəmizin iqtisadiyyatının sürətlə yüksəlməsinə toxunan dövlətimizin başçısı dedi ki, ümumi daxili məhsulun, investisiyaların həcminin, büdcə vəsaitlərinin artması – bütün bunlar Azərbaycanda iqtisadi islahatların ardıcıl həyata keçirilməsinin yaxşı nümunəsidir.

Ermənistanın ölkəmizə təcavüzündən bəhs edən Prezident İlham Əliyev bildirdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq qaçqına çevrilmişdir. Dövlətimizin başçısı İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Amerika Birləşmiş Ştatlarının bu münaqişənin sülh yolu ilə nizama salınması sahəsində səylərini daha da artıracağına ümidvar olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avrasiya Fondunun nümayəndə heyətinin ölkəmizə bu səfərinin müvəffəqiyyətlə keçəcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri, Avrasiya Fondu Şurasının sədri xanım Sara Keri heyətə daxil olan nüfuzlu iş adamlarını və siyasətçiləri Prezident İlham Əliyevə təqdim etdi, Azərbaycana səfərlərinin uğurla keçməsindən razılıqla söhbət açdı. O dedi ki, fond iqtisadiyyatın özəl sahəsinin inkişafı, o cümlədən kiçik və orta sahibkarlığa yardım, vətəndaş cəmiyyəti, ictimai idarəçilik sahələrində fəaliyyət göstərir. 1996-cı ildə bu fondun Azərbaycanda nümayəndəliyi işə başlayıb, hazırda MDB-nin 12 ölkəsində təmsilçiliyi vardır. Fond əsasən, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilir. Azərbaycanda yerli təşkilatlara qrantlar ayırır.

Xanım Sara Keri fondun respublikamızdakı fəaliyyətini yüksək qiymətləndirdi və Azərbaycan hökumətinin bu fondun fəaliyyətinə göstərdiyi köməkdən razılıqla söhbət açdı.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN UKRAYNAYA SƏFƏRİ

Ukraynada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 15-də Ukrayna Ali Radasının sədri Vladimir Litvinlə görüşmüşdür.

V.Litvin bildirdi ki, ölkələrimiz arasında münasibətlər həm tərəfdaşlıq, həm də dostluq münasibətləri kimi inkişaf edir, parlamentlərimiz arasında yaranmış əlaqələr də yüksək qiymətləndirilməlidir. Ali Radanın sədri qonağı Azərbaycan Respublikasının qarşıdan gələn Müstəqillik günü münasibətilə ürəkdən təbrik etdi.

E.Məmmədyarov rəsmi səfərinin gedişi barədə məlumat verərək, Ukrayna Prezidenti Leonid Kuçma, Baş nazir Viktor Yanukoviç və xarici işlər naziri Konstantin Qrişşenko ilə görüşləri çox uğurlu və səmərəli hesab etdiyini bildirdi. O qeyd etdi ki, ölkələrimiz arasında münasibətlərin böyük perspektivləri var.

Elə həmin gün Azərbaycanın xarici siyasət idarəsinin başçısı vaxtilə təhsil aldığı T.Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutuna getdi, tələbələr qarşısında mühazirə oxudu. Sonra o, respublikamızın bugünkü həyatı, Azərbaycan Prezidenti İlham Əliyevin apardığı xətt sayəsində siyasi, iqtisadi, sosial və humanitar sahələrdə qazanılmış uğurlar barədə ətraflı məlumat verdi. E.Məmmədyarov ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyini və müdrikliyini xüsusi vurğulayaraq dedi ki, o, Azərbaycan üçün diplomatik kadrlar hazırlanması barədə hələ 30 il əvvəl düşünürdü.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də danışaraq, ölkəmizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipini rəsmi Kiyevin dəstəkləməsinin əhəmiyyətini nəzərə çarpdırdı. Sonda o, tələbələrin çoxsaylı suallarına cavab verdi.

"Qızıl Fortuna" Beynəlxalq Reytinq Akademiyasının rəhbərlərindən biri – Dmitri Akimov Ukrayna-Azərbaycan münasibətlərinin inkişafında xidmətlərinə görə Azərbaycan nazirinə diplom və gümüş "Şərəf. Şöhrət. Əmək" Georgi medalını, institutun direktoru L.Quberski isə ali məktəbin Xatirə nişanını təqdim etdi.

Ukrayna Nazirlər Kabinetinin Qəbullar Evində ölkəmizin Kiyevdəki səfirliyi Azərbaycan Respublikasının Müstəqillik günü münasibətilə təntənəli qəbul təşkil etmişdir. Ukraynada rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri E. Məmmədyarov və nümayəndə heyətinin digər üzvləri, Ukrayna xarici siyasət idarəsinin başçısı K.Qrişşenko, Ukrayna prezidentliyinə namizədlər, Ali Radanın deputatları, nazirlər, Kiyevdə akkreditə olunmuş xarici ölkə səfirləri, elm və mədəniyyət xadimləri, ictimaiyyətin və Ukrayna Azərbaycanlıları Konqresinin nümayəndələri qəbulda iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev açmışdır. Sonra nazirlər E.Məmmədyarov və K.Qrişşenko çıxış etmişlər. Ukraynanın xarici işlər naziri azərbaycanlı həmkarına Ukrayna XİN-in birinci dərəcəli xatirə nişanını təqdim etmişdir.

Qonaqlara beynəlxalq layihənin birinci kitabı - "Dostluq körpüləri. Ukrayna-Azərbaycan" kitabı hədiyyə olundu.

Oktyabrın 16-da səhər Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov və onu müşayiət edən şəxslər Kiyev vilayətinin İrpen şəhərində olmuşlar.

Burada nümayəndə heyətimiz böyük Ukrayna şairi və azadlıq carçısı Taras Şevçenkonun büstü önünə gül dəstəsi qoymuşdur.

Sonra nazir E.Məmmədyarov görkəmli oftalmoloq alim, Azərbaycan xalqının ləyaqətli qızı akademik Zərifə Əliyevanın adını daşıyan parka gəlmiş, onun buradakı abidəsi önünə gül-çiçək qoymuş, parkda ağac əkmişdir.

Sonra Kiyevə qayıdan nazir E.Məmmədyarov ümummilli lider Heydər Əliyevin Azərbaycan səfirliyinin yaxınlığında yerləşən bağçada ucaldılmış abidəsi önünə də gül-çiçək dəstəsi qoymuş, bağçada ağac əkmişdir.

Nazir E.Məmmədyarov sonra səfirliyin əməkdaşları ilə görüşmüş, Ukrayna televiziyası birinci kanalının (UT-1) siyasi icmalçısına məxsusi müsahibə verdi.

Oktyabrın 16-da Azərbaycan xarici siyasət idarəsinin başçısı Bakıya qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜŞAVİRİ, SƏFİR STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Ağstafa rayonunun Böyük Kəsik kəndində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş mərasimdə iştirak edən ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə müşaviri, səfir Stiven Mənni qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"ndə iştirak edən bütün tərəflər üçün əlamətdar hadisənin baş verdiyini bildirdi, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində Birləşmiş Ştatların daimi dəstəyini yüksək qiymətləndirdi.

Bu dəstəyə görə Amerika hökumətinə təşəkkür edən, kəmərin istifadəyə verilməsinin region ölkələrinin iqtisadi tərəqqisində mühüm rol oynayacağını nəzərə çatdıran Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Qafqaz boru kəmərinin Azərbaycan hissəsində tikinti işlərinə başlandığını da xatırlatdı və ABŞ-ın yaxından dəstəyi ilə onun da uğurla başa çatdırılacağına əmin olduğunu bildirdi.

Cənab Stiven Mənn bu əlamətdar hadisələr münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik edərək dedi ki, Birləşmiş Ştatlar Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi ilə bağlı irimiqyaslı layihələrin həyata keçirilməsi sahəsində Azərbaycanla əməkdaşlıqdan məmnundur və bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəkdir.

Söhbət zamanı bütün bu uğurların Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən neft strategiyasının bəhrəsi olduğu xüsusi vurğulandı, bu sahədə hər iki ölkəni maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumrusiya Azərbaycan Konqresinin II qurultayında iştirak etmək üçün oktyabrın 18-də Moskvaya gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Kremldə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşmüşdür.

Dövlətimizin başçısını mehribanlıqla və səmimiyyətlə salamlayan Prezident Vladimir Putin onun Moskvaya işgüzar səfərindən çox məmnun olduğunu qeyd edərək, Azərbaycan Prezidenti ilə ikitərəfli problemlərin müzakirəsi üçün daha bir imkan yarandığını bildirdi və görüşün tam qarşılıqlı anlaşma şəraitində keçəcəyinə əminliyini vurğuladı.

Rusiya Prezidentini yenidən görməyindən məmnunluğunu söyləyən Prezident İlham Əliyev dedi ki, bu, onun prezident seçildikdən sonra Moskvaya üçüncü səfəridir və bu səfərlər ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayır.

Azərbaycanla Rusiya arasında mal dövriyyəsinin dinamik şəkildə artmasından razılığını bildirən Prezident İlham Əliyev, eyni zamanda, ikitərəfli siyasi dialoqun da yüksək səviyyədə olduğunu vurğuladı və dedi ki, bütün bunlar xalqlarımızın mənafeyi naminə əlaqələri inkişaf etdirmək üçün geniş imkanların mövcudluğunu sübut edir.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya öz səylərini artıracaqdır.

Prezident Vladimir Putin Azərbaycan dövlətinin başçısına müraciətlə dedi: "Mən çox şadam ki, Sizin Moskvaya səfərinizin şəxsi aspekti var. Mənə məlumat verdilər ki, Sizi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun 60 illiyinə həsr olunmuş mərasimdə çox böyük hərarətlə qarşılayıblar. Siz artıq özünüzü moskvalı kimi hiss edirsiniz".

Dövlətimizin başçısı ömrünün 10 ilinin həmin institutla bağlı olduğunu və burada çoxlu dostlar qazandığını xatırlatdı.

Görüşdə Prezident İlham Əliyevin 2004-cü ilin fevralında Rusiyaya səfəri zamanı əldə olunmuş razılaşmaların həyata keçirilməsi, mal dövriyyəsinin iki dəfə artırılması barədə qarşıya qoyulmuş vəzifənin icrası, terrorizmə qarşı mübarizə sahəsində Rusiya və Azərbaycanın birgə fəaliyyətinin gücləndirilməsi perspektivləri də müzakirə olundu. Tərəflər beynəlxalq terrorizmə qarşı mübarizədə bütün dünya ictimaiyyətinin səylərinin artırılmasının zəruriliyini bildirdilər.

Dövlət başçıları habelə Qafqaz regionunda vəziyyətlə əlaqədar fikir mübadiləsi apardılar. Rusiya Prezidenti Vladimir Putin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində prezidentlər səviyyəsində keçirilən görüşlərin davam etdirilməsini alqışlayaraq söylədi ki, Rusiya bu münaqişənin məqbul həlli yollarının tapılması üçün tərəflərə fəal yardım etməyə hazırdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN II QURULTAYINDA İŞTİRAK ETMİŞLƏR

Oktyabrın 19-da Moskvada, İttifaqlar Evinin sütunlu salonunda Ümumrusiya Azərbaycan Konqresinin II qurultayı keçirilmişdir.

Qurultay nümayəndələri və qonaqlar əvvəlcə foyedəki stendlərlə tanış oldular. Azərbaycanla Rusiya arasında tarixi dostluq münasibətlərini əks etdirən fotoşəkillər buraya gələnlərdə böyük maraq doğururdu. Soydaşlarımızın, Rusiya ictimaiyyəti nümayəndələrinin səmimi, işgüzar söhbətləri, yaxşı əhval-ruhiyyə xoş münasibətlərin heç də ötəri xarakter daşımadığını, xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin hər iki ölkə üçün vacibliyini bir daha nümayiş etdirirdi. Bu münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsində Rusiyada yaşayan, bu ölkənin ictimai-siyasi və iqtisadi həyatında öz yeri olan soydaşlarımızın, xüsusilə ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü və qayğısı sayəsində yaradılmış Ümumrusiya Azərbaycan Konqresinin də mühüm rolu vardır. ÜAK yarandığı vaxtdan bəri böyük inkişaf yolu keçmiş və hazırda Rusiyanın nüfuzlu ictimai təşkilatlarından birinə çevrilmişdir.

ÜAK-ın II qurultayında Rusiya Federasiyasının bütün regionlarından soydaşlarımız, digər MDB ölkələrindəki Azərbaycan diasporlarının təmsilçiləri, Moskva şəhərinin meri Yuri Lujkov və başqa rəsmi şəxslər iştirak edirdilər.

Salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Rusiya Federasiyasının Prezidenti Vladimir Putini hərarətli alqışlarla qarşıladılar.

Rusiya və Azərbaycan prezidentləri qurultayda nitq söylədilər.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Sizin forumun qonağı olmaq dəvətinə görə Ümumrusiya Azərbaycan Konqresinin rəhbərliyinə təşəkkür edir, onun həm rusiyalı iştirakçılarını, həm də bizə dost olan Azərbaycandan Moskvaya gəlmiş bütün qonaqlarını salamlayıram.

Mən bəri başdan iki məqamı vurğulamaq istərdim. İlk növbədə, Rusiyada biz Azərbaycan icmasını dövlətlərimiz arasında münasibətlərin möhkəmlənməsinin mühüm amili hesab edirik, onun təşəbbüsləri həm siyasi əməkdaşlığımızın, həm də işgüzar əməkdaşlığımızın xeyrinədir. İkincisi, biz hamımız bilirik ki, - mən burada yüksək üslubda danışmaq istərdim, - Konqres Azərbaycan xalqının görkəmli oğlu və ölkəmizin, Rusiyanın səmimi, həqiqətən səmimi dostu Heydər Əlirza oğlu Əliyev tərəfindən yaradılmışdır. Bizim hamımızın sevdiyi və hörmət etdiyi insanın oğlunun - Azərbaycan Prezidentinin burada olmasının nəinki ciddi rəmzi mənası var, həm də xalqlarımız arasında münasibətlərin varisliyinə, ən səmimi dostluğa və tərəfdaşlığa sübutdur.

Əziz dostlar, yüzilliklər ərzində Rusiya və Azərbaycan xalqlarının, mübaliğəsiz, ümumi

tarixi taleyi olmuşdur. Biz, neçə deyərlər, bir ailədə birlikdə işləmiş və yaşamışıq, çətin anlarda bir-birimizi daim dəstəkləmişik. Gələn il ümumi böyük bayramımızı - Böyük Vətən müharibəsində qələbənin 60 illiyini də birlikdə qeyd edəcəyik. Azərbaycan xalqının Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş yarım milyondan çox oğul və qızının hünərləri haqqında xatirə Rusiyada daim yaşayacaqdır. Biz qələbə üçün neft mədənlərindən strateji yanacaq göndərmiş, ordunu silah, döyüş sursatı, ərzaq ilə təchiz etmiş arxa cəbhə işçilərinin fədakar əməyindən də yaxşı xəbərdarıq. Müharibədən sonrakı illərdə Bakı neftçiləri Sibirin yataqlarının işlənilməsinə kömək etmiş, ölkənin güclü yanacaq-energetika kompleksinin əsaslarını qoymuşlar. On minlərlə rusiyalı mütəxəssis isə Azərbaycanın istehsal, aqrar potensialını möhkəmləndirmiş, yeni ali məktəblər və elmi mərkəzlər yaradılmasına kömək etmişlər.

Rusiyada ürəkdən istəyirlər ki, Azərbaycan sabit, təhlükəsiz, iqtisadi cəhətdən güclü dövlət olsun. Yalnız iqtisadi cəhətdən müstəqil ölkələr nüfuzlu, Rusiya üçün çox vacib olan müstəqil və deməli, xalqlar arasında mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq siyasəti formalaşdıra və həyata keçirə bilərlər. Rusiya da məhz belə ölkələrlə qonşu olmaq istəyir, Rusiya Azərbaycanın məhz belə olmasını istəyir. Əminəm ki, biz böyük zəhmət və qan bahasına əldə edilmiş mehriban qonşuluq və əməkdaşlıq kimi çox dəyərli nailiyyətimizi qoruyub saxlamalı və inkişaf etdirməliyik, xalqlarımızın nümayəndələri üçün hər cür şərait yaratmalıyıq, əlimizdən gələni etməliyik ki, Azərbaycanda yaşayan ruslar və Rusiyada yaşayan azərbaycanlılar özlərini rahat hiss etsinlər. Bütün bunlar xalqlarımızın həm indiki firavanlığının, həm də gələcək tərəqqisinin çox mühüm amilləridir.

Sizin Konqres Azərbaycan diasporunun tanınmış və nüfuzlu təşkilatıdır. Siz mədəni-maarifçilik fəaliyyəti ilə məşğul olursunuz, sosial uyğunlaşma proqramlarına kömək edirsiniz, bir çox başqa istiqamətlərdə çalışırsınız. Biz də Rusiya cəmiyyəti həyatının bütün sahələrinə Azərbaycan diasporunun töhfəsini yüksək qiymətləndiririk. Bir məsələni də qeyd etmək istəyirəm. Ən böyük və bayaq dediyim kimi, təşəbbüskar diasporlardan biri olan Azərbaycan diasporunun həyat və fəaliyyəti ilə bağlı məsələlər həmişə ikitərəfli siyasi dialoqun diqqət mərkəzindədir. Bununla əlaqədar bu iki dövlətdə vətəndaşların təhsil alması və işləməsi və əlbəttə ki, zəngin milli ənənələrin qarşılıqlı surətdə inkişafı, doğma dilin, doğma mədəniyyətin öyrənilməsi üçün geniş, bərabər hüquqlu imkanlar yaradılmasını mühüm strateji vəzifə hesab edirəm. Bunun üçün isə, ilk növbədə, biz birlikdə miqrasiya və əmək münasibətlərinin müasir hüquqi bazasını formalaşdırmalıyıq. Etnik münasibətlər məsələsinin həllinə diasporun nümayəndələrini cəlb etmək də bu gün mühüm vəzifələrdən biridir. Təkcə dövlət orqanları deyil, cəmiyyət də əcnəbilərə nifrətin və dini dözümsüzlüyün hər cür təzahürlərinə dərhal öz münasibətini bildirməli, məişət səviyyəsində millətçiliyin hələ də rast gəlinən təzahürləri ilə qətiyyətlə mübarizə aparmalıdırlar.

Rusiyada da, Azərbaycanda da xalqların qarşılıqlı hörmət, millətlərarası və konfessiyalararası həmrəylik ənənələrini qoruyub saxlayırlar. Sizin Konqres də digər ictimai, dini, maarifçilik təşkilatları ilə bir yerdə bu işə öz ciddi töhfəsini verə bilər.

Bir daha qeyd edirəm ki, bu işin səmərəliliyi Konqresin ölkəmizin həm vətəndaş cəmiyyəti təsisatları ilə, həm də dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətindən çox asılıdır.

İqtisadi əməkdaşlığımız haqqında da bir neçə söz demək istərdim. İndi əlaqələr - Rusiya və Azərbaycan müəssisələri arasında əvvəlki əlaqələr fəal surətdə bərpa edilir və yeni kooperasiya əlaqələri meydana gəlir. Sərmayələrin həcmi artır, regionların xətti ilə birbaşa əlaqələr genişlənir. 2003-cü ildə qarşılıqlı əmtəə dövriyyəsi təxminən 40 faiz artaraq, yarım milyard dollardan çox olmuşdur. Lakin hər iki ölkənin hökumətləri bu müsbət meyli nəinki möhkəmlətməli, həm də mütləq irəliləməlidirlər. Onlar Rusiyanın və Azərbaycanın işgüzar mənafelərinin üçüncü ölkələrin bazarlarında irəliləməsinə qarşılıqlı köməyin yolları barədə düşünməlidirlər.

Nəhayət, bizim münasibətlərimizdə mədəni və humanitar əməkdaşlıq xüsusi yer tutmalıdır. Mədəniyyət günlərinin, teatrların və musiqi kollektivlərinin qastrollarının keçirilməsi, digər yaradıcılıq layihələri iki xalqın bir-birinin həyatı barədə biliklərini zənginləşdirir. Zənnimcə, siz bununla razılaşarsınız ki, bu, indi - müstəqil dövlətlər kimi inkişaf etdiyimiz bir dövrdə xüsusilə vacibdir. Əlbəttə ki, elmi əlaqələrin, gənclər, təhsil mübadilələrinin, birgə idman yarışları keçirilməsinin olduqca böyük əhəmiyyəti var. Bütün bunlar siyasi dialoq üçün, tərəfdaşlığımızı möhkəmlətmək üçün ciddi bazadır. Bütün bunlar dövlətlərarası münasibətlərin inkişafı üçün əlverişli mühit yaradır.

Əminəm ki, sizin Konqres, ümumən, Azərbaycan diasporu iqtisadi, işgüzar əməkdaşlığımızın səmərəliliyini nəzərəçarpacaq dərəcədə yüksəltməyə, humanitar əlaqələrin inkişafına, dövlətlərimiz arasında münasibətlərdə etimad ruhunun möhkəmlənməsinə ciddi təsir göstərməyə qadirdir.

Hörmətli dostlar, biz başqa bir məsələni də unutmamalıyıq. Tərəfdaşlığımızın səmərəliliyi Müstəqil Dövlətlər Birliyində müsbət proseslərin gedişinə birbaşa təsir göstərir. Ölçülüb-biçilmiş xarici siyasət xətti, bir çox məsələlərdə vahid mövqelər beynəlxalq aləmdə işimizin səmərəsini yüksəldir, dünyada Rusiyanın da, Azərbaycanın da nüfuzunu, onların əhəmiyyəti və rolunu yüksəldir. Bundan başqa, biz beynəlxalq terrorizmlə mübarizədə səngərin bir tərəfindəyik. Bu bəla vətəndaşlarımız üçün, bütün Avrasiya məkanı üçün real təhlükə törədir. Ölkələrimizdə bu təhlükənin nə demək olduğunu yaxşı bilirlər. Odur ki, ümumi vəzifəmiz həqiqi antiterror tərəfdaşlığını gücləndirməkdən, terrorçular və onların əlaltıları üçün əlverişli mühit olan millətçiliyin və ekstremizmin hər cür təzahürlərinin qarşısını qətiyyətlə almaqdan ibarətdir.

Daha bir vəzifəni xüsusi qeyd etmək istərdim. Rusiya və Azərbaycan Qafqazda ziddiyyətlərin mürəkkəb və qarışıq düyününü açmaqda sıx əməkdaşlıq edirlər. Bizim ölkəmiz bu bərəkətli diyarın sülh və sabitlik şəraitində inkişafında olduqca maraqlıdır. Bu strateji məqsədə nail olmaq üçün biz sülhyaratma danışıqları sahəsində aktiv fəaliyyətimizi davam etdirmək, onu sizinlə və MDB üzrə digər tərəfdaşlarımızla birlikdə davam etdirmək niyyətindəyik.

Bugünkü Rusiyada M.Maqomayevin, İbrahimbəyovlar kimi yazıçıların və teatr xadimlərinin, rəssam T.Salahovun yaradıcılığını yüksək qiymətləndirir və sevirlər. Biz Salmanov, Məmməd Əliyev kimi alimlərin vətənin elmə verdikləri ciddi töhfələri bilirik. Bu adamların adları və nailiyyətləri, mübaliğəsiz demək olar ki, həm Rusiyanın, həm də Azərbaycanın, rus və Azərbaycan xalqlarının fəxridir. Əminəm ki, ölkəmizin digər vətəndaşları kimi, Rusiyada yaşayan azərbaycanlılar da Rusiyanın möhkəmlənməsinə, onun beynəlxalq nüfuzunun və statusunun yüksəlməsinə bundan sonra da kömək edəcəklər.

Mən sizin qurultaymıza səmərəli iş və uğurlar, bütünlükdə Azərbaycan Konqresinə dövlətlərimizin rifahı naminə, Azərbaycanın və bütün Azərbaycan xalqının tərəqqisi naminə yeni təşəbbüslər arzulayıram.

Çox sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Vladimir Vladimiroviç!

Əziz dostlar!

Bu gün Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayının işində iştirak etməyimə çox şadam. Mən həmçinin çox şadam ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin bu qurultayın işində iştirak edir. Əminəm ki, qurultayın keçirilməsi, habelə Rusiya və Azərbaycan rəhbərliyinin ikitərəfli əlaqələrə, Rusiyadakı azərbaycanlıların və Azərbaycandakı rusların həyat və fəaliyyətinə diqqət yetirməsi dövlətlərimiz arasında dostluq, mehriban qonşuluq əlaqələrinin bundan sonra da möhkəmlənməsinə təkan verəcəkdir.

Konqresin yaradılmasının özü əlamətdar hadisə olmuşdur. Hamımızın bildiyi kimi, azərbaycanlılar Rusiyanın müxtəlif regionlarında çoxdan yaşayırlar. Əlbəttə ki, təşkilatın strukturca formalaşması, regional qurumların əksəriyyətini öz ətrafında sıx birləşdirən güclü təşkilat yaradılması azərbaycanlıların birləşməsi işində, onların Rusiyada gedən ictimai proseslərə daha fəal cəlb edilməsi işində çox mühüm amil olmuşdur.

Ümumrusiya Azərbaycan Konqresinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin xaricdə yaşayan azərbaycanlıların müvafiq qurumlarının formalaşdırılması sahəsində məqsədyönlü siyasətinin bir mərhələsi idi. Bildiyiniz kimi, Heydər Əliyevin qərarı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, habelə dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir. Mən çox şadam ki, Ümumrusiya Azərbaycan Konqresi qısa müddətdə çox güclü, nüfuzlu struktura – bütün regional təşkilatları öz ətrafında birləşdirə bilmiş və istər Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının qorunması məcrasında, istərsə də ikitərəfli əlaqələrimizin genişlənməsi və möhkəmlənməsi məcrasında fəal işləyən struktura çevrilmişdir. Konqres bu istiqamətdə çox mühüm rol oynayır.

Böyük məmnunluqla demək istəyirəm ki, son illər məhz Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin və Azərbaycan Prezidenti Heydər Əlirza oğlu Əliyevin səyləri sayəsində dövlətlərimiz arasında münasibətlər tamamilə yeni səviyyəyə qalxmışdır. İnamla demək olar ki, ölkələrimiz arasındakı müasir mehriban qonşuluq münasibətlərinin bünövrəsini məhz onlar qoymuşlar.

Bizim hamımız Rusiya Prezidentinin Azərbaycana ilk rəsmi səfərini yaxşı xatırlayırıq. Bu səfər böyük uğurla keçdi və ondan sonra qarşılıqlı surətdə faydalı əməkdaşlığın tamamilə yeni perspektivləri açıldı. Biz bir daha əmin olduq ki, Rusiya və Azərbaycan əməkdaşlığın bütün sahələrində çox böyük potensiala malikdirlər. Məhz Vladimir Vladimiroviçin Azərbaycana səfərindən sonra bizim iqtisadi münasibətlərimizdə yeni mərhələ başlandı. Əmtəə dövriyyəsinin inkişafı buna çox yaxşı əyani sübutdur. Rusiyanın

da, Azərbaycanın da iqtisadi potensiallarının çox böyük sürətlə inkişaf etdiyini nəzərə alsaq, deyə bilərik ki, ölkələrimiz iqtisadi dirçəliş və iqtisadi qüdrətin möhkəmlənməsi mərhələsini yaşayırlar və əlbəttə, dövlətlərimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığı üçün yeni perspektivlər açılır.

Ölkələrimizin iqtisadiyyatı həmişə bir-biri ilə sıx bağlı olmuşdur. Bu gün də Rusiya bazarı Azərbaycan malları üçün və Azərbaycan bazarı Rusiya malları üçün, əlbəttə ki, öncül istiqamətlərdir. Mən çox şadam ki, iqtisadi əlaqələrimiz elə bir səviyyəyə gəlib çatmışdır ki, bu, bizə əmtəə dövriyyəmizi ikiqat artırmağa imkan verəcəkdir. Bu ilin ilk aylarının nəticələri sübut edir ki, biz bu istiqamətdə çox sürətlə irəliləyirik.

Siyasi əlaqələrin səviyyəsi bu gün ölkələrimizin qarşılıqlı mənafelərinə tam cavab verir. Rusiya ilə Azərbaycan arasında həll olunmamış heç bir problem yoxdur. Vaxtilə mövcud olan problemlərin hamısı artıq arxada qalmışdır və mən bu məsələdə Prezident Vladimir Putinin böyük rolunu xüsusi qeyd etməliyəm. Rusiya ilə Azərbaycan arasında münasibətlər hər iki dövlət müstəqillik qazandıqdan sonra da var idi, lakin məhz Vladimir Vladimiroviç hakimiyyətə gəldikdən sonra bu münasibətlər daha fəal surətdə inkişaf etməyə başlamışdır.

Siyasi planda lap çoxdankı, yığılıb qalmış siyasi dialoqun normal inkişafına mane olan problemlər həll olunmuşdur. Bu gün bir daha böyük sevinclə təkrar etmək istəyirəm ki, ölkələrimiz arasında həll olunmamış heç bir problem yoxdur. Siyasi dialoqun, ünsiyyətin çox yüksək səviyyəsi mövcuddur. Siz bilirsiniz ki, bütün səviyyələrdə, o cümlədən prezidentlər səviyyəsində çox fəal ünsiyyətlər vardır, Azərbaycanda prezident seçkilərindən sonra bu, mənim Rusiyaya üçüncü səfərimdir. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti səviyyəsində, mədəni, elmi səviyyələrdə də çox fəal əlaqələr yaranmaqdadır. Bütün bunların hamısı Azərbaycanın da, Rusiyanın da xeyrinədir.

Biz regional məsələlərdə, dünya siyasəti məsələlərində də çox aktiv qarşılıqlı fəaliyyət göstəririk. Əksər məsələdə baxışlarımız uyğun gəlir. Bu, bizə beynəlxalq aləmdə də vahid mövqelərdən çıxış etməyə imkan verir. Mənə çox xoşdur ki, bütün bu nailiyyətlər adamlarımıza bir-biri ilə daha fəal qarşılıqlı əlaqə saxlamağa, bir-birini daha yaxşı tanımağa imkan yaradır.

Bildiyiniz kimi, Azərbaycanda ruslara münasibət həmişə son dərəcə xeyirxah olmuşdur. Bu gün də belədir. Azərbaycanda heç bir rus məktəbi bağlanmayıbdır. Azərbaycanda yaşayan hər hansı xalqlar barəsində heç vaxt ayrı-seçkilik siyasəti aparılmayıbdır. Deməliyəm ki, Azərbaycanın bütün dövlət ali məktəblərində rus dilində tədris şöbəsi var. Əgər sovet dövrünün statistikası ilə müqayisə etsək, görərik ki, Azərbaycanda rus dilində çıxan qəzetlərin sayı bir neçə dəfə artmışdır. Zənnimcə, Azərbaycan Rusiya televiziya kanalları verilişlərinin sərbəst qəbul edildiyi bir neçə ölkədən biridir.

Bütün bunlar keçmişimizə necə qayğı ilə yanaşdığımıza sübutdur, artıq tamamilə başqa mühitdə, müstəqillik mühitində böyüyüb formalaşan vətəndaşlarımızın yeni nəsillərinin, rusiyalıların və azərbaycanlıların yeni nəsillərinin əsası əvvəlki nəsillər tərəfindən qoyulmuş yaxşı və xeyirxah ənənələri davam etdirməsi üçün bu əlaqələri necə qoruyub saxlamağımıza və möhkəmləndirməyimizə sübutdur.

Bununla əlaqədar, mən bu gün qürur duyduğumuz əməkdaşlığımızın yüksək səviyyədə olmasında çox mühüm rol oynamış daha bir məqamı qeyd etmək istərdim. Bu, ümum-

milli liderimiz mərhum Prezident Heydər Əliyev ilə Vladimir Putin arasındakı şəxsi hörmət, dostluq hissləridir. Onların arasında ən məhrəmanə, ən səmimi dostluq münasibətləri mövcud idi. Mən bunu, necə deyərlər, kimdənsə eşitməmişəm. Əlbəttə ki, indi Rusiyanın və Azərbaycanın tərəfdaşlar, mən deyərdim, strateji tərəfdaşlar olmasına bu münasibətlər də çox kömək etmişdir. Bu istiqamətdə, eləcə də ölkəmizin fəaliyyətinin bütün digər sahələrində Heydər Əliyevin siyasəti davam edir.

Əsası son 3-4 ildə qoyulmuş ənənələrin inkişaf və davam etməsi üçün öz tərəfimdən mən səy göstərirəm və bundan sonra da var qüvvə ilə çalışacağam. Bu ənənələr regionumuza, sülhün hələ tamamilə gəlmədiyi regiona, çox həssas, olduqca özünəməxsus regiona, xüsusi tarixə, xüsusi ənənələrə malik regiona, müxtəlif millətlərin yaşadıqları və əlbəttə ki, özünə çox qayğıkeş münasibət göstərilməsini tələb edən regiona firavanlıq, əmin-amanlıq, dinclik gətirəcəkdir. Əminəm ki, Rusiya və Azərbaycanın regionda riskin azaldılmasına, təhlükəsiz mühit yaranmasına yönəldilmiş fəaliyyəti Qafqaza sülhün, firavanlığın və təhlükəsizliyin gəlməsinə kömək edəcəkdir.

Əziz dostlar, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə bu gün qurultaym işində iştirakına görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Konqresə uğurlar arzulamaq istəyirəm, Rusiyada yaşayan bütün azərbaycanlılara firavanlıq, xoşbəxtlik, müvəffəqiyyətlər arzulamaq istəyirəm. Rusiya sizin vətəninizdir, amma bilin ki, Azərbaycan da vətəninizdir. Biz istəyirik ki, Rusiyada azərbaycanlıların həyatı firavan, zəngin, rəngarəng olsun. Bunu demək bəlkə də artıqdır, əlbəttə, istərdik ki, öz tarixi vətəninizlə saxladığınız əlaqələr də möhkəmlənsin. Mən Rusiyada yaşayan bütün azərbaycanlılara, Azərbaycanda yaşayan bütün ruslara əmin-amanlıq, xoşbəxtlik, firavanlıq arzulayıram.

Sağ olun.

PREZİDENT İLHAM ƏLİYEV MDBMİ (U)-NUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Rusiyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Rusiya Federasiyası XİN-in Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) 60 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

"Rossiya" Dövlət mərkəzi kino-konsert salonunda keçirilən mərasimə Rusiya Federasiyasının dövlət və hökumət nümayəndələri, müxtəlif ölkələrdən dəvət olunmuş qonaqlar gəlmişlər.

Görüşü MDBMİ (U)-nun rektoru Anatoli Torkunov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov açdılar.

S.Lavrov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbrik məktubunu oxudu. Xarici işlər naziri təntənəli mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi xüsusi salamladı.

MDBMİ (U)-nun rektoru Anatoli Torkunov mərasim iştirakçılarına Rusiyanın ən nüfuzlu ali məktəblərindən birinin tarixi və bu günü haqqında ətraflı məlumat verdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə təbrik nitqi söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz müəllimlər və tələbələr!

Əziz dostlar!

Sizin hamınızı – MDBMİ-nin müəllimlərini və tələbələrini şanlı yubiley münasibətilə təbrik edirəm. Mən bu gün burada sizinlə birlikdə olmaq barədə dəvəti böyük məmnunluqla qəbul etdim. Moskvaya bu gün gəldim və elə bu gün də sizinlə birlikdəyəm.

İnstitutda təhsil illəri hər bir kəs üçün yəqin ki, ömrün ən yaxşı illərindəndir. Bu, gənclik illəridir, yetkinləşmə illəridir. Bizim dövrümüzdə, - mən bunu da mühüm hesab edirəm, - institutumuzda dostluq, qarşılıqlı yardım və qarşılıqlı anlaşma mühiti hökm sürürdü. Müəllimlərlə tələbələr arasında münasibətlər çox böyük hörmət əsasında qurulurdu. Çox yüksək tələbkarlıq vardı və bu tələbkarlığı biz hamımız öz üzərimizdə hiss edirdik, xüsusən də təhsilin ilk illərində. Bununla yanaşı, xoş münasibət, həssas münasibət vardı. Müəllimlərimizin bizə təkcə öz biliklərini deyil, həm də diplomat kimi praktiki işdə qazandıqları təcrübəni də öyrətmək arzusu vardı. Təhsillə diplomat olmağı öyrənmək kifayət qədər çətindir. Bu, elə bir peşədir ki, sən onu özünün sonrakı həyatında, karyeranda hiss etməlisən. Amma əlbəttə ki, müəllimlərimizin bizə öyrətdikləri çox böyük bünövrə idi. Ona görə də, bu imkandan istifadə edərək, ilk növbədə, institutumuzda mənə təhsil verənlərin hamısına dərin təşəkkürümü bildirmək və indi çox gərəyim olan bilikləri mənə öyrətdiklərinə görə onlara təşəkkür etmək istərdim. İnstitutumuzda müxtəlif ölkələrdən, o cümlədən SSRİ-nin bütün müttəfiq respublikalarından olan uşaqlar oxuyurdular. MDBMİ-nin məzunları bu gün Azərbaycanda bir çox məsul vəzifələrdə işləyirlər. İndiki halda mən özüm buna canlı nümunəyəm.

Bu ilin fevralında mən Moskvada olarkən böyük məmnuniyyətlə institutumuza gəldim, köhnə dostlarımla görüşdüm, dedim ki, belə görüşlərimiz hələ çox olacaqdır. Mən bu imkandan istifadə edərək, Azərbaycana dəvətimi bir daha təsdiqləmək istəyirəm.

Azərbaycan Rusiya üçün dost ölkədir. Ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir və keyfiyyətcə tamamilə yeni səviyyəyə qalxmışdır. İndi bu münasibətlər ikitərəfli əsasda aktiv qarşılıqlı fəailyyət göstərən, istər regional məsələlərə, istərsə də dünya siyasəti məsələlərinə baxışları, əsasən, uyğun gələn tərəfdaşlar, dost ölkələr arasında olan münasibətlərdir. Mən bu münasibətlərin inkişaf etməsindən çox məmnunam. Bu münasibətlər ölkələrimizin rifahı naminə, xalqlarımızın rifahı naminə inkişaf edir. Rusiyanın və Azərbaycanın, əvvəllərdəki kimi, həmişə dost, tərəfdaş olması, beynəlxalq aləmdə daim aktiv qarşılıqlı fəaliyyət göstərməsi üçün mən öz tərəfimdən bundan sonra da var qüvvə ilə səy göstərəcəyəm.

Bu gün onu da demək mənə xoşdur ki, müxtəlif beynəlxalq tədbirlərdə keçirilmiş çoxsaylı görüşlərdə institutun bugünkü həyatı haqqında çox müsbət, tərifli rəyləri tez-tez eşitmişəm. Bu gün MDBMİ ümumdünya təhsil və elmi tədqiqat mərkəzidir və bu, ikiqat xoşdur. Bu, ömrünün 10 ildən çoxu bu institutla bağlı olmuş insan kimi mənə ikiqat xoşdur. İnstituta bu şan-şöhrəti gələcəkdə də yüksək tutmağı arzulamaq istəyirəm. Gələcəkdə də beynəlxalq aləmdə tanınmış mərkəz olaraq qalmağı arzulamaq istəyirəm. Elə bir mərkəz ki, burada müxtəlif ölkələrin nümayəndələri təhsil alırlar, müxtəlif dövlətlərdən olan tələbələr mehriban ailə şəraitində oxuyur və aralarındakı əlaqələri sonra-

lar heç vaxt itirmirlər. Şəxsən mənim həyatımda, eləcə də bir çox həmkurs dostlarımın həyatında məhz belədir. Bəzən öz həmkurslarınla, dostunla haradasa təsadüfən görüşürsən və buna sevinirsən. Məzunlarımız harada - diplomatiya sahəsində, siyasətdə, biznesdə işləmələrindən asılı olmayaraq, uğurlar qazanırlar. Mən MDBMİ-nin gələcək bütün tələbələrinə, instituta yeni nailiyyətlər, yeni uğurlar arzulayıram, arzu edirəm ki, biz məzunlar fərəhli günlərdə də, bayram günlərində də həmişə birlikdə olaq.

Yubiley münasibətilə bir daha təbrik edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTAR-TASS AGENTLİYİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 19-da Rusiyanın İTAR-TASS agentliyinə gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko, baş direktorun birinci müavini Mixail Qusman və agentliyin əməkdaşları böyük hörmət və ehtiramla qarşıladılar.

Sonra İTAR-TASS-da Prezident İlham Əliyevin agentliyin rəhbərliyi və Rusiyanın digər kütləvi informasiya vasitələrinin başçıları ilə görüşü oldu. Görüşdə çıxış edən İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko Rusiyanın və Azərbaycanın kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu söylədi. O, dövlətimizin başçısına məlumat verdi ki, İTAR-TASS-ın binasında Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın müxbir məntəqəsinin ofisi açılmış və müasir avadanlıqla təchiz edilmişdir. Bildirildi ki, MDB ölkələri arasında ilk dəfə olaraq məhz Azərbaycanın dövlət informasiya agentliyinin Rusiyada bu cür əsaslı nümayəndəliyi açılır. Bu münasibətlə Azərbaycan dövlətinin başçısının İTAR-TASS agentliyinə gəlişi əlamətdar hadisə kimi qiymətləndirildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın kütləvi informasiya vasitələrinin rəhbərləri ilə səmimi söhbət etdi.

Prezident İlham Əliyevə "İTAR-TASS-ın 100 illiyi" xatirə medalı təqdim olundu.

Oktyabrın 19-da axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ELEKTROENERGETİKA ŞURASININ PREZİDENTİ, "RUSİYANIN VAHİD ENERGETİKA SİSTEMİ" SƏHMDAR CƏMİYYƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ ANATOLİ ÇUBAYSI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında MDB Elektroenergetika Şurasının prezidenti, "Rusiyanın Vahid Energetika Sistemi" Səhmdar Cəmiyyəti İdarə heyətinin sədri Anatoli Çubaysı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı onunla əvvəlki görüşünü məmnunluqla xatırladı, ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən elektro-

energetika sahəsində əlaqələrin sürətlə inkişaf etdiyini vurğuladı.

Moskvaya son səfərinin çox səmərəli olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, biz Rusiya Prezidenti Vladimir Putin ilə Kremldə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi barədə fikir mübadiləsi apardıq, qarşılıqlı ticarət dövriyyəsinin artdığını qeyd etdik. Eyni zamanda, ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da genişləndirilməsi üçün səylərin artırılmasının vacib olduğunu vurğuladıq. Bu baxımdan elektroenergetika sahəsində əməkdaşlığımız ümumi münasibətlər çərçivəsində böyük əhəmiyyət daşıyır. Bu sahədə əlaqələr regional əməkdaşlıq prinsiplərinə də uyğundur.

Prezident İlham Əliyev dedi ki, elektroenergetika sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar vardır, hazırda Azərbaycan ilə Rusiya arasında enerji mübadiləsinin həcmi artmaqdadır, bu da əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaradır.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, cənab Anatoli Çubaysın Azərbaycana səfəri ölkələrimizin əməkdaşlığının genişləndirilməsi işinə xidmət edəcəkdir.

Səmimi sözlərə görə minnətdarlığını bildirən Anatoli Çubays cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə onunla ikinci dəfə görüşməsindən böyük şərəf duyduğunu söylədi.

MDB elektroenergetika Şurasının növbəti iclasının oktyabrın 19-da Azərbaycanda müvəffəqiyyətlə keçdiyini vurğulayan qonaq, Energetiklər günü münasibətilə dövlətimizin başçısını və Azərbaycandakı bütün həmkarlarını səmimi qəlbdən təbrik etdi.

Ölkəmizdə elektroenergetika sahəsində böyük işlər görüldüyünü, Bakıya səfəri zamanı "Şimal" DRES-də 400 meqavatlıq buxar-qaz qurğusu ilə tanış olduğunu vurğulayan Anatoli Çubays tam əminliklə bildirdi ki, o, dünyada bu qəbildən ən güclü, səmərəli qurğulardan biri, MDB-də isə yeganədir. Belə bir nəhəng qurğunun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını məmnunluqla xatırladan qonaq dedi ki, bu, məhz Heydər Əliyev kimi dünyamiqyaslı, güclü siyasi xadimin gərgin səyləri nəticəsində mümkün ola bilərdi.

Cənab Çubays Azərbaycan ilə Rusiya arasında təkcə energetika sahəsində deyil, regional əməkdaşlıq sahəsində də uğurlar qazanıldığını nəzərə çarpdırdı. O, Azərbaycanın yaxın gələcəkdə energetika tranziti üzrə çox mühüm ölkəyə çevriləcəyini bildirərək qeyd etdi ki, Azərbaycanın regional əməkdaşlıq sahəsində rolu gündən-günə artır. Anatoli Çubays regional əməkdaşlıq üzrə yaradılan işçi qrupunun bu işlərin daha da sürətləndirilməsinə kömək göstərəcəyini bildirdi.

Qonaq əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq, o cümlədən energetika sahəsində əlaqələr bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Qəbulda Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, MDB Elektroenergetika Şurası İcraiyyə komitəsinin sədri Yevgeni Muşuk iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı bu yaxınlarda onunla keçirdiyi görüşü məmnunluqla xatırladı. Ölkəmizin MDB-də iştirak etmək məsələsinə böyük əhəmiyyət verdiyini vurğulayan Prezident İlham Əliyev Birliyin dövlət başçılarının Astanadakı son zirvə görüşünün yüksək səviyyədə keçdiyini nəzərə çarpdırdı, həmin tədbirin hazırlıq işlərində cənab Ruşaylonun böyük rolu olduğunu qeyd etdi.

Oktyabrın 19-da gecə Moskvaya səfərdən qayıtdığını bildirən dövlətimizin başçısı İlham Əliyev Rusiya Prezidenti Vladimir Putin ilə Kremldə keçirdiyi görüşün çox böyük əhəmiyyət daşıdığını vurğuladı, Rusiya rəhbərinin Astana zirvə görüşündə yekdilliklə MDB-nin sədri seçildiyini xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, Moskvaya budəfəki səfəri zamanı Kremldə Vladimir Putin ilə görüşdə həm ikitərəfli, həm də regional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Prezident İlham Əliyev MDB qərarlarının daha səmərəli şəkildə yerinə yetirilməsi üçün daha işlək mexanizmin yaradılmasının vacibliyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, cənab Ruşaylo MDB-nin səmərəliliyinin artırılması sahəsində səylərini daha da artıracaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq MDB İcraiyyə Komitəsinin gördüyü işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, MDB müşahidəçilərinin Belarusda və Qazaxıstanda keçirilən seçkilərdə iştirakı, Ukraynada və Özbəkistanda keçiriləcək seçkilər barədə müşahidəçilərin planları haqqında ətraflı söhbət açdı.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astanada keçirilmiş zirvə görüşünə toxunan cənab Ruşaylo orada qaldırılan məsələlərin daha səmərəli şəkildə yerinə yetirilməsi məqsədi ilə hazırda böyük işlər görüldüyünü vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYA ŞURASININ MDB İŞLƏRİ ÜZRƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ KONSTANTİN MARKELOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Prezident sarayında Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini, Azərbaycan Respublikası Milli Məclisi və RF Federal Məclisinin Parlamentlərarası komissiyasının həmsədri Konstantin Markelovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Rusiya arasında əlaqələr bütün sahələrdə inkişaf edir. Dövlətimizin başçısı Moskvaya sonuncu səfərini xatırladaraq, Rusiya Prezidenti Vladimir Putinlə Kremldə keçirilmiş görüşünün çox uğurlu və səmərəli olduğunu vurğuladı.

Prezident İlham Əliyev Moskvada Ümumrusiya Azərbaycan Konqresinin II qurultayının da müvəffəqiyyətlə keçdiyini bildirdi, Prezident Vladimir Putinin qurultaydakı çıxışını yüksək qiymətləndirərək dedi ki, hər iki dövlətin rəhbərlərinin bu forumda iştirakı ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Dövlətimizin başçısı vurğuladı ki, qarşılıqlı siyasi, iqtisadi əlaqələrimiz uğurla inkişaf edir, prezidentlər arasında olan səmimi münasibətlər iki ölkənin əməkdaşlığının yaxşı nümunəsidir. Azərbaycan-Rusiya əlaqələrini daha da inkişaf etdirmək üçün böyük potensial vardır.

Prezident İlham Əliyev dedi ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında da əməkdaşlıq uğurla davam edir. Azərbaycan müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin, o cümlədən nazirlərin, qubernatorların, parlament üzvlərinin qarşılıqlı səfərlərinə böyük əhəmiyyət verir. Mən Prezident Vladimir Putinlə görüşdə də vurğuladım ki, hazırda ölkələrimiz arasında həll olunmamış problemlər yoxdur və əlaqələrimiz çox sürətlə inkişaf edir. Azərbaycan Prezidenti qarşılıqlı əlaqələrin gələcəkdə də uğurla davam edəcəyinə əmin olduğunu bildirdi.

Vaxt ayırıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlıq edən cənab Konstantin Markelov təmsil etdiyi Həştərxan vilayəti rəhbərliyinin səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Qonaq vurğuladı ki, Azərbaycan Prezidentinin Moskvaya səfəri Rusiyada çox böyük maraqla izlənilirdi. Səfər çox səmərəli olmuşdur. Hazırda qanunvericilik orqanları qarşısında duran ən əsas vəzifələrdən biri dövlət başçılarının tapşırıqları və tövsiyələrinin real surətdə həyata keçirilməsi üçün müvafiq tədbirlər görməkdən ibarətdir.

K.Markelov dedi ki, Azərbaycan Respublikası ilə Rusiyanın Həştərxan vilayəti arasında konkret iqtisadi əməkdaşlıq vardır. Vilayətdə Nərimanovun adını daşıyan şəhərdə Azərbaycanın bu görkəmli oğlunun abidəsinin qoyulması uğurlu əlaqələrimizin yaxşı nümunəsidir.

Qonaq Həştərxandakı çoxsaylı Azərbaycan icmasının fəaliyyətini də yüksək qiymətləndirdi. O, Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən parlamentlər səviyyəsində əməkdaşlığın sürətlə inkişaf etdiyini bildirərək dedi ki, ölkələrimizin ali qanunvericilik orqanları çox sıx əlaqələr saxlayırlar və müxtəlif məsələlərin müzakirəsində tam qarşılıqlı anlaşma vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN MÜAVİNİ, SƏFİR XANIM LORA KENNEDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin müavini, səfir xanım Lora Kennedini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan və onunla görüşdən məmnun qaldığını bildirən dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etməsində xüsusilə son illər çox böyük uğurlar əldə olunduğunu nəzərə çarpdırdı. Prezident İlham Əliyev dedi ki, bu, həm ikitərəfli, həm də regional əməkdaşlıqda özünü ay-

dın surətdə göstərir. Hər iki ölkə beynəlxalq münasibətlərlə bağlı məsələlərdə çox yaxın mövqedən çıxış edir.

Qlobal enerji layihələrindən bəhs edən dövlətimizin başçısı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi ilə bağlı bu yaxınlarda keçirilmiş mərasimin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev ABŞ hökumətinin bu layihənin reallaşdırılması sahəsində dəstəyini yüksək qiymətləndirdi, bu prosesdə ABŞ-ın rolunu xüsusilə qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, bu, regional əməkdaşlığın gözəl nümunəsi, eyni zamanda, Azərbaycanın ABŞ-la ikitərəfli əlaqələrinin yüksək səviyyəsinin göstəricisidir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, xanım Lora Kennedinin ölkəmizə səfəri Azərbaycan-ABŞ əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan Respublikasının müstəqilliyi günü münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, ABŞ Prezidenti Corc Buşun bu münasibətlə Prezident İlham Əliyevə təbrik məktubu göndərdiyini bir daha nəzərə çarpdırdı.

Xanım Kennedi dövlətimizin başçısı İlham Əliyevi Prezidentlik fəaliyyətinin bir illiyi münasibətilə səmimi qəlbdən təbrik etdi. O, ilk dəfə respublikamızda 1992-ci ildə olduğunu bildirərək, hazırda Bakıya ikinci dəfə gəldiyi zaman Azərbaycanda çox böyük uğurlar və irəliləyişlərin əldə edildiyinin şahidi olduğunu söylədi.

Azərbaycan-ABŞ əməkdaşlığının strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayan qonaq bu əlaqələrin çox böyük sürətlə inkişaf etdiyini bildirdi. Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən xanım Kennedi bu işdə Azərbaycanın ABŞ ilə çiyin-çiyinə mübarizə aparmasının strateji əhəmiyyət daşıdığını nəzərə çarpdırdı.

Bu yaxınlarda Azərbaycanda "Əsrin müqaviləsi"nin on illiyi münasibətilə keçirilən tədbirə toxunan qonaq bunun çox böyük əhəmiyyətli tədbir olduğunu bildirdi. O, Şərq-Qərb enerji dəhlizinin reallaşmasının həm regional əməkdaşlığın inkişaf etdirilməsinə, həm də regionda xalqların firavanlığının yüksəldilməsinə, iqtisadi tərəqqisinə böyük təkan olduğunu söylədi. Xanım Kennedi Azərbaycan xalqının bu layihələrdən çox böyük fayda götürəcəyini qeyd etdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi ilə əlaqədar bu yaxınlarda keçirilmiş tədbirin çox böyük əhəmiyyət daşıdığını bildirən qonaq regional layihələrin reallaşdırılmasında Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirdi. O dedi ki, Azərbaycanın səyləri olmadan bu layihələrin gerçəkləşməsi mümkün deyildir.

Xanım Lora Kennedi Azərbaycanda bütün sahələrdə əldə olunmuş uğurlardan, ölkədə irimiqyaslı islahatların həyata keçirilməsindən çox məmnun qaldığını qeyd etdi. O, Prezident İlham Əliyevin Azərbaycanda 600 min iş yerinin açılması ilə bağlı səylərini yüksək qiymətləndirdi və bu istiqamətdə real addımlar atılmasından məmnunluğunu söylədi. Qonaq Prezident İlham Əliyevin Azərbaycan cəmiyyətində siyasi dialoqa nail olmaq səylərini alqışladı və bunu çox mühüm addım kimi dəyərləndirdi. Bildirdi ki, Prezidentin bu səyləri Azərbaycanda yeni siyasi mühitin yaradılması baxımından çox böyük əhə-

miyyət daşıyır. Qonaq "siyasi məhbus" adlandırılan şəxslərlə bağlı məsələnin Azərbaycanda tam həll edilməsi üçün atılan addımları yüksək qiymətləndirdi.

Xanım Lora Kennedi əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Amerika arasında bütün sahələrdə əlaqələr bundan sonra da sürətlə inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU EDUARD ROSSELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Prezident sarayında Sverdlovsk vilayətinin qubernatoru Eduard Rosseli qəbul etmişdir.

Qonağı səmimi salamlayan dövlətimizin başçısı Bakıda Sverdlovsk vilayəti mədəniyyət günlərinin keçirilməsini Azərbaycan-Rusiya əlaqələri tarixində əlamətdar bir hadisə kimi qiymətləndirdi. Prezident İlham Əliyev bu mədəniyyət günlərinin uğurla davam etdiyini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın Rusiya ilə bütün sahələrdə əlaqələri, o cümlədən Sverdlovsk vilayəti ilə iqtisadi əməkdaşlığı sürətlə inkişaf edir. Rusiya Federasiyasına oktyabrın 18-19-da işgüzar səfərindən danışan Prezident İlham Əliyev bildirdi ki, bu səfər çox uğurlu və səmərəli keçmişdir.

Cənab Eduard Rossel ilə sonuncu görüşünü məmnunluqla xatırlayan dövlətimizin başçısı həmin görüşdə Sverdlovsk vilayətində ölkəmizin konsulluğunun açılması məsələsinin mümkünlüyünün müzakirə edildiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi bu məsələ üzərində ciddi şəkildə işləmişdir və ona verilən məlumata görə, Rusiya Xarici İşlər Nazirliyindən bu məsələnin müsbət həlli barədə cavab alınmışdır.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən Eduard Rossel Sverdlovsk vilayəti ilə Azərbaycan arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etməsindən məmnun qaldığını söylədi, bu əməkdaşlığın əsasının məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu nəzərə çarpdırdı.

Cənab Eduard Rossel Azərbaycanda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi, Sverdlovsk vilayətinin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlardan geniş söhbət açdı. Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə Sverdlovsk vilayəti arasındakı iqtisadi əlaqələr bundan sonra da daim genişlənəcəkdir.

Sverdlovsk vilayətində Azərbaycan konsulluğunun açılması məsələsinə toxunan və bundan çox məmnun qaldığını bildirən qonaq dedi ki, həmin konsulluq böyük bir regionu əhatə edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇXR-İN XARİCİ İŞLƏR NAZİRİ Lİ ÇJAOSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Prezident sarayında Çin Xalq Respublikasının xarici işlər naziri Li Çjaosini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Çinin xarici işlər nazirinin Azər-

baycana səfərinin ikitərəfli münasibətlərimizə dair qarşılıqlı maraq doğuran məsələlərin daha geniş şəkildə müzakirə olunmasına imkan yaradacağını nəzərə çarpdırdı.

Cənab Li Çjaosin ilə keçən il BMT Baş Məclisinin sessiyasında görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin görüşdə ölkələrimizin bir çox sahələrdə əməkdaşlığına dair əhəmiyyətli məsələlərin müzakirə olunduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, həmin görüşdən keçən bir il ərzində ikitərəfli münasibətlərimiz daha da möhkəmlənmiş və inkişaf etmişdir.

Prezident İlham Əliyev dedi ki, biz Çin ilə ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk, siyasi əlaqələrimizin də yüksək səviyyədə olmasından çox məmnunuq. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə Çin daim bir-birilərini dəstəkləyir, ölkəmiz Tayvan məsələsi ilə bağlı həmişə vahid Çin mövqeyindən çıxış edir və bu mövqeyimiz gələcəkdə də dəyişməyəcəkdir.

Qarşılıqlı iqtisadi əlaqələrin də sürətlə inkişaf etdiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi Çin şirkətlərinin ölkəmizə böyük maraq göstərməsini alqışlayır. Ümidvarıq ki, qarşılıqlı surətdə faydalı əlaqələrimiz bundan sonra da inkişaf edəcəkdir.

Azərbaycanın neft sektorunda Çin şirkətlərinin də böyük uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı ölkəmizdə bütün xarici sərmayədarlara, o cümlədən Çin sərmayədarlarına əlverişli şərait yaradıldığını nəzərə çarpdırdı.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ÇXR sərmayədarları ölkəmizin qeyri-neft sektorunda da fəallıqla iştirak edəcəklər.

ÇXR Kommunist Partiyasının yüksək vəzifəli nümayəndə heyətinin Azərbaycana səfərindən və onlarla keçirdiyi görüşdən söhbət açan dövlətimizin başçısı partiyalararası əməkdaşlığın da genişlənməsində hər iki tərəfin maraqlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev bir daha əmin olduğunu bildirdi ki, ÇXR xarici işlər nazirinin ölkəmizə səfərinin əməkdaşlığımızın möhkəmlənməsi baxımından böyük əhəmiyyəti var və bu səfər əlaqələrimizin daha da inkişaf etməsinə xidmət göstərəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Çin Xalq Respublikasının sədri Xu Szintaonun səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Cənab Li Çjaosin dedi ki, ÇXR-in sədri və ümumiyyətlə, Çin rəhbərliyi Prezident İlham Əliyevin Çinə gələn il üçün planlaşdırılmış rəsmi səfərini böyük səbirsizliklə gözləyirlər. Qonaq qeyd etdi ki, dövlətimizin başçısının bu səfəri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Çinə böyük uğurla başa çatmış rəsmi səfərindən sonra ölkələrimizin ikitərəfli münasibətləri tarixində çox böyük hadisə olacaq, dostluq əlaqələrinin daha da möhkəmlənməsi işinə yeni təkan verəcəkdir.

BMT Baş Məclisinin sessiyasında Prezident İlham Əliyevlə görüşünü həmişə çox böyük məmnuniyyətlə xatırladığını bildirən qonaq həmin görüşün onda böyük təəssürat doğurduğunu nəzərə çarpdırdı. O bildirdi ki, bu görüş Azərbaycan rəhbərinin ÇXR-lə əlaqələrə böyük əhəmiyyət verdiyini nümayiş etdirir.

Dost, zəngin və gözəl ölkə olan Azərbaycana ilk səfərindən çox böyük məmnunluq duyduğunu bildirən qonaq dedi ki, respublikamıza bu səfərinin əsas məqsədi Azərbaycanın və Çinin yaşlı nəsil rəhbərləri arasında vaxtilə əldə edilmiş razılıqların yerinə yetirilməsi məsələlərini azərbaycanlı həmkarları ilə birlikdə müzakirə etməkdən ibarətdir. Cənab Li Çjaosin bildirdi ki, onun Bakıya səfəri eyni zamanda, Prezident İlham Əliyevin Çinə qarşıdakı səfərinə siyasi hazırlıq məqsədi daşıyır.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın və Çinin suverenliyi sayəsində dövlətlərimizin bir-birinə böyük etimad və hörmət göstərməsini, bir-birini dəstəkləməsini, qarşılıqlı anlaşmanın mövcud olmasını yüksək qiymətləndirdi. O, Azərbaycanın vahid Çin barədə mövqeyinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

Azərbaycanın Xarici İşlər Nazirliyində keçirdiyi görüşə toxunan qonaq bu görüş zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlıq məsələsinin də müzakirə olunduğunu bildirdi. Cənab Li Çjaosin ölkələrimizin iqtisadi, ticarət əlaqələrinin də daim genişlənməsindən məmnunluq ifadə etdi.

Qonaq ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında dostluq münasibətləri daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

AZƏRBAYCAN İLƏ ÇİN ARASINDA TEXNİKİ-İQTİSADİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Oktyabrın 23-də Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Sənədi Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Əliyev və Çin Xalq Respublikasının xarici işlər naziri Li Çjaosin imzalamışlar. Sazişə əsasən, ÇXR ölkəmizdə sahibkarlığın inkişafı üçün 10 milyon yuan (1 milyon 200 min ABŞ dolları) həcmində qrant ayıracaqdır.

İqtisadi İnkişaf Nazirliyində keçirilən imzalanma mərasimində çıxış edən nazirlər ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı və perspektivlərindən danışmışlar. Bildirilmişdir ki, Azərbaycan müstəqillik qazanandan bəri iki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə ÇXR-ə rəsmi səfəri zamanı aparılmış danışıqlar, imzalanmış sənədlər bu münasibətlərə yeni təkan vermişdir. Xatırladılmışdır ki, son iki il ərzində hər iki ölkənin regionlarının nümayəndə heyətlərinin qarşılıqlı səfərləri həyata keçirilmiş, ÇXR-in Çunsin və Azərbaycanın Sumqayıt şəhərləri arasında əlaqələrin genişləndirilməsi haqqında saziş imzalanmışdır.

İqtisadi əlaqələrin gələcək inkişafı üçün böyük potensialın olduğunu xüsusi vurğulayan nazirlər bundan daha səmərəli istifadə edilməsi üçün maşınqayırma, qara və əlvan metallurgiya, kimya, toxuculuq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, ticarət mərkəzlərinin açılması və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin məqsədəuyğunluğunu bildirmişlər.

Cənab Li Çjaosin respublikamızla əlaqələrin inkişafını yüksək qiymətləndirərək demişdir ki, Azərbaycan Cənubi Qafqazda Çinin birinci tərəfdaşıdır.

Xatırladaq ki, imzalanmış yeni sazişə əsasən alınacaq qrant vəsaiti, ilkin razılığa görə, biznes mərkəzinin tikintisinə sərf ediləcəkdir.

İmzalanma mərasimində Azərbaycanın Çindəki səfiri Yaşar Əliyev, Çinin ölkəmizdəki səfiri Çjan Siyun iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "KEÇİD DEMOKRATİYALARI LAYİHƏLƏRİ" FONDUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ BRYUS CƏKSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında "Keçid demokratiyaları layihələri" fondunun təsisçisi və prezidenti Bryus Cəksonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinə İspaniyanın keçmiş xarici işlər naziri Ana Palasiyo, Yunanıstanın xüsusi tapşırıqlar üzrə səfiri, keçmiş milli təhlükəsizlik üzrə müşaviri Aleks Rondos, Fransa Milli Assambleyasının deputatı Pyer Löluş, Alman Marşall Fondunun sədri Kreyq Kennedi, Alman Marşall Fondunun məsləhətçisi və keşmiş direktoru Dən Tvininq və başqaları daxildirlər.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı bu görüşdən məmnun olduğunu bildirdi və onların Azərbaycana səfərinin uğurla keçəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, yeni müstəqillik qazanmış Azərbaycan Respublikası haqqında dünyada daha geniş məlumatın olması çox əhəmiyyətlidir.

Dövlətimizin başçısı Marşall Fondu çərçivəsində Almaniyada və Türkiyədə keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladaraq, həmin tədbirlərdə bir sıra mühüm məsələlərin müzakirə edildiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə ölkəmizin fəal iştirak etdiyini vurğulayaraq dedi ki, Azərbaycanın əldə etdiyi uğurların, qarşılaşdığı problemlərin və çətinliklərin dünya ictimaiyyətinə çatdırılmasının bizim üçün böyük əhəmiyyəti vardır. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu cür tərkibdə nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan haqqında dolğun məlumatların beynəlxalq aləmdə geniş yayılması işinə xidmət edəcəkdir.

Ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən birinin Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev bu siyasətin dəyişməz olaraq qaldığını nəzərə çarpdırdı. Azərbaycanın bu sahədə böyük uğurlar qazandığını vurğulayan Prezident İlham Əliyev dedi ki, Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının ən fəal üzvlərindən biridir, indən belə fərdi tərəfdaşlıq planı əsasında əməkdaşlıq edəcəkdir. Avropanın nüfuzlu təşkilatları, o cümlədən Avropa Birliyi ilə əlaqələri yüksək qiymətləndirən dövlətimizin başçısı Azərbaycanın bu təşkilatın yeni qonşuluq siyasətinə daxil edilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev dedi ki, ölkəmiz dünyanın müxtəlif nöqtələrində sühlməramlı əməliyyatlarda fəal iştirak edir. Bütün bunlar Azərbaycanın təkcə regionda deyil, ümumilikdə dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə sadiqliyini nümayiş etdirir.

Azərbaycan Prezidenti bir daha ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin səfəri həm ölkəmizin "Keçid demokratiyaları layihələr"i Fondu ilə, həm də Avropa strukturları ilə əməkdaşlığının daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Səmimi qəbula görə dövlətimizin başçısına nümayəndə heyəti adından minnətdarlığını

bildirən İspaniyanın keçmiş xarici işlər naziri Ana Palasiyo Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdən çox böyük məmnunluq duyduqlarını bildirdi. O dedi ki, Avropa ailəsi və Avropa Birliyi Avratlantik strukturlarında Azərbaycanın mövqeyini yüksək qiymətləndirir. Neft boru kəmərləri və digər infrastrukturlar, Avropa Birliyinin yeni qonşuluq siyasətində Azərbaycanın iştirakı – bütün bunlar ölkənin Avropa strukturlarına inteqrasiyasının bariz nümunəsidir.

Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilərkən özünün bu təşkilatın Nazirlər Komitəsinin üzvü olduğunu diqqətə çatdıran qonaq dedi ki, komitənin bütün üzvləri bu qonşuluq siyasətində Azərbaycanın iştirakını vaxtında atılmış mühüm addım kimi qiymətləndirmişlər. Azərbaycanın NATO ilə əməkdaşlığı hamıda belə bir əminlik yaradır ki, o, təkcə enerji layihələrində deyil, həm də regional təhlükəsizliyin və sabitliyin təmin olunmasında fəal iştirak edən bir ölkədir.

Qonaq Azərbaycanın Avropa Şurası və ATƏT kimi nüfuzlu təşkilatların üzvü olduğunu məmnunluqla vurğulayaraq dedi ki, Azərbaycan demokratiyanın inkişafı sahəsində böyük irəliləyişlər əldə etmişdir. O, əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin üzvləri bütün bu proseslər barədə səfər zamanı ətraflı məlumatlar əldə edəcəklər.

Görüşün sonunda Azərbaycan Prezidenti İlham Əliyev "Financial Times" qəzetinin Moskva bürosunun rəhbəri Endryu Cəkin, "Frankfurter Allgemeine Zeitunq" qəzetinin xarici xəbərlər üzrə redaktoru Klaus Diter Frankenburgerin və "Le Figaro" qəzetinin baş müxbiri Lor Mandevilin suallarına cavab verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN AQRAR-SƏNAYE MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏTLƏRARASI ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında MDB-nin Aqrar-Sənaye Məsələləri üzrə Hökumətlərarası Şurasının üzvlərini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı MDB-nin Aqrar-Sənaye Məsələləri üzrə Hökumətlərarası Şurasının iclası kimi çox əhəmiyyətli bir tədbirin ölkəmizdə keçirilməsindən məmnun olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, bu tədbir kənd təsərrüfatı sahəsində qarşılıqlı əməkdaşlıqla bağlı mühüm məsələlərin müzakirəsi, təcrübə mübadiləsinin aparılması və gələcək planların müəyyənləşdirilməsi baxımından çox böyük əhəmiyyət daşıyır.

Dövlətimizin başçısı bildirdi ki, MDB məkanında hələ sovetlər dövründə aqrar-sənaye kompleksləri arasında sıx əlaqələr olmuşdur. Lakin sonralar obyektiv səbəblərə görə, habelə qeyri-peşəkar yanaşma üzündən bu əlaqələr pozulmuş, nəticədə MDB ölkələrinin kənd təsərrüfatına böyük ziyan dəymişdir. Prezident İlham Əliyev dedi ki, kənd təsərrüfatı istehsalçıları üçün MDB bazarları böyük maraq doğurur, ona görə də ölkələrimiz arasında əvvəlki əlaqələrin bərpası və əməkdaşlığın yeni səviyyəsinin təmin olunması çox vacibdir.

MDB-nin əksər ölkələrində iqtisadi yüksəlişin, o cümlədən ümumi daxili məhsulun artmasının, kənd təsərrüfatının dinamik inkişafının aydın müşahidə edildiyini nəzərə

çarpdıran dövlətimizin başçısı bildirdi ki, bu, həmin ölkələrin 1990-cı illərin əvvəllərindəki ağır iqtisadi tənəzzüldən çıxaraq, sürətli inkişafa nail olduqlarını göstərir. Prezident İlham Əliyev dedi ki, əlbəttə, bütün bu proseslər MDB məkanında iqtisadi əməkdaşlığın, o cümlədən aqrar sektorda əlaqələrin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır və Azərbaycan MDB ölkələri ilə əlaqələrin genişləndirilməsi məsələsinə böyük əhəmiyyət verir.

Son illər Azərbaycanda geniş çeşiddə kənd təsərrüfatı məhsulları istehsal olunduğunu xatırladan dövlətimizin başçısı hazırda müasir kənd təsərrüfatı emalı müəssisələrinin yaradılması üçün böyük işlər aparıldığını vurğuladı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan kənd təsərrüfatı sahəsində təcrübə mübadiləsi, əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi işinə böyük əhəmiyyət verir.

Dövlətimizin başçısı Şuranın iclasının ölkəmizdə keçirilməsindən bir daha razılıq edərək əmin olduğunu bildirdi ki, bu tədbir MDB ölkələri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsi işinə kömək edəcəkdir.

MDB-nin Aqrar-Sənaye Məsələləri üzrə Hökumətlərarası Şurasının sədri, Rusiya Federasiyasının kənd təsərrüfatı naziri Aleksey Qordeyev səmimi qəbula görə Şuranın üzvləri adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, nümayəndə heyətinin üzvlərini - MDB ölkələrinin aqrar-sənaye sahəsi üzrə yüksək vəzifəli şəxslərini və Rusiya aqrar-sənaye kompleksinin aparıcı strukturlarının rəhbərlərini Prezident İlham Əliyevə təqdim etdi.

Hazırda Bakının MDB-nin kənd təsərrüfatı mərkəzinə çevrildiyini nəzərə çarpdıran nazir bu sahədə görülən işlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O dedi ki, Şuranın iclasının keçirilməsindən məqsəd kənd təsərrüfatı məhsulları istehsalı, aqrar-sənaye biznesi və inteqrasiya məsələlərini ətraflı müzakirə etməkdən ibarətdir. Cənab Aleksey Qordeyev Bakıda keçirdikləri səmərəli görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycanda kənd təsərrüfatı sahəsində əldə edilmiş uğurları yüksək qiymətləndirən qonaq ölkəmizdə fermerlərin, kənd təsərrüfatı işçilərinin vəziyyətinin yüksək səviyyədə olmasından məmnun qaldığını vurğuladı. Respublikamızda kənd təsərrüfatı sahəsində ölçülüb-biçilmiş siyasətin həyata keçirildiyini nəzərə çarpdıran cənab Aleksey Qordeyev Azərbaycanda kənd təsərrüfatı işçiləri üçün nəzərdə tutulmuş imtiyazların və vergi sahəsində güzəştlərin böyük əhəmiyyət daşıdığını bildirdi.

Ölkəmizdə büdcənin böyük bir hissəsinin aqrar sektora yardıma yönəldildiyini yüksək dəyərləndirən qonaq kənd təsərrüfatı işçilərinin əmək haqqı göstəricilərinə görə Azərbaycanın MDB ölkələri sırasında ilk yerlərdə durduğunu nəzərə çarpdırdı. O, Azərbaycan Prezidenti İlham Əliyevin kənd təsərrüfatında islahatlarla bağlı imzaladığı fərman və sərəncamların tədbir iştirakçıları tərəfindən həvəslə müzakirə edildiyini və böyük rəğbətlə qarşılandığını vurğuladı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin kənd təsərrüfatı sahəsində çalışan insanlara böyük diqqət və qayğı göstərdiyini xatırladan Rusiya naziri hazırda Azərbaycanda aqrar bölmədə qazanılmış uğurların digər ölkələr üçün də nümunə olduğunu bildirdi.

Vaxtilə Rusiya və MDB-nin digər ölkələrinin bazarlarının ənənəvi olaraq Azərbaycanın kənd təsərrüfatı məhsulları ilə təchiz edildiyini razılıqla xatırlayan nazir keyfiyyətinə görə bunların dünyanın bir çox ölkələrinin məhsullarından yüksək olduğunu söylədi. O dedi ki, bu gün Rusiyada və MDB-nin digər ölkələrində Azərbaycanın kənd təsərrüfatı məhsullarına böyük tələbat vardır.

Nazir Şuranın iclasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın konkret məsələlərinin geniş müzakirə ediləcəyini nəzərə çarpdırdı.

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Moldova Respublikasının Prezidenti Vladimir Voronin oktyabrın 26-da ölkəmizə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 26-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı Moldova Prezidentini səmimiyyətlə salamlayaraq, dəvətini qəbul edib Bakıya rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirdi. Bu səfəri yüksək qiymətləndirən Prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, aparılacaq danışıqlar, imzalanacaq sənədlər Azərbaycan ilə Moldova arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin gələcək inkişafına böyük təkan verəcəkdir. Dövlətimizin başçısı Moldova rəhbərinin ölkəmizə rəsmi səfərinin uğurla keçəcəyinə ümidvar olduğunu bildirdi.

Bakıya rəsmi səfərə dəvətə, Azərbaycan paytaxtında özünə və Moldova nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq edən Prezident Vladimir Voronin dost ölkələr arasında münasibətlərin inkişafına böyük önəm verdiyini vurğuladı.

Prezidentlər məmnunluqla xatırlatdılar ki, müstəqillik illərində ölkələrimiz arasında əlaqələr xeyli möhkəmlənmiş və genişlənmişdir. Azərbaycan və Moldova həm MDB və GUÖAM çərçivəsində, həm də BMT-də və digər beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirlər. Hazırda ölkələrimizdə iqtisadiyyat sürətlə inkişaf edir ki, bu da gələcəkdə birgə layihələrin həyata keçirilməsinə əlverişli imkan yaradır.

Dövlət başçıları xüsusi vurğuladılar ki, Azərbaycan və Moldova təcavüzkar separatizmin nəticəsi olan işğala məruz qalmışlar. Buna son qoyulması, ölkələrimizin ərazi bütövlüyünün beynəlxalq hüquq normaları əsasında bərpa edilməsi üçün beynəlxalq təşkilatların səylərinin gücləndirilməsi vacibdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 26-da, təkbətək görüşdən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü oldu.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV Moldova Prezidentinə və Moldova nümayəndə heyətinin üzvlərinə müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Mən sizi bir daha salamlamaq və sizə "Xoş gəlmisiniz!" demək istərdim. Biz Moldova Prezidentinin Azərbaycana səfərinə böyük əhəmiyyət veririk. Xalqlarımız arasında həmişə çox səmimi münasibətlər olub, biz bir çox illər ərzində fəal əməkdaşlıq etmiş, görüşmüş, təcrübə mübadiləsi aparmışıq. Əlbəttə, çox mühümdür ki, Moldova və Azərbaycan müstəqilliyə qovuşduqdan sonra bu əlaqələri itirmədilər. Bu əlaqələr itirilmədi, əksinə, hətta deyərdim ki, indi əməkdaşlığımız tamamilə yeni səviyyəyə yüksəlir. Biz ikitərəfli formatda fəal əməkdşalıq edirik, müxtəlif beynəlxalq təşkilatların, o cümlədən ölkələrimizin fəal əməkdaşlıq etdikləri GUÖAM kimi təşkilatın üzvləriyik. İqtisadi əməkdaşlıq sahəsində yaxşı perspektivlər var.

Vladimir Nikolayeviç, bu gün biz Sizinlə ölkələrimizin iqtisadi təsərrüfatında işlərin vəziyyəti barədə məlumat mübadiləsi apardıq və məmnunluqla qeyd etdik ki, Moldovada da, Azərbaycanda da çox ciddi iqtisadi yüksəliş müşahidə olunur. Ölkələrimizin potensialı möhkəmləndikcə, səmərəli ikitərəfli iqtisadi əməkdaşlıq imkanları da artır. Ümidvarıq ki, Sizin səfəriniz və imzalanacaq sənədlər iqtisadi layihələrin tam həyata keçirilməsinə təkan verəcəkdir.

Əlbəttə, beynəlxalq qurumlara inteqrasiya proqramlarımız baxımından hər iki ölkə böyük uğurlar qazanmışdır. Lakin bizi birləşdirən problemlər də var. Təəssüf ki, ölkələrimizin ərazilərində təcavüzkar separatizm ünsürləri baş qaldırır və bu, həm regional əməkdaşlıq üçün, həm də regional təhlükəsizlik üçün böyük bəla və təhlükədir. Ümidvarıq ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və hər iki ölkənin ərazi bütövlüyü bərpa ediləcəkdir.

Mənim üçün çox xoşdur ki, Siz böyük nümayəndə heyəti ilə gəlmisiniz və əminəm ki, nazirlərimiz də fəal əlaqə yaradacaq, əməkdaşlıq edəcək, görüşəcəklər. İndiki halda, prezidentlər onlara yaxşı nümunə göstərirlər. Biz Sizinlə MDB çərçivəsində bütün görüşlərimizdə həmişə çox fəal surətdə fikir mübadiləsi aparırıq və zənnimcə, nazirlərimiz bizdən nümunə götürməlidirlər.

Mən bir daha Sizi ürəkdən salamlamaq və arzu etmək istəyirəm ki, səfəriniz uğurlu olsun, Siz vətənə ən xoş təəssüratlarla qayıdasınız.

Moldova Prezidenti VLADİMİR VORONİN qonaqpərvərliyə və səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək dedi:

- Cənab Prezident İlham Əliyev, çox sağ olun!

Hörmətli azərbaycanlı dostlar!

Mən ilk dəfədir ki, Azərbaycandayam və bu, mənim Cənubi Qafqaz dövlətinin paytaxtına ilk səfərimdir. Hərçənd, biz aydınlaşdırmışdıq ki, bu dəfə səfər etmək növbəsi Azərbaycan tərəfinin idi. Lakin biz Prezident Əliyevlə belə razılığa gəldik ki, indi o, iki dəfə dalbadal Moldovaya gələcək və bu da bizi çox qane edir. Bunu rəsmi dəvət kimi qəbul edin.

Həqiqətən, mən Sizinlə razıyam ki, ölkələrimizin və xalqlarımızın taleyində ümumi cəhətlər çoxdur - həm Sovet İttifaqının tərkibində tarixi keçmişimiz baxımından, həm də dövlətlərimizin müstəqillik qazandıqdan sonra təşəkkül tapdığı ağır illərdə baş verən hadisələr baxımından. Lakin bizim əməkdaşlığı və ikitərəfli əlaqələri möhkəmləndirmək üçün çox yaxşı perspektivlərimiz də vardır. Biz beynəlxalq təşkilatlar, MDB çərçivəsində də fəal əməkdaşlıq edirik. Səfərimizin məqsədi də bütün bunlardır. Mən bu səfərə dəvət edildiyimə görə Sizə təşəkkür edirəm və görülmüş böyük hazırlıq işlərinə görə azərbaycanlı həmkarlarıma minnətdarlığımı bildirirəm, cünki bütün səfərlərim ərzində heç bir ölkədə bu qədər sənəd imzalamamışıq.

Ona görə də hesab edirəm ki, həqiqətən, bizim qarşılıqlı surətdə faydalı ikitərəfli əməkdaşlıq üçün çox yaxşı perspektivlərimiz var.

Biz Sizin ölkənizə, xalqınıza həmişə çox böyük hörmətlə yanaşmışıq və yanaşırıq. Moldovada heç də kiçik olmayan diaspor – təxminən 2 min etnik azərbaycanlı var. Ölkəmizin parlamentinin deputatı buradadır, o da azərbaycanlıdır. Qarşılıqlı münasibətlərimizin dərinləşməsi üçün digər çoxlu imkanlar da mövcuddur. Zənnimcə, nazirlərimizin, rəhbər işçilərimizin şəxsi tanışlığı daha geniş əməkdaşlığa xidmət edəcəkdir. Hesab edirəm ki, biz əməkdaşlığın yeni yollarını tapa biləcəyik. Bizim Sizinlə BMT çərçivəsində ölkələrimizin dəstəklənməsi, ayrı-ayrı namizədlərin irəli sürülməsi, habelə qətnamələrin qəbul edilməsi baxımından çoxlu vəzifələrimiz var. Ən kədərlisi budur ki, ümumi problemimiz də mövcuddur: ərazi bütövlüyü məsələsi həll edilməyibdir. Bizim Dnestryanı bölgə problemimiz, Sizin isə öz separatçılarınız var. Bunlar çox ağrılı məsələlərdir.

Nümayəndə heyətimizin tərkibinə Qaqauziyanın başqanı da daxildir. Demək istəyirəm ki, dekabrın 23-də biz Qaqauziya muxtariyyətinin 10 illiyini qeyd edəcəyik. Bu, muxtar ərazi qurumu probleminin sülh yolu ilə həlli sahəsində Avropada ilk nümunədir. Biz bu muxtariyyətin normal inkişaf etməsinə, orada yaxşı iqtisadi baza olmasına çox böyük diqqət yetiririk.

AZƏRBAYCAN-MOLDOVA SƏNƏDLƏRİNİN İMZALANMASI

Oktyabrın 26-da, geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Moldova prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Moldova Prezidenti Vladimir Voronin Azərbaycan Respublikası və Moldova Respublikası arasında Birgə Bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən əmək və əhali-

nin sosial müdafiəsi naziri Əli Nağıyev, Moldova tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri Valerian Revenko imzaladılar.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikasının Kənd Təsərrüfatı və Qida Sənayesi Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən kənd təsərrüfatı naziri İsmət Abasov, Moldova tərəfindən Baş nazirin müavini, kənd təsərrüfatı və qida sənayesi naziri Dumitru Todoroqlo, Azərbaycan Respublikasının hökuməti və Moldova Respublikasının hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Moldova tərəfindən iqtisadiyyat naziri Marian Lupu imzaladılar.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov, Moldova tərəfindən ədliyyə naziri xanım Viktoriya İftodi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında 2005-2006-cı illər üçün məsləhətləşmələr planını və Azərbaycan hökuməti və Moldova hökuməti arasında vətəndaşların qarşılıqlı gediş-gəlişi haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Moldova tərəfindən xarici işlər naziri Andrey Stratan imzaladılar.

Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov və Moldova Baş nazirinin müavini, kənd təsərrüfatı və qida sənayesi naziri Dumitru Todoroqlo Azərbaycan Respubilkası hökuməti və Moldova Respublikası hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında sazişi, Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqaviləni Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov, Moldova tərəfindən ədliyyə naziri xanım Viktoriya İftodi imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 26-da Prezident sarayında Azərbaycan-Moldova sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Vladimir Voroninin birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Prezident Vladimir Nikolayeviç Voronin başda olmaqla, Moldova nümayəndə heyətini bir daha salamlamaq və "Azərbaycana xoş gəlmisiniz!" demək istəyirəm.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk və əminik ki, o, ölkələrimiz və xalqlarımız arasında çox dərin kökləri olan mehriban dostluq əlaqələrinin inkişafı və möhkəmlənməsi işinin davamlı təməlini qoyacaqdır. Fərəhli haldır ki, bu əlaqələr itirilməmişdir, mövcuddur, möhkəmlənir və ümidvaram ki, gələcəkdə də möhkəmlənəcəkdir. O cümlədən bu gün imzalanmış sazişlər də qarşılıqlı surətdə faydalı əməkdaşlığı daha tam həcmdə həyata keçirməyimizə imkan verəcəkdir.

Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Moldova və Azərbaycan beynəlxalq aləmdə də, beynəlxalq təşkilatlar çərçivəsində də bir-birini dəstəkləyirlər. Biz GUÖAM təşkilatı, digər beynəlxalq qurumlar çərçivəsində çox fəal əməkdaşlıq edirik, ölkələrimizi və xalqlarımızı düşündürən məsələlərdə bir-birimizi həmişə dəstəkləyirik.

Əlbəttə, bizi ölkələrimizdəki mövcud ümumi problemlər də yaxınlaşdırır. Təəssüf ki, ölkələrimiz təcavüzkar separatizm halları ilə, ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin pozulması ilə qarşılaşmışlar. Əlbəttə, biz bu proseslərin necə böyük təhlükə olduğunu başa düşürük. Azərbaycan Ermənistanın təcavüzündən, ərazilərimizi işğal etməsindən çox böyük ziyan çəkmişdir.

Ərazilərimizin 20 faizindən çoxu işğal altındadır, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Biz, əlbəttə, ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etməyə səy göstəririk. Biz diqqətin bu məsələyə cəlb edilməsi, beynəlxalq hüququn zəfər çalması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standartlara son qoyulması üçün beynəlxalq birliyin daha çox səy göstərməsinə çalışırıq.

Biz bilirik ki, keçmiş SSRİ məkanında - Abxaziyada, Cənubi Osetiyada, Dnestryanı bölgədə, Dağlıq Qarabağda – bir neçə bu cür münaqişə ocağı vardır. Əlbəttə, beynəlxalq təşkilatlar bütün bu münaqişələrə eyni prizmadan yanaşmalıdırlar, həmin münaqişələrə, onların nizama salınması yollarına yanaşmalarında heç bir fərq qoyulmamalıdır.

Ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün də yaxşı potensial mövcuddur. Hələlik bu sahədə öyünməyə elə bir əsas yoxdur. Lakin mən əminəm ki, aparılan danışıqlar, imzalanmış sazişlər, habelə fəal işləyəcəyinə ümid etdiyim hökumətlərarası komissiya ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması üçün yaxşı baza yaradacaqdır. Biz Vladimir Nikolayeviçlə həm təkbətək görüşdə, həm də geniş heyətdə görüşdə fikir mübadiləsi apardıq və belə bir qənaətə gəldik ki, Moldova da, Azərbaycan da iqtisadi cəhətdən çox sürətlə inkişaf edirlər. İqtisadi potensiallarımız möhkəmlənir, sosial və iqtisadi inkişaf xarakterli bir çox məsələlər həll olunur. Potensiallarımızın möhkəmləndiyi şəraitdə, əlbəttə, iqtisadiyyatda əməkdaşlıq üçün yeni perspektivlər açılır. Ümidvaram ki, biz buna nail olacağıq və ölkələrimiz arasında əmtəə dövriyyəsi artacaqdır.

Biz xarici siyasət, Avropada inteqrasiya proseslərinin müzakirəsi ilə əlaqədar keçirdiyimiz məsləhətləşmələrə də çox böyük əhəmiyyət veririk. Həm Moldova, həm də Azərbaycan beynəlxalq qurumlara inteqrasiya prosesini həyata keçirirlər. Biz Moldovaya görə çox şadıq ki, o, keçmiş SSRİ respublikaları və MDB dövlətləri arasında Avropa Birliyinə inteqrasiya yolunda ön sıradadır.

Bu, çox böyük nailiyyətdir və Moldova rəhbərliyinin, onun Prezidentinin müdrik siyasətinin nəticəsidir. Bu, bizi çox sevindirir və bildiyiniz kimi, Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün öz tərəfimizdən çox mühüm səylər göstəririk.

Bizim aramızda çox açıq, dostcasına fikir mübadiləsi oldu, bir çox məsələləri müzakirə etdik. Mən həmçinin qeyd etməyə çox şadam ki, Vladimir Nikolayeviçin dediyi kimi, bu, onun Qafqaz regionuna ilk səfəridir və mənə çox xoşdur ki, bu ilk səfər bizim ölkəmizə edilmişdir.

Moldova Prezidentinin buraya belə mötəbər nümayəndə heyəti ilə gəlməsindən böyük sevinc hissi keçirdiyimi bir daha ifadə etmək istəyirəm. Vladimir Nikolayeviçin dəvətimi qəbul edib buraya gəldiyinə görə məmnunluğumu və təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu səfər gələcəkdə ölkələrimizin inkişafında çox mühüm mərhələ olacaqdır.

Sağ olun.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI

- İlham Heydər oğlu, sağ olun.

Biz, həqiqətən, böyük həvəslə, böyük maraqla və yaxşı əhval-ruhiyyə ilə hazırlaşırdıq və Azərbaycana gəlmək dəvətinizi qəbul etdik. Biz sovet Azərbaycanını xatırlayır və tanıyırdıq, bu gün biz özümüz üçün yeni, suveren Azərbaycan kəşf edirik.

Biz beynəlxalq səviyyədə, Avropa səviyyəsində, MDB səviyyəsində münasibətlərimizdən məmnunuq. İndi ikitərəfli münasibətlərimizdən də məmnunluq duymaq dövrü çatmışdır. Zənnimcə, xaricə səfərlərimiz və Moldovaya edilmiş səfərlər zamanı indicə imzalanmış sənədlər qədər sənəd olmayıbdır. Bu, ölkələrimizin ikitərəfli münasibətləri inkişaf etdirmək və möhkəmlətmək niyyətlərinin ciddiliyinə sübutdur. Şükürlər olsun ki, heç bir parametr üzrə, heç bir mövqe üzrə aramızda hansısa fikir ayrılığı yoxdur. Yalnız münasibətlərimizi möhkəmlətmək məsələsində vahid anlaşma var. Bizim oxşar problemlərimiz var. Moldova da ərazicə parçalanmışdır və bu ərazi parçalanmasına görə çox ciddi həyəcan keçiririk. Ölkəmizin sənaye, iqtisadi və mədəni potensialının 40 faizindən çoxu Dnestr çayının o biri sahilindədir ki, bu da, əlbəttə, dövlətimizin bütün istiqamətlərdə - istər daxili, istərsə də xarici məsələlərdə ardıcıl inkişafına təsir göstərməyə bilməz.

Biz bu problemin sülh yolu ilə həllini axtarırıq. Dekabrın 23-də Qaqauz muxtariyyətinin yaranmasının 10 illik yubileyini qeyd edəcəyik. Bu, müasir Avropada milli azlıqların ərazi qurumları məsələsinin dinc yolla həllinin birinci və təəssüf ki, yeganə nümunəsidir. Biz fəxr edir və sevinirik ki, buna nail olmuşuq. Bu problemə, bu məsələyə həsr olunmuş beynəlxalq konfrans keçirməyə hazırlaşırıq ki, bəlkə separatçılar və onları dəstəkləyən dövlətlər anlayarlar ki, belə nümunə var və onu axtarmaq üçün uzağa getmək lazım deyildir. Yalnız bir çox şeylərdən imtina etmək və ciddi, uzunmüddətli siyasi dövlət quruculuğuna keçmək lazımdır.

Bizim təmas nöqtələrimiz, həqiqətən, çoxdur. Biz də aqrar və sənaye dövlətiyik. Əhalimizin 60 faizindən çoxu kəndlərdə yaşayır, biz bu əraziləri inkişaf etdirməliyik. Orada aqrar və emal sahələrindən başqa digər sahələri tezliklə inkişaf etdirmək mümkün deyil, çünki sərmayə qoymaq, digər imkanlardan istifadə etmək lazımdır, buna isə hələlik gücümüz çatmır. Odur ki, bizim xeyir gətirə biləcək, ölkələrimizin xalqlarının rifahına xidmət edə biləcək ciddi layihələrimiz ola bilər və olmalıdır.

Mənim Heydər Əlirza oğlu ilə çox gözəl şəxsi münasibətlərim var idi, biz onunla dəfələrlə görüşmüşdük. Bu gün Baş nazirlə hava limanından gələrkən xatırladıq ki, mən Heydər Əlirza oğlu ilə ilk dəfə 1974-cü il oktyabrın 12-də, 30 il əvvəl, o, Moldova SSR-in və Moldova Kommunist Partiyasının yaranmasının 50 iliyi münasibətilə ölkəmizə gələrkən tanış olmuşdum. Onunla bağlı çox gözəl və xoş xatirələrim, təəssüratlarım qalıbdır. O, nadir şəxsiyyət, çox maraqlı insan idi. Allah rəhmət eləsin. Mən görürəm ki, müasir Azərbaycanda onun ideyaları həyata keçirilir və xeyirxah işlərdə davam etdirilir. Azərbaycan torpağında bunu görmək çox xoşdur.

Mən bu səfəri həyata keçirmək üçün imkan yaratdığınıza görə təşəkkürümü bildirirəm. Biz Azərbaycan Prezidentini rəsmi səfərə, özü də 4-5 günlük, bir həftəlik səfərə dəvət edirik. Fikir mübadiləsi aparmağa çox şad olarıq, müzakirə etmək üçün bir çox maraqlı məsələlər taparıq.

Bu gün imzalanmış sazişlərin layihələrini hazırlayan azərbaycanlı dostların hamısına təşəkkür edirəm.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Moldova Prezidenti cənab Voroninədir. Moldovanın MDB çərçivəsində inteqrasiya məsələsində mövqeyi və Rusiya, Ukrayna, Belarus və Qazaxıstanın əməkdaşlığı çərçivəsində Vahid iqtisadi məkana daxil olması perspektivləri necədir?

VLADİMİR VORONİN: Son 3 ildə Moldova MDB-nin mövcudluğunun bütün illəri ərzində Birlik çərçivəsində imzalanmış sənədlərin ratifikasiyası üzrə rekordçudur. İndiyədək biz sazişlərin 80 faizindən çoxunu ratifikasiya etmişik. Bu isə MDB-də yüksək fəallığımıza sübutdur. Həmin dövrdə biz müxtəlif zirvə toplantılarının gündəliklərinə bir çox təkliflər irəli sürmüşük və bunlar dövlət başçıları tərəfindən müsbət qarşılanmış bir çox təkliflər irəli sürmüşük və bunlar dövlət başçıları tərəfindən müsbət qarşılanmış və qəbul olunmuşdur. Biz özümüz 2002-ci ildə Kişinyovda zirvə toplantısı təşkil edib keçirdik. Biz daha fəal iştirak etmək və bu iştirakın nəticələrini görmək istərdik.

Biz həmişə mübahisə edir, deyirik ki, MDB daxilində iş mexanizmi səmərəli deyildir, MDB-yə daxil olan ölkələrin bütün başçılarının görmək istədikləri nəticə yoxdur. Biz Avropa qurumlarına inteqrasiya edərkən MDB-dən çıxmaq və ya onun işinə əngəl törətmək fikrində deyilik. Bu, birmənalıdır. Mən bir daha təkrar edirəm ki, xarici siyasətimizin strateji vektoru və dövlətin inkişaf perspektivləri, birmənalı olaraq, Avropaya inteqrasiyadan ibarətdir. Bundan əlavə, İlham Heydər oğluna da demişəm ki, 2002-ci ilin sammitinədək təklif vermişdim ki, MDB çərçivəsində qəbul etdiyimiz sənədləri Avropa Birliyinin standartları üzrə uyğunlaşdıraq və standartlaşdıraq ki, ikiqat iş görməyimizə ehtiyac qalmasın. Mən çox istərdim ki, MDB-nin işində bu məsələlərdə Avropa Birliyinə yaxınlaşaq, yaxud, heç olmasa, bu modellərdən istifadə edək.

O ki qaldı Moldovanın Vahid iqtisadi məkana daxil olmasına, bu, prinsipcə, mümkün deyildir. Nəyə görə? Ona görə ki, 4 ölkədən ibarət olan Vahid iqtisadi məkan həmin dövlətlərin Dünya Ticarət Təşkilatına qoşulması üçün eyni platforma hazırlanması məqsədi ilə təşkil edilmiş və yaradılmışdır. İxrac-idxal əməliyyatlarının həcmlərinə görə onlar MDB-nin qalan üzvləri arasında daha yüksək yer tuturlar. Bu səbəbdən də onlar bütün bunları eyniləşdirməli və DTT-yə daxil olmalıdırlar. Hər halda, ilkin mərhələdə

bu, Vahid iqtisadi məkanın birinci və yeganə vəzifəsidir. Digər vəzifələr, hər halda, bu gün mənə məlum deyildir. Odur ki, biz oraya daxil ola bilmərik və bizdən bunu heç kim xahiş etməmişdir və heç kimdən dəvət almamışıq. Bu saziş MDB üzvləri kimi bizə məlumat verilmədən imzalanmışdır. Vahid iqtisadi məkan Müstəqil Dövlətlər Birliyi daxilində yaradılmışdır. Ona görə də, yaxşısı budur, gəlin, MDB çərçivəsində işi yaxşılaşdıraq və təkmilləşdirək. Bu, daha düzgün qərar olar.

SUAL: Mənim sualım hər iki prezidentədir. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında suverenliyin və ərazi bütövlüyünün təmin edilməsi sahəsində əməkdaşlığın perspektivlərini necə qymətləndirirsiniz? Sağ olun.

İLHAM ƏLİYEV: Biz artıq qeyd etdik, təəssüflər olsun ki, ölkələrimizin ikisi də bu məsələdə ziyan çəkmişdir. Təcavüzkar separatizmin fəaliyyəti nəticəsində Azərbaycanın və Moldovanın ərazi bütövlüyü pozulmuşdur. Əlbəttə, bu məsələdə qarşılıqlı fəaliyyət çox mühüm elementdir. Çünki hər bir ölkənin - həm Moldovanın, həm də Azərbaycanın bu münaqişədə, bu problemdə öz təcrübəsi var. Bu təcrübə müəyyən mənada eynidir, bəzi cəhətlərdən isə müxtəlifdir, lakin bu onun mahiyyətini dəyişmir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, beynəlxalq hüququn əsas prinsipləri kobud şəkildə pozulmuşdur. Dünyanın, əslində, bütün ölkələrini birləşdirən Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri, - indiki halda söhbət Azərbaycandan gedir, - yerinə yetirilmir. Başqa sözlə, bu gün nə BMT-nin, nə də ATƏT-in qərarlarının yerinə yetirilməsi mexanizmi yoxdur. Belə vəziyyətdə, sadəcə olaraq, hüquqi qanunsuzluq və indiki halda Ermənistanın həm beynəlxalq hüququn əsas prinsiplərinə, həm də beynəlxalq təşkilatların qərarlarına məhəl qoymaması meydana çıxır.

Odur ki, bu məsələdə, əlbəttə, bütün beynəlxalq birliyin səylərini birləşdirmək lazımdır. Nail olmaq lazımdır ki, bütün beynəlxalq birlik bu məsələyə böyük diqqətlə yanaşsın və problemin həllində iştirak etsin. Əlbəttə, təcavüzkar ölkəyə və separatçılara qarşı sanksiyalar, özü də kifayət qədər sərt sanksiyalar tətbiq olunmasını nəzərdə tutan mexanizmlər işləyib hazırlamaq lazımdır.

Separatizm qlobal hərəkatdır. Bu hərəkat bir çox ölkələrdə mövcuddur, lakin təəssüf ki, dünya birliyinin həmin problemə münasibətində vahid yanaşma görmürük. Nə qədər ki, ikili standartlar mövcuddur, prinsipial problemlərdən heç biri həll oluna bilməz. Yaxşı və yaxud pis separatçılar ola bilməz. Başqa ölkədə separatizmi dəstəkləyib, öz ölkəndə separatizmlə mübarizə aparmaq qeyri-mümkündür. Bu, heç vaxt uğur gətirməz. İkincisi də, bu, vicdanlı siyasət deyildir. Hesab edirəm ki, həqiqət, tarixi ədalət və beynəlxalq hüquq Moldovanın və Azərbaycanın tərəfindədir və biz ədalətin və beynəlxalq hüququn, ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsinə nail olacağıq.

VLADİMİR VORONİN: Birləşmiş Millətlər Təşkilatında Moldova BMT-nin Dağlıq Qarabağa dair qətnaməsinə səs vermişdir. Moldova parçalanmış bütün ərazilərin bərpası uğrunda ədalətli mübarizəni dəstəkləyir və dəstəkləyəcəkdir. Biz Çinlə Tayvana dair saziş imzalamışıq. Harada problem varsa, biz oradayıq, çünki daimi və səngiməyən bu ağrını daxilən hiss edirik, bu problemi sülh yolu ilə həll edən mübarizənin bütün forma və metodlarına çox həssaslıqla yanaşır və onları dəstəkləyirik.

Həqiqətən, mən Azərbaycan Prezidenti ilə razıyam və əlavə etmək istəyirəm ki. hər şey

millətçilik təzahüründən başlayır. Narazı olan millətçilər öz hüquqları uğrunda ekstremist qüvvələrin köməyi ilə mübarizə aparmağa başlayırlar və bu, separatizmə çevrilir, sonra isə separatizmin yanında, lap yanında terrorizm dayanır. Yəni, onlar qarşıya qoyulan məqsədə istənilən yolla çatmağa can atırlar. Nə üçün bu problem Dnestryanı anklavda həll edilmir? Ona görə ki, hər il bu anklavda 2-3 milyard dollar əllərdə gəzir və bundan kim imtina edər? Bu pullar bölüşdürülmüşdür və müəyyən kanallara gedir. Bu, qaçaqmalçılıq, insan alveridir, silah istehsalı və satışıdır. Mən ilk dəfə 2002-ci ildə Praqada NATO-nun sammitində məsələ qaldırdım və bu problemi Avropanın özünün təhlükəsizliyi üçün böyük əhəmiyyəti olan regional problem adlandırdım. Axı, Moldova Avropanın mərkəzindədir. Təxminən 30 min ton hərbi texnikadan, hərbi təchizat vasitələrindən ibarət cəbbəxanaya malik olmaq zarafat deyildir. Məlum deyil ki, bu, nə ilə qurtaracaqdır.

Bunlar çox ciddi məsələlərdir. Ona görə də biz Dnestryanı bölgə problemini beynəlmiləlləşdiririk. Bunu tamamilə şüurlu surətdə edirik. Çünki neçə illərdən bəri mövcud olan bu təzahürlə Moldova təkbaşına mübarizə apara bilməz. Biz dünya ictimaiyyətinin bu məsələyə cəlb edilməsinə tərəfdarıq. Onun həllində eyni problemi olan Azərbaycan kimi, Çin kimi ölkələrin və digər ölkələrin köməyi lazımdır. Mən bundan məmnunam ki, bu məsələ daim ATƏT-in diqqət mərkəzindədir. İndi bu, qonşuluğumuzla və Avropa Birliyinə daxil olmaq barədə ciddi niyyətimizlə əlaqədar bu təşkilatın gündəliyindən düşmür. Bu məsələnin həllinə başqa ölkələr də qoşulur. Zənnimcə, biz bu problemi ancaq birgə səylərlə həll edə bilərik.

SUAL: Cənab Voronin, Sizcə, bu gün Moldovanın və Azərbaycanın artıq yaxın gələcəkdə həyata keçirə biləcəyi iri iqtisadi layihələr varmı?

VLADİMİR VORONİN: Var, amma onlar hələlik məxfidir. Lakin bəzi şeyləri deyə bilərik. Məsələn, üzümçülüyün və şərabçılığın inkişafı layihəsində ölkələrimizin iştirakının mümkünlüyünü söyləyə bilərik. Bu, sirr deyil, strateji layihə deyildir. Demək lazımdır ki, kənd təsərrüfatında lap çox layihələrin gerçəkləşdirilməsi mümkündür. Bu gün biz Avropada ən ensiz tırtılı olan Moldova traktorundan danışdıq, o, çuğundur plantasiyalarında, üzüm bağlarında işləyə bilir. Biz həmin modeli traktor zavodunda bərpa edirik.

Biz GUÖAM-da üzvlüklə bağlı digər layihələrdən, respublikamızın informasiya texnologiyaları departamentinin əhalinin pasportlaşdırılması, uçotu və icbari tibbi sığortanın tətbiqi üzrə, vergi ödəyicilərinə nəzarət üzrə xüsusi təcrübəsindən və hər iki tərəf üçün maraq doğuran başqa mühüm layihələrdən danışdıq. Razılığa gəldik ki, ölkələrimizin baş nazirlərinin birinci müavinləri səviyyəsində hökumətlərarası komissiya yaxın vaxtlarda işləməyə başlayacaq, habelə Azərbaycan və Moldova baş idarələri rəhbərlərinin yaxın vaxtlarda qarşılıqlı səfərləri həyata keçiriləcəkdir. Yəni, bütün bunlar ölkələrimizin rifahına xidmət edəcəkdir.

SUAL: Mənim sualım hər iki prezidentədir. GUÖAM ölkələrinin nümayəndələri bu təşkilatın perspektivləri barədə bəzən bədbin fikirlər söyləyirlər. GUÖAM-ın gələcəyini necə görürsünüz və Sizcə, bu təşkilatın bütün potensialından istifadə etmək üçün nə kimi addımlar atmaq lazımdır?

İLHAM ƏLİYEV: Bizim ölkəmizə gəldikdə, biz bədbin fikirlər söyləmirik. Azərbay-

can GUÖAM-da öz üzvlüyünə çox ciddi yanaşır və hesab edir ki, bu təşkilat yarandığı vaxtdan bəri inteqrasiya proseslərində çox mühüm rol oynamışdır. Artıq qeyd edildiyi kimi, bu gün biz ikitərəfli danışıqlarımız və müzakirə edilən problemlər çərçivəsində, beynəlxalq siyasətin ümdə məsələlərinin əksəriyyətində, o cümlədən regional əməkdaşlıq məsələlərində çox oxşar mövqelərə malikik.

Azərbaycan regional əməkdaşlıq baxımından öz fəaliyyətini, o cümlədən GUÖAM çərçivəsindəki fəaliyyətini çox uğurla həyata keçirir. Odur ki, bu təşkilat inteqrasiya proseslərini sürətləndirmək üçün yaxşı vasitədir, mexanizmdir.

Avropa öz sərhədlərini genişləndirdiyi, Avropa Birliyi, əslində, bizim sərhədlərimizə yaxınlaşdığı bir vaxtda bu əməkdaşlığı gücləndirmək olduqca vacibdir. Moldova Avropanın mərkəzində yerləşən ölkədir və əlbəttə, Avropa inteqrasiyası prosesləri Moldovaya və bu ölkənin gələcəyinə çox ciddi şəkildə təsiri vardır. Bu baxımdan Avropa Birliyinin yeni qonşuluq proqramının üzvü kimi Azərbaycan da ikitərəfli münasibətlərimizi və GUÖAM çərçivəsindəki münasibətlərimizi nəzərdən keçirir. Hesab edirəm ki, GUÖAM mövcud olduğu illər ərzində özünün həyat qabiliyyətini sübut edə bilmişdir. Təşkilat mövcuddur, mütəmadi olaraq müxtəlif görüşlər, tədbirlər, konfranslar keçirilir. Zənn edirəm ki, bu təşkilatın gələcəyi kifayət qədər nikbindir.

VLADİMİR VORONİN: Mən GUÖAM-ın işinə şübhə ilə yanaşmaqda hələ də davam edirəm. Biz GUÖAM-da sədrliyi Gürcüstandan qəbul etməyə hazırıq. Bu yaxınlarda GUÖAM-a daxil olan ölkələrin parlament üzvlərinin Parlament Assambleyasını keçirdik və bu Assambleyanı yaratdıq. Artıq bu şəkk-şübhə məni tərk edir və onu nikbinlik əvəz edir, çünki GUÖAM təşkilatı çərçivəsində konkret fəaliyyət layihələri meydana çıxmağa başlamışdır.

Moldovada miqrasiyaya və bu proseslə bağlı digər problemlərə nəzarət üzrə regional mərkəz fəaliyyətə başlayır. Bu mərkəz həm GUÖAM üçün, həm də Cənub-Şərqi Avropada Sabitlik Paktı üçün fəaliyyət göstərəcəkdir. Mənə məlumdur ki, növbədə digər layihələr də durur. Məsələ yalnız bundan ibarətdir ki, GUÖAM haqqında əvvəllər qəbul edilmiş bəyannamələrdə konkretlik yoxdur. Artıq bu konkretlik görünməyə başlayır. Əgər bu konkretlik digər istiqamətlərdə baş verənləri üstələsə, əlbəttə, bizim hamımız bu təşkilatı dəstəkləyəcəyik. Bu təşkilat nə bizim MDB-də üzvlüyümüzə, nə Avropaya inteqrasiya olunmaq niyyətimizə, nə də Moldovanın üzv olduğu Cənub-Şərqi Avropada Sabitlik Paktındakı işimizə zidd deyildir. Bu, bizim qarşılıqlı fəaliyyətimizi yalnız möhkəmləndirəcək və gücləndirəcəkdir.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Oktyabrın 26-da Bakı Əyləncə Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Moldova Respublikasının Prezidenti Vladimir Voroninin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Prezidentlər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən Prezident Vladimir Nikolayeviç Voronin başda olmaqla Moldova nümayəndə heyətini bir daha salamlamağıma çox şadam. Biz bu səfəri çox gözləyirdik və məmnunuq ki, səfər uğurla keçir. Biz ikitərəfli münasibətlərin, regional əməkdaşlığın mühüm məsələləri, beynəlxalq münasibətlərlə bağlı məsələlər barədə fikir mübadiləsi apardıq. Məmnunluqla deyə bilərik ki, bütün bu məsələlərdə Moldovanın və Azərbaycanın mövqeləri uyğun gəlir. Siyasi sahədə aramızda çox səmərəli əməkdaşlıq vardır. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. Moldovanın və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək məsələlərində mövqeləri tamamilə üst-üstə düşür, bu mövqelər beynəlxalq hüquq normalarına da tam uyğundur. Ümidvarıq ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və dövlətlərimizin ərazi bütövlüyü bərpa ediləcəkdir.

İqtisadi əməkdaşlıq üçün çox yaxşı potensial mövcuddur. Biz bu əməkdaşlığın üstün istiqamətlərini müəyyənləşdirdik. Məlumdur ki, xalqlarımız arasında tarixən həmişə çox səmimi münasibətlər olmuşdur. Əlbəttə ki, biz bu potensialı artırmaq istəyirik, istəyirik ki, müstəqil dövlətlər olan Moldova və Azərbaycan sıx əməkdaşlıq etsin, öz aralarında sərfəli şəkildə ticarət etsin, təcrübə mübadiləsi aparsın, inteqrasiya istiqamətlərində işləsinlər. Bizi bu da birləşdirir.

Bizim strateji məqsədimiz Avropa strukturlarına inteqrasiyadır və bu sahədə qarşılıqlı yardım, səylərin əlaqələndirilməsi də çox vacibdir.

Mənə olduqca xoşdur ki, səfər çərçivəsində çoxlu mühüm saziş imzalanmışdır və mən əminəm ki, bu sazişlər əlaqələrimizin gələcək inkişafının bir çox istiqamətlərini müəyyənləşdirəcəkdir. Belə çoxsaylı sənədlərin imzalanması qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın böyük potensiala malik olduğunu da sübut edir.

Mənim üçün bu da xoşdur ki, Moldova Prezidenti Vladimir Nikolayeviç Voronin Qafqaz regionuna ilk səfərini məhz Azərbaycana etmişdir. Biz bunu yüksək qiymətləndirir və ikitərəfli əlaqələrimizin çox mühüm amili hesab edirik. Keçmişdə də bizim çox yaxşı və mehriban münasibətlərimiz olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ötən illərdə dəfələrlə Moldovada olmuş və həmişə bu ölkəyə, onun xalqına çox səmimi münasibət bəsləmişdir. Heydər Əliyevi 1970-80-ci illərdə Azərbaycanda işlədiyi dövrdə də, Moskvada çalışdığı vaxtlarda da bu respublika ilə çox səmimi münasibətlər birləşdirirdi. O, müstəqil Azərbaycanın rəhbəri kimi də, əlbəttə, ikitərəfli münasibətlərimizə böyük diqqət yetirirdi. Biz Azərbaycanda bu ənənəni və onun siyasətini bütün istiqamətlərdə, o cümlədən ikitərəfli münasibətlərimizdə davam etdiririk.

Mən əminəm ki, Moldova Prezidentinin səfəri və imzalanmış sənədlər, habelə ikitərəfli əlaqələrimizdə mühüm element olacağına ümid bəslədiyimiz hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Bizim ümumi vəzifələrimiz, ümumi prioritetlərimiz, regiondakı vəziyyətə və ikitərəfli əlaqələrimizə ümumi baxışlarımız vardır.

Mən bu badəni Moldova xalqının, Moldovadan gəlmiş dostlarımızın, Moldova Prezidenti Vladimir Nikolayeviç Voroninin sağlığına qaldırmaq istəyirəm.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ

- Hörmətli Azərbaycan Prezidenti!

Hörmətli dostlar!

Mənim deyəcəyim sağlıqda da "əminəm" sözü çox işlədiləcəkdir, çünki bu gün baş verənlər və buraya gələrkən qarşımıza qoyduğumuz məqsədlər məhz əminlik üzərində, münasibətlərimizin inkişaf perspektivləri, gələcəyə inam, müstəqil dövlət kimi öz ölkələrimizin vətəndaşları üçün nail olmaq istədiyimiz yüksək həyat səviyyəsi üzərində qurulur. Dediyim kimi, ölkələrimiz arasında münasibətlərin Heydər Əliyev və Moldova Prezidenti tərəfindən qoyulmuş əsası, münasibətlərimizin baza və normativ sənədi olan dostluq və əməkdaşlıq haqqında imzalanmış dövlətlərarası müqavilə, şəxsi ünsiyyətimiz, şəxsi əlaqələrimiz, qarşımızda duran problemlərin başa düşülməsi – bizi bax, bütün bunlar birləşdirir. Təəssüf ki, bizim xoşagəlməz ümumi problemimiz də var. Bu, ölkələrimizin ərazi bütövlüyünün pozulması ilə bağlıdır. Lakin özümüzə arzuladığımız perspektivlər, əlbəttə, inam yaradır ki, bu məsələ də həll ediləcəkdir.

Cənab Prezident, burada bizə göstərdiyiniz diqqətdən və səmimi qəbuldan çox məmnunuq və buna görə Sizə təşəkkürümüzü bildiririk. Düşünürəm ki, münasibətlərimiz ölkələrimizdə məşğul olduğumuz problemlərin həllinə kömək edəcəkdir.

Biz burada məsləhətləşirdik və xatırladıq ki, Sizin Prezidentliyə başlamağınızdan artıq bir il keçmişdir. Bizi belə yaxşı qəbul etdiyinizə görə burada oktyabrın 31-dək – vəzifəyə başladığınız günədək qalmağı qərara aldıq. Buna baxmayaraq, Sizi bu ildönümü münasibətilə artıq bu gün təbrik edirik. Bu münasibətlə öz Moldova şərabımızı da gətirmişik. İstəyirik ki, işləriniz həmişə uğurlu getsin, müstəqil, suveren Azərbaycanın Prezidenti vəzifəsində Heydər Əliyeviç Əliyevin işlərinin davamçısı təki bir ildə əldə etdiyiniz nəticələr kimi həmişə sanballı nəticələr olsun.

Azərbaycan Prezidentinin sağlığına!

Müstəqil, suveren, ərazicə bütöv Azərbaycanın şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Oktyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Moldova Respublikasının Prezidenti Vladimir Voronin Heydər Əliyev Fondunda olmuşlar.

Moldova dövlətinin başçısına və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənməkdən, Azərbaycanın tərəqqisinə yönəlmiş genişmiqyaslı layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək etməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış olmuşlar. Vladimir Voronin Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa ölkələrinin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə böyük maraqla baxdı.

Moldova Prezidenti Vladimir Voronin Fondla tanış olduqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı: "Çox şadam ki, Azərbaycan xalqının tarixində belə bir lider olmuşdur və indi də vardır. Mənə 1974-cü ilin oktyabr ayından Heydər Əlirza oğlunu tanımaq xoşbəxtliyi nəsib olmuşdur. Mən ondan çox şeyləri əxz etmişəm. Azərbaycanlıların Heydər Əlirza oğluna, öz Prezidentinə və ölkənin suverenliyinin və müstəqilliyinin müdafiəçisinə dərin ehtiram hisslərini bu gün də qoruyub saxlaması böyük rəğbət doğurur. İnanıram ki, Azərbaycanın indiki rəhbərliyi Prezident Heydər Əliyevin işini layiqincə və etibarlı şəkildə davam etdirəcəkdir".

Moldova Prezidenti öz ölkəsi barədə kitabı Fonda hədiyyə etdi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Prezidenti Vladimir Voronin oktyabrın 27-də Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Leonid Kuçmanın dəvəti ilə bu ölkənin faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün oktyabrın 27-də Kiyevə işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Kiyevdə onun üçün ayrılmış iqamətgahda Ukraynanın Baş naziri, prezidentliyə namizəd Viktor Yanukoviçlə görüşmüşdür.

Dövlətimizin başçısı Ukraynanın faşist işğalçılarından azad edilməsinin 60 illiyi münasibətilə keçiriləcək tədbirlərdə iştirak etmək üçün Kiyevə gələn Azərbaycan nümayəndə heyətinin tərkibində İkinci Dünya müharibəsi veteranlarının da olduğunu vurğulayaraq, bu tədbirlərdə iştirak imkanından məmnunluğunu bildirdi.

Ukraynanın Baş naziri Viktor Yanukoviç ölkəmizin nümayəndə heyətinin, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin bu tədbirlərdə iştirakını yüksək qiymətləndirdi və bundan razılığını vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında, Ukrayna-Azərbaycan əla-

qələrinin perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı. Bildirildi ki, Ukrayna ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir və qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Oktyabrın 27-də Kiyevdə Ukraynanın faşist işğalçılarından azad olunmasının 60 illiyinə həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Ukrayna Prezidenti Leonid Kuçma və Belarus Prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmək üçün "Ukrayna" milli sarayına gəldilər.

Mərasimə toplaşanlar dövlət başçılarını hərarətli alqışlarla qarşıladılar.

Ukraynanın dövlət himni səsləndi və səhnəyə Böyük Vətən müharibəsində iştirak etmiş hərbi hissələrin döyüş bayraqları gətirildi. Ukraynanın faşist işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ukrayna Prezidenti Leonid Kuçma mərasimdə çıxış edərək, Böyük Vətən müharibəsi illərində Ukraynada baş vermiş hadisələrdən danışdı, təntənəli yubiley tədbirlərində iştirak edən qonaqları səmimiyyətlə salamladı. O bildirdi ki, məhz xalqların dostluğu təkcə Ukraynanın deyil, o vaxtkı Sovet İttifaqının, Avropanın faşizm taunundan xilas edilməsində həlledici rol oynamışdır.

Ukraynanın azadlığı uğrunda döyüşlərdə 4 minə yaxın adam Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü və bunlardan 17-sinin azərbaycanlı olduğunu vurğulayan Prezident Leonid Kuçma dedi ki, ümumiyyətlə, Ukrayna uğrunda döyüşlərdə 3 milyondan çox adam həyatını qurban vermişdir.

Rəsmi hissə başa çatdıqdan sonra Ukraynanın incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ PREZİDENT İLHAM ƏLİYEV UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN HƏRBİ PARADI İZLƏMİŞDİR

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ukrayna Prezidenti Leonid Kuçma Ukraynanın faşist işğalçılarından azad edilməsinin 60 illiyi münasibətilə keçirilən hərbi paradı izləmək üçün Kiyevin baş küçəsi olan Kreşşatikdəki "Müstəqillik" meydanına gəldilər. Dövlət başçıları burada Böyük Vətən müharibəsi veteranları ilə səmimiyyətlə görüşərək, onları əlamətdar yubiley münasibətilə təbrik etdilər, ən xoş arzularını yetirdilər.

Ali qonaqlar mərkəzi tribunaya qalxdılar. Ukraynanın dövlət himni səsləndi.

Ukraynanın müdafiə naziri general-polkovnik Aleksandr Kuzmuk hərbi paradı qəbul etdi. Hərbi paradda müxtəlif qoşun növlərini təmsil edən 6 min 500 nəfər iştirak edirdi. Parad xüsusi olaraq Moskvadan gətirilmiş, Berlində Reyxstaqa sancılmış Qələbə bayrağının dalğalandığı məşhur T-34 tankının keçməsi ilə başlandı. Sonra 4-cü Ukrayna və 2-ci Belorusiya cəbhələrinin təmsilçiləri döyüş bayraqları ilə birlikdə tribunanın önündən keçdilər.

İkinci Dünya müharibəsi dövrünün hərbi geyimlərində olan piyada döyüşçülər, tankçılar, artilleriyaçılar, təyyarəçilər, dənizçilər və nəhayət, Böyük Vətən müharibəsi veteranları hərbi marşın səsləri altında meydandan keçdilər.

Sonra Ukraynanın müdafiə naziri general-polkovnik Aleksandr Kuzmuk tribunaya qalxaraq bu ölkənin Ali baş komandanı, Prezident Leonid Kuçmaya raport verdi.

Dövlət başçılarının və müxtəlif ölkələrdən gəlmiş qonaqların maraqla izlədiyi hərbi parad sona yetdi.

Prezidentlər paraddan sonra müharibə veteranlarını bir daha təbrik etdilər, onlarla xatirə şəkli çəkdirdilər.

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya işgüzar səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyke Talvitiyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan, cənab Talvitiye ilə yenidən görüşündən məmnunluq duyduğunu bildirən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daim genişləndiyini və möhkəmləndiyini, xüsusilə Avropa İttifaqının yeni qonşuluq siyasətində ölkəmizin fəal iştirak etdiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev bütün bu proseslərin həm Avropa İttifaqı, həm də Azərbaycan üçün qarşılıqlı əhəmiyyət daşıdığını bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Avropa İttifaqının nümayəndə heyəti ilə bu görüşün həm münaqişənin, həm də regional məsələlərin müzakirəsi üçün yaxşı şərait yaratdığını vurğuladı. Prezident İlham Əliyev uzun illərdən bəri cəbhədə atəşkəs əldə edilməsinə baxmayaraq, sülhün də olmadığını, danışıqların bu günə kimi heç bir nəticə vermədiyini nəzərə çarpdırdı.

Dövlətimizin başçısı bildirdi ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsi, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq qaçqın düşməsi regionda gərginlik yaradır, sülhün və təhlükəsizliyin təmin edilməsi işinə böyük əngəl törədir. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsipləri əsasında - ölkəmizin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin olunması şər-

ti ilə həll edilə bilər. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə həll ediləcəkdir.

Vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Talvitiye Yerevana və Tbilisiyə səfərləri, eyni zamanda, Bakıda keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdiyini və yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirakını nəzərə çarpdırdı.

Yaxın zamanlarda ölkə üzrə məruzənin hazır olacağını nəzərə çarpdıran qonaq həmin məruzənin konstruktiv şəkildə hazırlanacağına əminliyini vurğuladı.

O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, ümidvar olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə həll ediləcəkdir. Cənab Talvitiye dedi ki, münaqişənin həlli regionda vəziyyətin normallaşdırılması işinə xidmət edə bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ GELA BEJUAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında Gürcüstanın Təhlükəsizlik Şurasının katibi Gela Bejuaşvilini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin günü-gündən genişləndiyini, möhkəmləndiyini nəzərə çarpdırdı və bunun regionda sülhün, sabitliyin təmin olunması işinə xidmət etdiyini bildirdi.

İki ölkənin dövlət başçıları arasında mütəmadi olaraq görüşlər keçirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev Gürcüstana rəsmi səfərini məmnunluqla xatırladı, orada keçirdiyi görüşlərin, apardığı danışıqların əməkdaşlığın daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını vurğuladı.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən cənab Gela Bejuaşvili Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimiz arasında əlaqələrin xalqlarımızın mənafeyinə uyğun olaraq gündən-günə genişlənməsindən məmnunluqla bəhs etdi.

Prezident İlham Əliyev Prezident Mixail Saakaşvilinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və xoş arzularını Gürcüstan rəhbərinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN XƏZƏRİN İŞLƏNMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVÜ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında bp şirkətinin Xəzərin işlənməsi üzrə Məsləhət Şurasının üzvü Yan Leşlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan, bu görüşdən məmnun qaldığını vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin üzvləri ölkəmizə bu səfər zamanı Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın uğurlu nəticələrini öz gözləri ilə görəcəklər.

Ölkəmizin bp şirkəti ilə uğurlu əməkdaşlığından bəhs edən Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri kimi dünya əhəmiyyətli layihənin reallaşmasının bu əməkdaşlığın gözəl nümunəsi olduğunu nəzərə çarpdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, bu kəmər təkcə ölkəmiz üçün deyil, ümumiyyətlə, regional əməkdaşlığın həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Ən iri boru xətti olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin və ölkəmizdə həyata keçirilən digər layihələrin dünya miqyaslı enerji layihələrinin tərkib hissəsi olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu işlərdə həmişə çox yaxşı tərəfdaşdır.

Enerji sahəsində xarici şirkətlərlə Azərbaycanın əməkdaşlığının bir-birinin maraqlarına qarşılıqlı hörmət əsasında həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bp şirkətinin Azərbaycanda reallaşdırılan neft və qaz layihələrində aparıcı rol oynadığını nəzərə çarpdırdı. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də uğurla reallaşacağına əmin olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, bütün bunlar ölkəmizdə güclü iqtisadiyyatın qurulması üçün möhkəm əsas yaradır və eyni zamanda, problemlərin, xüsusilə də sosial problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyır.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Azərbaycanın bp ilə enerji sahəsində əməkdaşlığı bundan sonra da davam edəcək və daha da möhkəmlənəcəkdir.

Vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Yan Leşli cənab İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilməsinin ildönümü münasibətilə səmimi qəlbdən təbrik etdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından çox kədərləndiklərini bildirən qonaq nümayəndə heyəti adından dövlətimizin başçısına başsağlığı verdi.

O dedi ki, cənab İlham Əliyev, biz Sizin rəhbərliyinizlə ölkənizin prolemlərinin həlli istiqamətində həyata keçirilən işlərin, xüsusilə neft gəlirlərindən Azərbaycanın iqtisadi cəhətdən daha da güclənməsi üçün istifadə edilməsi sahəsində gördüyünüz işlərin böyük təsiri altındayıq.

Dövlətimizin başçısının Brüsselə, Berlinə, Parisə, Moskvaya və digər səfərlərini böyük maraqla izlədiklərini vurğulayan Yan Leşli ümidvar olduğunu bildirdi ki, Prezident İlham Əliyevin Böyük Britaniyaya da uğurlu səfəri həyata keçiriləcəkdir.

bp şirkətinin Xəzərin işlənməsi üzrə Məsləhət Şurasının fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verən qonaq bu qurumun müstəqil şəkildə fəaliyyət göstərdiyini bildirdi. O dedi ki, nümayəndə heyətinin bu səfəri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı sosial, iqtisadi və ətraf mühit məsələlərinin nəzərdən keçirilməsi üçün böyük imkan yaradır. Ötən il Məsləhət Şurası tərəfindən hazırlanmış tövsiyələrin böyük bir qismi bp şirkəti tərəfindən həyata keçirilmişdir.

Cənab Yan Leşli dedi ki, Məsləhət Şurası Bakı-Tbilisi-Ceyhan layihəsinin dünya stan-

dartlarına, neft və qaz sənayesi sahəsində şəffaflıq təşəbbüsü prinsiplərinə uyğun şəkildə həyata keçirilməsi işinə yardım göstərir.

Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə bp şirkəti arasındakı əlaqələr bundan sonra da uğurla inkişaf etdiriləcəkdir.

ATƏT-İN NÜMAYƏNDƏSİ ÖLKƏMİZDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN VƏZİYYƏTİ BARƏDƏ MƏLUMATLANDIRILMIŞDIR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 29-da ATƏT-in KİV-in azadlığı üzrə nümayəndəsi Mikloş Haratşi ilə görüşmüşdür.

Elmar Məmmədyarov Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq, ölkəmizdə həyata keçirilən demokratik islahatlar, insan hüquqları, söz azadlığı, kütləvi informasiya vasitələrində mövcud vəziyyət haqqında ətraflı məlumat vermişdir.

Müstəqillik qazandıqdan sonra ölkəmizin Avropa və Avroatlantika strukturlarına inteqrasiya etdiyini diqqətə çatdıran nazir, Azərbaycanın ATƏT-ə üzv olan ölkələrlə də sıx əməkdaşlıq etdiyini söyləmişdir.

ATƏT-in nümayəndəsi Mikloş Haratşi səmərəli əməkdaşlığa görə Azərbaycan tərəfinə təşəkkürünü bildirmiş və əlaqələrin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu söyləmişdir.

Nazir Elmar Məmmədyarov qloballaşma dövründə KİV-in rolunun artdığını qeyd edərək, dövlət qurumları ilə mətbuat arasında sıx münasibətlərin qurulmasının vacibliyini bildirmiş, Xarici İşlər Nazirliyinin də jurnalistlərlə sıx əməkdaşlıq etdiyini və XİN-də mütəmadi brifinqlərin keçirildiyini diqqətə çatdırmışdır.

ESTONİYA AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAF ETDİRİLMƏSİNƏ BÖYÜK MARAQ GÖSTƏRİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 1-də Estoniya parlamenti xarici əlaqələr komitəsinin sədri Marko Mihkelsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Elmar Məmmədyarov ölkəmizin Estoniya, həmçinin digər Baltikyanı ölkələrlə münasibətlərinə böyük qiymət verdiyini qeyd edərək, Azərbaycanın da Avropa və Avratlantika strukturlarına inteqrasiya yolunu tutduğunu və bu istiqamətdə bir çox sahələrdə islahatlar apardığını bildirmişdir.

Demokratiyanın inkişafının ölkəmiz üçün əhəmiyyətli olduğunu vurğulayan nazir, bu prosesin respublikamızda uğurla aparılması üçün beynəlxalq təşkilatlar qarşısında Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdiyini və səylərin gələcəkdə də davam etdirəcəyini xüsusi vurğulamışdır.

Azərbaycanda sosial-siyasi və iqtisadi vəziyyət barədə qonaqlara məlumat verən nazir, ölkəmizin iqtisadiyyatının sürətlə inkişaf etdiyini onların diqqətinə çatdırmışdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gələn il istifadəyə veriləcəyindən söhbət açan nazir, inşası yaxın vaxtlarda reallaşdırılacaq Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də ölkəmizin Avropa bazarlarında möhkəmlənməsinə imkan verəcəyini diqqətə çatdırmışdır.

Qeyri-neft sektorunun inkişafı ilə bağlı bir çox layihələrin də həyata keçirildiyini bildirən xarici işlər naziri, bu sahənin tərəqqisi üçün əksər Avropa ölkələri ilə əməkdaşlığın genişləndirildiyini qeyd etmişdir. Təkcə Azərbaycan üçün deyil, ümumilikdə regionun inkişafına maneə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan nazir Elmar Məmmədyarov, ölkəmizin problemin sülh yolu ilə həllinin tərəfdarı olduğunu və bu istiqamətdə qarşı tərəflə danışıqların tezliklə davam etdirilməsinin vacibliyini söyləmiş, həmçinin bu danışıqların Ermənistan tərəfinin xahişi ilə müəyyən müddətə dayandırıldığını da qonaqların diqqətinə çatdırmışdır.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən qonaq, ölkəmizdə sürətli iqtisadi inkişafın diqqəti cəlb etdiyini, Estoniyanın da 14 ilə yaxın bir müddət ərzində bu istiqamətdə böyük işlər apardığını bildirmişdir. Cari ilin ölkəsi üçün çox vacib olduğunu vurğulayan Marko Mihkelson, Avropa Birliyi və NATO-nun üzvü kimi, bundan sonra Estoniyanın üzərinə daha böyük məsuliyyət düşdüyünü diqqətə çatdırmışdır. Avropa Birliyinin Cənubi Qafqaza marağının gələcəkdə daha da genişlənəcəyindən əminliyini ifadə edən qonaq, hər iki tərəfin bu istiqamətdə əməkdaşlığı davam etdirməsinin vacibliyini xatırlatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİJNİ NOVQOROD VİLAYƏTİNİN QUBERNATORU GENNADİ XODIREVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Nijni Novqorod vilayətinin qubernatoru Gennadi Xodırevi qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini, ölkəmizlə Nijni Novqorod vilayəti arasında da birbaşa iqtisadi əlaqələrin qurulmasından məmnunluq duyduğunu bildirdi.

Azərbaycan Dövlət Xəzər Gəmiçiliyinin müasir vəziyyətindən söhbət açan dövlətimizin başçısı dedi ki, hazırda bu donanmanın tam modernləşdirilməsi üçün böyük işlər görülür. Nijni Novqorod vilayətindən alınan gəmilərin yüksək beynəlxalq standartlara cavab verdiyini vurğulayan Prezident İlham Əliyev ötən il Azərbaycanda Əziz Əliyev adına tankerin işə salınması mərasimində iştirakını məmnunluqla xatırlatdı. Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan tankerin tikilib Bakıya gətirilməsinin çox böyük əhəmiyyət daşıdığını bildirdi, bunu xalqımız üçün unudulmaz və əlamətdar bir hadisə kimi qiymətləndirdi.

Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin bundan sonra daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirdi.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlıq edən Gennadi Xodırev Azərbaycana səfərindən çox böyük məmnunluq duyduğunu, səfərinin ilk günündə ümummilli liderimiz Heydər Əliyevin məzarını ziyarət etdiyini bildirdi. Xalqımızın ümummilli liderinin Azərbaycana rəhbərlik etdiyi dövrdə Moskvada Kommunist Partiyasının Mərkəzi Komitəsində çalışdığını vurğulayan cənab Xodırev o zaman Heydər Əliyev ilə olan görüşlərini həmişə məmnunluqla xatırladığını söyləyərək dedi ki, Heydər Əliyev dahi siyasi xadim idi və daim insanlara diqqət və qayğı göstərirdi.

Noyabrın 3-də Bakıda ümummilli liderimizin adını daşıyan tankerin istifadəyə verilməsini çox mühüm hadisə kimi dəyərləndirən qonaq onun tikintisi üçün çox gərgin işlər görüldüyünü nəzərə çarpdırdı.

Prezident İlham Əliyev ilə Prezident Vladimir Putinin səmimi dostluq münasibətlərinin bəhrəsi olaraq Azərbaycan ilə Nijni Novqorod arasında birbaşa iqtisadi əlaqələrin qurulduğundan məmnunluqla bəhs edən qubernator Azərbaycan-Nijni Novqorod iqtisadi əməkdaşlığına dair müqavilə layihəsi üzərində iş getdiyini söylədi. O əmin olduğunu bildirdi ki, bu müqavilə real iqtisadi əlaqələrin həyata keçirilməsinə təkan verəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN BƏYANATI

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat mərkəzi ABŞ-da keçirilən prezident seçkiləri ilə bağlı bəyanat qəbul etmişdir. Bəyanatda deyilir:

"Məlum olduğu kimi, bu il noyabr ayının 2-də Amerika Birləşmiş Ştatlarında keçirilmiş prezident seçkilərində Prezident cənab Corc Buş qələbə qazanmışdır.

Son illər ABŞ ilə Azərbaycan arasında əlaqələrin yeni mərhələsi qurulmuşdur. Bədnam 907-ci düzəlişin qüvvəsi dayandırıldıqdan sonra ABŞ Azərbaycana yardımlar göstərmiş və bu yardımlar nəticəsində ölkəmizdə müxtəlif layihələr həyata keçirilmişdir. Hazırda ABŞ-ın yaxından iştirakı və siyasi dəstəyi ilə Xəzərdə neft hasilatı və Bakı-Tbilisi-Ceyhan kimi iri neft kəmərinin tikintisi davam etdirilməkdədir. 2001-ci ilin məlum 11 sentyabr hadisəsindən sonra Azərbaycan Amerika Birləşmiş Ştatlarının yaxın tərəfdaşı kimi terrorizmə qarşı mübarizədə onunla birgə iştirak edir.

Azərbaycan Respublikası ümidvardır ki, aparılan siyasət ABŞ-da keçirilmiş prezident seçkilərindən sonra da davam etdiriləcək, ABŞ administrasiyasının səyləri nəticəsində Amerika-Azərbaycan münasibətləri çərçivəsində əldə olunmuş nailiyyətlər möhkəmlənəcək, strateji tərəfdaşlıq əlaqələri yeni səviyyəyə qaldırılacaqdır.

Azərbaycan Respublikası, həmçinin əmin olmaq istəyir ki, ABŞ bundan sonra Cənubi Qafqaz regionunda problemlərin aradan qaldırılmasında, sülhün, təhlükəsizliyin bərqərar olunmasında, ilk növbədə isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini artıracaqdır".

4 noyabr 2004-cü il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ MONSERRAT KABALYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 4-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dünya şöhrətli müğənni Monserrat Kabalyeni qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev hörmətli qonağı səmimiyyətlə salamlayaraq, onun Azərbaycana gəlməsindən məmnunluğunu söylədi və bütün dünyada məşhur olan opera müğənnisinə böyük hörmət bəslədiyini bildirdi.

Prezident İlham Əliyev xanım Monserrat Kabalyenin Bakıya səfərini yüksək qiymətləndirdi və bu səfər zamanı apardığı ustad dərslərində ölkəmizin gənc ifaçılarına dəyərli məsləhətlər verdiyinə görə təşəkkür etdi, ustad dərslərinin onlar üçün çox faydalı olacağına əminliyini söylədi. Dövlətimizin başçısı xanım Kabalyeyə müraciətlə dedi ki, Sizin bugünkü konsertiniz bizim üçün çox böyük hadisədir, ümumiyyətlə, hər hansı bir şəhər, teatr üçün olduqca böyük hadisədir. Siz hələ Bakıya gəlməzdən xeyli əvvəl şəhərin küçələrinə afişalar vurulmuşdu.

Prezident İlham Əliyev ilə görüşməyindən son dərəcə məmnun olduğunu xüsusi vurğulayan Monserrat Kabalye dedi ki, mən Sizinlə görüşə ən yaxşı paltarımda gəlməyə çalışdım. Sizin aranızda, ölkənizdə olmağımdan çox şadam.

Müğənni Bakıya hələ çoxdan gəlmək istədiyini, lakin xəstələndiyinə görə bu arzusunu həyata keçirə bilmədiyini təəssüflə bildirərək dedi ki, bu istəyimi, nəhayət, gerçəkləşdirdiyimə və artıq Azərbaycanla tanış olduğuma görə özümü xoşbəxt sayıram. Mənim azərbaycanlı dostlarım çoxdur. Onlardan biri mənim doğma Barselona şəhərimdə yaşayır, həkimdir. Özü də Bakıdandır.

Monserrat Kabalye ona göstərilən yüksək qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Prezident sarayında NATO-nun baş katibi Yaap de Hoop Sxefferlə görüşmüşdür.

Görüş zamanı Prezident İlham Əliyev NATO baş katibinin Azərbaycana səfərini ölkəmizin bu təşkilatla əlaqələrinin daha da inkişaf etdirilməsi baxımından yüksək qiymətləndirmişdir. Dövlətimizin başçısı ölkəmizin Avratlantik strukturlarla, o cümlədən Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi işində böyük rol oynayan NATO təşkilatı ilə əməkdaşlığının daim möhkəmləndiyini və genişləndiyini məmnunluqla qeyd etmişdir. Azərbaycanın bu təşkilatın "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev hazırda NATO ilə fərdi tərəfdaşlıq planı əsasında konkret işlərin həyata keçirildiyini diqqətə çatdırmışdır. Azərbaycan Prezidenti bununla bağlı ölkəmizin müvafiq qurumları tərəfindən fəal iş aparıldığını bildirmiş, Azərbaycan-NATO əlaqələrinin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini vurğulamışdır.

Prezident İlham Əliyevlə görüşündən məmnunluq duyduğunu bildirən Yaap de Hoop Sxeffer dövlətimizin başçısının Brüsselə son səfərinin çox uğurlu olduğunu qeyd etmişdir. NATO ilə Azərbaycan arasında əlaqələrin daim inkişaf etməsini yüksək qiymətləndirən NATO-nun baş katibi ölkəmizin bu təşkilatın fəal tərəfdaşlarından biri olduğunu vurğulamışdır. Cənab Sxeffer rəhbərlik etdiyi təşkilatın ölkəmizlə əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əmin olduğunu bildirmişdir.

Görüşdə beynəlxalq, regional təhlükəsizlik məsələləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ SƏFİR STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədri səfir Stiven Mənni qəbul etmişdir.

Dövlətimizin başçısı ABŞ diplomatını səmimiyyətlə salamlayaraq, onunla bu il oktyabrın 16-da Ağstafa rayonunda, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi zamanı keçirilmiş görüşünü məmnunluqla xatırladı. Kəmərin birləşdirilməsi hadisəsini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi regional əməkdaşlığa, sülh və təhlükəsizliyin təmin olunmasına xidmət edir.

Cənab Stiven Mənn Prezident İlham Əliyev ilə bir daha görüşmək imkanından məmnun olduğunu vurğuladı. O, Azərbaycan-Gürcüstan sərhədində boru kəmərinin birləşdirilməsini mühüm hadisə kimi dəyərləndirdi və orada dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırladığını bildirdi.

Görüşdə beynəlxalq və regional məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Prezident sarayında Belarus Respublikasının Baş naziri Sergey Sidorskini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan və Belarus arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Azərbaycanın Belarusda səfirliyinin açılması barədə qərar qəbul etdiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bunun ikitərəfli münasibətlərin daha da genişləndirilməsi işində mühüm rol oynayacağını vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Belarusun Baş nazirinin Azərbaycana səfəri ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Qəbula və ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Sergey Sidorski Belarus Prezidenti Aleksandr Lukaşenkonun səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Belarus hökumətinin yüksək səviyyəli rəsmilərinin təmsil olunduğu geniş tərkibdə nümayəndə heyətinin Bakıya səfərinin ilk günündən Azərbaycanda qonaqpərvərliklə qarşılanmasından məmnun qaldığını söyləyən qonaq ölkələrimizin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu vurğuladı.

Cənab Sergey Sidorski dedi ki, Belarus rəhbərliyi və hökuməti ölkələrimizin əlaqələrinin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəkdir. Baş nazir əmin olduğunu bildirdi ki, Azərbaycan-Belarus əlaqələri bundan sonra da daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Prezident İlham Əliyev Prezident Aleksandr Lukaşenkonun səmimi salamlarına görə təşəkkürünü bildirdi və özünün də salamlarını, xoş arzularını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN "ÜMUMDÜNYA ƏRZAQ PROQRAMI"NIN AZƏRBAYCANDAKI SABİQ NÜMAYƏNDƏSİ ŞƏRİF AMİN ZAHİRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında BMT-nin "Ümumdünya Ərzaq Proqramı"nın Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Şərif Amin Zahirin BMT-nin "Ümumdünya ərzaq proqramı"nın nümayəndəsi kimi vaxtilə Azərbaycanda göstərdiyi fəaliyyətini yüksək qiymətləndirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovulmuş insanların sosial şəraitinin yaxşılaşdırılması işində şəxsi töhfəsinə görə ona minnətdarlığını bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın qaçqın-köçkün vəziyyətinə düşdüyünü nəzərə çarpdıraraq bildirdi ki, Azərbaycan rəhbərliyi bu insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra mühüm tədbirlər görmüş, böyük əhəmiyyətli proqramlar qəbul etmiş, onların həyata keçirilməsi məqsədi ilə maliyyə vəsaiti ayırmışdır. Lakin təbii ki, bütün bu problemləri ölkəmizin öz gücü ilə yüksək səviyyədə həll etmək mümkün deyildir. Ona görə də beynəlxalq təşkilatların, donor ölkələrin Azərbaycana yardımı çox böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev ölkəmizə göstərdiyi köməyə görə BMT-nin müvafiq strukturlarına minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə xalqımız üçün ağrılı problem olan bu münaqişənin tezliklə aradan qaldırılması, torpaqlarımızın Ermənistan işğalından azad edilməsi, 1 milyondan çox qaçqın-köçkünün öz doğma yerlərinə, yurdlarına qayıtmasıdır.

Azərbaycan Respublikasında məcburi köçkünlərə ərzaq yardımının göstərilməsindəki səmərəli fəaliyyətinə görə BMT-nin "Ümumdünya Ərzaq Proqramı"nın Azərbaycandakı nümayəndəsi Şərif Amin Zahirin Prezident Heydər Əliyevin 2003-cü il 28 avqust tarixli Fərmanı ilə "Tərəqqi" medalına layiq görüldüyünü məmnunluqla xatırladan Prezident İlham Əliyev həmin medalı cənab Zahirə təqdim etdi.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevin Fərmanı ilə "Tərəqqi" medalına layiq görülməsindən və bu yüksək mükafatı Prezident İlham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu bildirdi.

Cənab Şərif Amin Zahir bildirdi ki, Azərbaycan torpaqlarının tezliklə Ermənistan silahlı

qüvvələrinin işğalından azad edilməsi, yerindən-yurdundan zorla qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtması, onların üzləşdiyi bütün problemlərin tamamilə aradan qaldırılması onun ən böyük arzusudur.

Qonaq vaxtilə ölkəmizdə işləyərkən Azərbaycan rəhbərliyinin ona göstərdiyi böyük diqqət və qayğıya görə bir daha minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TADAO ÇİNONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında Asiya İnkişaf Bankının prezidenti Tadao Çinonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkəmizdə son illər iqtisadi və digər sahələrdə sürətli inkişafa nail olunduğunu bildirdi.

Respublikamızda iqtisadi inkişafla bağlı bir sıra mühüm proqramların qəbul edildiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycan hökumətinin yoxsulluğun azaldılması, regionların inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirdiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, yeni iş yerlərinin açılması, iqtisadi infrastrukturun daha da möhkəmləndirilməsi Azərbaycan hökuməti qarşısında duran prioritet məsələlərdəndir.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycanın Asiya İnkişaf Bankı ilə əlaqələri bundan sonra daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Səmimi qəbula görə təşəkkür edən cənab Tadao Çino dedi ki, biz bu gözəl ölkəyə səfərimizdən və Azərbaycan Prezidenti ilə görüşdən çox böyük şərəf duyuruq.

Asiya İnkişaf Bankının Prezidenti vəzifəsindən əvvəl Yaponiya hökumətində çalışdığını diqqətə çatdıran qonaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yaponiyaya səfərini məmnunluqla xatırladaraq bildirdi ki, o zaman ali qonağa çox yüksək səviyyədə qonaqpərvərlik göstərilmişdi. Yaponiyada hamı Prezident Heydər Əliyevin bu səfərini böyük maraqla izləyirdi və həmin səfər Yaponiya ilə Azərbaycan arasında əlaqələrin əsasını qoymuşdur.

Ölkəmiz ilə Asiya İnkişaf Bankı arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan qonaq dedi ki, 1995-ci ildə bankın üzvü olan Azərbaycan AİB-in ən fəal əməkdaşlıq etdiyi ölkələrdən biridir.

Noyabrın 8-də bankın Azərbaycanda daimi nümayəndəliyinin açıldığını yüksək qiymətləndirən qonaq bunun əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Cənab Tadao Çino dedi ki, 2001-2004-cü illərdə bank tərəfindən ayrılmış və əsasən, yoxsulluğun azaldılmasına, özəl sektorun inkişafına yönəldilmiş kreditlərin ümumi həcmi 90 milyon ABŞ dolları olmuşdur. O bildirdi ki, 2005-2007-ci illər üçün bank Azərbaycana 7 kredit layihəsi nəzərdə tutmuşdur.

Ölkəmizdə gedən iqtisadi inkişafı, ümumi daxili məhsulun 10 faiz artımını yüksək nəticə kimi qiymətləndirən qonaq Azərbaycan hökumətinin yoxsulluğun azaldılması, regionların inkişafı, yeni iş yerlərinin yaradılması sahəsində çox böyük uğurlar əldə etdiyini məmnunluqla vurğuladı. O, əmin olduğunu bildirdi ki, rəhbərlik etdiyi bankla Azərbaycan arasında əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

ALMANİYA VƏ FRANSA AZƏRBAYCANIN CƏNUBİ QAFQAZ REGİONUNDA SABİTLİYİN QORUNMASINDA MÜHÜM ROL OYNADIĞI FİKRİNDƏDİRLƏR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 9-da Almaniyanın və Fransanın xarici işlər nazirliklərinin siyasi məsələlər üzrə direktorları Mixael Şefer və Stanislas Lefebvre de Labulayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın Almaniya və Fransa ilə münasibətlərinin müvəffəqiyyətlə inkişaf etməsindən məmnun qaldığını bildirən Elmar Məmmədyarov, ölkəmizin Prezidenti İlham Əliyevin bu yaxınlarda Fransa və Almaniyaya rəsmi səfərlərinin bu münasibətlərin inkişafında mühüm rol oynadığını diqqətə çatdırmışdır. Nazir, ölkəmiz ilə bu dövlətlər arasında olan ikitərəfli əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması üçün birgə səylərin göstərilməsinin vacibliyini də vurğulamışdır.

Azərbaycanın Avropa Birliyi, Avropa Şurası, NATO, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlığının yüksək səviyyədə olduğunu qeyd edən xarici işlər naziri, ölkəmizin bu yaxınlarda Avropa Birliyinin "Yeni qonşuluq" və NATO-nun "Fərdi Tərəfdaşlıq Planı" proqramlarına qoşulmasının tərəflər arasındakı münasibətlərin daha da genişlənməsinə bariz nümunə olduğunu bildirmişdir. O demişdir ki, ölkəmizin Avropa və Avratlantik strukturlarına inteqrasiya məsələsinə böyük əhəmiyyət verən Azərbaycan rəhbərliyi bu qurumların tələbini təşkil edən insan haqları, demokratiya və vətəndaş cəmiyyəti kimi dəyərlərin respublikamızda möhkəmləndirilməsi üçün mühüm dəyişikliklər həyata keçirir. Ölkəmizdəki siyasi, sosial və iqtisadi vəziyyət barədə qonaqlara ətraflı məlumat verən nazir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söz açmışdır. Elmar Məmmədyarov ölkəmizin münaqişənin beynəlxalq hüquq normalarına əsaslandığını və Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə sülh yolu ilə həllinə üstünlük verdiyini bildirərək, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında son zamanlar ermənilər süni şəkildə yerləşdirməsi barədə danışmışdır. Nazir, "İşğal olunmuş ərazilərdəki vəziyyət" haqqında bəndin BMT-nin Baş Məclisinin hazırkı iclasının gündəliyinə daxil edilməsi nəticəsində beynəlxalq ictimaiyyətin diqqətinin bu məsələyə yönələcəyinə əminliyini vurğulamışdır. O, Azərbaycan tərəfinin səylərinin, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının müəyyənləşdirilməsi ilə məşğul olan ATƏT-in Minsk qrupunun heç bir vəchlə digər bir təşkilatla əvəz edilməsinə yönəlmədiyini, əksinə, onun fəaliyyətinə yardım göstərmək məqsədi daşıdığını diqqətə çatdırmışdır.

Azərbaycanın Cənubi Qafqaz regionunda sabitliyin qorunmasında mühüm rol oynadığını bildirən qonaqlar, ölkəmizin beynəlxalq təşkilatlar çərçivəsində aparıcı mövqelərdən birinə malik olması üçün böyük potensiala sahib olduğunu qeyd etdilər. Tərəflər regional və beynəlxalq səviyyədəki ümumi vəziyyətə dair fikir mübadiləsi apararaq, Xəzə-

rin statusunun müəyyən edilməsi və Azərbaycanın terror əleyhinə beynəlxalq mübarizədəki rolu məsələlərinə də toxunmuşlar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SANKT-PETERBURQUN QUBERNATORU VALENTİNA MATVİYENKONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Prezident sarayında Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələr çox sürətlə inkişaf edir. Rusiya Federasiyasına son səfərindən söhbət açan Prezident İlham Əliyev Prezident Vladimir Putinlə və Rusiya dövlətinin yüksək vəzifəli şəxsləri ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da gücləndirilməsi, bu baxımdan ticarət dövriyyəsinin iki dəfə artırılması hər iki ölkənin hökumətləri qarşısında bir vəzifə kimi durur.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələr bundan sonra da sürətlə inkişaf edəcəkdir. Dövlətimizin başçısı əmin olduğunu vurğuladı ki, Sankt-Peterburqun qubernatoru xanım Valentina Matviyenkonun Azərbaycana səfəri ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Səmimi qəbula, xoş sözlərə görə minnətdarlığını bildirən xanım Valentina Matviyenko Azərbaycan ilə Rusiya arasında əlaqələrin dinamik inkişafından məmnunluqla bəhs etdi. Azərbaycan ilə Sankt-Peterburq arasında da əlaqələrin uğurla inkişaf etdiyini nəzərə çarpdıran qonaq bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük potensial olduğunu vurğuladı.

Azərbaycan-Rusiya əməkdaşlığının indiki səviyyəyə yüksəlməsi və möhkəmləndirilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olduğunu bildirən Valentina Matviyenko hazırda Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsindən məmnunluqla söhbət açdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə Sankt-Peterburqda SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ali məktəbində təhsil aldığını böyük məmnunluqla xatırladan qonaq gələn il həmin məktəbin qarşısında Prezident Heydər Əliyevin xatirə lövhəsinin açılmasının planlaşdırıldığını söylədi. Xanım Valentina Matviyenko imkan olarsa, həmin tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etməsini çox arzuladıqlarını bildirdi.

Cənab Heydər Əliyevin Sov.İK.MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çox yüksək vəzifədə çalışdığı dövrdə Sankt-Peterburqa daim böyük diqqət və qayğı göstərdiyini məmnunluqla vurğulayan qonaq bildirdi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsi Sankt-Peterburqda daim əziz tutulur.

Sankt-Peterburqda 400 minə yaxın azərbaycanlının yaşadığını söyləyən Valentina Matviyenko dedi ki, bu gün şəhərimizin ictimai həyatının bütün sahələrində azərbaycanlılar

fəallıqla iştirak edirlər. Yaxın zamanlarda Sankt-Peterburqda yaşayan azərbaycanlılar üçün məktəb açılacaqdır.

Azərbaycan ilə Sankt-Peterburq arasında mədəni əlaqələrin qədim tarixə malik olduğunu xatırladan qonaq bu sahədə əməkdaşlığın indi də sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açdı, bunun daim inkişaf edəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi.

***

Görüşdən sonra Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko şəhərin tarixi abidələrinin maketini Prezident İlham Əliyevə təqdim etdi və onu Heydər Əliyev Fondunda yerləşdirməyi təklif etdi. Prezident İlham Əliyev bu təklifi bəyəndi. Qonaq Sankt-Peterburqdakı Azərbaycan mədəni-milli muxtariyyətin rəhbərini dövlətimizin başçısına təqdim edərək dedi ki, o, Azərbaycan diasporunun birləşməsi üçün çox iş görür. Sankt-Peterburqun qubernatoru Rusiya-Azərbaycan münasibətlərinin inkişafında ölkəmizin fəxri konsulunun fəaliyyətini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın Sankt-Peterburqda baş konsulluğunun açılması haqqında Rusiya XİN-in müsbət qərarına görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı dedi ki, bu, Azərbaycan ilə Sankt-Peterburq arasında əməkdaşlığın daha da inkişaf etməsinə təkan verəcəkdir.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Sizin görüşünüz yarım saatdan çox çəkdi. Mümkünsə, bu görüşün, danışıqların yekunlarını qısaca ifadə edin.

İLHAM ƏLİYEV: Bəli, nəticələr, əlbəttə, var. Biz Rusiya ilə Azərbaycan arasında istər dövlətlərarası səviyyədə əməkdaşlığa, istərsə də Rusiyanın və Azərbaycanın müxtəlif regionları arasında əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu baxımdan Sankt-Peterburqla və vilayətlə əməkdaşlığımız öncül xarakter daşıyır.

Bilirəm ki, sabah da danışıqlar aparılacaq, konkret layihələr daha müfəssəl müzakirə ediləcəkdir. Əminəm ki, biz iqtisadi əlaqələrin, əmtəə dövriyyəsinin həcmini artıra biləcəyik və müştərək, maraqlı layihələr çox olacaqdır. Bunun üçün yaxşı şərait var, Azərbaycanın və Sankt-Peterburqun iqtisadi potensialı ildən-ilə artır. Dövlətə və şəhərə başçılıq etdiyimiz son bir ili, - biz bu baxımdan da bir növ yaxınıq, - müzakirə etdik. Ötən bu bir ildə iqtisadi sahədə böyük uğurlar qazanılmışdır. Sankt-Peterburqda da, bizdə də iqtisadiyyat inkişaf edir, deməli, biz daha güclü oluruq, yaxşı, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün daha böyük şərait yaradılır. Bir sözlə, hesab edirəm ki, səfərin yekunlarına əsasən yaxşı nəticələr olacaqdır.

SUAL: Peterburqun Azərbaycanla əməkdaşlığının perspektivləri necədir və biz hansı sahələrdə əməkdaşlıq edə bilərik? Sankt-Peterburqun neft-qazçıxarma sahəsində iştirakı mümkündürmü?

VALENTİNA MATVİYENKO: Sabah biz Sankt-Peterburq hökuməti ilə Azərbaycan hökuməti arasında saziş imzalayacağıq. Sazişdə əməkdaşlığımızın əsas istiqamətlərini

müəyyənləşdirəcəyik. Söz yox ki, Peterburq Azərbaycana bir sıra layihələr təklif etməyə hazırdır. Biz onları gətirmişik və sabah müzakirə edəcəyik. Söhbət maşınqayırma, energetika maşınqayırması sənayemizin məhsulunun göndərilməsindən gedir. Azərbaycan təkliflərimizi qəbul etsə, Peterburq Azərbaycan energetikasının modernləşdirilməsində iştiraka hazırdır. Bizdə dünyada tələbat olan rəqabət qabiliyyətli məhsul buraxan güclü müəssisələr var. Peterburq qaz və neft emalı sənayesi üçün avadanlıq və bir çox digər məhsullar göndərə bilər. Eləcə də, biz istərdik ki, Azərbaycandan Peterburqa ixrac artsın.

Əlbəttə, bu gün qarşılıqlı əmtəə dövriyyəmizin səviyyəsi potensialımıza və ikitərəfli imkanlarımıza uyğun deyildir. Onu artırmağa real imkan var. Üstəlik, bizim çoxdan yaranmış və şəhərimizi Azərbaycanla birləşdirən əlaqələrimiz var. Şəhərimizdə ümummilli lider, görkəmli siyasi xadim və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevə böyük hörmət və ehtiramla, hətta deyərdim, xüsusi rəğbətlə yanaşırlar. Bizi bu da birləşdirir. Peterburqla Azərbaycan arasında mənəvi əlaqə də var.

Zənnimcə, biz nəinki iqtisadi əlaqələrimizi, həm də mədəniyyət, təhsil, elm sahəsində əməkdaşlığı fəal inkişaf etdirəcəyik. Bu baxımdan da çox böyük potensial var. Gələn il Rusiyada Azərbaycan ili keçiriləcəkdir. Biz bu hadisədə iştirak etməyə indidən hazırlaşırıq. Gələn il Heydər Əlirza oğlu Əliyevin təhsil aldığı binada onun xatirə lövhəsini açmaq istəyirik. Mən Azərbaycan Prezidentini, - əgər imkanı olarsa, - Peterburqa gəlib, bu əlamətdar hadisədə iştirak etməyə dəvət etmişəm.

Bizi insani əlaqələr bağlayır. Peterburqda böyük Azərbaycan diasporu var - burada 400 minədək azərbaycanlı yaşayır. Peterburq çoxmillətli şəhərdir, müxtəlif millətlərdən, müxtəlif dini etiqadlardan olan adamlar burada həmişə dinc yaşamışlar. Azərbaycan diasporu şəhərin iqtisadiyyatında fəal iştirak edir. Odur ki, Peterburqu və Azərbaycanı bir-birinə bağlayan tellər çoxdur. İndi vəzifəmiz bu münasibətləri yeni səviyyəyə qaldırmaqdır, çünki son vaxtlar Azərbaycan və Rusiya prezidentləri arasında yüksək siyasi səviyyədə dialoq çox fəal inkişaf edir. Bu, ikitərəfli dövlətlərarası münasibətlərin inkişafı üçün ciddi təkandır. Mənə elə gəlir ki, bu münasibətlərə regional səviyyədə olan əlavə dövlətlərarası əməkdaşlığı praktiki məna ilə, qarşılıqlı surətdə faydalı real layihələrlə, real konkret işlərlə dolğunlaşdırmağa imkan verəcəkdir. Bir sözlə, böyük planlarımız var və ümidvaram ki, biz onları həyata keçirə biləcəyik.

SUAL: Cənab Prezident, Sankt-Peterburqdakı Azərbaycan diasporunun üzvlərinə nə demək, nə arzulamaq istərdiniz?

İLHAM ƏLİYEV: Onlara uğurlar arzulamaq istəyirəm. Biz çox şadıq ki, Rusiyadakı azərbaycanlılar təşkilatlanmışlar. Ümumrusiya Azərbaycan Konqresi də mövcuddur. Yeri gəlmişkən, bu yaxınlarda onun Moskvada Rusiya Prezidentinin iştirakı və mənim iştirakımla qurultayı keçirildi. Biz bilirik ki, Rusiyanın müxtəlif regionlarında azərbaycanlılar yaşayırlar. Biz buna çox müsbət yanaşırıq. Mən həmişə deyirəm ki, onlar üçün orada pis olsaydı, yaşamazdılar. Buna görə də onlara arzulamaq istəyirəm ki, Peterburqda özlərini bundan sonra da evdəki kimi hiss etsinlər, Rusiyanın layiqli vətəndaşları olaraq qalsınlar, öz fəaliyyətləri və gündəlik əmək̇ləri ilə ölkələrimiz və şəhərlərimiz arasında daha sıx əməkdaşlığa kömək etsinlər.

Eyni zamanda, demək istəyirəm ki, onlar bizə həmişə ümid bəsləyə bilərlər, çünki

Azərbaycan onların Vətənidir. Onlar bunu unutmurlar, əlbəttə ki, Vətənlə əlaqələri itirmirlər. Düşünürəm ki, müvəffəqiyyətə aparan yol öz milli tarixi köklərini unutmamaqdan, eyni zamanda, vətəndaşı olduqları dövlətin qanunları ilə yaşamaqdan və bu dövlətin layiqli vətəndaşı olmaqdan ibarətdir.

* * *

Sonra qubernator Valentina Matviyenko Sankt-Peterburqun 300 illik yubileyi münasibətilə buraxılmış medalı Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi. O bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də vaxtilə bu medala layiq görülmüşdür. Xanım Valentina Matviyenko köhnə Bakının Sankt-Peterburqun arxiv və muzeylərində saxlanılan nadir fotoşəkillərinin surətlərini də dövlətimizin başçısına təqdim etdi.

AZƏRBAYCAN VƏ SANKT-PETERBURQ HÖKUMƏTLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Nazirlər Kabinetində Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonun iştirakı ilə keçirilən hökumət nümayəndə heyətlərinin görüşü Azərbaycan Respublikasının hökuməti və Sankt-Peterburq hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında sazişin və danışıqların protokolunun imzalanması ilə başa çatmışdır. Sənədləri Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Abbas Abbasov, Rusiya tərəfindən Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko imzalamışlar.

Danışıqlarda Azərbaycan nümayəndə heyətinə rəhbərlik edən Baş nazirin birinci müavini Abbas Abbasov dedi ki, Rusiya ilə münasibətlərə strateji əhəmiyyət verən Azərbaycan zəngin iqtisadi və mədəni potensialı olan Sankt-Peterburqla ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlıdır. O, 2003-cü ildə Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi sahəsində artım olduğunu vurğulayaraq qeyd etdi ki, Azərbaycan Sankt-Peterburqa faraş meyvə-tərəvəz göndərə bilər. Onun sözlərinə görə, məhsul emalı sahəsində müştərək müəssisələrin yaradılması ticarət-iqtisadi əlaqələrin inkişafı üçün yaxşı stimul olardı.

Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko əməkdaşlıq məsələlərinin konkret şəkildə işlənilməsi ilə məşğul olmaq üçün xüsusi işçi qrupu yaradılmasını təklif etdi. O dedi ki, Sankt-Peterburq Azərbaycana neft-mədən, energetika avadanlığı, ərzaq sənayesi məhsulları göndərməkdə maraqlıdır. Sankt-Peterburqun işgüzar adamları Azərbaycanda özəlləşdirmə prosesində iştirak edə bilərlər.

Tərəflər 2005-ci ildə Sankt-Peterburqda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, bir-birinə şagird və tələbə nümayəndə heyətlərinin göndərilməsi, onların Xəzər sahilindəki turizm zonalarında istirahətinin təşkil edilməsi, birgə idman tədbirləri keçirilməsi barədə razılığa gəldilər.

Valentina Matviyenko jurnalistlərə bildirdi ki, gələn il Rusiyada keçiriləcək Azərbaycan ili çərçivəsində şimal paytaxtının küçələrindən birində Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyevin şərəfinə xatirə lövhəsi açılacaqdır. Gələn ilin ikinci rübündə Sankt-Peterburqda "Bakı" muzey-restoranı açmaq da planlaşdırılır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ ENERGETİKA ÜZRƏ BAŞ DİREKTORU FRANSUA LAMURUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Prezident sarayında Avropa Komissiyasının nəqliyyat və energetika üzrə baş direktoru Fransua Lamurunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Avropa Komissiyasının nümayəndə heyəti ilə görüşdən məmnunluq duyduğunu bildirdi.

Prezident İlham Əliyev Avropa Komissiyasının təşəbbüsü ilə Azərbaycanda 11 dövlətin energetika nazirinin və 14 dövlətin nəqliyyat nazirinin iştirakı ilə iki konfransın keçirilməsinin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, bu tədbirlərdə müzakirə olunan məsələlər həm Azərbaycan, həm də region üçün xüsusi əhəmiyyət daşıyır.

Energetika və nəqliyyat sahələrinin Azərbaycanın gələcək iqtisadi inkişafı üçün əsas istiqamətlərdən biri olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, bu sahələrdə ölkəmiz son illər böyük uğurlar əldə etmişdir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda həyata keçirilən, böyük həcmdə xarici sərmayələrin cəlb edildiyi qlobal enerji layihələrinin, o cümlədən ixrac boru kəmərləri layihələrinin gerçəkləşməsi regional əməkdaşlıq baxımından yaxşı nümunə olmaqla bərabər, eyni zamanda, müxtəlif ölkələrin səyləri birləşdirilərkən regional əməkdaşlığın uğurlu nəticələr verdiyini göstərir.

Azərbaycanın bu sahədə əldə olunmuş uğurlarla fəxr etdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, ölkəmizdə bu cür mühüm tədbirlərin həyata keçirilməsi həm gündəlikdə duran vacib iqtisadi məsələlərin geniş müzakirə edilməsi üçün imkan yaradır, həm də Azərbaycanda enerji və nəqliyyat infrastrukturunun daha da möhkəmləndirilməsi işinə xidmət edir.

Son illər Azərbaycanda nəqliyyat sahəsində, o cümlədən aviasiya, gəmiçilik, dəmir yolu və digər sahələrdə böyük inkişafa nail olunduğunu nəzərə çarpdıran dövlətimizin başçısı bildirdi ki, ölkəmiz üçün müasir tipli sərnişin təyyarələrinin, neft tankerlərinin alınması, İpək Yolu üzərindəki avtomobil magistralının yenidən qurulması və sair işlər Azərbaycanda dünya standartlarına uyğun nəqliyyat infrastrukturunun olması üçün yaxşı əsaslar yaradır.

Azərbaycan ərazisindən tranzit daşımalar üçün mühüm dəhliz kimi fəal surətdə istifadə olunduğunu vurğulayan Prezident İlham Əliyev bu baxımdan ölkəmizin Şərq-Qərb nəqliyyat dəhlizində əhəmiyyətinin gündən-günə artdığını nəzərə çarpdırdı. Avropa Birliyi ilə əlaqələrimizin sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açan dövlətimizin başçısı ölkəmizin bu təşkilatın yeni qonşuluq siyasətinin fəal iştirakçılarından birinə çevrildiyini bildirdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkəmizin bu siyasətdə fəal iştirakı Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı çərçivəsində yaxın zamanda yeni konkret layihələrin və proqramların gerçəkləşməsi işinə xidmət edəcəkdir.

Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyinin Azərbaycana, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və torpaqlarımızın işğaldan azad edilməsi məsələsinə diqqətinin artması çox müsbət haldır. Təşkilatın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bunu bir daha sübut edir.

Prezident İlham Əliyev dedi ki, Avropa strukturlarına, ümumiyyətlə, Avropa ailəsinə inteqrasiya Azərbaycanın xarici siyasətinin ən prioritet istiqamətlərindən biridir. Bizim ümumi inkişaf strategiyamız daim bu prinsiplərə əsaslanır. Çox məmnunam ki, ölkəmiz Avropa Komissiyasının təşəbbüsü ilə mühüm tədbirlərin keçirildiyi yer kimi seçilmişdir. Əminəm ki, bu tədbir uğurla başa çatacaq, Azərbaycanın Avropa Komissiyası ilə əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Fransua Lamuru əvvəllər müxtəlif vəzifələrdə çalışarkən Prezident Heydər Əliyevlə keçirdiyi çox səmərəli görüşləri böyük məmnunluqla xatırladığını söylədi.

Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Brüsseldə olmadığı üçün dövlətimizin başçısı ilə görüşə bilməməsindən təəssüfləndiyini bildirən qonaq dedi ki, Avropa Komissiyasının təşəbbüsü ilə Bakıda keçirilən tədbirlər öz mahiyyəti baxımından çox əhəmiyyətli hadisələrdir və bu cür tədbirlərin keçirilməsi Avropa Birliyinin Qafqazda və daha geniş məkanda regional əməkdaşlığı möhkəmləndirməsi işinə xidmət edir.

Azərbaycan ilə nəqliyyat və energetika sahəsində TRACECA və INOGATE kimi mühüm proqramların həyata keçirildiyini nəzərə çarpdıran cənab Fransua Lamuru dedi ki, Avropa Birliyi regionun enerji daşıyıcılarının təhlükəsiz ixracında birbaşa maraqlıdır.

Enerji daşıyıcılarının Avropaya ixracının çoxşaxəliliyinin təmin edilməsi baxımından Avropa Birliyinin Azərbaycan ilə əməkdaşlığa xüsusi maraq göstərdiyini vurğulayan qonaq bildirdi ki, Avropa Birliyinin məqsədi regionla uzunmüddətli əməkdaşlığın həyata keçirilməsindən ibarətdir. Bu işdə isə əsas təminatın regionda sabitliyin təmin edilməsindən ibarət olduğunu nəzərə çarpdıran cənab Fransua Lamuru Ermənistan-Azərbaycan münaqişəsinin yaxın zamanlarda həll olunacağına böyük ümidlər bəslədiklərini söylədi.

AVROPA BİRLİYİ "YENİ QONŞULUQ" PROQRAMINDA AZƏRBAYCANIN İŞTİRAKINI YÜKSƏK QİYMƏTLƏNDİRİR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 15-də Beynəlxalq Qara Dəniz Tədqiqatları Mərkəzinin (BQDTM) baş direktoru Yannis Papanikolau ilə görüşmüşdür.

Görüşdə tərəflər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv olan ölkələr arasındakı əməkdaşlıq, Azərbaycanın bu ölkələr və BQDTM ilə münasibətlərinə dair müzakirələr aparmışlar. BQDTM-nin Azərbaycanda fəaliyyətindən məmnun olduğunu deyən qonaq, bu təşkilatın ölkəmiz ilə gələcəkdə də sıx əməkdaşlıq edəcəyinə ümidvar olduğunu bildirmişdir. O demişdir ki, ölkəmizin qoşulduğu Avropa Birliyinin "Yeni qonşuluq" proqramı tərəflər arasında münasibətlərin inkişafında müsbət rol oynayacaqdır. Qərbin və Avropa Birliyinin tammiqyaslı inkişafı və müvəffəqiyyətli fəaliyyəti üçün Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı zəruri sayan qonaq,

Azərbaycanın bu ölkələr arasında lider rolunu oynamaq üçün böyük potensiala malik olduğunu xüsusi vurğulamış və demişdir ki, respublikamız bunun üçün bütün lazımi ehtiyatlara malikdir.

Azərbaycanın Avropa və Avratlantika strukturlarına inteqrasiya məsələsinə böyük əhəmiyyət verdiyini bildirən xarici işlər naziri Elmar Məmmədyarov, siyasi cəhətdən sabit və iqtisadi cəhətdən inkişaf etmiş bir ölkənin həm regional, həm də beynəlxalq aləmdə müsbət rol oynadığını və bundan sonra da oynayacağına əmin olduğunu diqqətə çatdırmışdır. Regionda sabitliyin qorunmasında Avropa Birliyinin böyük potensiala malik olduğunu deyən nazir, ölkəmizin bu imkanlardan istifadə etməsi üçün tərəflər arasında əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini diqqətə çatdırmışdır. O demişdir ki, Azərbaycan Avropa dəyərlərinin ölkəmizdə möhkəmləndirilməsi üçün böyük islahatlar aparır.

Görüşdə maraq doğuran bir sıra digər məsələlərə də toxunulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA TİBB ELMLƏR AKADEMİYASI ONKOLOGİYA ELMİ MƏRKƏZİNİN BAŞ DİREKTORU MİXAİL DAVIDOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Prezident sarayında Rusiya Federasiyası Tibb Elmləri Akademiyası Onkologiya Elmi Mərkəzinin baş direktoru Mixail Davıdovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Rusiyanın Onkologiya Elmi Mərkəzi ilə Azərbaycan Milli Onkologiya Mərkəzi arasında əməkdaşlığın daha da möhkəmlənməsindən məmnun qaldığını bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan Milli Onkologiya Mərkəzində işləyənlərin bir çoxu vaxtilə Rusiya Onkologiya Elmi Mərkəzində çalışmışlar. Fərəhli haldır ki, Moskvada həmin mərkəzdə hazırda da azərbaycanlı mütəxəssislər fəaliyyət göstərirlər. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkələrimizin onkoloji mərkəzləri arasında bu əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən Mixail Davıdov Bakıya səfəri zamanı, ilk növbədə, Fəxri xiyabana gedərək, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini söylədi. Ulu öndərimizin məzarı ətrafında aparılmış abadlıq işlərinə heyran olduğunu vurğulayan qonaq qəbirüstü abidənin dahi şəxsiyyətin adına layiq yaradıldığını bildirdi.

Xalqımızın ümummilli liderinin Azərbaycanın tarixində misilsiz rol oynayan bir şəxsiyyət olduğunu vurğulayan cənab Mixail Davıdov dedi ki, Prezident Heydər Əliyev bütün ömrünü doğma xalqının firavanlığı və xoşbəxtliyinə həsr etmişdir.

Bakıda Heydər Əliyev Fondunu da ziyarət etdiyini nəzərə çatdıran qonaq orada Azərbaycan xalqının ümummilli liderinin həyat və fəaliyyətinin müxtəlif sahələrini əks etdirən fotoşəkillərlə, eksponatlarla böyük maraqla tanış olduğunu söylədi.

Azərbaycanın və Rusiyanın onkologiya mərkəzləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan Mixail Davıdov rəhbərlik etdiyi mərkəzdə hazırda azərbaycanlı

mütəxəssislərin yüksək səviyyədə çalışdıqlarını və təhsil aldıqlarını bildirdi.

Görüşdə MDB-nin üzvü olan ölkələrin onkoloqlarının IV qurultayının Bakıda keçirilməsi məsələsi də müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ŞİGEO KATSUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Şigeo Katsunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Bakıda keçiriləcək Xəzər ekoloji investisiya forumunun əhəmiyyətini yüksək qiymətləndirdi.

Son illər Azərbaycanın böyük iqtisadi inkişafa nail olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizdə ekoloji problemlərə xüsusi əhəmiyyət verildiyini və bu baxımdan Dünya Bankının Azərbaycanda bu sahədə iştirakından məmnun qaldığını nəzərə çarpdırdı.

Dövlətimizin başçısı Azərbaycanda müxtəlif nazirliklər və dövlət şirkətləri tərəfindən ekologiya sahəsində ciddi tədbirlər görüldüyünü vurğuladı. Ölkənin daxili maliyyə vəsaitlərindən bu sahədə səmərəli istifadə edildiyini bildirən Prezident İlham Əliyev beynəlxalq maliyyə qurumlarının, o cümlədən Dünya Bankının bu işə cəlb olunmasının böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı.

Azərbaycanda Xəzər hövzəsinin və Abşeron yarımadasının neft tullantılarından təmizlənməsi sahəsində görülən konkret işlərdən bəhs edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu işdə Azərbaycanın beynəlxalq təşkilatlarla, o cümlədən beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığı daha da genişlənəcəkdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq Bakıda Xəzər ekoloji investisiya forumunun keçirilməsinin böyük əhəmiyyət daşıdığını söylədi.

Təmsil etdiyi Dünya Bankının ölkəmizin müvafiq strukturları ilə Azərbaycanın ekologiya problemlərinin həlli istiqamətində əməkdaşlıq etdiyini vurğulayan qonaq, bankın ekspertlərinin Azərbaycanda ekoloji problemləri yaxından öyrəndiklərini bildirdi və bu problemlərin həllinə nikbin baxdıqlarını diqqətə çatdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İQTİSADİYYAT ÜZRƏ DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Prezident sarayında Türkiyə Respublikasının iqtisadiyyat üzrə dövlət naziri Gürşad Tüzmənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimizin iş adamları arasın-

dakı səmərəli əməkdaşlıqdan məmnun qaldığını bildirərək dedi ki, biz bu əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu cür əməkdaşlıq Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə xidmət göstərir, iqtisadi əlaqələrimizin durmadan möhkəmləndirilməsinə öz töhfəsini verir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimiz bundan sonra daha da inkişaf edəcəkdir. Bunun üçün hər bir şərait var, Azərbaycan və Türkiyə rəhbərliyinin siyasi iradəsi mövcuddur. İqtisadi potensialımız da buna tam imkan yaradır, eyni zamanda, iki ölkəni birləşdirən dostluq və qardaşlıq əlaqələri də bunun üçün böyük əsas yaradır.

Türkiyəyə son rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı dedi ki, səfərdən sonra keçən dövr ərzində ölkələrimiz arasında bütün sahələrdə əlaqələr daha sürətlə inkişaf etməyə başlamışdır.

Ənənəvi dostluq və qardaşlıq münasibətlərimizin durmadan inkişaf etməsini yüksək dəyərləndirən, cənab Gürşad Tüzməni Azərbaycanda görməkdən şad olduğunu vurğulayan Prezident İlham Əliyev onunla Ankarada keçirdiyi görüşü məmnunluqla xatırlatdı.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə hökumətlərarası komissiyasının uğurla fəaliyyət göstərdiyini nəzərə çarpdırdı.

Ölkəmizin böyük siyasi, iqtisadi inkişafı yolunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin böyük əngəl törətdiyini vurğulayan dövlətimizin başçısı bu münaqişə ilə bağlı Türkiyə dövlətinə, hökumətinə və xalqına daim Azərbaycanın yanında olmasına görə minnətdarlıq etdi və bunun ölkəmiz üçün çox önəmli olduğunu bildirdi. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyinin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında ədalətli şəkildə həllindən ibarət olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi ki, biz heç kimin torpağını işğal etməmişik, heç kimin torpağına təcavüz etməmişik. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz beynəlxalq aləmdən, xüsusilə bu münaqişə ilə bilavasitə məşğul olan qurumlardan tələb edirik ki, münaqişənin həllinə ədalətlə yanaşsınlar, ikili standartlara son qoyulsun.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, torpaqlarımız işğaldan azad olunacaq və insanlarımız öz doğma yurdlarına qayıdacaqlar.

Dövlətimizin başçısı İlham Əliyev səmimi salamlarını Türkiyə Prezidenti Əhməd Necdət Sezərə, Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi və Türkiyəyə rəsmi səfəri zamanı ona göstərilən böyük diqqət və qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.

Vaxt tapıb onları qəbul etdiyinə və xoş sözlərə görə dərin minnətdarlığını bildirən cənab Gürşad Tüzmən özlərini vətəndəki kimi hiss etdiklərini söylədi. O bildirdi ki, Bakıda keçirilən Azərbaycan-Türkiyə biznes forumu başa çatdıqdan dərhal sonra Türkiyənin iş adamları konkret iqtisadi layihələrin həyata keçirilməsi üzərində çalışmağa başlayacaq.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə biznes forumdakı nitqində qarşıya qoyduğu vəzifələri yüksək dəyərləndirən qonaq dedi ki, biz ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, iqtisadi əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik.

Ölkələrimizdən keçən tarixi İpək yolunun yaxın zamanlarda enerji dəhlizi səviyyəsində də fəaliyyət göstərəcəyinə əmin olduğunu söyləyən dövlət naziri dedi ki, bütün bu işlərdə biz Azərbaycan Prezidentinin iş adamlarına göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. İqtisadiyyatın bütün sahələrində əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyən qonaq Prezident İlham Əliyevin təsdiq etdiyi iqtisadi proqramların və imzaladığı fərmanların, sərəncamların Azərbaycanın yaxın zamanlarda daha böyük iqtisadi inkişafına imkan verəcəyinə əminlik yaratdığını nəzərə çarpdırdı. O dedi ki, Türkiyə Azərbaycanın bu inkişaf prosesində yaxından iştirak etməyə daim səy göstərəcəkdir. Türkiyənin burada çalışan digər iş adamları kimi, nümayəndə heyətinin tərkibində Bakıya gələn 120 iş adamı da bu prosesin gələcəyinə nikbinliklə baxır. Biz Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmasının daha da artırılacağına əminik.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal layihələrin ölkələrimiz arasındakı strateji əməkdaşlığın bariz nümunəsi olduğunu bildirən qonaq dedi ki, Prezident İlham Əliyevin daim türk iş adamlarının yanında olması iqtisadi layihələrin daha böyük uğurla həyata keçirilməsində onlara böyük güc verir.

Avropa Birliyinin qonşuluq siyasətində Azərbaycanın fəal iştirak etdiyini vurğulayan nazir dedi ki, Türkiyənin Avropa Birliyi ilə əlaqələrinin sürətlə inkişaf etməsi ölkələrimizin bu beynəlxalq təşkilat çərçivəsində əməkdaşlığının daha da genişləndirilməsi üçün böyük perspektivlər açır.

Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı imzalanmış müqavilələrdə nəzərdə tutulmuş məsələlərin həyata keçirilməsi sahəsində görülən işlərdən bəhs edən qonaq Qars-Tbilisi və Samsun-Batumi dəmir yol xətti layihələrinin gerçəkləşdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı. Cənab Gürşad Tüzmən dedi ki, ölkələrimiz arasında neft və qaz boru kəmərlərinin çəkilməsi də Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin qısa zamanda yüksək həddə çatdırılması üçün böyük imkanlar yaradacaqdır.

Qonaq bildirdi ki, Prezident İlham Əliyevin sosial və iqtisadi sahələrdə islahatların uğurla aparılması ilə bağlı gördüyü işlər Azərbaycanda bir-birinin ardınca yeni mühüm layihələrin həyata keçirilməsinə imkan verir. Bu da öz növbəsində, Türkiyə iş adamlarının həmin istiqamətdə fəaliyyəti üçün yaxşı şərait yaradır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirən qonaq dedi ki, biz bu münaqişənin tezliklə ədalətli şəkildə həll edilməsini arzulayırıq. Bununla bağlı Türkiyə Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyəcəkdir.

BAKIDA AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU İŞƏ BAŞLAMIŞDIR

Noyabrın 18-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan-Türkiyə biznes forumu işə başlamışdır.

Respublikamızın İqtisadi İnkişaf Nazirliyinin və Türkiyənin Xarici Ticarət Müşavirliyinin təşəbbüsü ilə təşkil olunmuş forumda dost ölkənin dövlət naziri Gürşad Tüzmənin başçılıq etdiyi, o cümlədən 120 iş adamının daxil olduğu nümayəndə heyəti, Azərbaycanın iş adamları iştirak edirlər.

Forumun iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar.

İki gün davam edəcək biznes forumu iqtisadi inkişaf naziri Fərhad Əliyev açdı.

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF NAZİRİ FƏRHAD ƏLİYEVİN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, sizi salamlayır, Azərbaycanla Türkiyə arasında mövcud olan əlaqələrin inkişafında göstərdiyiniz səylərə görə hamınıza təşəkkürümü bildirir və qonaqlarımıza xoş gəlmisiniz demək istəyirəm.

Məlumat üçün bildirirəm ki, bugünkü toplantıda Türkiyənin dövlət naziri cənab Gürşad Tüzməni dost ölkənin dövlət məmurları, iş adamları və mətbuat işçiləri müşayiət edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu forumun açılışında iştirak etməsi Türkiyə ilə əməkdaşlığa nə qədər önəm verildiyini göstərir. Əminəm ki, bugünkü toplantıda mövcud əlaqələr bir daha nəzərdən keçiriləcək və yeni əməkdaşlıq sahələri barədə çox səmərəli müzakirələr aparılacaqdır. Bu müzakirələr qardaş ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə əməli töhfəsini verəcəkdir.

Hörmətli forum iştirakçıları!

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ümummilli liderimiz Heydər Əliyev tərəfindən başlanmış demokratik dövlət quruculuğu hazırda Prezident cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir.

Müstəqil dövlətçiliyimizin möhkəmlənməsində üzləşdiyimiz çətinliklərin aradan qaldırılmasında, biz bir millət, iki dövlət olaraq, həmişə qardaş Türkiyənin kömək və dəstəyini hiss etmişik. Bu gün tam inamla demək olar ki, bizim dostluğumuz əbədidir və tarixin sınaqlarından çox uğurla çıxmışdır. İndi Azərbaycan iqtisadi və siyasi islahatların ən dinamik şəkildə həyata keçirildiyi ölkələrdən biridir.

Təbii ki, milli dövlət quruculuğu prosesi sürətləndikcə, ictimai, hüquqi, psixoloji mühit dəyişdikcə, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası dərinləşdikcə sosial-iqtisadi inkişaf prioritetləri də mahiyyət etibarilə dəyişir. Əgər müstəqilliyimizin ilk illərində əsas məqsəd makroiqtisadi sabitliyin bərqərar olunmasından və möhkəmlənməsindən, ümumi iqtisadi göstəricilərin dinamik artımının təmin edilməsindən ibarət idisə, bu gün əsas vəzifəmiz əldə olunmuş bu uğurları inkişaf etdirərək, kəmiyyət dəyişikliklərinin

keyfiyyət dəyişikliklərinə keçməsini təmin etməkdən, yəni hər bir Azərbaycan vətəndaşı üçün bu iqtisadi uğurlardan bəhrələnmək imkanını yaratmaqdan ibarətdir. İndi əsas vəzifə ölkə əhalisinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq və regionların iqtisadi inkişafındakı geriliyi aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq, sosial-iqtisadi həyatın bütün sahələrində islahatları davam etdirmək, xarici iqtisadi əməkdaşlığımızın coğrafiyasını genişləndirmək və xüsusilə, xarici ticarət əlaqələrini inkişaf etdirməkdən ibarətdir.

Hörmətli forum iştirakçıları!

Azərbaycanın beynəlxalq əməkdaşlığında qardaş Türkiyə həmişə öncül mövqedə olmuşdur və ölkəmizin xarici iqtisadi siyasətində Türkiyə ilə əlaqələrin genişləndirilməsi ən vacib istiqamətdir. Elə bu ənənələrə sadiq qalaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyəyə səfəri zamanı imzalanan çoxsaylı sazişlərlə yanaşı, "Vizaların qarşılıqlı tətbiqi haqqında" sazişi xatırlatmaq istərdim. Artıq qüvvədə olan bu sənədə, əsasən, hər iki ölkənin vətəndaşları vizaları diplomatik nümayəndəliklərdən ödənişsiz, sərhəd-keçid məntəqələrində isə 10 ABŞ dolları ödəməklə çox rahat şəkildə ala bilirlər.

Bununla yanaşı, deməliyəm ki, uzun müddət müzakirə olunan bir məsələ də həll edilmişdir. Nəqliyyat vasitələrinin gediş-gəlişinin asanlaşdırılması məqsədi ilə Türkiyənin yük maşınları 2005-ci il yanvarın 1-dən daha münasib şərtlərlə tətbiq olunacaq vergiləri ödəyəcəklər. Lakin Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün çox böyük imkanlar mövcuddur. Bugünkü tədbirin də məqsədi elə bu imkanların reallaşmasından ibarətdir.

Hesab edirəm ki, türk şirkətləri Azərbaycanda infrastruktur layihələri, o cümlədən yolların və elektrik stansiyalarının inşası, faydalı qazıntıların işlənilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və qablaşdırılması, turizm infrastrukturunun inkişaf etdirilməsi layihələrini həyata keçirə bilərlər.

Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

İcazənizlə, sözü Türkiyə Respublikasının dövlət naziri cənab Gürşad Tüzmənə verərdim.

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN ÇIXIŞI

- Hörmətli Cümhurbaşqanım!

Dəyərli nazir həmkarım!

Azərbaycanın və Türkiyənin dəyərli dövlət və iş adamları!

Hörmətli mətbuat nümayəndələri!

Sözlərimə başlamazdan əvvəl, ilk növbədə, üzərimə düşən bir vəzifəni yerinə yetirmək istəyirəm. Hörmətli Cümhurbaşqanımız Sezərin və hörmətli Baş nazirmiz Ərdoğanın ən səmimi salamlarını, hörmət və ehtiramını sizlərə çatdırıram.

Özündən sonra güclü, sabitliyə qovuşmuş bir Azərbaycan qoyaraq, əbədiyyət yoluna çıxan türk dünyasının böyük dövlət adamı, mərhum Heydər Əliyevi bir daha rəhmətlə anır, "Ruhu şad olsun!" deyirəm.

Sevimli dostlarım və qardaşlarım!

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, sadəcə, iki ölkənin keçmişini göstərməklə yanaşı, gələcəyə işıq tutan mədəniyyət və dil birliyini yaşatmaqdadır. Tarix Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qonşuluqdan, hətta dostluqdan da dərin mənası olduğunun şahididir. İlk müstəqil Azərbaycan dövləti 1918-ci il mayın 28-də yaradılan zaman Osmanlı imperatorluğu onu dərhal tanımışdı. Bu dövrdə Avropanın güclü dövlətləri tərəfindən də dəstəklənən Rusiya və Ermənistanın Azərbaycanı işğal etmək üçün başladıqları savaşda türk və azəri əsgərləri çiyin-çiyinə döyüşmüş, bayrağını bayraq etmək üçün qan tökmüş, torpağı Vətən etmək üçün can vermişlər.

1930-cu illərdə Ermənistanın ərazisi genişləndirilərək, Türkiyə ilə Azərbaycan arasındakı birbaşa bağlar qırılsa da, qəlbən bağlılığımızı qırmağa heç kimsənin gücü çatmamışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə təkrar qovuşanda Azərbaycanı tanıyan ilk ölkənin Türkiyə Cümhuriyyəti olması bizlər üçün xüsusi şərəf olmuşdur.

Əziz dostlarım, qardaşlarım!

Azərbaycan və Türkiyə dünyanın ən önəmli strateji nöqtələrindən birində yerləşirlər. Tarixə baxdıqda Alparslanın Anadoluya keçdiyi yerin Azərbaycan olduğunu, mədəniyyətlərin bir-biri ilə birləşməsini göstərən İpək yolunun ölkələrimizdən keçdiyini görürük.

Enerji ilə əlaqəli dəhlizləri uzlaşdıran ölkələrimiz eyni strateji əhəmiyyətlərini bu gün də davam etdirməkdədirlər. Belə bir bölgədə yaşamağın üstünlükləri ilə bərabər, çətinlikləri də vardır. Bu çətinliklərə sinə gərmək üçün dövlətlərimiz və xalqlarımız arasındakı sarsılmaz telləri daha da gücləndirmək, dünyanın iqtisadi və siyasi səhnəsində daha böyük bir Türkiyəni, daha böyük bir Azərbaycanı inkişaf halına gətirmək üçün əlbir mübarizə aparmaq, fəaliyyət göstərmək, daha böyük səylə çalışmaq məcburiyyətindəyik. Bu məqsədimizə doğru inamlı addımlarla irəliləyərkən, mərhum Heydər Əliyevin tarixə düşən "Bir millət, iki dövlətik" müdrik kəlamını və dövlət başçısı hörmətli İlham Əliyevin "Bizim gücümüz bizim birliyimizdədir, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür" sözlərini özümüzə rəhbər tutacağıq. Aramızdakı əlaqələrin hər keçən gün daha da güclənərək sağlamlaşdığını bütün dünyaya göstərəcəyik. Əlbəttə, bütün bunları edərkən keçmişimizdən ibrət dərsləri götürəcək, həqiqətləri örnək tutacaq, səhvlərimizi düzəldəcəyik.

Bu günə qədər nələr etdik, nələri edə bilmədik. İndi icazənizlə, ötən dövrdə görülənləri və görülməyənləri açıq-aydın dəyərləndirmək və gələcəyə yönələn məqsədlərimizi sizinlə paylaşmaq istəyirəm.

Bu ilin sonunda ticarət dövriyyəsi həcminin 20 faiz artımla 500 milyon dollar səviyyəsinə çatmasını gözləyirik. Türkiyənin bu ilin sonunda 155-160 milyard həcmində olacağı xarici ticarətində Azərbaycanın payı hələ çox aşağı səviyyədədir. Yəni 160 milyard

dolların 1 faizini götürsək, 1,6 milyard dollar həcmində olması lazımdır. Mən bunu rahatlıqla edə biləcəyimizə inanıram.

Ötən müddət ərzində Azərbaycanda fəaliyyət göstərən türk şirkətlərinin sayı 1000-ə çatmışdır. Onların qoyduqları sərmayələrin həcmi 1,5 milyard dolları keçmiş, 30 minə yaxın qardaşımıza iş imkanı qazandırmışdır.

Enerji sahəsinə qoyulan sərmayələr nəzərə alınmasa, onda Azərbaycanda ən böyük sərmayə qoyan ölkə Türkiyə olmuşdur. Türk firmaları xidmət sahəsində də Azərbaycanda çox mühüm rol oynayaraq, bu günə qədər 1,6 milyard dollarlıq layihələr həyata keçirirlər.

Enerji sektorundakı işbirliyimizi sürətlə inkişaf etdiririk. Bir çox dairələrin etirazına və əngəllərinə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini inşa etməyə başladıq. İnşallah, önümüzdəki ildə bu kəmərlə neft axmağa başlayacaqdır.

Azərbaycanın təbii qazının Türkiyəyə nəqli məqsədi ilə tikintisinə başladığımız boru xəttini də 2006-cı ildə tamamlayaraq istismara verəcəyik. İkitərəfli əlaqələrimizdə bu günə qədər nə işlər gördüyümüzü qısa söylədim.

Ticarət-iqtisadi əlaqələrimizin mövcud vəziyyətinə baxdıqda, bugünkü səviyyə heç də az olmasa da, ancaq yetərli olmadığı aydındır. Türkiyə ilə Azərbaycan bu sahədə daha böyük potensiala və iradəyə sahibdir. Qarşıdakı dövrdə həyata keçirəcəyimiz siyasətlə ticarət dövriyyəsinin həcmini iki il ərzində 3 milyard dollar səviyyəsinə çatdırmağı, xidmət sektorundakı iş həcmimizi və sərmayələri bugünkü səviyyədən iki dəfə çox artırmağı hədəfləyirik.

Hörmətli Cümhurbaşqanımız İlham Əliyev Türkiyəyə son səfəri zamanı ticarət dövriyyəsinin həcmini 1 milyard dollara çatdırmaq vəzifəsini qarşımıza qoymuşdur. Biz nazir Fərhad Əliyevlə və buradakı digər nazir həmkarlarımızla bunu etmək üçün əlimizdən gələni edirik. Qısa müddətdə ticarətin həcmini 1 milyard dollara, orta müddətdə 3 milyard dollara, ondan sonra isə 5 milyard dollara çatdırmağa, inşallah, nail olacağıq. Bilirsiniz ki, keçmişdə bu rəqəmləri söylədiyimizə və həyata keçirəcəyimizə inanmayanları inandırmaq istəyir və bu rəqəmlərə çatmaq üçün bərabər işləyəcəyimizi düşünürəm.

Bu hədəflərə çatmağımız üçün iki əsaslı vəzifəmiz var. Birincisi, ticarət-iqtisadi əlaqələrimizdəki mövcud məsələləri, problemləri və əngəlləri tamamilə ortadan qaldırmaqdır. Bu məsələləri necə çözəcəyik?! İki qardaş məsələlərini necə çözürsə, biz də beləcə çözəcəyik. Ortaq mənfəətlərimiz nəyi tələb edirsə, onu da edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. İkincisi, iki ölkə arasında mal, xidmət və sərmayənin sərbəst işlədiyi bir müştərək iqtisadi qurum təsis edəcəyik. Bu, uzunmüddətli işbirliyinin təməlini qoyarkən hər sahədə müxtəlif layihələrin həyata keçirilməsinə dəstək verəcək, bütün sektorları bir-biri ilə əlaqələndirəcək, hərəkətə gətirəcəkdir.

Ticarət-iqtisadi əlaqələrdə hər iki ölkənin rəqabət gücünü artırmağımız lazımdır. Bu işdə daşımaların maya dəyəri məsələsi ciddi əngəl kimi qarşımıza çıxmaqdadır. Əslində, iki ölkənin rəqabət üstünlüyü üçün gücümüzü yaxşı dəyərləndirməyimiz lazımdır. Tələb olunan şərtlər həm Azərbaycan, həm Türkiyə, həm də dünya üçün qüvvədə olan şərtlərdir. Firmalarımız artıq bir-birilərini daha yaxşı tanıyırlar. Türkiyədə dəstəkləyici mənbələr vardır. Rəqabət aparmaq modeli həm Azərbaycanda, həm də Türkiyədə tam hazırdır. Bəzi məsələləri sərfəli formaya salacağıq.

Nəqliyyat daşımalarında maya dəyərinin azaldılması məqsədi ilə Azərbaycan tərəfindən reallaşdırılan tədbirləri təqdirlə izləyirik. Bu tədbirlərin qarşıdakı illərdə də davam edəcəyinə şübhə etmirik. Daşımalarda dəmir yolu və dəniz nəqliyyatı xüsusi yer tutur. Bu çərçivədə Qars-Tbilisi dəmir yolu layihəsini mümkün olan ən qısa zamanda həyata keçirmək əzmindəyik. Bu layihəni tamamlayana qədər Samsun və Batumi limanları arasında, eləcə də, Türkiyə və Azərbaycan arasında dəmir yolu əlaqəsi qurmağımız mümkündür.

Daşımalarda maya dəyərinin aşağı salınması ixrac və idxal mallarının qiymətlərinə təsir göstərəcək və ticarətin həcminin artması ilə bərabər, hər iki ölkə vətəndaşlarının daha ucuz qiymətə mal almalarına imkan verəcəkdir.

Qarşıdakı illərdə kənd təsərrüfatı, səhiyyə, sənaye və texniki iş birliyinə qədər hər sahədə geniş əməkdaşlıq yaratmağımız lazım gələcəkdir. Türkiyə Avropa Birliyinə üzv olduqdan sonra əlaqələrimizdə yeni perspektiv açılacaq və Azərbaycan Avropa ilə qonşu halına gələcəkdir. Artıq bu prinsiplərə uyğun siyasət yeritməyimiz lazımdır.

Türkiyə ilə Azərbaycanın ticarət-iqtisadi əlaqələrinə təsir göstərən məsələlərə, xaricdən törədilən əngəllərin aradan qaldırılmasına xüsusi diqqət yetirməliyik. Bu işdə çox önəm verdiyimiz məsələ 2004-cü il aprelin 13-də Ankarada imzaladığımız uzunmüddətli iqtisadi işbirliyi anlaşması çərçivəsində həyata keçirilməsini qərarlaşdırdığımız icra planının bir an öncə tamamlanmasıdır. İki ölkədən olan vəzifəli şəxslərin üzərində çalışaraq tamamlayacaqları bu plan bütün əməkdaşlıq sahələrini təfsilatı ilə nəzərdən keçirəcək və o, mərhələ-mərhələ reallaşdırılaraq, ikitərəfli əlaqələrimizə önəmli fayda gətirəcəkdir.

İqtisadi komissiyanın noyabrın sonuna planlaşdırdığımız, lakin təxirə salmaq məcburiyyətində qaldığımız toplantısının gerçəkləşdirilməsi yeni işbirliyi sahələrinin yaradılması baxımından önəm daşıması aydındır. Bu sahədə Azərbaycanın nazirlərindən alacağımız təklifləri nəzərdən keçirməyə hazır olduğumuzu bildirirəm.

Əlaqələrimizin inkişaf etdirilməsində və müştərək layihələrin həyata keçirilməsində özəl sektorun rolu çox böyükdür. Buna görə TÜSİAB və Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) kimi qurumlara gözəl fəaliyyətləri üçün təşəkkür edir və çalışmalarını artıraraq davam etdirmələrini diləyirəm. Azərbaycanda çalışan vəTürkiyədən gələn iş adamlarımıza müraciətlə deyirəm: Türkiyə bizim üçün nə məna ifadə edirsə, Azərbaycan da eyni mənanı ifadə edir. Cümhuriyyətimizin qurucusu, böyük öndərimiz Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" sözlərini özünüzə şüar edin və Azərbaycanın iqtisadi inkişafına qatılın. Bu sahədə önümüzdə bir yol xəritəsi və rəhbər də vardır. Hörmətli Cümhurbaşqanı İlham Əliyev sosial və iqtisadi sahələrin modernləşdirilməsi məqsədi ilə Dövlət Proqramını qəbul etmişdir. 2005-ci ildə layihələrə 500 milyon ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulmuşdur. Bu layihələrdə iştirak edərək, Azərbaycanın inkişafına əlbir qoşulun.

Əziz azərbaycanlı dostlarım!

Bakıya gələn nümayəndə heyətinin tərkibində 120-yə yaxın türk iş adamı vardır. Gözlədiklərimiz yüksək, qərarlılığımız tam, yolumuz açıqdır. Yolumuz 60 il əvvəl Sovetlər

Birliyinin dağılacağını bilərək, dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür, kökümüzə qayıtmalı, hadisələrin böldüyü tariximiz içərisində bütünləşməliyik. Onların bizə yaxınlaşmasını gözləməməliyik, bizim onlara yaxınlaşmağımız gərəkdir deyən Mustafa Kamal Atatürkün yoludur.

Yolumuz Atatürkün müqəddəs adı, solmayan simasının, min illərdən gələn Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gələcəyə parlaq işıq saçmasıdır deyən Heydər Əliyevin yoludur. Bu yolda durmadan irəliləyəcəyik.

Bu gün tarixi İpək yolunu enerji və tarixi birləşmə yolu etdik və gələcəkdə sülhə, rifaha çatana qədər irəliləyəcəyik.

Hörmətli Cümhurbaşqanım!

Hörmətli nazir!

Əziz dostlarım, qardaşlarım!

Çıxışımı bu səhər ziyarət etdiyimiz türk şəhidlərinin uyuduğu abidənin üzərində də yer alan və Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin dünənini, bu gününü və sabahını başqa heç bir ifadəyə yer vermədən anladan sözlə bitirmək istəyirəm:

Ayrılarmı könül candan,

Türkiyə Azərbaycandan!

Sağ olun, var olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab nazir!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən, ilk növbədə, sizin hamınızı ürəkdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Türkiyə ilə Azərbaycan arasında olan münasibətlər çox yüksək səviyyədədir. Bu əlaqələr bizim xalqlarımız arasında əsrlər boyu yaşamışdır. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr dövlət səviyyəsinə qalxmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyənin dəstəyini, yardımını hiss etmişik və bu gün də bunu hiss edirik.

Hörmətli cənab nazir qeyd etdi, Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə Türkiyə olmuşdur. O illərdən bu günə qədər bizim aramızda olan əlaqələr bütün sahələrdə çox uğurla inkişaf edir, güclənir. Bizim ölkələrimiz siyasi müstəvidə bütün məsələlərdə vahid mövqedən çıxış edirlər, dünya birliyində bir-birinin mövqeyini müdafiə edirlər. Əlbəttə, birliyimiz bizə imkan verir ki, haqlı mövqeyimizi daha cəsarətlə və açıq şəkildə ortaya qoyaq. Bizi narahat edən problemləri dünya birliyinin diqqətinə çatdıraq.

İqtisadi əlaqələr də sürətlə inkişaf edir. Mən son illər ərzində əldə edilmiş nailiyyətləri qeyd etmək istəyirəm. Eyni zamanda, əlbəttə ki, bu iqtisadi əlaqələr bizi qane etmir.

Hər iki ölkənin iqtisadi potensialı ildən-ilə güclənir, ölkələrimiz daha da müasirləşir və iqtisadi cəhətdən daha da möhkəm olurlar. Belə olan halda, ticarət əlaqələrimiz, əlbəttə, bizim real iqtisadi potensialımızı əks etdirmir. Düzdür, mal dövriyyəsində ildən-ilə artım müşahidə olunur və bu, çox sevindirici haldır, onu göstərir ki, bu dinamika müsbət istiqamətdə inkişaf edir. Ancaq, eyni zamanda, mən hörmətli cənab nazirin fikri ilə tam razıyam ki, aramızda olan ticarət əlaqələrini daha da gücləndirmək üçün bizim gözəl imkanlarımız vardır.

Bütün dövrlərdə bizim aramızda səmimi münasibət, dostluq, qardaşlıq hissləri olmuşdur və bu gün də belədir.

İki ölkə arasında olan əlaqələrin bugünkü yüksək səviyyəyə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, onun Türkiyə-Azərbaycan əlaqələrinə verdiyi önəm çox böyük əhəmiyyət kəsb edir. Hələ Heydər Əliyev Naxçıvanın rəhbəri vəzifəsində çalışarkən Türkiyə ilə daim əlaqə saxlamışdır, Türkiyə ilə Naxçıvan arasında o vaxt çox yüksək əlaqələr yaranmışdı. Türkiyə tərəfindən Naxçıvana edilmiş yardımlar Naxçıvanı o çətin, ağır illərdə, demək olar ki, böyük bəladan xilas etdi. "Ümid körpüsü"nün tikintisi də Naxçıvanı Türkiyə ilə bağladı və bu körpü Naxçıvan üçün həyat körpüsünə çevrilmişdi. Biz bu yardımları, bu köməyi heç vaxt unutmayacağıq.

Azərbaycan xalqının təkidi və tələbi ilə 1993-cü ildə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyevin xarici siyasəti birmənalı şəkildə Türkiyə ilə daha da sıx, daha da möhkəm əlaqələrin qurulmasına yönəlmişdir. Bu istiqamətdə çox böyük işlər görülmüşdür. Həm ikitərəfli müstəvidə, həm də regional əməkdaşlıq çərçivəsində bizim ölkələrimizin əlaqələri başqa ölkələr üçün örnək, nümunə ola bilər. Məhz ölkələrimizin müştərək səyi nəticəsində dünyanın ən böyük enerji layihəsi həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir, bütün çətinliklərə, bütün əngəllərə, xaricdən olan təzyiqlərə baxmayaraq, xalqlarımızın iradəsi və rəhbərlərimizin qətiyyəti imkan verib ki, vaxtilə əfsanə kimi təqdim edilən layihə gerçəkliyə çevrilir. Təsadüfi deyil ki, Bakı-Tbilisi-Ceyhan şirkətinin təşəbbüsü ilə bu kəmərə Heydər Əliyevin adı verilmişdir. Çünki Heydər Əliyev bu kəmərin çəkilməsinin təşəbbüskarı idi və demək olar ki, bu kəmər onun əsəridir. Eyni zamanda, Türkiyə tərəfi Ceyhan terminalına da Heydər Əliyevin adını vermişdir. Mən bu münasibətlə də türk qardaşlarımıza öz adımdan bir daha dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bakı-Tbilisi-Ceyhandan sonra, bizim aramızda enerji sahəsində daha bir böyük layihə - Bakı-Tbilisi-Ərzurum qaz kəməri vardır. Bu kəmər Azərbaycan qazını həm Türkiyəyə, eyni zamanda, Türkiyə üzərindən digər ölkələrə çatdıracaqdır. Bu qaz kəməri də bizim ölkələrimizi enerji baxımından dünya üçün, ilk növbədə, Avropa üçün çox önəmli ölkələr kimi təqdim edəcək, enerji təchizatı baxımından ölkələrimiz Avropa istehlakçıları üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir. Ümid edirəm ki, bu layihə də vaxtında başa çatacaqdır. Beləliklə, bizim həm iqtisadi cəhətdən qüdrətimiz artacaq, həm də siyasi, təhlükəsizlik, regional əməkdaşlıq baxımından ölkələrimiz daha da güclü olacaqdır.

Bütün bunları etmək üçün, çətin, ağır vəziyyətdə etmək üçün əlbəttə, çox böyük müdriklik, siyasi təcrübə və cəsarət tələb olunurdu. Mən çox şadam ki, Azərbaycanda son illər ərzində aparılmış siyasət, Heydər Əliyev tərəfindən müəyyən olunmuş xətt bu gün

də uğurla davam etdirilir, həyata keçirilir. Bütün sahələrdə Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır. O cümlədən Türkiyə-Azərbaycan əlaqələrinin daha da güclənməsi istiqamətində də bu siyasət davam etdirilir.

Mən Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunandan sonra ilk xarici səfərim məhz qardaş Türkiyəyə olmuşdur. Prezident seçkilərindən sonra da Türkiyəyə etdiyim rəsmi səfərim çox uğurlu olmuş, çox önəmli ikitərəfli razılaşmalar, müqavilələr bağlanmışdır. Eyni zamanda, bizim ölkələrimiz arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətləri daha da güclənmişdir. Biz bu siyasətə sadiqik. Heydər Əliyevin şüarı, onun "Türkiyə-Azərbaycan bir millət, iki dövlətdir" kəlamı bu gün də bizim üçün ən əziz, ən mötəbər şüardır. Biz bu siyasətə sadiqik və əminəm ki, qardaş xalqlarımız bundan sonra da daim birlikdə olacaqlar, bir-birinə daim kömək edəcəklər və həmişə çalışacaqlar ki, Türkiyə və Azərbaycan, iki qardaş ölkə bir-birinə daha da yaxın olsunlar.

Demək istəyirəm ki, iqtisadi baxımdan həm Türkiyə, həm də Azərbaycan çox sürətlə inkişaf edir. Artıq qeyd olundu ki, Azərbaycanda çox önəmli layihələr həyata keçirilir. Eyni zamanda, dövlət tərəfindən qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramlarının həyata keçirilməsi də artıq öz ilkin nəticələrini verməkdədir.

Bir il bundan əvvəl, prezident seçkiləri ərəfəsində biz bəyan etmişdik ki, Azərbaycanda görüləcək tədbirlər nəticəsində beş ildə 600 min yeni iş yeri açılacaqdır. Düzdür, buna şübhə ilə yanaşırdı, buna inanmırdı. Bəziləri bizi günahlandırırdı ki, qeyri-real vədlər veririk. Ancaq biz inanırdıq ki, bunu həyata keçirmək üçün real imkanlar var. Birinci ilin nəticələri göstərir ki, biz, həqiqətən, düz yoldayıq.

Bir il ərzində Azərbaycanda 110 mindən artıq yeni iş yeri açılıbdır ki, onlardan da 70 mini daimi iş yeridir. Qalan hissəsi isə mövsümi iş yeridir. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində iş yerlərinin açılması prioritet məsələyə çevrilibdir. Regionlara etdiyim səfərlər mənə imkan verib ki, orada baş verən hadisələri öz gözümlə görəm. Çox şadam ki, Azərbaycanın hər bir bölgəsində indi böyük canlanma var, işlər görülür. Sahibkarlar daha da qətiyyətlə, cəsarətlə işləyirlər.

Azərbaycanda sahibkarlara çox gözəl münasibət var. Mən özəl sektorun nümayəndələri ilə dəfələrlə görüşlər keçirmişəm, onları dəstəkləmişəm və istəyirəm hamı bilsin ki, bu dəstək var və bundan sonra da olacaqdır. Azərbaycanın inkişafı bu istiqamətdə olmalıdır. Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə sadiqdir və bu gün Azərbaycanda ümumi daxili məhsulda özəl sektorun payı 74 faiz təşkil edir. Baxmayaraq ki, Azərbaycanın əsas sahəsi neft sektorudur və o, dövlətin inhisarındadır. Yəni bu onu göstərir ki, Azərbaycanda özəl sektorun inkişafı çox sürətlə gedir və biz Azərbaycanın iqtisadi gələcəyini məhz bu istiqamətdə görürük. Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranır. Bizim məqsədimiz ondadır, güclü orta sinif yaransın, Azərbaycan sahibkarları güclənsinlər.

Əlbəttə, biz xarici sərmayəyə də böyük önəm veririk. Bu baxımdan da çox məmnunluq hissi ilə deyə bilərəm ki, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Azərbaycanda xarici sərmayələrin qoyuluşu üçün çox gözəl şərait yaradılmışdır. Sərmayəçilər özlərini çox rahat hiss edirlər və xarici sərmayə dövlət tərəfindən lazımi səviyyədə qorunur. Azərbaycana son illər ərzində bütün mənbələrdən 20 milyard dollardan artıq vəsait qoyulmuşdur.

Amma, eyni zamanda, biz maraqlıyıq ki, Azərbaycanda yerli sahibkarlar daha böyük həcmdə sərmayə qoysunlar, bizim öz iş adamlarımız daha da güclənsinlər. Bunun üçün, lazımi məqsədə çatmaq üçün müvafiq tədbirlər görülür. Dövlət tərəfindən sahibkarlara ayrılan kreditlərin həcmi ildən-ilə çoxalır və gələn il bu məbləğ iki dəfə artacaqdır. Yəni özəl sektora diqqət daim olmuşdur və bundan sonra da olacaqdır.

Əlbəttə, biz çox istəyirik ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələri iki ölkə arasında olan siyasi əlaqələrin səviyyəsinə çatsın. Bunu etmək üçün, əlbəttə, dövlət, hökumət öz üzərinə düşən funksiyaları, vəzifələri yerinə yetirəcəkdir. Ancaq, eyni zamanda, iş adamlarının özlərindən də çox şey asılıdır. Mən ümid edirəm ki, bugünkü görüş, toplantı bu istiqamətdə çox güclü təkan olacaqdır. Bizim iş adamlarımız bir-birilə daha sıx əlaqədə, ünsiyyətdə olacaqlar və Türkiyədən gəlmiş iş adamları Azərbaycanda daha da fəallaşacaq, yaxud da hələ ki, fəaliyyət göstərməyən iş adamları gəlib Azərbaycanda işləyəcəklər.

Azərbaycanda iş görmək üçün bu gün çox gözəl şərait vardır və bundan sonra da olacaqdır. Azərbaycan bütün mənbələrdən sərmayələri daha da fəal şəkildə cəlb edəcəkdir. Dövlət tərəfindən investisiya Proqramı təsdiq olunacaq və burada artıq qeyd edildi ki, Azərbaycana yalnız dövlət xətti ilə və dövlət tərəfindən alınan kreditlərin xətti ilə yüz milyonlarla dollar həcmində sərmayələr qoyulacaqdır.

Əgər biz bütün başqa sərmayələri də nəzərə alsaq, görərik ki, gələcəkdə Azərbaycana milyardlarla dollar sərmayə qoyulacaqdır. Məndə olan məlumata görə, Azərbaycana bu il 3 milyard dollardan artıq vəsait qoyulubdur. Bu, bir daha onu göstərir ki, Azərbaycan sərmayə qoyulması üçün çox əlverişli yerdir.

Azərbaycanda ictimai-siyasi sabitlik davam edir. Ölkədə asayiş mövcuddur. Azərbaycan cəmiyyəti yekdil fikirdədir. Bizim hamımızın məqsədi budur ki, ölkəmizi gücləndirək, müasirləşdirək, zəngin iqtisadiyyat yaradaq ki, xalqımız da yaxşı yaşasın. Hesab edirəm ki, son illər ərzində ölkədə sosial sahədə görülən işlər də təqdirəlayiqdir. Maaşlar, pensiyalar, əhaliyə çatan digər ödəmələr ildən-ilə artır. Biz bu siyasəti də bundan sonra da davam etdirəcəyik.

Əziz dostlar!

Bir sözlə, mən ümid edirəm ki, bizim aramızda, habelə iş adamlarının arasında olan əlaqələr bundan sonra daha da güclənəcək və biz qarşımıza qoyduğumuz məqsədi, yəni mal dövriyyəsini bir milyard dollara çatdırmaq istəyimizi həyata keçirəcəyik. Mən də hörmətli cənab nazirlə razıyam ki, biz gərək bundan sonra da dayanmayaq, səylərimizi davam etdirək ki, aramızda olan iqtisadi əlaqələr daha da güclənsin.

Biz istəyirik ki, Türkiyə daha da güclü olsun. Türkiyə də istəyir ki, Azərbaycan daha da güclü olsun. Mən Türkiyədə olarkən dediyim sözlərə bir daha qayıtmaq istəyirəm: həqiqətən, bizim gücümüz birliyimizdədir. Gənc müstəqil bir dövlət kimi Azərbaycanın müstəqilliyinin ilk illərində, əlbəttə, müəyyən fərziyyələr var idi, müəyyən ümidlər var idi, amma vaxt keçdikcə, Azərbaycan dünyaya daha da sıx inteqrasiya olunduqca, biz açıq-aydın görürük ki, xoşbəxtliyimiz, gələcəyimiz bizim öz əlimizdədir. Biz gərək bir-birimizə dayaq olaq. Biz öz gücümüzə istinad edib, birgə fəaliyyətimizlə bir-birimizi zənginləşdirməliyik.

Azərbaycan bu baxımdan Türkiyə üçün və Türkiyə də Azərbaycan üçün bir nömrəli tərəfdaşdır, bir nömrəli dostdur, bir nömrəli qardaşdır. Mən sizi bir daha ürəkdən salamlayıram və hamınıza uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sag olun.

* * *

Rəsmi hissədən sonra forum işini davam etdirmişdir. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığın inkişafı departamentinin direktoru Əlihüseyn Şahyev çıxışında demişdir ki, sahibkarlığın inkişafı, ölkədə əlverişli biznes mühitinin yaradılması ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişaf strategiyasının əsasını təşkil etmiş, sahibkarlığın inkişafı daim dövlət müdafiəsi tədbirləri ilə əhatə olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə də bu strateji xətt ardıcıl olaraq davam etdirilir. Ölkədə kiçik və orta sahibkarlığın inkişafının 2002-2005-ci illər üzrə nəzərdə tutulmuş Dövlət Proqramı çərçivəsində tədbirlər həyata keçirilmişdir.

Son 5 ildə hüquqi şəxslərin sayının 1,5 dəfə artdığını, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayının isə 175 mini keçdiyini, sahibkarlıq bölməsində xarici investisiyalı şirkətlərin sayının 1995-ci ilə nisbətən təqribən 3,4 dəfə artaraq 3400-dən çox olduğunu diqqətə çatdıran natiq Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı üzrə kompleks tədbirlərin uğurla həyata keçirilməsinin regionlarda sahibkarlığın inkişafına böyük təkan verdiyini vurğuladı.

O bildirdi ki, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər görülmüş, dövlət büdcəsindən sahibkarların güzəştli kreditləşdirilməsi mexanizmi yaradılmış, son üç ildə təkcə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil banklar vasitəsilə sahibkarlara üstün sahələr üzrə 150 milyard manatdan artıq güzəştli kredit ayrılmışdır. Sahibkarlığın bazar infrastrukturunun yaradılması, ölkənin ixrac qabiliyyətinin artırılması, sahibkarların hüquqlarının müdafiəsi və dövlət-sahibkar münasibətlərinin inkişafı, biznes əlaqələrinin genişləndirilməsi istiqamətində önəmli addımlar atılmışdır.

İstanbul Mədən və Metallar İxracatçı Birliklərinin baş katibi Mutlu Öktem bu cür tədbirlərin iki dost, qardaş ölkə arasında əlaqələrin inkişafına, iqtisadi-ticarət əlaqələrimizin daha da genişlənməsinə imkan yaratdığını vurğuladı. O dedi ki, nümayəndə heyəti tərkibində Azərbaycana gəlmiş çoxsaylı iş adamlarının və məmurların əsas niyyəti xarici ticarət dövriyyəmizin qarşılıqlı surətdə artırılmasına nail olmaqdır.

Həmin təşkilatın ixracat üzrə baş direktoru Əli Boğa Türkiyə iqtisadiyyatının son nailiyyətləri, ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin üstün istiqamətlərindən danışdı. O dedi ki, sürətlə inkişaf edən, sərbəst ticarətə və rəqabətə davamlı bir ölkə olan Türkiyədə cari ilin 9 ayı ərzində ixrac 45 milyard dollar, ticarət dövriyyəsinin həcmi isə 115 milyard dollar təşkil etmişdir. Xarici ticarətin 50 faizi Avropa Birliyi ölkələrinin payına düşür. Ticarət dövriyyəsinin həcminə görə dünyanın ilk 20 ölkəsi sırasına daxil olmaq qarşıya məqsəd qoyulmuşdur.

Azərbaycan Dövlət Gömrük Komitəsinin maliyyə-tarif və valyuta nəzarəti baş idarəsi rəisinin müavini Arif Həmzəyev ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə müasir gömrük sisteminin formalaşdığını bildi-

rərək dedi ki, hazırda Azərbaycanın gömrük orqanları dövlət büdcəsi gəlirlərinin beşdə bir hissəsini təmin edirlər. Bütün yerli gömrük orqanları ilə "Modem" əlaqəsi qurulduğunu, malların qısa müddətdə rəsmiləşdirilməklə gömrükdən çıxarılmasına nəzarətin tam təmin olunduğunu, sərhəd gömrük-buraxılış məntəqələrində 24 saatlıq iş rejiminə keçildiyini söyləyən natiq vurğuladı ki, 2003-cü ildə idxalda özəl sektorun xüsusi çəkisi təqribən 69,8 faizə, ixracda isə 50 faizə qalxmışdır. Bu göstəricilərin 2004-cü ildə bir qədər də yüksələcəyi gözlənilir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Ələkbər Məmmədov çıxışında ölkəmizdə iş adamları üçün yaradılmış əlverişli şəraitdən, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsində sahibkarların rolundan, sahibkarlara və sahibkarlığın inkişafına dövlətimizin başçısının şəxsi diqqət və qayğısından danışdı. O dedi ki, Türkiyənin zəngin təcrübəsindən bəhrələnərək, ölkəmizdə yüngül sənaye, avtomobil sənayesi, turizm sahələri üzrə birgə istehsal mühüm səmərə verə bilər. İstehsal yaradan iş adamları təkcə Azərbaycan bazarına deyil, əlverişli şərtlərlə Orta Asiya, Gürcüstan, Rusiya, İran və sair ölkələrin bazarlarına çıxmaq imkanı qazanarlar.

Fasilədən sonra biznes-forum işini bölmələr üzrə davam etdirdi. Bölmə iclaslarında inşaat, səhiyyə, əczaçılıq, kimya, metallurgiya, avtomobil, elektrik maşınları və avadanlığı, yeyinti sənayeləri üzrə birgə əməkdaşlığın perspektivləri müzakirə olundu.

BMT-NİN KOMİTƏSİ AZƏRBAYCAN HÖKUMƏTİNİN İKİNCİ DÖVRİ MƏRUZƏSİNİ YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR

Azərbaycan Respublikasının 1992-ci il iyulun 21-də qoşulduğu "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" üzrə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair məruzənin hazırlanması haqqında dövlətimizin başçısının 22 iyun 2002-ci il tarixli Sərəncamına əsasən Hökumətin ikinci məruzəsi 2003-cü il mayın 5-də BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinə təqdim edilmişdi.

Bu il noyabrın 16-17-də Cenevrə şəhərində BMT-nin həmin Komitəsinin 33-cü sessiyasında Azərbaycan Respublikası Hökumətinin ikinci dövri məruzəsinə baxılmışdır.

Azərbaycan Prezidentinin 21 oktyabr 2004-cü il tarixli Sərəncamına əsasən həmin sessiyada respublikamızı Azərbaycanın xarici işlər nazirinin müavini X.Xələfovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

Azərbaycan nümayəndə heyətinin başçısı həmin sessiyada çıxış edərək hökumətin ilkin məruzəsinin Komitəyə təqdim edilməsindən sonrakı müddət ərzində insan hüquqları, xüsusilə də iqtisadi, sosial və mədəni hüquqların müdafiəsi sahəsində görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumatı diqqətə çatdırmışdır.

Müzakirələr zamanı Komitə üzvləri nümayəndə heyətinin yüksək səviyyəli məmurlardan ibarət olmasını müsbət hal kimi qiymətləndirmişlər. Nümayəndə heyətimiz Azərbaycan Respublikası Hökumətinin məruzəsi ilə bağlı Komitə üzvlərinin əlavə suallarını ətraflı cavablandırmışlar. Komitənin sədri bu cavabları yüksək qiymətləndirmişdir.

Rəsmi səfər zamanı X.Xələfov BMT-nin Cenevrə bölməsinin baş direktoru S.Orçoni-

kidze, bu beynəlxalq qurumun İnsan Hüquqları üzrə ali komissarı xanım L.Arbur, Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti C.Kellenberq və Belarusun xarici işlər naziri S.Martınov ilə görüşlər keçirmişdir. Bu görüşlər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizdə insan hüquqlarının qorunması sahəsində görülən işlər, ikitərəfli əməkdaşlıq və s. məsələlərlə bağlı danışıqlar aparılmışdır.

AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ PRAQA VƏ BERLİN GÖRÜŞLƏRİNDƏ FİKİR MÜBADİLƏSİ APARMIŞLAR

Noyabrın 19-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistanın xarici işlər naziri Vardan Oskanyan ilə Praqa görüşlərində nəzərdən keçirdikləri məsələlər üzrə fikir mübadiləsini Berlin şəhərində davam etdirmişlər.

Azərbaycan xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov noyabrın 20-də Nyu-York şəhərinə yola düşmüşdür. O, burada noyabrın 23-də BMT Baş Məclisinin geniş iclasında gündəliyin "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə" dair 163 saylı bəndinin müzakirəsində iştirak edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN AQO MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Prezident sarayında Almaniyanın Avropa Şurası Nazirlər Komitəsində səfiri Roland Vegenerin sədrlik etdiyi Avropa Şurası Nazirlər Komitəsinin AQO Monitorinq qrupunun nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsindən keçən dövr ərzində ölkəmizdə cəmiyyətin daha da demokratikləşməsi, siyasi plüralizmin təmin olunması, Azərbaycan-Avropa Şurası əməkdaşlığını əhatə edən məsələlər, o cümlədən Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurası Parlament Assambleyasının müvafiq qurumları çərçivəsində müzakirəsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

NATO İLƏ FƏRDİ TƏRƏFDAŞLIQ FƏALİYYƏTİ PLANI ÜZRƏ SEMİNAR KEÇİRİLMİŞDİR

Noyabrın 18-20-də Bakıda Azərbaycan Respublikası ilə NATO arasındakı Fərdi Tərəfdaşlıq Fəaliyyəti Planı (FTFP) üzrə Xarici İşlər Nazirliyi və Marşall Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycana bu planı həyata keçirmək prosesində yardım göstərmək üçün seminar keçirilmişdir.

Seminarda Fərdi Tərəfdaşlıq Fəaliyyəti Planının yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Milli Təhlükəsizlik üzrə İdarələrarası İşçi Qrupunun üzvləri arasında təhlükəsizlik konsepsiyasının və strategiyasının, birgə əməkdaşlığın və konsensus yaradılmasının inkişaf etdirilməsi məsələsi müzakirə olunmuşdur.

Tədbirdə Azərbaycan Respublikası Milli Təhlükəsizlik üzrə İdarələrarası İşçi Qrupunun üzvləri, NATO-nun Təhlükəsizlik və Planlaşdırma Siyasəti üzrə Beynəlxalq Qərargahının, ABŞ qoşunlarının Avropa komandanlığının, ABŞ müdafiə nazirinin aparatının və Marşall Mərkəzinin nümayəndələri iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞI SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI GENERAL OGÜST VANDELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında Belçika Kralhığı Silahlı Qüvvələrinin komandanı general Ogüst Vandeli qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev general Ogüst Vandelin respublikamızda keçirdiyi uğurlu görüşlərdən məmnun qaldığını bildirdi, ölkələrimiz arasında əlaqələrin inkişafından razılığını vurğuladı.

Ölkələrimizin siyasi sahədə əlaqələrinin gücləndiyini nəzərə çarpdıran Prezident İlham Əliyev Brüsselə son səfərini xatırlatdı, Avropa Birliyi və NATO-nun tədbirlərində iştirakı ilə yanaşı, həmin səfəri Azərbaycan-Belçika əlaqələrinin daha da inkişaf etdirilməsi baxımından yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Brüsseldə Belçikanın baş naziri ilə səmərəli görüş keçirdiyini də nəzərə çarpdırdı.

Prezident İlham Əliyev cənab Ogüst Vandelin Bakıya səfərinin ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişafına xidmət edəcəyinə əminliyini vurğuladı.

Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunan dövlətimizin başçısı bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunmasının, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin bölgədə sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsinə böyük zərbə vurduğunu nəzərə çarpdırdı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu münaqişənin yalnız və yalnız beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməsini istəyir.

Vaxt tapıb onu qəbul etdiyinə görə minnətdarlığını bildirən general Ogüst Vandel Bakıya bu çox uğurlu səfəri zamanı keçirdiyi görüşlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi, Azərbaycana ilk səfərindən çox məmnun qaldığını söylədi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan cənab Ogüst Vandel bu münaqişənin tezliklə sülh yolu ilə həll ediləcəyinə əmin olduğunu bildirdi.

O, Azərbaycan ilə Belçika arasında hərbi əməkdaşlığın uğurla inkişaf etdiyini nəzərə çarpdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI ORDU GENERALI FEVZİ TÜRKERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Prezident sarayında Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Baş komandanı, ordu generalı Fevzi Türkerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev general Fevzi Türkerinin respublikamızda bir sıra mühüm görüşlər keçirməsindən məmnun qaldığını bildirdi, Türkiyənin Jandarm Qüvvələri ilə Azərbaycanın Daxili Qoşunları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Türkiyə Jandarm Qüvvələri Baş Komandanlığı tərəfindən respublikamıza göstərilmiş yardıma görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dedi ki, ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir millət, iki dövlət" arasında əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir.

Türkiyəyə rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı dedi ki, həmin səfər zamanı keçirilmiş görüşlər, imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi və genişləndirilməsi üçün gözəl şərait yaratmışdır.

Prezident İlham Əliyev bildirdi ki, bu yaxınlarda Bakıda keçirilmiş Azərbaycan-Türkiyə biznes forumu iqtisadi sahədə əlaqələrimizin də yüksək səviyyədə inkişaf etdiyini bir daha təsdiq etdi. Biz ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığa da böyük önəm veririk. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bu sahədə də Türkiyənin yardımını daim hiss etmişdir. Azərbaycan ordusunun inkişafının müasir səviyyəyə çatmasında dost və qardaş Türkiyə dövlətinin yardımı böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq bu gün uğurla inkişaf edir.

Azərbaycanda ordu quruculuğu sahəsində böyük işlər görüldüyünü nəzərə çarpdıran dövlətimizin başçısı dedi ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili ictimai-siyasi sabitlik daha da möhkəmlənir. Əfsuslar olsun ki, Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı uzun illər danışıqlar aparılmasına baxmayaraq, bu, heç bir nəticə vermir. Mən hesab edirəm ki, Azərbaycanda ordunun güclənməsi bölgədə sülhün və sabitliyin təmin olunması işinə və bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlarda ölkəmizin mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Ölkəmizdə ordu quruculuğunun daha da inkişaf etdirilməsi, o cümlədən Daxili Qoşunların yüksək səviyyədə təşkil olunması üçün dövlət tərəfindən mühüm tədbirlərin həyata keçirildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, cənab Fevzi Türkerinin respublikamıza səfəri bu əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən general Fevzi Türkeri Prezident İlham Əliyev ilə görüşdən, dost və qardaş Azərbaycana səfər etməkdən şərəf duyduğunu söylədi. Qonaq dedi ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələr

tarixi köklərə söykənir, ümummilli lider Heydər Əliyevin ifadə etdiyi kimi, "Bir millət, iki dövlət" səviyyəsində uğurla inkişaf edir.

Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə olduğu kimi, silahlı qüvvələr arasında da genişləndiyini və gündən-günə gücləndiyini nəzərə çarpdıran qonaq Türkiyənin Jandarm Qüvvələri ilə Azərbaycanın Daxili Qoşunlarının əməkdaşlığından məmnunluq duyduğunu söylədi. O dedi ki, mən Azərbaycanın Daxili Qoşun hissələri ilə tanış olarkən onların hazırlığının yüksək səviyyədə olduğunu gördüm və bununla fəxr etmək olar.

Ölkələrimiz arasında bu sahədə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini vurğulayan qonaq dövlətimizin başçısını əmin etdi ki, Türkiyə həmişə olduğu kimi, dost və qardaş Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir. Cənab Fevzi Türkeri dedi ki, Azərbaycan Silahlı Qüvvələrinin yüksək səviyyədə olması Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması işinə xidmət edir və mən əminəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaxın zamanlarda öz həllini tapacaqdır.

Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökün səmimi salamlarını Prezident İlham Əliyevə çatdıran general Fevzi Türkeri dövlətimizin başçısı ilə görüşdən və dost, qardaş Azərbaycanı ziyarət etməkdən xoşbəxtlik duyduğunu bir daha vurğuladı.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökə onun səmimi salamlarını və xoş arzularını çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında İtaliya xarici işlər nazirinin müavini Marqarita Boniverin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev xanım Boniveri yenidən Azərbaycanda görməyindən məmnunluq duyduğunu bildirdi, onunla bundan əvvəl keçirdiyi görüşləri xatırlatdı. Dövlətimizin başçısı ölkəmizin Avropa ailəsinə sürətlə yaxınlaşdığını və Avropa Birliyinin yeni qonşuluq siyasətinin fəal iştirakçılarından biri olduğunu nəzərə çarpdırdı. Azərbaycanın İtaliya ilə ikitərəfli əlaqələrinin çox uğurla inkişaf etməsindən məmnun qaldığını vurğulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu əlaqələr bundan sonra daha da genişlənəcəkdir.

Azərbaycan-İtaliya əlaqələrinin zəngin tarixi olduğunu xatırladan dövlətimizin başçısı iqtisadiyyat, xüsusilə neft və qaz sahəsində əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək dedi ki, biz bu əlaqələrin digər sahələri də əhatə etməsini, siyasi, sosial, mədəni və digər sahələrdə əlaqələrimizin daha da inkişaf etməsini istəyirik. Bunun üçün həm ikitərəfli münasibətlər, həm də ölkəmizin Avropa Birliyi ilə əməkdaşlığı çərçivəsində böyük imkanlar vardır.

Bu il Avropa Birliyinin tədbirində iştirakını məmnunluqla xatırladan Prezident İlham

Əliyev qurumun yeni qonşuluq siyasətinə ölkəmizin böyük ümidlər bəslədiyini, yeni qonşuluq siyasətinə Azərbaycanın daxil edilməsinin siyasi baxımdan böyük əhəmiyyət daşıdığını və bölgədəki ümumi vəziyyətə mühüm təsir göstərdiyini vurğuladı.

Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bölgədə sülhə və təhlükəsizliyə böyük zərbə vurduğunu bildirdi. Dövlətimizin başçısı Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edərək, bu münaqişənin həllində ölkəmizin mövqeyinin yalnız və yalnız beynəlxalq hüquq normalarından - dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərindən ibarət olduğunu vurğuladı.

Prezident İlham Əliyev qonaqları bir daha salamlayaraq əmin olduğunu bildirdi ki, bu səfər əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən, 2002-ci ildə Azərbaycanın dövlət başçısı ilə keçirilmiş görüşünü xatırladan xanım Boniver bundan sonra Prezident İlham Əliyev ilə də görüşlərinin çox səmərəli olduğunu qeyd etdi. O, Azərbaycanın dövlət başçısının Romaya qarşıdakı rəsmi səfərinin yüksək səviyyədə təşkil olunması üçün İtaliya tərəfinin böyük səy göstərdiyini, ciddi hazırlıq işləri gördüyünü söylədi.

İkitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən qonaq bu əməkdaşlığın təkcə iqtisadiyyat sahəsini deyil, digər sahələri də əhatə etməsinin vacibliyini vurğuladı, bu baxımdan kənd təsərrüfatı, turizm və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğunu xatırlatdı.

Xanım Marqarita Boniver Prezident İlham Əliyevin İtaliyaya qarşıdakı səfərinin Azərbaycan-İtaliya əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı. Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilməsinin əhəmiyyətini vurğulayan qonaq yaxın illərdə bu əməkdaşlığın uğurlu nəticələr verəcəyinə və ölkəmizin yerləşdiyi qeyri-sabit bölgəyə öz müsbət təsirini göstərəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ YOŞİO UTSUMİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Yoşio Utsumini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev ötən il Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin böyük uğurla keçdiyini xatırladaraq dedi ki, həmin sammitdən iki ay sonra Azərbaycanda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan İnformasiya və rabitə sektorunun inkişafına çox böyük əhəmiyyət verir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün respublikamızda böyük imkanlar olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanda vətəndaşların və ölkənin həyatının müxtəlif sahələrini əhatə edən kommunikasiya sisteminin sürətlə inkişaf etdiyini, yeni texnologiyaların tətbiq olunduğunu nəzərə çarpdırdı.

Prezident İlham Əliyev Bakıda "Rəqəmsal uçurum və bilik iqtisadiyyatı: problemlər və həlli yolları" mövzusunda qlobal informasiya-kommunikasiya texnologiyaları konfransının uğurla keçməsini yüksək qiymətləndirdi.

Ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrinin sürətlə inkişaf etdiyini bildirən dövlətimizin başçısı dedi ki, rabitə və telekommunikasiya sisteminin durmadan inkişaf etdirilməsi müasir dünyanın əsas elementlərindən biridir. Yaxın zamanlarda dünyada bu sahənin daha da güclənəcəyi gözlənilir və məhz elə bu baxımdan Azərbaycan həmin sahənin inkişafına böyük əhəmiyyət verir. Çünki biz ölkəmizi bu proseslərin tərkib hissəsi kimi görmək istəyirik.

Prezident İlham Əliyev Azərbaycanda təkcə neft sektorunda deyil, digər sahələrdə də, o cümlədən informasiya və telekommunikasiya sahəsində də böyük inkişafa nail olunduğunu bildirərək dedi ki, biz Azərbaycanda neft sektorundakı inkişafın digər sahələrin inkişafını təmin etməsinə çalışırıq. Ölkəmizdə iqtisadi, sosial və digər sahələrdə, xüsusilə təhsil sistemində yeni informasiya texnologiyalarının tətbiq edilməsi üçün böyük işlər görülür. Bütün məktəblərin tam kompüterləşdirilməsi ilə bağlı proqram qəbul olunmuşdur. Azərbaycanda 4 mindən çox məktəb vardır, yaxın illərdə bunların hamısında, hətta ən uçqar kənd məktəblərində də kompüter siniflərinin yaradılması və onların beynəlxalq İnternet sisteminə qoşulması qərara alınmışdır. Üç il ərzində həyata keçirilməsi nəzərdə tutulan və təhsil sisteminin inkişafı üçün çox önəmli olan bu proqramın yerinə yetirilməsi Azərbaycan rəhbərliyi tərəfindən qarşıya qoyulmuş prioritet vəzifələrdən biridir.

Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə təşəkkür edən cənab Yoşio Utsumi ötən il Cenevrə şəhərində sammitin keçirilməsinə verdiyi dəstək üçün Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. O, dövlətimizin başçısına həmin sammitə həsr olunmuş brošür təqdim etdi.

Qonaq Cenevrə sammitindən keçən dövr ərzində Azərbaycanda rabitə, informasiya və telekommunikasiya sistemlərinin inkişafı sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirləri yüksək qiymətləndirdi. Eyni zamanda, ölkədə təkcə neft sektorunda deyil, digər sahələrdə də, o cümlədən informasiya və telekommunikasiya sahəsində də böyük uğurlar əldə edildiyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN NƏQLİYYAT VƏ RABİTƏ NAZİRİ BİNƏLİ YILDIRIMI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında Türkiyə Respublikasının nəqliyyat və rabitə naziri Binəli Yıldırımı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Bakıda keçirilən "Qlobal informasiya-kommunikasiya texnologiyaları - 2004" konfransının böyük əhəmiyyət daşıdığını bildirdi.

Azərbaycan ilə Türkiyə arasında həm rabitə, həm də nəqliyyat sahəsində əlaqələrin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Türkiyənin rabitə sahəsində böyük təcrübəsi olduğunu məmnunluqla xatırlatdı. Rabitə sahəsində Azərbaycanda da böyük işlər görüldüyünü nəzərə çarpdıran dövlətimizin başçısı ölkələrimizin bu sahədə əməkdaşlığının uğurla inkişaf etdiyini vurğuladı.

Nəqliyyat sahəsində də ölkələrimizin əməkdaşlığının genişləndiyini qeyd edən Prezident İlham Əliyev bu yaxınlarda Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Türkiyənin Nəqliyyat və Rabitə Nazirliyi arasında Türkiyədə aparılan danışıqların bu sahədə əlaqələrin möhkəmləndirilməsinə dair konkret layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğunu nəzərə çarpdırdı.

Nəqliyyat və energetika sahəsində əməkdaşlığımızın uğurlu regional əməkdaşlığın bariz nümunəsi olduğunu söyləyən dövlətimizin başçısı dedi ki, artıq gerçəkləşməkdə olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri həm regional əməkdaşlıq, həm də qlobal baxımdan dünya əhəmiyyətli layihələrdəndir.

Türkiyə-Gürcüstan-Azərbaycan dəmir yol xətti layihəsinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev onun gerçəkləşməsi üçün konkret addımlar atıldığını bildirdi.

Türkiyəyə səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı orada keçirilən görüşlərin və aparılan danışıqların ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən nəqliyyat və rabitə sahələrində uğurlu əməkdaşlığın inkişafı üçün yaxşı zəmin yaratdığını vurğuladı.

Prezident İlham Əliyev Türkiyənin nəqliyyat və rabitə nazirinin Azərbaycana səfərinin ölkələrimizin bu sahələrdə əməkdaşlığının daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlıq edən cənab Binəli Yıldırım Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın səmimi salamlarını və dərin ehtiramını Prezident İlham Əliyevə çatdırdı.

Qlobal İnformasiya-kommunikasiya texnologiyalarına dair Bakıda keçirilən konfransın böyük əhəmiyyət daşıdığını bildirən qonaq ölkələrimiz arasında rabitə və nəqliyyat sahələrində son illərdə əməkdaşlığın sürətlə inkişaf etdiyini məmnunluqla vurğulayaraq dedi ki, Türkiyə rabitə sahəsində qazandığı təcrübəni azərbaycanlı həmkarları ilə bölüşməyə hazırdır və bu sahədə konkret addımlar atılmışdır.

Cənab Binəli Yıldırım Azərbaycanın və Türkiyənin rabitə sistemləri arasında təcrübə mübadiləsi ilə əlaqədar atılacaq konkret addımların müzakirə ediləcəyini bildirdi. Nəqliyyat sahəsində də əməkdaşlığımızın daim genişləndiyini vurğulayan nazir bu sahədə layihələrin gerçəkləşdirilməsi istiqamətində Azərbaycanın Nəqliyyat Nazirliyi ilə konkret məsələlərə dair uğurlu müzakirələr aparıldığını bildirdi. O, bu baxımdan Türkiyə-Gürcüstan-Azərbaycan dəmir yolu xətti layihəsinin gerçəkləşdirilməsi istiqamətində görülən birgə işlərin əhəmiyyətini vurğuladı.

Türkiyə Prezidentinin və Baş nazirinin səmimi salamlarına və dərin ehtiramına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da səmimi salamlarını və dərin ehtiramını Prezident Əhməd Necdət Sezərə və Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TRT TELEVİZİYASININ SƏDRİ ŞENOL DƏMİRÖZÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında Türkiyənin Radio və Televiziya Qurumunun (TRT) sədri Şenol Dəmirözü qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə TRT arasındakı əməkdaşlıqdan məmnunluğunu bildirdi.

TRT televiziyasının Azərbaycanda, AzTV-nin isə Türkiyədə izlənməsini razılıqla vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar, mədəni və hərbi sahələrdə əlaqələrin çox sürətlə inkişaf etməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, son zamanlar Azərbaycanın və Türkiyənin müxtəlif sahələr üzrə yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edir.

AzTV ilə TRT-nin əlaqələrindən, ölkələrimiz arasında informasiya mübadiləsinin daha da yaxşılaşdırılmasından, Azərbaycanda və Türkiyədə baş vermiş hadisələrin tamaşaçılara çatdırılmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev TRT sədrinin Bakıya səfərinin bu sahədə əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verəcəyinə əmin olduğunu vurğuladı.

Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən Şenol Dəmiröz AzTV ilə TRT arasında əməkdaşlığın genişlənməsindən məmnunluqla söhbət açdı. O, Bakıya bu səfəri zamanı AzTV ilə TRT-nin əməkdaşlığına dair birgə protokol imzalanacağını söylədi.

AzTV ilə müştərək proqramlar hazırlandığını, yaradıcı heyətlərin bir-birinə qarşılıqlı səfərlərinin nəzərdə tutulduğunu vurğulayan qonaq hazırda TRT-nin Azərbaycan dövlət televiziyası ilə və Yazıçılar Birliyi ilə sıx təmasda olduğunu bildirdi. O, bu əlaqələrin nəticəsi kimi "Dədə Qorqud" teleserialı üzərində birgə iş aparıldığını nəzərə çarpdırdı. Cənab Şenol Dəmiröz Azərbaycanın dahi sənət adamları haqqında da silsilə verilişlər üzərində işlənildiyini də bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TELEKOMMUNİKASİYA NAZİRİ ƏVEYS ƏHMƏD XAN LEQARİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında Pakistan İslam Respublikasının informasiya texnologiyaları və telekommunikasiya naziri Əveys Əhməd Xan Leqarini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı onun Bakıda keçirilən "Qlobal informasiya-kommunikasiya texnologiyaları -2004" konfransında iştirak etməsindən məmnun qaldığını bildirdi.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana rəsmi səfərinin

hər iki ölkənin əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd etdi. Dövlətimizin başçısı İlham Əliyev Pakistan Prezidenti Pərviz Müşərrəflə şəxsi səmimi dostluq münasibətlərinin ölkələrimizin əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini vurğuladı, Azərbaycanın və Pakistanın rabitə sistemləri arasında əməkdaşlığın genişləndirilməsinin böyük əhəmiyyəti olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında beynəlxalq məsələlər sahəsində tam mövqe eyniliyi olduğunu bildirdi və bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı məsələlərdə ölkələrimizin bir-birini daim bütünlüklə dəstəkləməsini yüksək qiymətləndirdi.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan naziri Prezident İlham Əliyev ilə görüşdən böyük şərəf duyduğunu söylədi, Prezident Pərviz Müşərrəfin səmimi salamlarını və dərin ehtiramını dövlətimizin başçısına çatdırdı. Cənab Əveys Əhməd Xan Leqari Prezident İlham Əliyevin Pakistana rəsmi səfəri ilə bağlı Prezident Pərviz Müşərrəfin dəvətini bir daha dövlətimizin başçısına çatdıraraq dedi ki, Azərbaycan Prezidentinin səfərini Pakistanda böyük səbirsizliklə gözləyirik.

O qeyd etdi ki, ölkələrimizin siyasi, iqtisadi və digər sahələrdə əlaqələri uğurla inkişaf edir və bu baxımdan rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlığın da genişlənməsi böyük əhəmiyyət daşıyır.

Azərbaycan ilə Pakistanın dost və qardaş ölkələr olduğunu diqqətə çatdıran nazir Dağlıq Qarabağ və Kəşmir məsələlərində dövlətlərimizin bir-birinin mövqelərini tam müdafiə etdiyini vurğuladı.

Qonaq noyabrın 24-də BMT Baş Məclisinin sessiyasında Pakistanın Dağlıq Qarabağ üzərində Azərbaycanın tam hüququnu dəstəkləyən xüsusi bəyanatla çıxış etdiyini bildirdi.

Pakistan naziri əmin olduğunu bildirdi ki, ölkələrimizin bütün sahələrdə əlaqələri, o cümlədən informasiya texnologiyaları sahəsində əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

Prezident Pərviz Müşərrəfin səmimi salamlarına və rəsmi səfərə dəvətə görə dərin minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Pakistan dövlətinin başçısına çatdırmağı nazirdən xahiş etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, onun Pakistana səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ BANQLADEŞ XALQ RESPUBLİKASININ ELM, İNFORMASİYA VƏ RABİTƏ TEXNOLOGİYALARI NAZİRİ ƏBDÜL MOYİN XANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Prezident sarayında Banqladeş Xalq Respublikasının elm, informasiya və rabitə texnologiyaları naziri Əbdül Moyin Xanı qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Bakıda keçirilən "Qlobal infor-

masiya və kommunikasiya texnologiyaları-2004" konfransında bir çox ölkələrin yüksək səviyyəli nümayəndə heyətlərinin, o cümlədən Banqladeşin nümayəndə heyətinin iştirak etməsindən məmnun qaldığını vurğuladı.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu cür tədbirlər informasiya və rabitə texnologiyaları sahəsində əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən böyük şərəf duyduğunu söylədi.

Cənab Əbdül Moyin Xan ölkəsinin Baş naziri xanım Xalidə Ziya Rəhmanın səmimi salamlarını, dərin ehtiramını və Prezident İlham Əliyevin Banqladeşə rəsmi səfəri barədə dəvətini dövlətimizin başçısına çatdırdı.

Azərbaycan xalqının qədim tarixə, zəngin mədəniyyətə malik olduğunu bildirən qonaq Bakıya gəldiyi ilk gündən Azərbaycanda bütün sahələrdə çox sürətli inkişafın şahidi olduğunu vurğuladı.

Dövlətimizin başçısı İlham Əliyev Banqladeşin Baş naziri xanım Xalidə Ziya Rəhmanın səmimi salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını və dərin ehtiramını ona çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Banqladeşin Baş naziri ilə Cenevrədə keçirdiyi görüşü xatırlatdı və rəsmi səfərə görə minnətdarlıq etdi. Bu dəvəti məmnunluqla qəbul etdiyini bildirən dövlətimizin başçısı Banqladeşə rəsmi səfərini həyata keçirəcəyinə ümidvar olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI RUUD LUBBERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ötən il Cenevrədə cənab Ruud Lubbers ilə keçirdiyi uğurlu görüş zamanı səmərəli müzakirələr apardıqlarını məmnunluqla xatırlatdı.

Ali komissarın Azərbaycana səfərini, noyabrın 25-də nümayəndə heyətinin qaçqınların məskunlaşdığı yerlərə baş çəkməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev qonaqların qaçqınlar üçün salınmış yeni qəsəbədə vəziyyətlə, yaradılmış şəraitlə yaxından maraqlandıqlarını, bu sahədə əldə edilən inkişafın şahidi olduqlarını vurğuladı.

Ölkəmizdə qaçqın və məcburi köçkün düşərgələrinin tamamilə ləğv olunması və həmin insanlar üçün yeni məskunlaşma yerlərinin təşkil edilməsi istiqamətində böyük işlər görüldüyünü nəzərə çarpdıran dövlətimizin başçısı qaçqın və məcburi köçkünlərin cəmiyyətimizdə fəal iştirakı ilə bağlı xeyli tədbirlər görüldüyünü bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan hökuməti bu məqsəd üçün daxili maliyyə vəsaitlərindən səmərəli istifadə edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasının, bir milyondan çox soydaşımızın yerindən-yurdundan zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin böyük humanitar fəlakət olduğunu vurğuladı. Prezident İlham Əliyev bütün bunların ciddi iqtisadi, sosial problemlər doğurduğunu bildirərək dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhün, sabitliyin təmin edilməsinə böyük əngəl törədir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılacaq, doğma torpaqlarından zorla qovulmuş insanlar öz yerlərinə, yurdlarına qayıdacaqlar.

Prezident İlham Əliyev yerindən-yurdundan zorla qovulmuş qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin tamamilə yaxşılaşdırılması məqsədi ilə ölkəmizdə həyata keçirilən Dövlət Proqramlarından da söhbət açdı.

Azərbaycan hökumətinin bundan sonra da qaçqın və məcburi köçkünlərin vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayan Prezident İlham Əliyev eyni zamanda, beynəlxalq humanitar yardımın davam etdirilməsinin də zəruriliyini nəzərə çarpdıraraq dedi ki, güman edirəm, sizin regiona səfəriniz ümumilikdə Azərbaycanda humanitar problemlərin həll edilməsi sahəsində görülən işlərin uğurla davam etdirilməsinə öz töhfəsini verəcəkdir.

Cənab Ruud Lubbers vaxt tapıb onları qəbul etdiyinə, səmimi sözlərə və onun başçılıq etdiyi nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə minnətdarlığını bildirdi. 2003-cü ilin dekabrında Cenevrədə dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırlayan qonaq Azərbaycana səfərinin ilk günündən nümayəndə heyətinin çox gərgin proqramla işlədiyini nəzərə çatdırdı və onlara yaradılmış şəraitə görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.

O, dövlətimizin başçısına məlumat verdi ki, nümayəndə heyətinin üzvləri noyabrın 25-də Bərdədə, Biləsuvarda məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşmüş, onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işləri çox yüksək qiymətləndirmişlər. Cənab Ruud Lubbers bu sahədə görülən işlərdən böyük məmnunluq duyduqlarını söylədi. O dedi ki, bu insanların vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı şəxsən Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən işlər BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndə heyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir. Qonaq bildirdi ki, Azərbaycanda görülmüş bütün bu işlər nümayəndə heyətinin hər bir üzvünə çox müsbət təsir göstərmişdir. O dedi ki, humanitar problemlərin həlli məsələləri Azərbaycanın hökumət rəsmiləri ilə müzakirə edilmişdir.

Rəhbərlik etdiyi Ali Komissarlığın fəaliyyəti barədə Prezident İlham Əliyevə ətraflı məlumat verən cənab Ruud Lubbers Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək, bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının vacibliyini xüsusi vurğuladı. Daha sonra o dedi ki, qaçqın və məcburi köçkün düşmüş insanlara, habelə Mesketi türklərinə Azərbaycanda göstərilən dövlət qayğısı bir çox ölkələr üçün yaxşı nümunə ola bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Prezident sarayında ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir.

Qonağı salamlayan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunaraq, ərazimizin 20 faizinin işğal edildiyini və bir milyondan artıq azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşdüyünü vurğuladı və təəssüflə bildirdi ki, iki ölkənin xarici işlər nazirləri və dövlət başçıları arasında danışıqların aparılmasına baxmayaraq, bu, hələlik heç bir nəticə vermir. Çünki Ermənistan münaqişənin həlli istiqamətində hansısa ciddi addımlar atmır, danışıqlar prosesinin yenə də təxirə salınmasına cəhd göstərir. Azərbaycan tərəfi bu məsələnin tezliklə sülh yolu ilə həllini istəyir. Lakin bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normalarına əməl olunmaqla, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında həll edilə bilər. Biz ümidvarıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaxın zamanlarda öz həllini tapacaqdır.

Prezident İlham Əliyev son vaxtlar Avropa Şurasının və digər beynəlxalq təşkilatların bu münaqişənin həllinə yaxından cəlb olunmasını müsbət hal kimi qiymətləndirdi. Eyni zamanda bildirdi ki, bu problemin həlli ilə bağlı ATƏT-in Minsk qrupu mandata malikdir və ümidvarıq ki, o, bu sahədə öz səylərini daha da artıracaqdır.

Səmimi qəbula görə minnətdarlıq edən cənab Qoran Lenmarker dövlətimizin başçısı ilə əvvəlki görüşünü məmnunluqla xatırlatdı, ölkəmizdə ona göstərilən səmimi münasibətə görə təşəkkürünü bildirdi. Sonra qonaq dedi: Mən Bakıya indiki səfərim zamanı təkcə Dağlıq Qarabağdan deyil, Azərbaycanın işğal edilmiş digər rayonlarından olan insanlarla da görüşlərimdən belə bir qənaətə gəlirəm ki, bu münaqişə tezliklə həll olunmalıdır, münaqişədən əzab çəkən adamların, o cümlədən qaçqın və məcburi köçkünlərin təcili köməyə ehtiyacı vardır, onlar tərk etdikləri doğma yurd-yuvalarını daim düşünürlər. Bu baxımdan beynəlxalq birlik və beynəlxalq təşkilatlar münaqişənin tezliklə sülh yolu ilə həll olunmasına diqqəti daha da artırmalıdırlar.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ

Noyabrın 26-da xarici işlər nazirinin müavini Araz Əzimov Nyu-Yorkda BMT Baş Məclisinin 59-cu sessiyasının 60-cı geniş iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" məsələsinin müzakirəsinə və xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşünə həsr olunmuş brifinq keçirmişdir.

Araz Əzimov BMT Baş Məclisinin 59-cu sessiyasında Azərbaycan Respublikası adından xarici işlər naziri Elmar Məmmədyarovun bəyanatı və Azərbaycan tərəfindən təqdim olunmuş qətnamə layihəsi haqqında məlumat vermişdir.

O demişdir ki, istər BMT-nin 59-cu sessiyasında, istər sessiyadan qabaq Berlində Ermənistanın xarici işlər naziri Vartan Oskanyanla, istərsə də Nyu-Yorkda ATƏT-in Minsk

qrupunun həmsədrləri ilə keçirdikləri görüşlərdə Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək üçün müzakirələrin davam etdirilməsini istədiyini və bu müzakirələrin normal, səmərəli və sürətli şəkildə keçirilməsinə tərəfdar olduğunu bir daha bildirmişlər.

Nazir müavini danışıqların getdiyi bir vaxtda işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən əhalinin qeyri-qanuni məskunlaşdırılmasından Azərbaycanın narahat olduğunu diqqətə çatdırmışdır. O bildirmişdir ki, eyni zamanda, bu, beynəlxalq humanitar hüquqa zidd hərəkətlər kimi beynəlxalq ictimaiyyəti də narahat etməlidir. Ərazilərin qaytarılması ilə bağlı məsələnin müzakirə edildiyi bir vaxtda həmin ərazilərdə özgə əhalinin yerləşdirilməsi münaqişənin sülh yolu ilə həllinə böyük zərbə vuran amildir. Xarici işlər nazirinin müavini Azərbaycanın həmin faktları araşdıran beynəlxalq ekspert qrupunun yaradılmasına və işğal altındakı ərazilərə göndərilməsinə tərəfdar olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Qətər dövlətinə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dohədə, onun üçün ayrılmış iqamətgahda İslam Konfransı Təşkilatının gələn ilin yanvarından fəaliyyətə başlayacaq yeni baş katibi Ekmələddin İhsanoğlunu onun xahişi ilə qəbul etmişdir.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycanla İslam Konfransı Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə edildi, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

"ƏMİRİ-DİVAN" SARAYI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev sonra Qətər Dövləti əmirinin iqamətgahının yerləşdiyi saraya - "Əmiri-divan"a gəldi.

Dövlətimizin başçısını burada Qətər əmiri Həməd bin Xəlifə Al Tani böyük hörmət və ehtiramla qarşıladı. Əmir Azərbaycan Prezidenti İlham Əliyevi sarayla tanış etdi, ətraflı məlumat verdi. Dövlətimizin başçısı saraydakı qədim sənət incilərinə, rəsm əsərlərinə baxdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR ƏMİRİ HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN GÖRÜŞÜ

Noyabrın 30-da "Əmiri-divan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Qətər Dövlətinin əmiri şeyx Həməd bin Xəlifə Al Tani arasında görüş oldu.

Prezident İlham Əliyevi öz ölkəsində görməyindən məmnunluğunu ifadə edən Həməd bin Xəlifə Al Tani Azərbaycanla Qətər arasında əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi.

Qətər Dövlətinin başçısı dedi ki, ölkələrimizin siyasi əlaqələri yüksək səviyyədədir. Azərbaycan Prezidentinin indiki səfəri isə iqtisadi və digər sahələrdə əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir.

Rəsmi səfərə dəvətə və ona göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlər vardır.

Qətər əmiri bildirdi ki, bunun üçün ilk növbədə Dohədə səfirliyin açılması, xarici işlər nazirlərinin, habelə iş adamlarının qarşılıqlı səfərlərinin təşkili, əlaqələrin genişləndirilməsindən ötrü hər iki tərəfin imkanlarının öyrənilməsi zəruridir.

Səmimilik şəraitində keçən söhbət zamanı vurğulandı ki, Qətərin Azərbaycanda müəyyən sahələrə sərmayə qoymaq imkanları var və bu, tərəflərin müvafiq dövlət qurumlarının iştirakı ilə reallaşdırılmalıdır. Azərbaycandan müxtəlif sahələr üzrə mütəxəssislərin, o cümlədən həkimlərin, idman mütəxəssislərinin işləmək üçün Qətərə dəvət olunması barədə şifahi razılıq da əldə edildi.

Prezident İlham Əliyev Qətərin zəngin, böyük maliyyə imkanlarına malik ölkə olduğunu xatırladaraq dedi ki, birinci növbədə müzakirə edilən konkret layihələri həyata keçirmək lazımdır. Qətərdə Azərbaycan səfirliyi də tez bir zamanda açılmalıdır və bunun üçün müvafiq tədbirlər görüləcəkdir. Eyni zamanda, nazirlərin qarşılıqlı səfərlərinin təşkili, birgə iqtisadi komissiyanın yaradılması üçün addımlar atılacaqdır.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxundu və problemin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və İslam Konfransı Təşkilatında bu məsələnin müzakirəsi zamanı həmişə ölkəmizin mövqeyini dəstəklədiyinə görə, Qətər Dövlətinə minnətdarlığını bildirdi.

Əmir Həməd bin Xəlifə Al Tani xüsusi vurğuladı ki, Qətər bütün sahələrdə Azərbaycanla əməkdaşlığı nəinki genişləndirməyə, hətta kömək etməyə də hazırdır.

Sonra hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Noyabrın 30-da "Əmiri-divan" sarayında Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi oldu.

İmzalanma mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Qətər əmiri Həməd bin Xəlifə Al Tani iştirak edirdilər.

Səhiyyə sahəsində əməkdaşlıq haqqında anlaşmanı, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında sazişi, Azərbaycan Respublikası və Qətər Dövləti xarici işlər nazirlikləri arasında anlaşma memorandumunu, Azərbaycan Respublikası və Qətər Dövləti

arasında turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu, Azərbaycan Respublikası və Qətər Dövləti arasında iqtisadi-ticarət və texniki əməkdaşlıq haqqında sazişi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qətər Baş nazirinin birinci müavini, xarici işlər naziri Həməd bin Casim bin Cabir Al Tani imzaladılar.

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Qətər Dövləti Milli Olimpiya Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan MOK-un baş katibi Ağacan Abiyev və Qətər Baş nazirinin birinci müavini, xarici işlər naziri Həməd bin Casim bin Cabir Al Tani imzaladılar.

İmzalanmış sənədlər ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin, səhiyyə, mədəniyyət, turizm, idman sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə olan qarşılıqlı marağı əks etdirir. Səhiyyə və idmanla bağlı imzalanmış sənədlərdə Azərbaycan mütəxəssislərinin Qətərə dəvət olunması və yerli mütəxəssislərin hazırlanmasına kömək göstərməsi nəzərdə tutulur. 2005-ci ildə keçiriləcək ərəb ölkələri çempionatında və 2006-cı ildə Asiya ölkələri çempionatında çıxış edəcək Qətər idmançılarının yaxşı hazırlaşmasını təmin etmək baxımından milli olimpiya komitələri arasında imzalanmış memoranduma böyük əhəmiyyət verilir. Qətər tərəfi bu sahədə Azərbaycanın idman mütəxəssislərinin təcrübəsi və köməyindən bəhrələnmək niyyətindədir.

Xarici işlər nazirlikləri arasında imzalanmış sənəd isə digər qurumların əməkdaşlığa cəlb olunması sahəsində çərçivə mexanizminin yaradılması məqsədi daşıyır.

Sənədlərin imzalanması mərasimindən sonra "Əmiri-divan" sarayında Qətər Dövlətinin əmiri şeyx Həməd bin Xəlifə Al Taninin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ MİXAİL MARGELOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Prezident sarayında Rusiya Federal Məclisi Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Mixail Margelovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Margelovla Avropa Şurasında birgə fəaliyyətini xatırlayaraq, həm Avropa Şurası Parlament Assambleyasında, həm də onun Bürosunda yaranmış dostluq və işgüzarlıq münasibətindən məmnunluqla söhbət açdı. Həmin ənənənin bu gün də davam etdiyini vurğulayan, Avropa Şurası Parlament Assambleyasının son iclasında Rusiya nümayəndə heyətinin Azərbaycan nümayəndə heyətini, əvvəllər olduğu kimi, yenə də müdafiə etdiyinə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev dedi ki, xatırlayıram, biz ölkələrimizə aid məsələlərin müzakirəsi zamanı həmişə birgə səs verirdik, bir-birimizi müdafiə edirdik. Bu, olduqca vacibdir.

Son illər Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi sahələrdə, regional səviyyədə münasibətlərin daha da möhkəmləndiyini nəzərə çarpdı-

ran dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə də inkişaf etməsinin hər iki ölkənin maraqlarına uyğun olduğunu bildirdi.

Rusiya Federasiyasına səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etməsini bir daha yüksək dəyərləndirdi.

Səmimi qəbula və xoş sözlərə görə təşəkkürünü bildirən cənab Mixail Margelov Avropa Şurası Parlament Assambleyasında Prezident İlham Əliyev ilə birgə işləmələrindən şərəf duyduğunu, həmin dövrün yaxşı məktəb olduğunu vurğuladı.

Müstəqil Azərbaycan Respublikasının son illər böyük sürətlə inkişaf etməsini yüksək qiymətləndirən qonaq bildirdi ki, Azərbaycanın şəksiz demokratik ölkə olması Avropanın ciddi siyasətçilərinin heç birində sual doğurmur.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan və Rusiya nümayəndə heyətləri arasında yaxşı münasibətlər yaranmasından məmnunluqla söhbət açan cənab Mixail Margelov bildirdi ki, həm qaldırılan məsələlərin, həm də onların müzakirəsinin, AŞPA-nın sədri Piter Şiderin sözləri ilə desək, prosedur qaydalarının obyektiv olması bizi bu və ya digər məsələlərin obyektiv həllinə daha da yaxınlaşdırır. Bu mənada Azərbaycanın Rusiyaya, Rusiyanın Azərbaycana olan yaxşı münasibətləri obyektivliyi ilə seçilir və bu, çox dəyərlidir, çünki biz bir-birimizə kömək edir, bir-birimizi dəstəkləyirik.

Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinin böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıran qonaq Avropa Şurası Parlament Assambleyasında ölkələrimizin nümayəndə heyətlərinin bundan sonra da bir-birini dəstəkləyəcəklərinə əmin olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Prezident sarayında "bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir.

Dövlətimizin başçısı məmnunluqla qeyd etdi ki, bu gün o, çox gözəl bir missiyanı yerinə yetirir. Prezident İlham Əliyev iki ay bundan əvvəl "Əsrin müqaviləsi"nin onilliyi ilə əlaqədar Azərbaycanda neft və qaz sektorunun inkişafındakı xidmətlərinə görə Devid Vudvordu "Şöhrət" ordeni ilə təltif olunması ilə bağlı təbrik edərək, bu yüksək mükafatı təqdim etdi.

Səmimi qəbula və Azərbaycan dövlətinin yüksək mükafatına görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Devid Vudvord on il əvvəl Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının artıq öz bəhrəsini verdiyini, bu strategiyanın həyata keçirilməsində onun təmsil etdiyi bp şirkətinin də fəal iştirak etdiyini vurğuladı. O qeyd etdi ki, tikintisi uğurla davam etdirilən və 2005-ci ildə istifadəyə veriləcək Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, habelə "Şahdəniz" layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi cəhətdən daha da güclənmələrinə təkan verəcəkdir.

Devid Vudvord bu siyasəti davam etdirdiyinə görə Prezident İlham Əliyevə xüsusi təşəkkürünü bildirdi.

Ölkə Prezidenti Azərbaycan hökumətinin və xarici neft şirkətlərinin sıx əməkdaşlığının səviyyəsindən, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinin uğurla aparılmasından və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasına başlanmasından məmnunluğunu bildirdi, bütün bu layihələrin gerçəkləşməsində bp şirkətinin aparıcı rolunu qeyd etdi.

Sonra "bp-Azərbaycan" şirkətinin prezidenti Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən digər layihələrə dair işlərin gedişi barədə Prezident İlham Əliyevə ətraflı məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ALİ MÜDAFİƏ ELMLƏRİ MƏRKƏZİNİN DİREKTORU PİETRO ERKOLE AQONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Prezident sarayında İtaliyanın Ali Müdafiə Elmləri Mərkəzinin direktoru Pietro Erkole Aqonu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı onu yenidən Azərbaycanda görməyindən məmnun olduğunu bildirdi.

Səmimi qəbula görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən qonaq səfərinin məqsədinin lokal münaqişələrə dair ölkəmizdə seminarlar, müxtəlif müzakirələr keçirmək olduğunu söylədi. Cənab Pietro Erkole Aqo Avropa Şurası Nazirlər Komitəsinin Aqo qrupunun rəhbəri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesini də yaxından izlədiyini, bu problemin tezliklə sülh yolu ilə həll olunmasını arzu etdiyini vurğuladı.

Sonra isə o, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verərək bildirdi ki, İtaliya Silahlı Qüvvələrinin ali məktəbi olan bu Mərkəz hərbi sahədə siyasətlə bağlı yerli kadrlar hazırlanması ilə məşğul olur. Mərkəz dünyanın müxtəlif ölkələrində beynəlxalq təşkilatlarla birgə konfranslar, seminarlar keçirir və bu tədbirlərdə lokal münaqişələrin həlli yolları müzakirə edilir. Bu baxımdan Cənubi Qafqazın ən ağrılı problemlərindən olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ən mühüm vəzifələrdən biridir. Cənab Aqo rəhbərlik etdiyi mərkəzin bu münaqişənin həlli ilə bağlı məsələləri araşdırmağı qarşısına məqsəd qoyduğunu və nizamlama prosesinə yardımçı olmaq arzusunda olduğunu bildirdi.

Dövlətimizin başçısı münaqişələrin həllinə yönəlmiş hər hansı müzakirələrin, seminarların keçirilməsini müsbət hal kimi qeyd etdi. Prezident İlham Əliyev Pietro Erkole Aqo qrupun rəhbəri olduğu zaman onunla keçirdiyi görüşləri xatırladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qonağa məlumat verərək, Azərbaycanın mövqeyinə toxunan dövlətimizin başçısı bir daha vurğuladı ki, həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın nüfuzu artmış, mövqeyi daha da möhkəmlənmişdir. Eyni zamanda, münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində danışıqlar yolu ilə həlli üçün səylər davam etdirilir. Bu yolun alternativinin olmadığını nəzərə çarpdıran Prezident İlham Əliyev bəyan etdi ki, münaqişənin həllinə yalnız Ermənistan rəhbərliyinin tutduğu qeyri-konstruktiv mövqe mane olur.

Pietro Erkole Aqo öz mövqeyini qəti və konkret bildirdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi və onu əmin etdi ki, rəhbərlik etdiyi qurum gələcək fəaliyyətində münaqişənin həllini daim diqqət mərkəzində saxlayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Qonağı səmimi salamlayan dövlətimizin başçısı İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsini bir daha görməyinə şad olduğunu vurğuladı.

Səmimi qəbula görə təşəkkür edən cənab Mehdi Səfəri Prezident İlham Əliyevə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəminin başsağlığını çatdırdı. Azərbaycan Prezidentinin Tehrana rəsmi səfərini səbirsizliklə gözlədiklərini bildirən diplomat Prezident Xatəminin Azərbaycana səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair bir sıra sənədlərin imzalandığını xatırlatdı. Təbrizdə Azərbaycanın Baş konsulluğunun açılmasından məmnun olduğunu bildirən qonaq İrandan Naxçıvana qaz verilməsi və digər ikitərəfli layihələrin həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat verdi. Mehdi Səfəri dedi ki, Prezident Xatəminin Azərbaycana səfəri çox faydalı olub və Azərbaycan Prezidenti İlham Əliyevin Tehrana rəsmi səfəri zamanı da bir sıra yeni ikitərəfli sənədlər imzalanacaqdır. Cənab Səfəri həm prezidentlər, həm də hökumət üzvləri səviyyəsində qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə təkan verdiyini söylədi.

İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana səfərinin nəticələrindən çox razı qaldığını bildirən Prezident İlham Əliyev bunun gələcək ikitərəfli siyasi, iqtisadi əlaqələrimizin, habelə xalqlarımız arasında əlaqələrin inkişafı baxımından böyük əhəmiyyəti olduğunu vurğuladı və səfər zamanı imzalanan sənədlərdə nəzərdə tutulan işlərin sürətlə həyata keçirildiyini məmnunluqla ifadə etdi. Ölkələrimiz arasında qaz mübadiləsi sahəsində aparılan işlərdən danışan dövlətimizin başçısı İrana qaz ötürmək üçün Astarada yeni kompressor stansiyasının tikintisinə hazırlıq işlərinə başlandığını, Naxçıvanda hazırlıq işlərinin uğurla davam etdirildiyini, yol tikintisi, elektrik enerjisi mübadiləsi ilə bağlı və digər mühüm məsələlərin reallaşdırıldığını bildirdi. Dövlətimizin başçısı dedi: "Həmişə belə olmur, elə hallar olur ki, sənədlər imzalanır, vaxt isə keçir və heç bir nəticə olmur, indi isə işlər çox sürətlə gedir. Bu, ilk növbədə, layihələrə qarşılıqlı marağı göstərir, həmçinin ölkələrimiz arasında münasibətlərin səviyyəsindən xəbər verir". Prezident İlham Əliyev bunun, eyni zamanda, İran Prezidenti Məhəmməd Xatəmi ilə münasibətlərinin nəticəsi olduğunu qeyd etdi.

Prezident Xatəmi ilə bu yaxınlarda telefon danışığı olduğunu xatırladan Azərbaycan Prezidenti dedi ki, söhbət zamanı biz əldə edilən razılıqları bir daha nəzərdən keçirdik, həmçinin mənim İrana edəcəyim səfəri müzakirə etdik. Dövlətimizin başçısı İrana səfər etməsini səbirsizliklə gözlədiyini vurğulayaraq bildirdi ki, biz səfər zamanı yenidən

müzakirələr aparacaq, yeni sənədlər imzalayacağıq və bu da ölkələrimizin rifahına xidmət edəcəkdir. Biz münasibətlərimizi daha da genişləndirməliyik, buna ikitərəfli və regional miqyasda yeni elementlər daxil etməliyik. Təbii ki, Xəzər məsələsi də müzakirə olunacaq və ümid edirəm ki, biz razılığa gələcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB YƏHUDİ CƏMİYYƏTLƏRİ FEDERASİYASININ BAŞÇISINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Prezident sarayında MDB üzrə Yəhudi Cəmiyyətləri Federasiyasının, İsrail- Rusiya kommersiya-ticarət palatasının prezidenti Lev Levayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı onlarla görüşməkdən məmnun olduğunu bildirərək dedi ki, tarixən bizim ölkədə millətlərarası, konfessiyalararası münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında qurulmuşdur. Bu, ənənədir və bizim dövlətimizin gücüdür. Belə vəziyyət ölkəmizin bütün tarixi boyu olmuşdur və əlbəttə ki, Azərbaycan dövləti müstəqilliyini əldə etdikdən sonra bu, dəqiq formasını almışdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda çoxlu millətlərin və dinlərin nümayəndələri yaşayır, biz həmişə bir-birimizə hörmət və məhəbbətlə yanaşırıq. Bizim ölkədə milli-dini tolerantlıq yüksək səviyyədədir və bunu hamı etiraf edir. Bunu çox qiymətləndiririk və hesab edirəm ki, bu, bizim milli nailiyyətimizdir. Azərbaycanda yaşayan yəhudilərə tarixən, o cümlədən sovet dövründə də böyük hörmət bəslənmişdir. Biz həmişə sülh, əmin-amanlıq və qarşılıqlı hörmət olmasına çalışmışıq. Ümumiyyətlə isə, buna heç bir səy göstərməyə ehtiyac da yoxdur, çünki cəmiyyət özü belə dəyərlərlə yaşayır. Əlbəttə ki, biz istərdik ki, müsbət ənənələr davam etsin və Azərbaycanın yeni nəsli buna qayğı ilə yanaşsın.

Dövlətimizin başçısı dedi ki, bu gün də Azərbaycan və yəhudi xalqları arasında yaxşı anlaşma və yaxşı münasibətlər var. Biz bunu qiymətləndiririk. Yəqin ki, sizin də bu məsələlərlə bağlı MDB çərçivəsində, dünyadan xəbəriniz var. Hökumətimiz, şəhər rəhbərliyi yəhudi icmasının möhkəmlənməsi üçün nə lazımdırsa edir.

Dövlətimizin başçısı ilə görüşdən çox şad olduğunu bildirən qonaq dedi ki, mən ilk dəfə Azərbaycana ilyarım bundan əvvəl, ötən ilin aprelində dəvət olunmuşdum. Bakıda bir sıra görüşlərim oldu. Bizim nümayəndə heyətinin Azərbaycanın Prezidenti Heydər Əliyevlə görüşü unudulmaz oldu. Onunla görüşən zaman ilk əvvəl hansı problemin olduğunu bizdən soruşdu. Cənab Prezident soruşdu ki, insan üçün həyatda ən əziz olan nədir? - Uşaq deyə, cavab verdik. Cənab Prezident dedi ki, sizin məktəbiniz işləyəcək və inkişaf edəcəkdir. Mən cənab Prezidenti yəhudi məktəbinin açılışına dəvət etdim. Mənim üçün böyük fəxrdir ki, Sizin atanızla tanış olmuşam. Biz onun vəfatı xəbərini eşidəndə çox məyus olduq və bütün Rusiyanın ravvinləri yığışıb buraya gəlmişdik. İndi də, Sizinlə görüşdən sonra biz Heydər Əliyev Fondunu ziyarət etmək fikrindəyik. O, həqiqətən də dahi şəxsiyyət olub və uzun illər liderlik edibdir.

İctimai quruluşdan asılı olmayaraq Heydər Əliyev həmişə - həm Sovet İttifaqı dövründə, həm də müstəqillik əldə ediləndən sonra xalqın lideri olubdur.

Qonaq xatırlatdı ki, iki gün əvvəl başlanmış Xanuka bayramı yəhudilərin ən əziz bayra-

mıdır. 8 gün davam edən bayramın əsas mərasimi şamların yandırılmasıdır. Nümayəndə heyətinin Bakıda keçirdiyi bayram tədbirinə Prezident İlham Əliyev də dəvət olunub və şamı yandırmaq şərəfinə layiq görülmüşdür.

Dövlətimizin başçısı şamı yandırdı və qonaqları bayram münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN BRÜSSELDƏ GÖRÜŞÜ OLMUŞDUR

Dekabrın 9-da Brüsseldə Avro-Atlantika Tərəfdaşlıq Şurası (AATŞ) iştirakçı dövlətlərinin iclası ərəfəsində ATƏT-in Minsk qrupunun üç həmsədrinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü keçirilmişdir.

Görüşdə Praqa prosesi adlandırılan müzakirə və diskussiyaların bazasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi müzakirə olunmuşdur.

Xarici işlər naziri E.Məmmədyarov AATŞ-nin iclasında çıxış edərək demişdir ki, Azərbaycan regionda təhlükəsizliyin möhkəmləndirilməsi üçün NATO-nun müttəfiqləri və tərəfdaşları ilə siyasi dialoqu davam etdirmək əzmindədir. Nazir Ermənistan tərəfindən ölkəmizin ərazisinin işğal altında saxlandığını diqqətə çatdıraraq, bu ərazilərdə qeyri-qanuni əhali məskunlaşdırılmasının danışıqlar prosesinə mənfi təsir göstərdiyini vurğulamışdır. Bununla belə, Azərbaycan münaqişənin sülh yolu ilə tənzimlənməsinin tərəfdarıdır və bu məsələdə beynəlxalq ictimaiyyətin daha fəal siyasi və əməli köməyinə ümid bəsləyir.

Elmar Məmmədyarov Azərbaycanın Şimali Atlantika Alyansı ilə uğurlu əməkdaşlığından danışaraq, ölkəmizin Kosovo və Əfqanıstanda aparılan əməliyyatlarda fəal iştirak etdiyini, qlobal terrorizmə qarşı mübarizədə bu təşkilata dəstək verdiyini söyləmişdir. O demişdir ki, Azərbaycan sərhədlərin təhlükəsizliyi, ətraf mühitin qorunması, mülki müdafiə və digər sahələrdə də NATO-nun fərdi tərəfdaşlıq planı çərçivəsində bu təşkilatın beynəlxalq katibliyi ilə fəal əməkdaşlıq edir.

Xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə olduğu müddətdə Fransanın xarici işlər naziri Mişel Barnyö, Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Xavyer Solana, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitye ilə ikitərəfli görüşlər də keçirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN DÖVLƏT SƏRHƏDİNİ MÜHAFİZƏ DEPARTAMENTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 10-da Prezident sarayında Gürcüstan Daxili İşlər Nazirliyinin Dövlət Sərhədini Mühafizə Departamentinin sədri, ədliyyə general-mayoru Badri Biçadzeni qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı səmimiyyətlə salamlayaraq dedi ki, Azərbaycan ilə Gürcüstan arasında bütün istiqamətlərdə fəal əməkdaşlıq mövcuddur. Bu, tarixən belə olub və təbii ki, müstəqillik illərində ölkələrimiz bir-birinə daha da sıx bağlanmışlar. Bu gün

bizim ölkələrimizi irimiqyaslı layihələr, eləcə də dünyada baş verən inteqrasiya prosesləri birləşdirir, qarşılıqlı əməkdaşlıq səviyyəmiz çox yüksəkdir. Biz istərdik ki, prezidentlər səviyyəsində olduğu kimi, bütün digər səviyyələrdə, müvafiq nazirliklər, qurumlar arasında da əlaqələr mövcud olsun və möhkəmlənsin. Mən Gürcüstanda rəsmi səfərdə olarkən, biz Mixail Saakaşvili ilə birlikdə bütün nazirlərimizə, müxtəlif təşkilatların rəhbərlərinə bu barədə tapşırıq vermişik. Mən belə əməkdaşlığı alqışlayıram, tez-tez edilən səfərlər, fikir və təcrübə mübadilələri çox faydalıdır.

Prezident İlham Əliyev vurğuladı ki, sərhədlərimizlə bağlı olan məsələlərdə isə bu, daha çox faydalıdır. Doğrudur, bu sahədə bizim heç zaman problemimiz olmayıb və belə fikirləşirəm ki, olmayacaq da. Lakin bəzi məqamlar olur ki, operativ müdaxiləni tələb edir, bunları operativ həll etmək çox vacibdir. Bu baxımdan mən hesab edirəm ki, sizin Azərbaycana səfəriniz çox əhəmiyyətli olacaq, ümumilikdə bizim münasibətlərimizin daha da inkişaf etdirilməsinə xidmət edəcəkdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Gürcüstan Dövlət Sərhədini Mühafizə Departamentinin sədri Badri Biçadze dedi ki, mehriban qonşuluq və dostluq münasibətlərini möhkəmləndirmək Gürcüstanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu baxımdan Azərbaycan və Gürcüstanın sərhəd xidmətləri arasında sıx əməkdaşlıq etmək çox mühüm məsələdir. Ölkələrimiz arasında dövlət sərhədinin mühafizəsi daim qarşılıqlı etimad səviyyəsində həyata keçirilmişdir. Əminliklə deyə bilərəm ki, biz sıx əməkdaşlığımızın səmərəli və faydalı olması üçün əlimizdən gələni etməyə hazırıq. Bizim bu sahədə problemimiz yoxdur və ümid edirəm ki, gələcəkdə də olmayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "LUKOYL" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Rusiyanın "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan Prezident İlham Əliyev onu Bakıda bir daha görməsindən məmnun olduğunu bildirdi.

Səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edən, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümi ilə əlaqədar Prezident İlham Əliyevə dərin hüznlə başsağlığı verən Vahid Ələkbərov dedi ki, Azərbaycanın iqtisadi potensialının və xarici investorların respublikamıza marağının gündən-günə artması, xüsusilə də ölkəmizdə uğurla həyata keçirilən neft strategiyası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Daha sonra Vahid Ələkbərov "LUKoyl"un fəaliyyəti və gələcək perspektivləri barədə Prezident İlham Əliyevə məlumat verərək, son dövr ərzində şirkət tərəfindən görülən işlərin qənaətbəxş olduğunu söylədi.

Başsağlığına və səmimi sözlərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının bu gün uğurla həyata keçirildiyini və gələcəkdə də Azərbaycan xalqının rifahına xidmət edəcəyini bildirdi. Dövlətimizin başçısı Rusiyanın "LUKoyl" şirkəti ilə olan əməkdaşlığı da yüksək qiymətləndirdi və şirkətin Azərbaycanda fəaliyyətini daha da genişləndirməsi üçün ölkəmizdə əlverişli şəraitin olduğunu xüsusi vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ GÜLDAL AKŞİTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Türkiyə Respublikasının dövlət naziri Güldal Akşiti qəbul etmişdir.

Xanım Güldal Akşit Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın dərin hüznlə başsağlığını və səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. O, ulu öndər Heydər Əliyevin Türkiyədə də dahi şəxsiyyət kimi qəbul edildiyini söyləyərək dedi ki, onun vəfatı bütün türk dünyası üçün böyük itkidir. Qonaq bildirdi ki, türk dünyası Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev kimi davamçısı olması ilə fəxr edir. Türkiyə həmişə Azərbaycanın yanındadır və bundan sonra da belə olacaqdır.

Prezident İlham Əliyev dərin hüznlə başsağlığına görə qonağa təşəkkür etdi. Dövlətimizin başçısı İlham Əliyev başsağlığı məktubu ilə əlaqədar Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev dedi ki, ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın xoşbəxt gələcəyinin təminatçısı kimi daim ürəklərdə yaşayacaqdır.

Azərbaycan Prezidenti xalqımızın ümummilli lideri Heydər Əliyevin dəfn mərasimində qardaş Türkiyənin dövlət və hökumət rəhbərlərinin, çoxlu sayda millət vəkillərinin iştirak etməsini həmişə minnətdarlıqla xatırladığını bildirdi.

Ulu öndər Heydər Əliyevin xatirəsini anma mərasimində iştirak etmək üçün Bakıya gəldiyinə görə xanım Güldal Akşitə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Rusiya Federasiyası Prezidentinin köməkçisi Cahan Pollıyevanı qəbul etmişdir.

Xanım Cahan Pollıyeva Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi.

Ölkələrimiz arasında qarşılıqlı etimada söykənən əlaqələrin daim genişləndiyini və inkişaf etdiyini bildirən qonaq, bu baxımdan cənab Heydər Əliyev ilə Vladimir Putin arasında olan səmimi dostluq münasibətlərinin Azərbaycan-Rusiya əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaratdığını söylədi. O, Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasındakı dostluq münasibətlərinin də ölkələrimizin əlaqələrinin daha da inkişaf etdirilməsinə güclü təkan verdiyini bildirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə bir neçə dəfə görüşdüyünü məmnunluqla xatırladan Cahan Pollıyeva daim bu görüşlərin təsiri altında olduğunu söylədi.

Dərin hüznlə başsağlığına görə xanım Cahan Pollıyevaya təşəkkür edən Prezident İlham Əliyev Prezident Vladimir Putinin telefonla zəng edərək başsağlığı verdiyinə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Hazırda bu əlaqələr dinamik şəkildə inkişaf edir və əminəm ki, bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Cənab Vladimir Ruşaylo xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi. O, ulu öndərimizin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini vurğulayaraq dedi ki, bu gün Fəxri xiyabana ziyarətə gələn böyük insan axını da görkəmli dövlət xadimi, siyasi xadim Heydər Əliyevə sonsuz məhəbbətin nümayişidir.

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin xatirəsini anma mərasimində iştirak etdiyinə və başsağlığına görə cənab Vladimir Ruşayloya minnətdarlığını bildirdi.

Görüşdə MDB məkanında əməkdaşlıq və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ KONSTANTİN QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Gürcüstan parlamentinin xarici əlaqələr komitəsinin sədri Konstantin Qabaşlivini qəbul etmişdir.

Cənab Qabaşvili Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və parlamentin sədri Nino Burcanadzenin dərin hüznlə başsağlığını çatdıraraq, parlament sədrinin səfərdə olduğuna görə Bakıya gələ bilmədiyini vurğuladı.

Qonaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi, Heydər Əliyevin gürcü xalqı tərəfindən də dahi bir şəxsiyyət kimi qəbul edildiyini, ulu öndərimizin müasir Azərbaycan dövlətinin qurulması və möhkəmlənməsində əvəzsiz xidmətləri olduğunu bildirdi.

Ümummilli liderimizin xatirəsini anma mərasimində iştirakına və başsağlığına görə qonağa minnətdarlıq edən Prezident İlham Əliyev müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin vətəninə əvəzsiz xidmətlər göstərdiyini, xalqımızın firavan, xoşbəxt

gələcəyinin təminatçısı olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkələrimiz və xalqlarımız arasında dostluğun möhkəmləndirilməsinə töhfələrini xatırlatdı, bütün sahələrdə Azərbaycan-Gürcüstan əlaqələrinin daim genişləndiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN DÖVLƏT ŞURASI SƏDRİNİN MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Dağıstan Dövlət Şurası sədrinin müşaviri Səid Qurbanovu qəbul etmişdir.

Cənab Səid Qurbanov xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar dərin hüznlə başsağlığı verdi. Heydər Əliyev ilə uzun illər şəxsi dostluq münasibətlərinin olduğunu diqqətə çatdıran qonaq onunla keçirdiyi çoxsaylı görüşləri həmişə böyük məmnunluqla xatırladığını söylədi. Səid Qurbanov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini, vətənin xoşbəxt gələcəyinin təmin olunması istiqamətində həyata keçirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini söylədi.

Dərin hüznlə başsağlığına görə Səid Qurbanova minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev onun ümummilli liderimiz Heydər Əliyev ilə uzun illər davam etmiş dostluq münasibətlərini yaxşı xatırladığını vurğuladı, bu dostluğa sədaqətinə görə bir daha təşəkkür etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LONDONA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-dən 13-nə keçən gecə Londona gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA KRALİÇASININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də onun üçün ayrılmış iqamətgahda Böyük Britaniya Kraliçasının nümayəndəsi baronessa Sekombe ilə görüşmüşdür.

Xanım Sekombe Böyük Britaniyanın Kraliçası II Elizabetin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı və onun adından dövlətimizin başçısına "Xoş gəlmisiniz!" dedi. Baronessa Sekombe Azərbaycan Prezidentinin Böyük Britaniyaya əvvəlki səfərlərinin, o cümlədən 2003-cü ilin iyun ayında Baş nazir Toni Bleyerin təşəbbüsü ilə keçirilmiş "Hasilat sənayelərinin şəffaflığı" mövzusunda konfransında iştirakının xüsusilə əlamətdar olduğunu xatırlatdı.

Dövlətimizin başçısı İlham Əliyev səmimi salama və xoş sözlərə görə təşəkkür və minnətdarlığını Böyük Britaniyanın Kraliçası II Elizabetə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Böyük Britaniyanın müdafiə naziri Ceff Hun ilə görüşmüşdür.

Cənab Ceff Hun Azərbaycan Prezidentini nazirliyin binası qarşısında böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyev və müdafiə naziri Ceff Hun burada xatirə şəkli çəkdirdilər.

Sonra görüş başladı. Böyük Britaniyanın müdafiə naziri görüş üçün vaxt ayırdığına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Nazir ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsini vurğuladı və ikitərəfli əməkdaşlığın böyük perspektivləri olduğunu söylədi.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişləndirilməsinin zəruriliyi vurğulandı. Prezident İlham Əliyev Böyük Britaniya ilə əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Avratlantik strukturlarına inteqrasiyası sahəsində uğurlar əldə olunduğunu və ölkəmizin NATO-ya fərdi tərəfdaşlıq planını təqdim etdiyini xatırlatdı. Eyni zamanda, ordunun müasirləşdirilməsi, treninqlərin keçirilməsi və ordunun müxtəlif strukturlarının təkmilləşdirilməsi baxımından da əməkdaşlığın geniş perspektivləri olduğunu bildirdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi barədə də fikir mübadiləsi aparıldı. Münaqişənin həll edilməməsinin ölkəmizdə gərginlik yaratdığı qeyd olundu.

Daha sonra qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi edildi.

"CHATHAM HOUSE" KLUBUNDA GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində, dekabrın 13-də Londonda məşhur siyasətçilərin, diplomatların, mətbuat nümayəndələrinin, Avropanın tanınmış publisistləri və ictimai xadimlərinin üzvü olduqları "Chatham House" klubunda görüşü olmuşdur.

Prezident İlham Əliyevi klubun binası önündə "Chatham House"nin sədri lord Hörd ehtiramla qarşıladı.

Görüşü lord Hörd açdı.

"CHATHAM HOUSE" KLUBUNUN SƏDRİ LORD HÖRDÜN ÇIXIŞI

- Zati-aliləri!

Xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının Prezidenti zati-aliləri, İlham Əliyevin iştirakı ilə bizim çox əlamətdar tədbirimiz keçirilir. Prezidenti sizə rəsmi təqdim etməzdən öncə

bildirim ki, əvvəlcə Prezident çıxış edəcək, daha sonra isə sual vermək üçün imkan yaranacaqdır.

Xanımlar və cənablar!

Həqiqətən də, Azərbaycan Prezidentini burada salamlamaq böyük şərəfdir. Yəqin bundan başlamaq yerinə düşər ki, dünən onun atası, mərhum Prezident Heydər Əliyevin vəfatının birinci ildönümü idi və bu kədərli ildönümü ilə bağlı ona dərin hüznlə başsağlığı veririk. Cənab Prezident, bu hadisənin kədəri xüsusilə Sizin atanızı yaxından tanıyanlar, həmişə onun söhbətlərindən, incə yumorundan həzz alıb, qətiyyətinə və iti zəkasına valeh olanlar üçün yaxşı məlumdur. Sizin buraya gəlişiniz çox vacib əhəmiyyət daşıyır və vaxtında edilmişdir. Açığını deyim ki, "Chatham House"də son iki-üç il müddətində Yaxın Şərq haqqında həddindən artıq fikir mübadiləsi, çıxışlar olmuşdur. İraq, Fələstin hadisələrinin və digər məsələlərin nəzərə alınması baxımından bu, başa düşüləndir. Amma Azərbaycanın yerləşdiyi ərazi, keçmiş SSRİ, indi isə müstəqil ölkələr məkanı böyük əhəmiyyətə malikdir və xüsusilə də Azərbaycanın özü. Bu ərazi regionu xarakterizə edən narahatlıqlar və geniş imkanlar məkanıdır, xüsusilə də Azərbaycan Avropa və Böyük Britaniya üçün müstəsna əhəmiyyət kəsb edir. Kommersiya baxımından bu, tamamilə təbiidir - ölkə zəngin təbii sərvətlərə malikdir, siyasi və strateji baxımdan onun əhəmiyyətini dərk etmək üçün xəritəyə baxmaq kifayətdir. Azərbaycanın hazırda qonşuları ilə münasibətləri və imkanları çox genişdir. Cənab Prezident, Sizə dərindən minnətdarıq ki, əziyyət çəkib "Chatham House"yə gəlmisiniz və fikirlərinizi bölüşməyə razılıq vermisiniz. Azərbaycanın mövqeyi, hökumətinizin strategiyası, gələcəyə baxışınız, bizə verəcəyiniz məsləhətlər, bu məsləhətlər vasitəsilə münasibətlərimizi, dostluğumuzu genişləndirmək imkanları barədə verəcəyiniz məlumatlara görə, əvvəlcədən minnətdaram və Sizi böyük məmnuniyyətlə dinləyəcəyik.

Xanımlar və cənablar, Azərbaycan Prezidentini sizə müraciət etməyə dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox sağ olun ki, sizinlə birlikdə olmağa, ölkəmizdəki vəziyyət, gələcək imkanlar, regional inkişaf və əlbəttə ki, Azərbaycanın gələcəyi ilə bağlı fikirləri sizinlə bölüşməyə imkan yaradırsınız.

Azərbaycan hazırda keçid dövrünü yaşayan ölkədir. Sovet İttifaqı dağıldıqdan sonra ölkə müstəqillik qazandı. Müstəqilliyin ilk illəri çox ağır idi. Bu, anarxiya, özbaşınalıq, xaos və iqtisadi tənəzzül və siyasi böhran illəri idi. Hər il hakimiyyət dəyişikliyi baş verirdi və ölkə, faktiki olaraq, süqut ərəfəsində idi.

1993-cü ildə vəziyyət xüsusilə ağırlaşanda və vətəndaş müharibəsi başlayarkən ölkə əhalisi ümummilli liderimiz Heydər Əliyevə müraciət etdi, bu çətin dövrdə ölkəyə rəhbərlik edib irəli aparmağı xahiş etdi. Həmin ildən, 1993-cü ildən başlayaraq, bu günədək ölkə inkişaf edir, onun beynəlxalq aləmdəki hadisələrdə, regional miqyasda rolu artmaqdadır. 1995-ci ildən başlayaraq bərqərar olmuş ictimai-siyasi və iqtisadi sabitlik həqiqi tərəqqi gətiribdir.

Azərbaycanın iqtisadi göstəricilərinə nəzər salsanız görərsiniz ki, 1995-ci ildən 2003-cü ilədək iqtisadi göstəricilər 90 faiz artmışdır. Azərbaycan bu gün regionda

adambaşına düşən xarici sərmayənin həcminə görə aparıcı ölkədir. Genişmiqyaslı özəlləşdirmə proqramı, iqtisadi islahatlar, torpaq islahatı, özəl sektor üçün əlverişli şəraitin yaradılması bugünkü duruma gətirib çıxarmışdır, yəni Azərbaycan sürətlə inkişaf edən ölkədir. Bazar iqtisadiyyatı prinsipləri həyata keçirilir. Qətiyyətlə demək olar ki, ümumi daxili məhsulda özəl sektorun payı təxminən 75 faizdir. Xüsusilə, nəzərə alınsa ki, Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi dövlət inhisarındadır, onda özəl sektorun Azərbaycan iqtisadiyyatındakı rolunu aydın görmək olar. Ölkə daha sabit olduqca, iqtisadi cəhətdən daha çox inkişaf etdikcə, Azərbaycanın regiondakı aparıcı rolu da artmağa başladı. Bu gün Azərbaycan sabitlik ölkəsidir, sosial və siyasi sabitlik və həmrəylik ölkəsidir, cəmiyyətin birliyi ölkəsidir.

Yerləşdiyimiz region təhlükəsizlərdən sayıla bilməz. Regionda bizim öz ölkəmiz də daxil olmaqla, çoxsaylı qaynar nöqtələr var. Ölkəmiz davamlı erməni işğalından əziyyət çəkir. Bu işğal on ildən artıqdır ki, davam edir. Ümumiyyətlə, regional sabitlik regionun gələcək inkişafı üçün əsas təşkil edən amildir. Regionun əhəmiyyəti artır və gələcəkdə də artacaqdır. Bu isə yalnız Xəzər hövzəsindəki təbii sərvətlərə görə deyil, yalnız enerji layihələrinə, boru kəmərləri layihələrinə görə deyildir. Regionun yerləşdiyi coğrafi-siyasi ərazi bir sıra nəqliyyat marşrutlarının kəsişdiyi yol ayrıcındadır və gələcəkdə çox şeylər və gələcək inkişaf indi bizim işlədiyimiz layihələrin nə dərəcədə müvəffəqiyyətlə həyata keçəcəyindən asılı olacaqdır.

Azərbaycanın Heydər Əliyevin əsasını qoyduğu xarici siyasəti və bu sahədə hələ 1993-cü ildə aydın elan edilmiş strateji məqsədləri dəyişməz olaraq qalır.

Bu, xarici sərmayələr üçün açıq qapı, mehriban qonşuluq, Avratlantik strukturlarına inteqrasiya siyasətidir. Son bir neçə il ərzində bu sahədə əsaslı nailiyyətlər əldə etmişik. Mən əldə etmişik dedikdə, özümüzü və tərəfdaşlarımızı nəzərdə tuturam. Bu inteqrasiya birtərəfli mümkün ola bilməzdi. Məmnuniyyətlə bildirirəm ki, bu müddət ərzində dünyanın aparıcı ölkələri ilə yüksək səviyyəli əməkdaşlığımız olmuşdur, münasibətlərimiz strateji əməkdaşlıq münasibətləridir. Bu münasibətlər müxtəlif sahələri - iqtisadiyyatı, siyasəti, hərbi sahəni, bütün mümkün sahələri əhatə etmişdir.

Azərbaycan hazırda Avropa İttifaqının yeni qonşuluq siyasətinin üzvüdür. Avropa İttifaqının bu siyasəti bizim üçün böyük əhəmiyyət daşıyır və münasibətlərimizin davam etməsi bizim üçün mühümdür. Azərbaycan həm də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının fəal üzvüdür. Hazırda biz fərdi tərəfdaşlıq planı üzrə işləyirik, bu da Azərbaycanla NATO arasında münasibətlərin ikinci və çox vacib hissəsidir.

Qonşularımızla çox səmimi münasibətlərimiz var. Çünki qonşularla münasibətlərin yaxşı səviyyədə saxlanılması böyük əhəmiyyət daşıyır. Regionumuzdakı vəziyyətin gərgin olmasına baxmayaraq, burada müxtəlif siyasi qüvvələrin və bir sıra ölkələrin maraqlarının bəzən üst-üstə düşməsinə, bəzən isə toqquşmasına baxmayaraq, biz Azərbaycanı hər hansı bir qarşıdurmadan uzaq saxlamağı bacardıq. Bu da çox mühüm və xeyirli amildir ki, biz qarşıdurma yox, əməkdaşlıq ruhu yarada bildik. Sizə deyim ki, bu sahədə uğurumuz göz qabağındadır. Bunun nəticəsidir ki, Azərbaycan hətta öz aralarında, bir-biri ilə yaxşı münasibətə malik olmayan ölkələrlə də yaxşı münasibətlər saxlayır. Biz heç bir ölkənin daxili işinə qarışmırıq və təbiidir ki, öz ölkəmizi də hər hansı bir ölkənin müdaxiləsindən azad görmək istəyirik.

Məqsədimiz ölkəmizi inkişaf etdirmək, müasirləşdirməkdir. İqtisadiyyatı, siyasi sistemi, hüquq sistemini yaxşılaşdırmaq, əhalimiz üçün daha yaxşı şərait yaratmaq bizim məqsədimizdir. Biz çox vacib iqtisadi islahatlar həyata keçiririk. Ölkədə mühüm iqtisadi islahatlar keçiririk. Bu il qəbul olunmuş regionların inkişaf etdirilməsi proqramı uğurlu nəticələrə gətiribdir. Biz 8 milyonluq əhalisi olan ölkəyik və təkcə bu il ərzində 100 mindən çox iş yeri açmağa müvəffəq olmuşuq. Bu da bizim iqtisadi siyasətimizin əsas elementlərindən biridir. Həmin iş yerlərinin açılmasının əhəmiyyəti xüsusilə onunla səciyyələnir ki, yeni iş yerləri qeyri-neft sahəsini əhatə edir, Azərbaycanın rayonlarında açılmış iş yerləridir. Bu da ölkənin tarazlı inkişafını göstərir. Yalnız paytaxt deyil, rayonlar da uğurla inkişaf edirlər.

Əlbəttə ki, problemlərimiz də çoxdur. Ölkəmizdə bir sıra sahələrin səviyyəsi artırılmalıdır. Amma, əsas budur ki, götürdüyümüz istiqamət və islahatların həyata keçirilməsi sürəti düzgündür. Hər şeyi vaxtlı-vaxtında etmək lazımdır. Ümid edirəm ki, gələcəkdə Azərbaycan bu siyasətini uğurla davam etdirəcək, iqtisadi, sosial şəraiti yaxşılaşdıracaq və Azərbaycan cəmiyyətinin daha da demokratikləşdirilməsini davam etdirəcəkdir.

Son il ərzində bu istiqamətdə, ölkədə müxtəlif siyasi qüvvələr arasında münasibətlər mühitinin, ab-havanın yaxşılaşdırılmasına doğru hökumətimiz tərəfindən vacib addımlar atılıbdır. Təəssüf ki, hələ bütün siyasi qüvvələrdən adekvat cavab almamışıq, amma ümid edirik ki, hamı tərəfindən qarşılıqlı anlaşma olacaqdır. Çünki Azərbaycanın əhalisi çox deyil, ölkəmiz ərazisinə görə də böyük deyildir. Biz mürəkkəb məkanda yerləşirik, ona görə də ölkəmizə uğur gətirmək üçün birləşməyimiz vacibdir.

Ölkəmizin üzləşdiyi ən ağır problemlərdən biri də, qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlıdır. Ölkəmizdə əhalinin bu təbəqəsi Ermənistan silahlı qüvvələrinin təcavüzündən və ərazilərimizin 20 faizinin işğalından sonra yaranmışdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkə ərazisinin işğalı və bir milyon əhalinin qaçqın və köçkün kimi əziyyət çəkməsi ilə nəticələnmişdir. Hökumətimiz əhalinin bu təbəqəsinin həyat şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni edir. Amma maliyyə resurslarımız məhduddur. Bununla belə, qaçqın və köçkünlər üçün nəzərdə tutulmuş evlərin tikilməsi üçün əsaslı vəsait ayrılmışdır və hazırda onlar yeni inşa olunmuş qəsəbələrdə evlə təmin olunurlar.

Əlbəttə ki, bu, problemin həlli deyildir. Məsələnin həlli yolu işğala son qoyulmasıdır, Ermənistanın işğalçı qoşunlarının ərazimizdən çıxarılmasıdır. Bizim bu tələbimizdə nə isə qeyri-adi bir şey yoxdur. Hər bir ölkənin haqqıdır ki, özünün ərazi bütövlüyünü qorusun, suverenliyini saxlasın və bu da ki, beynəlxalq hüquq normalarına əsaslanır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq normaları kobudcasına pozulmuşdur və beynəlxalq hüquq normalarına məhəl qoymamaq işğal və etnik təmizləmə ilə nəticələnmişdir. Bugünkü gün təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağdan ətrafdakı 7 digər rayon da işğal altındadır. Danışıqlar təəssüf ki, heç bir fayda verməmişdir, nəticə yoxdur. Amma biz münaqişənin sülh yolu ilə həlli variantına sadiqik və bu yola inanırıq. Biz istəyirik inanaq ki, məsələnin sülh yolu ilə həlli mümkündür. Amma, eyni zamanda, Azərbaycan heç zaman bu işğalla barışmayacaq və bacardığımızı edəcəyik və əminəm ki, torpaqlarımız azad olunacaqdır.

Beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar və yalnız o təşkilatlar yox ki, bu məsələ

ilə birbaşa məşğul olurlar, yalnız bu məsələnin həlli üzrə mandata malik olan ATƏT-in Minsk qrupu deyil, - yeri gəlmişkən, biz bu mandatı dəstəkləyirik, - digər beynəlxalq təşkilatlar da məsələnin həllində daha fəal rol oynaya bilərlər və oynamalıdırlar. Avropa İttifaqı, Avropa Şurası, BMT-də bu məsələ ilə bağlı dinamikanı görməkdən də məmnunam. Biz görürük ki, hazırda bu təşkilatlar Ermənistan-Azərbaycan münaqişəsini müzakirə edirlər və bəziləri tərəfindən məsələni araşdırmaq üçün xüsusi nümayəndələr də təyin olunubdur. Düşünürəm ki, beynəlxalq ictimaiyyətin daha geniş diqqəti və mövzunu daim gündəlikdə saxlaması ümumi məqsədimizə yardım edər.

Məsələnin həlli ilə bağlı Ermənistan və Azərbaycanın mövqeyindəki əsas müxtəliflik-lər, - bunu belə adlandırmaq olarsa, - nədən ibarətdir? Bu mövqelərin hər ikisi beynəlxalq hüququn vacib bir elementləridir: ərazi bütövlüyü və insanların öz müqəddəratını həll etmək prinsipləridir. Müzakirələr zamanı Ermənistan daim Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu əsas gətirir. Amma biz düşünürük ki, məsələnin bu cür qoyuluşu düzgün deyildir. Çünki ermənilər millət kimi öz müqəddəratını artıq müəyyən ediblər. Onların Ermənistan dövləti var. Nəzərə alsaq ki, bütün dünyada erməni icmaları mövcuddur, onda ermənilərin hər yerdə öz müqəddəratını təyin etməyə başlamasının nə ilə nəticələnəcəyini əvvəlcədən görmək olar. Dünyanın bütün ölkələrində milli azlıqlar var, muxtariyyətlər mövcuddur. Beynəlxalq təşkilatlar, Avropa Şurası muxtariyyətlərin təcrübəsini öyrənibdir.

Nəyə görə, Dağlıq Qarabağ ermənilər Azərbaycanın bu hissəsini Azərbaycandan ayırmağa çalışırlar? Dağlıq Qarabağ tarixən azərbaycanlılara və Azərbaycana məxsus ərazi olubdur. Ermənilər bu əraziyə yalnız 1828-ci ildən sonra gəliblər və biz də onları qonaq kimi qəbul etmişik. Münaqişə başlayarkən ərazidə yaşayan əhalinin 75 faizi erməni, 25 faizi isə azərbaycanlılar idi. Tarixən bu ərazi heç zaman Ermənistanın tərkib hissəsi olmayıbdır. Hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və ölkəmizin ərazi bütövlüyü, BMT də daxil olmaqla, bütün beynəlxalq təşkilatlar tərəfindən tanınıbdır. Azərbaycan müstəqil ölkə kimi BMT-yə üzv qəbul olunarkən, Dağlıq Qarabağ da daxil olmaqla, bütün ərazisi tanınmaqla qəbul edilibdir.

Hər bir nöqteyi-nəzərdən və hətta iqtisadi nöqteyi-nəzərdən, iqtisadi gələcək nöqteyi-nəzərindən də iki ölkə arasında müqayisə aparılarsa, görərik ki, Azərbaycanın mövqeləri günbəgün möhkəmlənir. Yenə də deyirəm ki, biz sülh prosesinə sadiqik. Belə olmasaydı, Azərbaycan əhalisinin bir hissəsinin on ildən artıq ağır şəraitdə əziyyət çəkməsinə baxmayaraq, danışıqlar aparmazdı. Amma, dözümlülüyümüzün də həddi var. Üstəlik, belə mühüm mövzulara ikili standartlarla yanaşmaq olmaz. Bu, keçmiş SSRİ məkanında müstəsna hal deyildir. Digər ərazilərdə də separatçı hərəkatlar, münaqişələr var. Gürcüstan ərazisindəki Abxaziyada separatizm, Cənubi Osetiyada separatizm, Moldova ərazisindəki Dnestryanı bölgədə separatizm və Azərbaycanda Dağlıq Qarabağdakı separatizm eyni səbəbi, eyni izahı olan hallardır. Bu, xarici dairələrin dəstəklədiyi təcavüzkar separatizmdir ki, müstəqil ölkələrin ərazi bütövlüyünün pozulması ilə nəticələnmişdir. Ona görə də, bütün bu münaqişələrə yanaşma da eyni olmalıdır və bu yanaşma da, hissiyyatlara yox, hüquqa əsaslanmalıdır. Məsələ böyük təsir gücünə malik diasporların əsas gətirdiyi faktlara görə yox, hüquqi çərçivədə həll olunmalıdır. Biz danışıqlar prosesini davam etdiririk, beynəlxalq təşkilatların da iştirak etdiyi bu danışıqlar prosesində konkret nəticələr əldə etməyi gözləyirik.

Ölkəmizin böyük potensialı vardır. Bu potensial yalnız neft və qaza əsaslanmır. Yeri gəlmişkən, bu gün dünyada ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Xarici şirkətlər Azərbaycanın bu iqtisadi sahəsinə milyardlarla dollar vəsait yatırırlar. Bu şirkətlər özlərini Azərbaycanda rahat hiss etməsəydilər, yatırdıqları sərmayə lazımınca qorunmasaydı, onlar ölkənin gələcəyinə inanmasaydılar, şübhə edirəm ki, belə böyük həcmdə vəsait qoymağa risk edərdilər. Bizim əməkdaşlıq etmək arzumuz, ölkədəki münasibətlər qurmaq ruhu, etnik və dözümlülük ruhu, - biz bunu Azərbaycanın ən böyük nailiyyətlərindən biri hesab edirik, - bütün bunların toplusu işgüzar mühitin yaranmasına səbəb olmuşdu. Sərmayələr lazımınca qorunur, qanunvericiliyimiz buna ən yüksək səviyyədə təminat verir. Bu da ki, uğurun ən əsas elementlərindən biridir. Üstəlik, Azərbaycanda həyata keçirilən enerji layihələri regional əməkdaşlığın ən gözəl nümunələrindəndir. Bu göstərdi ki, boru kəmərinin keçdiyi region ölkələri - Azərbaycan, Gürcüstan və Türkiyə çox uğurla əməkdaşlıq edə bilərlər. Üç ölkə arasında həm regional miqyasda, həm də ikitərəfli əməkdaşlıq sahəsində qarşılıqlı anlaşma yüksək səviyyədədir. Hər üç ölkədə əməkdaşlıq inkişafla müşayiət olunur və bu, regionun ümumi inkişafına da müsbət təsir edir. Biz ümid edirik ki, bu regional əməkdaşlığın müsbət təcrübəsi gələcəkdə də özlərini təcrid edənlərə, hadisələrin inkişafını digər istiqamətdə görənlərə, təcavüzkar işğalları ilə öz ölkələrini küncə sıxışdıranlara cazibədar görünəcəkdir.

Bu işğaldan ermənilər və Ermənistan nə qazandı? Ölkələrinə dünyada hörmət artdımı? Mən belə düşünmürəm. Dünya onlara indi təcavüzkar, separatçı, etnik təmizləmə aparan, özgə torpaqlarını işğal edən xalq kimi baxır. Əhalisi daha yaxşı yaşamağamı başladı? Yenə də xeyr. Bugünkü gündə Ermənistan regional layihələrdən tamamilə təcrid olunmuşdur və Ermənistanla Azərbaycanın iqtisadi göstəricilərinə baxsaq, arada böyük uçurum görərik. Bu uçurum getdikcə daha da artacaqdır. Çünki əməkdaşlıqsız, regional əməkdaşlıqsız, - Azərbaycan isə bu əməkdaşlığın əsas elementidir, - region ölkələri inkişaf edə bilməzlər.

Biz Avropaya inteqrasiya yolunu seçmişik. Mən bunu əvvəldə dedim - biz bu yola tamamilə sadiqik, bu siyasət davam etdirilir, bu yolumuzu sözdə yox, praktiki addımlarda göstəririk. Biz ölkəmizin gələcəyini inteqrasiyada görürük. Regionda da, dünyada da, vacib, əhəmiyyəti olan ölkə olmaq istəyirik. Ona görə də, əlimizdən gələni edəcəyik ki, Azərbaycanın standartlarını dünya standartlarına çatdıraq. Bütün sahələrdə inkişafa, iqtisadi inkişafa, sosial inkişafa, demokratik inkişafa nail olaq. Bizim siyasətimiz bundan ibarətdir, bizim siyasətimiz belədir. Əlbəttə ki, bizim seçdiyimiz yolun hər mərhələsində əldə edilən uğurlardan çox şey asılı olacaqdır. Azərbaycanın seçimi belədir. Azərbaycan rəhbərliyinin etdiyi seçim budur və ölkədə də, beynəlxalq aləmdə də apardığımız siyasətlə bağlı əhalimizin dəstəyini daim hiss edirik.

Çıxışımı bu nikbin notla bitirmək istəyirəm ki, Azərbaycan ildən-ilə dünyaya inteqrasiya olunacaq, inkişaf edəcəkdir. Ölkəmizin inkişafı Azərbaycana da, qonşularımıza da, xalqımıza da, qonşu xalqlara da, bütün dostlara da, daha çox təhlükəsizlik, rahatlıq, firavanlıq gətirəcəkdir. Diqqətinizə görə çox sağ olun.

LORD HÖRD: Çox sağ olun, cənab Prezident. Məzmunlu və dolğun çıxışınıza görə Sizə minnətdaram. Girişdə qeyd etdiyim kimi, Zati-aliləri cənab Prezident alicənablıq

göstərərək bir neçə sualı cavablandırmağa razı olmuşdur. Xahiş edirəm, suallarınızı verəsiniz.

SUAL: Cənab Prezident, Sizin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etməklə bağlı bəyanatınız hamımızı valeh etmişdir. Lakin məlum olduğu kimi, tərəflər arasında etimadın, qarşılıqlı inamın səviyyəsi çox aşağıdır və tərəflərin hər birində digərinə qarşı davakar əhval-ruhiyyə hiss olunur. Azərbaycan mətbuatında və Azərbaycanın siyasətçiləri tərəfindən də belə davakarlıq vardır. Mənim sualım belədir: bunu yumşaltmaqdan ötrü Siz hansı tədbirlərə əl atırsınız?

CAVAB: Çox sağ olun. Bu sual həm də bəzi məsələləri aydınlaşdırmağa imkan yaradır. Siz Azərbaycanda davakar ritorikanın olmasını dediniz. Bəzən bu fikirlərə Azərbaycanın kütləvi informasiya vasitələrində rast gəlinməsi, bəzi siyasətçilər və ümumiyyətlə, cəmiyyət tərəfindən səsləndirilməsi halları olduğunu dediniz. Bəzən ermənilər bundan Azərbaycanı günahlandırmaq üçün də istifadə edirlər. Amma, məsələnin səbəblərinə, nəyə görə baş verməsinə baxsaq, çox şey aydın olar. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən, bir neçə Azərbaycan rayonunu dağıtdıqdan, şəhərləri, qəsəbələri, kəndləri tar-mar etdikdən sonra, bir milyon azərbaycanlını vəhşicəsinə, etnik təmizləmə nəticəsində daimi yaşayış yerindən məhrum etdikdən sonra təklif edir ki, gəlin, əməkdaşlığa başlayaq. Bilirsinizmi, belə halda bəzilərinə elə görünə bilər ki, Ermənistan əməkdaşlıq istəyir, Azərbaycan isə yox. Bu, doğrudur, amma bunun səbəbləri var.

Bilirsinizmi, biz eyni vəziyyətdə deyilik, Azərbaycan bu münaqişənin qurbanıdır və münaqişədən əziyyət çəkən Azərbaycan xalqıdır. Ona görə, əlbəttə ki, biz daha davakarıq və bu davakarlıq da həm mətbuatda, həm də bəzi siyasətçilərin çıxışlarında hiss olunur. Məsələnin izahı bu cürdür. Zaman keçdikcə, ermənilər daha qeyri-konstruktiv olduqca, cəmiyyət arasında belə meyillər artacaqdır. Bu gün biz həmin meyilləri tənzim edə bilmərik və tənzim etmək də istəmirik. Ermənilər bizim torpaqları tərk etdikdən sonra, işğala son qoyduqdan sonra, mən əminəm ki, vəziyyət də dəyişəcək, davakarlıq ruhu da azalacaq, inam artacaqdır. İnamın yaranması üçün praktik addımlar atmaq lazımdır. İndi isə kompromislər haqqında danışanda biz nəyin güzəştə gediləcəyini anlaya bilmirik. Biz ərazi bütövlüyümüzü güzəştə gedə bilmərik. Biz Dağlıq Qarabağı, Ermənistanın istədiyi kimi, ona verə bilmərik. Bizim güzəştə gedəcəyimiz məsələlər çox deyildir.

Biz təhlükəsizlik təminatına razılıq verə bilərik. Dağlıq Qarabağ üçün yüksək muxtariyyət verilməsinə - yəni bugünkü gündə dünyada mövcud olan muxtariyyətlər içərisində ən yüksəyinə razı ola bilərik. Amma bu, bizim edəcəyimiz güzəştlərin axırıdır. Ermənistan ilk addımları atmalıdır, çünki onlar bizim torpaqları işğal ediblər. Onlar işğala son qoymalıdırlar. İrticaçı ordunu zəbt olunmuş ərazilərdən çəkməlidirlər. Sizə deyim ki, bu, inam yaratmağın ən vacib elementlərindən olacaqdır.

SUAL: Əla çıxışınıza görə çox sağ olun. Mən Sizin ölkə ilə yaxından tanışam, ölkənizin əldə etdiyi tərəqqi də mənə məlumdur. Siz Azərbaycanın Avropa İttifaqının yeni qonşuluq siyasətindəki rolunu necə görürsünüz və necə düşünürsünüz? Həmin siyasət vasitəsilə Ermənistan-Azərbaycan münasibətlərinə təsir etmək olarmı? Xüsusilə də nəzərə alaraq ki, Ermənistan və Azərbaycan da həmin qonşuluq siyasəti ilə əlaqədar tərəfdaşdırlar.

CAVAB: Biz bu layihəyə, bu proqrama böyük əhəmiyyət veririk. Halbuki, həmin yeni qonşuluq siyasətinin hansı çərçivədə həyata keçiriləcəyi bizə hələ məlum deyildir. Amma ümid edirik, həmin siyasətin sanballı praktiki elementləri olacaqdır ki, Cənubi Qafqaz ölkələri bundan bəhrələnə bilsin. Biz Avropa İttifaqının həm də Ermənistan-Azərbaycan münaqişəsi prosesini öyrənən Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsini yüksək qiymətləndiririk. Mən, Avropa İttifaqının iqamətgahının yerləşdiyi Brüsselə çox uğurlu səfər etmişəm. Orada müzakirələrimiz həm iqtisadi sahəni, həm siyasi sahəni, həm də ki, enerji sahəsini əhatə edib, tərəflər üçün faydalı olubdur. Biz Avropa İttifaqının münaqişənin həllinə qoşulmasına böyük hörmətlə yanaşırıq. Bir daha təkrar etmək istəyirəm ki, ATƏT-in Minsk qrupuna əvəzedici axtarmırıq, baxmayaraq ki, bu qurumun fəaliyyətini qənaətbəxş saymırıq. Qənaətbəxş saymamağımızın səbəbi də odur ki, nəticə yoxdur. Əksinə, ermənilər Minsk qrupunun fəaliyyətindən çox razıdırlar və erməni siyasətçiləri Minsk qrupunu tərifləməkdən doymurlar. Başa düşmürəm, nəyə görə? Yəqin elə eyni səbəbə görə. Nəticənin olmaması - nə müharibə, nə sülh şəraitinin və Azərbaycan ərazilərinin işğalının davam etməsi, görünür, Ermənistan hökumətini qane edir. Ona görə də biz, ATƏT-in Minsk qrupunun əvəz olunmaması şərtilə, beynəlxalq təşkilatların da, əsas etibarilə Avropa İttifaqının bu məsələdə fəal iştirakını istəyirik. Çünki Avropa İttifaqının mexanizmləri var, Avropa İttifaqının gücü var və bu gün Avropa İttifaqı genişlənməsi ilə dünyada böyük qüvvəyə çevrilir. Qurumun maliyyə resursları vardır ki, bu da məsələni sülh yolu ilə həll etmək istəyənlər üçün yaxşı ruhlandırıcı amildir. Ona görə də biz prosesdən razıyıq, ümid edirik ki, yeni qonşuluq siyasəti özlüyündə elə mexanizmlərə malik olacaqdır ki, həmin mexanizmlər vasitəsilə Cənubi Qafqazda münaqişənin həll olunması yolunda praktik addımlar atılsın və tammiqyaslı regional əməkdaşlıq qurulsun.

SUAL: Zati-aliləri, Rusiya ilə münasibətlər haqqında nə deyə bilərsiniz? Xüsusilə də, Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi, Bakı-Tbilisi-Ceyhan kəmərinə, Xəzərin enerji ehtiyatlarından istifadənin inkişaf etdirilməsinə münasibəti, Rusiyanın Ermənistanla münasibətləri ilə bağlı. Siz xarici siyasətinizin əsas üç prinsipindən birini qeyd etdiniz - Avratlantik strukturlarına inteqrasiya. Bu, Moskva ilə münasibətlərinizə necə təsir edir?

CAVAB: Bir çox illər Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluq münasibətlərindən çox uzaq idi. Faktiki olaraq, Azərbaycan müstəqillik qazandıqdan sonra münasibətlər gərginləşmişdi və 1990-cı illərin sonuna qədər gərgin qalırdı. Səbəb də 1990-cı illərin əvvəllərində, Ermənistan-Azərbaycan münaqişəsi, müharibəsi dövründə Rusiyanın Ermənistana dəstək verməsi idi. Bu, artıq gizli deyil, biz bu haqda açıq və aydın danışırıq və əgər siz də, biz də Rusiya ilə yaxşı münasibətlərin olmasını istəyiriksə, keçmişdə baş verənləri təhlil etməli və çalışıb həmin səhvləri təkrarlamamalıyıq. Ermənistana qeyri-qanuni surətdə bir milyard dollarlıq silah ötürülməsi hətta Rusiyanın daxilində də böyük narazılığa səbəb olmuşdu. Rusiya Dövlət Duması bu məsələni araşdırdı. Silah ötürülməsi faktı etiraf olundu, amma təəssüf ki, heç kəs cəzalandırılmadı.

Bu gün isə vəziyyət fərqlidir. İndi Azərbaycanla Rusiya arasında münasibətlər əsaslı surətdə yaxşılaşmışdır. Xüsusilə də, Prezident Vladimir Putin hakimiyyətə gəldikdən sonra. Bizim mübahisələrimiz çox idi, məsələn, elə Xəzər dənizində sektorların bölünməsi ilə bağlı. Lakin razılığa gəldik və hər iki tərəfi qane edəcək sazişə imza atdıq. Bakı-Tbi-

lisi-Ceyhan kəmərinin tikilməsi, nədənsə, Rusiyanın bəzi dairələrində düzgün anlaşılmamışdı, düzgün qiymətləndirilməmişdi. Bakı-Tbilisi-Ceyhan kəmərinin digər ölkələrin maraqları ilə heç bir əlaqəsi yoxdur. Bu layihə Azərbaycanın maraqlarına xidmət edir və sadəcə, xəritəyə baxsanız və ya coğrafiya haqqında elementar biliklərniz varsa, görərsiniz ki, Bakı-Tbilisi-Ceyhan kəməri olmadan Aralıq dənizinə çıxmaq mümkün deyil, Azərbaycanın Xəzər dənizindəki nəhəng enerji ehtiyatlarının işlənilməsini inkişaf etdirmək mümkünsüzdür. Amma qeyd etdiyim kimi, bu məsələ də həll olundu.

Bizim Rusiya ilə münasibətlərimiz ölkələrimizin digər dövlətlərlə əlaqələrinə toxunmur, təsir etmir. Biz hər mövzuya ayrılıqda baxırıq. Düşünürəm ki, Avropaya inteqrasiya istəyimiz Rusiya ilə də yaxşı münasibətlər qurmaq arzumuza zidd deyildir. Hesab edirəm ki, ölkələrimiz arasında bugünkü münasibətlərdə qarşılıqlı hörmət elementləri, bir-birinin işinə qarışmamaq, hər iki ölkənin maraqlarına xidmət etmək prinsipləri əsas götürülür. Ermənistan uzun müddət Rusiya ilə xüsusi münasibətlərin olması, keçmiş Sovet İttifaqında Rusiyanın yeganə tərəfdaşı olması və sair bu kimi faktlarla manipulyasiya edirdi. Bu gün onlar, doğrudan da, yaxşı tərəfdaşdırlar. Rusiyanın Ermənistan ərazisində hərbi baza saxlaması, həm Rusiyanın, həm də Ermənistanın eyni kollektiv təhlükəsizlik müqaviləsinin iştirakçısı olması bu ölkələr arasında ikitərəfli hərbi münasibətlərin səviyyəsini göstərir. Amma, eyni zamanda, bu, o demək deyil ki, Rusiya digər ölkələrlə pis münasibətdə olmalıdır.

Biz bütün qonşularımızla yaxşı münasibətlərin olmasını istəyirik. Mənim Prezident Putinlə çox yaxşı şəxsi münasibətlərim var. Bizim ölkələr arasında yaxşı iqtisadi əlaqələr var. Rusiyada böyük Azərbaycan icması yaşayır. Azərbaycanda rus icması yaşayır. Mən elə bilirəm ki, münasibətlərin bugünkü səviyyəsi hər iki tərəfi qane edir. İstərdik ki, münasibətlərimizi genişləndirək və əlbəttə ki, bu münasibətlər suverenlik, müstəqillik, bir-birinin işinə qarışmamaq prinsiplərinə əsaslanacaqdır.

Ermənistandan fərqli olaraq, Azərbaycan nə iqtisadi, nə də siyasi cəhətdən heç bir ölkədən asılı deyildir. Bu, bizim üstünlüyümüzdür və faktiki olaraq, Prezident Heydər Əliyevin verdiyi böyük töhfədir. O, ölkəsini elə idarə etmişdir ki, hakimiyyətinin cəmi 10 ili ərzində Azərbaycanı həqiqi müstəqil ölkə səviyyəsinə çatdırmağa müvəffəq olmuşdu. Müstəqillik yalnız hüquqi status deyil, Azərbaycanın atdığı hər bir addım, ölkənin və onun xalqının milli maraqlarına uyğun olaraq atılır. Qonşularla yaxşı münasibətlər xarici siyasətimizin əsas elementlərindəndir və mən məmnunam ki, bu gün ölkələrimiz arasındakı münasibətlər müsbət istiqamətdə inkişaf edir.

SUAL: Xahiş edirəm, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə bağlı Azərbaycanda və Gürcüstanda gedən tikinti işləri barədə məlumat verəsiniz. Gürcüstan-Azərbaycan sərhədindəki vəziyyətlə, yüklərin Gürcüstandan Ermənistana daşınması ilə bağlı məlumat daxil olmuşdur. Azərbaycanın daxili siyasəti ilə əlaqədar müxalifətin şikayəti haqqında da məlumat verməyinizi xahiş edirəm.

CAVAB: Bakı-Tbilisi-Ceyhan layihəsi uğurla həyata keçirilir. Bir vaxt bu layihəyə əfsanə, yuxu kimi baxırdılar. İndi isə o, reallığa çevrilibdir. Hazırda bu, dünyada ən böyük enerji layihəsidir və əvvəldə də qeyd etdiyim kimi, regional əməkdaşlığın çox gözəl nümunəsidir. Tikinti işləri başa çatır. Bir neçə ay bundan əvvəl Gürcüstan Prezidenti və mən Azərbaycan-Gürcüstan sərhədində boru kəmərinin birləşdirici qaynağı mərasimində iştirak etdik. Azərbaycanda tikinti işləri başa çatıb, Gürcüstanda başa çatmaqda-

dır. Türkiyədə tikinti davam etdirilir, bu da təbiidir. Bildiyiniz kimi, kəmərin Türkiyə ərazisindən keçən hissəsi məsafəcə ən uzunudur. Əlbəttə, bir neçə milyard dollarlıq layihələr həyata keçirilən zaman gecikmə halları da ola bilər, dəyişikliklər də olur. Amma prinsip etibarilə, biz tikinti işlərindən razıyıq. Ümid edirəm ki, tezliklə layihəni tamamlayacağıq.

Azərbaycan qazını Avropaya daşıyacaq Cənubi Qafqaz boru kəməri də inşa edilir. Hesab edirəm ki, tikinti işlərinin 40-50 faizi görülüb və Azərbaycan qazı vaxtında, 2006-cı ildə Türkiyəyə, oradan da Yunanıstana, daha sonra isə digər Avropa ölkələrinə nəql ediləcəkdir. Danışıqlar bu istiqamətdə aparılır.

Gürcüstan və Azərbaycan arasındakı münasibətlərə gəldikdə, bu, dostluq münasibətləridir. Çox səmimi, yaxın münasibətlərdir. Sovet dövründə də, müstəqillik dövründə də Prezident Heydər Əliyev və Prezident Şevardnadze arasındakı yaxın münasibətlər iki ölkənin münasibətlərinin inkişafında çox mühüm rol oynamışdır. İndi də ölkələrin yeni liderlərinin necə münasibətlər qurması, necə siyasət aparması vacibdir. Mən aramızda yaranmış münasibətlərdən razıyam. Əminəm ki, həmkarım, Gürcüstan Prezidenti də belə münasibətlərin olmasına şaddır. Bu gün Gürcüstan və Azərbaycan yaxın dost, yaxın tərəfdaşlardır. Həm ikitərəfli münasibətlərdə, həm də regional səviyyələrdə, inteqrasiya siyasətində çox yaxındırlar və bir-birini həmişə dəstəkləyirlər.

Hazırda sərhəddə baş verən məsələnin səbəbi var. Bizə məlumat daxil olmuşdur ki, Xəzərin şərqindən gələn yüklər Ermənistana daxil olur. Biz bunu qeyri-qanuni hesab edirik. Çünki Azərbaycan Şərq-Qərb dəhlizinin bir hissəsi olan TRACECA proqramına qoşulubdur. Özü də bu şərtlə qoşulub ki, Azərbaycan ərazisindən keçən yüklər Ermənistana daxil olmasın. Biz isə saxta sənədlər aşkar etmişik, həmin saxta sənədlər əsasında, Türkmənistandan Avropaya getməsi nəzərdə tutulan yüklər Ermənistana daxil olur. Ona görə də gürcüstanlı həmkarlarımızla birlikdə araşdırmağa başladıq. Bu araşdırma zamanı da hər bir yük yoxlanılır. Buna görə də sərhəddə bəzi tıxaclar əmələ gəldi. Amma oraya adamlarımızı göndərmişik və gürcüstanlı həmkarlarla birlikdə işləyirlər. Ümid edirik ki, tezliklə məsələ aydınlaşacaqdır. Azərbaycandan Ermənistana bir qram da yük gedə bilməz. Yaxud da, başqa bir ölkədən gəlməklə Azərbaycan ərazisindən keçib Ermənistana daxil ola bilməz. Səbəbi də Ermənistanın işğalının davam etməsidir. İşğala son qoyulduqdan sonra, əlbəttə ki, bütün kommunikasiya vasitələri və yalnız bu marşrut deyil, digərləri də açıla bilər.

Daxili siyasətlə bağlı. Siyasi ab-hava çox yaxşıdır. Bizim cəmiyyətimiz vahiddir. İslahatlar siyasətimiz xalq tərəfindən dəstəklənir. Prezident seçkiləri, seçkilərdən sonrakı dövr göstərir ki, hökumət verdiyi sözlərə əməl edir. İqtisadi göstəricilər çox yaxşıdır. Ümumi daxili məhsul bu il 10 faiz artıbdır. Sərmayələr 40 faizdən artıq artmışdır. Dövlət idarələrində işləyənlərin maaşlarını nəzərəçarpacaq qədər artırmışıq. Büdcədən maliyyələşən təşkilatlarda maaşlar qaldırılmışdır. Minimum əmək haqqı bir neçə dəfə artıb. Sosial problemlərin həllinə böyük diqqət yetirilir. İnsanlar müsbət dəyişiklikləri görərkən, makroiqtisadi göstəriciləri gündəlik həyatda hiss edərkən (çünki insanların çoxu ümumi daxili məhsulun 10 faiz artmasının nə demək olduğunu bilmir), daha çox maaş, daha çox sosial yardım alarkən, daha yaxşı münasibət görərkən, bu, hökumətin də gücünü artırır.

Müxalifət Prezident seçkilərindən sonra və təəssüf olsun ki, küçələrdəki iğtişaşlardan sonra özünə gələ bilmir və sizə deyim ki, tərəfdarlarının çoxunu itiribdir. Özü də təkcə bizim siyasətimizə görə yox. Mən dəfələrlə çıxışlarımda açıq-aydın müxalifəti siyasi dialoqa çağırmışam. Bu bəyanatlar həm prezident seçkilərindən əvvəl, həm də seçkilərdən sonra olubdur. Amma təəssüf ki, mən hələ də heç bir cavab almıram. Onların cəmiyyətdə rolu çox aşağıdır, müxalifətin siyasi həyatın vacib amili olması, rolu gözə görünmür. Sual olunsa ki, bu, məni sevindirir, yoxsa yox, cavab verərəm ki, əlbəttə, yox.

Çünki hər bir cəmiyyətdə müxalifət olmalıdır. Bu müxalifət yaradıcı müxalifət olmalıdır. Təəssüf ki, bu gün bizdə belə hal müşahidə edilmir. Düşünürəm ki, on ildən artıq bir müddətdə müxalifətdə eyni adamların olması, onların eyni sözləri deməsi cəmiyyətin ona inamını xeyli azaldıbdır və belə hal müxalifətə kömək etmir. Hökumətdə də, Azərbaycan hakimiyyətində də, mənim mənsub olduğum partiyada da dəyişikliklər baş verir. Yeni Prezident gəlib. Hökumətin yeni üzvləri gəliblər. Bizim düşərgədə dəyişiklik var. Müxalifətdə isə hər şey olduğu kimi qalır. 1993-cü ilədək Azərbaycan hakimiyyətində olanlar, həmin hakimiyyəti, on il müddətində bütün prezident və parlament seçkilərini uduzanlar indi müxalifətdədirlər.

Dekabrın 17-də bizdə bələdiyyə seçkiləri keçiriləcəkdir. Müxalifət indidən həmin seçkiləri boykot edir. Səbəb nədir? Səbəb sadədir. Onların namizədləri yoxdur. 38 min namizəd bələdiyyə seçkilərinə qeydiyyatdan keçib və onların yalnız 5 faizi müxalif partiyalarındandır. Rayonlarda adamları yoxdur. Bir çox rayon təşkilatları fəaliyyətlərini dayandırıblar. Çünki bu gün Azərbaycanın inkişafında yeni dövr başlayıbdır. Bu gün Azərbaycan hökuməti də, lideri də, - bəlkə bunu demək təvazökarlıqdan uzaqdır, - xalq tərəfindən dəstəklənir. Bu dəstəyi doğrultmaqdan ötrü, sözümüzün üstündə dayanmaqdan ötrü, seçicilərimizin bizdən gözlədiklərini yerinə yetirməkdən ötrü əlimizdən gələni edəcəyik.

Bugünkü müxalifət dağıdıcı müxalifətdir, Sovet İttifaqının dağılması dövründən qalan müxalifətdir. Onlarda yaradıcılıq çatışmır. Bizə yəqin ki, yeni adamlar, yeni qüvvələr lazımdır. Amma biz bu prosesə təsir edə bilmərik. Mən şəxsən təəssüf edirəm ki, Azərbaycanda müxalifətin səviyyəsi bu cür aşağıdır.

SUAL: Mən Ermənistanın səfiriyəm. Siz çıxışınızda mənim ölkəmi o qədər günahlandırdınız ki, mən sizə cavab verməliyəm. Birincisi, bu, işğal yox, özünü müdafiə etmək üçün yaranmış bufer zonasıdır. Nə Yerevanda və nə də Stepanakertdə hələ heç bir rəsmi deməyibdir ki, bu ərazilər status və təhlükəsizlik təminatları alındıqdan sonra da saxlanılacaqdır. Dediniz ki, Azərbaycanın dözümü hədsiz deyildir. Bu, hərbi əməliyyatların başlanma ehtimalı mənasını verirmi? Yoxsa başqa variantları nəzərdə tutursunuz?

CAVAB: Bugünkü dünya dəyişən dünyadır, heç bir variantı kənara tullamaq olmaz və bütün variantlar mümkündür. Mən dedim ki, sülh yolu ilə həllə sadiqik və bizim sadiqliyimiz yalnız sözlər deyil, əsil şəraitdir. On ildən artıqdır ki, biz heç bir nəticəsiz danışıq aparırıq. Sizə deyə bilərəm ki, camaatımız bu danışıqlardan artıq doyubdur. Mən Prezident seçiləndən sonra açıq bəyan etdim ki, biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq. Nə vaxt görsək ki, danışıqlar yüz faiz əhəmiyyətsizdir, Ermənistan tərəfi bu danışıqları yalnız vaxt udmaq, vaxtı uzatmaq xatirinə aparır, biz bu lazımsız işdən əl çəkəcəyik. Bir səfir kimi sizə əsil vəziyyət yaxşı məlumdur. Yəqin ki, baş vermişlərlə bağlı Er-

mənistana bəraət qazandırılmasının nə dərəcədə çətin olması da sizə məlumdur. Beynəlxalq ictimaiyyətin gözündə təcavüzkar imicində yaşamağın da nə dərəcədə çətin olması sizə məlumdur.

Əlbəttə, 1990-cı illərin əvvəllərində, Azərbaycan informasiya blokadasında olduğu bir vaxtda Azərbaycan hökumətinin əhali qarşısında, ölkədə gözdən düşməsi dövrü Ermənistan üçün əlverişli dövr idi. Dünyadakı mövqelərindən istifadə edərək, xüsusilə də Moskva, Paris və Vaşinqtondakı lobbidən istifadə edərək, Azərbaycanı pis tərzdə göstərməyə müvəffəq olmuşdu. O zaman ermənilər Azərbaycan haqqında və ümumiyyətlə, vəziyyətlə bağlı saxta məlumat yaya bildilər. Həmişəki kimi, yenə özlərini qurban kimi qələmə verə bildilər. Amma nəyin qurbanı? 250 min azərbaycanlı Ermənistandan qovuldu. Azərbaycanda Dağlıq Qarabağa qonşu olan 7 rayonun azərbaycanlı əhalisi etnik təmizləməyə məruz qaldı. 7 rayon mərkəzi yerlə-yeksan edildi. Dağıdılmayan nə vardısa Ermənistana daşındı. Minlərlə adamımız öldürüldü, yaralandı. İndi bir milyon qaçqın-köçkünümüz var.

Əlbəttə, indi Ermənistan üçün beynəlxalq ictimaiyyətin üzvü kimi fəaliyyət göstərmək çətindir. Ermənistan işğalçı ölkədir. Bu, indi bir çox ölkələr tərəfindən də, beynəlxalq təşkilatlar tərəfindən də yaxşı anlanır. Biz torpaqlarımızın azad olmasını tələb edirik. Ermənistana qarşı ərazi iddiamız yoxdur. Baxmayaraq ki, tarixən, bugünkü Ermənistan ərazisində əhalinin çoxunu azərbaycanlılar təşkil edib, XIX əsrdə də indiki Ermənistan əhalisinin 50 faizindən çoxu azərbaycanlılar olub. Hətta sovet ensiklopediyalarında belə Ermənistan ərazisindəki şəhərlərin çoxunun Azərbaycan adları olmasını görərsiniz.

Bizim heç bir ölkəyə ərazi iddiamız yoxdur, amma öz ərazilərimizin özümüzə qaytarılmasını istəyirik. Bizə ölkəmizin ərazi bütövlüyünün bərpası lazımdır. Ermənistan bunu sülh yolu ilə eləsə, lap yaxşı, sülh yolu ilə eləməsə, biz özümüz ərazimizi geri qaytararıq. Amma bu, regionda vəziyyətin çox ciddi xarakter almasına gətirəcəkdir. Azərbaycan öz ərazilərinin itirilməsi ilə heç vaxt, heç vaxt barışmaz. Biz hansı yolla olursa-olsun, torpaqlarımızı azad edəcəyik. Biz hazırda müdafiə layihələri üzərində işləyirik. Gələn il üçün müdafiə büdcəmizi 30 faiz artıracağıq. Ərazilərimizi geri qaytarana qədər büdcədə bu xərclər daha da artacaqdır. Mənim sizə cavabım belədir.

* * *

LORD HÖRD: Zati-aliləri cənab Prezident, gözəl çıxışınıza görə sağ olun. Suallara cavabınıza görə minnətdaram. Sizə həm də ona görə minnətdarıq ki, bizim dildə danışdınız. Mənə elə gəlir ki, Prezidentin öz ölkəsinin gələcəyini necə təsəvvür etməsi çıxışında aydın göründü. Prezidentin çıxışından sonra münaqişə ilə bağlı Azərbaycan tərəfinin mövqeyi də bizə bəlli oldu. Elə bilirəm ki, bu məsələdə hər bir tərəfin fikrini öyrənməsəydik, bu, reallıqdan uzaq olardı.

Cənab Prezident, hamımız Sizə uğur diləyir, məsələnin sülh yolu ilə həll olunmasını arzulayır, ölkənizə gələcək firavanlıq arzu edirik. Biz, buradakı dostlarınız isə, bu yolda əlimizdən gələni etməyə hazırıq. Buraya gəldiyinizə görə Sizə bir daha minnətdarıq. Çox sağ olun, cənab Prezident.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR VƏ MÜDAFİƏ KOMİTƏLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 13-də Londonda Böyük Britaniya parlamentinin xarici əlaqələr və müdafiə komitələrinin üzvləri ilə görüşmüşdür.

Görüşdə hər iki komitənin rəhbərləri və parlamentin on nəfərədək deputatı iştirak edirdi.

Xarici əlaqələr komitəsinin sədri Donald Anderson görüşü açaraq, Azərbaycan Prezidentini salamladı və onun Londona səfərinin böyük əhəmiyyəti olduğunu vurğuladı. O, dövlətimizin başçısından görüş iştirakçılarına Azərbaycanda gedən proseslər, regional əməkdaşlıq və bunun perspektivləri barədə məlumat verməsini xahiş etdi.

Prezident İlham Əliyev ölkəmizdə gedən proseslər, regional əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onunla bağlı məsələlər haqqında ətraflı məlumat verdi.

Sonra parlament üzvləri dövlətimizin başçısına müxtəlif suallarla müraciət etdilər. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin regional əməkdaşlığa törətdiyi maneələr, münaqişənin həlli perspektivləri, Dövlət Neft Fondu, ölkəmizin beynəlxalq əlaqələri və qonşu dövlətlərlə münasibətləri barədə suallara ətraflı cavab verdi.

İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİ ADINDAN PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Böyük Britaniyaya rəsmi səfəri zamanı onun üçün ayrılmış iqamətgahda Azərbaycanın Londondakı diplomatik korpusunun üzvləri, ölkəmizdə fəaliyyət göstərən İngiltərə şirkətlərinin təmsilçiləri, Londonda yaşayan soydaşlarımızla görüşüb söhbət etmişdir.

Prezident İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfərinin ilk gününün sonunda İngiltərə-Azərbaycan Cəmiyyəti adından dövlətimizin başçısının şərəfinə rəsmi qəbul təşkil olundu.

Əvvəlcə, Böyük Britaniya Kraliçasının nümayəndəsi, kral ailəsinin üzvü Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı salamlayaraq, rəsmi qəbulda iştirak edənlərə Böyük Britaniyanın Kraliçasının və Azərbaycanın dövlət başçısının şərəfinə badə qaldırmağı xahiş etdi.

Sonra İngiltərə-Azərbaycan Cəmiyyətinin sədri lord Piter Freyzer rəsmi qəbulda çıxış etdi.

LORD PİTER FREYZERİN ÇIXIŞI

- Zati-aliləri cənab Prezident!

Kral ailəsinin üzvləri!

Londondakı diplomatik korpusun nümayəndələri, siyasətçilər, özəl şirkətlərin təmsilçiləri! Hamınızı İngiltərə-Azərbaycan Cəmiyyəti adından salamlayıram. Burada kimisə

xüsusilə qeyd etmək istəmirəm. Hamınıza "Xoş gəlmisiniz!" deyirəm.

Cənab Prezident, Siz Böyük Britaniya və Azərbaycan Respublikası arasında nə qədər böyük, nə qədər güclü siyasi əlaqələrin olduğunu və Britaniya üçün Azərbaycanın böyük əhəmiyyəti olduğunu bilirsiniz. İngiltərə-Azərbaycan Cəmiyyətinin sədri kimi bu gün mənim ürəyim doludur.

Sizi Birləşmiş Krallıqda ən hərarətli salamlarla salamlayıram. Sizinlə birlikdə təşrif buyurmuş xanımınıza xüsusi "Xoş gəldiniz!" deyirəm. Çox sağ olsun ki, bu axşam bizim ziyafətə gəlibdir.

Siz son dəfə buraya gələrkən belə bir ziyafət "Britiş Petroleum" şirkəti tərəfindən verilmişdi. Bu dəfə isə Azərbaycana sərmayə yatırımını dəstəkləyən vacib konfransla bağlı Britaniyadasınız və sabah əsas çıxışınızı edəcəksiniz. Biz, Sizin Britaniyadakı dostlarınız konfransın işinə uğurlar arzulayırıq və Azərbaycana sərmayə cəlb etmək işinə müvəffəqiyyətlər diləyirik. Bilirəm ki, bu gün gündüz çox məşğul olmusunuz, şəhərin müxtəlif yerlərində çıxışlar etmisiniz, "Chatham House"də çıxışınız olmuşdur. Sabah Baş nazir və xarici işlər naziri ilə görüşünüz olacaqdır. Bu da bizim ölkəmizə olan siyasi marağın nümunəsidir. Biz bilirik ki, Siz bizim ölkəyə ailəniz üçün ağır bir vaxtda səfər edirsiniz. Bir gün əvvəl atanızın dünyasını dəyişməsinin birinci ildönümü idi. Belə bir vaxtda ölkəniz üçün əhəmiyyət kəsb edən taleyüklü məsələlərlə məşğul olmağınız bizdə xüsusi rəğbət hissi oyadır.

İndi isə istərdim ki, möhtərəm Patrik Kornaqdan - Britaniya parlamenti üzvləri arasında ən çox hörmət qazanmış cənabdan xahiş edim ki, "First Maqazin" jurnalı adından çıxışla müraciət etsin. Düşünürəm ki, bu jurnalın nümayəndəsinin çıxışı özlüyündə Böyük Britaniya Birləşmiş Krallığında Azərbaycana böyük marağın olmasını göstərir.

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ PATRİK KORNAQIN ÇIXIŞI

- Zati-aliləri cənab Prezident!

Azərbaycanın birinci xanımı!

Bu axşam burada olmaq və dünyada mühüm strateji mövqedə yerləşən ölkəniz haqqında bir neçə kəlmə söz demək mənim üçün böyük şərəfdir.

Xüsusilə böyük şərəfdir ki, bugünkü görüşdə Prezidentlə yanaşı, bizim çox hörmətli parlament nümayəndələri, Britaniyanın keçmiş xarici işlər naziri, sonralar NATO-nun da baş katibi olmuş sabiq müdafiə naziri buradadırlar. Kral ailəsinin nümayəndəsi lord Hördün və lord Robertsonun adından Sizi bir daha salamlayıram, xanımınıza minnətdarlığımı bildirirəm ki, bu gün Sizi müşayiət edir.

Xanımlar və cənablar, məlumunuz olsun ki, qarşınızdakı xanım UNESCO-nun xoşməramlı səfiri seçilmişdir. Bu cür ada xüsusi seçilmiş adamlar layiq görülürlər. İstər Avropada, istərsə də dünyanın hər hansı bir başqa hissəsində Azərbaycanın birinci xanımından yaxşı heç kim xoş məram, xoş niyyət hissləri aşılaya bilməz.

Çox əlamətdar haldır ki, sözün əsil mənasında, millətin atası hesab olunan sabiq Prezidentin vəfatından sonra müstəqil Azərbaycanın Sizin kimi görkəmli Prezidenti var. O

hal da diqqətəlayiqdir ki, Sizi müşayiət edən xanımınız çətinliklə müstəqillik qazanmış ölkənizin xoş məramı ilə bütün dünyanı tanış edir. Biz "First Maqazin" jurnalında böyük məmnuniyyətlə və şərəflə Sizin səfərinizi işıqlandırmaq istəyirik. Cənab Prezident, Siz bu səfərinizlə ölkənizi daha da yaxşı tanıdırsınız. Bizim Baş nazirimiz Sizin ölkə ilə münasibətləri yüksək qiymətləndirir. Müxalifət partiyasının üzvü kimi mən digər məsələlərdə olmasa da, Azərbaycanla münasibətlər məsələsində Baş nazirimizin siyasətini tamamilə dəstəkləyirəm. Ümumiyyətlə, dostum Bryus Corcla birlikdə, adətən, Baş naziri tənqid etsək də, Azərbaycanla bağlı siyasət məsələlərində daim parlamentdə ona öz dəstəyimizi bildiririk. Biz bunu həmişə böyük məmnuniyyətlə edirik. Çünki bu, beynəlxalq münasibətlərin xeyrinədir. Düşünürəm ki, bu gün iqtidar-müxalifət münasibətlərindən asılı olmayaraq, bütün siyasi partiyaların adından deyə bilərəm ki, Sizin səfəriniz hamımız üçün böyük şərəfdir. Siz, həqiqətən də, ölkəmizdə ən çox arzulanan, gəlişi ən böyük sevincə səbəb olan rəsmi qonaqsınız.

Sabah Siz cənab Baş nazirlə görüşən zaman o, bütün bunları Sizə deyəcəkdir. Çünki o, qəti əmindir ki, Sizin ölkəniz bütün dünyada sülh və sabitliyə böyük töhfə verə biləcək ölkədir. Biz də öz növbəmizdə kiçik hədiyyəmizi Sizə təqdim edirik.

İcazə verin, kiçicik hədiyyəmizi Zati-alilərinə təqdim edim. Sizin ölkəniz Qafqazda və Mərkəzi Asiyada böyük əhəmiyyətə malik ölkədir. Ölkənizin Avropaya və dünyaya verə biləcəyi töhfələr hədsizdir. Cənab Prezident, bu ölkəni idarə etməkdə Sizə çoxlu uğurlar arzulayıram.



Prezident İlham Əliyev səmimi və xoş sözlərə görə lord Freyzerə və Patrik Kornaqa təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Böyük Britaniyanın xarici işlər üzrə dövlət katibi Cek Stro ilə görüşmüşdür.

Prezident İlham Əliyev və cənab Cek Stro görüşdən əvvəl xatirə şəkli çəkdirdilər.

Görüşdə Azərbaycan-Böyük Britaniya əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri barədə, beynəlxalq, regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev və dövlət katibi Cek Stro ölkələrimiz arasındakı əlaqələrin indiki vəziyyətindən məmnunluqlarını ifadə edərək bildirdilər ki, Böyük Britaniya Azərbaycanın Avropa Birliyinə inteqrasiyasına, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına töhfəsini verir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür.

Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, sosial proqramlar barədə ətraflı məlumat verərək, ölkəmizin neft sektorunun inkişafı sahəsində böyük uğurlar əldə etdiyini vurğuladı və eyni zamanda, qeyri-neft sektorunun inkişafının, regionların iqtisadi cəhətdən güclənməsinin Azərbaycan hökumətinin fəaliyyətinin əsas istiqamətlərindən biri olduğunu qeyd etdi. O, bu sahədə Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdi.

Bankın prezidenti Jan Lemyer rəhbərlik etdiyi qurumun Azərbaycanla uğurlu əməkdaşlıq etdiyini vurğuladı, ölkəmizdə iqtisadi layihələrin həyata keçirilməsi üçün ayrılacaq vəsaitlərin həcminin 280 milyon ABŞ dollarına çatacağını və bunun, əsasən, bank sektorunun inkişafına və infrastrukturun yenidən qurulmasına yönəldiləcəyini söylədi. O, habelə, Azərbaycanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulmasını alqışlayaraq, ölkəmizdə Neft Fondunun fəaliyyətinin şəffaflıq prinsipi əsasında həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Cənab Lemyer Prezident İlham Əliyevin ölkədə regionların inkişafı ilə bağlı siyasətinin Avropa Bankı tərəfindən alqışlandığını bildirdi və qurumun bu siyasəti bundan sonra da dəstəkləyəcəyini söylədi. O, bu məqsədlə Azərbaycan hökuməti tərəfindən 50 milyon dollar vəsait ayrılmasını müsbət hal kimi dəyərləndirdi. Avropa Bankının xətti ilə Dövlət Neft Şirkətində aparılacaq struktur dəyişikliklərinə Azərbaycan Prezidentinin dəstəyinin gələcəkdə də davam edəcəyinə əminliyini vurğulayan Jan Lemyer bu proseslərin ümumilikdə ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyətli olduğunu söylədi.

Prezident İlham Əliyev ölkəmizdə neft sektorunun şəffaflıq prinsipi əsasında inkişaf etdiyini qeyd etdi. Dövlətimizin başçısı dedi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Neft Fondunun yaradılması ölkəmizin neft sektorunda şəffaflıq prinsipinin uğurla həyata keçirilməsi üçün etibarlı zəmin yaratmışdır. Təsadüfi deyil ki, Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən olmuşdur.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığın gələcəkdə daha yüksək səviyyəyə qalxacağına ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Londonda bp şirkətinin prezidenti Con Braun ilə görüşmüşdür.

Azərbaycan Prezidentini bp şirkətinin binası önündə cənab Con Braun və şirkətin digər əməkdaşları ehtiramla qarşıladılar.

bp şirkətinin prezidenti Con Braun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Prezident İlham Əliyevə bir daha başsağlığı verdi. O dedi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Azərbaycan neftinin Ceyhan terminalına yola salınmasını görmək bu dahi şəxsiyyətin ən böyük arzularından biri idi. Bütün bunlar bu yaxınlarda həyata keçəcək və biz Heydər Əliyevin bu arzusunu yerinə yetirəcəyik.

Şirkətin prezidenti sonra Azərbaycan Prezidentinə ölkəmizdə neft və qaz yataqlarının

işlənilməsi sahəsində gördükləri işlər barədə ətraflı məlumat verdi. Layihələr üzrə işlərin qrafikə uyğun aparılmasını böyük məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev öz növbəsində bildirdi ki, bp şirkəti ilə ölkəmiz arasında sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Azərbaycan Prezidenti ölkəmizdə həyata keçirilən irimiqyaslı neft və qaz layihələrində, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasında, "Şahdəniz" layihəsinin işlənilməsində bp şirkətinin xüsusi fəallıq göstərdiyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının həyata keçirilməsinə verdiyi töhfələrə görə bp şirkətinin rəhbərlərinə təşəkkürünü bildirdi.

LONDONDA "AZƏRBAYCANDA TİCARƏT VƏ SƏRMAYƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR

Dekabrın 14-də Londonda, Avropa Yenidənqurma və İnkişaf Bankının binasında "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransın açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.

Respublikamızın iqtisadi inkişaf naziri Fərhad Əliyev konfransı açaraq, BMT-nin İnkişaf Proqramına, Avropa Yenidənqurma və İnkişaf Bankına və tədbirin digər təşkilatçılarına yaradılmış şəraitə görə minnətdarlığını bildirdi. Nazir Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı, müxtəlif sahələrə qoyulan sərmayələr və ölkəmizdə investisiya imkanları barədə ətraflı məlumat verdi.

AYİB-in prezidenti Jan Lemyer konfransda çıxış edərək bildirdi ki, digər beynəlxalq maliyyə qurumları kimi, Avropa Yenidənqurma və İnkişaf Bankı da Azərbaycanın hökumət strukturları ilə istər neft-qaz sahəsində, istərsə də qeyri-neft sektorunda geniş əməkdaşlıq edir. O, xüsusilə özəl sektorun inkişafı üçün AYİB-in kredit sazişləri imzaladığını və gələcəkdə bu sahənin inkişafının diqqət mərkəzində olacağını vurğuladı. Cənab Jan Lemyer dedi ki, Azərbaycanda yeni infrastrukturun, enerji təchizatının yaxşılaşdırılması, habelə özəl sektorun daha da gücləndirilməsi üçün istər ekspert məsləhətləri verilməsi, texniki yardım göstərilməsi, istərsə də kredit ayrılması vasitəsilə yardımını əsirgəməyəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev konfransda nitq söylədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də gecə Böyük Britaniyaya rəsmi səfərini başa çatdıraraq vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Prezident sarayında Belarus Respublikasının müdafiə naziri Leonid Maltsevi qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etməsindən məmnun qaldığını bildirdi.

Belarusun Baş naziri Sergey Sidorskinin Azərbaycana səfərini xatırladan Prezident İlham Əliyev həmin səfərin Azərbaycan-Belarus iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaratdığını vurğuladı. Dövlətimizin başçısı, ümumiyyətlə, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün yaxşı perspektivlər olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Belarus arasında hərbi sahədə də əməkdaşlıq edildiyini nəzərə çaprdıraraq, cənab Leonid Maltsevin ölkəmizə səfərinin bu sahədə əlaqələrin inkişafına xidmət edəcəyinə əmin olduğunu vurğuladı.

Belarusda Azərbaycan səfirliyinin açılması barədə qərar qəbul edildiyini nəzərə çarpdıran dövlətimizin başçısı Minskdə fəaliyyətə başlayacaq səfirliyimizin ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin inkişafına xidmət göstərəcəyini bildirdi. Prezident İlham Əliyev Belarusda Azərbaycan icmasının Belarus cəmiyyətinə sıx inteqrasiya edildiyini vurğuladı. Dövlətimizin başçısı bütün bunların ölkələrimiz arasında əlaqələrin inkişafına xidmət göstərəcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq Azərbaycanda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. İki ölkənin müdafiə nazirlikləri arasında uğurlu əməkdaşlığın mövcud olduğunu nəzərə çarpdıran nazir Azərbaycan ilə Belarusun iqtisadi və digər sahələrdə əlaqələrinin inkişafı üçün yaxşı imkanlar olduğunu vurğuladı.

Cənab Leonid Maltsev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr gələcəkdə daha da inkişaf etdiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN SƏHİYYƏ NAZİRİ MƏSUD PEZEŞKİANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Prezident sarayında İran İslam Respublikasının səhiyyə naziri Məsud Pezeşkiani qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İranın səhiyyə nazirinin Azərbaycana səfərindən məmnun olduğunu bildirdi, ölkələrimizin müxtəlif sahələr üzrə yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən razı qaldığını vurğulayaraq dedi ki, İran Prezidenti cənab Seyid Məhəmməd Xatəmi bu yaxınlarda Azərbaycanda rəsmi səfərdə olmuşdur, mən də gələn ay İrana səfərə gedəcəyəm. Ölkələrimiz arasında əlaqələr çox yaxşı inkişaf edir, müxtəlif sahələr üzrə, xüsusilə iqtisadi sahədə xeyli sənədlər imzalanıbdır. Biz istəyirik ki, bu əməkdaşlıq bütün sahələrdə güclü olsun.

Azərbaycan və İranın səhiyyə nazirlikləri arasında yaxşı münasibətlər yaranması barədə məlumatı olduğunu nəzərə çatdıran Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, hər iki ölkənin səhiyyə sahəsində qarşılıqlı əlaqələri daha da genişlənəcəkdir.

Səmimi qəbula görə minnətdarlığını bildirən və Bakıya Gəncədən gəldiyini vurğulayan İranın səhiyyə naziri dedi ki, mən dekabrın 15-də Fəxri xiyabana gedərək, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq Zərifə Əliyevanın məzarlarını ziyarət etmişəm. Sizin ananız böyük həkim, böyük insan idi. Onların ruhları şad olsun.

Azərbaycanı Heydər Əliyevsiz təsəvvür etməyin çətin olduğunu vurğulayan qonaq dövlətimizin başçısına xalqımızın ümummilli liderinin vəfatının ildönümü ilə əlaqədar başsağlığı verdi, eyni zamanda Prezident İlham Əliyevin ulu öndərimizin siyasətini müvəffəqiyyətlə davam etdirməsindən məmnun qaldığını bildirdi.

Nazir İran Prezidenti Seyid Məhəmməd Xatəminin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı və dövlətimizin başçısının İrana səfərini səbirsizliklə gözlədiklərini söylədi. O, ölkələrimizin səhiyyə nazirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyini nəzərə çarpdırdı.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Prezident Məhəmməd Xatəmiyə çatdırmağı xahiş etdi, özünün də 1990-cı ildə Naxçıvandan Təbrizə getdiyini xatırlatdı. İndi Təbrizdə Azərbaycan konsulluğunun açıldığını vurğulayan dövlətimizin başçısı bildirdi ki, bu, Heydər Əliyevin çox böyük arzusu idi.

Qonağın "Azərbaycanı Heydər Əliyevsiz təsəvvür etmək çətindir" fikri ilə şərik olduğunu vurğulayan dövlətimizin başçısı dedi ki, Heydər Əliyev Azərbaycana yenidən hakimiyyətə qayıtdığı zaman ölkə dərin böhran keçirirdi, parçalanmaq üzrə idi. Heydər Əliyev son on il ərzində müasir Azərbaycanı yaratdı, ölkəni möhkəmləndirdi. İndi Azərbaycanın bölgədə və dünyada mövqeyi ildən-ilə güclənir. Mən çox şadam ki, Azərbaycan-İran əlaqələri daim inkişaf edir. Bu, Heydər Əliyevin siyasəti idi. Başqa sahələrdə olduğu kimi, ölkələrimizin səhiyyə sahəsində də əlaqələri yaxşı inkişaf edir. Bu isə hər iki ölkənin ümumi maraqlarına uyğundur. Bildiyimə görə, İranda səhiyyə sistemi çox yaxşı inkişaf edib, Azərbaycandan bir çox insanlar müayinə, müalicə üçün, xüsusən ürəkdə cərrahiyyə əməliyyatı aparılması üçün İrana gedirlər. Düzdür, indi Azərbaycanda da ürək cərrahiyyəsi əməliyyatları aparılır, ona görə də bunun üçün İrana gedənlərin sayı xeyli azalıbdır. İranın səhiyyə sahəsində çox böyük nailiyyətləri vardır və orada müalicəyə gedən adamlar qayıtdıqdan sonra çox razılıq edirlər. Azərbaycanda da çox təcrübəli həkimlər, mütəxəssislər vardır. Bu il Azərbaycanın dövlət büdcəsində səhiyyənin inkişafı üçün ayrılan vəsait 40 faiz artırılmışdır.

Dövlətimizin başçısı ölkələrimizin səhiyyə sahəsində əməkdaşlığının daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ VƏ AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Prezident sarayında Vim Van Gelderin rəhbərlik etdiyi Avropa Şurasının yerli və regional hakimiyyətlər konqresinin nümayəndə heyətini və Avropa Şurası Parlament Assambleyası monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qrossu və Andres Herkeli qəbul etmişdir.

Söhbət zamanı dekabrın 17-də Azərbaycanda keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işləri, seçkilərdə müşahidəçilərin fəaliyyəti barədə və digər məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRİ ƏLİ YUNİSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Prezident sarayında İran İslam Respublikasının Təhlükəsizlik naziri Əli Yunisini qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı bu səfərin uğurlu keçəcəyinə əmin olduğunu bildirdi. Ölkələrimiz arasındakı gözəl münasibətlərin daha da inkişaf edəcəyinə inamını ifadə edən Prezident İlham Əliyev dedi ki, biz bu münasibətlərə çox böyük əhəmiyyət veririk.

İran Prezidenti Seyid Məhəmməd Xatəminin Azərbaycana səfərinin uğurla keçdiyini, çoxlu sənədlər imzalandığını nəzərə çarpdıran dövlətimizin başçısı həmin sənədlərdə nəzərdə tutulanların və hazırlanmış layihələrin artıq icra edildiyini vurğuladı.

Gələn ay İran İslam Respublikasına məmnuniyyətlə səfər edəcəyini xatırladan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bütün səviyyələrdə - prezidentlər, nazirlər, ictimai xadimlər arasında olan əlaqələr ölkələrimizin gələcək əməkdaşlığının inkişafına çox güclü təkan verəcəkdir.

Təhlükəsizlik sahəsində də Azərbaycan ilə İran arasında yaxşı münasibətlər, qarşılıqlı anlaşma olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı bunun çox mühüm olduğunu vurğuladı.

Görüşə imkan yaratdığına görə Prezident İlham Əliyevə təşəkkür edən cənab Yunisi dedi ki, mən vaxtilə burada hörmətli, rəhmətlik Prezident Heydər Əliyev ilə görüş keçirmişəm. Bu, mənim yaddaşımda əziz xatirə kimi qalacaqdır və heç vaxt unudulmayacaqdır. Allaha min şükür edirəm ki, Siz onun yolunu müvəffəqiyyətlə davam etdirirsiniz. Sizin tədbirli, uğurlu addımlarınız bizi sevindirir, həm də bütün bölgədə yaxşı gələcəyin qurulmasına zəmin yaradır. Prezident Seyid Məhəmməd Xatəmi Sizə hərarətli, səmimi salamlarını çatdırmağı məndən xahiş etmişdir. O, Sizin səfərinizi səbirsizliklə gözləyir. Ümidvaram ki, cənab Xatəminin Azərbaycana səfəri və Sizin İrana səfəriniz münasibətlərimizin daha da inkişaf etdirilməsinə, bölgədə sülhün və əmin-amanlığın yaranmasına böyük təkan verəcəkdir.

İki ölkənin təhlükəsizlik nazirlikləri arasında yaxşı əlaqələr yaradıldığını nəzərə çarpdıran Əli Yunisi dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bunun qurucusu Sizin atanız, rəhmətlik Heydər Əliyev olubdur. Xoşbəxtlikdən, həmin yolu bu gün Siz davam etdirirsiniz. Ümidvaram ki, hər iki dövlətin təhlükəsizlik nazirlikləri arasında qurulmuş əməkdaşlıq ölkələrimizin təhlükəsizliyinə yaxşı xidmət edəcəkdir. Mən ölkələrimiz arasında iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın əsası kimi qurulmuş təhlükəsizlik sahəsində əməkdaşlığı belə qiymətləndirirəm.

Qonaq daha sonra dedi ki, bir müddət əvvəl Təbrizdə Azərbaycanın baş konsulluğu açılmışdır. Bu, rəhmətlik Heydər Əliyevin arzularından biri idi. Mən istər ali təhlükəsizlik şurasının, istərsə də hökumətin iclasında hökumət üzvlərinə, hörmətli Prezidentə müraciətlə demişəm ki, Heydər Əliyev dövründə də hesab edirdim və indi də bu fikirdə qalıram ki, Azərbaycan ilə münasibətlərin inkişafına daha çox diqqət yetirmək lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB PARLAMENTLƏRARASI ASSAMBLEYA ŞURASININ BAŞ KATİBİ MİXAİL KROTOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Prezident sarayında MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi Mixail Krotovu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycanda yerli özünüidarə orqanlarına seçkilərin ikinci dəfə keçirildiyini bildirdi. Azərbaycanda bu təsisatın formalaşmaqda olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev dedi ki, bələdiyyələr ölkələrin ümumi inkişafı üçün çox əhəmiyyətli bir qurumdur. Əsas məsələ yeni seçiləcək bələdiyyə orqanlarının vətəndaşların qarşılaşdığı sosial-məişət problemlərinin vaxtında aradan qaldırılmasına çalışmasından ibarətdir.

Azərbaycanın regionlarında böyük sosial və iqtisadi inkişaf proqramlarının həyata keçirildiyini nəzərə çarpdıran dövlətimizin başçısı bu sahədə qarşıda böyük planlar durduğunu bildirdi.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun və MDB ölkələri parlament sədrlərinin salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümünün bir neçə gün bundan əvvəl dünyanın müxtəlif yerlərində qeyd edildiyini vurğulayan qonaq bu kədərli günün Sankt-Peterburqda "Tavriya" salonunda MDB Parlamentlərarası Assambleyası tərəfindən də yad olunduğunu söylədi. O, dekabrın 17-də xalqımızın ulu öndəri Heydər Əliyevin məzarı önünə MDB Parlamentlərarası Assambleyasının adından əklil qoyduğunu bildirdi, bu kədərli ildönümü ilə əlaqədar dövlətimizin başçısına bir daha dərin hüznlə başsağlığı verdi.

Xalqımızın ümummilli liderinin MDB Parlamentlərarası Assambleyasına daim xüsusi diqqət yetirdiyini vurğulayan qonaq qurumun fəaliyyəti ilə bağlı Heydər Əliyev tərəfindən çox önəmli tövsiyələr verildiyini xatırlatdı və bunların yerinə yetirilməsi üçün böyük səylər göstərdiklərini bildirdi.

Dekabrın 17-də üç rayonda bir sıra seçki məntəqələrində olduğunu söyləyən MDB PA-nın baş katibi ölkəmizdə bələdiyyə seçkilərinin Azərbaycanın Seçki Məcəlləsinə və beynəlxalq standartlara uyğun təşkil edildiyini nəzərə çarpdırdı. Cənab Mixail Krotov bələdiyyə seçkilərində insanların böyük fəallığının və yüksək seçki mədəniyyətinin şahidi olduğunu söyləyərək dedi ki, mən bir sıra ölkələrin Bakıdakı səfirləri və ATƏT-ın nümayəndələri ilə təmaslarım zamanı öyrəndim ki, onlar da bu fikirdədirlər.

MDB Parlamentlərarası Assambleyasının son iclasının gedişi barədə dövlətimizin başçısına məlumat verən qonaq həmin tədbirdə Azərbaycan nümayəndələrinin çox fəallıqla iştirak etdiklərini vurğuladı. O dedi ki, həmin iclasda MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astana zirvə görüşündə qəbul etdikləri qərarlarla bağlı konkret məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DİNİ İŞLƏR VƏQFİNİN SƏDRİ PROFESSOR ƏLİ BARDAKOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Prezident sarayında Türkiyə Respublikasının Dini İşlər Vəqfinin sədri professor Əli Bardakoğlunu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin son illər çox sürətlə inkişaf etdiyini nəzərə çarpdırdı. Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətlərinin qarşılıqlı dəstəyə əsaslandığını vurğulayan Prezident İlham Əliyev ölkəmiz müstəqillik qazandıqdan sonra Türkiyənin Azərbaycana göstərdiyi köməyi bir daha yüksək qiymətləndirdi.

Hər iki ölkədə sabitliyin, tərəqqinin və iqtisadi inkişafın mövcudluğunu diqqətə çatdıran dövlətimizin başçısı İlham Əliyev Türkiyənin Prezidenti Əhməd Necdət Sezər, Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə şəxsi dostluq münasibətləri olduğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimizin yüksək vəzifəli rəsmi şəxsləri, habelə dövlət, hökumət strukturları arasında da qarşılıqlı surətdə faydalı əlaqələrin daim genişlənməsindən məmnun qaldığını vurğuladı.

Türkiyənin uğurlarının Azərbaycanın uğurları olduğunu qeyd edən dövlətimizin başçısı Türkiyə ilə Avropa Birliyi arasında aparılmış danışıqlarda əldə edilmiş müsbət irəliləyişləri yüksək dəyərləndirdi.

Cənab Əli Bardakoğlunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycanın müxtəlif bölgələri ilə yaxından tanış ola biləcəyinə əmin olduğunu vurğulayan Prezident İlham Əliyev bildirdi ki, səfər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə kömək edəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə görə minnətdarlığını bildirən qonaq Türkiyə dövlətinin, xalqının Azərbaycan Respublikasının Prezidentinə məhəbbətini, ehtiramını və səmimi salamlarını çatdırdı. Azərbaycan Prezidentinin Türkiyə xalqı tərəfindən sevildiyini bir daha vurğulayan cənab Əli Bardakoğlu dövlətimizin başçısı İlham Əliyevə Türkiyədə çox böyük hörmət və ehtiram bəslənildiyini vurğuladı.

Cənab Əli Bardakoğlu dedi ki, bütün Türkiyə xalqı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar çox böyük kədər hissi keçirdi. Böyük dövlət adamı olan Heydər Əliyevin Azərbaycanın inkişafı naminə parlaq yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Türkiyədə böyük məmnunluqla qarşılanır. Bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafından məmnunluqla bəhs edən qonaq onun ölkəsində dünyəvi cəmiyyət çərçivəsində dini dəyərlərin uğurla qorunduğunu söylədi və bunu Atatürk ideyalarının yaşaması kimi dəyərləndirdi.

Cənab Əli Bardakoğlu əmin olduğunu bildirdi ki, onun başçılıq etdiyi nümayəndə heyətinin respublikamıza səfəri qardaş ölkələrimizin əməkdaşlığının daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ NAZİRİ ƏLİ ŞAMXANİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında İran İslam Respublikasının müdafiə naziri Əli Şamxanini qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin son illər daha da genişləndiyini və möhkəmləndiyini qeyd etdi. Prezident İlham Əliyev İranın müxtəlif səviyyəli rəsmi nümayəndə heyətlərinin son zamanlar Azərbaycana bir sıra səfərlərinin ölkələrimizin əlaqələrinin daha da genişlənməsinin yaxşı nümunəsi kimi qiymətləndirdi.

İran İslam Respublikasının Prezidenti cənab Seyid Məhəmməd Xatəminin Azərbaycan Respublikasına rəsmi səfərinin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı həmin səfər zamanı aparılmış səmərəli danışıqlarda əldə olunmuş razılaşmaların, imzalanmış sənədlərin reallaşması üzərində konkret işlər görüldüyünü vurğuladı.

Prezident İlham Əliyev İran İslam Respublikasına qarşıdakı səfərinin də uğurlu keçəcəyinə və bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafının həm ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinə, həm də regionda sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət etdiyini nəzərə çarpdırdı.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, İranın müdafiə nazirinin ölkəmizə səfəri dövlətlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından faydalı olacaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Əli Şamxani Prezident İlham Əliyevi qarşıdan gələn ad günü münasibətilə təbrik etdi. O, İran Prezidenti Seyid Məhəmməd Xatəminin dərin ehtiramını və səmimi salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı. Qonaq Prezident İlham Əliyevin İrana rəsmi səfərinin uğurlu keçəcəyinə əminliyini bildirdi. Ölkələrimiz arasındakı əlaqələrin inkişafından məmnunluğunu vurğulayan nazir dost Azərbaycan Respublikasına səfərinin ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu söylədi. Qonaq Azərbaycan-İran əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə inkişafını yüksək qiymətləndirdi.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da dərin ehtiramını və xoş arzularını İran Prezidenti Seyid Məhəmməd Xatəmiyə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Prezident sarayında İslam İnkişaf Bankının Prezidenti Əhməd Məhəmməd Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı görüşdən məmnunluğunu bil-

dirdi, Azərbaycan ilə İslam İnkişaf Bankı arasında uğurlu əməkdaşlığı yüksək qiymətləndirdi. Prezident İlham Əliyev ölkəmizdə bütün sahələrdə, o cümlədən iqtisadiyyatda böyük uğurlar qazanıldığını, sosial və regional inkişafla bağlı proqramların müvəffəqiyyətlə həyata keçirildiyini bildirərək dedi ki, Azərbaycan rəhbərliyi regionların inkişafına xüsusi diqqət yetirir. Azərbaycanın dünyanın aparıcı maliyyə qurumları ilə uğurlu əməkdaşlıq etdiyini xatırladan dövlətimizin başçısı əmin olduğunu vurğuladı ki, İslam İnkişaf Bankının nümayəndə heyətinin səfəri bu maliyyə qurumu ilə ölkəmizin əlaqələrinin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlığını bildirən cənab Əhməd Məhəmməd Əli dövlətimizin başçısı İlham Əliyevi ad günü münasibətilə təbrik etdi, ona Azərbaycan xalqının firavan gələcəyi naminə fəaliyyətində böyük uğurlar dilədi. O, Bakıya əvvəlki səfərini xatırlayaraq dedi ki, hələ də Azərbaycanın ümummilli lideri Heydər Əliyev ilə görüşündən aldığı təəssüratın təsiri altındadır.

İslam İnkişaf Bankının rəhbəri ölkəmizə indiki səfəri zamanı Azərbaycanda böyük inkişafın şahidi olduğunu bildirdi, sosial-iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurları yüksək qiymətləndirdi. Bu baxımdan makroiqtisadi sahədəki göstəricilərin yüksək səviyyəsini, inflyasiyanın aşağı olmasını, bütün bu nailiyyətlərin əldə edilməsində Prezident İlham Əliyevin böyük xidmətləri olduğunu xüsusi vurğuladı. O, Azərbaycan Prezidentinin sosial-iqtisadi inkişaf sahəsində rəhbərliyini yüksək qiymətləndirdi.

İslam İnkişaf Bankının ölkəmizlə əməkdaşlığının getdikcə genişləndiyini söyləyən qonaq Prezident İlham Əliyevin Azərbaycanda iqtisadi inkişaf sahəsində rəhbərliyini bir daha yüksək dəyərləndirdi. İslam İnkişaf Bankının prezidenti Azərbaycan Prezidentinin xalqımızın firavanlığı, ölkəmizin inkişafı naminə gördüyü işlərdən böyük məmnunluq duyduğunu bildirdi. Cənab Əhməd Məhəmməd Əli rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığında dövlətimizin başçısı İlham Əliyevin tövsiyələrinin böyük əhəmiyyət daşıdığını və bu tövsiyələrin əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Qonaq xatırlatdı ki, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda İslam İnkişaf Bankı ilə əməkdaşlığa başlayan ilk ölkə Azərbaycan olmuşdur və o özü də bu regionun ölkələri arasında ilk dəfə respublikamıza səfər etmişdir.

İslam İnkişaf Bankının rəhbəri ölkəmizlə əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DAİMİ BEYNƏLXALQ KATİBLİYİNİN BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin baş katibi Tedo Caparidzeni qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı yeni məsul vəzifəyə seçilməsi münasibətilə cənab Caparidzeni təbrik etdi və bu işdə ona uğurlar arzuladı.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin daha da genişləndirilməsinə Azərbaycanın böyük əhəmiyyət verdiyini bildirən Prezident İlham Əliyev ölkəmizin bu

təşkilat çərçivəsində həyata keçirilən iqtisadi layihələrin gerçəkləşməsində fəal rol oynadığını vurğuladı. Dövlətimizin başçısı eyni zamanda, bu təşkilatın fəallığının artırılması məqsədi ilə yeni maliyyə mexanizmləri yaradılmasının vacibliyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev dedi ki, belə olan təqdirdə, bu təşkilatın təşəbbüsü ilə irəli sürülən iqtisadi layihələr daha çox reallaşa bilər.

Dövlətimizin başçısı bu təşkilatın strukturunun təkmilləşdirilməsi, maliyyə mexanizminin yeni tələblərə uyğun şəkildə qurulması prosesinə ölkəmizin hər cür kömək göstərəcəyini bildirdi.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq yeni vəzifəyə seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür etdi. Cənab Tedo Caparidze ad günü münasibətilə Prezident İlham Əliyevi səmimi qəlbdən təbrik etdi, Azərbaycanın tərəqqisi, xalqımızın rifahı naminə ali fəaliyyətində ona yeni-yeni uğurlar arzuladı.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin geniş coğrafi məkanı əhatə etdiyini söyləyən qonaq bu ölkələrin böyük iqtisadi potensiala malik olduğunu vurğuladı. O, təşkilatın strukturunun yeni müasir tələblərə uyğun təkmilləşdirilməsinin vacibliyini qeyd etdi. Böyük iqtisadi potensiala malik Azərbaycanın qlobal enerji və nəqliyyat dəhlizlərində mühüm rol oynadığını xatırladan cənab Tedo Caparidze əmin olduğunu bildirdi ki, Azərbaycan bu təşkilatla əməkdaşlığı bundan sonra daha da genişləndirəcəkdir.

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ ÖLKƏMİZİN BEYNƏLXALQ MÖVQELƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ XƏTTİNDƏN İRƏLİ GƏLƏN VƏZİFƏLƏRİN YERİNƏ YETİRİLMƏSİNƏ YÖNƏLDİLMİŞDİR

Başa çatan 2004-cü ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üzrə dövlətin siyasi xəttinin əsasını təşkil edən məqsəd və vəzifələrə nail olmağa yönəldilmiş səylərin ardıcıllığı və gücləndirilməsi əlaməti altında keçmişdir. Ölkə Prezidenti İlham Əliyev iyulun 27-də respublikamızın diplomatik nümayəndəliklərinin rəhbərləri ilə keçirilən görüşdəki çıxışında bu xəttin dəyişməz olduğunu təsdiqləmiş, dövlətin xarici siyasət idarəsinin işini təhlil etmiş və bu işə qiymət vermiş, onun gələcək fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Dövlətin və onun vətəndaşlarının təhlükəsizliyinin diplomatik vasitələrlə təmin edilməsinə kömək göstərilməsi xarici siyasətin ümdə vəzifəsi kimi qalmışdır. Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında aradan qaldırılması öncül məsələdir. Azərbaycan beynəlxalq birliyin köməyi ilə münaqişənin dincliklə həlli imkanlarından maksimum bəhrələnmək niyyətini açıq şəkildə nümayiş etdirmişdir. Bu mövqe 2004-cü il sentyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyasında Prezident İlham Əliyevin çıxışında aydın ifadə olunmuşdur.

2004-cü il Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində görüşlərin fəallaşması ilə əlamətdar olmuşdur. Bu görüşlər danışıqlar prosesi-

nin davam etdirilməsinin və gələn il ərzində ilk irəliləyişlərə nail olmağın mümkünlüyünün əsasını qoymuşdur.

Bununla yanaşı, beynəlxalq humanitar hüququn müvafiq normaları pozularaq, işğal olunmuş ərazilərin məskunlaşdırılması ilə bağlı çox ciddi problem danışıqları çətinləşdirmişdir. Bu problem münaqişənin dincliklə nizama salınmasının əsaslarını sarsıdır. Belə bir şəraitdə, Ermənistan tərəfinin məskunlaşdırma praktikasını həyata keçirdiyinə dair təkzibedilməz sübutlara malik olan Azərbaycan kömək üçün beynəlxalq birliyə müraciət etmişdir. Bunun nəticəsində BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" məsələsini özünün 59-cu sessiyasının gündəliyinə 163-cü bənd kimi daxil etmişdir. Həmin bəndin müzakirəsi çərçivəsində nümayəndə heyətimiz tərəfindən təqdim olunan eyniadlı qətnamənin layihəsi yayılmışdır.

Bu məsələnin müzakirəsinə başlanmasının əsasını qoyan Azərbaycanın xarici işlər nazirinin 2004-cü il noyabrın 23-də BMT Baş Məclisindəki çıxışından və ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın xarici siyasət idarəsinin başçısı ilə Berlin, Sofiya və Brüsseldəki bir sıra görüşlərdən sonra 2005-ci ildə danışıqların Praqa görüşləri əsasında davam etdirilməsi və qanunsuz məskunlaşdırmaya dair faktoloji hesabat hazırlamaq məqsədi ilə faktların müəyyənləşdirilməsi üçün yanvar-fevralda ATƏT-in nümayəndə heyətinin işğal olunmuş ərazilərə göndərilməsi haqqında razılaşma əldə edilmişdir.

Ümumiyyətlə, münaqişə və onun həlli ilə bağlı məsələlər 2004-cü ildə təkcə BMT və ATƏT-in deyil, digər beynəlxalq təşkilatların da diqqət yetirdikləri mövzu olmuşdur. Bu baxımdan həmin məsələlərə Avropa Şurasının Parlament Assambleyasında baxılmasını qeyd etmək lazımdır. Bu çərçivədə AŞPA məruzəçiləri T.Devis və onu bu vəzifədə əvəzləyən D.Atkinson Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair məruzə və təkliflər təqdim etmişlər.

XİN və Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri azərbaycanlı qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətinin yüngülləşdirilməsi istiqamətində müvafiq beynəlxalq formatlar çərçivəsində lazımi səylər göstərilməsini davam etdirmişlər. Bununla əlaqədar BMT-nin qaçqınların işləri üzrə Ali komissarı R.Lübbersin Azərbaycana səfərini qeyd etmək lazımdır. Dövlət başçısının və digər rəsmi şəxslərin onunla görüşləri, məcburi köçkünlərin Bərdə və Biləsuvarda müvəqqəti məskunlaşdıqları yerlərə səfəri Azərbaycanda humanitar problemin həllinə kömək üçün Ali Komissarlıq tərəfindən müvafiq tədbirlər görülməsinə yönəldilmişdir.

2004-cü ildə Azərbaycan BMT-nin müxtəlif orqanlarında öz aktiv fəaliyyətini davam etdirərək, diqqəti beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması ilə bağlı kəskin problemlər üzərində cəmləşdirmişdir. Məsələn, Azərbaycan nümayəndə heyətinin səyləri sayəsində həmin orqanlarda münaqişələrin gedişində girov götürülmüş qadın və uşaqların, itkin düşmüş şəxslərin vəziyyəti ilə bağlı məsələlər haqqında qətnamələr qəbul edilmişdir.

BMT-nin seçkili strukturlarında Azərbaycanın daha yaxşı təmsil olunmasını təmin etmək üçün uğurlu iş aparılmışdır. Məsələn, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi onun iki əsas orqanının - Baş Məclisin, İqtisadi və Sosial Şuranın vitse-prezidenti seçilmişdir.

Azərbaycan Avropa və Avratlantik inteqrasiyası istiqamətində irəliləyərək, NATO və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmişdir. Prezident İlham Əliyev Bratislavada, Strasburq və Brüsseldəki proqram çıxışlarında Azərbaycanın Avropa dəyərlərinə sadiqliyini və Avropada təhlükəsizliyin, azad bazar və demokratiyanın vahid məkanına daxil olmağa yönəldilmiş siyasi xəttin dəyişməzliyini təsdiq etmişdir.

2004-cü ilin mayında NATO qərargahında Azərbaycan Prezidenti NATO-nun təcrübəsindən və Alyansla inteqrasiya səviyyəsində qarşılıqlı fəaliyyət imkanlarından istifadə etməklə, təhlükəsizlik strukturunun inkişafına yönəldilmiş Fərdi tərəfdaşlıq planını təqdim etmişdir. Azərbaycan dövləti başçısının 2004-cü ilin iyununda NATO-nun İstanbul zirvə toplantısında iştirakını və çıxışını, habelə NATO-nun baş katibi Yaap de Hoop Sxefferin noyabrda Azərbaycana səfəri zamanı əməkdaşlığın bir sıra mühüm məsələlərinin onunla müzakirəsini də qeyd etmək lazımdır. NATO ilə əməkdaşlığın inkişaf etdirilməsi və tərəfdaşlıq planının həyata keçirilməsi məsələləri NATO ilə əməkdaşlıq üzrə Azərbaycanın hökumət komissiyası çərçivəsində və milli təhlükəsizlik konsepsiyasının və digər doktrinal sənədlərin işlənib hazırlanması üçün Prezidentin sərəncamı ilə 2004-cü ildə yaradılan idarələrarası işçi qrupu çərçivəsində ən fəal surətdə nəzərdən keçirilir və təkmilləşdirilir.

Avropa Birliyi ilə tərəfdaşlığı inkişaf etdirmək və ona daha da yaxınlaşmaq kontekstində, Azərbaycanın AB-nin "Yeni qonşuluq" proqramına daxil olunmasının böyük əhəmiyyəti var. Belə ki, bu proqramda AB-nin üzvləri ilə daha sıx və dərin münasibətlər qurulması, iqtisadiyyat, ticarət, energetika və nəqliyyat sahəsində ümumi məkanlar yaradılması nəzərdə tutulur.

Azərbaycan Avropa Şurasına qoşularkən öz üzərinə götürdüyü öhdəlikləri bu il yerinə yetirərək, bu təşkilatda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmiş və onun strukturlarında, o cümlədən Nazirlər Komitəsində, Parlament Assambleyasında, Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresində, digər qurumlarda fəaliyyətin keyfiyyətcə yeni səviyyəsinə keçmişdir.

İslam dünyasının bir hissəsi olan Azərbaycan Avropa istiqaməti ilə yanaşı, İslam Konfransı Təşkilatı (İKT) ilə də sıx əməkdaşlığı genişləndirir, onun fəaliyyətində yaxından iştirak edir. İKT ölkələri xarici işlər nazirlərinin iyunda keçirilən 31-ci konfransında təşkilat erməni təcavüzünü yenə də pisləmiş, öz prinsipial mövqeyini və Azərbaycanla həmrəyliyini bir daha təsdiqləmişdir. Azərbaycan İKT ölkələrinin vətəndaş cəmiyyətləri arasında dialoqun inkişafına töhfə verərək, İslam dövlətlərinin gənclər forumunu yaratmaq təşəbbüsünü irəli sürmüş, dekabrda Bakıda onun təsis yığıncağı keçirilmişdir.

Azərbaycan qloballaşma şəraitində beynəlxalq ticarət-iqtisadi və kommunikasiya əlaqələri sistemində öz layiqli yerini tutmağa və möhkəmləndirməyə çalışaraq, Dünya Ticarət Təşkilatına daxil olmaq məsələsinə dair danışıqlar prosesini il ərzində davam etdirmiş, Dünya Poçt İttifaqının sentyabrda Buxarestdə keçirilən 23-cü konqresində prinsipial qərarlar çıxarılmasına nail olmuş, habelə noyabrda Bakıda Kommunikasiya texnologiyalarına dair ümumdünya konfransı keçirmişdir.

Azərbaycan regional təşkilatlar çərçivəsində aktiv fəaliyyət göstərmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin sədrliyi dövründə Azərbaycan QİƏT ölkə-

ləri arasında əməkdaşlığın daha da genişlənməsinə yönəldilmiş bir sıra təşəbbüslər irəli sürmüş, habelə nazirlərin dörd görüşünə ev sahibliyi etmişdir. Azərbaycan nümayəndəsi bu beynəlxalq təşkilatın Baş katibinin müavini seçilmişdir. GUÖAM dövlətləri arasında əməkdaşlığın, o cümlədən ticarət və nəqliyyat, hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti, GUÖAM ölkələrinin ərazilərindən və ümumən, Avratlantik regionundan keçən nəqliyyat dəhlizlərinin səmərəli və təhlükəsiz işləməsinə kömək göstərilməsinə yönəldilmiş müştərək analitik informasiya infrastrukturu yaradılması sahəsində layihələrin həyata keçirilməsində əməkdaşlığın daha da genişlənməsini qeyd etmək lazımdır.

2004-cü ildə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi cəhətdən dövlət və hökumət başçıları, parlament rəhbərləri və xarici işlər nazirləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər olmuş, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları keçirilmiş, bunların gedişində qarşılıqlı maraq doğuran genişəhatəli məsələlər barədə fikir mübadiləsi aparılmış və əməkdaşlığın müqavilə-hüquqi bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. İl ərzində Azərbaycan Macarıstan, Yunanıstan, Hindistan, Kanada, Küveyt, Polşa və İsveçrədə səfirliklərini, habelə İranda (Təbriz), Rusiyada (Sankt-Peterburq) və Türkiyədə (Qars) baş konsulluqlarını açmışdır.

Yola saldığımız ildə ölkənin xarici siyasət idarəsinin rəhbər heyəti dəyişdirilmiş və möhkəmləndirilmişdir. XİN kadr idarəçiliyi sistemini inkişaf etdirmək və diplomatların peşəkarlıq səviyyəsini yüksəltmək, diplomatik nümayəndəliklərin rəhbərləri və əməkdaşlarının rotasiyası praktikasının səmərəli tətbiqi, Nazirliyin infrastrukturunun təkmilləşdirilməsinə dair BMT-nin İnkişaf Proqramı ilə müştərək layihələri həyata keçirmək, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun inkişafı baxımından normativ-hüquqi bazanın işlənib hazırlanması xətti götürmüşdür.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi dövlətimizin beynəlxalq nüfuzunun möhkəmlənməsinə, onun təhlükəsizliyinin, sabit inkişafının təmin olunmasına və ölkə vətəndaşlarının mənafelərinin qorunmasına yönəldilmiş fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

30 dekabr 2004-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI

22.01.2004. Fransaya rəsmi səfər

05.02.2004. Rusiya Federasiyasına rəsmi səfər

01-02.03.2004. Qazaxıstana dövlət səfəri

18.03.2004. Slovakiyaya işgüzar səfər
"Daha Geniş Avropa Doğru: Teni Gündəlik" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün

23-24.03.2004. Özbəkistana dövlət səfəri

13.04.2004. Türkiyəyə rəsmi səfər

27.04.2004. Varşavaya işgüzar səfər

28.04.2004. Strasburqa işgüzar səfər
Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün

17.05.2004. Belçika Krallığına işgüzar səfər

03.06.2004. Ukraynaya rəsmi səfər

14.06.2004. Gürcüstana dövlət səfəri

26.06.2004. İstanbula işgüzar səfər
NATO-nun zirvə görüşündə iştirak etmək üçün

24.08.2004. Almaniyaya rəsmi səfər

07.09.2004. Fransaya işgüzar səfər

15.09.2004. Astanaya işgüzar səfər
MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün

23.09.2004. Nyu-Yorka işgüzar səfər
BMT Baş Assambleyasının 59-cu sessiyasının ümumi müzakirələrində iştirak etmək üçün

11-12.10.2004. Rumıniyaya dövlət səfəri

18.10.2004. Rusiya Federasiyasına işgüzar səfər

27.10.2004. Ukraynaya işgüzar səfər
Ukraynanın faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə Kiyevdə keçiriləcək tədbirlərdə iştirak etmək üçün

30.11.2004. Qətər dövlətinə rəsmi səfər

12.12.2004. Böyük Britaniyaya işgüzar səfər

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

Yanvar

23 yanvar

Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşü

23 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Fransanın Beynəlxalq Əlaqələr İnstitutunda görüşü

Fevral

06 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya müdafiə naziri Sergey İvanov ilə görüşü

06 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlov ilə görüşü

07 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü

07 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya xarici işlər naziri İqor İvanov ilə görüşü

07 fevral 2004

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) müəllim və professor heyəti ilə görüşü

07 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Moskva Vilayətinin Qubernatoru Boris Qromov ilə görüşü

Mart

01 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan parlamenti Senatının sədri Oralbay Abdikarimov ilə görüşü

01 mart 2004

Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetində görüş

02 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstanın baş naziri Danial Əhmədov ilə görüşü

02 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşü

05 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşü

23 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti İslam Kərimov ilə görüşü

27 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın dövlət katibinin birinci müavini Riçard Armitac ilə görüşü

Aprel

13 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşü

27 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Prezidenti Aleksandr Kvasnevski ilə görüşü

29 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurasının baş katibi Valter Şvimmer ilə görüşü

29 aprel 2004

Azərbaycan Prezident İlham Əliyevin AŞPA-nın sədri Piter Şider ilə görüşü

May

18 may 2004

Azərbaycan Prezident İlham Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü

18 may 2004

Azərbaycan Prezident İlham Əliyevin Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşü

18 may 2004

Azərbaycan Prezident İlham Əliyevin Avropa Birliyi şurasının baş katibi Xavyer Solana ilə görüşü

18 may 2004

Azərbaycan Prezident İlham Əliyevin Belçikanın baş naziri Gi Verhofstadt ilə görüşü

18 may 2004

Azərbaycan Prezident İlham Əliyevin Avropa Komissiyası sədrinin müavini Loyola De Palasio ilə görüşü

19 may 2004

Azərbaycan Prezident İlham Əliyevin NATO-nun baş katibi Yaap De Hoop Sxeffer ilə görüşü

İyun

03 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşü

03 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna baş naziri Viktor Yanukoviç ilə görüşü

04 iyun 2004

Prezident İlham Əliyevin Ukrayna ali radasının sədri Vladimir Litvin ilə görüşü

14 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşü

22 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstan Prezidenti Konstantinos Stefanopulos ilə görüşü

28 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşü

29 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Corc Buş ilə görüşü

İyul

08 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan Prezidenti Pərviz Müşərrəf ilə görüşü

Avgust

16 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstan Baş naziri Konstantinos Karamanlis ilə görüşü

18 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstan turizm naziri ilə görüşü

25 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya federal kansleri Gerhard Şröder ilə görüşü

25 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Prezidenti Horst Kölerin ilə görüşü

Sentyabr

07 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşü

15 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan və Rusiya Prezidenti Vladimir Putin ilə üçtərəfli görüşü

16 sentyabr 2004

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının 38-ci zirvə görüşü

24 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin baş katibi Kofi Annan ilə görüşü

Oktyabr

08 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Georgi Pirvanov ilə görüşü

12 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniya Senatın sədri Nikolae Vekeroyu və parlamentin Deputatlar palatasının sədri Valeri Domyanu ilə görüşü

19 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü

26 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Moldova Prezidenti Vladimir Voronin ilə görüşü

27 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna baş naziri Viktor Yanukoviç ilə görüşü

Noyabr

30 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Qətər Əmiri Həməd Bin Xəlifə Al Tanin ilə görüşü

Dekabr

13 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın müdafiə naziri ilə görüşü

14 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin BP şirkətinin prezidenti ilə görüşü

14 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının Prezidenti ilə görüşü

14 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın Baş naziri Toni Bleyer ilə görüşü

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

Yanvar

02 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Rino Harnişi qəbul etmişdir

10 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul etmişdir

13 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Klaus Qrevlixi qəbul etmişdir

14 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın ölkəmizdəki müvəqqəti işlər vəkilini qəbul etmişdir

16 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın xarici işlər nazirinin birinci müavinini qəbul etmişdir

21 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

21 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədrini qəbul etmişdir

26 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Baş nazirinin müavinini qəbul etmişdir

27 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın Sərhəd Qoşunlarının komandanını qəbul etmişdir

27 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev görkəmli musiqiçi Mstislav Rostropoviçi qəbul etmişdi

29 yanvar 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya nümayəndələrini qəbul etmişdir

Fevral

02 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin energetika və təbii ehtiyatlar nazirini qəbul etmişdir

03 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurasının Nazirlər Komitəsinin nümayəndə heyətini qəbul etmişdir

03 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Beynəlxalq Neft Korporasiyasının Prezidentini qəbul etmişdir

03 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Xəzər hövzəsinin enerji diplomatiyası üzrə səfirini qəbul etmişdir

03 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti xanım Norin Doylun başçılığı ilə beynəlxalq maliyyə qurumlarının nümayəndə heyətini qəbul etmişdir

04 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir

10 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev İran səfirini qəbul etmişdir

18 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Britaniya Kral ailəsinin üzvü, Kent Şahzadəsi Mayklı qəbul etmişdir

19 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın "Genezis Inişieytiv" təşkilatının nümayəndə heyətini qəbul etmişdir

24 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Qırmızı Xaç Komitəsinin Avropa və Amerika üzrə baş nümayəndəsini qəbul etmişdir

26 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATŞPA-nın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisini qəbul etmişdir

27 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Ali Radasının sədrini qəbul etmişdir

28 fevral 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın "Milli Təhlükəsizlik üzrə Biznes İcraçıları" təşkilatının prezidenti və baş icraçı əməkdaşı, ehtiyatda olan general Çarlz Boydun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Mart

04 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev İspaniya Xarici İşlər Nazirliyinin Avropa İşləri üzrə dövlət katibini qəbul etmişdir

09 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibi müavininin Avropa və Avrasiya məsələləri üzrə köməkçisini qəbul etmişdir

13 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Avropa Komandanlığının qərargah rəisinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev Vatikan dövlətinin ölkəmizdəki apostol nunsisini qəbul etmişdir

16 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in hazırkı sədrini qəbul etmişdir

17 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin nümayəndə heyətini qəbul etmişdir

22 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanin "İnpex" şirkətinin nümayəndə heyətini qəbul etmişdir

22 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

27 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin birinci müavini Riçard Armitacı qəbul etmişdir

29 mart 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın parlament nümayəndə heyətini qəbul etmişdir

Aprel

01 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan DİN-in nümayəndə heyətini qəbul etmişdir

05 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Çinin ölkəmizdəki səfirini qəbul etmişdir

06 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Sverdlovsk vilayətinin qubernatorunu qəbul etmişdir

07 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın energetika və sənaye naziri, Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın həmsədrini qəbul etmişdir

08 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurasının baş katibi Valter Şvimmeri qəbul etmişdir

09 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdəki səfirini qəbul etmişdir

09 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniya səfirinin etimadnaməsini qəbul etmişdir

10 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin dövlət nazirini qəbul etmişdir

16 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin təhsil nazirlərini qəbul etmişdir

19 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidentini qəbul etmişdir

21 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul etmişdir

22 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədrini qəbul etmişdir

26 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

30 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 10-cu iclasının iştirakçılarını qəbul etmişdir

30 aprel 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Sülh Korpusunun nümayəndə heyətini qəbul etmişdir

May

01 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan xarici işlər nazirini qəbul etmişdir

05 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Sloveniyanın ölkəmizdəki səfirini qəbul etmişdir

06 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul etmişdir

06 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin əmək və sosial təminat nazirini qəbul etmişdir

11 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev AŞPA-nın məruzəçisini qəbul etmişdir

11 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Iran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

20 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçisini qəbul etmişdir

20 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət departamentinin Avropa və Avrasiya ölkələrinə yardım üzrə əlaqələndiricisini qəbul etmişdir

20 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın "Itoçu" şirkətinin nümayəndə heyətini qəbul etmişdir

20 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Fransanın "Castel" şirkətlər qrupunun nümayəndə heyətini qəbul etmişdir

21 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Böhranlar Qrupunun nümayəndə heyətini qəbul etmişdir

21 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın "Amerada Hess" şirkətinin nümayəndə heyətini qəbul etmişdir

21 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentini qəbul etmişdir

24 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev "Rusiya Vahid Enerji Sistemi" Səhmdar Cəmiyyətinin sədrini qəbul etmişdir

25 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Litva xarici işlər nazirliyinin nümayəndə heyətini qəbul etmişdir

26 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Konqresinin Silahlı Qüvvələr Komitəsinin sədri Kurt Ueldonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

26 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətini qəbul etmişdir

31 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Bakı ofisinin rəhbərini qəbul etmişdir

31 may 2004

Azərbaycan Prezidenti İlham Əliyev Fransanın ölkəmizdəki səfirini qəbul etmişdir

İyun

01 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya Baş nazirinin biznes imkanlarının inkişafı üzrə xüsusi təmsilçisini qəbul etmişdir

01 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji ehtiyatları üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

01 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan nümayəndə heyətini qəbul etmişdir

01 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Norveçin neft və energetika üzrə dövlət katibini qəbul etmişdir

01 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin enerji və təbii ehtiyatlar nazirini qəbul etmişdir

02 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstanın müdafiə nazirini qəbul etmişdir

09 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Türk Assosiasiyaları Assambleyasının prezidentini qəbul etmişdir

10 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Avropa Komandanlığının qərargah rəisinin müavinini qəbul etmişdir

12 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın mədəniyyət və kütləvi kommunikasiyalar nazirini qəbul etmişdir

17 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev BP şirkətinin nümayəndəsini qəbul etmişdir

17 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Estoniya nümayəndə heyətini qəbul etmişdir

17 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranin ədliyyə nazirini qəbul etmişdir

18 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya nümayəndə heyətini qəbul etmişdir

22 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya nümayəndə heyətini qəbul etmişdir

23 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Kalmıkiya Prezidentini qəbul etmişdir

23 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya nümayəndə heyətini qəbul etmişdir

24 iyun 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna nümayəndə heyətini qəbul etmişdir

İyul

01 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının baş katibini qəbul etmişdir

01 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Bakıdakı səfiri Klaus Qrevlixi və bu ölkənin hərbi və təhlükəsizlik məsələləri üzrə eksperti Vilhelm Germani qəbul etmişdir

05 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın nümayəndə heyətini qəbul etmişdir

07 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Birliyinin nümayəndə heyətini qəbul etmişdir

07 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın yanacaq və təbii sərvətlər naziri Nauriz Şakur Xanı qəbul etmişdir

08 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə nazirini qəbul etmişdir

10 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Hesablama Palatasının sədrini qəbul etmişdir

12 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev bir sıra xarici ölkələrin Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul etmişdir

12 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukraynanın səfirini qəbul etmişdir

12 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Fransa səfirinin etimadnaməsini qəbul etmişdi

12 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB-nin icraçı katibini qəbul etmişdir

14 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun nümayəndə heyətini qəbul etmişdir

16 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası hökumətinin keçmiş sədrini qəbul etmişdir

16 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev İTAR-TASS agentliyinin baş direktorunu qəbul etmişdir

16 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

19 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın nümayəndə heyətini qəbul etmişdir

19 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Parlamentinin qadın deputatlarından ibarət nümayəndə heyətini qəbul etmişdir

22 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini qəbul etmişdir

23 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının nümayəndə heyətini qəbul etmişdir

23 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Bakı ofisinin rəhbərini qəbul etmişdir

26 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Dünya Taekvondo Federasiyasının Prezidentini qəbul etmişdir

27 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Sərhəd Mühafizə Xidmətinin rəisini qəbul etmişdir

28 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Dəmir Yolu İnkişaf Korporasiyası beynəlxalq təşkilatının sədrini qəbul etmişdir

28 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Ali Radasının insan hüquqları üzrə müvəkkilini qəbul etmişdir

29 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul etmişdir

31 iyul 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya nümayəndə heyətini qəbul etmişdir

Avqust

06 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev AŞPA monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçilərini qəbul etmişdir

06 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Küveyt nümayəndə heyətini qəbul etmişdir

07 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasında "Rodina" fraksiyasının nümayəndə heyətini qəbul etmişdir

09 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Senatının nümayəndə heyətini qəbul etmişdir

10 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul etmişdir

12 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının müdafiə naziri Donald Ramsfeldi qəbul etmişdir

23 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Danimarkanın xarici işlər nazirini qəbul etmişdir

25 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Bundestaqın Almaniya-Qafqaz qrupunun rəhbərini qəbul etmişdir

25 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Bundestaqın xarici əlaqələr komitəsinin sədrini qəbul etmişdir

26 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul etmişdir

31 avqust 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının nümayəndə heyətini qəbul etmişdir

Sentyabr

03 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Azərbaycandakı səfirini qəbul etmişdir

03 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Venesiya Komissiyasının katibini qəbul etmişdir

03 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Konstitusiya Məhkəməsinin sədrini qəbul etmişdir

06 sentyabr 2004

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın ölkəmizdəki səfirini qəbul etmişdir

17 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın ölkəmizdəki səfirini qəbul etmişdir

17 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Romano Prodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçi qəbul etmişdir

20 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının beynəlxalq əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir İqor Yusufovu qəbul etmişdir

20 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri Zurab Jvaniyanı qəbul etmişdir

20 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Norveçin dövlət katibi, energetika nazirinin müavini Oluf Ulsethin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

21 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in hazırkı sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi elçisi Filipp Dimitrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

21 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın baş prokurorunu qəbul etmişdir

29 sentyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın keçmiş energetika naziri, İngiltərə-Azərbaycan cəmiyyətinin sədri Tim Eqqari qəbul etmişdir

Oktyabr

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin müavini Linkoln Blumfildin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiyanın xarici işlər naziri Erkki Tuomioyyanı qəbul etmişdir

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Misir səfirinin etimadnaməsini qəbul etmişdir

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İran səfirinin etimadnaməsini qəbul etmişdir

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstan səfirinin etimadnaməsini qəbul etmişdir

04 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya və Çexiya Respublikaları səfirlərinin etimadnamələrini qəbul etmişdir

05 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın ölkəmizdəki səfirini qəbul etmişdir

06 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Afinada keçirilmiş XII Yay Paralimpiya Oyunlarının iştirakçılarını və onların məşqçilərini qəbul etmişdir

08 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, MK Katibliyinin katibi Lyu Yunşanin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev FIFA-nın Prezidenti Yozef Blatterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Nazirlər Komitəsinin sədri, Norveçin xarici işlər naziri Yan Petersenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev rus icmasının nümayəndələrini qəbul etmişdir

15 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın nəqliyyat nazirini qəbul etmişdir

15 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev mərkəzi qərargahı Vaşinqtonda yerləşən Avrasiya Fondunun nümayəndə heyətini qəbul etmişdir

16 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə müşaviri, səfir Stiven Mənni qəbul etmişdir

20 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB icraiyyə komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir

20 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB elektroenergetika şurasının prezidenti, "Rusiyanın Vahid Energetika Sistemi" Səhmdar Cəmiyyəti İdarə heyətinin sədri Anatoli Çubaysi qəbul etmişdir

21 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiya Şurasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Markelovu qəbul etmişdir

21 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin müavini, səfir xanım Lora Kennedini qəbul etmişdir

22 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Sverdlovsk vilayətinin qubernatoru Eduard Rosseli qəbul etmişdir

23 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ÇXR-in xarici işlər naziri Li Çjaosini qəbul etmişdir

25 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev "Keçid Demokratiyaları Layihələri" fondunun təsisçisi və prezidenti Bryus Cəksonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

26 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB-nin Aqrar-Sənaye Məsələləri üzrə Hökumətlərarası Şurasının üzvlərini qəbul etmişdir

28 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

28 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdəki səfirini qəbul etmişdir

29 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Təhlükəsizlik Şurasının katibi Gela Bejuaşvilini qəbul etmişdir

29 oktyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev BP şirkətinin Xəzərin işlənməsi üzrə Məsləhət Şurasinin üzvü Yan Leşlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Noyabr

02 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Nijni Novqorod vilayətinin qubernatoru Gennadi Xodırevı qəbul etmişdir

04 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev dünya şöhrətli müğənni Monserrat Kabalyeni qəbul etmişdir

05 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir

05 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədri səfir Stiven

Mənni qəbul etmişdir

08 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Asiya İnkişaf Bankının Prezidenti Tadao Çinonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

08 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin "Ümumdünya Ərzaq Proqramı"nın Azərbaycandakı sabiq nümayəndəsi Şərif Amin Zahiri qəbul etmişdir

10 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonu qəbul etmişdir

10 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev müsəlman ölkələrinin Bakıdakı səfirlərini qəbul etmişdir

13 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının nəqliyyat və energetika üzrə baş direktoru Fransua Lamurunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Şigeo Katsunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin iqtisadiyyat üzrə dövlət naziri Gürşad Tüzmənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Nazirlər Komitəsinin AQO Monitorinq qrupunun nümayəndə heyətini qəbul etmişdir

19 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə səfirinin etimadnaməsini qəbul etmişdir

23 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığı Silahlı Qüvvələrinin komandanı general Ogüst Vandeli qəbul etmişdir

24 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Jandarm Qüvvələrinin Baş komandanı ordu generalı Fevzi Türkerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın informasiya texnologiyaları və telekommunikasiya naziri Əvcys Əhməd Xan Leqarini qəbul etmişdir

25 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Banqladeş Xalq Respublikasının elm, informasiya və rabitə texnologiyaları naziri Əbdül Moyin Xani qəbul etmişdir

25 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın xarici işlər nazirinin müavini Marqarita Boniveri qəbul etmişdir

25 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Yoşio Utsumini qəbul etmişdir

25 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin TRT televiziyasının sədri Şenol Dəmirözü qəbul etmişdir

26 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir

26 noyabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Qaçqınlar üzrə Ali komissarı Ruud Lubbersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Dekabr

01 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Mixail Margelovu qəbul etmişdir

02 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiya səfirinin etimadnaməsini qəbul etmişdir

02 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İraq səfirinin etimadnaməsini qəbul etmişdir

02 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna səfirinin etimadnaməsini qəbul etmişdir

03 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın Ali Müdafiə Elmləri Mərkəzinin direktoru Pietro Erkole Aqonu qəbul etmişdir

03 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev "BP-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir

08 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

09 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB Yəhudi Cəmiyyətləri Federasiyasının başçısını qəbul etmişdir

10 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Dövlət Sərhədini Mühafizə Departamentinin sədrini qəbul etmişdir

11 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın "LUKoyl" şirkətinin prezidentini qəbul etmişdir

12 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin dövlət naziri Güldal Akşiti qəbul etmişdir

12 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidentinin köməkçisi Cahan Polliyevanı qəbul etmişdir

12 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB-nin icraiyyə komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir

12 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan parlamentinin xarici əlaqələr komitəsinin sədri Konstantin Qabaşvilini qəbul etmişdir

12 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Dağıstan Dövlət Şurası sədrinin müşaviri Səid Qurbanovu qəbul etmişdir

15 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Belarusun müdafiə naziri Leonid Maltsevi qəbul etmişdir

15 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın ölkəmizdəki səfirini qəbul etmişdir

16 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın səhiyyə naziri Məsud Pezeşkianı qəbul etmişdir

16 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurasının yerli və regional hakimiyyətlər konqresinin nümayəndə heyətini və AŞPA-nın monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçilərini qəbul etmişdir

16 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Təhlükəsizlik naziri Əli Yunisini qəbul etmişdir

17 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi Mixail Krotovu qəbul etmişdir

20 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının səfiri Əli Həsən Əhməd Cəfəri qəbul etmişdir

20 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın səfiri Əfşar Süleymanini qəbul etmişdir

21 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Dini İşlər Vəqfinin sədri professor Əli Bardakoğlunu qəbul etmişdir

22 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İranın müdafiə naziri Əli Şamxanini qəbul etmişdir

24 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev İslam İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir

27 dekabr 2004

Azərbaycan Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin baş katibini qəbul etmişdir

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ 5

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 7

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİNİ QƏBUL ETMİŞDİR 9

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 11

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ 12

FRANSA SENATINDA GÖRÜŞ 12

FRANSA SENATINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT 13

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA SAHİBKARLAR TƏŞKİLATININ ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ 13

FRANSA SAHİBKARLAR TƏŞKİLATININ PREZİDENTİ FRANSUA PERİQONUN ÇIXIŞI 14

FRANSA XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ FRANSUA LOOSUN ÇIXIŞI 15

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 17

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "TOTAL" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ 26

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "CASTEL" QRUPUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ 26

FRANSANIN MÜDAFİƏ NAZİRİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 26

FRANSANIN MÜDAFİƏ NAZİRİ XANIM MİŞEL ALYO-MARİNİN NİTQİ 27

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 27

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA GÖRÜŞÜ 28

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 29

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏFRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ 39

"FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ 40

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 41
TULUZA ŞƏHƏRİNDƏKİ "AIRBUS" TƏYYARƏ ZAVODU İLƏ TANIŞLIQ 42
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR 42
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR 44
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN SƏRHƏD QOŞUNLARININ KOMANDANINI QƏBUL ETMİŞDİR 45
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 47
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİNİ QƏBUL ETMİŞDİR 47
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 49
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ BİRİNCİ VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 50
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 51
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN BEYNƏLXALQ NEFT KORPORASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 52
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ NAZİRLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 54
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 55
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA RƏSMİ SƏFƏRİ 56
RUSİYA PREZİDENTİNİN İQAMƏTGAHINDA QEYRİ-RƏSMİ GÖRÜŞ 56
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 56
GENİŞ HEYƏTDƏ RUSİYA-AZƏRBAYCAN DANIŞIQLARI 57
"MÜQƏDDƏS APOSTOL ANDREY PERVOZVANNI" ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ 59
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 60
RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI 60
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 62
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVLA GÖRÜŞÜ 65

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞÜ 66
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL KASYANOV İLƏ GÖRÜŞÜ 66
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞÜ 67
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR İVANOV İLƏ GÖRÜŞÜ 68
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVA VİLAYƏTİNİN QUBERNATORU BORİS QROMOV İLƏ GÖRÜŞÜ 68
MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ 68
MDBMİ (U)-NUN REKTORU ANATOLİ TORKUNOVUN ÇIXIŞI 69
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 71
RUSİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 76
İTAR-TASS AGENTLİYİNDƏ MƏTBUAT KONFRANSI 77
SƏFƏR BAŞA ÇATDI 83
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, KENT ŞAHZADƏSİ MAYKLI QƏBUL ETMİŞDİR 85
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN "GENEZİS İNİŞİEYTİV" TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 86
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 87
AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA SƏFƏRİ 88
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN AVROPA VƏ AMERİKA ÜZRƏ BAŞ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 88
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ MƏRUZƏÇİSİNİ QƏBUL ETMİŞDİR 89
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA ALİ RADASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 91
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ BİZNES İCRAÇILARI" TƏŞKİLATININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 92
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ 93
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 93

AZƏRBAYCAN VƏ QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 94
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 95
AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 96
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 97
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 100
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ 100
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 101
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ ORALBAY ABDIKARİMOV İLƏ GÖRÜŞÜ 102
BAŞ NAZİRLƏ GÖRÜŞ 102
LEV QUMİLYOV ADINA QAZAXISTAN DÖVLƏT AVRASİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 104
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN "XƏBƏR" İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR 107
SƏFƏR BAŞA ÇATDI 109
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYA XARİCİ İŞLƏR NAZİRLİYİNİN AVROPA İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR 109
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 110
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 110
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GENİŞ HEYƏTDƏ GÖRÜŞÜ 111
AZƏRBAYCAN-GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 114
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI 115
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 122
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 123
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİ QƏBUL ETMİŞDİR 124
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 126
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 126
KANADA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR 127
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN HAZIRKI SƏDRİ SOLOMON PASSİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ 128
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİ QƏBUL ETMİŞDİR 129
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ SƏRHƏD XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 130
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYAYA SƏFƏRİ 131
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN YƏHUDİ KOMİTƏSİNİN VƏ BEYNƏLXALQ BENAYİT BRİTH TƏŞKİLATININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜ 131
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ 132
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR 133
DÖVLƏTİMİZİN BAŞÇISI "DAHA GENİŞ AVROPAYA DOĞRU: YENİ GÜNDƏLİK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 133
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 137
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR 137
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 138
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "BLOOMBERG" TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏSİ 138
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "İNPEX" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 144
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 145

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA DÖVLƏT SƏFƏRİ 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 147
AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 148
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 154
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BİRGƏ MƏTBUAT KONFRANSI 155
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BƏYANATI 155
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 156
AZƏRBAYCAN PREZİDENTİ ÇKALOV ADINA TƏYYARƏQAYIRMA İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞ OLMUŞDUR 161
DAŞKƏNDDƏ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ 162
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN ÇIXIŞI 162
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 163
AZƏRBAYCANIN ÖZBƏKİSTANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 165
ÖZBƏKİSTANIN BAŞ NAZİRİ ŞAVKAT MİRZİYAYEVİN ÇIXIŞI 166
DAŞKƏNDDƏ HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ 167
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 168
ÖZBƏKİSTANIN BAŞ NAZİRİ ŞAVKAT MİRZİYAYEVİN ÇIXIŞI 169
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 171
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN NİTQİ 171
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 173
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏMƏRQƏNDƏ GƏLMİŞDİR 176
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTACI QƏBUL ETMİŞDİR 177
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ RİÇARD ARMİTAC İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ 178
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 178
AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN MİNSKƏ RƏSMİ SƏFƏRİ . 181
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN DİN-İN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 182

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN LİTVA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 184
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORUNU QƏBUL ETMİŞDİR 185
BİRİNCİ AZƏRBAYCAN-RUSİYA İQTİSADİ FORUMUNDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 186
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN ENERGETİKA VƏ SƏNAYE NAZİRİ, RUSİYA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR 189
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR 189
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİNİ QƏBUL ETMİŞDİR 191
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏSİ 191
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ ... 198
RƏSMİ QARŞILANMA MƏRASİMİ 199
PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI 199
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 200
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ 200
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 201
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 201
TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ÇIXIŞI 202
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 203
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİNİ QƏBUL ETMİŞDİR 204
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 204
TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ 205
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 206
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏND ARINÇ İLƏ GÖRÜŞMÜŞDÜR 207
TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 208
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜ QƏBUL ETMİŞDİR 212

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DOĞRU YOL PARTİYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 212
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CÜMHURİYYƏT XALQ PARTİYASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 213
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN 9-CU PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞMÜŞDÜR 213
ANKARADA HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ HEYDƏR ƏLİYEV PARKININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 214
BAŞ MEŞƏSALMA İDARƏSİNİN MÜDİRİ MUSTAFA YÜKSƏLİN ÇIXIŞI 214
ANKARA VALİSİ YƏHYA GURUN ÇIXIŞI 214
ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPENİN ÇIXIŞI 215
KƏND TƏSƏRRÜFATI NAZİRİ SAMİ GÜCLÜNÜN ÇIXIŞI 216
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 217
PREZİDENT İLHAM ƏLİYEVƏ BİLKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU VƏ İHSAN DOĞRAMACI ADINA DÜNYA SÜLH MÜKAFATI TƏQDİM EDİLMİŞDİR 218
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 219
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ TİCARƏT PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 222
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞMÜŞDÜR 222
TÜRKİYƏNİN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ 222
PREZİDENT İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TƏHSİL NAZİRLƏRİNİ QƏBUL ETMİŞDİR 223
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 224
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 225
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR 226
MACARISTAN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR 227
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 227
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ 228

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ GÖRÜŞÜ 228
PREZİDENT İLHAM ƏLİYEV AVROPA İQTİSADİ SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR 229
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 230
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞMÜŞDÜR 231
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ OLMUŞDUR 231
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 231
ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN BƏYANATI 232
CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİ PREZİDENTLƏRİNİN ŞƏRƏFİNƏ İŞGÜZAR NAHAR 232
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 232
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRASBURQA GƏLMİŞDİR 233
PREZİDENT İLHAM ƏLİYEV AŞPA-NIN SƏDRİ PİTER ŞİDER İLƏ GÖRÜŞMÜŞDÜR 233
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞMÜŞDÜR 235
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN YAZ SESSİYASININ İCLASINDA ÇIXIŞ ETMİŞDİR 235
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI KEÇİRMİŞDİR 236
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 237
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI .. 237
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 237
AVROPA SARAYINDA PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ ZİYAFƏT 242
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 10-CU İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 242
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SÜLH KORPUSUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 243
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ VAŞİNQTONA SƏFƏR ETMİŞDİR 244
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 245
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 246

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 246
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL TƏMİNAT NAZİRİNİ QƏBUL ETMİŞDİR 247
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MƏRUZƏÇİSİNİ QƏBUL ETMİŞDİR 248
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 249
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ 250
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİ İLƏ GÖRÜŞÜ 250
AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN ÇIXIŞI 251
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 251
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ GENİŞLƏNMƏ ÜZRƏ ÜZVÜ GÜNTER VERHOGEN İLƏ GÖRÜŞÜ 253
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ LOYOLA DE PALASİO İLƏ GÖRÜŞÜ 254
PREZİDENT İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ Gİ VERHOFSTADT İLƏ GÖRÜŞÜ 254
AZƏRBAYCAN-BELÇİKA SƏNƏDLƏRİNİN İMZALANMASI 255
PREZİDENT İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ 255
BRÜSSELDƏ "DƏDƏ QORQUD" ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ 258
DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ MİŞEL DANENİN ÇIXIŞI 258
GÖRKƏMLİ QAZAX ƏDİBİ, QAZAXISTANIN UNESCO-DAKI DAİMİ NÜMAYƏNDƏSİ OLJAS SÜLEYMENOVUN ÇIXIŞI 259
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 260
PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜ QƏBUL ETMİŞDİR 261
PREZİDENT İLHAM ƏLİYEV KÜVEYTİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 261
PREZİDENT İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİ 262
PREZİDENT İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR 264
PREZİDENT İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ 264
NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI 264

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 265
PREZİDENT İLHAM ƏLİYEV BRÜSSELDƏ SİYASİ BRİFİNQDƏ İŞTİRAK ETMİŞDİR 266
AVROPA SİYASİ MƏRKƏZİNİN RƏHBƏRİ HANS MARTENSİN ÇIXIŞI 266
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 267
SƏFƏR BAŞA ÇATDI 271
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ AVRASİYA ÖLKƏLƏRİNƏ YARDIM ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİNİ QƏBUL ETMİŞDİR 271
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "CASTEL" ŞİRKƏTLƏR QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 272
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "ITOCHU" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 272
BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ VƏ MÜDAFİƏ NAZİRİ YOLÜSTÜ BAKIDA OLMUŞLAR 273
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BÖHRANLAR QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 273
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "AMERADA HESS" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 274
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 275
AZƏRBAYCAN BEYNƏLXALQ TƏŞKİLATLARA SÜRƏTLƏ İNTEQRASİYA EDİR 276
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RUSİYA VAHİD ENERJİ SİSTEMİ" SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 277
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 278
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN SİLAHLI QÜVVƏLƏR KOMİTƏSİNİN SƏDRİ KURT UELDONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 279
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 280
AZƏRBAYCANIN ZƏNGİN MƏDƏNİYYƏTİNİ ƏKS ETDİRƏN ƏSƏRLƏRİN ELEKTRON VARİANTI UNESCO-NUN İNTERNET SAYTINDA YERLƏŞDİRİLƏCƏK 281
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR 281
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 282

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN BİZNES İMKANLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ TƏMSİLÇİSİNİ QƏBUL ETMİŞDİR 283
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 284
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN NEFT VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR 284
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİNİ QƏBUL ETMİŞDİR 285
ENERJİ XARTİYASININ KATİBLİYİ AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR 286
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR 286
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ XƏZƏRİN STATUSU MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR 287
İSRAİL HÖKUMƏTİ DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNDƏ AZƏRBAYCANIN MÖVQEYİNİ MÜDAFİƏ EDİR 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA DÖVLƏT SƏFƏRİ 289
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN TƏKBƏTƏK GÖRÜŞÜ 289
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 289
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 290
UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BƏYANATI 290
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 291
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞÜ 295
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏSİ 296
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 296
UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN NİTQİ 297
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 298
PREZİDENT İLHAM ƏLİYEVİN UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN İLƏ GÖRÜŞÜ 299
KİYEVDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ 300
UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN NİTQİ 300
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 301

AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ 303
KİYEV VİLAYƏTİ DÖVLƏT ADMİNİSTRASİYASININ SƏDRİ ANATOLİ ZASUXANİN ÇIXIŞI 303
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 304
AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 305
UKRAYNA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ OQTAY ƏFƏNDİYEVİN ÇIXIŞI 305
BELARUSDAKI AZƏRBAYCAN İCMASININ SƏDRİ NATİQ BAĞIROVUN ÇIXIŞI 306
MOLDOVA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ MEHMAN İSMAYILOVUN ÇIXIŞI 307
UKRAYNADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏSİ ELBRUS ABDULLAYEVİN ÇIXIŞI 307
KİYEV ŞƏHƏRİ PEÇERSK RAYON RADASININ DEPUTATI VİLAYƏT QULİYEVİN ÇIXIŞI 308
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 308
SƏFƏR BAŞA ÇATDI 312
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 312
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR 314
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MƏDƏNİYYƏT VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİNİ QƏBUL ETMİŞDİR 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 315
ESTONİYADA AZƏRBAYCANA BÖYÜK MARAQ VARDIR 316
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA DÖVLƏT SƏFƏRİ 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 317
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 318
AZƏRBAYCAN-GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ 318
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 319
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI 319
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 320

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANIN SABİQ PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞÜ 324
PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 324
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 324
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 325
TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ GÖRÜŞ 326
AXUND MƏŞƏDİ ƏLİ ƏLİYEVİN ÇIXIŞI 327
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 327
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞLƏR 328
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 329
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ MARNEULİ RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞMÜŞLƏR 329
MARNEULİ RAYONUNUN SAKİNİ FAZİL HƏSƏNOVUN ÇIXIŞI 330
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 332
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 333
AZƏRBAYCAN PREZİDENTİNİN GÜRCÜSTANA DÖVLƏT SƏFƏRİ BAŞA ÇATDI . 333
AZƏRBAYCAN NATO İLƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR 334
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 334
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 335
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ƏDLİYYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR 336
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 337
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 338
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN TƏKBƏTƏK GÖRÜŞÜ 338
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 339
SƏNƏDLƏRİNİN İMZALANMASI 340
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BİRGƏ MƏTBUAT KONFRANSI 341

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 341
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BƏYANATI .. 342
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS "HEYDƏR ƏLİYEV FONDU"NDA OLMUŞLAR 345
YUNANISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 346
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 346
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ 347
AZƏRBAYCAN İQTİSAD UNİVERSİTETİNDƏ GÖRÜŞ 350
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR 352
BAKI SLAVYAN UNİVERSİTETİNİN REKTORU PROFESSOR KAMAL ABDULLAYEVİN ÇIXIŞI 352
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ 354
AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İNZİBATİ BİNASINDA "OLİMPİYA RUHU" SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİ 356
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 356
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ 357
"HYATT PARK" MEHMANXANASINDA ZİYAFƏT 359
YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN NİTQİ 360
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 360
SƏFƏR BAŞA ÇATDI 360
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALMIKİYA PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 360
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 361
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 362
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI .. 363
BEYNƏLXALQ İCTİMAİYYƏT AZƏRBAYCANIN TERRORİZMƏ QARŞI MÜBARİZƏDƏ FƏAL MÖVQEYİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR 364
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏYƏ SƏFƏRİ 364
İSTANBULDA HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ ÜMUMMİLLİ LİDERİMİZİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİ 364
ŞİŞLİ BƏLƏDİYYƏ SƏDRİ MUSTAFA SARIGÜLÜN ÇIXIŞI 365
İSTANBUL VALİSİ MÜƏMMƏR GÜLƏRİN ÇIXIŞI 366

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 367
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ KOMİTƏ SƏDRİNİ QƏBUL ETMİŞDİR 369
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA BUNDESTAQININ KOMİSSİYA SƏDRİ İLƏ GÖRÜŞÜ 370
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 370
RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİRÇA COANENİN ÇIXIŞI 372
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ÇIXIŞI 374
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 378
TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜŞAVİRİ ƏHMƏD DAVUDOĞLUNUN ÇIXIŞI 380
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI 388
İSTANBULDA NATO-NUN ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI 389
AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ 390
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ 391
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ 391
İSTANBULDA GUƏAM DÖVLƏTLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ VI İCLASI KEÇİRİLMİŞDİR 392
NATO-NUN ZİRVƏ GÖRÜŞÜNÜN İKİNCİ İŞ GÜNÜ 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 394
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİR SIRA XARİCİ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ GÖRÜŞMÜŞDÜR 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞÜ 396
ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 396
AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASINA ÜZV OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 396
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 397
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BAKIDAKI SƏFİRİ KLAUS QREVLİXİ VƏ BU ÖLKƏNİN HƏRBİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ EKSPERTİ VİLHELM GERMANI QƏBUL ETMİŞDİR 398
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ 399

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 399
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOSKVANIN MERİ YURİ LUJKOV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 404
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "LA LETTRE DİPLOMATİQUE" JURNALINA MÜSAHİBƏSİ 405
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN YANACAQ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ NAURİZ ŞAKUR XANI QƏBUL ETMİŞDİR 418
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 418
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR 419
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 421
AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 421
AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI 423
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI 424
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 424
PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BƏYANATI 425
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 427
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 427
PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN NİTQİ 428
MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 429
PAKİSTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ ÇIXIŞ ETMİŞDİR 430
MİLLİ MƏCLİSİN SƏDRİ MURTUZ ƏLƏSGƏROVUN ÇIXIŞI 430
PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ÇIXIŞI 431
AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİ FİLARMONİYADA KONSERTDƏ OLMUŞLAR 435
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR 435
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HESABLAMA PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 436
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİNİ QƏBUL ETMİŞDİR 436
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI AVROPA REGİONAL BÜROSUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ

QƏBUL ETMİŞDİR 437

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN KEÇMİŞ SƏDRİNİ QƏBUL ETMİŞDİR 438

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 439

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İTAR-TASS AGENTLİYİNİN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 440

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN QADIN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 441

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 441

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-a İŞGÜZAR SƏFƏRİ 442

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 445

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 446

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 447

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL SƏRHƏD MÜHAFİZƏ XİDMƏTİNİN RƏİSİNİ QƏBUL ETMİŞDİR 447

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKAMIZIN XARİCİ ÖLKƏLƏRDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞÜ 448

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI 448

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 450

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DƏMİR YOLU İNKİŞAF KORPORASİYASI BEYNƏLXALQ TƏŞKİLATININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 457

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA ALİ RADASİNİN İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİ QƏBUL ETMİŞDİR 458

BÜTÜN QÜVVƏLƏR DÖVLƏTİMİZİN DAXİLİ VƏ XARİCİ QÜDRƏTİNİN ARTIRILMASINA YÖNƏLDİLMƏLİDİR 459

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 461

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 462

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 463

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV İRANA SƏFƏR ETMİŞDİR 464

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 465

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 466

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 466

AZƏRBAYCAN-İRAN SƏNƏDLƏRİNİN İMZALANMASI 468

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 469

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 469

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BƏYANATI 470

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 472

XARİCİ İŞLƏR NAZİRLƏRİ AZƏRBAYCAN İLƏ İRAN ARASINDA MÜNASİBƏTLƏRİN DAHA DA MÖHKƏMLƏNƏCƏYİNƏ ƏMİNDİRLƏR 474

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR 474

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 475

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASINDA "RODİNA" FRAKSİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 476

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 477

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 477

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELDİ QƏBUL ETMİŞDİR 478

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNAYA YOLA DÜŞMÜŞDÜR 479

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA "LİDER" TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR 479

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 480

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNA OLİMPİADASININ AÇILIŞ MƏRASİMİNƏ GƏLMİŞ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR 480

AFİNADA XXVIII YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN GÜNÜ KEÇİRİLMİŞDİR 481
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 481
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV OLİMPİYA KƏNDİNDƏ OLMUŞDUR 484
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSLƏ GÖRÜŞMÜŞDÜR 484
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV Sİ-Sİ-AY-Sİ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 485
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV MOSKVAYA ÜÇGÜNLÜK İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 485
XARİCİ İŞLƏR NAZİRİ RUSİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜDÜR 486
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV MOSKVADAKI DANIŞIQLARIN YEKUNLARINDAN RAZIDIR 488
RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNİN DİNAMİK İNKİŞAFI HƏR İKİ ÖLKƏNİN ÜMDƏ MƏNAFELƏRİNƏ UYĞUNDUR 489
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN YEKUN MƏTBUAT KONFRANSI 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNADA YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 491
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AFİNAYA SƏFƏRİ BAŞA ÇATDI 491
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 491
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 492
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA PREZİDENTİ HORST KÖLERİN GÖRÜŞÜ 492
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞÜ 493
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 494
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ KANSLER GERHARD ŞRÖDERİN BİRGƏ MƏTBUAT KONFRANSI 494
ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDERİN BƏYANATI 494
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 495
PREZİDENT İLHAM ƏLİYEV BUNDESTAQIN ALMANİYA-QAFQAZ QRUPUNUN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR 497

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUNDESTAQIN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 497
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 498
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 500
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 505
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ LİQASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 506
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞININ BAŞ MÜFƏTTİŞİ İLƏ GÖRÜŞMÜŞDÜR 507
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİNİ QƏBUL ETMİŞDİR 508
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 508
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR 510
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATIN SƏDRİ KRİSTİAN PONSƏLENİN GÖRÜŞÜ 510
FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ 511
FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSƏLENİN ÇIXIŞI 511
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 512
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA SENATININ TELEVİZİYASINA MÜSAHİBƏSİ 513
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 515
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ 515
UNESCO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI 516
UNESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI 517
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 519
SƏFƏR BAŞA ÇATDI 520
AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DÜŞƏNBƏDƏ KEÇİRİLƏN 8-Cİ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR 520

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 521
ASTANADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ VƏ HÖKUMƏT BAŞÇILARI ŞURALARININ İCLASLARI KEÇİRİLMİŞDİR 522
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ASTANAYA SƏFƏRİ 523
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİNİ QƏBUL ETMİŞDİR 523
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ 523
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞÜ 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ 525
ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN BƏYANATI 525
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 525
MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ 38-Cİ ZİRVƏ GÖRÜŞÜ 526
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 527
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR 528
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MAESTRO MSTİSLAV ROSTROPOVİÇ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 529
BAKIDA UŞAQLARIN PEYVƏND OLUNMASI MƏRASİMİ KEÇİRİLMİŞDİR 530
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 531
MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN ÇIXIŞI 531
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 532
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 533
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB JVANİYANİ QƏBUL ETMİŞDİR 534

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİR İQOR YUSUFOVU QƏBUL ETMİŞDİR 534
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN BAŞ PROKURORUNU QƏBUL ETMİŞDİR 535
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ÜZRƏ XÜSUSİ ELÇİSİ FİLİPP DİMİTROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 536
AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA ƏLAQƏLƏRİN DAHA DA İNKİŞAFI ÜÇÜN YAXŞI ŞƏRAİT VARDIR 537
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASINDA AVROPA TƏŞKİLATLARI FƏAL İŞTİRAK ETMƏLİDİR 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKA SƏFƏRİ 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANXEL MORATİNOS KUYYAUBENİ QƏBUL ETMİŞDİR 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EKSON/MOBİL ŞİRKƏTİNİN PREZİDENTİ TİM SEYKANI QƏBUL ETMİŞDİR 539
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ SOLOMON PASİNİ QƏBUL ETMİŞDİR 539
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-NİN BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞÜ 540
PREZİDENT İLHAM ƏLİYEV SOROS FONDUNUN RƏHBƏRİNİ QƏBUL ETMİŞDİR 540
BMT BAŞ MƏCLİSİ 59-CU SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 541
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 544
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKUN KOLUMBİYA UNİVERSİTETİNDƏ GÖRÜŞÜ 544
KOLUMBİYA UNİVERSİTETİ YER İNSTİTUTUNUN DİREKTORU CEFFRİ SƏKSİN ÇIXIŞI 545
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 546
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CİBUTİ PREZİDENTİ İSMAİL ÖMƏR QULLEH İLƏ GÖRÜŞÜ 554
SƏFƏR BAŞA ÇATDI 554
KİYEVDƏ GUƏAM ÖLKƏLƏRİ PARLAMENT ASSAMBLEYASININ TƏSİS İCLASI KEÇİRİLMİŞDİR 555
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ 557

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KEÇMİŞ ENERGETİKA NAZİRİ, İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ TİM EQQARI QƏBUL ETMİŞDİR 558

AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BOLQARISTANA SƏFƏRİ 558

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RÖYTER AGENTLİYİNİN MDB ÜZRƏ BÜROSUNUN RƏHBƏRİ CONATAN TEÇÇERƏ MÜSAHİBƏ VERMİŞDİR ... 560

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ LİNKOLN BLUMFİLDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 572

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN XARİCİ İŞLƏR NAZİRİ ERKKİ TUOMİOYYANI QƏBUL ETMİŞDİR 573

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 574

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 574

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 574

AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI 576

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI 577

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 577

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI 578

BAKI BİZNES MƏRKƏZDƏ GÖRÜŞ 580

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ 582

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR 584

BAKI SLAVYAN UNİVERSİTETİNİN REKTORU PROFESSOR KAMAL ABDULLAYEVİN ÇIXIŞI 584

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN ÇIXIŞI 587

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 589

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 589

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ 591

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 592

SƏFƏR BAŞA ÇATDI 593

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİ SİYASİ BÜROSUNUN ÜZVÜ, MK KATİBLİYİNİN KATİBİ LYU YUNŞANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 593

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN İTALİYAYA SƏFƏRİ 594

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA RƏSMİ SƏFƏRİ 595

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ 595

AZƏRBAYCAN VƏ RUMİNİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 596

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 597

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ "RUMİNİYA ULDUZU" ORDENİ TƏQDİM OLUNMUŞDUR 598

BİRGƏ MƏTBUAT KONFRANSI 598

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN BƏYANATI 598

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 600

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 602

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN NİTQİ 602

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 604

RUMİNİYA SENATINDA GÖRÜŞ 605

PREZİDENT İLHAM ƏLİYEV RUMİNİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 606

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ PLOYEŞTİ NEFT-QAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİ VƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ADINA TƏQAÜDÜN TƏQDİMATI MƏRASİMİ ... 606

BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞI OLMUŞDUR 607

RUMİNİYA SENATININ ÜZVÜ İOAN POP DE POPANIN ÇIXIŞI 607

RUMİNİYA PREZİDENTİ İON İLİYESKUNUN NİTQİ 608

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 609

BUXARESTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİ 611

AZƏRBAYCANIN RUMİNİYADAKI SƏFİRİ ELDAR HƏSƏNOVUN ÇIXIŞI 611

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 612

AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ VƏ RUMİNİYA-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ 614

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 618

SƏFƏR BAŞA ÇATDI 620

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YAN PETERSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 620

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FİFA-NIN PREZİDENTİ YOZEF SEPP BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 621

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR 622

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRKƏZİ QƏRARGAHI VAŞİNQTONDA YERLƏŞƏN AVRASİYA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 623

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN UKRAYNAYA SƏFƏRİ 624

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜŞAVİRİ, SƏFİR STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 625

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 626

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞÜ 626

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN II QURULTAYINDA İŞTİRAK ETMİŞLƏR 627

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ 627

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 630

PREZİDENT İLHAM ƏLİYEV MDBMİ (U)-NUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 632

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 633

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTAR-TASS AGENTLİYİNDƏ OLMUŞDUR 634

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ELEKTROENERGETİKA ŞURASININ PREZİDENTİ, "RUSİYANIN VAHİD ENERGETİKA SİSTEMİ" SƏHMDAR CƏMİYYƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ ANATOLİ ÇUBAYSI QƏBUL ETMİŞDİR 634

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 636

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYA ŞURASININ MDB İŞLƏRİ ÜZRƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ KONSTANTİN MARKELOVU QƏBUL ETMİŞDİR 636

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN MÜAVİNİ, SƏFİR XANIM LORA KENNEDİNİ QƏBUL ETMİŞDİR 637

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU EDUARD ROSSELİ QƏBUL ETMİŞDİR 639

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇXR-İN XARİCİ İŞLƏR NAZİRİ Lİ ÇJAOSİNİ QƏBUL ETMİŞDİR 639

AZƏRBAYCAN İLƏ ÇİN ARASINDA TEXNİKİ-İQTİSADİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 641

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "KEÇİD DEMOKRATİYALARI LAYİHƏLƏRİ" FONDUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ BRYUS CƏKSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 642

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN AQRAR-SƏNAYE MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏTLƏRARASI ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 643

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 645

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 645

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 646

AZƏRBAYCAN-MOLDOVA SƏNƏDLƏRİNİN İMZALANMASI 647

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 648

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 648

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI 650

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 654

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 655

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ 656

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 656

SƏFƏR BAŞA ÇATDI 657

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ 657

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇLƏ GÖRÜŞÜ 657

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 658

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ PREZİDENT İLHAM ƏLİYEV UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN HƏRBİ PARADI İZLƏMİŞDİR 658

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 659

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ GELA BEJUAŞVİLİNİ QƏBUL ETMİŞDİR . 660

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN XƏZƏRİN İŞLƏNMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVÜ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 660

ATƏT-İN NÜMAYƏNDƏSİ ÖLKƏMİZDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN VƏZİYYƏTİ BARƏDƏ MƏLUMATLANDIRILMIŞDIR..... 662

ESTONİYA AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAF ETDİRİLMƏSİNƏ BÖYÜK MARAQ GÖSTƏRİR..... 662

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİJNİ NOVQOROD VİLAYƏTİNİN QUBERNATORU GENNADİ XODIREVİ QƏBUL ETMİŞDİR 663

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT MƏRKƏZİNİN BƏYANATI 664

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ MONSERRAT KABALYENİ QƏBUL ETMİŞDİR 664

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 665

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ SƏFİR STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 666

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR 666

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN "ÜMUMDÜNYA ƏRZAQ PROQRAMI"NIN AZƏRBAYCANDAKI SABİQ NÜMAYƏNDƏSİ ŞƏRİF AMİN ZAHİRİ QƏBUL ETMİŞDİR 667

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TADAO ÇİNONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 668

ALMANİYA VƏ FRANSA AZƏRBAYCANIN CƏNUBİ QAFQAZ REGİONUNDA SABİTLİYİN QORUNMASINDA MÜHÜM ROL OYNADIĞI FİKRİNDƏDİRLƏR 669

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SANKT-PETERBURQUN QUBERNATORU VALENTİNA MATVİYENKONU QƏBUL ETMİŞDİR 670

AZƏRBAYCAN VƏ SANKT-PETERBURQ HÖKUMƏTLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR..... 673

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ ENERGETİKA ÜZRƏ BAŞ DİREKTORU FRANSUA LAMURUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 674

AVROPA BİRLİYİ "YENİ QONŞULUQ" PROQRAMINDA AZƏRBAYCANIN İŞTİRAKINI YÜKSƏK QİYMƏTLƏNDİRİR..... 675

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA TİBB ELMLƏR AKADEMİYASI ONKOLOGİYA ELMİ MƏRKƏZİNİN BAŞ DİREKTORU MİXAİL DAVIDOVU QƏBUL ETMİŞDİR 676

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ŞİGEO KATSUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 677

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İQTİSADİYYAT ÜZRƏ DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 677

BAKIDA AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU İŞƏ BAŞLAMIŞDIR 680

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF NAZİRİ FƏRHAD ƏLİYEVİN ÇIXIŞI 680

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN ÇIXIŞI..... 681

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 685

BMT-NİN KOMİTƏSİ AZƏRBAYCAN HÖKUMƏTİNİN İKİNCİ DÖVRİ MƏRUZƏSİNİ YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR 690

AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ PRAQA VƏ BERLİN GÖRÜŞLƏRİNDƏ FİKİR MÜBADİLƏSİ APARMIŞLAR 691

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN AQO MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 691

NATO İLƏ FƏRDİ TƏRƏFDAŞLIQ FƏALİYYƏTİ PLANI ÜZRƏ SEMİNAR KEÇİRİLMİŞDİR 691

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞI SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI GENERAL OGÜST VANDELİ QƏBUL ETMİŞDİR . 692

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI ORDU GENERALI FEVZİ TÜRKERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 693

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVERİ QƏBUL ETMİŞDİR 694

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ YOŞİO UTSUMİNİ QƏBUL ETMİŞDİR 695

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN NƏQLİYYAT VƏ RABİTƏ NAZİRİ BİNƏLİ YILDIRIMI QƏBUL ETMİŞDİR 696

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TRT TELEVİZİYASININ SƏDRİ ŞENOL DƏMİRÖZÜ QƏBUL ETMİŞDİR 698

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TELEKOMMUNİKASİYA NAZİRİ ƏVEYS ƏHMƏD XAN LEQARİNİ QƏBUL ETMİŞDİR 698

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ BANQLADEŞ XALQ RESPUBLİKASININ ELM, İNFORMASİYA VƏ RABİTƏ TEXNOLOGİYALARI NAZİRİ ƏBDÜL MOYİN XANI QƏBUL ETMİŞDİR 699

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI RUUD LUBBERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 700

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİ QƏBUL ETMİŞDİR 702

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ 702

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ 703

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 703

"ƏMİRİ-DİVAN" SARAYI İLƏ TANIŞLIQ 703

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR ƏMİRİ HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN GÖRÜŞÜ 703

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 704

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ MİXAİL MARGELOVU QƏBUL ETMİŞDİR 705

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR 706

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ALİ MÜDAFİƏ ELMLƏRİ MƏRKƏZİNİN DİREKTORU PİETRO ERKOLE AQONU QƏBUL ETMİŞDİR 707

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 708

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB YƏHUDİ CƏMİYYƏTLƏRİ FEDERASİYASININ BAŞÇISINI QƏBUL ETMİŞDİR 709

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN BRÜSSELDƏ GÖRÜŞÜ OLMUŞDUR 710

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN DÖVLƏT SƏRHƏDİNİ MÜHAFİZƏ DEPARTAMENTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 710

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "LUKOYL" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 711

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ GÜLDAL AKŞİTİ QƏBUL ETMİŞDİR 712

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVANI QƏBUL ETMİŞDİR 712

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 713

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ KONSTANTİN QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR 713

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN DÖVLƏT ŞURASI SƏDRİNİN MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR 714

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LONDONA İŞGÜZAR SƏFƏRİ 714

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA KRALİÇASININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 714

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜ 715

"CHATHAM HOUSE" KLUBUNDA GÖRÜŞ 715

"CHATHAM HOUSE" KLUBUNUN SƏDRİ LORD HÖRDÜN ÇIXIŞI 715

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 716

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR VƏ MÜDAFİƏ KOMİTƏLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 727

İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİ ADINDAN PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 727

LORD PİTER FREYZERİN ÇIXIŞI 727

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ PATRİK KORNAQIN ÇIXIŞI 728

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 729

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 729

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 730

LONDONDA "AZƏRBAYCANDA TİCARƏT VƏ SƏRMAYƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR 731

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEVİ QƏBUL ETMİŞDİR 731

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN SƏHİYYƏ NAZİRİ MƏSUD PEZEŞKİANI QƏBUL ETMİŞDİR 732

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ VƏ AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR 733

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRİ ƏLİ YUNİSİNİ QƏBUL ETMİŞDİR 734

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB PARLAMENTLƏRARASI ASSAMBLEYA ŞURASININ BAŞ KATİBİ MİXAİL KROTOVU QƏBUL ETMİŞDİR 735

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DİNİ İŞLƏR VƏQFİNİN SƏDRİ PROFESSOR ƏLİ BARDAKOĞLUNU QƏBUL ETMİŞDİR 736

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ NAZİRİ ƏLİ ŞAMXANİNİ QƏBUL ETMİŞDİR 737

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 737

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DAİMİ BEYNƏLXALQ KATİBLİYİNİN BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 738

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ ÖLKƏMİZİN BEYNƏLXALQ MÖVQELƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ XƏTTİNDƏN İRƏLİ GƏLƏN VƏZİFƏLƏRİN YERİNƏ YETİRİLMƏSİNƏ YÖNƏLDİLMİŞDİR 739

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI 743

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 744

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2004-CÜ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 749

MÜNDƏRİCAT 767



T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir	: 29.03.2009
Çapa imzalanmışdır	: 17.04.2009
Format	: 70x100 1/16
Fiziki ç.v.	: 51
(Rəngli şəkillər)	: 1
Tirajı	: 500